BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA

İDEYA MÜƏLLİFİ VƏ BAŞ REDAKTOR
akademik **ZİYAD ƏLİABBAS oğlu SƏMƏDZADƏ**



AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
BAKI – 2012

BÖYÜK İQTİSADİ ENSİKLOPEDİYA

II
EƏFGHXİ

11482



AZƏRBAYCAN İQTİSADÇILAR İTTİFAQI
BAKI – 2012

6592
B 83

Baş redaktorun müavinləri

i.e.d., prof. ***Məmmədhəsən Meybullayev***
i.e.d., prof. ***Amil Məhərrəmov***
i.e.d. ***Elşən Hacızadə***

Redaksiya heyətinin üzvləri

ABBASOV ƏLİ
ABBASOV İBAD
AXUNDOV VAHİD
ALIYEV İSA
ALIŞANOV ARİF
ASLANLI RÜFƏT
ATAKİŞİYEV MÜŞFİQ
BƏŞİROV ELXAN
ÇƏNDİRLİ İSKƏNDƏR
ƏHMƏDOV MƏHİŞ
ƏLƏKBƏROV FÜZULİ
ƏLƏSGƏROV AĞASƏLİM
ƏLİYEV AYDIN
ƏLİYEV NATİQ
ƏLİYEV RAUF
ƏLİYEV ŞAHRZA
ƏMİRASLANOV AZƏR
ƏSƏDOV HEYDƏR
ƏSƏDULLAYEV ÇİNGİZ
HACIYEV ŞƏMSƏDDİN
HƏSƏNOV KƏRƏM
HÜSEYNOV TELMAN
İBRAHİMOV ELDAR
İBRAHİMOV İSLAM
İMANOV KAMRAN
İMANOV QORXMAZ
İSMAYILOV ELDAR
KAZIMLI XANHÜSEYN
KƏRİMOV XOSROV
KƏRİMOV QÜDRƏT
QARAYEV FƏRHAD
QASIMOV SÜLEYMAN
QƏRİBOVA FİRUZƏXANIM
QULİYEV ASİF
QULİYEV ELDAR
QULİYEV RÜFƏT
MƏDƏTOV MANSUR
MƏMMƏDLİ OQTAY
MƏMMƏDOV FAZİL
MƏSİMLİ ƏLİ
MİRZƏYEV SƏFA
MEHBALIYEV SƏTTAR
MÖVSÜMOV ŞAHMAR
MUSAYEV AKİF
MUSTAFAYEV ŞAHİN
MÜSLİMOV SƏLİM
NADİROV ASƏF
NOVRUZOV VAHİD
NURİYEV ƏLİ
PƏNAHOV MUSA
RÜSTƏMOV ELMAN
SADIQOV MİRDAMƏD
SADIQOV ŞAHİN
SƏMƏDZADƏ AYTƏN
SƏMƏDZADƏ ELŞAD
ŞAMİLOVA HÜRÜ
ŞƏRİFOV SAMİR
VƏLİYEV ARİF
VƏLİYEV SAMİR
ZEYNALOV VİDADİ

Böyük İqtisadi Ensiklopediyanın II cildinin hazırlanmasına cəlb edilmiş müəlliflər

akad. Z.Ə.Səmədzadə; akad. A.A.Nadirov; i.e.d., prof. M.X.Meybullayev; i.e.d., prof. E.M. Hacızadə; i.e.d., prof. A.F.Musayev; i.e.d., prof. V.T.Novruzov; i.e.d., prof. Ş.Ə.Səmədzadə; akad. Q.Ş.Məmmədov; i.e.d., prof. X.H.Kazımlı; i.e.d., prof. İ.H.İbrahimov; i.e.d., prof. M.C.Atakişiyev; i.e.d., prof. A.M.Məhərrəmov; i.e.d., prof. N.A.Əliyev; g.m.e.d., prof. E.N.Xəlilov; i.e.d., prof. Q.Y. Əbdülsəlimzadə; t.e.d., prof. K.S.İmanov; i.e.d., prof. R.Ə.Nəbiyev; i.e.d., prof. M.A.Məmmədov; s.e.d., prof. H.M.Rəcəbli; c.e.d., prof. Z.S.Məmmədov; i.f.d. M.A.Mədətov; i.f.d. Ə.T.Zeynallı; i.f.d. İ.D.Abbasov; i.f.d. F.H.Qəribova; i.f.d. X.Ş.Kərimov; i.f.d. F.M.Qarayev; L.V.Abışlı; i.f.d. Q.S.Əlləzov; i.f.d. X.S.Abdullayev; A.Q.Babayev; A.A.Ələsgərov; i.f.d. M.Y.Həmidova; i.f.d. H.S.Şamilova; i.f.d. E.Z.Səmədzadə; i.e.d. X.M.Hüseynova; i.f.d. V.Ə.Rüstəmov; i.f.d. R.R.Əliyev; i.f.d. A.N.Alışanov; R.Ə.Hacıbalayev; T.H.Qurbanova; Ü.V.Bağırova; K.Ə.Əzizova; Z.A.Mirzəyev; i.f.d. M.Q.Məmmədov; R.M.Məmmədov; B.N.Əhmədov; E.M.Hüseynov; i.f.d. A.Q. Ağayev; i.f.d. Q.S.Bayramov; E.H.Bəşirov; T.F.Cavadov; A.H.Mansurov; S.D.Yunusov

Məsləhətçilər

İqtisadi nəzəriyyə, dünya iqtisadiyyatı və milli iqtisadiyyat: L.İ.Abalkin, A.A.Nadirov, V.N.Krasilnikov, A.K.Ələsgərov, M.X.Meybullayev, İ.H.Alıyev, M.A.Əhmədov, M.B.Bağırov, Ə.C.Muradov. **Uçot, audit, statistika, qiymətləndirmə:** S.M.Qasımov, R.A.Səlimov, İ.M.Abbasov, V.T.Novruzov, Q.Ə.Abbasov, C.B.Namazova, Ş.A.Ağabəyov. **Maliyyə fəaliyyəti, dövlət büdcəsi, sığorta və qiymətli kağızlar bazarı:** İ.F.Fətizadə, A.Ə.Bayramov, F.S.Fərəcov, X.İ.Rzayev, N.C.Xəlilov, M.Ə.Məmmədov, V.Z.Zeynalov, V.Ə.Rüstəmov. **Pul-kredit siyasəti, bank fəaliyyəti:** Ç.R.Əsədullayev, E.M.İsmayılov, A.S.Quliyev, C.F.Hacıyev, T.Ə.Paşayev, Z.F.Məmmədov. **Vergi və gömrük məsələləri:** N.Ə.Əmirov, S.N.Ələkbərov, A.Ə.Cahangirov, S.M.Mehdiyev, M.F.Vahabov, Ş.S.Bağırov, Y.A.Kəlbiyev, C.Q.Nuriyev, A.H.Əsgərov, A.Ə.Əşrəfov. **Sahibkarlıq, marketinq və menecment, xidmət sahələrinin iqtisadiyyatı:** R.A.Quliyev, M.Q.Musayev, Z.M.Əzimov, F.H.Şərifov, V.S.Hümmətov, M.A.Məmmədov, F.A.Quliyev, İ.H.İbrahimov, T.E.Əliyev, Q.O.Kərimov, A.H.Səmədov, A.Ə.Əzizov, R.H.Hüseynov. **Sosial siyasət, əhali, urbanizasiya, məşğulluq, miqrasiya, əmək məsələləri:** S.S.Mehbalıyev, A.N.Alışanov, İ.E.Rəhimov, Z.H.Babayev, A.A.Məmmədov, V.Ə. Əfəndiyev, E.L.Mehdiyev, E.M.Hüseynov

Böyük İqtisadi Ensiklopediyanın nəşrə hazırlanması üzrə işçi qrupu

A.Z.Səmədzadə, A.M.Quliyev, H.S.Şamilova, T.H.Qurbanova, M.A.Mədətov, R.Ə.Hacıbalayev, L.V.Abışlı, L.A.Nəbiyeva, A.A.Əhmədov, M.Y. Həmidova, M.B.Oruclu, O.A.Oruclu, R.Z.Baxışov, S.Y.Əlizadə, Y.A.Məmmədova, S.V.Musayeva, A.R.Əhmədova, K.L.Heybətov, M.G.Eyvazova, N.N.Hüseynova, T.R.Acalov, A.E.Namazova

İnkişafın innovasiya mərhələsinə keçilməsi, rəqabətədavamlı milli iqtisadiyyatın formalaşdırılması və inkişaf dinamikasının sürətləndirilməsi başlıca olaraq insan kapitalı ilə bağlı bir çox məsələlərin öz həllini tapmasını, o cümlədən təhsilin dünya standartlarına cavab verməsini tələb edir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Ensiklopediyanın məqsədi – bütün dünya üzrə səpələnmiş biliklərin toplanıb müəyyən sistem halına salınması və müxtəlif təbəqədən olan insanların başa düşdüyü dildə yazılaraq köhnə nəsillərdən yeni nəsillərə ötürülməsidir.

Deni Didro

ÖN SÖZ

İctimai elmlər arasında özünəməxsusluğu ilə seçilən və daim inkişafda olan iqtisad elminin cəmiyyətdə rolunun artmasını, müasir dünyada inkişaf etmiş ölkələrin iqtisadiyyatının mahiyyətini, xarakterini, inkişaf meyillərini və qanunauyğunluqlarını müəyyən edən əsas ideyaların, konsepsiyaların, modellərin, anlayışların, kateqoriyaların və s. öyrənilməsini və istifadəsini asanlaşdırmaq üçün "Böyük İqtisadi Ensiklopediya"nı hazırlayıb nəşr etməyi qərara aldıq.

Bildirmək istəyirəm ki, iqtisadi ensiklopediyanın hazırlanması üçün vacib mənbələrdən hesab edilən iqtisadi lüğətlərin tərtib olunmasına Azərbaycanda hələ XX əsrin əvvəllərindən başlanmışdır. 1907-ci ildə Bakıda Orucov qardaşlarının mətbəəsində Ü.Hacıbəyovun "Türki-rusi və rusi-türki lüğəti" çap olunmuşdur. Maraqlıdır ki, lüğətdə bir çox iqtisadi anlayışların rus dilindən türk dilinə (Azərbaycan dilinə) tərcüməsi ilə yanaşı, həm də qısa təfsiri verilmişdir.

İqtisadiyyat üzrə lüğətlərin hazırlanması işi XX əsrin I yarısının sonlarında və II yarısında daha da genişləndi. K.Marksın "Kapital"ının və digər nüfuzlu əsərlərin Azərbaycan dilinə tərcüməsi iqtisadi terminlər bazasını xeyli gücləndirdi, iqtisadi terminlərə dair bir neçə izahlı lüğətlər nəşr edildi.

XX əsrin 70-ci illərində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin bilavasitə dəstəyi ilə çoxcildli "Azərbaycan Sovet Ensiklopediyası" nəşr edildi. Bu nüfuzlu nəşrdə dünya, SSRİ və respublikamız barədə kifayət qədər geniş məlumatlar öz əksini tapdı. Azərbaycan müstəqillik əldə etdikdən sonra sovet sisteminə xas olan ideoloji məhdudiyyət və qadağaların aradan qaldırılması, milli maraqların qorunması zərurəti, genişlənən inteqrasiya əlaqələri müstəqil Azərbaycanın ensiklopediyasının hazırlanması işinə ciddi təkan verdi.

Cənab İlham Əliyevin imzaladığı tarixi sərəncamda Milli Ensiklopediyamızın qarşısında duran əsas vəzifələr aşağıdakı kimi xarakterizə olunur: "*Bu ensiklopediya öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın yeni dövrdəki tələblərinə cavab verməli, xalqımızın həyatında baş vermiş mühüm tarixi, ictimai-siyasi, elmi və mədəni hadisələri obyektiv surətdə əks etdirməlidir. Bizim yeni ensiklopediyamız azərbaycançılıq ideologiyasının mötəbər daşıyıcısı olmalıdır*".

Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" cildinin nəşri (2007-ci il) ölkəmizin həyatında mühüm bir hadisə kimi qiymətləndirildi. Hər bir azərbaycanlı üçün çox dəyərli töhfə hesab edilən belə sanballı və mötəbər nəşr ölkəmizdə sahə ensiklopediyalarının, o cümlədən hər bir dövlətin, xalqın yaşaması üçün başlıca şərt olan "iqtisadiyyat" sahəsi üzrə müvafiq ensiklopediyanın hazırlanmasını obyektiv zərurətə çevirdi. İqtisadçılar İttifaqı professional mütəxəssislər, iqtisadçı alimlər, nüfuzlu elm mərkəzləri ilə məsləhətləşmələr apardı və işə başladıq...

Redaksiya heyəti nəşrin hazırlanmasında belə bir faktı da əsas götürmüşdür ki, respublikamız müstəqillik əldə etdikdən sonra ölkədə yeni iqtisadi sistemin formalaşması iqtisadi biliklərin bir sıra istiqamətlərinin aktuallığını və əhəmiyyətini köklü surətdə artırmış, sərt inzibati-amirlik sisteminə xas olan, lakin azad bazar münasibətlərinin üstünlük təşkil etdiyi cəmiyyətlərdə özünü doğrultmayan müddəaların, anlayışların, kateqoriyaların geniş şəkildə işıqlandırılmasına ehtiyacı azaltmışdır.

Ensiklopediyanı hazırlayanda dünyanın inkişaf etmiş ölkələrində iqtisadi terminlərə dair nəşr olunmuş lüğətlərdən, statistik külliyyatlardan, beynəlxalq iqtisadi, maliyyə-bank, əmək təşkilatlarının internet resurslarından istifadə olunmuşdur. Burada azad bazar münasibətlərinin geniş vüsət aldığı ölkələrdə istifadə edilən makroiqtisadi tarazlıq, maliyyə sistemi, pul-kredit, qiymətli kağızlar bazarı, tələb, təklif, rəqabət, inhisar, açıq və qapalı iqtisadiyyat problemləri, marketinq, investisiya, menecment, innovasiya, birja, müxtəlif iqtisadi nəzəriyyələr, elmi məktəblər və s. ilə bağlı çoxsaylı anlayışların mahiyyəti açıqlanmışdır.

Bu nəşrdə həmçinin müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin artmasına, qloballaşan dünya iqtisadiyyatına inteqrasiya olunmasına xidmət edən inkişaf strategiyası, azad bazar münasibətlərinin inkişafına və milli maraqlara cavab verən yeni iqtisadi sistemin formalaşmasının elmi-metodoloji əsasları, mahiyyəti barədə konkret fakt və dəlillərə əsaslanan yazılar verilmişdir.

"Böyük İqtisadi Ensiklopediya"da Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri, bazar strukturları və infrastrukturları, aparıcı maliyyə, bank institutları haqqında yığcam məlumatlar öz əksini tapmışdır ki, bu da cəmiyyətdə iqtisadi mədəniyyətin yüksəldilməsi, iqtisadi təhsilin təkmilləşməsi üçün vacibdir.

Razılıq hissi ilə bildirirəm ki, nəşrdə verilən iqtisadi terminlərin əsas hissəsini Azərbaycan dilində işlədilən sözlər təşkil etsə də, bir sıra terminlər beynəlxalq təcrübədə istifadə olunduğu kimi verilmişdir.

Ensiklopediya işıq üzü görənədək iqtisadçı alim və mütəxəssislərlə məsləhətləşmələr aparılmış, əksər məqalələr müvafiq iqtisadi strukturlarda müzakirə olunmuş, yaradıcı heyətin ünvanına Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi, Mərkəzi Bank, Sənaye və Energetika Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Nəqliyyat Nazirliyi, Təhsil Nazirliyi, Hesablama Palatası, Dövlət Gömrük Komitəsi, Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu, Dövlət Sosial Müdafiə Fondu, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Qeyri-Hökumət Təşkilatları Forumu, Beynəlxalq Maliyyə Korporasiyası, İsveçrənin İqtisadiyyat üzrə Dövlət Katibliyi (SECO), Beynəlxalq İqtisadçılar İttifaqı tərəfindən daxil olmuş dəyərli tövsiyə və təkliflər nəzərə alınmışdır. Ensiklopediyada informasiya xarakterli materiallar, şəkillər və xəritələr verilmişdir ki, bütün bunlara görə də Heydər Əliyev Fonduna, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinə, Dövlət Statistika Komitəsinə, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə, Azərbaycan Dövlət Teleqraf Agentliyinə (AzərTac), Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinə, Azərbaycan Marketinq Cəmiyyətinə, Azərbaycan Tarix Muzeyinə öz təşəkkürümüzü bildiririk.

"Böyük İqtisadi Ensiklopediya"nın yaradıcı heyəti görülmüş işlərə öz müsbət münasibətini bildirməklə yanaşı onu da qeyd etməyi vacib sayır ki, 7000-dən çox sözü əhatə edən "Böyük İqtisadi Ensiklopediya" Rusiya Federasiyası istisna olmaqla MDB məkanında milli dildə işıq üzü görən ilk iri həcmli nəşrdir.

"Böyük İqtisadi Ensiklopediya" tələbələr, magistr, doktorantlar, təhsil və idarəetmə sistemində, iqtisadiyyatın müxtəlif sferalarında çalışan müəllimlər və mütəxəssislər, sahibkarlar və investorlar, həmçinin geniş oxucu kütləsi, o cümlədən gələcəyimiz olan məktəblilər üçün nəzərdə tutulmuşdur.

Ensiklopediyanın ərsəyə çatmasındakı xidmətlərinə görə redaksiya heyətinin üzvlərinə, iqtisadi strukturlarda çalışan professional mütəxəssislərə, ensiklopediyanın kompüter, dizayn işlərində, cədvəllərin, qrafiklərin işlənib hazırlanmasında əməyi olmuş bütün insanlara dərin minnətdarlığımı bildirirəm.

İdeya müəllifi və
Baş redaktor **akademik Ziyad Səmədzadə**


E

EFFEKTİV BAZALAR NƏZƏRİYYƏSİ – bu nəzəriyyəyə görə, kapital bazarı hər hansı yeni reaksiya verən, səhmlərin və istiqrazların qiymətlərinin düzgün səviyyəsini tənzimləyən çox həssas və dəqiq informasiya çeviricisidir.

EFFEKTİV ƏMƏK HAQQI NƏZƏRİYYƏSİ – bu nəzəriyyəyə görə, fəhlənin əmək məhsuldarlığının artması ona ödənilən əmək haqqının artması ilə çox sıx bağlıdır.

Effektiv əmək haqqı nəzəriyyəsinin praktik tətbiqi ilk dəfə 1950-ci illərin axırlarında inkişaf etməkdə olan ölkələrdə həyata keçirilir. Sonralar bunun nəticələri aşkar görünmüşdür: zəif işçiyə daha yüksək əmək haqqı ödənilməsi onun daha yaxşı qidalanmasına və beləliklə, daha məhsuldar çalışmasına imkan verir. Bu yaxın vaxtlarda isə həmin nəzəriyyədən inkişaf etmiş ölkələrdə mövcud olan məcburi işsizliyin səbəblərini aydınlaşdırmaq üçün istifadə edilmişdir. Daha yüksək əmək haqqı fəhlələr mühitində mənəvi səviyyənin artmasına və onlarda şirkət qarşısında borc hissinin formalaşmasına gətirib çıxarır, bu isə daha yüksək ixtisaslı işçiləri aşkar etməyə və işburaxma hallarının sayını azaltmağa imkan verir. Hətta müəyyən sayda işçilərin artıq olduğu və onların işdən azad edildiyi resessiya dövrlərində də şirkətlər işçilərin əmək haqqını azaltmır, bu isə təkliflə tələbi tarazlaşdırmağa imkan verir.

Effektiv əmək haqqının formalaşması amilləri



Sxem 1

EFFEKTİV İLLİK FAİZ DƏRƏCƏSİ (*effective annual rate*) – kredit və ya əmanət hesabı üzrə həqiqi faiz dərəcəsi olub, mürəkkəb faizlərin əlavə olunmasını nəzərə alır, ildə bir dəfə ödəniş dövrü olan faiz dərəcəsinə ekvivalentdir.

EFFEKTLƏRİN İYERARXİYASI – marketinqdə istehlakçını mal almağa inandırma prosesində atılan addımların ardıcıllığı. Bu addımlar aşağıdakılar ola bilər: mal haqqında məlumatı olmaq, məmulatla tanış olma, məmulata rəğbət, satıcıya rəğbət, mala üstünlük verilməsi, malı almaq qərarına gəlmək və nəticə kimi məqsədə nail olmaq – malın alınması.

EHTİMAL – təsadüfi hadisənin baş verməsi imkanı.

EHTİYAC MEYARI – əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi

məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan həddi.

EHTİYACLARIN İYERARXİYASI – bu və ya digər ehtiyacların təmin olunmasının ardıcıllığı. A.Maslou nəzəriyyəsinə uyğun olaraq, aşağı səviyyədə (Maslou piramidasının oturacağı) yerləşən ehtiyacların birinci növbədə təmini tələb edilir. Daha yüksək səviyyəli ehtiyacları insana daha aşağı səviyyəli ehtiyaclar təmin edilməndən sonra fəal təsir göstərməyə başlayırlar, ehtiyacların hərəkəti aşağıdan yuxarıya doğru gedir.

EHTİYAT (ZƏMANƏT) AKKREDİTİV (ing. *stand-by letter of credit*) – 1) bank tərəfindən benefisiara sadə tələb (ərizə) əsasında və ya akkreditivin şərtlərinə uyğun sənədlər təqdim edilməklə tələb əsasında müəyyən məbləğdə vəsait ödəmək üçün verilən müstəqil öhdəlik; 2) borc alınmasına köməyin bir forması; bu halda korporasiya öz bankından ehtiyat krediti verən bankın xeyrinə təminat kimi akkreditiv açmağı xahiş edir.

EHTİYAT AKTİVLƏR – dövlətin nəzarətində olan, xarici iqtisadi əlaqələrdə və ölkənin tədiyyə balansının tənzimlənməsində mühüm rol oynayan, dövlətin xarici aktivlərini bildirən makroiqtisadi termin. Ehtiyat aktivlər ölkənin pul-kredit tənzimləmə orqanlarının nəzarətində olan və həmin orqanlar tərəfindən tədiyə balansında kəsiri ləğv etmək məqsədilə birbaşa istifadə edilə biləcək xarici aktivlərindən ibarətdir. Ehtiyat aktivlər kateqoriyasına monetar qızıl, xüsusi borc hüquqları, Beynəlxalq Valyuta Fondunda ehtiyat vəsaitlər və xarici valyuta şəklində aktivlər daxildir.

EHTİYAT ANDERRAYTİNQ – anderraytinqin (bax: Anderraytinq) bu növündə yeni qiymətli kağızları almaq və ya onları köhnələri ilə dəyişmək hüququndan istifadə etdikdən sonra qalmış səhmləri almağa razılaşır.

EHTİYAT DEPOZİTİNƏ GÖRƏ İTKİLƏR – güman ki, sonrakı illərdə ödəniləcək ilin sonundakı ödənilməmiş iddialar üzrə təkrar sığortaçı tərəfindən onun öhdəliklərinin yerinə yetirilməsi üçün sonrakı təminatı sedent şirkətə təqdim etmək imkanı verir.

EHTİYAT FONDU – kommersiya banklarının məcburi qaydada yaradılan və bir qayda olaraq müəyyən edilmiş normativlər əsasında il ərzində, yaxud illik mühasibat hesabatı bankın təsisçilərinin (payçılarının) ümumi yığıncağı tərəfindən təsdiq edildikdən sonra mənfəətdən ayırmalar hesabına yaranan fond. Bankın təsis sənədlərinə əsasən bankın payçılarının birdəfəlik ödənişlərinin ehtiyat fonduna köçürülməsi nəzərdə tutulmuş olarsa, bu cür köçürmələrə də yol verilir. Ehtiyat fondu üçün ayırmalar bankın nizamnaməsində nəzərdə tutulan həcmdə aparılır. Azərbaycan Respublikasının qanunvericiliyinə görə əhali arasında işləyən banklar üçün ehtiyat fondunun həcmi bankın nizamnamə fondunun 10%-dən az ola bilməz.

Ehtiyat fondunun vəsaitləri bankın planlarında nəzərdə tutulmayan əməliyyatlar üzrə xərclərin və yarana biləcək zərərlərin ödənilməsi üçün nəzərdə tutulmuşdur. Ehtiyat fondunun vəsaitləri həm də bankın ödənilmiş nizamnamə kapitalının 10%-dən artıq məbləğdə bankın nizamnamə kapitalının artırılmasına yönəldilə bilər. Xüsusi kapitalın kafilik normativləri hesablanarkən ehtiyat fondunun vəsaitləri birinci səviyyəli kapitala aid edilir.

Səhmdar cəmiyyətində ehtiyat kapital (fond) qüvvədə olan qanunvericiliyə müvafiq qaydada yaradılır və zərərlərin ödənilməsi üçün, eləcə də səhmdar cəmiyyətinin istiqrazlarının ödənilməsi və başqa vəsaitlər olmadıqda onun səhmlərinin girovdan çıxarılması üçün nəzərdə tutulmuşdur. Səhmdar cəmiyyətində ehtiyat fondunun həcmi təşkilatın nizamnaməsi ilə müəyyən edilir, lakin o, nizamnamə kapitalının 15%-dən az ola bilməz. Başqa təşkilatlarda ehtiyat kapitaldan istifadə edilməsi qaydası onların nizamnamələri ilə müəyyən edilir. Ehtiyat fondunun vəsaitləri cəmiyyətin nizamnaməsində müəyyən edilmiş məbləğə çatana qədər bu fonda illik ayırmaların həcmi xalis mənfəətin 5%-dən az ola bilməz. Qanunvericiliyə əsasən ehtiyat fondunun yaradılması nəzərdə tutulmayan təşkilatlarda bu fond xalis mənfəət hesabına yaradıla bilər.

Kommersiya bankları da qiymətli kağızların qiymətdən düşdüyü halda onların məzənnəsinin azalması nəticəsində yaranan zərərləri ödəmək məqsədilə ehtiyat fondu, bankın məsrəflərinə aid edilən və ssudalar üzrə yarana biləcək itkiləri ödəmək üçün ssudalar üzrə ehtiyatlar, eləcə də bankın inkişafı – bank üçün avadanlıq, daşınmaz əmlak alınması və başqa məqsədlər üçün nəzərdə tutulan iqtisadi inkişaf fondları yaradırlar.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə nəzərdə tutulmayan xərclər, təbii fəlakət, digər fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, habelə dövlət və yerli əhəmiyyətli tədbirlərin həyata keçirilməsi üçün məbləği müəyyən edilən ehtiyat fondu yaradılır. Ehtiyat fondunda vəsaitin həcmi növbəti büdcə ilinin gəlirinin 5 faizindən artıq olmamaqla və əvvəlki illərdə bu xərcin faktiki icrası baş verən fövqəladə halların və digər tədbirlərin statistikası nəzərə alınmaqla müəyyən edilir. Dövlət büdcəsinin ehtiyat fondunun vəsaitinin istifadə müddəti büdcə ilinin sonunda başa çatır. Ehtiyat fondunun vəsaitindən istifadə qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti və bələdiyyələr tərəfindən təsdiq edilir.

Ölkənin sosial-iqtisadi həyatı üçün mühüm əhəmiyyət kəsb edən, lakin maliyyələşdirilməsinə vəsait nəzərdə tutulmayan tədbirlər üçün dövlət büdcəsində məbləği büdcə xərclərinin 2 faizindən çox olmamaqla, Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu yaradılır. Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun vəsaiti yalnız Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə müəyyən edilmiş xərclərin maliyyələşdirilməsinə istifadə olunur. Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun vəsaiti ölkədə seçkilərin və referendumların keçirilməsinə, habelə Azərbaycan Respublikası Prezidentinin fəaliyyətinin təbliği məqsədilə xərclənə bilməz.

Cədvəl 1


Ehtiyat fondları

Əsas istehsal fondları	
1. Kimə məxsus olması	– şəxsi – icarəyə götürülmüş
2. İstehsal prosesində qruplar üzrə rolu	
Aktiv hissə	Passiv hissə
a) Maşın və avadanlıqlar: – güc və maşın qurğuları; – iş maşını və qurğuları; – ölçü, tənzimləyici cihaz və qurğular; – laborator avadanlıqları; – hesablama texnikası; – digər maşın və avadanlıqlar. b) Nəqliyyat vasitələri c) Alət ç) İnventar və ləvazimatlar d) Digər əsas fondlar	a) Torpaq b) Binalar c) Qurğular (körpülər, yollar) ç) Ötürücü qurğular (su boruları, qaz boruları və s.)
3. İstifadə vəziyyəti	– istismardadır; – ehtiyatdadır; – dondurulmuşdur.

EHTİYAT NORMALARI – 1) kommersiya bankının depozit öhdəliklərini mərkəzi bankda və ya öz anbarlarında saxlamaq yolu ilə riayət etməli olduğu normativ. Ehtiyat norması ümumi miqdara nisbətən faiz şəklində müəyyən edilir. Ehtiyat norması pul vəsaitləri ehtiyatının və cəlb edilmiş investisiyaların ümumi həcminin faiz nisbətidir. Mərkəzi Bank pul emissiya etmək hüququna malikdir. O, uçot dərəcəsini və ehtiyat normasını hökumətlə razılaşdırmaqla müəyyən edərək ümumi kredit siyasətini formalaşdırır. Pulu dövlət çap edir, kommersiya bankları isə mahiyyət etibarı

EHTİYAT (ZƏMANƏT) KREDİT (ing. *stand-by credit*) – zəruri olduqda şərtləşdirilimiş müddət ərzində alına bilən kredit; başqa kredit əməliyyatlarını dəstəkləmək, həmçinin, xarici hesablaşmalar tarazlığın pozulmasının aradan qaldırılması üçün istifadə olunur.

Maddi ehtiyatların əsas növləri



Sxem 1

ilə pulun tədavülündə vasitəçi funksiyalarını yerinə yetirirlər. Lakin kommersiya banklarının fəaliyyətini təhlil etsək görərik ki, onlar da pul dövriyyəsini artırmaqla pul istehsal edə bilərlər. Mərkəzi Bank kommersiya banklarına, onlar da, öz növbəsində, sahibkarlara kredit verirlər. Lakin bank öz sərəncamında olan bütün pul məbləğini hətta ən yüksək faizlə də kreditə verə bilməz. Bank pulun bir hissəsini ehtiyat kimi saxlamalı və onu Mərkəzi Banka verməlidir. Ehtiyat normasını da Mərkəzi Bank müəyyən edir. Kredit kütləsinin dövriyyə həcmi ehtiyat normativinin qiymətindən və uçot dərəcəsindən asılıdır. Ehtiyat norması və uçot dərəcəsi artdıqda kredit bahalaşır, ona tələb və investisiya fəallığı azalır. Bu tədbir inflyasiya nəticəsində tədavülə pul axınını azaltmaq üçün tətbiq edilir;

2) istehsal təchizatının və ya məhsulun reallaşdırmasının təmini üçün müəssisədə və ya satış-təchizat təşkilatlarında olmalı xammal və materialların hesablanmış minimal miqdarı. Planlaşdırma və təhlil zamanı ehtiyat normasının cari, hazırlıq və sığorta hissələri anlayışı tətbiq edilir. Maksimal, minimal və orta ehtiyat normaları vardır.

EHTİYAT SIĞORTA FONDU – təqvim ili ərzində sığorta məbləğinin sığorta əməliyyatlarından cari daxilolmalarla ödənilmədiyi zaman sığorta ödənişinin və ya bu sığorta məbləğinin ödənilməsi üçün nəzərdə tutulan pul vəsaitləri fondu (bax: sxem 2).

EHTİYAT TƏDBİRİ – sığortada sığortalının mənafeyini qorumaq və ya arzuolunmaz risklərin qarşısının alınması məqsədilə ehtiyat üçün tətbiq olunan fəaliyyət.

EHTİYAT TƏLƏBLƏR (məcburi ehtiyat norması) (ing. *reserve requiremet*) – bankların öz maliyyə sabitliyini təmin etmək məqsədilə öz ölkəsinin Mərkəzi Bankında saxlamağa borclu olduğu depozitlərin müvafiq hissəsi.

Hər bir bank öz fəaliyyətində bəzi müştərilərdən əmanətlər qəbul etmək və başqa müştərilərə müəyyən faizlə kreditlər vermək yolu ilə maksimum məbləğdə mənfəət əldə etməyə çalışır. Eyni zamanda, öz sabitliyini qoruyub saxlamaq üçün bank ona daxil olmuş əmanətlərin bütün məbləğini kredit kimi verə bilməz, çünki əks halda o, müflisləşmə həddinə çatar. XV-XVI əsrlərdə Avropada ilk banklar yarananda onların təsisçiləri (zərgərlər və mübadiləçilər) rezerv (ehtiyat) deyilən toxunulmaz qızıl ehtiyatları yaratmağa başlamışlar.

Ehtiyat əmanətçilərin tələblərini dərhal təmin etmək üçün saxlanan pul məbləğidir. Ehtiyat norması anlayışı rezerv anlayışı ilə sıx bağlıdır.

Ehtiyat norması ehtiyat məbləğinin depozitlərin məbləğinə nisbətidir. Adətən, ehtiyat norması nə qədər yüksək olursa, bankın mənfəəti və tədiyə qabiliyyəti bir o qədər aşağı olur və əksinə.


Aparılmış bank əməliyyatlarının hər vahidinə düşən pul kütləsi həcminin dəyişməsinin hissəsini göstərən pul multiplikatorunun hesablanması zamanı məcburi bank ehtiyatları normasından istifadə edilir. Pul multiplikatorunun qiyməti məcburi ehtiyatlar norması ilə tərs mütənasibdir:

Pul multiplikatoru = $1/R$,

burada R – ehtiyat normasıdır.

Əgər ehtiyat yaradılması qaydası qanunvericilik yolu ilə müəyyən edilməmişdirsə, hər bir bank əldə etdiyi vəsaitlərin hansı hissəsini ehtiyat şəklində saxlamaq lazım olmasını təcrübəsinə əsaslanmaqla özü həll edir. Lakin inkişaf etmiş ölkələrin əksəriyyətində bu səlahiyyət – kommersiya banklarında əmanətlərin hansı hissəsinin Mərkəzi Bankdakı müvafiq hesablarda ehtiyat kimi saxlanmalı olmasını müəyyən etmək səlahiyyəti qanuna əsasən müvafiq ölkənin Mərkəzi Bankına verilmişdir.

Ehtiyat sığorta fondu



Sxem 2

İqtisadiyyatın tənzimlənməsində dövlətin rolu gücləndikcə pul kütləsinin həcmini, bankların likvidliyini və pul bazarını tənzimləmək üçün pul-kredit siyasətinin ən mühüm vasitələrindən biri kimi istifadə edilən ehtiyat tələbinin rolu da dəyişir.

Əgər ölkənin Mərkəzi Bankının mütəxəssisləri biznesin stimullaşdırılmasını iqtisadiyyat üçün zəruri hesab edirlərsə, onda ehtiyat norması azaldılır. Bu halda banklar firmalara və ayrı-ayrı şəxslərə daha çox kredit verə biləcək, onlar daha çox pul xərcləyəcək, bu da, öz növbəsində, satışın həcminin və iş yerlərinin sayının artmasına gətirib çıxaracaqdır.

Əksinə, əgər inflyasiya get-gedə güclənirsə, onda ölkənin Mərkəzi Bankı ehtiyat tələbləri artırır. Bu halda bank öz ehtiyatlarının həcmini artırmağa borcludur, bu isə verilən kreditlərin həcminin azalmasına gətirib çıxarır və öz növbəsində ölkədə məcmu məsrəflərin azalmasına təsir edir.

Beləliklə, ehtiyat tələbinin yaranması və istifadə edilməsi tarixini təhlil edərək, bu tələblərin yerinə yetirdiyi aşağıdakı funksiyaları göstərmək olar: bank müəssisələrinin likvidliyinin saxlanması; pul dövriyyəsinin və bütövlükdə ölkə iqtisadiyyatının tənzimlənməsi.

EHTİYAT TRANŞ (ing. *reserve tranche*) – BVF-də ölkənin kvotasının 25%-i. Bu məbləğ həddində ölkə avtomatik olaraq faizsiz (bəzən həm də qaytarılmayan) ssuda almaq hüququ əldə edir. Ehtiyat kvota dövlətin BVF-yə xüsusi borc hüququ (SDR) şəklində və ya özləri də BVF-də iştirak edən xarici ölkələrin valyutaları şəklində ödəmiş olduğu kvotanın 25%-nə ekvivalentdir. Ehtiyat tranş dövlətin rəsmi ehtiyatlarının tərkib hissəsi hesab edilir və 1978-ci ilə qədər bu, qızıl ilə ödənilirdi. Bununla əlaqədar o vaxta qədər ehtiyat tranşa qızıl tranş deyirdilər. BVF-nin bütün maliyyə alətləri kimi ehtiyat tranş da yalnız ölkənin tədiyə balansı problemlərinin həlli üçün tətbiq edilir və bu tranşın köməyi ilə BVF iştirakçı ölkənin ona yardım göstərilməsi və ya təshihedici tədbirlər görülməsi barədə xahişini yerinə yetirə bilməz. Dövlət öz ölkəsi üçün zəruri maliyyə vəsaitlərini maliyyə kredit tranşlarından əldə edə bilər, bu isə həmin dövləti müəyyən şərtləri yerinə yetirməyə məcbur edir.


BVF iştirakçısı olan ölkələr tərəfindən ehtiyat tranş şəklində köməyin ən çox tətbiq edilməsi 1974-1976-cı illərdə qeydə alınmışdır. Elə həmin dövrdə Amerika hökuməti rekord məbləğdə ehtiyat tranş almışdır.

EHTİYAT (ƏSAS) VALYUTA (ing. *reserve currency*) – 1) başqa dövlətlərin Mərkəzi Banklarının beynəlxalq hesablamalar üçün vəsait ehtiyatları yığdığı və saxladığı ölkənin valyutası; 2) aparıcı dövlətlərin beynəlxalq hesablamalara xidmət üçün istifadə etdikləri, dövlətin, fiziki və hüquqi şəxslərin beynəlxalq tədiyə vasitələrinin komponenti olan, valyuta kurslarının ifadəsi üçün baza kimi istifadə edilən milli kredit pulu; 3) hökumətlər və beynəlxalq təşkilatlar tərəfindən ehtiyatların valyutası kimi istifadə edilən valyuta.

EHTİYATLAR – 1. Yalnız konkret zaman məqamında ölçülə bilən iqtisadi dəyişən göstəricilər, yaxud balansın aktivində əks olunan müəssisənin dövriyyə fondlarının tərkib hissəsi kimi materiallar və məhsullar. Başqa sözlə, ehtiyatların kəmiyyəti zaman davamiyyətinə malik deyil. Ehtiyatlara misal olaraq aşağıdakıları göstərmək olar: qiymətli kağızlar portfelinin nominal və bazar dəyəri, müəssisənin aktivləri və öhdəlikləri (əsas və dövriyyə vəsaitləri, o cümlədən xammal, yardımçı materiallar, yarımfabrikatlar, hazır məhsul, eləcə də nizamnamə və ehtiyat fondları və s.), dövlət borcu, bank əmanətləri və s. Baxmayaraq ki, ehtiyatları yalnız konkret zaman məqamında ölçmək olar, ehtiyatların dəyişməsi axındır və onu dövrə görə qiymətləndirmək mümkündür. Əgər t_1 məqamında istiqrazın ehtiyatı (bazar dəyəri) B_1, t_2 məqamında B_2 təşkil edirsə, ehtiyatların dəyişməsi B_1-B_2-yə bərabərdir və o, $T= t_1- t_2$ dövründə baş vermişdir. Deməli, ehtiyatların dəyişməsinin axın xarakterli olmasını qəbul edərək, onu tənzimləmək lazımdır, ehtiyatların səviyyəsini isə axın kimi dərk etmək və dəyişmək olmaz. 2. Mühasibat uçotunda ehtiyatlar müəssisənin anbarında olan maddi qiymətlilərdir (dəyərlidir). Ehtiyatlardan gələcəkdə istifadə edilməsinə görə istehsal ehtiyatlarını (materialı, dəst malları, kökəltmə məntəqələrindəki mal-qaranı; ənənəvi olaraq bu təsnifat mövqeyinə azqiymətli və tezaşınan predmetlər də aid edilir), hazır məhsul ehtiyatlarını və saxlanmaq üçün qəbul edilən mal-material qiymətliləri fərqləndirmək olar.

İstehsal ehtiyatları onların əldə olunmasının (hazırlanmasının) faktiki dəyəri və ya uçot qiymətləri üzrə sintetik hesablarda əks olunur ki, bunların qismində əldəetmənin (hazırlanmanın) plan maya dəyərindən, orta alqı qiymətlərindən və s. istifadə olunur. İstehsaldan silinən maddi resursların faktiki maya dəyərinin müəyyən edilməsi ehtiyatların qiymətləndirilməsinin aşağıdakı metodları ilə aparılır: orta maya dəyəri üzrə; zamana görə ilkin alqının, yaxud satınalmanın maya dəyəri üzrə (FİFO metodu); zamana görə sonuncu alqının, yaxud satınalmanın maya dəyəri üzrə (LİFO metodu). Bir sıra ölkələrdə (məsələn, Rusiya Federasiyasında) istehsal ehtiyatlarının hərəkətinin təsərrüfat əməliyyatları üzrə ƏDV-ni və mənfəət vergisini (təməmnasız alınmış istehsal ehtiyatları üçün) hesablayırlar.

Müəssisənin ehtiyat modeli



Sxem 3

Azqiymətli və tezaşınan predmetlərə (cisimlərə) müəyyən edilmiş qaydaya uyğun olaraq dövriyyədəki vəsaitlərin tərkibinə daxil olan təsərrüfat inventarları və digər əmək alətləri (məhz dəyərindən asılı olmayaraq bir ildən az xidmət göstərən predmetlər və bəzi istisnalar olmaqla əldə etmə zamanında dəyəri yüz minimum əmək haqqından artıq olmayan predmetlər) aiddir.

Hazır məhsul ehtiyatları müəyyən müəssisə çərçivəsində sonrakı təkrar emala məruz qalmayan məmulat və yarımfabrikatlardır. Müasir şəraitdə hazır məhsulun qiymətləndirilməsinin aşağıdakı növləri tətbiq olunur: ümumtəsərrüfat xərclərsiz faktiki məsrəflər üzrə hesablanan natamam (ixtisar olunmuş) istehsal maya dəyəri üzrə; topdansatış realizə qiymətləri üzrə; plan istehsal maya dəyəri üzrə; ƏDV məbləği qədər artırılan sərbəst buraxılış qiymətləri və tarifləri üzrə; sərbəst bazar qiymətləri üzrə. Topdansatış qiy-

mətlərin, plan maya dəyərinin və bazar qiymətlərindən istifadə edilməsi zamanı ayın axırında faktiki istehsal maya dəyərinin uçot qiymətləri üzrə məhsulun dəyərindən kənarlaşmasını hesablamaq lazımdır.

Təcrübədə aşağıdakılar da fərqləndirilir: valyuta ehtiyatı, təminat ehtiyatı, dövlət ehtiyatı, pul ehtiyatı, torpaq ehtiyatı, dövlət torpaq ehtiyatı, qızıl ehtiyatı, toxunulmaz ehtiyat, normativ ehtiyat, istehlak ehtiyatı, məhsuldar ehtiyat, istehsal ehtiyatı, normativdən artıq ehtiyat, orta ehtiyat, sığorta ehtiyatı, cari ehtiyat, əmtəə ehtiyatı, geoloji ehtiyatlar, keçici ehtiyatlar, mövsümi ehtiyatlar (bax: sxem 3).

EHTİYATLAR HAQQINDA RAZILAŞMALAR (ing. *Standby Agreement;* alm. *Standby Agreement;* ital. *Standby Agreement;* fr. *Stand by*) – BVF ilə onun üzvü olan hər hansı dövlət arasında bağlanan, bu dövlətə fonddan müəyyən məbləğdə və məlum müddətə valyuta almaq hüququ verən razılaşma. Ehtiyatlar haqqında razılaşmalar BVF-nin beynəlxalq valyuta intizamının gözlənilməsindən ibarət olan ümumi vəzifəsi çərçivəsində ən mühüm fəaliyyət istiqamətlərindən biridir. Bu, təşkilatın müvəqqəti çətinliklərlə üzləşmiş üzvlərinə yardım göstərilməsinə xidmət edir.

EHTİYATLAR ÜZRƏ TƏLƏBLƏR – bankların depozitlərə qarşı saxlamalı olduqları ehtiyatların minimum miqdarı üzrə tətbiqi zəruri olan qaydalar.

EHTİYATLARIN SİLMƏRİZASİYASI – müqavilənin fəaliyyət müddəti ərzində akvizisiya xərclərinin qeyri-bərabər bölgüsünü nəzərdə tutan dövri (vaxtaşırı) haqlarla həyat sığortasının uzunmüddətli müqavilələri üzrə riyazi ehtiyatların hesablanması metodu.

EHTİYATLILIQ PRİNSİPİ – Böyük Britaniya üçün səciyyəvi olan standart mühasibat praktikası prinsiplərindən (SSAP) biri. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, dəyər proseduralarının və ya qiymətləndirmələrin alternativləri mövcud olduqda müəssisənin maliyyə vəziyyətinin və onun əldə etdiyi nəticələrin ən ehtiyatlı təsviri seçilir. Daha sonra bu prinsipə əgər müəyyən zərərlər yaranması ehtimalı olduqda onlar hökmən mühasibat hesabatına daxil edilir. Gəlir və mənfəət isə yalnız o halda reallaşdırılmış hesab edilə bilər ki, onlar konkret pul vahidlərində ifadə oluna bilən pul aktivləri forması kəsb etmiş olsun.

EX ANTE PROQNOZU – modellərin parametrlərinin və dəyişən ekzogenin qiymətləri haqqında bu və ya digər fərziyyələrin qiymətləndirilməsi əsasında ekonometrikanın dəyişən endogen modelinin gələcək qiymətlərini qabaqcadan xəbər verməsi.

EX POST PROQNOZU – ekonometrikanın, modelin parametrlərinin və dəyişən ekzogenin keçmiş dövr üçün faktiki qiymətlərinin qiymətləndirilməsi əsasında dəyişən endogenin keçmiş qiymətlərini qabaqcadan xəbər verməsi. Modelin dəqiqliyinin, etibarlığının yoxlanması üsullarından biri hesab edilir, strukturun, dəyişənlərin tərkibinin və parametrlərin qiymətləndirilməsi üsullarının dəqiqləşdirilməsi üçün məlumat verir.

EKKAUNTİNQ (ing. *account* – hesab) – maliyyə informasiyasının yığılması, emalı, təhlili ilə məşğul olan biznes sahəsi.

EKOLOGİYA (yun. *oikos* – məskən, vətən, *loqos* – anlayış, təlim) – orqanizmlərin həyat tərzini və orqanizmdən yüksək canlı sistemləri öz aralarında və ətraf mühitin cansız komponentləri ilə qarşılıqlı əlaqədə öyrənən elm. "Ekos" məfhumunu ilk dəfə ekologiya sözü kimi 1858-ci ildə Q.D.Toro işlətmiş və klassik darvinizm nümayəndəsi Ernest Hekkel tərəfindən 1866-cı ildə elmi dövriyyəyə buraxılmışdır. Uzun müddət ekologiya biologiya sözünün dar mənasında işlənmiş və çox mübahisəli inkişaf yolu keçmişdir. Öncə bitkilərin, canlı orqanizmlərin ətraf mühit problemlərini tədqiqat predmeti seçən ekologiya, karbohidrogen erasının XX əsrdə geniş vüsət alması və bu əsasda insanın təbiətə təsirinin artması fonunda ekosistemin və biosferin bütün qatlarını əhatə edən çağdaş bir elmə çevrilmişdir. Ötən əsrin 70-ci illərində Avroatlantik məkanda sənaye yenidənqurması epoxası ərəfəsində ekologiya predmet spektrini genişləndirərək daha dolğun bəşəri və sosial mahiyyət kəsb etmişdir. Ekologiya bir sıra istiqamətlər üzrə təsnifatlandırılır. Mühitə görə suyun, torpağın və havanın ekologiyası. Sistematikaya görə mikroorqanizmin, göbələyin, bitkilərin və heyvanın ekologiyası. Canlının yaşama yerinə görə çayın, gölün, yeraltı suyun, dənizin, sahilin, tundranın, arktikanın, meşənin, səhranın,

Əsas ekoloji elmlər sistemi



Sxem 1

dağın, adanın, kəndin və şəhərin ekologiyası. Bundan başqa, ekologiya qlobal, hidrosfer, litosfer, atmosfer, biosfer, kosmos və sosioloji təsnifatlandırmaya da məruz qalır.

Ekologiya xarakterli xidmətlər – kənar obyektlər üçün təbiəti mühafizə fəaliyyətinin həyata keçirilməsi üzrə kommersiya, müqavilə və ya ödənişsiz əsasda müxtəlif təşkilatlar (idarələr) tərəfindən reallaşdırılan tədbirlər. Statistikada ekologiya xarakterli xidmətlər təbiəti mühafizə fəaliyyəti növlərinin xüsusi təsnifatı əsasında tənzimlənir.

Ekoloji ekspertiza – təsərrüfat və digər fəaliyyətin cəmiyyət üçün ekoloji təhlükəsizliyinə uyğunluğunu yoxlamaq məqsədilə keçirilən ekspertiza (dövlət və ictimai). Dövlət ekoloji ekspertizası ətraf təbii mühitin qorunmasının vacib tədbiridir. Bu tədbirlər dövlət və ya yerli təyinatlı obyektlərdə qüvvədə olan qanunvericiliklə tənzimlənir. Nəticələrin elmi və qanuni əsaslandırılmasında, təşkilində və nəticələrin elan edilməsində idarəçilik yuxarı təşkilatlardan asılı olmadan, cəmiyyətin iştirakı prinsipləri ilə həyata keçirilir. Layihə və proqramların maliyyələşdirilməsi və həyata keçirilməsi yalnız dövlət ekoloji ekspertizasının müsbət rəyi olduqda mümkündür. İctimai ekoloji ekspertiza elmi kollektivlər, ictimai birliklər tərəfindən onların təşəbbüsü ilə keçirilir və nəticələri müvafiq dövlət ekoloji ekspertiza təşkilatlarının təsdiqindən sonra hüquqi cəhətdən əsaslandırılmış olur.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Siyasi ekologiyanın tipik modeli

EKOLOJİ SİYASƏT

Ekoloji siyasətin əsaslandırılması

Daxili fəaliyyət

Müəssisə və təşkilatın rəhbərlərinin motivasiyası

Ekoloji siyasətin işçi variantının hazırlanması

Rəhbərlik və personalın işlənilən ekoloji siyasəti və öhdəlikləri barədə

Rəhbərlik və personal tərəfindən qeydlərin, təklif və tövsiyələrin aşkarlanması və uçotu

Ekoloji siyasətin və öhdəliklərin işlənib başa çatdırılması

Rəhbərlik tərəfindən düşünülmüş şəkildə ekoloji siyasətin planlaşdırılan dövr üçün vəzifələrinin qəbul edilməsi

Xarici fəaliyyət

Müvafiq informasiyanın hazırlanması, maraqlı şəxslər və tərəflər arasında yayılması

Ekoloji siyasətin və öhdəliklərin işçi variantının maraqlı şəxslər və tərəflərlə müzakirəsi

Ekoloji siyasətin və öhdəliklərin işlənib başa çatdırılması zamanı konkret tövsiyələrlə bağlı ictimai rəyin aşkarlanması və uçotu

Müəssisə tərəfindən qəbul edilmiş ekoloji siyasət və öhdəliklərin çoxaldılaraq yayılması

Sxem 2

Ekologiya elmləri sistemində ekologiya fənni

EKOLOGİYA

Ümumi ekologiya
Nəzəri ekologiya
Riyazi ekologiya
Ekoloji sistemlərin və proseslərin modelləşdirilməsi
Eksperimental ekologiya

Bioekologiya
Sistemli orqanizm qruplarının ekologiyası: növ, ailə, sinif, tiplərin (bakteriyalar, göbələklər, bitkilər, heyvanlar) ekologiyası
Təbii biosistemlərin ekologiyası: bioloji fərdlərin ekologiyası, qrupların ekologiyası, çoxnövlü birliklərin – biosenozların ekologiyası, biogeosenologiya
Təkamül ekologiyası
Biosfer haqqında təlim

Geoekologiya

Geosferin və orqanizmlərin təbii yaşayış mühitinin bir hissəsinin ekologiyası
Biocoğrafi sahələrin, təbii zonaların, biomların ekologiyası
İqlimşünaslıq: Regionların, ölkələrin, kontinentlərin ekologiyası

İnsan ekologiyası
İnsan bioekologiyası: Homo sapiens təkamül ekologiyası və müasir antropogenez
Sosial ekologiya: şəxsiyyət, ailə, sosial qrup ekologiyası
Tələbatlar ekologiyası
Etnosların və etnogenezin ekologiyası
Demoqrafik ekologiya
Bəşəriyyət ekologiyası

Tətbiqi ekologiya
Mühəndis ekologiyası – sənaye, tikinti, nəqliyyat; ekoloji erqonomika
Kənd təsərrüfatı ekologiyası – aqroekologiya, kənd təsərrüfatı heyvanları ekologiyası
Bioresurs və mədən ekologiyası
Kommunal ekologiya
Tibbi ekologiya
Ekologiyanın təbiətin və insanın ətraf mühitinin mühafizəsi praktikasına tətbiqi
Təbiətdən istifadənin ekoloji iqtisadiyyatı

Sxem 3

BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ

Funksiya	Təminat mexanizmi	"+" meyillər	"-" meyillər
1	2	3	4
Resurslara qənaət və onların bərpası	Tullantıların menecmenti: xammal və enerji qiymətlərinin artması, əmanətlərin və materialın texnologiyalarının yaradılması	Dövlətin xammal və energetikadan asılılığı, yataqların işlənməsi və xammalın daşınması üçün vəsaitlərin azalması	Varlı dövlətlər tərəfindən yüksək təmiz xammalın alqısı, yüksək təmiz xammal bazarının bölüşdürülməsi ("xammal müharibələri"), xammal regionlarında məşğulluğun xarici resursqoruyucu texnologiyalardan asılılığı
Geniş istehlak malları bazarının təkrar istehsalı	Ekoloji menecment: İnsanların və canlıların sağlamlığı üçün təhlükə mənbələrinin axtarışı hesabına əmtəənin (çeşidin dəyişməsinin ekoloji motivasiyasının) ÇDEM-in işlənib hazırlanması	Malların ənənəvi növlərinin yenidən istehsalı, böhranın qarşısının alınması, yeni mallar bazarının formalaşması	Ətraf mühitin çirklənməsi səbəbindən cəmiyyətdə süni gərginliyin artması
Texnologiyalar bazarının təkrar istehsalı	Təmizləmə texnologiyaları və nəzarət cihazları bazarının yaradılması	Kimya, maşınqayırma və cihazqayırmanın inkişafı	Təmizlənməyə çəkilən xərclər hesabına istehsalın rentabelliyinin azalması, bahalı ekoloji aparatların satışının lobbiləşdirilməsi
Daşınmaz əmlakın qiymətləndirilməsi	Ekoloji audit	Daşınmaz əmlakın dəyəri və ətraf mühitin ekoloji keyfiyyətinin istehsalla əlaqəsi	Daşınmaz əmlakla alver və ədalətsiz rəqabət üçün auditin nəticələrindən istifadə mümkünlüyü
İnvestisiya siyasəti	Maliyyələşdirmə imkanlarının ekoloji auditin nəticələri ilə əlaqəsi	Ekoloji audit əsasında investisiyaların tənzimlənməsi hesabına çirkli istehsalların bağlanması və ya modernləşdirilməsinin mümkünlüyü	Ekoloji auditdən sonra investisiyaların dayandırılması hesabına ölkənin inkişafı üçün mühüm sahələrin dağılması mümkünlüyü. Rəqiblərin maraqları ilə müəyyən olunan modernləşdirmə üçün vəsaitlərin təqdim edilməsinin seçkili siyasəti
Bazarın idarə edilməsi	Rəqabətin stimullaşdırılması hesabına mallarda və istehsal axınlarında ÇDEM-i dəyişdirən zərərli maddələrin tərkibi haqqında dövlət normativlərinin tətbiqi	Azad rəqabət şəraitində malların növbə sürətinin qaydaya salınması, sənaye sahələrinin proporsional inkişafı	Yeni tip "ekoloji bürokratiya"nın meydana çıxması hesabına idarəetmə bürokratlaşmasının güclənməsi

EKOLOGİYANIN FUNKSİYALARI

1	2	3	4
Maliyyələrin sabitləşməsi	Əlavə emissiyasız kapitalın dövriyyəsinin artması (tələbin genişləndirilməsi hesabına)	İnflyasiyanın sürətinin aşağı düşməsi	Xammal ölkələri ilə müqayisədə inkişaf etmiş ölkələrin valyutasının güclənməsi
İnhisarçılığın səviyyəsinin saxlanması	İri layihələrin dövlət ekoloji ekspertizası	Uzunmüddətli layihələr üçün maliyyə resurslarının yığılması, mühüm sahələrə dövlət nəzarəti	"Üçüncü dünya" ölkələrinin kapitallarının industrial dövlətlərin sənaye və tikintisinə buraxılmaması
Bazarın qorunması	Malların ekoloji sertifikasiyası	Yerli istehsalçılar üçün bazarın genişləndirilməsi mümkünlüyü	Üçüncü dünya ölkələrinin mallarının Qərb bazarına buraxılmaması
Rəqiblərin ortadan götürülməsi	Malların ekoloji keyfiyyəti üzrə beynəlxalq ekoloji müqavilələr	Yerli məhsulların ekoloji standartlarının dünya standartlarına yaxınlaşdırılması	Yerli istehsalçıların, hətta, daxili bazardan sıxışdırılıb çıxarılması
Elmin inkişafı	ÇDEM malların axtarışının vəzifələri və strategiyalarının qoyuluşu	Maliyyələşmənin bazar proseslərinə bağlanması hesabına elmin proporsional inkişafı	Elmin kommersiyalaşdırılması, cəmiyyətdə elmi nəticələrə və proqnozlara inamsızlığın doğması
Təhsilin inkişafı	Təsərrüfatın müxtəlif sahələrində ÇDEM malların axtarışı üzrə mütəxəssislərin hazırlanması	Ali təhsil sisteminin proporsional inkişafı	Neqativ ekoloji proqnozların gənclərin formalaşmamış psixikasına təsiri
KİV-in, reklamın inkişafı	Malların ÇDEM-in translyasiyası	KİV üçün yeni hadisələrin yaradılması, əhalinin ekoloji maarifləndirilməsi	Əhalinin psixikası ilə informasiya manipulyasiyasının mümkünlüyü, onun peşmançılıq və ya apatiyaya çatdırılması
Elektoratın stratifikasiyası	Ekoloji hərəkatları dəstəkləyən müxtəlif təbəqələrin stratlarının ayrılması	Ətraf mühit naminə müxtəlif sosial təbəqələrdən olan insanların birləşməsi	Ekoloji hərəkatların siyasiləşdirilməsi, populizmə səmərəli ekoloji siyasətdən daha artıq üstünlük verilməsi
Demoqrafik sabitlik	Populyasiyanın üzə çıxarılan artım asılılıqlarının cəmiyyətə ötürülməsi. Uşağın böyüməsinə olan və orta doğumu müəyyən edən məsrəflərin orta məbləğinin tənzimlənməsi	Təbiət birliklərinin timsalında əhali tərəfindən resursların istehlakının yeni imkanlarının aşkar edilməsi. Doğumun dövlətlərin iqtisadi inkişafı ilə əlaqəsi	Beynəlxalq ekoloji təşkilatların üçüncü dünya ölkələrinin depopulyasiyasında marağı, depopulyasiyanın "elmi" əsaslandırılmasının təbliği
Geosiyasi sabitlik	Beynəlxalq ekoloji dəniz hüququnun köməyilə dünyanın bütün akvatoriyalarına beynəlxalq nəzarət	Akvatoriyaların və dəniz ticarət yollarının bölüşdürülməsi hesabına dünyanın bölüşdürülməsi təhlükəsinin olmaması	Dəniz ticarət yolları uğrunda qüdrətli dövlətlərin və şirkətlərin rəqabət mübarizəsi üçün ekoloji dəniz hüququndan istifadə

Ekoloji auditin mərhələləri



Sxem 4

Ekoloji fondlar – təbiətin qorunması məsələlərinin həlli, itkilərin bərpa edilməsi, vurulan ziyanın kompensasiya edilməsi və s. təxirəsalınmaz işlər üçün yaradılmış qeyri-büdcə fondları. Dövlət, ölkə, respublika və yerli fondlar ekoloji fondun vahid qeyri-büdcə sistemini təşkil edir. Fondlar – ətraf təbii mühitə atılan və tökülən zərərli maddələrə, tullantıların və çirklənmənin digər növlərinin yerləşdirilməsinə görə müəssisə, idarə, təşkilatlardan, həmçinin xarici hüquqi və fiziki şəxslərdən ödəniş formasında daxil olan vəsaitlər hesabına yaradılır. Buraya həm də təbiətin qorunması haqqında iddialar (tələblər) üzrə məbləğlər daxildir: cərimələr, qaçaqmalçılardan müsadirə edilən təchizat və məhsulların satışından əldə olunan vəsaitlər; əmanətlərə, bank depozitlərinə, fondun öz vəsaitlərindən müəssisənin iş fəaliyyətində istifadəsinə görə faizlər, daxil olan xarici valyutalar və s. Ekoloji fondda olan vəsaitlər xüsusi bank hesablarına köçürülür və yerli, ölkə və dövlət ekoloji fondları arasında müəyyən faiz nisbətində paylanır. Ekoloji fonddan vəsaitlər – sağlamlaşdırma və ətraf təbii mühitin qorunması üzrə tədbir və proqramların həyata keçirilməsinə, təbii ehtiyatların təkrar istehsalına, elmi axtarışlara, ekoloji təmiz texnologiyaların tətbiqinə, təmizləyici qurğuların tikintisinə, zərərin ödənilməsi üçün kompensasiyaların ödənişlərinə və s. xərclənir.

Ekoloji-iqtisadi tənzimləmə – ümumiqtisadi vasitələrin istifadəsinin üstünlük təşkil etməsi ilə təbiətdən istifadənin yaxşılaşdırılmasına və ətraf təbii mühitə mənfi təsirin azaldılmasına yönəldilmiş tədbirlər kompleksi. Ekoloji iqtisadi tənzimləmə, paralel olaraq, inzibati tənzimləmə üsulları (qadağanedici-məhdudlaşdırıcı) ilə qüvvədə olan qanunvericilik çərçivəsində sıx əlaqədə olduğu kimi təhsil və maarifçilik, məlumat, təbliğat və digər ekoloji fəaliyyətdə gücləri uzlaşdıran beynəlxalq kooperasiyalar çərçivəsində də sıx əlaqəlidir.

Ekoloji-iqtisadi tənzimləməyə daxildir: 1) ətraf mühitə mənfi təsir göstərən müəssisə və fiziki şəxslərə qarşı yönəldilmiş, vurduqları ekoloji zərərin əvəzinin ödənilməsinə, təbiətin qorunması haqqında qanunvericiliyin pozulmasına görə cərimələr yolu ilə tətbiq olunan tədbirlər; 2) müəssisələrə (təşkilatlara), həmçinin ayrı-ayrı vətəndaşlara, təbiəti qoruyucu tikililərin və s. tikintisində və yenidən qurulmasında onlar tərəfindən az tullantılı və ya təbii ehtiyatlara qənaət edən texnologiyaların tətbiqi zamanı verilən kredit və digər güzəştlər, ekoloji ödənişlərin təxirə salınması və azaldılması yolu ilə təbiətin qorunması tədbirlərinin həvəsləndirilməsi.

Ekoloji-iqtisadi tənzimləmənin tərkib hissəsi təbiətin qorunması fəaliyyətinin səmərəli dövlət planlaşdırılmasının və maliyyələşdirilməsinin təşkili, o cümlədən ümumdövlət və regional məqsədli proqramların təşkilidir. Statistika təcrübəsində ekoloji-iqtisadi tənzimləmə ekoloji xərc və ödənişlərin miqdarı, həmçinin təbiətin qorunmasında onların səmərəliliyi haqqında məlumatların yığılması və təhlili ilə həyata keçirilir.

EKOLOGİYA VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRLİYİ – 2001-ci ildə Dövlət Ekologiya və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Komitəsi, "Azərmeşə" İstehsalat Birliyi, Geologiya Komitəsi, "Azərbalıq" Dövlət Konserni və Dövlət Hidrometeorologiya Komitəsi bazasında yaradılmışdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Əsas vəzifələri ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində tə-



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası

Ölkədə iqtisadiyyatın inkişafı və əhalinin sosial-mədəni səviyyəsinin yüksəldilməsi ilə yanaşı, təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji tarazlığın qorunması dövlətin daim diqqət mərkəzindədir. Bununla əlaqədar olaraq son illər ekologiyaya, təbiəti mühafizəyə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair bir sıra normativ hüquqi aktlar qəbul edilmiş, təbiətin qorunması və sağlamlaşdırılması sahəsində mühüm praktik addımlar atılmışdır. Bir sıra iri su hövzələri tikilmiş, torpaqları şoranlaşmadan təmizləmək üçün drenaj sistemləri qurulmuş, Bakı şəhərində və onun ətrafında çoxlu yaşıllıqlar, Xəzərsahili qumluqlarda sahil bərkidici və torpaqların eroziyasının qarşısının alınması məqsədi ilə meşə örtüyü zolaqları salınmış, flora və faunanın qorunub saxlanması və inkişaf etdirilməsi üçün bir sıra Təbiət Qoruqları və Yasaqlıqları yaradılmışdır.

Lakin bu sahədə hələ də ciddi problemlər qalmaqda davam edir. Ölkədə meşələrin qırılması nəticəsində, onsuz da az olan meşə örtüyünün torpaqqoruyucu, susaxlayıcı, havatəmizləyici kimi vacib sanitariya-gigiyena və sosial-ekoloji funksiyası xeyli dərəcədə zəifləmişdir. Bəzi qiymətli ağac və kol növlərinin ehtiyatı tükənmək təhlükəsi qarşısında qalmışdır. Yaylaqlardan qeyri-səmərəli istifadə olunması onların geniş ərazidə sürətlə eroziyaya uğramasına və bitki örtüyünün məhv olmasına səbəb olmuşdur. Digər tərəfdən, son illərdə ölkədə baş vermiş təbii hadisələr ətraf mühitə ciddi ziyan vurmuşdur. Odur ki, ölkədə təbiətin mühafizəsi, bioloji müxtəlifliyin azalmasının və ətraf mühitin çirklənməsinin qarşısının alınması məqsədi ilə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi böyük sosial-iqtisadi əhəmiyyət kəsb edir.

Heydər ƏLİYEV

bii sərvətlərin, yerin təkinin geoloji öyrənilməsi, istifadəsi, bərpası, mühafizəsi, bioloji müxtəlifliyin qorunub saxlanılması, suların bioloji sərvətlərindən, mineral xammal ehtiyatlarından, meşələrdən səmərəli istifadə edilməsi, meşə təsərrüfatı fəaliyyətinin artırılması sahəsində dövlət siyasətinin həyata keçirilməsi, habelə ekologiya, təbiətdən istifadə, geologiya və faydalı qazıntılar üzrə müvafiq milli fəaliyyət proqramlarını hazırlamaqdan ibarətdir. Ətraf mühitin qorunması ilə bağlı, o cümlədən radioaktivlik, hidrometeoroloji proses və hadisələrə fəal təsiri həyata keçirir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi təbiəti mühafizə və təbiətdən istifadə sahəsində ekoloji normaları və standartları müəyyənləşdirir; təbii mühit obyektlərinin çirklənməsinə nəzarət sahəsində metodoloji rəhbərliyi həyata keçirir; ölkədə qoruq işinə rəhbərlik edir; yeger xidmətini, meşə təsərrüfatı və ovçuluq işlərinin aparılmasını, meşə bitkiləri toxumçuluğunun inkişafını təmin edir; milli parkların, təbiət abidələrinin, digər xüsusi mühafizə olunan ərazilərin və təbii obyektlərin yaradılmasına dair təklifləri hazırlayır, bu ərazilərin idarə edilməsini və bu ərazilərdə ekologiya və təbii sərvətlər haqqında qanunvericiliyin həyata keçirilməsinə diqqət yetirir.

EKOLOJİ AUDİT (*ekoaudit*) – müəssisədə ətraf mühitin qorunması vəziyyətinin obyektiv, müntəzəm, sənədləşmiş və daim təkrarlanan yoxlanması. Ekologiya sahəsində müəssisə qarşısında duran məqsədlərlə həmin müəssisənin əldə etdiyi nəticələrin müqayisəsi əsasında aparılır. Ekoaudit ekoloji menecmentin tərkib hissəsidir. Bu istiqamətlərə aiddir: enerji və xammal xərcləri, istehsal texnologiyası və məhsul buraxılışı, məhsulun göndərilməsi və satışı, nəqliyyat, bütün növ tullantılar (sənaye tullantılarından tutmuş qablaşdırma materiallarına qədər). Ekoaudit ideyası, yəni müəssisədə ekoloji menecmentin təftişinin məcburi proseduru ilk dəfə 1970-ci illərin ortalarında ABŞ-da irəli sürülmüşdür. Lakin onun praktik reallaşması 1993-cü ildə Avropa İttifaqının (Aİ) "Ekoaudit haqqında qərar" adlanan sənəddə öz əksini tapmışdır. "Ekoaudit haqqında qərar" Avropa İttifaqı dövlətlərinin ərazisində olan sənaye müəssisələri üçün qanun qüvvəsinə malikdir. Bu, müasir Avropada ekologiya sahəsində əsas hüquqi sənəddir. Yaxın gələcəkdə

Azərbaycan Respublikası hazırda iqtisadi yüksəliş dövrünü yaşayır. Ölkənin geniş sosial-iqtisadi islahatlara söykənən ümumi inkişaf konsepsiyasında ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqın rifahının yaxşılaşması naminə istifadəsi məsələləri mühüm yer tutur.

Son illər iqtisadiyyatın, o cümlədən mədənçıxarma və emal sənayesi sahələrinin, tikinti kompleksinin sürətli inkişafı ətraf mühitə antropogen təsirin artması ilə müşayiət olunur. Belə ki, ayrı-ayrı regionlarda torpaqların, su hövzələrinin və atmosferin çirklənməsi yol verilən normativ göstəricilərdən yüksəkdir, eyni zamanda, içməli şirin suyun azalması, meşələrin seyrəkləşməsi, torpaqların eroziyası, sürüşmə və səhralaşma prosesləri fəallaşmışdır. Abşeron yarımadasında, Kür-Araz ovalığında, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Əli Bayramlı kimi sənaye mərkəzlərində ərazilərin neft, neft məhsulları, aqrokimyəvi maddələr və məişət tullantıları ilə çirkləndirilməsi halları güclənmişdir. Sənaye və məişət tullantı sularının ətraf ərazilərə axıdılması Abşeron yarımadasında süni gölməçələrin sayını artırmış və mövcud göllərin sahəsini xeyli genişləndirmişdir. Antropogen təsirlər nəticəsində meşə massivlərinin azalması və təbii biosenozların yoxa çıxması təhlükəsi yaranmışdır.

Ölkədə ətraf mühitə mənfi təsir edən amillərin qarşısının alınması və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün bir sıra vacib tədbirlər həyata keçirilməli, o cümlədən Xəzər dənizinin sahilboyu zolağında, Abşeron yarımadasında və ölkənin digər regionlarında su hövzələrinin, havanın, torpağın təbii keyfiyyətinin bərpa olunması üçün tullantı suları təmizlənməli, kanalizasiya şəbəkələri yenidən qurulmalı, çirklənmiş torpaqlar rekultivasiya edilməli, geniş sahələrdə meşələr və yaşıllıqlar salınmalı, abadlaşdırma işləri aparılmalı və digər zəruri tədbirlər həyata keçirilməlidir.

İlham ƏLİYEV


Azərbaycan Respublikasının Prezidenti

o, Avropa banklarını, sığorta şirkətlərini, turist firmalarını, nəqliyyatı, ticarəti də əhatə edəcəkdir.

Ekoaudit müəssisədə bir neçə mərhələdən keçir. Daxili auditorlar ətraf mühitin qorunması üzrə işlənib hazırlanmış strategiya və proqram əsasında ətraf mühitin qorunması vəziyyətinin vaxtaşırı (üç ildə bir dəfə) yoxlanılmasını həyata keçirirlər. İşlərin həqiqi vəziyyətinin ekoloji qanunvericiliyin və cəmiyyətin irəli sürdüyü tələblərə, eləcə də qarşıya qoyulan məqsədlərə uyğun gəlməsi araşdırılır. Nəticələr cəmiyyəti məlumatlandırmaq üçün nəzərdə tutulan ekoloji bəyannamədə dərc olunur. Ekoloji menecmentin bütün sisteminin düzgünlüyü və bütövlüyü son olaraq kənardan dəvət olunmuş ekoaudit tərəfindən yoxlanılır. Onun müsbət rəyi əsasında müəssisə ekoloji menecment sistemində iştirakı haqqında sertifikat alır. Bu sənəd müəssisənin nüfuzunu möh- kəmləndirir, onun daha əlverişli kreditlər və sığorta alması üçün şərait yaradır, onun rəqabət qabiliyyətini yüksəldir. Avropa İttifaqı tərəfindən qəbul edilən ekoaudit proseduru dövlət tənzimlənməsini müəssisənin könüllü, dərk edilmiş özününəzarəti ilə əlaqələndirir. Bu zaman ekoloji menecment sisteminin iştirakçısı olan müəssisə qarşısında irəli sürülən tələblər onun bütün işgüzar tərəfdaşlarına və məhsul göndərənlərə, o cümlədən Avropa İttifaqından kənarda yerləşənlərə şamil olunur.

EKOLOJİ MENECMENT – 1. Sənaye müəssisəsinin ətraf mühitin çirklənmədən qorunması və təbiətdən səmərəli istifadə edilməsi üzrə fəaliyyətinin idarə edilməsi. 2. İdarəetmənin bütün səviyyələrində: müəssisələr, regionlar, ölkələr, dünya birliyi səviyyəsində ekoloji tənzimləmə – təbiətin mühafizəsinin tənzimlənməsi sisteminin tərkib hissəsi. Ekoloji problemlərin kəskinləşdiyi şəraitdə ekoloji menecment yaşayış mühitinin qısa müddətdə və uğurla sanasiya edilməsinin ən mühüm şərtidir. Müəssisədə ekoloji me-

Ekoloji menecment sisteminin tətbiqi və fəaliyyəti mərhələləri




Sxem 1

necmentin yaradılması bir neçə mərhələdən ibarətdir. Birinci mərhələdə ətraf mühitə və onun vəziyyətinə göstərilən təsirlər aşkar edilir və qiymətləndirilir. Sonra toplanmış məlumatlar əsasında və ətraf mühitin qorunması üçün mövcud ekoloji qanunvericiliyin tələblərinə müvafiq olaraq strategiya işlənib hazırlanır və proqram qəbul edilir. Bu proqramda konkret (xüsusi) məqsədlər müəyyən edilir, həmin məqsədlərə nail olmağın yolları və müddətləri göstərilir. Bu, ilk növbədə, zərərli maddələrin tullantılarına, xammal, enerji və su sərfinə, tullantısız və az tullantılı texnologiyaların işlənib hazırlanmasına və tətbiq edilməsinə aiddir. Müəssisədə ekoloji menecment proqramının yerinə yetirilməsi və onun səmərəliliyi müntəzəm olaraq yoxlanılır. Qərbi Avropa ölkələrinin təcrübəsi göstərir ki, müəssisənin ekoloji menecment sistemində iştirak etməsi ətraf mühitə zərərli təsirin dərəcəsini azaltmağa, xammala, enerjiyə və suya qənaət ehtiyatlarını aşkar etməyə, tullantılardan yararlanmağa və məhsulun maya dəyərini aşağı salmağa, rəqabət bazarlarında müəssisənin mövqeyini yaxşılaşdırmağa imkan verir. Ekoloji menecment sistemində müəssisələrin könüllü iştirak etməsi onların iqtisadi uğurlarının zəruri şərtidir. Avropa İttifaqının (Aİ) qərarlarına uyğun olaraq bu sistemdə iştirak edən müəssisələr qarşısında qoyulan tələblər həm onların tərəfdaşlarına, həm də ölkəsindən asılı olmayaraq bütün məhsul göndərənlərə şamil edilir. Beləliklə, aşağı təsərrüfat səviyyəsində ekoloji menecment sistemi ətraf mühitin yaxşılaşması prosesinin baş verdiyi Aİ ölkələrini və geniş miqyasda müəssisələri əhatə etməyə imkan verir.

EKOLOJİ RİSKLƏRİN SIĞORTALANMASI – ətraf mühitin çirklənməsi ilə əlaqədar riskə görə sığortaçının məsuliyyətini nəzərdə tutan sığorta növü. Məsələn, tankerlərdən neft məhsullarının axmasına və onların suyu və sahili çirkləndirməsinə görə gəmi sahiblərinin məsuliyyətinin sığortalanması; nüvə enerjisi obyektlərinin istifadə edilməsi prosesində üçüncü şəxslərin vurduğu nüvə zərərinə görə məsuliyyətin sığortalanması; qrunt sularının, havanın və torpağın çirklənməsinə görə məsuliyyətin sığortalanması; dağmədən fəaliyyətindən yaranan zərərə görə məsuliyyətin sığortalanması və s.

EKOLOJİ TƏMİZ KƏND TƏSƏRRÜFATI – kimyəvi-sintetik (süni) maddələr tətbiq edilmədən kənd təsərrüfatı bitkilərinin becərilməsi və heyvanlarının yetişdirilməsi; ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, emalı, dövriyyəsi və sertifikatlaşdırılması. Ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsulları dedikdə ekoloji təmiz kənd təsərrüfatının tələblərinə uyğun istehsal və emal olunan, habelə

Azərbaycan Respublikasında stasionar mənbələrdən və avtomobil nəqliyyatından atmosfer havasına atılan çirkləndirici maddələr (min ton)



Sxem 1

satılan məhsullar nəzərdə tutulur.

Ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalının təşkili və iqtisadiyyatının təhlili prosesində aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır: ekoloji müşahidə – ekoloji təmiz kənd təsərrüfatı subyektlərində kənd təsərrüfatı və ərzaq məhsullarının ekoloji təmiz kənd təsərrüfatının tələblərinə uyğun istehsal və emal edilməsini araşdırmaq, müşahidələr və təhlillər aparmaqla məlumatlar hazırlayıb müvafiq orqanlara və təsərrüfat subyektlərinə təqdim etmək üçün fəaliyyət; ekoloji təmiz kənd təsərrüfatında sertifikatlaşdırma – ekoloji təmiz kənd təsərrüfatı subyektlərində kənd təsərrüfatı və ərzaq məhsullarının ekoloji təmiz kənd təsərrüfatının tələblərinə uyğun istehsalı və emalı barədə ekoloji müşahidə orqanının məlumatları əsasında sertifikatlaşdırma orqanı tərəfindən həyata keçirilən sənədləşdirmə proseduru; ekoloji təmiz kənd təsərrüfatına keçid (konversiya) dövrü – ənənəvi kənd təsərrüfatı üsulundan ekoloji təmiz kənd təsərrüfatına keçməklə əlaqədar müvafiq norma, qayda və tövsiyələrin tətbiqinə başlanmasından ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının sertifikatlaşdırılmasına qədər olan müddət; ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının standartları – ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dair tələbləri müəyyənləşdirən normativ sənəd; ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının milli əmtəə nişanı – ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının nümayişi və satışının təşkili məqsədi ilə onların etiketində nəşr və ya qrafik təsvir formasında göstərilən nişan; aqroekosistem – kənd təsərrüfatı məhsullarının əldə olunmasında iştirak edən torpaq sahələrini, tarlaları, heyvanları, meşələri, təbii yem sahələrini, su hövzələrini və insanları əhatə edən ekoloji sistem; genetik modifikasiya olunmuş orqanizmlər və onların törəmələri – gen mühəndisliyi metodlarının tətbiqi ilə yeni genetik kombinasiyaya malik canlı orqanizmlər və onların təkrar istehsalından əldə olunmuş törəmə məhsullar. "Ekoloji təmiz" anlayışı beynəlxalq qanunvericilikdə işlədilən "bioloji", "üzvi" və "təbii" anlayışları ilə eyni mənanı ifadə edir.

Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalına imkan verən əkinçilik sistemi hələ keçən əsrin əvvəllərində tətbiq edilməyə başlanmışdır.

Dünyada bir çox ekoloji kənd

EKOLOJİ FƏLAKƏTLƏR:

Sənaye tullantıları

Ən məhvedici smoq (tüstü) – London.

1952-ci il dekabrın 4-dən 9-na qədər Londonda qatı smoqun doğurduğu kəskin bronxitdən təxminən 3500-4000 insan, əsasən yaşlılar və uşaqlar həlak olmuşdu.

Dənizin ən güclü çirklənməsi – Minimata.

1953-cü ildən 1960-cı illər arasında Minimata körfəzi rayonunda (Yaponiya, Küsü adası) yerləşən plastik kütlələr zavodu dənizə tərkibində civə olan istehsal tullantıları atmışdır. Civədən zəhərlənmə nəticəsində 43 nəfər həlak olmuşdur.

Çayın güclü çirklənməsi – Sandoz.

1986-cı il noyabrın 1-də İsveçrənin Bazeldə yerləşən "Sandoz" kimya müəssisəsində yanğın söndürülən zaman Reyn çayına 30 ton kənd təsərrüfatı təyinatlı zəhərli kimyəvi maddələr tökülmüşdür.

Havanın məhvedici çirklənməsi – Yunion Karbayd.

1984-cü il dekabrın 3-də Hindistanın Bhopala yaxınlığında "Yunion Karbayd" şirkətinin pestisid istehsal edən zavodunda 6300 nəfər həlak olmuş, atmosferə zəhərli metil izosianat buludu atılmışdır.

Sənaye müəssisəsində partlayış – Fliksboro.

1974-cü il iyunun 1-də Böyük Britaniyanın Lindsi adlanan rayonunda Fliksboro kimya zavodunda baş verən partlayış nəticəsində 55 nəfər həlak olmuş, 75 nəfər xəzarət almışdır. Bu müəssisədə neylon hazırlanarkən istifadə olunan kimyəvi maddə – kaprolaktam istehsal edilirmiş.

Neftlə çirklənmələr

Ən böyük neft ləkəsi – İkstok-1.

1979-cu il iyunun 3-də Kampeçe körfəzində (Meksika körfəzi) İkstok-1 qazma qurğusu suyun üzərinə tullantı atdıqdan sonra suyun səthində böyük neft ləkəsi yaranmışdı. Neft təbəqəsi 640 km-ə yayılmışdı. 1980-ci il martın 24-də quyu bağlandıqdan sonra neft itkisi 500 000 ton təşkil etmişdir.

Sahilə dəyən ən böyük zərər – Eksson.

1989-cu il martın 25-də "Eksson" şirkətinin Valdes neft tankeri Alyaska sahilində Prins-Uilyam körfəzində suya oturmuş, nəticədə suya 30000 ton neft tökülmüşdür. Bu çirklənmədən 2400 km sahil ərazisi zərər çəkmişdir.

Neft tankerlərinin ən iri qəzaları – Tobaqo adası.

1979-cu il iyulun 19-da Karib dənizində Tobaqo adası yaxınlığında Atlantika hakimi Ege kapitanı ilə toqquşmuşdur. Nəticədə suya 280000 ton neft tökülmüşdür.

Su ilə bağlı fəlakətlər

Su hasarı – Aral dənizi

Son 30 ildə Aral dənizinə tökülən çaylardan ibarət su hasarı nəticəsində onun səviyyəsi 14 m aşağı düşmüşdür.

Hər hansı səbəbdən baş verən zəlzələlər – Koyna bəndi.

1962-ci ildə Hindistanda Bombeyi su ilə təchiz etmək üçün Koyna bəndi tikilmişdir. Su anbarının su ilə dolması nəticəsində torpağa iri su təzyiqi dağ süxurlarını gərgin vəziyyətə gətirmiş, bunun nəticəsi olaraq, 1967-ci il dekabrın 10-da Rixter şkalası ilə 6,3 amplituda ilə zəlzələ baş vermişdir. Nəticədə 177 nəfər həlak olmuş, 2300 nəfər xəsarət almışdır.

Hər hansı səbəbdən baş vermiş sürüşmələr – İtaliya Alp dağları.

1963-cü il oktyabrın 9-da İtaliyanın Alp dağlarında Tok dağının yamacından Vayont bəndinin arxasında yaranmış su anbarı 240 mln. kubmetr torpaq sahəsi sürüşmüşdür. Bənd buna davam gətirsə də, 100 metr hündürlüyündə dalğa onu aşaraq Lonqarone kəndini yer üzündən silmiş, 2500 nəfərin həyatına son qoymuşdur.

Nüvə reaktorlarında qəzalar

Nüvə reaktorunda ən böyük qəza – Çernobıl AES.

Bu qəza 1986-cı ildə SSRİ-də (indiki Ukrayna ərazisi) Çernobıl AES-in dördüncü enerji blokunda baş vermişdir. Sovet dövlətinin rəsmi məlumatına görə, 31 nəfər həlak olmuşdur. Lakin məlum deyil ki, bu dəhşətli qəzadan sonrakı beşillik dövr ərzində nə qədər insan vəfat etmişdir.

Ən böyük nüvə tullantıları – Kıştım kompleksi.

1957-ci ildə Rusiyada Kıştım kompleksində nüvə tullantıları olan konteyner həddən artıq qızdığından partlayış baş vermiş, nəticədə radioaktiv maddələr 23000 kv.km əraziyə yayılmışdır. Bu qəzadan 3 il keçdikdən sonra SSRİ xəritəsindən 30 kənd silinmişdir ki, onların sahəsi 1200 kv.km-dir. Bu ərazidən 17000 nəfər evakuasiya edilmişdir.

Dağ-mədən qəzaları

Ən böyük dağ-mədən fəlakəti – Xunxayke.

1942-ci il aprelin 26-da Çində Bensi gölü rayonunda "Xunxayke" kömür şaxtasında daş kömür tozunun partlayışı nəticəsində 1549 nəfər həlak olmuşdur.

Ən güclü zəlzələ – 1960-cı il mayın 22-də Çilini gücü Rixter şkalası ilə 8,3 bal olan zəlzələ silkələdi və onu yer üzündə qeydə alınan ən güclü zəlzələ hesab etmək olar. Çilidə 2000 insan tələf olmuş, 3000 nəfər zərər çəkmiş və 2 mln. nəfər evsiz-eşiksiz qalmışdır. Zəlzələnin doğurduğu sunami (nəhəng dalğa) də, həmçinin, böyük ziyan vurmuş, ABŞ-ın qərb sahilindən min mil aralı – Havay adalarında və Yaponiyada 200 nəfərin həyatına son qoymuşdur.

Zəlzələ qurbanlarının ən böyük miqyası – Güman edilir ki, 1556-cı ilin fevralında Çinin Şensi və Xennan əyalətlərində zəlzələ nəticəsində 830000-ə qədər insan həlak olmuşdur.

Ekosistemə zərər

Meşələrin doğranması – sahənin azaldılması.

Tropik meşələrin doğranması nəticəsində onların tutduqları sahə hər dəqiqə 200 futbol meydanına bərabər ölçüdə azalır.

Heyvanların məhvedici idxalı – Avstraliya.

1859-cu ildə fermerlərdən biri Avstraliyaya 24 ev dovşanı gətirmişdi. Vəhşi heyvanlar olmadığından, burada populyasiya partlayışı baş vermişdir. İndi Avstraliyada ev dovşanlarının sayı 300 milyona çatır. Onlar kənd təsərrüfatı bitkilərini yeyir, cavan ağacların qabığını və tumurcuqlarını hamarlayır, əkinləri məhv edir. Onların yuvaları isə torpaq qatına ziyan vurur.

Ekosistemə ən güclü təsir

1991-ci il yanvarın 19-da Fars körfəzində hərbi hücumlar aparılarkən, Fars körfəzindən, Küveytdə "Si-Aylend" terminalından çıxarılan və 7 iri neft tankerindən dənizə 816000 ton neft dağıdılmışdı.



DÜNYA. EKOLOJİ SİSTEMƏ

Təsir sinfi	Təsir tipi	Təsir növü	Təsirin potensial mənbəyi	Təsirin ekoloji nəticələri
MEXANİKİ	Sıxılma	Statik (qravitasion), vibrosıxılma, basıb hamarlama, döyəcləyib bərkitmə, partlayışla sıxma	Binalar, qurğular, vibromexanizmlər, avtonəqliyyat, metropoliten – partlayışlar	Təbii biogeosenozların pisləşməsi və dəyişilməsi
	Boşalma, dinamik boşalma	Statik boşalma	Şaxtalar, boşluqlar, iri çalalar – partlayışlar	Təbii biogeosenozların pisləşməsi və dəyişilməsi
	Massivin daxildən dağılması	Qazma, parçalama, sındırmaq, qazımaq	Qazma quyuları, dağ işləri, karxanalar	Təbii biogeo-senozların dəyişil-məsi
		Ekskavasiya, partlamaqla dağıtmaq, şumlama, kultivasiya	Şaxta, lağım, partlayış, aqrotexniki işlər	
	Relyefin kumulyasiyası	Terrikonun tökülməsi, layəmələgəlmə, torpaq təpəsi yaratmaq, damba (bənd) yaratmaq	Şaxtalar, mədənlər, İES, DRES, kombinatlar	Təbii landşaftların, biogeosenozların pisləşməsi
	Relyefin planının çəkilməsi	Tikinti və yol işlərinin planının hazırlanması, rekultivasiya, yamacın terraslaşdırılması	Tikinti, rekultivasiya, meliorasiya obyektləri	Təbii landşaftların, biogeosenozların pisləşməsi
	Relyefin eroziyası	Oyuqların formalaşması, kanallar, bünövrənin qazılması, yamacın kəsilməsi	Karxanalar, kəsilişlər, bünövrələr, kanallar, yol tikintisi, şaxtalar, mədənlər	Təbii landşaftların, biogeosenozların pisləşməsi, həmçinin binaların dağılması nəticəsində insan tələfatı və ya əlil olması

TEXNOGEN TƏSİRLƏRİN TƏSNİFATI

Cədvəl 1


HİDROMEXANİKİ	Relyefin hidrak-kumulyasiyası	Dambaların, bəndlərin yuyulması, qızıl hasilatında süxurların yuyulması	Tikinti, İES, su anbarları, şlam, tullantılar	Təbii biogeosenozların pisləşməsi
	Relyefin su ilə yuyulması	Massivin yuyulması, çökmə, suffozion təsir	Karxanalar, kəsilişlər, suqəbuledi-ciləri, yeraltı yuyulma	Təbii biogeosenozların pisləşməsi
HİDRODİNAMİKİ	Təzyiqin qalxması	Basma (hava, su), inyeksiyalar, altdan rütubətlənmə, suvarma	Tullantılar, sənaye axıntıları, kənd təsərrüfatında suvarma, hidro-meliorasiya	Qəza nəticəsində insan ölümü və əlil olması, rütubətlənmədən binaların dağılması, torpaqların şoranlaşması
	Təzyiqin düşməsi	Çəkmə (nasosla) drenaj, qurutma	Suqəbuledi-ciləri, meliorasiya obyektləri	Təbii biogeose-nozların dəyişilməsi
TERMİKİ	Qızdırılma	Konduktiv (100 dərəcəyə qədər), konvektiv (100 dərəcəyə qədər), yandırma (100 dərəcədən yuxarı), əritmə, termik möhkəmləndirmə, biokimyəvi	Domna peçləri, AES, İES, qaynar sexlər, kükürdün yeraltı əridilməsi, kömürün qazlaşdırılması, meliorasiya obyektləri, TBO poliqonu	Təbii biogeose-nozların dəyişilməsi
	Soyuqlaşdırma	Konyuktiv, konvektiv, dondurma	Soyuducular, məhlulun çəkilməsi, texniki meliorasiya obyektləri	Təbii biogeose-nozların dəyişilməsi

təsərrüfatı istiqamətləri mövcuddur. Bunlardan ilk dəfə tətbiq ediləni avstriyalı alim ***Rudolf Steynerin*** 1924-cü ildə Almaniyada fermerlərə fəlsəfi nəzəriyyə kimi biodinamikadan (yunanca "həyat enerjisi", "həyat qüvvəsi" deməkdir) oxuduğu mühazirələr nəticəsində formalaşan "biodinamik kənd təsərrüfatı"dır. Bu cərəyan həm də ekoloji kənd təsərrüfatının marketinqi və sertifikatlaşdırılması məsələlərinin pioneri olmuşdur.



Rudolf Steyner

Biodinamik istiqamət bütün canlılara yalnız yer üzərində deyil, həmçinin kosmik qarşılıqlı əlaqədə olan balanslaşdırılmış toplum kimi baxır. Bu istiqamət Kainat cisimlərinin vəziyyətindən asılı olaraq Ayın və ulduzların bitkilərin inkişafına təsirini öyrənir. Praktik planda onun əsasını iki prinsip təşkil edir. Birincisi, torpaq canlı varlıqdır. İkincisi, yer üzərində bütün proseslər kosmik təsir altında gedir və əkinçilər bunu öz işlərində nəzərə almalıdırlar. Ona görə ki, kosmos həyat enerjisinin mənbəyidir. Birinci prinsip bitkilərə yalnız üzvi gübrə, xüsusilə biodinamik preparatlardan və materiallardan istifadə etməklə hazırlanmış kompost verilməsi, qulluq qaydalarının, növbəli əkin və s. tətbiqi ilə həyata keçirilir. İkinci prinsip öz əksini bütün kənd təsərrüfatı işlərini təbii və kosmik ritmlərə əsaslanan və yalnız Ayın fazalarına deyil, həm də Ayın, Günəşin və bütün planetin ulduz bürclərinə və bir-birinə olan vəziyyətinə görə tərtib edilmiş biodinamik təqvimə uyğun yerinə yetirməkdə (məsələn, Ayla Saturn hər 28 gündən bir üz-üzə dayananda, pomidor əkildikdə o çox məhsuldar olur, xəstəliklərə tutulmur, məhsul çox dadlı olur) tapmışdır. Biodinamik əkinçilik nəzəriyyəsinə uyğun olaraq kosmik qüvvələrin bitkiyə və bitkilərdə gedən proseslərə təsiri müəyyən bitkilərin (çobanyastığı, boymadərən, palıd qabığı, gicitkən, pişikotu çiçəyi) hissələrindən, habelə peyindən və kvarsdan (silisium oksidi) hazırlanmış xüsusi preparatlar sayəsində mümkün olur.







Ən çox tərəvəzçilikdə tətbiq olunan ay təqvimlərinin tərtibində biodinamik əkinçilik prinsipləri əsas götürülmüşdür. Elmdə biodinamik preparatların təsirini tam izah edə bilməsələr də, təcrübə göstərdi ki, bu metod çox müsbət effekt verir, torpağın münbitliyini artırır, bitkilərin zərərvericilərə və xəstəliklərə davamlılığını yüksəldir, meyvələrin keyfiyyətini, o cümlədən dadını və uzun müddət qalmasını yaxşılaşdırır.


Bununla belə, elmi ədəbiyyatda dinamik əkinçiliyin tənqidinə dair çoxlu materiallar vardır. Bu materiallarda biodinamik əkinçilik nəzəriyyəsinin müddəalarının eksperimental təsdiqinin azlığı və həyata keçirilməsinin çətinlikləri qeyd olunur. Lakin bu istiqamətdə işləyənlər vardır və onların istehsal etdiyi biodinamik məhsullar adi məhsullardan baha olsa da, Qərbi Avropa, Amerika, Avstraliya və digər ölkələrdə həvəslə alınır.

Ekoloji təmiz kənd təsərrüfatında ikinci istiqamət üzvi-bioloji əkinçilikdir. İlk dəfə olaraq "üzvi kənd təsərrüfatı" (*organic farming*) termini 1940-cı ildə İngiltərədə lord Hortbarn tərəfindən işlədilmişdir. Bu istiqamət biodinamik əkinçilikdən fərqli olaraq kosmik ritmlərin təsirini və xüsusi preparatların tətbiqini nəzərə almır.

Üzvi kənd təsərrüfatı haqqında informasiya hazırlamaq və bunu bütün dünyada yaymaq üçün 1972-ci ildə Versalda (Fransa) üzvi kənd təsərrüfatı hərəkatının Beynəlxalq Federasiyası yaranmışdır. Bu istiqamət bəzi ölkələrdə, məsələn, ABŞ-da "bioloji", Fransada "ekoloji", Avstriya, Almaniya və bir sıra digər Avropa ölkələrində "üzvi" adlanır. Üzvi və bioloji kənd təsərrüfatı bilərəkdən sintetik gübrələrdən, pestisitlərdən, bitkilərin boy artımını tənzimləyən maddələrdən, yem əlavələrindən, genetik modifikasiya olunmuş orqanizmlərdən istifadəni minimuma endirməklə aparılan kənd təsərrüfatı idarəetmə formasıdır. Məhsuldarlığın artırılması, mədəni bitkiləri mineral elementlərlə qidalandırmanın təmin edilməsi, zərərverici və alaqlarla mübarizə aparılması üçün növbəli əkinlərin, üzvi gübrələrin (peyin, kompast, aralıq əkinlərin qalığı, sideratlar və s.) torpaqların müxtəlif işlənmə metodlarının səmərəsindən geniş istifadə olunur.


Kənd təsərrüfatının sabit inkişafına nail olmaq, ətraf mühitə zərər vurmamaq, torpaqlardan uzun müddət səmərəli istifadə etməklə onun münbitliyini mü-

Dünya üzrə ekoloji təmiz kənd təsərrüfatı ərzaq bazarının həcmi (mlrd. dollar)



Qrafik 2

AZƏRBAYCAN TƏBİƏTİ



Balakən, Katex şəlaləsi



Dəmirağac



Göy-göl




İsmayıllı



Bakı, yanar dağ



Qəbələ, Nohurgöl



Qax

hafizə etmək üçün ekoloji kənd təsərrüfatı istehsalının tətbiqinin genişləndirilməsi daha məqsədə uyğundur.

Ekoloji kənd təsərrüfatının əsas məqsədləri aşağıdakılardır:

– yüksək qidalılıq dəyəri olan kifayət qədər ərzaq məhsulları istehsal etmək;

– təbii ekosistemi tabe etmək əvəzinə onunla harmoniya təşkil edən fəaliyyətə nail olmaq;

– heyvanlar və bitkilər, torpağın flora və faunası, mikroorqanizmlər də daxil olmaqla, əkinçilik sistemində bioloji tsikli stimullaşdırmaq və möhkəmləndirmək;

– uzunmüddətli torpaq münbitliyini qorumaq və stimullaşdırmaq;

– heyvanları onların yetişdiyi təbii şəraitə uyğun şəraitdə saxlamaq;

– kənd təsərrüfatı fəaliyyəti nəticəsində ətraf mühitin çirklənməsinin qarşısını almaq;

– əkinçilik sisteminin, vəhşi heyvanlar və bitkilər də daxil olmaqla, onun əhatəsində olanların genetik müxtəlifliyini qoruyub saxlamaq;

– fermerlərin müvafiq gəlir əldə etməsini təmin etmək;

– kənd təsərrüfatının çoxsaylı sosial və ekoloji təsir xüsusiyyətlərini nəzərə almaq və s.

Ekoloji kənd təsərrüfatında bu məqsədlərə nail olmaq üçün üç əsas şərtə əməl edilməlidir:

1. Əkinlərin növünün müxtəlifliyi;
2. Torpağın bitki örtüyünün müddətinin uzadılması;
3. Ekosistemə istənilən dağıdıcı təsirin qarşısının alınması.

Birinci şərt müxtəlif növ əkinlər, qarışıq örtüklü və aralıq əkinlər tətbiq etməklə həyata keçirilir. İkinci şərt örtülü və aralıq əkinlərin aparılması və torpağa peyin və torf verilməsi ilə təmin edilir. Əkin sahələri uzun müddət bitki ilə örtülü olduqda torpaqda daha çox üzvi birləşmələr toplanır və münbitlik yüksəlir. Üçüncü şərt isə ondan ibarətdir ki, torpağın üzdən şumlanması təmin edilsin, üzvi maddələrin parçalanması üçün əlverişli şərait yaradılsın, kimyəvi-sintetik maddələrin ümumi dövriyyəyə daxil olmasının qarşısı alınsın.

Ekoloji kənd təsərrüfatı – torpağa və bitkilərə səmərəli yanaşmadır ki, bunun da sayəsində mineral gübrələr və zəhərləyici maddələr tətbiq etmədən az məsariflə sabit məhsul almaq mümkün olur. Onun mahiyyəti təbii ekosistemə uyğun elə bir təsərrüfat təşkil etməkdir ki, burada bütün olanların öz təyinatı vardır və bir-biri ilə uyğunluq şəraitində mövcuddur. Torpağın, bitkinin, heyvanın və təbii qüvvələrin qarşılıqlı təsirinin anlaşılmasına əsaslandığına görə ekoloji kənd təsərrüfatı inkişaf etməyə başlamışdır.

2007-ci ildə dünyada 31 milyon hektar ekoloji kənd təsərrüfatı əkinləri olmuşdur, onun sahəsi ildən-ilə genişlənir və dünyanın bir çox ölkələrinə yayılır. Bu məsələdə lider Avstraliyadır – 12,3 mln. ha; Çin – 2,3 mln. ha; Argentina – 2,2 mln. ha. İstifadə edilən əkin sahəsinin ekoloji kənd təsərrüfatı tətbiq edilən hissəsinin faizinə görə isə lider Avstriya – 16%, İsveçrə – 11,3%, Almaniyada – 5,3%-dir. Lakin Almaniya Avropada ekoloji təmiz kənd təsərrüfatı məhsullarının dövriyyəsinə görə digər ölkələri qabaqlayır – bu ölkədə 2007-ci ildə 5300 milyon avro dəyərində məhsul satılmışdır.

Avropa İttifaqında ekoloji kənd təsərrüfatını inkişaf etdirmək üçün son vaxtlar xüsusi proqramların həyata keçirilməsinə başlanılmış, bu sahə ilə məşğul olan fermerlərin stimullaşdırılması, ekoloji təmiz məhsulların sertifikatlaşdırılması və marketinqi genişləndirilmişdir. MDB məkanında da bu istiqamətdə xeyli işlər görülmüş, Rusiya, Ukrayna, Belarus və Moldovada ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalı üzrə qanunlar və proqramlar qəbul edilmişdir. Türkiyədə hazırda ekoloji kənd təsərrüfatının sahəsi 200 min hektara çatır və bu işlə məşğul olan fermerlərin sayı 35 mindən çoxdur.

Ölkəmizdə ekoloji kənd təsərrüfatının tətbiqi üçün əlverişli təsərrüfat və iqlim şəraitinin (mineral gübrələrdən və aqrokimyəvi maddələrdən az istifadə olunması, ekstensiv inkişaf, xırda təsərrüfat formalarının üstünlük təşkil etməsi) mövcudluğu, dünyada bu növ məhsullara tələbatın ildən-ilə çoxalması, insan sağlamlığına və ətraf mühitin mühafizəsinə diqqətin artması ekoloji kənd təsərrüfatını aqrar sahənin prioritet istiqamətinə çevirmişdir.

Bu sahənin gələcək inkişafını təmin etmək, kənd təsərrüfatının ətraf mühitə zərərli təsirlərini minimuma endirmək, insanları təhlükəsiz ərzaq məhsulları ilə təmin etmək, kənd təsərrüfatının təbii ehtiyatları (suyun azalması və torpağın

tənəzzülə uğraması) azaltmaq riskini aşağı salmaq məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi 2007-ci ildə "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Qanun qəbul etmişdir.

Qanunda ekoloji təmiz kənd təsərrüfatı istehsalının əsas prinsiplərindən biri kimi kənd təsərrüfatı işlərinin gedişində kimyəvi-sintetik (süni) maddələrin istifadəsindən imtina edilməsi, hər hansı çirkləndirici və potensial təhlükəli texnologiyaların tətbiqinin qadağan edilməsidir. Eyni zamanda, bu prinsiplərə əsasən, yerli şəraitə yüksək dərəcədə uyğunlaşma xüsusiyyətlərinə malik xəstəlik və zərərvericilərə genetik davamlı bitki sortlarından istifadəyə əsaslanan balanslaşdırılmış növbəli əkin sistemlərinin tətbiqinin genişləndirilməsi nəzərdə tutulur. Qanunun tələblərinə əsasən, toxum materialı kimi ekoloji təmiz kənd təsərrüfatı subyektlərində birillik bitkilər bir il, ikiillik bitkilər iki il becərilən bitkilərdən alınıb istifadə oluna bilər. Ekoloji təmiz heyvandarlıq məhsulları istehsalı üçün isə heyvanların yemləndirilməsində ekoloji təmiz müəssisələrdə istehsal edilən yemlərdən istifadəyə icazə verilir.

Ekoloji təmiz kənd təsərrüfatı subyektlərinin yaranması üçün qanunda istehsal edilən bitkiçilik və heyvandarlıq məhsulunun növündən asılı olaraq birillik bitkilər üçün 2 il, çoxillik bitkilər və çoxillik əkmələr üçün 3 il, yem bitkiləri üçün 2 il, ətlik qaramal üçün 1 il, südlük qaramal üçün 12 həftə, davarlar üçün 6 ay, yumurta və ətlik cücələr üçün 10 həftə keçid müddəti müəyyən edilmişdir. Bundan başqa, keçid müddətində qanunla müəyyən olunan tələblərə əməl edilməsinə nəzarət etmək üçün müşahidə aparan və bu subyektlərdə istehsal edilən məhsulları sertifikatlaşdıran akkreditatiyadan keçmiş orqanların yaradılması və fəaliyyəti də nəzərdə tutulur. Qanunda, həmçinin, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırılması qaydası, ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının markalanması, daşınması, saxlanması, satışı, idxalı və ixracı məsələləri öz əksini tapmışdır. Dövlət ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün aşağıda göstərilən tənzimləmə vasitələrindən, iqtisadi mexanizmlərdən istifadə edir: ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, emalı, qablaşdırılması, markalanması, sertifikatlaşdırılması, saxlanması və satışını reqlamentləşdirən normativ hüquqi aktlar və normativlər təsdiq etmək və inkişafına dair xüsusi layihələr hazırlamaq; ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarına dair milli standartların hazırlanmasını təşkil etmək; ekoloji təmiz kənd təsərrüfatı sahəsində mövcud olan normativ hüquqi aktların beynəlxalq normalara uyğunlaşdırılmasını təmin etmək; ekoloji təmiz kənd təsərrüfatında tətbiqinə icazə verilən qeyri-təbii və tətbiqi qadağan edilən təbii vasitələrin siyahısını təsdiq etmək; ekoloji təmiz kənd təsərrüfatına keçidə dair qaydaları və bu fəaliyyətlə məşğul olmaq istəyən subyektlərin üzərinə düşən öhdəlikləri müəyyən etmək; ekoloji təmiz kənd təsərrüfatı subyektlərinin təşkilinə yardım etmək, bu sahədə sahibkarlıq fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin uçotunu aparmaq və onlar tərəfindən normativ hüquqi aktların və normativlərin tələblərinin yerinə yetirilməsinə, aqroekosistemin monitorinqinə dövlət nəzarətini həyata keçirmək; ekoloji təmiz kənd təsərrüfatında istifadəsi qadağan olunan maddələrin və orqanizmlərin təyin edilməsi üçün müasir avadanlıqlar və ləvazimatlarla təchiz edilmiş müvafiq laboratoriyaların təşkilinə, mütəxəssislərin hazırlanmasına köməklik göstərmək; ekoloji təmiz kənd təsərrüfatı sahəsində ekoloji müşahidə və sertifikatlaşdırma üzrə orqanları və onların səlahiyyətlərini müəyyənləşdirmək, onlara akkreditasiya sənədləri vermək; ekoloji müşahidə və sertifikatlaşdırma üzrə akkreditasiya olunmuş orqanların uçotunu aparmaq və onların fəaliyyətinə nəzarət etmək; ekoloji müşahidə və sertifikatlaşdırma üzrə akkreditasiya edilmiş orqanlar tərəfindən qüvvədə olan normativ hüquqi aktların və normativlərin pozulması müəyyən edildiyi hallarda onlara verilmiş akkreditasiya sənədlərinin dayandırılması və ya ləğv edilməsi barədə qərar qəbul etmək; ekoloji təmiz kənd təsərrüfatı sahəsində elmi-tədqiqat işlərinin aparılmasını və kadr potensialının formalaşmasını nəzarətdə saxlamaq və planlaşdırılmasını həyata keçirmək; ekoloji təmiz kənd təsərrüfatı sahəsində əhalinin maarif-

ləndirilməsi və təhsili işini, informasiyanın yayılmasını təşkil etmək; ekoloji təmiz kənd təsərrüfatına keçən təsərrüfat subyektlərinin fəaliyyətinin stimullaşdırılması barədə təkliflər hazırlayıb müvafiq icra hakimiyyəti orqanına təqdim etmək; ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının emalı müəssisələrinin texnoloji avadanlıqlarını qeydiyyata almaq, onların attestasiyasının həyata keçirilməsinə və müvafiq uyğunluq sertifikatlarının verilməsinə nəzarət etmək; ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsulları bazarının formalaşmasına yardım etmək.

"Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Qanunun qəbul edilməsi ölkəmizdə bu sahəyə diqqəti artırmış və ekoloji təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalında və ixracında mövcud potensialdan geniş istifadə olunması üçün baza yaratmışdır.

Respublikamızda ekoloji təmiz kənd təsərrüfatının inkişafında Gəncə Aqrobiznes Assosiasiyası geniş fəaliyyət göstərir. Hazırda ölkəmizdə 30 min hektardan çox sahədə ekoloji təmiz kənd təsərrüfatı məhsulu becərilir və onun sahəsi ilbəil artır. Bu sahədə çalışan fermerlər təcrübə mübadiləsi məqsədi ilə bir çox inkişaf etmiş ölkələrə səfərlər etmişlər. Azərbaycanda ilk ekoloji sertifikatlaşdırma orqanı olan AZEKOSERT fəaliyyətə başlamış və bir çox ekofermerlərə sertifikatlar verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2011-ci il martın 1-də "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın ikinci ilinin yekunlarına həsr olunmuş konfransdakı nitqində qeyd etmişdir ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının keyfiyyəti çox yüksəkdir və başqa ölkələrlə müqayisədə onlar təbiidir. İndi buna dünyada "orqanik", yəni təbii deyirlər, bu da tərkibində gübrə, kimyəvi maddələr olmayan təmiz və dadlı məhsullardır. Bu bizim böyük üstünlüyümüzdür və ekoloji cəhətdən təmiz məhsullarla dünya bazarlarına çıxa bilərik. Bu, bizim böyük sərvətimizdir və bu sərvətdən səmərəli şəkildə istifadə etməliyik.

Göründüyü kimi, ekoloji kənd təsərrüfatının inkişafı üçün həm hüquqi baza, həm də dövlət dəstəyi vardır. Fermerlər bu sahəyə diqqəti artırmalı və təbii məhsul istehsalını rəsmiləşdirmək üçün lazımi tədbirlər görməlidirlər.

Aparılan elmi-tədqiqatlar və əldə edilən praktik nəticələr deməyə əsas verir ki, əhalini lazımi səviyyədə yüksək keyfiyyətli kənd təsərrüfatı və ərzaq məhsulları ilə təmin etməklə yanaşı, ətraf mühiti mühafizə etmək, habelə gələcək nəsillər üçün mövcud təbii ehtiyatları (su və torpağı) qoruyub saxlamaq lazımdır, çünki ən optimal təsərrüfatçılıq üsulu ekoloji kənd təsərrüfatıdır. Bu üsulun ən böyük üstünlüyü kənd təsərrüfatında əsas istehsal vasitəsi olan torpağın təbii münbitliyinin qorunması, bitkilərdən sabit məhsul əldə edilməsi və ətraf mühitin mühafizəsinin təmin olunmasıdır. Torpaqların münbitliyinin qorunmasına isə müxtəlif üsullarla nail olmaq mümkündür.


EKOLOJİ TSİKLLƏR – təbiətin və cəmiyyətin qarşılıqlı fəaliyyətinin oxşar fazalarından keçən dövri tərəddüdlər. Onlar bir tərəfdən təbiət tsikllərinin (günəş, geoloji, iqlim, bioloji tsikllər də daxil olmaqla kosmik tsikllərin), digər tərəfdən cəmiyyətin inkişafındakı tsikllərin (elmi-texniki, iqtisadi, sosial-siyasi və s. tsikllərin) təsirini əks etdirir və cəmiyyətlə ətraf mühit arasında tarazlığın pozulmasını və bərpa olunmasını xarakterizə edir.

Ekoloji tsikllər aşağıdakıları əks etdirir: elm və texnologiyanın inkişafını, təkrar istehsalı, təbii resurslarla (torpaq, mineral, meşə, su və s. resurslarla) təminat səviyyəsindəki dəyişikliklər nəticəsində təkrar istehsal prosesinə təbii məhsuldar qüvvələrin cəlb edilməsi dərəcəsini; ətraf mühitə cəmiyyətin təsir səviyyəsini; texnogen fəlakətlər nəticəsində zərərli tullantılarla onun çirklənməsi dərəcəsini.

Ekoloji tsikllər iqtisadi və elmi-texniki tsikllərə uyğun olaraq ortamüddətli (təxminən onillik), uzunmüddətli (yarıməsr) və həddən artıq uzunmüddətli (əsr) tsikllərə bölünür. Bununla belə, cəmiyyətə təsir göstərən təbiət tsikləri başqa ritmikliyə (gündəlik, illik, minillik və s. tsikllərə) malikdir.

Ekoloji tsikllərin bir neçə fazası var: cəmiyyətlə təbiət arasında ekoloji tarazlıq; bu tarazlığın pozulması, ekoloji böhran; yeni texniki və iqtisadi sistemlərin bazasında tarazlığın bərpa edilməsi.

Ekoloji tsikllər modeli



Sxem 1

İlk həddən artıq uzunmüddətli ekoloji tsikl Paleolit dövrünə aiddir. Bu dövrdə insanların sayı çox olmamış və onlar təbiət proseslərinə əhəmiyyətli dərəcədə təsir göstərməmişlər, təkrar istehsal isə istehlak xarakteri (yığıcılıq, ovçuluq, balıqçılıq) daşımışdır. Mezolit dövründə ekoloji böhran baş verdi, bu zaman oxun və yayın kəşfi ilə iri heyvanların məhv edilməsi onların təbii təkrar istehsalı qabiliyyətini ötüb-keçdi. Neolit dövründə əkinçiliyə və heyvandarlığa, sonradan sənətkarlığa keçidlə insanın özünü təmin etməsi imkanı artdı, cəmiyyətlə təbii mühit arasında tarazlıq yeni əsasda bərpa olundu. Cəmiyyət neolit, erkən sinifli, optik sivilizasiya mərhələlərini keçərək sürətlə inkişaf etdi, əhalinin sayı durmadan artdı, cəmiyyətin strukturu mürəkkəbləşdi.

Antik dövrün sonunda xalqların böyük sayda köçürülməsi, Roma imperiyasının süqutu ilə sürətlənən yeni qlobal ekoloji böhran müşahidə olundu. Yeni əkinçilik texnoloji dünyasına, sənətkarlığın tədricən inkişaf etməsinə, şəhərlərdə manufakturaların və sexlərin yaranmasına istiqamətlənən yeni ekoloji tsikl başlandı. Orta əsr cəmiyyətinin çiçəkləndiyi dövrdə, habelə sənayeləşməyə qədərki cəmiyyətdən əvvəlki dövrdə cəmiyyətlə təbiət arasında nisbi tarazlıq bərpa olundu.

Sənaye inqilabı və onun doğurduğu sənaye sivilizasiyası istehsala yeni təbii məhsuldar qüvvələri cəlb etdi. Təbii mühitə təzyiq, o cümlədən sənaye tullantılarının və şəhər əhalisinin həyat fəaliyyəti nəticəsində yaranan tullantıların sürətlə artması, eləcə də müharibələrin dağıdıcı nəticələri hesabına təzyiq artdı. XX əsrin ikinci yarısında yeni qlobal ekoloji böhran əyani surətdə təzahür etdi, ekoloji fəlakətlər təhlükəsi gücləndi. Eyni zamanda, resurs qoruyucu, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi, noosferanın pozitiv variantının təşəkkül tapması imkanları genişləndi.

BMT xətti ilə postindustrial, həddən artıq uzunmüddətli ekoloji tsikl üçün zəmin yaradan sabit inkişaf keçid strategiyası

(Rio-de-Janeyro konfransı) işlənib hazırlandı.

EKONOFİZİKA – iqtisadiyyat ilə fizikanın sintezindən ibarət yeni elm. İqtisadiyyat sosial, fizika isə dəqiq elmdir. İlk baxışda bunlar arasında hər hansı bir əlaqənin olması təəccüb doğurur. Lakin ekonofizika hələ 1897-ci ildə Pareto tərəfindən tətbiq olunmuş və onun metodlarından cəmiyyət üzvləri arasında gəlirlərin bölüşdürülməsi problemi öyrənilərkən istifadə olunmuşdur. 1963-cü ildə isə Mandelbrot onu maliyyə bazarlarına münasibətdə tətbiq etmişdir. Nobel mükafatı laureatı K.Errou J.Debre ilə birlikdə ümumi tarazlıq konsepsiyasını işləyib hazırlamışlar. Keçən əsrin 80-ci illərinin sonlarında K.Errou məşhur fizik F.Anderson ilə birlikdə ekonofizika tədqiqatlarının mərkəzi sayılan Santa Fe İnstitutunu yaratdılar. Beləliklə, ekonofizika maliyyə bazarlarını, maliyyə aktivlərindən əldə olunan gəlirlərin bölüşdürülməsini, iqtisadi fəallığın tərəddüd etməsini və iqtisadi inkişafın dinamikasını öyrənir.

EKONOMETRİYA (ekonometrika, *econometrics*) – iqtisadi hadisələrin və proseslərin kəmiyyət cəhətlərini riyazi və statistik analiz vasitələri ilə öyrənən elm. Ekonometriyanı riyazi iqtisadiyyatdan fərqləndirən əsas əlamət konkret ədədi materialın tətbiq edilməsindən ibarətdir. Ekonometriya iqtisadiyyatın nəzəri analizi sahəsindəki nailiyyətləri riyaziyyatın və statistikanın (ilk növbədə riyazi statistikanın) nailiyyətləri ilə bir növ sintez edir. "Ekonometriya" termininin özü iki sözdən əmələ gəlmişdir: ekonomiya və metrika, yəni ölçmə. Bu termini elmə gətirən norveçli alim, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı R.Friş olmuşdur. Çox vaxt ekonometriya əvəzinə "ekonometrika" terminindən də istifadə edilir. Bu ad altında məşhur beynəlxalq jurnal "Econometrica" nəşr olunur. Həmin jurnal 1933-cü ildə R.Friş tərəfindən təsis edilmişdi.

Ekonometriya "iqtisadi-riyazi metodlar" anlayışı altında birləşən elmi fənlər kompleksinin şaxələrindən biridir. Onun əsas vasitəsi ekonometrik model (iqtisadi-riyazi modellərin bir növü), vəzifəsi isə iqtisadi nəzəriyyələri riyazi statistika metodlarının köməyi ilə faktiki (emprik) material üzərində yoxlamaqdan ibarətdir.

Ekonometrik metodlar bu və ya digər ölkənin iqtisadiyyatını təsvir edən və tərkib elementləri kimi istehsal funksiyasını, investisiya funksiyasını, eləcə də məşğulluğun, gəlirlərin, qiymətlərin və faiz dərəcələrinin hərəkətini xarakterizə edən tənlikləri və başqa blokları əhatə edən ekonometrik modellərin iri sistemlərini qurmaq üçün tətbiq edilir. Bu qəbildən ən məşhur ekonometrik sistemlər arasında Brukinq modeli (ABŞ), Uorton modeli (ABŞ), həmçinin iqtisadi siyasətin proqnozlaşdırılması və işlənib hazırlanması üçün istifadə edilən Holland modeli daha məşhurdur. Bu məsələlərdə hesablamalar EHM vasitəsilə aparılır. Ekonometriya üsul və metodları tələb və istehlakın təhlilində də tətbiq edilir.

Ekonometriya bir elm kimi ötən əsrin əvvəllərində yaransa da, onun mənbəyi V.Pettinin (XVII əsr) "Siyasi hesab" əsəri ilə, O.Kurno, İ.Engel (XIX əsr) və başqalarının adları ilə bağlıdır. XIX əsrdə çoxvariantlı reqressiya, hipotezlərin statistik yoxlanması, səhvlər nəzəriyyəsi, seçmə metodları (R.Friş, K.Pirson və b.) kimi statistik metodlar işlənib hazırlanmış və onlardan istifadə edilməyə başlanmışdır. XX əsrin birinci yarısında tələbin və istehlak xərclərinin strukturunun modelləşdirilməsinə və onların emprik qiymətləndirilməsinə maraq yarandı (R.Allen, A.Marşall və b.). Elə həmin dövrdə identifikasiya məsələsinin qoyuluşu ifadə edilir (E.Uorkinq), istehsal funksiyasının öyrənilməsi (Ç.Kobb, P.Duqlas), işgüzar tsiklin statistik modelləşdirilməsi (Y.Slutski, R.Friş) ilə bağlı işlər başlanır. Makroiqtisadi araşdırmalar aparmağa başlamış Y.Tinbergen və R.Friş iqtisadiyyat üzrə tarixdə ilk Nobel mükafatı laureatları olmuşlar (1969). İkinci Dünya müharibəsi başa çatandan sonra Kouls komissiyası (ABŞ) ekonometriyanın inkişaf etdirildiyi mühüm mərkəzə çevrilmişdir. Bərabər zaman tənliklərinin modellərinin işlənib hazırlanması (T.Xaavelmo, T.Kupmans, Q.Teyl və b.) nəticəsində ekonometriya yeni tədqiqat vasitələri əldə etmiş oldu. Ekonometriya metodları son onilliklərdə müxtəlif səviyyəli və müxtəlif təyinatlı iqtisadi hesablamalarda EHM-dən istifadə edilməsinin öyrənilməsində və inkişafında həlledici rol oynamışlar.

Sovet iqtisad elmində ekonometriyanın uzun müddət rəsmən "burjua elmi", marksizmə zidd, zərərli və yalançı elm kimi nüfuzdan salınmasına baxmayaraq, sovet iqtisadçıları da (Y.Slutski, L.Kantoroviç və b.) ekonometriyanın inkişafına müəyyən töhfələr vermişlər. Bu elmin bəraət qazanmasında akademik V.Nemçinovun böyük rolu olmuşdur – onun yazdığı "Ekonometriya" məqaləsi (1965) ölkənin geniş iqtisadi ictimaiyyəti üçün bir növ kəşf olmuşdur.

EKONOMİKS – cəmiyyətin öz məhdud sərvətlərini necə idarə etdiyini öyrənən elm sahəsi. İqtisadi ədəbiyyatlarda ekonomiks terminə ilk dəfə ingilis iqtisadçısı Alfred Marşalın 1879-cu ildə nəşr etdirdiyi "Sənayenin iqtisadiyyatı" kitabında rast gəlinir. Kitabın adından da göründüyü kimi, o vaxtlar müəllif bu termini işlətməklə heç də onu siyasi iqtisada alternativ kimi tətbiq etməmişdi. Bu, sadəcə, sahə iqtisadiyyatı anlamında tətbiq olunurdu. Lakin 1890-cı ildə nəşr olunmuş "Ekonomiksin prinsipləri" kitabında artıq müəllifin tədqiqat obyekti sahə iqtisadiyyatı çərçivəsini aşır. Keçmiş SSRİ məkanında bu kitab ilk dəfə 1983-1984-cü illərdə "Siyasi iqtisadın prinsipləri", 1993-cü ildə isə "İqtisad elminin prinsipləri" adı altında nəşr olunmuşdu.

EKSPERİMENTAL TƏDQİQAT – hər hansı bir hadisənin səbəb və nəticələrini müəyyən etmək üçün təşəbbüs edilən tədqiqat.

EKSPERT QİYMƏTİ – bilavasitə ölçüyə gəlməyən proseslərin, hadisələrin kəmiyyətcə qiymətləndirilməsi. Mütəxəssislərin rəyinə əsaslanır. Rəyin dürüst olması ekspertin fərdi keyfiyyətindən asılıdır. Proqnozlaşdırma təcrübəsində fərdi və kollektiv ekspert qiymətlərindən istifadə olunur.

EKSPERT-ANALİTİK FƏALİYYƏT – maliyyə və uçot əməliyyatlarının normativ hüquqi aktların tələblərinə uyğunluq səviyyəsinin araşdırılması, o cümlədən hüquq pozuntuları üçün şərait və səbəblərin yaradılmasının qarşısının alınması və ən azı məhdudlaşdırılması məqsədilə təhlillərin aparılması, müvafiq rəy, məlumat və təkliflərin hazırlanması olub, özündə həyata keçirilən tədbirlərin məcmusunu əks etdirir.

EKSPERTİN TƏSİRİ – mütəxəssis təcrübəsinin nəticəsi kimi yaranan mümkünlüklər.

EKSPERTİZA – xüsusi biliklər və əsaslandırılmış rəy təqdim olunmasını tələb edən hər hansı məsələnin mütəxəssis (ekspert) tərəfindən tədqiq edilməsi. İqtisadi, mühasibat, həkim-əmək, məhkəmə və digər ekspertizalar daha tez-tez keçirilir. İnformasiyanı adi yolla (hesabat, seçmə sorğular və s.) toplamaq mümkün olmadıqda ekspert qiymətləndirməsi tələb olunur. Bu halda qarşıya qoyulmuş məsələlərin həlli üçün müəyyən ekspert metodlarından istifadə edilir.

Ekspertizanın aparılmasının praktik-təşkilati metodları ekspert informasiyasının işlənməsi və təhlili üçün tətbiq edilən iqtisadi-riyazi və başqa metodlarla əlaqələndirilir, nəticədə ekspertizanın etibarlılığı artır.

EKSPERTİZA AKTI (ing. *Examination certificate*) – sığorta halının, qəzanın geniş əhatəli ekspertizası keçirilərkən tərtib edilən sənəd. Ekspertiza aktı əsasında sığortaçı (acaster) qəza sertifikatı tərtib edir. Ekspertiza aktı sifarişçiyə yükü göndərənə və ya daşıyıcıya iddia (tələb) irəli sürmək hüququ verir. Ekspertiza aktı iqtisadi və hüquqi münasibətlərlə bağlı digər sahələrdə də tərtib olunur.

EKSPİRASİYA (ing. *expiration date*) – 1. Elektron kredit kartının qüvvədəolma müddətinin başa çatması. 2. Opsionun qüvvədəolma müddətinin başa çatması.

EKSPLERENT – yeniliklər tətbiq etməklə böyük riskə gedən novator firma.

EKSPROPRİASİYA (lat. *expro priato* – mülkiyyətdən məhrum etmə) – əmlakın məcburi özgəninkiləşdirilməsi, başqa sözlə, ictimai sinif və ya təbəqənin mülkiyyətdən zorla məhrum edilməsi, yaxud iqtisadi yolla əlindən alınması. Qəsbetmə dövlət hakimiyyəti orqanları tərəfindən, eləcə də digər səlahiyyətli müəssisələr tərəfindən həyata keçirilir. Qəsbetmənin ödənilən forması rekvizisiya, ödənişsiz forması isə müsadirə adlanır. Bu anlayışın mahiyyəti, onun hüquqi qiyməti və reallaşdırılma mexanizmi ölkədə xüsusi mülkiyyət institutunun inkişaf səviyyəsi ilə ayrılmaz şəkildə bağlıdır. Qəsbetmə hüququ müxtəlif səviyyəli dövlət hakimiyyəti orqanlarına, hüquqi şəxs statusuna malik olan ictimai idarələrə, eləcə də yerli özünüidarə orqanlarına məxsusdur. Bəzi hallarda bu hüquq cəmiyyətin mənafeyi naminə hərəkət edən xüsusi hüquq sub-

yektlərinə – hüquqi şəxslərə verilir. Qəsbetmənin obyekti xüsusi mülkiyyətdə olan daşınan və daşınmaz əmlakdır. Qəsbetmə dövlət mülkiyyətinə, ictimai təşkilatların və yerli kollektivlərin əmlakına şamil edilmir.

İnkişaf etmiş ölkələrdə xüsusi mülkiyyət hüququnun tamamilə mübahisəsiz olmasına baxmayaraq, bəzi hallarda dövlətin, yaxud yerli kollektivin mənafeləri bu və ya digər əmlak üzərində xüsusi mülkiyyət hüququnun ləğv edilməsini tələb edə bilər. Urbanizasiya və ərazilərin abadlaşdırılması ilə əlaqədar fəaliyyət sahəsində bu faktı təsdiqləyən inandırıcı misallar çoxdur. Adətən, qəsbetmə zərurəti şəhər və kənd rayonlarının inkişafı və yenidən qurulması, yüksək gərginlikli elektrik xətlərinin çəkilişi, nəqliyyat şəbəkəsinin inkişafı, hidrotexniki qurğuların yaradılması, özəl sahibkarlar tərəfindən istifadə edilməyən torpaqlar hesabına kənd təsərrüfatı torpaqları fondunun artması, eləcə də müdafiə təyinatlı obyektlərin tikintisi ilə əlaqədar olan layihələrin həyata keçirilməsi zamanı yaranır. Fəaliyyət qabiliyyəti olmayan şəxslərin əmlakı, eləcə də qanundankənar elan edilmiş əmlak qəsb edilə bilər.

Qəsbetmə proseduru bunun səbəblərinin əsaslandırılmasını və qəsb edilməli əmlakın ətraflı inventarlaşdırılmasını əhatə edir. Mülkiyyətçi ona təklif olunmuş şərtlərdən imtina etdikdə iş məhkəmə instansiyasına verilir, o isə mülkiyyətin özgəninkiləşdirilməsi barədə qərar çıxarır və müəyyən olunmuş kompensasiyanı çox vaxt natural formada göstərir.



Son illərdə Qərb ölkələrində qəsbetmə şərtlərinin sərtləşdirilməsi, onun həyata keçirilməsi müddətlərinin azaldılması, eləcə də servitut praktikası ilə daha çevik qarşılıqlı əlaqə tendensiyaları müşahidə olunur.

EKSSEDENT (lat. *exess*) – 1. Sığortaçının və ya təkrar sığortaçının özünün tutduğu maksimumdan yuxarı səviyyəni əmələ gətirən və tam olaraq təkrar sığortaya daxil olan sığorta məbləğinin artığıdır, yaxud sığorta şirkəti tərəfindən özünün tutduğu məbləğdən yuxarı təkrar sığortaya çatan riskin həcmidir ki, sığorta şirkəti bu riski sığortaya qəbul edir. Təkrar sığortalanan məbləğ adətən "E" adlandırılan limitlə məhdudlaşdırılır. Ekssedent adətən ötürücü kompaniyanın tutduğu məbləğin bir neçə dəfə artırılmış həcmini təşkil edir. Əgər ekssedentin həcmi təkrar sığortanın tam olaraq həyata keçirilməsinə kifayət etmirsə, birinci ekssedentdən sonra ikinci, üçüncü və s. gələ bilər. 2. Təkrar sığorta sistemidir ki, buna görə sığorta şirkəti özündə saxladığı məbləğ çıxılmaqla həmin sığorta növü üzrə ümumi riskin bir hissəsini təkrar sığortaçılara verir. Sığorta işində ekssedent təkrar sığortaetmə sistemidir. Ona əsasən sığorta təşkilatı sığortaya götürülmüş risklərin bir hissəsini təkrar sığortaçılara verir.

Risk ekssedenti – riskin bu kateqoriyası üzrə itkinin təkrar sığortası haqqında razılaşma; məbləğ ekssedenti – təkrar sığortaetmə, bu halda təkrar sığorta ödənişi yalnız müəyyən limitin aşmasında ödənilir, lakin şərtsiz franşizadan fərqli olaraq yalnız bu aşma göstərilir; itki ekssedenti – riskin bir kateqoriyası üzrə müəyyən miqdarı aşan sığorta məbləğinin bir hissəsidir.

EKSSEDENT MƏBLƏĞİ MÜQAVİLƏSİ – bu müqaviləyə əsasən təkrar sığortaçı təkrar sığortaya yalnız o sığorta müqavilələrini qəbul edir ki, onlar üzrə sığorta məbləği razılaşdırılmış kəmiyyətdən (xüsusi

tutulmanın ölçüsündən və ya sedentin prioritetindən) çoxdur.

EKSSEDENT MÜQAVİLƏ – proporsional təkrar sığorta müqavilələrinin ən geniş yayılmış forması. Bu müqavilənin şərtlərinə uyğun olaraq sığorta məbləği verən (ötürən) şirkətin xüsusi tutulmasından çox olan sığortaya qəbul edilən bütün risklər müəyyən limit və ya ekssedent hədlərində təkrar sığortaya verilməlidir. Deməli, ekssedent elə müqavilə sazişidir ki, bu şərtlərə görə sığorta məbləği ötürən (verən) şirkətin xüsusi tutulmasından yüksək olan sığortalanmaya qəbul edilən bütün risklər müəyyən limit (ekssedent) hədlərində təkrar sığortaya verilməlidir.

EKSSEDENT MÜQAVİLƏSİ ÜZRƏ TƏKRAR SIĞORTA – təkrar sığorta sistemidir ki, bu zaman təkrar sığortalı müqavilə şərtlərinə uyğun olaraq hər bir sığorta növü üzrə müəyyən məbləğə təkrar sığortalı tərəfindən müəyyən edilən öz riskindən yuxarı olan məbləğin məsuliyyətinin bir hissəsini təkrar sığortaya verərək, sığorta risklərinin müəyyən hissəsini öz məsuliyyətində saxlayır.

EKSSEDENT – TƏKRAR SIĞORTA MÜQAVİLƏSİ – bu saziş növünə uyğun olaraq sığortaçı təshih edilmiş pul həddinə qədər bütün mümkün zərərlərin tam ödənilməsini öz öhdəsinə götürür. Bu həddən yuxarı zərərin ödənilməsinə görə məsuliyyəti təkrar sığortalanan daşıyır. Ekssedent təkrar sığorta müqaviləsi o müqavilədir ki, bunun şərtlərinə görə təkrar sığortaçı sedentin az tutduğundan çox olan bütün müqavilələrdə müəyyən faiz payını alır.

EKSSEDENT TƏKRAR SIĞORTASI – nəzərdə tutur ki, riski təkrar sığortaya verən şirkət özü hər hansı bir riskə və ya risk növünə görə öhdəliklərin limitini müəyyən edir. Bu, maksimum tutulma olacaqdır, lakin o, istəsə, öhdəliyi az məbləğdə qəbul edə bilər. Tutulmadan yuxarı ekssedent təkrar sığortaçıya qalacaqdır.

EKSTERNALİLƏR (xarici effekt) – bilavasitə maddi və ya pul məsrəfləri etməyən, lakin başqalarının fəaliyyətinin kənar nəticələrindən yararlanan adamların xərcləri və ya mənfəətləri. Belə effektlər sövdənin üçüncü şəxsləri effekti də adlandırılır. İstehsal və ya istehlakla bağlı xarici effektlər üçüncü şəxs üçün müsbət və ya mənfi ola bilər. Ümumiyyətlə, bu effektlərin dörd əsas növü fərqləndirilir:

1. Əgər ictimai son həddxərcləri xüsusi son həddxərclərindən çox olarsa, xarici effekt mənfi olar. Bu, istehsalla bağlı mənfi xarici effektdir.
2. İstehlakla bağlı mənfi xarici effektin mahiyyəti ondan ibarətdir ki, bu effektlər hər hansı bir məhsulun istehlakından sosial qazancları azaldırlar.
3. Müsbət xarici effektlərin istehsalçının xüsusi xərcinin onun sosial optimal xərclərindən az olması kimi ifadə olunur.
4. İstehlakın müsbət xarici effekti isə sosial son həddqazanclarının xüsusi qazanclardan üstün olmasıdır.

EKSTERNALİLƏR NƏZƏRİYYƏSİ – iqtisadçıların diqqətini çoxdan cəlb edən xarici effektlər problemi elmi-texniki tərəqqi əsri adlandırılan XX əsrdə daha qabarıq şəkildə təzahür etməyə başladı. Eksternalilər nəzəriyyəsinin işlənilməsində xüsusi xidmətləri olan A.Piqunun tədqiqatları hazırkı dövrdə Nobel mükafatı laureatı R.Kouz tərəfindən inkişaf etdirilmişdir. Kənar effektlərin mənfi nəticələrinin aradan qaldırılmasında dövlət müdaxiləsinin zəruriliyini iddia edən A.Piqudan fərqli olaraq, bu effektlərin dəyişkənliyini əsas tutan R.Kouz onların dövlət müdaxiləsi üçün qaçılmaz əsas olması ilə razılaşmır. R.Kouz hesab edir ki, kənar effektlər problemi – maraqlı, tərəflərin razılaşması yolu ilə həll oluna bilər. Belə razılaşmanın əldə olunması üçün isə mülkiyyət hüququnun dəqiq müəyyənləşdirilməsi və az şəxsin iştirakı ilə bağlanan müqavilənin dəyərinin nisbətən aşağı olması şərtləri əsas götürülməlidir.

EKSTRA MÜKAFAT – sığortada yüksək təhlükəli əlavə risklərin sığortalanmasına görə sığortalı tərəfindən sığortaçıya adi mükafatdan yuxarı ödənilən əlavə mükafat.

EKVİVALENT (lat. *equivalentis* – bərabər qiymətli, eyni mənalı, eyni güclü) – iqtisadi nəzəriyyədə başqa əmtəələrin dəyərini ifadə edən əmtəə. Başqa əmtəələrin dəyərini ifadə edən ən ümumi ekvivalent pul.


EKYU (fr. *ecu*) – XIII-XVIII əsrlərdə fransız qızıl və gümüş sikkəsi. 1970-ci illərin axırlarında Avropa Valyuta Sistemi (AVS) yaradılan vaxt Avropa İttifaqının, əsasən, hesablaşma xarakteri daşıyan şərti kollektiv

regional valyutası kimi tətbiq edilmişdir. Ekyu əsginaslar və sikkələr şəklində maddi formaya malik olmayıb, yazılı valyuta idi. O, bu sistem daxilində milli valyutasını və öz mərkəzi bankını qoruyub saxlayan ölkələr arasında pul-kredit dövriyyəsinə xidmət edirdi. Ekyu üçün dörd funksiya nəzərdə tutulmuşdu: valyuta mübadiləsi mexanizmində ümumi ekvivalent kimi xidmət etmək; mübadilə məzənnələrinin divergensiya (fərqlənmə) indikatoru; valyuta müdaxiləsi və kredit əməliyyatlarında ortaq məxrəc; Avropa valyuta sisteminin ümumi pul-kredit siyasətini həyata keçirən institutlar arasında tənzimləmə vasitəsi və ehtiyat valyuta rolu oynamaq. O, Aİ çərçivəsində ticarət dövriyyəsinin yalnız az bir qisminə xidmət edirdi. Bu şəraitdə real vahid ümumavropa valyutasının yaradılması zəruri idi. Avro məhz bu cür valyuta kimi hazırlanıb tədavülə buraxılmışdır. Maastrixt müqaviləsinə müvafiq olaraq hər bir ölkədə bu valyutaya keçid uzunmüddətli hazırlıq mərhələləri və bir sıra mürəkkəb problemlərin həll olunmasını tələb edir. Avropa valyuta sisteminə daxil olan ilk yeddi ölkə üçün avroya keçid 1999-cu ilə təyin edilmişdi. 2002-ci ildən Aİ ölkələrində ekyunu avro əvəz etmişdi.

EQALİTARİZM (fr. *egalitarisme*) – dövlətdə yaşayan bütün vətandaşların faktiki maddi bərabərliyinin yaradılması cəhdi kimi baxılır.

ELAN OLUNMUŞ KAPİTAL – 1. Şirkətin tədavülə buraxılmış bütün səhmlərinin no- minal dəyərlərinin məbləği.

Elastik qiymət



Sxem 1

2. Nominaldan yuxarı ödənilən kapitalın hesabına qanunla daxil ola bilən başqa nominal dəyərə malik olmayan bütün səhmlərin satışından alınan gəlirin məbləği. 3. Qanunlara müvafiq olaraq elan edilən digər vəsaitlərin məbləğindən bütün çıxılmalar çıxılmaqla başqa hallarda və ya səhmlərin bölgüsündən sonra elan olunmuş kapitalın hesabına aid digər vəsaitlərin məbləği.


ELASTİK QİYMƏT – əmtəələrlə bağlı tələb və təklifin nisbətinin dəyişməsinə tez reaksiya verən, yəni tələb təklifdən yüksək olduqda artan, təklif tələbdən yüksək olduqda azalan qiymət. Praktikada çox zaman qiymətin dəyişməsinə tələb və təklifin kəmiyyətinin intensiv reaksiyasını xarakterizə edən qiymətə görə tələb və ya təklifin elastikliyi müəyyən edilir. Tələbin (təklifin) elastiklik əmsalı tələbin (təklifin) dəyişməsinin qiymətin dəyişməsinə faizlə münasibəti kimi hesablanır. Əgər bu əmsal vahiddən böyükdürsə, onda tələb elastikdir, əgər vahiddən azdırsa, onda qeyri-elastikdir.

ELASTİKLİK (yun. *elastos* – asan əyilə bilən, əyilgən, elastiklik əmsalı) – tədqiq edilən endogen dəyişənin onu təyin edən


amillərin (ekzogen dəyişənlərin) dəyişməsinə reaksiya göstəricisi (dəyişmənin sürəti). İqtisadi təhlildə elastiklik əmsalının hesablanmasının iki üsulu var: qövsşəkilli və nöqtəvi elastiklik kimi. Bir qayda olaraq, "elastiklik" dedikdə qövsşəkilli elastiklik başa düşülür. Elastiklik əmsalı endogen dəyişənin nisbi dəyişməsi ilə ekzogen dəyişənlərdən birinin nisbi dəyişməsinin nisbəti kimi hesablanır. Prinsip etibarilə bir-biri ilə funksional əlaqəsi olan istənilən iki iqtisadi göstəricinin elastikliyi barədə söhbət gedə bilər; məsələn, tələbin qiymətə görə elastikliyi, tələbin gəlirə görə elastikliyi; təklifin qiymətə görə elastikliyi; milli gəlirin idxala görə elastikliyi və s. Yalnız bir parametrdən asılı iqtisadi dəyişən real şəkildə mövcud olmadığına görə iqtisadi təhlil praktikasında elastiklik xüsusi göstəricidir. Yəni, o, ekzogen dəyişənlərdən yalnız birinin endogen dəyişənə təsirinin spesifikasını üzə çıxarır. Tam elastiklik yalnız nöqtəvi elastiklik kimi hesablana bilər.

Elastiklik göstəricisinin geniş yayılması onunla izah edilə bilər ki, mütləq dəyişmələrin nisbətindən ($\Delta x/\Delta y$) fərqli olaraq elastiklik hesablanarkən dəyişən kəmiyyətlərin dinamikaları müqayisə edilir. Məsələn, bananın 1 kiloqramının qiyməti 1 dollar ucuzlaşdıqda ona tələbat xeyli artır, lakin avtomobilin qiymətinin həmin məbləğ qədər dəyişməsi praktik olaraq avtomobilə tələbata təsir göstərməyəcəkdir. Halbuki qiymətin mütləq dəyişməsi hər iki halda eyni – 1 dollar olacaqdır.


Funksiyaların elastiklik üzrə təsnifatı




Funksiyanın tamamilə qeyri-elastik sahəsi: $E^a=0$




Funksiyanın elastik sahəsi: $|E^a|>1$



Funksiyanın qeyri-elastik sahəsi: $|E^a|<0$



Funksiyanın tamamilə elastik sahəsi: $|E^a| \to \infty$



Elastikliyi vahidə bərabər olan funksiya: $|E^a|=1$

Şərti işarələr: x – ekzogen dəyişənin loqarifmi, y – endogen dəyişən, $y = log\ f(x)$ – endogen dəyişənin loqarifmi, E^a – tədqiq edilən funksiyanın qrafikinin elastikliyi (bax: Qövsvarı elastiklik).

Elastiklik əmsalı istənilən həqiqi qiymətlər ala bilər. Adətən, tədqiq edilən funksiyaların elastiklik qiymətlərindən asılı olaraq onları 5 tipə bölürlər (şəklə bax). Bəzi qeyri-xətti funksiyaların elastikliyi sabit olur (yəni bu funksiyanın hər bir

hissəsinin elastikliyi eyni bir ədədlə ifadə edilir). İqtisadçılar çox vaxt məhz bu cür funksiyaları təyin etməyə çalışırlar, çünki onlar iqtisadi agentlərin endogen göstəricilərin dəyişməsinə orta həssaslığını daha dəqiq nümayiş etdirirlər.

Hansı amilin seçilməsindən asılı olaraq elastiklik qiymətləri əhəmiyyətli dərəcədə dəyişə bilər. Məsələn, tələbat qiymətə görə elastik olduğu halda gəlirə görə qeyri-elastik ola bilər.

ELASTİKLİK ƏMSALI – vahid nisbi dəyişmə zamanı bir əlamətin digər əlamətlə nisbi dəyişməsini xarakterizə edən və asılı olduğu amillərlə münasibətdə iqtisadi kəmiyyətin hissetmə ölçüsünü göstərən əmsal.

ELEKTRİKLƏŞDİRMƏ – iqtisadiyyatda elektrik enerjisinin geniş tətbiqi. Elektrikləşdirmə təbii energetika ehtiyatlarından (resurslarından) düzgün istifadə etməyə, məhsuldar qüvvələri daha səmərəli yerləşdirməyə, istehsalı mexanikləşdirməyə və avtomatlaşdırmağa, əmək məhsuldarlığını yüksəltməyə imkan verir.

Elektrikləşdirməyə XIX əsrin axırlarında ABŞ-da və Rusiyada başlanmışdır. Bu dövrdə elektrik enerjisi üçün elektrik generatorları yaradılmış, elektrik enerjisinin uzaq məsafələrə verilməsi mənimsənilmişdi. 1883-cü il ildə Peterburqda, bir neçə il sonra isə Moskvada İES tikilmişdi.

Elektrikləşdirmənin əsasını İES-lər təşkil edir; İES-lər bütün elektrik enerjisinin 80%-dən çoxunu (1977-2010 – 91,7%; Azərbaycan – 90,8%) istehsal edir. Elektrikləşmə həmçinin hidroenergetikanın, su ehtiyatlarından kompleks istifadə edilməsi ilə inkişaf etmişdir. Obninskdə sənaye əhəmiyyətli ilk sınaq AES-in istifadəyə verilməsi (1954) ilə nüvə energetikası elektrikləşdirmənin daha perspektivli istiqamətlərindən birinə çevrilmişdir. Hazırda AES-lər dünya energetik balansında 6%-dən çox xüsusi çəkiyə malikdirlər Azərbaycanın elektroenergetikasının əsası 1883-cü ildə Bakıda hər biri 16 at gücündə olan iki buxar turbinin quraşdırılması ilə qoyulmuşdur. Abşeron yarımadasında sürətlə inkişaf edən neft sənayesini,

Cədvəl 1

Azərbaycanda elektrik stansiyaları

ELEKTRİK STANSİYALARI	Blokların sayı və layihə gücü (MVt)
İSTİLİK ELEKTRİK STANSİYALARI	
Azərbaycan İES	8 (2400)
Şirvan İES	7 (1050)
Sumqayıt İES	3 (525)
"Şimal" İES	1 (400)
"Səngəçal" İES	18 (300)
Bakı İEM	2 (106)
"Bakı" İES	12 (104)
"Şahdağ" İES	12 (104)
"Astara" İES	10 (87)
"Şəki" İES	10 (87)
"Xaçmaz" İES	10 (87)
Naxçıvan İES	10 (87)
Naxçıvan İES	4 (64)
Cəmi İES	107(5401)
SU ELEKTRİK STANSİYALARI	
Şəmkir SES	2 (380)
Mingəçevir SES	6 (400)
Yenikənd SES	4 (150)
Varvara SES	3 (16)
"Araz" SES	2 (22)
"Biləv" SES	2 (22)
Cəmi SES	19 (990)
YEKUN	6391

həmçinin Bakının özünü elektrik enerjisi ilə təchiz etmək məqsədilə 1898-1899-cu illərdə "Elektrik gücü" Səhmdar Cəmiyyəti yaradıldı. O, şəhərin ətrafında iki elektrik stansiyası inşa etdi:

1. Bibiheybət, 1470 kVt gücündə;
2. Ağ şəhər, 4260 kVt gücündə.

1913-cü il ildə Rusiyanın elektrik stansiyalarının gücü 1140 min kVt idi; 2 mlrd. kVt elektrik enerjisi istehsal edilmişdi (o cümlədən, Azərbaycanda müvafiq olaraq 40 min kVt və 111 mln. kVt/s). Rusiya elektrik enerjisi istehsalına görə dünyada 8-ci yeri tuturdu.

1906-cı ildə Azərbaycanda ilk dəfə elektrik enerjisinin 20 kV gərginlikli xətlə Ağ şəhər İES-dən 8,5 km məsafədə yerləşən Balaxanı neft mədənlərinə ötürülməsinə başlandı. 1915-ci ildə hava verilişi xətlərinin uzunluğu 75 km-ə, kabel xətlərinin uzunluğu 52 km-ə çatırdı.

1916-cı ilin yanvarında Bakıdakı hər iki elektrik stansiyasının paralel işləməsini təmin edən 20 kVt-lıq elektrik verilişi xətti çəkildi.

Kür, Araz, Samur çaylarının ucuz təbii resurslarından istifadə etməklə, hidroenergetik qurğuların inşası və onların əsasında respublika iqtisadiyyatının müxtəlif sahələrinin inkişafı üzrə proqram işlənib hazırlandı.

1938-ci ildə 110 kV-lıq yüksəkgərginlikli "Qırmızı Ulduz"–Ramana xətti və 110 kV-lıq 2-ci "Qala" yarımstansiyası istismara verildi. Sonrakı illərdə 110 kV-lıq "Suraxanı" yarımstansiyası inşa edildi və 110 kV-lıq







Mingəçevir Su Elektrik Stansiyası



Xaçmaz Elektrik Stansiyası



Bibiheybət elektrik stansiyası (1914)



Sabunçu elektrik stansiyası (1919)

Ramana-Suraxanı və Suraxanı-Qala yüksəkgərginlikli elektrik verilişi xətti çəkildi.

1940-cı illərin əvvəllərində dərin neft quyularının qazılmasına və istismarına başlandı ki, bu da enerji sisteminin gücünün artırılmasını tələb edirdi. Bu illərdə Bayılov qəsəbəsində L.Krasin adına DRES və "Qırmızı Ulduz" İEM istifadəyə verilmişdir.

1940-cı ildə respublikanın elektrik stansiyalarının qoyuluş gücü 250 MVt, elektrik enerjisi hasilatı isə 1,7 mlrd. kVt/s-dan artıq idi. 1941-ci ilin fevralında Sumqayıt 1 nömrəli İEM istismara verildi.

İkinci Dünya müharibəsindən sonra elektrik yarımstansiyalarının və EVX-lərin inşası davam etdirildi. 81 km uzunluğunda 110 kV-lıq Ələt-Neftçala, 17,7 km uzunluğunda 110 kV-lıq Qala-Damba xətti bu qəbildəndir. Həmin EVX-lərin köməyi ilə neft quyuları elektrik enerjisi ilə təchiz edilirdi.

1953-cü ildə Bakı 2 nömrəli İEM işə düşdü. 1964-cü ildə sonuncu 4 turbogenerator istismara verildi və mərkəzin ümumi elektrik gücü 24 MVt, istilik gücü 383 MVt təşkil etdi.

1954-cü ildə Kür çayı üzərində Mingəçevir Su Elektrik Stansiyası silsiləsinin ilk növbəsi – 359 MVt gücündə Mingəçevir SES fəaliyyətə başladı. Mingəçevir hidrokompleksinə "Varvara" kiçik SES-də daxildir.

Elə həmin il hər biri 25 MVt gücündə iki turboaqreqatla təchiz edilmiş "Şimal" DRES-in ilk növbəsi elektrik enerjisi istehsalına başladı. 1960-cı ildə stansiyada 150 MVt gücündə açıq tipli enerji bloku quraşdırıldı.

1962-ci ildə Sumqayıt 1 nömrəli İEM-də sonuncu – on birinci turbogenerator istismara verildi.

1959-cu ildə Avropada açıq quruluşlu ilk iri istilik elektrik stansiyasının – Əli Bayramlı DRES-in inşasına başlandı. Stansiyanın hər biri 150 MVt gücündə 4 enerji blokundan ibarət birinci növbəsinin istismara verilməsi nəinki Azərbaycanın enerji tələbatını təmin etməyə, həmçinin 1964-1965-ci illərdə Cənubi Qafqaz respublikalarına 1,7 mlrd. kVt/s elektrik enerjisi ötürməyə imkan yaratdı. İkinci növbəyə daxil olan 5-7-ci blokların istismara verilməsi ilə stansiyanın qoyuluş gücü 1050 MVt-yə çatdırıldı.

1962-ci ildə "Azərenerji" İdarəsinin bazasında Azərbaycan SSR Energetika və Elektrikləşdirmə üzrə Baş İdarəsi – "Azbaenerji" yaradıldı; "Azərkommunenerji" və "Azərkəndelektrik"in yarımstansiyaları və şəbəkələri onun tabeliyinə verildi.

1964-cü ildə Gəncə İEM-in ilk turbogeneratoru işə salındı. Burada bütün qurğuların istismara verilməsindən sonra stansiyanın gücü 72 MVt-yə çatdı.

İnkişafda olan Sumqayıt sənaye rayonunun artan istilik və elektrik tələbatını ödəmək üçün Sumqayıt 2 nömrəli İEM-in inşasına başlanıldı. Stansiyanın ilk turbogeneratoru 1966-cı ildə, sonuncu – dördüncü turbogeneratoru isə 1972-ci ildə istismara verildi. Bütün aqreqatlar işə salınandan sonra stansiyanın ümumi gücü 220 MVt-yə çatdı.

Avadanlığın köhnəlməsi, istilik enerjisinə tələbatın olmaması və istehsalın zərərlə başa gəlməsi ilə əlaqədar olaraq 2002-ci ildə Sumqayıtdakı 1 və 2 nömrəli İEM-in, 2003-cü ildə isə Bakıdakı 2 nömrəli İEM-in fəaliyyəti müvəqqəti konservasiya edilmişdi.

1971-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində Araz çayı üzərində "Araz" Azərbaycan-İran birgə hidro silsiləsinə daxil olan hər biri 22 MVt gücündə iki elektrik stansiyasının inşasına başlandı.

Bu xətlər Gürcüstana və Ermənistana elektrik enerjisi verilişini artırmağa imkan verdi və Cənubi Qafqaz respublikalarının enerji sistemlərinin paralel işləməsini təmin etdi. 1964-cü ildə bu EVX-lər 330 kV gərginliyə keçirildi.

1968-1971-ci illərdə uzunluğu 383 km olan 330 kV-lıq Əli Bayramlı DRES, Ağdam, Gəncə, Ağstafa və Azərbaycan ərazisində uzunluğu 287 km, Dağıstan ərazisində 49 km olan 330 kV-lıq Əli Bayramlı DRES, Yaşma, Dərbənd yüksəkgərginlikli xətləri, həmçinin, 330/110/10 kV-lıq "Yaşma", "Gəncə" və "Ağstafa" qovşaq yarımstansiyaları inşa edilib istismara verildi. Bu tədbirlər enerji sisteminin dayanıqlığını təmin etdi və müxtəlif enerji sistemləri arasında əlaqəni gücləndirdi. 60-cı illərdə uzunluqları müvafiq olaraq 124,8 və 128 km olan 220 kV-lıq iki Əli Bayramlı-Xırdalan xətləri çəkildi. Bu xətlərin istismara verilməsi Abşeron yarımadasına Əli Bayramlı DRES-dən elektrik enerjisi ötürülməsini təmin etdi.

Azərbaycan DRES-in inşası respublikanın enerji şəbəkəsinin

Cədvəl 1

Azərbaycan Respublikasında elektrik enerjisinin istehsalı

İllər	Elektrik enerjisinin istehsalı, mln. kVt.s	ondan:				
		İES-lərin istehsalı	SES-lərin istehsalı	qeyri-enerji müəssisələrinin	generatorlar vasitəsilə	külək enerjisi
1913	0,110	...	...	...	...	-
1920	0,122	...	...	...	...	-
1930	0,503	...	...	...	...	-
1940	1,827	1,802	0,024	...	...	-
1950	2,924	2,894	0,029	...	...	-
1960	6,590	4,626	1,963	...	...	-
1970	12,027	10,893	1,022	0,111	...	-
1980	15,045	13,825	1,098	0,122	...	-
1990	23,152	21,399	1,658	0,095	...	-
1995	17,044	15,401	1,556	0,086	...	-
2000	18,699	17,069	1,534	0,083	0,013	-
2001	18,969	17,521	1,301	0,131	0,015	-
2002	18,701	16,558	2,020	0,103	0,018	-
2003	21,286	18,681	2,470	0,104	0,030	-
2004	21,744	18,589	2,755	0,365	0,033	-
2005	22,872	19,344	3,009	0,430	0,088	-
2006	24,543	21,407	2,518	0,475	0,141	-
2007	21,847	19,051	2,364	0,432	-	-
2008	21,642	19,090	2,232	0,319	-	-
2009	18,869	16,289	2,308	0,269	-	0,002
2010	18,710	15,003	3,446	0,259	-	-

inkişafında yeni mərhələnin başlanğıcı oldu. Uzunluğu 239,4 km olan 500 kV-lıq 1-ci Abşeron EVX (hazırda müvəqqəti olaraq 330 kV gərginlikdə işləyir), uzunluğu 242,8 km olan 500 kV-lıq 2-ci Abşeron EVX, Gürcüstanda uzunluğu 197 km olan 500 kV-lıq Muxrani-Vəli EVX (hazırda qismən dağılmış vəziyyətdədir), müvafiq olaraq 46,4 və 88,7 km uzunluğunda 4-cü və 5-ci Mingəçevir EVX-lər çəkildi. 80-ci illərdə, həmçinin, 500/330/220 kV-lıq "Abşeron", 330/1 10/10 kV-lıq "İmişli", 220/1 10/10 kV-lıq "Hövsan", "Nizami", "Müşfiq", "Səngəçal", "Masallı", "Ağsu", "Babək" qovşaq yarımstansiyaları istismara verildi, Azərbaycan DRES-in inşası ilə bağlı olan bir sıra EVX-lər də həmin dövrdə çəkildi. Bundan başqa, həmin dövrdə uzunluqları, müvafiq olaraq, 85,1 və 4,3 km olan 330 kV-lıq 3-cü Əli Bayramlı və 3-cü İmişli EVX-lər istismara verilmişdir.

Ötən əsrin 70-ci illərinin sonlarında respublikanın ümumi gücü 2882,4 MVt olan elektrik stansiyaları 15,4 mlrd. kVt/s elektrik enerjisi istehsal edirdi. Bununla belə, sürətli inkişafda olan iqtisadiyyatın durmadan artan tələbatı Azərbaycanı qonşu respublikalardan 2,9-3,5 mlrd. kVt/s elektrik enerjisi idxal etmək məcburiyyətində qoyurdu. Bu çatışmazlığı aradan qaldırmaq üçün tez bir zamanda Şəmkir SES-in və Azərbaycan DRES-in inşasına başlamaq qərara alındı.

1977-ci ildə Azərbaycanda SES-lərin ümumi gücü 468 min kvt olmuş, hidroelektroenergetika istehsalı 1455 mln. kVt/s təşkil etmişdir.

Azərbaycan DRES-in tikintisinə 1974-cü ildə başlanıldı. 300 MVt gücündə ilk enerji bloku 1981-ci ildə, həmin gücdə sonuncu enerji bloku 1990-cı ildə istismara verildi. Hazırda bu stansiyanın qoyuluş gücü 2400 MVt-yə təşkil edir.

Şəmkir SES silsiləsinin 380 MVt gücündə ilk hidroloji qurğusu 1981-1982-ci illərdə istismara verildi.

2000-ci ildə Yenikənd SES, Bakı 1 nömrəli İEM-də hər biri 55 MVt olan iki qaz-turbin qurğusu, 2002-ci ildə isə "Şimal" İES-də 400 MVt gücündə buxar-qaz qurğusu istismara verildi.

2006-cı ildə Naxçıvan QTES-də təbii qaz yanacağına keçirilməsi ilə əlaqədar 64 MVt gücündə dörd ədəd qaz turbin qurğusu, Vayxır SES-də 4,5 MVt gücündə üç ədəd hidroqurğu, Astara, Şəki, Xaçmaz və Naxçıvanda hər birinin gücü 87 MVt, ümumi gücü 348 MVt olan dörd ədəd və 2007-ci ilin fevral ayında isə Bakıda 104 MVt gücündə elektrik stansiyaları istismara verildi.






Alternativ enerji mənbələri

Elektrik stansiyalarının inşası, enerji potensialının artırılması ilə eyni vaxtda elektrik şəbəkələri də sistematik inkişaf etdirilmiş, respublikanın elektroenergetika sistemi yaradılmışdır.

Hazırda Azərbaycan ərazisində elektrik enerjisinin istehsalı və ötürülməsinin idarə olunmasını – vahid təşkilat olaraq "Azərenerji" ASC həyata keçirir. "Azərenerji" ASC-nin tabeliyinə bir neçə kiçik SES istisna olmaqla, bütün elektrik stansiyaları və eləcə də, ötürülmə sistemini təşkil edən elektrik verilişi xətləri və yarımstansiyaları daxildir.


Azərbaycanın enerji sisteminin generasiya gücünün 80%-i ha-

Dünyada əsas yanacaq enerji resurslarının istehlakı (mln. barel)




Qrafik 1

Dünyada təbii qazın istehlakı (mlrd. kubmetr)



Qrafik 2

Dünyada enerji resurslarının istehlakı strukturu



Qrafik 1

zırda respublikanın qərb hissəsində (gücü 2 400 MVt olan Azərbaycan İES buxar-turbin elektrik stansiyası, gücü 360 MVt olan Mingəçevir SES, gücü 380 MVt olan Şəmkir SES və gücü 150 MVt olan Yenikənd SES), istehlak olunan enerjinin 70%-i isə respublika ərazisinin şərq, şimal-şərq və cənub-şərq hissəsində cəmləşmişdir. Bunun nəticəsində, Abşeron yarımadasından əsas elektrik stansiyaları sayılan 2400 MVt gücündə Azərbaycan İES və 1050 MVt gücündə ƏliBayramlı İES üçün yüzlərlə kilometrlik məsafəyə yanacaq nəql edilir. İstehsal olunan elektrik enerjisi isə əks istiqamətdə Abşeron yarımadasına geri qayıdır və eləcə də, buradan şimal və cənub regionlarına ötürülür. Azərbaycanın qərb və şərq hissələri arasında enerji mübadiləsi iki 500 kV-lıq elektrik verilişi xətləri vasitəsilə həyata keçirilir.

2011-2015-ci illərdə nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi nəticəsində enerji sistemində əlavə 3 min meqavatdan artıq güc əldə ediləcəkdir.

1. Cənub İES	***780 MVt***
2. Azərbaycan İES (blokların yenidən qurulması)	***450 MVt***
3. Mingəçevir və Varvara SES (yenidənqurma)	***90 MVt***
4. Füzuli SES	***25 MVt***
5. Tovuz SES	***400 MVt***
6. "Şimal" ES (yeni blok)	***400 MVt***
7. Kiçik SES-lər	***600 MVt***
8. Bakı İEM (yenidənqurma)	***50 MVt***
9. Lerik SES	***16,5 MVt***
10. Böyükşor İES	***300 MVt***

2011-ci il 1 sentyabr tarixində "Azərenerji" ASC-nin tabeliyində olan bütün elektrik stansiyalarının qoyuluş gücü 6391 MVt təşkil edir.


ELEKTROENERGETİKA – külli miqdarda elektrik enerjisinin alınması, uzaq məsafələrə ötürülməsi və işlədicilər arasında paylaşdırılması problemləri ilə məşğul olan energetika sahəsi. Elektroenergetika sənaye, nəqliyyat, kənd təsərrüfatı, rabitə, mənzil-kommunal təsər-

rüfatı energetikasının əsasıdır. Elektroenergetikanın əsas ehtiyatları yanacaq (kömür, neft, təbii qaz, yanar şist və s.), su və nüvə enerjisidir.

Alternativ enerji mənbələrindən, Günəş enerjisi və geotermal enerjidən də istifadə olunur. Elektrik enerjisinin əsas hissəsi böyük energetika sistemlərinə daxil olan güclü elektrik stansiyalarında hasil edilir. İES-lər bütün elektrik enerjisinin 83%-dən çoxunu verir. Elektrik enerjisi istehsalında hidroenergitika əsas sahələrdən biridir. Elektroenergetikanın inkişafı üçün atom elektrik stansiyalarının böyük perspektivləri vardır. Elektroenergetika aşağıdakı istiqamətlərdə inkişaf edir: bir-biri ilə yüksək gərginlikli elektrikgötürmə xətləri ilə əlaqələndirilərək elektroenergetika sistemində birləşdirilmiş nəhəng istilik, su və atom elektrik stansiyalarının istehsalı, çevrilməsi və ötürülməsi üçün olan avadanlıqların (generator, transformator, yüksək gərginlik açarları və s.) texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılması.

ELEKTRON AVADANLIĞIN SIĞORTALANMASI – kompüterlərin, hesablama, telekommunikasiya, surətçıxarma, çoxaltma texnikasının, eləcə də dəqiq mexanikanın və optikanın, o cümlədən ölçü cihazlarının, foto, kino və videotexnikanın və s. avadanlıqların sığortalanması. Elektron avadanlığın sığortalanması şərtlərinə görə polisdə sadalanan predmetlərin oğurlanması, məhv olması və zədələnməsi ilə əlaqədar yaranan birbaşa itkilər ödənilir.

Dünyada enerji resurslarının istehlakı strukturu, faizlə



Qrafik 4

ELEKTRON HESABLAMA MAŞINLARININ TƏKAMÜLÜ




EHM-lərin I nəsli 1955-1960
1952-ci il aprel ayının 29-da İBM firmasının ilk EHM-i yarandı. Bu maşında yaddaş kimi maqnit barabanından istifadə olunurdu.
Operativ yaddaş qurğusunun həcmi 20480 bayt, məhsuldarlıq saniyədə 8000 mln. əməliyyatdır.

EHM-lərin II nəsli 1956-1965
1964-cü ildə hazırlanmışdır. Müxtəlif modellərdə 19 mərkəzi prosessor və 40 periferiya tipinin kombinasiyalarından istifadə olunmuşdur.
Operativ yaddaş qurğusunun həcmi – 265 Kb
Məhsuldarlıq saniyədə 246 mln. əməliyyatdır.




ELEKTRON HESABLAMA MAŞINI (EHM) – elektron elementlərdən təşkil olunmuş universal hesablama sistemi. Verilmiş alqoritmlər üzrə məntiqi məlumat və hesablama tapşırıqlarının həllinin avtomatlaşdırılması üçün nəzərdə tutulmuşdur. EHM tərkibinə daxildir: prosessor, əməliyyat yaddaşı, məlumatların ötürülməsi və rabitə kanalları, xarici yaddaş, məlumatların daxil edilməsi və alınması, teleişləmə qurğuları. EHM onların funksional şəraitini, texniki vasitələrin siyahısını genişləndirmək və proqram təminatını inkişaf etdirmək əsasında təkmilləşdirilməsi imkanları ilə açıq sistem kimi yaradılmışdır.

ELEKTRON HESABLAMA TEXNİKASININ SIĞORTALANMASI – əmlak sığortası növü. Bunun obtekti kompüterlər və onlarla bağlı qurğular, konstruksiyalar, mexanizmlərdir. Kompüter texnikasının mexaniki zədələnməsi, məhv olması, oğurlanması nəticəsində, eləcə də xüsusi kondisiyalaşdırılmış (normaya, standarta uyğunlaşdırılmış) qurğuların fəaliyyət göstərməsində havanın təmizliyinin və temperatur rejiminin dəyişməsi üzündən yaranan pozuntular nəticəsində dəyən zərər ödənilməlidir. Bundan əlavə, elektrik təchizatı və telekommunikasiya sisteminin açılması üzündən fasilələr nəticəsində və digər amillərlə əlaqədar hesablama texnikasının istismardan çıxarılması üzündən istehsal fəaliyyətinin dayandırılması nəticəsində yaranan itkilər də sığortalana bilər.



EHM-lərin III nəsli 1965-1970 Məsələn: IBM 370-145 1970-ci ildə hazırlanmışdır. İlk dəfə 1400 kristal elementdən ibarət inteqral sxemlərdən istifadə olunmuşdur. Operativ yaddaş qurğusunun həcmi 512 Kb, məhsuldarlıq saniyədə 1,23 mln. əməliyyatdır.

EHM-lərin IV nəsli 1970-1990 Məsələn: IBM 370-168 1972-ci ildə hazırlanmışdır. Bu, ən geniş yayılmış modellərdən biri idi. Operativ yaddaş qurğusunun həcmi – 8,2 Mb Məhsuldarlıq saniyədə 7,7 mln. əməliyyatdır.



ELEKTRON HÖKUMƏT və ya E-HÖKUMƏT – hər hansı bir ölkənin dövlət strukturları haqqında məlumatların bütün vətəndaşlar üçün açıq olan şəbəkədə yerləşdirilməsi. Yəni hər bir vətəndaş istənilən nazirlik və komitədən tutmuş, mənzil-təsərrüfat idarəsi ilə məktəbə qədər olan idarənin mövcud durumu, bu qurumlara müraciətetmənin qaydalarını istənilən vaxt əldə edə və bu təşkilatlara elə elektron rabitə vasitəsilə müraciət edə bilər.

Mütəxəssislər hesab edirlər ki, "Elektron hökumət"in qurulması ölkədə hakimiyyət strukturlarının şəffaf fəaliyyət göstərməsinə gətirəcəkdir. Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində "Elektron hökumət" fəaliyyət göstərir. Azərbaycanda "Elektron hökumət" layihəsi "Elektron Azərbaycan" dövlət proqramı çərçivəsində həyata keçirilir. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" 2010-cu il 11 avqust tarixli Prezident sərəncamı ilə təsdiq edilmişdir.

Hazırda "Elektron hökumət"in qurulmasında elektron seçkilərin keçirilməsi tətbiq olunmaqdadır.

Azərbaycan MDB məkanında




EHM-lərin V nəsli 1990 Məsələn: IBM Server 1990 Fiziki parametrləri: çəkisi 2000 kq., enerji istehlakı 21 kVt, sahəsi 2,5 kv m, hündürlüyü 1,94 sm. Operativ yaddaş qurğusunun həcmi – 256 Kb, məhsuldarlıq – saniyədə 9 mlrd. əməliyyat

"Elektron hökumət" layihəsi üzərində işlərin aparıldığı 4-cü ölkədir.

Elektron sənəd – informasiya sistemində istifadə üçün elektron formada təqdim edilən və elektron imza ilə təsdiq olunmuş sənəd.

Elektron poçt – 1) fiziki poçt xidməti formasında qəbul edilə və ya yayımlana bilən, həmçinin məlumatların (göndərişlərin) elektron ötürülməsi üçün müəyyən edilmiş xidmət; 2) məlumatların yüksək sürətlə verilməsi, hesablama texnikası vasitələrinə daxil edilməsi, xüsusi rabitə vasitələri ilə hazırlanması və qaydaya salınması üçün elektrorabitə kanallarının aralıq "Elektron poçt qutuları" (bax: sxem 1).

Elektron hökumətin iş sxemi



Sxem 1

"ELEKTRON" PUL – bankları, pərakəndə ticarət və məişət xidmətləri müəssisələrini əhatə edən nağdsız haqq-hesablar sistemi. Bu sistem vətəndaşların nağd pul, çeklər və kredit kartları kimi ənənəvi ödəniş vasitələrindən istifadə etmədən distansion elektron terminallardan öz banklarına malların və xidmətlərin ödənişi haqqında sərəncamlar göndərməsinə imkan verir.

ELEKTRON VERGİ HESAB-FAKTURASI – müəyyən icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi forma üzrə hazırlanan və özündə lazımi məlumatları əks etdirən sənəd. Əlavə dəyər vergisinin ödəyicisi kimi qeydiyyatdan keçən və ƏDV tutulan əməliyyat aparan şəxs malları, işləri və ya xidmətləri qəbul edən şəxsə elektron vergi

hesab-fakturasını verməyə borcludur. ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməyən şəxsin elektron vergi hesab-fakturası verməyə hüququ yoxdur. Elektron vergi hesab-fakturası Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən müəyyən edilmiş forma üzrə hazırlanır və özündə aşağıdakı məlumatları əks etdirir:

1) vergi ödəyicisinin və alıcının (sifarişçinin) adı;
2) vergi ödəyicisinin və alıcının (sifarişçinin) eyniləşdirmə nömrəsi;
3) yola salınmış malların, görülmüş işlərin və ya göstərilmiş xidmətlərin adı;
4) vergi tutulan əməliyyatın haqqının məbləği, həmçinin vergi tutulan əməliyyatın həcmi;
5) aksizli mallarda aksizin məbləği;
6) vergi tutulan əməliyyatdan ödənilməli olan verginin məbləği;
7) elektron vergi hesab-fakturasının verilmə tarixi;
8) elektron vergi hesab-fakturasının nömrəsi;
9) ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyicisinin qeydiyyat bildirişini vermiş vergi orqanının adı, bildirişin verilmə tarixi və nömrəsi;
10) elektron vergi hesab-fakturasını imza etmiş məsul şəxsin vəzifəsi, soyadı, adı, atasının adı.

ƏDV ödəyicisi malın alıcısına (işlərin, xidmətlərin sifarişçisinə) elektron vergi hesab-fakturasını mal göndəriləndən (iş görüləndən, xidmət göstəriləndən) sonra 5 gündən gec olmayaraq verməyə borcludur.

ELMİ ÖNCƏGÖRMƏ – müşahidə edilməyən, yaxud təcrübədə hələlik təsdiq olunmamış təbiət və cəmiyyət hadisələrinin qabaqcadan söylənilməsi. Bu, nəzəri və eksperimental məlumatların ümumiləşdirilməsinə və inkişafın obyektiv qanunauyğunluğunun nəzərə alınmasına əsaslanır. Elmi öncəgörmə elm qanunlarının dərk edilməsi əsasında həmin qanunlara tabe olan hadisələrin gələcəyi haqqında söylənilən bilikdir. Elmi öncəgörmə elmdə məlum olan qanunlar və nəzəriyyələr zəminində həyata keçirilir. Elmi öncəgörmə insan şüurunun "Qabaqlayan inikas" qabiliyyətindən törəmədir. Bu qabiliyyət isə tarixi-ictimai inkişaf nəticəsində yaranmışdır. İctimai və fərdi insan fəaliyyətinin ən sadə hallarında belə qabaqgörənlik qabiliyyəti təzahür edir (ilk əkinçi və heyvandarların işin tələbatına uyğun olaraq qabaqgörənliyi). Elmi öncəgörmə bir neçə əlamətinə görə təsnif edilə bilər: obyektlərin xarakterinə görə elmi öncəgörmə iki yerə ayrılır: 1. Hələ elmdə və təcrübədə məlum olmayan, lakin mövcud olan hadisələrin, yaxud onların müəyyən xassə və inkişaf istiqamətinin elmi öncəgörməsi (bu mənada keçmişdə mövcud olmuş və hazırda mövcud olan hadisələr və ya onların xassələri, cəhətləri qabaqcadan görülə bilər). 2. Mövcud olmayan, lakin yaranmalı olan hadisə və halların qabaqgörənliyi.

Həyata keçirilməsinin məntiqi mexanizminə görə elmi öncəgörmə yenə də iki yerə ayrılır: induktiv (bu özü iki mərhələdən ibarətdir: kütləvi empirik halların öyrənilməsi sayəsində onlar üçün ümumi olan cəhətlərin müəyyənləşdirilməsi və həmin cəhətlərin başqa hallara ekstrapolyasiya edilməsi) və deduktiv elmi öncəgörmə. Deduktiv elmi öncəgörmə özü də iki növə ayrılır: hipotetik-deduktiv elmi öncəgörmə və empirik-deduktiv elmi öncəgörmə. Hər iki halda elmi öncəgörmənin nəticəsi praktikada yoxlanılıb təsdiq edilməlidir. Gerçəkliyin obyektiv qanunauyğunluqlarının inkarı (aqnostisizm, skeptisizm) elmi öncəgörmənin inkarına gətirib çıxarır. Bu, ictimai inkişaf haqqında bütün idealist nəzəriyyələrə xasdır. Elmi öncəgörmənin meyarı onun əsasını təşkil edən qanun, nəzəriyyə və elmi sistemin kamilliyindədir.

ELMİ TARİF – bu tarif sistemi iqtisadi məqsədlərdən daha çox siyasi məqsədlər güdür; məsələn, milli müstəqillik, cəmiyyət üçün minimal xərclərlə müdafiə qabiliyyətinin təmin edilməsi və s.

Bu, səmərənin ən yüksək həddi ilə xərclərin ən yüksək həddi arasında nisbətləri sənayenin müdafiə edilən hər bir sahəsi üçün ən yüksək səmərəyə nisbətini bərabərləşdirmək və tariflərin ümumi səviyyəsini seçmək yolu ilə proteksionizmdən əldə edilən səmərəni maksimallaşdırmaq yolu ilə baş verir. Bu halda səmərənin ən yüksək qiyməti proteksionizmlə bağlı xərclərin yuxarı həddinə bərabər olur.

ELMİ-İSTEHSALAT BİRLİKLƏRİ – elmin istehsalatla birləşməsi formalarından biri. Birliklərə rəhbərlik edən elmi-tədqiqat institutları bazasında yaradılır; tərkibində adətən hüquqi şəxs hüququna malik texnoloji, layihə-konstruktor təşkilatları, təcrübə istehsalatı və seriya ilə məhsul buraxan zavodlar da daxildir. Elmi-İstehsalat Birliklərinə rəhbərliyi Baş direktorun başçılıq etdiyi (Baş direktor eyni zamanda elmi-tədqiqat institutunun direktorudur) Baş direktorluq həyata keçirir. EİB-lər keçmiş SSRİ-də daha geniş yayılmış və ilk dəfə 1967-ci ildə yaradılmışdır. Bunların yaradılması elm və istehsalatın birləşməsi prosesinə rəhbərliyi yaxşılaşdırmaqla, yeni texnikanın tədqiqindən seriya ilə istehsalına kimi davam edən müddəti maksimum qısaltmağa imkan verir. Elmi-İstehsalat Birliklərində yeni texnikanın hazırlanması və istehsalının mənimsənilməsi prosesinin müxtəlif mərhələlərinin təşkilati əlaqəsizliyi ləğv edilir, elmi-texniki tərəqqinin fasiləsizliyi təmin olunur. Layihəçilərin, konstruktorların, texnoloq və istehsalçıların elmi və texniki ideyaların işlənib hazırlanmasında fəal iştirak etmələri üçün imkanlar açılır.

ELMİ-TEXNİKİ İNQİLAB (ETİ) – ictimai istehsalın inkişafında elmin mühüm amilə çevrilməsi əsasında məhsuldar qüvvələrdə baş verən köklü keyfiyyət dəyişikliyi. ETİ, həmçinin elm və texnikanın inkişafında əsaslı keyfiyyət dəyişikliyi, dərin sıçrayışdır.

ETİ-nin ilkin elmi-texniki və sosial şərtləri var. Onun hazırlanmasında XIX əsrin sonu XX əsrin əvvəlində təbiətşünaslığın mühüm rolu olmuşdur. Elektronun, radiumun, kimyəvi elementlərin çevrilməsinin kəşfi, nisbilik və kvant nəzəriyyəsinin meydana gəlməsi ilə elm mikroaləm və böyük sürətlər sahəsinə daxil olmuşdur. 1920-ci illərdə inqilabi irəliləyiş texnikada da, ilk növbədə, sənaye və nəqliyyatda elektrikin tətbiqi nəticəsində baş vermişdir. Radio ixtira edilmiş, aviasiya meydana gəlmişdir. 1940-cı illərdə elm atom nüvəsinin parçalanması problemini həll etmiş, bəşəriyyət atom enerjisinə malik olmuşdur. Kibernetikanın yaranması mühüm əhəmiyyət kəsb etmişdir. Atom reaktorları və atom bombası yaratmaq sahəsindəki tədqiqatlar aparıcı dövlətləri iri milli elmi-texniki plan çərçivəsində elm və sənaye arasında razılaşdırılmış qarşılıqlı əlaqə yaratmağa məcbur etmişdir. Atom enerjisindən istifadə bəşəriyyətdə elmin rolunun dəyişdirici imkanlarına və onların praktik tətbiqinə inam yaratdı. Elmi məqsədlər üçün ayrılmış pul vəsaiti, elmi-tədqiqat idarələrinin sayı artmağa başladı. Elmi fəaliyyət kütləvi peşəyə çevrildi. 1950-ci illərdə kosmosun tədqiqi sahəsindəki elmi fəaliyyəti genişləndi. Elmi nailiyyətlərinin istehsala tətbiqi artdı. Elektron hesablayıcı maşınlar (EHM) meydana gəldi, elmdə və istehsalatda insanın məntiqi funksiyaları tədricən maşınlara verildi, istehsalın və idarəetmənin kompleks avtomatlaşdırılmasına keçid üçün imkan yarandı.



Daniel Bell

ETİ-nin fərqləndirici cəhəti ondan ibarətdir ki, fundamental elmi tədqiqat işlərinin nəticələri (yarımkeçirici və ifratkeçirici materialların, metallurgiyanın ehtiyacları üçün aşkar elementlərin, yeni konstruksiya mate-

Postindustrializm nəzəriyyəsinin tanınmış klassiki Daniel Bell üç elmi-texniki inqilabı ayırır:		
XVIII əsrdə buxar maşınının ixtirası	XIX əsrdə elektrik enerjisi və kimya sahəsində elmi-texnoloji nəqliyyat	XX əsrdə kompüterlərin yaradılması

riallarının alınması) istehsal prosesinə bilavasitə qənaətcil təsir göstərir. Elm tutumlu istehsalatların (cihazqayırma, elektrotexnika sənayesi, elektron maşınqayırma) sürətli inkişafı ETİ üçün səciyyəvi haldır. Bu, elmi təşkilatların maddi-texniki bazasını gücləndirməyə şərait yaradır və bununla da təbii-elmi və texniki biliklərin inkişafında yeni imkanlar açır. Elmi-texniki yeniliklərin yayılması prosesi bu hadisənin sosial-iqtisadi nəticələri baxımından heç də birmənalı deyildir. Texnogen proseslər nəticəsində biosferin kritik vəziyyətə düşməsi, biosenozun pozulması qorxusu elmi biliklərin ekolojiləşdirilməsi, ekoloji texnologiyalar yaradılması problemini aktuallaşdırır. Ekoloji xidmətlər göstərilməsi, ekoloji texnika və texnologiyaların dünya bazarında satılması hesabına əldə edilmiş mədaxilin məbləği 1994-cü ildə 400 milyard dollara bərabər olmuşdur. Təbii ehtiyatlardan istifadənin səmərəsinin artırılmasına, sənaye tullantılarının utilizasiyası, ətraf mühitin çirkləndirilməsi mənbələrinin ləğv edilməsi və neytrallaşdırılması metodlarının işlənib hazırlanmasına yönəlmiş elmi və elmi-texniki fəaliyyət ETİ-nin müasir mərhələsinin ən mühüm xarakteristikasıdır.

Elmlə texnikanın qarşılıqlı əlaqə formaları üç dövrə ayrılır: a) birinci dövrdə (XVIII əsrə qədər) elm və texnika insan fəaliyyətinin iki müxtəlif və müstəqil sahəsi kimi təzahür etmiş, onların əlaqəsi zəif olmuşdur; elmin istehsala tətbiqi təsadüfi və qeyri-müntəzəm xarakter daşımışdır. Bu dövrdə elm texnikadan geri qalır və onun nailiyyətlərini xeyli ləng izah edirdi. Texniki ixtiraları alimlər yox, istehsalçıların özü edirdi; b) ikinci dövrdə (XX əsrin 40-cı illərinə qədər) elmin inkişaf səviyyəsi ilə texnikanın səviyyəsi bərabərləşir, elm texnikanın tələbatı ilə daha çox hesablaşır və onun "sifarişi" ilə işləməyə başlayır, elm və texnika bir-birinə daha çox ehtiyac hiss edir. Bu dövrün axırlarında elm müəyyən sahələrdə texnikanı qabaqlamağa başlayır, "elm-texnika" sistemi rüşeym halında formalaşır; c) üçüncü dövrdə, XX əsrin 40-cı illərindən başlayaraq elm öz inkişafında texnikadan qabaqda gedir, "elm-texnika" sistemi inkişaf edərək, "elm-texnika-istehsal-insan" sistemi olur. Məhz üçüncü dövrdən başlanan ETİ nəticəsində texnikanın son dərəcə mürəkkəbləşməsi, onun iş prinsiplərinə insanın nəzarətinin çətinləşməsi insanları bir-birindən asılı etmişdir. ETİ bir sıra səciyyəvi cəhətlərə malikdir: 1. Əvvəlki dövrlərdə elm və texnikada inqilablar müxtəlif zamanlarda baş verir və vahid proses halında birləşmirdi. 2. "Elm-texnika" sistemini "elm-texnika-istehsal" sisteminə çevrilir. Bu, icitimai istehsalın səmərəliliyini artırır, elmin nailiyyətlərini istehsalata tətbiqi müddətini getdikcə qısaldır. 3. ETİ sayəsində insanın istehsalatda yerinə yetirdiyi nəzarət funksiyası maşınlara verilir, insan istehsalın ümumi proqramçısı, istehsal və texnoloji proseslərin, maşınların tənzimçisi olur. Bu proses getdikcə daha da intensivləşəcəkdir. 4. Elmi biliklər məhsuldar qüvvələrin ünsürlərində – texnika və texnologiyada, istehsalın təşkili formalarında maddiləşir; əvvəlki dövrlərdən fərqli olaraq elm bütün istehsal proseslərinin zəminində, istehsalın inkişafının mühüm amilinə çevrilir. 5. İdrak səviyyəsinin daha da dərinləşməsi, molekul, atom, elementar hissəciklər, genlər və s. quruluşunu bilmək əsasında predmet və hadisələrə məqsədyönlü təsir göstərilir.

ETİ-nin hər istiqaməti istehsal ilə elmin vəhdətindən, elmin nailiyyətlərini istehsal sahəsinə tətbiqindən ibarətdir.

ETİ-nin texnoloji mahiyyətinin, insanın istehsal prosesindəki mövqeyinin, onun əməyinin xarakter və məzmununun dəyişməsi, ictimai münasibətlər sistemindəki dəyişikliklər ETİ-nin sosial mahiyyətinin əsasıdır.

ELMİ-TEXNİKİ POTENSİAL – cəmiyyətin qarşısında duran elmi-texniki inkişaf vəzifələrinin həlli üçün nəzərdə tutulan kadr, maddi-texniki, informasiya və təşkilati ehtiyatların məcmusu. Elmi-texniki potensialın inkişafı, ondan səmərəli istifadə ETT-nin sürətləndirilməsinin, tədqiqatların intensivləşdirilməsinin, elm-texnika istehsal tsiklinin qısaldılmasının mühüm şərtidir.

ELMİ-TEXNİKİ TƏRƏQQİ (ETT) – elmin və texnikanın cəmiyyətin məhsuldar qüvvələrinin təkmilləşdirilməsinə yönəlmiş, elmi-texniki nailiyyətlərin (innovasiya sahəsində əməyin nəticəsi olan meyillərin) maddi istehsalda və insanın həyat fəaliyyətinin başqa sahələrində reallaşdırılması ilə müşayiət olunan irəliləmə xarakterli inkişafı. ETT ilə texniki tərəqqini eyniləşdirmək lazım deyil. Texniki tərəqqinin əsası illər boyu praktik ixtiraçılar tərəfindən toplanmış təcrübədir. Onların yaratdığı maşın texnikası XVIII əsrdə sənaye inqilabına təkan vermiş, maşınlı istehsalat manufakturanı sıxışdıraraq elmi-texniki fəaliyyət üçün geniş imkanlar yaratmışdır. XIX əsrin axırlarında və XX əsrin birinci yarısında fizika, kimya, biologiya və başqa elmlərdə görkəmli kəşflər texnika və texnologiyanın prinsip etibarilə yeni növlərinin – radio-rabitə, daxiliyanma mühərriki, elektrikləşdirilmiş nəqliyyat, aviasiya, radiolokasiya, sintetik materiallar və s. yaranmasının əsasını qoymuşdur. Get-gedə daha artıq dərəcədə canlı və əşyalaşmış əmək məsrəflərinin azaldılmasına oriyentasiya edən istehsalın maddi-texniki bazasının əsaslı şəkildə təkmilləşdirilməsinə ictimai tələbatın artması öz əksini bu sahələrdə tapmışdır. Lakin elmi-texniki yeniliklərin heç də hamısına tələbat olmur. Təkrar istehsal prosesində əsas yer tutan elm istehsal vasitələrinin təkmilləşdirilməsində ictimai tələbatın inkişafı ilə sinxron şəkildə inkişaf etmir. Elmin vəzifəsi hadisələri qabaqlamaqdır, bu isə böyük həcmdə qeyri-kommersiya işləri görülməsini nəzərdə tutur (fundamental araşdırmalar üçün bu fakt xüsusilə səciyyəvidir). ETT-nin sürətlənməsi maddi istehsalda tətbiqini tapmış yenilikləri qeyri-istehsal sahələrinə də gətirir. ETT-nin təsiri altında elmi-istehsalat tsikli qısalır, bu isə yeni məhsul buraxılışına hazırlıq proseslərinin rolunun artmasını şərtləndirir. İstehsalın elmi, konstruktor və texnoloji baxımdan hazırlanması mahiyyət etibarilə ictimai əmək bölgüsünün ayrıca bir sahəsinə çevrilmişdir.

ETT-nin səmərəliliyinin ən mühüm şərti elmi-texniki proqramların formalaşmasında kompleksilik prinsipinin reallaşdırılmasıdır. Həyata keçirilməsində yeni ixtiralar, texnologiyalar, nou-haular yaranan proqramlar innovasiya fəaliyyətinin həmin nəticələrinin sənaye miqyasında mənimsənilməsinə dair müvafiq proqramlarla tamamlanmalıdır. ETT iqtisadi tərəqqinin, əmək məhsuldarlığının artırılmasının ən mühüm amilidir. ETT-nin təsiri altında istehsalın resurs bazası, əməyin məzmunu və işçilərin ixtisas səviyyəsi keyfiyyətcə dəyişir (1987-ci ildə mövcud olan ixtisasların təxminən yarısı 1967-ci ildə hələ yox idi). XXI əsrdə mövcud ixtisaslar tamamilə yeniləşəcəkdir. Elm və texnikanın nailiyyətlərindən istifadə edilməsi neqativ nəticələr də verə bilər. Bu, ətraf mühitin çirklənməsinin kəskinləşməsində, texnogen qəza və fəlakətlər riskinin artmasında təzahür edir. Qeyri-ekoloji texnologiyalardan istifadə edilməsinin neqativ nəticələrinin aradan qaldırılmasına çəkilən xərclər ekoloji texnikanın yaradılmasına çəkilən xərclərdən 30-35 dəfə artıqdır. İnnovasiya prosesinin iştirakçılarının ekoloji təmiz texnologiyalar yaratması, yeni, ekoloji cəhətdən təhlükəsiz enerji, yanacaq, xammal və material mənbələrinin axtarışı ilə əlaqədar tədqiqatlar və araşdırmalar aparması üçün yeni imkanlar açılır. Bu, mahiyyət etibarilə ETT-nin yeni istiqamətidir.

ELMİ-TEXNİKİ TSİKLLƏR – elm və texnikanın dinamikasında inkişaf fazaları. Aşağıdakı fazalar fərqləndirilir:

– yeni texniki ideyanın yaranması, onun ixtiraya transformasiya olunması və eksperimental (sınaq) yoxlanması;
– mənimsəmə (innovasiya);
– yayılma (diffuziya);
– sabit inkişaf (yetkinlik);
– yaşlaşma (köhnəlmə), sıxışdırılma;
– relikt vəziyyətində olma. Davamlılıq müddətinə görə tsikllər aşağıdakı hissələrə bölünür: qısamüddətli (texnikanın modellərinin, texnologiyaların modifikasiyalarının dəyişməsi); ortamüddətli (bazis ixtirasını reallaşdıran texnika və texnologiya nəsillərinin dəyişməsi); uzunmüddətli (yeni prinsipləri reallaşdıran üstün texnoloji ukladların dəyişməsi); yeni texnoloji istehsal üsuluna keçidlə (yüzilliklər ərzində bir dəfə) əlaqədar həddən artıq uzunmüddətli. Texnikanın nəsillərinin dəyişməsi ortamüddətli tsikllərin (yarım əsr – Kondratyev tsikli), texnoloji istehsal üsulları tsikllərinin (sivil tsikllər) maddi əsasıdır.

Elmi-texniki tsikllərə aiddir: elmi tsikllər – yeni elmi ideyaların, nəzəriyyələrin, paradiqmaların formalaşması və inkişafı; ixtira tsikilləri – ixtira fəallığının dalğavari dinamikası; innovasiya tsikilləri bazis innovasiyaların klasterinin iqtisadi tsiklinin depressiya və canlanma fazalarında mənimsəmə,

BMT TƏRƏFİNDƏN SANKSİYALARIN TƏTBİQ OLUNDUĞU HALLAR

Cədvəl 1

Ölkə	Sanksiyaların tətbiq olunması (Qətnamənin tarixi və nömrəsi)	Sanksiyaların dayandırılması	Sanksiyaların növləri
1	2	3	4
Anqola	1993-cü il sentyabr ayının 15-də 864 (1993) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	2002-ci il dekabr ayının 9-da 1448 (2002) saylı Qətnaməyə uyğun olaraq	– Anqoladan almaz idxalına qadağa – Dağ-mədən sənayesində istifadə olunan avadanlıqların satışına və göndərilməsinə qadağa
Əfqanıstan	1999-cu il oktyabr ayının 15-də 1267 (1999) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	Avtonəqliyyat vasitələri və gəmilərin və ya onlar üçün ehtiyat hissələrinin satışı və göndərilməsinə qadağa
Haiti	1993-cü il iyun ayının 16-da 841 (1993) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	1994-cü il sentyabr ayının 29-da 944 (1994) saylı Qətnaməyə uyğun olaraq	– Aktivlərin dondurulması – Səfərlərə qadağa – Silah göndərilməsinə qadağa
Konqo DR	2003-cü il iyul ayının 28-də 1493 (2003) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	– Silah və neft göndərilməsinə embarqo – Maliyyə vəsaitlərinin dondurulması
İraq, həmçinin, Küveyt	1990-cı il avqust ayının 6-da 661 (1990) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	2003-cü il may ayının 22-də 1483 (2003) saylı Qətnaməyə uyğun olaraq	– Silah göndərilməsinə qadağa – Səfərlərə qadağa – Aktivlərin dondurulması
İraq	2003-cü il may ayının 22-də 1483 (2003) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	Hərtərəfli sanksiya
İran	2006-cı il dekabr ayının 23-də 1773 (2006) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	– Silahla bağlı embarqo – Aktivlərin dondurulması və köçürülməsi
ÇXR	2006-cı il oktyabr ayının 14-də 1718 (2006) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	Nüvə fəaliyyətinin genişlənməsi və ballistik raketlərin işlənilməsi proqramlarının inkişafı planında həssas materialların göndərilməsinə embarqo
Kot-d'İvuar	2004-cü il noyabr ayının 15-də 1572 (2004) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	– Silah göndərilməsinə embarqo – Səfərlərə qadağa – Aktivlərin dondurulması
Liberiya	1992-ci il noyabr ayının 19-da 788 (1992) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	– Silah göndərilməsinə embarqo – Səfərlərə qadağa – Almazla bağlı sanksiyalar
Livan	2005-ci il aprel ayının 7-də 1595 (2005) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	– Silah və hərbi sürsat, hərbi avtonəqliyyat vasitələri və texnika, yarımhərbi ləvazimatlar və bütün bunlar üçün ehtiyat hissələri də daxil olmaqla silah göndərilməsinə embarqo – Liberiya mənşəli dəyirmi oduncaq və meşə materiallarının idxalına qadağa – Səfərlərə qadağa – Aktivlərin dondurulması
Liviya	1992-ci il mart ayının 31-də 748 (1992) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	2003-cü il sentyabr ayının 12-də 1506 (2003) saylı Qətnaməyə uyğun olaraq	– Silah göndərilməsinə embarqo – Hava embarqosu – Aktivlərin dondurulması – Neftin emalı və daşınması üçün avadanlıqların göndərilməsinə qadağa – Silahla bağlı embarqo
Ruanda	1994-cü il may ayının 17-də 918 (1994) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	2008-ci il iyul ayının 10-da 1506 (2008) saylı Qətnaməyə uyğun olaraq	– Silahla bağlı embarqo (ərazi) – Silahla bağlı embarqo (silahın fiziki şəxslərə ötürülməsi ilə bağlı məqsədyönlü qadağa)
Somali	1992-cü il yanvar ayının 23-də 733 (1992) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	– Səfərlərə qadağa – Aktivlərin dondurulması
Sudan	2004-cü il iyul ayının 30-da 1556 (2004) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	– Silah göndərilməsinə embarqo – Səfərlərə qadağa – Aktivlərin dondurulması

1	2	3	4
Syerra-Leone	1997-ci il oktyabr ayının 8-də 1132 (1997) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	Hal-hazıradək	– Qeyri-dövlət subyektləri üçün silahla bağlı embarqo – Səfərlərə qadağa
Yuqoslaviya	1991-ci il sentyabr ayının 25-də 713 (1991) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	2001-ci il sentyabr ayının 10-da 1367 (2001) saylı Qətnaməyə uyğun olaraq	– Əhatəli sanksiyalar
Eritreya və Efiopiya	2000-ci il may ayının 17-də 1298 (2000) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	2001-ci il may ayının 16-da (müddətin başa çatması)	– Silah göndərilməsinə embarqo – Kadr hazırlığı sahəsində texniki yardım və xidmət göstərilməsinə qadağa
CAR	1977-ci il noyabr ayının 4-də 418 (1977) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	1994-cü il may ayının 25-də 919 (1994) saylı Qətnaməyə uyğun olaraq	– Silah göndərilməsinə embarqo
Rodeziya	1966-cı il dekabr ayının 16-da 232 (1966) saylı Qətnamənin qəbul edilməsi yolu ilə	1979-cu il dekabr ayının 21-də 460 (1979) saylı Qətnaməyə uyğun olaraq	– Bir sıra əmtəələrə ticarət embarqosu

sonradan bunları yaxşılaşdıran innovasiyalar vasitəsilə reallaşır; texniki tsikllər – texniki sistemlərin (texnikanın, texnoloji ukladların, istehsal üsulları nəsillərinin və istiqamətlərinin) dəyişməsi.

Cəmiyyətin inkişafında yeni mərhələyə keçid elmi bazanın və texnoloji çevrilişin (ümumi texniki inqilabın) formalaşmasından başlanır. Çevrilişin strukturu aşağıdakıları əhatə edir: yeni sistemin özəyini (nüvəsini) təşkil edən bazis istiqamətləri; istehsal texnikasının istiqamətləri; xidmət sferası, şəxsi ixtira, müdafiə texnikası istiqamətləri. Sənaye inqilabından başlayaraq dörd uzunmüddətli elmi-texniki tsikllər bir-birini əvəz etmişdir. XX əsrin son iyirmi beş ili ərzində beşinci tsikl təsdiq olundu. Onun strukturuna daxildir: bazis istiqamətləri – mikroelektronika, biotexnologiya, informatika; istehsal texnologiyaları – robot texnikası və çevik sistemlər; qeyri-ənənəvi energetika, yeni materiallar, prinsipcə yeni texnoloji proseslər; xidmət, maarif, səhiyyə, elm, idarəetmə, şəxsi təsərrüfat sferasında elektron texnikası. XXI əsrin 10-20-ci illərində inkişaf etmiş ölkələrdə altıncı texnoloji uklada keçid gözlənilir.

Cəmiyyətin texnoloji bazası çoxukladlıdır. Burada bir neçə uklad mövcuddur: üstün; gedən; gələn; yaranan; relikt. Ukladların nisbəti iqtisadiyyatın texnoloji strukturunu formalaşdırır. Elmi-texniki tsikllər nəzəriyyəsinin əsası N.D.Kondratyev tərəfindən qoyulmuş, Y.Şumpeter tərəfindən inkişaf etdirilmişdir. XX əsrin sonunda bu nəzəriyyə G.Menş, A.İ.Ançişkin, L.M.Qatovski, Y.V.Yakovets, S.Y.Qlazyev, A.Klayxnknext və başqaları tərəfindən işlənib hazırlanmışdır. Elmi-texniki tsikllər nəzəriyyəsi elm və texnikanın inkişafının proqnozlaşdırılması, texnoloji inkişafın strategiya və proqramlarının işlənməsi, ixtiraların əhəmiyyətinin qiymətləndirilməsi və texniki yeniliklər üçün əsasdır.

EMAL – yeni malların alınması məqsədi ilə xammalın, yarımfabrikatların xassəsini, tərkibini və ya formasını dəyişən, bəzi məmulatların yaxşı saxlanılması, onlara müəyyən xüsusiyyət verilməsi və ya onlardan istifadə edilməsi zamanı zərərli təsirə məruz qalmasının qarşısının alınması üçün həyata keçirilən proses. Məsələn, kənd təsərrüfatı məhsullarının, ağac, metal və tullantıların emalını misal göstərmək olar.

Emal sənayesi – sənayenin hasilat və digər sahələrindən daxil olan xammal, material və yarımfabrikatların, həmçinin kənd təsərrüfatı, meşə və digər xammalların emalını həyata keçirən sənaye müəssisələrinin məcmusu. İqtisadi fəaliyyət növlərinin təsnifatına görə bura içki, qida məhsullarının, tütün, dəri və dəri məmulatları, geyim və ayaqqabıların istehsalı aiddir. Bura həmçinin toxuculuq və kimya sənayesi, ağacın emalı və ağacdan məmulatların və tıxacların, hopdurma və hörmə materiallarının, kağız və kartonun, koks və təmizlənmiş neftin, əczaçılıq məhsullarının, rezin və plastmas məmulatlarının, digər qeyri-metal mineral məhsulların, metallurgiya sənayesində maşın və avadanlıqlardan başqa hazır metal məmulatların, kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının, o cümlədən maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların, mebellərin və sair sənaye məhsullarının istehsalı, eləcə də poliqrafiya fəaliyyəti və yazılmış məlumatların çoxaldılması ilə məşğul olan müəssisələrin fəaliyyəti daxil edilir.

EMBARQO (isp. *embargo* – qadağa, həbs qoyulma) – beynəlxalq hüquq termini. Əvvəllər başqa ölkələrin gəmilərinin və ya ölkənin öz gəmilərinin həmin ölkənin limanlarından çıxmasının dövlət hakimiyyəti tərəfindən qadağan edilməsi mənasında işlədilirdi; indi ölkəyə başqa ölkələrdən əmtəələrin, qızılın, qiymətli kağızların və s. idxalının və ya həmin ölkədən ixracının qadağan edilməsi mənasında işlənilir. Embarqo həm hərbi dövrdə, həm də dinc vaxtda tətbiq edilə bilər. Hərbi dövrdə embarqo mahiyyət etibarilə iqtisadi blokadanın bir formasına çevrilir. Dinc dövrdə embarqo başqa ölkələrə təsir göstərmək tədbiri və ya iqtisadi təzyiq vasitəsi kimi tətbiq olunur. Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə görə hərəkətləri beynəlxalq təhlükəsizlik üçün qorxu yaradan dövlətə münasibətdə kollektiv repressiya tədbiri kimi embarqo müəyyən edilməsinin mümkünlüyü nəzərdə tutulmuşdur (bax: cədvəl 1).

EMİSSİYA (lat. *emissio* – buraxılış) – pul və qiymətli kağızların dövriyyəyə buraxılması. Pul emissiyasını emissiya bankları (əksər ölkələrdə bu funksiya mərkəzi bankların müs- təsna səlahiyyətidir) və qiymətli kağızların emissiyasını kommersiya bankları həyata keçirirlər. Emissiyanı həyata keçirən şəxs emitent adlanır.

Əsginasların emissiyası – Mərkəzi Bankın ənənəvi hüquqlarından biridir. O, zaman keçdikcə dəyişən qayda və prinsiplərə tabedir.

Dünya ölkələri emissiya qaydaları və müvafiq emissiya orqanlarının funksiyalarına görə bir-birindən fərqlənir.

EMİSSİYA BANKI (ing. *issuing bank*) – bank zəncirinin başlıca halqası, dövlət büdcəsinə xidmət göstərilməsi üzrə hökumətin agenti. Banknotların buraxılışının, pul tədavülünün, kreditin və valyuta məzənnəsinin tənzimlənməsi, rəsmi qızıl-valyuta ehtiyatlarının qorunub saxlanması sahəsində inhisar hüququna malikdir.

EMİSSİYA EVİ – qiymətli kağızların yerləşdirilməsi üzrə ixtisaslaşan maliyyə müəssisəsi. Bəzi hallarda emissiya evləri qiymətli kağızların bütün buraxılışını almaqla və ya buraxılışın satılmamış hissəsinin alınmasını təmin etməklə qiymətli kağızların yerləşdirilməsinin qarantı kimi çıxış edir. Bununla da şirkəti buraxılışdan alına biləcək məbləğ barəsində qeyri-müəyyənlikdən xilas edirlər.

Digər hallarda emissiya evləri səhmlərin və istiqrazların yerləşdirilməsində adi vasitəçilər kimi çıxış edir.

Beləliklə, emissiya evləri qiymətli kağızların ilkin yerləşdirilməsinin hamılıqla qəbul edilmiş üsulları (auksion – hərrac və ya yerləşdirmə əsasında birja vasitəsilə satış üçün təqdim edilməsi) vasitəsilə səhmlərin geniş satışını həyata keçirirlər.

Böyük Britaniyada emissiya evləri qismində adətən ticarət evləri çıxış edir. Bir sıra Qərb ölkələrində və digər dövlətlərdə, o cümlədən ABŞ-da bu funksiya investisiya banklarının fəaliyyətinə aid edilir.

EMİSSİYA HÜQUQU – pul vəsaitlərinin, həmçinin kommersiya təşkilatları və dövlət tərəfindən qiymətli kağızların (səhm, istiqraz, depozit sertifikatları) tədavülə buraxılmasını tənzimləyən prinsip və normalar sistemi.

Rəsmi nağd və nağdsız ödəniş

vəsaitlərinin buraxılışına emissiya hüququ aşağıdakılardan ibarətdir:
1) pul nişanlarının tədavülə buraxılması və onların ləğv olunması;
2) bank biletləri (Azərbaycan Respublikası Mərkəzi Bankının biletləri) və sikkə formasında pul nişanlarının hazırlanmasının təşkili;
3) kredit-pul siyasətinin aparılması, yəni pul kütləsinin tədavüldə tənzimlənməsi.
Pul tədavülünün buraxılışına emissiya hüququ – Azərbaycan Respublikası Mərkəzi Bankına məxsus olan istisna hüquqdur.
Qiymətli kağızların emissiya hüququna isə hüquq münasibətlərinin iqtisadi subyektlərinin əksəriyyəti malikdir (dövlət, kommersiya təşkilatları – onların təşkilatı-hüquqi formasından asılı olaraq).

EMİSSİYA QİYMƏTİ – elə qiymətdir ki, buna görə yeni səhmlər və digər qiymətli kağızlar buraxılır.


EMİSSİYA QİYMƏTLİ KAĞIZININ SERTİFİKATI – emitent tərəfindən və ya emitentin tapşırığı ilə müvafiq depozitari tərəfindən buraxılan və qiymətli kağızların sertifikatda göstərilən sayına hüquqların məcmusunu təsdiqləyən sənəd. Qiymətli kağız sahibinin belə sertifikat əsasında emitentin öhdəliklərini yerinə yetirməsini tələb etmək hüququ vardır.

EMİSSİYA QİYMƏTLİ KAĞIZLARININ SƏNƏDLƏŞDİRİLMƏMİŞ FORMASI – qiymətli kağızlar sahiblərinin reyestrinin aparılması sistemində yazı əsasında və ya depo hesabında olan yazının əsasında sahibi müəyyən edilən emissiya qiymətli kağızların forması.

EMİSSİYA QİYMƏTLİ KAĞIZLARININ SƏNƏDLƏŞDİRİLMİŞ FORMASI – müvafiq surətdə sənədləşdirilmiş qiymətli kağız sertifikatı təqdim etmək əsasında və ya qiymətli kağızlar deponentə qoyulduğu halda depo hesabında olan yazının əsasında sahibi müəyyən edilən emissiya qiymətli kağızlarının forması.

EMİSSİYA QİYMƏTLİ KAĞIZLARININ YERLƏŞDİRİLMƏSİ – emitentin mülki-hüquqi əqdlər bağlamaq yolu ilə qiymətli kağızları birinci sahiblərinə özgəninkiləşdirməsi.

EMİSSİYA MƏNFƏƏTİ – qiymətli kağızların yerləşdirilməsindən yaranır. Onu banklar, digər kredit və maliyyə idarələri qiymətli kağızların emitentləri və onların alıcıları arasında vasitəçiliyə görə əldə edirlər. Emissiya mənfəəti bankın fond



Sxem 1

bazarında müştərilərinə qiymətli kağızları realizə etdiyi yüksək kursla (və ya qiymətlə) onların emitentdən alındığı daha aşağı kurs (və ya qiymət) arasındakı fərqdir. Sadə dillə desək, bu, qiymətli kağızların bazar və emissiya kursu arasında fərqdir. İstiqrazların yerləşməsində və səhmlərin iri həcmdə buraxılışında bank konsorsiumunun iştirakı zamanı emissiya mənfəəti əvvəlcədən razılaşdırılır. O, emitent tərəfindən ödənilir və konsorsium iştirakçıları arasında bölüşdürülür (bax: sxem 1).

EMİSSİYA MÜKAFATI – səhmin bazar qiyməti və onun nominal dəyəri arasında fərq. Bəzi ölkələrdə səhmdar şirkətlərin əlavə kapitalı əsasən emissiya mükafatlarının hesabına yaradılır.

EMİSSİYA PROSPEKTİ – potensial investorlar üçün qiymətli kağızların nəzərdə tutulan buraxılışı barədə informasiyanı açıqlayan sənəd. Qiymətli kağızların buraxılışının tənzimlənməsi üzrə səlahiyyətli quruma emitent təqdim edilir.

EMİTENT – 1. Qiymətli kağızlar buraxan və qiymətli kağızların sahibləri qarşısında həmin qiymətli kağızlarda təsbit edilmiş hüquqların həyata keçirilməsi üzrə öz adından öhdəliklər daşıyan hüquqi şəxs, icra hakimiyyəti və ya yerli özünüidarə orqanları. 2. Malgöndərənin (podratçının) tender təklifinə, satınalma müqaviləsinin yerinə yetirilməsi üzrə təminatlarına və digər ödəniş sənədlərinə zəmanət verən maliyyə qurumu.

EMİTENT BANK – pul və ya qiymətli kağızları və hesablaşma-tədiyə sənədlərini tədavülə buraxan bank.

EMİTENTİN REYTİNQİ – emitentin öz borc öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirməsi ilə bağlı ümumi qabiliyyəti və niyyəti barədə rəyi.

ENERGETİKA EHTİYATLARI – xalq təsərrüfatında istifadə edilən enerji daşıyıcıları. Energetika ehtiyatları növlərinə görə (neft, neft məhsulları, qaz, hidroenerji, elektrik enerjisi və s.), istifadəyə hazırlıq üsuluna görə (təbii, zənginləşdirilmiş, işlənmiş, başqa şəklə salınmış), alınma üsuluna görə (kənardan, öz istehsalı) və digər əlamətlərə görə təsnifləşdirilir.

ENERGETİKA SİSTEMİ – öz aralarında və elektrik enerji işlədiciləri ilə elektrikgötürmə xətləri vasitəsilə əlaqələndirilmiş elektrik stansiyaları birliyi. Energetika sisteminin tərkibinə istilik, atom və su elektrik stansiyaları, elektrikgötürmə xətləri, yardımçı elektrik stansiyaları, istilik və elektrik şəbəkələri, istilik və elektrik enerji qəbulediciləri daxildir. Energetika sistemindən istifadənin əhəmiyyətli üstünlükləri var: elektrik enerjisi ilə təchizat yaxşılaşır, rayonun energetika ehtiyatlarından (yanacaq və su enerjisindən) daha yaxşı istifadə olunur, tələbatın (işlədicilərin) elektrik stansiyaları arasında daha qənaətli paylanması hesabına elektrik enerjisinin maya dəyəri azalır, vahid güclü böyük olan avadanlığın tətbiqinə imkan yaranır, ehtiyat güc azalır. Energetika sistemi adətən vahid mərkəzdən idarə olunur.
Azərbaycan SSR-də enerji sistemləri 1930-1935-ci illərdə yaradılmağa başlamışdır. 1954-cü ilə qədər yalnız Abşeronda Energetika sistemi var idi. Sonradan Mingəçevir SES-i, Əli Bayramlı (indiki Şirvan) DRES-inin və Bakı-Mingəçevir-Ağstafa; Bakı-Əli Bayramlı (indiki Şirvan) – Ağdam-Kirovabad (indiki Gəncə) arasında 220-330 Kv-lıq elektrikgötürmə xətlərinin işə salınması energetika sisteminin Azərbaycan ərazisində yayılmasına səbəb oldu. 1960-cı ildən başlayaraq Azərbaycanın, Gürcüstanın və Ermənistanın energetika sistemləri birləşərək, Zaqafqaziya Vahid Energetika Sistemini yaratmışdır.

ENERJİ BALANSI (yanacaq-enerji balansı) – bir-biri ilə əvəz oluna bilən yanacaq-enerji resurslarının məcmusunu əhatə edən kompleks material balansı (bax: cədvəl 1). Yanacaq-enerji balansı növlər üzrə hasil və emal olunan yanacaq, istehsal edilən elektrik enerjisi, onların saxlanması, istehlakı, idxal və ixracının ümumilikdə mədaxil və məxaricinin uzlaşdığı ədədi sistemi olmaqla, həm də ölkənin enerji təhlükəsizliyinin mühüm təminat göstəricisi sənədidir (bax: cədvəl 2). O, təsbit olunmuş dövr üçün enerji auditi, enerji-təchizat strukturlarının faktiki materialları və digər müvafiq informasiyalar əsasında analitik cədvəl formasında hazırlanaraq enerji effektivliyinin tənzimləyicisi rolunda çıxış edir. Müxtəlif yanacaq növlərinin şərtiyanacağa (bax: cədvəl 3) çevirilməsi və mümkün olduqca daha az detallaşma səviyyəsi ilə fərqlənən bu sənəd vasitəsilə, ölkənin yanacaq-enerji resurslarının yetərli olması və

Milli enerji balansının ümumi sxemi (maketi)

Cədvəl 1

	Sətir №-si	Bütün məhsullar, cəmi	Xam neft (mədən kondensatı ilə)	Təbii bitum və təbii asfalt	neft-zavodlarının xammalı	Neft məhsulları, cəmi	o cümlədən:																				
							Neft zavodlarının qazı (mayeləşdirilməmiş)	mayeləşdirilmiş neft qazları	avtomobil benzini	ağ neft tipli reaktiv mühərrik yanacağı	dizel yanacağı (qazoyl)	az kükürdlü mazut	yüksək kükürdlü mazut	ağ neftin sair növləri	neft koksu	neft bitum	digər neft məhsulları, cəmi	Təbii qaz	Törəmə qazlar	Bərpa olunan enerji və tullantılar	o cümlədən:					Digər yanacaqlar	Törəmə istilik	Elektrik enerjisi (istilik elektrik stansiyalarında)
																					günəşin istilik enerjisi	geotermal enerji	su elektrik stansiyalarının elektrik enerjisi	külək enerjisi	biokütlə və tullantılar enerjisi			
B	C	1	2	3	4	5	6	7	8	9	11	12	13	14	15	16	17	18	19	20	21	22	23	24	25	26	27	28
İlkin energetika məhsullarının istehsalı	1.1																											
İdxal	1.2																											
İxrac	1.3																											
Beynəlxalq reyslər üzrə yanacaq çənlərinə doldurulmuşdur:	1.4																											
gəmilərin yanacaq çənləri üzrə	1.4.1																											
təyyarələrin yanacaq çənləri üzrə	1.4.2																											
Ehtiyatların dəyişməsi	1.5																											
Ümumi enerji təchizatı	**1**																											
Statistik fərq	**2**																											
Transferlər	**3**																											
Transformasiya sektorunun prosesləri:	**4**																											
elektrik enerjisi istehsal edən elektrik stansiyaları	4.1																											
istilik və elektrik enerjisi istehsal edən istilik elektrik mərkəzləri	4.2																											
istilik mərkəzləri (qazanxanalar)	4.3																											
qaz emalı zavodları	4.4																											
domna sobaları	4.5																											
neft emalı zavodları	4.6																											
neft-kimya zavodları	4.7																											
digər transformasiya (sektorunun) prosesləri	4.8																											
Energetika sektorunun daxili istehlakı	**5**																											
İtkilər	**6**																											
Son istehlak:	**7**																											
a) enerji məqsədli son istehlak:	***7.1***																											
Sənaye və tikinti:	7.1.1																											
qara metallurgiya	7.1.1.1																											
kimya və neftkimya	7.1.1.2																											
əlvan metallurgiya	7.1.1.3																											
digər qeyri-metal mineral maddələrin istehsalı	7.1.1.4																											
nəqliyyat avadanlıqları	7.1.1.5																											
maşın və avadanlıqların istehsalı	7.1.1.6																											
mədənçıxarma sənayesi	7.1.1.7																											
qida məhsullarının və tütün istehsalı	7.1.1.8																											
kağız, sellüloz və çap məhsulları istehsalı	7.1.1.9																											
ağac emalı və ağacdan məmulatların istehsalı	7.1.1.10																											
toxuculuq, dəri və geyim sənayesi	7.1.1.11																											
tikinti	7.1.1.12																											
sənayenin digər sahələri	7.1.1.13																											
Nəqliyyat:	7.1.2																											
avtomobil nəqliyyatı	7.1.2.1																											
dəmir yolu nəqliyyatı	7.1.2.2																											
daxili hava nəqliyyatı	7.1.2.3																											
daxili su nəqliyyatı	7.1.2.4																											
boru kəməri nəqliyyatı	7.1.2.5																											
nəqliyyatın digər növləri	7.1.2.6																											
İqtisadiyyatın digər sahələri:	7.1.3																											
kənd təsərrüfatı, meşəçilik və balıqçılıq	7.1.3.1																											
kommersiya və ictimai xidmətlər	7.1.3.2																											
ev təsərrüfatları	7.1.3.3																											
digər sahələr	7.1.3.4																											
b) qeyri-enerji məqsədli son istehlak	**7.2**																											

Azərbaycanın böyük neft-qaz ehtiyatları vardır. Bu ehtiyatlar xalqımıza onilliklər bundan sonra, bəlkə yüz ildən artıq bundan sonra kifayət edəcəkdir. Ona görə də, nəzərə alsaq ki, biz indi bütün enerji sistemimizi yeniləşdirmişik, gələcəkdə Azərbaycanda enerji qıtlığı olmayacaqdır. Azərbaycanda enerji təhlükəsizliyi ilə bağlı bütün problemlər artıq öz həllini tapmışdır. Ancaq biz gərək müasir texnologiyalara böyük diqqət göstərək və bərpa olunan enerji növlərinin yaradılması bu məsələlərdə vacib rol oynayır.

İlham Əliyev

Cədvəl 2

Azərbaycan Respublikasında elektrik stansiyalarının gücü

İllər	İlin axırına elektrik stansiyalarının gücü, MVt	ondan:	
		İES gücü	SES gücü
1913	39,8	39,8	-
1920	56,4	56,4	-
1930	113,4	113,4	-
1940	254,4	254,4	-
1950	401,6	401,6	-
1960	1 261	885,9	375,0
1970	2 623	2 247	375,5
1980	2 882	2 415	467,0
1990	5 051	4 263	787,7
1995	5 044	4 256	787,7
2000	4 912	3 990	921,9
2001	5 161	4 228	933,0
2002	5 283	4 349	934,0
2003	5 673	4 703	970,1
2004	5 665	4 695	970,1
2005	5 157	4 187	970,1
2006	5 624	4 599	1 025
2007	5 728	4 703	1 025
2008	5 798	4 773	1 025
2009	6 388	5 401	987
2010	6 396	5 401	995


çatışmazlığı müəyyən edilir. Onun əsasında həm də yanacaq-enerji resurslarının səmərəli istifadə olunmasının təhlili aparılır. İqtisadiyyatın normal fəaliyyəti və əhalinin müxtəlifnövlü yanacaq-enerji resurslarının təchizatının təminatında yanacaq-enerji balansının əhəmiyyəti yüksəkdir.

Şərti yanacaq – müxtəlif yanacaq növlərinin ölçülməsi üçün tətbiq edilən şərti – natural vahid. Verilmiş yanacaq növünün miqdarının şərtiyə çevrilməsi əmsalın köməyi ilə aparılır. Burada əmsal verilmiş yanacağın 1 kiloqramının yanacaq tərkibinin şərti yanacağın 1 kiloqramına nisbətinə bərabərdir. İstiliktörətmə qabiliyyəti ilə müəyyən olunur. Verilmiş yanacaq növünün tərkibinin çəki vahidi laborator və ya xüsusi cədvəllərlə müəyyənləşdirilir.

Şərti yanacaq – üzvi yanacağın uçot vahidi. Müxtəlif təyinatlı yanacaqların istiliktörətmə qabiliyyətinin uzlaşdırılması üçün istifadə olunur. 1 ton şərti yanacaq (şy) dünya standartı 7000 k/k ABŞ-da və Qərbdə orta energetik tələbat k/k ilə ölçülür. 1 ton neft 1,43 ton şərti yanacağa, 1000 m^3 təbii qaz isə 1,16 şya bərabərdir. Beynəlxalq Energetika Agent-liyi (BEA – Paris) özünün nəşr etdirdiyi "Energetik statistika" bülletenində neftin qaza çevriliş əmsalını ton ekvivalent neftə (ten) görə 1 ton neft = 1,0-1,03 ten və əksinə, 1000 m^3 qaz = 0,9 ten kimi təsdiqləyir.


Enerji tutumu – müəyyən ərazidə (ölkədə) istehlak olunmuş enerjinin həmin ərazidə (ölkədə) istehsal olunmuş ümumi

Azərbaycan Respublikasında iqtisadi fəaliyyət növləri üzrə enerji məqsədli son istehlak (faizlə)



Qrafik 1

Azərbaycan Respublikasında neft məhsullarının son istehlakı (faizlə)



Qrafik 2

Cədvəl 3

Ayrı-ayrı enerji məhsulları üzrə neft ekvivalenti tonu (NET) şərti ölçü vahidinə orta çevrilmə əmsalları


Enerji məhsulunun növləri	Aşağı istiliktörətmə qabiliyyəti, kC/kq	NET (neft ekvivalenti tonu) ölçü vahidinə çevrilmə əmsalı[2)]	Məlumat üçün: Şərti yanacaq ölçü vahidinə çevrilmə əmsalı[3)]
Xam neft*	43 094	1,029	1,471
Avtomobil benzinləri	43 197	1,032	1,474
Aviasiya benzinləri	43 375	1,036	1,480
Reaktiv yanacaqları	43 174	1,031	1,474
Dizel yanacaqları	42 656	1,019	1,456
Həlledicilər və digər məhsullar	41 840	0.999	1,428
Uayt-spirit	43 430	1,037	1,482
Nafta	41 005	0,979	1,399
Məişət və soba yanacaqları	42 829	1,023	1,462
Ağ neft	43 057	1,028	1,470
Mazut (az kükürdlü)	42 480	1,015	1,450
Mazut (yüksək kükürdlü)	41 200	0,984	1,406
Neft bitumu	40 948	0,978	1,398
Çardağ bitumu	30 597	0,731	1,044
Daş kömür	27 664	0,661	0,944
Neft koksu	31 556	0,754	1,077
Qudron	41 626	0,994	1,421
Odun (şam ağacı)	21 017	0,502	0,717
Təbii qaz[1)] (yuxarı yanma istiliyi)*	39 060	0,933	1,333
Qaz-kondensat	50 133	1,197	1,711
Mayeləşdirilmiş qazlar	47 425	1,133	1,619
Sürtkü yağları	40 193	0,960	1.372
Digər yanacaq növləri	42 496	1,015	1,450
Elektrik enerjisi	x	0,086	0,123
İstilik enerjisi	x	0,101	0,143

[1)] Təbii qaz kC/m³ ilə verilmişdir.

[2)] Neft ekvivalenti tonu (NET) Beynəlxalq Standartlaşdırma Təşkilatının tövsiyəsinə uyğun olaraq enerji məhsullarının istiliktörətmə qabiliyyəti üzrə qəbul olunmuş etalon şərti ölçü vahididir. 1 NET=10 000 kkal/kq = 41 868 kC/kq. NET ölçü vahidinə çevrilmə əmsalı milli enerji məhsulunun 1 NET-ə nisbətidir.

[3)] Şərti yanacaq daş kömürün aşağı istiliktörətmə qabiliyyətinə görə hesablanmış ölçü vahididir. 1 kq ŞY=7000 kkal/kq = 29 300 kC/kq. * 2009-cu il də daxil olmaqla əvvəlki illər üzrə xam neftin aşağı istiliktörətmə qabiliyyəti 43 079 kC/kq, şərti yanacağa çevrilmə əmsalı 1,470; təbii qazın yuxarı istiliktörətmə qabiliyyəti 38 938 kC/m³,onun NET-ə çevrilmə əmsalı 0,930, şərti yanacağa çevrilmə əmsalı isə 1,329 götürülməlidir.

Azərbaycan Respublikasında energetika məhsullarının son istehlakı (faizlə)



Qrafik 3

daxili məhsula nisbəti. İnkişafın sabitliyini xarakterizə edən göstəricilərdən hesab olunur. Göstərici son istehlak, həmçinin, ümumi istehlak əsasında eyni şərti ölçü vahidinə – neft ekvivalenti tonuna çevrilməklə hesablanır, ümumi daxili məhsul isə faktiki qiymətlərlə götürülür.

ENERJİ TƏHLÜKƏSİZLİYİ (yun. *energiya* – iş, fəaliyyət; ing. *security* – təhlükəsizlik) – normal şəraitdə və həmçinin, fövqəladə hallarda ölkə əhalisinin yanacaq-enerji resursları təminatı defisitindən qorunması. Dünyada enerji təhlükəsizliyi probleminin dərki ilk dəfə Ərəb-İsrail konflikti ilə əlaqədar dünya neft qiymətlərinin kəskin artması fonunda baş vermişdir. Neftin təchizatının tam olaraq dayandırılması Qərb ölkələrində enerji təhlükəsizliyinin təminatı üzrə tədbirlərin görülməsinə səbəb olmuşdur.


Azərbaycan Respublikası tərəfindən Avropada Qonşuluq siyasəti çərçivəsində qlobal enerji təhlükəsizliyinə yardım etmək məqsədilə bir sıra mühüm sazişlər imzalanmışdır və indi onlar həyata keçirilir. ARDNŞ (SOCAR) Rumıniya, Macarıstan, Bolqarıstan, Türkiyə, Gürcüstan, Ukrayna, Qazaxıstan və digər ölkələrdə öz nümayəndəliyini açmış və məqsədyönlü işlərin aparılmasını təşkil etmişdir. Gürcüstanın Qara dəniz sahilində Kulevi neft və neft məhsulları terminalı tikilib istifadəyə verilmişdir. Gürcüstanda regionların qazlaşdırılması və qazla təchiz edilməsi həyata keçirilir, 30 yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir.

Bu gün Azərbaycan dövlətinin iqtisadiyyatı yeni neft strategiyası üzərində hərtərəfli və dinamik inkişaf edir. Ölkə iqtisadiyyatındakı dinamik proseslər daha da güclənir, böyük sənaye potensialı yaranır, sosial problemlərin həlli istiqamətində görülən tədbirlər öz bəhrəsini verir.

Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi və "Şahdəniz" yatağından qazın hasilatı öz tarixi əhəmiyyəti baxımından heç də Bakı-Tbilisi-Ceyhan neft kəmərindən geri qalmır. 2006-cı ilin iyulunda Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, 2007-ci ilin əvvəlində isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə düşməsi respublikamızın dünya enerji bazarındakı rolunu əhəmiyyətli dərəcədə möhkəmləndirmişdir.


Qeyd edək ki, 2007-ci ilə qədər Azərbaycan qaz idxal edən ölkə idi. Lakin 2007-ci ildən başla-

Azərbaycan Respublikasında yanacaq-enerji ehtiyatları (mln. ton şərti yanacaq)



Qrafik 4

Azərbaycan Respublikasında ÜDM-in enerji tutumu (2000-ci ilin qiymətləri ilə)



Qrafik 5


yaraq, artıq respublikamız qazı idxal etmir, əksinə, ixrac edir. Bu gün Azərbaycan qazı Türkiyəyə, Gürcüstana, Yunanıstana, İrana və Rusiyaya ixrac olunur. Təbii ki, bütün bu dəyişikliklər çox böyük siyasi, iqtisadi və coğrafi-siyasi əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2006-cı ilin noyabr ayında "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaqla, bu sahənin beynəlxalq standartlara uyğunlaşdırılmasına start vermiş, ölkəmiz enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqının ən yaxın tərəfdaşlarından birinə çevrilmişdir.

Lakin Azərbaycanın enerji sferasında qazandığı nailiyyətlər təkcə neft-qaz sektorunu əhatə etmir. Elektrik enerjisinin istehsalı sahəsində də Azərbaycan dünyanın bir çox dövlətlərinin qibtə edə biləcəyi böyük uğurlara imza ata bilib. Azərbaycan zəngin karbohidrogen ehtiyatlarına malik olmasına baxmayaraq, ölkəmizdə alternativ enerji mənbələrinin yaradılması istiqamətində də mühüm işlər görülür.

Yeni tikilən 10 stansiyanın enerji potensialı 2100 meqavatdır. Azərbaycanın ümumi enerji po-

Azərbaycan Respublikasında ümumi enerji istehlakında enerji mənbələrinin xüsusi çəkisi (faizlə)



Qrafik 6

Dünyada enerji resurslarının istehlakının strukturu



Sxem 1

tensialının 6400 MVt olduğu nəzərə alınarsa, bu son dörd il ərzində ölkənin enerji potensialının 40 faizə qədər artırılması deməkdir. Elektrik stansiyalarının tikintisində ən müasir texnologiyalardan istifadə olunmasına, etibarlılıq və ekoloji cəhətdən təmizlik prinsiplərinə üstünlük verilir. Məsələn, yeni texnologiyalar əsasında inşa edilən və ötən ilin noyabrında istifadəyə verilən Sumqayıt Elektrik Stansiyasının işə salınması nəticəsində parnik effekti yaradan karbon qazlarının havaya tullantısı ildə 700 min ton azalacaq.

Dünya dövlətlərinin qarşısında duran əsas vəzifələrdən biri də təmiz enerji mənbələrindən (günəş, külək enerjisi, kiçik SES-lər, termal sular, biokütlə enerjisi) daha geniş istifadə olunmasıdır. Hazırda dünya üzrə istehsal edilən elektrik enerjisinin 15%-ə qədəri alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sayəsində əldə edilir.

Azərbaycan elektrik enerjisi sferasında da əsas ixracatçı statusunu daşımağa başlayıb. Son illər elektrik enerjisinin ixracatçı kimi mövqeyini daha da gücləndirib. Azərbaycanın ixrac etdiyi elektrik enerjisi idxalı həm fiziki, həm də maliyyə göstəriciləri baxımından dəfələrlə üstələyir. Bu da yekun nəticədə elektrik enerjisinin ixracından Azərbaycanın böyük həcmdə gəlir əldə etməsi ilə nəticələnir. Ölkəmizdə hasil olunan elektrik enerjisinin əsas idxalçıları isə hazırda Rusiya, İran, Gürcüstan və Türkiyədir.

ENGEL QANUNU – qida məhsulları istehlakının ailənin gəlirlərinin səviyyəsindən asılılığı. Bu asılılıq XIX əsrdə alman statistiki və iqtisadçısı E.Engel (1821-1896) tərəfindən müəyyən edilmişdir. Həmin qanuna görə ailənin gəlirləri artdıqca onun ərzaq üçün xərclərinin nisbi payı azalır, mənzil, yanacaq, elektrik enerjisi, paltar xərclərinin nisbi payı, demək olar ki, dəyişmir, lakin başqa ehtiyaclar üçün xərclərin nisbi payı artır.


Engel tərəfindən müəyyən edilmiş emprik asılılıq uzun bir dövr ərzində iqtisadi inkişafın təcrübəsi ilə təsdiqlənir. Müasir qarışıq cəmiyyətin müxtəlif sosial təbəqələrinə və qruplarına xas olan həyat standartları artdıqca sənaye cəhətdən inkişaf etmiş ölkələrdə ev təsərrüfatlarının xərclərinin ümumi məbləğində qida məhsulları üçün xərclərin nisbi payı azalır.

Engelin çıxardığı nəticələr keçmiş SSRİ-də ailə büdcələrinin statistikası ilə də təsdiq edilirdi. Qərb alimləri bütün nemət və xidmət növlərinin aşağı keyfiyyətli nümunələrinə tələbatın azalması və ev təsərrüfatlarının gəlirləri artdıqca yüksək key-

Engel qanunu

Ailənin gəlirinin artması ilə gəlirin strukturu dəyişir, ərzaq xərclərinin xüsusi çəkisi azalır, geyim, yaşayış evi, onun qızdırılması xərcləri əvvəlki səviyyədə qalır, mədəni tələbatların ödənilməsinə yönələn xərclərin xüsusi çəkisi isə artır.


Ailə gəlirinin artmasının maddi-mənəvi tələbatların dəyişməsi ilə nisbəti



Sxem 1

fiyyətli nemətlərə tələbatın artması prosesini nəzərdən keçirərək göstərirlər ki, mədəni-məişət, idman mallarına, müxtəlif xidmətlərə tələbatın artması qida məhsullarına, paltara, mənzilə tələbatın artmasından daha sürətlə baş verir. Bunu sübut etmək üçün onlar tələbin gəlir-

Ailə gəlirinin artmasının ilkin tələbat mallarının payı ilə nisbəti (faizlə)



Sxem 2

lərə görə elastikliyi düsturundan istifadə edirlər. Hələ 1980-ci illərin axırlarında Amerika iqtisadçıları S.Fişer, R.Dornbuş, R.Şmalenzi bu düsturu tətbiq edərək hesablamışdılar ki, gəlirlərin 1% artması nəticəsində qida məhsullarına tələbat 0,77%, paltara tələbat 0,82%, nəqliyyat vasitələrinə tələbat 1,1%, mənzilə tələbat 0,89%, tibbi xidmətə tələbat 1,9%, zinət əşyalarına tələbat 3,6%, idman mallarına tələbat 3,7%, taksi xidmətlərinə tələbat 2,8% artmışdır. Bu kimi hesablamalar son dövrlərdə aparılır. Çıxarılan nəticə ondan ibarətdir ki, müxtəlif nemətlər və xidmətlər üçün tələbatın gəlirlərə görə elastikliyi müxtəlif olduğu kimi, müxtəlif sosial təbəqələr və qruplar üçün gəlirlərin artması ilə əlaqədar istehlak xərclərinin daha yüksək səviyyəli tələbatın xeyrinə dəyişməsi də müxtəlifdir.

İqtisadi-statistik tədqiqatlarda Ernest Engelin şərəfinə Engel əyrisi adını almış (ENGEL ƏYRİSİ) d tələbinin, iki – *p* dəyişənindən və m gəlirindən asılılığını əks etdirən əyri aşağıdakı qaydada hesablanır: $d=f(m, p)$. Əgər ehtimal edilsə ki, qiymətlər daimidir (dəyişməzdir), (məsələn, $p=p_1$), onda bu qiymət üçün $d=f(m, p_1)$ tələbi m gəlirinin funksiyası hesab edilir.


Əgər nəzərə alınsa ki, gəlir daimidir, məsələn, $m=m_1$, onda bu gəlir üçün $d=(m_1, p)$ tələbi p qiymətinin funksiyası hesab edilir. Verilmiş qiymətdə tələbin gəlirdən asılılığını əks etdirən $p_1, p_2 \ldots, p_n$ daimi qiymətləri üçün "tələb-gəlir" əyrisi və $m_1, m_2 \ldots, m_n$ daimi gəlirlərində tələbin qiymətlərdən asılılığını əks etdirən əyri isə "tələb-qiymət" əyrisidir.

ENGELS FRİDRİX (1820-1895) – alman tarixçisi, filosofu, fəhlə hərəkatının rəhbərlərindən biri, K.Marksla birgə "elmi kommunizm" nəzəriyyəsinin yaradıcısı, I İnternasionalın banisi (1864).



O, Barmen şəhərində fabrikant ailəsində anadan olmuşdur. 1837-ci ildə gimnaziyanı bitirmədən atasının məsləhəti ilə onun kantorunda işləməyə başlamışdır. 1842-ci ildə Marksın redaktor olduğu "Reyn" qəzetində əməkdaşlıq etmişdir. 1844-cü ildə "Alman-fransız illik məcmuəsi"ndə onun ilk iqtisadi əsəri olan "Siyasi iqtisadın tənqidi", 1845-ci ildə fundamental əsəri olan "Fəhlə sinfinin İngiltərə-də vəziyyəti" çap olunmuşdur. 1847-ci ildə o, Marksla birgə "Kommunist İttifaqı"nın yaradılmasında fəal iştirak etmişdir. 1848-ci ildə "Kommunist Partiyasının manifesti" nəşr olunmuşdur. 1873-1883-cü illərdə "Təbiətin dialektikası" adlı əsəri üzərində işləmişdir. 1878-ci ildə E.K.Dürinqin tənqidinə həsr edilmiş "Anti-Dürinq" əsəri çap olunmuşdur. Marksın ölümündən sonra Engels 1883-cü ildə "Kapital" əsərinin II və III cildlərini çapa hazırlamışdır.

ENQL ROBERT (1942) – Amerika iqtisadçısı. Uilyams Kollecinnin fizika üzrə bakalavrı (1964), magistridir (1966). 1969-cu ildə Kornel Universitetində iqtisadi nəzəriyyə üzrə



doktor dərəcəsi almışdır. Massaçuset Texnoloji İnstitutunun (1969), Kaliforniya Universitetinin (1975) professorudur. 2003-cü ildə dövri iqtisadi sıraların ümumi trendlərlə birlikdə təhlili metodunun hazırlanmasına görə Nobel mükafatına layiq görülmüşdür.

"ERKƏN ALICILAR" – yeni mallar bazarda peyda olan kimi onları almağa hazır olan alıcılar.

ERQONOMİKA (yun. *ergon* – iş, *nomos* – qanun) – konkret əmək fəaliyyəti şəraitində əmək alətlərinin, əmək şəraitinin və əməyin təşkilinin optimallaşdırılması məqsədilə insanın və texnikanın qarşılıqlı təsiri problemlərini kompleks şəkildə öyrənən elmi fənn. "Erqonomika" termini 1857-ci ildə polyak təbiətşünası Y.Yastşenbovski tərəfindən təklif edilmişdir. Erqonomikanın müstəqil elm kimi formalaşmasını 1949-cu ildə bir qrup ingilis alimi tərəfindən təşkil edilmiş "Erqonomika tədqiqat cəmiyyəti" ilə əlaqələndirmək qəbul edilmişdir. Erqonomik texniki elmlərin, psixologiyanın, fiziologiyanın və əmək gigiyenasının qovuşmasında yaranmış fənlərarası elmdir. O, mühəndis psixologiyası, kibernetika, sistem texnikası, eləcə də texniki estetika və əməyin elmi təşkili ilə sıx qarşılıqlı əlaqədə inkişaf edir. Sosial-iqtisadi amillər nəzərə alınmadan erqonomik tövsiyələr işlənib hazırlanması mümkün deyildir. Bu tədqiqatların obyekti "insan – maşın – mühit" sistemidir. Bu sistemdə "maşın" termini geniş mənada texnika kimi, "mühit" termini isə insanın və maşının işinə təsir göstərən xarici amillər kimi başa düşülür. Eqronomikanın tədqiqat sahələri: 1) fiziki mühitin insanın funksional vəziyyətinə və iş qabiliyyətinə təsirinin tədqiqi, mühitin zərərli təsirlərindən orqanizmi mühafizə edən effektiv vasitələrin hazırlanması; 2) psixoloji, fizioloji-gigiyenik və estetik tələblər nəzərə alınmaqla, idarəetmənin müxtəlif növ vasitə və məntəqələrinin əlverişli yerləşdirilməsində ümumi prinsiplərin müəyyən olunması; 3) icraçılarda möhkəm professional dinamik stereotiplərin yaranmasına təsir göstərən iş yeri və şəraitinin layihələndirilməsinə tələbatın təyini; 4) qavrama və hissetmə hədlərindən, analizatorların iş qabiliyyətindən, işıq və rəng siqnallarından asılı olaraq müxtəlif tip indikasiyaların (görmə, eşitmə və s.) optimal xarakteristikalarının effektivliyinin təyini, idarəetmə orqanlarının, onların diktə etdiyi iş hərəkətlərinin insanın reflektiv reaksiyasına uyğunluğunu nəzərə almaqla, səciyyəvi xassələrinin təyini. Eqronomikanın tədqiq etdiyi sistem: insan – əmək, aləti – istehsal mühitidir. İnsan bu sistemin elə bir hissəsidir ki, onu dərhal dəyişdirmək mümkün deyildir.

Sistemyaradıcı amillərin qarşılıqlı təsirinin təhlili texniki vasitələrin parametrlərinin və ətraf mühit amillərinin işləyən insanın anatomik-fizioloji və psixoloji imkanlarına müvafiq olması prinsipinə əsaslanır: texniki konstruksiyaların və insanın antropometrik məlumatlarının eyni ölçülü olması, əmək prosesinin texniki xarakteristikalarının işçinin biokimyəvi imkanlarına müvafiqliyi, ətraf mühit şəraitinin fizioloji cəhətdən əsaslandırılmış sanitariya-gigiyena normativlərinə adekvat olması və s. İnsan amilinin "insan-maşın" sisteminə daxil edilməsini optimallaşdırmaq məqsədilə istehsal avadanlığının texniki parametrlərinə və əmək prosesinin təşkilinə fizioloji, psixoloji və sanitariya-gigiyena tələblərinin əsaslandırılması erqonomikanın əsas məzmunudur. Texniki vasitələrin mürəkkəbləşməsi və müasir istehsal şəraitində əməyin məzmununda dərin dəyişikliklərin baş verməsi ilə əlaqədar olaraq sistem texnikasının inkişafı ilə bağlı problemlərin öyrənilməsi erqonomikanın əsas bölmələrindən birinə çevrilir. Erqonomika mürəkkəb maşın sistemlərinin yaradılmasını və istismarını insan ilə maşın arasında funksiyaların optimal bölgüsü, eləcə də operatorun funksional imkanları nəzərə alınmaqla onun işinin etibarlılıq, dəqiqlik və sabitlik dərəcəsini qiymətləndirmək mövqeyindən tədqiq edir.

Erqonomika harmonik iş mühiti formalaşdırmaq məqsədi güdən dizayn ilə üzvi şəkildə bağlıdır. Erqonomika müasir menecmentin ən mühüm vasitələrindən biridir.

ERROU (ARROW) KENNET COZEF (1921) – Amerika iqtisadçısı, elmi-texniki tərəqqinin iqtisadiyyatı, istehsalın təşkili və idarə edilməsi, ümumi iqtisadi tarazlıq nəzəriyyəsi, sosial seçim nəzəriyyəsi, istehsal funksiyaları aparatı sahəsində əsərlərin müəllifidir. 1972-ci ildə "Ümumi tarazlıq nəzəriyyəsinə və maddi rifah nəzəriyyəsinə yeni töhfələrinə görə" (D.Xiks ilə birlikdə) iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür. Kolumbiya universitetində riyaziyyat və iqtisadiyyat üzrə təhsil almışdır. 1942-1946-cı illərdə Amerika THQ-də meteoroloji xidmət zabiti. 1946-1948-ci illərdə Çikaqo universitetində iqtisadi araşdırmalar üzrə Koulz komissiyasının əməkdaşı. 1948-ci ildən REND-korporeyşn ilə əməkdaşlıq etmişdir. 1949-1968-ci illərdə Stenford universitetində iqtisadiyyat, statistika və əməliyyatların tədqiqi üzrə assistenti, daha sonra professoru olmuşdur; Harvard universitetinin iqtisadiyyat professoru (1968-1974) və Harvardda Ceyms Brayan Konant universitetinin professoru (1974-1979). 1980-ci ildən Stenfordda iqtisadiyyat professoru və əməliyyatların tədqiqi professoru Amerika İqtisadçılar Assosiasiyasının təsis etdiyi C.B.Klark medalı (1957). Amerika Milli Elmlər Akademiyasının, Amerika Fəlsəfə Cəmiyyətinin, Amerika İdtisadçılar Assosiasiyasının üzvü (1972-ci ildə prezidenti), Finlandiya və Britaniya elmlər akademiyalarının üzvü, Amerika Elm və Sənət Akademiyasının, eləcə də Ekonometriya Cəmiyyətinin həqiqi üzvü (1956-cı ildə Cəmiyyətin prezidenti), Ame-



rika Statistika Assosiasiyasının, Riyazi Statistika İnstitutunun həqiqi üzvü, Amerikanın bir sıra universitetlərinin və kolleclərinin fəxri doktoru.

Errounu ən çox məşhurlaşdıran onun doktorluq dissertasiyası əsasında yazdığı "Sosial seçim və fərdi dəyərlər" ("Social Choise and Individual Values", 1951) kitabıdır. Errou bu sahədə P.Samyuelsonun və Harvard universitetinin iqtisadçısı A.Berqsonun əvvəlki işlərinə istinad edərək fərdi üstünlüklərdən qrup qərarlarının rassional və ya demokratik yolla çıxarıla biləcəyi şərtləri ifadə etmişdir.

Errou "Klassik maddi rifah iqtisadiyyatının baza teoremlərinin genişlənməsi" ("An Extension of the Basic Theorems of Classical Welfare Economics", 1951) adlı işində V.Paretonun optimallıq prinsipinə əsaslanan maddi rifah nəzəriyyəsinin əsas müddəalarını riyazi baxımdan ümumiləşdirmişdir. O, qabarıq sıralar nəzəriyyəsinin köməyi ilə optimallıq məsələsini riyazi proqramlaşdırma sahəsinə köçürərək isbat etmişdir ki, rəqabət bazarında tarazlıq Pareto mənada optimallıq prinsipini nəzərdə tutur və Pareto mənada optimimun hər hansı paylanması bazar qüvvələri vasitəsilə həyata keçirilə bilər. Errounun riyazi modeli əsasında dövlətin bazar mexanizminin fəaliyyətinə qiymətlər üzərində nəzarət və gəlirin yenidən bölüşdürülməsinə yönəlmiş başqa tədbirlər şəklində bilavasitə müdaxilə etməsinin təhlükəli olması əsaslandırılmışdır. Errou başqa iqtisadçılarla əməkdaşlıq şəraitində ümumi tarazlıq problemləri ilə səmərəli məşğul olmuşdur. Bu gün məşhur olan ümumi tarazlığın kanonik modelini Errou J.Debrö ilə birlikdə yaratmış və ilk dəfə 1954-cü ildə onların "Ekonometrika" ("Econometrica") jurnalında dərc edilmiş "Rəqabət iqtisadiyyatı üçün tarazlığın mövcudluğu" ("Existence of Equlibrium for a Competitive Economy") adlı müştərək məqaləsində şərh edilmişdir. Errou-Debrö ümumi tarazlıq modeli ümumi tarazlıq nəzəriyyəsi, maddi rifah iqtisadiyyatı, iqtisadi qeyri-müəyyənlik, pul nəzəriyyəsi və müasir iqtisadi nəzəriyyənin başqa bölmələri sahəsində bütün nəzəri araşdırmalar üçün çıxış nöqtəsidir. Errounun tədqiqatlarının əsas istiqamətlərindən biri qeyri-müəyyənliyin iqtisadiyyatıdır. Xeyli dərəcədə məhz onun işləri sayəsində bu istiqamət müasir iqtisadi nəzəriyyənin və tətbiqi iqtisadiyyatın əsas bölmələrindən birinə çevrilmişdir. Errou özünün ilk məqalələrinin birində – "Riskin daha yaxşı bölüşdürülməsi üçün birja qiymətli kağızlarının əhəmiyyəti" ("Le role des valeurs boursieres pou la reportation la meilleure des risques") adlı məqaləsində (1953-cü il) qeyri-müəyyənlik şəraitində seçim üçün ümumi tarazlıq nəzəriyyəsini inkişaf etdirmişdir.

Errou iqtisadi nəzəriyyənin ən nüfuzlu nümayəndələrindən biri, iqtisadi nəzəriyyəyə aid bir sıra işlərin, iqtisadi nəzəriyyəyə və qonşu fənlərə aid icmalların və çoxsaylı kitablara giriş məqalələrinin müəllifidir.

ERROU PARADOKSU – müstəqil və bərabərhüquqlu şəxslər qrupunun fərdi faydalılıq funksiyalarını bu qrupun ümumi faydalılıq funksiyasına çevirməyin mümkün olmaması barədə K.Errounun tədqiq etdiyi teorem. Maddi rifah iqtisadiyyatı nəzəriyyəsi çərçivəsində K.Errounun ifadə etdiyi teorem cəmiyyətin formalaşmasının normal şəraitində istehlak məqsəd funksiyasının mümkün olmadığını sübut edirdi.

"ESKROU" KONSEPSİYASI – 1. Əqdin tərəflərinin sənədlərə və ya hesablara çıxış imkanı əldə edə bilməməsi. 2. Borcalan tərəfindən müəyyən müddətə və ya müəyyən şərtlərin yerinə yetirilməsinədək tərəf saxlamaq üçün verdiyi hüquqi sənəd, pul və ya əmlak (şərtlər yerinə yetirildikdən sonra üçüncü tərəf həmin sənədi və ya əmlakı kreditora ötürməlidir). 3. Etibarlı idarədə saxlanılan və ya təminat kimi istifadə olunan hesab. Üçüncü şəxslərin bu hesaba çıxışı yalnız müəyyən şərtlər yerinə yetirildikdən sonra mümkündür.

ETATİZM (fr. *etat* – dövlət) – dövləti siyasi-iqtisadi və sosial inkişafın əsas, həlledici amili hesab edən ideologiya. "Etatizm" terminini (dövlətin mərkəzləşdirilməsi mənasında) ədəbiyyatda XIX əsrin sonunda İsveçrə burjua liberalı H.Dro gətirmişdir. Dövlət kapitalizminin təzahür formalarından biri olan etatizm Türkiyə Respublikasının ilk dövrləri üçün daha xarakterik olmuşdur. Hələ 1922-ci ildə K.Atatürk "bilavasitə dövlət əhəmiyyətli müəssisə və idarələri" dövlətləşdirməyi (etatizmin türkcə "dövlətçilik" adı da bununla əlaqədardır) təklif etmişdi. Sonralar etatizm kamalçıların əsas prinsiplərindən biri olmuş, Cümhuriyyət Xalq Partiyasının proqramına (1931) və hətta Türkiyə hökumətinin rəsmi iqtisadi doktrinası kimi Türkiyə Respublikası Konstitusiyasına (1937) daxil edilmişdir. Ölkənin siyasi və iqtisadi müstəqilliyini möhkəm lətmək uğrunda türk milli burjuaziyasının apardığı mübarizə şəraitində etatizm müəyyən dərəcədə müsbət rol oynamışdı.

Etatizm dövlət mülkiyyətinin hökmranlığının və dövlətin iqtisadiyyata geniş əhatəli birbaşa müdaxiləsinin zəruri olmasından çıxış edir. Real gerçəklikdə müxtəlif ölkələrin inkişafının ayrı-ayrı dövrlərində milli iqtisadi modellər etatist modelə yaxın olmuşdur. Bu, ilk növbədə, SSRİ-nin və Şərqi Avropanın digər ölkələrinin, Şərqi Asiya və Latın Amerikasının bəzi ölkələrinin dövlət iqtisadiyyatına, eləcə də 1939-1945-ci illərdə İkinci Dünya müharibəsi dövründə Almaniyanın hərbi iqtisadiyyatına aiddir. Etatizm meyilləri Fransaya da müəyyən dərəcədə xasdır. 80-ci illərin axırlarına qədər bu ölkənin iqtisadi və maliyyə potensialının təqribən 20%-i dövlət mülkiyyətində idi. Keçmiş SSRİ-də etatizm ideologiyası mahiyyət etibarilə rəsmi ideologiyanın əsası idi və onu K.Marksın və V.İ.Leninin sosializm barədə fikirləri ilə əsaslandırmağa çalışan sosialist siyasi iqtisadında işlənib hazırlanırdı. Etatizm ideologiyası müasir dünyada bu və ya digər xalqın milli ənənələrinə və mentallığa – dövlət paternalizmi ideyalarının geniş yayılmasına, dövlətin sosial gerçəkliyin fövqündə hər şeyə qadir olmasına, dövlət təsərrüfatçılığının mifolojiləşdirilməsi inamına əsaslanır.

Bütün dünyada baş verən özəlləşdirmə və tənzimləmənin zəifləməsi meyilləri etatizm modelinin məhdudluğunu, onun həyat qabiliyyətli olmadığını təsdiq edir.

ETİBARLILIQ – obyektlərin, əmtəələrin tələb edilən xassələrini saxlamaq, fasiləsiz işləmək, müəyyən müddət ərzində nəzərdə tutulan funksiyaları yerinə yetirmək qabiliyyətidir. Texniki tətbiqlərdə etibarlılıq obyektin işləmə müddəti ilə müəyyən edilir. İqtisadiyyatda etibarlılıq iqtisadi və maliyyə subyektinin siyasi hadisələrə, tərəfdaşların səhvlərinə münasibətdə davamlılığı deməkdir.

ETİBARLILIQ NƏZƏRİYYƏSİ – mürəkkəb sistemin etibarlılıq göstəriciləri ilə əlaqədar məsələləri (onları hesablamaq, optimallaşdırmaq, təcrübi nəticələrə əsasən qiymətləndirmək və s.) öyrənən elm XX əsrdə hərbi və sənaye obyektlərinin etibarlılığını öyrənmək zərurəti ilə əlaqədar yaranmışdır və 1950-ci illərdən sürətlə inkişaf edir. Etibarlılıq nəzəriyyəsində sıradan çıxan elementlərin əvəz olunması və təmiri, istismar müddətində nasaz elementlərin aşkar edilməsi, profilaktikası və onların iş qabiliyyətini itirməsinə səbəb olan fiziki və kimyəvi proseslərin nəzərə alınması da araşdırılır. Sistemin etibarlılığı üçün əsasən aşağıdakı miqdar göstəriciləri işlədilir: saz işləmə ehtimalı (verilən zaman intervalında sistemin sıradan çıxmaması ehtimalı), stasionar etibarlılıq əmsalı (başlanğıc anda kifayət qədər müddət keçdikdən sonra verilən zaman intervalında sistemin sıradan çıxmaması ehtimalı). Sistemi təşkil edən ardıcıl birləşdirilmiş elementlərin sayı artdıqda, onun etibarlılığı (saz işləmə ehtimalı) azalır. Məsələn, hər birinin etibarlılığı 0,94 olan 1000 elementli sistemin etibarlılığı 0,00004-dür, yəni sistem praktiki olaraq işləmir. Mərkəzi sinir sisteminin olduqca yüksək etibarlı olması azetibarlı elementlərdən yüksək etibarlı sistem qurmağın mümkünlüyünü təsdiq edir. Amerikalı alimlər Con fon Neyman, E.F. Mur və K.E.Şennon azetibarlı elementlərdən yüksəketibarlı sistem qurmaq problemini araşdırmışdır. Etibarlılığı yüksəltmək üçün əsas üsul sistemə əlavə ehtiyat elementlərinin daxil edilməsidir. Məsələn, hər birinin etibarlılığı 0,9 olan 4 elementli sistemin etibarlılığı (0,6561), ona bir element əlavə edildikdə 0,9185, ikisi əlavə edildikdə isə 0,9841 olur.

ETİBARLILIQ ZƏMANƏTİ – digər şəxs və ya təşkilat tərəfindən öz öhdəliklərinin yerinə yetirilməsi faktının şübhəsiz olması və ya həmin şəxsin və ya təşkilatın etibarlılığı haqqında digər şəxsə və ya təşkilata sığorta zəmanəti.

ETİBARNAMƏ – inanmış bir şəxsin (etibar edənin) adından üçüncü şəxslər qarşısında təmsil olunmaq üçün digər şəxsə (etibar edilənə) verilən yazılı səlahiyyət. Etibarnamə etibar edi-


lənin səlahiyyətinin məzmununu və müddətini əks etdirən birtərəfli əqddir. Etibarnamə səlahiyyət həcminə görə 3 növ olur: birdəfəlik – bir müəyyən hərəkəti icra etmək üçün (məsələn, əmək haqqını almaq üçün); xüsusi – oxşar hərəkətləri icra etmək üçün (məsələn, müəssisənin hüquq məsləhətçisinə məhkəmədə və ya arbitrajda çıxış etmək üçün; ümumi – etibar edənin əmlakını bütünlüklə idarə etmək üçün. Etibarnamə bağlama formaları və üsulları, onun qüvvədə olma müddəti, xitam qaydası respublika Mülki Məcəllələri ilə müəyyən edilir.

ETİBARSIZ ƏQD – Qanunvericilik aktlarının birbaşa pozulması ilə bağlanmış, məhkəmə yolu ilə qanunsuz hesab edilmiş əqd. Bağlanılarkən qanunun tələbləri qəsdən pozulmuş əqd qanuna zidd əqd adlanır.

ETİBARSIZ REKLAM – reklam edilən mal, onun xassələri və xarakteristikaları, o cümlədən malın keyfiyyəti, təyinatı, istehlak xassələri, zəmanət, servis və digər xarakteristikaları barədə həqiqətə uyğun olmayan məlumatlardan ibarət reklam. Qanunvericiliyə görə bu cür reklam yolverilməz hesab edilir.

"ETİKETİ YOLLAYIN" TİPLİ TƏKLİF – irəliləmə üsulu. Bu zaman alıcılara poçt vasitəsilə etiket, yarlık və ya qapaq yollamaq təklif olunur ki, nəticədə onlar şirkətdən hədiyyə ala bilirlər və ya müəyyən malı güzəştlə əldə edirlər.

ETİMADA ƏSASLANAN MÜLKİYYƏT – etimad göstərən, bu halda təsisçi adlanan mülkiyyətçi tərəfindən etibar edilən mülkiyyətçi adlanan digər şəxsə əmlak dəyərləri üzərində mülkiyyət və onların idarə edilməsi hüququnun verilməsi. Həm fiziki (qeyri-rəsmi) şəxslər, həm də hüquqi şəxslər öz mülkiyyətinin idarə olunmasını başqalarına etibar edə bilərlər. Etibar edilən mülkiyyətçilər onlara etibar edilmiş əmlak barəsində təsisçinin müqavilədə göstərdiyi hədlər daxilində sərəncam vermək hüququna malikdirlər. Təsisçi etibar edilən mülkiyyətdən istifadə edilməsindən əldə edilən gəlirlərin benefisiarilər (mənfəət əldə edənlər) adlanan üçüncü şəxslərə verilməsini etibar edilən mülkiyyətçiyə tapşırmaq hüququna malikdir. Etibar edilən mülkiyyətçilər qismində hüquq orqanları, qəyyum şuraları və ya qəyyumlar çıxış edə bilərlər.



ETİMADA ƏSASLANAN ORTAQLIQ (kommandit ortaqlığı) – hüquqi şəxsin təşkilati-hüquqi formasıdır; ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəliklərinə görə öz əmlakı ilə cavabdeh olan iştirakçılarla (tam ortaqlarla) yanaşı, bir və ya bir neçə əmanətçi iştirakçının (kommanditçilərin) daxil olduğu, ortaqlığın fəaliyyəti ilə əlaqədar ziyanların riskini onların ödəmiş olduqları üzvlük haqları həddində daşıyan və ortaqlıq tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində iştirak etməyən iştirakçıların da olduğu təsərrüfat ortaqlığı.

Etimada əsaslanan ortaqlıq tam ortaqlığın dəyişilmiş forması kimi yaranmışdır. Bu forma ortaqların kənardan borc müqaviləsi ilə müqayisədə daha az riskli şərtlər daxilində vəsait cəlb etmələrinə imkan verir. Əmanətçilər üçün bu formanı cəlbedici edən sahibkarlıq fəaliyyətində şəxsən iştirak etmədən, öz əmlakını riskə məruz qoymadan həmin fəaliyyətdən gəlir əldə etmək imkanıdır.

Etimada əsaslanan ortaqlığın təsis müqaviləsi bütün tam ortaqlar tərəfindən imzalanır, əmanətçilər təsis müqaviləsində iştirak etmirlər. Buna görə də onlar tam ortaqlarla məcburi münasibətlərdə deyildirlər və bu cür münasibətlərlə yalnız ortaqlığın özü ilə bağlıdırlar. Əmanətçilərin tərkibinin dəyişməsi təsis müqaviləsinin dəyişməsinə səbəb olmur və bu dəyişiklik dövlət qeydiyyatına alınmalı deyildir. Kommanditçilər təsis müqaviləsinin iştirakçıları olmadıqlarına baxmayaraq, bu müqavilənin şərtləri ilə onların formal razılığı etimada əsaslanan ortaqlığın təsis edilməsi üçün zəruridir, çünki onların iştirakı olmadan bu cür ortaqlıq yaradıla bilməz. Kommanditçilər ortaqlığa daxil olmaq arzularını açıq formada bildirməli və üzvlük haqları vermək öhdəliklərini qəbul etməlidirlər. Lakin kommanditçinin razılığının xüsusi arzusunu bildirmək aktı şəklində olması məcburi deyildir. Əgər kommanditçi özünün ortaqlığa daxil olmasını bəyan etmiş və üzvlük haqqını ödəmək öhdəliyini qəbul etmişdirsə, bu fakt artıq onun təsis müqaviləsi ilə razılaşmasını təsdiqləyir. Bu halda ona tam ortaqlar tərəfindən imzalanmış müqavilənin mətni ilə tanış olmaq imkanı verilməsi təsdiq edilməlidir. Kommanditçilərin hüquqları sonradan onların razılığı olmadan dəyişdirilə bilməz.

Etimada əsaslanan ortaqlığın fəaliyyətinin və işlərinin idarə edilməsi tam ortaqların müstəsna səlahiyyətidir və tam ortaqlıqlar haqqında qaydalara tabedir. Əmanətçilər yalnız işlərin idarə edilməsi hüququna malik olan tam ortaqlardan müvafiq etibarnamələr olduğu halda ortaqlığın adından çıxış edə bilərlər. Lakin kommanditçinin səlahiyyətləri etibarnamədə kifayət qədər ətraflı və ya tam korrekt (təshih) olmayan şəkildə müəyyən edilmiş olduqda belə o, yalnız ortaqlığın işlərini idarə etmək üçün müvəkkil edilmiş tam ortaqların göstərişlərinə müvafiq qaydada hərəkət etməli, müstəqil şəkildə heç bir qərar qəbul etməməlidir. Əks halda onun kommanditçi vəziyyəti şübhə altına alına bilər.

Kommanditçilərin xalis əmlak xarakteri daşıyan əsas hüquqları aşağıdakılardır: əmanətçinin nizamnamə kapitalındakı payından ona çatan həcmdə ortaqlığın mənfəətinin hissəsi barədə hüquq; hər bir maliyyə ili başa çatdıqdan sonra öz əmanətini geri almaqla ortaqlıqdan çıxmaq hüququ, eləcə də öz payını (payın bir hissəsini) başqa əmanətçiyə və ya üçüncü şəxsə vermək hüququ. Pay başqasına verilən halda başqa əmanətçilər həmin payı almaq baxımından üçüncü şəxslər qarşısında üstün hüquqa malikdirlər. Əmanətçi öz payını tam ortağa verə bilməz, çünki bu halda tam ortaqlar arasında mənafelər balansı pozula bilər. Bununla bərabər, bütün başqa tam ortaqların razılığı ilə payın bu cür verilməsini qadağan etməyə əsas yoxdur. Göstərilən xalis əmlak hüquqları ilə yanaşı, əmanətçi həm də informasiya hüququna malikdir. Bu, o deməkdir ki, əmanətçinin ortaqlığın illik hesabatları ilə tanış olmaq imkanı vardır. Kommanditçinin yeganə vəzifəsi – ortaqlığın məcmu kapitalına üzvlük haqqı ödəməkdən ibarətdir.

Etimada əsaslanan ortaqlıq bütün hüquqi şəxslər üçün ümumi əsaslar üzrə və tam ortaqlıq üçün nəzərdə tutulmuş xüsusi əsaslar üzrə ləğv edilir. Lakin tam ortaqlıqdan fərqli olaraq, etimada əsaslanan ortaqlıq, hətta, onun tərkibində cəmi bir tam ortaq qaldığı halda da öz mövcudluğunu davam etdirir. Etimada əsaslanan ortaqlığın ləğv edilməsi üçün yeganə xüsusi əsas – bütün əmanətçilərin çıxmasıdır. Bu əsas onunla əlaqədardır ki, bütün əmanətçilər çıxdığı halda ortaqlığın subyekt tərkibi onun formasına müvafiq olmur. Əgər tam ortaqlar öz fəaliyyətlərini davam etdirmək arzusunda olarsa, onlar əmanətçilərdən məhrum olmuş etimada əsaslanan ortaqlığın tam ortaqlığa çevrilməsi barədə qərar qəbul etməlidirlər.

Etimada əsaslanan ortaqlıq ləğv edildiyi halda əmanətçilər başqa ortaqlarla müqayisədə üstün hüquqlara malikdirlər. Bu məqam ortaqlığın fəaliyyəti dövründə əmanətçilərin tabe vəziyyətdə olmaları müqabilində bir növ kompensasiya kimi qiymətləndirilə bilər. Ləğv edilməli əmlakdan, ilk növbədə, əmanətçilərin üzvlük haqlarının əvəzi ödənilir. Bundan sonra isə onlar tam ortaqlarla bərabər qalan əmlakın bölüşdürülməsində iştirak edirlər. Ortaqlığın kreditorlarının tələbləri təmin edilənə qədər kommanditçilər ortaqlığın iştirakçıları kimi heç bir ləğvetmə ödənişi ala bilməzlər.

ETİMADA ƏSASLANAN SƏHMDAR SERTİFİKATI – səhmlər paketinin mülkiyyətçisi tərəfindən həmin səhm paketinin idarə edilməsi üçün etimad edilən şəxsə verilmiş etibarnamə.

ETİMADIN QİYMƏTLƏNDİRİLMƏSİ – poçt vasitəsilə malların sifarişi ilə işləyən maliyyə xidmətləri və şirkətləri tərəfindən istifadə olunan sistem. Bu sistemin köməyi ilə (alıcının müəyyən xüsusiyyətləri əsasında) kredit və ya borc razılaşmaları şərtlərinin nə qədər yerinə yetirilə bilməməsini təxminən qiymətləndirmək mümkündür.

EV ƏMLAKININ SIĞORTALANMASI – ailənin mədəni və məişət tələbatlarının ödənilməsi məqsədilə şəxsi təsərrüfatda istifadə edilmək üçün ev, istehlak, məişət, gündəlik yaşayış əşyalarının, predmetlərinin sığortalanması. Ev əmlakının sığortalanması – ev şəraitində olan əşyaların, şəxsi təsərrüfatda istifadə olunan və ailənin məişət və mədəni tələbatlarının ödənilməsi üçün nəzərdə tutulan məişəti, gündəlik həyatı və istehlakı əhatə edən əmlak sığortası növüdür. Ev əmlakının sığortalanması keçmiş SSRİ-də və Rusiya Federasiyasında geniş yayılan könüllü əmlak sığortası növüdür.

Cədvəl 1

2010-cu ildə ev təsərrüfatları başçılarının gəlirlərinin quruluşu

(ev təsərrüfatları tədqiqatına əsasən yekuna görə, faizlə)

	Kişilər	Qadınlar
Məşğulluqdan gəlirlər	34,4	36,3
Özüməşğulluqdan gəlirlər	26,5	16,5
Kənd təsərrüfatından gəlirlər	14,3	12,0
İcarədən gəlirlər	0,9	1,0
Əmlakdan gəlirlər	0,2	0,3
Alınmış cari transferlər	14,7	17,6
onlardan:		
pensiyalar	12,0	14,9
müavinət və sosial yardımlar	1,8	2,0
naturada sosial transferlər	1,0	0,8
Digər gəlirlər	8,9	16,2
onlardan:		
digər ev təsərrüfatlarından alınmış gəlirlər	7,2	7,5
xarici ölkələrdən göndərilən vəsait	1,7	8,7
Cəmi gəlirlər, faizlə	**100**	**100**

EV JURNALI (ing. *House journal*) – bir qayda olaraq iri təşkilatlar tərəfindən öz əməkdaşları üçün nəşr edilən dövri jurnal; bütün işçilər üçün tribuna rolu oynayan, onlara şirkətin əsas siyasəti barədə məlumat və ictimai həyat barədə xəbərlər verən nəşr. Bu cür nəşrlər korporasiyanın işçilərinə, hətta, onlar coğrafi mənada pərakəndə səpələnmiş olduqda belə, öz korporasiyalarına aid olmaq hissinin bərpa olunmasında kömək edir. Məsələn, "MakDonald's" şirkəti ayda iki dəfə 100 səhifəlik nəfis tərtibatlı gözəl jurnal nəşr edir; RF-də "Sberbank" qəzet formasında buna oxşar nəşr buraxır.

EV TƏSƏRRÜFATI – iqtisadi fəaliyyətin üç əsas subyektindən biri; bir və ya daha çox şəxsdən ibarət olan, iqtisadi resurslarla təchiz edən və əldə etdiyi pulu insanın maddi və mənəvi tələbatlarını ödəyən əmtəə və xidmətlərin mənimsənilməsinə sərf edən iqtisadi vahid. Daim insanın, ailənin yaşadığı iqtisadi obyektləri və orada baş verən prosesləri əhatə edir.

EV TƏSƏRRÜFATLARI STATİSTİKASI (EV TƏSƏRRÜFATLARININ BÜDCƏSİNİN SEÇMƏ MÜAYİNƏSİ) – mikro səviyyədə əhalinin həyat səviyyəsinin tədqiqatı üçün əsas məlumat bazası hesab edilir. Ev təsərrüfatları statistikası sosial-iqtisadi statistikanın əsas sahələrindən biridir və ölkə əhalisinin həyat səviyyəsini və əsas etibarı ilə onun maddi vəziyyətini öyrənir. Ev təsərrüfatlarının müayinəsinin materialları müxtəlif əhali qruplarının gəlirlərinin, xərclərinin, şəxsi istehlakının, gəlir və istehlak xərclərinin səviyyəsinin struktur dəyişmələrini xarakterizə edir. Ailənin tərkibindən, onun üzvlərinin məşğulluğundan asılı olaraq, bu səviyyələrdəki müxtəlifliyin ortaya çıxarılmasına imkan verir, gəlirlərin formalaşmasında, istehlakın gəlir səviyyələrindən asılılığında müxtəlif mənbələrin rolunu göstərir, istehlak tələbindəki dəyişmələri izləməyə imkan verir, əhalinin gəlirləri, xərcləri, istehlakı və s. üzrə təbəqələşməsini xarakterizə edir.

Ev təsərrüfatları statistikasının məlumatlarından ümumi daxili məhsulun iqtisadi hesablamalarında; milli hesabların hazırlanmasında; istehlak qiymətləri indeksinin, əhalinin real gəlirlərinin hesablanmasında, istehsal balansının tərtibində, əhalinin həyat səviyyəsində baş verən dəyişikliklərin təhlil edilməsi və əhalinin sosial müdafiəsi üçün tədbirlər sisteminin hazırlanmasında, kənd təsərrüfatı məhsullarının və s. istifadəsində geniş istifadə olunur.

Azərbaycanda ev təsərrüfatlarının seçmə məcmusu bütün regionların sənədləri daxilində "bütün əhali" kateqoriyasının təmsil edilməsi prinsipi əsasında təşkil edilmişdir. Ev təsərrüfatı seçməsinin formalaşdırılması Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilən ev təsərrüfatlarının seçilməsi alqoritmi əsasında elmi əsaslandırılmış metodlarla həyata keçirilir. Seçmə ümumi məcmu, kollektiv yaşayanlar (uzun müddət xəstəxanada, qocalar üçün internat evlərində, internat məktəblərində və s. institusional müəssisələrdə, dini təşkilatlarda və digər kollektiv yaşayış yerlərində olan şəxslər) istisna olmaqla, bütün növ ev təsərrüfatlarını əhatə edir.

Seçmənin son vahidi özlərini yemək və həyat üçün lazım olan bütün hər şeylə birlikdə təmin edən, yəni öz vəsaitlərini ta-


Cədvəl 2

Respublika üzrə ev təsərrüfatlarının uşaqların sayına görə bölgüsü

(2009-cu il əhalinin siyahıyaalınmasının məlumatlarına əsasən)

18 yaşadək uşaqları olan ev təsərrüfatları	18 yaşadək uşaqları olan ev təsərrüfatlarının sayı, cəmi	o cümlədən:	
		şəhər yerlərində	kənd yerlərində
min nəfər			
Cəmi	**1314,5**	**680,7**	**633,8**
o cümlədən:			
1 uşaqlı	396,0	226,9	169,1
2 uşaqlı	529,9	276,7	253,2
3 uşaqlı	261,9	120,3	141,6
4 və çox uşaqlı	126,7	56,8	69,9
yekuna görə, faizlə			
Cəmi	**100,0**	**100,0**	**100,0**
o cümlədən:			
1 uşaqlı	30,1	33,3	26,7
2 uşaqlı	40,3	40,7	40,0
3 uşaqlı	19,9	17,7	22,3
4 və çox uşaqlı	9,7	8,3	11,0

Azərbaycan Respublikasında ev təsərrüfatlarının gəlirlərinin quruluşu



Qrafik 1

mamilə, ya da hissə-hissə birləşdirən və xərcləyən, qohumluq əlaqəsi ilə bir-birinə bağlı olan, eləcə də qohumluq əlaqəsi olmayan, bir yaşayış yerində, yaxud onun bir hissəsində yaşayan şəxslərin məcmusunu təmsil edən ev təsərrüfatıdır. Ev təsərrüfatı sərbəst yaşayan bir insandan da ibarət ola bilər.

Ev təsərrüfatları büdcələrinin seçmə tədqiqatı əhalinin həyat səviyyəsinin dövlət tərəfindən statistik müşahidə metodudur. Azərbaycanda ev təsərrüfatları büdcələri tədqiqatının böyük tarixi təcrübəsi var. İlk tədqiqatlar XIX əsrin sonu və XX əsrin əvvəllərində Bakı neftçilərinin ailələrində aparılmışdır. Hazırda mövcud olan ev təsərrüfatlarının seçmə tədqiqatının metodoloji şəbəkəsi XX əsrin 50-ci illərinin əvvəllərində yaradılmışdır (bax: qrafik 1).

EV TƏSƏRRÜFATLARINA XİDMƏT EDƏN QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARININ SON İSTEHLAK XƏRCLƏRİ – ev təsərrüfatlarına pulsuz və bəzən də çox ucuz qiymətlər ilə müxtəlif xidmətlər göstərən qeyri-kommersiya təşkilatlarının istifadə etdikləri məhsul və xidmətlərə xərcləri, habelə ictimai təşkilatların xərcləri daxil edilir. Buraya həm də öz işçilərinə təhsil, səhiyyə və mədəniyyət sahələrinin xidmətlərindən pulsuz istifadəyə görə müəssisə və təşkilatların xərcləri daxil edilir. MHS-də istifadə edilən göstəricidir.

EV TƏSƏRRÜFATLARINA XİDMƏT GÖSTƏRƏN QEYRİ-KOMMERSİYA TƏŞKİLATLARI – əhalinin firavan sosial həyat tərzinin təmin edilməsində bilavasitə iştirak edərək, əsasən, pulsuz xidmətlər göstərən subyektlərin (hüquqi və fiziki şəxslər, ictimai təşkilatların) fəaliyyət nəticələrini ümumiləşdirən yanaşma metodu. Əsasən, son istehlakı həyata keçirirlər. MHS-də istifadə edilən göstəricidir.

EV TƏSƏRRÜFATLARININ SON İSTEHLAK XƏRCLƏRİ – ev təsərrüfatlarının ticarət təşkilatlarından (mütəşəkkil və qeyri-mütəşəkkil (küçə) ticarəti və şəhər bazarları və ticarət mərkəzlərindən) aldığı məhsullara (ərzaq və qeyri-ərzaq məhsullarına), məişət xidməti müəssisələri, sərnişin nəqliyyatı, rabitə, mehmanxana, pullu xidmətlər göstərən mədəniyyət, səhiyyə, təhsil müəssisələri üzrə istifadə etdiyi xidmətlərə çəkilmiş xərclərini, habelə natural formada əmtəə və xidmətlərin əldə edilməsinə, özünün istehsal etdiyi (ev təsərrüfatında) məhsullardan öz tələbatının ödənilməsi məqsədilə istifadə edilən məhsullar (kənd təsərrüfatı məhsulları, emal sənayesinin məhsulları) və xidmətlərə (mənzil və evinin təmiri, digər xidmətlərə) xərcləri, ev qulluqçularının əmək haqqına ödənişləri bu göstəriciyə daxil edilir. MHS-də istifadə edilən göstəricidir.

EV VEKSELİ – bank tərəfindən onun xaricdəki şöbəsi və ya filialı üçün yazılan barat vekseli.

EVRİSTİK PROQNOZLAŞDIRMA METODLARI – proqnozlaşdırmanı həyata keçirən mütəxəssisin təcrübə və intuisiyasından irəli gələn hesablama üsullarına və qaydalarına əsaslanan proqnozlaşdırma metodları. Bu modeldən proqnozların əsasını təşkil edən şərtlər proqnozlaşdırılan proses və obyektin hərəkətinin real xüsusiyyətinə uyğun gəlmədiyindən, dəqiq riyazi modellərin tətbiqi proqnozun nəticələrinin dəqiqliyini təmin etmədiyi hallarda istifadə edilir.

EYLER TEOREMİ (ing. *Euler's theorem*) – müəyyən riyazi əməliyyatların nəticəsi olan bu teoremə görə istehsal funksiyası miqyasın səmərəsinin sabit olması ilə səciyyələndikdə və istehsal amillərinin qiyməti onların məhsulunun yuxarı həddinə bərabər olduqda iqtisadi mənfəət sıfıra bərabərdir.

EYNİ MALLAR – elə idxal olunmuş mallardır ki, bu malların fiziki xassələri (malların dəyərinə təsir etməyən xarici görünüşündəki kiçik fərqlər istisna olmaqla), keyfiyyəti və həmçinin, bazarda nüfuzu dəyərləndirən mallarla eynidir; bu cür mallar eyni malların istehsal edildiyi ölkədə istehsal olunmalıdır.

EYNİCİNSLİ MALLAR – bütün xüsusiyyətlərinə görə eyni olmasa da, onlara qiymətləndirilən mallarla eyni funksiyaları yerinə yetirmək imkanı verən oxşar xüsusiyyətlərə və tərkib materiallara malik olan və kommersiya baxımından bir-birini əvəz edə bilən mallar başa düşülür. Malların eynicinsli olması onların keyfiyyətinə, əmtəə nişanının olmasına və bazardakı nüfuzuna görə müəyyən edilir.

EYNİLƏŞDİRMƏ – 1) ümumi və şəxsi əlamətlərin məcmu-

suna əsasən, məhkəmə sübutlarının alınması üçün onların müqayisəli tədqiqatı yolu ilə konkret subyektin və ya şəxsiyyətin oxşarlığının müəyyən edilməsi prosesi; 2) nəyisə və ya kimisə tanıma, obyektin daha əvvəl formalaşdırılmış obrazla müqayisə edilməsi prosesi. Sosial psixologiyada subyektin özünü müəyyən sosial qrupa, sosial mühitə aid etməsi; 3) müştərinin, bankın, aktivlərin sahibinin şəxsi nömrə, imza, kod, maşın yoxlaması üçün nişanlar, məxfi və ya şəxsi informasiya, sosial sığortanın və ya vergi qeydiyyatının nömrəsi və s. atributların köməyi ilə tanınması; 4) dəyişilməz əlamətlərə əsasən şəxsin və ya əşyanın tanınması. Cinayət hüququnda, müttəhimin şəxsiyyəti fotoşəkillər, barmaq izləri, ölçülər və başqa xarakteristikalara görə, məsələn, səsin lent yazısının səsləndirilməsi əsasında müəyyən edilir. Lakin bu tədbir məcburiyyət tətbiq edilməklə həyata keçirilə bilməz. Ağır cinayət əməli törədilmiş olduqda saçın əvvəlki rənginin bərpa edilməsinə, saqqalın qırxılmasına da yol verilir, bu, uyğunluq prinsipinin təzahürüdür.

Ə

ƏBDÜLSƏLİMZADƏ QÜDRƏT YAQUB OĞLU (1933) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1961-ci ildə respublikanın elektrikləşdirilməsi məsələlərinə dair namizədlik dissertasiyası, 1969-cu ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 30-dan artıq monoqrafiya, kitab, elmi-metodiki vəsait və 400-dən çox məqalənin müəllifidir. İqtisadi tarix və iqtisadi nəzəriyyə fənlərindən dərslik hazırlamışdır. N.Gəncəvinin, N.Tusinin, Ə.Nizammülmülkün, M.F. Axundovun, N.Nərimanovun, M.Ə.Rəsulzadənin sosial-iqtisadi görüşlərini tədqiq etmişdir. 1992-1995-ci illərdə Dövlət Əmlak Komitəsinin Sədri vəzifəsində çalışmışdır. 1997-ci ildən Bakı Biznes Universitetinin və Qərb Universitetinin professorudur.

ƏBDÜRRƏHMANOV BALACA ELYAS OĞLU (1922-1976) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.

Moskvada namizədlik, 1969-cu ildə Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda "Azərbaycan SSR-də nəqliyyat-iqtisadi əlaqələrinin səmərələşdirilməsi problemi və onun ictimai istehsalın faydalılığının yüksəldilməsinə təsiri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.



B.Əbdürrəhmanov ömrünün yarıdan çoxunu AMEA-nın İqtisadiyyat İnstitutu ilə bağlamışdır. Zəngin yaradıcılıq yolu keçən, özünə qarşı tələbkar olan Balaca müəllimin bu illər ərzində "Azərbaycan SSR-də rayonlararası iqtisadi əlaqələrin səmərələşdirilməsi perspektivləri", "Nəqliyyat və onun Azərbaycan istehsalının inkişafı və yerləşdirilməsinə təsiri", "Nəqliyyat-iqtisadi əlaqələrin səmərələşdirilməsi problemləri və Azərbaycanda ictimai istehsalın səmərəliliyinin yüksəldilməsinə təsiri", "Sosialist istehsalının yerləşdirilməsi məsələləri", "Kiçik Qafqazın şimal-şərq yamaclarında yerləşən rayonların iqtisadi-coğrafi səciyyəsi", "Azərbaycan SSR-də yeyinti sənayesi", "Sənaye istehsalının ərazi üzrə təşkilinin təkmilləşdirilməsi problemləri" və s. kimi elmi əsərləri çap olunmuşdur. 100-dən çox elmi əsərin və məqalənin müəllifidir. Onun rəhbərliyi ilə 5 elmlər namizədi hazırlanmışdır. Bir çox elmlər doktorunun yetişdirilməsində yaxından iştirak etmişdir.

ƏBƏDİ ƏMANƏT – dövlət kreditinin formalarından biri, şərti əmanətin bir növü. Əbədi əmanət zamanı əmanətlərin məbləği bankın və ya digər kredit idarəsinin mülkiyyətinə verilir. Əmanətçi yalnız faiz almaq hüququna malikdir.

ƏDALƏTLİ CƏMİYYƏT – yüksək sosial təminatlı, real amal və istəklərə əsaslanır. Sosial müdafiənin ünvanlı sisteminin inkişafı, əlillərin cəmiyyətə inteqrasiyası, uşaq fəqirliyinin xəbərdarlığı və məhdudlaşdırılması, pensiya sisteminin təkmilləşdirilməsi, keyfiyyətli təhsil və səhiyyə xidmətinin cəmiyyət üzvləri üçün münasibliyi, əhali məşğulluğunun təminatı və yeni iş yerlərinin açılması kimi prioritetləri əks etdirir.

ƏDALƏTLİ ƏMƏK HAQQI – minimal əmək haqqı üzrə dövlət qanunvericiliyində təsbit olunan əmək haqqıdır. Böyük Britaniyada ABŞ-dan fərqli olaraq, ədalətli əmək haqqının müəyyən edilməsinə seçim yanaşması

mövcuddur, bu da kollektiv razılaşmaların bağlanma təcrübəsinin ya zəif olduğu, ya da hələ olmadığı məhdud sahələrdə minimal ödənişin müəyyən edilməsindən ibarətdir. Burada əsas alət kimi əmək haqqı üzrə Şura çıxış edir. 1982-ci ilə qədər ədalətli əmək haqqı məsələləri üzrə icmalar Palatasının qətnaməsi qəbul olundu. Belə qətnamələrdən birincisi hökumət müqavilələri ilə işləyən işçilər üçün cari əmək haqqı dərəcələrinə riayət olunmasına istiqamətlənmişdi. Son qətnamə hökumət müqavilələri podratçılarından elə əmək haqqı ödənişini tələb edir ki, bunlar kollektiv müqavilə şərtlərinə nəinki ədalətli əmək haqqı, həm də ədalətli əmək şəraitinə riayət edilməsinə cavab versin.

ƏDALƏTLİ QONORAR – müəlliflik hüququ və əlaqəli hüquqlarla qorunan əsərlərdən, fonoqramlardan və teleradio verilişlərindən istifadəyə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və minimum məbləğdən az olmamaqla ödənilən ədalətli haqdır. Məcburi lisenziya və ya qanun üzrə lisenziya hallarında müəllif hüquqlarının qorunması haqqında sazişlərdə ədalətli haqqın müəyyən edilməsi nəzərdə tutulur, saziş olmadığı hallarda isə bu haqq müəlliflik hüquqları sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

ƏDALƏTLİ VƏ DİSKRİMİNASİYASIZ REJİM – beynəlxalq iqtisadi münasibətlərdə hüquqi rejimin ən geniş yayılmış növü. Bu rejimin mahiyyəti ondan ibarətdir ki, o, konkret normalar nəzərdə tutmur və yalnız təsərrüfat əməliyyatlarında haqsızlığa mane olur. Konkret məsələlərin həlli üçün dövlətlər arasında əlaqə kanallarını yaradır. İlk dəfə 1948-ci ildə Havana Xartiyasında standart kimi istifadə edilmişdir; son zamanlar danışıqlar prosesinin təşkili üçün, habelə investisiyaların təşviqi və müdafiəsi zamanı geniş tətbiq edilir.

ƏDALƏTLİLİK – maddi nemətlərin cəmiyyət üzvləri arasında ədalətli şəkildə bölüşdürülməsi.

ƏDV ÜZRƏ HESABAT DÖVRÜ – ƏDV üzrə hesabat dövrünün təqvim ayı.

ƏDV-nin DEPOZİT HESABI – ƏDV-nin mədaxili, uçotu, hərəkəti və dövlət büdcəsinə məxaric ilə bağlı əməliyyatlar aparılan vahid xəzinə hesabı.

ƏHALİ – qitənin, ölkənin və ya onun bir hissəsinin, ayrıca bir regionun və ya yaşayış məntəqəsinin ərazisində yaşayan insanların məcmusu.

Stasionar əhali (lat. *stasionarius* – hərəkətsiz) – nəzəri əhali, əsl təbii artım əmsalı $r=0$ və əhalinin dəyişməz sayı $P=(t)=P(0)$ olduqda, stabil əhalinin tipik olmayan halı. Stasionar əhali nəzəriyyəsinin əsası E.Qaleyin (1693) əsərində qoyulmuşdur. XIX əsrin sonuncu rübündə Q.F.Knapp stasionar əhalinin əsas kəmiyyət nisbətlərini ətraflı işləmişdi. Son dəfə XX əsrin birinci yarısında A.C.Lotkanın əsərlərində yazılmışdı. Stasionar əhaliyə hər şeydən əvvəl doğulanların dəyişməz illik sayı olan və nəslin kəsilməsi ardıcıllığı, doğum rejimi haqda heç bir hipoteza olmayan əhali kimi baxılır. Belə şərh stasionar əhalini eksponensial əhalinin tipik olmayan hadisəsi edir.

Stasionar əhali nəzəriyyəsinin əsas məzmunu doğulanların, yaşayanların, ölənlərin müxtəlif qruplarının sayları ilə ölüm (ömür) və doğulma ehtimalları arasında nisbətlər sistemidir. Bu nisbətlər müxtəlif demoqrafik cədvəllərin, ilk növbədə, ölüm cədvəllərinin qurulmasında istifadə olunur. Stasionar əhalinin yaş strukturu birmənalı olaraq ömür funksiyası $l(x)$ ilə müəyyən olunur. Belə ki, yaş strukturunun sıxlığı bərabərdir:

$$c(x)=\frac{l(x)}{\int_0^\infty l(x)dx}$$


Burada x_1, x_2 yaş intervallarında şəxslərin payıdır.

$$\int_{x_1}^{x_2} c(x)dx$$

Stasionar əhalinin ölümünün ümumi əmsalı (m) doğumun ümumi əmsalına (b) bərabərdir və burada e_0 – doğulduqda ömrün gözlənilən uzunluğudur.

İnstitusional əhali – müəssisə adlanan yerlərdə daimi yaşayan şəxslərdən ibarət olan ölkə əhalisinin bir hissəsi. Belə şəxslər birlikdə yaşayır, adətən birlikdə qidalanırlar. Bu cür yaşayanlar ümumi məqsədilə əlaqəlidirlər və ümumi qaydalara tabedirlər, yəni əhalinin xüsusi sosial qrupunu təşkil edirlər. Onlara internat tipli məktəblərdə və universitet yataqxanalarında, qocalar və əlillər evlərində, dini və himayə olunan digər ümumi müəssisələrdə, hərbi və polis

Azərbaycan Respublikasında əhalinin sayı (ilin sonuna, min nəfər)



Qrafik 1

kazarmalarında, islah müəssisələrində və başqa yerlərdə yaşayanlar aiddirlər. Belə sosial qrupların üzvləri adı "şəxsi" ev təsərrüfatından fərqlənən qrup ev təsərrüfatlarını və ya kollektiv ev təsərrüfatlarını təşkil edirlər. Müəssisələrdə yaşayan, lakin orada yaşayanların siyahısına daxil olmayan (məsələn, xidmətedici heyət) şəxslər ev təsərrüfatlarına aid edilirlər.

ƏHALİ GƏLİRLƏRİNİN DİFERENSİASİYASI – yüksək gəlirli əhali qruplarının gəlirlərinin az gəlirli əhali qruplarının gəlirlərindən artıq olma dərəcəsinin müəyyənləşməsi. Məcmu gəlirlər üzrə diferensiasiyanın cini əmsalı, desil əmsalı, pul gəlirlərinin təmərküzləşməsi əmsalı, subyektlər və monitorinq obyektləri üzrə əhali gəlirlərinin diferensiasiyası əmsalı göstəriciləri vasitəsilə hesablanır.


Regionlar üzrə əmək haqqının diferensiasiyası regionlarda istehsalın strukturu, iqtisadi rayonun əhəmiyyəti və inkişaf perspektivi, regionda təbii-iqlim və yaşayış şəraitinin səviyyəsi və qiyməti, işçi qüvvəsinə olan tələb və təklifin təsiri ilə əlaqədardır (bax: qrafik 2).

ƏHALİ QANUNU – əhalinin vəziyyətini, onun əmək qabiliyyətli hissəsindən istifadə üsulunu və dərəcəsini, həmçinin, törəyib-artması şəraitini ifadə edən spesifik iqtisadi qanun.

ƏHALİ MİQRASİYASI (lat. *migratio* – hərəkət, köçmə) – bir regiondan (ölkənin, dünyanın) digərinə, əksər hallarda böyük qrup halında və böyük məsafələrə insanların yerdəyişməsi. Miqrasiya edən insanlar miqrant və ya miqrasiyanın xarakterindən asılı olaraq, emiqrant və ya immiqrant adlanırlar. Ölkə daxilində miqrasiya daxili, ölkələr arasında isə xarici adlanır.

Miqrasiya üzrə Beynəlxalq Təşkilatın hesabatına əsasən, 2010-cu ildə beynəlxalq miqrantların sayı 214 mln. nəfər və ya dünya əhalisinin 3,1%-ni təşkil etmişdir. Miqrasiyanın illik sayı – il ərzində müəyyən ərazi üçün (ölkə, region, məskən) miqrasiya

Azərbaycan Respublikasında əhali gəlirlərinin və inflyasiyanın dinamikası (%-lə)



Qrafik 2

yerdəyişmələrinin məcmusu. Miqrasiyanın əsas xarakteristikalarından biridir. Miqrasiyaların illik sayı həmişə miqrasiya edən əhalinin sayından çox olur, çünki miqrantların bir hissəsi ildə bir neçə dəfə yerini dəyişir. Əgər bu göstəricinin artımı belə sürətlə davam etsə, onda 2050-ci ildə o, 405 mln. nəfərə çatacaq. Miqrasiya qismən müharibə (İraq və Bosniyadan ABŞ və Böyük Britaniyaya emiqrasiya), siyasi münaqişələr (Zimbabvedən ABŞ-a emiqrasiya) və təbii fəlakətlər (vulkan səbəbindən Montserratdan Böyük Britaniyaya miqrasiya) kimi səbəblərlə də şərtlənə bilər. Bununla belə, miqrasiyanın əsas səbəbləri iqtisadi, məhz yaşayış səviyyəsindəki fərq qalır ki, bu da dünyanın müxtəlif ölkələrində eyni səviyyədə təmin edilə bilinmir. Bundan başqa, miqrasiyanı əsaslandıran amil kimi müəyyən regionda bu və ya digər ixtisasdan olan mütəxəssis çatışmazlığı ola bilər. Nümunə kimi, iqtisadi motivi olan miqrasiya Avropa İttifaqının daxilində müşahidə edilir ki, burada da ölkələr arasında hərəkət məhdudiyyətləri, demək olar ki, kənarlaşdırılıb. Burada yüksək gəlirli – Fransa, Almaniya, İtaliya, Böyük Britaniya kimi ölkələr Yunanıstan, Macarıstan, Litva, Polşa və Rumıniyadan və s. miqrantlar üçün qəbul edən tərəflər kimi çıxış edir.

Yaşayış yerinin dəyişməsi müddətindən asılı olaraq, daimi və müvəqqəti (mövsümi), qayıtmamaqla və qayıtmaqla olan miqrasiya fərqləndirilir. Yaşayış yerini dəyişməklə əlaqədar olmayan, müntəzəm olaraq iş və ya təhsil yerlərinə gedişlər də miqrasiya adlanır.

Miqrasiya siyasəti ikili xarakter daşıyır (inteqrasiyaya qarşı miqrasiya siyasətinin sərtləşdirilməsi və reqlamentləşdirilməsi; eyni vaxtda miqrasiya siyasətinin əsas müəyyənedici tərkibi–immiqrasiyadır).

Miqrantların əksər hissəsini Yaxın Şərqdə neft ixrac edən ölkələr qəbul edir ki, burada da işçi qüvvəsinin 70%-ni xaricilər təşkil edir. Həmçinin, Latın Amerikası (Argentina, Braziliya, Venesuela), Cənub-Şərqi Asiya ölkələri (Sinqapur, Honkonq, Yaponiya), Afrika (CAR), həmçinin, İsrail Rusiyadan yaxşı miqrasiya axınına malikdir.

Dünya bazarına hazırda işçi qüvvəsi göndərən ölkələr Hindistan, Pakistan, Vyetnam, Əlcəzair, Meksika, İrlandiya, Türkiyə, MDB hesab edilir.


Məcburi miqrasiya avtoritar rejimlərdə sosial nəzarət vasitəsi kimi çıxış etdiyi halda, könüllü miqrasiya şəhər əhalisinin sosial cəhətdən uyğunlaşma vasitəsidir. Miqrasiya proseslərinin təhlilinə yanaşmalar müxtəlif olur:

Demoqrafik yanaşma – miqrasiyanı insan populyasiyasının, onların sayının, cins-yaş strukturunun təkrar istehsalı və saxlanması nöqteyi-nəzərindən öyrənir. Bu sahədə baş verən proseslər ölkənin demoqrafik təhlükəsizliyi ilə sıx surətdə əlaqədardır.

İqtisadi yanaşma – daha universal yanaşmadır. Miqrasiya işçi qüvvəsi bazarında sağlam rəqabəti stimullaşdıran, əmək qabiliyyətli əhalinin sayının mühüm nizamlayıcısı kimi qiymətləndirilir. Miqrasiyanın əksər növləri iqtisadi zərurətlə şərtlənir və bu və ya digər dərəcədə əmək bazarı ilə əlaqədardır.

Hüquqi yanaşma – miqrantların müxtəlif kateqoriyalarının hüquqi statusunu müəyyən edir. Miqrasiya ilə bağlı hüquqi normaların və qanunvericilik aktlarının işlənməsini, miqrantların

Əhali miqrasiyasının strukturu



Sxem 1



Cədvəl 1

Azərbaycan üzrə əhalinin beynəlxalq miqrasiyası (min nəfər)

İllər	Ölkəyə daimi yaşamaq üçün gələnlər	Ölkədən daimi yaşamaq üçün gedənlər	Miqrasiya artımı (azalması)
1990	84,3	137,9	-53,6
1991	66,3	106,4	-40,1
1992	35,7	49,9	-14,2
1993	16,3	28,5	-12,2
1994	8,6	19,6	-11,0
1995	6,2	16,0	-9,8
1996	5,8	13,2	-7,4
1997	7,5	15,7	-8,2
1998	5,4	10,5	-5,1
1999	4,8	9,1	-4,3
2000	4,4	9,9	-5,5
2001	2,6	7,3	-4,7
2002	1,2	4,3	-3,1
2003	2,5	3,8	-1,3
2004	2,4	2,8	-0,4
2005	2,0	2,9	-0,9
2006	2,2	2,6	-0,4
2007	2,0	3,1	-1,1
2008	3,6	2,5	1,1
2009	2,3	1,4	0,9
2010	2,2	0,8	1,4

əsas hüquqlarının tənzimlənməsi məsələlərini əhatə edir.

Sosioloji yanaşma – əsas diqqəti miqrantların yeni həyat şəraitinə uyğunlaşması ilə bağlı problemlərə yetirir.

Tarixi yanaşma – bu və ya digər regionun miqrasiya hərəkətinin tarixinin tədqiqidir ki, bu zaman demoqrafik proseslərin tarixi təkamülü kontekstində miqrasiyanı təsvir edən tarixi-demoqrafik tədqiqatlar tətbiq edilir.

Psixoloji yanaşma – bu cür yanaşmada miqrasiyaya bir sıra sosial tələbatların, o cümlədən, özünütəsdiqə tələbatın ödənilmə üsulu kimi baxılır.

Tarixi-bioloji yanaşma – miqrasiya prosesinə təsir edən amillər 3 qrupa bölünür: idarə olunmayan, daim təsir göstərən amillər; dolayı yolla tənzim oluna bilən; tənzim olunan dəyişən amillər. Birinci amillərə ərazinin coğrafi yerləşməsi və onun təbiət komponentləri: meteoroloji, geoloji, fito və zoocoğrafi və s. daxildir. Mövsümi temperaturlar arasında yüksək fərqlər, bataqlıqlar, zəlzələlər, daşqınlar, qan içən həşəratlar bütün başqa amillərə nisbətən əhalinin bu yerlərdən qaçmasına daha çox səbəb olur. İkinci qrup amillərə ərazilərin mənimsənilmə səviyyəsi, o cümlədən istehsal və sosial infrastrukturun yaradılması; əhalinin cins, yaş, etnik tərkibi və s. daxildir. Üçüncü qrup amillərə əmək haqqının artırılması və ya azalması müəyyən güzəştlərin təyin, yaxud ləğv edilməsi; məşğulluq siyasətindəki dəyişikliklər nəticəsində miqrasiya prosesinə təsirləri nəzərdə tutur.


Təcrübədə miqrasiya axını, miqrasiya dövriyyəsi və digər göstəricilər təhlil edilir. Miqrasiya axını dedikdə müəyyən vaxt kəsiyində ümumi gəlmə və getmə rayonları üzrə miqrasiyanın (miqrantların) ümumi sayı nəzərdə tutulur. Miqrasiyanın ümumi həcm göstəricisi müəyyən dövrdə (1 il, 1 rüb və s.) əraziyə gəlmiş və bu ərazidən getmiş insanların sayını xarakterizə edir. Miqrasiya prosesləri barədə daha ətraflı məlumat almaq üçün daha bir neçə göstəricidən, o cümlədən ərazi əhalisinin ümumi hərəkərlilik səviyyəsindən, bu və ya digər dövrdə miqrasiya axınlarının miqyasından, strukturundan, istiqamətlərindən və səmərəliliyindən istifadə edilir.

Beynəlxalq miqrasiyanın müasir meyilləri:

• **Qeyri-leqal miqrasiyanın artımı** – aşkar təcəssüm olunan əmək xarakteri; dövlətə də sərfəlidir: vergiləri ödəyirlər, sosial müavinət və güzəşt almırlar;

• **Məcburi miqrasiyanın artımı** – daha çox Afrikanın bir sıra ölkələrinin silahlı münaqişələrin davam etdiyi regionlarının, millətlərarası münasibətlərin kəskin

Azərbaycandan daimi yaşamaq üçün gedənlərin ölkələr üzrə strukturu (2010, faizlə)




Qrafik 1

olduğu ölkələr hesabına baş verir. Araşdırmalar göstərir ki, qaçqınların 80%-i inkişaf etməkdə olan ölkələrə gedirlər. Məcburi miqrasiya artımı qadın və uşaqlar qəbul edən ölkələrə əlavə iqtisadi yük yaradır ki, bu da pul məsrəflərini tələb edir;

• **Beynəlxalq miqrasiyanın demoqrafik əhəmiyyətinin artması** – bu, bir çox ölkələrə, o cümlədən Rusiyaya şamil edilə bilər. Beynəlxalq miqrasiyanın nəticəsində miqrantları qəbul edən digər ölkələrdə əhalinin

Azərbaycana daimi yaşamaq üçün gələnlərin ölkələr üzrə strukturu (2010, faizlə)



Qrafik 2

Cədvəl 2

Dünya ölkələri üzrə əhali miqrasiyasının səviyyəsi (2010-cu il)

Ölkə	miqrantlar/ əhalinin hər 1000 nəfərinə		Ölkə	miqrantlar/ əhalinin hər 1000 nəfərinə
BƏƏ	21,71		Rumıniya	-0,27
Avstraliya	6,13		Çin	-0,34
Portuqaliya	3,06		Malayziya	-0,40
İspaniya	2,73		Səudiyyə Ərəbistanı	-0,61
Danimarka	2,47		Litva	-0,72
Yunanıstan	2,33		Moldova	-1,13
Almaniya	2,19		Suriya	-1,20
Malta	2,02		Tacikistan	-1,26
Norveç	1,70		Türkmənistan	-1,95
Xorvatiya	1,59		Latviya	-2,32
Fransa	1,47		Qırğızıstan	-2,58
Macarıstan	1,40		Bolqarıstan	-2,80
İsveçrə	1,31		Özbəkistan	-2,84
Türkiyə	0,53		Estoniya	-3,29
Belarus	0,38		Albaniya	-3,35
Yaponiya	0,00		Mərakeş	-3,88
Ukrayna	-0,10		Ermənistan	-4,16
Misir	-0,21			

demoqrafik quruluşunda ciddi dəyişikliklərin baş verməsi ehtimalı yüksəlir.

• **Miqrasiyanın uçotu** – qarşıya qoyulmuş məqsədlərdən asılı olaraq daxili işlər orqanları və statistika təşkilatları tərəfindən həyata keçirilir.

Qloballaşan dünyanın mühüm fərqli cəhətlərindən biri də ondan ibarətdir ki, dünya miqrasiya axınları prosesləri də qloballaşır. Əhalisinin çoxalması prosesindən narahat olan yüksək səviyyədə inkişaf etmiş ölkələr miqrasiya proseslərini tənzimləmək üçün xüsusi proqramlar həyata keçirirlər. Bu kimi proqramlarda qarşıya qoyulan əsas məqsədlərdən biri ölkəyə daha çox savadlı gənclər cəlb etməkdir.

ƏHALİ STATİSTİKASI (yaxud demoqrafik statistika) – ölkə əhalisinin, yaxud onun ayrı-ayrı qruplarının sayını, tərkibini yerləşməsini və təkrar istehsalını xarakterizə edən məlumatların toplanmasına, işlənməsinə və təhlilinə statistik metodları tətbiq etməklə məşğul olan statistika sahəsi. Əhalinin miqdarı haqqında məlumatların cəmi, bəzən isə bu məlumatların toplanması və işlənməsi üçün praktik fəaliyyət də əhali statistikasına aid edilir (bax: cədvəl 1).

ƏHALİNİN ADAMBAŞINA DÜŞƏN SON MƏHSUL BURAXILIŞI – ölkədə (regionda) iqtisadi inkişaf səviyyəsinin və orta həyat səviyyəsinin geniş istifadə olunan göstəricisidir. İl ərzində ölkədə (regionda) istehsal edilən bütün əmtəə və xidmətlərin dəyərinin əhalinin orta illik sayına bölünməsini əks etdirir.

Bu göstəricinin illər üzrə dinamikasını vermək üçün bazis kimi qəbul edilən bir ilin qiymətindən istifadə edilir. Dövlətlərarası müqayisələrdə məhsul buraxılışının ümumi göstəricilərinin hesablaşma metodlarının eyniliyi və müxtəlif ölkələrin valyutalarının fərqli olmasını nəzərə almaq tələb olunur. Birinci məsələnin həlli üçün iqtisadi inkişaf səviyyəsinin müqayisəsi zamanı əhalinin adambaşına düşən ümumi daxili məhsul (ÜDM) göstəricisindən istifadə etmək qəbul edilib. O, ümumi qəbul edilən beynəlxalq iqtisadi statistika əsasında milli hesablar sistemində hesablanır. İkinci məsələ, bir qayda olaraq, müxtəlif ölkələrin ÜDM qiymətlərinin dollarla ifadəsini nəzərdə tutur. Digər valyutalardan (avro, dollar, rubl və s.) istifadə istisna edilmir. Əhalinin adambaşına düşən ÜDM

göstəricisi beynəlxalq iqtisadi və maliyyə təşkilatları tərəfindən inkişaf etməkdə olan dövlətlərə maliyyə yardımının ayrılması zamanı meyar kimi istifadə olunur.

ƏHALİNİN CƏLB EDİLMİŞ PUL ƏMANƏTLƏRİNİN (DEPOZİTLƏRİNİN) MAKSİMAL HƏCMİ NORMATİVİ (N11) – kommersiya bankları üçün Mərkəzi Bank tərəfindən təsdiq edilən normativ. Vətəndaşların pul əmanətlərinin (depozitlərinin) ümumi məbləği ilə bankın xüsusi vəsaitlərinin (kapitalının) məbləğinin faiz nisbəti kimi müəyyən edilir. N11-in yol verilə bilən maksimum qiyməti 100% həcmində müəyyən edilir.

ƏHALİNİN GƏLİRLƏRİNİN İNDEKSLƏŞDİRİLMƏSİ – qiymətlərin rəsmi in-

Cədvəl 1

Azərbaycan Respublikasında əhalinin sayının dəyişilməsi (min nəfər)

İllər	Əhalinin sayı, cəmi	İl ərzində ümumi artım		o cümlədən:		Bütün əhaliyə görə, faizlə	
		min nəfər	faizlə	şəhər yerlərində	kənd yerlərində	şəhər yerlərində	kənd yerlərində
1897	1806,7	-	-	305,1	1501,6	16,9	83,1
1913	2339,2	-	-	555,9	1783,3	23,8	76,2
1917	2353,7	-	-	560,2	1793,5	23,8	76,2
1920	1952,2	-	-	405,8	1546,4	20,8	79,2
1926	2313,7	-	-	649,8	1664,2	28,1	71,9
1939	3205,2	-	-	1156,5	2048,4	36,1	63,9
1959	3697,7	-	-	1767,3	1930,4	47,8	52,2
1970	5117,1	-	-	2564,6	2552,5	50,1	49,9
1979	6028,3	86,0	1,4	3200,3	2828,0	53,1	46,9
1980	6114,3	92,4	1,5	3247,5	2866,8	53,1	46,9
1981	6206,7	102,1	1,6	3301,5	2905,2	53,2	46,8
1982	6308,8	97,5	1,5	3355,9	2952,9	53,2	46,8
1983	6406,3	107,0	1,7	3407,0	2999,3	53,2	46,8
1984	6513,3	109,1	1,7	3459,8	3053,5	53,1	46,9
1985	6622,4	95,5	1,4	3524,5	3097,9	53,2	46,8
1986	6717,9	104,8	1,6	3588,0	3129,9	53,4	46,6
1987	6822,7	105,3	1,5	3651,3	3171,4	53,5	46,5
1988	6928,0	93,2	1,3	3722,6	3205,4	53,7	46,3
1989	7021,2	110,7	1,6	3805,9	3215,3	54,2	45,8


							Cədvəlin ardı
1990	7131,9	86,6	1,2	3847,3	3284,6	53,9	46,1
1991	7218,5	105,6	1,5	3858,3	3360,2	53,5	46,5
1992	7324,1	115,9	1,6	3884,4	3439,7	53,0	47,0
1993	7440,0	109,6	1,5	3928,5	3511,5	52,8	47,2
1994	7549,6	93,9	1,2	3970,9	3578,7	52,6	47,4
1995	7643,5	82,7	1,1	4005,6	3637,9	52,4	47,6
1996	7726,2	73,6	1,0	4034,5	3691,7	52,2	47,8
1997	7799,8	76,9	1,0	4057,8	3742,0	52,0	48,0
1998	7876,7	76,7	1,0	4082,5	3794,2	51,8	48,2
1999	7953,4	79,4	1,0	4064,3	3889,1	51,1	48,9
2000	8032,8	81,5	1,0	4107,3	3925,5	51,1	48,9
2001	8114,3	77,1	1,0	4149,1	3965,2	51,1	48,9
2002	8191,4	77,8	0,9	4192,6	3998,8	51,2	48,8
2003	8269,2	79,9	1,0	4237,6	4031,6	51,2	48,8
2004	8349,1	98,3	1,2	4358,4	3990,7	52,2	47,8
2005	8447,4	105,7	1,3	4423,4	4024,0	52,4	47,6
2006	8553,1	113,0	1,3	4502,4	4050,7	52,6	47,4
2007	8666,1	113,8	1,3	4564,2	4101,9	52,7	47,3
2008	8779,9	142,5	1,6	4652,2	4127,7	53,0	47,0
2009	8922,4	75,2	0,8	4739,1	4183,3	53,1	46,9
2010	8997,6	113,5	1,3	4774,9	4222,7	53,1	46,9
2011	9111,1			4829,5	4281,6	53,0	47,0

** 1897,1926, 1939, 1959, 1970, 1979, 1989, 1999, 2009-cu illərin məlumatları əhalinin siyahıyaalınmaları üzrə, 1913, 1917, 1920-ci illərin məlumatları ilin axırına, qalan illərin məlumatları isə ilin əvvəlinə göstərilmişdir*

deksi əsasında əmtəə və xidmətlərin istehlak qiymətlərinin artımı nəzərə alınmaqla, gəlirin real səviyyəsinin daima hesablanmasını və dəyişilməsini nəzərdə tutan dövlət tənzimləmə metodlarından biridir, başqa sözlə, istehlak mallarının və xidmətlərinin qiymətlərinin artımın nəticəsində baş vermiş itkilərin tam və ya qismən ödənilməsidir. Söhbət bahalaşmanın artımını nəzərə almaqla əhalinin ayrı-ayrı sosial cəhətdən aztəminatlı ailələrinin gəlirlərinin avtomatik təshih edilməsi mexanizmindən gedir.

Əhalinin gəlirlərinin indeksləşməsi sistemində aşağıdakılar nəzərdən keçirilir: indeksləşmənin başlanğıcı (həddi) – qiymətlərin


Azərbaycan Respublikasında əhalinin gəlirlərinin xərclərinə nisbəti (faizlə)



Qrafik 1


indeksinin kəmiyyəti və bundan sonra ona tələbat yaranır; indeksləşmənin və ya kompensasiyanın ölçüsü – gəlirlərin artma və ya onlara mütləq əlavə; qiymətlərin indeksinin obyekti – gəlirlərin, əmanətlərin bu və ya digər növü; indeksləşmə müddəti (ay, rüb, il) və aparılma qaydası – proporsional, reqressiv və s. dövlət sektorunda (büdcə işçilərinin əmək haqqı, pensiyalar, müavinətlər, təqaüdlər) əhalinin gəlirlərinin indeksləşməsi mütləqdir. Xüsusi sektorda əhalinin gəlirlərinin indeksləşməsi işə götürənlərin və Həmkarlar Konfederasiyasının kollektiv müqavilələri və tarif razılaşmaları əsasında həyata keçirilir. Azərbaycanda əhalinin gəlirlərinin indeksləşməsi minimum əmək haqqının ölçülərinin vaxtaşırı olaraq, yenidən baxılması əsasında aparılır, bu isə uyğun olaraq, digər ödəmələri dəyişir.

Əhalinin real gəlirləri (1991 = 100 faizlə)




Qrafik 2

Azərbaycan Respublikasında əhali gəlirlərinin dinamikası, əvvəlki ilə nisbətən (faizlə)



Qrafik 3

Azərbaycan Respublikasında əhalinin pul gəlirləri (mlrd. manat)



Qrafik 4

ƏHALİNİN MƏŞĞULLUĞU – vətəndaşların ölkənin qanunvericiliyinə zidd olmayan, bir qayda olaraq onlara qazanc gətirən şəxsi və ictimai tələbatın ödənilməsinə yönəldilmiş hər hansı bir fəaliyyəti.

Məşğulluğun aşağıdakı növləri və formaları var: 1) tam məşğulluq; 2) məhsuldar məşğulluq; 3) rasional məşğulluq; 4) səmərəli məşğulluq; 5) müstəqil məşğulluq; 6) qlobal məşğulluq; 7) ictimai məşğulluq; 8) çevik məşğulluq; 9) nəzərə alınmayan natamam məşğulluq; 10) təkrar məşğulluq; 11) müvəqqəti məşğulluq; 12) mövsümi məşğulluq; 13) qeyri-standart məşğulluq.

Cədvəl 1

Yetkinlik yaşından yuxarı əhalinin məşğulluğu Məşğulluğun səviyyəsinə görə sənayenin üstünlük təşkil etdiyi dünyanın 20 ölkəsi (2010)

N	Ölkələr	Sənayedə məşğul əhalinin xüsusi çəkisi (*faizlə*)
1	Bəhreyn	79,0
2	Bruney	63,1
3	Serbiya	46,0
4	Lixtenşteyn	43,5
5	Çexiya	40,2
6	Slovakiya	39,0
7	San-Marino	37,7
8	Malayziya	36,0
9	Sloveniya	36,0
10	Bolqarıstan	35,5
11	Belarus	34,7
12	Mikroneziya Federativ Ştatları	34,4
13	Estoniya	33,7
14	Trinidad və Tobaqo	33,3
15	Bosniya və Herseqovina	32,6
16	Macarıstan	32,4
17	Dominikan	32,0
18	Kiribati	32,0
19	Xorvatiya	31,3
20	İran	31,0

Məşğulluq statusuna görə əhali aşağıdakı kimi təsnifləşdirilir: 1) muzdlu işçilər; 2) işəgötürənlər; 3) fərdi əsaslarla işləyənlər; 4) ailə müəssisələrində haqqı ödənilməyən işçilər; 5) kollektiv müəssisələrin işçiləri; 6) təsnifata aid edilməyən işçilər.

Vətəndaşlar özlərinin yaradıcı işə olan qabiliyyətlərinə sərəncam vermək və qanunla qadağan edilməmiş fəaliyyəti həyata keçirmək hüququna malikdirlər (uşaqların tərbiyəsi, ictimai fəaliyyət, ev təsərrüfatlarında işləmək, istehsaldan ayrılmaqla təhsil almaq). Müalicə forması kimi əməyə inzibati məcburetməyə qanunvericilikdə nəzərdə tutulmuş hallardan başqa icazə verilmir.

Vətəndaşların könüllü qeyri-məşğulluğu onların inzibati, cinayət və digər məsuliyyətə cəlb edilməsinə səbəb ola bilməz. Dövlət tam məhsuldar və sərbəst seçilmiş məşğulluğa yardım siyasətinin aparılmasını təmin edir, bu da vətəndaşların əmək hüquqlarının reallaşdırılması üçün şəraitin yaradılmasına istiqamətlənmişdir.

Aşağıdakı vətəndaşlar məşğul sayılırlar:

– muzdlu işləyənlər, o cümlədən tam və natamam iş şəraitində mükafata görə işləyənlər, eləcə də digər haqqı ödənilən iş yerinə malik olanlar;

– əmək qabiliyyətinin olmaması, məzuniyyət, ixtisas artırılması, tətil və digər səbəblər üzündən istehsalın dayanması ilə əlaqədar müvəqqəti işləməyənlər;

– müstəqil surətdə özünü işlə təmin edənlər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslər, sahibkarlar, fermerlər, eləcə də istehsal kooperativlərinin üzvləri də daxil olmaqla fərdi əmək fəaliyyəti ilə məşğül olanlar;

– haqqı ödənilən vəzifəyə seçilənlər, təyin olunanlar və ya təsdiq olunanlar;

– silahlı qüvvələrdə, daxili qoşunlarda, dəmiryol hissələrində, dövlət təhlükəsizliyi və daxili işlər orqanlarında qulluq edənlər;

Cədvəl 2

Məşğulluğun səviyyəsinə görə xidmət sahəsinin üstünlük təşkil etdiyi dünyanın 20 ölkəsi (2010)

N	Ölkələr	Xidmət sahəsində məşğul əhalinin xüsusi çəkisi (*faizlə*)
1	Antiqua və Barbuda	82,0
2	İsrail	82,0
3	Lüksemburq	80,6
4	Böyük Britaniya	80,4
5	Hollandiya	80,0
6	Andora	79,0
7	İslandiya	78,0
8	BƏƏ	78,0
9	Surinam	78,0
10	İordaniya	77,4
11	Sinqapur	77,4
12	Finlandiya	77,2
13	ABŞ	76,8
14	Argentina	76,0
15	Kanada	76,0
16	Norveç	76,0
17	Uruqvay	76,0
18	Peru	75,5
19	Avstraliya	75,0
20	Barbados	75,0

– ümumtəhsil məktəblərində, texniki-peşə məktəblərində, eləcə də əhaliyə məişət xidməti üzrə, təhsil də daxil olmaqla orta ixtisas və digər müəssisələrdə təhsil alanlar.

Vətəndaşlar öz qabiliyyətlərinə görə istehsalda və yardımçı əməyi seçməkdə müstəsna hüquqlara malikdirlər. Qanunvericilik tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, əməyin hər hansı formasına vətəndaşı təhrik etmək yolverilməzdir.

Vətəndaşların məşğulluqdan uzaq olması inzibati və digər məsuliyyətə cəlb edilməsi üçün əsas sayıla bilməz.

Tam məşğulluğun əldə olunması, yəni ölkə miqyasında əmək qabiliyyətli əhalinin iş yerləri ilə təmin edilməsi yalnız normal bazar iqtisadiyyatı şəraitində mümkündür. Məhsuldar məşğulluq minimum əmək itkisində cəmiyyətin tələbatının maksimum ödənilməsi deməkdir. Buna, bir qayda olaraq, əmək bazarı və xalq təsərrüfatında struktur dəyişikliklər etmək yolu ilə nail olmaq mümkündür.

ƏHALİNİN MƏŞĞULLUĞU SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ – dövlət tərəfindən vətəndaşların əmək və tam iş vaxtlı, məhsullar və azad peşə seçimi hüquqları ilə təmin edilməsi. Bu siyasət aşağıdakıları əhatə edir:

– milliyyətindən, cinsindən, yaşından, sosial vəziyyətindən, siyasi və dini baxışlarından asılı olmayaraq ölkə ərazisində yaşayan bütün vətəndaşların bərabər qaydada əmək və azad peşə seçmək hüquqları ilə təmin edilməsi;

– vətəndaşların qanun çərçivəsində həyata keçirilən əmək və sahibkarlıq təşəbbüsünün müdafiəsi, onların məhsuldar və yaradıcı əmək qabiliyyətinin inkişafına yardım göstərilməsi;

– əməyin könüllü olması və vətəndaşların məşğulluq növünün seçimində iradəsinin təmin olunması;

– məşğulluq sahəsində sosial müdafiənin, iş yeri axtarmaqda çətinlik çəkən vətəndaşların məşğulluğunun təmin edilməsi üçün xüsusi tədbirlərin həyata keçirilməsi;

– əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə bu sahə üzrə vacib problemlərin həllində mərkəzləşdirilmiş tədbirlərin həyata keçirilməsində yerli idarə orqanlarının müstəqilliyi;

– əhalinin məşğulluğu sahəsində sosial təminat, gəlir artımının

nizama salınması və bölünməsi, inflyasiya xəbərdarlığı da daxil olmaqla iqtisadi və sosial siyasətin digər sahələri ilə fəaliyyətin əlaqələndirilməsi;

– hər şeydən əvvəl, sosial müdafiəyə ehtiyacı olan və iş yeri tapmaqda çətinlik çəkən vətəndaşlar üçün yeni iş yerləri açan işverənlərin həvəsləndirilməsi;

– əhalinin məşğulluq sahəsində həyata keçirilən tədbirlərin işlənib hazırlanması, həyata keçirilməsi və nəzarətində dövlət orqanları, onların ittifaqları və təşkilatlarının, sahibkar assosiasiyalarının fəaliyyətinin əlaqələndirilməsi;

– milli xüsusiyyətlər nəzərə alınmaqla təsərrüfat və mədəni fəaliyyət, eləcə də tarixən formalaşmış fəaliyyət növlərinə görə azsaylı xalqlar yaşayan yerlərdə əhalinin məşğulluğunun təmin edilməsi;

– vətəndaşların ölkənin hüdudlarından kənarda eləcə də xarici vətəndaşların ölkə ərazisində əmək fəaliyyəti ilə bağlı məsələlər daxil olmaqla, əhalinin məşğulluq probleminin həllində beynəlxalq əməkdaşlıq.

Azərbaycan Respublikası vətəndaşlarının əmək hüquqlarının qorunması, əmək, məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində səmərəli tədbirlərin həyata keçirilməsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, işçilərin maddi, sosial, mənəvi və digər həyati tələbatlarının ödənilməsi ölkədə aparılan sosial iqtisadi siyasətin əsas prioritet istiqamətini təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın, 2008-ci il 15 sentyabr tarixli 3043 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın və 2007-ci il 15 may tarixli 2167 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramının (2007-2010-cu illər)" icrası olaraq əhalinin sosial rifahının gücləndirilməsi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması, ümumilikdə ölkədə insan potensialının qorunması və inkişaf etdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Respublikasında daxili potensialdan səmərəli istifadə edilməsi, iqtisadiyyatın liberallaşdırılması, iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraitinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi nəticəsində 2003-cü ilin 1 oktyabr tarixindən 2011-ci ilin 1 yanvar tarixinə olan vəziyyətə respublikada 912899, o cümlədən 654809 daimi iş yeri açılmışdır. Yeni iş yerlərinin 79,1 faizi regionlarda, 87,0 faizi qeyri-dövlət sektorunda, mütləq əksəriyyəti isə qeyri-neft sektorunda yaradılmışdır.

Ölkədə uğurla həyata keçirilən iqtisadi islahatlar nəticəsində 2005-2010-cu illər ərzində Azərbaycan insan inkişafı sahəsində dünya ölkələri sırasında ən sürətli irəliləyişə nail olmuşdur.



Sxem 1

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın 2006-2010-cu illəri əhatə edən birinci mərhələsinin icrası olaraq işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azaldılmasına, işsizlərin, sosial həssas əhali təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə nail olunmuş, əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşması, rəqabət gücünün artırılması, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilmişdir.

2011-ci ilin 1 yanvar tarixinə ölkədə iqtisadi fəal əhalinin sayı 1995-ci illə müqayisədə 25,9 faiz, 2006-cı illə müqayisədə isə

Cədvəl 3

Məşğulluğun səviyyəsinə görə kənd təsərrüfatının üstünlük təşkil etdiyi dünyanın 20 ölkəsi

N	Ölkələr	Kənd təsərrüfatında məşğul əhalinin xüsusi çəkisi, %
1	Burundi	93,6
2	Burkina Faso	90,0
3	Şərqi Timor	90,0
4	Malavi	90,0
5	Niger	90,0
6	Ruanda	90,0
7	Lesota	86,0
8	Anqola	85,0
9	Zambiya	85,0
10	Papua Yeni Qvineya	85,0
11	Qvineya-Bisau	82,0
12	Uqanda	82,0
13	Mozambik	81,0
14	Efiopiya	80,2
15	Əfqanıstan	80,0
16	Komor	80,0
17	Laos	80,0
18	Sudan	80,0
19	Tanzaniya	80,0
20	Çad	80,0

6,7 faiz artaraq 4587,4 min nəfər, məşğul əhalinin sayı müvafiq olaraq 19,8 faiz və 8 faiz artaraq 4329,1 min nəfər təşkil etmişdir.

Son illər iqtisadiyyatda baş verən struktur dəyişiklikləri ilə bağlı dövlət sektorunda çalışanların xüsusi çəkisinin azalması müşahidə olunur və 1995-ci ildə bu göstərici 56,1 faiz olduğu halda, 2010-cu ildə 26,4 faiz təşkil etmişdir. Eyni zamanda, qeyri-dövlət sektorunda çalışanların xüsusi çəkisi 43,9 faizdən 73,6 faizədək artmışdır.

1995-ci ildə Beynəlxalq Əmək Təşkilatı tərəfindən aparılan tədqiqatlara əsasən ölkə üzrə işsizlik səviyyəsi 17,2 faiz, 1999-cu ilin əhalinin siyahıya alınmasının məlumatlarına əsasən 16,25 faiz, 2003-cü ildə BMT-nin İnkişaf Proqramının və Beynəlxalq Əmək Təşkilatının iştirakı ilə respublikanın bütün ərazisində əhalinin iqtisadi fəallıq səviyyəsi üzrə keçirilmiş seçmə statistik müayinəyə əsasən 9,7 faiz təşkil etmiş, sonrakı illərdə ilbəil azalmışdır. 2008-ci ildə dünyada baş verən qlobal maliyyə böhranı nəticəsində bir çox dünya ölkələrində, o cümlədən ABŞ və Avropa İttifaqı ölkələrində müşahidə olunan işsizlik səviyyəsinin artımı fonunda ölkəmizdə makroiqtisadi sabitlik qorunmuş və iqtisadi artıma nail olunmuşdur. Belə ki, ölkəmizdə işsizlik səviyyəsi 2009-cu ildə 6,0 faiz və 2010-cu ildə 5,6 faiz təşkil etmişdir.

"Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı" əhalinin məşğulluğu sahəsində dövlət siyasətinin ardıcıllığını təmin edərək, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın ikinci mərhələsinin reallaşdırılmasına yönəldilmişdir.

Dövlət Proqramı işçi qüvvəsinə tələbatın stimullaşdırılmasını, səmərəli işgüzarlıq mühitinin formalaşmasını, struktur islahatlarının dərinləşdirilməsini, investisiya fəallığının daha da artırılmasını və insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsini nəzərdə tutur.

Dövlət Proqramının əsas məqsədi əhalinin səmərəli məşğulluğun inkişafına yönəldilən siyasi, iqtisadi, sosial və institusional mühitin yaradılması əsasında Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasında (2006-2015-ci illər)" 2011-2015-ci illərdə nəzərdə tutulmuş prioritet istiqamətlərin həyata keçirilməsinin təmin edilməsidir.

Dövlət Proqramında 2011-2015-ci illər üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir: səmərəli məşğulluq siyasətinin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması; əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması və iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şərait yaradılması, kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və əlavə təhsil şəbəkəsinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması; işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi; əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş institusional mühitin təkmilləşdirilməsi; yüksək beynəlxalq stan dartlara uyğun işgüzarlıq mühitinin formalaşdırılması; struktur islahatların dərinləşdirilməsi, investisiya fəallığının artırılması; insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsi.

ƏHALİNİN ORTA İLLİK SAYI – ilin əvvəlinə (yanvarın 1-nə) və axırına (dekabrın 31-nə) mövcud olan əhalinin sayını cəmləyib ikiyə bölmənin nəticəsi. 2011-ci il yanvarın 1-nə Azərbaycan əhalisinin sayı 9,111 milyon nəfər olmuşdur. 1897-2010-cu illərdə əhalinin orta illik sayı 5 dəfədən çox artmışdır. Azərbaycan əhalisi üçün geniş təkrar istehsal xarakterikdir. Ayrı-ayrı mərhələlərdə xalqımızın başına gələn müsibətlər demoqrafik göstəricilərə mənfi təsir göstərsə də, uzun dövr ərzində əhalinin sayının dinamikasında müsbət meyillər özünü göstərir. 1941-1945-ci illər müharibəsi dövründə Azərbaycan əhalisinin sayı xeyli azaldı. Yalnız 1955-ci ildə Azərbaycan əhalisinin sayı 1940-cı il səviyyəsinə çatdı. Bir sıra ölkələr üzrə əhalinin orta illik sayı cədvəl 1-də verilmişdir.

ƏHALİNİN RİFAH SƏVİYYƏSİ – əhalinin sosial-iqtisadi həyat şəraitini və tələbatlarının ödənilməsini xarakterizə edən göstərici. Əhalinin rifah səviyyəsi iqtisadi inkişaf səviyyəsindən, milli gəlirin yığım və istehlak fondu arasındakı nisbətdən, sosial sahələrin maddi-texniki bazasının səviyyəsindən və s. asılıdır. Əhalinin rifah səviyyəsinin ümumiləşdirilmiş göstəricisi – əhalinin real gəlirlərinin səviyyəsidir. Ölkənin iqtisadi imkanlarının genişlənməsi ilə əhalinin bütün təbəqələrinin və sosial qruplarının real gəlirləri artır, cəmiyyətdə aztəminatlı təbəqənin xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə azalır. Real gəlirlərin səviyyəsinə pərakəndə satış qiymətlərinin azalması və ya artması, əməyin ödənilməsi, vergilərin səviyyəsi, əmtəə və pullu xidmətlərin qiymətlərinin dəyişməsi, inflyasiya prosesləri ciddi təsir edir. Onu da qeyd etmək lazımdır ki, azad bazar münasibətləri şəraitində əhalinin gəlirlərinin strukturu xeyli dərəcədə dəyişməyə məruz qalmışdır.

Regionların təbii-iqlim və iqtisadi şəraitinin müxtəlifliyi, istehlakdakı milli xüsusiyyətlər, əmtəə və pullu xidmətlərin qiymətlərində fərqlər sərhədləri, gəlirlərin səviyyəsinə görə əhalinin diferensiasiyasına xeyli dərəcədə təsir edir. Dövlət bu sahədə meydana çıxan problemlərin həlli üçün, aztəminatlı ailələrə yardım sisteminin yaxşılaşması üçün tədbirlər, xüsusi proqramlar həyata keçirir.

ƏHALİNİN SİYAHIYA ALINMASI – müəyyən zaman anında, yaxud dövründə ölkənin hər bir sakinini xarakterizə edən demoqrafik, iqtisadi və sosioloji məlumatların toplanması prosesi. Əhalinin siyahıya alınmasının məqsədi əhalinin say tərkibi və yerləşməsi haqqında məlumatlar almaqdır. Bütün ölkə üçün eyni olan suallar siyahısı ilə müəyyən edilən bu məlumatlar dairəsinə demoqrafik (məs.: cins, yaş, nikah olma vəziyyəti), iqtisadi (məs.: məşğuliyyət, yaşayış vasitələri mənbəyi), etnik (milliyyəti, ana dili) və digər əlamətlər (çox vaxt ailənin tərkibi haqqında məlumatlar) daxil olur. Xüsusi təlimat almış qeydiyyatçılar bu məlumatları sənədlərdən yox, yaşayış evlərində olarkən adbaad sakinlərin öz sözlərindən toplayır və bir-

Cədvəl 1

1950-2009-cu illərdə əhalinin orta illik sayı (min nəfər)

Ölkələr	İllər																								
	1950	1960	1970	1980	1990	1995	2000	2001	2002	2003	2004	2005	2006	2007	2008	2009
Avstraliya	8179	10275	12507	14695	17065	18072	19153	19413	19651	19895	20127	20395	20698	21015	21300	21289
Belarus	7745	8190	9035	9643	10189	10194	10005	9971	9925	9874	9856	9809	9766	9725	9686	9649
Bolqarıstan	7251	7867	8490	8862	8718	8406	8170	8020	7868	7824	7781	7740	7699	7660	7623	7600
Böyük Britaniya	50616	52377	55663	56311	57572	58599	58893	59109	59328	59569	59880	60227	60605	61005	61414	61800
Almaniya	68376	72815	78169	78289	79433	81678	82212	82350	82488	82534	82516	82469	82376	82266	82110	82330
Yunanıstan	7566	8327	8793	9643	10160	10454	10917	10950	10988	11024	11062	11104	11148	11193	11236	10737
İrlandiya	2969	2829	2957	3413	3514	3609	3805	3866	3932	3996	4068	4159	4261	4357	4433	4203
İtaliya	47104	50200	53822	56434	56719	57301	56942	56977	57157	57605	58175	58607	58941	59375	59836	60300
Kanada	13737	17909	21297	24516	27701	29354	31281	31593	31902	32199	31941	32245	32576	32927	33311	33487
Hollandiya	10114	11487	13039	14150	14952	15459	15926	16046	16149	16225	16282	16320	16346	16382	16446	16716
Polşa	24824	29637	32664	35574	38111	38595	38454	38248	38230	38205	38182	38165	38141	38121	38126	38100
Portuqaliya	8405	8858	8680	9766	9899	10030	10226	10293	10368	10441	10502	10549	10584	10608	10622	10708
Rusiya	102192	119906	130252	138483	147969	148376	146597	145977	145183	144566	143821	143150	142400	142000	141900	141900
Sloveniya	1473	1585	1726	1901	1998	1990	1989	1992	1995	1996	1997	2000	2007	2010	2021	2006
ABŞ	152271	180671	205052	227726	249907	262755	282339	285024	287676	290343	293028	295561	298363	301290	304060	307212
Fransa	41736	45684	50772	53880	56735	57872	60751	61182	61616	62042	62445	62818	63195	63688	64167	64058
İsveçrə	4694	5328	6181	6319	6712	7041	7184	7230	7285	7339	7390	7437	7484	7551	7647	7800
Yaponiya	82900	93216	103403	116807	123478	125252	126839	127149	127445	127741	127778	127769	127515	127433	127288	127079

tipli blanklara yazırlar. Sorğu bir neçə gün ərzində aparılır, lakin məlumatlar müəyyən vaxt anında, adətən, əhalinin siyahıya alınmasının birinci günü ərəfəsinin gecə yarısına görə toplanır: həmin vaxtdan əvvəl ölənlər və sonra doğulanlar nəzərə alınmır. Toplanmış məlumatlar yoxlanıldıqdan sonra kodlaşdırılır və elektron hesablayıcı maşınlara daxil edilir. Sonra ayrı-ayrı şəhərlər, rayonlar və ölkə üzrə əhalinin sayı, onun cinsə, yaşa, təhsilə və s. görə bölgüsü hesablanır. Azərbaycanda əhalinin siyahıya alınmasının 1920, 1923 (yalnız şəhər əhalisi), 1926, 1937, 1939, 1959, 1970, 1979, 1989, 1999, 2009-cu illərdə keçirilmişdir. İnkişaf etmiş ölkələrdə əhalinin siyahıya alınması müntəzəm olaraq təqribən 10 ildə, bəzi ölkələrdə isə (Yaponiya, Danimarka, Türkiyə) 5 ildə 1 dəfə keçirilir.

ƏHALİNİN SIXLIĞI – konkret ərazidə əhalinin sıxlıq dərəcəsi. Ərazi vahidinə düşən sakinlərin sayı ilə ifadə olunur. Əhali sıxlığı = Əhalinin sayı / Ərazinin sahəsi. Dünya ölkələrində demoqrafik vəziyyətdən asılı olaraq əhalinin sıxlıq dərəcəsi müxtəlifdir.

ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ PROQRAMI – bütün əhalinin sosial müdafiəsini nəzərdə tutan tədbirlər (səhiyyə, təhsil, mənzil, mədəniyyət məsələləri ilə bağlı təminatlar, pul gəlirlərinin inflyasiyadan qorunması, əsas istehlak mallarına və xidmətlərə tələbatın aşağı düşməsinin qarşısını alma, əmək haqqı və pensiyaların vaxtında ödənilməsi və s.). Sosial müdafiə proqramına əmək qabiliyyəti olan və əmək qabiliyyəti olmayanların müdafiəsi ilə bağlı xüsusi tədbirlər (iş yerlərinin saxlanması, işçilərin kütləvi şəkildə işdən çıxarılmasının qarşısının alınması, ərazi razılaşmalarının və əmək müqavilələrinin işlənib hazırlanması, natamam və çoxuşaqlı ailələrin, yetimlərin, tənha pensiyaçıların, əlillərin, çətin həyat şəraitinə düşmüş vətəndaşların və s. müdafiəsi) daxil edilir. Proqram hazırlanarkən onun maliyyələşdirilməsi, inflyasiya, ehtiyatlarla təminat məsələləri həll edilir. Sosial müdafiə proqramları şəhər, rayon və s. səviyyələrdə hazırlanıb həyata keçirilə bilər.

Cədvəl 1

Əhalinin yaş strukturunda yaşlıların sayı çox olan dünyanın 20 ölkəsi (2010)

N	Ölkələr	Yaşlı insanların çəkisi (*faizlə*)
1	Monako	23,0
2	Yaponiya	22,2
3	Almaniya	20,3
4	İtaliya	20,2
5	Yunanıstan	19,2
6	İsveç	18,8
7	İspaniya	18,1
8	Avstriya	18,0
9	Bolqarıstan	17,7
10	Belçika	17,6
11	Portuqaliya	17,6
12	Estoniya	17,6
13	San Marino	17,4
14	Latviya	17,0
15	Xorvatiya	17,0
16	Serbiya	16,8
17	Finlandiya	16,8
18	Sloveniya	16,5
19	Gürcüstan	16,4
20	Fransa	16,4

ƏHALİNİN YAŞ STRUKTURU – demoqrafik və sosial-iqtisadi proseslərin öyrənilməsi məqsədi ilə əhalinin yaş kontingentlərinə bölünməsi. Yaş qruplarının nisbətini əks etdirən belə bir strukturun tərtibi əhalinin demoqrafik, iqtisadi və sosial xüsusiyyətlərini, onların ümumi və xüsusi keyfiyyətlərini qiymətləndirməyə imkan verir. Belə bölgüdə əhali illik, 5 illik və ümumi qəbul olunmuş 3 qrup (0-14 yaş, 15-59 yaş, 60 yaş və daha yuxarı) üzrə də bölünə bilər. Bütün dünyada olduğu kimi, Azərbaycanda da əhalinin yaş strukturunda son 50 ildə bir sıra ciddi dəyişikliklər baş vermişdir. 1959-cu ildə siyahıyaalma materiallarına görə əmək qabiliyyətli əhali cəmi əhalinin 38 faizini təşkil edirdisə, 1979-cu ildə 52,8%, 1989-cu ildə 55,4%, 2010-cu ildə 68,5% təşkil etmişdir. Belə bir dəyişiklik əsas etibarı ilə əmək qabiliyyətli yaşadək olan əhalinin bilavasitə təbii artım əmsalının aşağı düşməsi hesabına baş vermişdir (bax: demoqrafiya). Əhalinin yaş strukturunda belə bir meylin davam etməsi sosial-iqtisadi inkişaf siyasətinə öz təsirini göstərir (bax: cədvəl 1).

ƏHATƏ ƏMSALI – ölkədə profilli məhsulun ümumi istehsalında korporasiyanın, müəssisələr qrupunun payı.


ƏHATƏ İNDEKSİ – fond indeksi olub aşağıdakı kimi hesablanır: həmin əməliyyat günündə məzənnəsi artan və ya azalan qiymətli kağızların miqdarı əməliyyatlarda iştirak edən buraxılışların miqdarına bölünür. Məsələn: yüksəlmə – 500; azalma – 600; dəyişiklik olmadan – 200. Buraxılışların ümumi sayı – 1300. Əhatə dairəsi: (600-500): 1300*100% = 7,69%.

ƏHƏMİYYƏTLİ MÜQAVİLƏ – qanunvericiliyin məqsədləri üçün, hər hansı şəxsə onun hüquqi şəxsin səhmlərinə malik olub-olmamasından asılı olmayaraq həmin hüquqi şəxsə qərarların qəbul edilməsində mühüm təsir göstərmək səlahiyyəti verən müqavilə.

ƏHƏMİYYƏTLİ NƏZARƏT – qanunvericiliyin məqsədləri üçün səhmdarın hüquqi şəxsin yerləşdirilmiş adi səhmlərinin 50 faizinə və ya daha çox hissəsinə malik olması, yaxud əhəmiyyətli müqavilə əsasında hər hansı şəxs tərəfindən hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək imkanıdır.

ƏHƏMİYYƏTLİLİK (*materiality*) – informasiya o halda əhəmiyyətli hesab edilir ki, onun göstərilməməsi və ya təhrif edilməsi maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir edə bilir. Əhəmiyyətliliyin səviyyəsi məlumatların göstərilməməsinin və ya təhrif edilməsinin konkret hallarında qiymətləndirilmiş göstəricinin (maddənin) və ya səhvin həcmindən asılıdır. Beləliklə, əhəmiyyətlilik məlumatların faydalı olması üçün vacib olan ilkin keyfiyyət xarakteristikasından daha çox başlanğıc və ya son nöqtəni ifadə edir.

ƏHMƏDOV AFƏT TƏRLAN OĞLU (1938) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1969-cu ildə, "Azərbaycan SSR-in kolxozlarında bitkiçilik sahələrinin iqtisadi səmərəliliyi (Biləsuvar və Cəlilabad rayonları timsalında)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.



Elmi fəaliyyəti dövründə kənd təsərrüfatında əməyin iqtisadiyyatı problemlərinə həsr edilmiş 130-dan artıq elmi əsər dərc etdirmişdir.

1995-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində "Azərbaycan Respublikasının kənd təsərrüfatı istehsalında əmək təşkilinin səmərələşdirilməsi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2000-ci ildən professordur.

1981-ci ildə Azərbaycan ETKTİ və Tİ-dən şöbə müdiri vəzifəsində çalışıb. 2011-ci ildən Bakı Biznes Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasının müdiridir.

Azərbaycan Dövlət Aqrar Universitetində iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının üzvüdür.

ƏHMƏDOV ƏLİ İSLAM OĞLU (1927-2008) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1956-cı ildə SSRİ Dövlət Plan Komitəsinin Kompleks Nəqliyyat Problemləri İnstitutunun aspiranturasına daxil olmuş və orada da namizədlik dissertasiyası müdafiə etmişdir. Onun təklif etdiyi "Regionun sahələrarası natural balanslarının işlənmə metodikası" və "Məlumatların təhlili" resurs qorumada mühüm elmi nailiyyətdir.



216 elmi iş, bunlardan 11 monoqrafiya, 13 dərslik və dərs vəsaiti, 17 broşüra, 135 məqalə (bunlardan 68-i xarici ölkələrdə dərc olunmuşdur), 40-a qədər tezis-məruzə ona məxsusdur. Bundan əlavə, onun 200-dən artıq məqaləsi keçmiş SSRİ-nin və respublikanın elmi-kütləvi jurnallarında və mərkəzi qəzetlərdə dərc olunmuşdur.

1986-cı ildən respublika Nazirlər Kabineti yanında Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda və "Azərbaycan" Universitetində işləmişdir.

ƏHMƏDOV FƏRHAD TEYMUR OĞLU (1955) – azərbaycanlı sahibkar. Bakıda anadan olub. 1983-cü ildə SSRİ Dövlət inspeksiyasında dəri və xəz-dəri məmulatlarının keyfiyyəti üzrə inspektor, 1983-1987-ci illərdə İngiltərənin International Petrol Equipment Company yanacaq şirkətinin nümayəndəsi, 1987-1994-cü illərdə İpesko şirkətinin marketinq və neft-kimya məsələləri üzrə konsultantı, Amoco Eurasia Limited və McDermott International Limited şirkətlərinin ARDNŞ ilə danışıqlarında konsultant, 1987-2002-ci illərdə karbohidrogen bazarlarının konyunkturunun marketinq tədqiqatı, Avropa bazarlarına karbohidrogen bazarlarına təchizi və Rusiyaya neft-qaz avadanlıqları ixrac edən Tansley Trading şirkətinin rəhbəri, 1994-2004-cü illərdə "Nortqaz" QSC-nin direktorlar şurasının üzvü, 2002-2004-cü illərdə "Nortqaz" MMC-nin prezidenti olmuşdur. 2004-cü il dekabrın 9-da Rusiya Federasiya Şurasına üzv (senator) seçilməsi ilə əlaqədar olaraq "Nortqaz" MMC-nin direktorlar şurasının üzvü və prezidenti vəzifələrindən azad olunmuşdur. 2004-2007-ci illərdə Rusiya Federasiya Şurasında Krasnodar vilayətinin nümayəndəsi, 2007-2010-cu illərdə Rusiya Federasiya Şurasında Nenets Muxtar Vilayəti qanunverici orqanının nümayəndəsi, 2010-cu ildən "Nortqaz" QSC-nin direktorlar şurasının üzvü, "AZNAR" QSC-nin səhmdarı və müşahidə şurasının sədridir.



ƏHMƏDOV İSA VƏLİ OĞLU (1941-2010) – Azərbaycanın görkəmli iqtisadçı alimi, prof. 1971-ci ildə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1972-ci ildən 1979-cu ilə kimi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda İqtisadi tədqiqatlarda riyazi üsullar şöbəsinin müdiri işləmişdir.

Aqrar-sənaye kompleksinin idarəetmə problemlərinə dair 220-dən çox elmi əsərin, o cümlədən 9 monoqrafiyanın, 28 kitabçanın, 2 dərsliyin, 6 dərs vəsaitinin müəllifidir. Onun rəhbərliyi ilə 19 iqtisad elmləri namizədi hazırlanmışdır. 1979-2000-ci illərdə Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasında kafedra müdiri, sonra isə prorektor vəzifəsində işləmişdir.

ƏHMƏDOV QAFAR ƏHMƏD OĞLU (1905-1974) – Azərbaycanda maliyyə-bank işinin fəal təşkilatçılarından biri.



1932-ci ildə Moskva Maliyyə İqtisad İnstitutunu bitirdikdən sonra Q.Əhmədov təyinatla Kamçatka vilayətinə SSRİ Dövlət Bankının Kontorunda işləməyə göndərilmiş, orada 12 il Dövlət Bankı şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1946-cı ildə Bakıya böyük fasilədən sonra qayıdan Q.Əhmədov SSRİ Dövlət Bankının Azərbaycan Kontorunda ardıcıl şəkildə Dövlət Bankı idarə heyətinin baş müfəttişi, Bakı şəhər şöbəsinin rəisi, SSRİ Dövlət Bankı Azərbaycan Kontoru müdirinin müavini, 1958-ci ildən ömrünün sonunadək isə SSRİ Dövlət Bankı Azərbaycan Kontorunun müdiri vəzifəsində işləmişdir.

Q.Əhmədov respublikada bank sisteminin formalaşması və inkişafı üçün çox zəhmət çəkirdi. Respublika və ittifaq rəhbərliyi onu yüksək səviyyəli bir iqtisadçı, maliyyə-bank sisteminin incəliklərinə bələd olan mütəxəssis, güclü təşkilatçı-rəhbər kimi qiymətləndirirdi.

Q.Əhmədov xalq təsərrüfatının kreditləşməsi, pul vəsaitlərindən

istifadə, maliyyə-bank işinin təkmilləşdirilməsi, kassa planının yerinə yetirilməsi, İttifaq nazirlikləri ilə əməkdaşlığın gücləndirilməsi, kapital qoyuluşu vəsaitlərindən səmərəli istifadə ilə sahəsində çox məhsuldar iş görürdü. Q.Əhmədovun SSRİ Dövlət Bankında böyük nüfuzu var idi.

O, bununla yanaşı, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun dosenti kimi maliyyə kadrlarının hazırlanmasında fəal iştirak etmişdir.

Lenin ordeni və iki dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.

Q.Əhmədov respublikanın ictimai-siyasi həyatında fəal iştirak edirdi.

ƏHMƏDOV MƏHİŞ ALIŞ OĞLU (1945) – Azərbaycanın görkəmli iqtisadçısı, i.e.d., prof.



1974-cü ildə o, "Elmi-texniki tərəqqi və ictimai istehsalın materialtutumu" mövzusunda namizədlik, 2005-ci ildə "Qloballaşma şəraitində milli iqtisadiyyatın formalaşmasının nəzəri problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

M.Əhmədov 1991-1996-cı illərdə ADİU-da "İqtisadi nəzəriyyə" kafedrasının müdiri vəzifəsində işləmişdir. M.Əhmədov elmi-pedaqoji fəaliyyəti dövründə ümumi həcmi 120 ç.v. çox olan 3 monoqrafiyanın (ikisi müştərək), 3 kitabçanın (müştərək) 100-dən çox məqalənin müəllifidir, habelə 3 dərsliyin, çoxsaylı dərs vəsaitləri və proqramların yazılmasında bilavasitə iştirak etmişdir. 2003-cü ildə "Qloballaşma və milli iqtisadiyyatın formalaşması" adlı monoqrafiyası çapdan çıxmışdır. 2006-cı ildə ADİU-da "Makroiqtisadi tənzimləmə" kafedrasının müdiri seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli sərəncamına əsasən ona təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

ƏHMƏDOV VAHİD QAZMƏMMƏD OĞLU (1947) – t.e.d., əməkdar mühəndis. Azər-



baycan Politexnik İnstitutunun metallurgiya istehsalının avtomatlaşdırılması fakültəsini və Almaniyada Bonn Menecment İnstitutunu bitirmişdir.

1967-ci ildən Leytenant Şmidt adına Bakı maşınqayırma zavodunda fəhlə, tokar, usta, böyük mühəndis, növbə rəisi, sahə rəisi, sex rəisinin müavini işləmişdir. 1977-ci ildən Bakı radio zavodunda sex rəisi, istehsalat rəisi, 1981-ci ildən Bakı Dəzgahqayırma İstehsalat Birliyində baş mühəndis olmuşdur. 1983-cü ildən "Bakı Fəhləsi" zavodunun direktoru, 1986-cı ildən Keşlə maşınqayırma zavodunun direktoru, 1988-ci ildən "Bakneftmaş" İstehsalat Birliyinin Baş direktoru vəzifələrində çalışmışdır. 1991-1992-ci illərdə on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin İqtisadi Siyasət Komissiyasının sədri olmuşdur. 1992-1993-cü illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini olmuşdur.

"Sahibkar-Menecment" kitabının və 300-ə yaxın elmi məqalənin müəllifidir. 1 ixtirası var.

III və IV çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatıdır. Azərbaycan Sənayeçilər və Sahibkarlar İttifaqının sədridir.

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü kimi iqtisadi qanunvericilik bazasının təkmilləşdirilməsi işində fəal iştirak edir.

ƏKİNÇİLİK SİSTEMİ – torpağın münbitliyini artırmaq, ondan səmərəli istifadə etmək məqsədi ilə, yerli təbii-iqtisadi, torpaq-iqlim şəraitinə uyğun tətbiq olunan texnoloji, meliorativ və təşkilati tədbirlər kompleksi. İnkişaf dərəcəsinə görə əkinçilik sistemi 4 qrupa bölünür: primitiv (ibtidai) əkinçilik sistemi, ekstensiv əkinçilik sistemi, keçid əkinçilik sistemi və intensiv əkinçilik sistemi.

Primitiv əkinçilik sistemi təbii sərvətlərdən istifadə edilməsi əsasında təşkil olunmuş və əkinçiliyin ilk inkişaf dövrü üçün səciyyəvi idi. Meşə qurşağı rayonlarında meşələri qırıb yandırmaqla, düzən rayonlarda isə "köçəri əkinçilik" yolu ilə xam torpaqlar əkilir, "yorulmuş" torpaqlar isə istifadəsiz qalırdı. Meşə altından çıxan torpaqların məhsuldarlığı 2-3 ildən sonra kəskin azaldığından, əkinçi belə torpağı buraxıb yeni meşələr qırırdı. Torpaq üzərində xüsusi mülkiyyətin yaranması ilə tədricən boş torpaqlar qalmır və

Cədvəl 1

Əkinçilik sistemi

Əkinçilik sistemləri	Torpaqdan istifadə üsulu	Torpaq münbitliyinin artırılması üsulu.
Dincə qoyma, xama qoyma, Qırıb-yandırma, meşətarlalı	Əkinə yararlı torpaqların az hissəsi becərilir, əkinlərdə dənli bitkilər üstünlük təşkil edir.	İnsanların iştirakı olmadan, təbii proseslər.
Herik, Çoxtarlalı-ot	Əkin sahələrinin yarısı və çox hissəsi səpilir. Taxıl və ya çoxillik ot bitkiləri üstünlük təşkil edir. Təmiz herik xeyli sahə tutur.	İnsanların istiqamətləndirdiyi təbii proseslər.
Yaxşılaşdırılmış taxıl, ot-tarlalı	Əkinə yararlı torpaqlar becərilir. Taxıllar üstünlük təşkil edir, çoxillik otlarla və ya cərgəarası becərilən bitkilərlə və təmiz heriklə uyğunlaşdırılır.	Təbii proseslərə insanların artan təsiri.
Meyvədəyişmə, cərgəarası becərilən (sənaye-zavod)	Bütün sahə səpilir, aralıq bitkiləri becərilir, cərgəarası becərilən bitkilərdən istifadə olunur.	Təbii proseslər nəzərə alınmaqla, sənaye vasitələrinin tətbiqi ilə insanların fəal təsiri.

əkinçi buraxmış olduğu əvvəlki torpaq sahəsinə qayıtmağa məcbur olurdu. Beləliklə, xam becərmə sistemi, yəni torpağın uzun müddət dincə qoyulması, onun nisbətən qısa müddətə dincə qoyulma sistemi ilə əvəz olunurdu. Primitiv əkinçilik sisteminin bu növü də bitkiçilik məhsullarına olan tələbatı ödəyə bilmirdi. Bu əkinçilik sistemi cəmiyyətin inkişafı ilə uyğunlaşmadığından yeni ekstensiv əkinçilik sistemi ilə əvəz olunur. Ekstensiv əkinçilik sistemi əkinçiliyin sonrakı inkişaf və təkmilləşmə mərhələsi olmuşdur. Boş torpaq sahələrinin olmaması, kəndli torpaqlarının azlığı, əmtəəlik toxuma tələbatın artması kəndliləri herik yerləri daha tez-tez əkməyə məcbur edirdi. Torpağın bir ildən çox dincə qoyulmasının mümkün olmaması nəticəsində primitiv əkinçilik sistemi yeni herik-taxıl əkinçilik sistemi ilə əvəz edildi. Bu əkinçilik sistemi tətbiq edildiyi ilk dövrlərdə heyvandarlığın yem bazası, əsasən, təbii otlaqlar və biçənəklər hesabına yaradılırdı, lakin inkişaf etməkdə olan heyvandarlıq yemlə təmin edilmədiyindən yeni – keçid əkinçilik sistemi yarandı.

Herik-taxıl əkinçilik sistemi yaxşılaşdırılmış taxıl əkinçilik sistemi ilə əvəz olundu. Yaxşılaşdırılmış taxıl əkinçilik sistemində torpağa çox üzvi gübrə verilir və torpaq daha yaxşı becərilirdi.

İntensiv əkinçilik sistemi XVIII əsrin ortalarından Qərbi Avropa ölkələrində toxumdəyişmə əkinçilik sistemi yarandı. Əkinçilik sistemi bütün kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını az vəsait sərf etməklə yüksəlir. İntensiv əkinçilik sistemində əkin dövriyyəsinin təşkili, torpağın becərilmə və gübrələnmə sistemi, alağa və kənd təsərrüfatı bitkilərinin xəstəlik və zərərvericilərinə qarşı mübarizə, toxumçuluq sistemi, meliorasiya və s. tətbiq edilir. Bu tədbirlər bütün təbii-iqtisadi zonalar üçün eyni olmadığından hər bir konkret şərait üçün xüsusi tədbirlər sistemi tələb olunur.

Əkinçilik sistemi Avropa və Amerikanın (ABŞ və Kanadanın buğda əkilən zonaları istisna olmaqla) inkişaf etmiş kapitalist ölkələrində intensiv əkinçilik sistemi tətbiq edilir. XX əsrə qədər üstün olan toxumdəyişmə əkinçilik sistemi ixtisaslaşdırılmış sistemlərlə əvəz olunmuşdur. ABŞ və Kanadanın buğda əkilən zonalarında ekstensiv herik-taxıl əkinçilik sistemi tətbiq olunur. Avstraliyanın əhalisi seyrək olan rayonlarında çoxtarlalı ot və dincə qoyulmuş torpaq əkinçilik sistemi geniş yayılmışdır. Asiya və Afrikanın inkişaf etmiş ölkələrində yüksək intensiv əkinçilik sistemi ilə yanaşı, primi-

tiv əkinçilik sistemindən də istifadə edilir.


ƏKS ALIŞ – qarşılıqlı ticarət forması. Bu, ilk mərhələdə istehsal müəssisəsi, avadanlıq və ya texnologiya satılarsa, tətbiq olunur. Belə ilkin mal qismən və ya tamamilə o mallarla ödənilir ki, onlar sonradan ilk sövdələşmə nəticəsində alınan xammal, materiallar əsasında istehsal olunsun.

ƏKS ƏLAQƏ – əks-əlaqə kibernetikanın ən mühüm anlayışı olub, sistemin idarə edilməsinin nəticələrinin bu idarəetmə prosesinə əks təsirini, başqa sözlə desək, idarəetmədə idarəetmə obyektindən daxil olan informasiyadan istifadə edilməsini bildirir. Əks-əlaqəli idarəetmə sistemləri qapalı adlanır: onlarda səbəbnəticə hadisələrinin qapalı zəncirini ayırmaq olar.

Prosesin nəticələrinin artması prosesin özünü gücləndirdikdə əks-əlaqə müsbət, bu nəticələr prosesin özünü zəiflətdikdə isə əks əlaqə mənfi hesab edilir. Buna müvafiq olaraq əks-əlaqə müsbət olduqda prosesin azalan nəticələri prosesi zəiflədir, əks-əlaqə mənfi olduqda onu gücləndirir. Əks-əlaqəli sistemin elementlərinin birləşdirilməsi "antiparalel birləşmə" adlanır.

Adətən, real iqtisadi idarəetmə sistemlərində idarəetmə obyektinin vəziyyəti barədə müxtəlif informasiyadan istifadə edilən, öz aralarında ardıcıl və paralel əlaqələrə malik olan bir neçə əks-əlaqə konturu mövcud olur. Bu cür sistemlərə çoxkonturlu sistemlər deyilir.

ƏKS İPOTEKA – ipoteka kreditidir ki, buna görə borc alan kreditin təminatı olan daşınmaz



əmlakın dəyərindən asılı olaraq təshih edilmiş məbləği kreditordan vaxtaşırı olaraq alır; belə sxemlər mülkiyyətə malik olan pensiyalara gəlirlərin əlavə edilməsinə imkan verir; bu cür ipotekaların bir neçə növü var: ömürlük renta; evin nağd pula birdəfəlik satışıdır ki, burada satıcı yalnız bu evdə ömürlük yaşamaq hüququnu alır; evi eyni zamanda icarəyə verməklə onun satışı.

ƏKS-KOMİSSİYA – sığortada təkrar sığortaya riski yaradan sığorta şirkətinin xərclərinin örtülməsi üçün bu şirkət tərəfindən tutulan müəyyən mükafat faizi.

ƏKS MARKETİNQ – elə bir prosesdir ki, bunun gedişatında alıcı-şirkət malgöndəräni məhz özünə lazım olan malları göndərməyə inandırmağa çalışır.

ƏKS SEÇİM – müşahidə olunmayan xüsusiyyətləri seçərkən məlumatsız tərəf üçün arzuolunmaz nəticənin əldə olunması riski.

ƏQD – iki və ya bir neçə iqtisadi subyektin, vətəndaşların və ya hüquqi şəxslərin əmlakın, pulların, qiymətli kağızların alqı-satqısı, ssudalar verilməsi, müştərək istehsal, biznes əməliyyatlarının aparılması və ya qarşılıqlı iqtisadi fəaliyyətin digər formaları ilə əlaqədar müəyyən əməliyyatlar aparılması barədə şifahi və yazılı müqavilə şəklində saziş.

Bir qayda olaraq, əqdin bağlanması və həyata keçirilməsi onun bütün iştirakçıları üçün qarşılıqlı (və ya bərabər) səmərə nəzərdə tutur. Əqd vasitəsilə onun subyektləri arasında iqtisadi münasibətlər formalaşır, dəyişir, həmin münasibətlərə xitam verilir. Əqdlərin bütün növləri onların subyektlərindən (iştirakçılarından), əqdin obyektindən, əqdin bağlandığı yerdən, onun həcmindən, qanuni və hüquqi təminatından, zəmanətlərdən və tərəflərin məsuliyyət dərəcəsindən, qiymətlilərin verilməsi üsulundan, əqdin ödəniş növündən asılı olaraq fərqləndirilir və təsnif edilir.

ƏQLİ MÜLKİYYƏT HÜQUQLARI – obyektiv əks

olunmuş əqli fəaliyyət nəticələri. Əqli mülkiyyətin qorunması məqsədi ilə onların müəlliflərinə və yaradıcılarına (hüquq sahiblərinə) müstəsna hüquqlar verilir. Müstəsna hüquqlar digər hüquqi vasitələrlə və digər hüquqi mexanizmlərdən istifadə etməklə, maddi obyektlərə olan mülkiyyət hüquqlarının funksiyasını yerinə yetirir. Əqli mülkiyyət professional təcrübədə bütün növ əsərləri, ifaları, fonoqramları və yayım təşkilatlarının verilişlərini özündə birləşdirən müəlliflik hüququ və əlaqəli hüquqlara: ixtiraları, əmtəə nişanlarını və coğrafi göstəriciləri özündə birləşdirən sənaye mülkiyyətinə və ənənəvi mədəniyyət nümunələrini – folkloru, ənənəvi bilikləri, inteqral sxem topologiyalarını və məlumat toplularını və s. özündə birləşdirən qeyri-ənənəvi əqli mülkiyyətə bölünür.

ƏQLİ MÜLKİYYƏT İQTİSADİ KATEQORİYA KİMİ – iqtisadi münasibətlərdə iştirak edən, dəyərə, xarakteristika, funksiya və iqtisadi xarakterli nəticələrə malik olan və xüsusi növ kimi müəyyən olunmuş mülkiyyətdir. Hüquqi cəhətdən əqli mülkiyyət əmlaka daxil olan qeyri-maddi nemətlərin əmlak dəyəri olan və əmlak dəyəri olmayan tərkib hissələrindən ibarətdir: əmlak (iqtisadi) hüquqları və şəxsi (qeyri-əmlak) hüquqlar. Əqli mülkiyyət hüquqları qeyri-maddi obyektlərə şamil olunur və bu obyektlərə əmtəə xassəsi verərək, onların iqtisadi dövriyyəyə cəlb olunmasını təmin edir. Əqli mülkiyyətə müstəsna hüquqların verilməsi bu mülkiyyət üzərində hökmranlığı təsbit edir və maddi mülkiyyətin qorunmasından az olmayan qorunmanı təmin edir. Əqli mülkiyyətə müstəsna hüququn sahibi özünün əmlak hüquqlarını maddi mülkiyyət sahibi kimi sərbəst həyata keçirilməsinə icazə verə, sata və ya ondan imtina edə bilər. Əqli mülkiyyət hüquqları üçüncü şəxslərin müdaxiləsindən qorunur. Əqli mülkiyyət qeyri-maddi aktivlərin vacib tərkib hissəsidir və "biliklərə əsaslanan iqtisadiyyatda" maddi aktivlərə nisbətdə qeyri-maddi aktivlərin payının artmasında aparıcı amil kimi çıxış edir.

ƏQLİ MÜLKİYYƏT QANUNVERİCİLİYİ – Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, əqli mülkiyyətə aid müvafiq qanunvericilik aktları, həmçinin Azərbaycan Respublikasının əqli mülkiyyət sahəsində qoşulduğu beynəlxalq müqavilələr. Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsində hazırda 9 qanun qüvvədədir. Bunlardan "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında", "İnteqral sxem topologiyalarının hüquq qorunması haqqında", "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" və "Məlumat toplularının hüquqi qorunması haqqında" 4 Qanun bilavasitə müəllif-hüquq sahəsi ilə bağlıdır və onların icrasını Respublika Müəllif Hüquqları Agentliyi həyata keçirir. "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanunlar sənaye mülkiyyətinə aiddir və onların icrasını Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, kənd təsərrüfatına aid "Seleksiya nailiyyətləri haqqında" qanunun icrasını isə Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir. Göstərilən qanunlar əqli mülkiyyətin əsas qorunma xəttini təşkil edir. "Haqsız rəqabət haqqında" və "Kommersiya sirri haqqında" qanunlar isə dolayı yolla əqli mülkiyyət hüquqlarını qoruyaraq, ikinci qorunma xəttini təşkil edir və onların icrasını İqtisadi İnkişaf Nazirliyi təmin edir.

> ***I. Hər kəsin əqli mülkiyyət hüququ vardır.***
> ***II. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur.***
>
> ***(Azərbaycan Respublikasının Konstitusiyası, maddə 30)***

ƏQLİ MÜLKİYYƏT OBYEKTLƏRİ – ədəbi, bədii və elmi əsərlər, ifalar, səsyazmalar, yayım təşkilatlarının verilişləri, insan fəaliyyətinin bütün sahələrində elmi kəşflər, ixtiralar və faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları, firma adları və kommersiya nişanları, haqsız rəqabətə qarşı müdafiə, kommersiya sirləri, həmçinin istehsalat, elm, ədəbiyyat və incəsənət sahələrində əqli fəaliyyətin digər nəticələri.

ƏQLİ MÜLKİYYƏT OBYEKTLƏRİNİN DƏYƏRLƏNDİRİLMƏSİ – əqli mülkiyyət obyektlərinin qeyri-mad-

di aktivlər çərçivəsində qəbul olunmuş müvafiq metodika əsasında qiymətinin və qeyri-maddi aktivlər sırasında xüsusi çəkisinin müəyyən edilməsi.

ƏQLİ MÜLKİYYƏT SAHƏSİNDƏ BEYNƏLXALQ MÜQAVİLƏLƏR (müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsi üzrə) – Ümumdünya Əqli Mülkiyyət Təşkilatını təsis edən Konvensiya, Müəllif hüquqları haqqında Ümumdünya Konvensiyası, "Ədəbi və bədii əsərlərin qorunması haqqında" Bern Konvensiyası, "ÜƏMT-nin Fonoqram istehsalçılarının mənafelərinin, onların fonoqramlarının qanunsuz təkrar istehsalından qorunması haqqında" Cenevrə Konvensiyası, "İfaçıların, fonoqram istehsalçılarının və yayım təşkilatlarının hüquqlarının qorunması haqqında" Roma Konvensiyası, "ÜƏMT-nin ifalar və fonoqramlara dair Müqaviləsi","ÜƏMT-nin müəlliflik hüququna dair Müqaviləsi" və s. Azərbaycan göstərilən beynəlxalq müqavilələrə qoşulmuşdur.

ƏQLİ MÜLKİYYƏTİN İQTİSADİ ƏHƏMİYYƏTİ – əqli mülkiyyət təkrar olunan vəsait (resurs), bilavasitə gəlir gətirməyən, lakin vasitəli yollarla böyük maddi gəlirin təminatçısıdır. Əqli mülkiyyət hüquq sahibinin icazəli istifadəsi zamanı riskin minimal və gəlirin maksimal olması şərtlərini yaradan mənbədir və inhisarçılığa baxmayaraq rəqabətə mənfi təsir göstərməyən, əksinə, digər şəxsləri fərqli həlləri tapmağa həvəsləndirən "kiçik inhisar"dır.

ƏLAQƏLİ HÜQUQLAR – müəlliflik hüququ ilə qorunan əsərləri öz fəaliyyəti ilə kütləyə çatdıran xüsusi vasitəçilər – ifaçılar, fonoqram istehsalçıları və yayım təşkilatları. Bu vasitəçilərin hüquqlarına əlaqəli hüquqlar, yəni müəlliflik hüququ ilə təmasda olan hüquqlar deyilir. Əlaqəli hüquqlar müəllif hüququ ilə qorunan əsərlərin ətrafında formalaşmışdır və analoji, lakin həcm və müddətlərə görə daha məhdud qorunma verir. Əlaqəli hüquqlar aşağıdakılara şamil olunur:

– ifaçılara, onların ifalarına münasibətdə;

– fonoqram istehsalçılarına, onların hər hansı maddi daşıyıcıda, o cümlədən kasetlərə və kompakt disklərə yazılmış səsyazmalarına münasibətdə;

– efir yayımı təşkilatlarına, onların radio və televiziya verilişlərinə münasibətdə.


Əlaqəli hüquqların əsas xüsusiyyəti müəlliflik hüququndan törəməsi və ondan asılı olmasıdır, bu səbəbdən əlaqəli hüquqlar müəlliflik hüququna riayət etməklə tanınır.

ƏLAVƏ XƏRCLƏRİN SIĞORTASI – sığorta növü. Burada sığortalının müəssisəsinin məcburi boşdayanmalarına baxmayaraq, onun (sığortalının) həyata keçirməli olduğu əlavə xərclər sığorta obyekti sayılır. Bunu həm istehsal boşdayanmalarından mənfəət itkisinin sığortalanmasına əlavə kimi, həm də müstəqil sığorta növü kimi nəzərdən keçirmək olar.

ƏLAVƏ DƏYƏR – məhsulun istehsal prosesində yaranan dəyərinə müəssisənin müəyyən xərclərlə bağlı əlavə etdiyi dəyər. Əlavə dəyərin həcmini müəssisənin işçilərinin əmək haqqı, mənfəəti və əsas fondların amortizasiyası müəyyən edir.

ƏLAVƏ DƏYƏR VERGİSİ (ƏDV) – mal, iş və xidmətlərin yeni yaradılmış dəyərindən tutulan vergi. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən əlavə dəyər vergisi vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə verilən elektron hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir. Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi və vergi tutulan idxal ƏDV-nin vergitutma obyektidir. Azərbaycan Respublikasının 31.12.1991-ci il tarixli "Əlavə dəyər vergisi haqqında" Qanununa əsasən 01.01.1992-ci ildən tətbiq olunan ƏDV-nin ilkin dərəcəsi 28 faiz olmuşdur. Hazırda isə ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir. Lakin bəzi fəaliyyət sahələrinin stimullaşdırılması və onlara dövlət dəstəyinin göstərilməsi məqsədilə həmin fəaliyyətlər ƏDV-nin ödənilməsindən azad edilmişlər ki, bunlara da maliyyə xidmətlərinin göstərilməsi, kütləvi informasiya vasitələri məhsullarının alqı-satqısının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri məhsulları istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla), orta məktəb dərslikləri, uşaq ədəbiyyatının və büdcədən maliyyələşdirilən dövlət əhəmiyyətli nəşrlərin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti, metropolitenlə sərnişindaşıma xidmətləri və s. aiddir.

Azərbaycan Respublikası üzrə əlavə dəyər vergisi (mln. manat)



Qrafik 1

Bundan əlavə xarici ölkələrin diplomatik və analoji nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik, inzibati və texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlər, xaricdən alınan əvəzsiz maliyyə yardımları (qrantlar) hesabına malların idxalı, qrant üzrə resipiyentlərə malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi, malların ixracı və bir sıra digər əməliyyatların aparılmasına görə ƏDV sıfır (0) dərəcə ilə tutulur.

Dolayı vergi olmaqla ƏDV məhsulun qiymətinə əlavə formasında çıxış edir. Əgər mənfəət vergisi müəssisənin sərəncamında qalan mənfəətin, gəlir vergisi işçilərə ödənilən əmək haqqının həcminin azalmasına səbəb olursa, ƏDV müəssisənin vəsaitlərinin həcmini azaltmır, çünki o, məhsulun istehlakçısı tərəfindən əmtəənin və ya xidmətin qiymətində ödənilir. ƏDV-ni digər vergilərdən (aksizlər istisna olmaqla) fərqləndirən əsas xüsusiyyətlərdən biri də vergi əvəzləşdirməsi mexanizminin mövcud olmasıdır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) qəbul etdiyi təsnifata uyğun olaraq ƏDV dolayı vergilər sırasına aid edilir, mal, iş və xidmətlərin dəyərinə əlavə formasında çıxış edir.

ƏDV istehsal mərhələsindən başlayaraq məhsulun istehlakçıya çatdırılmasına qədər satışın hər bir mərhələsində tutulur. ƏDV-nin hesablanması zamanı onun təyin edilməsinin dörd metodundan istifadə olunur: dolayı additiv metod; birbaşa çıxma metodu; dolayı çıxma metodu; hesablar üzrə əvəzləmə metodu. Əksər ölkələrdə hesablar üzrə əvəzləmə metodu tətbiq edilir.

ƏLAVƏ DİVİDEND – şirkət tərəfindən ödənilən müntəzəm və ya adi dividendə əlavə olaraq səhmlər və ya nağd pul formasında dividend.

ƏLAVƏ EDİLMİŞ DƏYƏR – məhsul və ya xidmətin yaradılmasına konkret müəssisənin real töhfəsi. Məhsul (xidmət) çoxsaylı müəssisələrin fəaliyyətinin nəticəsi olan zaman əmək bölgüsü şəraitində məhsul istehsalında ayrı-ayrı müəssisələrin payını xarakterizə edir. Əlavə edilmiş dəyər müəssisənin istehsal etdiyi məhsulun həcminin bazar qiyməti ilə həmin məhsulun istehsalı üçün xammal, material və yarımfabrikatların alınmasına sərf olunan məsrəflər arasında fərq kimi hesablanır. Əlavə edilmiş dəyər göstəricisini almaqdan ötrü müəssisənin ümumi məhsulunun dəyərindən cari maddi məsrəfləri çıxmaq lazımdır. Müasir praktikada qəbul edilmiş metodikaya müvafiq olaraq əlavə edilmiş dəyərin tərkibinə müəssisədə yaradılmış ekvivalent gəlirlərlə yanaşı, amortizasiya ayırmaları da daxil olur. Amortizasiya ayırmalarının əlavə edilmiş dəyərə daxil olması onunla şərtlənir ki, əsas fondlar məhsulun dəyərini yaradan amil kimi nəzərdən keçirilir. Əlavə edilmiş dəyərin kəmiyyətləri onların sahələr və istehsalatlar üzrə toplanması zamanı yekunda təkrar hesabdan azad ÜDM göstəricisini verir. Milli hesablar sistemində əla-və edilmiş dəyərin tərkibinə amortizasiya, əmək haqqı, korporasiyaların və korporasiya olmayan müəssisələrin mənfəəti, onların əldə etdiyi renta, borc kapitalı üçün faiz, eləcə də biznesdə dolayı vergilər daxildir. Statistika orqanları əlavə edilmiş dəyərdən ÜDM-in hesablanması zamanı istifadə edirlər. Bu göstərici 1950-ci illərin ortalarından başlayaraq dünyada vergi praktikasında vergiqoyma bazası kimi geniş yayıldı. Müasir dövrdə əlavə edilmiş dəyərdən "şərti xalis məhsul" adı altında təsərrüfat təhlili məqsədləri üçün də istifadə olunur.

ƏLAVƏ KAPİTAL – emissiya gəliri və uzunmüddətli material aktivlərin yenidən qiymətləndirilməsi (yenidən qiymətləndirmədən fərqi) hesabına alınan kapital.

ƏLAVƏ KOMİSSİYA – qaimə xərclərini diqqət mərkəzində saxlayaraq, yeni sığortalıların əldə edilməsi üçün xərclərə əlavə olaraq sedent şirkətə ödənilən əlavə.

ƏLAVƏ MƏBLƏĞDƏ YÜKLƏRİN SIĞORTALANMASI – dəniz polisində göstərilən sığorta məbləği. Bu məbləğin düzgün və ya səhv olmasından asılı olmayaraq, o, sığortaçı ilə sığortalı arasında qarşılıqlı münasibətlərdə yekun nəticə hesab olunur.

ƏLAVƏ ÖDƏNİŞ – əmtəələri alan (alıcı) və onları göndərən (satıcı) arasında hesablaşmaların bu növü cüzi məbləğdə kiçik əmtəə partiyalarının göndərilməsi və təsərrüfat təşkilatları ilə vətəndaşlar arasında hesablaşmalar zamanı tətbiq edilir.

Əlavə ödənişli malı göndərən nəqliyyat və ya poçt təşkilatına tapşırır ki, onun malı ünvan sahibinə yalnız məlum dəyər nağd və ya nağdsız şəkildə ödənildikdən sonra çatdırılsın. Sonradan həmin ödəniş malgöndərənin, satıcının hesabına daxil olur. Əgər göstərilən ünvan sahibi malın haqqını ödəməkdən imtina edərsə, həmin mal onu göndərənə qaytarılır.

ƏLAVƏ PENSİYANIN SIĞORTALANMASI – pensiya yaşına çatmış insanların maddi təminatını nəzərdə tutan dövlət pensiyasından yuxarı şəxsi sığorta növü.

ƏLAVƏ RİSKLƏR – həmçinin, xüsusi risklər kimi məlumdur. Məsələn, zəlzələlər, sellər, sürüşmələr, mülki qiyamlar, partlayışlar, iğtişaşlar və s.

ƏLAVƏ SIĞORTA HAQLARININ ÖDƏNİLMƏSİ ÖHDƏLİYİ – sığorta müqaviləsinin bağlanması zamanı sığorta tədiyələri məbləğindən yuxarı hesablanan vəsaitlərin köçürülməsi üzrə tələbin sığorta təşkilatı tərəfindən sığortalıya irəli sürülməsidir. Belə ödəniş öhdəliyi bir sıra səbəblərdən irəli gəlir:

a) sığortalının bağlanmış müqavilənin bir neçə şərtini dəyişməsi, sığorta məbləğinin ölçüsünün artması, müqavilənin fəaliyyət müddətinin uzadılması arzusu və s.;

b) sığortalının əsas sığorta müqaviləsindən əlavə müqavilə bağlamaq arzusu.

ƏLAVƏ SIĞORTA KOMİSSİYASI – 1. Müəyyən ərazidə sığorta şirkətinin fəaliyyətinin nəticələrinə görə agentə birbaşa sığorta zamanı ödənilən komissiya. 2. Təkrar sığorta zamanı təkrar sığorta üzrə xərclərə görə haqq forması.

ƏLAVƏ SIĞORTA MÜKAFATI – sığortaçı ilə razılaşdırılmaqla əlavə risklərin ümumi sığorta şərtlərinə daxil olmasına görə, yaxud yüksək təhlükəli risklərin sığortalanmasına görə sığortalı tərəfindən ödənilən əlavə sığorta haqqı.

ƏLAVƏ SIĞORTA SİSTEMİ – sığortanın ilkin forması. Təbii fəlakətlər və bədbəxt hadisələr baş verdikdə qarşılıqlı yardım prinsipi əsasında və məhdud iştirakçı dairəsində həyata keçirilirdi. Əsasən, ticarət sahəsində mövcud idi. Bu sistemdə zərərçəkənə zərər əvvəlcədən yaradılmış sığorta fondundan deyil, zərər dəydikdən sonra iştirakçılar arasında onların əmlakının dəyərinə proporsional qaydada yaradılan xüsusi "sapalaqdan" ödənilirdi.

ƏLAVƏ TƏMİNAT – əsas təminata əlavə olaraq verilən təminat. Belə ki, ipoteka kreditini götürən şəxs əlavə təminat kimi sığorta polisindən istifadə edə bilər.

ƏLDƏETMƏ (QAZANMA) ZAMANI ƏLAVƏ – bir pay hesabında xalis aktiv dəyəri ilə müqayisədə onun dəyərini artıran payın əldə edilməsi zamanı komisyon haqq.

ƏLƏKBƏROV ARİF ƏLƏKBƏR OĞLU (1965) – Azərbaycan iqtisadçısı, i.e.d.

1991-ci ildə Belarus Kənd Təsərrüfatının Mexanikləşdirilməsi İnstitutunda namizədlik, 2009-cu ildə isə AMEA-nın İqtisadiyyat İnstitutunda "Azərbaycan Respublikasında ekoloji tarazlığın tənzimlənməsinin iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

A.Ələkbərov 70-dən çox elmi məqalənin, 1 RF-nin patentinin, 1 dərslik, 2 dərs vəsaiti və 2 monoqrafiyanın müəllifidir.

1992-1994-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının "İstehsalat proseslərinin avtomatlaşdırılması" kafedrasında assistent, 1995-1999-cu illərdə Belarus Nazirlər Kabinetinin nəzdində Milli Azlıqlar Komitəsinin üzvü, 2001-2004-cü illərdə ADİU-nun Kommersiya fakültəsində dekan vəzifələrində çalışmışdır.

ADİU-nun "Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı" kafedrasının professorudur.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının şöbə müdiridir.

ƏLƏKBƏROV ƏVƏZ ƏKBƏR OĞLU (1952) – Azərbaycan iqtisadçısı, i.e.d.



1973-cü ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.

1975-1981-ci illərdə Azərbaycan Kənd Tikinti Nazirliyinin "Azərkəndquraşdırmatikinti" Trestində iqtisadçı, böyük iqtisadçı, plan şöbəsinin rəisi, trest müdirinin iqtisadi məsələlər üzrə müavini işləmişdir. 1981-1991-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti plan-maliyyə orqanları şöbəsində böyük referent olmuş, müdir müavini vəzifəsində çalışmışdır. 1991-ci ildə yeni yaradılan SSRİ Pensiya Fondu Azərbaycan SSR bölməsinin müdiri, 1992-1999-cu illərdə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun Sədri vəzifəsində işləmişdir. 1999-2006-cı illərdə Azərbaycan Respublikasının Maliyyə naziri vəzifəsində çalışmışdır. 2003-cü ildə "Azərbaycan Respublikasında sosial sığortanın inkişafı problemləri" mövzusunda namizədlik, 2008-ci ildə isə "Sosial-iqtisadi inkişafın maliyyə-budcə tənzimlənməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Maliyyə-büdcə sisteminə dair 40-dan çox elmi məqalənin və 4 monoqrafiyanın müəllifidir. Beynəlxalq Menecment Akademiyasının həqiqi üzvüdür.

ƏLƏKBƏROV VAHİD YUSİF OĞLU (1950) – tanınmış iş adamı, sahibkar.

1972-1974-cü illərdə "Xəzərdənizneft" İstehsalat Birliyində operator işləyib. 1974-cü ildə Azərbaycan Neft-Kimya İnstitutunu bitirib.


1974-1979-cu illərdə 2 saylı rayon mühəndis-texnoloji xidmətində böyük mühəndis-texnoloq, A.Serebrov adına Neft-qaz Çıxarma İdarəsində növbə rəisi, neft-qaz hasilatı üzrə usta, bö-



yük mühəndis, rəis müavini işləyib. 1979-1980-ci illərdə "Fyodorovskneft"-də böyük mühəndis, rəis, 1980-1981-ci illərdə "Xolmoqorneft" Neft-qaz Çıxarma İdarəsində mərkəzi mühəndis-texnoloji xidmətin rəisi, 1981-1983-cü illərdə "Lyantorneft" Neft-qaz Çıxarma İdarəsində baş mühəndis, rəis müavini, 1983-1985-ci illərdə "Povxneft" Neft-qaz Çıxarma İdarəsində rəis, 1985-1987-ci illərdə "Başneft" istehsalat birliyində baş direktorun müavini, 1987-1990-cı illərdə "Koqalımneft" İstehsalat Birliyində Baş direktor vəzifəsində çalışmışdır. 1990-1991-ci illərdə SSRİ neft-qaz sənayesi nazirinin müavini, 1991-1992-ci illərdə SSRİ neft-qaz sənayesi nazirinin birinci müavini, 1992-1993-cü illərdə Lukoyl neft konserninin prezidenti, 1993-cü ildən Lukoyl ASC-nin prezidentidir. 1995-ci ildə "İmperial" bankının direktorlar şurasının sədri seçilib. Həmin il yanacaq və energetika nazirliyinin kollegiyasına daxil olub. 2007-ci ildən "Bizim gələcək" regional sosial proqramlar fondunun təsisçisidir.

2011-ci ildə 13,9 milyard dollar şəxsi vəsaitlə 200 varlı rusiyalı biznesmen arasında 8-ci yeri (Forbes jurnalının araşdırmasına görə) tutub.

ƏLƏSGƏROV AĞASƏLİM KƏRİM OĞLU (1928) – Azərbaycanın görkəmli iqtisadçı alimi, AMEA-nın müxbir üzvü (1989).



A.Ələsgərov 1950-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu bitirərək, kənd təsərrüfatının iqtisadiyyatı üzrə ixtisasa yiyələnmişdir. 1958-ci ildə ilk dəfə SSRİ-də "Pambığın maya dəyəri və onun aşağı salınması yolları" (Azərbaycan SSR-in kolxozları timsalında) mövzusunda namizədlik, 1968-ci ildə "Kənd təsərrüfatının ixtisaslaşması və onun iqtisadi effektliyi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, 1969-cu ildə professor elmi adına layiq görülmüşdür. A.Ələsgərov 1974-1978-ci illərdə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunda elmi işlər üzrə prorektor və "Siyasi iqtisad" kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1981-1988-ci illərdə AMEA-nın İqtisadiyyat İnstitutunun direktor müavini, 1989-cu ildən 1998-ci ilədək həmin institutun direktoru olmuşdur. 1999-cu ildən institutun şöbə müdiridir.

İqtisad elminin tədqiqi və respublikanın sosial-iqtisadi inkişafı sahəsində A.Ələsgərovun maraq dairəsi çox genişdir. O, elmi fəaliyyətinin başlanğıcından SSRİ-də aqrar sahənin ən kəskin və aktual problemlərindən biri olan kolxozlarda maya dəyərinin hesablanması metodikasının ölkədə ilk dəfə işlənilməsi, istehsal edilən kənd təsərrüfatı məhsullarının xərclərinin aşağı salınması yolları, istehsal vahidlərinin daxili təsərrüfat hesabına keçirilməsinə dair nümunəvi əsasnamənin işlənməsi, maddi maraq prinsipinin tətbiqi, əmək məhsuldarlığının yüksəldilməsi, kənd təsərrüfatı işlərinin normaları, onların qiymətləri, əsas və əlavə əmək haqları ödənilməsi qaydaları və digər vacib məsələlərin tədqiqi ilə intensiv məşğul olmuşdur.

Daxili təsərrüfat hesabının konkret vəzifələrini müəyyənləşdirmiş, təsərrüfathesablı bölmələrin tərkibini vermiş, təsərrüfat hesablı istehsal vahidlərinin qarşılıqlı münasibət qaydaları və kolxozun idarə heyəti ilə onların əlaqəsi, məhsul çıxımının artırılması üzrə əsas təşkilati-texniki tədbirlər planının tərtibi qaydalarını və istehsalat vahidlərinə məsrəflərin limitinə dair təsərrüfat hesabı tapşırıqlarının verilməsi metodikasını işləmişdir.

Azərbaycan kəndində ictimai-iqtisadi dəyişikliklərin səviyyəsini tədqiq etmək məqsədilə o, mövcud olan mühüm fərqləri bir-birilə sıx əlaqədar formada istehsal-texnoloji, ictimai-iqtisadi, mədəni-məişət və mənzil sahələrində öyrənir. A.Ələsgərov qeyd edir ki, istehsal-texniki sahədə və kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişaf səviyyəsi müxtəlifdir. Kənd təsərrüfatı istehsalı bu baxımdan çox geri qalmışdır və onun bütün iqtisadi göstəriciləri aşağıdır. Bu isə kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişafını və tətbiq edilən əməyin təşkilinin sənaye səviyyəsinə çatdırılmasını və digər tədbirlərin həyata keçirilməsini zəruri edir.


İxtisaslaşmanın amillərini yeni materiallarla əsaslandırdıqdan sonra A.Ələsgərov iqtisadi göstəricilər sisteminin tədqiqinə keçmişdir. O, əmtəəlik məhsulun səviyyəsini ixtisaslaşmanın əsas göstəricisi kimi qəbul etmək ideyasını sübut etmişdir. Bunun üçün bir sıra göstəricilərdən istifadə olunmasının vacibliyini göstərmişdir. Müəllif ictimai əmək məhsuldarlığına üstünlük verməklə, maya dəyəri, rentabellik, xalis gəlir, fondtutumu, fondverimi göstəricilərini də nəzərə almağın zəruriliyini sübut etmişdir. Sonra o, tədqiq etdiyi amillər, meyar və kompleks göstəricilər əsasında respublikada kənd təsərrüfatının ixtisaslaşdırılmasının mövcud vəziyyətini bölgələr üzrə müəyyənləşdirərək, iqtisadi baxımdan qiymətləndirmiş, onun səmərəliləşdirilməsi yollarını müəyyənləşdirmişdir. O, kənd təsərrüfatı istehsalında hər bir bölgənin iqtisadi potensialını tam üzə çıxararaq, ixtisaslaşmanı təsərrüfat dövriyyəsinə təkmilləşdirmək yolu ilə cəlb edilməsinin effektivliyini sübut etmişdir.

AMEA-nın müxbir üzvü A.Ələsgərovun əsərləri elmi ictimaiyyətə yaxşı tanışdır. Onlar ABŞ, İngiltərə, Almaniya, Çexiya, Slovakiya, İran və digər ölkələrdə çap olunmuşdur.

A.Ələsgərovun elmi rəhbərliyi ilə onlarca namizədlik və 2 doktorluq dissertasiyası müdafiə edilmişdir.

Əsərləri: "Kolxozlarda pambığın maya dəyərinin aşağı salınması yolları". Bakı, Azərnəşr, 1960, 95 s. Azərbaycan SSR kolxozlarında əsas kənd təsərrüfatı işlərinin təxmini normaları, onların qiymətləri, əsas və əlavə əmək haqqı verilməsi qaydaları, Bakı, Azərnəşr, 1962, 216 s., Специализация сельского хозяйства и ее эконом. Эффективность. /Инст. Экономическая. АН Аз.ССР. Баку: "Элм", 1969, 335 с., Ərzaq proqramı və onun həyata keçirilməsi yolları. Bakı, Azərnəşr, 1984, 94 s. G.Gənciyev ilə birlikdə: Azərbaycan SSR-in üzümçülük xalq təsərrüfatı kompleksi. Bakı: "Elm", 1985, 74 s. A.Əhmədova ilə birlikdə; Qloballaşma şəraitində Azərbaycan Respublikasında xarici-iqtisadi əlaqələrin inkişafı problemləri. S.Haqverdiyeva ilə birlikdə. "Elm", 2007.

ƏLƏSGƏROV FUAD NƏSRULLA OĞLU (1937) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1964-cü ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün Praqada dissertasiya müdafiə etmiş ilk azərbaycanlı olmuşdur.

1976-cı ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1978-ci ildən professordur. Əsas tədqiqatlarını "Məhsulun keyfiyyətinin idarə olunması" problemlərinə həsr etmişdir.

F.Ələsgərovun yazmış olduğu irihəcmli monoqrafiyalarda, dərslik və dərs vəsaitlərində iqtisadi sistemin bazar mexanizminin əsas prinsipləri əsasında formalaşması ideyaları qeyd olunur. Bu ideyalar açıq şəkildə şərh edilməsə də, inzibati-amirlik sistemi çərçivəsində məhsulun keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı təşkilati-iqtisadi və texniki idarəolunma proseslərinin mürəkkəbliyi və eyni zamanda çətinlikləri açıq şəkildə bildirilirdi. Onun 1990-cı ildə yazılmış "Məhsulun keyfiyyətinin idarə olunması" monoqrafiyası qiymətli və sanballı bir əsər kimi bu gün də əhəmiyyətini itirməmişdir. 1987-ci ildə professor F.Ələsgərov Respublika Nazirlər Sovetinin nəzdində yeni yaradılmış Azərbaycan Xalq Təsərrüfatının İdarəedilməsi İnstitutunun tədris işləri üzrə prorektoru, 1989-1992-ci illərdə Voznesenski adına Leninqrad Maliyyə İqtisad İnstitutunun Bakı filialının direktoru vəzifəsində çalışmışdır.

ƏLİBƏYOV İNQİLAB VƏLİBƏY OĞLU (1934) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1961-ci ildə SSRİ EA Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunda "Türkiyədə dövlət kapitalizminin rolu haqqında" namizədlik dissertasiyasını müdafiə etmişdir.

1994-cü ildə doktorluq dissertasiyasını (dərc olunmuş əsərlərinin məcmusu üzrə) müdafiə etmişdir.

İ.Əlibəyov 120-dən çox müxtəlif elmi nəşrin (monoqrafiyalar, kitab fəsilləri, broşüralar, elmi və elmi-publisistik məqalələr, məlumatlar, resenziyalar) müəllifidir. O, radiopublisistika sahəsində də fəaliyyət göstərmiş, beynəlxalq iqtisadi müna-

sibətlər, Azərbaycan-Türkiyə əlaqələrinə dair 450-dən artıq məqalənin müəllifidir.
İ.Əlibəyov 1961-ci ildən MEA-nın Şərqşünaslıq İnstitutunda şöbə müdiridir.

ƏLİBƏYOVA ƏRUZİYƏ MUSTAFA QIZI (1914-1981) – Azərbaycanın görkəmli



iqtisadçı alimi, i.e.d., prof. 1944-cü ildə "Azərbaycanın xalq təsərrüfatında qadın əməyi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Ə.M.Əlibəyova istehsalın iqtisadiyyatı və təşkili problemlərinə dair 100-ə qədər elmi işin müəllifidir.
Bir sıra elmi məqalələri, dərs vəsaitləri, habelə neft maşınqayırmasının iqtisadiyyatına dair monoqrafiyaları çap edilmişdir. O, Şərqdə iqtisadiyyat üzrə professor olan (1967) ilk qadın idi. Frayburq Dağ Akademiyasının (ADR) fəxri doktoru olmuş, "Şərəf nişanı" ordeni (1961), müxtəlif medallar, fəxri fərmanlarla təltif edilmişdir.
1964-cü ildə ona "Azərbaycan SSR-in Əməkdar iqtisadçısı" fəxri adı verilmişdir.

ƏLİFBA BROKERLƏRİ – məşhur şirkətləri onların abreviaturası ilə adlandıran və bu zaman, bir qayda olaraq, ingilis əlifbasının baş hərflərindən istifadə edən sığorta brokerləri.

ƏLİL VƏ XƏSTƏLƏRİN SIĞORTASI ÜZRƏ BEYNƏLXALQ BİRLİK (ing. *International Conference Regarding Insurance of Substandart Lives*) – Qərbi Avropa ölkələrinin sığorta cəmiyyətlərinin beynəlxalq təşkilatı. 1924-cü ildə Vyanada yaradılmışdır. Birliyin məqsədləri xəstələrin və əlillərin həyat sığortası üzrə, statistik və maliyyə məsələləri üzrə təcrübə mübadiləsidir. 1960-cı ildə 13 ölkədən, o cümlədən Böyük Britaniyadan, Fransadan, AFR-dən, Portuqaliyadan, İsveçrədən olan sığorta cəmiyyətləri və assosiasiyaları birliyin üzvləri idi. Birliyin ali orqanı 3-5 ildən bir çağırılan beynəlxalq konfrans hesab olunur.

ƏLİLLİK – orqanizmin funksiyalarının peşə əmək fəaliyyətinin tam və ya qismən itkisinə və ya həyatda əhəmiyyətli çətinliklərə gətirib çıxaran pozulması. I qrup əlillik müntəzəm peşə (peşəkar) əmək qabiliyyətini tam itirən və daim kənar köməyə ehtiyacı olan, II qrup əlillik peşə əmək qabiliyyətini tam itirən, lakin kənar köməyə ehtiyacı olmayan və III qrup əlillik peşə əmək qabiliyyətini qismən itirən vətəndaşlar üçün müəyyən olunur.

ƏLİRZAYEV ƏLİ QƏNBƏRƏLİ OĞLU (1945) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1973-cü ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. O, ilk dəfə olaraq gəlir və istehlak balanslarının region üzrə metodologiyasını yaratmışdır.
1978-1980-ci illərdə Moskvadakı Mərkəzi İqtisadi Riyaziyyat İnstitutunda elmi iş aparmış və 1985-ci ildə həmin institutda dissertasiya müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. Ə.Əlirzayev 400-ə yaxın elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın, elmi məqalə və tezislərin, 200 qəzet məqaləsinin müəllifidir. 25 aspiranta rəhbərlik etmiş, 3 elmlər doktoru yetişdirmişdir. 2 monoqrafiya, 4 metodik vəsait Moskva alimləri ilə Mərkəzi İqtisadi Riyaziyyat İnstitutunda



hazırlanmış və nəşr olunmuşdur.
1986-1989-cu illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun prorektoru vəzifəsində işləmişdir. 2000-2005-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri vəzifəsində çalışır.

ƏLİYEV AQİL ƏLİRZA OĞLU (1926-2006) – Azərbaycanın görkəmli iqtisadçı alimi,



AMEA-nın müxbir üzvü (2001).
Aqil Əlirza oğlu Əliyev 1951-ci ildə Bakı Dövlət Universitetini bitirmişdir. 1953-cü ilə qədər Azərbaycan SSR EA Tarix İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır. İqtisad elminə böyük marağı olduğundan 1953-cü ilin may ayından ömrünün sonunadək Azərbaycan Tibb İnstitutunun "Siyasi iqtisad" kafedrasında çalışmışdır.
1970-ci ildə iqtisad elmləri namizədi, 1973-cü ildə dosent, 1979-cu ildə professor elmi adlarına layiq görülmüş, 1983-cü ildə iqtisad elmləri doktoru elmi adını almışdır.
1982-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, bir neçə orden və medallarla, "Səhiyyə əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.
O, həyat səviyyəsi, istehlak, sosial sahələrin iqtisadiyyatı problemləri ilə məşğul olmuşdur.
Alim 130-dan artıq elmi əsərin, o cümlədən 19 monoqrafiya və kitabın müəllifi olmuşdur. Onun bir sıra əsərləri Moskvada, Sankt-Peterburqda və digər xarici ölkələrdə çap olunmuşdur. A.Əliyev Azərbaycanda ilk dəfə tədqiq olunan "Şəxsi istehlakın iqtisadiyyatı", "Tibbin iqtisadiyyatı", "Xalq istehlakı", "Aqrar iqtisadiyyatın aktual problemləri" və s. sanballı monoqrafiyaların müəllifidir. Alim sosial sahələrin, o cümlədən səhiyyənin qalıq prinsipi əsasında maliyyələşdirilməsindən imtina edilməsini konkret faktlarla əsaslandırmışdı. Onun tədqiqatlarında keyfiyyətli insan inkişafı üçün zəruri olan səhiyyənin inkişafı ilə iqtisadi inkişaf arasında qarşılıqlı əlaqə məsələləri xüsusi yer tutur. O, səhiyyə xidmətinin planlaşdırılması, ona ayrılan xərclərin dinamik artımının təmin edilməsi, demoqrafik inkişaf göstəricilərinin yaxşılaşdırılması istiqamətləri barədə araşdırmalar aparmışdır.

ƏLİYEV HEYDƏR ƏLİRZA OĞLU (1923-2003) – 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.
1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi Sədrinin müavini, 1967-ci ildən isə Sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir.
Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur.
Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.
Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törə-



dilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir.

Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun adı ilə əlaqədardır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb etmiş, dünya azərbaycanlılarının bu ümummilli liderinin heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır.

Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü və artıq ən ağır günlərini yaşadığı bir zamanda – 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalqının belə dar bir gündə qal-

dığını görüb onun təkidli dəvətini qəbul edən Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmışdı. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli Qurtuluş günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

Heydər Əliyev birinci dəfə hakimiyyətə gələndə – 1960-cı illərin axırlarında da Azərbaycan iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü yaşanmışdı.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndə də yenə özünün siyasi bacarığı gücünə ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi parakəndəlikdən xilas edə bilmiş və cəmiyyətin məqsədini, qayəsini öz varlığında, özünün güclü şəxsiyyətində təzahür etdirərək, doğma xalqını yenidən vahid bir məfkurə ətrafında səfərbər edib, onun qəlbində sabaha inam hissi yaratmağı bacarmışdı.

Bütün bu illər ərzində əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyi bacarmışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qalmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitməz-tükənməz enerjisi xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır.

Tarixin yetirdiyi görkəmli şəxsiyyətlərdən olan Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq, üçüncü minilliyə inamla qədəm qoymuşdur. Heydər Əliyev zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirən Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini və edə bilməyəcəyini gerçəkləşdirmiş, müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri sırasında həmişəlik öz layiqli yerini tutmuşdur. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, vətənini düşünmüşdür. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Heydər Əliyev bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı. Şəxsiyyətindəki qətiyyət onun geniş auditoriya qarşısında çıxışlar edərkən çox vaxt elə bədahətən söylədiyi fikirlərdə də parlaq əksini tapmışdır. Sarsılmaz məntiq üzərində qurularaq qeyri-adi dərəcədə böyük təsir gücünə malik məruzə və nitqləri Heydər Əliyevin fəlsəfi və siyasi dünyagörüşündəki dərinliyin və genişliyin açıq ifadəsidir.

Azərbaycan dövlətinin başçısı, Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin çoxəsrlik dövlətçiliyimiz tarixində müstəsna yeri vardır. Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti baxımından Azərbaycanın hüdudlarından çox-çox kənarlara çıxır. Müasir dövrdə nəinki Azərbaycanda, hətta bütün postsovet məkanında, eləcə də dünya miqyasında gedən prosesləri Heydər Əliyevin şəxsiyyətindən və fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyildi.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin – Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətin-

də, həm də fəlsəfi məfkurəsində – milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır.

Heydər Əliyev zəmanəmizin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Bu dövrün isə Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu azərbaycançılıqdır.

Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən – məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu mənada azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmışdır. Heydər Əliyev o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində və bu ideologiyaya, əlbəttə, aşkarda daban-dabana zidd olmayan formada olsa belə, alt qatda ona müxalif qalaraq, Azərbaycanda milli ruhun tamamən sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdır.

Bu baxımdan Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir. Tarixi məhz bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideyasiyasi istiqamətini də məhz xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil etmişdir. Onun respublikaya rəhbərlik etməyə başladığı ilk günlərdən Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin müntəzəm surətdə qeyd olunması bir ənənə halını almış, bu isə Azərbaycan xalqının ümummilli problemləri ilə sıx bağlı olub, milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdı.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə görülən işlər milli özünüdərk duyğularını ideoloji sistemin keçmiş buxovlarından xilas edərək, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi təməl prinsiplər əsasında milli ruhun hədsiz yüksəlişini təmin etmiş, xalqımızın qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdı.

SSRİ-nin əyalətlərindən biri kimi baxıldığından 1960-cı illərin sonlarına doğru sosial-iqtisadi həyatın bütün sahələrinin gerilədiyi, mənfi meyillərin güclənərək getdikcə daha dərin kök saldığı, hakimiyyət uğrunda gizli rəqabətin artdığı və eybəcər şəkillər aldığı, bütün bunların isə xalqın milli-mənəvi birliyinə ziyan vurduğu Azərbaycanda hakimiyyətə gələn yeni rəhbərin birinci işi respublikada iqtisadi potensialın dağılmasının, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi-psixoloji vəziyyətinə mənfi təsir göstərə bilməsinin qarşısını almaqdan ibarət oldu.

Respublikada kosmopolit bir əhvali-ruhiyyə hökm sürdüyündən milli kadrların hazırlanması, milli dilin inkişaf etdirilməsi və istifadə olunması, dövlət idarəetmə strukturlarında çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirilməsi istiqamətində nəinki ciddi addım atılmır, hətta bu yöndə edilə bilən təşəbbüslərin qarşısı alınırdı ki, belə bir hal da, heç şübhəsiz, milli şüura malik olan, milli düşüncə ilə yaşayan və milli mentalitetin daşıyıcısı sayılan kadrların yetişməsinə çox ciddi maneələr törədirdi.

İqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuş respublikada yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı, onun iqtisadi inkişafını təmin etmək üçün prinsipial cəhətdən yeni konseptual səviyyədə yanaşma yolları işlənib hazırlanmalı, iqtisadiyyatda köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıqda və iqtisadi həvəsləndirmədə yeni üsullar tətbiq olunmalı idi. Heydər Əliyev əmin idi ki, millətin siyasi müstəqilliyinin özülünü onun iqtisadi cəhətdən azadlığı şərtləndirir.

O illərdə milli ideyanın qıtlığı üzündən baş alıb gedən, həm iqtisadi, həm mədəni tənəzzülə aparan mənfi hallar Heydər Əliyevin hakimiyyətə gəlişi ilə aradan qaldırıldı. Onun yorulmaz fəaliyyətinin nəticəsidir ki, 1970-1985-ci illər baş verən dəyişikliklərin miqyasına görə, ictimai və iqtisadi sahədəki dərin islahatların səciyyəsinə və xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın quruculuq salnaməsində, sözün həqiqi mənasında, ən parlaq səhifələr təşkil etmişdir.

İndiki dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiyası prosesi hələ 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır.

Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi ilə bağlı diqqəti bir də məhz belə bir cəhət çəkir ki, burada mənəvi, bədii, estetik intibah iqtisadiyyatda, sənaye, tikinti və təsərrüfatdakı böyük nailiyyətlərlə, güzərandakı elliklə yaxşılaşma və kütləvi ruh yüksəkliyi ilə birləşərək vahid axarda gerçəkləşmişdir.

70-ci illərdən başlayaraq iqtisadi potensialın yaratdığı bu yüksəliş Azərbaycanı özünün iqtisadi inkişafının növbəti mərhələsi kimi tarixən zəruri azadlıq mübarizəsinə də daxilən hazırlamışdır. 80-ci illərin sonu və 90-cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması Heydər Əliyev dövründəki həmin iqtisadi yüksəliş və ona paralel olaraq tarixi fürsətdən dərhal bəhrələnməyə hazır milli mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün olmuşdur.

Totalitar sistemin elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı ağır təzyiqləri, təqib və təhdidləri Sovetlər İttifaqının bir çox başqa respublikalarında özünü aşkar hiss etdirdiyi halda, qorxmaz, cəsur, möhkəm iradə sahibi olması sayəsində Heydər Əliyev Azərbaycanda yaradıcı insanlar üçün sərbəst düşünmək və düşündüyünü tam ifadə edə bilmək, alt qatda isə milli-mənəvi ideala, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən bir şərait yaratmışdı. Məhz həmin illər ərzində Bakıda ən böyük abadlıq işləri görülmüş, müasir Azərbaycan memarlığının əsərləri sayılan və respublikanın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə digər bina tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini çox gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan böyük insanların əzəmətli heykəlləri ucaldılmış, böyük tarixi şəxsiyyətlərin hər biri üçün bir mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır.

Heydər Əliyevin Azərbaycanın gələcəyini düşünərək uzaqgörənliklə atdığı addımlardan biri də azərbaycanlılardan ibarət gənclərimizi gələcəyin müstəqil ölkəsi üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş Sovetlər İttifaqının nüfuzlu ali məktəblərinə göndərmək təcrübəsi kimi dəyərli təhsil ənənəsinin əsasını qoyması idi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi.

Heydər Əliyevin başçılığı ilə 1969-1982-ci illərdə Azərbaycandakı intibahı şərtləndirən amillərdən biri respublikada təhsilin inkişafına xüsusi diqqət yetirilməsi, gəncliyin ana dilində təhsilinə üstünlük verilməsi olmuşdur. Milli hərbçi kadrların hazırlanması da xalqın müstəqil gələcəyini görən Heydər Əliyevdən ötrü xüsusilə böyük əhəmiyyətli məsələ idi.

Heydər Əliyevin gələcəyin müstəqil Azərbaycanını nəzərdə tutaraq, milli məfkurənin yüksəlişi və xalqın milli dövlətçilik arzularının daha da güclənməsi üçün dövlət quruculuğu sahəsində gördüyü mühüm işlərdən biri SSRİ-nin xarici siyasəti çərçivəsində də olsa, Azərbaycanın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsi üçün göstərdiyi maksimum səylərdir. Bu məqsədlə Bakıda İttifaq və beynəlxalq əhəmiyyətli tədbirlər təşkil olunduğu kimi, SSRİ respublikaları və sosialist düşərgəsi ölkələrində, eləcə də digər xarici ölkələrdə Azərbaycan mədəniyyəti və incəsənəti günləri keçirilirdi ki, bütün bunlar son nəticədə Azərbaycanın xarici ölkələrlə və orada yaşayan azərbaycanlılarla əlaqələrinin qurulması üçün zəmin yaradır, azərbaycanlıların özünəməxsus tarixi, mədəni ənənələri olan xalq olaraq tanınmasını, Bakının isə həmin dövrdə dünya miqyasında tanınan bir elm və mədəniyyət mərkəzinə çevrilməsini təmin edirdi.

Bu, həmin dövr idi ki, hətta Moskvada, Sankt-Peterburqda çıxan jurnallarda işıq üzü görə bilməyən yazılar fəal vətəndaşlıq nümunəsi olan əsərlər kimi dövrün Bakı mətbuatında dərc oluna bilir, şəxsən Heydər Əliyev səviyyəsində hər cür hücumdan və qəsdlərdən qorunurdu. Həmin illərdə mədəniyyət və incəsənət nümayəndələrinin tarixi keçmişimiz, eləcə də bugünümüzlə bağlı qadağa qoyulmadan milli ruhlu əsərlər yarada bilmələri üçün münbit şəraitin təmin olunması gənc qələm sahiblərinə xüsusi qayğı və diqqətlə yanaşılması ilə əlaqədir.

Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin gələcəyə hesablanaraq milli dövlət quruculuğunun əsasını təşkil edən strateji proqramında Azərbaycan dili ayrıca diqqət mərkəzində idi. Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsidir ki, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Dövr baxımından sözün əsl mənasında qəhrəmanlığa bərabər belə bir addım məhz gələcəyin müstəqil yeni Azərbaycanı naminə atılmışdı. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, demək olar ki, bütün böyük klassiklərin İttifaq miqyasında yubileylərinin keçirilməsi, Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda ön mövqelərə çıxması, elmi-ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri – bütün bunlar Heydər Əliyevin gələcək milli dövlətçiliyimizin ideya təməlində dayanan siyasətinin əməli nəticələridir.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə pərdəarxası oyunlara, siyasi anarxiya və eksperimentlərə son qoyulmuş, ölkədə cinayətkarlığın qarşısı tam alınmış, bütün qanunsuz silahlı dəstələr ləğv olunmuşdu ki, bunlar da bütövlükdə Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün şərait yaratmışdı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı Heydər Əliyevin qətiyyəti sayəsində alınmış, dövlət müstəqilliyi qorunub saxlanmışdır. Məhz buna görə də ölkəmizdə müstəqil dövlət təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət almışdı ki, bunun da əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur. Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlamışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı



Heydər Əliyevin andiçmə mərasimi

surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir. Onun dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə tam əks etdirən sülhsevər xarici siyasətinin əsasında isə, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşılması, bütün mübahisəli məsələlərin sülh və danışıqlar yolu ilə həll edilməsi, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması prinsipləri dayanırdı.

Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır.

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanmışdır. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamışdır. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın ayrı-ayrı ölkələrinə səpələnərək yaşamaq məcburiyyətində qalmış azərbaycanlıların birlik və həmrəyliyinin əldə edilməsi işində Heydər Əliyevin müstəsna xidmətləri vardır. O, dünya azərbaycanlılarının təşkilatlanması və onların bir Vətən – müstəqil Azərbaycan ətrafında sıx birləşməsi üçün daim və əzmlə səy göstərmiş, bu istiqamətdə son dərəcə qiymətli qərarlar qəbul etmişdir.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdi. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır (bax: Azərbaycan iqtisadiyyatı; İnkişafın Azərbaycan modeli).

ƏLİYEV NATİQ AĞAƏMİ OĞLU (1947) – Azərbaycanın görkəmli iqtisadçısı, i.e.d., prof.



1970-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.

1974-cü ildə namizədlik dissertasiyası müdafiə etmiş, geologiya-minerologiya elmləri namizədi adına layiq görülmüşdür. 1993-2005-ci illərdə Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti və Direktorlar Şurasının Sədri olmuşdur. 2005-ci ildə Azərbaycan Neftçilər Konqresinin prezidenti seçilmişdir. 2008-ci ildə "Azərbaycan neft-qaz sənayesi kompleksinin perspektiv inkişafının idarə edilməsi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

O, 100-dən artıq elmi məqaləsinin, 4 monoqrafiya və kitabın müəllifidir. Azərbaycan neftinin dünya bazarına çıxarılması ilə bağlı beynəlxalq sazişlərin hazırlanmasında bilavasitə iştirak etmişdir.

Neft sənayesinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının "Şöhrət" ordeni, "Əməkdar mühəndis" fəxri adı, Gürcüstan Respublikasının "Şərəf" ordeni, Fransa Respublikasının "Milli Fəxri Legion" ordeni, Polşa Respublikasının "Böyük Komandor Xaçı" ordeni ilə təltif olunmuşdur.

Hazırda Azərbaycan Respublikasının Sənaye və energetika naziridir.

ƏLİYEV RAFİQ MAHMUD OĞLU (1951) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1974-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun Mühəndis-iqtisad fakültəsini bitirmişdir.



2001-ci ildə "Azərbaycanda neft və qaz sənayesinin maliyyə-mühasibat sisteminin idarə olunmasının təkmilləşdirilməsi metodları" mövzusunda namizədlik, 2005-ci ildə isə "Neft və qaz sənayesi sistemində maliyyənin idarə edilməsində optimal manevretmə problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Respublikada neft və qaz sənayesində maliyyə-uçot konsepsiyasının müəllifidir. ABŞ, İngiltərə, İtaliya, Norveç, Fransa, Almaniya, Türkiyə və Rusiyada iqtisadiyyat və maliyyə məsələləri üzrə keçirilən bir çox beynəlxalq konfranslarda çıxış etmişdir. 46 elmi əsərin, 5 monoqrafiyanın, 4 dərslik, metodik tövsiyə və tədris proqramlarının müəllifidir.

Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin İqtisadiyyat şöbəsinin müdiridir.

ƏLİYEV RAMİL BƏYLƏR OĞLU (1940) – Azərbaycanın görkəmli iqtisadçısı, i.e.d., prof. R.Əliyev 1970-ci ildə namizədlik, 1978-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. O, iqtisadi təhlil məsələləri ilə məşğul olmuşdur.



320 elmi əsəri (460 çap vərəqi həcmində) dərc edilmişdir. Onlardan 15-i monoqrafiya, 20-si kitab və 34-ü broşüradır. Qeyd olunan əsərlərin 40 faizindən çoxu respublika hüdudlarından kənarda nəşr edilmişdir.

R.Əliyevin rəhbərliyi altında 24 namizədlik, 5 doktorluq dissertasiyası müdafiə olunmuşdur.

R.Əliyev 1987-1999-cu illərdə Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri, hazırda isə professor vəzifəsində çalışır.

ƏLİYEV RAUF RƏHİM OĞLU (1971) – Azərbaycan iqtisadçısı, iqtisadiyyat üzrə fəlsəfə doktoru. 1993-cü ildə Bakı Dövlət Universitetinin Fizika fakültəsini, 1999-cu ildə Odlar Yurdu Universitetinin Ümumi iqtisadiyyat fakültəsini bitirmişdir. 1992-1996-cı illərdə Azərbaycan Respublikası Turizm və Ekskursiyaları Şurası, Komplektləşdirmə bazasında baş mühasib, firma rəhbəri, 1996-1997-ci illərdə Azərbaycan Respublikası Əhalinin Sosial Müdafiəsi Nazirliyində Texniki xidmətin təşkili şöbəsinin rəisi, həmin nazirliyin elmi-tədqiqat və tədris mərkəzində elmi katib işləmişdir. 2002-2010-cu illərdə İqtisadi İnkişaf Nazirliyinin Dövlət Əmlakının Özəlləşdirilməsi Departamentinin "İnşaat Konstruksiyaları zavodu" ASC İdarə heyətinin sədri, həmin nazirliyin sahibkarlığın dəstəklənməsi və təşviqi şöbəsinin müdiri, Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sektor müdiri və hazırda SMPDK-nın 1 saylı ərazi dövlət nəzarəti idarəsinin rəis müavinidir. İstehsal infrastrukturunun inkişaf problemləri, sahibkarlığın, biznes mühitinin yaxşılaşdırılmasına dair 2 kitabın, bir sıra layihələrin müəllifidir.



Azərbaycan Dövlət Aqrar Universitetində iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının üzvüdür.

ƏLİYEV ŞAHRZA HACI OĞLU (1961) – Azərbaycan iqtisadçısı, iqtisad elmləri üzrə fəlsəfə doktoru. 1982-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.



1997-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində "Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində kadr hazırlığına xərclərin uçotu və təhlili" mövzusunda namizədlik dissertasiyasını mü-


dafiə etmişdir. 1 dərsliyin, 2 dərs vəsaitinin və 20-dən artıq elmi məqalənin müəllifidir.

Azərbaycan Respublikasında təhsil sahəsində islahatların aparılmasında, xüsusilə də ümumtəhsil və ali təhsil müəssisələrində adambaşına maliyyələşdirmə prinsipi əsasında yeni maliyyələşmə mexanizmlərinin həyata keçirilməsi, bu mexanizmlərin hüquqi, təşkilati və metodoloji əsaslarının hazırlanması, təhsil müəssisələrində beynəlxalq standartlar əsasında Milli Mühasibat Uçotu Standartlarının tətbiqi işində xüsusi xidmətləri vardır.

Hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyinin İqtisadiyyat şöbəsinin müdiridir.

Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə 2010-cu ildə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

ƏLİYEV TƏBRİZ NƏSİB OĞLU (1947) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1978-ci ildə "İdarəetmə işlərində əməyin təşkilinin təkmilləşdirilməsi yolları (Bakı neft emalı və neft-kimya müəssisələrinin timsalında)" mövzusunda namizədlik, 1992-ci ildə isə "Neft emalı və neft-kimya müəssisələrinin təşkilinin idarə edilməsinin səmərəliliyi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 2000-ci ildə professor elmi adı almışdır. O, ümumi həcmi 240 ç.v. həcmində 100-ə yaxın elmi, elmi-metodiki əsərin, o cümlədən bir neçə monoqrafiya, kitab, dərs vəsaiti və 15 metodik tövsiyənin müəllifidir.



Neft emalı və neft-kimya müəssisələrinin təşkili və idarə edilməsinin təkmilləşdirilməsi (Moskva, 1985); İdarəetmə prosesinin təşkilinin təkmilləşdirilməsi məsələləri (Bakı, 1991); Müəssisələrin idarə edilməsinin səmərəliliyinin sosial-iqtisadi qiymətləndirilməsi (Bakı, 1992); Biznesin təşkili və idarə edilməsi (Bakı, 1994); Menecmentin iqtisadi və təşkilati mexanizmi (Bakı, 1996); Azərbaycanın neft emalı müəssisələrində istehsal sahibkarlığının təşkili (Bakı, 2000) və s. əsərləri çap olunmuşdur.

Hazırda Neft Akademiyasında kafedra müdiri vəzifəsində çalışır.

ƏLİYEV ÜMÜDVAR QƏNBƏR OĞLU (1953) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1977-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1985-ci ildə "Asudə vaxtdan səmərəli istifadə problemləri" mövzusunda namizədlik, 2007-ci ildə "Milli iqtisadiyyatın təşəkkülü prosesində bazar mexanizminin formalaşması problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

2 monoqrafiyanın, 60-dan çox elmi məqalənin, 5 kitabın müəllifidir.

Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "İqtisadi nəzəriyyə" kafedrasının dosentidir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli sərəncamına əsasən təhsilin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

ƏLİZADƏ ƏBDÜLKƏRİM ƏLİ OĞLU (1906-1979) – şərqşünas-alim, tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan EA-nın akademiki, SSRİ Dövlət mükafatı laureatı, ilk azərbaycanlı mediyevist-tədqiqatçı (orta əsrlər tarixinin tədqiqatçısı).



Ə.Əlizadə Tehranda ibtidai təhsil alaraq fars və ərəb dillərini mükəmməl öyrənmişdir. 1918-ci ildə Bakıda xüsusi orta məktəbdə oxumuş, 1926-cı ildə fəhlə fakültəsini, 1930-cu ildə Peterburq Şərqşünaslıq İnstitutunu bitirmişdir. Hərbi xidmətdən sonra Peterburq Maddi-Mədəniyyət Tarixi Dövlət Akademiyasında aspiranturaya qəbul olunmuşdur. 1936-1941-ci illərdə SSRİ EA Leninqrad Şərqşünaslıq İnstitutunda elmi işçi olmuş və eyni zamanda Leninqrad Dövlət Universitetinin Şərq-şünaslıq fakültəsində fars dilindən dərs demişdir.

SSRİ EA Şərqşünaslıq İnstitutu görkəmli dövlət xadimi, həkim, vəzir və alim Fəzlüllah Rəşiddəddin "Came ət-təvarix" ("Tarixlər toplusu") adlı çoxcildlik ensiklopedik əsərinin elmi-tənqidi mətnini hazırlayarkən, demək olar ki, bütün mətnşünaslıq

işlərini Ə.Əlizadəyə həvalə etmiş və gənc alim bu etimadı şərəflə doğrultmuşdur. O, 1941-ci ildən SSRİ EA Azərbaycan filialı Tarix İnstitutunun baş elmi işçisi, 1950-ci ildən həmin institutun direktoru vəzifəsində çalışmışdır. Ə.Əlizadə 1954-cü ildə tarix elmləri doktoru, 1955-ci ildə isə Azərbaycan MEA-nın akademiki seçilmişdir. 1956-cı ildə Azərbaycan MEA İctimai elmlər bölməsinin akademik-katibi, 1958-ci ildə isə yenicə təşkil olunmuş Şərqşünaslıq İnstitutunun ilk direktoru təyin olunmuşdur. ASE Baş Redaksiyasının üzvü olmuşdur.

N.Gəncəvinin "Sirlər xəzinəsi", A.Bakıxanovun "Gülüstani-İrəm" əsərləri və elmi-tənqidi mətni məhz onun əməyi və yaxından iştirakı sayəsində hazırlanmış və nəşr olunmuşdur. 1948-ci ildə Nizami Gəncəvinin "Şərəfnamə" əsərinin elmi-tənqidi mətninə görə görkəmli rus şərqşünası akademik Y.E.Bertels ilə birlikdə SSRİ Dövlət mükafatına, 1978-ci ildə isə Məhəmməd Naxçıvaninin "Dəstur əl-katib fi-təyin əl-məratib" əsərinin elmi-tənqidi mətninə görə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür. "Qırmızı əmək bayrağı" ordeni, "Əmək igidliyinə görə" medalı və başqa yüksək mükafatlar almış, 1960-cı ildə isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 1948-ci ildə alimə verilmiş SSRİ Dövlət mükafatı Sovetlər Birliyində mətnşünaslıq sahəsində təqdim edilən ilk mükafat idi.

Akademik Ə.Əlizadənin elmi fəaliyyəti əsasən iki istiqamətdə – Azərbaycanın və Şərq ölkələrinin feodalizm dövründəki iqtisadi və siyasi tarixinin tədqiqi və orta əsr mənbələrinin elmi-tənqidi mətnlərinin hazırlanması və nəşri istiqamətləri üzrə davam etmişdir. Hələ müharibə illərində o, Azərbaycanda feodal münasibətləri silsiləsindən olan qiymətli elmi əsərlərini, Azərbaycanda mədənlərin və pul tədavülünün tarixinə həsr olunmuş məqalələrini nəşr etdirir. Elxanilər dövlətinin Azərbaycandakı torpaq siyasətinə, Şirvanın və Şirvanşahların XIII-XIV əsrlər tarixinə həsr olunmuş əsərləri ilə yanaşı, Azərbaycan uğrunda Qızıl Orda xanları ilə elxanilər arasında gedən mübarizəni əks etdirən əsərlər silsiləsi meydana gəlir.

50-ci illərdə Azərbaycanın XIII-XIV əsrlər ictimai-iqtisadi və siyasi tarixi üzrə tədqiqatlarını davam etdirir və feodal münasibətləri tarixinə həsr olunmuş elmi məqalələrində bigar və çərik, tamğa, xərac istilahları ilə anlaşılan vergi və mükəlləfiyyətlər, onların miqdarı, toplanma yolları, ticarətin təşkili, sənətkarlıq emalatxanaları, müxtəlif tikililər, əmtəə malları, sənət növləri və s. barədə elmi nəticələr əldə edir.

Akademik Ə.Əlizadənin "XIII-XIV əsrlərdə Azərbaycanın ictimai-iqtisadi və siyasi tarixi" adlı monumental monoqrafiyasında (Bakı, 1956, rusca) Azərbaycanın təbii sərvətləri və oturaq əhalisinin məşğuliyyəti haqqında ətraflı məlumat verilir, Azərbaycanın XII əsrin sonu – XIII əsrin əvvəllərində ictimai quruluşu və siyasi vəziyyəti, monqol yürüşləri ərəfəsindəki vəziyyəti, monqolların ilk həmləri, Cəlaləddin Xarəzmşahın Azərbaycanı tutması, monqolların bu diyarı istila etmələri və ali monqol xaqanlığının Azərbaycanda hökmranlığı tarixi faktlarla şərh edilir. Monqol istilasının və köçəri feodal əyanlarının yerli istehsal qüvvələrinə təsiri, XIII-XIV əsrlərin aqrar sistemi, feodal istismarı növləri, monqol xanlarının torpaq siyasəti, incu, divan və iqta torpaqları, bu ərazilərdə yaşayan kəndlilərin vəziyyəti araşdırılır.



Azərbaycan-türk dilinin orta əsrlərdəki vəziyyəti, onun ərəb, fars, monqol dilləri ilə bir səviyyədə durması onun tərəfindən öyrənilmiş problemlərdən biridir.

Akademik Ə.Əlizadə prinsipiallığı ilə seçilən tədqiqatçılardan idi. O, sovet rejiminin kəskin çağlarında belə öz sözünü deyir, erməni saxtakarlarının torpaqlarımıza olan iddialarının puçluğunu, elmi əsasa malik olmadığını vurğulayırdı. Erməni müəllifi L.O.Babayan 1969-cu ildə nəşr etdirdiyi əsərində Arranın "erməni torpağı olmasını əsaslandırmaq" məqsədilə belə bir

fikir irəli sürür ki, guya XIII əsrdə bu bölgənin əhalisi ermənilərdən ibarət olmuşdur. 1276-cı ildə Arranda monqol hökmdarı Abaqa xana (1265-1282) qarşı qalxmış üsyandan bəhs edən erməni tarixçisi üsyançıların erməni kəndliləri olduğunu iddia edir. Onun bu iddiası 1971-ci ildə akademik Ə.Əlizadə tərəfindən elmi dəlillərlə təkzib olunmuş və Babayanın fikrinin səhv olduğu əsaslandırılmışdır. Akademik üsyançıların başçısının "kəfənə bürünərək Abaqa xanın hüzuruna getməsi" faktını erməni tarixçisinin nəzərinə çatdıraraq soruşmuşdur ki, "ermənilər nə vaxtdan ölülərini kəfənə bürüyüb basdırırlar?" Bununla da erməni müəllifinin mövqeyinin səhv olduğunu sübuta yetirmişdir.

O, tarixçilərin Varşava (1955), şərqşünasların Münhen (1957) və Moskva (1960) beynəlxalq konqreslərinin, türk tarixçilərinin Ankara konqreslərinin (1961, 1970), şərqşünasların Tehran konqresinin (1966), Tehranda və Təbrizdə keçirilmiş Rəşidəddinə həsr olunmuş konqresin (1969) və s. elmi məclislərin işində fəal iştirak etmişdir. 1959-cu ildə İraqda olarkən yerli idarələrin icazəsi ilə üzərində mixi yazı olan, Azərbaycanla bağlı bir kərpici, Təbrizdə Rəşidəddinin yubileyində iştirak edərkən Rəbi-Rəşidi xarabalığından mərmər qırıntıları, boyalı keramika tikələri toplamış və özü ilə vətənə gətirərək bir hissəsini Tarix muzeyinə, bir hissəsini Şirvanşahlar sarayına vermişdir.

Əsərləri ingilis, alman, ərəb, türk, fars və bir sıra başqa dillərə tərcümə olunmuşdur.


ƏLVAN METALLURGİYA – ağır sənaye sahəsi; filiz çıxarılması və saflaşdırılmasını, əlvan metalların və onların ərintilərinin istehsalını və emalını əhatə edir. Əlvan metallurgiya sahəsinə bunlarla yanaşı kimyəvi birləşmələr, mineral gübrə, tikinti materialları istehsalı və s. də aiddir. İstehsal kompleksi filizçıxarma müəssisələrindən, filizsaflaşdırma fabriklərindən, metallurgiya və metal emalı zavodlarından ibarətdir. Əlvan metal istehsalına görə 1-ci yeri ABŞ tutur.

Azərbaycan ərazisində Gədəbəy mis yatağından qədimdən istifadə olunur. XIX əsrin 2-ci yarısında Azərbaycanda bir neçə misəritmə zavodu var idi. Bu zavodlarda qızıl və gümüş də əridilirdi. XIX əsrin 60-cı illərində Daşkəsəndə, Rusiyada yeganə olan kobalt zavodu tikilmişdi. Lakin Azərbaycanın bu təbii sərvətləri əsasən xaricə, Almaniyaya aparılırdı. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra geniş miqyasda geoloji kəşfiyyat işlərinə başlandı. 1930-cu ildə M.Qaşqay, zəylik alunit yatağının dəqiq geoloji xəritəsini tərtib etdi. İkinci Dunya müharibəsindən sonrakı illərdə Sumqayıt alüminium zavodu işə düşdü.

Azərbaycanda mis, sink, qurğuşun, gümüş, bismut, kobalt, kalium yataqları vardır. Balakən rayonu ərazisində yerləşən və sənaye ehtiyatlarına görə Avropada ən nəhəng yataqlardan olan Filizçay polimetal və onun ətrafında bir neçə kolçedan-polimetal yataqları da iqtisadi baxımdan böyük əhəmiyyətə malikdir. Azərbaycanın kəşf edilmiş əsas və strateji mineral xammallarından biri olan qızıl yataqlarının bir qismi Söyüdlü (Kəlbəcər), Vecnəli (Zəngilan), Qızılbulaq (Ağdərə) işğal edilmiş ərazilərdə yerləşir. Lakin digər ərazilərdə də qızıl yataqları mövcuddur. Böyük Qafqazın cənub ətəyində Kiçik Qafqazda və Naxçıvan Muxtar Respublikası (Ordubad qrupu – Pyəzbaşı, Ağyurd, Şəkərdərə və Kələki) ərazisində, Gədəbəy, Qoşa Söyüdlü, Qızılbulaq və Vecnəli qızıl yataqlarını göstərmək olar. Bu yataqlar qızılla bərabər digər qiymətli metallarla da zəngindir. Qarabağ, Sovdar, Göydağ, Dağkəsəmən, Köhnə mədən filiz sahələri və Kürəkçay hövzəsi yataqlarında aparılmış geoloji-kəşfiyyat işləri burada 138,9 ton qızıl, 4530,7 ton gümüş, 2226,7 min ton mis, 3779,3 min ton sink, 1505,6 min ton qurğuşun olması müəyyənləşdirilmişdir.



Azərbaycan Respublikasında əhalinin əmanətləri (mln. manat)



Qrafik 1


ƏLVERİŞLİ ŞƏRAİT – təşkilatın hər hansı məqsədlərinin nail olunması üçün əlverişli vəziyyət. Bir qayda olaraq, qeyrikafi alıcı tələbi ilə xarakterizə olunur, yəni təşkilat bu tələbi ödəməyə imkan verən, həmçinin, bu sahədə nisbətən zəif rəqabət vəziyyətindədir, yaxud onun ümumiyyətlə olmaması ilə xarakterizə olunur.

ƏMANƏT – 1. Müəyyən şərtlərlə banka və digər maliyyə-kredit idarəsinə saxlanmaq (qorunmaq) üçün fiziki şəxslərin köçürdüyü pul vəsaitləri. 2. Mənfəət əldə edilməsi və ya təminat alınması məqsədilə pulun daha az likvid formaya keçirilməsi. Banklar əmanətləri milli və xarici valyutada qəbul edirlər. Bank müvafiq qanunvericiliyə və ya müqaviləyə əsasən geri ödəməli olduqları pul vəsaitlərindən ibarət əmanətin aşağıdakı tiplərini qəbul edir: tələb olunanadək, müddətli, uşaqlar üçün məqsədli, uduşlu, şərti və müddətli depozitlər. Tələb olunana qədər əmanətlər həm müəyyən şəxslərin adına, həm də təqdim edənin adına, digər növ əmanətlər isə yalnız müəyyən şəxsin adına qəbul edilir. Adına əmanət qəbul olunmuş və ya köçürülmüş şəxs adlı əmanət üzrə əmanətçi hesab olunur.

"...əhalinin banklara qoyduğu əmanətlər artıbdır. Bir tərəfdən, bu, onu göstərir ki, banklara inam artır və bu, çox gözəl əlamətdir. Bununla bərabər, onu da göstərir ki, insanlarda əlavə maliyyə imkanları yaranıb ki, onlar bu maliyyə resurslarını banklara etibar edirlər".

İlham Əliyev

Azərbaycan Respublikasında əhalinin əmanətlərinin strukturu (ilin sonuna, faizlə)



Qrafik 2

Əmanətin müxtəlif növləri üzrə faiz formasında gəlir ödənilir. Əmanət bankında əmanətin saxlanması və əmanətçilərin ilk tələbi ilə onların verilməsinə dövlət tərəfindən tam və ya qismən zəmanət verilir.

ƏMANƏT BANKI – bir qayda olaraq, regional miqyasda fəaliyyət göstərən maliyyə-kredit idarəsi. Əmanət bankının fəaliyyətinə, adətən, onun əməliyyatlarının zəmanətçisi olan dövlət tərəfindən nəzarət olunur. Əhalinin əmanətləri cari, investisiya və digər hesablara cəlb edilir. Vəsaitlər istehlak və ipoteka kreditlərinin verilməsi, qiymətli kağızların buraxılması və alınma formasında yerləşdirilir. Əmanət bankları kredit kartları buraxırlar.

ƏMANƏT KASSALARI – ixtisaslaşdırılmış kredit təsisatı. Əsas funksiyası əhalinin pul qənaətini və müvəqqəti sərbəst pul vəsaitini cəlb etməkdir. Əhalinin orta təbəqələrinə xidmət göstərmək üçün ənənəvi kredit institutu kimi yaranmış və inkişaf etmişdir. Əmanət kassaları XVIII əsrdə əhalinin kiçik pul yığımlarını birləşdirən, fermer, ticarət, istehsal kooperativlərinə kredit-hesablaşma xidmətləri göstərən mənzil tikintisini maliyyələşdirən, maksimum mənfəət əldə etmək məqsədi güdmədən istehlak kreditlərinin verilməsini təşkil edən azrentabelli xüsusi institutlar (təsisatlar) kimi meydana gəlmişdir.

Praktik olaraq, Avropanın və Amerikanın bütün ölkələrində bu institutlar ilk növbədə vergiqoyma sahəsində dövlət yardımından istifadə etmişdir. Bir qayda olaraq, belə kredit idarələrinin strukturuna və onların verdiyi borcların tiplərinə sərt tənzimləmə tələbləri tətbiq olunurdu ki, bu da onların yüksək maliyyə sabitliyinin təmin edilməsinə imkan verirdi.

Bank işinin, xüsusilə əmanət işinin inkişafı gedişində əmanət idarələri tərəfindən təqdim edilən xidmətlərin növü və formaları xeyli genişləndi. Hazırda əmanət institutlarının universallaşması meyli üstünlük təşkil edir ki, bu da onları ənənəvi kommersiya bankları ilə yaxınlaşdırır.

Rusiyada ilk əmanət kassaları qorunan xəzinələrin tərkibində açılmış, 1841-ci ildə Peterburqda və Moskvada, 1874-cü ildə isə Bakıda təşkil edilmişdir. Sonradan Dövlət Bankının şöbələrinin tərkibində, xəzinədarlıqda (1884-cü il), poçt-teleqraf idarələrində (1889-cu il), dövlət dəmir yolu stansiyalarında (1900-cü il), fabrik-zavod müəssisələrində, dövlət (xəzinə) şərab anbarlarında, tədris müəssisələrində və s. yaradılmışdır. 1914-cü ilin əvvəlinə Bakı quberniyasında 39 əmanət kassası olmuşdur.

1987-ci ildə SSRİ-də dövlət əmanət kassaları bazasında SSRİ Əmanət Bankı yaranmış, 1991-ci ildə isə bu bank Rusiya Əmanət Bankına çevrilmişdir.

1990-cı illərin əvvəllərində Azərbaycanda əmanət kassalarının bazasında Əmanət Bankı yaranmışdır. Sonralar onun funksiyaları dövlət banklarına, kommersiya banklarına verilmişdir.

ƏMANƏT KİTABÇASI – bank əmanətinin sahibi ilə bank arasında bank əmanəti hesabına görə bütün əməliyyatların aparılması barədə bir növ müqavilə bağlanmasını təsdiq edən sənəd. Əmanət kitabçası adlı və ya təqdimedən formasında ola bilər. Təqdimedən formasında olan əmanət kitabçası qiymətli kağızdır.

Əmanət kitabçasında bank tərəfindən təsdiq olunan bankın adı və yerləşdiyi yer göstərilməli, əgər əmanət filiala köçürülübsə, onda onun müvafiq filialı, əmanət hesabının nömrəsi, eləcə də hesaba daxil olan və hesabdan silinən pul vəsaitlərinin bütün həcmi və banka əmanət kitabçasının təqdimedilmə – ödəmə məqamında hesabda pul vəsaitlərinin qalığı göstərilir. Əmanətin verilməsi, ona görə faizlərin ödənişi və digər şəxslərə əmanət üzrə hesabdan pul vəsaitlərinin köçürülməsi haqqında əmanətçinin sərəncamlarının icrası əmək kitabçası təqdim edilməsi zamanı bank tərəfindən həyata keçirilir.

ƏMANƏT KİTABÇASINA QOYULAN ƏMANƏT – əmanət kitabçasının tətbiq edildiyi hər hansı bir əmanət bankında alınan və köçürülən pul yığımı; başqa sözlə, tələb olunana qədər fiziki şəxslərin adlı əmanətlərinin bir növüdür ki, bu da vahid əmanət kitabçasının fəaliyyət göstərdiyi ərazidə (şəhər, rayon və s.) bankın hər hansı bir şöbəsində tam və ya qismən əlavə olunur və ya götürülür. Əmanət kitabçası üzrə əməliyyatlar yalnız nağd pullarla və şəxsiyyəti təsdiq edən sənəd (şəxsiyyət vəsiqəsi) təqdim edilərkən həyata keçirilir. Əmanət kitabçasına malik olan əmanətçilər əmanət üçün etibarnamə verə və ya əmanətə görə vəsiyyət sərəncamı tərtib edə bilərlər.

ƏMANƏT NETTO-DƏRƏCƏ – sığorta haqları ehtiyatlarında toplanan illik sığorta dərəcəsinin bir hissəsi.

ƏMANƏT POÇT BANKI – poçt sistemi strukturunda əmanət bankı.

ƏMANƏT SERTİFİKATI – banka köçürülən əmanətin məbləğini və sertifikatı verən bankda sertifikatda şərtlənmiş faizlərin və əmanətin müəyyən edilmiş müddəti başa çatdıqdan sonra alınmasına əmanətçinin (əmanət sertifikatının sahibinin) hüququnu təsdiq edən qiymətli kağız. Beləliklə, əmanət sertifikatı müddətli bank əmanətinin bir növüdür. Əmanət sertifikatı təqdimedən və adlı növlərə bölünür.

ƏMANƏT SIĞORTASI – sığorta müddəti bitənədək və ya sığortalanmışın ömrünün sonunadək sığorta məbləği və mükafatının ödənilməsidir.

ƏMANƏT VASİTƏSİ – insanların alıcılıq qabiliyyətini indiki zamandan gələcəyə köçürmək üçün istifadə edə bildikləri vasitə.

ƏMANƏTÇİ – bankda əmanəti olan, habelə qanunvericiliyə və ya müqaviləyə əsasən əmanətə sərəncam vermək hüququ olan şəxs.

ƏMANƏTLƏRİN İNDEKSLƏŞMƏSİ – qiymətlərin ümumi səviyyəsinin dəyişməsi zamanı əmanətçilərə ödənilən faiz dərəcəsinin ölçüsünün dəyişməsi.

ƏMANƏTLƏRİN SIĞORTALANMASI – banklarda və digər maliyyə-kredit institutlarında əhalinin pul depozitlərinin məzmununa görə müxtəlif sığorta növlərinin ümumiləşdirilmiş ifadəsi.

ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU (ADİF) – Azərbaycan Əmanətlərinin Sığortalanması Fondu banklar və

xarici bankların yerli filialları ödəmə qabiliyyətini itirdikdə, fiziki şəxslərdən əmanətə qəbul olunmuş pul vəsaitinin itirilməsi riskinin qarşısını almaq, maliyyə və bank sisteminin sabitliyini və inkişafını təmin etmək məqsədi ilə təsis olunmuşdur. ADİF hüquqi şəxsdir, qeyri-kommersiya təşkilatıdır və fəaliyyətini Əmanətlərin Sığortalanması Haqqında Azərbaycan Respublikasının Qanunu əsasında qurur. Sığorta qanunvericiliyinin müddəaları ADİF-nin fəaliyyətinə şamil edilmir və bu fəaliyyət üçün xüsusi razılıq (lisenziya) tələb olunmur. Fiziki şəxslərin əmanətlərinin cəlb edilməsi üçün bank lisenziyasına malik olan bütün banklar və xarici bankların yerli filialları ADİF-nin məcburi iştirakçılarıdır. İştirakçı bankların Azərbaycan Respublikası ərazisindən kənarda yerləşən filiallarındakı əmanətlər ADİF tərəfindən sığorta olunmur və onlar üzrə kompensasiya ödənilmir. ADİF-in funksiyalarına iştirakçı bankların reyestrinin tərtib edilməsi və onlara şəhadətnamələrin verilməsi, sığorta haqlarının yığılması və uçotunun aparılması, sığorta hadisəsi baş verdikdə əmanətçilərin tələblərinə kompensasiyaların ödənilməsi və s. daxildir. ADİF-nin ali idarəetmə orqanı Himayəçilik Şurasıdır və fond İcraçı Direktor tərəfindən idarə olunur.

ƏMƏK ALƏTLƏRİ – istehsal vasitələrinin başlıca hissəsi; buraya maşın, cihaz, mühərrik və s. daxildir. Bunların köməyi ilə istehsal prosesində əmək predmetləri emal olunur, məhsul hazırlanır. Əmək alətləri məhsuldar qüvvələrin mühüm tərkib hissəsidir.

ƏMƏK BAZARI – müəyyən iqtisadi məkan çərçivəsində fəaliyyət göstərən işəgötürən və muzdlu işçilər arasında iqtisadi və hüquqi münasibətləri ifadə edən qarşılıqlı fəaliyyət mexanizmi. Əməyin ödənilməsinin müəyyən olunmuş minimumdan aşağı olmamasıdır. Məhsuldar iş sisteminə malik idarə, müəssisə və təşkilatlar qanunla müəyyən edilən minimum əmək haqqından öz dərəcələrini müəyyən edə bilərlər.

Əmək bazarı iş qüvvələrinin hərəkəti, ictimai istehsala qoşulması, istifadə olunması, paylanması və təkrar paylanması, azad olunması prosesidir.

İdarəetmənin inzibati amirlik sistemindən bazar iqtisadiyyatına keçid nəticəsində əmək qüvvəsinin hərəkətini tənzimləyən əsas vasitə iş bazarı olur. Bu zaman əmək peşəkar olmayan fəhlələr, sahibkarlar, firma rəhbərləri də daxil olmaqla bütün işləyənlərə xidmət göstərir. Əmək bazarının meydana çıxması hər bir fərdin öz işçi qüvvəsini satmaqda azad olmasından irəli gəlir. Əmək bazarının fəaliyyət göstərdiyi şəraitdə işçi qüvvəsi əmtəə kimi çıxış edir və onun istehsal vasitələri ilə birləşməsi bazar üsulu alqı-satqı ilə həyata keçir. Əmək bazarında işçi qüvvəsinə tələb və təklif prinsipi fəaliyyət göstərir və bu, əmək haqqına təsir göstərir.

Əmək bazarı müxtəlif üsullarla tənzimlənir. Tənzimlənmə minimum əmək haqqının təyini, ictimai iş sahəsinin yaradılması, kasıblara dövlət yardımı proqramı, həmkarlar ittifaqlarının işini reqlamentləşdirən qanunvericilik aktları və sair yolu ilə gedir.

Əmək bazarı daha bacarıqlı, səriştəli, yüksək peşəkarlığa malik olanları təmin edir, hər bir işçinin qoyduğu əməklə aldığı haqq arasında qarşılıqlı əlaqəni formalaşdırır.

Əmək bazarının əsas vasitə forması əmək birjasıdır. Əmək birjasında müxtəlif növ işçi qüvvəsinə tələb və təklif müəyyənləşir. Əmək birjası bütün ehtiyat işçi qüvvəsini əks etdirir, işsizlərin siyahıya alınması və yenidən hazırlanmasını, ictimai işlərin təşkilini reallaşdırır. Əmək bazarı daxili və xarici əmək bazarlarına bölünür: 1) milli əmək bazarı; 2) məhdud əmək bazarı; 3) beynəlxalq əmək bazarı. Bundan əlavə, tənzimlənən və tənzimlənməyən əmək bazarlarını da göstərmək olar.

ƏMƏK BAZARI STATİSTİKASI – kənd təsərrüfatı istisna olmaqla iqtisadiyyatın digər sahələrində çalışan işçilərin sayı, orta iş həftəsinin uzunluğu və orta saatlıq əmək haqqını, qeydiyyata alınmış işsizlərin sayı və s. özündə əks etdirir.

ƏMƏK BİRJASI – iş qüvvəsinin alqı-satqı sövdəsində fəhlə və sahibkarlar arasında vasitəçilik edən idarə. Əmək birjası XIX əsrin 1-ci yarısında Almaniya və Böyük Britaniyada yaranmışdır. İşçi və işəgötürənin mənafeyini müdafiə edir və əmək bazarında işçi qüvvəsinə olan tələb və təklifi əlaqələndirir.

Əmək birjası işsizlərin sosial müdafiəsi, əmək bazarında qeydiyyatdan keçmiş müəssisələrdə tutulmamış iş yerlərinin uçotu,

Cədvəl 1

Azərbaycan Respublikası üzrə əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri

	2000	2005	2008	2009	2010
Əhalinin orta illik sayı, min nəfər	8073,6	8500,3	8838,5	8947,3	9054,3
İqtisadi fəal əhalinin sayı, min nəfər[1)]	3748,2	4186,5	4373,5	4378,2	4587,4
İqtisadiyyatda məşğul olanların sayı, min nəfər	3704,5	3868,7	4111,3	4118,0	4329,1
o cümlədən mülkiyyət formaları üzrə:					
dövlət	1278,2	1229,8	1244,4	1149,7	1142,7
qeyri-dövlət	2426,3	2638,9	2866,9	2968,3	3186,4
İşsizlər, min nəfər[2)]	-	317,8	262,2	260,2	258,3
Məşğulluq xidmətləri orqanlarında rəsmi işsiz statusu alan şəxslər, nəfər	43739	56343	44481	41100	38966
onlardan işsizliyə görə müavinət alanlar	2768	2087	2109	2721	87
İqtisadiyyatda məşğul olan qadınların sayı, min nəfər	1767,0	1841,5	2020,1	2007,0	2101,7
İqtisadiyyatda muzdla işləyənlərin sayı, min nəfər[3)]	1217,8	1300,4	1410,3	1385,4	1382,9
Məşğul əhalinin 1 nəfərinə düşən Ümumi Daxili Məhsul, manat[4)]	-	3236,9	5682,9	6205,2	6145,1
İqtisadiyyatda işləyənlərin orta aylıq əmək haqqı, manat	44,3	123,6	274,4	298,0	331,5
Peşə məktəbləri və peşə liseylərinin sayı	110	107	108	108	109
Peşə məktəbləri və peşə liseylərində təhsil alanların sayı, nəfər	22944	22189	25184	25562	27330
Peşə məktəbləri və peşə liseylərinə qəbul olunanlar, nəfər	12946	12935	13761	13497	15743
Peşə təhsilini başa vurmuş ixtisaslı kadrların sayı, nəfər	12052	11095	11927	12485	13011
Peşə məktəbləri və peşə liseyləri müəllimlərinin sayı (əsas heyət) cəmi, nəfər	1972	1906	2163	1996	1969
Müəssisə, idarə və təşkilatlarda peşə hazırlığı keçmiş kadrların sayı, nəfər	3613	5254	4890	4393	4792
İxtisaslarını artırmış rəhbər işçi və mütəxəssislərin sayı, nəfər	9215	10368	11673	12670	22972

[1]2000-ci ildə rəsmi işsiz statusu alan şəxslər, 2005-2010-cu illərdə isə Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən bütün işsizlər nəzərə alınmaqla hesablanmışdır.

[2]Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən (rəsmi işsiz statusu alan şəxslər də daxildir).

[3]2005-2010-cu illərdə ilin sonuna siyahı tərkibində olan işçilərin sayı.

[4]2005-ci ilin qiymətlərində.

gənclərin peşə hazırlığı, işsizliyə görə haqq ödənilməsi, müəyyən peşə tələbatının proqnozlaşdırılması ilə məşğul olur. İnkişaf etmiş ölkələrdə əmək birjası yalnız fəhlə və işçi yerlərinin seçilməsi ilə deyil, həm də digər peşələrlə tanışlıq və bunun üçün sərf olunan vəsait ixtisaslı kadrlara ehtiyacı olan müəssisələr tərəfindən ödənilir. İxtisaslı işçi qüvvəsinin yüksək səviyyədə seçilməsində daha çox müəssisələr maraqlıdır.

Tərəflər arasında optimal razılıq əldə etmək üçün operativ məlumat çatdıran müstəqil nüfuzlu vasitə lazımdır (digər əmək birjaları ilə kompüter şəbəkəsinə qoşulma).

Əmək birjaları bazar infrastrukturunun vacib elementlərindən sayılır və əsasən dövlət tərəfindən idarə olunur.

ƏMƏK BÖLGÜSÜ – cəmiyyətin inkişafı prosesində əmək fəaliyyətinin keyfiyyətcə differensiyası. Əmək bölgüsü məhsuldar qüvvələrin inkişaf səviyyəsinə və istehsal münasibətlərinin xarakterinə uyğun olaraq müxtəlif formalarda mövcuddur. Əmək bölgüsünün təzahürü fəaliyyət mübadiləsidir. Əmək bölgüsü həm cəmiyyət, həm də müəssisə daxilində mövcud olub, bir-birilə əlaqədardır və biri digərindən asılıdır.

ƏMƏK EHTİYATLARI BALANSI – əmək qabiliyyətli əhalini, onların yerləşməsini və iqtisadiyyat sahələrində inkişaf səviyyəsini əks etdirən göstəricilər sistemi (bax: cədvəl 1).

ƏMƏK FƏALLIĞI – əmək fəaliyyəti prosesində işçi qüvvəsinin intellektual və fiziki potensialının realizə edilməsi. Kəmiyyət cəhətdən əmək fəallığının nəticəsi vaxt vahidi ərzində istehsal olunan məhsulun və ya yerinə yetirilən işin həcmində təcəssüm olunur. Əmək fəallığının mühüm aspekti əməyin kəmiyyət və keyfiyyət nəticələrinin yüksəldilməsinə səbəb olan qeyri-stereotip istehsal məsələlərinin həllinə yönəldilmiş fəaliyyətdir.

Əmək fəallığı onun müxtəlif tərəflərini əks etdirən bir sıra göstəricilərlə qiymətləndirilir: yerinə yetirilən işin kəmiyyət və keyfiyyətini xarakterizə edən göstəricilər; avadanlığın istifadəsi, əməyin qabaqcıl metod və üsullarının mənimsənilməsi; yeni texnologiyanın, məhsul növlərinin mənimsənilmə müddəti və dərəcəsi; daxili qayda-qanunun, texnoloji və əmək intizamının norma və qaydalarına riayət olunması; səmərələşdirmədə, ixtiraçılıqda, istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsində işçilərin iştirakı və s. Əmək fəallığının təcəssüm formalarının çoxaspektliliyi onu formalaşdıran amillər və proseslərlə bir çox birbaşa və əks əlaqələrin mövcudluğunu sübut edir. Bu, hər şeydən əvvəl, işçi qüvvəsinin intellektual və fiziki potensialının asılı olduğu, həm də intellektual və fiziki potensialın reallaşmasına təsir edən amillərdir. İntellektual potensial ümumi mədəni elementlərin mənimsənilməsi, ümumi təhsil səviyyəsi, peşəkar hazırlıq, tələbatların inkişaf səviyyəsi və təhsil almağa stimullarla müəyyən olunur.

İntellektual potensialda bilavasitə əmək prosesində əldə olunan bilik və təcrübə mühüm rol oynayır. İşçi qüvvəsinin fiziki potensialı öz növbəsində işçilərin yaş tərkibi, onların sağlamlıqlarının vəziyyəti ilə müəyyən olunan əmək qabiliyyətindən asılıdır. Burada digərlərindən əlavə, sosial proseslərə əsaslanan demoqrafik proseslərin təsiri təcəssüm olunur.

İşçi qüvvəsinin intellektual və fiziki potensialının, yəni şəxsin əmək fəallığının realizə olunması istehsalın maddi əşya amillərinin vəziyyətindən, o cümlədən əmək şəraitindən, əmək və istehsalın təşkili formalarından, istehsal sistemlərindən, o cümlədən əmək münasibətlərindən, təsərrüfatçılıq mexanizmindən, əməyin stimullaşmasından, əmək tərbiyəsindən, əməyə münasibətdən, işçilərin əmək motivindən və s. asılıdır.

İnkişaf etmiş ölkələrdə (xüsusilə Yaponiyada) əmək fəallığının artırılmasına böyük diqqət yetirilir. Aparıcı firmalar konsensus prinsipi üzrə reallaşdırılan menecment sistemləri yaradırlar. Belə sistemlər mənfəətdə, təşkilatın idarə edilməsində, əməyin məzmununda yaradıcı elementlərin tətbiqində, motivləşmənin xüsusi vəsaitlərinin – muzd, firmanın qrup, korporativ mühitinin və s. formalaşmasında işçilərin iştirakını nəzərdə tutur.

ƏMƏK HAQQI – müəyyən vaxt ərzində işçi tərəfindən pul və ya natural formada alınan ödənişlərin məcmusudur. Nominal əmək haqqı-müəyyən müddət ərzində işçinin aldığı ödənişlərin mütləq məbləğidir. Real əmək haqqı material rifah və xidmətlərin kəmiyyətidir ki, nominal əmək haqqının verilən səviyyəsində, həmçinin minimal əmək haqqı ilə əldə oluna bilər.

Cədvəl 1

Əmək ehtiyatları balansının nümunəsi

	Cəmi	o cümlədən:	
		şəhər əhalisi	kənd əhalisi
A	1	2	3
I. Əmək ehtiyatları – cəmi			
o cümlədən: I.1. Əmək qabiliyyətli yaşlarında olan əmək qabiliyyətli əhali			
I.1.1. ondan xarici ölkə vətəndaşları			
I.2. əmək qabiliyyətli yaşlarından kənar əmək qabiliyyətli əhali			
I.2.1. yeniyetmələr			
I.2.2. pensiya yaşlı əhali			
II. Əmək ehtiyatlarının bölgüsü:			
II.1. Məşğul olanların cəmi			
II.1.1. məşğul olanların fəaliyyət sahələri üzrə bölgüsü			
II.1.2. məşğul olanların fəaliyyət növləri üzrə bölgüsü			
II.2. İşsizlərin sayı			
II.3. İqtisadi qeyri-fəal əhali			
o cümlədən: II.3.1. istehsalatdan ayrılmaqla yalnız təhsil alan əmək qabiliyyətli əhalinin sayı			
II.3.2. iqtisadi fəallığı olmayan və təhsil almayan əmək qabiliyyətli yaşlı qeyri-fəal əhalinin sayı			

Müəssisələrdə işçilərin əmək haqqının uçotu və planlaşdırılması zamanı onu əsas və əlavə qruplara bölürlər. Əsas əmək haqqı bilavasitə məhsulun hazırlanması, yerinə yetirilən işlərlə bağlı olan istehsal və digər işçilərin əmək ödənişindəki xərcləri özündə cəmləyir. Onun tərkibinə daxildir: istehsal prosesinin yerinə yetirilməsinə görə işəmuzd qiymət, tarif dərəcələri üzrə əmək ödənişi, qanunvericilik tərəfindən nəzərdə tutulan əlavələr, işçilərə mükafatlar və s. Əlavə əmək haqqının tərkibində əmək haqqında qanunvericiliklə və işlənməyən vaxta görə əmək ödənişi haqqında müəssisədə qəbul olunan müddəalarla nəzərdə tutulan ödənişlər nəzərə alınır: məzuniyyətlərin ödənişi, yeniyetmələrə güzəştli saatlar, dövlət öhdəliklərinin yerinə yetirilməsi zamanı ödəniş və s. Əlavə əmək haqqı mükafat sistemi üzrə mükafatlar da daxil olmaqla, əsas maaşdan faizi əks etdirir.

Vaxtamuzd əmək haqqı – əmək haqqı formalarından biri. Bu



formada əmək haqqı işə sərf olunmuş faktiki vaxtdan və işçinin ixtisasından asılı olaraq verilir. Vaxtamuzd əmək haqqı sistemində işçilər üçün onlara təhkim edilmiş qurğulara, aqreqatlara xidmət normaları, yaxud müəyyən dövr üçün normalaşdırılmış istehsalat tapşırıqları müəyyən edilir.

ƏMƏK HAQQI ÇEVRƏSİ – bir neçə müxtəlif daxili əmək bazarları üçün əsas əmək haqqı dərəcələrinin yığımı. Bu çevrə spesifik mal bazarlarını, spesifik əmək bazarını və ya həmkarlar ittifaqlarının nüfuz sahələrini əhatə edə bilər. Bir çevrə hüdudunda əmək haqqı razılaşması əhəmiyyətli eynilik səviyyəsini nümayiş etdirir.

ƏMƏK HAQQI FONDU – bura təşkilat və ya müəssisə tərəfindən hesablanmış məbləğlər daxildir ki, bunlar da pul və ya natural formada əmək ödənişi üçün nəzərdə tutulub: 1) işlənmiş vaxta görə – əmək haqqı işçiyə faktiki olaraq işlənmiş vaxta görə tarif dərəcəsi və ya işəmuzd qiymətlər üzrə (maaşlar üzrə) hesablanır; 2) mükafatlar; əlavə ödəmələri (tarif dərəcələrinə əlavələr və maaşlar) stimullaşdıran, həmçinin, iş rejimi və əmək şəraiti ilə əlaqəli olan kompensasiya ödənişləri; 3) işlənməmiş vaxta görə illik və əlavə məzuniyyətlərin, yəni dövlət və ya ictimai öhdəliklərin müəyyən yerinə yetirilmə vaxtına görə ödənişlər; 4) qidalanma, yaşayış, yanacağa görə ödənişlər – iqtisadiyyat sahələrində işçilərə pulsuz olaraq təqdim olunan qida, ərzaq, kommunal xidmətlər və s. dəyərini özündə cəmləyir.

ƏMƏK HAQQI İNDEKSİ – müəyyən dövr ərzində işçi və qulluqçuların orta əmək haqlarının azalıb və ya artmasını əks etdirir. Qrafik 1 və 2-də ölkələrdə saatlıq əmək haqqının səviyyəsi verilmişdir.

ƏMƏK HAQQI, ƏSAS TARİFLƏR – bu, əmək ödənişi sistemində dərəcələrdir, onlar tarif dərəcələri kimi qəbul olunmuşdur. Günəmuzd fəhlənin və ya işəmuzd fəhlənin tarif dərəcəsinin hesablanması üçüntəşkilat sərbəst olaraq ödənişin mi-

nimal məbləğini müəyyən edə, həmçinin, onu kollektiv müqavilədə təsbit edə bilər.

Birinci kateqoriyadan saathesabı tarif dərəcələrinin bazasında təşkilatda (müəssisədə) tarif sistemi işlənib hazırlanır ki, bu da üç qarşılıqlı əlaqəli elementi: ixtisas-tarif soraq kitabçasını, tarif cədvəlini və birinci kateqoriyadan olan tarif dərəcələrini özündə cəmləyir. Bu soraq kitabçasına iş və tələblərin növləri daxildir ki, bunlar da icraçının ixtisasına münasibətdə təqdim olunur və nəticədə ona kateqoriya verilir. Tarif cədvəli iş və işçilərin kateqoriyaları arasında əmək ödənişi nisbətinin müəyyən edilməsi üçün nəzərdə tutulub. Birinci kateqoriyadan olan tarif dərəcəsi aşağı ixtisasdan olan fəhlənin vaxt vahidinə görə ödənişin səviyyəsini müəyyən edir. Daha yüksək kateqoriyanın və birinci kateqoriyanın əmək ödənişinin nisbəti tarif əmsalının köməyilə müəyyən edilir. Tarif dərəcəsi birinci kateqoriyanın dərəcəsini tarif əmsalına vurma yolu ilə müəyyən edilir.


Saat hesabı əmək haqqı ölkələr üzrə iqtisadi inkişaf səviyyəsindən bilavasitə asılıdır. Lakin, müqayisəli təhlildə qiymət fərqi də nəzərə alınmalıdır.

ƏMƏK HAQQINA ƏLAVƏ – əmək şəraiti ilə əlaqədar əvəz ödəmək və ya həvəsləndirmək məqsədi ilə işçinin tarif (vəzifə) maaşına, əmək haqqına müəyyən edilən, işçiləri öz ixtisas səviyyəsini, peşə ustalığını artırmağa, eləcə də müəyyən ərazidə və ya müəyyən fəaliyyət sahəsində (əlverişsiz iqlim şəraiti, zərərli istehsalat və s.) əmək vəzifələrinin uzun müddət yerinə yetirilməsini stimullaşdıran əlavə ödənc.

ƏMƏK HAQQI NƏZƏRİYYƏSİ – müəssisədə (təşkilatda, idarədə) əmək fəaliyyətini həyata keçirən hər bir fərd əvvəlcədən danışılmış pul vəsaitləri məbləğini vaxtında almaq hüququna malikdir.


Əmək ödənişinin sistem və formaları müəssisə, təşkilat və ida-

Bəzi ölkələr üzrə saathesabı əmək haqqının səviyyəsi (1989-cu il, ABŞ dolları ilə)



Qrafik 1

Bəzi ölkələrdə saathesabı əmək haqqı (bir nəfərə dollarla, noyabr 2011)



Qrafik 2

rələr tərəfindən sərbəst olaraq işlənir və təsdiq olunur (tarif dərəcələri və maaşlar). İşləyən heyətin iki növü: fəhlə və qulluqçular var. Fəhlə kateqoriyası peşə və kateqoriyalar üzrə tarif dərəcələrinin müəyyən edilməsi ilə, qulluqçular kateqoriyası isə vəzifə maaşlarının müəyyən edilməsi ilə peşə və vəzifələr üzrə təsnifatlanır.

Əmək ödənişinin forması dedikdə ödənişə məruz qalan əmək uçotu obyekti: vaxt və ya yerinə yetirilən işin kəmiyyəti başa düşülür. Buradan da əmək haqqının iki əsas: günəmuzd və işəmuzd forması yaranır, bunların özü də bir sıra sistemlərə bölünür. Belə ki, günəmuzd forma sadə günəmuzd və günəmuzd mükafatdan, işəmuzd isə birbaşa işəmuzd, işəmuzd mükafat, akkord sistemlərindən ibarətdir.

ƏMƏK HAQQININ DONDURULMASI – real əmək haqqının artırılmasına ikitərəfli razılaşma və ya birtərəfli qadağa. Razılaşma adətən həmkarlar ittifaqları və sahibkarlar arasında bağlanır, həm də bilavasitə təzyiqi sahibkarlar göstərirlər. Birtərəfli qadağanın xarakteri hökumət və ya qanunverici tərəfindən müəyyən olunur.

Dondurulma – kapitalların onların sahibləri tərəfindən istifadəsinə dövlət və ya məhkəmə tərəfindən qoyulan qadağadır, buna müvafiq olaraq, kapitaldan ancaq xüsusi razılıqdan sonra istifadə etmək olar.

"Dondurulmuş" termini o halda istifadə olunur ki, səhmdar müəyyən növdən olan qiymətli kağızları sata bilmir, bu kağızlarla ticarət dayandırıla bilər və ya onların satışından zərər görmək təhlükəsi var. Məsələn, fyuçers bazarında qiymət tərəddüdü limitinin artırılmasından sonra ticarət dayandırıla bilər. Onu da qeyd etmək lazımdır ki,


qlobal dünya iqtisadiyyatı böhranı bir sıra ölkələrdə əmək haqqının dondurulması istiqamətində konkret addımların atılması ilə müşayiət edilmişdir. Azərbaycan Respublikasında əmək haqqının dinamikasında müsbət meyillər güclənir, əhalinin həyat səviyyəsinin daim artması dövlətin iqtisadi-sosial siyasətinin prioritet istiqamətlərindən sayılır.

ƏMƏK KOOPERASİYASI – əməyin təşkili, işlərin yerinə yetirilməsi forması. Əmək kooperasiyası vahid əmək prosesinin müxtəlif əməliyyatlarını yerinə yetirən böyük sayda işçilərin həmin prosesdə birgə iştirakına əsaslanır.

ƏMƏK QABİLİYYƏTİ – insanın əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyəti. Əmək qabiliyyətinin növləri: ümumi – adi şəraitdə hər hansı işi yerinə yetirmək qabiliyyəti; peşəkar – müəyyən peşə, vəzifə üzrə müəyyən şəraitdə işləmək qabiliyyəti; natamam – yalnız yüngül şəraitdə, məsələn, natamam iş günü şəraitində işləmək qabiliyyəti. Əmək qabiliyyətinin reallaşması bir sıra amillərdən asılıdır: işçinin peşəsinin əmək fəaliyyəti növünə müvafiq olması (xüsusi nəzəri biliklər və əməli vərdişlər kompleksinə yiyələnməsi); əmək şəraiti (bax: Əmək şəraiti). Əmək qabiliyyətinin səviyyəsi sosial-iqtisadi, texnoloji-təşkilati, gigiyenik və müalicə-profilaktik tədbirlər əməyin mühafizəsi sistemindən də asılıdır. Bu tədbirlər və vasitələr sistemi əmək prosesində insanın təhlükəsizliyini, onun sağlamlığının və iş qabiliyyətinin qorunub saxlanmasını təmin edir.

Əmək qabiliyyətindən istifadə məşğulluq siyasəti ilə sıx əlaqədardır. Dövlət məşğulluq siyasəti yeni iş yerlərinin yaradılmasını, müntəzəm olaraq əmək qabiliyyətli əhalinin potensia-

Azərbaycan Respublikasında orta aylıq əmək haqqı və əhalinin son istehlakının dəyişməsi (ötən ilin müvafiq dövrünə nisbətən, faizlə)



Qrafik 3

lından və işgüzar fəallığından mümkün qədər səmərəli istifadə edilməsi üçün şəraitin yaradılmasını, ixtisaslı kadrların hazırlanması sisteminin daima təkmilləşməsini, əmək hüquqlarının qorunmasını və s. tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Əmək qabiliyyəti insana müəyyən həcmdə və keyfiyyətdə işi yerinə yetirməyə imkan verən sağlamlıq vəziyyətidir. Əmək qabiliyyəti ümumi əmək qabiliyyəti (adi şəraitdə ixtisas tələb etməyən əmək qabiliyyəti); peşə, yaxud xüsusi əmək qabiliyyəti (müəyyən peşə, vəzifə və ya ixtisas üzrə adi şəraitdən fərqli şəraitdə, məsələn, zərərli şəraiti olan sexlərdə işləmək qabiliyyəti); məhdud əmək qabiliyyəti (müəyyən məhdudiyyətli əmək qabiliyyəti); əmək qabiliyyətsizliyi, o cümlədən müvəqqəti əmək qabiliyyətsizliyi və əlillik. 16 yaşından başlayaraq bütün vətəndaşların əmək qabiliyyətli olması nəzərdə tutulur; qadınlar üçün bu həddi 62 yaşa, kişilər üçün 63 yaşadək müəyyən edilmişdir. Peşə və xüsusi əmək qabiliyyəti işə qəbul zamanı qabaqcadan tibbi müayinə qaydasında həkim tərəfindən müəyyən olunur. Əmək qabiliyyətinin vəziyyəti səhiyyə idarələrində həkim məsləhət komissiyası, həkim-əmək ekspert komissiyası tərəfindən müəyyən edilir.

ƏMƏK QABİLİYYƏTLİ YAŞDA OLAN ƏHALİ – ölkə əhalisinin ictimai istehsalda iştirak edib-etməməsindən asılı olmayaraq, müəyyən yaş qrupuna aid hissəsi. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində buraya 14-70 yaşlı şəxslər aid edilir (ayrı-ayrı ölkələr arasında əmək qabiliyyətli yaşın göstərilən hüdudlarında ciddi fərqlər ola bilər). Azərbaycanda 15-57 yaş qadınlar, 15-62 yaş isə kişilər üçün əmək qabiliyyətli yaş müəyyən edilmişdir.

ƏMƏK MƏCƏLLƏSİ (ƏM) – işçilərin əmək münasibətlərini tənzimləyən sistemləşdirilmiş qanunvericilik aktı. Əmək Məcəlləsində kollektiv müqavilə; Əmək müqaviləsi; İş vaxtı; İstirahət vaxtı; Əmək normaları və işəmuzd qiymətlər; Əmək haqqı;

Cədvəl 1

Azərbaycan Respublikasında əmək ehtiyatlarının dinamikası (min nəfər)

İllər	Cəmi	o cümlədən		
		əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı	iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslər	iqtisadiyyatda məşğul olan yeniyetmələr
2000	4685,8	4530,8	142,8	12,2
2001	4890,5	4736,0	142,2	12,3
2002	4896,2	4740,6	142,6	13,0
2003	4923,0	4767,1	142,7	13,2
2004	5021,2	4865,1	142,8	13,3
2005	5421,3	5304,0	103,8	13,5
2006	5568,5	5444,1	110,6	13,8
2007	5701,6	5569,6	118,9	13,1
2008	5816,8	5681,2	125,5	10,1
2009	5915,7	5773,3	133,9	8,5
2010	6015,0	5875,7	133,1	6,2

Təminatlar və əvəz; Müəssisəyə, idarəyə, təşkilata vurduqları zərər üçün fəhlə və qulluqçuların üzərinə maddi məsuliyyət qoyularkən təminatlar; Əmək intizamı; Əmək mühafizəsi; İşləməklə bərabər təhsil alan fəhlə və qulluqçular üçün güzəştlər; Əmək mübahisələri; Həmkarların idarə olunmasında fəhlə və qulluqçuların iştirakı; Dövlət sosial sığortası; Əmək qanunvericiliyinə riayət olunmasına göz yetirmək və nəzarət. Azərbaycanda 1999-cu il fevralın 1-də Əmək Məcəlləsi qəbul olunmuşdur.

ƏMƏK MƏZUNİYYƏTİ – işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi, müddəti müvafiq qanunvericilikdə nəzərdə tutulandan az olmayan istirahət vaxtıdır.

ƏMƏK MÜHAFİZƏSİ – bilavasitə insanın həyatı və səhhəti üçün təhlükəsiz əmək şəraitinin təmin edilməsinə yönəldilən texniki, sanitariya-gigiyena və hüquqi tədbirlər sistemi. Əmək mühafizəsi normaları daxili əmək intizamı qaydalarında da nəzərdə tutulur. Əsaslarda təsbit olunan əmək mühafizəsi tələbləri texniki təhlükəsizlik və istehsal sanitariyası üzrə norma və qaydalarda və s. də konkretləşdirilir. Əmək mühafizəsi normalarına riayət olunmasına nəzarəti əsasən həmkarlar ittifaqları orqanları, həmçinin ixtisaslaşdırılmış dövlət orqanları həyata keçirir.

ƏMƏK MÜQAVİLƏSİ – işçi ilə işəgötürən arasında şifahi və ya yazılı formada bağlanan saziş. Əmək müqaviləsinə əsasən işə götürən müəyyən işi yerinə yetirən işçiyə əmək haqqı ödəməyə və onu qanunvericiliyə müvafiq əmək şəraiti ilə təmin etməyə borcludur.

Əmək müqaviləsi aşağıdakı şərtlərlə bağlana bilər:

1) müəyyən və ya qeyri-müəyyən müddətə; 2) hər hansı konkret işin yerinə yetirildiyi dövr üçün.

Qrup halında əmək müqaviləsi – müəssisələrdə bağlanan əmək müqaviləsi forması.

Praktikada qrup halında müqavilənin aşağıdakı formaları tətbiq edilir:

1) müqavilə qrupun hər bir üzvü ilə bağlanır. Bu qrup əmək haqqı ödənilərkən vahid tam hesab edilir; 2) işçilər qrupu lap əvvəldən vahid tam kimi qəbul edilir; 3) "usta və köməkçilər" prinsipi üzrə əməkdaşlıq edilir.

Əmək müqaviləsi müəssisə, idarə, təşkilat arasındakı saziş, bu sazişə əsasən zəhmətkeşlər daxili əmək intizamı qaydalarına riayət etməklə müəyyən ixtisas, dərəcə və yaxud vəzifə üzrə iş görməyi, müəssisə (idarə, təşkilat) müdiriyyəti isə onlara əmək haqqı verməyi və əmək qanunvericiliyi, kollektiv müqavilə və tərəflərin sazişi ilə nəzərdə tutulan əmək şəraiti yaratmağı öhdəsinə götürür. İşçi qeyri-müəyyən müddətə bağlanmış əmək müqaviləsini 2 həftə əvvəlcədən müdiriyyəti yazılı surətdə xəbərdar etməklə poza bilər. Müdiriyyətin təşəbbüsü ilə əmək müqaviləsi yalnız qanunda nəzərdə tutulan hallarda və ümumi qaydaya əsasən yerli komitənin razılığı ilə pozula bilər.

ƏMƏK MÜNAQİŞƏSİ – əmək münasibətləri sferasında sosial qarşılıqlı fəaliyyətin qarşıdurma xarakteri daşıyan xüsusi forması. Müəssisə işçiləri, muzdlu işçilər və işəgötürənlər, muzdlu işçilər kollektivi və işəgötürənlər arasında yaranan əmək münaqişələrini fərqləndirirlər. Əmək münaqişəsi qanunla müəyyən edilmiş hüquq və öhdəliklərin pozulması zamanı həm işçi, həm də işəgötürənlər tərəfindən, həmçinin əmək şəraiti və ödənişləri ilə bağlı məsələlər üzrə müqavilənin şərtlərinin pozulması zamanı işəgötürənlərlə əmək kollektivi və ya həmkarlar ittifaqları arasında yarana bilər. Əmək münaqişəsinin son forması tətildir. Əmək münaqişəsinin tənzimlənməsi məhkəmə və arbitraj müdaxiləsi yolu ilə, həmçinin danışıqlar və razılığa nail olunmasında mübahisə edən tərəflərə yardım göstərilməsi vasitəsilə həyata keçirilir. Bir çox ölkələrdə kollektiv əmək münaqişəsinin həll edilməsinin xüsusi xidməti yaradılmışdır. O, danışıqlar aparır, əmək münaqişəsinin profilaktikasını həyata keçirir, irəli sürülən tələbləri yoxlayır, sosial gərginliyi təhlil edir.

Azərbaycan Respublikasında müxtəlif səviyyələrdə yaranan əmək münaqişəsi hallarını həll etmək üçün beynəlxalq standartlara cavab verən qanunvericilik bazası və icra mexanizmi yaradılmışdır.

ƏMƏK ÖDƏNİŞİNƏ MƏSRƏFLƏR – bu və ya digər şirkətdə fəhlələrin, zəhmətkeşlərin əmək haqqıdır. Məsrəflərin ölçüsü fəhlələrin ixtisasından, şirkətin rentabellik səviyyəsin-

dən, satış həcmindən, xarici iqtisadi şərtlərdən və s. asılıdır.

ƏMƏK PENSİYASI – qanunvericilikdə nəzərdə tutulmuş qayda və şərtlərlə müəyyən edilən və sığortaolunanların onlara əmək pensiyası təyin olunduqdan əvvəl aldıqları əmək haqqının və digər gəlirlərin, yaxud sığortaolunanların ölümü ilə əlaqədar onların ailə üzvlərinin itirdikləri gəlirlərin kompensasiyası məqsədi ilə vətəndaşlara aylıq pul ödənişi. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən əmək pensiyası yaşı kişilər üçün 62, qadınlar üçün isə 57 (kişilərin yaş həddi 2010-cu il yanvarın 1-dən başlayaraq 2012-ci ilin yanvarın 1-dək, qadınların yaş həddi 2010-cu ilin yanvarın 1-dən başlayaraq 2016-cı ilin yanvarın 1-dək hər il altı ay artırılır) müəyyənləşdirilmişdir.

ƏMƏK PENSİYASININ BAZA HİSSƏSİ – əmək pensiyasının birinci pilləsi. Əmək pensiyaçılarının sosial müdafiəsinin dövlət təminatı.

ƏMƏK PENSİYASININ MÜƏYYƏN EDİLMƏSİ – əmək pensiyasının təyin edilməsi, onun məbləğinin yenidən hesablanması və əmək pensiyasının bir növündən digərinə keçid.

ƏMƏK PENSİYASININ SIĞORTA HİSSƏSİ – əmək pensiyasının ikinci pilləsi. Fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğdir.

ƏMƏK PENSİYASININ YIĞIM HİSSƏSİ – əmək pensiyasının üçüncü pilləsi. Fərdi hesabın yığım hissəsində toplanan pensiya kapitalının gözlənilən pensiya ödənişi müddətinin aylarının sayına nisbəti şəklində hesablanan məbləğdir.

ƏMƏK PSİXOLOGİYASI – tətbiqi psixologiya sahəsi; əmək fəaliyyətinin psixoloji aspektləri və qanunauyğunluqlarını öyrənir. XIX əsrin axırlarından formalaşmağa başlamışdır. Təxminən eyni hazırlıqlı işçilərin əmək məhsuldarlığındakı fərqləri təhlil edir, peşə bacarığında fərdi fərqlərin səbəbini öyrənir. Yorğunluq və gündəlik ritmlə əlaqədar əmək qabiliyyətində dəyişkənliyin öyrənilməsi iş günü iş həftəsi və s. ərzində məhsuldarlığın iş keyfiyyətinin mümkün qədər az dəyişməsi üçün optimal əmək rejiminin əsaslandırılması əmək psixologiyasının mühüm tədqiqat sahəsidir. Müasir elmi-texniki inqilab dövründə əmək psixologiyası əmək fəaliyyətinin yeni şəraiti və formalarını, yeni peşələri və əməyin mexanikləşdirilməsindən irəli gələn tələbləri öyrənir. Əmək psixologiyası əməyin sosiologiyası, sosial psixologiya, mühəndis psixologiyası, istehsalat estetikası, əməyin fiziologiyası və gigiyenası, kibernetika, texniki statistika və s. ilə sıx əlaqədardır.

ƏMƏK RESURSLARI – potensial işçi qüvvəsi. Muzdla işləyən daimi, qeyri-daimi, ixtisaslı və qeyri-ixtisaslı işçi heyəti ştatda olan daimi işçi heyətindən fərqləndirilir. Birincilərə personal, ikincilərə kadrlar deyilir.

ƏMƏK STAJI – işçinin əmək və digər ictimai faydalı fəaliyyətinin vaxtı (davamiyyəti). Müvəqqəti əmək qabiliyyətsizliyinə görə müavinətin, bir sıra halda isə, hətta, əmək haqqının ölçüsü müəyyən edilir.

Əmək stajını təsdiq edən əsas sənəd əmək kitabçasıdır. Əmək stajı ümumi, fasiləsiz, xüsusi növlərinə görə fərqlənir. Ümumi əmək stajını xarakterindən, davamiyyətindən və fasilələrin uzunluğundan asılı olmayan əmək və digər ictimai faydalı fəaliyyətin zaman etibarilə toplusudur. Qocalığa görə, ümumi xəstəlik nəticəsində əlilliyə görə, habelə ailəni dolandıran ümumi xəstəlikdən öldükdə pensiya təyin edilərkən nəzərə alınır. Fasiləsiz əmək stajını fəhlə (qulluqçu) kimi bir müəssisədə, idarədə, təşkilatda, kolxoz üzvləri üçün isə bir kolxozda fasiləsiz iş davamiyyətidir. Fasiləsiz əmək stajını müvəqqəti əmək qabiliyyətsizliyinə görə müavinət müəyyən edildikdə, fəhlə və qulluqçular üçün isə habelə pensiyaya əlavələr edildikdə nəzərə alınır. Mövcud qanunvericiliyə görə fasiləsiz əmək stajının saxlanması müddəti 1 aydır (yəni işçi bir işdən başqa işə keçdikdə fasilə 1 həftədən artıq olmamalıdır). Qanun, bəzən başqa işə girərkən fasiləsiz əmək stajının saxlanılması üçün daha güzəştli müddət – 2, yaxud 3 ay müəyyən edir. Xüsusi (sahəvi) əmək stajını, yəni işin məzmununa, xalq təsərrüfatı sahəsinin xüsusiyyətinə, əmək və iqlim şəraiti əlamətlərinə görə fərqləndirilən əmək stajı ümumi və fasiləsiz ola bilər. Qocalığa görə, əlilliyə görə, ailəni dolandıran öldükdə, uzunmüddətli xidmətə görə güzəştli şərtlərlə, yaxud güzəştli ölçüdə pensiya

təyin edildikdə, bəzi kateqoriya işçilər (məsələn, müəllimlər, həkimlər) üçün vəzifə maaşı müəyyən edildikdə, əmək haqqına əlavələr edildikdə və s. hallarda nəzərə alınır.

ƏMƏK STATİSTİKASI – əmək ehtiyatlarının təkrar istehsalı və istifadəsi sahəsində kütləvi ictimai hadisə və prosesləri öyrənən statistika sahəsi, əmək statistikası aşağıdakıları öyrənir: əmək ehtiyatlarının mövcudluğu, tərkibi, bölüşdürülməsi, dinamikası, səmərəli istifadəsi, təkrar istehsalı və ehtiyatlarını; iş vaxtından istifadəni, planın yerinə yetirilməsi dərəcəsini, əmək məhsuldarlığının dinamikası, amilləri və yüksəldilməsi imkanlarını; planın yerinə yetirilməsi səviyyəsini, dinamikasını və əməyin ödənilməsinin artırılması amillərini, əmək məhsuldarlığının artım sürəti ilə əmək haqqının artım sürətinin nisbətini və s. əmək statistikası əhalinin həyat səviyyəsini, əmək şəraiti və mühafizəsini, sosializm yarışının gedişini öyrənir. Əmək statistikasına həmkarlar hərəkatı və sosial sığorta statistikası da aiddir. Əmək statistikasının əsas vəzifəsi əmək planının yerinə yetirilməsinə nəzarət və onu təhlil etməkdir.

ƏMƏK ŞƏRAİTİ – əmək prosesində insana birbaşa və ya dolayı yolla təsir göstərən amillərin məcmusu. Əmək şəraiti sosial və istehsal-texnoloji əmək şəraiti növlərinə bölünür. Sosial əmək şəraiti cəmiyyətdə hakim istehsal münasibətlərinin təsiri altında yaranır və dəyişir. Buraya əmək münasibətləri, müəssisədə işçinin mövqeyi, əmək stimulları, əmək məhsullarının bölgüsü, əmək və istirahət rejimi, əməyin mühafizəsinin forma və metodları, o cümlədən əlverişsiz əmək şəraitinə görə güzəştlər və kompensasiyalar sistemi, əlverişsiz əmək şəraiti, istehsal travmaları və s. hallar üçün işəgötürənlərin məsuliyyəti və başqa elementlər daxildir. İstehsal-texnoloji əmək şəraiti istifadə edilən avadanlığın xarakteri, istehsalın texnoloji parametrləri, texniki təhlükəsizliyin vəziyyəti və texniki amillərlə müəyyən edilir. Buraya əməkdən istifadə edilmə müddəti və intensivliyi, istehsal mühiti işçilərin həyatı və sağlamlığına təsir edən amillər, o cümlədən havanın çirklənmə dərəcəsi, temperatur rejimi və s. daxildir. Kömür sənayesi, filizçıxarma, mədən, metallurgiya, kimya, tikinti materialları sənayesi əmək şəraitinin ənənəvi əlverişsiz olduğu sahələr hesab edilir. Dünya təcrübəsi göstərir ki, əlverişli əmək şəraitinin yaradılması əmək məhsuldarlığının, istehsalın səmərəliliyinin artırılması üçün mühüm amil, sosial tərəfdaşlığın ən mühüm şərtlərindən biridir.

Yüksək əmək məhsuldarlığı əldə etmiş bir çox şirkət və firmaların təcrübəsi sübut edir ki, əmək şəraitinin yaxşılaşdırılmasını təmin etmək üçün hələ yeni müəssisələrin layihələşdirilməsi və yaradılması, köhnə müəssisələrin modernləşdirilməsi ilə bağlı elmi araşdırmalar mərhələsində fizioloji, psixoloji, texniki və estetik tələblərin hərtərəfli nəzərə alınmasını vacib şərt kimi qiymətləndirmişlər. Bir qayda olaraq texnoloji proseslərin və istehsal avadanlığının təhlükəsizliyini, istehsalatda zəruri komfortu təmin edən vəsait qoyuluşları daha yüksək sosial-iqtisadi səmərə verir. Bu amilləri nəzərə almadıqda baş verən itkilər daha çox canlı və maddiləşmiş məsrəflər tələb edir (təhlükəsizlik texnikası üçün əlavə xərclər, əməyin mühafizəsi ilə bağlı maddi vəsaitlər, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlər, xəstələrin müalicəsi, əmək əlillərinə və istehsal xəsarətləri nəticəsində həlak olanların ailələrinə pensiyalar, əmək qabiliyyətinin azalması, kadr axıcılığı və başqa səbəblərlə bağlı itkilər).

ƏMƏK TUTUMU – müəyyən istehlak dəyərlərinin istehsalına, yaxud konkret texnoloji əməliyyatların yerinə yetirilməsinə iş vaxtı sərfini xarakterizə edən göstərici; əmək tutumu göstəricisi əmək məhsuldarlığı göstəricisinin əksidir; iş qüvvəsindən istifadənin səmərəliliyini müəyyən edir. Əmək tutumunun ölçüsü iş vaxtıdır. Məhsul vahidinin iş vaxtı

Əmək tutumu = İş vaxtı buraxılan məhsulun miqdarı

ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ (ƏƏSMN) – əməyin ödənilməsi və əmək münasibətləri, əməyin mühafizəsi, əmək ehtiyatlarından istifadə, əhalinin sosial müdafiəsi, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiya problemləri sahəsində dövlət siyasətini və idarəetmə funksiyalarını həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı.

Nazirlik Azərbaycan Respub-

likası Əmək və Sosial Problemlər üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikası Sosial Təminat Nazirliyinin bazasında Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 10 dekabr tarixli fərmanı ilə yaradılmışdır.

ƏƏSMN əmək qabiliyyətli əhalinin işgüzarlıq və təşəbbüskarlığının artırılması üçün zəruri şərait yaratmaq, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatlarda çalışan işçilərin əmək və sosial hüquqlarının qorunmasını təmin etmək məsələləri ilə məşğul olur. İşsizliyin səviyyəsinin azaldılmasına, əmək bazarında zəif rəqabətli əhali qruplarının, xüsusilə gənclərin, çoxuşaqlı qadınların, qaçqın və məcburi köçkünlərin, əlillərin, şəhid ailəsi üzvlərinin, sərbəstləşdirilmiş işçilərin məşğulluğuna yönəldilmiş siyasəti həyata keçirmək, əhalinin sosial müdafiəsi sahəsində qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədi ilə təkliflər hazırlayır. Əhalinin aztəminatlı təbəqələrinə dövlət yardımının tənzimlənməsi üzrə təkliflərin hazırlaması, tənha ahıl vətəndaşlara və əlillərə sosial-məişət xidməti təşkil edir, demoqrafiya, əmək və sosial müdafiə məsələləri üzrə elmi-tədqiqat və beynəlxalq əməkdaşlıq sahəsində işlərin əlaqələndirilməsini həyata keçirir. Tibbi-sosial ekspertizanı, əlillərin reabilitasiyasını təşkil etmək, əlillərin protezortopedik vasitələrlə təmin olunmasına köməklik göstərmək, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə, idarə və təşkilatlarda əməyin mühafizəsi, əmək şəraiti, əməyin ödənilməsi, əmək münasibətləri, əməyin gigiyenası, əhalinin məşğulluğu, miqrasiya sahəsində qanunvericilik aktlarının icrasının təmin olunmasına dövlət nəzarətini həyata keçirmək kimi funksiyaları yerinə yetirir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binası

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 854 nömrəli Fərmanı ilə təsdiq edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nda Azərbaycan hökumətinin yoxsulluğun azaldılması üzrə strategiyasının altı əsas strateji məqsədlərindən biri kimi həssas qrupların daha səmərəli sosial müdafiəsi üzrə ən mühüm və ilkin islahat işi

olaraq ünvanlı sosial yardım sisteminin yaradılması qərara alınmışdır.

Ünvanlı sosial yardım sisteminin tətbiqi üçün ilkin tədbir kimi qanunvericilik bazasının yaradılması məqsədilə "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və onun tələblərinə uyğun olaraq bir sıra sistemli tədbirlər həyata keçirilmiş, o cümlədən 2006-cı il 1 iyul tarixdən etibarən ölkədə ünvanlı sosial yardımın təyinatına başlanılmışdır.

Azərbaycan dövləti aztəminatlı ailələrin sosial reabilitasiyası məsələsinə də xüsusi diqqət verir. Bu məqsədlə əhalinin sosial müdafiəsi mərkəzlərində (ƏSMM) ailələr haqqında toplanmış məlumat bankından istifadə etməklə aztəminatlı ailələrin tədricən yoxsulluq həddindən çıxarılması məsələsi ön plana çəkilir. 13 layihədən ibarət olan proqramın sınaqdan keçirilməsi üçün pilot rayonu olaraq Quba, İsmayıllı və Bakı şəhərinin Nizami rayonları seçilmiş və təhqiqat işlərinə başlanılmışdır.

"Reabilitasiya xidmətlərinin gücləndirilməsi layihəsi" adlanan bu model respublikanın ucqar kənd yerlərində yaşayan əqli və ya yüngül psixi problemləri olan uşaqların reabilitasiyasının təmin edilməsi sahəsində yeni siyasətin formalaşdırılmasında vacib rol oynayır. Paralel olaraq bu modelin bütün ölkə üzrə tətbiq olunması üçün müvafiq standartların hazırlanmasına başlanılmışdır ki, bu da həmin sahədə hüquqi bazanın yaradılmasına dəstək olacaqdır.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün Qəbələ rayonunda inşa olunmuş 4 mərtəbəli yaşayış binasının açılışında



"Unvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun həyata keçirilməsinin icra mexanizminin qiymətləndirilməsi məqsədilə 7000 ev təsərrüfatında keçirilən sorğu yekunlaşdırılmış və emal olunmuş, bu sahədə işin təşkilini daha da yaxşılaşdırmaq məqsədilə tədbirlər görülmüşdür. Bu iş müntəzəm olaraq davam etdirilir.

Bundan əlavə ünvanlı sosial yardım mexanizminin qiymətləndirilməsi məqsədilə Dünya Bankının "Pensiya və sosial təminat" layihəsi çərçivəsində Ünvanlı dövlət sosial yardımı Proqramının icrası ilə bağlı monitorinq məqsədilə ölkə üzrə 6660 ev təsərrüfatında sorğular başa çatdırılmışdır.

Sorğuların nəticələrinin təhlili yardımların təyinatında ünvanlılıq prinsipinə 90%-ə qədər əməl olunduğunu sübut edir. Dünya Bankı tərəfindən bu nəticə ün-



Bakı Əmək Yarmarkası



Frezerçi peşəsi üzrə emalatxana



Dərzi və tikişçi peşəsi üzrə emalatxana



Nəsimi rayon MM-də Mini Əmək Yarmarkası



Xalçaçı peşəsi üzrə emalatxana



Qaynaqçı peşəsi üzrə emalatxana



Dünya Bankı ilə birgə həyata keçirilən "Sosial Müdafiənin İnkişafı Layihəsi"nin "ISCO88/08 standartlarına" uyğun təkmilləşdirilmiş peşə standartlarının hazırlanması" layihəsinin təqdimat mərasimi 19.10.2010

vanlı sosial yardım tətbiq edilən ölkələr sırasında ən yaxşı nəticələrdən biri kimi qiymətləndirilmiş, sosial yönümlü proqramların icrası üçün ayrılan vəsaitlərin xərclənməsinin effektivlik göstəricilərinin digər ölkələrlə müqayisədə yüksək olduğu qeyd olunmuşdur. Yardım alanlar arasında yoxsulluq səviyyəsi 2006-2009-cu illərdə 20%-ə qədər azalmışdır.

Nazirlik tərəfindən ünvanlı sosial yardım almaq üçün mərkəzlərdə qeydiyyata alınmış aztəminatlı ailələrin tədricən yoxsulluq həddindən çıxarılmaları məqsədilə "Aztəminatlı ailələrin sosial reabilitasiyası Proqramı" layihəsi hazırlanmış, pilot rayonları müəyyənləşdirilmişdir.

Ölkədə aparılan pensiya islahatı ilə əlaqədar olaraq 2006-cı il yanvarın 1-dən sosial pensiyalar sosial müavinətlərlə əvəz olunmuşdur. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanunu ilə sosial müavinətlərin təyin olunmasının və verilməsinin hüquqi əsasları müəyyən olunmuşdur. Həmin Qanuna əsasən ilk dəfə olaraq sosial müavinətlərin ildə bir dəfədən az olmamaq şərti ilə indekslərdirilməsi müəyyən edilmiş, bu da müavinət alanların sosial müdafiəsinə özünün müsbət təsirini göstərmişdir. Hazırda respublika əhalisinin 4,2 faizinə sosial müavinət təyin olunub ödənilir. Sosial müavinət alanların 74,4 faizi aylıq, 25,6 faizi isə birdəfəlik sosial müavinət alır. Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş şəxslərə maddi yardım göstərilməsi, onların sosial müdafiəsi ilə bağlı işlər davam etdirilir. Özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçilərin və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvlərinin və himayəsində olan digər şəxslərin sosial müdafiəsini təmin etmək məqsədilə əlavə tədbirlər görülür.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 mart tarixli 51 nömrəli qərarı ilə Ermənistan Respublikasının müəssisələrində əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində dəymiş zərərə görə ödənc almaq hüququ olan qaçqın statuslu zərərçəkənlərə və ləğv edilmiş kolxoz və sovxozlarda əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkənlərə zərərə görə ödəncin əvəzinə aylıq kompensasiya verilməsi müəyyən edilmişdir.

Sosial müavinət və təqaüdlərin ödənişində şəffaflığın artırılması məqsədilə xüsusi proqram təminatı vasitəsilə sosial müavinət və təqaüdlərə dair məlumatlar vahid məlumat bazasında toplanması işi tam başa çatdırılmış və belə şəxslərin 90 faizinə ödəniş plastik kartlarla bankomat vasitəsilə təqdim edilir.

1997-ci ildən başlayaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhər və rayon mərkəzlərində çoxmərtəbəli yaşayış binaları, kənd yerlərində isə fərdi yaşayış evləri inşa olunaraq yaşayış yeri üzrə mənzil növbəsinə dayanan, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi, həmçinin 1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərin və şəhid ailələrinin istifadəsinə verilmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2009-cu il 14 aprel tarixli fərmanı ilə bu istiqamətdə görülən işlər daha geniş vüsət almış, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakı şəhərində və Respublikanın digər şəhər və rayonlarında çoxmərtəbəli yaşayış binaları və fərdi yaşayış evləri inşa olunaraq bu kateqoriyadan olan şəxslərin istifadəsinə verilmiş, beləliklə, mənzillə təmin olunan əlillərin sayı 4000-i ötmüşdür.

1998-ci ildən 2011-ci ilədək respublikamıza əlillər üçün 2940 ədəd "OKA" markalı avtomaşınlar alınıb gətirilmiş, növbədə dayanmış Qarabağ müharibəsi, "20 Yanvar" əlillərinə, Respublika Veteranlar Şurasının təklifi də nəzərə alınmaqla dövlət quruculuğunda, eləcə də gənc nəslin təlim-tərbiyyəsində xüsusi xidmətləri olmuş, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak etmiş 1941-1945-ci illər müharibəsi əlillərinə verilmişdir.

Vətəndaşların Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş əmək hüquqlarının müdafiə olunmasının təmin edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Azərbaycan Respublikası Əmək və

Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyinin bazasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti yaradılmış, əvvəlcə fəaliyyət göstərən Dövlət Əmək Müfəttişliyi strukturuna nisbətən statusu yüksəldilmiş və yeni əsasnaməsi təsdiq edilmişdir.

2006-cı ildən bəri ötən dövrdə ölkənin Xaçmaz, Naftalan və Yevlax şəhərlərində yeni Əlillərin Regional Bərpa Mərkəzləri istifadəyə verilmişdir. Hazırda nazirliyin nəzdində 14 regional bərpa-müalicə müəssisəsi fəaliyyət göstərir ki, onlarda hər il 8000 nəfərədək əlilə bərpa-müalicə xidməti göstərilir. Qarşıda duran əsas vəzifələrdən biri sosial reabilitasiya yönümlü tədbirlərin gücləndirilməsi yolu ilə həmin insanların dolğun həyat tərzinin təmin olunması, özlərini cəmiyyətin digər üzvləri kimi hiss etməsi üçün onlara daha geniş şəraitin yaradılmasıdır. Bu məqsədlə tibbi bərpa profilli müəssisələrdə çoxşaxəli sosial reabilitasiya tədbirlərinin tətbiqinə hazırlıq işləri aparılır.

2010-cu ildə əlillərin cəmiyyətə fəal inteqrasiyasının təmin olunması məqsədilə ölkədə yeni tipli müəssisələrin – Gözdən Əlillər üçün Tədris-Bərpa Mərkəzinin, Yetkinlik Yaşına Çatmayanlar üçün Sosial Sığınacaqların və Tibbi-Sosial Reabilitasiya Mərkəzlərinin inşasına başlanmışdır.

Əlillərin problemlərinə kompleks yanaşmanı təmin etmək məqsədi ilə respublika üzrə lazımi məlumatları özündə əks etdirən vahid məlumat bazasının yaradılması işləri davam etdirilir.

Nazirlik tənha ahıl və əlillərə, dövlət təminatında yaşayan digər kateqoriyalı vətəndaşlara sosial-məişət xidmətinin təşkili ilə bağlı sistemli tədbirlər həyata keçirir.

"Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası tərəfindən təsdiq olunmuş, respublikanın aidiyyəti orqanları ilə razılaşdırılmış təlimata uyğun olaraq hazırda rayonlar üzrə 15000 nəfərə yaxın tək ahıl vətəndaşlara və əlillərə ƏƏSMN-nin sosial-məişət sektorları tərəfindən evlərində sosial-məişət xidməti göstərilir. Evlərində tək yaşayan və həmin rayonda və ya şəhərdə qanunla onları saxlamağa borclu övladları və ya valideynləri olmayan 70 yaşına çatmış tək ahıl vətəndaşlar və 1-ci qrup əlillər, başqasının köməyinə ehtiyacı olan 2-ci qrup əlillər Həkim Məsləhət Komissiyasının və ya Tibbi Sosial Ekspert Komissiyasının rəyinə əsasən (yoluxucu və ya ağır formalı ruhi xəstəliyi olan tək ahıl vətəndaşlar və əlillər istisna olmaqla) xidmətə götürülürlər. Şəhər, şəhərtipli qəsəbələrdə və rayon mərkəzlərində 1 nəfər sosial xidmət işçisi 12 nəfərə, kənd yerlərində isə 8 nəfərə xidmət göstərir.

Hər il müxtəlif bayramlar, əlamətdar günlər, həmçinin 1 oktyabr – Beynəlxalq Ahıllar günü münasibətilə respublikanın rayon və şəhərlərində həyata keçirilən tədbirlərdə 10 mindən artıq ahıl vətəndaşlar üçün bayram süfrələri təşkil olunur, onlara ərzaq və pul yardımları göstərilir, bir sıra problemləri öz həllini tapır.

Qoca və əlillər üçün internat evlərində və pansionatlarda yaşayanların sosial müdafiələrinin yaxşılaşdırılması, onlara normal yaşayış şəraiti yaradılması, sosial-məişət və tibbi xidmətin təşkili keyfiyyətinin yaxşılaşdırılması, sanatoriya-kurort putyovkaları ilə (yollayışlarla) təmin olunmağa imtiyazı olan şəxslərin sanator müalicələrinin səmərəli təşkili ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Nazirlik beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində də tədbirlər həyata keçirir. İndiyədək Nazirliyin səlahiyyət dairəsi çərçivəsində xarici ölkələrin aidiyyəti dövlət qurumları ilə və beynəlxalq təşkilatlarla 30-dan artıq hökumətlərarası və nazirliklərarası saziş, protokol, memorandum və proqram imzalanmış, müntəzəm olaraq görüşlər keçirilir.

Azərbaycan Respublikası 1992-ci ilin may ayından Beynəlxalq Əmək Təşkilatının (BƏT) tamhüquqlu üzvüdür. Ötən dövr ərzində Respublikamızla BƏT arasında əmək, əmək münasibətləri, məşğulluq, əməyin təhlükəsizliyi və mühafizəsi, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində əməkdaşlığın daim genişlənməsi amili ilə müşahidə olunan fəal əlaqələr yaradılmışdır.

Müvafiq beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxalq Əmək Təşkilatı (BƏT), BMT-nin İnkişaf Proqramı (BMT İP), Dünya Bankı (DB), Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT),

BMT-nin Əhali Fondu (BMT ƏF), BMT-nin Uşaq Fondu (YUNİSEF), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK), BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı (BMT İHAK), Avropa İttifaqının TACİS Proqramı, EuropeAid və BQXK ilə əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır.

Dünya Bankı ilə 1999-cu ildən etibarən başlanmış əməkdaşlıq çərçivəsində, əvvəlcədən "Azərbaycan Respublikasında Pensiya və Sosial Yardım islahatı" layihəsinin hazırlanması və həyata keçirilməsi ilə bağlı işlər görülmüş, sonradan 2005-2010-cu illərdə "Pensiya və Sosial Təminat Layihəsi" həyata keçirilmişdir. Ölkədə sosial islahatların və proqramların icrasına dəstək vermək məqsədilə Dünya Bankı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında mövcud olan tərəfdaşlıq və səmərəli əməkdaşlıq nəticəsində konseptual baxımdan yeni, ölkə üçün vacib olan "Sosial Müdafiənin İnkişafı Layihəsi" hazırlanmış və 2009-cu ilin mart ayından icrasına start verilmişdir.

ƏMƏK DƏYƏR NƏZƏRİYYƏSİ – müəllifləri A.Smit, D.Rikardo, K.Marks olan bu nəzəriyyədə sərvətin mənbəyi və artırılması ifadə olunmuşdur. Smit merkantilistlərin və fiziokratların fikirləri ilə razılaşmır və belə hesab edirdi ki, sərvətin mənbəyini əhalinin çox hissəsinə xas olmayan spesifik məşğuliyyət növündə axtarmaq lazımdır. Sərvətin əsl yaradıcısı əkinçi əməyi və xarici ticarət deyildir. Sərvət bütün iqtisadi agentlərin əməyindən və peşəsindən asılı olmayaraq onların məcmu əməyinin əldə edilmiş nəticəsidir. Sərvətin mənbəyi, bütün dəyərlərin yaradıcısı əməkdir.

Əmək sayəsində əvvəlcə müxtəlif nemətlər (qida məhsulları, paltar, yaşayış məskəni üçün material) təbiətdən alınmış və insanın ehtiyacları üçün dəyişdirilmişdir. "Əmək bütün əşyaların müqabilində ödənilmiş ilk qiymət, ilk tədiyə vasitəsi olmuşdur. Əvvəllər dünyadakı bütün sərvətlər qızıl, gümüş ilə deyil, məhz, əməklə alınmışdır".

Smitə görə sərvətin həqiqi yaradıcısı hər bir millətin illik istehlak üçün sərf etdiyi illik əməyidir. Müasir terminologiyadan istifadə etsək, bu, ümumi milli məhsuldur. Müasir dövrdə milli sərvət dedikdə uzun illər boyu yığılmış və sintez edilmiş əmək millətin bir neçə nəslinin maddi əməyinin nəticəsi olan sərvət kimi başa düşülür.

Smitə görə məhsuldar əmək maddi istehsala sərf edilən əməkdir, yəni fəhlələrin və fermerlərin, inşaatçıların və bənnaların əməyidir. Onların əməyi dəyər yaradır, sərvəti artırır. Məmurların və zabitlərin, inzibatçıların və alimlərin, yazıçıların və musiqiçilərin, hüquqşünasların və keşişlərin əməyi isə dəyər yaratmır. Onların əməyi faydalıdır, cəmiyyətə lazımdır, lakin məhsuldar əmək deyildir.

D.Rikardo əmtəələrin dəyərini maddi istehsalın istənilən sahəsində onların istehsalına sərf edilmiş əməklə müəyyən edirdi. Bununla bərabər, Rikardo konkret əmək ilə mücərrəd əmək arasında fərq qoymurdu.

Əməyin ikili təbiətini ilk dəfə K.Marks kəşf etmişdir. Bu kəşf ona dəyərin elmi əmək nəzəriyyəsini işləyib hazırlamağa imkan vermişdir. O, dəyəri üç tərkib hissəsinə bölürdü: sabit kapital, dəyişən kapital və izafi dəyər. K.Marks sübut edirdi ki, izafi dəyərin mövcud olduğu cəmiyyətdə muzdlu əmək işçiləri istismar edilir.

ƏMƏK HAQQI ÜÇÜN VƏSAİTİN BRONLAŞDIRILMASI – işçilərə əmək haqqının ödənilməsi üçün bankda hesablaşma hesabında zəruri vəsaitin toplanması. Əmək haqqı üçün vəsaitin bronlaşdırılmasından əmək haqqının ödəniləcəyi vaxtadək hesablaşma hesabında toplanmış pulun məbləği kifayət qədər olmadıqda istifadə edilir. Bronlaşdırma qaydası dövlət tərəfindən müəyyən edilir.

ƏMƏK HAQQININ DƏMİR QANUNU – F.Lassal tərəfindən ifadə edilmiş bu qanuna görə orta əmək haqqı məsrəflərin miqdarı ilə müəyyən edilir. İşçi öz vəzifəsinə müvafiq həyat səviyyəsini təmin edən əmək haqqı almağa çalışır.

ƏMƏLİYYAT (lat. *operatio* – hərəkət deməkdir) – 1) fəaliyyət növü, sahibkarlıq sazişi, vahid iqtisadi vəzifə və ya problemin həlli üzrə qarşılıqlı əlaqəli hərəkətlərin məcmusunu bildirən universal termindir; 2) məlumatların tərtibi və sazişlərin formalaşmasında aparılan hesab, informasiya prosedurudur.

ƏMƏLİYYAT GÜNÜ – bankın iş gününün kommersiya banklarında müştərilərin qəbulu və onlara xidmət göstərilməsi

üçün ayrılmış hissəsi. Əməliyyat günü ərzində banklar müştərilərdən, başqa bank müəssisələrindın, poçtdan, teleqrafdan sənədlər qəbul edir, onları həmin iş günü ərzində mühasibat uçotunun müvafiq hesabları üzrə yoxlayır; əməliyyat gününün sonuna qədər banka daxil olmuş sənədlər növbəti iş gününün balansında əks olunur. Əməliyyat günü ərzində müştərilərə resursların kreditləşməsi və yerləşdirilməsi, hesab, kassa, valyuta və başqa xidmət növləri üzrə bank xidmətləri təqdim olunur. Bəzi kommersiya banklarında bütün iş günü ərzində həcmi çox olmayan əməliyyatlarla bank xidmətləri kompleksi təqdim olunur. Əməliyyat günü başa çatdıqdan sonra qəbul edilən pul-hesab sənədləri həmin gün digər bankların müəssisələrinə göndərilir.

ƏMƏLİYYAT LİZİNQİ – lizinq növlərindən biri. Əməliyyat lizinqində müqavilə qısa müddətə (bir qayda olaraq, 1 ilə qədər, bəzən 2-4 ilə qədər) bağlanır. Bu müddət ərzində icarədə olan əmlakın dəyərinin yalnız bir hissəsi öz xərcini ödəyir. Ona görə də müqavilədə razılaşdırılmış istismar müddətindən sonra lizinq şirkətinə onun qaytarılması şərti, eləcə də hər hansı bir məqamda müqavilənin dayandırılması imkanı nəzərdə tutulur. Əməliyyat lizinqi şəraitində əmlakın icarəsi zamanı haqq (xüsusilə əgər icarəçiyə nəqliyyat vasitələri, tikinti texnikası, cihazlar, aparatura və digər texnika təqdim edilirsə), həmçinin təmir və texniki xidmət xərclərini ehtiva edir. Əməliyyat lizinqində istehsal vasitələrinin normal fəaliyyət göstərməsinə görə bütün məsuliyyət icarəçinin üzərinə qoyulur ki, bu da icarədarı xüsusilə cəlb edir. Əməliyyat lizinqində ən çox işlənən, tez təzələnən texnikanın icarəyə verilməsi daha geniş yayılmışdır. Çünki bu zaman həmin texnikaya olan tələbat onu mülkiyyət kimi əldə etmədən nisbətən qısa müddət ərzində ödənilir və lizinq şirkətində formalaşmış eyni avadanlıq parkı çox istifadəçinin ehtiyacını ödəyir.

ƏMƏLİYYAT ŞİRKƏTİ – podratçının adından mədən sənayesində, o cümlədən neft-qaz əməliyyatları aparmaq üçün müəyyən məqamda təyin edilmiş şirkət. Azərbaycanda əməliyyat şirkətləri beynəlxalq neft müqavilələrindən irəli gələrək daha çox ARDNŞ-də yaradılmışdır. Hazırda ARDNŞ-də Pirsaat, Qobustan, Salyan, Binəqədi, Suraxanı, Abşeron və Qarasu əməliyyat şirkətləri fəaliyyət göstərirlər.

ƏMƏLİYYAT ZALI – birjada alqı-satqı üzrə birja əməliyyatlarının aparılması üçün zal; birjanın idarə edilməsi ilə müəyyən olunan mal qrupları ilə ticarət üçün yer; bank günü ərzində müştərilərlə əməliyyatların həyata keçirildiyi bank binasında otaq.

Səhm zalı – fond birjasının ancaq səhmlərlə bağlı əməliyyatların həyata keçirildiyi əməliyyat otağı.

İstiqraz zalı – fond birjasının istisna olaraq ancaq istiqrazlarla bağlı əməliyyatların həyata keçirildiyi əməliyyat otağı.

ƏMƏLİYYATLAR – 1) hər hansı maliyyə, kredit, istehsal, ticarət, sığorta və s. məsələnin yerinə yetirilməsinə yönəldilmiş hərəkətlər; 2) iqtisadi dəyərin yaradılması, dəyişməsi, mübadiləsi, ötürülməsi və ya ləğv edilməsini əks etdirən iqtisad axındır. Mallara və ya maliyyə aktivlərinə olan mülkiyyət hüququnun başqasına keçməsindən, xidmətlər göstərilməsi, əmək və kapital təqdim edilməsindən ibarətdir.

ƏMƏLİYYATLAR, AGENT – bir tərəfin (prinsipal) tapşırığı ilə digər tərəfin (agent) prinsipal hesabına və onun adından razılaşdırılmış ərazidə əmtəənin alqısı və ya satqısı ilə əlaqədar faktiki və hüquqi hərəkətlərin həyata keçirilməsi.

ƏMƏLİYYATLAR, BİRJA – əmtəə və fond birjalarında aparılan əməliyyatlar, birjalarda alqı-satqı sövdələrinin bağlanması.

ƏMƏLİYYATLAR, BOND – yük sahiblərinin göstərişi ilə saxlanma, qablaşdırma, markirovka, konsolidasiya, yükləmə-boşaltma və başqa işlər. Bond əməliyyatları xarici firmanın, yük sahibinin bazarda əlverişli konyunkturu gözləməsi, xarici firmada yüklərin saxlanması üçün anbarların olmaması, yüklərə əmtəə görkəmi verməklə əlavə işlərin aparılması məqsədilə həyata keçirilir.

ƏMƏLİYYATLAR, ƏMTƏƏ BİRJASI – əmtəə birjalarında brokerlər-dilerlər vasitəsilə, birja qaydalarına müvafiq müştərilərinin maraqlarında bağlanan birja əmtəələri ilə sövdələr, birja əmtəələrinin tədarükü üçün müqavilələr.

ƏMƏLİYYATLAR, FOND BİRJASI – dəllal vasitəsilə fond birjasının daimi üzvləri və ya iştirakçıları arasında bağlanmış fond dəyərləri ilə sövdələr. Bunlar dəllal qeydi və birja qeydiyyatları kitabında qeydiyyatdan keçərək tərtib olunur.

ƏMƏLİYYATLAR MƏSRƏFİ – kontrakt sahəsində və ya onunla əlaqədar gündəlik neft-qaz əməliyyatları çərçivəsində bilavasitə, yaxud dolayısı ilə çəkilmiş məsrəflər, o cümlədən karbohidrogenlərin çıxarılmasına, təmizlənməsinə, oyadılmasına, təzyiq göstərilməsinə, toplanmasına, emalına, saxlanılmasına, hazırlanmasına, yola salınmasına və çatdırılma məntəqəsinədək nəql edilməsinə, texniki xidmətə və inzibati idarəetmə ilə bağlı məsrəflər, habelə ləğvetmə işləri ilə bağlı ödənişlər.

ƏMƏLİYYATLARIN ARDICILLIĞININ PLANLAŞDIRILMASI – istehsalın, ilk növbədə, tək (fərdi), seriyalı (kütləvi) və sort (çeşid) üzrə istehsalın planlaşdırılmasının tərkib hissəsi. Əməliyyatların ardıcıllığının planlaşdırılmasının vəzifəsi materialların hərəkətinin ümumi vaxtının, emalda gözləmə və avadanlığın boşdayanma vaxtının minimallaşdırılması və istehsal qurğularının maksimum yüklənməsidir.

Əməliyyatların ardıcıllığının planlaşdırılması məsələsinin həllinə yanaşmalar müxtəlifdir:

1) kombinatorika metodları avadanlığın yüklənməsinin mümkün variantlarını müəyyən etməyə imkan verir, sonra isə texnoloji baxımdan yolverilməz hesab edilən variantlar istisna edilir və verilmiş meyar (kriteri) nəzərə alınmaqla ən yaxşı variant seçilir;

2) tam xətti proqramlaşdırma metodları;

3) kompüterdə imitasiya modelləşdirmə metodları yaxşı həll tapılmasını təmin edir, lakin bu həll optimal olmaya bilər. İmitasiya modelləşdirməsi metodları ilk iki qrupa daxil olan metodlarla müqayisədə praktik baxımdan daha məqbul hesab edilir.

ƏMƏYİN AKKORD ÖDƏNİŞ SİSTEMİ – əməyin bu sistemlə ödənişi hər hansı bir əməliyyatın yerinə yetirilməsinə görə yox, müddəti əvvəlcədən müəyyənləşdirilmiş kompleks işin həyata keçirilməsinə görə aparılır. Ödəniş haqqı əvvəlcədən elan olunur. Əgər işin yerinə yetirilməsi çoxlu vaxt (bir aydan çox) tələb edirsə, onda istehsalın müəyyən mərhələsində ödəniş qismən, iş təhvil verildikdən sonra isə tam həyata keçirilir.

ƏMƏYİN ELMİ TƏŞKİLİ (ƏET) – müasir elmin nailiyyətlərinə və qabaqcıl texnikaya əsaslanaraq işçilərin fəaliyyətinin effektivliyinin artırılmasını təmin edən tədbirlər sistemi.

ƏMƏYİN HUMANİSTLƏŞDİRİLMƏSİ – əməyin təşkilinin istiqamətlərindən biri. Əməyin humanistləşdirilməsinin mərkəzi ideyası müəssisələrdə (təşkilatlarda) əmək mədəniyyətini və səmərəliliyini artıran, həmçinin yaradıcı şəxsiyyət kimi insanı yüksəldən şəraitin yaradılmasıdır. İqtisadiyyatın müxtəlif sahələrində əməyin humanistləşdirilməsinin inkişafı üçün təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması proqramlarının işlənib hazırlanması və həyata keçirilməsi, işçilərin professional artımının planlaşdırılması, işçilərin şəxsi keyfiyyətlərinin təcəssüm etdirilməsi və reallaşdırılması imkanlarının formalaşdırılması, iş yerlərinin və iş vaxtının təşkilinin qeyri-ənənəvi formalarının tətbiq edilməsi (iş vaxtının çevik qrafikləri, evdə iş), istehsalın idarəetmə prosesinə işçilərin cəlb edilməsi, işçilərin əməyinin stimullaşdırılması və əmək məhsuldarlığının motivləşdirilməsi və s. xüsusi əhəmiyyətə malikdir.

ƏMƏYİN İNTENSİVLİYİ (lat. *intensio* – gərginlik, sürətlənmə) – son nəticə (məhsul) əldə etmək üçün müəyyən aralıq vaxt vahidi ərzində işçi tərəfindən sərf olunan əməyin miqdarı ilə ifadə olunan əmək gərginliyi. Bioloji cəhətdən əmək intensivliyi vaxt vahidi ərzində fiziki, zehni (əqli) enerji məsrəfləri ilə müəyyən oluna bilər. K.Marks əmək intensivliyini əmək dəyər nəzəriyyəsinin və əməyin ikili xarakteri haqqında təlimin mühüm tərkib elementi kimi nəzərdən keçirir. Əməyin gərginlik dərəcəsi bilavasitə iş vaxtından istifadənin sıxlığı ilə; əmək üsullarını və aktlarını həyata keçirmək üçün zəruri olan fiziki, zehni (əqli) səylərin kəmiyyəti ilə; bu və ya digər istehsalda əmək hərəkətlərinin təkrarlanması tezliyi ilə; işçinin əmək sahəsi ilə – eyni zamanda yerinə yetirilən əmək funksiyalarının miqdarı ilə; xidmət edilən maşınların miqdarı ilə və s. ilə müəyyən olunur.

Son nəticədə əmək intensivliyinin səviyyəsi onun sosial-iqtisadi şərtləri, iş vaxtının günlük, həftəlik, aylıq, illik davamiyyəti (fondu ilə) və onun isti-



Qrafik 1

fadəsi (xalis iş vaxtı ilə), texniki tərəqqinin istiqamətləri, əməyin təşkili formaları, normallaşması və ödənilməsi, işçilərin həyat səviyyəsi və əməyə münasibətilə və s. müəyyən olunur. Əmək intensivliyinə həmçinin təbii-bioloji amillər: iqlim, cins, yaş, sağlamlıq vəziyyəti, eləcə də tarixi, milli, coğrafi xarakter də böyük təsir göstərir. Əmək məhsuldarlığı və əmək intensivliyi son əməyin səmərəlilik səviyyəsinə eyni dərəcədə təsir göstərir, belə ki, hər ikisi müəyyən aralıq zaman ərzində istehsal olunan məhsulların həcmini artırır. Lakin əgər məhsuldarlığın yüksəldilməsi əmək məsrəflərinin və istehsal olunan məhsulun hər bir vahidinin dəyərinin azalmasına səbəb olursa, əmək intensivliyinin artımı isə bərabər şərtlər daxilində intensivliyə nisbətən vaxt vahidi ərzində daha çox dəyər yaradır, belə ki, istehlak dəyərinin miqdarının

ümumi artımı zamanı onlarda təcəssüm olunan dəyərin həcmi də artır.

ƏMƏYİN İŞƏMUZD ÖDƏNİLMƏSİ – əməyin ödənilməsinin bu cür təşkilində əmək haqqı buraxılmış məhsulun kəmiyyətinə və keyfiyyətinə əsasən hesablanır. Əməyin ödənilməsinin bu formasında işçilərin əmək haqqı işçinin istehsal etdiyi məhsulun miqdarı keyfiyyət nəzərə alınmaqla müəyyən edilir. Bu halda məhsulun hər vahidi üçün müəyyən məbləğdə pul ödənilir.

Əməyin ödənilməsinin işəmuzd formasının aşağıdakı sistemləri vardır:

Birbaşa işəmuzd sistem – bu halda işçinin işləmə normasını yerinə yetirmək dərəcəsindən asılı olmayaraq buraxılmış məhsulun bir vahidinin qiymətləndirmə norması dəyişmir;

İşəmuzd-mükafat sistemi – bu halda fəhlələrə birbaşa işəmuzd qiymətləndirmə normaları üzrə ödənişdən əlavə işləmə normalarının yerinə yetirilməsinə və artıqlaması ilə yerinə yetirilməsinə görə mükafatlar ödənilir;

İşəmuzd-proqressiv sistemdə müəyyən edilmiş işləmə norması həddində ödəniş birbaşa işəmuzd qiymətləri üzrə aparılır, müəyyən edilmiş tapşırıqdan əlavə istehsal edilmiş məhsula görə qiymətləndirmə normaları isə müəyyən edilmiş işləmə normalarının artıqlaması ilə yerinə yetirilməsi dərəcəsindən asılı olaraq proqressiv qaydada artır;

Akkord sistemində əməyin haqqı bütövlükdə bütün işə görə (işlər kompleksinə görə) müqavilədə müəyyən edilmiş məbləğdə ödənilir;

Akkord-mükafat sistemində işçilərə birbaşa akkord naryadı üzrə ödənilən əmək haqqından əlavə işin kəmiyyət və keyfiyyət göstəricilərinə görə mükafatlar ödənilir. İşəmuzd əmək haqqı formasının iki növü vardır: fərdi əmək haqqı və kollektiv (briqada, qrup) əmək haqqı.

ƏMƏYİN KOLLEKTİV ÖDƏNİŞİ – kollektivin gördüyü işə əsasən əmək haqqının hesablanması. Bu növ ödəniş keçmiş SSRİ-də kömür sənayesi, mədən sənayesi, meşə sənayesi və həmçinin tikintidə geniş yayılmışdı.

ƏMƏYİN MARJİNAL MƏHSULDARLIĞI – istehsalın əlavə bir vahid əmək sərfindən əldə olunan artım miqdarı.

ƏMƏYİN NORMALAŞDIRILMASI – istehsalın idarə edilməsi üzrə fəaliyyət növü, başqa sözlə, konkret əməliyyatın və istehsal tapşırığının yerinə yetirilməsi üçün tələb olunan vaxt normasının işlənib hazırlanması. Məqsəd, müəyyən təşkilati-texniki şəraitdə məhsul vahidinin hazırlanması və ya işin verilən həcminin yerinə yetirilməsi üçün zəruri olan əmək məsrəflərinin müəyyənləşdirilməsidir. Əməyin normalaşdırılması əmək üzrə normativlərin işlənib hazırlanması, əmək normalarının tətbiqi, onların yoxlanılması, əvəz edilməsi, istehsal proseslərinin, əməyin təşkilinin, iş vaxtı məsrəflərinin öyrənilməsi və təhlili əsasında nəzarət, işin yerinə yetirilməsi üsullarının, əmək proseslərinin səmərələşdirilməsinin tədqiqini tələb edir. Əmək normalarında əmək məsrəflərinə, işçilərin əmək qabiliyyətinə təsir edən texniki-təşkilati, iqtisadi, sosial, psixoloji amillərin tam məcmusunun nəzərə alınması əməyin normalaşdırılmasının əsasını təşkil edir.

Əməyin normalaşdırılması zamanı analitik və yekun metodları tətbiq olunur. Birinci metod analitik hesab və analitik tədqiqat metodlarına bölünür. Əməyin normalaşdırılmasının analitik-hesab metodları vaxt normativləri və avadanlığın iş rejimi əsasında qurulur; analitik-tədqiqat metodu isə müəyyən əməliyyatların yerinə yetirilməsi zamanı avadanlığın iş rejimi və iş vaxtı məsrəfləri tədqiqatlarının məlumatlarına əsaslanır. Analitik-hesab metodları sənayedə qəbul olunmuş və yeni müəssisələrdə texniki cəhətdən əsaslandırılmış normaların hesablanmasında, kütləvi istehsal şəraitində, həmçinin zəruri normativ materiallar olmasa, istehsalın digər növlərində istifadə edilir.

Yekun metodların tətbiqi zamanı normalar normalaşdırıcının təcrübəsi əsasında (təcrübə metodu) və ya analoji işlərin yerinə yetirilməsi üzrə statistik məlumatlar əsasında (statistik metod) tətbiq olunur.

Analitik normalarla müqayisədə təcrübə-statistik normalar daha az nəticəlidir.

ƏMƏYİN VƏ KAPİTALIN MƏHSULDARLIĞININ AZALMASI QANUNU – siyasi iqtisad konsepsiyası. Onun əsasında əmək və kapital məsrəfləri səmərəliliyinin ardıcıl azalması prinsipi dayanır. Bu konsepsiya öz mənbəyini torpağın məhsuldarlığının azalması nəzəriyyəsindən götürüb. Lakin

əgər azalan məhsuldarlıq nəzəriyyəsinin tərəfdarlarının fikirlərində istehsalın sabit amili torpaq, dəyişən amili əmək və kapitaldırsa, azalan məhsuldarlıq qanununun tərəfdarları istehsalın istənilən amilinə sabit amil kimi baxmağı mümkün sayırlar. Bu əsasda XIX əsrin 80-ci illərində C.B.Klark iki əsas qanun müəyyən etdi. Onun fikrincə, bu iki qanun, yəni əməyin məhsuldarlığının azalması qanunu və kapitalın məhsuldarlığının azalması qanunu istənilən cəmiyyət üçün ümumi əhəmiyyətə malikdir. Birinci qanun belə ifadə edilir: əgər hər hansı bir məhsul istehsalına cəlb olunmuş daimi işçi qüvvəsinə artıq sayda fəhlə əlavə etsək, onda hər bir sonrakı fəhlə məhsulun azalan kəmiyyətini istehsal edəcək. Digər qanunda deyilir ki, fəhlələrin sabit sayında kapitalın artan kəmiyyətinin istifadə edilməsi nəticəsində kapitalın məhsuldarlığı aşağı düşür. Klarkın arqumentləri aşağıdakılardır: onun fikrincə, bir kəndli ona verilən torpaq sahəsini yaxşı becərə bilmir. İkinci və üçüncü kəndlini əlavə etsək, onların səyləri nəticəsində torpağın becərilməsi yaxşılaşacaq və bu sahədə alınan məhsul mühüm dərəcədə çoxalacaqdır. Əgər torpaq sahəsi o qədər də böyük deyilsə, dördüncü və beşinci kəndlinin bu işə cəlb edilməsinin elə bir faydası olmayacaq və məhsulun həcmi çox az dərəcədə artacaq. Altıncı, yeddinci və s. kəndlilərin cəlb edilməsi isə əməyin səmərəliliyinin azalmasına səbəb olacaqdır.

Əməyin və kapitalın məhsuldarlığının azalması qanununun arqumenti T.Karver tərəfindən daha dəqiq ifadə edilmişdir. O, hesab edirdi ki, adətən, əmək, torpaq, kapital kimi təsnifatlandırılan müxtəlif amillərin istifadə edildiyi hər hansı bir məhsulun istehsalında məhsulun kəmiyyəti bir və ya iki qrupdan deyil, bu amillərin hər üç qrupundan asılıdır. Yəni bir və ya iki qrupda kəmiyyət ölçüləri dəyişər, qalan qruplarda isə dəyişməz qalarsa, onda məhsulun kəmiyyəti dəyişiləcək, lakin bu, dəyişən amillərə dəqiq uyğun gəlməyəcək. Bütün normal vəziyyətlərdə, yəni müxtəlif amillərin daha səmərəli proporsiyalarda kombinə edildiyi yerdə amillərdən biri artırsa, məhsulun artması bu amilin artması kimi əhəmiyyətli olmayacaqdır. Müasir iqtisadçılar arasında əməyin və kapitalın məhsuldarlığının azalması qanununun davamçısı P.Samuelsondur. Onun fikrincə, əgər hər hansı bir istehsal amilinin istifadəsi genişlənirsə və bu zaman bütün digər amillərin məsrəfləri dəyişməz qalırsa, onda göstərilən amilin dəyişən məsrəflərinin köməyilə istehsal edilən məhsulun həddinin fiziki həcmi hər hansı bir müəyyən mərhələdən sonra azalmağa başlayacaqdır.

Samuelsonun fikrincə, əlavə əməyin artması ilə məhsulun həcminin proqressiv azalması baş verir. Bu təqdirdə əməyin əlavə məsrəflərinin məhsulun artmasına imkan verməyəcəyi an qaçılmazdır. Başqa sözlə desək, əmək məsrəflərinin elə həddi mövcuddur ki, bu zaman sahibkar işçi qüvvəsinin əlavə muzdla tutulmasını dayandırmalıdır. Samuelson bu yolla istehsalın digər amilləri olan torpaq və kapital ölçüləri dəyişikliklərinin fəaliyyət nəticələrini qiymətləndirir.

ƏMİKİŞİYEV FƏSLİ MƏMMƏD OĞLU (1928-1999) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1954-cü ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin siyasi iqtisad bölməsini bitirmişdir. Ali iqtisadi təhsil alan istedadlı gənc mütəxəssis məşhur iqtisadçı professor Həsən Dadaşovun zəmanəti ilə universitetin "Siyasi iqtisad" kafedrasında saxlanılmışdır. 1957-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi elmi dərəcəsi, bir ildən sonra dosent, 1972-ci ildə doktorluq dissertasiyasını müdafiə edib iqtisad elmləri doktoru elmi dərəcəsi, 1973-cü ildə professor adını almışdır. O, keçmiş Sovetlər Birliyində təkrar istehsal, məcmu ictimai məhsul, milli gəlir problemləri üzrə ən məhsuldar, tanınmış alimlərdən sayılırdı. 150 kitab, dərslik, dərs vəsaiti və elmi məqalənin müəllifidir.

F.Əmikişiyevin elmi kadrların hazırlanmasında xidmətləri böyükdür. Onun rəhbərliyi altında 17 elmlər namizədi, 4 elmlər doktoru hazırlanmışdır.

1978-1986-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda prorektor vəzifəsində işləmişdir.

ƏMİRASLANOV AZƏR KAMAL OĞLU (1971) – Azərbaycan iqtisadçısı, iqtisad elmləri üzrə fəlsəfə doktoru.



1993-cü ildə Azərbaycan Dövlət İqtisad İnstitutunu bitirmişdir. 1996-cı ildə "Bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsi problemləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1993-1994-cü illərdə Milli Bankda, Aqrar Sənaye Bankında aparıcı iqtisadçı, 1994-1998-ci illərdə Milli Məclis Aparatının İqtisadi Qanunvericilik şöbəsində böyük məsləhətçi, 1998-2000-ci illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İqtisadi siyasət şöbəsində məsləhətçi vəzifəsində işləmişdir. 2000-ci ildə Vaşinqtonda ABŞ-ın Biznes üzrə Administrasiyasında "Dövlət, iqtisadiyyat və biznes" mövzusunda tədqiqat aparmışdır. 2001-2003-cü illərdə İqtisadi Təhlil və Konsaltinq Mərkəzinin direktoru, 2003-2004-cü illərdə Almaniya Texniki Əməkdaşlıq Agentliyində makroiqtisadi məsələlər üzrə baş iqtisadçı, 2004-2005-ci illərdə AtaHolding Şirkətlər Qrupunda İdarə heyətinin üzvü, Strategiya və Biznesin İnkişafı Departamentinin direktoru olmuşdur. 2005-2008-ci illərdə Üçüncü Çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, İqtisadi Siyasət daimi Komissiyasının Sədr müavini, 2007-2008-ci illərdə Dövlət Neft Fondunun Müşahidə Şurasının üzvü olmuşdur. 300-ə yaxın analitik-iqtisadi, 30-dan artıq elmi məqalənin, "Azərbaycan iqtisadiyyatı və bazar münasibətləri", "İqtisadi biliklərin əsasları" adlı 2 kitabın müəllifidir. Bilkənt Universitetinin (Türkiyə), Beynəlxalq Valyuta Fondunun, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin, Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyinin, ABŞ-ın Telekommunikasiya Treninq İnstitutunun müvafiq kursları üzrə sertifikatlarını almışdır. 1993-cü ildə Gənc İqtisadçılar Birliyini təsis edib. 2007-ci ildən isə İqtisadi İslahatlar Fondunun rəhbəridir. Hazırda Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının Aqrar siyasət məsələləri şöbəsinin müdiridir.

ƏMLAK – hər hansı daşınar və ya daşınmaz əmlak, o cümlədən qeyri-maddi aktivlər, dövriyyə vəsaitləri və mülkiyyət hüququnun digər obyektləri. Təcrübədə aşağıdakılar da fərqləndirilir: sahibsiz əmlak, vərəsəsiz əmlak, dövlət əmlakı, daşınar əmlak, pul əmlakı, xəzinə əmlakı, kooperativ əmlak, şəxsi əmlak, xalq əmlakı, irsi əmlak, milli əmlak, daşınmaz əmlak, bölünməz əmlak, özgələşdirilməyən əmlak, ictimai əmlak.

ƏMLAK DİVİDENDİ – əmlak şəklində ödənilən dividend; dividendin elan edildiyi tarix üçün əmlakın bazar qiyməti üzrə uçota alınır.

ƏMLAK ƏMANƏTİ – pul vəsaitlərinə, qiymətli kağızlara, öhdəliklərə və s. yox, əmlaka qoyulan əmanət, başqa sözlə, əmlakın yarandığı məqamda müəssisənin əmlakına, eləcə də bu müəssisənin əmlakının artımına işçinin qoyduğu əmlak.

ƏMLAK HÜQUQLARI – müəllifin şəxsi (qeyri-əmlak) hüquqlarından fərqli olaraq, onun əmlak hüquqlarının iqtisadi aspektlərini təşkil edən müəlliflik hüququ. Qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, müəllif (hüquq sahibi) qonorar ödənilməsi üçün əsərdən hər hansı formada və üsulla istifadə olunarkən qonorar ödənilməsini tələb edə bilər. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində müəllifin əmlak (iqtisadi) hüquqlarına daxil olan



əsərin surətini çıxarmaq, yaymaq, kirayəyə vermək, idxal etmək, kütləvi nümayişi, kütləvi ifası, kütləvi bildirişi, efirlə kütləvi bildirişi, kabellə kütləvi bildirişi, tərcüməsi, yenidən işlənməsi və s. hüquqları göstərilmişdir.

ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ – dövlət əmlakının idarə edilməsi, onun özəlləşdirilməsi, bu sahəyə investisiyaların cəlb olunması və Azərbaycan Respublikasında daşınmaz əmlakın dövlət reyestrinin və vahid kadastrının aparılması sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı. 2009-cu ildə Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti bazası əsasında yenidən təsis edilmişdir.

Komitə qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisində və xarici ölkələrdə yerləşən dövlət əmlakını idarə edir və onun barəsində sərəncam verir, dövlət əmlakının idarə edilməsinin səmərəliliyini artırmaq məqsədilə zəruri tədbirlər görür. Qanunvericiliyə müvafiq olaraq dövlət əmlakının, o cümlədən dövlət mənzil fondunun və torpaqlarının özəlləşdirilməsini həyata keçirir; dövlət əmlakının və onun barəsində bağlanmış əqdlərin qeydiyyatını aparır, dövlət əmlakının inventarlaşdırılmasını təşkil edir. Komitə, həmçinin özəlləşdirməyə açıq elan edilmiş dövlət müəssisələrinə investisiyaların cəlb olunmasını təmin edir, özəlləşdiriləcək dövlət müəssisələrinin dövlətsizləşdirməyə hazırlanması və sağlamlaşdırılması sahəsində tədbirlər görür; özəlləşdirilmiş müəssisələrin inkişafına dəstək verir və onların fəaliyyətinin stimullaşdırılması sahəsində müvafiq tədbirlərin həyata keçirilməsini təmin edir. Dövlət müəssisələri özəlləşdirildikdən sonra onların yeni mülkiyyətçiləri tərəfindən həmin müəssisələrə investisiya qoyuluşu üzərində nəzarəti təmin edir; daşınmaz əmlakın dövlət reyestrini tərtib edir və aparır, daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatını həyata keçirir. Bununla yanaşı, daşınmaz əmlakın vahid kadastrının və ünvan reyestrinin aparılmasını və daşınmaz əmlak obyektlərinə ünvan verilməsini təmin edir; daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı üçün zəruri olan inventarlaşdırma işlərinin aparılmasını və müvafiq texniki sənədlərin tərtib edilməsini, torpaq sahələrinin planının və ölçüsünün çəkilməsini təmin edir.



Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin inzibati binası

Müasir dövrümüzdə aktual məsələlərdən biri olan daşınmaz əmlakın, o cümlədən tikililərin, binaların, qurğuların, yaşayış və qeyri-yaşayış sahələrinin, fərdi yaşayış və bağ evlərinin, habelə müəssisələrin qiymətləndirilməsini təşkil edir və qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

Komitənin strukturuna aşağıdakı qurumlar daxildir: Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti; Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi; Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin ərazi bölmələri.

Eyni zamanda, əmlak məsələləri üzrə dövlət siyasətini daha da effektiv həyata keçirmək üçün komitəyə aşağıdakı qurumlar tabedir: Daşınmaz Əmlakın Kadastrı və Texniki İnventarlaşdırma Mərkəzi; İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi; Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələri; İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzi.

Respublikada xüsusi mülkiyyət mühüm xarakter almış, sahibkarlıq inkişaf etmiş və iqtisadiyyatın inkişafında özəl sektorun xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdır. Aparılmış fəal özəlləşdirmə tədbirləri və proqramların vaxtında icrası dövlət müəssisələrinin səmərəli fəaliyyətinə zəmin yaratmış, onların fəaliyyətinin yenidən qurulmasına və inkişafına ciddi təsir etmişdir. İndi bir çox özəlləşdirilmiş müəssisələr rəqabət qabiliyyətli və ixrac yönümlü məhsullar istehsal edirlər. Bu müəssisələrdə on minlərlə iş yerləri bərpa edilmiş və yeni iş yerləri açılmışdır (bax: İqtisadiyyatın özəl sektoru).

> ***"Böyük təbii sərvətlər, iqtisadi, intellektual, elmi potensial ölkəmiz üçün çox yaxşı gələcək yarada bilər. Bu gələcək də yalnız və yalnız iqtisadiyyatın aparılması sisteminin, mülkiyyət formasının dəyişdirilməsindən, sərbəst iqtisadiyyata, təşəbbüskarlığa geniş yer verilməsindən, bazar iqtisadiyyatı yolu ilə getməkdən ibarətdir".***
>
> ***Heydər Əliyev***
> ***7 mart 1995-ci il***

Görülmüş tədbirlər nəticəsində 45 minə yaxın müəssisə və obyekt özəlləşdirilmişdir. 1600-ə yaxın dövlət müəssisəsi səhmdar cəmiyyətinə, 500 min nəfərdən çox əmək kollektivi üzvləri və vətəndaşlar əmlak mülkiyyətçilərinə və səhmdarlara çevrilmişdir. 10-a yaxın dövlət komitəsi, konsern və şirkət ləğv edilərək, onların tabeliyində olan müəssisə və obyektlər özəlləşdirməyə açılmışdır. Həmin müəssisələrin sağlamlaşdırılması istiqamətində əhəmiyyətli işlər aparılmış, uzun illər yığılıb qalmış borcları silinmiş, işçilərin əmək haqqı və sosial ödəmələr problemi həll edilmişdir.

Əvvəlki Dövlət Proqramı da nəzərə alınmaqla, ilkin mərhələdə ticarət və xidmət obyektlərinin özəlləşdirilməsi ilə başlayan dövlətsizləşdirmə getdikcə iqtisadiyyatın daha geniş sahələrini, o cümlədən maşınqayırma, metallurgiya, kimya, nəqliyyat, rabitə, tikinti, aqrar, emal, sosial və digər sahələri əhatə edir.

Özəlləşdirmə prosesinin uğurla həyata keçirilməsi milli iqtisadiyyatın diversifikasiya edilməsi imkanlarını xeyli genişləndirmişdir. Özəlləşdirmə proqramının uğurla reallaşması mülkiyyət üzərində dövlətin hökmran mövqeyini aradan qaldırdı, dövlət əmlakının səmərəli idarə edilməsi mexanizmlərini yaratmağa, bazar münasibətlərinin iqtisadi əsası kimi geniş xüsusi mülkiyyətçilər təbəqəsini formalaşdırmağa imkan verdi. Proqram özəlləşdirilən müəssisələrdə ixrac potensiallı və rəqabətqabiliyyətli məhsulların istehsalının genişləndirilməsini, eyni zamanda, iqtisadiyyatda əsaslı struktur dəyişikliklərinin aparılmasını, dövlət müəssisələrinin idarəçilik mexanizmlərinin təkmilləşdirilməsini, dövlətə məxsus olan səhmdar cəmiyyətləri və şirkətlərdə müasir korporativ idarəetmə metodlarının tətbiqini ön plana çəkdi.

Bu gün respublikada daşınmaz əmlak üzərində hüquqların qeydiyyatının şəffaf və səmərəli mexanizmi qurulmuşdur. Əldə edilən müsbət nəticələrdən biri də ondan ibarətdir ki, daşınmaz əmlakın qeydiyyatı proseduru asanlaşdırılmış, müddətlər azaldılmış, qeydiyyatın "bir pəncərə" prinsipi ilə həyata keçirilməsinə doğru əməli addımlar atılmış, bu sahədə vahid dövlət qeydiyyatı orqanı müəyyən edilmişdir.

Ölkədə vətəndaşlara əvəzsiz verilmiş mənzil fondu və torpaqlar üzərində hüquqların dövlət qeydiyyatına alınması təmin edilmişdir. Qeydiyyat sisteminin avtomatlaşdırılması məqsədi ilə Milli Qeydiyyat Sistemi və vahid korporativ kompüter şəbəkəsi yaradılmışdır. Qeydiyyat idarələrinin arxivləri yenidən qurulmuş və arxiv məlumatlarının elektron formata keçirilməsi tədbirlərinə başlanmışdır. Vətəndaşların məlumatlandırılması məqsədi ilə davamlı ictimai agahlıq və hüquq maarifləndirmə tədbirləri həyata keçirilir. Vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədi ilə regionlarda qeydiyyat idarələri üçün yeni inzibati binalar tikilmiş, idarələr müasir mebel və ofis avadanlıqları, habelə müasir geodezi cihazlar, kompüterlər və texniki avadanlıqlarla təmin olunmuşdur.

Daşınmaz əmlakın qeydiyyatı və kadastrı sisteminin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir: beynəlxalq standartlara uyğun Vahid Avtomatlaşdırılmış Daşınmaz Əmlakın Qeydiyyatı, Kadastrı və İdarəedilməsi Sistemi (DƏQKİS) hazırlanır; Azərbaycanın ərazisini əhatə edən aerofoto və kosmik çəkilişlər əsasında ortofotoxəritələr hazırlanmış; Azərbaycanın ərazisini əhatə edən 37 stansiyadan ibarət Fasiləsiz Fəaliyyət Göstərən İstinad Stansiyaları Şəbəkəsi (AZPOS) quraşdırılmış; ölkənin ərazisini əhatə edən daşınmaz əmlakın rəqəmsal kadastr xəritələrinin hazırlanmasına başlanmış; ölkə üzrə daşınmaz əmlakın qeydiyyatı və kadastrı üzrə vahid elektron məlumat bazası, həmçinin, Azərbaycanın Vahid Ünvan Reyestri Sistemi yaradılır.

ƏMLAK SIĞORTASI – sığortaçı ilə sığorta olunan arasında bağlanmış müqavilə növü. Müqavilənin şərtinə görə sığortaçı sığorta olunana dəymiş ziyanı ödəmə öhdəliyini üzərinə götürür. Əmlak sığortası müqaviləsi ilə əmlakın müəyyən hissəsi və ya aşağıdakı əmlak maraqları da sığortalana bilər: 1) qanunda və müqavilədə nəzərdə tutulan hallara uyğun olaraq, əmlakla bağlı yaranmış məsuliyyət riskini; 2) sahibkarlıq fəaliyyəti zamanı əks tərəfin öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar gözlənilən gəlirlərin alına bilməməsi riski. Müqaviləyə görə, sığortaçı sığortalının (xeyir güdənin) digər əmlak maraqları ilə əlaqədar itkilərin, yaxud sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya digər xeyir güdənə dəymiş zərərin bu müqavilədə şərtləşdirilmiş məbləğdə ödənilməsini öhdəsinə götürür. Əmlak sığortası üç yarımsahəyə bölünür: əmlakın sığortalanması, sahibkarlığın sığortalanması və məsuliyyətin sığortalanması. Əmlakın sığortalanmasının obyekti sahiblik, sərəncam və istifadə ilə əlaqədar əmlak maraqlarıdır. Sahibkarlığın sığortalanmasının obyekti sahibkarın öhdəliklərinin kontragent tərəfindən pozulması və ya sahibkarlıq fəaliyyəti şərtlərinin dəyişməsi üzündən sahibkarlıq fəaliyyətindən gözlənilən gəlirlərin alınmaması riski ilə əlaqədar əmlak maraqlarıdır. Məsuliyyətin sığortalanmasının obyekti şəxsiyyətə və ya onun əmlakına dəymiş zərərin, eləcə də üçüncü şəxsə dəymiş zərərin sığortaçı və ya sığortalanmış şəxs tərəfindən ödənilməsi ilə əlaqədar əmlak maraqlarıdır. Vətəndaşların əmlak sığortasının aşağıdakı növləri vardır: yaşayış binaları (mənzil və ya otaq) və onların konstruktiv elementlərinin (örtüklər, daşıyıcı və qoruyucu arakəsmələr) və eləcə də tavan, divar və döşəmələrin haşiyələrinin məcmusunun sığorta olunması; şəxsi avtomobil nəqliyyatının sığorta olunması; tikililər (şəhərkənarı yaşayış evləri, hamamlar və digər tikililər) və onların konstruktiv elementlərinin sığorta olunması; məişət, şəxsi istehlak və yardımçı təsərrüfat vasitələrinin sığorta olunması; qurğuların, su çənlərinin, qaz anbarlarının və kəmərlərinin sığorta olunması; ev heyvanlarının sığorta olunması və s. Əmlak sığortası zamanı sığorta dəyəri hər bir sığorta obyektinin müqavilənin imzalanma müddəti üçün hesablanmış həqiqi dəyəri üzrə müəyyən olunur. Sığortalı şəxs sığorta dəyərini sığorta obyektinin həqiqi dəyərindən az təyin edə bilər. Bu, natamam sığorta münasibətidir. Bu halda sığorta hadisəsinin baş verməsi zamanı ödənişlər obyektin dəyərinin sığorta dəyərinə olan nisbətinə uyğun olaraq proporsional şəkildə həyata keçirilir.

ƏMLAK SIĞORTASI ÜZRƏ TƏDİYƏLƏRDƏN AYIRMALAR – dövlət sığorta orqanlarının xərclərinin spesifik hissəsi. Ayırmalar profilaktik tədbirlərin, kütləviizahat işlərinin maliyyələşdirilməsi və əmlak sığortası fondlarının ehtiyatlarının yaradılması üçün aparılır.

ƏMLAK SIĞORTASINDA REQRES HÜQUQU – sığortalanmış əmlakın məhvində günahkar olan şəxsdən dəymiş zərərin kompensasiyasını tələb etmək hüququ. Reqres hüququ sığorta ödənişi əldə olunduqdan sonra sığortalıdan və ya digər şəxsdən sığortaçıya keçir.

ƏMLAK SIĞORTASINDA SIĞORTA DƏYƏRİ – sığorta müqaviləsinin bağlandığı gün olduğu yerdə sığortalanmış əmlakın həqiqi dəyəri.

ƏMLAK SIĞORTASINDA SIĞORTA ÖDƏNİŞİNİN MƏBLƏĞİ – sığorta hadisəsi nəticəsində sığortalı və ya xeyir güdən tərəfindən törədilən zərərin ölçüsü nəzərə alınaraq müəyyən edilir.

ƏMLAK ŞƏKLİNDƏ SƏRMAYƏ – bir şeyə əmanətin pul vəsaitləri, qiymətli kağızlar, öhdəliklər və sair formalarda deyil, əmlak şəklində sərmayə qoyulması.

ƏMLAK VERGİSİ – rezident və qeyri-rezident fiziki və hüquqi şəxslərin mülkiyyətində olan əmlakdan tutulur. Belə ki, fiziki şəxslər xüsusi mülkiyyətlərində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən binaların dəyərinin 5000 manatdan çox olan hissəsindən 0,1 faiz dərəcə ilə, mülkiyyətlərində olan hava və su nəqliyyatı vasitələrinə görə onların mühərriklərinin 1 kub santimetri üçün 0,02 manat dərəcə ilə vergi ödəməlidirlər. Hüquqi şəxslər isə əsas vəsaitlərinin orta illik qalıq dəyərindən 1 faiz dərəcə ilə əmlak vergisi ödəyirlər. Əsas vəsaitlərin orta illik qalıq dəyərini hesablamaq üçün onların hesabat ilinin əvvəlinə və sonuna qalıq dəyəri toplanıb ikiyə bölünür.

Əmlak vergisi illik hesablanır. Bu vergi növünün digər vergilərdən (torpaq vergisi istisna olmaqla) fərqi ondan ibarətdir ki, əmlak vergisi şəxsin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq ödənilir. Yəni əmlak vergisi hesablanarkən şəxsin gəlir və ya mənfəət əldə edib-etməməsi nəzərə alınmır.



Sxem 1

Bu vergi növü üzrə də azadolmalar və güzəştlər müəyyən edilmişdir. Bunlara misal olaraq, dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünüidarəetmə orqanlarının əmlak vergisi ödəməkdən azad edildiklərini, misgərlik, qalayçılıq, dulusçuluq, bədii tikmə və s. xalq sənətkarlığı ilə məşğul olan fiziki şəxslərin sənətkarlıq emalatxanası binalarının əmlak vergisinə cəlb edilmədiyini qeyd etmək olar.

ƏMLAK ZİYANI – fiziki və ya hüquqi şəxsin əmlakına baş vermiş itki və ya onunla bağlanmış müqavilənin icra olunmamasına görə dəymiş ziyan.

ƏMLAKI XARİCİ İDARƏETMƏ – intizamsız borcluya tətbiq olunan tədbirlərdən biridir ki, bu zaman borclu-müəssisənin (müflis müəssisənin) idarəetmə funksiyaları Arbitraj Məhkəməsi tərəfindən təyin olunan xüsusi şəxsə – arbitraj müdirə həvalə olunur.

Əmlakı xarici idarəetmə şərtləri:

1. Əgər borclunun ödəmə qabiliyyətinin bərpa olunacağını təxmin etmək əsasları varsa, onda müəssisənin fəaliyyətinin davam etdirilməsi üçün onun böhranlı vəziyyətdən çıxarılma üsulu kimi əmlakın bir hissəsini realizə etmək, iqtisadi və ya təşkilati xarakterli bəzi digər tədbirləri həyata keçirmək kifayətdir.
2. Moratoriumun (kreditorların tələblərinin razı salınma vaxtının uzadılması) elan olunduğu xarici idarə edənin maksimal təyini müddəti 18 aydır. Vaxtın uzadılması xarici idarəetmənin təyininə qədər hüquqi şəxsin yaranan borclarına şamil olunur.
3. Əmlakın xarici idarə olunması o halda bitir ki, borclunun ödəniş qabiliyyəti bərpa olunsun, yaxud o, müflis elan edilsin.
4. Mülki Məcəllənin 55-ci maddəsi ilə məhkəmə hüquqi şəxsin kənar idarəçisini təyin edir və ona hüquqi şəxsi yenidən təşkil etməyi tapşırır. Kənar idarəçinin təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Kənar idarəçi məhkəmədə hüquqi şəxsin adından çıxış edir, bölünmə balansını tərtib edib baxılmaq üçün onu yenidən təşkil nəticəsində yaranan hüquqi şəxslərin nizamnamələri ilə birlikdə məhkəməyə verir. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı, qanunvericiliyin tələblərinə riayət edilməklə yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün əsasdır.



ƏMLAKIN ARADAN GÖTÜRÜLMƏSİ – vergi üzrə qalığın ödənilməsində əhalinin əmlakına cərimənin istifadə edilməsi zamanı tətbiq olunan tədbir, kənd əhalisinin icbari sığortaya cəlb edilməsi.

ƏMLAKIN DƏYƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ (ing. *valuation (assessment) of property*) – əmlakın dəyərinin rəsmi qiymətləndirilməsi, bir qayda olaraq, daşınmaz əmlak obyektlərinin dəyərinin müəyyən edilməsi. Vergitutma, sığorta, özəlləşdirmə, vərəsəlik, icarə, əmlak dəyərlərinin girovdan çıxarılması hallarında və ya onların uçotunu aparmaq məqsədilə, eləcə də əmlak dəyərlərinin sahibi tərəfindən onların satış qiymətinin formalaşdırılması zamanı həyata keçirilir.

ƏMLAKIN HƏQİQİ DƏYƏRİ – qiymətləndirmə fəaliyyəti haqqında qanunvericiliyə uyğun olaraq əmlakın bazar dəyəri.

ƏMLAKIN İNVESTİSİYALAŞMA MƏQSƏDİ – onun artımı deməkdir. Fondu təşkil edən əmlakın etibarlı idarəedilməsindən əldə edilən gəlirləri idarə edən şirkətin mülkiyyəti deyil, fondu təşkil edən əmlakın artımına aiddir.

ƏMLAKIN KİRAYƏ VERİLMƏSİ – icarə münasibətlərinin bir növü. Müəssisələrin müvəqqəti istifadə edilməyən obyektləri yarandıqda onlar əmlakı vaxtaşırı icarəyə verə bilərlər; əmlakın kirayə verilməsi daimi əsasda həyata keçirilir. İcarə müqaviləsinə əsasən verilmiş əmlak icarəçi tərəfindən adətən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün istifadə edilir. Əmlak kirayə verildikdə isə ondan, bir qayda olaraq, istehlak məqsədləri üçün istifadə edilir. İcarə müqaviləsinin qüvvədə olma müddəti qeyri-məhduddur, kirayə müqaviləsi isə bir qayda olaraq, bir ilə qədər dövr üçün bağlanır. Bundan əlavə, kirayə müqaviləsinə əsasən təqdim edilmiş əmlakın başqasına icarəyə verilməsinə icazə verilmir.

ƏMLAKIN KİRAYƏÇİSİ – əmlakın kirayəsi haqqında kontraktın iştirakçısı. O, müvafiq haqq müqabilində, eləcə də müqavilədə göstərilən məhdudiyyətlərə uyğun olaraq göstərilən müddətdə həmin əmlaka sahiblik və ondan istifadə etmək hüququ əldə edir.

ƏMLAKIN QALIQ DƏYƏRİ – əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər azaldılan dəyəri.

ƏMLAKIN QİYMƏTLƏNDİRİLMƏSİ (ing. *valuation of property*) – təsərrüfat vəsaitlərinin mühasibat uçotu əks etdirilən ayrı-ayrı növlərinin və onların yaranma mənbələrinin pul şəklində ifadəsi.

Əmlakın qiymətləndirilməsinin əsasını faktiki çəkilmiş xərclər təşkil edir. Ödənişlə alınmış əmlakın qiymətləndirilməsi həmin əmlakın alınması üçün faktiki çəkilmiş xərclərin cəmlənməsi yolu ilə; əvəzsiz alınmış əmlakın qiymətləndirilməsi – onun mədaxil tarixində bazar dəyəri üzrə; təşkilatın özündə istehsal edilmiş əmlakın qiymətləndirilməsi onun hazırlanmasının dəyəri üzrə həyata keçirilir.

Təşkilatın valyuta hesabları və xarici valyuta ilə aparılmış əməliyyatlar üzrə mühasibat uçotu əməliyyatın aparıldığı tarixdə Azərbaycan Respublikası Mərkəzi Bankının məzənnəsi üzrə xarici valyutanın təkrar hesablanması əsasında manatla aparılır.

ƏMLAKIN SIĞORTALANMASI – əmlak sığortası.

ƏMLAKIN TƏSADÜFƏN MƏHV OLMASI RİSKİ – əmlakın təsadüfən məhv olması, korlanması ehtimalının sığortalanması. Əşyanın təsadüfən məhv olması dedikdə onun sahibinin təqsiri ilə əlaqədar olmayan hallar nəticəsində itirilməsi, korlanması, zədələnməsi başa düşülür.

ƏMR (SƏRƏNCAM) VERİLMİŞ QİYMƏTLƏR – bazarda müəyyənləşməyən, inzibati yolla müəyyən olunan qiymətlər.

ƏMRİN DAYANDIRILMASI – fond birjalarında limit əmrinin bir növü, qiymətli kağızların qiymətinin müəyyən intervaldan çıxması zamanı müştərinin bu qiymətli kağızlarla ticarətinin dayandırılması haqqında müştərinin brokerə göstərişi (qiymətli kağızların satışı zamanı, bir qayda olaraq, aşağı qiymət həddi, alqı-satqı zamanı isə yuxa rı qiymət həddi təsbit olunur).

Əmrin dayandırılması qiymətli kağızların ticarəti zamanı zərərlərin hecirləşməsi formalarından biridir.

ƏMRNAMƏ – nəzarət orqanının sığortaçını müəyyən edilmiş müddətdə aşkar edilmiş pozuntuları aradan qaldırmağa məcbur edən yazılı sərəncamı.

ƏMSAL, "ALFA" (*alpha*) – qiymətli kağızın və ya qiymətli kağızlar portfelinin orta gəlirliliyi və kapital bazarının qiymət modeli ilə müəyyən edilən gözlənilən eyni çəkili gəlirlilik arasında fərq.

ƏMSAL, "BETA" (*beta*) – qiymətli kağızların bazar riskinin ölçü vahidi. Qiymətli kağızların məlumatlarının gəlirliliyinin bazar portfelinin gəlirliliyinin dəyişməsinə həssaslığını göstərir. Bu əmsalın köməyilə kapital bazarının qiymət modelində riski ölçülür.

ƏMSAL, P/E (*price/earnings multiple*) – səhmin bazar qiymətinin vergi çıxıldıqdan sonra ondan alınan mənfəətə nisbəti.

ƏMSALLARIN TƏHLİLİ – iki müxtəlif göstərici arasında nisbətin ölçülməsi.

Maliyyə təhlilində adətən əmsalların beş əsas qrupunu nəzərdən keçirirlər:

1) cari öhdəliklərin ödənilməsi imkanını ölçən əmsallar;
2) cari aktivlərin hərəkətini (dövriyyəsini) xarakterizə edən əmsallar;
3) xüsusi kapitalı xarakterizə edən əmsallar;
4) əsas fəaliyyətin nəticələrini ölçən indekslər;
5) bazarda informasiyanı xarakterizə edən əmsallar.

Adekvat nəticələr çıxarmaq və alınmış əmsalları interpretasiya etmək üçün aşağıdakı müqayisələrin aparılması zəruridir:
1) cari ilin faktiki əmsallarını əvvəlki ilin əmsalları ilə, eləcə də 5-10 il müddətində ayrı-ayrı əmsallarla müqayisə etmək;
2) faktiki əmsalları şirkətlər tərəfindən qəbul edilmiş normativlərlə müqayisə etmək;
3) rəqiblərin dərc edilmiş maliyyə hesabatlarından istifadə etməklə öz əmsallarını rəqiblərin göstəriciləri ilə müqayisə etmək;
4) faktiki əmsalları sahəvi göstəricilərlə müqayisə etmək.
Təhlil edilən əmsalları eyni sahədə fəaliyyət göstərən başqa şirkətlərin göstəriciləri ilə və bir neçə il üçün alınmış məlumatlarla müqayisə etmək olar. Ayrıca götürülmüş bir əmsalı təhlil etməyin mənası yoxdur. Bu, şirkətin maliyyə vəziyyətini təhlil etmək üçün səmərəli metoddur, lakin onun özünəməxsus məhdudiyyətləri vardır. Nəzərə almaq lazımdır ki, əmsallar əvvəllər mövcud olmuş şəraiti bərpa edir. Onlar faktiki məlumatlara əsaslanır və buna görə də əvvəlki hadisələrin xarakteristikalarını əks etdirirlər. Alternativ metodlardan və uçotdan istifadə edilməsi əmsalların qiymətinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər (məsələn, müntəzəm amortizasiya və qalığın ikiqat azaldılması metodu).

ƏMTƏƏ – 1. İstehsalçının öz tələbatını deyil, bazar üçün, mübadilə üçün nəzərdə tutulan əmək məhsulu. 2. İstehsal iqtisadi fəaliyyətin maddi-əşyavi formada hər hansı məhsulu. 3. Satıcılarla alıcılar arasında alqı-satqı, bazar münasibətləri obyekti, başqa sözlə, tələb və ehtiyacı ödəmək məqsədilə satış üçün nəzərdə tutulan əmək məhsulu.

Əmtəə bazar təsərrüfatı nəzəriyyəsinin əsas kateqoriyasıdır. Tarixi və məntiqi olaraq "nemət" kateqoriyasından sonra gəlir. Əmtəənin nemətdən fərqli olaraq xüsusiliyi ondadır ki, o, sadəcə olaraq, iqtisadi fəaliyyətin nəticəsi deyil (yəni iqtisadi nemət), alqı-satqı (Ə-P-Ə) yolu ilə mütləq mübadiləsi (Ə-Ə) üçün yaradılmışdır ki, burada Ə – əmtəə, P – puldur.

Əmtəə özlüyündə iki xüsusiyyətə malikdir: insanın hər hansı tələbatını ödəmək qabiliyyətinə, mübadiləyə yararlığa.

Əmtəə və onun xüsusiyyətləri



Sxem 1

Əmtəənin insanın bu və ya digər tələbatını ödəmək qabiliyyəti onun istehlak dəyərini təşkil edir. İstənilən əmtəə istehlak dəyərinə malikdir. Onların ödənilməsi yolları da müxtəlif ola bilər. Bəzi şeylər tələbatı istehlak şeyi (çörək, geyim və s.) kimi bilavasitə, digərləri isə istehsal vasitələri (dəzgah, xammal) kimi dolayısı ilə ödəyə bilir. Bir çox istehlak dəyərləri bir deyil, bir sıra ictimai tələbatları (məsələn, oduncaq kimyəvi xammal, yanacaq kimi, mebel istehsalı üçün istifadə olunur) ödəyə bilir.


İstehlak dəyərləri hər bir cəmiyyətin sərvətinin məzmununu təşkil edir. İstehlak dəyərinin üç təzahür forması var: miqdar, natural, keyfiyyət. Keyfiyyət verilmiş istehlak dəyərinin faydalılığının, tələbata müvafiqliyinin, istehlakın konkret şəraitində tələbatı ödəməyə yararlığının dərəcəsidir. İstehlak dəyəri və faydalılıq qarşılıqlı əlaqəlidir, lakin eyniyyət təşkil etmir. Faydalılıq özlüyündə istehlak dəyəridir, istehlak dəyəri isə mütləq istifadədə həyata keçiriləndir. Natural təsərrüfatda əmək məhsulları istehsalçıların özləri üçün istehlak dəyəridir, əmtəələr isə başqaları üçün istehlak dəyəridir, yəni ictimai istehlak dəyəridir.

Əmtəənin müəyyən miqdarı nisbətlərində mübadilə olunmaq qabiliyyəti mübadilə dəyəridir. İstehlak dəyəri əmtəəni keyfiyyət baxımından səciyyələndirirsə, mübadilə dəyəri kəmiyyət baxımından səciyyələndirir. Əmtəə bazarında satıcını mübadilə dəyəri, alıcını isə istehlak dəyəri maraqlandırır.

K.Marks qeyd edirdi ki, əmtəənin mübadilə və istehlak dəyəri kimi ikiliyi, onun ikili tam mahiyyəti əmtəə yaradan əməyin ikili xüsusiyyətinin nəticəsidir. Əmtəə yaradan hər bir əmək istehlak dəyərini əmələ gətirən, konkret məqsədlə, əməliyyatın xarakteri, əmək cisimləri və alətləri, nəticə ilə müəyyən olunan konkret əməkdir. Eyni zamanda, mübadilə dəyərini yaradan mücərrəd əmək, ümumiyyətlə, insan enerjisinin, fizioloji mənada iş qüvvəsinin (enerji, əzələ, əsəb və s.) məsrəfidir.

ƏMTƏƏ BİRJASI (ing. *kommodiru exchange*) – müəyyən edilmiş nümunə və standartlara uyğun olan və qiymətləri real tələb və təklifdən asılı olaraq təyin edilən kütləvi istehsal malları ilə topdansatış ticarət bazarı. Əmtəə birjaları təşkilati cəhətdən əsasən korporasiyalarda birləşən və yalnız gəlir götürməyi deyil, həm də ticarətin asanlaşdırılmasını qarşısına məqsəd qoyan ayrı-ayrı şəxslərin asso-

Əmtəənin həyat tsikli



Qrafik 1

siasiyaları şəklində rəsmiləşdirilir.

Əmtəə birjası anbarda yerləşən nağd əmtəə partiyaları barədə əqdlərin bağlandığı real əmtəə bazarlarından əqdlərin müəyyən müddət üçün bağlandığı bazaradək inkişaf yolu keçmişdir.

Əmtəə birjasının əsas funksiyası daim fəaliyyət göstərən əmtəə bazarını təşkil edərək birja alveri iştirakçılarına vasitəçilik, informasiya və digər xidmətləri göstərməkdir.


Birjada ticarət əmtəə adlarının məhdud sayı üzrə aparılır. Taxıl, ət, diri mal-qara, neft məhsulları, əlvan və qiymətli metallar, ağac, taxta-şalban, maşınqayırma və kimya sahələrinin bəzi standartlaşdırılmış məhsul növləri klassik birja əmtəələri sayılır. Özü də əqdlərin bağlanması əmtəələr bilavasitə təqdim olunmadan, nümunələr, əyarlar, texniki sənədlər, yəni, artıq təşəkkül tapmış birja standartları üzrə həyata keçirilir.

Əmtəə birjasınada alış-veriş üzrə əqdlər bağlanan malların mülkiyyətçisi ticarət aparmır. Əmtəə birjasında əmtəələrin deyil, onların tədarükü üzrə kontraktların alış-verişi aparılır.

Əmtəə birjasının məqsədi bazarda sağlam rəqabəti təmin etmək, real tələb və təklifi müəyyənləşdirmək, qiymətləri və mübadilə münasibətlərini stabilləşdirməkdir. Ayrı-ayrı şəxslər, birjada öz müştəriləri üçün əqdlər bağlayan iri broker firmaları və korporasiyalarının nümayəndələri əmtəə birjasının üzvləri ola bilərlər.

Əmtəə birjalarının ixtisaslaşdırılmış və universal növləri var. İxtisaslaşdırılmış birjalar yalnız müəyyən əmtəə növü (məsələn, qəhvə, pambıq, neft, metal) ilə əməliyyatlar aparırlar. Universal birjalar yalnız əmtəə kontraktları ilə deyil, həm də qiymətli kağızların, valyutanın və s. alı-

Əmtəə birjası bazarının inkişaf ənənələri



Sxem 1

Birja – informasiyanın dəyərə çevrilməsi aləti kimi



Sxem 2

nıb-satılması ilə məşğul olurlar. Məsələn, ABŞ-ın Çikaqo şəhərində yerləşən və müxtəlif əmtəə, valyuta və maliyyə alətlərinin ticarət olunduğu birja – Çikaqo əmtəə birjası dünyanın iri əmtəə birjalarından sayılır.

Əmtəə birjalarının açıq və bağlı növləri var. Bağlı birjalarda aparılan ticarət əməliyyatlarında yalnız birja dəllalları (brokerlər), açıq birjalarda isə brokerlərdən savayı birjaya gələn digər şəxslər də iştirak edə bilərlər.

Birja əməliyyatlarının xarakterinə görə əmtəə birjaları real əmtəə və fyuçers birjalarına bölünür. Real əmtəə birjalarında kontraktların satışı adətən əmtəənin sonrakı tədarükü ilə müşayiət olunur. Fyuçers birjalarında isə gələcək mərhələdə, istehsal olunacaq əmtəələrin realizasiyasına dair kontraktların satışı həyata keçirilir.

ƏMTƏƏ ÇEKİ – standart formalı qiymətli sənədin bir növü. Mağazanın satıcısı həmin sənədi müştəri tərəfindən seçilmiş malın alınması faktını təsdiq etmək üçün yazır. Alıcı ödəniş apardıqdan dərhal sonra çekdə müəyyən qeydiyyat aparılır və həmin sənəd maliyyə sənədi statusu əldə edir. Əmtəə çeki alıcılarla hesablaşmalarda zəruri maddədir. Sahibkarın və ya firmanın rəsmi gəliri onun əsasında qeydiyyata alınır. Əmtəə çekləri yazılması praktikasından istifadə edilmədikdə kassaya nağd pulun rəsmi mədaxilinin uçotu aparılmır. Bu halda "Qara nal" anlayışı yaranır. Bu, dövriyyədə olan nağd pulun bank hesabları üzrə keçməyən, rəsmi şəxslər və vergi orqanları tərəfindən görünməyən hissəsidir.

ƏMTƏƏ DÖVRİYYƏSİNDƏ ÇEŞİDLİ İRƏLİLƏYİŞLƏR İNDEKSİ – əmtəələrin satışının qrupdaxili çeşid strukturunda irəliləyişlər hesabına əmtəə dövriyyəsinin dəyişikliyini göstərən indeks. Bu indeks yalnız satılmış əmtəələrin miqdarının toplandığı əmtəə qrupları üzrə qurula bilər. Əmtəə dövriyyəsinin fiziki həcminin qrup indeksi satılmış əmtəələrin miqdarı indeksi ilə çeşidli irəliləyişlər indeksinin hasili kimi müəyyən oluna bilər.

ƏMTƏƏ FORMASINDAKI PUL – həqiqi dəyəri olan əmtəə formasını ala biləcək pul.

ƏMTƏƏ İDEYASININ TƏRƏFDARI – təşkilat çərçivəsində konkret malın və ya layihənin irəliləməsi və uğurlu nəticənin əldə olunması üçün üzərinə məsuliyyət götürən şəxs (yaxud bu vəzifə rəhbərlik tərəfindən onun üzərinə qoyulur).


ƏMTƏƏ QİYMƏTLİ KAĞIZLARI – mülkiyyət hüququnu özündə cəmləyən qiymətli kağızlar. Mülkiyyət hüququ və mallara girov hüququ verir. Əmtəə qiymətli kağızlarına aiddir: konosamentlər, deliverorderlər, anbar qəbzləri və s.

ƏMTƏƏ NİŞANI – hüquqi cəhətdən qorunan firma adı, firma nişanı. Əmtəə nişanı müəyyən firmanın əmtəələrinin digər firmanın məmulatlarından fərqləndirilməsinə xidmət edir. Ticarət markası (bəzən onu firma nişanı adlandırırlar) malın (əmtəənin) hazırlayanını göstərən simvol işarəsi (nişanı), müəssisənin adı, şəkil, emblem və s. ibarət olur. Bu zaman buraxılan məhsul onu buraxan firmaya aid ticarət adı ilə fərqləndirilir. Əmtəə nişanı geraldika işarələrini, coğrafi adları və s. ehtiva etmir, çünki onlar müstəsna mülkiyyət obyekti ola bilməzlər. Əmtəə nişanı həmişə mətndə eyni üsulla fərqləndirilir (böyük hərflə, dırnaq işarəsi ilə, kursivlə, üslublaşmış şriftlə və s.). Qeydiyyatdan keçmiş əmtəə nişanı əmtəənin olduğu ölkədə qəbul edilən xüsusi nişanla C (kopirayt) təchiz olunur. Əmtəə nişanının sahibi eyni məhsul və xidmətlər üçün əmtəə nişanından və onun variantlarından istifadə edilməsində müstəsna hüquqa malikdir. Əmtəə nişanı bir hüquqi və ya fiziki şəxs tərəfindən təklif edilən əmtəə və xidmətlərin digər şəxslərin yekcins əmtəə və xidmətlərindən fərqləndirilməsinə imkan verir, onların dəyərinə təsir edir, rəqabət qabiliyyətinin yüksəldilməsinə səbəb olur. Dünya bazarında markalanmış əmtəələr, adətən, markalanmamış əmtəələrə nisbətən 15-20% bahadır. Əmtəə nişanı qanunla qorunur və digər şəxslərə, məsələn, lisenziya sazişləri əsasında öz qiyməti ilə başqasına verilə (satıla) bilər. Əmtəə nişanından beynəlxalq təcrübədə istifadə edilməsi Sənaye mülkiyyətinin qorunması üzrə Paris Konvensiyası ilə, Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı haqqında beynəlxalq Konvensiya ilə, Nişanların qeydiyyatı üçün məlumatların və xidmətlərin beynəlxalq təsnifatı haqqında sazişlə və s. sazişlərlə tənzimlənir.

Mülki-hüquqi təsnifata görə əmtəə nişanı hüququ müstəsna hüquqlara aiddir. Qanunla müəyyən edilir ki, əmtəə nişanının sahibi ondan istifadə etməkdə, ona dair sərəncam verməkdə, eləcə də digər şəxslərin ondan istifadə etməsinə qadağa qoymaqda müstəsna hüquqa malikdir. Əmtəə nişanının icazə verilmədən tətbiq olunması onun (əmtəə nişanının) sahibinin hüquqlarının pozulması kimi qəbul olunur. Bununla belə, əmtəə nişanından reklamda, nəşrlərdə, rəsmi blanklarda, lövhələrdə, sərgilərdə, yarmarkalarda və s.-də istifadə edilməsinə icazə verilir.

Əmtəə nişanına müstəsna hüquq firmanı rəqiblərin oxşar nişanlar tətbiq etməsindən də qoruyur. Məşhur firmalar firma adını və ya nişanını çox zaman görünən yerdə yerləşdirirlər. Bu, xüsusilə dəbdə olan paltarda, avtomobillərdə daha geniş tətbiq olunur. Dilerlərin, topdansatış və pərakəndə ticarət firmalarının markaları çox zaman malın qabında (qablaşmasında) yerləşdirilir. Bazarda böyük nüfuza malik olan hər hansı

Əmtəə nişanından brendə doğru inkişaf prosesi



Sxem 1

bir məşhur firmanın əmtəə nişanından istifadə etməyi arzu edən digər firma bunu yalnız patent sahibinin icazəsi ilə edə bilər.

Əmtəə nişanından istifadə edilməsi üçün lisenziya verilməsi mümkündür. Lisenziya müqaviləsində lisenziya alanın istehsal etdiyi əmtəələrin (malların) keyfiyyətinin əmtəə nişanı sahibinin əmtəələrinin (mallarının) keyfiyyətindən aşağı olmaması şərti ehtiva olunmalıdır. Əmtəə nişanının işlənib hazırlanması kommersiya sirri sayılır.

"ƏMTƏƏ SƏBƏTİ" – miqdarı və qiyməti əvvəlcədən verilmiş əmtəələr (məhsullar, xidmətlər) dəstinin şərti adı. "Əmtəə zənbili" anlayışından valyutaların alıcılıq qabiliyyəti indekslərinin, yaşayış dəyəri indekslərinin, deflyatorların hesablanmasında, eləcə də beynəlxalq sosial-iqtisadi müqayisələr aparılması üçün istifadə edilir. Yaşayış dəyəri indekslərinin hesablanması üçün çox vaxt nemətlərin və xidmətlərin daha geniş siyahısını əhatə edən, həyat səviyyəsini və müasir istehlak normativlərini əks etdirən "istehlak zənbili" kateqoriyasından da istifadə edilir.

ƏMTƏƏ VEKSELİ – malların kredit alqı-satqısı üzrə real əqdlər əsasında yaranan xüsusi veksel.

ƏMTƏƏ VƏ XİDMƏTLƏR BALANSI – ölkənin cari tədiyə balansının bir hissəsi. O, əmtəə və xidmətlərin ixracından daxilolmaları və idxala görə tədiyələri, eləcə də onların nisbətini xarakterizə edir. Əgər əmtəə və xidmətlərin ixracından əldə olunan daxilolmalar onların idxalı üzrə tədiyələrdən çoxdursa, onda balans (saldo) aktiv və ya müsbət hesab olunur, əgər idxal üzrə tədiyələr ixracdan əldə olunan gəlirlərdən artıqdırsa, onda balans (saldo) passiv (kəsirli) və ya mənfi hesab olunur. Gömrük statistikasının göstəriciləri əsasında dərc olunan ticarət balansından fərqli olaraq, tədiyə balansına daxil olan əmtəə və xidmətlər balansı əmtəə və xidmətlərin real hərəkəti ilə vaxt etibarilə uyğun gəlməyən ixrac və idxalla əlaqədar daxilolmaların və tədiyələrin göstəriciləri üzrə qurulur. Bundan əlavə, ixrac və idxalın uçotu tədiyə balansının "xidmətlər" maddəsində göstərilən əmtəələrin daşınması və sığortalanması xərclərini ehtiva edən FOB (bax: FOB) qiymətləri ilə aparılır. Ölkənin xarici ticarət mövqelərinin (vəziyyətinin) təhlili zamanı əmtəələrin ticarət balansı ilə xidmətlərin ticarət balansı fərqləndirilir. Ölkə əmtəələrlə ticarətdə mənfi saldoya, xidmətlərlə ticarətdə müsbət saldoya və əksinə malik ola bilər.

ƏMTƏƏNİN SIĞORTA DƏYƏRİ – oxşar növ və keyfiyyətli yeni predmetlərin əldə edilməsi və hazırlanması üçün zəruri olan məbləğ.

ƏMTƏƏLƏR VƏ XİDMƏTLƏR BAZARI – müxtəlif ərzaq məhsulları, şəxsi istehlak malları bazarları, məişət, kommunal, nəqliyyat xidmətləri bazarları, mədəniyyət, təhsil, səhiyyə üzrə pullu xidmət bazarları.

ƏMTƏƏLƏRİN RƏQABƏT QABİLİYYƏTİ İNDEKSİ – hər hansı bir ölkənin ixraca çıxardığı sənaye mallarının nisbi rəqabət qabiliyyəti göstəricisi. Ölkə valyutasının digər ölkə valyutasına nisbəti formasında müəyyənləşdirilir. Məsələn, əgər Ukraynaya nəzərən Rusiyada Ukrayna qrivnasının məzənnəsi rus rublunun məzənnəsinə nisbətən aşağıdırsa, onda rus malları Ukrayna mallarına nisbətən daha rəqabət qabiliyyətli hesab olunur.

ƏMTƏƏLİK MƏHSUL – istehlak bazarında satmaq və mübadilə üçün istehsal edilən məhsulu özündə əks etdirir.

ƏMTƏƏ-MATERİAL EHTİYATLARININ DÖVRİYYƏLİLİK ƏMSALI – müəyyən dövr ərzində şirkətin ehtiyatlarının dövretmə miqdarını göstərən əmsal. Maddi məsrəflərin müəyyən dövrdə reallaşan məhsula, bu dövrdə ehtiyatların orta kəmiyyətinə bölünməsi yolu ilə hesablanır.

ƏMTƏƏNİN (malın) SIĞORTALANMASI – alqı-satqı müqaviləsi tərəflərindən birinin (satıcının və ya alıcının) əmtəəni (malı) sığortalamaq öhdəliyini yerinə yetirməsi. Əmtəəni sığortalamalı olan tərəf müqavilə şərtlərinə uyğun olaraq sığortanı həyata keçirməyən zaman digər tərəf əmtəənin sığortalanmasını və borclu tərəfdən sığortalanma üçün xərclərin ödənilməsini tələb etmək, ya da müqavilənin icrasından imtina etmək hüququna malikdir.

ƏMTƏƏNİN (MALIN) ŞTRİX KODLAŞDIRILMASI (ƏŞK) – məmulatların avtomatik identikləşdirilməsinin yayılmış növü. Zolaqların dürüst şəklindən və onlar arasında aralıqlardan ibarət olaraq hərf, rəqəm və digər rəmzlərin (sim-

volların) ikili təqdim edilməsini təsvir edən ƏŞK-nın, 50-dən artıq sistemi mövcuddur. Onlardan yalnız dörd əsas kod fəal tətbiq olunur: məhsulun universal kodu (UPS), 39-cu kod, yüksək, orta və aşağı möhkəmlik (Code 39), "5-dən 3-ü" adlanan kod (interleaved "3 of 5"), "Coda bar" kodu.

Məsələn, "*Deyta ceneral*" firmasının tətbiq etdiyi sxemdə ƏŞK-nın ən azı, 5 informasiya sahəsi əks olunur: seriyanın nömrəsi, sxemin toplandığı funksional bölgünü göstərən zavod kodu, sxemin nömrəsi, onun yoxlama səviyyəsi və yığmanın tarixi.

ƏŞK-nın üstünlüklərinə informasiyanın işlənməsi zamanı səhvlərin sayının kəskin surətdə azalması, elektron optik aparat vasitəsilə kodların asanlıqla hesablanması, informasiyanın oxunması və s. daxildir. ƏŞK sistemi qapalı və açıq sistemlərə bölünür. Qapalı sistem ƏŞK üçün avadanlıqlara görə nəzarəti həyata keçirən bir təşkilat çərçivəsində tətbiq edilir. Açıq sistemdə məmulatlar və onları identifikasiya edən (fərdiləşdirən) simvollar (rəmzlər) bir neçə təşkilat tərəfindən istifadə olunur.

ƏŞK istehsalçı müəssisələr, bölüşdürücü təşkilatlar (topdansatış ticarət firmaları, təchizat mərkəzləri), istehlakçılar tərəfindən tətbiq olunur. Öz məhsulunun üzərində ştrix kodu qoyan istehsalçı müəssisə onun ehtiyatlarının idarə edilməsini yaxşılaşdırır.

Ticarət firması aldığı əmtəələrin (malların) üzərindəki ştrix kodlarından əmtəənin qeydiyyat, növlərə bölünmə, saxlanma üzərində nəzarət, məhsulun satışa göndərilməsindən əvvəl yoxlanması üçün istifadə edir.

Cədvəl 1

Ştrix kodlar haqqında məlumat bazasının yerləşdiyi bəzi ölkələrin kodları

Ölkələr	Kodlar
ABŞ və Kanada	00-13
Fransa	30-37
Bolqarıstan	380
Almaniya	400-440
Yaponiya	45, 49
Rusiya	460-469
Tayvan	471
Estoniya	474
Latviya	475
Azərbaycan	476
Özbəkistan	768
Şri-Lanka	479
Belarus	481
Ukrayna	482
Moldova	484
Ermənistan	485
Gürcüstan	486
Qazaxıstan	487
Honkonq	489
Böyük Britaniya	50
Yunanıstan	520
İrlandiya	539
Belçika və Lüksemburq	54
Portuqaliya	560
İslandiya	569
Danimarka	57
Polşa	590
Rumıniya	594
Macarıstan	599
İran	626
Çin	690-693
İsrail	729
İsveç	73
İsveçrə	76
Braziliya	789
Çexiya	859
Türkiyə	869
Sinqapur	888
Hindistan	890
Avstraliya	93
Dövri mətbuat (ISSN)	977
Kitablar (ISBN)	978-979
Ümumi Valyuta kuponları	981-982
Çek kitabçaları	99

Əmtəəni istehsal edən şirkətin ştrix kodundan əmtəə qeydiyyatdan keçirilərkən və istifadə üçün müvafiq bölməyə göndərilərkən istifadə olunur.

Ştrix kodlar haqqında məlumat bazasının yerləşdiyi bəzi ölkələrin kodları (bax: cədvəl 1).

ƏMTƏƏNİN HƏYAT TSİKLİ – əmtəənin bazara çıxarıldığı

vaxtdan onun istehsaldan çıxarılmasına qədər keçən dövr.

Əmtəənin həyat tsiklinin mərhələləri:

Tətbiq mərhələsi – əmtəənin bazarda yaranması dövrü; onun satış həcmi və istehsalçıların mənfəəti hələ azdır, lakin reklam aksiyaları üçün xeyli xərc tələb olunur;

Artım mərhələsi – bu dövrdə istehlakçılar konkret əmtəəni artıq qəbul etmişlər, həmin mala tələb və istehlakçıların sayı, satışın həcmi və satışdan əldə edilən mənfəət artır, eyni zamanda reklam xərcləri sabitləşir;

Yetkinlik mərhələsi – bu dövrdə bazarda artıq bolluq yaranmışdır və malın satışı sabitləşir, çünki istehlakçıların əksəriyyətinin üstünlükləri artıq qərarlaşmışdır. Bu dövrdə əmtəənin satışının artım sürəti zəifləyir, mənfəətin həcmi isə müxtəlif marketinq tədbirlərinin həyata keçirilməsi üçün xərclərin artması nəticəsində çoxalır. Nəticədə qiymətlərin azaldılmasına baxmayaraq, satış həcminin artması başa çatır. Bu dövrdə istehsal xərclərinin azalması hesabına mənfəət hələ bir müddət qala bilər. Əmtəənin reytinqini layiqli səviyyədə saxlamaq üçün tədbirlər görülür – onun keyfiyyəti, servis xidmətləri yaxşılaşdırılır, qiymətlər aşağı salınır;

Tənəzzül mərhələsi – satışın və mənfəətin kəskin azalması dövrü. Məhsulun modernləşdirilməsi, qiymətlərin səviyyəsinin aşağı salınması və digər metodları tətbiq etməklə satışın tənəzzülünü azaltmaq olar. Bunun nəticəsində əmtəəni təkrar bolluq mərhələsinə də keçirmək olar. Lakin son nəticədə tam tənəzzül mərhələsi hökmən başlanır və malın istehsalını dayandırırlar. Təbii ki, bu mərhələdə mənfəət xeyli azalır.

ƏMTƏƏNİN İXRAC DƏYƏRİ – xarici (qeyri-rezident) alıcıya təqdim olunan hesab üzrə müəyyən edilən dəyər. Əmtəənin ixrac dəyəri ixracatçı ölkənin sərhədində əmtəənin (malın) bazar qiymətidir. Bu qiymət istehsal qiymətindən, ticarət əlavəsindən və ixrac vergisindən (ixrac rüsumlarından) formalaşır. Əmtəənin (malın) daşınması müqavilənin şərtlərindən asılı olaraq qaimə qiyməti – sövdələşmənin real qiyməti nəqliyyat və sığorta xərclərinin məbləğində dəyişə bilər. Əgər ixrac olunan malın dəyəri FOB şərtləri ilə müəyyənləşdirilirsə, adı çəkilən ünsürlərlə yanaşı, onun gəmiyə və ya digər nəqliyyat vasitələrinə yüklənməsi və təyinat yerinə çatdırılması xərcləri; əgər SİF (bax: SİF) şərtləri ilə müəyyənləşdirilirsə, təyinat limanına qədər əmtəənin sığortalanması və nəql edilməsi xərcləri də əmtəənin ixrac dəyərinə daxil edilir.

ƏMTƏƏSİZ SƏNƏDLƏR – tədiyəçi və ya malgöndərən tərəfindən yazılan, müştəriyə verilməmiş maddi qiymətlilərin və ya göstərilməmiş xidmətlərin haqqının ödənilməsi məqsədilə banka təqdim edilən tədiyə tələbnaməsi, tapşırıq, çek, hesablar reyestri.

Əmtəəsiz hesablaşma sənədini yazmış təsərrüfat orqanından əmtəəsiz hesablaşma sənədinin təqdim edilməsinə görə bank tərəfindən cərimə tutulur.

Eyni mal və ya eyni xidmətlər üçün banka təkrar təqdim edilmiş sənədlər əmtəəsiz sənədlərə aiddir.

Əmtəəsiz sənədlərin tərtib edilməsi təşkilatın mənfəətinin qanunsuz olaraq süni şəkildə azaldılması üsullarından biridir və ondan pul vəsaitlərinin "yuyulması" üçün də istifadə edilir.

ƏMTƏƏŞÜNASLIQ – əmtəələrin istehlak xüsusiyyətini, təsnifatını və kodla işarələnməsini, standartlaşdırılmasını, habelə keyfiyyətinə və ona nəzarət olunmasına, onun qiymətləndirilməsinə səbəb olan amilləri, əmtəələrin çeşidlərinin və strukturunun formalaşması qanunauyğunluqlarını, həmçinin daşınması, istehlakı və istifadəsi zamanı keyfiyyətinin saxlanması şəraitini öyrənən elm. Əmtəəşünaslıq XVI əsrdə xarici ticarət əlaqələrinin inkişafı ilə əlaqədar meydana gəlmişdir. İlk əmtəəşünaslıq kafedrası (bitki və heyvan əczaçılığı materialları əmtəəşünasları) Paduya universitetində (İtaliya) yaradılmışdır (1549). Rusiyada əmtəəşünaslıq üzrə ilk dərs vəsaiti "Torqovaya kniqa" (1575) olmuşdur. Əmtəəşünaslıq XVIII əsrin sonundan müstəqil tədris fənni kimi orta və ali ticarət məktəblərində keçilməyə başlanmışdır. Əmtəəşünasın əsas vəzifəsi əmtəələrin keyfiyyəti və onunla bağlı olan məsələlərdir. Əmtəəşünas ixtisasından asılı olaraq bir sıra tədris fənninə bölünür: materialların, maşınların, avadanlıqların əmtəəşünası, çoxişlənən sənaye malları, yeyinti məhsulları əmtəəşünası və s. Əmtəələrin keyfiyyət göstəricilərini müəyyən etmək üçün əmtəəşünas bir sıra metod (alət, hesab və s.) tətbiq edir. Əmtəələrin təbiəti, quruluşu,

xüsusiyyətləri və s. öyrənilən zaman əmtəəşünas fizika, kimya, biologiya və s. nailiyyətlərindən istifadə edir.

ƏN AZ DİSPERSİYALI PORTFEL (*minimum-variance portfolio*) – ən az dispersiya qiymətli riskli səhmlər portfeli.

ƏN İNKİŞAF ETMİŞ "YEDDİLİK" ÖLKƏLƏRİ ("Böyük yeddilik") – müasir dünyanın yeddi aparıcı ölkəsinin qeyri-formal klubu. Buraya ABŞ, Kanada, Fransa, Almaniya, Böyük Britaniya, İtaliya, Yaponiya daxildir. Neft böhranının Qərb üçün ağır olduğu 1970-ci illərdə bu böhrandan çıxmağın iqtisadi və siyasi yollarının axtarışı məqsədilə yaranmışdır.

"Yeddiliyin" rəhbərlərinin hər il keçirilən görüşləri xüsusi beynəlxalq institut əmələ gətirir ki, bu da siyasi və iqtisadi əlaqələrin yaranmaqda olan dövlətlərarası tənzimlənməsi mexanizminin ən yüksək səviyyəsinə aid edilir. Bu sammitlər siyasi və iqtisadi həyatın fundamental istiqamətləri üzrə "yeddilik" dövlətlərinin fəaliyyətinin əlaqələndirilməsini həyata keçirir. Görüşlərdə ayrıca olaraq iki

Cədvəl 1

"Böyük səkkizliyin" (7+1) liderləri (noyabr 2011-ci ilə)

Ölkələr	Nümayəndə	Vəzifəsi	Vəzifədə fəaliyyətə başladığı tarix	Şəkilləri
Almaniya	Anqela Merkel	Almaniyanın Federal kansleri	22 noyabr 2005	
Kanada	Stiven Xarper	Kanadanın Baş naziri	6 fevral 2006	
Fransa	Nikolya Sarkozi	Fransa Respublikasının prezidenti	16 may 2007	
Rusiya	Dmitriy Medvedev	Rusiya Respublikasının prezidenti	7 may 2008	

Ölkələr	Nümayəndə	Vəzifəsi	Vəzifədə fəaliyyətə başladığı tarix	Şəkilləri
İtaliya	Mario Monti	İtaliya Nazirlər Sovetinin sədri	13 noyabr 2011	
ABŞ	Barak Obama	ABŞ-ın prezidenti	20 yanvar 2009	
Böyük Britaniya	Devid Kemeron	Böyük Britaniyanın Baş naziri	11 may 2010	
Yaponiya	Esixiko Noda	Yaponiyanın Baş naziri	2 sentyabr 2011	

qrup: siyasi və iqtisadi məsələlər nəzərdən keçirilir.

Bu beynəlxalq institut həm "Yeddiliyə" daxil olan, həm də ona daxil olmayan ölkələr arasında ziddiyyətlərin həllində və yumşaldılmasında maraqların uyğunlaşdırılması mexanizmini təmin edir. "Ən yüksək səviyyəli" görüşlərdə qəbul edilən qərarlar üstün olaraq strateji xarakter daşıyır və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı qrupu, Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və s. beynəlxalq təşkilatlar sistemi vasitəsilə, eləcə də "Yeddilik" ölkələrinin müvafiq dövlət institutları tərəfindən reallaşdırılır. Qarşılıqlı əlaqəli və qarşılıqlı asılılıqlı müasir dünyada "Yeddiliyin" qərarları yeni dünya qaydasının və ardıcıllığının təşəkkül tapmasına, inteqrasiya proseslərinin sürətlənməsinə təsir göstərir.

1997-ci ilin iyun ayında Denver şəhərində (ABŞ-da) "Yeddiliyin" sammitində Rusiyanın bu quruma daxil olması haqqında qərar qəbul edilmişdir. Beləliklə, "Yeddiliyin" "Səkkizliyə" çevrilməsi reallıq olmuşdur. Lakin əksər mənbələrdə bu "səkkizlik" "yeddi+bir" adlandırılır. 2008-ci il oktyabrın 8-də Yaponiya və Rusiyanın Mərkəzi

Bankları istisna olmaqla dünyanın qalan bütün aparıcı bankları eyni zamanda faiz dərəcələrini aşağı salmaq barədə qərar qəbul etmişdir. ABŞ Federal Rezerv Sistemi faiz dərəcəsini 2-dən 1,5-ə, həmçinin Kanada Bankı, İngiltərə Bankı, İsveç Bankı, İsveçrə Milli Bankı və Avropa Mərkəzi Bankı faiz dərəcələrini 0,5%-ə endirdilər. Bu mütəxəssislər tərəfindən böhranın qlobal xarakter alması kimi qəbul edildi. Sonra Cənubi Koreya, Tayvan və Honkonq da faiz dərəcələrini aşağı saldılar. Oktyabrın 10-da Vaşinqtonda "Yeddilik" ölkələrinin (Rusiyanın maliyyə naziri A.Kudrinin iştirakı ilə) maliyyə nazirləri və mərkəzi banklarının rəhbərləri antiböhran planını təsdiq etdilər. 5 bənddən ibarət olan planın məqsədi vacib maliyyə institutlarının ixtiyari vasitələrlə dəstəklənməsi və onların iflasına yol verməmək idi. 2008-ci il oktyabrın 12-də Parisdə 15 AB ölkələrinin liderləri banklar tərəfindən cəlb edilən kreditlərə dövlət zəmanətinin verilməsi və çətinliklərlə üzləşmiş maliyyə institutlarının dəstəklənməsi barədə razılığa gəldilər. Zəmanətlər banklararası kreditlərə 5 ilə qədər verilməli, hökumət bank-

Cədvəl 2

Dünyanın 20 ölkəsində əsas makroiqtisadi göstəricilər

Ölkələr	Əhali, nəfər (2007)	Dünyada	Ərazi, km²	Dünyada	Sıxlıq nəfər/km²	ÜDM, dollar	Dünyada	Hər nəfərə, dollar
Avstraliya	20 001 546	52	7 686 850	6	2,7	733,1 mlrd.	18	36 400
Argentina	40 301 927	30	2 766 890	8	14	532,169 mlrd.	22	16 080
Braziliya	190 256,710	5	8 511 965	5	22	1,843 trln.	9	10 073
Böyük Britaniya	60 776 238	21	244 820	76	247	2,047 trln.	8	35 486
Almaniya	82 310 021	13	357 022	61	231	2,728 trln.	5	31 390
Avropa İttifaqı	500 852 385	3	4 892 685	7	116,4	14,712 trln.	1	33 482
Hindistan	1 131 191 071	2	3 287 590	8	329	3,092 trln.	4	3 802
İndoneziya	235 382 136	4	1 919 440	15	116	841,1 mlrd.	16	4 356
İtaliya	60 000 000	22	301 230	69	196	1,777 trln.	10	31051
Kanada	33 091 228	37	9 984 670	2	3,29	1,178 trln.	14	35 514
Çin	1 322 178 190	1	9 596 960	3	140	7,055 trln.	2	7 722
Meksika	107 449 525	11	1 972 550	14	55	1,346 trln.	12	11369
Rusiya	141 864,100	9	17 075 400	1	8,3	2,088 trln.	6	12 178
Səudiyyə Ərəbistanı	27 861 773	43	2 218 000	14	12	554,25 mlrd.	21	16505
ABŞ	305 097,000	3	9 518 900	4	31	13,81 trln.	2	43223
Türkiyə	71 158 647	17	780 580	36	93	922,19 mlrd.	15	9240
Fransa	61 024,316	21	547 030	47	108	2,062 trln.	7	31825
Cənubi Afrika	44 074,732	28	1 219 912	24	39	463,33 mlrd.	24	13018
Cənubi Koreya	49 024 737	25	99 274	107	480	1,199 trln.	13	24084
Yaponiya	127 433 494	10	377 835	60	337	4,284 trln.	3	32530

ların səhmlərini almaqla onları dəstəkləməli, çətinliklərlə üzləşmiş sistem yaradan banklar büdcə vəsaitləri hesabına rekapitallaşdırılmalıydılar. 2008-ci il oktyabrın 13-də Avropa Mərkəzi Bankı, İngiltərə Bankı və İsveçrə Mərkəzi Bankı ABŞ Federal Rezerv Sistemi ilə valyuta svopu müqaviləsinə əsasən tələbi ödəmək üçün 2008 və 2009-cu illərdə dollar maliyyələşdirilməsi həyata keçirəcəklərinə söz verdilər. Elə həmin gün Britaniyanın Baş naziri Qordon Braun yeni Bretton-Vuds sisteminin yaradılması təklifini irəli sürdü.

2008-ci il oktyabrın 14-də ABŞ hökuməti qurtuluş planını elan etdi. Planda maliyyə sisteminin sabitləşdirilməsi üçün 250 mlrd. dollar vəsaitin ayrılacağı və onun 125 mlrd. dollarının 9 nəhəng bankın (Bank of America Corp, Wells Fargo, Citigroup, JPMorgan Chase&Co, Goldman Sachs, Morgan Stanley və Bank of New York Mellon Corp) paylarının alınmasına sərf olunacağı göstərilirdi. Plan ABŞ tarixində ilk dəfə olaraq özəl bankların bir hissəsinin milliləşdirilməsini nəzərdə tuturdu. 2008-ci il noyabrın 14-də 20-lik ölkələrinin rəhbərləri antiböhran sammitinə yığışdılar. Sammit nəticəsində maliyyə bazarlarının islahatları, beynəlxalq maliyyə institutlarının yenidən təşkili, növbəti 12 ayda proteksionist tədbirlərə əl atmamaq barədə deklarasiya qəbul olundu. 2008-ci il noyabrın 23-də Limada Asiya Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının üzv ölkələrinin rəhbərlərinin sammiti başa çatdı. Onlar qəbul etdilər ki, yaxın gələcəkdə dünya iqtisadiyyatının inkişaf sürəti aşağı düşəcək. 2008-ci il dekabrın 4-də Avropa Mərkəzi Bankı faiz dərəcəsini 3,25-dən 2,5-ə, İngiltərə Bankı isə 1694-cü ildən bəri fəaliyyət göstərdiyi müddətdə ən aşağı səviyyə olan 2%-ə endirdi. 2009-cu il aprelin 2-də Londonda "20 G" sammitində qlobal maliyyə böhranından çıxmağın planı qəbul edildi. Plan BVF-nin ehtiyatlarının 750 mlrd. dollaradək qaldırılmasını və yeni 250 mlrd. dollarlıq SDR buraxılışını nəzərdə tuturdu.

2008-ci ilin dekabrın əvvəlində Avropa Statistika Komitəsi məlumat verdi ki, 2008-ci ilin III rübündə əvvəlki rübdə olduğu kimi avro zonada ÜDM 0,2% aşağı düşmüşdür. Avropa iqtisadiyyatı son 15 ildə ilk dəfə olaraq resessiya dövrünə qədəm qoymuşdu. Avrostatın 2009-cu ilin fevralında nəşr olunmuş məlumatında bildirilir ki, AB-də sənaye istehsalı 2008-ci ilin dekabrında keçən illə müqayisədə 11,5%, noyabrla müqayisədə 2,3% (avro zonada müvafiq olaraq 12 və 2,6%) aşağı düşdü. Belə hala Avropa statistikasının aparılmağa başlandığı 1986-cı ildən bəri ilk dəfə idi rast gəlinirdi.

2011-ci ilin avqust-sentyabr aylarında dünyanın ən nüfuzlu reytinq agentlikləri İtaliyanın, Fransanın, Portuqaliyanın, İspaniyanın, Yunanıstanın, Yaponiyanın kredit reytinqlərinin aşağı düşməsini elan etdilər. Avropanın ən iri iqtisadiyyatlarının fond indeksləri də aşağı düşməyə meyillidir. Avropa ölkələrinin, o cümlədən "böyük səkkizliyin" üzvlərinin borclarının faizləri xeyli artmışdır, yəni investorların inam səviyyəsi hələ çox zəifdir. İnkişaf etmiş ölkələrin suveren borclarının böhranı siyasətçilərdən, iqtisad çılardan və investorlardan ənənəvi yanaşmalara yenidən baxmağı tələb edir. Qlobal iqtisadiyyatda baş verən xoşagəlməz meyillər bir daha xatırlatdı ki, borcların artmasına söykənən inkişaf modelləri artıq işləmir, tanınmış siyasi xadimlərin fikrincə, inkişaf etmiş ölkələrin inkişaf modelləri tarazlı makro-iqtisadi siyasətin nümunəsi ola bilmir.

2011-ci ilin sentyabrında Soçidə keçirilən Beynəlxalq Biznes Forumunda Rusiyanın Baş naziri Vladimir Putin bildirdi ki, həm Avropada, həm də Birləşmiş Ştatlardakı borc böhranı onunla dərinləşir ki, onların iqtisadiyyatları praktik olaraq resessiya həddindədir. Onların sağlamlaşdırılmasına dair, əvvəllər olduğu kimi, indi də təəssüflər olsun ki, nə bizim üçün, nə də Rusiyada olanlar üçün aydınlıq yoxdur. Bu zaman qlobal artım mərkəzlərinin yerdəyişməsi baş verir. Yaxın 10 ildə məhz inkişaf etməkdə olan iqtisadiyyatlar inamla yüksəliş nümayiş etdirəcək ki, bunun da sürəti inkişaf etmiş ölkələrin analoji göstəricilərindən 2,5 dəfə yüksək olacaq.

ƏN YÜKSƏK VİCDAN – sığorta işinin təməl prinsipi. Bu prinsip tələb edir ki, sığorta polisini tərtib etməyi arzu edən şəxs sığortalanmış riskə görə sığorta mükafatının düzgün hesablanması üçün bütün vacib informasiyanı sığortaçıya versin.

Hətta sığortaçılar xüsusi olaraq hər hansı bir informasiyanı tələb etməsələr də, onlardan heç nəyi gizlətmək olmaz.

ƏNƏNƏVİ CƏMİYYƏT PARADİQMASI – Neolit epoxasındakı aqrar inqilablar zamanında yetişərək kapitalizmə qədərki dövrü əhatə edən cəmiyyət.

ƏNƏNƏVİ İPOTEKA KREDİTİ (ing. *Conventional Mortgage Loan*) – heç bir əlavə zəmanət və sığorta olmadan yalnız daşınmaz əmlakla təmin olunmuş, kommersiya bankı tərəfindən verilən ipoteka krediti. Ənənəvi kreditlərdən fərqli olaraq ənənəvi olmayan (ing. *Non-conventional*) kreditlər ABŞ-da bütünlüklə hökumət tərəfindən təmin olunur.

ƏRAZİ-İSTEHSAL KOMPLEKSİ (ƏİK) – mahiyyət etibarilə müxtəlif müəssisələrin elmi cəhətdən əsaslandırılmış qarşılıqlı əlaqəli şəkildə birləşdirilməsi və bütövlükdə xalq təsərrüfatı miqyasında ictimai əmək məhsuldarlığının artırılmasını təmin edən vəsaitlərə qənaət məqsədilə ümumi ərazidə yerləşdirilməsi. Təbiəti mühafizə, insanların həyat, əmək və istirahət şəraitinin yaxşılaşdırılması problemlərini kompleks şəkildə həll edir.

ƏİK-nin səmərəliliyinin vahid nəqliyyat, energetika və inşaat bazaları əsasında işləyən qarşılıqlı əlaqəli müəssisələrin kooperasiyası və kombinə edilməsi, eləcə də təbii və əmək resurslarından, təkrar xammaldan və tullantılardan səmərəli istifadə edilməsi hesabına nail olmaq nəzərdə tutulurdu. Ən iri ƏİK-lərə Moskva və Moskva vilayəti, Kuzbas, Ural, Bakı-Abşeron, Gəncə-Daşkəsən ƏİK-ləri aiddir.

ƏRZAQ SAPALAĞI – vətəndaş müharibəsi və 1918-1920-ci illərdə hərbi müdaxilə dövründə Sovet dövləti tərəfindən tətbiq edilən kənd təsərrüfatı məhsullarının tədarük sistemi. Ərzaq sapalağının mahiyyəti ondan ibarətdir ki, kəndli təsərrüfatlarının bütün artıq taxıl və digər məhsulları möhkəm (sabit) qiymətlərlə Sovet hakimiyyəti orqanlarına məcburi surətdə təhvil verilirdi. Kəndlilərin ixtiyarında həm şəxsi, həm də istehsal istehlakı üçün müəyyən normalar üzrə məhsulların bir hissəsi qalırdı. Bu, o zaman gənc sovet respublikalarının mövcud olduğu çox ağır şəraitin, ərzaq vergisinin doğurduğu "hərbi kommunizm" siyasətinin fövqəladə tədbiri və ərzaq diktaturasının ifadəsi idi. Ərzaq sapalağı 1918-ci ilin ikinci yarısında bir neçə quberniyada tətbiq edilmişdi. Vətəndaş müharibəsi başa çatdıqdan sonra ərzaq sapalağı sosializm quruculuğunun maraqlarına cavab vermirdi, xalq təsərrüfatının bərpa olunmasını ləngidirdi. Buna görə də Kommunist Partiyası X qurultayda (1921-ci il) ərzaq sapalağının ərzaq vergisi ilə əvəz olunması haqqında və yeni iqtisadi siyasətə keçid haqqında qərar qəbul etdi.

ƏRZAQ TƏHLÜKƏSİZLİYİ – dövlət və cəmiyyət tərəfindən əhalinin həmişə aktiv və sağlam həyat tərzini saxlamaq üçün, müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində (təhlükəsiz) əsas qida məhsullarına olan tələbatının fasiləsiz, uzunmüddətli ödənilməsini təmin edən tədbirlər kompleksini nəzərdə tutur. Ərzaq təhlükəsizliyinin hüquqi əsasını ölkə konstitusiyası təşkil edir və hər bir ölkənin milli ərzaq müstəqilliyinə əsaslanır. Ölkənin milli ərzaq suverenliyi baş verə biləcək hər hansı fövqəladə vəziyyətlər zamanı, dövlətin əhalini ərzaq və qida məhsulları ilə təmin etmək imkanına, eləcə də hər kəsin ərzaq məhsulları əldə etmək üçün fiziki, sosial və iqtisadi imkanlara malik olması deməkdir.

Bəşəriyyətin ən qlobal problemlərindən biri ərzaqla təminatdır. Bunun həllində taxıl istehsalı xüsusi əhəmiyyət kəsb edir. Bu, aqrar-sənaye istehsalında digər sahələr üçün yaradıcı sistem rolunu oynayır və taxılın bazardakı vəziyyəti beynəlxalq miqyasda, eləcə də ayrı-ayrı dövlətlərin ərzaq təhlükəsizliyində əsas göstəricilərdən biri sayılır. Dünya miqyasında ərzaq təhlükəsizliyinin xarakteristikasını, strategiya və taktiki yanaşmaları işləyib hazırlayan Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Beynəlxalq Təhlükəsizlik Komitəsi dünya əhalisinin ehtiyacını hesablayarkən dünyada taxıl ehtiyatının ümumdünya istehsalına nisbətini əsas götürür. Dünya taxıl istehlakının 60 gününə bərabər (cəmi istehlakın 17%-i miqdarında) olan keçid taxıl ehtiyatının həcmi təhlükəsiz səviyyəni təşkil edir. Bununla yanaşı, taxıl ixrac edən ölkələr tərəfindən təklif edilən taxılın, qarğıdalının və düyünün qiymətləri əsas götürülür. Beynəlxalq miqyasda bazarda qiymətlərin aşağı səviyyəsi ehtiyatların toplanmasının indikatoru, qiymətlərin yüksək səviyyəsi isə ehtiyatlardan istifadənin indikatoru funksiyasını yerinə yetirir. Bu amil həm idxalçılar, həm də ixracçılar üçün iqtisadi cəhətdən sərfəli sayılır. Dünya təcrübəsində o ölkənin ehtiyatı təhlükəsiz hesab edilir ki, ölkə əhalisinin illik istehlakının 17-20%-i həcmində taxıl ehtiyatı olsun. Yəni taxıl resursu illik istehlakdan əlavə ölkə əhalisinin daha 2 ay müddətinə taxıla olan tələbatını təmin etmək imkanı versin. Taxıl sahəsinin aqrar-sənaye kompleksinin iqtisadiyyatında yeri və rolu ölkənin bütövlükdə kənd təsərrüfatının və ayrılıqda bitkiçilikdə onun xüsusi çəkisinin və əmtəəlik məhsullarının həcmi, cəlb edilmə və dövretmə miqyası ilə müəyyən edilir. Taxıl və onun emal məhsulları mənşə etibarı ilə əhalinin həyat fəaliyyətinin əsasını təşkil edir. Bununla yanaşı, əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində digər kənd təsərrüfatı məhsullarının, o cümlədən meyvə-tərəvəzin, bostan və heyvandarlıq məhsullarının istehsalı vacibdir. Bu məhsullar insanların qida rasionunun əsas tərkib hissəsi, həyat mənbəyidir.

Hazırda bitkiçilikdə və quşçuluq sənayesində özümüzü təmin etmək imkanlarımız təxminən 70 faiz səviyyəsindədir. Ət, süd məhsulları, bitki yağları, şəkər və digər əsas ərzaq məhsulları ilə demək olar ki, biz özümüzü 100 faiz, yaxud da 90-95 faiz təmin edirik.

İlham Əliyev (09.02.2011)

Əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasının qiymətləndirilməsi aşağıdakı göstəricilərlə müəyyən olunur:

- *ərzağın fiziki əldə olunması imkanları* – istehlak bazarında kifayət qədər təhlükəsiz və yüksək qida keyfiyyətinə malik

Ərzaq təhlükəsizliyi sisteminin strukturu



Sxem 1

olan ərzaq məhsullarının mövcudluğu, ölkənin hər bir yerində istənilən çeşiddə və istənilən vaxt əldəetmə imkanı;

• *ərzağın iqtisadi əldəolunma imkanı* – əhalinin bütün sosial qruplarının tələbatına uyğun gələn və keyfiyyətli ərzaq məhsullarını alması imkanına malik olması;

• *istifadə üçün təhlükəsiz qidanın olması* – ərzağın analoji qidalandırıcı tərkibi, əhalinin sağlamlığına ziyan verəcək ərzağın istehsalının, satışının və istehlakının qarşısının alınması.

Göstərilən amilləri nəzərə almaqla, ərzaq təminatı siyasəti ha çox diqqət yönəldilir: *ərzaq bazarında məhsulların mövcudluğu və onların əldə edilməsi üçün maliyyə imkanlarının olmasına.* Ərzaq məhsullarının mövcudluğu istehsal və idxal münasibətlərindən asılı olursa, maliyyə imkanları adambaşına aylıq gəlirlərin səviyyəsinə görə qiymətləndirilir. Bu amillərdən biri olmasa, ərzaq təhlükəsizliyi təmin edilmir.

Aqrar siyasətin həyata keçirilməsi nəticəsində son illər Rusiyada adambaşına 14, ABŞ-da 271, Kanadada 238, Avropa Birliyi ölkələrində 480 ABŞ dolları

"İndi dünyada ərzaq təhlükəsizliyi haqqında ciddi söhbətlər gedir, müzakirələr aparılır. Çox böyük narahatlıq var ki, ərzaq təhlükəsizliyi məsələləri dünya miqyasında qabarıq şəkildə birinci plana çıxa bilər. Belə olan halda, əlbəttə ki, insanlar böyük çətinliklərlə üzləşə bilərlər. Biz elə etməliyik ki, Azərbaycanda istehlak olunan ərzaq məhsullarının 100 faizi ölkəmizdə istehsal olunsun. Bundan əlavə, biz öz məhsullarımızla xarici bazarlara da çıxmalıyıq. Bizim məhsullarımız həm təbiidir, həm keyfiyyətlidir, həm də hazırda yeni texnologiyalar əsasında tikilmiş zavodlar, fabriklər dünya səviyyəli məhsul istehsalına şərait yaradır".

İlham Əliyev

kompleks tədbirlərin həyata keçirilməsini zərurətə çevirir, istehsalın artırılması və əhalinin alıcılıq qabiliyyəti ilə vəhdət təşkil etdiyindən daha cox ölkənin maliyyə imkanlarından, dövlət büdcəsinin vəziyyətindən də asılı edir.

Dünya üzrə qəbul olunmuş normaya görə, əgər ölkədə 80% əsas istehlak olunan ərzaq məhsulları istehsal olunursa, ölkədə ərzaq təhlükəsizliyi təmin olunmuş sayılır.


Hazırda, müasir dövrdə əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin əsas iki amilinə davəsait xərclənmişdir. Avropada və Amerikada kənd təsərrüfatına külli miqdarda dotasiyalar verilir və bu sahə, artıq xərc aparan, lakin dövlətin təhlükəsizliyi və varlığı üçün, ordu və dövlət aparatının saxlanması kimi vacib sayılır. Ərzaq məhsullarının güclü ixrac potensialına malik olan ölkələr belə imkandan öz maraqları naminə digər ölkələrə təsis etmək vasitəsi kimi də istifadə edirlər. Bu səbəbdən də dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsinin çox böyük əhəmiyyəti var. Yəni, fövqəladə vəziyyətlər zamanı dövlət əhalini ərzaq və yeyinti məhsulları ilə təmin etmək məqsədilə xarici dövlətlərdən asılı vəziyyətə düşməsin. İqtisadi qanunlara görə ölkədə istehlak olunan ərzaq məhsullarının 25 %-dən çoxu xarici ölkələrdən gətirilərsə, həmin ölkənin ərzaq təminatı təhlükəli sayılır. Onu da qeyd etməliyik ki, ərzaq məhsulları idxal edən ölkələrin sayı getdikcə artır.

Hazırda dünya əhalisi 6,7 milyard nəfəri ötmüş və 2050-ci ildə onların sayı 9,2 milyard nəfərə çatacaqdır. Hər gün isə 219 min, ildə 80 milyon nəfər artır. Bu, böyük, təqribən Misir boyda ölkə əhalisinə bərabər bir dövlət deməkdir. Dünya əhalisi 1970-ci ilə nisbətən, demək olar ki, 2 dəfəyədək artmışdır. Eyni zamanda, 3 mlrd. əhalinin yemək rasionu da dəyişmiş, yumurta, süd və ət məhsullarının istehlakı artmışdır. Bu isə, heyvandarlıq məhsullarının dünya miqyasında istehlakının artmasına və nəticədə heyvanları da yedizdirmək lazım olduğundan heyvandarlıqda yem məhsullarına da tələbatın artması nəticəsində qarğıdalıya, dənli və paxlalı bitkilərə tələbatın artmasına gətirir. Hazırda dünyada hər il təqribən 2,2 mlrd. ton taxıl istehlak olunur. On il bundan əvvəl istehlakın artım həcmi hər il 20 mln. ton olduğu halda, hazırda bu rəqəm 40 mln. tona catmışdır. Son illərdə dünya bazarlarında qarğıdalının, düyünün, buğdanın qiymətləri xeyli artmışdır. FAO-nun apardığı təhlildən görünür ki, 1950-1985-ci illərdə ərzaq məhsullarının istehsal həcmi orta hesabla hər il 30 mln. tona bərabər olmuşdursa, 1985-1995-ci illərdə onun səviyyəsi 12 mln. tona enmişdir. Bu meyil son illərdə də davam edir. Dünyada dənli bitkilərin ümumi əkin sahəsinin 32%-ni buğda təşkil edir. 2010-cu ildə dünyada buğdanın ümumi istehsalı 681,9 mln. ton, hər hektardan orta məhsuldarlıq isə 3,02 ton təşkil etmişdir. Buğda istehsalının hazırkı səviyyəsi ilə (təqribən 620-680 mln. ton) müqayisədə bu artımı təmin etmək üçün 2020-ci ilə kimi buğda istehsalı 840 mln. tona catdırılmalıdır.

Eyni zamanda, dünya üzrə su çatışmazlığı da ərzaq təhlükəsizliyinin təmin olunmasında problemlər yaradır. Ümumiyyətlə, bu hal Ərəb dövlətləri və Şimali Afrika üçün xarakterik sayılır. Belə ki, Səudiyyə Ərəbistanının ərazisinin çox hissəsi səhra olsa da, 20 il bundan öncə, yeraltı sulardan istifadə etməklə özünü buğda ilə təmin edə bilirdi. Suların çəkilməsi və səhralaşma ilə əlaqədar, hazırda elə vəziyyət yaranıb ki, ölkə yaxın gələcəkdə tələb olunan buğdanın hamısını idxal etməli olacaq. Taxıl istehsalı İraqda, Suriyada getdikcə aşağı düşür, Yəməndə isə su çatışmazlığı əsas problemdir.

Amerika alimi M.Ensmingerin deyiminə görə, "istehlak ərzağı həm məsuliyyət, həm də silahdır. Məsuliyyət, çünki insanın yaşaması və yeməsi üçün lazım olan kifayət edəcək ərzağın olması onun ən başlıca hüququdur. Digər tərəfdən, o silahdır, çünki siyasətdə və iqtisadiyyatda ərzaq məhsulları böyük təsirə, güllə və neftdən artıq gücə malikdir".


Yoxsulluq həddini müəyyənləşdirmək üçün bütün ölkələri iki qrupa bölmüşlər: adambaşına gündəlik gəlirləri 1 ABŞ dollarına bərabər olanlar. Bu qrupa daxil olan ölkələrin əhalisinin ifrat yoxsulluq həddində yaşadığı hesab edilir; adambaşına gündəlik gəlirləri 2 ABŞ dollarına bərabər olan ölkələr isə



Afrikada aclıq

əhalisi yoxsulluq həddində olduğu qəbul edilir. Bəzi ölkələr üzrə ötən 11 il ərzində ifrat yoxsulluq həddində yaşayanların sayı 15 faiz artmışdır və 1,1 milyard əhalinin hər nəfərinə düşən aylıq gəlirləri 1 ABŞ dollarından aşağı olmuşdur. Doğulan hər 100 uşaqdan 6-sı bir yaşa, 8-i 5 yaşa çatanadək ölür, məktəb yaşına çatmış hər 100 uşaqdan 23-ü təhsil almaq imkanından məhrumdur. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) hesablamalarına görə, dünyanın bütün ölkələrində 840 milyon adam xroniki (davamlı) aclığa məruz qalır, onların əksəriyyəti ifrat yoxsulluq həddində yaşayanlardır. Hətta inkişaf etmiş ölkələrdə 10 milyon nəfər aclıqdan əziyyət çəkir.

Uzun müddət ərzaq çatışmazlığı nəticəsində yaranan və iri ərazilərdə çoxsaylı insanların ölümünə səbəb olan aclıq, kütləvi hal kimi, sosial bəla sayılır.



Afrikada aclıq

Aclığın iki halı nəzərə alınır: mütləq və nisbi aclıq. Mütləq aclıq dedikdə orqanizmin yaşaması və inkişaf etməsinin təmin olunması üçün zəruri qida məhsullarının minimum həddən az olması və yaxud tamamilə çatışmadığı hallar başa düşülür. Nisbi aclıq hallarında (onu gizli və ya natamam aclıq da adlandırırlar) orqanizmin fəal həyat tərzini təmin etmək üçün zəruri tələbatdan aşağı miqdarda və qidalanma keyfiyyətində məhsullar ilə xroniki qidalanma şəraiti hesab edilir. Nəticədə orqanizm müxtəlif növ xəstəliklər ilə mübarizədə olur və orta ömür müddəti qısalır.

FAO-nun məlumatlarına görə, 2002-2004-cü illərdə dünya üzrə 850 milyon nəfər və yaxud 13 faiz əhali aclıqdan əziyyət çəkirdisə, 2010-cu ildə (sentyabr) xroniki aclıqdan əziyyət çəkənlərin sayı 925 milyon nəfər olmuşdur (2008-ci illə müqayisədə 98 milyon nəfər azalmışdır). Onlardan 578 milyon nəfər (62,5%) Asiya və Sakit okean regionunda, 239 milyon nəfər (25,8%) Afrikada (Saxaradan cənuba doğru), 108 milyon nəfər (11,7%) digər ölkələrdə yaşayırlar. Eləcə də, dünyada hər gün aclıqdan 10 min uşaq və 25 min yaşlı insan ölür. Bununla belə, yalnız kifayət qədər ərzaq məhsullarının istehsal edilməsi ilə aclıqdan yaxa qurtarmaq mümkün olmur. Məqsədə nail olmaq, hamının sağlam və fəal həyat tərzi keçirməsi üçün kifayət qədər müvafiq, keyfiyyətli məhsulları əldə etməsi imkanını yaratmaq tələb edilir. Bütün dünyada səylər ərzaq məhsulları ilə təminata yönəldilir ki, aclıq və az qidalanma halları aradan qaldırılsın. İndiki və gələcək nəsillər üçün onların dağıdıcı nəticələrini ləğv etmək mümkün olsun. Bütün insanların əsas hüququnun məcburi şərti onunla səciyyələndirilir ki, insanlar "aclıq" hiss etmədən yaşasınlar.

İnsanın qidalanma keyfiyyəti iki əsas göstəriciyə görə: enerji təminatı və zəruri inqrediyentlər

Ərzaq təhlükəsizliyi növlərinin təsnifatı




Sxem 2

kompleksinə (zülallar, yağlar, vitaminlər və mineral maddələr üzrə təminatına) görə qiymətləndirilir. Məhz bu amillər insanın fiziki gücünü, normal fəaliyyətini və firavan həyat tərzini formalaşdırır. Qidalanmanın enerji təminatı onun kaloriliyi ilə ölçülür. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) mütəxəssisləri hesab edirlər ki, hər bir adamın gündəlik qida rasionunun enerji təminatı, orta hesabla, aşağısı 2400-2500 kkal-a bərabər olmalıdır, 2150 kkal daimi doymamaq, normal həddi 2600 kkal kimi xarakterizə olunur. Bununla belə, yaşından, fiziki yükündən, ərazinin təbii-iqlim şəraitindən və s. amillərdən asılı olaraq, enerji təminatı norması da müxtəlif olur. Mütəxəssislərin hesablamaları göstərir ki, gün ərzində 2500 kkal həcmində qidalanmaya, yalnız dünya əhalisinin 35 faizinin imkanı vardır. Dünya əhalisinin daha 15 faizi kifayət qədər kalorilikdə ərzaq məhsulları qəbul etsələr də, bu və ya digər qida məhsullarının, ilk növbədə, heyvan mənşəli zülalların qəbul edilməsində çatışmazlıqlara məruz qalırlar. Dünyanın 20 faiz əhalisi mütləq qida çatışmazlığı şəraitində yaşayır və bu qədər insanın qidalandıqları məhsulların enerji təminatı 1500 kaloridən aşağıdır (bax: cədvəl 1).

Araşdırma göstərir ki, adambaşına gündəlik istehlak edilən ərzaq məhsullarının orta illik həcmi 4 ölkədə 1880 kkal-dan aşağıdır (bu ölkələrdə yaşayanlar dünya əhalisinin 1,3 faizini təşkil edir), bu göstərici 6 ölkə üzrə 1800-2000 kkal arasında dəyişir (1,9%), 50 ölkənin, yəni 31,2 faiz dünya əhalisinin qidalanmasının enerji təminatı 2000-2500 kkal-a bərabərdir. Dünya ölkələri üzrə əhalinin qidalanması üçün enerji təminatının minimum həddi Konqo Demokratik Respublikasında (1585 kkal), maksimum həddi isə ABŞ-da (3770 kkal) müşahidə olunur.

Ərzaq təhlükəsizliyinin ümumi milli təhlükəsizlikdə yeri



Sxem 3

Cədvəl 1

Dünya əhalisinin qidalanma səviyyəsi

	Enerji təminatı üzrə qruplar, adambaşına – kkal/gün					Dünya üzrə cəmi
	< 1880	1800-2000	2000-2500	2500-3000	3000-3500	>3500	
Qrupa daxil olan ölkələrin sayı	4	6	50	55	44	14	173
Əhalisinin sayı, milyon nəfər: 2008-ci ildə	86,2	126,4	2104,7	2490,3	1235,1	623,3	6750,1
2010-cu ildə	90,9	132,8	2174,6	2536,4	1254,2	631,3	6908,7
Qruplar üzrə əhalinin xüsusi çəkisi, 2008-ci ildə, %-lə	1,3	1,9	31,2	36,9	18,3	9,2	100
Əhalinin orta illik artımı, 2008-2010, %-lə	102,7	102,5	101,6	100,9	100,8	100,6	101,2
Enerji təminatının variasiya hədləri: 2005-2007	1585-1762	1848-1956	2016-2468	2513-2996	3019-3482	3530-3770	2778

Mənbə: FAO-nun 2010-cu il üçün illik statistik məcmuəsi əsasında müəlliflərin qruplaşdırması

Təbiidir ki, insanların cinsindən, yaşından, yerinə yetirdiyi işin xarakterindən, təbii-iqlim şəraitindən və s. amillərdən asılı olaraq, hər bir adamın qidalanma norma göstəricisi də dəyişir. Qidalanma zamanı təkcə kaloriliyin deyil, həm də zülalların (ilk növbədə heyvan mənşəli zülalların), habelə yağların, vitaminlərin, mikroelementlərin çatışmazlığı zamanı natamam qidalanma hesab edilir. Onu da, bir qayda olaraq, gizli (xroniki) aclıq adlandırırlar.

Təbii ki, əhalinin artım sürəti həlledici dərəcədə ərzağa tələbatın artım sürətini müəyyən edir, digər tərəfdən isə bu tələbat ilbəil keyfiyyətcə təkmilləşir, dəyişir və yeniləşir. Bu səbəbdən də dünyanın əksər ölkələrində kənd təsərrüfatı məhsulları istehsalında məhsuldarlığın artırılması məqsədilə mütəmadi olaraq elmi tədqiqatlar aparılır, yeni texnika və texnologiyaların kənd təsərrüfatı istehsalına tətbiqi, innovasiyaların istehsal sahələrinə gətirilməsi, gen mühəndisliyi və genetik cəhətdən modifikasiya olunmuş mikroorqanizmlərdən, müxtəlif kimyəvi preparatlardan, qida əlavələrindən, əvəzedicilərdən və s. istifadə hazırda geniş yayılmışdır. Təbii ki, bu vasitələr və elmi-texniki nailiyyətlər istehsal həcminin artırılmasında mühüm rol oynamaqla yanaşı, bəzən düzgün istifadə edilmədikdə qida sağlamlığı üçün müəyyən təhlükələr yaradır. Bundan əlavə, tələbatın artım sürəti istehlak bazarında keyfiyyətsiz, insan sağlamlığı üçün təhlükə yarada biləcək ərzaq məhsullarının yer almasına da şərait yaradır. Bu məsələ, əsasən, inkişaf etməkdə olan və iqtisadi-siyasi sistemi transformasiyaya uğrayan ölkələrdə daha qabarıq şəkildə özünü göstərir. Hazırda dünyada qida təhlükəsizliyinin idarəedilməsi üçün ən çox istifadə olunan sistem HACCP (Təhlükəli Faktorların Analizi və Kritik Nəzarət Nöqtələri) sistemidir və bu, qida təhlükəsizliyinin idarəedilməsi üçün mühüm əhəmiyyət kəsb edən, təhlükəli faktorların identifikasiyası, qiymətləndirilməsi və onlara nəzarət mexanizmidir. Qeyd olunanlara istinadən demək olar ki, müasir dövrün xarakterik xüsusiyyəti əsasən onunla səciyyələndirilir ki, vahid dünya təsərrüfatı sisteminin formalaşması prosesi yaşanılır və onun idarə edilməsini müxtəlif ixtisaslaşdırılmış beynəlxalq təşkilatlar aparırlar. Onlar bütün ölkələrin təbii və iqtisadi potensialından səmərəli istifadə edilməsini əsaslandırmaqla, iqtisadi münasibətlər sisteminin vahid standartları və nizam-intizam qaydalarını müəyyənləşdirirlər. Yer kürəsində baş verən ekoloji və iqlim dəyişiklikləri, kənd təsərrüfatı istehsalına yararlı torpaq sahələrinin və su resurslarının azalması, erroziya proseslərinin sürətlənməsi, habelə dünya əhalisinin müntəzəm artması ərzaq məhsullarına qlobal tələbatın yetərincə ödənilməsində ciddi problemlər yaradır.

2000-ci ildə Nyu-Yorkda 147 ölkənin iştirakı ilə BMT-yə üzv olan bütün ölkələr üçün 2015-ci ilədək müddətə icrası mühüm sayılan 8 ümumi bənddən ibarət vəzifələr, III Minilliyin İnkişaf Məqsədləri müəyyənləşdirilmişdir. Qlobal vəzifələrin birincisi ifrat yoxsulluğun, aclığın azaldılmasını, tədricən ləğvini, ərzaq təhlükəsizliyinin təmin edilməsini nəzərdə tutur. Qaydalara əsaslanan, nəzarət edilən və ayrı-seçkiliyə yol verməyən açıq ticarət və maliyyə sisteminin yaradılmasını davam etdirmək əsas prinsip kimi qəbul edilir. Buraya milli və beynəlxalq səviyyədə demokratik idarəçilik, inkişaf və yoxsulluğun azaldılmasına dair öhdəliklər də daxildir.

Dövlət və hökumət başçıları, yaxud onların nümayəndələri, FAO-nun təşəbbüsü ilə, ərzaq təminatı problemi üzrə Ümumdünya görüşündə toplaşaraq, yüksək səviyyədə bəyan etmişlər ki, ərzaq təhlükəsizliyinə nail olmaq üçün hazırkı dövrdə və gələcəkdə təcili, zəruri tədbirlərin görülməsi hamının ali vəzifəsinə çevrilməlidir. Bildirilmişdir ki, ərzaq təhlükəsizliyinə nail olmaq üçün kompleks vəzifələr müəyyənləşdirilməli, onların yerinə yetirilməsində, ilk növbədə, ayrı-ayrı ölkələrin hökumətləri məsuliyyət daşımalı, müəyyən öhdəliklər yerinə yetirməlidirlər. Bəyan edilmişdir ki, onlar, əlverişli ətraf mühiti inkişaf etdirmək şərti ilə elə bir siyasət həyata keçirməlidirlər ki, sülh təmin edilmiş olsun, habelə sosial, siyasi və iqtisadi sabitlik yaradılsın, ədalətlilik təmin edilmiş olsun. Çox dərin həyəcanla ifadə edilmişdir ki, aclığın indiki dinamikada davam etməsi təhlükəli haldır. Odur ki, qlobal səviyyədə bütün dövlətlərin bir-biri ilə və BMT-nin müvafiq təşkilatları, maliyyə təşkilatları, hökumətlərarası və qeyri-hökumət təşkilatları, icti-

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarli təminatina dair Dövlət Proqramı"ndan

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Ona görə də cəmiyyətin hər bir üzvünün əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin həyata keçirilməsi çox vacibdir.

Son bir neçə ildə enerjidaşıyıcılarının qiymətinin kəskin artması, aparıcı ölkələrin maliyyə bazarında baş verən neqativ meyillər, habelə əhalinin sayının çoxalması nəticəsində ərzaq məhsullarına olan tələbatın yüksəlməsi, iqlim dəyişkənliyi, su ehtiyatlarının məhdudluğu və digər səbəblərə görə əsas ərzaq məhsullarının dünya bazarlarında qiymətləri artmağa başlamış, bəzi ölkələrdə ərzaq qıtlığı real təhlükəyə çevrilmişdir.

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə əgər 1950-1985-ci illərdə ərzaq istehsalının illik artımı 30 milyon ton, 1985-1995-ci illərdə 12 milyon ton təşkil edirdisə, 2030-cu ilədək bu göstərici cəmi 9 milyon ton səviyyəsində olacaqdır.

Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Hələ keçən əsrin 90-cı illərinin ortalarında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Müstəqil Dövlətlər Birliyi məkanında analoqu olmayan torpaq islahatları həyata keçirilmiş, kənd təsərrüfatı istehsalçılarına yardım mexanizmləri formalaşdırılmış, beynəlxalq təşkilatlarla birlikdə bu sahədə əhəmiyyətli layihələrin icrasına başlanmışdır. 2001-ci ildə ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" təsdiq edilmiş və bu Proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artmışdır.

Bununla yanaşı, "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və digər qəbul olunmuş sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi, o cümlədən fermerlərə maliyyə və texniki dəstəyin göstərilməsi, sahibkarlığın inkişafı, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi əhalinin istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasını təmin etmişdir. Lakin, ölkədə əsas ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına tam təminatı hələ ki, mümkün olmamışdır. Digər tərəfdən, dünya ərzaq bazarlarında müşahidə olunan qeyri-sabitlik Azərbaycanda da ərzaq məhsullarının qiymətinə öz təsirini göstərir. Mövcud vəziyyət daxili ərzaq bazarının idxaldan asılılığının maksimum azaldılması və ərzaq ehtiyatlarının yaradılması məsələsinə kompleks yanaşma tələb edir.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 1 may tarixli 2786 nömrəli Sərəncamına uyğun olaraq hazırlanmış Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı məhz bu məqsədə nail olmaq üçün 2008-2015-ci illər ərzində müvafiq tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Dövlət Proqramının məqsəd və vəzifələri, ərzaq təminatı sahəsində dövlət siyasətinin əsas istiqamətləri

Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır.

Bu məqsədə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

– ölkədə ərzaq məhsulları istehsalını artırmaq;

– əhalini təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək;

– ərzaq təminatı sahəsində risklərin idarə olunmasını təmin etmək;

– ərzaq təminatı sisteminin institusional inkişafını həyata keçirmək və sahibkarlıq mühitini yaxşılaşdırmaq.

Sabit və adekvat ərzaq təklifi, ilk növbədə, aqrar sektorda intensiv geniş təkrar istehsalın, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalının və emalının inkişaf etdirilməsi yolu ilə əldə olunacaqdır. Ərzaq təklifinin səmərəli bazar mexanizmi vasitəsilə adekvat tələblə qarşılaşması üçün ölkə vətəndaşlarının hər biri istənilən zaman ərzaqla təmin olunmaq imkanına malik olmalıdır. Bu, həm ictimai resursların aztəminatlı vətəndaşlara birbaşa yönəldilməsi, həm də ödəmə qabiliyyətli tələbin formalaşdırılması vasitəsilə həyata keçiriləcəkdir.

Ərzaq təklifi kəmiyyətcə qənaətbəxş səviyyədə olmaqla yanaşı, həm də keyfiyyətcə ən müasir tələblərə cavab verməli, ölkə əhalisi ekoloji təmiz məhsullarla təchiz edilməlidir. Bunun üçün isə keyfiyyətə və təhlükəsizliyə səmərəli nəzarət sistemi qurulmalıdır.

Dayanıqlı ərzaq təminatının əldə olunması sahəsində:

– iqtisadiyyatın sahəvi və regional baxımdan tarazlı inkişafının təmin edilməsi;

– real sektorun inkişafına stimullaşdırıcı təsir göstərən pul və fiskal siyasətin həyata keçirilməsi;

– regionlarda infrastruktur təminatının yaxşılaşdırılmasına, sosial xidmətlərin həcminin və keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş büdcə siyasətinin davam etdirilməsi;

– ərzaq istehsalının artırılmasının həvəsləndirilməsinə yönəldilmiş vergi siyasətinin həyata keçirilməsi;

– Ümumdünya Ticarət Təşkilatının tələbləri nəzərə alınmaqla, daxili ərzaq bazarının haqsız rəqabətdən qorunması ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi;

– ekoloji tarazlığın və biomüxtəlifliyin qorunması istiqamətində siyasətin davam etdirilməsi;

– bitkiçilik və heyvandarlığın intensiv təsərrüfatçılıq əsasında inkişaf etdirilməsi, bu sahənin maddi-texniki təchizatının yaxşılaşdırılması, toxumçuluq və damazlıq işlərinin mövcud tələblər səviyyəsində qurulması;

– aqrar sahənin statistikasının təkmilləşdirilməsi;

– beynəlxalq təşkilatlarla ərzaq təminatının yaxşılaşdırılması sahəsində əməkdaşlığın inkişaf etdirilməsi;

– əhalinin əmək haqqı, pensiya və müavinətlərinin, eləcə də ünvanlı sosial yardımların artırılması, minimum əmək haqqı və pensiyaların yaşayış minimumuna çatdırılması ilə bağlı siyasətin davam etdirilməsi.

Əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi sahəsində:

– ərzaq məhsullarının istehsalı sahəsində İSO standartlarına uyğun keyfiyyətin idarə edilməsi sistemlərinin tətbiqi üçün normativ hüquqi bazanın yaradılması;

– ərzaq təhlükəsizliyi mexanizmlərinin təkmilləşdirilməsi, beynəlxalq HACCP (Təhlükəli amillərin təhlili və kritik nöqtələrə nəzarət) sisteminə keçid üçün normativ hüquqi bazanın yaradılması;

– ərzaq məhsullarının istehsalı sahəsində beynəlxalq təcrübə nəzərə alınmaqla milli standartların hazırlanması və tətbiqi;

– "Tarladan süfrəyədək" prinsipi əsasında ərzaq istehsalı zəncirinin bütün mərhələlərində müvafiq sahələr üzrə keyfiyyətə nəzarət sisteminin və mexanizminin işlənib hazırlanması və həyata keçirilməsi.

Ərzaq təminatı ilə bağlı risklərin idarə olunması sahəsində:

– fövqəladə vəziyyətə hazırlıqla bağlı ərzaq ehtiyatlarının yaradılmasına dair qanunvericilik bazasının hazırlanması;

– Dövlət Taxıl Fondunun yaradılması və səmərəli idarə olunması;

Sahibkarlıq mühitinin yaxşılaşdırılması və ərzaq təminatı sisteminin institusional inkişafı sahəsində:

– sahibkarlığın inkişafı ilə bağlı mütərəqqi modellərin tətbiqinin genişləndirilməsi;

– kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisələrinə ayrılan güzəştli kreditlərin həcminin artırılması;

– fermerlərə subsidiyaların verilməsi, onların texnika, gübrə və kimyəvi vasitələrlə təminatının yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi;

– kənd təsərrüfatında ərzaq məhsullarının istehsalı sahəsində müasir sığorta mexanizmlərinin tətbiq olunması;

– kənd təsərrüfatı və ərzaq məhsulları istehsalı sahəsində birliklərin, assosiasiyaların, kooperativlərin yaradılmasınındəstəklənməsi;

– biznes mühitinin daha da yaxşılaşdırılması, bazara çıxış imkanlarının genişləndirilməsi;

– haqlı rəqabət mühitinin inkişaf etdirilməsi, inhisarçı təsərrüfat subyektləri tərəfindən suiistifadə hallarının qarşısının alınması;

– emal müəssisələrində rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasının təşviqi sisteminin təkmilləşdirilməsi;

– iş adamlarına məsləhət-informasiya xidmətlərinin göstərilməsi şəbəkəsinin genişləndirilməsi;

– özəl texniki və digər xidmətlərin göstərilməsi sisteminin genişləndirilməsi;

– aqrar sahənin elmi və kadr təminatının yaxşılaşdırılması.

"...FAO ilə Azərbaycan arasındakı əlaqələr artıq böyük tarixə malikdir. Biz bu mötəbər beynəlxalq təşkilatın fəal üzvüyük. Müxtəlif layihələr, proqramlar icra edilir. FAO tərəfindən Azərbaycana verilən dəstək kənd təsərrüfatı sahəsində islahatların aparılması üçün də çox vacibdir. Mən əminəm ki, bu əməkdaşlıq bundan sonra da sürətlə inkişaf edəcəkdir. Azərbaycan FAO-dakı fəaliyyətini daha da genişləndirəcəkdir. Beləliklə, bu əməkdaşlıq yeni mərhələyə qədəm qoyacaqdır...

Aclıq XXI əsrin ən böyük bəlasıdır. Yəni, bu, dözülməzdir ki, hazırda bu gün, bu dəqiqə aclıqdan ölənlər vardır. Biz bütün səylərimizi birləşdirib bu böyük bəlaya qarşı ciddi mübarizə aparmalıyıq. Azərbaycan buna hazırdır və hesab edirəm ki, FAO-nun çox dəyərli üzvü kimi bu sahədə biz konkret addımları atmağa hazırıq".

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti



BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Avropa üzrə 28-ci regional konfransı
Bakı, 19 aprel 2012

"... Azərbaycan yoxsulluğun azaldılması, təbii ehtiyatların idarəçiliyi sahəsində, xüsusilə də neft və qaz ehtiyatlarının idarəçiliyi sahəsində böyük uğurlara nail olmuşdur. Siz kənd təsərrüfatını iqtisadiyyatın ən önəmli sektorlarından biri kimi irəli çıxarmısınız. Azərbaycanda ümumi daxili məhsul son illər ərzində bir neçə dəfə artmışdır. Sizin bu istiqamətdə həyata keçirdiyiniz bütün işlərinizi, səylərinizi mən çox yüksək qiymətləndirirəm ... Azərbaycan FAO-ya yeni üzv ölkələrin qəbul olunmasında və regionda digər oyunçu ölkələrin bu prosesə qatılmasında çox böyük rol oynamışdır. Əminəm ki, biz aramızda olan tərəfdaşlığın əsaslarını birlikdə daha da dərinləşdirəcəyik və bu regionun inkişafına öz töhfəmizi verəcəyik".

Joze Qratsianon
BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının baş direktoru

mai və fərdi (özəl) sektorlar ilə hamı üçün ərzaq təhlükəsizliyinə nail olmaq proqramları üzrə əməkdaşlıq məqsədəuyğun hesab edilir. *Ərzaqla təminat zamanı ondan siyasi və iqtisadi təsir vasitəsi kimi istifadə edilməməsi tövsiyə olunmuşdur.* Dünya ölkələri ərzaq təhlükəsizliyinin təmin olunmasında ticarətin əsas mərhələ olması fikri ilə tam razılaşmış, istehsalçıları və istehlakçıları həvəsləndirmək məqsədi güdən elə ərzaq və ümumi ticarət siyasətini dəstəkləmişlər ki, mövcud ehtiyatlardan səmərəli istifadə edilməsinə şərait yaradılsın və iqtisadiyyatda dayanıqlı inkişaf təmin edilmiş olsun. Göstərilən məqsədlərə nail olmaq, onların yerinə yetirilməsi BMT-yə üzv olan bütün iştirakçı ölkələr üçün tövsiyə olunan 7 qrup öhdəliklər qəbul edilmişdir ki, bu da 27 məqsəd və tədbirləri özündə əks etdirir.

Firuzəxanım Qəribova

ƏRZAQ VERGİSİ – ərzaq şəklində tutulan natural vergi. SSRİ-də 1921-1923-cü illərdə mövcud olmuşdur. Kəndli təsərrüfatlarından tutulurdu.

ƏSAS BORCALAN – dövlət zəmanəti verilmiş öhdəliklər üzrə borclu olan hüquqi şəxs.

ƏSAS ƏMƏK HAQQI DƏRƏCƏLƏRİ – bu elə əmək ödənişi formasıdır ki, hər bir fərd tərəfindən əmək haqqı üzrə müqavilədə müəyyən olunan minimal iş saatları sayına görə əldə olunur. Çox zaman bu termini minimal mükafatlandırma səviyyəsini müəyyən edən saathesabı ödənişin baza dərəcələrinə aid edirlər ki, bunu da insan standart iş həftəsinin hər saatına görə gözləyə bilər. Standart iş həftəsinə görə mükafatlandırmanın ümumi səviyyəsi çox zaman əsas və ya həftəlik əmək haqqı dərəcəsi adlanır. Əmək haqqı dərəcəsini əmək davamlılığından asılı olaraq, dəyişilən gəlirlərdən fərqləndirmək lazımdır.

ƏSAS FƏALİYYƏTDƏN YARANAN GƏLİR – istehlak xidmətləri göstərilməsi və ya malların realizə edilməsi nəticəsində alınmış ümumi gəlir.

Əsas fəaliyyətdən yaranan gəlir hər bir kommersiya təşkilatının fəaliyyətinin əsasıdır.

Əsas fəaliyyətdən yaranan gəlir realizə edilmiş mallara (işlərə, xidmətlərə) və ya əmlak hüquqlarına görə hesablaşmalarla əlaqədar bütün daxilolmalar əsasında müəyyən edilir. Əmlak hüquqları pul və (və ya) natural formalarda ifadə edilir və bu məbləğdən məhsulun (işlərin, xidmətlərin) maya dəyəri çıxılır. Malların və xidmətlərin realizə edilməsinin uçotunun üsulları müxtəlifdir – yığım metodu, ödəniş aparıldıqca, hesablaşma sənədləri təqdim edildikcə, sifariş yerinə yetirildikcə və ya realizə anı üçün uçot.

Uçotda yığım metodundan istifadə edildikdə əməliyyatlar ödəniş anında (ödəniş aparıldıqca) deyil, əməliyyat aparıldığı anda uçota alınır. Bundan əlavə, məsrəflər müvafiq gəlirlərlə müqayisə edilir və yaranma anında uçota alınır, gəlirlərin uçotu isə onlar əldə edildiyi anda aparılır.

ƏSAS FONDLAR – ölkənin milli sərvətinin mühüm hissəsini təşkil edir. 2008-ci il MHS-nin standartlarına uyğun olaraq əsas fondların tərkibinə aşağıdakılar daxil edilir: yaşayış yerləri; sair bina və tikililər (qeyri-yaşayış yerləri, sair tikililər, torpağın yaxşılaşdırılmasına xərclər); maşın və avadanlıqlar (nəqliyyat vasitələri, informasiya-kommunikasiya texnologiyaları üçün avadanlıqlar, sair növ maşın və avadanlıqlar); silahlanma sistemi; becərilən bioloji ehtiyatlar (bir neçə dəfə məhsul verən heyvan mənşəli ehtiyatlar, yəni məhsuldar və işçi mal-qara və quşlar, bir neçə dəfə məhsul verən bitki mənşəli ehtiyatlar, yəni məhsuldar çoxillik əkmələr); istehsal edilməyən aktivlərə mülkiyyət hüququnun verilməsi ilə əlaqəli xərclər; intellektual mülkiyyətin məhsulları (tədqiqat və işləmələr, faydalı qazıntıların axtarışı və yataqların ehtiyatlarının qiymətləndirilməsi, proqram təminatı və məlumatlar bazası, əyləncə janrlı əsərlərin, ədəbiyyat və incəsənət əsərlərinin orijinalları, sair intellektual mülkiyyət məhsulları).

Bütün mülkiyyət formalarında olan müəssisə və təşkilatların (şirkətlərin) əsas fondları, habelə vətəndaşların mülkiyyətində olan əsas fondlar, yəni yaşayış binaları, təsərrüfat tikililəri, çoxillik əkmələr, məhsuldar və işçi mal-qara, kənd təsərrüfatı texnikası, intellektual mülkiyyətin məhsulları və s. uçota alınır.

Əsas fondlar istehsalın mühüm vasitələrindən biridir, öz dəyərini hissə-hissə (xidmət müddətindən asılı olaraq) yeni yaradılan məhsulun dəyərinə keçirir. Bu xüsusiyyətindən asılı olaraq hər təsərrüfat ili üçün əsas fondların köhnəlməsi (amortizasiyası) hesablanır.

Əsas fondların amortizasiyasının hesablanmasının iki metodundan istifadə edilir: normativ və proqressiv metodlar.

Normativ metod üzrə onların dəyəri və xidmət müddətinə proporsional müəyyən edilən amortizasiya normasına uyğun olaraq hər təsərrüfat ilində əsas fondların köhnəlməsi (aşınması) hesablanır.

Proqressiv metod üzrə sahibkarlar, yeni texnika və texnologiyadan operativ istifadəni təmin etmək məqsədilə ayrı-ayrı növ əsas vəsaitlər üzrə amortizasiya normasını müəyyən etməkdə müstəqil qərar qəbul edirlər. Alınmış yeni texnika və texnologiyalar üçün birinci illərdə daha yüksək amortizasiya norması müəyyənləşdirilir.

Əsas fondların faydalı iş əmsalı – əsas fondların istifadəsinin səmərəliliyinin vacib göstəricisi. Müəyyən dövr üçün istehsalın nəticələri göstəricisinin, bu dövr üçün əsas fondların tam orta illik dəyərinə nisbəti ilə müəyyən edilir. Fondun faydalı iş əmsalı göstəricisinin əksi olan kəmiyyət məhsulun fondtutumudur.


Əsas fondların fiziki həcm indeksi – baza dövrü ilə müqayisədə cari dövrdə əsas fondların maddi-natural kütləsinin dəyişməsini əks etdirən nisbi göstərici. Bu göstəricidən əsas fondların fiziki həcminin dinamikasının təhlilində istifadə olunur və onlar yalnız fiziki həcmin dəyişməsinə səbəb olan və qiymətlərin dəyişməsi ilə əlaqədar olmayan dəyərin dəyişməsini əks etdirir. Əsas fondların fiziki həcm indeksi cari dövrdə əsas fondların dəyərinin (müqayisəli qiymətlərlə) baza dövründəki əsas fondların dəyərinə (eyni müqayisəli qiymətlərlə) bölünməsi ilə müəyyənləşdirilir. Cari dövrdə əsas fondların səmərəli qiymətlərlə həcmi qiymət indeksinə düşmüş əsas fondların cari dövrdə faktiki qiymətlərlə dəyərini göstərir.

Əsas fondların xidmət müddəti – əsas fondların istifadəyə verilməsi və onun silinməsi (ləğv edilməsi) arasındakı vaxt intervalı. Əsas fondların ayrı-ayrı növləri müxtəlif yaşlarda ləğv edildiyinə görə onların orta faktiki müddətinin təyin edilməsi məqsədəuyğun hesab olunur. Bu, cari ildə istifadəyə verilənlərdən gələcəkdə neçə ilə istismarda ola biləcəklərini və hər il silinmə (yəni ləğv hissəsi) intensivliyini saxlayırsa (qoruyursa), cari ildə istifadəyə verilən əsas fondların istismarda gözlənilən ömür müddətini göstərir.

Əsas fondların xidmətinin orta müddətinin hesablanmasında tətbiq edilən metodologiyada keçmiş dövrdə illər üzrə əsas fondların istifadəyə verilməsinin həcmləri, hesablama tarixində əsas fondların mövcudluğu və onların yaş strukturu nəzərə alınır. Faktiki xidmət müddəti ilə müqayisə üçün, eyni zamanda əsas fondların normativ xidmət müddəti müəyyən olunur. O, əsas fondların tam bərpası üçün özündə qüvvədə olan amortizasiya ayırmaları normalarının qiymətlərinin əks kəmiyyətini ifadə edir.

Əsas fondların yararlılıq əmsalı – əsas fondların qalıq dəyərinin onların tam ilkin (bərpa)

Azərbaycan Respublikasında əsas fondların mövcudluğu (ilin sonuna, mln. manat)



Qrafik 1

dəyərinə olan nisbəti. Əsas fondların yararlılıq əmsalı – əsas fondların köhnəlmə (aşınma) səviyyəsi göstəricisinin əksidir.

Əsas fondların yaş xarakteristikası – mövcud əsas fondların orta yaşını, onların yaş qruplarını, sıradan çıxmış əsas fondların orta yaşını, orta xidmət (faktiki və normativ) müddətini əks etdirən göstərici.

Qeyri-maddi əsas fondlar – faydalı qazıntıların kəşfiyyatına, istehsal olunmayan aktivlərə mülkiyyət hüququnun verilməsi üçün çəkilən xərclərdən və əqli mülkiyyət obyektlərindən (proqram təminatı, məlumat bazaları, ədəbiyyat, incəsənət və s.) ibarətdir.

Ləğv dəyəri – ləğv edilmiş obyektin aktiv və passiv elementlərinin xalis satış dəyəri. Obyekt ləğv olunarkən onun ləğvolunma xərclərini çıxmaqla, yararlı tikinti materiallarının, ayrı-ayrı detal və qovşaqların, dəmir qırıntılarının və s. satışından əldə olunan mədaxildir. Ləğv dəyəri fiziki və mənəvi aşınma nəticəsində istismar üçün yararsız olan əsas fondların ləğvi ilə müəyyənləşdirilir.

Ləğvetmə dəyəri – obyektlərin ləğv edilməsindən sonra əsas fondların, tikinti materiallarının, ayrı-ayrı qovşaqların və hissələrin, metal qırıntılarının və s. satışından əldə edilən pul. Ləğvetmə dəyəri həm də fiziki və mənəvi aşınma nəticəsində gələcəkdə istismara yararlı olmağına görə ləğv edilmiş əsas fondlar üzrə də müəyyənləşdirilir.

Ləğvetmə qalığı – ləğv edilməli olan müəssisələrin, bankın bütün aktivlərinin satışından, borclarının ödənilməsindən və səhmdarlarla hesablaşmalardan sonra qalan məbləğ. Adətən əsasnamədə xüsusi şərtlər olmadıqda ləğvetmə qalığı səhmdarların mülkiyyəti sayılır və onlar arasında bölüşdürülür.

ƏSAS FONDLARIN QİYMƏTLƏNDİRİLMƏSİ – əsas fondların dəyərinin ölçülməsi üsulları sistemi.

Əsas fondların qiymətləndirilməsi aşağıdakı elementlərə bölünür:

Tam ilkin dəyər – əsas fondlara aid obyektlərin istifadəyə verilməsinin dəyəri (avadanlığın alınması, çatdırılması, quraşdırılması və montaj edilməsi, binaların tikilməsi üçün faktiki xərcləri pul şəklində ifadə edir);

İlkin dəyər ilə köhnəlmənin fərqi – əsas fondların dəyərinin buraxılmış məhsulun üzərinə köçürülməmiş hissəsi, yəni amortizasiya edilməmiş dəyər (əsas fondların tam ilkin dəyəri ilə müəyyən tarix üçün amortizasiya məbləği arasındakı fərq kimi hesablanır);

Tam bərpa dəyəri – əsas fondların yenidən qiymətləndirilməsi anında faktiki yaranmış topdansatış qiymətləri, tikintinin smeta qiyməti, nəqliyyat tarifləri şəraitində onların yenidən qiymətləndirilməsi;

Bərpa dəyəri ilə köhnəlmə arasındakı fərq – əsas fondların faktiki dəyəri və inventar obyektlərinin həqiqi köhnəlməsinin pul şəklində ifadəsi, yəni qalıq dəyəri.

Əsas fondların balans dəyəri qarışıq qiymətdir, çünki inventar obyektlərinin bir qismi bərpa dəyəri üzrə, digər qismi isə tam ilkin dəyər üzrə hesablanır.

Əmlakın, tikililərin, əsas vəsaitlərin dəyərinin qiyməti özəlləşdirmə, miras verilməsi, icarə, əmlak dəyərlərinin girovdan çıxarılması və ya onların uçotu, vergi tutulması, sığorta zamanı və digər hallarda həyata keçirilən rəsmi qiymətləndirmə ilə təyin edilir.

ƏSAS FONDLARIN SIRADAN ÇIXMASI ƏMSALI – bütövlükdə ölkə iqtisadiyyatı səviyyəsində əsas fondların balansında, eləcə də müəssisə və təşkilatların müvafiq balansında əks olunan əsas kapitalın təkrar istehsalı göstəricilərindən biri. İl ərzində kortəbii hadisələrin, qəzaların və s. nəticəsində itkilərin, fiziki aşınmanın, köhnəlmənin nəticəsi kimi sıradan çıxmış əsas fondların dəyərinin ilin başlanğıcına əsas fondların dəyərinə nisbəti kimi hesablanır.

Aşınma çıxılmaqla tam ilkin dəyər üzrə balansın işlənib hazırlanması zamanı əsas fondların sıradan çıxmasının qiymətləndirilməsi növləri fərqləndirilir. Birinci balans əsas fondların fiziki həcminin mövcudluğunu və hərəkətini göstərir; burada əsas fondlar bu fondların bütün fəaliyyəti dövründə az və ya çox dərəcədə sabit qalan bu əsas fondların istehlak dəyəri nöqteyi-nəzərindən qiymətləndirilir. Balansda əks olunan əsas fondların tam ilkin dəyər üzrə sıradan çıxması bu və ya digər obyektin istismarının başa çatması deməkdir.

Aşınma çıxılmaqla tam ilkin dəyər üzrə əsas fondların balansı amortizasiyanın ölçülərinin müəyyən edilməsinə və ölkənin istehsal aparatının təzələnməsinə xidmət edir, yəni əsas

fondların sadə təkrar istehsalının və iqtisadiyyatın sahələri, mülkiyyət formaları və sferaları üzrə onların aşınmasının miqyasını müəyyən etməyə imkan verir. Buna görə də bu balansın məxaric hissəsində əsas fondların fiziki sıradan çıxması yox, faktiki sıradan çıxmış obyektlərin iki hissəyə bölünən qalıq dəyəri əks olunur. Birinci hissəyə sıradan çıxmış əsas fondların (ehtiyat hissələri, materiallar, metal qırıntıları və s.) ləğv edilməsi zamanı alınan əmtəə-material qiymətlilərin dəyəri uyğun gəlir və o, balansda ayrıca sətirdə göstərilir. İkinci hissə qalıq dəyəri isə əsas fondların itkiləri arasında balansda əks etdirilir.

ƏSAS FONDLARIN TƏZƏLƏNMƏSİ ƏMSALI – əsas kapitalın təkrar istehsalı sürətini xarakterizə edən göstərici. İl ərzində istismara verilmiş yeni əsas fondların tam dəyərinin ilin sonuna bütün əsas fondların tam dəyərinə nisbəti kimi hesablanır. Əsas fondların təzələnməsi əmsalının kəmiyyəti, hər şeydən əvvəl, işə düşmüş yeni istehsal fondlarının həcmindən asılıdır: o, nə qədər çoxdursa, digər bərabər şərtlər daxilində təzələnmə əmsalı daha yüksəkdir. Lakin əsas fondların təzələnməsi əmsalına köhnəlmə və aşınma nəticəsində əsas fondların sıradan çıxması da təsir göstərir: köhnə fondların sıradan çıxması öz-özlüyündə ilin sonuna qalan əsas fondların orta yaşının azalmasına gətirib çıxarır. Buna görə də hər hansı bir sahənin iki müəssisəsində əsas fondların təzələnməsi əmsalı uyğun gəlmir, belə ki, bu müəssisələrin birində əsas fondların sıradan çıxması baş verir, digər müəssisədə isə bu baş vermir.

Əsas fondların texniki səviyyəsinin dəyişilməsinin xarakteristikası üçün əsas fondların təzələnməsi əmsalı yalnız sahələrin və müəssisələrin istehsal aparatına nisbətdə hesablanmalıdır, özü də bu göstəricinin surətinə bütün istismara verilmiş avadanlığı yox, yalnız öz texniki xarakteristikalarına görə yeni texnika və texnologiya kateqoriyasına aid edilə bilən əmək alətlərini daxil etmək lazımdır. İnvestisiya fəallığının artırılması ilə yanaşı əsas fondların təzələnməsi prosesinin şərtlərindən biri ilkin balans dəyəri əsasında onların müntəzəm olaraq yenidən qiymətləndirilməsidir. İnkişaf etmiş ölkələrdə yaranan normalar üzrə bu növ fəaliyyət peşəkar qiymətləndiricilər tərəfindən həyata keçirilməlidir.

ƏSAS İSTEHSAL FONDLARI – istehsal potensialının səviyyəsini müəyyənləşdirən mühüm göstərici kimi əmək vəsaitlərinin dəyərində əks olunur. Milli sərvətin çox dəyərli hissəsini təşkil edən əsas fondlar, həm də ümumi təkrar istehsal prosesinin həlledici şərti, əmək məhsuldarlığını, istehsalın səmərəliliyini, iqtisadi qüdrətini artıran mühüm amil kimi də çıxış edir. Onun spesifik əlaməti, müəyyən istehsal tsikli ərzində aşınma ölçüsünə istinadən, dəyərinin tədricən hazır məhsulun üzərinə köçürməsindədir. Bu çox dəyərli proses nəticəsində nizamnamə kapitalı mərhələli şəkildə avanslaşdırılır, əsas kapitalın pula, onun da yenidən əsas kapitala çevrilməsi reallaşır (bax: cədvəl 1, 2).

Cədvəl 1

Azərbaycan Respublikasında əsas kapitala yönəldilmiş vəsaitlər

Göstəricilər	Ölçü vahidi	2001-ci il icra	2003-cü il icra	2010-cu il icra
Əsas kapitala yönəldilmiş vəsaitlər	mln. manat	1 170,8	3 786,4	**9 905,7**
daxili	mln. manat	437,7	938,3	**7499,2**
xarici	mln. manat	733,1	2 848,1	**2406,4**
neft sektoru üzrə	mln. manat	764,0	2760,1	**2985,5**
ÜDM-də xüsusi çəkisi	%	14,4	38,6	**7,2**

Cədvəl 2

Azərbaycan Respublikasında əsas kapitala yönəldilmiş vəsaitlərin mülkiyyət növlərinə görə bölgüsü (ümumi həcmdə xüsusi çəkisi, faizlə)

	Cəmi	o cümlədən:				
		dövlət	ondan: qeyri-dövlət	xüsusi	xarici və müştərək mülkiyyət	bələdiyyə mülkiyyəti
Əsas fondların istifadəyə verilməsi						
1995	100	74,4	25,6	25,6	-	-
2000	100	63,3	36,7	16,3	20,4	-
2005	100	12,2	87,8	13,6	74,1	0,1
2010	100	53,0	47,0	14,8	32,2	0,0
Əsas kapitala investisiyalar						
1995	100	58,3	41,7	8,9	32,8	-
2000	100	41,7	58,3	18,3	40,0	-
2005	100	16,2	83,8	15,4	68,3	0,1
2010	100	60,6	39,4	14,5	24,9	0,0
Tikinti işlərinin həcmi						
1995	100	84,9	15,1	13,2	1,9	-
2000	100	54,2	45,8	11,9	33,9	-
2005	100	16,0	84,0	32,7	51,3	0,0
2010	100	25,1	74,9	47,9	27,0	0,0

ƏSAS İTKİLƏRDƏN SIĞORTALANMA – müqavilə şərtlərinə görə yalnız istehsalın özünün bərpa edilməsi dövrü ilə itkiyə görə sığortaçının məsuliyyət müddətini məhdudlaşdıran sığorta.

ƏSAS KAPİTAL – əmtəə istehsalında bütünlüklə birdəfəlik və ya çoxsaylı dövrlərdə iştirak edən, bu zaman öz dəyərini hissə-hissə istehsal olunan məhsulun üzərinə keçirən məhsuldar kapitalın bir hissəsi. Əsas kapitala avans olunmuş kapitalın binaların, tikililərin inşasına, maşın, avadanlıq, alətlərin alınmasına sərf olunan hissəsi aiddir. Əmtəə reallaşdıqdan sonra əsas kapital sahibkara pul formasında uyğun olaraq ya tam, ya da hissə-hissə qayıdır. Əsas kapital fiziki və mənəvi aşınmaya məruz qalır. Fiziki aşınma əsas kapitalın istehlak dəyərinin tədricən itirilməsidir ki, bu da

Cədvəl 3


Azərbaycan Respublikasında maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin strukturu (faktiki qiymətlərlə)

	2000		2003		2005		2010	
	Mln. manat	Ümumi həcmdə xüsusi çəkisi, faizlə	Mln. manat	Ümumi həcmdə xüsusi çəkisi, faizlə	Mln. manat	Ümumi həcmdə xüsusi çəkisi, faizlə	Mln. manat	Ümumi həcmdə xüsusi çəkisi, faizlə
Əsas kapitala investisiyalar, cəmi	**967,8**	**100**	**3786,4**	**100**	**5769,9**	**100**	**9905,7**	**100**
o cümlədən, maliyyə								
mənbələri üzrə:								
Müəssisə və təşkilatların öz vəsaitləri	689,2	71,2	3108,1	82,1	4767,0	82,6	5041,9	50,9
Əhalinin şəxsi vəsaiti	45,3	4,7	122,1	3,2	331,8	5,7	373,2	3,8
Bank kreditləri	131,9	13,6	187,3	5,0	372,1	6,4	643,8	6,5
Büdcə vəsaitləri	28,4	2,9	110,6	2,9	193,6	3,4	3255,3	32,9
Başqa təşkilatların borc vəsaitləri	12,2	1,3						
Büdcədənkənar fondların vəsaitləri	8,3	0,9	26,5	0,7	72,7	1,3	570,5	5,7
Sair vəsaitlər	52,6	5,4	231,8	6,1	32,8	0,6	20,9	0,2

məhsulun üzərinə amortizasiya formasında tədricən keçirilir və hissə-hissə də qayıdır. Mənəvi aşınma məhsuldarlığın artırılması və texniki tərəqqi nəticəsində baş verir və əsas kapitalın fiziki aşınmasına qədər onun təzələnməsinə gətirib çıxarır. İstehsal fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan əsas vəsaitlərdir ki, bunların amortizasiyası müddəti bir ildən çoxdur (bax: cədvəl 1, qrafik 1, 2, sxem 1, 2).


ƏSAS KAPİTALIN (FONDLARIN) İSTEHLAKI – mənəvi və fiziki aşınma (köhnəlmə) hesabına əsas fondların dəyərinin azalmasını (amorti-

Azərbaycan Respublikasında əsas kapitala yönəldilmiş vəsaitlərin tərkibi (milyon manat)



Qrafik 1

Azərbaycan Respublikasında əsas kapitala yönəldilmiş vəsaitlərin texnoloji quruluşu (ümumi yekuna görə, faizlə)



Qrafik 2



zasiya hesablanmasını) xarakterizə edir. Əsas fondların cari bərpa dəyərindən və istifadə müddətindən asılı olmayaraq hesablanır. MHS-də istifadə edilən göstəricidir.

ƏSAS KAPİTALIN ÜMUMİ YIĞIMI – istehsal prosesində istifadə etmək və gələcəkdə yeni gəlirlər əldə etmək məqsədilə əsas kapitala vəsait qoyuluşunu səciyyələndirir. Əsas kapital istehsal prosesində dəfələrlə iştirak edir və istehsal olunan aktivlər hesab edilir. Onlara bina və qurğular, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, damazlıq, məhsuldar və işçi mal-qara və quşlar, bağlar, üzümlüklər və sair çoxillik əkmələr, elmi kəşflərin dəyəri, meliorasiya və irriqasiya işlərinə, geoloji-kəşfiyyat işlərinə çəkilən xərclər, elektron-hesablama maşınlarının proqram təminatı və məlumatlar bazasının yaradılmasına xərclər, ədəbiyyat və incəsənət əşyalarının orijinalları (tirajını artırmaq üçün əsas sayılan filmlər, səsyazanlar, əlyazmalar və s.) daxil edilir. MHS-də istifadə edilən göstəricidir.

ƏSAS QİYMƏT – alıcılar tərəfindən məhsul və xidmətlərin vahidi üçün istehsalçılara ödənilən pulun həddinin (məbləğinin) səciyyələndirilməsi. Ona məhsula görə ödənilən vergilər (ƏDV, aksiz və s.), habelə nəqliyyatdaşıma xərcləri daxil edilmir, məhsula görə alınmış subsidiyalar isə daxil edilir. Ondan istehsalın dəyərini və əlavə dəyəri hesablamaq üçün istifadə edilir. Özünün son istehlakı üçün istehsal edilən məhsul və xidmətlər, habelə dövlət idarəetmə orqanları və ev təsərrüfatlarına xidmət göstərən qeyri-kommersiya təşkilatlarının qeyri-bazar xidmətlərinin qiymətləndirilməsində istifadə edilir. MHS-də istifadə edilən göstəricidir.

ƏSAS MÜŞTƏRİLƏRİ İDARƏETMƏ – satışa yanaşma. Bu zaman resurslar əsasən iri müştərilərin tələbatlarının ödənilməsinə istiqamətləndirilir və briqada satışı yanaşmasından istifadə olunur.

ƏSASLANDIRICI REKLAM – öz məqsəd və vəzifələrinə görə xatırlatma reklamına oxşayır, fərq yalnız ondan ibarətdir ki, reklamın bu növü istehlakçını onun seçiminin düzgün olmasına inandırmağa çalışır. Çox vaxt həmin maldan istifadə edən və nəticəsindən razı qalan insanların fikirlərindən ibarət olur.

ƏSASLANDIRILMIŞ İSTİQRAZLAR, FONDLAŞDIRILMIŞ BORCLAR – uzunmüddətli və müddətsiz dövlət həmrəyliyi və birləşməsi nəticəsində yaranır.

ƏSASLI MƏSRƏFLƏR – əməliyyat məsrəfləri istisna olmaqla, kontrakt sahəsində və ya onunla əlaqədar çəkilmiş maliyyə məsrəfləri.

ƏSASLI TİKİNTİ – bütün öz komponentləri ilə dövlət tərəfindən xüsusi şərtlərlə tənzimləmə rejiminə tabe olan tikinti növü. Əsaslı tikinti mərkəzləşdirilmiş kapital qoyuluşu hesabına, eləcə də qeyri-mərkəzləşdirilmiş maliyyələşmə mənbələri hesabına həyata keçirilən, plan və titul siyahılarına daxil olan mövcud obyektlərin yenidənqurulmasına və genişlənməsinə, yenilərinin tikintisinə şamil olunur. Beləliklə, müvafiq aktlar sistemindən kənarda olan və "əsaslı" əlamətlərdən məhrum olan tikintinin mövcud olması fərz olunmur. Əsaslı tikintiyə aid olmayan tikintinin xüsusi çəkisi aşağı olur.


Hazırda vəziyyət köklü surətdə dəyişmişdir. Mülki dövriyyənin iştirakçılarına həm dövlət təşkilatları, həm də xüsusi, o cümlədən xarici sifarişçi sahibkarlar və podratçılar aiddir. Müvafiq olaraq dövlət maliyyələşməsi və bütövlükdə, dövlət planı üzrə aparılan tikinti sferası daralmışdır.

Əsaslı tikintidən fərqli olan tikintinin xarakteristikası üçün "tikinti podratı" terminindən istifadə olunur. Tikinti podratı müqaviləsinin müəyyən edilməsində müəyyən obyektin sifarişçisinin tapşırığı üzrə bütövlükdə tikinti, yaxud, ayrı-ayrı tikinti işlərinin yerinə yetirilməsi onun predmeti adlanır. Tikintiyə aid olan işlərin siyahısında müəssisənin, binanın, tikilinin və ya digər obyektin tikintisi və ya yenidən qurulması, eləcə də quraşdırma, buraxılış, sazlama, tikilməkdə olan obyektlərdə işlərin yerinə yetirilməsi göstərilir.

Tikinti podratı müqaviləsi üzrə sifarişçi vətəndaşın məişət və digər şəxsi tələbatlarının ödənilməsi üçün işlər yerinə yetirilən zaman tərəflərin münasibətlərinə məişət qaydası müqaviləsi üzrə sifarişçinin hüquqları haqqında müddəalar tətbiq olunur.


Yeni iqtisadi şəraitdə tikintinin təşkilinə "mühəndisin" (mühəndis firmanın) cəlb edilməsi təcrübəsi mövcuddur. Mühəndis firması ilə münasibətlər tapşırıq müqaviləsinə əsaslanır.

Azərbaycan Respublikasında əsas kapitala yönəldilmiş daxili investisiyaların dinamikası, (mln. manat)



Sxem 1

Azərbaycan Respublikasında iqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin xüsusi çəkisi (yekuna görə, faizlə), 2010-cu il



Sxem 2

Tikintidə dövlət tələbatlarının ödənilməsi ilə əlaqədar münasibətlərin dar çərçivəsi üçün xüsusi rejim yaradılır. Podrat işlərin yerinə yetirilməsi üçün dövlət müqaviləsi (kontraktı) əsas hüquqi forma sayılır. Söhbət tərəflərin sərbəst iradəsinin nəticəsi olan müqavilələrin bağlandığı bazar haqqında gedirsə, dövlət bu cür müqavilələrin bağlanmasına maraq yaratmaqdan ötrü podratçılar və məhsul göndərənlər üçün müvafiq güzəştlər və zəmanətlər verir.

Əsaslı tikinti statistikası – təkrar istehsal hadisələri və proseslərini və yeni əsas fondların yaradılmasını öyrənən statistika sahəsi. Əsaslı tikinti statistikası iki tədqiqat obyektinə malikdir: kapital qoyuluşu sahəsində – kapital qoyuluşu məcmusu (investisiya) layihəsinin reallaşdırılması); tikinti fəaliyyəti sahəsində – maddi istehsal sahəsi kimi tikinti.

Əsaslı tikinti sahəsinin predmetinə tikintidə kapital qoyuluşunun həyata keçirilməsi vasitəsi ilə əsas fondların təkrar istehsalı sahəsində baş verən və inkişaf edən, kütləvi amillərin və proseslərin kəmiyyət ifadəsi və münasibətləri xidmət edir. Əsaslı tikinti statistikasının əsas vəzifəsi tikinti və əsas fondların təkrar istehsalında kapital qoyuluşu haqqında düzgün və elmi əsaslandırılmış məlumatların vaxtında əldə edilməsi və işlənməsindən ibarətdir.

Əsaslı tikintidə hesabat – sifarişçi, podratçı müəssisələrin (təşkilatların) tikintiyə xidmət edən layihə və axtarış təşkilatlarının fəaliyyəti üzərində statistik müşahidənin əsas forması. Əsaslı tikintidə hesabat özündə təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, əsas kapitala investisiya yönəldən (investisiya layihəsini reallaşdıran), tikintidə podrat müqavilələri, həmçinin təsərrüfat üsulu üzrə iş yerinə yetirən fiziki və hüquqi şəxslərin dövri təqdim etdikləri statistika müşahidəsi formalarının məcmusunu əks etdirir.

Əsaslı tikintinin podrat üsulu – müəyyən olunmuş qaydada qeydiyyatdan keçmiş və tikinti fəaliyyətinə lisenziya almış, ixtisaslaşdırılmış tikinti təşkilatları (əsas podratçı və subpodratçı) tərəfindən tikinti, həmçinin digər işlərin həyata keçirilməsinin təşkilati-hüquqi forması. Əsaslı tikintinin podrat üsulunda tikinti prosesində iki tərəf iştirak edir – sifarişçi və əsas podratçı (müqaviləçi). Onların qarşılıqlı əlaqələri tikinti üzrə müqavilə ilə müəyyənləşdirilir (bax: Əsaslı tikintiyə podrat müqaviləsi).

Əsaslı tikintiyə podrat müqaviləsi – icraçı ilə sifarişçi arasında bağlanmış müqavilə (kon- trakt) əsasında onların qarşılıqlı münasibətlərini tənzimləyən əsas hüquqi sənəd. Podratçı (kontraktor) tərəfindən öz riski hesabına müqavilədə nəzərdə tutulmuş vaxtda öhdəsinə götürdüyü obyektin tikilməsi və təhvil verilməsi, yaxud müqavilədə şərtləndirildiyi kimi, tikinti işlərinin yerinə yetirilməsi, sifarişçi tərəfindən podratçıya tikinti sahəsinin verilməsi, eləcə də işin hərtərəfli təmin edilməsi, onun qəbulu və ödənilməsinə dair müqavilədir. Əsaslı tikintidə podrat müqaviləsi mülki-hüquqi müqavilənin bir növüdür.

Əgər podratda hər hansı məmulatın hazırlanması nəzərdə tutularsa və podratçı onu özünün əldə etdiyi materiallardan hazırlayarsa, hazırlanmış məmulatın dəyəri sifarişçi tərəfindən ödənilərsə, onda mülkiyyət hüququ sifarişçiyə keçir. Əgər əvəz edilən əşya hazırlanmışdırsa, burada alqı-satqı qaydaları tətbiq edilir. Əgər razılaşmada başqa qayda müəyyənləşdirilməyibsə, podratla bağlı smetanın tərtibi ödənilmir.

ƏSƏDOV HEYDƏR XANIŞ OĞLU (1959) – 1978-ci ildə Bakı Sovet Ticarəti Texnikumunun mühasibat uçotu fakültəsini bitirmişdir.



1983-cü ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun uçot-iqtisad fakültəsini bitirmişdir. 1978-1984-cü illərdə İnstitutda oxuduğu dövrdə fəhlə, mühasib, böyük mühasib, böyük təftişçi vəzifələrində çalışmışdır. 1983-1992-ci illərdə Azərbaycan Dövlət İqtisad İnstitutunda müəllim, baş müəllim vəzifələrində işləmişdir. 1987-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsini almışdır. 1992-1995-ci illərdə Türkiyə Respublikasının Mərmərə Universitetinin doktorantı olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Maliyyə nazirinin müavini təyin edilmişdir. 1996-2007-ci illərdə

Maliyyə Nazirliyi yanında Baş Dövlət Xəzinədarlığının Baş direktoru, Azərbaycan Respublikası Maliyyə nazirinin müavini vəzifələrində işləmişdir. 2007-ci il aprelin 17-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Hesablama Palatasının sədri vəzifəsinə təyin edilmişdir. 3 monoqrafiya və 30-dan çox elmi əsərin müəllifidir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 31 tarixli Sərəncamı ilə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

ƏSƏDULLAYEV ÇİNGİZ RAUF OĞLU (1960) – Azərbaycan iqtisadçısı.



Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun maliyyə və kredit fakültəsini bitirmişdir. 1979-cu ildən SSRİ Dövlət Bankının Azərbaycan kontorunda iqtisadçı, aparıcı iqtisadçı, 1986-cı ildən Azərbaycan Dövlət Aqrar-Sənaye Komitəsində bölmə rəisi, "Azərittifaq" Birliyində baş iqtisadçı, idarə rəisinin müavini işləmişdir. 1990-cı ildən Bakı İstehlakçılar Cəmiyyətinin vitse-prezidenti, 1992-ci ildən "Azəriqazbank" ASC-nin İdarə Heyətinin sədri vəzifələrində çalışmışdır. 1997-ci ildən "Azəriqazbank" ASC-nin Müşahidə Şurasının sədri, 2007-ci ildən Azərbaycan Respublikasının Əmanətlərin Sığortalanması Müşahidə Şurasının sədridir. Azərbaycan Banklar Assosiasiyasının vitse-prezidentidir. Bakı Fond Birjası Müşahidə Şurasının üzvü və İnvestisiyaların Təşviqi Fondunun Himayəçilər Şurasının sədridir. Respublikada kommersiya bankları sisteminin formalaşmasında xidmətləri vardır.

Dünyanın bir çox ölkələrində keçirilən beynəlxalq konfransların, simpoziumların iştirakçısıdır.

III və IV çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatıdır. Azərbaycan-Britaniya parlamentlərarası dostluq qrupunun sədridir.

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin Sədr müavini kimi iqtisadi qanunvericilik bazasının təkmilləşdirilməsi işində fəal iştirak edir.

ƏSƏDULLAYEV ŞƏMSİ MİRZƏBƏY OĞLU (1840-1913) – Bakı milyonçusu, neft sənayeçisi, xeyriyyəçi.



Neftin Rusiyaya daşınmasında buxar gəmisindən istifadə edən ilk neft sahibkarı.

Ş.Əsədullayev bir çox Bakı milyonçuları kimi yoxsul ailədən çıxmışdı. Kiçik yaşlarından atasına əkində köməklik edir, araba ilə biçilmiş taxılı daşıyır, xırman salırdı. XIX əsrin əvvələrində neft sənayesinin inkişafı ilə əlaqədar olaraq, əmircanlıların əsas taxıl yerləri olan Suraxanı torpaq sahələrinin mühüm bir hissəsi burada neft çıxarılması və kerosin emalı ilə məşğul olan rus tacirlərindən Kokorev və Qubonin tərəfindən ucuz qiymətə alınmışdı. Onlar burada kerosin emal edən zavod da tikdirmişdilər. Torpaqsız qalan Suraxanı və Əmircan kəndlərinin camaatı kimi Ş.Əsədullayev də əkinçiliyi buraxaraq, neft mədənində işləməyə başlayır. Artıq 1860-cı ildə o, Kokorevin yanında işlər müdiri vəzifəsinə qədər yüksələ bilmişdi. Bir müddətdən sonra o, neft və duz podratçılığı ilə məşğul olur. 14 il müddətində müəyyən qazanc əldə etdikdən sonra – 1874-cü ildə neft çıxaran və emal edən kiçik müəssisə (kontor) açmış, həmin kontoru sonralar iri "Şəmsi Əsədullayev və K" şirkətinə çevirmişdi (1893). Əldə edilən neftin Rusiya bazarlarına çıxarılması onu daha çox düşündürürdü. Nəhayət, Ş.Əsədullayev Bakının neft kapitalistləri içərisində ilk dəfə olaraq,1891-ci ildə neftin Xəzər dənizi vasitəsi ilə daşınması sahəsində buxar şxunu (iki və üç dorlu yelkənli gəmi) sifariş verir.

1895-ci ildə Əsədullayevin təzə aldığı torpaq sahələrindən birində böyük fontan vurur. Fontan 56 gün davam edir. Fontan hər gün 1 milyon altı yüz min pud neft verirdi. Bu, Bakı neft sənayesi tarixində ən məşhur fontanlardan biri idi.

Əsədullayevin neft hasilatı artdıqca onun Volqaboyu şəhərlərində, Moskvada, Polşada, habelə Orta Asiyada, İranda neft anbarlarının sayı da artır, neft Xəzər dənizi sahillərinə və Volqaboyu şəhərlərə gəmilərlə daşınıb satdırılırdı. Bu illərdə Şəmsi Əsədullayev Nobel qardaşlarının əsas rəqibi sayılırdı. Çünki bütün Rusiyada, Türküstanda, İranda, hətta Finlandiyada belə Nobellərin dükanı və kontorları ilə üzbəüz, yaxud



Şəmsi Əsədullayevin bağ evi (Bakı, Mərdəkan, 1900-cü il)

yanaşı kontor və dükan açıb Nobellərdən ucuz qiymətə neft satar və onlarla rəqabət aparardı. Oktyabr ayının axırlarında Volqada naviqasiya bağlananda Bakıda neftin qiyməti xeyli aşağı düşürdü. Böyük neft milyonçuları, o cümlədən Ş.Əsədullayev də xırda mədən sahiblərindən nefti ucuz qiymətə alıb anbarlara vurar, yazda naviqasiya açılanda Rusiyaya daşıtdırardı. Beləliklə, Ş.Əsədullayev neftin ecazkar qüdrətindən milyonçu olur, həm neft mədəni, həm də neft daşıyan dəniz və çay donanması təşkil edir. Onun Bakıda bir neçə neftayırma zavodu, mexaniki emalatxanası, Suraxanı, Sabunçu və Ramanada 37 buruğu, Xəzər dənizində neft və neft məhsulları daşıyan gəmiləri var idi. Bakı şəhərinin mərkəzində əzəmətli bina tikdirmişdi.

O, həm də xeyriyyəçiliklə də məşğul olurdu: "Nəşri-maarif" Cəmiyyətinin fəal üzvü idi.



Bakı neft milyonçusu Şəmsi Əsədullayevin göstərişi ilə 1913-1914-cü illərdə memar Vladimir Krause tərəfindən tikilmiş Tatar Mədəniyyət Mərkəzinin binası (Moskva)

1903-cü ildə Ş.Əsədullayev ailə vəziyyəti ilə əlaqədar Moskvaya köçür.

Peterburqda Neva çayı sahilində, Qış sarayı yaxınlığında əzəmətli bina və Moskvada bir neçə yerdə mülklər tikdirir, xeyriyyə işləri ilə məşğul olur. Moskvada Kiçik Tatar döngəsində tikdirdiyi evi o zaman təzə yaradılmış Tatar Mədəniyyət Cəmiyyətinə bağışlamışdı. Bu binada tatar məktəbi, kitabxanası, konsert salonu, yetimlər üçün uşaq evi fəaliyyət göstərmişdir. Ş.Əsədullayev 1913-cü ildə Romanovlar taxt-tacının 300 illiyi münasibətilə Tiflis Müəllimlər İnstitutunda öz adına iki təqaüd təyin etmişdi.

Əsədullayev, demək olar ki, bütün qış aylarını Moskvada və Peterburqda keçirirdi. Bakıda onun neft işləri ilə böyük oğlu Mirzə Əsədullayev məşğul olurdu. Volqada naviqasiya açılan kimi Bakıya gələr və bir neçə ay müddətində anbarlarda toplanmış nefti Rusiyaya öz müştərilərinə göndərərdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra "Şəmsi Əsədullayev" firmasının mülkiyyəti milliləşdirilmiş, eləcə də

milyonçunun Mərdəkandakı əzəmətli bağı müsadirə edilib, sanatoriyaya çevrilmişdi.

ƏSƏRDƏN və ya FONOQRAMDAN İSTİFADƏ ÜÇÜN LİSENZİYA – əsərdən və ya əlaqəli hüquqların obyektlərindən qanuni istifadə üçün müqavilə əsasında istifadəçiyə verilən icazə. Lisenziya müstəsna və qeyri-müstəsna ola bilər. Müəllif müqaviləsi əsasında müstəsna lisenziya əldə etmiş şəxs həmin hüquqları başqa şəxslərə də verə bilər.

ƏSƏRDƏN İSTİFADƏYƏ İCAZƏ – müəllif (və ya digər hüquq sahibi) tərəfindən digər şəxsə müəyyən qaydalar və şərtlər daxilində əsərdən istifadəyə icazə (avtorizasiya) verilməsi. İstifadəyə icazə müqavilə əsasında alınmalıdır. Müəlliflərin istifadəyə icazə vermək hüququ müəllif hüquqlarının praktik mahiyyətini təşkil edər və müəllifə öz əsəri üzərində sərəncamçılığını həyata keçirməyi təmin edir. Müəyyən hallarda beynəlxalq konvensiyalar bu cür müqavilələrin məcburi və ya qanun üzrə lisenziyalarla əvəz olunmasına icazə verir.

ƏSƏRDƏN KOMMERSİYA MƏQSƏDİ İLƏ İSTİFADƏ – gəlir götürmək məqsədi ilə açıqlanmış əsərin hər hansı üsulla surətinin çıxarılması, yayılması, kirayəyə verilməsi, idxal edilməsi, kütləvi nümayişi, kütləvi ifası, kütləvi bildirişi, efirlə kütləvi bildirişi, kabellə kütləvi bildirişi, tərcüməsi, yenidən işlənməsi və digər üsullarla istifadəsi. Müəlliflik hüququ ilə qorunan əsərlərdən istifadə bu cür əsərə olan müəllif hüquqlarının istifadəsi ilə birgə həyata keçirilir.

ƏSƏRİN HÜQUQİ SAHİBİ – əsərə müəlliflik hüququnun məxsus olduğu şəxs. Müəlliflik hüququ əsərin yaradılması ilə birgə əldə edilir. Qanunvericilikdə nəzərdə tutulan bəzi xüsusi hallar istisna olmaqla, əsəri yaradan şəxs müəlliflik hüququnun ilkin sahibi sayılır. Müəllifin vərəsələri də müəlliflik hüququnun sahibləri ola bilərlər.

ƏSƏRİN VƏ YA FONOQRAMIN KİRAYƏYƏ VERİLMƏSİ – əsərin, fonoqramın və ya "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunla qorunan obyektlərin orijinalının və ya nüsxələrinin birbaşa və ya dolayı yolla gəlir götürmək məqsədi ilə müəyyən müddətə müvəqqəti istifadəyə verilməsi.

ƏSƏRİN YAYILMASI – əsərin orijinalının və ya nüsxələrinin satış və ya mülkiyyət hüququnun başqa cür verilməsi yolu ilə kütləyə çatdırılması.

ƏSRİN MÜQAVİLƏSİ – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən aparılan müdrik siyasət sayəsində 1994-cü il sentyabrın 20-də Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" (dərin hissəsi) yataqlarının (AÇG) işlənməsi və hasilatın pay bölgüsü üzrə Bakıda, "Gülüstan" sarayında imzalanmış birinci beynəlxalq saziş. Saziş sonradan "Əsrin müqaviləsi" adı ilə tanınmışdır. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilərək 1994-cü il dekabrın 12-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 11,5-20 milyard ABŞ dolları, ilkin proqnozlaşdırılan ehtiyatlar 560 milyon ton, son proqnoz 1 milyard ton neftə bərabərdir.

"Əsrin müqaviləsi" milli neft strategiyasının əsas təməl sütunlarından hesab edilir. Onun tərəfdaşlarını dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) təmsil edir. Pay bölgüsü: Lukoyl – 10%, Statoyl – 8,5633%, İtoçi – 3,9205%, TPAO – 6,75%, BP/AMOKO – 34,14%, Delta-1,68%, YUNOKAL – 10,0489%, EKSSON – 8,0006%, PENNZOYL – 4,8175%, RAMKO – 2,0825%, ARDNŞ – 10%.

"Əsrin müqaviləsi"nin ilk günlərindən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları məbləğində sərmayə qoyuluşunun 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə

"ƏSRİN MÜQAVİLƏSİ"NİN İMZALANMASI MƏRASİMİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİNDƏN

Bu gün, bu tarixi gündə, Azərbaycanda neftin sənaye üsulu ilə hasil və emal edilməsinə başlandığı dövrdən təxminən 150 il sonra, mən Azərbaycan neftçilərinin bütün nəsillərinə, respublikamızın neft sahəsində çalışan alimlərinin, mütəxəssislərinin, mühəndislərinin və fəhlələrinin hamısına bu dövrdə təbii sərvətlərimizi çıxarıb xalqımızın rifahının müəyyən qədər yaxşılaşmasına səy göstərdiklərinə görə, fədakar əməklərinə görə, böyük elmi kəşflərinə görə təşəkkürümü bildirirəm və onları indiyədək qazandıqları nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda neftin sənaye üsulu ilə istehsalına başlandığı vaxtdan indiyədək ölkəmizin ərazisində yerin təkindən – quruda və suda 1 milyard 325 milyon ton neft çıxarılmışdır. Xəzərin Azərbaycana aid hissəsində 45 ildə 400 milyon ton neft hasil edilmişdir. Bu müddətdə eyni zamanda 400 milyard kubmetrədək qaz çıxarılmışdır. Bütün bunlar böyük nailiyyətlərdir və gələcəkdə Azərbaycan Respublikasının iqtisadiyyatının, neft sənayesinin inkişafı üçün böyük əsas və təməldir.

Biz ötən dövrlərdə nə qədər çox neft çıxarsaq da, nə qədər böyük nailiyyətlər əldə etsək də, bir həqiqəti nəzərə çarpdırmalıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin sahibi olmamışdır. 1920-ci ilə qədər neftimiz həm xarici neft şirkətləri tərəfindən, həm də Azərbaycanın öz sahibkarları tərəfindən hasil edilsə də, Azərbaycanın, xüsusən Bakının inkişafı üçün böyük işlər görülsə də, xalq bu sərvətin sahibi deyildi.

1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında çox böyük dəyişikliklər baş vermişdir. Azərbaycan iqtisadiyyatı inkişaf etdirilmiş, respublikada nəhəng sənaye potensialı, elmi potensial yaradılmış, neft sənayemiz böyük tarixi yol keçmişdir. Ancaq yenə də Azərbaycan öz neftinin yeganə və tam sahibi olmamışdır. Bütün bu sərvətlərimiz özümüzə yox, sovet dövlətinə məxsus olmuşdur. İndi isə biz yeni bir mərhələdə yaşayırıq.

Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir.

Neft yataqlarımızın müştərək işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında danışıqlar üç il ərzində məhz bu prinsiplər əsasında aparılmışdır. Şübhəsiz, danışıqlar hamar yolla getməmişdir. Burada çətinliklər də olmuşdur, enişlər və yoxuşlar da. Lakin danışıqlar, nəhayət, başa çatdırılmışdır. Xarici ölkələrin zəngin təcrübəli böyük neft şirkətlərinin Azərbaycan neftinə marağı təbii haldır və biz bunu məmnuniyyətlə qəbul etmişik. Elə özümüz də buna böyük maraq göstərmişik və göstəririk.

Keçmiş dövrlərdən fərqli olaraq, indi bu məsələlər barədə Azərbaycan Respublikası hər bir ölkə ilə, o cümlədən bu neft şirkətlərinin mənsub olduqları ölkələrlə, xarici dövlətlərin neft şirkətləri ilə müstəqil surətdə danışıqlar aparır və danışıqlarda öz prinsiplərinin qəbul edilməsinə çalışır. Xəzərin Azərbaycana aid sektorundakı "Azəri" və "Çıraq" neft yataqlarının, "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında danışıqlar nəticəsində, nəhayət, hazırlanıb başa çatdırılmışdır. Bu müqavilə mənə, Azərbaycan prezidentinə təqdim edilmişdir. Sizə məlum olduğu kimi, sentyabrın 14-də müqavilənin layihəsi təhlil edildikdən sonra mən onun Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən imzalanması haqqında fərman vermişəm. Xarici ölkələrin neft şirkətləri də layihənin imzalanması haqqında qərar qəbul etmişlər. Bu şirkətlərin mənsub olduqları ölkələrin dövlət rəhbərləri də xeyir-dua vermişlər. Bütün bunların nəticəsində indi biz buraya, müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Açıq demək istəyirəm, müqavilədə Azərbaycan tərəfinin istək və arzularının heç də hamısı öz əksini tapmamışdır. Lakin biz başa düşürük ki, hər hansı bir müqavilə hər iki tərəfin mənafelərini təmin etməlidir. Qərb neft şirkətlərinin konsorsiumu öz mənafelərini təmin etməyə çalışmış, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının milli mənafelərini təmin etməyə səy göstərmişdir. Deyə bilərəm ki, görülən böyük və gərgin işin nəticəsində, tərəflərin məsələyə yüksək məsuliyyətlə yanaşması nəticəsində, nəhayət, hər iki tərəfin mənafelərinə cavab verən layihə hazırlanmışdır. Ona görə də mən bu gün imzalanacaq müqaviləni Azərbaycan Respublikasının indisi və gələcəyi üçün iqtisadi baxımdan mənfəətli hesab edirəm və onun imzalanmasına qərar vermişəm.

Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir.

Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dün- yaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə – Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik.

Beləliklə, müqavilənin imzalanması üçün gözəl şərait yaranmışdır və biz bu gün böyük bir hadisənin şahidiyik. Müqavilənin imzalanması Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ açır. Müqavilə 30 il müddətinə bağlanır. Deməli, qarşımızda uzun bir yol var və böyük işlər, böyük vəzifələr durur. Müqaviləni hazırlayanlar yaxşı bilirlər, lakin mən buraya toplaşanlara, bütün Azərbaycan xalqına bəyan etmək istəyirəm ki, bu müqavilənin bağlanması nə qədər çətin idisə, onun həyata keçirilməsi ondan da çətin olacaqdır. Müqavilənin hər iki tərəf üçün, o cümlədən Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün mənfəəti və müsbət nəticələri onun ardıcıl surətdə icrasından asılıdır.

Müqavilə ikitərəfli hərəkət olan yola bənzəyir: gərək hər iki tərəf eyni sürətlə hərəkət etsin. Şübhəsiz ki, burada xarici neft şirkətlərinin üzərinə çox böyük vəzifələr düşür. Ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin şirkətlər və onların mənsub olduqları ölkələrin dövlət orqanları bu müqavilənin həyata keçirilməsi üçün vaxtında lazımi tədbirlər görəcəklər.

Azərbaycan Respublikasının üzərinə düşən vəzifələr daha çətin, daha ağırdır. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatı ağır böhran içərisindədir. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Məhz bu böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifahını qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün hamı əl-ələ verib müqavilənin həyata keçirilməsinə çalışmalıdır. Ümidvaram ki, Azərbaycanın qəhrəman və təcrübəli neftçiləri, alimləri, mütəxəssisləri, iqtisadiyyatımızda bu sahə ilə məşğul olan şəxslər, bir sözlə, hamı bu vəzifəni ən böyük, ən şərəfli vəzifə kimi qəbul edib, onun həyata keçirilməsinə çalışacaqdır. Mən Azərbaycan Prezidenti kimi, bu müqavilənin imzalanmasına qərar verərək öz məsuliyyətimi hiss edirəm, sizə söz verirəm ki, onun həyata keçirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.


Bu gün bu təntənəli və möhtəşəm mərasimdə mən Azərbaycan neftçilərini, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını bu əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bu sahədə çalışan nümayəndə heyətinin əməyini, ümumiyyətlə, şirkətin bu sahədə gördüyü işləri qiymətləndirirəm və onları nail olduqları müvəffəqiyyətlər münasibətilə təbrik edirəm. Bu müqavilənin hazırlanıb başa çatdırılması üçün böyük işlər görmüş olan xarici ölkələrin neft şirkətləri konsorsiumunun rəhbərlərini, həmin şirkətlərin işçilərinin hamısını ürəkdən təbrik edir, onlara xoş arzularımı yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır.

Xarici neft şirkətlərinin mənsub olduqları ölkələrin – ABŞ-ın, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin, Norveçin dövlət və hökumət başçılarını bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Biz bu müqavilə əsasında sıx birləşir, böyük əməkdaşlığa başlayırıq və mən şübhə etmirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır, buna maneçilik törədən bütün qüvvələr dəf ediləcəkdir, müstəqil Azərbaycan Respublikası öz taleyinin, öz sərvətlərinin sahibi kimi, bu əməkdaşlıq sayəsində dünya birliyində, dünya iqtisadi birliyində öz layiqli yerini tutacaqdır.


Sizi, bu mərasimə toplaşanları, bütün bu məsələlərə müsbət maraq göstərənlərin hamısını bir daha ürəkdən təbrik edir, müqavilənin imzalanması uçun xeyir-dua verirəm. Xeyirli olsun, uğurlu olsun. Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə bu müqavilənin bu gün burada imzalanmasını ürəkdən təbrik edirəm.

İmzalanma tarixində tərəflərin iştirak payı



Sxem 1

Tərəflərin 01.01.2012-ci il tarixinə iştirak payı



Sxem 2

başlandı. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində "Çıraq-1" özülü Qərb standartlarına uyğun olaraq bərpa olundu və böyük maillikli quyuların qazılması məqsədilə bu özülün üst modulu modernizə edilərək yeni qazma avadanlıqları ilə təchiz olundu. 1997-ci ildə "Çıraq" yatağından neft hasilatına başlandı. 2010-cu ildə bu saziş çərçivəsində 40,5 milyon tondan çox neft hasil olunmuşdur.

Yeni neft strategiyası mövcud prinsiplər və tələblər üzərində qurulan Azərbaycan iqtisadiyyatının qarşılaşdığı nəhəng problemlərin ardıcıl həlli funksiyasını böyük uğurla yerinə yetirdi və uzaq perspektivləri əhatə edən nailiyyətlərin açarı oldu. Müstəqil Azərbaycanın çağdaş siyasi tarixinə qızıl hərflərlə yazılan, bütövlükdə dövlətin, xalqın gələcək taleyində, milli intibah prosesində həlledici rol oynamaqla sabit və tarazlı inkişafa ciddi zəmin yaradan taleyüklü bir hadisənin – "Əsrin müqaviləsi"nin imzalanması əslində, ulu öndər Heydər Əliyev tərəfindən müstəqil dövlət quruculuğunun əsas strateji istiqamətlərindən biridir. Təsadüfi deyil ki, bu saziş sonradan Azərbaycanın qapılarını bütün dünyanın üzünə açdı və növbəti illərdə digər sazişlərin imzalanması da məhz bunun məntiqi nəticəsi sayılmalıdır.



"Əsrin müqaviləsi"ndən sonra dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək saziş imzalanmışdır ki, bunların da əsasını aşağıdakılar təşkil edir:

"Qarabağ" neft yatağı ilə müqavilə 1995-ci il noyabrın 10-da bağlanmış, 1996-cı il fevralın 23-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 1,2 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 50-100 milyon ton neftə bərabərdir. Pay bölgüsü: AJİP – 5%, Pennzoyl – 30%, ARDNŞ – 7,5%, Lukoyl – 7,5%, LUKAÇİP – 50%.

"Şahdəniz" yatağı üzrə müqavilə 1996-cı il iyunun 4-də bağlanmış, 1996-cı il oktyabrın 17-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 4,0 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 100 milyon ton neft və 1 trilyon kubmetrə yaxın təbii qaza bərabərdir. Pay bölgüsü: TPAO – 9%, NİOK – 10%, Elf – 10%, Lukoyl – 10%, Bi-Pi/Statoyl – 51%, ARDNŞ – 10%.

"Dan Ulduzu", "Əşrəfi" neft yatağı ilə müqavilə 1996-cı il dekabrın 14-də bağlanmış, 1997-ci il martın 7-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 1,5 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 100 milyon ton neftə

bərabərdir. Pay bölgüsü: AMOKO – 30%, UNOKAL – 25,5%, Delta – 4,5%, İtoçi – 20%, ARDNŞ – 20%.

"Lənkəran-Dəniz", "Talış-Dəniz" neft yatağı ilə müqavilə 1997-ci il yanvarın 13-də bağlanmış, 1997-ci il iyunun 30-da qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 1,54 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 100 milyon ton neftə bərabərdir. Pay bölgüsü: Elf – 40%, Total – 10%, ARDNŞ – 25%, OÇEK – 10%, Demineks – 10%, Petrofina – 5%.

"Yalama" /D-222/ neft yatağı ilə müqavilə 1997-ci il iyulun 3-də bağlanmış, 1997-ci il dekabrın 10-da qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 1,5 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 100 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ-40%, LUKARKO – 60%.

"Oğuz" neft yatağı ilə müqavilə 1997-ci il avqustun 1-də bağlanmış, 1997-ci il dekabrın 5-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 800 mln. ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 75 mln. ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 50%, Mobil – 50%.

"Abşeron" neft yatağı ilə müqavilə 1997-ci il avqustun 1-də bağlanmış, 1997-ci il dekabrın 5-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 3,5 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 150-300 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 50%, Mobil – 50%.

"Cənub-Qərbi Qobustan" neft yatağı ilə müqavilə 1998-ci il iyunun 2-də bağlanmış, 1998-ci il noyabrın 17-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 250 milyon ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar isə 30-60 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 50%, AJİP – 25%, TPAO – 5%, PEPSOL – 5%, MİTSUİ – 15%.



ton neftə bərabərdir. Pay bölgüsü: Elf – 40%, Total – 10%, ARDNŞ – 25%, OÇEK – 10%, Demineks – 10%, Petrofina – 5%.

"Yalama" /D-222/ neft yatağı ilə müqavilə 1997-ci il iyulun 3-də bağlanmış, 1997-ci il dekabrın 10-da qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 1,5 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 100 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ-40%, LUKARKO – 60%.

"Oğuz" neft yatağı ilə müqavilə 1997-ci il avqustun 1-də bağlanmış, 1997-ci il dekabrın 5-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 800 mln. ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 75 mln. ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 50%, Total – 20%, Şevron – 30%.

"Naxçıvan" neft yatağı ilə müqavilə 1997-ci il avqustun 1-də bağlanmış, 1997-ci il dekabrın 5-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 500 milyon ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar 75 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 50%, Eksson – 50%.

"Kürdaşı" yatağı üzrə müqavilə 1998-ci il iyunun 2-də bağlanmış, 1998-ci il iyulun 30-da qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 2,0 milyard ABŞ dolları, proqnoz ehtiyatlar 90-120 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 20%, Yunion Texas – 40%, Komanvels – 40%.

"İnam" neft yatağı ilə müqavilə 1998-ci il iyulun 21-də bağlanmış, 1998-ci il dekabrın 28-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 3,75 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar isə 150-250 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 50%, BP – 25%, Shell – 25%.

Muradxanlı neft yatağı ilə müqavilə 1998-ci il iyulun 21-də bağlanmış, 1998-ci il noyabrın 27-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 700 milyon ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar isə 50-80 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ ilə Ramko Enerji (Muradxanlı) limited, Ramko və ARDNŞ-nin Ortaq Neft Şirkəti (ONŞ) hərəyə 50%-dir.

"Alov", "Araz", "Şərq" neft yatağı ilə müqavilə 1998-ci il iyulun 21-də bağlanmış, 1999-cu il martın 23-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 9,0 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar isə 150-300 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 40%, BP/AMOKO – 15%, Eksson – 15%, Statoyl – 15%, TPAO – 10%, Alberta Enerji Kompani – 5%.

"Kürsəngi", "Qarabağlı" neft yatağı ilə müqavilə 1998-ci il dekabrın 15-də bağlanmış, 1999-cu il martın 16-da qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 800 milyon ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar isə 30-80 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 50%, Amerada Hess/Delta – 20%, Frontera – 30%.

"Yanan-Tava", "Atəşgah", "Muğan-Dəniz" neft yatağı ilə müqavilə 1998-ci il dekabrın 25-də bağlanmış, 1999-cu il iyunun 17-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 2,3 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar isə 100 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 50%, İtoçi – 7,5%, İNPEX – 12,5%, CAPEX – 22,5%, TUYKOKU – 7,5%.

"Savalan", "Dalğa", "Lerik Dəniz", "Cənub" neft yatağı ilə müqavilə 1999-cu il aprelin 27-də bağlanmış, 1999-cu il aprelin 27-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 4,5 milyard ABŞ dolları, proqnoz ehtiyatlar isə 100-120 milyon ton neftə bərabərdir. Payçılar ARDNŞ – 50%, Mobil – 30%, bölüşdürülməyən hissə – 20%.

"Zəfər", "Məşəl" yatağı ilə müqavilə 1999-cu il aprelin 27-də bağlanmış, 2000-ci il mayın 8-də qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 5 milyard ABŞ dolları, proqnozlaşdırılan ehtiyatlar isə 120-150 milyon ton neftə bərabərdir. Pay bölgüsü: Eksson – 30%, Konoko – 20%, ARDNŞ – 50%.

"Padar" neft yatağı ilə müqavilə 1999-cu il aprelin 27-də bağlanmış, 2000-ci il mayın 8-də



qüvvəyə minmişdir. Proqnozlaşdırılmış investisiyalar 400 milyon ABŞ dolları, proqnoz ehtiyatlar isə 120-150 milyon ton neftə bərabərdir. Pay bölgüsü: ARDNŞ – 20%, Kura Valleb Ltd. – 80%.

"Mişovdağ-Kələməddin" neft yatağı ilə müqavilə 2000-ci il sentyabrın 12-də bağlanmış, 2001-ci il mayın 2-də qüvvəyə minmişdir. Pay bölgüsü: Petoyl – 35,7%, ARDNŞ – 15%, Karasu Develolment Kompani Ltd. – 49,3%.

"Zığ-Hövsan" neft yatağı ilə müqavilə 2001-ci il martın 11-də bağlanmışdır. Pay bölgüsü: Lukoyl – 49%, ARDNŞ – 51%.

Pirsaat neft yatağı ilə müqavilə 2003-cü il iyunun 4-də Çin dövlət neft kompaniyası ilə ARDNŞ arasında bağlanmışdır.

Qaraçuxur neft yatağı ilə müqavilə 2004-cü il iyunun 18-də bağlanmışdır. Pay bölgüsü: Noble Sky Ltd. – 75%, ARDNŞ-SOCAR Oil Affiliate – 25%.

"Binəqədi", "Qirmək", "Çaxnaqlar", "Sulutəpə", "Masazır", "Fatmayı", "Şabandağ" və "Sianşor" neft yataqlarının daxil olduğu blok üzrə müqavilə 2004-cü il sentyabrın 29-da bağlanmışdır. Pay bölgüsü: AZEN Company B.V. – 75 %, ARDNŞ – 25%.

"Kürovdağ" neft yatağının daxil olduğu blok üzrə müqavilə 2004-cü il noyabrın 4-də bağlanmışdır. Pay bölgüsü: ARDNŞ – 50%, Caspian Energy Group – 50%.

ƏŞYALARIN LOMBARDA GİROV QOYULMASI – sövdələşmənin xüsusi növüdür ki, buna əsasən, alıcı satıcıya müəyyən qiymətli əşyanı təqdim edir və ondan pul vəsaitləri alır. Alıcı müəyyən müddətdən sonra öz əşyasının dəyərini və ona görə faizləri ödəyərək, əşyanı geri qaytara bilər. Ayın sonuna alıcı öz əşyasını geri almaq niyyətində deyilsə, ona görə faizi ödəməlidir, əks halda əşya lombardın mülkiyyətinə keçir. Əşyaların lombarda qoyulması o halda sərfəlidir ki, fərdə təcili pul lazım olur və o, bilir ki, müəyyən vaxtdan sonra öz mülkiyyətini geri qaytara bilər. Bununla da o, pul vəsaiti əldə edir və öz əşyasını itirmir.

Lombarda girov kimi qiymətli metallar, texnika, daşınmaz əmlak və digər qiymətli əşyalar qoymaq olar.

ƏŞYANIN OLDUĞU YERİN QANUNU – (ing. *lex rei sitae*) – beynəlxalq xüsusi hüquq təcrübəsində yaranmış kollizion bağlama forması (təhkimetmə düsturu). Bu o deməkdir ki, mülki hüquq münasibətinin obyekti olan əşya hansı dövlətin ərazisindədirsə, həmin dövlətin hüququ tətbiq edilməlidir. Bu qanun, hətta o, müvafiq dövlətin milli hüququnda təsbit edilmədiyi hallarda da (beynəlxalq adətə görə) tətbiq olunur.

"ƏTALƏTLİ" EFFEKT NƏZƏRİYYƏSİ – bu iqtisadi nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, istehlak və investisiyalar dinamikası iqtisadi tənəzzülün erkən dövrlərində əvvəlki sabitləşmə dövrü prosesini müəyyən edir.

ƏTRAF MÜHİT MƏSƏLƏLƏRİ (*Environmental matters*) – 1. Ətraf mühitə vurulan zərərin qarşısının alınmasına, azaldılmasına və ya aradan qaldırmağa yönəldilmiş və ya bərpa edilə bilən və bərpa edilməyən ehtiyatların konservasiyası ilə bağlı fəaliyyət (belə fəaliyyət qanunvericiliyə və normativ-hüquqi aktlara və ya müqavilələrə görə tələb edilə, yaxud könüllü surətdə həyata keçirilə bilər). 2. Ətraf mühitlə bağlı qanunvericiliyin və normativ-hüquqi aktların tələblərinin pozulmasının nəticələri. 3. Başqalarına və ya təbii ehtiyatlara vurulmuş ekoloji zərərin nəticələri. 4. Başqaları tərəfindən törədilmiş hərəkətlərə görə qanunla müəyyən edilmiş məsuliyyətin nəticələri (məsələn, əvvəlki mülkiyyətçilər tərəfindən vurulmuş zərərlərə görə məsuliyyət).

ƏTRAF MÜHİTİN AĞIR METALLARLA ÇİRKLƏNMƏSİ – BMT-nin Avropa İqtisadi Komissiyasının qərarı ilə ayrılmış daha çox təhlükəli ağır metallar qrupuna civə, qurğuşun, kadmium, xrom, manqan, nikel, kobalt, vanadium, mis, dəmir, sink, antimony, həmçinin tipik metalloidlər olan arsen və selen elementləri daxil edilir. Sink, kadmium, civə və qurğuşun istisna olmaqla sadalanan metalların bir çoxu *d* elementlərinə daxildir. *d* elementlərinin elektron örtüklərində vakansiyaların mövcudluğu onların kompleks birləşmələrə, həmçinin bioliqandalara daxil olmasının yüngüllüyünə səbəb olur.





Bunun nəticəsində *Cu, Co, Ni, V, Cr, Mn, Fe* kimi dəyişkən valentli metallar sink və molibdenlə yanaşı fermentlərin, bəzi albumintlərin prostetik qrupunun tərkibinə daxildir. Komplekslərin tərkibində onlar biomolekullarla birgə oksigenin alkin qrupunun daşınmasında, bir çox vacib həyati proseslərdə və reaksiyalarda iştirak edirlər. Orqanizmlərin ağır metallara fərdi tələbatı çox az olmasına baxmayaraq, bu elementlərin xarici mühitdən çox miqdarda daxil olması müxtəlif zəhərləyici təsirlərə gətirib çıxarır. Biomolekul tərkibinə daxil olmayanlar, yəni ksenobiotiklər xüsusilə təhlükəlidir: civə, kadmium və qurğuşun. Bütün bunlar albumintlərin tioqruplarının sonuncusu ilə xüsusi möhkəm birləşmə yaradır və buna görə də onları tiol zəhərləri adlandırırlar. İnsan daxil olmaqla, ali canlıların orqanizminə böyük miqdarda civənin daxil olması mərkəzi sinir sistemində ağır pozuntulara, yəni Minamat xəstəliyinə gətirib çıxarır. Qurğuşun birləşmələri də neyrozəhərləyici təsir göstərir. Kadmium isə kalsium mübadiləsinin pozuntusuna səbəb olur. Ağır hallarda onunla zəhərlənmə itom xəstəliyinə gətirib çıxarır.

İndiki zamanda ağır metalların qlobal biokimyəvi dövrü insan fəaliyyəti sayəsində yüksək dərəcədə tədqiq olunmuşdur. Bunun daha parlaq nümunəsi civənin dövrüdür. Bu metalın bütün mümkün olan təbii mənbələrdən 3000 t-a yaxın miqdarda antropogen emissiya ilə hər il daxil olması zamanı 1990-cı illərdə 4500 t/il təşkil edirdi (Yaqolnisr, 1995-ci il). Kanada ərazisindən o, təbii emissiyanı 1,5 dəfə, ABŞ ərazisindən 3,2, Avropa ərazisindən 110 dəfə ötüb keçmişdir. Civənin yüksək buxarlanma qabiliyyəti və buxarın troposferdə böyük davamiyyəti (müxtəlif qiymətləndirməyə görə 0,5 ildən 2 ilə qədər) onun daha uzaq məsafələrə yayılması imkanını təmin edir. Buna görə də civə tam əsası ilə qlobal ekotoksikantlara daxil edilir. İndiki zamanda bir çox ağır metallar təbii dövretmədə iştiraka qarşı qoyulan və yaxud onları ötüb keçən miqdarda çıxarılır. Məsələn, mis, qurğuşun və xrom üçün bioloji dövr adi qaydada aşağıdakı rəqəmlərlə xarakterizə edilir (Mt/il) (bax: cədvəl 1). Yerin dərinliklərindən çıxarılmış metalların istifadəsi, bir qayda olaraq, onların ətraf mühitdə yuyulma, paslanma, buxarlanma (sonuncu əsas etibarilə qurğuşun, civə, qalay, antimon, arsen və selenin elementorqanik birləşmələrinə aiddir) hesabına yayılmasına gətirib çıxarır.

Biosferdə şiddətli toplanma başqa ağır metallar üçün də qeyd edilir. Bu canlı orqanizmlər üçün labüd təhlükə yaradır. Tədrici inkişaf zamanı ağır metalların zəhərləyici təsirinin qarşısını almağın mexanizmləri işlənib hazırlanmışdır. Lakin bu elementlərin müasir daxilolma dərəcələrində belə mexanizmlər artıq canlı orqanizmləri kifayət qədər etibarlı qoruya bilmirlər. Ağır metalların biosadəliyi onların birləşmələrinin bu və yaxud digər mühitdə yerləşmə for-

Cədvəl 1

Metallar	İstehsal	Çay axını	Bioloji dövr
Cu	0,6	1,8	2,07
Pb	2,4	2,9	0,21
Cr	2,0	2,5	0,47

masından asılıdır. Bu baxımdan daha təhlükəli olanlar asan hərəkət edən ion formaları və suda həll olunan komplekslərdir. Buna görə də bu ümumi cəhətdən baxılmalıdır.

Yuxarıda göstərildiyi kimi, müxtəlif elementlərin çox miqdarı, həmçinin metalların atomları atmosferdə aerozolların tərkibinə daxil olurlar. Okean aerozolları dəniz suyu ilə müqayisədə *d* elementlərlə daha zəngindir. Belə zərrəciklərdə metallar əsas etibarı ilə bioloji keçilə bilən ion formalar və asaqimolekulyar komplekslər kimi təsvir olunur. Lakin okean aerozollarının kontinentlərə keçirilməsi çox deyil, belə ki, zərrəciklərin əsas miqdarı geriyə, dəniz səthinə keçirilir. Terrigen və vulkanik aerozollarının zərrəcikləri onların əmələ gəlmə anında zərrəciklərindən hidrat örtük əmələ gəldikdən sonra su ilə çətinliklə çıxarılan mineral (silikat və alümosilikaf) matrisaların tərkibində olan ağır metalların çox hissəsindən ibarətdir. Əgər su ilə təmin edilmiş aerozollar atmosferdən turşu buxarlarını və yaxud turşu əmələ gətirən qazları (SO_2, NO_2) alırsa, yuyulmanın sürəti dəfələrlə çoxalır. Belə proses onu göstərir ki, Antarktidada toplanmış və mənbədən min kilometrlərlə məsafəyə aparılmış aerozolların tərkibində yalnız suda həll olunan formada ağır metallar vardır. Elə bu da sənaye fəaliyyəti nəticəsində atmosferə tullanmış ağır metal birləşmələrinə aiddir. Hava daşınması zamanı onlar tədricən suda əriyən formalara keçərək müxtəlif növ dəyişmələrə məruz qalırlar.

Ağır metal atomlarının atmosfer üçün əsas antropogen mənbələri bunlardır:

– istilik və elektroenergetika müəssisələri;



– qara və əlvan metallurgiya müəssisələri;

– mədənçıxarma müəssisələri, sement zavodları;

– kimya kombinatları;

– avtonəqliyyat.

Sənaye tullantılarının tərkibinə daxil olan çirkləndirici komponentlərin çox hissəsi mənbələrin yaxınlığında atmosferdən çıxarılır. Bunun nəticəsində iri müəssisələrin yerləşdiyi rayonlarda həmişə süni geokimyəvi anomaliyalar formalaşır. Belə hallarda verilmiş ərazidə dağıdılma hadisəsi küləklərin xarakteri, yağıntıların rejimi, həmçinin landşaft müxtəlifliyi ilə müəyyən edilir. Bir qayda olaraq, texnogen anomaliyaların ölçüsü meşə örtüyü olmayan yerlərdə, düzənliklərdə çox olur (mənbədən 25-30 km-ə qədər).

Atmosfer aerozollarının yoxlama analizlərinin nəticəsi müxtəlif ölçülü zərrəciklərdə ağır metal atomlarının qeyri-bərabər paylaşdırılmasını təsdiq edir. Oqorodnikovun və Skitoviçin məlumatlarına görə, manqan və dəmir orta diametri 2-7 km olan kifayət qədər iri zərrəciklərdə böyük miqdarda olur. Rubidium, stronsium və sirkonium diametri 3-7 mkm olan zərrəciklərdə daha çox müşahidə olunur.

Cr, Ni, Pb, Ti, Ca, Se eyni zamanda submikran (1mkm) aerozol hissəciklərinin tərkibinə daxildirlər. Buna görə də hal-hazırkı vaxtda əhalinin sıxlığı çox olan ərazilərin üzərində atmosferdəki bu ağır metal birləşmələrinin tərkibi bütünlüklə fon əhəmiyyətini aşır.

1980-1990-cı illərdə Qərbi Avropa ölkələrində aparılan ölçmələrin nəticəsinə görə, atmosferdən müxtəlif metal axını aşağıdakı həcmlə xarakterizə edilmişdir (*mq/m²*, ildə):

Pb-2-50, Zn-5-35, Cu-1-25, Ni-0,2-2, Cd- və Cr-0,1-1. ABŞ-ın şimal-şərqində həmin illərdə qurğuşunun, sinkin və kadmiumun axını müvafiq olaraq 20-50, 47-54 və 0,7-2 hüdudlarında yerləşirdi. Buna görə atmosferdən çöküntülər torpağın və su mənbələrinin ağır metal birləşmələri ilə çirklənməsinin ən əsas yollarından biridir. Adi geokimyəvi fonu iki dəfə üstələyən torpaqdakı ağır metalların tərkibinin artması bu çirklənmiş komponentlərin atmosfer çöküntülərinin təsir xarakteristikası torpağın keyfiyyətinə T zaman dövründə xidmət edə bilər:

$$T(il)=M_i/(R_i P_i)$$

Burada: M_i – I elementinin verilmiş qalınlığın torpaq qatında başlanğıc səviyyəsidir (mq/m²); P_i – bu elementin atmosfer axınının sıxlığıdır (mq/m², ildə); R_i – metalın axarla torpaqdan çıxarılmasını hesaba alan ölçüsüz əmsaldır. Bu nisbətin istifadəsi göstərir ki, mülayim qurşağın meşə torpağı üçün kadmiumun atmosferdən axınının kritik həcmi yalnız 0,04-0,06 (mq/m², ildə) təşkil edir. Bununla yanaşı, kadmiumun Şimal yarımkürəsində əhalinin sıxlığı çox olan rayonlarında axını 0,1-2 (mq/m², ildə) hüdudundadır. Buna görə də burada torpağın bu təhlükəli zəhərləyici ilə şiddətli zəhərlənməsi baş verir.

Su ekosisteminə ağır metalların atomları mikromineralların kimyəvi və mikrobioloji yuyulması nəticəsində daşqın və yağış suları ilə, hava axınının dəyişməsi ilə cəlb olunan atmosferdən toz hissəciklərinin və aerozolların çöküntüsü zamanı torpaqdan və süxurlardan daxil olur. Suyun çirklənməsində insan fəaliyyəti nəzərə çarpacaq dərəcədə böyük rol oynayır. Atmosferdə olduğu kimi, su obyektləri üçün də ağır metal birləşmələrinin antropogen mənbələri energetika müəssisələri, mədənçıxarma və emaletmə kompleksləri, kimya kombinatları, kənd təsərrüfatı müəssisələridir. Əsasən, monokultur şəraitində gərgin torpaq becərmə zamanı bitkiləri qorumaq üçün ağır metal birləşmələri də daxil olan böyük miqdarda kimyəvi vasitələrdən istifadə etmək lazım gəlir. Məsələn, səpindən əvvəl buğdanın kimyəvi üsulla təmizlənməsi zamanı tərkibində civə olan fungisidlərdən istifadə olunur. Mis də həmçinin yaxşı həll olunan sulfat formasında fungisidlərin (kuprosil, kuprosat, bordo mayesi və s.) tərkibinə daxildir və algisid kimi tətbiq edilir. Təbii sularda ağır metalların atomları müxtəlif ion və molekulyar formalarda olur. Dəmir, xrom və manqan kimi elementlər müxtəlif valentli vəziyyətdə ola bilər. Ağır metal atomlarının su mühitində çökməsinin 3 forması vardır: tam ərimiş, çəkilmiş və kristallaşmayan. Bu elementlərin valentlik vəziyyəti və onların təbii sularda birləşmə formaları müxtəlif amil və proseslərin birgəliyi ilə müəyyən olunur (kimyəvi və biotik, hidroloji və hidrodinamitik). Daha mühüm kimyəvi proseslər oksidləşmə-reduksiya, hidroliz kompleks yaratmadır. Su ekosistemlərində oksidləşmədə və reduksiyada başlıca rolu, adətən, müxtəlif taksonomik qruplara aid olan mikroorqanizmlərin hüceyrələrində olan enzimatik reaksiyalar oynayır.

Hidrolitik proseslər mono və polinüvə hidrokso-komplekslərinin yaranmasına gətirib çıxarır. Hidrolizin intensivliyi metal atomlarının suda ümumi doyma dərəcəsindən, pH mühitindən və rəqabət aparan proseslərdən asılıdır. Bir çox ikivalentli metallar pH 5-11-də $[Me(OH)]+$, $[Me(OH)^2]$, $[Me^2 (OH)]^3+$, $[Me2(OH)6]^2$ tipində davamlı hidrokso-komplekslər əmələ gətirirlər. Komplekslərdə liqandalar yalnız hidroksilin anionları deyil, suyun molekulları $[Me(H^2O)6]^{2+}$ və yaxud verilmiş mühitdə keçilə bilən digər anionlar $[Me(HCO^3)]+$, $[Me(Co^3)]$, $[Me(H^2O)5C1]+$ ola bilərlər. Ağır metal atomlarının köçürülməsində orqanik birləşmələr əsas rol oynayır: humin turşuları, fulvoturşular, aminturşular, zülalaoxşar maddələr və qismən, karbohidratlar. Yüksək parlaqlı suların təbii səthində əsas köçürmə forması qismində çürüntü komponentləri olan komplekslər çıxış edirlər. Bu qeyri-müntəzəm polimerlərin tərkibində metal ionlarının əlaqələndirilməsində iştirak edən çoxsaylı qruplaşmalar aşkar edilmişdir.

Şirin təbii sulardan ayrılmış ağır metalların ionlarının kompleksi onların molekulyar kütlələrinə görə min dəfələrlə, bir neçə yüzdən yüz minlərə qədər və daltonlardan artıq fərqlənirlər. Təbii sularda tez-tez eyni bir metalın ionlarının polimodal paylaşdırılması müşahidə edilir.

Belə ki, Linnikin və Cubarin sübutlarına görə (1995-ci il) Dneprin su anbarının sularında xromun miqdarının çox hissəsi azı 5000 və çoxu 30000 Da molekulyar kütləli kompleksin tərkibinə daxil idi. Bu müəlliflər qeyd edirdilər ki, komplekslərin molekulyar kütləvi bölüşdürülməsi il boyu dəyişə bilər. Ağır metalların ionları, həmçinin qeyri-üzvi polifunksional sorbentlərin – yuxarı qalxmaların və kolloidlərin tərkibinə daxil ola bilər. Az çürüntülü, lakin xırda parçalanmış gilli zərrəciklərlə zəngin olan birləşmələr dağlardan sürətlə axan çaylardakı sularda metalların ionları daha çox yuxarı qalxmalarda büruzə verir. pH>7 dəmir və manqanla zəngin başqa ağır metalların ionları olan sularda kolloid hidroksidli $Fe(OH)_3$ və ya MnO(OH) aktiv şəkildə sorbitləşirlər. Bir sıra ağır metalların daşınmasının əsas formalarından biri də elementorqaniklərdir. Bir sıra kimyəvi və mikrobioloji proseslər nəticəsində civə, qurğuşun, qalay, antimon, həmçinin selen və arsen su ekosistemində tam və yaxud qismən metilləşməyə məruz qalır. Qismən, ikivalentli civə ionları metil civəyə CH_3Hg+, hidrofob və uçan dimetil civəyə $(CH_3)Hg_2$ çevrilirlər. Müxtəlif fizioloji maneələri asanlıqla dəfetmə qabiliyyətinə görə (plasentar, hemato-ensefalik və başqa hesto-hematik maneələri) civənin bu formaları canlılar üçün daha təhlükəlidir.

Kontinentlərdən dənizlərə və okeanlara çay axını ilə küllü miqdarda ağır metal birləşmələri daxil olur. Çay sularının tərkibində daşınmaya su daşınma əmsalı 2 km-dən artıq olan elementlərin həddən artıq çox dərəcəsi daxil olur. Bu kadmium, civə, həmçinin sink, mis, antimon və molibdendir. Çay suları ilə dənizlərə daşınmalar zamanı metal birləşmələri özünəməxsus geokimyəvi "tələyə" düşürlər. Bəzi fikirlərə görə onların ümumi kütləsinin 92%-ə qədəri çayların mənsəblərinə və yaxın sahilyanı ərazilərə tökülürlər. Çay suları ilə kontinentlərdən gətirilmiş ağır metal nüvələrinin yalnız 8%-i dərin sulu vilayətlərə köçürülür. Üzvi liqandalı komplekslər azqələvili dəniz suyunda dağılmaya tez məruz qalırlar. Dəmirin və manqanın çıxması misin, nikelin, kobaltın, vanadiumun ionlarının sedimentasiyası zamanı yaxşı sorbitləşən və zəbt edilən hidroksidlərin laxtalarının əmələ gəlməsi ilə muşahidə olunur. Dəniz suyunda fosfatların çökməsi zamanı böyük miqdarda kadmiumun tutulması baş verir. Kontinental və okeanosfer səth sularının geokimyasının prinsipial fərqi ondan ibarətdir ki, kontinental sularda (əsas çaylarda) dağılmış elementlərin ölçülmüş formaları üstünlük təşkil edir, ancaq dəniz sularında bu formaların miqdarı həll edilə bilənlərdən həmişə yüzlərlə və minlərlə dəfə az olur. Buna görə də, şirin su və dəniz orqanizmlərinin ağır metallara münasibəti fərqli olur. Ağır metalların biomümkünlüyü və zəhərliliyinin hidrobionatlara münasibəti haqqında onların su mühitində ümumi tərkibinə görə mülahizə irəli sürmək mümkün deyil. Bu nöqteyi-nəzərdən elementlərin mövcud formaları haqqında məlumata malik olmaq çox vacibdir. Sübut edilmişdir ki, şirin su zəhərlilik azad (daha dəqiq, hidratlaşmış) metal ionlarına və hidroksokomplekslərinə, həmçinin elementor-maqnit xassəli birləşmələrinə məxsusdur. Bu onların hüceyrə membranından asanlıqla keçməsi ilə bağlıdır. Buna görə də metal ionları ilə çirklənmiş suya liqanda kimi çıxış edən kifayət qədər bəzi birləşmələrin mövcudluğu onun zəhərliliyini lazımi qədər azalda bilər. Məsələn, canlı orqanizmlərə təsir edən karbonat kompleksləri cod suda az dərəcədə əmələ gəlir. Linnikin və Serbanin məlumatına görə (1990-cı il), 25 mkr/l doyma dərəcəli mis ionları olan durulducu su kəmərindəki suda 72 saat ərzində ona daxil edilmiş dafniyin (Daphinamagna) 70%-i məhv olmuşdur. Ancaq müxtəlif növ çirklənməyə qarşı həssas olan bu şaxəli bığlı xərçəngəbənzərlər əgər bu metalın 92%-i (300 mkq/l) üzvi liqandalı komplekslərin tərkibinə daxil olsaydı, ümumi tərkibi 325 mkq/l mis olan suda tam sağ qalıb artmışdılar. Şübhəsiz, şirin su hidrobionatlarının heç bir növü, istər canlı olsun, istərsə də yosun, dəniz sularının xarakterizə olunduğu ağır metalların sərbəst ionlarının belə qatılığında sağ qala bilməzdi. Okeanosferin sakinlərinə belə şəraitdə normal mövcud olmağa ağır metal ionlarının birləşmə, təmizlənmə və yaxud depozitə qoyulmanın xüsusi mexanizmləri yol verir. İstənilən canlıların, əsasən də okean canlılarının orqanizmində "tiol zəhərlər"i – civənin, qurğuşunun və kadmiumun ionlarını

möhkəm birləşdirən böyük miqdarda tiolqrup-SH-dan ibarət olan spesifik asaqi-molekullu suda həll olunan zülal-metalloioneinlər mövcuddur. Su yosunları ağır metal ionlarından ikivalentli ionlara yüksək yaxınlığı ilə xarakterizə olunan xüsusi polisaxaridlər (algin turşuları adlanan) hasil edərək "qorunurlar".

Ədəbiyyatda sənayenin obyekti olan dəniz yosunlarında və molyuskalarda ağır metalların tərkibi haqqında çoxlu məlumatlar toplanmışdır. Məsələn, bütün dənizlərdə bitən Fucales növlü qonur yosunlar alginatların alınması, yem unu və gübrənin istehsalı üçün əldə olunur. Onların bəziləri qidada istifadə edilir. Boz yosunlarla ağır metal ionlarının bioqatılılığının dərəcəsi haqqında (Fucus vesiculasus, F.Evanences, Sargassum pallidum, S. mijabei, S. tosalne və s.) Primorsk vilayətinin müxtəlif rayonlarından alınmış məlumatlara görə mühakimə yürütmək olar (Xristoforova, 1989-cu il). Bu yosunlarda (mkq/q quru kütlədə) metalın tərkibi aşağıdakı ölçülərdə müəyyən edilmişdir:

Dəmir – 22-258; Sink – 20-915, Manqan – 2-175; Qurğuşun – 0,5-23; Mis – 1-9; Kadmium – 0,4-8

Gözlənildiyi kimi, ən çox qatılıq böyük miqdarda çöküntü və antropogen qarışıqlar əmələ gətirən çay mənsəblərinin yaxınlığından toplanmış yosunlarda qeydə alınmışdır. Oxşar mənzərə İngiltərə, İrlandiya və Norveçin sahilyanı ərazilərində də müşahidə edilmişdir. Lakin Atlantikanın yosunlarında Primoryeninkinə nisbətən qatılığın maksimal dərəcəsi həddindən artıq çox olmuşdur və (mkq/q quru kütlədə):

Dəmir – 2400; Sink – 3700; Manqan – 250; Qurğuşun – 136; Mis – 300; Kadmium – 31.

Səciyyəvidir ki, sinkin ən yüksək tərkibi daha güclü antropogen mənşəli yerləşən rayonlardan toplanmış yosunlarda müşahidə edilmişdir. Yəqin ki, bu göstərici insan tərəfindən dəniz sahillərinin özəlləşdirilməsinin özünəməxsus indikatorluğuna xidmət edə bilər.

Ağır metallar dəniz sularından çoxları qidada istifadə olunan ikilaylı mollyuskaları da aktiv şəkildə qatılaşdırır. Suyun çirkləndirilməsindən asılı olaraq ağır metalların tərkibi onlarda geniş ölçülərdə dəyişir, bu da molyuskaları biomonitor qismində istifadə etməyə imkan verir. Məsələn, dünyanın müxtəlif rayonlarında məskunlaşan midilərdə (Mytilus edilus və M. Gallaprovincialis) onlar belə təşkil edə bilərlər: (mkq/q quru kütlədə):

Dəmir – 70-2640; Sink – 60-640; Kadium – 0,1-16; Qurğuşun – 0,3-117; Mis – 1,7-44

Norveçin Xardangerfiord sahillərində yeməli midilərdə Mytilusedulislərdə çox böyük miqdarda quru kütləyə uyğun olaraq 3100, 2370 və 140 mkq/q-a çatan qurğuşun və kadmium aşkar edilmişdir. Bəzi ikilaylı molyuskalar kadmiumu toplamaqda qeyri-adi qabilliyyəti ilə fərqlənirlər. Məsələn, La-Manş boğazındakı pektinlərdə (Peçen maxima) bu elementin quru kütləyə görə orta tərkibi 32,5 mkq/q təşkil edirdi, Tasman (Yeni Zelandiya) körfəzindən Pecten nonae-zelandiae-də isə o, 210-300 mkq/q həddində idi. Güman ki, bu molyuskların orqanizmində kadmium, əsasən, metalloitioneinlərlə bağlı imiş.

Beləliklə, canlı orqanizmlər ağır metal birləşmələrinin təsirinə qarşı tamamilə müdafiəsiz deyillər. Lakin onların təbii mühitin kompleks çirklənməsinə qarşı fizioloji və uyğunlaşma imkanları sonsuz deyildir. Müxtəlif regionlarda onlar artıq keçilmişdir.

Səpələnmiş elementlərə aid olan ağır metalların böyük miqdarı Yerin litosferində toplanmışdır. Hipergenez zamanı bu elementlər ana süxurlardan çıxıb miqrasiyaya qoşulurlar. Canlı orqanizmlər biosfer əmələ gələrkən səpələnmiş elementlərin miqrasiya axınlarının formalaşmasında böyük rol oynayır. Səpələnmiş metalların sulfidli və oksidli minerallarının parçalanmasında mikroorqanizmlərin rolu və metalların üst səthə çıxarılmasında ağac bitkilərinin iştirakı haqqında ədəbiyyatda məlumat var. Hipergenez və canlı orqanizmlərin fəaliyyəti nəticəsində ağır metalların nəzərə çarpacaq miqdarı qitələrin torpaq örtüyündə yığılmışdır. Külək və su eroziyası zamanı, çay axını ilə bu metallar müxtəlif birləşmələrin tərkibində okeanlara keçir, burada su kütləsi, biota və dib çöküntüləri arasında parçalanır.

Müasir dövrdə ağır metalların biosferi təşkil edən – litosferin çöküntü və qranit təbəqələri, qitələrin bitki örtüyü, pedosfer və okeanosfer arasında paylanma qiymətləri verilmişdir. Litosferin üst təbəqəsində olan metalların


ümumi kütləsinin 20-30%-i çöküntü süxurlarında cəmlənmişdir. Civənin çöküntü süxurlarında nisbi miqdarı nisbətən çox olub, 70%-ə bərabərdir. Nəinki Hg, digər başqa metallar üçün də əsas toplayıcı hər zaman çöküntü süxurları olmuşdur.

Yerin coğrafi təbəqəsi elementləri arasında ağır metalların əsas miqrasiya axınları cədvəldən göründüyü kimi külli miqdarda (min və milyon tonlarla) metallar biotik dövrana cəlb olunmuşdur.

Qitələrdən metallar okeana əsasən çay axınları vasitəsilə keçir. Bu zaman əks tərəfə keçmə baş vermir, daha doğrusu, okeanların dib çöküntüləri bu elementləri toplayır. Beləliklə, bütün ağır metalların qlobal biogeokimyəvi tsikli az dərəcədə qapalılıqla xarakterizə olunur.

1940-1950-ci illərdə, ilk dəfə atom silahları istifadə ediləndə və bir sıra dünya ölkələrində nüvə potensialı toplanmağa başlayanda, təbiəti və insanı əhatə edən mühitin radioaktiv çirklənməsi problemi yarandı. Nüvə silahları arsenalının yaranması daima nüvə qurğularının təcrübədən keçirilməsini tələb edirdi, bu da troposferin bütün qalınlığına təbii və süni radioaktiv elementlərin səpələnməsi ilə müşahidə olunurdu. Radioaktiv çirklənmənin mənbələri təbii radioaktiv xammalın çıxarıldığı və emal edildiyi nüvə tsiklli müəssisələr, sonralar isə istismarı zamanı qazşəkilli maye və bərk radioaktiv tullantılar əmələ gətirən atom elektrostansiyaları (AES) oldular. Göründüyü kimi, bu problem uzunmüddətli tarixə malik deyil, lakin ionlaşdırıcı şüaların mənbələrinin canlı orqanizmlərə təsiri XX əsrin ortalarından başlamayıb, belə ki, təbii radiasiya fonu yaradan radionuklidlər Yerin atmosferində də dağlıq mənşələrdə də həmişə olmuşlar. Bu fonun böyüklüyü ərazinin hündürlüyündən, köklü altılıqlı mənşələrin gündəlik yaxınlığından, müəyyən növlü geokimyəvi anomaliyalardan asılı olaraq çox güclü şəkildə dəyişir. Bununla yanaşı o, demək olar ki, heç zaman canlı orqanizmlər üçün təhlükəli həddə çatmır. Nüvə partlayışlarının atmosferdə və suyun altında keçirilməsi nəticəsində vəziyyət sürətlə dəyişdi: radiasiya çirklənməsi sürətlə artmağa başladı və qlobal ölçüyə çatdı.

Ağır metalların dövranı



Sxem 1

İndiki zamanda ölkəmizin sakinlərinin aldıqları radioaktiv şüalanmanın orta dozası təbii fona nisbətən çox da güclü artmayıb. Texnogen şüalanmanın ümumi balansında radioaktiv çirklənmə ilə deyil, rentgenadiaqnostika ilə bağlı göstəricilər üstünlük təşkil edir. Lakin Rusiyanın geniş əraziləri süni radionuklidlərlə o qədər güclü çirklənib ki, orada yaşamaq təhlükəli olub. Rusiyada çirklənmiş ərazinin və obyektlərin dəqiq miqdarı məlum deyildir. Dolayı qiymətlə minlərlə iri obyektlər və on minlərlə yüksək radiasiya fonu lokal ərazilər haqqında danışmağa imkan verir. Yalnız Sankt-Peterburqda 1993-cü ilin başlanğıcı üçün 1537 γ-şüalanma anomaliyası, təxminən o miqdarda da Moskvada aşkar edilmişdir. Bu siyahıya qeyri-nüvə sənaye və istilik elektroenergetika müəssisələrindən daxil olan təbii radionuklidlərlə çirklənmiş meydanları da əlavə etmək lazımdır.

ABŞ-ın, Rusiyanın nüvə və termonüvə silahlarının yerüstü sınaqları dayandırıldıqdan sonra daha çox nəzərə çarpan radionukloidlərin antropogen mənbələri nüvə və istilik kompleksləri müəssisələri (AES), istilik alma və alınmış radioaktiv tullantıları emalı zavodları olmuşlar. Yəqin ki, üzvi istilik qazıntılarının artan çatışmazlığı şəraitində energetikanın bu sahəsində hələlik başqa alternativi yoxdur.

R.Ə.Əliyeva
S.R.Hacıyeva

Mənbə: *Azərbaycan Respublikası Ekoloji Atlas, Bakı kartoqrafiya fabriki, Bakı, 2009*

ƏTRAF MÜHİT RİSKİ (*Environmental risk*) – bəzi hallarda ümumi audit planının hazırlanması üçün tərkib riskinin qiymətləndirilməsi ilə bağlı amillərə ətraf mühit məsələlərinə görə maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi riski də daxil edilə bilər.

ƏTRAFLI SERTİFİKAT – sedent şirkətdən təkrar sığortaçının qəbul etdiyi təkrar sığortanın hər bir ayrıca hadisəsinin detallarını əks etdirən sənəd.

ƏVƏZEDİCİ MALGÖNDƏRƏN – əsas malgöndərənin daşımalarının sığortalanmasını təmin edən malgöndərən. Əvəzedici malgöndərənin məhsulu keyfiyyət sertifikatına malikdir. İstehlakçı əsas malgöndərənlə daşıma müqaviləsini pozan zaman, qarşısıalınmaz qüvvə vəziyyətinin baş verməsi zamanı əvəzedici malgöndərənin xidmətlərindən istifadə edə bilər.

ƏVƏZEDİCİ MALLAR – istehlakçıların fikrincə, digər malların yerinə yetirdiyi funksiyaları yerinə yetirən, amma texniki mənada fərqlənən mallar.

ƏVƏZEDİCİLƏR – mal və xidmətlərin müəyyən qrupudur ki, onlardan birinə olan qiymətin artması tam və ya qismən əvəzedici qismində çıxış edən digərlərinə tələbin artmasına gətirib çıxarır. Belə mallar cütlüyünə nümunə: çay və qəhvə, mal əti və toyuq ətidir; əvəzedicilərlə müqayisədə üstünlüklərə malik olan (o cümlədən daha aşağı qiymətə), vərdiş olunanları əvəz edən malların siyahısı, məsələn, daha az kaloriyə malik şəkərin əvəzedicisi, şirə konsentratı, süd tozu və s.

İqtisadiyyatda əvəzetmə – bir malın istehsal və istehlakının xassə və keyfiyyətinə görə birinciyə analoji olan digər malla əvəz edilməsi; bir şəxs tərəfindən digərinin (əsasın) vəzifə öhdəliklərinin icrası (bu isə sonuncunun səfərdə, ezamiyyətdə olması səbəbindən irəli gəlir).

ƏVƏZETMƏNİN ƏN YÜKSƏK NORMASI – istehlakçının təmin edilmə səviyyəsini saxlamaq şərti ilə bir nemətin başqa nemətlə əvəz edilməsi norması.

ƏVƏZLƏMƏ EFFEKTİ – 1. İstehlakçının real gəlirinin dəyişməz qalması şərti ilə əmtəənin qiymətinin dəyişməsinin həmin istehlakçının alacağı əmtəənin miqdarına təsiri. Məsələn, əgər hər hansı əmtəənin qiyməti artırsa və eyni zamanda, başqa əmtəələrin qiymətləri dəyişməz qalırsa, birinci əmtəə nisbətən bahalaşmış olur. Deməli, həyat səviyyəsini saxlamaq üçün bu əmtəəni hər hansı başqa əmtəələrlə əvəz etməyə dəyər. 2. Sahibkarın istehsal həcmini dəyişməməsi şərti ilə resursun qiymətinin dəyişməsinin istehsalatda istifadə edilən resursun miqdarına təsiri. Məsələn, əmək haqqı artırıldıqda sahibkar əmək resurslarını kapital tutumlu texnologiyalarla əvəz etmək yolu ilə istehsal xərclərini azaltmağa çalışır.

ƏVVƏLCƏDƏN NƏZƏRDƏ TUTULMAYAN GƏLİR – kommersiya fəaliyyətinin nəticəsindən əvvəlcə alınması planlaşdırılmayan mənfəət. Nəzərdə tutulmayan gəlirlər əvvəlcədən hesaba alınmamış və ya proqnozlaşdırılmamış hər hansı hal-

lar nəticəsində yarana bilər. Buraya aşağıdakılar aiddir:
– müsbət məzənnə fərqi;
– təşkilata ödənilmiş cərimələr, penyalar, dəbbə pullar;
– təmənnasız alınmış əmlak və ya əmlak hüquqları;
– əvvəlki illərin hesabat dövründə aşkar edilmiş gəlir;
– iddia müddətinin keçməsi ilə əlaqədar və ya başqa əsaslara görə silinmiş kreditor borcunun məbləği;
– inventarlaşdırma nəticəsində aşkar edilmiş əmtəə-material qiymətlilərinin və sair əmlakın artıq hissəsinin dəyəri və s.

ƏYYUBOV VEYSƏL SEYFƏL OĞLU (1952) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1974-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. 1986-cı ildə SSRİ Elmi Tədqiqat Tikintinin İqtisadiyyatı İnstitutunda "Azərbaycan Respublikasının tikinti təşkilatlarında məhsulun maya dəyərinin aşağı salınması yolları və onun tədqiqi" mövzusunda namizədlik, 2008-ci ildə AMEA-nın İqtisadiyyat İnstitutunda "Keçid dövrü iqtisadiyyatında vergi sisteminin təşəkkülü və inkişafı problemləri (Azərbaycan Respublikasının materialları əsasında)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

60-dan çox elmi məqalənin, 1 monoqrafiya, 1 dərslik və 19 metodik vəsaitin müəllifidir.
Mingəçevir Politexnik İnstitutunda tədris-elmi işlər üzrə prorektor, "İqtisadiyyatın tənzimlənməsi" kafedrasının müdiridir.

ƏZİZOVA ELMİRA CAVAD QIZI (1945) – Azərbaycan iqtisadçısı, i.e.n., dos. 1969-cu ildə Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. 6 dəfə suya tullanma üzrə Azərbaycan çempionu olub.



1985-ci ildə əməyin iqtisadiyyatı və sosiologiya problemlərinə dair namizədlik dissertasiyasını müdafiə etmişdir.
1965-ci ildə Ümumittifaq Neft Maşınqayırması Elmi-Tədqiqat və Layihə-Texnoloji İnstitutunda mühəndis, Dövlət Plan Komitəsinin nəzdində Elmi-Tədqiqat Texnologiya İnstitutunda baş mühəndis, 1991-ci ildən isə ADİU-da "Əməyin təşkili və iqtisadiyyatı" kafedrasının dosentidir.
Əməyin iqtisadiyyatı və sosiologiyası, insan resurslarından istifadə, gender problemlərinə həsr olunmuş 100-dən çox elmi-nəzəri məqalənin, o cümlədən monoqrafiyanın, dərsliyin, dərs vəsaitinin, lüğətin müəllifidir. Moskva, Tallin, Kiyev, Novosibirsk, Yekaterinburq, Xabarovsk, Almatı, Daşkənd, Düşənbə və başqa şəhərlərdə (o cümlədən YUNESKO-nun xətti ilə) təşkil olunmuş konfranslarda məruzələrlə çıxış etmişdir. Respublikada ilk "Azərbaycanda sosiologiya" biblioqrafik məlumat kitabçasının rəhbəri və baş redaktoru olmuşdur. 2003-cü ildə "XXI əsrin məşhur qadını" beynəlxalq diplomuna layiq görülüb.

ƏZİZOVA GÜLƏNBƏR ARİF QIZI (1964) – Azərbaycan iqtisadçısı, i.e.d.



1986-cı ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir.
1989-1992-ci illərdə AMEA İqtisadiyyat İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. 1994-cü ildə "Azərbaycanın qeyri-istehsal dairəsində məşğulluq quruluşunun formalaşması və təkmilləşdirilməsi" mövzusunda namizədlik, 2008-ci ildə isə "Azərbaycanda əmək bazarının tarazlı inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2 monoqrafiya və 40-dan çox elmi məqalənin müəllifidir. Əsərlərində əmək bazarı, məşğulluq və işsizliyin nəzəri-praktik problemlərini tədqiq etmişdir. 2010-cu ilədək AMEA-nın İqtisadiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. Hazırda ADİU-da işləyir.

F

FABRİK (lat. *fabrica* – emalatxana) – əsasən, yüngül və yeyinti sənayesi məhsulları istehsal edən müəssisə.



FAİZ DƏRƏCƏLƏRİ SİYASƏTİ – rəsmi (uçot) faiz dərəcəsinin dəyişdirilməsi yolu ilə kredit resurslarının qiymətinin dövlət (mərkəzi bank) tərəfindən tənzimlənməsi. Uçot dərəcəsi və ya təkrar maliyyələşdirmə dərəcəsi ölkənin mərkəzi bankının digər banklara, ilk növbədə, kommersiya banklarına verdiyi kreditin faizidir. Mərkəzi bank faiz dərəcəsini dəyişməklə kommersiya banklarının kredit imkanlarını artırır və ya azaldır, beləliklə, iqtisadiyyatda kredit resurslarının ümumi həcminə təsir göstərir. Təkrar maliyyələşdirmə dərəcəsini azaltmaqda məqsəd investisiya tələbatını fəallaşdırmaq və ya istehsalı stimullaşdırmaqdır. Uçot dərəcəsinin artırılması (kreditlərin bahalaşması) iqtisadi konyunkturanın "qızışmasına" və inflyasiyanın güclənməsinə mane olur, çünki rəsmi faiz dərəcələri artdıqda kommersiya bankları müştərilər üçün faiz dərəcələrini artırırlar (bax: cədvəl 1).
İki tərəf arasında öhdəliklərin mübadiləsi faiz dərəcələrinin valyuta kross svopu adlanır. Burada birinci tərəf ikinci tərəfin öhdəliyini qarşılamağa (ödəməyə) hazırdır və əksinə. Hər bir tərəf ödənişləri müxtəlif valyutalarla həyata keçirir və tərəflərdən birinin ödəmələri üzən (dəyişkən) dərəcəli faiz məzənnəsinə, ikinci tərəfin ödəmələri isə təsbitlənmiş faiz məzənnəsinə bağlıdır.
Faiz dərəcələri siyasəti beynəlxalq kapital bazarının formalaşmasının mühüm amili olaraq xüsusi kapitalların cəlb edilməsinə və ya əksinə, bu kapitalların ölkədən kənara axmasına şərait yaradır.
Öhdəliklərin yerinə yetirilməsi (ödənməsi) müddətlərindən asılı olaraq, hesablanan (əlavə olunan) faiz dərəcələrinin həcmlərinin bölüşdürülməsi faiz dərəcəsinin zaman strukturudur.
Faiz dərəcələri siyasətinin makroiqtisadi şəraitə tənzimləyici təsirinin məhdud olması bir sıra amillərlə bağlıdır.
Birincisi, əgər kommersiya bankları öz resurslarını əsasən mərkəzi bankın kreditləri hesabına deyil, başqa mənbələr hesabına formalaşdırırsa, onda bu metod özünün effektivliyini, demək olar ki, tamamilə itirir.
İkincisi, iqtisadi konyunkturanın əlverişli olması təkcə kreditin qiymətindən deyil, həm də kredit-maliyyə, vergi və ümumi təsərrüfat sahələrində konkret vəziyyətdən asılıdır.
Borcun gələcəkdə qaytarılması vədinə əsasən dəyişiləcəyi barədə tərəflərin razılaşdığı faizin

Cədvəl 1

Dünyanın aparıcı mərkəzi banklarının əsas faiz dərəcələri

Ölkə	Mərkəzi bank	Aparıcı faiz dərəcəsi	Son dəyişikliklər	Cari dərəcə
ABŞ	FED (Federal Reserve)	Federal Funds Rate	16.12.2008	0,25%
Avrozona	ECB (European Central Bank)	Refinancing tender	03.11.2011	1,25%
Böyük Britaniya	BOE (Bank of England)	Bank Rate	05.03.2009	0,50%
Yaponiya	BOJ (Bank of Japan)	Overnight Call Rate Target	19.12.2008	0,10%
Kanada	BOC (Bank of Canada)	Overnight Rate Target	08.09.2010	1,00%
İsveçrə	SNB (Swiss National Bank)	3 Month Libor Rate	03.08.2011	0,00%
İsveç	Riksbank (Sweden Central Bank)	Repo Rate	05.07.2011	2,00%
Avstraliya	RBA (Reserve Bank of Australia)	Cash Rate	01.11.2011	4,50%
Yeni Zelandiya	RBNZ (Reserve Bank of New Zealand)	Official Cash Rate	09.03.2011	2,50%
Norveç	Norges Bank (The Norwegian Central Bank)	Sight Deposit Rate	12.05.2011	2,25%

faktiki (gerçək) dərəcəsi faizin bazar dərəcəsi adlanır.

Üçüncüsü, rəsmi faiz dərəcəsinin dəyişməsi yalnız pul-kredit sahəsində pozuntular cüzi olduğu halda adekvat nəticə verə bilər. Bu sahədə ciddi disproporsiyalar olduqda isə daha sərt – birbaşa inzibati tənzimləmə siyasətindən istifadə edilməlidir.

FAİZ DƏRƏCƏSİNİN AŞAĞI HƏDDİ (*interestrate floor*) – faiz dərəcəsinin elə səviyyəsidir ki, borclu cəlb etdiyi vəsaitlərə bundan aşağı faiz istəyə bilməz.


FAİZ DƏRƏCƏSİNİN YUXARI HƏDDİ (*interestrate cap*) – faiz dərəcəsinin elə səviyyəsidir ki, kredit müqaviləsinin qüvvədə olduğu müddətdə kreditorun onu qaldırmaq hüququ yoxdur. Onun qeyd olunmasında pul vəsaitini borc alan tərəf maraqlıdır.

FAİZ NƏZƏRİYYƏLƏRİ – iqtisadi kateqoriya kimi faizin təbiəti və mahiyyəti ilə bağlı faiz dərəcələrinin səviyyəsini və dinamikasını müəyyən edən amillər barədə Qərb iqtisadçılarının konsepsiyaları. İlk faiz nəzəriyyələrinə kapitalın məhsuldarlığı nəzəriyyəsi aiddir (J.B.Sey, V.Roşer, T.Maltus, H.Ç.Keri, İ.Tyunen). Bu nəzəriyyəyə görə kapital onun tətbiq edilməsi ilə bağlı məsrəflərdən əlavə müəyyən artıq məhsul gətirməyə qadirdir, faiz isə bu əlavə artımın ölçüsüdür, yəni o, kapitalın "xalis məhsuldarlığı"nın göstəricisidir və beləliklə, mənfəət göstəricisini əvəz edir. Senior faiz nəzəriyyəsinə yeni element – imtina amili daxil etmişdir. Bu element faizin psixoloji nəzəriyyələrinin əsasını təşkil edir. Bu yanaşmaya görə faiz mövcud nemətləri gələcəkdə artırmaq məqsədilə cari dövrdə onların istehlakından imtina edən şəxsə ödənilən mükafatdır. Avstriya məktəbi iqtisadçılarının ideyaları faiz nəzəriyyəsinin inkişafına güclü təsir göstərmişdir. Bem-Baverk faizin psixoloji mahiyyətini inkişaf etdirmişdir. Onun fikrincə, faiz cari istehlakdan imtina müqabilində kapital yığımı üçün stimul kimi çıxış edir. Bem-Baverkin faiz barədə təlimi L.Mizesin və F.Hayekin nəzəriyyələrinin əsasını təşkil edir. Fişerə görə isə faiz müntəzəm şəkildə mənimsənilən hər hansı gəlirin ifadə edilməsi üsuludur. O, "gəlirin bir hissəsi" deyil, "bütün gəlir"dir. Kapital isə faiz normasından kapitallaşdırılmış (diskontlaşdırılmış) gələcək gəlirdən başqa bir şey deyildir. Fişer faiz nəzəriyyəsinə yeni bir element – risk və perspektivlərin qeyri-müəyyən olması amilini daxil etmiş, sonradan Nayt bu ideyanı inkişaf etdirmişdir. Faizin müasir şərhlərində bu element geniş yer tutur. Bəzi müasir iqtisadçılar Fişerin risk amilinin rolu barədə ideyalarından istifadə edir, onları faizin funksional gəlir forması kimi mənalandırılması ilə əlaqələndirirlər. Məsələyə bu cür yanaşdıqda üç istehsal amili (kapital, əmək, torpaq) sxemində faiz mənfəətin yerini tutur. İstehsalın mərkəzi kateqoriyasının – mənfəətin yox olması paradoksunu həll etməyə cəhd göstərən Y.Şumpeter dördüncü istehsal amilini – novatorluq və risk ilə əlaqədar olan sahibkarlıq amilini irəli sürmüşdür. Bu versiyaya görə, novator sahibkar istehsal amillərinin yeni kombinasiyasını tətbiq etmək üçün borc kapitalından istifadə edir, həmin amillərin köməyi ilə əmək məhsuldarlığının artırılması mümkün olur. Belə sahibkarın təşəbbüsü və riski "ifrat gəlirlə" mükafatlandırılır və bu gəlir mənfəət yaradır.

Adları çəkilən nəzəriyyələrdə faiz kredit-pul amilləri ilə əlaqələndirilmir. Buna görə də həmin nəzəriyyələr "qeyri-monetar" və ya "real" nəzəriyyələrə aid edilir. Faiz nəzəriyyələrinin digər qrupunda faizi izah etmək üçün monetar sferada baş verən hadisələr cəlb edilir. Keynsin likvidliyə üstünlük verən nəzəriyyəsi çox geniş yayılmışdır. Bu nəzəriyyəyə görə faiz sahibkarlıqda mövcud olan qeyri-müəyyənlik və risk ilə əlaqədar psixoloji fenomendir. Pulun sahibi öz kapitalını ən likvid, ən mobil formada – pul formasında saxlamağa çalışır və buna görə də pulun ssuda kimi verilməsi halında likvidlikdən imtina etməsi müqabilində mükafat alır. Bu cür mükafat rolu oynayan faizdir. Faizin digər "monetar" nəzəriyyəsi – "ssuda fondları" nəzəriyyəsi (D.Robertson, Stokholm məktəbinin iqtisadçıları) bu fenomeni kredit münasibətləri sferasına aid edir.

FAİZ RİSKİ – bankların cəlb etdikləri vəsaitlər üzrə ödənilən faiz dərəcələrinin verilən kre-

Faiz riskinin tipik modeli



Sxem 1

ditlərə görə faiz dərəcəsindən artıq olması nəticəsində banklar üçün itki təhlükəsi. Bu vəziyyət sabit faiz dərəcələri ilə verilmiş vəsaitlərin təkrar maliyyələşdirilməsi üçün müddətlər və ya cəlb edilmiş bank vəsaitləri üzrə faiz dərəcələri qaydaları ilə tənzimləndiyi hallarda yaranır.

Bank qiymətli kağızları aşağı faiz dərəcəsi ilə aldıqdan sonra onları faiz normalarının artırıldığı şəraitdə satdığı halda faiz riski yaranır. Qiymətli kağızların alıcıları faiz normalarının hansı istiqamətdə dəyişəcəyini bilmədikləri üçün onlar öz qiymətli kağızlarının qiymətdən düşəcəyi vəziyyətdən yaxa qurtara bilmirlər.

Riskin qiyməti mövqelərin məbləği, cəlb edilmiş və yerləşdirilmiş vəsaitlərin son müddətləri arasındakı vaxt və faiz dərəcələrinin dəyişməsi əsasında müəyyən edilir.

FAİZLƏR – borc öhdəlikləri ilə bağlı olan hər hansı ödəmə, o cümlədən kreditlərin (ssudaların) və ya depozitlərin (hesabların) verilməsi üçün ödəmə. Başqa sözlə, əlavə ödəmə və ya qazanc dərəcəsi (tarifi).

Təcrübədə aşağıdakılar da fərqləndirilir: amortizasiya faizi, bank faizi, əmanət faizi, pul faizi, diskont faizi, pay iştirakı faizi, istiqraz faizi, götürmə faizi, kapital faizi, kapitallaşmış faiz, komisyon faizi, kupon faizi, əmanətlər üzrə faiz, sahibkar faizi, sələm faizi, borc faizi, texniki hazırlıq faizi, mənfəətdə iştirak faizi, uçot faizi, bank uçotu faizi.

Bank əmanətlərinin bəzi növləri üzrə faizlərə faiz hesablanması, yaxud borc olduğu halda, onun əsas məbləğinə daxil edilən və həmin ümumi məbləğə faiz hesablanan faizlər kapitallaşmış faizlər adlanır.

FAİZLİ ARBİTRAJ ƏMƏLİYYATLARI, FAİZLİ ARBİTRAJ (*interestrate arbitrage*) – eyni səviyyəli kredit riski ilə (defolt riski) daha aşağı faiz dərəcəsi ilə borc alıb daha yüksək faiz dərəcəsi ilə borca verməkdən ibarətdir.

FAK – iri əmtəə partiyalarına daxil olan malların nomenklaturasından asılı olmayaraq, hər bir yük vahidi üçün yeganə nəqliyyat tarifi dərəcəsi.

FAKTİKİ İNVESTİSİYALAR – dövlət və xüsusi müəssisələr tərəfindən buraxılan qiymətli kağızlara pul qoyuluşları (istiqrazlar, veksellər, səhmlər və s.). Onlar bankların və digər maliyyə müəssisələrinin depozit hesablarında yerləşir.

FAKTİKİ QİYMƏT – əmtəənin, xidmətin, qiymətli kağızların və s. alqı-satqı sövdəsinin faktiki həyata keçirildiyi qiymət.

FAKTİKİ SON İSTEHLAK – maliyyələşmə mənbələrindən asılı olmayaraq ev təsərrüfatları – rezidentlər tərəfindən fərdi istehlak üçün alınmış bütün əmtəə və xidmətlərin dəyərini və dövlət idarəetmə orqanları tərəfindən bütövlükdə cəmiyyətə göstərilən kollektiv xidmətlərin dəyərini özündə əks etdirir. Ev təsərrüfatları üzrə faktiki son istehlak malları və xidmətlərin satın alınması xərclərini və natural halda sosial transferlər kimi dövlət idarəetmə orqanlarından və qeyri-kommersiya təşkilatlarından ev təsərrüfatlarının pulsuz aldıqları fərdi əmtəə və xidmətlərin dəyərini özündə əks etdirir. Dövlət idarəetmə orqanları üçün faktiki son istehlak kollektiv xidmətlərin dəyərinə bərabərdir. Ev təsərrüfatlarına xidmətlər göstərən qeyri-kommersiya təşkilatlarında faktiki son istehlak yoxdur. Makroiqtisadi səviyyədə faktiki son istehlak son istehlak xərclərinə bərabərdir.

FAKTİKİ SÖVDƏLƏRİN QİYMƏTLƏRİ – müqavilədə tərəflərin təsbit etdiyi alqı-satqı qiymətlərinin bir növü. Faktiki sövdələşmələrin qiymətləri əmtəənin konkret reallaşma şərtlərini əks etdirir və bütün kommersiya, o cümlədən xarici ticarət, sövdələşmə iştirakçıları üçün qiymət səviyyəsi haqqında daha düzgün informasiyadır.

FAKTOR TƏHLİLİ (ing. *factor analysis*) – sərbəst dəyişənin qiymətini müəyyən edən çoxsaylı dəyişən kəmiyyətlər arasında korrelyasiyanı izah edən bir neçə əsas amilin aşkar edilməsinə yönəlmiş statistik prosedur. Faktor təhlili həqiqətən sərbəst dəyişənləri aşkar etməyə imkan verir. Bu dəyişənlərdən statistik təhlilin digər metodlarından istifadə edildikdə, məsələn, reqressiya təhlilində də istifadə edilə bilər. Faktor təhlili iqtisadiyyatın və istehsalın tədqiq edilməsi üçün iqtisadi fəaliyyətin səmərəliliyini müəyyən edən müxtəlif amillərin bu fəaliyyətin nəticələrinə təsirinin təhlilinə əsaslanan tədqiqat metodudur.

Marketinqdə faktor təhlili tələbin qiymətini, tələbatın strukturunu, istehlakçıların müəyyən məhsul növünə münasibətini müəyyənləşdirən əsas amillərin aşkar edilməsinə xidmət edir.

FAKTORİNQ – "SAKİT", "AÇIQ" – müştəri ilə faktor-bank arasında faktorinq müqaviləsinə görə müştəri tərəfdarlarla bağladığı sazişlər üzrə hesabların surətlərini banka verir, bank isə bu hesabların məbləğlərinin 80%-ni müştəriyə ödəyir. Müştəri tərəfdaşdan sazişin bütün məbləğini aldıqdan sonra müştəri ona aldığı 80%-lik krediti və faizləri faktor-banka qaytarır. Əgər müştərinin tərəfdaşı müəyyən olunmuş müddətdə hesabı ödəmirsə, müştəri öz kommersiya banklarının tələblərini güzəştə gedir. Maliyyə şirkətinin gəlirlərinin mənbəyi onun kommersiya banklarına ödədiyi aşağı faizlə alıcıdan aldığı yüksək faiz arasındakı fərqdir. Maliyyə şirkətlərinin çoxu Maliyyə şirkətləri Assosiasiyasına daxildir.

FAKTORİNQ (lat. *faktor* – vasitəçi, ticarət agenti) – 1. Əmtəə və xidmətlərin kommersiya krediti şərtləri daxilində satışı prosesində kontragentlər arasında yaranan ödənilməmiş borc tələblərinin (hesab-faktura və veksellərin) başqasına güzəşt edilməsi. 2. Pul tələbinin güzəşt edilməsi müqabilində maliyyələşdirmə.

Özəl hüququn unifikasiyası üzrə Beynəlxalq İnstitut tərəfindən 1988-ci ildə qəbul edilmiş Beynəlxalq faktorinq haqqında Konvensiyaya uyğun olaraq aşağıdakı dörd haldan ən azı ikisi mövcud olduqda müvafiq əməliyyat faktorinq hesab edilir:

– malgöndərənin borc tələblərinin ilkin ödənişi formasında ona kredit verilməsi;

– malgöndərənin mühasibat uçotunun, ilk növbədə, satışın uçotunun aparılması;

– malgöndərənin borcunun inkasso edilməsi;

– malgöndərənin kredit riskindən sığortalanması. Bununla bərabər, bir sıra ölkələrdə hesab fakturaların adi uçotu – yuxarıda göstərilən əlamətlərdən yalnız birinin ödənildiyi əməliyyat əvvəlki kimi yenə də faktorinqə aid edilir (bax: sxem 1).

Debitorların öz borclarını vaxtında ödəməməsi və onların istifadə edə biləcəyi kreditləşdirmə mənbələrinin məhdud olması üzündən ənənəvi maliyyə çətinlikləri ilə üzləşən kiçik və orta müəssisələr üçün faktorinq xidməti daha səmərəlidir. Lakin bir qayda olaraq, hər birinin borcunun məbləği çox olmayan, çoxsaylı debitorları olan müəssisələrə; məhdud ixtisaslaşdırılmış və ya qeyri-standart məhsullar istehsal edən müəssisələrə; subpodratçılarla işləyən tikinti və başqa təyinatlı firmalara, məhsullarını satışdan sonra xidmət edilməsi şərti ilə satan firmalara; avans ödənişlərindən və ya barterdən istifadə edən müəssisələrə faktorinq xidməti göstərilmir.

Faktorinq əməliyyatları aşağıdakı növlərə bölünür: daxili faktorinq əməliyyatları, bu halda malgöndərən, müştəri və faktorinq şirkəti eyni bir ölkənin rezidentləri olur və beynəlxalq açıq faktorinq əməliyyatları (bu halda borclu faktorinq şirkətinin əqdində iştirak etməsi barədə ona məlumat verir) və ya qapalı (məxfi) faktorinq; açıq faktorinq halında borcluya məlumat verilməsi onun hesab-fakturasında müvafiq qeydiyyat aparılması yolu ilə həyata keçirilir; reqress hüququ, yəni malgöndərənin ödənilmiş məbləği geriyə tələb etmək hüququ olan və ya bu cür hüquq verməyən faktorinq; malgöndərənə ilkin ödəniş formasında (güzəşt edilən borc tələblərinin 80%-ə qədər və ya ödənişin müəyyən tarixə qədər həyata keçirilməsi şərti irəli sürülür).


Beynəlxalq faktorinq halında ixracatçıya xidmət edən faktorinq şirkəti, bir qayda olaraq, idxalatçı ölkənin faktorinq şirkəti ilə müqavilə bağlayır. Faktorinqin bu növü qarşılıqlı faktorinq adlanır. Bəzən ixracatçının bilavasitə idxalatçı ölkənin faktorinq şirkəti ilə saziş bağlaması (birbaşa idxal faktorinqi) ixracatçı üçün daha sərfəli olur. Qarşılıqlı faktorinq xərclərinin yüksək olması onunla nəticələnir ki, bəzi faktorinq şirkətləri birbaşa ixrac faktorinqinə üstünlük verir, yəni kredit riskini, əcnəbi alıcıya qarşı borc tələblərinin uçotunun aparılması və inkasso əməliyyatlarını öz üzərinə götürür.

Faktorinq şirkəti tərəfindən malgöndərəndən tutulan haqq iki əsas komponentdən ibarətdir:

– idarəetmə haqqı, yəni xüsusi faktorinq xidmətinə, uçotun aparılması, şübhəli borclar yaranması və s. hallardan sığortalanma (adətən, bu xərclər malgöndərənin illik dövriyyəsinin 0,5-3%-i həddində olur);

– tələblərin vaxtından əvvəl alınması ilə onların inkasso edilməsi tarixi arasındakı dövr üçün malgöndərənə vaxtından əvvəl (təkrar güzəşt edilən borc tələblərinin vaxtından əvvəl ödənilməsi formasında) təqdim edilən vəsaitlərin məbləğindən tutulan uçot haqqı (bu məbləğ, adətən,

Faktoriŋq xidmətinin mexanizmi



Sxem 1

dövriyyəsinin həcmi və kredit qabiliyyəti analoji olan müştərilərə qısamüddətli kreditlər verilərkən istifadə edilən cari bank faiz dərəcəsindən 2-4% çox olur).

FAKTOR-ŞİRKƏT (ing. *factor-company*) – faktorinq əməliyyatlarında ixtisaslaşan firma. Avropada bütün faktor-şirkətlər "İnternational Factors Group" (İFG) beynəlxalq təşkilatının üzvləridir, ona görə də onlar istənilən ölkədə alıcıya bu təşkilatın üzvü – həmin ölkənin nümayəndələri vasitəsilə hüquq sanksiyaları tətbiq edə bilər.

FAKTORİNQ MÜQAVİLƏSİ – bu müqaviləyə görə bir tərəf (faktor) üçüncü şəxs (borclu) barəsində müştərinin (kreditorun) üçüncü şəxsə mal verməsindən, işlər görməsindən və ya xidmətlər göstərməsindən irəli gələn pul tələbinin hesabına digər tərəfə (müştəriyə) pul vəsaiti verir və ya verməyi öhdəsinə götürür, müştəri isə bu pul tələbini faktora güzəşt edir və ya güzəşt etməyi öhdəsinə götürür.

FAKULTATİV TƏKRAR SIĞORTA – təkrar sığorta formasıdır ki, burada sedent təkrar sığortaçı qarşısında bu və ya digər risklərin təkrar sığortaya verilməsinə görə öhdəliyə malik deyil, təkrar sığortaçı isə ona təklif olunan riskin təkrar sığortaya qəbul edilməsini öz üzərinə götürmür, başqa sözlə, təkrar sığorta metodudur ki, buna uyğun olaraq verən (ötürücü) şirkət (təkrar sığortalı, sedent) təkrar sığortaçı qarşısında bu və ya digər risklərin təkrar sığortası üzrə heç bir öhdəliyə malik deyil. Fakultativ təkrar sığorta – proporsional təkrar sığorta müqaviləsinin növüdür. Fakultativ təkrar sığorta nəzərdə tutur ki, hər bir sedirlənmiş (sedentləşmiş) risk təkrar sığortanın təşkilati əlahiddələşmiş müqaviləsinin predmetidir. Təkrar sığortanın zəruriliyi və məqsədəuyğunluğu haqqında məsələni sedent hər bir risk üzrə ayrıca nəzərdən keçirir. Öz növbəsində təkrar sığortaçı sedentin təklifindən tam və ya qismən imtina edə bilər, qarşılıqlı müqavilə şərtləri işləyib hazırlaya bilər ki, bunlara olan riskləri təkrar sığortaya qəbul edə bilər. Fakultativ təkrar sığorta – təkrar sığortanın bağlandığı müqavilənin ilkin bağlanması formasıdır. Bu sığorta növünün mahiyyəti ondan ibarətdir ki, sığortaçı sığorta müqaviləsi bağlayaraq həmişə aşağıdakı məsələləri həll edir:

– Sığortaçı sığortanı təkrar bağlayacaqmı?

– Sığortalanmış risklərin hansı hissəsini sığortaçı öz məsuliyyətində saxlayır?

– Kimlə və hansı şərtlərlə təkrar sığorta müqaviləsi bağlayacaqdır?

Fakultativ təkrar sığortanın xarakterik cəhətləri aşağıdakılardır:

– müqavilənin bağlanmasına və şərtlərinə münasibətdə bu müqavilənin potensial tərəflərinin tam azadlığı, risklərin təkrar sığortaya həm verilməsi, həm də qəbul edilməsi üzrə tərəflər arasında qarşılıqlı hüquqi öhdəliklərin olmaması;

– təkrar sığorta obyektlərinin və risklərinin fərdi seçilməsi;

– birbaşa sığortanın bütün müqaviləsi yox, yalnız ayrı-ayrı sığorta riskləri, məsuliyyət növləri, obyektləri təkrar sığortalana bilər;

– kontragentlər arasında münasibətlərin birdəfəlik, qeyri-sabit xarakteri;

– hər bir riskin təkrar sığortalanması zamanı ayrıca müqavilənin (birbaşa sığorta müqaviləsinin) bağlanması.


FAKULTATİV-OBLİQATOR MÜQAVİLƏSİ – təkrar sığorta müqaviləsidir ki, buna uyğun olaraq sedent şirkət razılaşmış kateqoriyalı riski verə bilər, təkrar sığortaçı isə onların hamısını qəbul etməyə borcludur.

FAKTURA QİYMƏTİ – çatdırılmış mal üçün təqdim edilmiş hesabda (fakturada) göstərilən qiymət. Çatdırmanın bazisindən asılı olaraq faktura qiymətinə malın daşınması, yükləmə-boşaltma işləri, sığorta, ixrac rüsumlarının ödənilməsi üzrə xərclər, müxtəlif yığımlar daxil ola bilər.

"FANİ MEY" – ABŞ-ın FEDERAL MİLLİ İPOTEKA ASSOSİASİYASI (ing. *Federal National Mortgage Associa-*

FannieMae

Növ	İctimai şirkət
Birjada listinq	NYSE: FNM
Yaradılma ili	1938
İqamətgah	ABŞ : Vaşinqton
Əsas nümayəndəsi	Deniel Madd (baş menecer)
Sahə	İpoteka istiqrazlarının maliyyələşdirilməsi (2008-ci il)
Dövriyyə	$44,8 mlrd.
Əməliyyat mənfəəti	-$5,1 mlrd. (əməliyyat zərəri)
Xalis mənfəət	-$2,0 mlrd. (xalis zərər)
İşçilərin sayı	5,8 min nəfər (2008-ci il)
Sayt	www.fanniemae.com



tion (Fannie Mae, FNMA)) – Fani Mey 1938-ci ildə dövlət orqanı kimi yaradılmış, 1968-ci ildən isə özəl səhmdar cəmiyyəti kimi fəaliyyət göstərməyə başlamışdır. Mülkiyyət və idarəetmə strukturuna görə Fani Mey səhmləri Nyu-Yorkun fond birjasında ticarət olunan özəl maliyyə korporasiyasıdır. Eyni zamanda Fani Meyə ABŞ-ın Mənzil və Şəhərsalma Departamenti və Maliyyə Nazirliyi tərəfindən nəzarət olunur. Fani Mey standart mənzil ipoteka kreditlərini alıb satır, "hərtərəfli" ipoteka qiymətli kağızlarını buraxır, faizlərin vaxtında ödənilməsini və emissiya edilmiş ipoteka qiymətli kağızlarının nominalının tam ödənilməsini təmin edir. Bu təminat həmçinin ABŞ hökuməti tərəfindən birmənalı dəstəklənmir, lakin bu dəstək həmin sertifikatların kredit keyfiyyətinin Aaa səviyyəsində qiymətləndirilməsinə kifayət edir.

FAS – kommersiya əməliyyatlarında tədarük şərtlərindən biri. Dəniz daşımalarında satıcı malı razılaşdırılmış yükləmə limanına gətirərək, onu sahildə gəmi bortu boyunca və ya lixterlərdə (reyd daşımalarını və limandaxili daşımaları həyata keçirən barja tipli yük gəmisi) yerləşdirdikdə öz öhdəliyini yerinə yetirmiş olur. Bu andan etibarən malın məhv olması, zədələnməsi və ya xarab olması ilə bağlı bütün xərclər və risklər satıcıdan alıcıya keçir. Bu zaman ixrac rüsumlarının ödənilməsi və gömrük rəsmiləşdirilməsinin yerinə yetirilməsi alıcının öhdəsinə düşür. FAS şərti yalnız dəniz və ya çay daşımalarına tətbiq olunur. Əgər gəmi ölçüsünə və su tutumuna görə limana yan ala bilmirsə və yükləmə reyddə baş verməlidirsə, onda satıcı öz vəsaiti və öz riski hesabına əmtəəni lixterlərdə gəminin bortuna çatdırmalı və bu barədə alıcıya məlumat verməlidir. FAS sövdələşməsinə görə alıcının öhdəliklərinə əmtəənin dəyərinin ödənilməsi ilə yanaşı, onun qəbul edilərək gəmiyə yüklənməsi, malın və gəminin sığortalanması da daxildir.

FASİLƏLƏRDƏN TAM SIĞORTALANMA – sığorta növü. Onun şərtləri sığortalının normal fəaliyyət rejiminə daxil olmasına qədər kommersiya hazırlığı dövründə vaxt itkisinə görə zərərin sığortaçı tərəfindən ödənilməsi öhdəliyini nəzərdə tutur.

FASİLƏSİZ MÜQAVİLƏ – bu cür müqavilənin şərtlərinə müvafiq olaraq müəyyən zaman fasiləsində qüvvədə olan bir yox, bir neçə əqd, müqavilə həyata keçirilir.

Fasiləsiz müqavilələr tərəflərin uzunmüddətli əməkdaşlıqda marağı olduğu hallarda bağlanır. Məsələn, pərakəndə satış mağazaları ilə topdansatış bazaları arasında malgöndərmələr barədə bu cür müqavilə bağlana bilər.

FASİLƏSİZ SAĞLAMLIQ SIĞORTASI – sığortalının əmək qabiliyyətini itirməsi, xəstəliyi və ya yaralanması zamanı ona məbləğin ödənilməsini nəzərdə tutan sığorta növü. Sığorta şirkəti müqaviləni bağlayaraq müəyyən müddətə qədər, adətən, 60 və ya 65 yaşa qədər onu poza bilməz. Bu sığortanı bədbəxt hadisələrdən sığortalanmaq üçün bağlanan şəxsi sığortadan fərqləndirmək lazımdır, burada müqavilələr hər il təzələnir.

FASİLƏSİZLİK EHTİMALI PRİNSİPİ (ing. *Going concern assumption*) – bu prinsipə görə, qanunvericilik və ya normativ hüquqi aktlara uyğun olaraq ləğv olunma və kommersiya fəaliyyətinin dayandırılması ilə

bağlı hər hansı bir təşəbbüs edilmədiyi və ya zərurət yaranmadığı halda iqtisadi subyektin gələcək biznes fəaliyyətini davam etdirməsi ehtimal olunur. Beləliklə, iqtisadi subyektin normal biznes fəaliyyəti gedişində öz aktivlərini reallaşdıra bilməsi və öhdəliklərini yerinə yetirə bilməsi ehtimalı əsas götürülərək, aktivlər və öhdəliklər qeydə alınır.

FAYDALANAN ŞƏXS – icbari sığorta qanunvericiliyinə və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs.

FAYDALI MODEL – istehsal vasitələrinin və istehlak əşyalarının, yaxud onların tərkib hissələrinin daha mütərəqqi, konstruktiv həlli.

FAYDALILIĞIN YUXARI HƏDDİ NƏZƏRİYYƏSİ – bu nəzəriyyəyə görə, əmtəələrin dəyəri subyektiv kateqoriya hesab edilir və qiymətlər bu və ya digər nemətlərin faydalılığının yuxarı həddi ilə müəyyən edilir. Faydalılığın yuxarı həddi nəzəriyyəsinin müəllifləri: K.Menger (1840-1921), E.Bem-Baverk (1851-1914), F.Vizer (1851-1926). Faydalılığın yuxarı həddi nəzəriyyəsi "Faktorların məhsuldarlığının yuxarı həddi" nəzəriyyəsinin əsasını təşkil edir.


FAYDALILIQ FUNKSİYASI – müəyyən fəaliyyətin səviyyəsi (intensivliyi) ilə həmin fəaliyyətin nəticəsi arasında asılılığın formal ifadəsi. İstehlak nemətlərinin və xidmətlərin ictimai faydalılığı funksiyası haqqında əməliyyatların tədqiqində bir şəxsin və ya şəxslər qrupunun (firmanın) istehsal fəaliyyətinin nəticələrinin faydalılıq funksiyası haqqında bu və ya digər qərarların nəticələrinin faydalılıq funksiyası haqqında təsəvvürləri əhatə edən ən geniş şərhi belədir.

Ən ümumi formada faydalılıq funksiyasını nəzərdən keçirilən nemətin faydalılığına təsir göstərən amillərin həmin faydalılıq səviyyəsi ilə müqayisəli şəkildə tərtib edilmiş siyahısı şəklində təsəvvür etmək olar. Məsələn, faydalılıq funksiyası müəyyən mənada cəmiyyətdə əmtəə və xidmətlərin istehlakçılarının davranış modeli və istehlakın məqsəd funksiyası hesab edilə bilər.

İstehlakçıların məcmusu (gəlirlərə, qiymətlərə və başqa göstəricilərə tətbiq edilən məhdudiyyətlər nəzərə alınmaqla) bu funksiyanı maksimallaşdırmağa çalışır. Bu funksiyanın riyazi xassələri arasında aşağıdakını xüsusi qeyd etmək lazımdır: onun birinci tərtib törəməsi müsbət olmalıdır. Bu o deməkdir ki, nemətlərin həcmi artdıqda faydalılıq da artır.

Aşkardır ki, istehlakçı müxtəlif nemətlər toplusu arasında seçim edərkən faydalılığı daha çox olan nemətlərə üstünlük verir. Bəzən faydalılıq funksiyası əvəzinə üstünlüklər funksiyasından istifadə edilir. Faydalılıq funksiyasının müxtəlif riyazi formaları, məsələn, birölçülü və çoxölçülü, alternativ (nemətlər toplusunun ümumi faydalılığı ayrı-ayrı nemətlərin faydalılıq göstəricilərinin cəminə bərabərdir), sıra və miqdar, multiplikativ, monoton və qeyri-monoton, xətti və qeyri-xətti, bircinsli və polinom formalar tətbiq edilir. Faydalılıq funksiyasını ifadə etməyin geniş yayılmış üsulu bir alternativin digərlərindən üstün olmasını təsdiq etməkdən ibarətdir (layihə, müəyyən nemətin əldə edilməsi, gələcəkdə müəyyən hərəkətlər barədə ehtimallar). Başqa sözlə desək, alternativ seçim edən şəxs (kollektiv, cəmiyyət) üçün birinci daha artıq tələbata malikdir. Buna görə üstünlüklər şkalası (əgər o, müəyyən qaydada tənzimlənmiş olarsa) faydalılıq funksiyasının mümkün tətbiqlərindən biridir.

FAYDALILIQ HƏDDİNİN AZALMASI QANUNU – istehlak olunan nemətin kəmiyyəti və hər bir əlavə vahidin istehlakında ödənilmə səviyyəsinin qarşılıqlı əlaqəsini əks etdirən qanun. Faydalılıq həddinin azalması qanunu təsdiq edir ki, istehlak olunan nemətin kəmiyyəti müəyyən həddədək artdıqca istehlakdan ümumi faydalılıq (TU) artır, əlavə vahidin istehlakından son faydalılıq həddi (MU) və ya əlavə faydalılıq azalacaqdır. Aşağıdakı qrafiklərdə ümumi faydalılıq (TU) və




faydalılıq həddinin (MU) dəyişilməsi əks etdirilib:

TU – ümumi faydalılıq;

MU – faydalılıq həddi;

Q – istehlak olunan nemətlərin həcmi;

Ümumi (a) və son həddi (b) faydalılığı.



FAYDALILIQ PRİNSİPİ – insanların hökumət xidmətlərindən aldıqları faydalar nisbətində vergi verməli olduqlarını nəzərdə tutan prinsip.

FAYOL ANRİ (1841-1925) – fransız menecment nəzəriyyəçisi, ali inzibati idarəetmə üzrə mütəxəssis, personalın menecmentində inzibatçılıq məktəbi və ya inzibatçılıq nəzəriyyəsi adlandırılan yanaşmanın yaradıcısı.



İlk dəfə olaraq menecmentin mütəşəkkil surətdə öyrədilməsi problemini qoymuşdur. Hesab etmişdir ki, menecmentin funksiyalarına planlaşdırma, idarəetmə, koordinasiya və nəzarət aiddir. Onun tərəfindən kəşf edilmiş inzibati idarəetmə prinsiplərinin universal olduğunu, yəni, yalnız iqtisadiyyatda deyil, həm də hökumət orqanları və təşkilatlarında, orduda, donanmada və digər sahələrdə tətbiq oluna bilməsini iddia etmişdir.

F.B.L. KONOSAMENTİ – FİATA-nın (Beynəlxalq Ekspeditorlar Federasiyasının) qarışıq daşımalar üçün əsas daşıma sənədi. Ekspeditor F.B.L. konosamentini yazaraq qarışıq daşımalar üzrə operatorun məsuliyyətini öz üzərinə götürürsə, bu riski sığorta ilə örtməlidir.

FCA – beynəlxalq ticarətdə əmtəənin göndərilməsinin bazis şərtlərindən biri. Bu şərt daxilində satıcı öz vəzifəsini o vaxt bitmiş hesab edir ki, ixrac üçün hazırlanmış əmtəəni alıcı ilə razılaşdırılmış yerdə, onun göstərdiyi daşıyıcının öhdəsinə vermiş olsun. Göndərilmə yerinin harada olması yükləmə və boşaltma üzrə vəzifələrə təsir edir. Əgər yükləmə satıcının binasında (yerində) həyata keçirilirsə, onda o, yükləmə üzrə məsuliyyət daşıyır. Yükləmə başqa yerdə həyata keçirilirsə, satıcı məsuliyyət daşımır.

FEDERAL BÜDCƏ – federativ dövlətin hökumətinin cari maliyyə ili üçün qanun qüvvəsinə malik olan əsas maliyyə planı (əsas büdcəsi), başqa sözlə, federal dövlət quruluşu forması olan dövlətlərdə mərkəzi hökumətin büdcəsi. Federal büdcə qanunverici hakimiyyət orqanı tərəfindən təsdiq edilir (bütövlükdə, yaxud ancaq hissə-hissə – xərc hissəsi üzrə). Federal büdcənin funksiyaları: vətəndaşlar və federasiya subyektləri arasında federativ dövlət çərçivəsində ÜMM-in yenidən bölgüsü; bütövlükdə ölkə miqyasında iqtisadiyyatın dövlət tənzimlənməsi; dövlət xidmətlərinin (milli müdafiə, asayişin mühafizəsi, sosial xidmətlər və s.) müəyyən həcmdə və səviyyədə göstərilməsi üçün zəruri vəsaitlərin akkumulyasiyası; pul vəsaitlərinin mərkəzləşmiş fondunun təşkili və istifadəsi üzrə nəzarət. Federal büdcənin gəlirləri vergi mənbələri və qeyri-vergi daxilolmaları hesabına formalaşır. Qeyri-vergi daxilolmalarına mülkiyyət və onunla bağlı əməliyyatlardan daxilolmalar, inzibati ödənişlər, cərimə sanksiyaları və s. aiddir. Federal büdcə, bir qayda olaraq, bu məqsədlərə və istiqamətlərə sərf olunur: milli müdafiə, dövlət hakimiyyət orqanlarının və federal səviyyəli idarələrin saxlanması, sosial xərclərin müəyyən dairəsi, əmtəə və xidmətlərin alışına çəkilən xərclər, həmçinin mərkəzləşdirilmiş investisiyaların həyata keçirilməsi (iqtisadiyyatın ayrı-ayrı sahələrinin müdafiəsi), maliyyə disbalansının şaquli və üfüqi azalmasına büdcələrarası münasibətlər üzrə xərclər, xarici iqtisadi və xarici siyasi fəaliyyətin həyata keçirilməsi üzrə xərclər və s.

FEDERAL DEPOZİTLƏRİN SIĞORTALANMASI KORPORASİYASI (FDSK) (*Federal Deposit İnsurance Corporation*) – ABŞ-da bank depozitlərinin sığortalanmasını həyata keçirən dövlət təşkilatı. Depozitlərin ümumi məbləğinin bir faiz hissəsinin banklar



Federal Depozitlərin Sığortalanması Korporasiyasının inzibati binası (Arlinqton, Virciniya)

tərəfindən hər il keçirilməsi yolu ilə yaranan depozitlərin sığortalanması hesabına banklarda depozitlərin bütün növlərini sığortalayır. Bankın iflası zamanı Federasiya, bir qayda olaraq, əmanətçilərin itkilərinin tam örtülməsini təmin edir.

FEDERAL EHTİYAT BANKI – ABŞ-ın Federal Ehtiyat Sisteminin bir hissəsi (bax: Federal Ehtiyat Sistemi). Federal Ehtiyat Bankı əyalətlərdə mərkəzi bank funksiyalarını yerinə yetirən səhmdar bankdır.

Amerikanın bütün ştatları 12 federal ehtiyat dairəsi şəklində birləşdirilmişdir. Bu dairələrin hər birinin öz federal ehtiyat bankı vardır (onlar Nyu-Yorkda, Bostonda, Filadelfiyada, Riçmondda, Atlantada, Dallasda, San-Fransiskoda, Kanzas-Sitidə, Sen-Luisdə, Çikaqoda, Klivlenddə və Minneapolisdə yerləşir). Federal ehtiyat banklarının ABŞ-ın ən mühüm sənaye və işgüzar mərkəzlərində cəmi 24 filialı vardır. Hər bir federal ehtiyat bankı "yarıdövlət" korporasiyasıdır. Onun səhmdarları həmin dairənin FES üzvləri olan kommersiya banklarıdır, lakin səhmdarlar federal ehtiyatlar bankının direktorlar şurasının 9 üzvündən yalnız 6-sını seçir: birinci dərəcəli 3 direktor, adətən, bank birliyini, ikinci dərəcəli 3 direktor isə kreditlərdən fəal istifadə edən sənaye və ya kənd təsərrüfatı firmalarını təmsil edir. FES-in müdirlər şurası əlavə olaraq üçüncü dərəcəli üç direktoru təyin edir. Bunlardan biri federal ehtiyatlar bankının sədri, qalan ikisi isə onun müavinləri olur.

Federal ehtiyat banklarının əsas funksiyası maksimum mənfəət əldə etmək deyil, FES-in müdirlər şurası tərəfindən işlənib hazırlanmış pul-kredit siyasətini həyata keçirməkdən ibarətdir. Buna görə də onların məcmu gəlirinin 90%-dən çoxu ABŞ-ın dövlət xəzinə idarəsinə qayıdır. Federal ehtiyat bankları FES daxilində çek-klirinq əməliyyatları aparmaqla həm hər bir dairə daxilində, həm də dairələr arasında hesablaşmaların operativ aparılmasına şərait yaradır. Dövriyyəyə federal ehtiyat əsginasları buraxır, bank müəssisələrinin depozitlərinin yaranması və kreditləşdirilməsi proseslərinə, müdirlər şurasının qərar və sərəncamlarının yerinə yetirilməsinə nəzarət edir, öz dairəsində iqtisadi vəziyyəti öyrənir, öz fəaliyyətinin nəticələri barədə maliyyə hesabatını hər həftə şuraya təqdim edirlər.

FEDERAL EHTİYAT SİSTEMİ (FES) (*Federal Reserve System*) – Amerika Birləşmiş Ştatlarının Mərkəzi Bankı. FES 1913-cü ildə yaradılmışdır (bəzi yerli ədəbiyyatlarda onu federal rezerv aktı adlandırırlar).

FES-in təşkilati strukturu üç səviyyədən ibarətdir: FES-in müdirlər şurası; 12 federal ehtiyat bankı; FES-in üzvləri olan 6000-ə yaxın kommersiya bankı. Bundan əlavə, FES-ə iki komitə daxildir: Açıq Bazarda Əməliyyatlar üzrə Federal Komitə və Federal Məsləhətləşmə Şurası (bax: sxem 1).

FES-ə ümumi rəhbərlik Senatın razılığı ilə ABŞ Prezidenti tərəfindən təyin edilən yeddi daimi üzvdən ibarət müdirlər şurası tərəfindən həyata keçirilir. FES-in müxtəlif dairələrdən olan idarəetmə şurası üzvlərinin bərabər təmsilçiliyi təmin olunur. Şura üzvlərinin səlahiyyət müddəti 14 ildir. Nəzərdə tutulmuşdur ki, bu qədər uzun müddət şuranın varisliyini, sadiqliyini və müstəqilliyini təmin etməlidir. Lakin praktikada öz vəzifəsini bütün müddət ərzində tutan üzvlərin sayı çox cüzi olur. Şuraya

prezident tərəfindən müdirlər arasından təyin edilən sədr rəhbərlik edir. ABŞ-dakı depozit müəssisələrində məcburi ehtiyat normalarını yalnız müdirlər şurası müəyyən edə bilər. ABŞ-da pul kütləsi aqreqatlarını şuranın üzvləri Açıq Bazarda Əməliyyatlar üzrə Federal Komitə vasitəsilə təyin edirlər. Şura faktiki olaraq ABŞ-ın bütün pul-kredit siyasətini müəyyənləşdirir və bu siyasət federal ehtiyat bankları vasitəsilə həyata keçirilir (bax: Federal Ehtiyat Bankı).

FES-də qeydiyyata alınmış kommersiya bankları FES-in üzv bankları hesab edilir (buraya ABŞ federal hökumətindən çarterlər almış bütün banklar, eləcə də bəzi ştatların könüllü surətdə FES-də qeydiyyata alınmaq arzusunu bildirmiş bankları daxildir). 1980-ci ilə qədər FES yalnız öz üzvlərinə münasibətdə ehtiyatlar barədə tələblər müəyyən edə bilərdi və yalnız onlar FES-in çek-klirinq sistemindən istifadə etməklə və FES-dən kreditlər almaqla federal ehtiyat banklarında hesablara malik ola bilərdilər. Depozit müəssisələrinin təkrar tənzimlənməsi və pul tədavülünə nəzarət haqqında 1980-ci ildə qəbul edilmiş qanun FES üzvləri olan banklarla digər bank müəssisələri arasında mövcud fərqlərin əksəriyyətini aradan qaldırmışdır. Formal baxımdan banklar hələ də FES-in üzvü olan və onun üzvü olmayan banklara bölündüklərinə baxmayaraq, bu bölgü artıq heç bir real əhəmiyyət kəsb etmir.


Açıq Bazarda Əməliyyatlar üzrə Federal Komitə ABŞ federal hökumətinin qiymətli kağızlarının Federal Ehtiyat bankları tərəfindən alqı-satqı proseslərinin parametrlərini müəyyənləşdirir və bu proseslərə nəzarət edir. Komitə formal baxımdan 1935-ci ildə təşkil edilmiş olmasına baxmayaraq, qiymətli kağızların açıq bazarında aparılan əməliyyatlara nəzarət orqanı hələ 1920-ci illərin əvvəllərində yaradılmışdır. Bu komitə 12 üzvdən ibarətdir – 7 nəfər FES müdiri və 5 federal ehtiyat bankının prezidentləri. Müdirlər şurasının sədri bu orqana başçılıq edir, onun müavini isə Nyu-York Federal Ehtiyat Bankının prezidentidir. Federal Ehtiyat Banklarından başqa vəzifələrə təyinetmələr hər il 3 "üçlük" və bir "ikilik" arasında rotasiya sxemi üzrə həyata keçirilir, lakin bütün Federal Ehtiyat Banklarının prezidentləri komitənin müşavirələrində iştirak etməyə borcludurlar, indiki vaxtda komitənin üzvləri olmayan prezidentlər isə məşvərətçi səs hüququna malikdirlər. Komitə açıq bazarda cari əməliyyatlar strategiyasını işləyib hazırlamaq üçün ildə bir neçə dəfə toplaşır. Bu strategiya direktiv sənəd ki-

Federal Ehtiyat Sistemi



İqamətgah	Vaşinqton Amerika Birləşmiş Ştatları
President (sədr)	Ben-Bernanke
Valyuta	ABŞ dolları
Baza uçot dərəcəsi	**0,25%** (-0,75%) 16.12.2008
Baza deposit dərəcəsi	**0,50%** (-0,75%) 16.12.2008
Veb-sayt	www.federalreserve.gov

ABŞ-ın Federal Ehtiyat Sisteminin təşkilati strukturu



Sxem 1

mi Açıq Bazarda Cari Əməliyyatlar Bürosunun müdirinə çatdırılır. O, həmin vəzifə ilə yanaşı, həm də Nyu-York Federal Ehtiyat Bankının vitse-prezidenti vəzifəsini daşıyır. Bundan sonra federal ehtiyat bankları ABŞ federal hökumətinin qiymətli kağızları ilə açıq bazarda real əməliyyatlar aparır.


Federal Məsləhətləşmələr Şurasının 12 üzvü var – hər federal ehtiyat bankından bir üzv. Şura ildə 4 dəfə FES müdirləri ilə birgə iclas keçirərək ölkənin iqtisadi inkişaf perspektivləri, o cümlədən pul bazarının perspektivləri barədə informasiya mübadiləsi aparır. Lakin müdirlər şurası FMŞ-nin tövsiyələrini yerinə yetirməyə borclu deyildir. FES-in bu qədər özünəməxsus təşkilati strukturu XX əsrdə ABŞ tarixində baş vermiş konkret tarixi hadisələrin, o cümlədən Vaşinqtonda yerləşən müdirlər şurası ilə Nyu-York Federal Ehtiyat Bankı arasında FES-də nüfuz uğrunda mübarizənin təsiri altında formalaşmışdır. FES banilərinin təsəvvüründə onun təşkilati strukturu federalizm prinsipinə əsaslanan kooperativ sistem olmalı, bu sistemdə banklar, hökumət, sahibkarlar və istehlakçılar bərabərhüquqlu əməkdaşlıq etməli idi. Hazırda FES klassik mərkəzi bank kimi – ABŞ federal hökumətinin Konqresə hesabat verən müstəqil orqanı kimi fəaliyyət göstərir.

FEDERAL EHTİYATLAR SİSTEMİ – Birləşmiş Ştatların Mərkəzi Bankı.

FEDERAL ORTAMÜDDƏTLİ KREDİT BANKI (ABŞ) – Fermer Krediti İşləri üzrə Administrasiyanın nəzarəti altında işləyən, kənd təsərrüfatına kredit və istehsal təşkilatlarına ssudalar verən, 5 ildən sonra ödəmə müddəti ilə istiqrazların buraxılışından gəlir əldə edən təşkilat.

FEDERAL TİCARƏT KOMİSSİYASI HAQQINDA QANUN (ing. *Federal Trade Commission Act*) – ABŞ-da 1914-cü ildə qəbul edilmiş qanunvericilik aktı. Kleyton qanununa əlavədir. Federal Ticarət Komissiyası haqqında qanuna əsasən müstəqil dövlət orqanı – ABŞ-ın Federal Ticarət Komissiyası yarandı ki, bunun səlahiyyətləri hər bir konkret halda ABŞ-ın

Federal idarəetmə



Sxem 1

antiinhisar qanunvericiliyinin pozulması faktlarının müəyyən edilməsindən ibarətdir. Həmçinin reklam işinə nəzarət və haqsız reklamdan istehlakçıların qorunmasını komissiya öz öhdəsinə götürmüşdü.

FEDERALİZM (lat. *foederatio* – ittifaq, birlik) – federalizm prinsipi əsasında dövlət quruluşu antik dövrlərdə və orta əsrlərdə də mövcud olmuşdur. Lakin federalizm daha çox yeni dövrümüzə aiddir. Federalizm dövlət quruluşu kimi üzvlərin (ölkələr, ştatlar, respublikalar və s.) ərazilərinin birləşməsindən yaranır. Federasiya subyektləri məhdud məsuliyyətli yerli idarəetmə orqanlarına və öz konstitusiyalarına malik olur. Mərkəzlə federasiya subyektləri arasında səlahiyyətlərin bölgüsü İttifaq konstitusiyası ilə müəyyənləşdirilir.

FEDERATİV DÖVLƏTİN BÜDCƏ SİSTEMİ – federasiyanın ərazisində inzibati-ərazi və subdövlət vahidlərinin büdcələrinin məcmusu. Büdcə sisteminin xarakteri və təşkili göstəriciləri dövlət quruluşu ilə, inzibati-ərazi bölgüsünün spesifikliyi ilə müəyyən edilir.

Federativ dövlətin büdcə sistemi unitar tipli dövlətin büdcə sistemindən üç səviyyənin (federal, federasiya subyektləri və yerli səviyyənin) mövcudluğu ilə fərqlənir. Bir qayda olaraq, bu sistemin ikinci (orta) səviyyəsi subdövlət qurumu statusuna malikdir (Almaniyada torpaqlar, Kanadada əyalətlər, ABŞ-da ştatlar və s.). Rusiya Federasiyasının (RF) büdcə sisteminin strukturunda müstəqil halqalar kimi aşağıdakılar fərqləndirilir: federal büdcə, Federasiyanın subyektlərinin büdcəsi, yerli büdcələrin müxtəlif kateqoriyaları (şəhər və rayonların büdcələri, qəsəbələrin və kənd yaşayış məntəqələrinin büdcələri). Büdcə sisteminin bütün hissələri qarşılıqlı əlaqəlidir və onların fəaliyyət göstərməsi dövlət quruluşunun xarakterindən asılıdır. Federativ büdcə sisteminin təşkili büdcə sisteminə daxil olan büdcələrin vəhdətlik, tamlıq, reallıq, aşkarlıq və müstəqillik prinsiplərinə əsaslanır. Büdcə sisteminin vəhdətliliyi vahid hüquqi baza ilə, vahid büdcə təsnifatından və vahid büdcə sənədləşməsi formalarından istifadə edilməsi ilə, büdcə prosesinin razılaşdırılmış prinsipləri ilə təmin edilir. Tamlıq prinsipi tələb edir ki, büdcə sisteminin hər bir halqasında gəlirlər və xərclər tam həcmdə əks olunsun. Aşkarlıq prinsipi geniş ictimaiyyət üçün təsdiq olunmuş büdcələrin və onların icrası haqqında hesabatların dərc olunması zəruriliyi deməkdir. Büdcə sisteminin müxtəlif halqalarının müstəqilliyi sistemin halqalarından hər birinin öz gəlir və xərclərinin istiqamətlərini və həcmini müstəqil müəyyən etmək hüququna malik olmasını tələb edir.

FEDORENKO NİKOLAY PROKOFYEVİÇ (1917-2006) – rus iqtisadçısı, SSRİ EA-nın akademiki (1964), Rusiya EA-nın akademiki (1991). 1942-ci ildə Hərbi-Kimya Akademiyasını bitirib. 1949-1962-ci illərdə Moskva Kimya-Texnologiya İnstitutunun müəllimi, professoru, 1963-cü ildə SSRİ EA-nın Mərkəzi İqtisadi Riyaziyyat



İnstitutunun direktoru, 1971-ci ildə SSRİ EA-nın iqtisadiyyat şöbəsinin akademik-katibi olmuşdur. O, dünyanın bir çox ölkələrində çap edilmiş 300-dən çox elmi əsərin müəllifidir. 1960-cı illərdə iqtisadi-riyazi üsulların geniş yayıldığı bir dövrdə Fedorenko iqtisadiyyatın funksiyalaşdırılmasının optimallaşdırılması sistemi ideyasını irəli sürmüş, hazırlamış və sonradan mərhələlərlə tətbiq olunmasına rəhbərlik etmişdir.

FELPS EDMUND (1933) – Amerika iqtisadçısı. 1955-ci ildə Yel Amherst Kollecinin



bakalavrı, 1959-cu ildə Yel Universitetinin fəlsəfə doktoru olmuş, Yel (1958-1966), Pensilvaniya (1966-1971), Kolumbiya (1971-ci ildən) universitetlərində dərs demişdir. 1983-1984-cü illərdə Beynəlxalq Atlantik İqtisad Cəmiyyətinin prezidenti kimi fəaliyyət göstərmiş, 2006-cı ildə makroiqtisadi siyasətdə dövrlərarası mübadilənin təhlilinə görə Nobel mükafatına layiq görülmüşdür.

FEMİNİZASİYA (lat. *femina* – qadın) – demoqrafiyada əhalinin cins üzrə tərkibində qadınların sayının artması. Qadının sosial, siyasi və iqtisadi proseslərdə rolunun artması kimi də başa düşülür.

Cədvəl 1

Feodal iqtisadiyyatı

Feodalizmin əsas xüsusiyyətləri Metodlar	1. Natural təsərrüfatın hökmranlığı. 2. İri feodal torpaq sahibkarlığının kiçik kəndli torpaq sahibkarlığı ilə yanaşı olması. 3. Kəndlinin feodaldan bilavasitə asılılığı. Əməyə və məhsulun bölüşdürülməsinə qeyri-iqtisadi məcburiyyət. 4. Texnikanın müntəzəm olaraq son dərəcədə aşağı səviyyədə olması. 5. Renta münasibətləri: torpağı istifadə etdiyinə görə kəndli yetişdirdiyi məhsulu renta kimi ödəyirdi ("barşina", "obroq").
Feodal cəmiyyətinin sosial-siyasi quruluşunun spesifik xüsusiyyətləri	1. Cəmiyyətin sinifləşdirilmiş xüsusiyyəti. 2. Hökmranlıq edən feodal sinfinin iyerarxik strukturu. 3. Korporativ təşkilatların geniş inkişaf etdirilməsi. 4. Din üzrə qurulmuş dünyagörüşünün hökmranlığı. Kilsənin xüsusi rolu.

FENOMEN – qeyri-adi hadisə. İqtisadi hadisələrə hissi qavrayış (məsələn, pul münasibətləri).

FEODAL – feodalizmdə hakim sinfin nümayəndəsi, feodun sahibi, iri torpaq mülkiyyətçisi.

FEODAL İQTİSADİYYATI – bazisini kəndli və sənətkarların xırda istehsalı, feodalların torpaq mülkiyyəti təşkil edən natural təyinatlı təsərrüfat sistemi. (bax: cədvəl 1)

FEODAL MÜLKİYYƏTİ – insan cəmiyyətinin inkişafı bütün insanların hüquq və azadlıqlarının bərabərliyinə doğru ardıcıl hərəkətlə müşayiət olunmuşdur. Bu tarixi inkişaf prosesində antik cəmiyyətdən dərhal sonra feodal mülkiyyəti yaranmışdır. Onun səciyyəvi cəhətləri istehsal şəraiti üzərində mütləq mülkiyyət hüquqları və insanlar üzərində məhdud mülkiyyət hüquqları idi. Mülkiyyətin bu formasında iqtisadi hakimiyyətə insanların şəxsiyyəti üzərində hakimiyyət də əlavə olunurdu.

FEODALİZM – torpaq üzərində feodal mülkiyyət formasına əsaslanan ictimai-iqtisadi formasiya. Feodalizm termini XVIII əsrin əvvəlindən elmdə geniş tətbiq olunmağa başlamışdır. Termin ilk dəfə mülkiyyət forması kimi məhkəmə sistemində XVII əsrdə ingilis hüquqşünasları tərəfindən, ictimai-siyasi termin kimi isə Bulenvilye və Monteskye tərəfindən işlədilmişdir. Marksizm nəzəriyyəsində ictimai-iqtisadi formasiyanın bir mərhələsi kimi qəbul olunurdu və quldarlıq quruluşundan sonrakı dövrü nəzərdə tuturdu. Feodalizm cəmiyyətinə natural təsərrüfat xas

Feodal cəmiyyətində məhsul istehsalının və dövriyyə formalarının inkişafı

İstehsal	→	**Əsasən natural təsərrüfat formasında. Tədricən məhsul istehsalı (ustalar, sərbəst kəndlilər, feodal rentasının kommutasiyası). Kapitalist istehsalının yaranması (sadə kooperasiya, sonra manufaktura)**
Dövriyyə	→	**Sadə məhsul istehsalına xidmət edilməsi (pulların bütün funksiyaları)**
Pul	→	**Tacir və sələmçi kapitalı dövriyyəsinə xidmət edilməsi**
Kredit	→	**Əsasən sələmçi**
	→	**Bankların yaranması. İlkin olaraq pul anbarları, mübadilə işi. XVIII əsrdən başlayaraq, tacirlərin əməliyyatları üzrə hesablaşmalar.**
Maliyyə vəsaitləri	→	**Dövlətlərin və onların tələblərinin inkişafı ilə əlaqədar dövlət büdcəsi yaranmışdır.**

Sxem 1

idi. Hazırda bu terminlə yanaşı, ənənəvi cəmiyyət, aqrar cəmiyyət terminlərindən də istifadə olunur (bax: sxem 1).

FERMER – şəxsi və ya icarəyə götürülmüş torpaq sahəsində ailə əməyinə və ya muzdlu əməyə əsaslanan özəl təsərrüfatın və ya kənd təsərrüfatı müəssisəsinin sahibi, kəndli sahibkar.

İqtisadi cəhətdən inkişaf etmiş, əsasən, ixtisaslaşdırılmış əmtəə təsərrüfatı ilə məşğul olan ölkələrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının əsas kütləsini fermerlər təşkil edir.

Müasir fermer XX əsrin birinci yarısında mövcud olmuş kənd əmtəə istehsalçısından əhəmiyyətli dərəcədə fərqlənir. O, adətən, daha çox torpaq sahəsinə və müasir texnikanın müəyyən dəstinə malik olmaqla yanaşı, həm də kənd təsərrüfatı üzrə təhsil almışdır, öz təsərrüfatını idarə etmək üçün zəruri iqtisadi biliklərə malikdir.

1989-cu ildə ABŞ-ın kənd təsərrüfatında məşğul olan 2,8 milyon nəfərin təqribən 1,9 milyonu "əməyi ödənilməyən işçilər", yəni fermer özü və onun əsas ailə üzvləri, qalanları isə muzdlu işçilər idi.

Fermerlərin əksəriyyəti təsərrüfatın idarə edilməsini varislik qaydasında davam etdirir, yəni onlar nəsilliklə fermer olurlar.

Fermerlərin və fermer təsərrüfatlarının sayı ilk növbədə rəqabət mübarizəsinin sərt şərtlərindən asılıdır. Bu mübarizə nəticəsində həm fermerlərin sayı, həm də fermer valideynlərinin peşəsini davam etdirmək arzusunda olan gənclərin sayı azalır. Digər tərəfdən, bir sıra ölkələrdə fermaların vərəsələr arasında bərabər bölünməsi prinsipi qüvvədədir. Buna görə də aqrar strukturda xırda fermalar hələ də üstünlük təşkil edir.

Fermerlərin sayının azalması müasir cəmiyyətdə kəndlilərin bir sinif kimi tədricən yox olması barədə fikrin geniş yayılmasına səbəb olmuşdur.


Fermerlərin kənd təsərrüfatından əldə etdikləri gəlirlərin səviyyəsinin aşağı olması xalis kənd təsərrüfatından kənarda, fermalardan kənarda əlavə gəlir mənbələri axtarmaq istəyinə səbəb olur. Avropa İttifaqı üzvü olan ölkələrin əksəriyyətində fermer ailələrinin başçılarının təqribən hər üç nəfərindən biri, eləcə də onların ailə üzvlərinin çoxu fermadan kənarda gəlir əldə edir. Onlar yaxınlıqda yerləşən emal sənayesi müəssisələrində işləyir, kənd turizminə

xidmət edir və başqa fəaliyyət növləri ilə məşğul olurlar.

Ayrı-ayrı dövlətlərdə fərdi fermerliklə yanaşı, qrup halında fermerliyin müxtəlif növləri – xırda fermerlərin birgə istehsal üçün yaratdıqları birliklər müəyyən dərəcədə inkişaf etmişdir. Fransada, İtaliyanın cənubunda, Portuqaliyada bu cür birliklər vardır. Məsələn, Fransada kənd təsərrüfatı ilə birgə məşğul olan birliklər (QAEK) geniş yayılmışdır. QAEK şəklində birləşən fermer təsərrüfatlarının sayı qanuna görə 10-dan çox olmamalıdır. QAEK-lərin əksəriyyəti 2-3 yaxın qohumu birləşdirir və əsasən maldarlıq fəaliyyəti ilə məşğul olur. Bu halda onların istehsal vasitələri, torpaqları və əməyi birləşdirilir. 1992-ci ildə Fransada 116 min üzvü birləşdirən 48 min QAEK var idi. Belə təsərrüfatların orta sahəsi 73 hektar idi və ölkənin kənd təsərrüfatına yararlı torpaqlarının 11%-ni təşkil edirdi.

Azərbaycanda fermerlərin təşəkkül prosesinin birinci mərhələsi 1989-cu ildə başlanmışdır. Bu mərhələdə fermerlərin bir hissəsi şəhərlilər idi. Onların çoxu sonradan kənddən çıxıb getmiş və təbii ki, fəaliyyət sahəsini dəyişmişdir. Hazırda fermerlərin əsas kütləsi kənd sakinlərindən ibarətdir.

İşləri uğurla gedən fermerlər arasında əvvəllər kənd təsərrüfatı müəssisəsinin rəhbərləri və mütəxəssisləri olmuş şəxslər çoxluq təşkil edir. Onların çoxu əvvəlki mövqeləri sayəsində kənd təsərrüfatı müəssisəsinin yenidən təşkil edilməsi və ya həmin müəssisələrdən çıxma dövründə nisbətən yaxşı torpaq-



ları və texnikanı almağa müvəffəq olmuşdur. İndi onlar müasir texnologiyaların tətbiq edildiyi, yaxşı təchiz olunmuş iri təsərrüfatlara malikdirlər. Onların ixtisas təhsili və istehsalat təcrübəsi vardır. Eyni zamanda, fermerlərin xeyli hissəsi yarınatural təsərrüfatla məşğuldur. Bu, maliyyə vəsaitlərinin çatışmaması, istehsalın texniki təchizatının aşağı səviyyədə olması, məhsul satışının çətinlikləri ilə əlaqədardır.

FERMER TƏSƏRRÜFATI – özəl və ya icarəyə götürülmüş torpaqda fermer və onun ailəsinin əmtəə istehsal etdiyi kənd təsərrüfatı müəssisəsi. Həm fermer təsərrüfatı sahibinin və onun ailə üzvlərinin, həm də daimi və ya mövsümi muzdlu işçilərin əməyinin istifadəsinə əsaslana bilər. Kənd təsərrüfatının və onun məhsuldar qüvvələrinin inkişafı nəticəsində fermer təsərrüfatı daha da ixtisaslaşır, əmtəənin keyfiyyət səviyyəsi yüksəlir, istehsal və əmək məhsuldarlığı artır, torpaq və kapitalın ayrı-ayrı sahiblərin əlində cəmləşməsi baş verir. Digər tərəfdən, bir çox xırda təsərrüfatlar rəqabət mübarizəsi şəraitində müflisləşir. Fermer təsərrüfatı müqavilə sistemi vasitəsilə aqrobiznes sisteminə daxil olur və ondan asılı vəziyyətə düşür.

Eyni zamanda, kredit, məhsulun emalı, təchizat və satış, texnikanın birgə istifadəsi və s. sahəsində fermer təsərrüfatının kooperasiyası inkişaf edir.

Azərbaycanda 1992-ci ildə "Kəndli (fermer) təsərrüfatı haqqında" Qanun qəbul edilmişdir. Sonradan bu qanuna müvafiq dəyişikliklər edilmişdir.

FEYZULLABƏYLİ İSMAYIL ƏLİ OĞLU (1925-2005) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1964-cü ildə namizədlik, 1969-cu ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, əsasən ticarətin tədqiqi ilə məşğul olmuşdur. Böyük Vətən müharibəsi iştirakçısı olmuşdur.



Bir tədqiqatçı-alim və sanballı pedaqoq kimi Hacı İsmayıl Feyzullabəyli iqtisadçı alimlər arasında böyük hörmətə malik idi. "Xalq istehlakı" (Azərnəşr, 1968), "Ticarətdə əməyin elmi

təşkili" (Azərnəşr 1972), "İctimai iaşənin sosial-iqtisadi problemləri" (Экономикс, 1980), "Ticarətin dünəni, bu günü, sabahı" (Azərnəşr, 1981), "Real bazara doğru" (1993), "Biznes: bazar, ticarət, marketinq, plan nədir" (Azərnəşr, 1995) və s. kitabları (ümumiyyətlə, 20 kitab və 8 kitabça), çoxlu elmi məqalələri onun elmi-tədqiqat dairəsinin genişliyindən xəbər verir. Alimin qələmindən çıxan təqribən 280 ç.v. həcmində 200-dən çox elmi və publisistik yazıları alimlər, müəllimlər, iqtisadçılar və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanmışdır. Ümumiyyətlə, İ.Feyzullabəylinin elmi əsərlərinin yüksək nəzəri səviyyəsi və elmi-praktik tədqiqatlarının metodoloji və metodiki əsasları göstərir ki, onun elmi fəaliyyəti iqtisadi nəzəriyyə və sosial problemlərin qovuşuğunda cərəyan edir. 25-ə qədər beynəlxalq, ümumittifaq və respublika səviyyəli elmi-nəzəri və elmi-praktiki konfranslarda, simpoziumlarda, seminar müşavirələrdə məruzələrlə çıxış edib və onların bir neçəsinin təşkilatçılarından olub. 1970-1980-ci illərdə "Bilik" cəmiyyətinin xətti ilə 50-yə qədər şəhər və rayonda iqtisadi təhsilin, elmi biliklərin təbliği məqsədi ilə elmi-təcrübi konfranslar, seminar müşavirələri keçirmiş, bu sahədəki fəal işinə görə İttifaq və respublika "Bilik" cəmiyyətləri tərəfindən mükafatlandırılmışdır.

FƏALİYYƏT SAHƏLƏRİ – Milli Hesablar Sistemində (MHS) istifadə edilən ümumiləşdirmə metodlarından biri. BMT-nin Statistika Komissiyasının 2001-ci ildə keçirdiyi otuz ikinci sessiyasında onda müəyyən dəqiqləşdirmələr aparılmışdır. Hazırda bu təsnifat bütün iqtisadi fəaliyyət sahələrini 21 seksiyaya (sahəyə) bölür. Onun 88 bölməsi, 272 qrupu və 615 sinfi vardır. Yəni müxtəlif fəaliyyət sahələri oxşar əlamətlərinə görə siniflərdə, siniflər qruplarda, qruplar bölmələrdə və bölmələr sektorlarda (sahələrdə) birləşir. Ayrı-ayrı sektorlar vahid milli (makroiqtisadi) sistemin sahəvi xüsusiyyətlərini üzə çıxarmağa, onların inkişaf meyillərini öyrənməyə, qarşılıqlı əlaqələrini müəyyən etməyə və s. məsələlərin həllinə şərait yaradır. Odur ki, bütün ölkələrdə statistik məlumatların bu təsnifatın tələblərinə uyğun hazırlanması məqsədəuyğun və zəruri sayılır.

İqtisadi münasibət vahidlərinin fəaliyyət növünə görə qruplaşdırılmasına (təsnifatına) dair BMT-nin təklifi aşağıdakı kimi səciyyələndirilir:


– kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq;
– mədənçıxarma sənayesi;
– emal sənayesi;
– elektrik enerjisi, qaz, buxar və havanın istehsalı (kondisiyalaşdırılması) və paylaşdırılması;
– su təchizatı, çirkab suların və tullantıların təmizlənməsi;
– tikinti;
– topdan və pərakəndə satış, avtomobil və motosikletlərin təmiri;
– nəqliyyat və anbar təsərrüfatı;
– yaşayışın təşkili və ictimai iaşə;
– informasiya və rabitə;
– maliyyə və sığorta fəaliyyəti;
– daşınmaz əmlakla əlaqədar əməliyyatlar;
– peşə, elmi və texniki fəaliyyət;
– inzibati və yardımçı xidmətlərin göstərilməsi;
– dövlət idarəetməsi və müdafiə, icbari sosial təminat;
– təhsil;
– əhaliyə səhiyyə və sosial müdafiə xidmətlərinin göstərilməsi;
– istirahət, əyləncə, mədəniyyət sahəsində fəaliyyət;
– digər sahələrdə xidmətlərin göstərilməsi;
– ev təsərrüfatlarının fəaliyyəti, fərdi istehlak üçün ev təsərrüfatlarının istehsalı və xidmətlər göstərilməsi;
– toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti.

FƏALİYYƏTDƏ OLAN MALGÖNDƏRƏN – müəyyən məqsəd üçün artıq istehlakçıya mal göndərən və deməli, müştəri-şirkətin "giriş-çıxışlarını" yaxşı bilən tərəfdaş.

FƏALİYYƏTDƏ OLAN POLİS – sığortaçı tərəfindən aksept anından sığorta müqaviləsinin fəaliyyət göstərməsinin bitməsi və ya ləğv olması anına qədər həmin sığorta müqaviləsi.

FƏALİYYƏTİN EKOLOJİ GÖSTƏRİCİLƏRİNƏ DAİR HESABAT (*Environ-mental performance report*) – maliyyə hesabatlarından ayrıca tərtib olunan bu hesabatda biznesin ekoloji aspektləri ilə bağlı iqtisadi subyektin üzərinə götürdüyü öhdəliklər, bu sahədə yürütdüyü siyasət və qarşısına qoyduğu hədəflər, özünün biznes prosesləri ilə ətraf mühit riski arasında əlaqə qurulması istiqamətində əldə etdiyi nailiyyətlər barədə keyfiyyət xarakterli məlumatlar və fəaliyyətinin ekoloji göstəricilərinə dair kəmiyyət xarakterli məlumatlar təqdim olunur.

Əmək fəaliyyətinin komponentləri



Sxem 1

FƏLAKƏT – təbii və texnogen proseslərin nəticəsində baş verərək ağır nəticələrə səbəb olan hadisə.

FƏLAKƏT ZAMANI ÖRTÜLMƏ – itkinin ekssedenti ilə təkrar sığorta növü. Burada xüsusi bildirişin mövcudluğu zamanı və müəyyən həddə qədər sedent şirkətə bir fəlakət (məsələn, böyük yanğın, zəlzələ, torpaq sürüşməsi və s.) nəticəsində yaranan məcmu itkilər kompensasiya olunur.

FƏRDİ AKSİZ – malın hər bir vahidindən dəqiq dərəcələr (stavkalar) üzrə tutulur.

FƏRDİ BORCLU – öz fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən və borcu olan sahibkar.

FƏRDİ ƏMƏK FƏALİYYƏTİ – əmək prosesinin müstəqil təşkili – muzdla iş deyil, bir qayda olaraq, əhalinin kustar sənəti, məişət xidməti, eləcə də müstəsna olaraq, vətəndaşların və onların ailələrinin fərdi əməyinə əsaslanan digər sahələrdə əmək fəaliyyəti. Dövlət cəmiyyətin mənafeyi naminə fərdi əmək fəaliyyətini tənzimləyir. Fərdi əmək kifayət qədər məhdud əmək fəaliyyəti olmasına baxmayaraq, istehlakçıya yaxınlıq hesabına onda yüksək səmərəliliyi təmin etməyə qadirdir. Fərdi əmək fəaliyyətinə işçinin birbaşa marağı, istehsalçının tam müstəqilliyi və məsuliyyəti, insanın yaradıcılıq və təşəbbüskarlığının təzahür etməsi imkanı, inzibati-idarəetmə personalının əməyinin ödənilməsinə çəkilən xərclərin olmaması xasdır. Bütün bu amil-

lər kompleks şəklində fərdi əmək fəaliyyətinin səmərəliliyini şərtləndirir (sxem 1). Fərdi əmək fəaliyyətində dövlət müəssisələri tərəfindən emal olunmayan təkrar xammaldan və tullantılardan istifadə oluna bilər. Burada, məsələn, məişət xidməti, sərnişin nəqliyyatı və bu kimi sahələrdə tələbin, dəbin dəyişməsinə sürətlə cavab vermək, riskə getmək olar.

Fərdi əmək fəaliyyətinin inkişafı əhalinin təchizat səviyyəsinə görə şəhərlə kəndi bir qədər yaxınlaşdırmağa, ev təsərrüfatı ilə məşğul olan qadınların, pensiyaçıların, məhdud əmək qabiliyyətli şəxslərin əməyindən, biliyindən, qabiliyyətindən istifadə etməyə, əlavə məşğulluq prinsiplərinə görə əmək ehtiyatlarından istifadə dərəcəsini yüksəltməyə imkan verir. Bir sıra ölkələrdə fərdi əmək fəaliyyətindən istifadə edilməsi işsizlərin sayının azalmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

FƏRDİ HESAB – 1. Dövlət sosial sığorta sistemində fərdi uçotu həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər bir sığorta olunan şəxsə uçot dövründə daimi (dəyişməz) sosial sığorta nömrəsi ilə açılmış şəxsi hesab. 2. Fiziki şəxslər üçün açılan bank hesabı.

Açıq hesab – hesablaşma-kredit münasibətlərinin formalarından biri. Açıq hesab zamanı satıcı əmtəələri alıcı üçün boşaldılır və əmtəə bölüşdürmə sənədlərini onun ünvanına göndərir. Bu halda satıcı borc məbləğini alıcının onun üçün açdığı hesabın debetinə yazır. Alıcı borcu hissə-hissə ödəyir və bu zaman kontraktla şərtləşdirilmiş intervallar da nəzərə alınır. Borc məbləğinin ödənilməsi əmtəələrin hər bir partiyasının boşaldılmasından sonra müəyyən müddətin keçməsilə üst-üstə düşür.

FƏRDİ HESABIN SIĞORTA HİSSƏSİ – müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nisbətlərə uyğun olaraq sığorta olunan şəxslər üzrə ödənilmiş və əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün nəzərə alınan məcburi dövlət sosial sığorta haqlarının qeydə alındığı subhesab.

FƏRDİ HESABIN YIĞIM HİSSƏSİ – müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş nisbətlərə uyğun olaraq sığorta olunan şəxslər üzrə ödənilmiş və əmək pensiyasının yığım hissəsinin hesablanması üçün nəzərə alınan məcburi dövlət sosial sığorta haqlarının, eləcə də bu vəsaitlərin dövriyyəsindən əldə edilən gəlirlərin toplandığı subhesab.

FƏRDİ XÜSUSİ MÜƏSSİSƏ – mülkiyyətçilər arasında müqavilədə digər hal nəzərə alınmayıbsa, mülkiyyət hüququna müvafiq olaraq fiziki şəxsə və ya ümumi pay hüquqları əsasında onun ailə üzvlərinə məxsus olan müəssisə. Vətəndaş və ya onun ailəsinin əmlakı, fəaliyyət nəticəsində əldə olunan gəlirlər, həmçinin, Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr fərdi xüsusi müəssisəni təşkil edir. Fərdi xüsusi müəssisə vətəndaş və ya onun ailəsi tərəfindən dövlət və ya bələdiyyə müəssisəsinin özəlləşdirilməsi yolu ilə formalaşa bilər. Xüsusi müəssisənin öz adı olur, bu zaman müəssisənin təşkilati-hüquqi forması və bu xüsusi müəssisənin əmlakının məxsus olduğu mülkiyyətçinin soyadı göstərilir. Fərdi xüsusi müəssisənin mülkiyyətçisi müəssisənin nizamnaməsi ilə fərdi xüsusi müəssisə nəzərdə tutulan həddə öhdəliklər üzrə məsuliyyət daşımağa borcludur.

FƏRDİ İSTEHSAL – vahid nüsxədə məmulatların istehsalı ilə xarakterizə olunan istehsal tipi. Eksperimental məhsul nüsxələri hazırlayan təcrübə müəssisələri üçün tipikdir ki, bu məhsullar müvafiq yoxlamadan və sınaqlardan sonra seriyalı və ya kütləvi istehsal üçün digər müəssisələrə verilir. Fərdi istehsal həmçinin adi məhsulun hazırlanması zamanı tətbiq olunur ki, bu da öz xarakterinə və ya xüsusiyyətlərinə görə fərdi sifarişlərin yerinə yetirilməsi zamanı çoxaldıla bilməz. Fərdi istehsal zamanı, bir qayda olaraq, universal avadanlıqdan istifadə olunur, xüsusi alətlərin və tərtibatların tətbiqi burada az səmərəlidir. Fərdi istehsal böyük material tutumu və əmək tutumu ilə fərqlənir. Fərdi istehsalda məşğul olan fəhlə və mütəxəssislər, bir qayda olaraq, digər istehsal tiplərinə nisbətən daha yüksək ixtisasa malikdir ki, bu da bir iş növündən digərinə sürətlə keçməsi zərurəti ilə şərtlənir. Fərdi istehsalın xüsusiyyətləri ayrı-ayrı sahələrdə seriyalı və kütləvi istehsalın metodlarının istifadəsi imkanlarını axtarmağa məcbur edir. İstehsalın standartlaşdırılması və tiplərə ayrılması tətbiq olunur, universal-yığma tərtibatlarından istifadə olunur. Xüsusi avadanlığa çəkilən minimum məsrəflərlə mürəkkəb və dəyişən məhsulun buraxılışını təşkil etməyə imkan verir.

Elmi-texniki tərəqqi şəraitində fərdi istehsalın tətbiqi sferası təcrübəli yoxlamanı tələb edən yeni məhsul növlərinin daha çox miqdarının mənimsənilməsi ilə və xalq təsərrüfatının (iqtisadiyyatın) unikal ixtisaslaşdırılmış məhsul növlərinə olan tələbatının artması ilə yüksəlir.

FƏRDİ KAPİTAL – ayrı-ayrı müəssisələrə qoyulan və istehsalın müəyyən sahəsində fəaliyyət göstərən müəssisə. K.Marks sübut edirdi ki, hər bir fərdi kapital istehsal vasitələrinin az və ya çox dərəcədə təmərküzləşməsidir və az və ya çoxlu sayda fəhlə ordusu üzərində müvafiq rəhbərlikdir. Müxtəlif fərdi kapitallar bir-birindən ayrı mövcud olmasına baxmayaraq, qarşılıqlı əlaqədə, bilavasitə bazar münasibətləri ilə fəaliyyət göstərirlər. Fərdi kapitalların məcmusu ictimai kapitalı əmələ gətirir, bunun da artması fərdi kapitalların artması yolu ilə baş verir.

Fərdi kapital bazar münasibətlərinin spesifik özəyini təşkil edir və ayrı-ayrı sahibkarların hüquqi, kommersiya və istehsal müstəqilliyini tələb edir.

FƏRDİ MARKA ADI – markanın hansısa konkret şirkətə məxsus olduğunu göstərən marka adı.

FƏRDİ MÜLKİYYƏT – mülkiyyətin bu forması aşağıda sadalanan bütün əlamətləri bir subyektdə cəmləşdirir: əmək, gəlirlərin və əmlakın idarə edilməsi, onların barəsində sərəncam vermək hüququ. Müasir iqtisadiyyatda bu subyektlərə adətən korporasiya edilməmiş mülkiyyətçilər adlanan fərdlər də aiddir. Fərdi mülkiyyətçilərə

Fərdi mülkiyyət formaları



Sxem 1

aşağıdakılar aid edilə bilər: özünün xüsusi təsərrüfatını idarə edən kəndlilər; ayrı-ayrı alverçilər ("məkiklər" də daxil olmaqla); xüsusi qaydada praktik fəaliyyətlə məşğul olan həkimlər, vəkillər, əməyi, idarəetməni, gəlir və əmlak barəsində sərəncam verilməsini bir şəxsdə cəmləşdirən bütün fərdlər. Bir sıra xarici ölkələrin statistikasında mülkiyyətin bu forması fərdi və ya qeyri-korporativ sahibkarlıq forması hesab edilir. Adıçəkilən mülkiyyət formasına statistikada göstərilən fermer təsərrüfatlarının miqdarı aiddir, lakin bu halda sənayedə və xidmətlər sahəsində çalışan fərdi sahibkarlar ayrıca göstərilmir. Bir sıra ölkələrin statistikasının spesifik xüsusiyyəti ondan ibarətdir ki, kiçik biznes (kiçik sahibkarlıq) ayrıca qeyd edilir, lakin bu halda xalis kəmiyyət meyarları nəzərə alınır (müxtəlif istehsal sahələrində məşğul olanların sayı 50-100 həddində olmalıdır) (bax: sxem 1).

FƏRDİ SIĞORTA (ing. *personal insurance*) – şəxsi sığortanın bir növü. Qrup sığortasından fərqli olaraq fərdi sığorta müqaviləsi sığortaçı tərəfindən fərdi olaraq konkret fiziki şəxslə bağlanır.

FƏRDİ UÇOT – 1. Sığorta olunanların qanunvericiliklə nəzərdə tutulan sosial müdafiə hüquqlarının təminatı üçün zəruri məlumatların fərdi qaydada qeydiyyatının və uçotunun təşkili. 2. Qanunvericiliyə uyğun olaraq pensiya və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığorta olunan haqqında məlumatların uçotunun təşkili və aparılması.

FƏRƏCOV ƏLİQULU SƏTTAR OĞLU (1898-1991) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



Keçən əsrin 20-ci illərində Bakıda iqtisadiyyat texnikumlarının və Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsinin yaradılmasında (1929-cu il) iştirak etmiş, İqtisad İnstitutunun və ayrı-ayrı institutlardakı iqtisadiyyat fakültələrinin təşkilatçılarından biri olmuşdur. XX əsrin 30-40-cı illərində ümumi dəftərdarlıq və mühasibat uçotu nəzəriyyəsi üzrə dərsliklər hazırlamışdır. Ötən əsrin 50-ci illərində N.Gəncəvinin iqtisadi baxışlarını tədqiq etmişdir. 1985-ci ildə çap olunmuş "Feodalizm dövründə Azərbaycanda iqtisadi fikrin təşəkkülü və inkişafı" adlı fundamental monoqrafiyası Azərbaycan xalqının iqtisadi fikir tarixinə böyük töhfədir. Ə.Fərəcov N.Tusinin "Maliyyə haqqında" traktatlarını fars dilindən tərcümə etmiş və onun iqtisadi baxışlarının elmi şərhini vermişdir.

Özünün çox səmərəli elmi-pedaqoji fəaliyyəti dövründə alim 45 mühüm əsər çap etdirmişdir. Ümumi həcmi 280 çap vərəqindən ibarət əsərlərinin mövzu əhatəsi alimin universal biliyə malik olmasından xəbər verir. Dərin biliyi və zəngin pedaqoji təcrübəsi nəzərə alınaraq Ə.Fərəcova hələ 1939-cu ildə professor elmi adı verilmişdir. Uzun illər ADU-nun prorektoru, AzXTİ-nin rektoru, Elmlər Akademiyası İqtisadiyyat bölməsinin direktoru kimi rəhbər vəzifələrdə çalışmışdır.

FƏRƏCOV FƏRİD ƏLİQULU OĞLU (1927-2000) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1953-cü ildə namizədlik, 1977-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Sənaye iqtisadiyyatı problemlərinə dair bir çox sanballı əsərlərin müəllifidir.



F.Fərəcov uzun müddət Bakı Ali Partiya Məktəbində kafedra müdiri, Dövlət Plan Komitəsi Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda direktor, 1981-1993-cü illərdə Respublika Dövlət İqtisadiyyat və Plan Komitəsi sədrinin müavini olmuş, 1993-cü ildən ömrünün sonuna kimi İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Mərkəzində çalışmışdır.

FƏRQLƏNDİRİCİ ÜSTÜNLÜKLƏR – məqsədli alıcılar üçün daha mühüm əhəmiyyətə malik olan meyarlar üzrə şirkətin rəqiblərindən aşkar fərqi.

FƏRQSİZLİK ƏYRİSİ – istehlakçını eyni səviyyədə razı salan istehlak kombinasiyalarını göstərir.

FƏRZƏLİYEV MEHRƏLİ MƏMMƏD OĞLU (1946) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1978-ci ildə Moskvadakı Ümumittifaq Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda namizədlik, 1989-cu ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Əsas



fəaliyyət obyekti ətraf mühitin mühafizəsi və tə biətdən istifadə problemləridir.

1970-1991-ci illərdə müxtəlif təşkilatlarda, elmi-tədqiqat institutlarında mühəndis, kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. 1991-2002-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində professor olmuşdur.

O, Qəbələ RLS-nin ekologiya və təbiətdən istifadənin təsirinə dair kompleks iqtisadi zərərin müəyyənləşdirilməsində iştirak etmişdir. Akademik V.S.Altunin adına Beynəlxalq Ekologiya və Təbiətdən İstifadə Akademiyasının həqiqi üzvüdür. Azərbaycan Respublikasının Əməkdar müəllimidir. Onun rəhbərliyi ilə 5 elmlər namizədi hazırlanmışdır. Hazırda Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiridir.

FİFO (*first-in-first-out*) – vaxt üzrə ilkin alınmış istehsal ehtiyatlarının maya dəyərinə daxil edilməsi metodu.

FİKSAJ OLUNMUŞ GƏLİRLİ MALİYYƏ ALƏTLƏRİ, BORC ALƏTLƏRİ, İSTİQRAZLAR (*fixed-income instruments, ya da debt instruments*) – onların sahiblərinə bu alətlərin dövriyyədə olduğu müddətdə fiksaj olunmuş pul məbləğinin ödənilməsi vəd edilmişdir.

FİKSCYUR-NOT – gəminin kirayələnməsi (fraxtlanması) faktını və onun əsas şərtlərini (gəminin adını və onun verilməsi müddətini, yükün miqdarını və növünü, yükləmə və boşaltma limanlarını, yük işlərinin normalarını, kirayənin dərəcəsini) təsbit edən ilkin sənəd. Sonradan çarterlə əvəz olunur, yaxud çarter tərəfindən dəyişilmir.

FİKTİV (SAXTA) ÇEK – üzərində göstərilmiş məbləğ inkasso edilməyən, müəssisənin kassalarında toplanmayan və kredit müəssisələrinin, kommersiya banklarının pul kassasına daxil olmayan çek.

FİKTİV KAPİTAL (ing. *fictio* – uydurma) – sahiblərinə müntəzəm gəlir gətirən və qiymətli kağızlar bazarında real kapitaldan fərqli olaraq müstəqil hərəkət edən qiymətli kağızlarda (səhmlərdə, istiqrazlarda və s.) təqdim edilmiş kapital, başqa sözlə, real kapitaldan (pul və ya avadanlıq) fərqli olaraq dəyər deyil, yalnız gəlir almaq hüququnu ifadə edən kapital (səhm, istiqraz, girov vərəqi və s.). Fiktiv kapital sənaye kapitalının hərəkəti prosesində heç bir funksiyanı yerinə yetirməyərək, dəyərin və izafi dəyərin yaradılması prosesində iştirak etməyərək, sahibinə izafi dəyər əldə etmək hüququ verir. Beləliklə, fiktiv kapitalın hərəkəti fond bazarının fəaliyyət göstərməsinin əsasında durur.

Fiktiv kapital, eyni zamanda, ictimai münasibətdir. Bunun da mahiyyəti həmin kapitalın izafi dəyərin bəzi hissəsini tutmaq bacarığından ibarətdir. Tarixi cəhətdən fiktiv kapital istehsaldan borc kapitalının təcrid edilməsi və kredit sistemini təş-

Fiktiv kapital formaları



Sxem 1

kil edən xüsusi təsisatların əmələ gəlməsi zəminində yaranmışdır. Fiktiv kapitalın real kapitaldan ayrılmasının texniki tərtibatı borc kapitalı əsasında baş verir, bunun nəticəsində borc kapitalı sahibinin əlində mülkiyyət titulu qalır, real olaraq bu kapitala fəaliyyətdə olan sahibkar sərəncam verir. Beləliklə, kapitalın iqtisadi və hüquqi formaları arasında sanki fərq (ayrılıq) tərtib olunur.

Bununla da fiktiv kapital mülkiyyət titulu formasında təzahür edir.

FİLİALSIZ BANK – baş kontorda əməliyyatların aparıldığı bank.

FİLLİPS ƏYRİSİ – avstriyalı iqtisadçı və statistik A.Fillipsin adı ilə bağlıdır. O, 1861-1958-ci illərdə Böyük Britaniya iqtisadiyyatında işsizlik səviyyəsi ilə nominal əmək haqqının dəyişməsi templəri arasında əks empirik asılılıq olmasını aşkar etmişdir. Fillipsin davamçıları müvafiq əyrini işsizlik səviyyəsi ilə inflyasiya sürətinin nisbətlərinə köçürmüşlər, bu isə prinsip etibarilə eyni şeydir.

İşsizlik nə qədər az olsa, inflyasiyanı manipulyasiya etməklə işsizliyi azaltmaq bir o qədər çətindir. 1970-ci illərin əvvəllərinə qədər Fillips əyrisi "alternativ siyasətlər menyusu" hesab edilirdi. Burada işsizliyin hər bir səviyyəsinə inflyasiyanın müəyyən səviyyəsi uyğun gəlirdi. Lakin 1970-ci illərdən başlayaraq empirik asılılığın pozulması müşahidə edildi: inflyasiya və işsizlik eyni vaxtda artır. Bu fenomenin izahını amerikalı iqtisadçı M.Fridman vermişdir. Onun versiyasına görə, uzunmüddətli perspektivdə bazar mexanizminin ənənəvi neoklassik sxemi doğrudur: bu halda sistem istehsalın və məşğulluğun müəyyən səviyyəsini və prinsip etibarilə inflyasiyanın istənilən sürəti ilə bir araya sığan müəyyən təbii işsizliyi nəzərdə tutan tarazlıq nöqtəsi ətrafında tərəddüd edir. Buna görə də uzunmüddətli Fillips əyrisi şaquli xəttə çevrilir.

Buradan belə nəticəyə gəlmək olar ki, iqtisadi siyasət inflyasiyaya qarşı mübarizəyə istiqamətlənməlidir. İşsizliyə qarşı mübarizə üçün onun təbii səviyyəsinə bilavasitə təsir göstərən tədbirlər səmərəli nəticə verir.

FİLM NEQATİVLƏRİNİN SIĞORTASI ÜZRƏ SİNDİKAT (*Negative Film Syndicate*) – Nyu-Yorkda yerləşir və filmlərin neqativlərinin sığortalanması ilə əlaqədar sığorta şərtlərini birləşdirir.

"FİO" (*Free and out*) – bu şərtə uyğun olaraq gəmi sahibi gəminin yüklənməsi və boşaldılması xərclərindən azad olur.

FİRMA – hüquqi şəxs statusuna malik olan, sənaye və s. sahələrdə fəaliyyət göstərən müəssisə, yaxud ticarət hüququ normalarına uyğun olaraq ölkədə yerləşən və qeydiyyatdan keçən ictimai əmək bölgüsü prosesində əlahiddələşmiş təsərrüfat vahidi. Firma eynicinsli və ya qarışıq müəssisələrin birliyi ola bilər. Firma hüquqi şəxs olmaqla özünün təsərrüfat tabeliyində və ya idarəsində xüsusi əmlakı olan və öz öhdəliklərinə görə bu əmlaka cavabdeh olan təşkilatdır. Firmanın mülkiyyəti müxtəlif formalarda – bir şəxsin, ortaqlığın və ya korporasiyanın mülkiyyəti şəklində təmsil edilə bilər.

Rəqabət şəraitində xırda və orta firmaların rolu konsernlərə xidmət etməkdən, onlara detallar, ləvazimatlar satmaqdan, xidmətlər göstərməkdən ibarət olur. Adətən, bu vəziyyət onunla izah edilir ki, xırda firmalar iri firmaların ehtiyaclarına xidmət edən xırda zavodların mülkiyyətçiləridir.

Kapitalın üfüqi xətt üzrə mərkəzləşməsi (eyni bir sahəyə aid müəssisələrin birləşməsi) şəraitində, eləcə də şaquli xətt üzrə mərkəzləşmə prosesində (istehsalın yeni-yeni mərhələlərinin şirkətlərə tabe edilməsi, onların xammal mənbələri əldə etməsi, tullantıların emal edilməsi və s.) firmaların kombinəedilməsi, diversifikasiya prosesi gedir. Diversifikasiya – firmaların başqa sahələrə nüfuz etməsi, onların əvvəlki ixtisaslaşmadan uzaqlaşması prosesidir. Bu, öz kapitallarını tətbiq etmək üçün əlverişli sahələr axtarmaq zərurətindən irəli gəlir.


Xarici ölkələrin təcrübəsi göstərir ki, elektronika və kimya, avtomobil və tikinti sahələri, dəzgahqayırma, yeyinti, toxuculuq, meşə və kağız sənayesi kimi sahələrdə mərkəzləşmə və diversifikasiya inkişaf etməkdədir. Bu halda xırda və orta firmalar az bir vaxtda diversifikasiya yoluna qədəm qoyur, bu proses onların məhsul çeşidinin genişlənməsi və başqa firmaların "udulması" prosesi ilə müşayiət olunur. Məsələn, bir növ tara (tənəkə bankalar) istehsalı üzrə ixtisaslaşma müxtəlif materiallardan hazırlanmış və ən müxtəlif məhsullar üçün nəzərdə tutulan qablaşdırma vasitələrinin istehsalı üçün genişləndirilir, şüşə məmulatının çeşidi isə plastik kütlədən konteynerlər, karton qutular, plastik kütlə və kağız istehsalına qədər genişlənə bilər. Bu halda tikinti şirkətlərinin yeni tipi yaranır. Konsern bir neçə firmanı birləşdirir (məsələn, onlardan biri şəhər rayonlarında tikinti ilə məşğul olur, ikincisi, ticarət mərkəzlərini təşkil edir, tikinti sahələrini hazırlayır, üçüncüsü, xalça, drap məmulatlar, mebel istehsal edir). Bu cür firmalar qrupunun tərkibinə maliyyə və sığorta firmaları da daxil ola bilər (sxem 1, 2).

Müasir şəraitdə firmalar arasında əlaqələr mürəkkəbləşir və yeni əlaqələr yaranır (məsələn, qiymətlər və bazarın ölçüsü barədə sazişə istehsal xarakterli əlaqələrin inkişaf etməsi ilə bağlı bəndlər əlavə edilir). Bu dəyişikliklər müxtəlif profilli mütəxəssislərin səylərini birləşdirməyi tələb edən yeni texnikanın mürəkkəbliyi, ayrı-ayrı sahələr arasında dəqiq sərhədlərin aradan qalxması, kapitalın məbləğinin artması, müəssisələr inşa edilməsinin və xammal resurslarının işlənməsinin zəruriliyi və s. kimi bir sıra amillərlə müəyyən olunur.


Firmaların birləşməsi və onlardan birinin digəri tərəfindən "udulması" prosesi iri firmaların sayının artmasını sürətləndirir. Konsernin firmanı "udmaq" barədə qərarı hazır dəyərlərə, ixtisaslı kadrlara, patentlərə malik olmaq, yeni istehsalın təşkil edilməsi məsələsini asanlaşdırmaq və satış aparatı əldə etmək arzusuna əsaslanır. Bütövlükdə bu qərar dövriyyə xərclərini azaldır. Firmanın "udulması" prosesi və qaydaları dövlətin siyasəti ilə, qanunverici hüquqi aktlarla müəyyən olunur.

FİRMA ADI – hüquqi şəxsin (kommersiya fəaliyyətini həyata keçirən kollektivin və ya fərdi sahibkarın) adı. Firma adı fir-

Firmanın cəmiyyətdə rolu



Sxem 1




Sxem 2

manın milli və ya beynəlxalq təsərrüfat dövriyyəsində fəaliyyətini fərdiləşdirməkdən ibarətdir. Firma adı ad və soyaddan ibarət olmaqla fəaliyyətin predmetini xarakterizə edə bilər və ya ixtiyari seçilə bilər. Bəzi ölkələrdə firma adı firmanın tabe olduğu orqanın tam və ya müxtəsər adı şəklində göstərilir (idarə mənsubluğu). Firma adı hüquqi şəxsin müstəsna əmlak hüququdur və məhkəmə və ya inzibati qaydada qorunur. Sənaye mülkiyyətinin mühafizəsinə dair Paris Konvensiyasında firma adının əmtəə nişanının tərkib hissəsi olub-olmamasından asılı olmayaraq konvensiyanın iştirakçıları olan bütün ölkələrdə qorunması nəzərdə tutulur.

FİRMA MALI (əmtəəsi) – əşya formasında olan məhsullarla yanaşı, intellektual, yaradıcı fəaliyyətin texniki sənədlər, elmi nəşrlər, ədəbiyyat və incəsənət əsərləri, eləcə də müxtəlif xidmətlər və işlər şəklində məhsullarını birləşdirən şərti anlayış. Firma malı (əmtəəsi) bir sıra keyfiyyətlərə, müəyyən səviyyəyə, xassələr toplusuna, tərtibata, marka adına və qablaşdırmaya malik olmalıdır. Alıcı firma malı (əmtəəni) almaqla onun keyfiyyətinə zəmanət və müəyyən müddət ərzində həmin malı dəyişdirmək hüququ əldə edir.

FİRMA MARKASI – müəyyən istehsalçının mallarını çoxsaylı başqa mallardan fərqləndirməyə imkan verən nişan, damğa. Öz firma markası sayəsində məşhurlaşmış məmulatlar bazarda möhkəm mövqelərini təmin edirlər (bax: əmtəə nişanı, ticarət markası). Marka adı (markalama) firmalar tərəfindən firmanın və firma malının (əmtəəsinin) reklam edilməsi və onların statusunun təsdiqlənməsi üçün istifadə edilən firma nişanı, marka, emblem, fərqləndirici nişan, şərti işarədir. Firmanın müxtəlif mallar və onların müxtəlif növləri üçün bir neçə nişanı ola bilər. Bəzi ölkələrdə firma markasının tərkib hissəsi olan əmtəə nişanı qanunvericiliyə görə intellektual mülkiyyət obyektlərindən biri hesab edilir. O,

Firma stili



Sxem 1

FİRMA NİŞANI – firma müxtəlif əmtəələr və onların növləri üçün bir neçə firma nişanına malik ola bilər. Firma nişanı və firmanın loqotipi "firma bloku"nu yaradır ki, burada izah edilən yazılar (malı istehsal edən ölkə, firmanın poçt ünvanı, telefonu, teleksi, faksı), eləcə də vahid kompozisiyada birləşən "firma şüarı" (firmanın texniki və kommersiya "kredosu") daxil ola bilər (bax: sxem 1).

FİRMA TİCARƏTİ – ticarət-vasitəçilik əməliyyatlarını öz hesabına və öz adından həyata keçirən firmaların iştirak etdiyi ticarət növü. Bir qayda olaraq, firmalar daimi malgöndərənlərlə və uzunmüddətli əsaslarla işləyirlər. Əməliyyatların xarakterinə və təşkilati formalarına görə firma ticarətinin müxtəlif növləri vardır. Bu növlər üzrə ixtisaslaşan aşağıdakı ticarət subyektlərini fərqləndirirlər: ticarət evləri, topdansatış və pərakəndə satış ixrac-idxal firmaları, distribütorlar, stokistlər.

Pərakəndə firma ticarəti (xarici ticarətdə) müxtəlif ixrac-idxal əməliyyatlarını müstəqil şəkildə həyata keçirən, geniş filiallar şəbəkəsinə, xaricdə törəmə strukturlar və tədarük kontorları şəbəkəsinə malik olan firmalar

tərəfindən həyata keçirilir. Xarici ticarət firması – bir qayda olaraq, istehsalat birliyinin sabit məhsul və xidmətlər nomenklaturu üzrə ixrac-idxal əməliyyatlarını, eləcə də öz nizamnaməsində təsbit olunmuş xarici iqtisadi fəaliyyətin başqa növlərini həyata keçirən struktur bölməsidir. Ayrı-ayrı hallarda xarici ticarət firmaları hüquqi şəxs ola bilər.

İxrac əməliyyatlarını həyata keçirən firmalara daxili bazarda öz hesabına aldığı malları xaricdə öz adından təkrar satan firmalar aiddir. İxrac firmaları universal və ixtisaslaşdırılmış ola bilər.

Stokistlər – idxal ölkəsində konsiqnasiya haqqında xüsusi müqavilə əsasında ixrac-idxal ticarətini həyata keçirən firmalardır. Bu cür firmaların xüsusi anbarları olur. Onlar malları öz adından və öz hesabına alır və satırlar.

"FİRMA ÜSLUBU" – firmanın məhsulunun zahiri tərtibatının ən xarakterik və sabit ünsürlərinin müəyyən vəhdətini təmin edən, bu firmanı və onun məhsullarını rəqiblərə və onların əmtəələrinə qarşı qoyan prinsiplərin məcmusu. "Firma üslubu"nun seçilməsi və onun statusu əmtəənin bazara çıxmasını və realizə olunmasını təmin edən marketinqin tərkib hissəsidir. "Firma üslubu"nun səmərəliliyi işin son nəticələrinə, onun istehlakçıya sosial-psixoloji təsirinə, istehlakçının "ünvanını" məqsədyönlü və dəqiq müəyyən etməsinə görə qiymətləndirilir.

Reklam fəaliyyətinin və "firma üslubu"nun seçiminin müxtəlif istiqamətləri mövcuddur: "firma markası reklamı"nın məqsədi konkret markalı əmtəəni fərqləndirməkdir; "fərdi istehlakçı üçün reklam" şəxsi istehlak üçün nəzərdə tutulan mallara tətbiqən istifadə edilir; "xatırlatma reklamı" (firmanın yetkinlik mərhələsində xüsusilə vacibdir), "zahiri reklam", "prestij (nüfuz) reklamı" firmanın uzunmüddətli obrazını formalaşdırmaq məqsədi güdür; "müqayisəli reklam", "qablaşdırma reklamı" bütün mümkün vasitələrdən istifadə etməklə (material, təsvir, qrafika, mətn, rəng) əmtəənin müəyyən obrazını və bu əmtəəni istehsal etmiş firmanın obrazını yaradaraq alıcıların diqqətini həmin əmtəəyə cəlb edir.

FİRMADAXİLİ PLANLAŞDIRMA – firmanın bölmələrinin fəaliyyətinin kooperasiyası üsulları sistemi. Bu sistemin köməyi ilə bütün müəssisənin, şirkətin, təşkilatın fəaliyyətinin səmərəli nəticələri əldə edilir.

Firmadaxili planlaşdırmada firmaların sahəvi xüsusiyyətlərindən, onların təşkilati-hüquqi formasından, fəaliyyətinin miqyasından və şərtlərindən, bölmələrin müstəqillik səviyyəsindən, onların yerləşmə ərazisindən və iqtisadi baxımdan əlahiddəliyindən asılı olaraq müxtəlif metodlar tətbiq edilir.

Firmadaxili planlaşdırmanın ən mühüm vəzifəsi firmanın fəaliyyətində hər bir bölmənin yerini və rolunu dəqiq müəyyən etməkdir.

Firmadaxili planlaşdırma bölmələrə rəhbərliyin idarəetmə iyerarxiyasının pillələri üzrə yuxarıdan aşağıya doğru mərkəzsizləşdirilməsinə yönəlmişdir. Bu qayda yuxarı səviyyələri aşağı səviyyələr üçün tapşırıqları konkretləşdirməkdən azad edir. Əgər bölmələr öz aralarında xammalın emal və hazır məhsulun istehsal edilməsi üçün vahid texnologiya ilə bağlıdırsa, onda firmadaxili planlaşdırma istehsal əməliyyatının əvvəlindən sonuna qədər bütün keçidləri və bölgüləri kəmiyyət, zaman və məkan baxımından əlaqələndirməlidir.


Firmadaxili planlaşdırmaya aşağıdakılar daxildir: texniki-iqtisadi planlaşdırma, firmanın fəaliyyətinin ən mühüm göstəricilərinin hesablanması, material və enerji ehtiyatlarının qənaətlə xərclənməsinin, əmək məhsuldarlığının artmasının, avadanlıqdan səmərəli istifadənin təmin edilməsi.

Firmadaxili planlaşdırma yalnız əks əlaqə ilə, ilk növbədə, operativ uçot və mühasibat uçotu ilə təmin edildiyi halda səmərəli olur (bax: sxem 1).

FİRMALARIN LİKVİDLİYİ – firmanın borcun kəmiyyətindən, eləcə də ayrı-ayrı likvid vəsaitlərindən (kassada olan nağd puldan, bankın hesabında olan pul vəsaitlərindən, asanlıqla reallaşan qiymətli kağızlardan və dövriyyə vəsaitlərindən) asılı olan öz borc öhdəliklərini vaxtında ödəmək qabiliyyəti.

FİRMANIN DAVRANIŞ NƏZƏRİYYƏLƏRİ – bu nəzəriyyələr firmanı yarımqrupların koalisiyası şəklində tədqiq edir, həmin qrupların vəzifələri əvvəldən bir-birindən fərqlənir. Təşkilatlanma nəzəriyyəsi qərarlar qəbul edilməsi qaydalarının və ətraf mühitin əks təsirinə görə bu qaydaların dəyişdirilməsi üsullarının mənimsənilməsi prosesini təhlil etməyə kömək edir. Məsələn, hərrac və öyrənmə prosesinin nəticəsi kimi məqsədlər nəzərdən keçirildikdə hər bir qrup müəyyən iddialara malik olur və onları təmin etməyə çalışır. Bu münaqişə əlavə tədiyələrin paylanması və qazanılmış təcrübə nəzərə alınmaqla iddiaların səviyyələrinə yenidən baxılması yolu ilə həll edilir.

Firmadaxili planlaşdırma



Sxem 1

Bu istiqamətin əsas nümayəndələri C.Q.Març, H.Saymon və R.M.Sayert hesab edilir. Onların elmə əsas töhfəsi bu olmuşdur ki, firmanın daxili təşkilinə, xüsusən çox populyar olan yanaşmanın müqabilində firmanın daxili effektivliyinə diqqəti cəlb etmişlər. Populyar yanaşmanın əsas problemi allokasiya effektivliyi, yəni resursların ən səmərəli kombinasiyalarını əlaqələndirmək yolu ilə məhsulların ən yaxşı və ya optimal kombinasiyasını istehsal etmək məsələsidir.

Bu nəzəriyyələr belə bir inama əsaslanaraq işlənib hazırlanmışdır ki, müasir kapitalizmin xüsusiyyəti istehsal sektorunda iri korporasiyaların üstünlük təşkil etməsidir. Həmin korporasiyalarda mülkiyyət və idarəetmə səhmdarlar və idarəçilər arasında bölünmüşdür. Bu müddəaya görə əgər kapital bazarları qeyri-mükəmməl və məhsul bazarları rəqabətsiz olarsa, idarəçilər mənfəətin maksimallaşdırılmasından fərqli məqsədlərə can atmaq imkanı əldə edəcəklər. Firmanın idarə edilməsi nəzəriyyəsində xüsusi məqsədləri formalaşdırmaq üçün çox vaxt idarəçilərin faydalılığı funksiyalarından istifadə edirlər. Firmanın fəaliyyəti yalnız müəyyən məhdudiyyətlər daxilində müəyyən göstəricinin maksimallaşdırılması zamanı proqnozlaşdırılır. Məsələn, firmaların artım nəzəriyyələrində belə bir fərziyyə vardır ki, menecerlər faydalılıq funksiyasını maksimallaşdırmağa çalışırlar. Bu funksiyanın arqumentləri şirkətin səhminin bazar qiymətinin artması və bazar qiymətinin nominala nisbətidir. Bu cür maksimallaşdırma kapital bazarında irəli sürülən məhdudiyyətlər şəraitində baş verir. Həmin məhdudiyyətlərə görə firmanın səhmlərinin dəyərinin onların nominal qiymətinə nisbəti ən təhlükəli firmaeyderin bu şirkəti almağa cəhd göstərəcəyi təqdirdə həmin nisbətdən böyük və ya ona bərabər olmalıdır.

Firmanın idarə edilməsinə dair əsas nəzəriyyələr satışın maksimallaşdırılması haqqında hipotez (U.Baumol), idarəçilərin fəaliyyət azadlığı modeli (O.E.Uilyamson) və firmanın artım nəzəriyyəsidir (R.Merris).

FİRMANIN İNFLYASİYASININ SÜRƏTLƏNMƏSİ NƏZƏRİYYƏSİ (ing. *Accelerationist model of inflation*) – bu nəzəriyyəyə görə, inflyasiya sürətinin dəyişməsi ölkədə işsizliyin səviyyəsinə və həmin dövlətdə istehsalın real həcminə ciddi təsir göstərir.

Firmanın inflyasiyasının sürətlənməsi nəzəriyyəsi bunu əsas götürür ki, inflyasiyanın sürətləndiyi və ya ləngidiyi dövrlərdə iqtisadi sistemin inkişafı inflya-

siyanın sabitləşdiyi dövrlərdə olduğundan fərqli şəkildə cərəyan edir.

Bu nəzəriyyə inflyasiya sürətinin dəyişmələrinə (inflyasiya proseslərinin sürətinə) diqqəti cəlb etdiyinə görə o, iqtisadi fikir tarixinə "İnflyasiyanın sürətlənməsi nəzəriyyəsi" adı ilə daxil olmuşdur.

İnflyasiyanın sürətlənməsi nəzəriyyəsi üç başlıca prinsipə əsaslanır:

1. Fillips əyrisi.
2. İstehsalın real həcmi ilə işsizlik səviyyəsi arasında müəyyən nisbət olmasını ifadə edən Ouken qanunu.
3. Kredit-pul siyasətinin taktiki məqsədi olan nominal milli gəlir. Nominal milli gəlirin artmasının müəyyən sürətinə istehsalın real həcminin və inflyasiyanın artım sürətinin hər hansı şəkildə əlaqələndirilməsi yolu ilə nail olmaq mümkündür.

FİRMANIN REPUTASİYASI – daimi müştərilər dairəsi, ticari marka, personalın ixtisas dərəcəsi, istehsal üsulu, nou-hau, müəlliflik hüquqları, işin səmərəli təşkili, fəaliyyət atributları.

FİRMANIN UĞURUNUN STRATEJİ AMİLLƏRİNİN TƏHLİLİ (ing. *analysis of strategies key factor*) – şirkətin həmin sahənin başqa müəssisələri ilə müqayisədə yüksək rəqabət qabiliyyəti səviyyəsinə çatmasına kömək edən amillərin təhlili.

Aşağıdakı amilləri fərqləndirirlər:

– malın və ya xidmətin miqdarı;
– analoji malların və xidmətlərin qiymət səviyyəsi;
– xidmətin səviyyəsi və keyfiyyəti;
– alıcıların ehtiyaclarının daha tam və dərindən başa düşülməsi.

Firmanın rəqabət qabiliyyətinin strateji faktorlarının tərkibi və strukturu onun bazarda müəyyən seqmentə mənsub olması ilə müəyyənləşir. Bu mərhələnin nəticəsi müəssisənin potensialının parametrlərinin (güclü cəhətlərinin) müəssisəni əhatə edən mühitin aşkar edilmiş imkanlarına (bazar şanslarına) müvafiqliyini təmin edən amillərin əsaslandırılmış siyahılarıdır.

FİSK (lat. *fiscus*) – dövlət xəzinəsi.

FİSKAL İNHİSAR – vasitəli vergiqoyma formalarından biri. Büdcə gəlirlərini almaq məqsədilə dövlətin istehsalat və hər hansı kütləvi istehlak mallarının satılması üzərində müstəqillik hüququ.


FİSKAL SİYASƏT (lat. *fiscus* – fisk; Qədim Romada "imperator xəzinəsi" sözlərindən götürülüb) – dövlətin müəyyən sosial-iqtisadi məqsədlərə nail olmaq üçün hökumət xərclərinin və gəlirlərinin tənzimlənməsi ilə əlaqədar maliyyə tədbirlərinin məcmusu. Fiskal siyasətin işlənib hazırlanmasına və sistematik şəkildə həyata keçirilməsinə ehtiyac XX əsrin ikinci yarısında xüsusilə güclənmişdir. Bu dövrdə dövlət maliyyəsi sabit iqtisadi artımın təmin edilməsində mühüm rol oynamağa başlamışdır. Fiskal siyasət iqtisadiyyatın maliyyə tənzimlənməsi üsulu olaraq vergitutma və dövlət xərcləri kimi güclü rıçaqların köməyi ilə həyata keçirilir.

Fiskal siyasətin aşağıdakı növləri vardır:

– diskresiyalı fiskal siyasət;
– diskresiyalı olmayan fiskal siyasət.

FİŞER ASILILIĞI – gözlənilən inflyasiya səviyyəsinin artması nəticəsində nominal faiz dərəcələrinin artması meyli yaranacağını müəyyənləşdirən asılılıq. Faiz dərəcəsinin nominal qiymətinin inflyasiya səviyyəsindən asılılığı. Fişer effekti – qısamüddətli və uzunmüddətli dövrlərdə pul bazarının davranışında Amerika iqtisadçısı Fişer tərəfindən aşkar edilmiş prinsipial fərq. Sonuncu halda pula tələbatın qısamüddətli dövr üçün səciyyəvi olan faiz dərəcəsindən asılılığının xarakteri itirilir. Fişer tənliyi – əsası amerikalı iqtisadçı və riyaziyyatçı İrvinq Fişer tərəfindən qoyulmuş pulun kəmiyyət nəzəriyyəsinin əsas tənliklərindən biridir (bax: Pulun kəmiyyət nəzəriyyəsi).

FİŞER İRVİNQ (1867-1947) – görkəmli amerikalı iqtisadçı. Riyazi iqtisadiyyat, statistik



riyaziyyat, qiymət nəzəriyyəsi, "kapital və faiz nəzəriyyəsinə" dair əsərlərin müəllifidir. Fişer 1867-ci ildə Nyu-York şəhərində anadan olmuşdur. 1898-ci ildə Yel Universitetində riyaziyyat üzrə bakalavr, daha sonra 1901-ci ildə iqtisadiyyat üzrə magistr dərəcəsi almışdır. 1892-ci ildə "Dəyər və qiymət nəzəriyyəsinin riyazi araşdırılması" mövzusu üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1935-ci ildə təqaüdə çıxmışdır. O, Reminqton Ranq fondunun, Yevgenika üzrə

Araşdırmalar Mərkəzi Assosiasiyasının banisi və prezidenti vəzifəsində, Pulun Stabilliyi Üzrə İqtisadçılar Cəmiyyətində, Amerika Statistika Assosiasiyasında və onlarca digər şirkət və agentliklərdə çalışmışdır.

1906-cı ildə nəşr olunan "Kapitalın təbiəti və gəliri" onun şah əsəri hesab edilir. Fişer "kapitalı" xidmətləri generasiya edən ehtiyat (torpaq, maşın, bina, xammal təbii resurslar) kimi, "gəliri" isə bu həcmi üstələyən, bu ehtiyatı yaradan və əvəz edən axın kimi müəyyən etmişdir. O, həmçinin, kapitala gələcək gəlirlərin axını kimi baxmışdır. Gəlirin dəyərini kapital yox, məhz gəlir müəyyən edir, çünki iqtisadi fəaliyyət gələcəyə istiqamətlənmişdir. Buradan belə çıxır ki, kapital istehsalın yeganə amilidir və bütün bölüşdürülmüş gəlir faizdən təşkil olunmuşdur. Ona görə də, əmək haqqına insan kapitalına faiz kimi baxılır. Milli hesablar sisteminin müasir şəkli, Fişer ənənələrini, yəni milli gəlirin ölçülməsində investisiyalardan istifadəni şüurlu şəkildə qəbul etmir. Amma praktiki olaraq, onun baxışlarının bir çoxu müasir iqtisad elmi tərəfindən qəbul edilmişdir.

"Keynsə qədər 100 böyük iqtisadçı" kitabında göstərilir ki, Fişerin üç əsəri pul islahatları proyektinin formalaşmasına həsr edilmişdi: "Dolların stabilləşdirilməsi" (1920), "Ştamp olunmuş vərəqlər" (1933), "Yüz faizli pullar" (1935). "Dolların stabilləşdirilməsi" qiymət indeksinin müsbət istiqamətə dəyişməsi və uyğun olaraq rəsmi qiymətlərlə qızıla təsbit etmək yolu ilə, pulun alıcılıq qabiliyyətinin stabilləşdirilməsi sxemini özündə ehtiva edir. Kitab, həmçinin, banklarda depozitlərin cəlb olunmasını artırmaq yolu ilə pulların "corabda" yığılmasına təsir etmək məqsədini güdürdü. "Yüz faizli pullar" əsərində işgüzar tsikllərin başlıca olaraq bank kreditləri və bankların şəxsi ehtiyatlarının "pulyaratma" istəyi hesabına formalaşması ideyası irəli sürülür. Təklif isə qəbul olunmuş depozitlərə yüz faizli ehtiyat dərəcələri yaratmaq probleminin həll olunmasına istiqamətlənmişdir. Fişer bu ideyanı bank işində köhnə hesab etdiyini bildirmiş və xüsusi olaraq, Çikaqo məktəbinin iqtisadçılarının (Henri Saymon, Frenk Hayt və Pol Duqlas da daxil olmaqla) iki il eynilə təqdim etdikləri sxemə istinad etmişdir. Bütün bunlar bu gün də, bir çox iqtisadçılar tərəfindən dəstəklənir.

Amma Fişer heç bir məktəb yaratmamışdı. Bir çox tələbələrinin olmasına baxmayaraq, onun yaradıcılığını davam etdirən davamçıları olmamışdır. Onun bir çox əsərləri qəribə insan aurası yaratdığından, sonrakı əsərləri bəyənilməmişdir. Böyük böhran dövründə Fişer öz verdiyi proqnozlarda daha diqqətli olsaydı, onun qazanılmış reputasiyası iki onillik ərzində o səviyyədə azalmazdı.

FİZİKİ BÖLGÜ – materialların, komplektlərin və hazır malların istehsalçıdan bölgü kanalını təşkil edən vasitəçilərə, onlardan isə son istehlakçılara fiziki hərəkətinə aid olan müəyyən fəaliyyət növlərinin yığımı.

FİZİKİ ŞƏXSLƏRİN GƏLİR VERGİSİ – fiziki şəxslərin gəlirlərinin bütün növlərindən birbaşa vergi şəklində ödənilən əsas məcburi tədiyə.

Gəlir vergisi yalnız vergi tutulmayan minimum məbləği aşan gəlirlərdən tutula bilər. Gəlir vergisi proqressiv vergilərdən biridir. Bütün il ərzində gəlirin kəmiyyəti artdıqca bu verginin dərəcəsi də artır. Azərbaycan Respublikasında pensiyalar gəlir vergisi tutulmasından azad edilir. Vergi tutulmalı gəliri müəyyən etmək üçün faktiki əldə edilmiş gəlirdən qanunla müəyyən edilən güzəştlərin məbləği çıxılır. Bu verginin ödəyiciləri qismində Azərbaycan Respublikasının ərazisində daimi yaşayış yerləri olan və olmayan fiziki şəxslər çıxış edir. Azərbaycan Respublikasında daimi yaşayış yeri olan vətəndaşlardan vergitutma obyekti onların təqvim ilində Azərbaycan Respublikası iqtisadi zonasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi məcmu gəlirdir.

Gəlir vergisi rezident və qeyri-rezident fiziki şəxslərin muzdlu işdən və muzdlu işə aid olmayan fəaliyyətlərindən əldə etdikləri gəlirlərindən tutulur. Yəni rezident və qeyri-rezident fiziki şəxslər hər hansı müəssisədəki daimi və ya daimi olmayan (müqavilə üzrə) işlərindən aldıqları əmək haqlarından, eyni zamanda sahibkarlıq və qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlı əldə etdikləri gəlirlərindən gəlir vergisini ödəyirlər. Birbaşa vergi olan gəlir vergisi tutulma üsuluna görə bilavasitə mənbədən tutulan vergilərə aiddir.

Cədvəl 1

Azərbaycan Respublikasında fiziki şəxslərin gəlir vergisinin dərəcələri (1992-2011-ci illər ərzində)

İllər	Gəlir vergisi
1992	12-55
1993	12-55
1994	12-55
1995	12-55
1996	12-40
1997	12-40
1998	12-40
1999	12-40
2000	12-35
2001	12-35
2002	12-35
2003	12-35
2004	14-35
2005	14-35
2006	14-35
2007	14-35
2008	14-35
2009	14-35
2010	14-30
2011	14-30

Yəni məvacibi alan şəxsə bu məbləğ ödənilənədək ondan ödəmə mənbəyində gəlir vergisi tutulur. Hazırda respublikamızda gəlir vergisi 14-30 faiz və 20 faiz dərəcə ilə ödənilir. Belə ki, aylıq gəliri 2000 manatadək olan fiziki şəxslər 14 faiz dərəcə ilə, 2000 manatdan artıq olan şəxslər isə gəlirlərinin 2000 manatadək olan hissəsindən 14 faiz, 2000 manatdan artıq olan hissəsindən 30 faiz dərəcə ilə gəlir vergisi ödəyirlər. Məsələn, əgər fiziki şəxsin aylıq gəliri 2500 manatdırsa, onun gəlir vergisi 430 manat təşkil edəcəkdir (2000×14%+500×30% = = 280+150) (bax: cədvəl 1).

Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən isə 20 faiz dərəcə ilə gəlir vergisi tutulur.

Eyni zamanda Vergi Məcəlləsinin 102-ci maddəsi ilə fiziki şəxslərin əldə etdikləri gəlirlərə bir sıra güzəşt və azadolmalar müəyyən edilmişdir.


FİZİOKRATLAR (yun. *physis* – təbiət, *kratos* – hakimiyyət) – XVIII əsrdə yaranmış iqtisadi təlim. Başlıca ideyasını təbii ahəngdən qaynaqlanan liberalizm təşkil edir. Sərvətin mənbəyi olaraq əkinçilikdə sərf olunan əməyi qəbul edirdilər. Görkəmli nümayəndələri F.Kene, A.Türqo, V.Mirabo.

"FLƏŞ" QİYMƏTLƏRİ (ing. *flash* – alışma) – qiymətli kağızların məzənnələri haqqında birja məlumatları 5 dəqiqə və ya daha artıq gecikən zaman tikerin (teleqraf elektron aparatın) lentində və displeyin ekranında ən mühüm səhmlərin müəyyən ədədlə (məsələn, 30) işarə edilmiş cari qiymətləri.

FLUKTUASİYA – iqtisadi piramidanın titrəyişi, dalğalanma, dəyişmə.

FOB (ing. *free of board* – gəminin bortunda azaddır) – beynəlxalq ticarətdə malın daşınması və ödənilməsi şərti. Bu şərtə görə satıcı (ixracatçı) malı öz hesabına gəminin və ya digər beynəlxalq nəqliyyat vasitəsinin göyərtəsinə çatdırır, eləcə də yüklənmə bitənə qədər onun sığortalanması xərclərini öz üzərinə götürür. Satıcı (ixracatçı) alıcını nəqliyyat lisenziyası ilə təmin etməli, ixrac vergilərini və rüsumlarını ödəməlidir. Mal gəminin göyərtəsinə çatdırıldıqdan sonra bütün xərclər, o cümlədən dəniz sığortası üzrə xərclər alıcının üzərinə düşür. Mal göstərilmiş yükləmə limanında gəminin məhəccərindən içəri keçdikdə satıcı daşıma üzrə öz öhdəliyini yerinə yetirmiş olur. Malların korlanması və ya xarab olması üzrə öhdəliklər bu andan alıcıya keçir. FOB şərtində tələb olunur ki, malın ixrac rəsmiləşdirilməsini satıcı yerinə yetirsin.

FOB QİYMƏTİ – gömrük statistikasının göstəricilərinə görə tərtib olunan ticarət balansında ixrac, eləcə də ölkənin tədiyə balanslarında ixracatdan daxilolmalar FOB qiymətində ifadə olunur.



FOGEL (FOGEL) ROBERT UİLYAMS (1926) – amerikalı iqtisadçı, 1993-cü ildə "Yeni iqtisadi tarix sahəsində işlərinə görə" (D.Nort ilə birlikdə) iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür.



Kornell Universitetində (İtaka şəhəri, Nyu-York ştatı), Kolumbiya Universitetində və C.Hopkins Universitetinin aspirantura-sında təhsil almışdır. Çikaqo (1965-1975) və Harvard (1975-1981) universitetlərinin professoru. 1981-ci ildən Harvard Universitetinin əhali iqtisadiyyatı mərkəzinin direktoru olmuşdur.

Fogelin iqtisad elminə töhfələri iqtisadi inkişafın qanunauyğunluqlarını anlamaq məqsədilə tarixi prosesi qiymətləndirmək üçün statistik təhlilin kəmiyyət metodlarından və riyazi modelləşdirmədən istifadə edilən "Yeni iqtisadi tarix" (kliometriya) sahəsində ən yeni tədqiqatları ilə bağlıdır. Fogel nəqliyyat şəbəkəsinin, xüsusilə dəmir yollarının, köləlik təsisatının (sisteminin) inkişafının və tarixi demoqrafiyanın öyrənilməsi ilə məşğul olmuş, bu amilləri onların ABŞ-ın iqtisadi inkişafında rolunun qiymətləndirilməsi baxımından təhlil etmişdir. Fogelin müasir iqtisadi tarix nəzəriyyəsi, sosiologiya, statistika və ehtimal nəzəriyyəsi elmlərinin qovuşmasında görülmüş işlərinin diqqəti cəlb edən cəhəti ondan ibarətdir ki, bir qayda olaraq, bu işlərdə iqtisadi tarix hadisələrinə qeyri-trivial yanaşmalar və iqtisadi təhlilin ən yeni metodları bazasında tarixi inkişafın alternativ variantları təklif edilir.

Fogelin "Dəmir yolları və Amerikada iqtisadi inkişaf: ekonometrika tarixinə dair oçerklər" adlı ilk sanballı işində ("Railroads and American Economic Growth: Essays in Econometric History", 1964) XIX əsrdə Amerikanın iqtisadi inkişafında dəmir yollarının dominant rol oynaması barədə o vaxta qədər mübahisəsiz hesab edilən müddəaya şübhə ilə yanaşmışdır. Fogel müasir tədqiqat texnologiyalarından, o cümlədən əhalinin

siyahıya alınması barədə informasiyanın saxlandığı kompüter məlumat banklarından, hərbi hesabatlardan, firmaların maliyyə hesabatlarından, vergilər barədə məlumatlardan, kilsə kitablarından və başqa mənbələrdən istifadə etməklə ABŞ-ın nəqliyyat sisteminin alternativ variantını (kanallar, atların dartı qüvvəsi və s.) təqdim edərək göstərmişdir ki, XIX əsrdə kommunikasiya vasitəsi kimi dəmir yollarının və bütövlükdə dəmir yolu tikintisinin milli gəlirin artmasına təsiri çox cüzi olmuş və 3%-dən də az təşkil etmişdir. Fogelin gəldiyi əsas nəticə bundan ibarət olmuşdur ki, bəzi iqtisadi amillər ölkənin iqtisadi tarixini müəyyən edə bilməz.

Fogelin "Çarmıxa çəkilmiş zaman: Amerikada quldarlıq iqtisadiyyatı" ("Time on the Cross: The Economics of American Negro Slavery", 1974) adlı ikicildlik əsəri geniş rezonansa səbəb olmuşdur. Müəllif bu əsərində köləliyin iqtisadi səmərəliliyini sübut etmiş, ABŞ-da köləliyin tənəzzülünün səbəblərini isə siyasi və etik amillərlə əlaqələndirmişdir. XX əsrin 80-90-cı illərində Fogelin tədqiqatları əsasən iqtisadi demoqrafiyaya, o cümlədən qidalanmanın dəyişməsi ilə sağlamlıq arasında və digər tərəfdən iqtisadi, sosial və demoqrafik proseslər arasında qarşılıqlı əlaqənin öyrənilməsinə həsr edilmişdir. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə insan amilinə kapital qoyuluşunun öyrənilməsi əsasən təhsilin rolu üzərində cəmləşdiyi halda, inkişaf etmiş ölkələrin iqtisadiyyatı üçün insan amilinə qoyulan investisiyaların səmərəliliyini artıran amillər arasında qidalanmanın, səhiyyənin, sanitar normaların yaxşılaşması kimi amillər də vardır. Fogelin bu sahədə apardığı, XVIII və XIX əsrlərdə müxtəlif ölkələrin (ABŞ, Fransa, İngiltərə, İsveç) sakinlərinin qidalanma normaları, ölüm hallarının sayı, insanın səhhəti barədə statistik məlumatların (o cümlədən insanın çəkisi və boyu barədə antropoloji məlumatların) təhlilinə əsaslanan tədqiqatlarında müasir iqtisadi tərəqqinin və millətlərin rifahının səbəblərini və nəticələrini bu mövqedən anlamağa cəhd göstərilir.

FOKUS-QRUPLAR – 6-8 alıcını birləşdirən qruplardır ki, şirkətin marketinq fəaliyyətinin ayrı-ayrı aspektlərinin müzakirəsi üçün tərtib olunur.

FON NEYMAN-MORQENŞTERNİN FAYDALILIQ NƏZƏRİYYƏSİ – C.Fon Neymanın (1903-1957) və O.Morqenşternin (1902-1977) şərəfinə bu cür adlanmış və riskli vəziyyətlərdə tətbiq edilən tələb nəzəriyyəsinə yanaşma.

Bu yanaşma aşağıdakı aksiomlara əsaslanır:

– bütün alternativlər üstünlüklərin və ya biganəliklərin predmetidir (tamlıq);

– üstünlüklər tranzitivlik xassəsinə malikdir;

– əgər X hadisəsinin ehtimalı P-yə, D hadisəsinin ehtimalı isə $(1-P)$-yə bərabərdirsə və bu hadisələrin hər ikisi yəqindirsə, onda $P \times X + (1-P) \times D$ lotereyası $P \times Y + (1-P) \times D$ lotereyasından üstün tutulur;

X Y-dən, Y isə Z-dən üstündürsə, onda elə ehtimal p^* vardır ki, istehlakçı $p^* \times X$ faydalılığını Y-in yəqin qiymətində (kəsilməzlik) $(1-p^*) \times Z$ faydalılığına bərabər hesab edir.

İndi (X) hadisəsinin ən yaxşı nəticəsinə müəyyən qiymət, məsələn, 100 qiyməti, (Z) hadisəsinin ən pis nəticəsinə isə başqa bir ixtiyari qiymət, məsələn, 1 qiyməti mənimsədək. $p^* \times X + (1-p^*) \times Z$ lotereyasını Y-nin yəqin qiyməti ilə müqayisə edək. Bu halda Y-nin faydalılığı (X və Z-nin ixtiyari qiymətlərini yerinə qoymaqla): $P \times 100 + (1-p^*) = 90 \times p + 1$ olacaqdır.

Əgər p^* məlum olarsa, bu ifadənin dəqiq qiymətini tapmaq olar. Deməli, alınmış faydalılıq indeksi kəmiyyət (kardinal) xarakterlidir. Bu nəzəriyyə onu da təsdiqləyir ki, istehlakçıların davranışı onların gözlənilən faydalılığını maksimallaşdırmağa yönəlmişdir. Bu faydalılıq ehtimallarına görə çəki əmsallarına vurulmuş ayrı-ayrı faydalılıqların cəmi kimi göstərilir.

FOND (lat. *fundus* – əsas, özül) – üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxslər tərəfindən könüllü əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai-faydalı məqsədləri daşıyan qeyri-hökumət təşkilatı. Ölkədə vətəndaşlar və (və ya) hüquqi şəxslər tərəfindən könüllü əmlak payları əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni və digər ictimai-faydalı məqsədlər güdən, üzvlüyü olmayan qeyri-kommersiya təşkilatıdır, eyni zamanda, dövlətin, müəssisənin hər hansı bir məqsədi üçün nəzərdə tutulmuş pul vəsaitləri və ya maddi dəyərlərdir. Fondun təsisçiləri tərəfindən ona verilmiş əmlak fondun mülkiyyətidir. Təsisçilər fondun öhdəliklərinə görə məsuliyyət daşımır, fond isə öz təsisçilərinin öhdəliklərinə görə cavabdeh deyildir. Fond yaradılarkən onun qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün zəruri olan və bu məqsədlərə müvafiq olan sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. Fond sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyətləri yaratmaq və onlarda iştirak etmək hüququna malikdir. Fond açıq səhmdar cəmiyyətinin müşahidə şurasının funksiyalarını qəyyum şurası kimi yerinə yetirə bilər.

Fondun nizamnaməsi onun orqanları tərəfindən yalnız o halda dəyişdirilə bilər ki, nizamnamənin bu qaydada dəyişdirilməsinin mümkünlüyü onun özündə nəzərdə tutulmuş olsun. Əgər nizamnamənin dəyişməz şəkildə saxlanması fondun təsis edildiyi dövrdə qabaqcadan bilinməsi mümkün olmayan nəticələrə gətirib çıxarırsa, lakin nizamnamənin dəyişdirilməsinin mümkünlüyü nizamnamənin özündə nəzərdə tutulmamışdırsa, yaxud səlahiyyətli şəxslər nizamnaməni dəyişmirsə, fond orqanlarının və ya onun fəaliyyətinə nəzarəti həyata keçirmək üçün müvəkkil edilmiş orqanın ərizəsinə əsasən nizamnaməyə dəyişikliklər edilməsi hüququ məhkəməyə məxsusdur.


Fondun ləğv edilməsi barədə qərar bu işdə marağı olan şəxslərin ərizəsinə əsasən yalnız məhkəmə tərəfindən qəbul edilə bilər. Fond ləğv edildiyi halda onun kreditorlarının tələbləri təmin edildikdən sonra qalmış əmlak fondun nizamnaməsində göstərilmiş məqsədlərə yönəldilir.

FOND AKTİVLƏRİ – fondu formalaşdıran əmlak. Onun tərkibinə maliyyə alətləri (qiymətli kağızlar), depozitlər, pul vəsaitləri, debitor borcu daxildir.

FOND BAZARI – qiymətli kağızlarla ticarətin təşkil olunmuş bazarı.


FOND BİRJASI – 1. Daimi fəaliyyət göstərən, qiymətli kağızların alınıb-satıldığı bazar. 2. Fond birjasında iqtisadiyyata uzunmüddətli investisiyalar və dövlət proqnozlarının maliyyələşməsi üçün vəsaitlər səfərbərliyə alınır, səhmdar cəmiyyətlərin səhmlərinin, istiqrazlarının, dövlət istiqrazlarının alqı-satqısı baş verir (Fond birjasının fərdi xüsusiyyətləri və yaranması mərhələləri sxem 1 və 2-də verilmişdir). Əldə olunan gəlirlə (divident və ya faiz şəklində), borc faizinin səviyyəsi, tələb və təklifin nisbəti ilə müəyyən olunan birjada tədavül olunan qiymətli kağızların məzənnəsi müəyyən edilir. Qiymətli kağızların məzənnəsinin hərəkətinin icmal göstəricilərinə səhmlərin indeksləri aiddir ki, onların ən məşhuru Nyu-York Fond Birjasında qiymətləndirilən ən iri inhisarların səhmlərinin məzənnəsini əks etdirən Dou-Cons indeksidir. ABŞ və Böyük Britaniyadakı fond birjalarında birja komitəsi seçilir ki, burada birja ticarətinə qiymətli kağızların buraxılması haqqında qərarı qəbul edən xüsusi komissiya təşkil olunur. Fond birjasında 10 mindən ibarət olan iri partiyalarla səhmlərin satışı yayılmışdır. Qərb ölkələrinin fond birjalarının dövriyyəsi ildə on trilyonlarla dollar təşkil edir. Dünyada ən böyük fond birjaları Nyu-York, London, Tokio, Frankfurt, Paris fond birjalarıdır. Fond birjası fiktiv kapitalın inteqrasiya edilmiş sisteminin mühüm tərkib hissəsidir ki, bu da özündə həmçinin fyuçers birjalarını, valyuta birjalarını, qiymətli kağız-

Bakı Fond Birjasının (BFB) ümumi dövriyyəsində korporativ və dövlət sektorlarının xüsusi çəkisi



Qrafik 1

2010 və 2009-cu illərin yanvar-dekabr ayları üzrə BFB-nin birja dövriyyəsinin strukturu



Qrafik 2

ların birjadankənar dövriyyəsinin müxtəlif formalarını ehtiva edir. Fond birjası xüsusi səhmdar cəmiyyətlərin (ABŞ, Yaponiya, Böyük Britaniya) və ya dövlət institutlarının təşkilati-hüquqi formasına malikdir.

FOND İNDEKSİ – qiymətli kağızların müəyyən dəstinin hesabı və ya həndəsi orta məzənnələri kimi hesablanan indeks, fond konyunkturasının hərəkətinin sintetik göstəricisi (bax: cədvəl 1, 2).

FONDLA SİLAHLANMA – müəssisə işçilərinin əsas istehsal fondları ilə təchiz olunma dərəcəsini səciyyələndirən göstərici. Əsas istehsal fondlarının orta illik dəyərinin işçilərin və fəhlələrin siyahı üzrə orta illik sayına, bəzi hallarda isə ən çox fəhlə işləyən növbədə fəhlələrin sayına nisbəti kimi hesablanır. Statistikada fondtutumu və əmək məhsuldarlığı nəticə göstəricisi (hasil) kimi hesablanır.

FONDTUTUMU – istehsal edilmiş məhsulun hər vahidinə düşən əsas istehsal fondlarının (əsas kapitalın) dəyəri. Fondtutumu əsas istehsal fondlarının balans dəyəri üzrə (köhnəlmə nəzərə alınmadan) həm orta illik göstərici kimi, həm də müvafiq ilin sonu üçün hesablanır. Bu halda makroiqtisadi səviyyədə ÜDM və istehsal edilmiş milli gəlir barədə məlumatlardan, sahələr səviyyəsində isə ümumi, əmtəəlik və xalis məhsul barədə məlumatlardan istifadə edilir.

Məhsulun fondtutumunun iki növü fərqləndirilir – birbaşa fondtutumu və tam fondtutumu. Birbaşa fondtutumu müəyyən sahənin əsas fondlarının istehsalın pul ifadəsində həcminə nisbətidir. Onun qiyməti istehsalın və tətbiq edilən əmək vasitələrinin spesifikliyindən, buraxılan məhsulun və qiymətyaranmanın xarakterindən asılıdır. Adətən, hasilat sənayesində, elektrik və istilik enerjisi istehsalında birbaşa fondtutumu ən yüksək, yüngül və yeyinti sənayesi sahələrində isə ən aşağı olur. Tam fondtutumu həm müəyyən sahənin məhsullarının istehsalı ilə bilavasitə məşğul olan əsas fondların, həm də qonşu sahələrdə fəaliyyət göstərən, bu sahənin məhsullarının istehsalında dolayı yolla iştirak edən fondların məcmusudur.

Fondtutumu – əsas fondlardan istifadənin səmərəliliyinin mühüm göstəricisidir. Onun azalması ictimai istehsalın səmərəliliyinin artmasına dəlalət edir, çünki eyni məhsulun hazırlanması əsas fondların daha az sərfi ilə təmin edilir, əsaslı vəsait qoyuluşlarına qənaət olunur. Bundan ötrü istehsal güclərinin artırılmasının ən mütərəqqi istiqamətləri həyata keçirilməlidir. Bu istiqamətlər arasında fəaliyyətdə olan müəssisələrin əsaslı şəkildə yenidən qurulması və onların texniki təchizatının yeniləşdirilməsi, istehsal güclərinin hər vahidinə düşən maşın və avadanlıqların dəyərinin aşağı salınması, onların işinin növbəliliyinin artırılması, boşdayanmaların azaldılması və istehsal


aparatının strukturunun və onlardan istifadənin yaxşılaşdırılması tədbirləri, fondtutumuna nisbətən əks kəmiyyət olan fondveriminin artırılması xüsusi yer tutur.

FONDTUTUMU ƏMSALI – əsas fondların orta illik dəyərinin istehsal olunmuş məhsul və xidmətlərin həcminə olan nisbətini əks etdirən göstərici. İstehsal olunmuş məhsul (xidmət) vahidinə nə qədər əsas fond düşdüyünü göstərir. Hesablama Kb.f = F/X düsturu ilə müəyyən edilir.

Burada Kb.f – birbaşa fondtutumu əmsalı; F – əsas fondların orta illik dəyəri; X – istehsal olunmuş məhsulun (xidmətin) həcmidir. Əsas fondların sahələrarası balansı məhsul və xidmətlərin istehsal və bölüşdürülməsinin sahələrarası balansı əsasında hesablanır.


FONDVERİMİ – müəyyən dövr ərzində istehsal nəticələri göstəricisinin (məhsul və xidmətlərin dəyərinin pul şəklində ifadəsinin) həmin dövr ərzində əsas fondların (əsas kapitalın) orta illik tam dəyərinə nisbəti. Fondverimi makroiqtisadi səviyyədə, eləcə də sahələr, birliklər və müəssisələr səviyyəsində əsas fondlardan istifadənin səmərəliliyinin ən mühüm göstəricisidir. Makroiqtisadi səviyyədə fondveri-

Fond birjasının fərqli xüsusiyyətləri



Sxem 1

Fond birjalarının yaranması məqsədləri



Sxem 2


Cədvəl 1

Korporativ qiymətli kağızlar üzrə Bakı Fond Birjasında (BFB) keçirilmiş hərracların müqayisəli cədvəli (yanvar-dekabr, 2010)

BAZARIN SEQMENTLƏRİ	2010 (31 dekabr)		2009 (31 dekabr)		FAİZ NİSBƏTİ
	Əqdlərin həcmi, AZN	Əqdlərin sayı	Əqdlərin həcmi, AZN	Əqdlərin sayı	
Dİ (AR MN) – (yerləşdirmə)	359 507 799,23	160	503 008 269,17	266	71,47%
Dİ (AR MN) – (təkrar bazar)	96 647 098,48	54	158 078 888,58	92	61,14%
Dİ bazarı, cəmi	**456 154 897,71**	**214**	**661 087 157,75**	**358**	**69,00%**
Notlar (AR MB) – (yerləşdirmə)	223 589 276,78	163	287 222 305,53	186	77,85%
Notlar (AR MB) – (təkrar bazar)	5 564 936,87	2	67 504 812,02	39	8,24%
Not bazarı, cəmi	**229 154 213,65**	**165**	**354 727 117,55**	**225**	**64,60%**
Repo əməliyyatlar	837 669 129,33	705	1 954 081 529,69	740	42,87%
DQK bazarı, cəmi	**1 522 978 240,69**	**1 084**	**2 969 895 804,99**	**1 323**	**51,28%**
Korporativ istiqrazlar – (yerləşdirmə)	101 379 141,25	104	53 176 178,09	75	190,65%
Korporativ istiqrazlar – (təkrar bazar)	164 596 985,23	112	61 664 701,82	54	266,92%
KI bazarı, cəmi	**265 976 126,48**	**216**	**114 840 879,91**	**129**	**231,60%**
Səhmlər – (yerləşdirmə)	425 794 982,96	1 835	196 648 619,40	2 998	216,53%
Səhmlər – (təkrar bazar)	15 554 689,45	2 065	41 929 959,09	2 937	37,10%
Səhm bazarı, cəmi	**441 349 672,41**	**3 900**	**238 578 578,49**	**5 935**	**184,99%**
KQK bazarı, cəmi	**707 325 798,89**	**4 116**	**353 419 458,40**	**6 064**	**200,14%**

minin təhlili və hesablanması zamanı ÜDM və xalis gəlir barədə məlumatlardan, ayrı-ayrı sahələr səviyyəsində isə ümumi, əmtəəlik və xalis məhsul barədə məlumatlardan istifadə edilir. Müxtəlif sahələrdə fondverimi səviyyəsi eyni deyildir. Yüngül və yeyinti sənayesi sahələrində bu göstərici daha yüksək, maşınqayırma və metal emalı sahələrində bir qədər aşağı, elektroenergetika və kömür sənayesində isə xeyli aşağıdır. Fondverimi səviyyəsinə təsir göstərən amillər çoxdur. Bu amillər bir-birinə zidd nəticələrə də gətirib çıxarır. Məsələn, əsas fondların yaradılması üçün çəkilən məsrəflər Rusiyanın Avropa regionları ilə müqayisədə daha çox olan şimal və şərq regionlarında istehsalın genişləndirilməsi; daha dərində yerləşən və gücü daha az olan faydalı qazıntı yataqlarının horizontlarının istismarına keçid; bahalı təmizləyici qurğulardan istifadə edilən müəssisələrin tikintisi və başqa hallar fondveriminin azalmasına gətirib çıxarmışdır. Fondverimini artıran amillərə, ilk növbədə, istehsalın texniki səviyyəsinin artırılması və əsas fondların istismarının yaxşılaşdırılması, müəssisələrin əsaslı şəkildə yenidən qurulmasına və onların texniki təchizatının yeniləşdirilməsinə yönəldilən əsaslı vəsait qoyuluşlarının nisbi payının artırılması aiddir. Bu, istehsal vasitələrinin strukturunu yaxşılaşdırmağa, əməyin fondlarla təchizat səviyyəsi ilə müqayisədə əmək məhsuldarlığının üstün sürətlə artırılmasını təmin etməyə, fondveriminin əks göstəricisi olan məhsulun fondtutumunu azaltmağa imkan verir.

FONOQRAM İSTEHSALÇISI – ifanın və ya digər səslərin ilk dəfə yazılması təşəbbüsünü və məsuliyyətini üzərinə götürmüş fiziki və hüquqi şəxs.



Sxem 3

Cədvəl 2


Dünyanın əsas fond indeksləri

İndeks	Ölkə	ISIN*	Ölçmə üsulu	Hesablaşma metodu
AEX index	Niderland	NL0000000107	Kapitallaşmaya görə	Orta tarazlı
ATX	Avstriya	AT0000999982	Kapitallaşmaya görə	Orta tarazlı
CAC 40	Fransa	FR0003500008	Kapitallaşmaya görə	Orta tarazlı
DAX	Almaniya	DE0008469008	Kapitallaşmaya görə	Orta tarazlı, kapitala düşən yekun gəlir
DJIA	ABŞ	US2605661048	Qiymətə görə	–
FTSE	Böyük Britaniya	–	–	–
Nikkei 225	Yaponiya	XC0009692440	Qiymətə görə	Orta sadə
S&P 500	ABŞ	US78378X1072	Kapitallaşmaya görə	Orta tarazlı
TOPIX	Yaponiya	XC0009694107	Kapitallaşmaya görə	Orta tarazlı
MMVB	Rusiya	RU000A0JP7K5	Kapitallaşmaya görə	Orta tarazlı

* (ing. İnternational Securities Identification Number – qiymətli kağızı identifikasiya edir)

Başqa sübutlar olmadıqda həmin fonoqramda və (və ya) onun qoyulduğu qutuda adı göstərilmiş fiziki və ya hüquqi şəxs fonoqram istehsalçısı sayılır.

FORD HENRİ (1863-1947) – amerikalı sənayeçi, ABŞ avtomobil sənayesinin yaradıcılarından biri. 1892-1893-cü illərdə ilk dördtaktlı avtomobilin, 1903-cü ildə Ford Motor kompaniyasının yaradıcısı. İlk dəfə konveyeri, əmək bölgüsünə və Teylor prinsiplərinə əsaslanan kütləvi axın istehsalının təşkilini tətbiq etmişdir. Ford menecment prinsiplərini universal hesab etməmiş, özünün öhdəliklərini bir qayda olaraq yarımillik ödəniş yolu ilə ləğv edir. Forfeytinq veksellərin kommersiya bankları tərəfindən aparılan adi uçotundan onunla fərqlənir ki, bu halda borc öhdəliyi üzrə bütün risklərin həmin öhdəliyin alıcısına – forfeytora keçməsinə yol verilir. Bununla əlaqədar forfeytor alıcının fəaliyyət göstərdiyi ölkədəki elit bankın təminatlarının təqdim edilməsi barədə tələb irəli sürmək vəzifəsi yaranır. Forfeytinq satıcının debitor borcunu azaltmağa, balansın strukturunu təkmilləşdirməyə, kapital dövriyyələrinin sayını artırmağa imkan verir. Forfeytinqin üstünlükləri – kreditvermə dərəcələrinin sabitliyi, veksellərin və digər borc tələbnamələrinin təkrar alışının rəsmiləşdirilməsinin sadəliyindən ibarətdir. Adətən forfeytinq bank kreditindən baha başa gəlir.



Ödəniş müddəti üçün uzun müddətə (1 ildən 7 ilə qədər) nəzərdə tutulan iri məbləğdə maşın və avadanlıqlar satışında çox vaxt forfeytinqdən istifadə edilir. Forfeytor ödəniş müddəti çatana qədər sənədləri özündə saxlaya bilər, yaxud dövriyyə etməmək əsasında başqa forfeytinq firmasına verə bilər. Ödəniş müddəti çatdıqda bu sənədlərin son saxlayıcısı onları ödəniş üçün banka təqdim edir.

FORMAL QRUP – istehsal prosesinin təşkili üçün rəhbərliyin iradəsi ilə yaradılan qrup. Bu qruplar məhsulun keyfiyyəti, istehsal üzərində nəzarət, işçi və rəhbərlərin qarşılıqlı fəaliyyəti məsələlərini həll edirlər. Qeyri-formal qrup – hansısa müəyyən məqsədə nail olmaq üçün müntəzəm olaraq qarşılıqlı fəaliyyətdə olan, özü özlüyündə əmələ gələn insan qrupudur. Qeyri-formal qrupların inkişafı formal təşkilatlarda baş verən sosial qarşılıqlı fəaliyyətə əsaslanır. Qeyri-formal qrupların ilkin əlamətləri dəyişikliklərə müqavimət, qeyri-formal liderlərin və şayiələrin peyda olmasıdır.

Qeyri-formal qrupun öhdəsindən gəlmək üçün rəhbərlik həmin qrupu və onun liderini tanımalı, onunla işləməli, onun üzvlərinin fikirlərini dinləməli, rəsmi məlumatların operativ olaraq təqdim edilməsi yolu ilə şaiyələri boğmalıdır.

FORMAL MÜQAVİLƏ – qanunvericilikdə müəyyən edilmiş qaydalara müvafiq olaraq dəqiq tərtib edilən, rəsmiləşdirilən saziş.

Formal müqavilələrin tərtib edilməsi tərəflərdən birinin müqavilə şərtlərini pozduğu halda, arbitraj prosesinin aparılmasını asanlaşdırır. Adətən formal müqavilə təşkilatın hüquq xidməti tərəfindən tərtib edilir.

FORMAL NƏZARƏT AGENTLƏRİ – nəzarət funksiyalarını yerinə yetirmək üçün xüsusi olaraq təhsil almış və məvacib alan şəxslər.

FORMAL RİSK – sığorta halı yaranmasının müəyyən həddi aşmaması.

FORSAYT (ing. *foresight* – gələcəyə baxış) – elm və texnologiya, iqtisadiyyat, dövlət və cəmiyyət sferasında prioritetlərin formalaşdırılması və böyük saylı iştirakçıları səfərbər edərək yeni keyfiyyətli nəticələrə nail olmanın effektivlik aləti. Forsayt layihələrin nəticələri üzrə yol xəritələri yaradılır. Forsayt innovasiya iqtisadiyyatının da vacib elementlərindən hesab edilir. Forsaytın bu ABŞ variantından başqa tamamilə Delfi metoduna (ekspert qiymətləndirilməsi metodu – əlamətləri: qiyabilik, çoxsəviyyəlik və anonimlik) əsaslanan Yapon və ətalətli inkişaf xüsusiyyətli Avropa variantları da vardır.

FORS-MAJOR (fr. *force majeure* – keçilməz sədd) – fövqəladə və dönməz proses. Mövcud şərtlər daxilində onu nəzərə almaq və nəticələrini aradan qaldırmaq mümkün olmur. Onlara təbii fəlakətlər (zəlzələ, sel, daşqın, çovğun və s.), hərbi əməliyyatlar və konfliktlər, tətillər, inqilablar, dövlət orqanları tərəfindən valyuta məhdudiyyətlərinin tətbiqi, idxal və ixracın qadağan edilməsi və s. aiddir. Bütün hüquqi-normativ aktlarda fors-major halı tərəfləri müqavilə öhdəliklərindən azad edir. Fors-major – fövqəladə və qaçılmaz hadisələrin meydana gəlməsidir ki, bunların nəticəsi müqavilə şərtlərinin yerinə yetirilməməsidir. Fors-major nəticəsində müqavilə tərəflərindən biri təsadüfi olaraq (bilmədən) digər tərəfə zərər vurana verilir. Fors-major – cəmiyyətin normal sosial şərtlərinə immanent olmayan, yəni bir hadisənin öz təbiətinə xas olmadığı fövqəladə hallardır. Ölkədə hərbi vəziyyət, vətəndaş həyəcanları, tətillər, qiyamlar, əmlakın müsadirə olunması və rekvizisiyası, hökumət tərəfindən tətbiq olunan fövqəladə və ya xüsusi vəziyyət (komendant saatı); həbslər, bu yerlər üçün tipik olmayan və sığorta riskləri siyahısında əvvəlcədən nəzərdə tutulmayan təbiət kataklizmləri, itkiyə səbəb olan ion şüalanması və radioaktiv yoluxma (əgər bu sığorta riski kimi xüsusi olaraq əvvəlcədən nəzərdə tutulursa) sığorta polisində və ya onun ayrı-ayrı əlavələrində cəmiyyət tərəfindən sığorta təminatına qəbul edilir və hər iki tərəfdən uyğunlaşdırılan sığorta hadisələrinin və əmlakın siyahısı göstərilir. Əgər xüsusi şərtlər nəzərdə tutulmamışdırsa, onda sığortaya məxsus olan və sığorta polisində göstərilən ünvanda olan əmlak sığorta ilə təmin olunur.

FORS-MAJOR HALLARI, GÜC ÇATMAYAN ŞƏRTLƏR – iqtisadi razılaşmanın (müqavilənin) iştirakçılarının iradəsindən və hərəkətlərindən asılı olmayan fövqəladə, dəfedilməz şərait, vəziyyət; bu şəraitlə əlaqədar, iştirakçılar üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməyə qabil deyillər. Yanğınlar, zəlzələlər, daşqınlar, digər təbii fəlakətlər fors-major şəraitə aid edilir. Fors-major şəraitinin meydana çıxması müqavilənin iştirakçısını, icraçısını onun götürdüyü öhdəlikləri yerinə yetirməyə görə məsuliyyətdən azad edir.

FORS-MAJOR ŞƏRAİTİ – sığorta ilə əlaqədar termindir və adətən sığortaçının sığorta ödənişindən azad olması səbəblərini ifadə etmək üçün istifadə edilir (əgər bu səbəblər sığortaçıdan asılı deyilsə).

FORVARD ƏQDİ – kontraktın bağlandığı anda qüvvədə olan məzənnə üzrə malların müəyyən müddətdə, o cümlədən qabaqcadan razılaşdırılmış vaxtda (adətən bir həftədən bir neçə həftəyə qədər müddətdə) alqı-satqısı əməliyyatlarının bir növü.

FORVARD HƏRƏKƏTİ – qiymətli kağızların və ya malların bütün qruplarını əhatə edən, qiymətli kağızların və ya malların qiymət səviyyəsinin ümumi artımına şamil edilən bazar termini. Bu ifadə qiymətlərin gün ərzində və ya müəyyən müddət ərzində artım meylinə aid edilə bilər.

FORVARD KONTRAKTI – çatdırılma müddətindən asılı olmayaraq, qiymətləri öncədən təsbit edilən müqavilə forması. Şəxsin qiymətli kağızlar, mallar və pul vəsaitləri gələcəkdə müəyyən vaxtda və müəyyən şərtlərlə bu cür forvard kontraktının bağlandığı anda təsbit edilmiş qiymətlə əldə etməyə (satmağa) öhdəliyini təsbit edən müqavilə.

FORVARD MÜQAVİLƏLƏRİ (ing. *forward contract, forward* – ön, qabaq) – fərdi qaydada (adətən, bankla onun müştərisi arasında) bağlanılan və birjada ticarət aparılmayan qeyri-standartlaşmış fyuçers müqaviləsi. Fyuçers müqavilələrindən fərqli olaraq forvard müqavilələri hər gün bağlanılmır, buna görə də tərəflərin mənfəəti və itkiləri onun icrası məqamında müəyyən olunur. Forvard müqavilələri hecirləmənin əsas alətlərindən biridir (fyuçers müqavilələri ilə, svoplar haqqında sazişlərlə və opsionların alışı ilə yanaşı). Forvard valyuta məzənnəsi və forvard dərəcəsi haqqında müqavilələr daha çox yayılmışdır. Tutaq ki, hər hansı bir firma bankda üç aylıq borcu (istiqrazı) 6 aydan sonra təklif edir və faiz dərəcəsinin dəyişilməsi riskini hecirləmək istəyir. Onda

Cədvəl 1

Forvard müqaviləsinin əsas prinsipləri

Parametr	Hesablanma üçün düstur	Təsvir
1. Valyutanın forvard kursu	$F = S\frac{\left(1+r_1\frac{T}{365}\right)}{\left(1+r_2\frac{T}{365}\right)}$	F – aktivin forvard qiyməti; S – aktivin spot qiyməti; r_1,r_2 – müxtəlif ölkələrin faiz dərəcələri; T – forvard müqaviləsinin bitmə tarixinə qədər olan müddət
2. Qiymətli kağızın forvard qiyməti	$F= S(1+rT / 365) - D$	S – aktivin spot qiyməti; D – səhmlər üzrə ödənilən dividentlər və ya T müddətinə görə istiqrazlar üzrə ödənilən faizlər; r – risksiz faiz dərəcəsi
3. Forvard faiz dərəcəsi	$r_{Tx} = \sqrt{\frac{(1+r_{(T+x)})^{(T+x)}}{(1+r_T)^T}}$	r_{Tx} – T aylarından (gün, il) sonra başlayaraq x müddətinə forvard depozitar faiz dərəcəsi; r_T – T müddətinə depozitar (kredit) spot faiz dərəcəsi; $r_{(T+x)}$ – (T+x) müddətinə depozitar (kredit) spot faiz dərəcəsi
4. Müqavilənin forvard qiyməti	$F = \frac{S * e^{(G+r)T}}{e^{yT}}$	G – malın qiymətindən fasiləsiz olaraq hesablanmış illik faiz şəklində anbar və sığorta xərcləri; y – mala sahiblik faydası, malın qiymətindən fasiləsiz olaraq hesablanmış illik faiz şəklində

bu firma bankla 3 aylıq depozitə görə LİBOR dərəcəsi haqqında 6 aylıq müqavilə bağlayır. Əgər 6 aylıq dövrün sonunda 3 aylıq depozitə görə LİBOR dərəcəsi şərtlənmiş forvard məzənnəsindən çoxdursa, bank borc alana fərqi ödəyəcək, əgər azdırsa, borc alan banka ödəyəcəkdir.


Forvard valyuta məzənnəsi haqqında sazişin bağlanması mexanizmi də buna oxşardır.

Forvard müqavilələri fyuçers müqavilələrindən bahadır, çünki onlar qeyri-standart məbləğlər və müddətlər üçün bağlanılır. Bundan əlavə, əgər forvard müqaviləsinin sahibi onu satmağı qərara alıbsa, o, bankla müqaviləni yenidən bağlamalıdır. Buna görə də forvard müqavilələri standartlaşmış fyuçers müqavilələrinə nisbətən xeyli bahadır. Son zamanlar forvard məzənnələrinin imitasiyası (təqlid edilməsi, yaxud saxtalaşdırılması) təcrübəsi geniş yayılmışdır. Forvard valyuta müqaviləsi – müxtəlif ölkə valyutalarının gələcəkdəki müəyyən tarix üçün və əvvəlcədən razılaşdırılmış valyuta dərəcəsinə uyğun olaraq alınıb-satılması barədə müqavilədir. Məsələn, forvard valyuta müqaviləsi almaq əvəzinə milli valyutada borc (istiqraz) almaq, onu xarici valyutaya dəyişmək və bu valyutanı lazımi müddətə borc vermək olar. Bu strategiya nəticədə valyuta forvard müqaviləsi kimi, pul vəsaitləri axınlarını verə bilər. Svoplar haqqında hər hansı bir sazişi də forvard müqaviləsi paketi kimi nəzərdən keçirmək olar.

FORVARD SÖVDƏLƏRİNİN QİYMƏTLƏRİ (ing. *forward* – ön, qabaq) – gələcəkdə daşınmaqla və hesablanmaqla maliyyə alətinin və ya əmtəələrin alqı-satqısı haqqında forvard kontraktında möhkəmlənmiş müqavilə qiyməti. Forvard sövdələrinin qiyməti əmtəələrin dərhal daşınması qiymətlərindən fərqlənir: onlar əvvəlcədən razılaşdırılmış əmtəənin və ya maliyyə alətinin qiymətidir və gözləmələrin dəyişməsi təsiri altında dəyişir. Forvard sövdələrinin qiymətlərinin müəyyən edilməsi zamanı əmtəənin gələcəkdə daşınması anında tələb və təklifin ehtimal olunan nisbətləri, kreditə görə faiz dərəcələrinin kəmiyyəti, birja əməliyyatlarının maliyyələşməsi məsrəfləri, sığorta və əmtəənin saxlanması xərcləri, brokerlərə verilən komissiya mükafatları nəzərə alınır.

Şərtlərinə görə hesablaşma və qiymətlilərin faktiki ötürülməsi sövdələşmənin bağlanmasından sonra qüvvəyə minən hər hansı müddət ərzində həyata keçirilən əməliyyat forvard sövdələşməsi adlanır. Müddətli və ya təcili

Forvard müqavilələrinin xarakteristikası



Sxem 1

Forvard valyuta müqaviləsi üzrə əməliyyatın həyata keçirilməsi ardıcıllığı



a) Sazişin tarixi **b) Valyutalaşmanın tarixi**

Sxem 2

sövdələşmələrin predmeti xüsusi bazarlarda dövriyyə edən müxtəlif qiymətlilər (mallar, qiymətli kağızlar, xarici valyuta) ola bilər.

FÖVQƏLADƏ XƏRCLƏR – ümumi qəza institutu (təsisatı) ilə əlaqədardır. Fövqəladə xərclərə və ya ianələrə (bağışlamalara), məsələn, gəminin bir hissəsinin ocağında yandırılma zərurəti ilə əlaqədar xərclər aiddir.

FÖVQƏLADƏ VERGİ – tətbiq edilməsinin zəruri olması barədə qərar dövlət tərəfindən fövqəladə hallarda qəbul edilən vergi. Əsasən yüksək dərəcə ilə tətbiq edilməklə vətəndaşlardan dövlət büdcəsinə mümkün qədər çox maliyyə vəsaitinin toplanılması məqsədilə tətbiq edilir. Onun uzun müddətə tətbiqi iqtisadi subyektlər üçün bir sıra mənfi nəticələrə səbəb ola bilər.

FRA (ing. *forward rate agreement*) – firma ilə bank arasında müəyyənləşdirilmiş faiz dərəcəsi üzrə müəyyən müddətə bağlanmış müqavilə.

FRAC – alıcıların əldə etdikləri mallar haqqında məlumatların komponentləridir ki, birbaşa marketinqin məlumatlar bazasına daxil edilir və onların aldıqları malların işlənməsi, buraxılış tarixi, kəmiyyəti və kateqoriyaları haqqında məlumatları cəmləyir.

FRAXT (alm. *fracht*) – 1. Nəqliyyat vasitələrinin sahibinə yüklərin və ya sərnişinlərin daşınması ilə bağlı xidmətlərin göstərilməsinə görə ödəniş. 2. Daşınan yük. Fraxt tərəflərin (gəmi

sahibinin, fraxtlayıcının və fraxt verənin) hər bir ayrıca əqd üçün fraxt dərəcəsi barədə razılaşmasına dair müqavilə əsasında müəyyən edilir. Fraxt dərəcələri və dəniz nəqliyyatı məhsullarının (xidmətlərinin) qiymətini ifadə edən nəqliyyat tarifləri müqavilə bağlayanlar (fraxt verən və fraxtlayıcı) tərəfindən fraxt bazarında rəqabət və fraxtlama xidmətləri ilə bağlı tələb və təklif arasındakı nisbət nəzərə alınmaqla müəyyən edilir. Fraxt dərəcələri yüklərin hər hansı istiqamətdə daşınmasında tətbiq edilir və yalnız əqdin qüvvədə olduğu dövrdə etibarlı sayılır. Xətti gəmiçilikdə, yəni müəyyən xətt üzrə yerinə yetirilən reyslərdə hər bir yükgöndərən üçün məqbul olan daşıma tariflərindən istifadə edilir. Bəzən müqavilə şərtlərinə görə fraxtın dəyərinə yükün vurulması və boşaldılması əməliyyatlarına görə ödənilən haqq da daxil edilir. Dünya praktikasında 1969-cu ildən tətbiq edilən qaydaya görə, standart gəminin tutumundan asılı olaraq, konkret gəmilərin ölçülərindən və onların marşrutlarından asılı olmayaraq fraxt tarif dərəcələrini müqayisə etmək üçün şkala tətbiq edilir (bax: sxem 1).

FRAXT AVANSI – yükləmə limanında gəmi xərclərinin ödənməsi üçün gəmi sahibinin tələbi üzrə fraxt edənin verdiyi pul vəsaiti. Fraxt avansı çarter reysləri zamanı verilir və fraxt dəyərinin üçdə birindən çox olmur. Avansın miqdarı konosamentə yazılır və gələcəkdə fraxtdan tutulur.

FRAXT BAZARI – tonnajın fraxt edilməsi və fraxtdan çıxarılmasının baş verdiyi bazar.

FRAXT BİRJASI – kirayə götürülən gəmilərin daimi fəaliyyət göstərən bazarı; regional, beynəlxalq, əmtəə və ya digər əlamətlərə görə təşkil olunur. Burada gəminin tonnajına (tutumuna) olan tələb və onun təklifi, kirayələmə dərəcələrinin səviyyəsi, kirayələmə müqavilələsinin şərtləri haqqında və s. bütün məlumatlar mərkəzləşir. Londonda yerləşən fraxt mərkəzi ən böyük beynəlxalq əhəmiyyət kəsb edir, ən iri fraxt birjaları Hamburqda, Tokioda, Honkonqda, Nyu-Yorkda yerləşir. Adətən fraxt birjası məhdud məsuliyyətli şirkət kimi fəaliyyət göstərir.

FRAXT BROKERİ – müqavilə bağlanarkən gəmi sahibi ilə fraxtçı (gəmi kirayəçisi) arasında vasitəçilik edən broker. Fraxt brokeri fraxt birjasında ayrı-ayrı xidmət növlərində (gəmilərin fraxtlanması, alınıb-satılması, nəqliyyat-ekspeditor əməliyyatları və s.) sövdələr üzrə ixtisaslaşır. İxtisaslaşma həmçinin gəmi tipləri, daşınan yükün növləri, daşınma istiqamətləri üzrə də aparılır. Beynəlxalq xətt gəmiçiliyinə akvizitor brokerlər xidmət göstərirlər. Onlar yalnız gəmi fraxtlamır, həm də xətlərdə gəmilərin yüklənməsi üçün mal cəlb edərək ekspeditor və gəmi agenti vəzifəsini yerinə yetirirlər.

FRAXT EDƏN – təyinat limanına yükü dənizlə daşıyan, fraxt müqaviləsinin tərəflərindən biri. Fraxt edən yükün şərtləşdirilmiş yerə vaxtında çatdırılmasına və fraxtın vaxtında ödənilməsinə cavabdehlik daşıyır.

FRAXT İNDEKSİ – tankerlərin fraxt dərəcələrinin (stavka) standart gəminin dəyərindən asılılığını tutuşdurmaq üçün şkala. Bu şkalada gəminin ölçüləri və onların marşrutlarından asılı olmayaraq fraxt dərəcələri müəyyən edilir.

FRAXT İNDEKSLƏRİ – yüklərin dəniz yolu ilə daşınması qiymətlərinin müəyyən baza dövrünün qiymətlərinə, yaxud 100%-ə kimi qəbul edilmiş təsbitli dərəcələrə nisbətən dəyişməsi göstəriciləri. Dəniz gəmilərinin icarəsi (fraxtı) zamanı, həmçinin fraxt bazarının konyunkturasının qiymətləndirilməsində istifadə edilir.

FRAXT OLUNAN – təyinat limanına yükü vaxtında çatdıran tərəfə mükafat verməyi üzərinə götürən, fraxtetmə müqaviləsinin tərəflərindən biri.

FRAXT TARİFİ – mal partiyasının dənizlə daşınmasının qiyməti (dərəcəsi).


FRAXT ÜÇÜN SİFARİŞ – arzu olunan nəqliyyat növünü, göndərilmə vaxtını və s. göstərməklə malgöndərənin daşıyıcıdan müəyyən miqdar mal göndərmək üçün yer saxlanmasını xahiş etməsi barədə sənəd.

FRAXT-AUT – malların satılması anında çəkilən nəqliyyat xərcləri.

FRAXTETMƏ (ing. *Freighage*) – gəminin icarəyə götürülməsi və ya haqqı ödənilməklə tutulması müqaviləsinin bağlanması üzrə fəaliyyət.

FRAXT-İN – malın alınmasından sonra çəkilən nəqliyyat xərcləri.

FRAXTIN QİSMƏN İTKİSİ – fraxt yük sahibi tərəfindən əvvəlcədən ödənilən hallarda fraxtın qismən itkisi olmaya bilər. Əgər yük təyinat limanına gəl-



Sxem 1

dikdən sonra fraxt tam və ya qismən ödənilərsə, o sığortalanmalıdır, nəzərdə tutulur ki, yükün bir hissəsi yolda itə bilər və ona görə fraxt ödənilməyəcəkdir.

FRAXTIN SIĞORTALANMASI – yükün çatdırılmasına görə dəniz yükünü daşıyanın tutduğu ödəmənin sığortalanması. Fraxtın ödənilməsi şərtlərindən (şəraitindən) asılı olaraq sığortalı qismində yükün sahibi, yükü daşıyan, yaxud hər ikisi birlikdə çıxış edə bilər. Fraxtın sığortalanması – sığorta növüdür ki, bunun obyekti yükün daşınmasına görə nəqliyyat vasitəsinin sahibindən ödənilən haqdır.

FRAXTLAMA – dəniz daşınmasında müqavilə bağlama.

FRAXT-RELİZ – gəmi sahibi və ya onun agenti tərəfindən həyata keçirilmiş nəqliyyat xərclərinin indossamenti. O təsdiq edir ki, fraxt ödənilmişdir və mal lazımi məntəqəyə çatdırılan kimi sahibinə verilə bilər.

"FRAXT-YOL KİRƏSİ VƏ SIĞORTA TƏYİNAT MƏNTƏQƏSİNƏ QƏDƏR ÖDƏNİLMİŞDİR" – xarici ticarət kontraktları üzrə malların bazis daşıma şərtlərindən biri. Bu şərtlər "Fraxt-yol kirayəsi müəyyən məsafəyə qədər ödənilmişdir" şərtlərinə oxşardır və əlavə olaraq satıcı, daşıma zamanı malın məhv olması riskindən və ya təsadüfən korlanmasından nəqliyyat sığortasını təmin etməlidir. Satıcı sığorta müqaviləsini bağlayır və sığorta mükafatını ödəyir. Bu zaman alıcı bir sıra vəzifələrlə yanaşı, malı öz hesabına sığortalamalıdır. Yükə zərər dəyən zaman alıcı yükü daşıyandan itkinin kompensasiyasını tələb edə bilər, lakin əsasən alıcılar sığorta şirkətlərindən zərərin ödənilməsini əldə edir.

FRANÇAYZİNQ (ing. *franchise* – güzəşt, imtiyaz) – iri və kiçik biznesin münasibətləri və təsərrüfat inteqrasiyası forması. Bu formanın mahiyyəti iri şirkət (françayzer) tərəfindən onun ticarət markası altında müstəqil hüquqi şəxs olan kiçik şirkətin iştirak etməsinə hüquq verməsindən ibarətdir. Françayzer güzəştli kredit verə bilər, yaxud kiçik şirkət borc alarkən ona zamin dura bilər. Kiçik sahibkarlıq üçün françayzinqin üstünlükləri françayzerin ticarət markasından və reklamından istifadə edilməsi hesabına biznesə qoşulmaq üçün minimum xərc çəkməsindən ibarətdir. Françayzer isə, öz növbəsində, minimum məbləğdə investisiya qoymaqla, minimum riskə getməklə öz fəaliyyətinin coğrafiyasını genişləndirir, gəlirlərini artırır və təşkilati cəhətdən yığcamlığını qoruyub saxlayır. Françayzinq müqaviləsində, adətən, ticarət markasından və reklamdan istifadəyə görə haqqın mənfəətdən (satışdan, xidmətlərdən) asılı olması nəzərdə tutulur. Bir qayda olaraq françayzer kiçik şirkətin məhsullarının (xidmətlərin) keyfiyyəti və dəyəri baxımından onun fəaliyyətinə nəzarət edir. Françayzinq ticarət sahəsində, məişət xidmətləri və mehmanxana biznesində daha geniş yayılmışdır. Son vaxtlarda iri şirkətlər onların ticarət markası ilə işləyən kiçik müəssisələrin transmilli şəbəkəsini get-gedə daha artıq dərəcədə genişləndirirlər.

FRANKO – satış şərtinə görə satıcı malı müqavilədə müəyyən edilmiş yerə öz hesabına çatdırmağa zəmanət verir. Bu halda malın qiymətinə, onun gətirilmə və sığorta xərcləri daxil edilir, franko-zavod, franko-yük maşını, franko-anbar və s. fərqləndirilir.

FRANKO QİYMƏTİ (ital. *franko* – sərbəst, azad) – əmtəənin daşınması və ödənilməsi şərtləri və nəzərdə tutulmuş qaydalar nəzərə alınmaqla müəyyən edilmiş qiymət; buna uyğun olaraq satıcı yükü müqavilədə müəyyən edilmiş yerə və müəyyən edilmiş müddətdə çatdırmalıdır, başqa sözlə, elə satış şərtləridir ki, buna uyğun olaraq satıcı riskə görə əmtəənin müəyyən olunan yerə öz hesabına çatdırılmasını öhdəsinə götürür, özü də nəqliyyat, sığorta və gömrük xərcləri bu qiymətə daxil olur. Malgöndərənin "franko-zavodu", "göndərmə stansiyasının (limanın) franko-vaqonu (gəmisi)", "franko-yük daşıyan", "franko-vaqon (gəmi)", "franko-anbar", "franko-qazma quyusu (buruq)", "franko-tikinti meydançası" və s. şərtlər ola bilər. Franko qiymətin növündən asılı olaraq əmtəənin satış qiymətinə, dəyərindən başqa, onun nəql edilməsi, yüklənməsi, boşaldılması və sığortalanması xərcləri daxil ola bilər. Beynəlxalq təcrübədə franko qiymətinin iki növü fərqləndirilir: a) təyinat stansiyası (körpüsü) franko qiyməti, buraya məhsulu hazırlayan müəssisələrdən təyinat stansiyasına (körpüsünə) daşınması üzrə və nəqliyyat vasitələrinə məhsulun yüklənməsi üzrə xərclər daxildir; b) təyinat stansiyası (körpüsü) franko qiyməti, buraya

Cədvəl 1

Franko şərtini nəzərə almaqla qiymətlərin növü

Təchizatçının anbarında əmtəələrin qiymətləri	Göndəriş stansiyasına əmtəələrin daşınması üzrə xərclər	Göndəriş stansiyasında əmtəələrin vaqonlara yüklənməsi üzrə xərclər	Təyinat stansiyasına qədər əmtəələrin nəqli xərcləri	Təyinat stansiyasında əmtəələrin vaqonlardan boşaldılması xərcləri	Təyinat stansiyasından əmtəələrin istehlakçının anbarınadək daşınması xərcləri
Franko-təchizatçı anbarı					
Franko-göndəriş stansiyası					
Franko-vaqon, göndəriş stansiyası					
Franko-vaqon, təyinat stansiyası					
Franko-təyinat stansiyası					
Franko-istehlakçının anbarı					

yuxarıda qeyd edilən xərclərdən başqa, təyinat stansiyasına qədər məhsulun daşınması xərcləri də daxildir. Bu iki əsas növdən başqa franko qiymətinin çoxlu sayda müxtəlif növləri də mövcuddur: malgöndərənin anbarı franko qiyməti, alıcının anbar franko qiyməti, sərhəd franko qiyməti, vaqon franko qiyməti və s. Beynəlxalq təcrübədə Beynəlxalq Ticarət Palatası tərəfindən işlənib hazırlanmış malların daşınmasının 14 əsas tip bazis şərtləri mövcuddur ki, bunlara da KAF, FAS, FOB, SİF və s. qiymətlər uyğun gəlir. Franko qiymətinin növü və qaydası müvafiq məhsullara görə ümumi preyskurant göstərişlərində nəzərdə tutulur.

FRANKO-DAŞIYICI – malların bazis daşıma şərtlərindən biri. Franko-daşıyan zamanı ixracatçı və idxalatçı öz üzərinə çoxsaylı öhdəliklər götürürlər. İdxalatçının öz üzərinə götürdüyü öhdəliklərə onun yükü sığortalaması da aiddir.

FRANKO-KOMİSSİYA – hər hansı bir kommersiya tapşırığının pulsuz yerinə yetirilməsi.

FRANŞİZA – sığorta müqaviləsinin şərti; buna əsasən sığortaçı müəyyən məbləğdən yuxarı olmamaq şərtilə zərərin əvəzini ödəməkdən azad edilir.

FRASKATİ DƏRSLİYİ ("tədqiqatların və eksperimental işləmələrin müayinəsi üçün təklif olunan standart təcrübə") – elm və texnika göstəriciləri üzrə İƏİT Milli ekspert qrupu tərəfindən hazırlanmış elmi tədqiqatlar və işləmələr statistikasına dair İƏİT-in rəsmi tövsiyələri. Tövsiyələrin birinci versiyası, İƏİT-ə üzv olan ölkələrdə elmi axtarış və tədqiqatların statistik müayinəsinin keçirilməsinin yeganə üsulu kimi İƏİT-in Milli ekspert qrupunun 1963-cü ilin iyun ayında İtaliyanın Fraskati şəhərində keçirilən müşavirəsində qəbul edilmiş və tövsiyə şəhərin adı ilə adlandırılmışdır. Həmin andan belə müayinələr müntəzəm xarakter almışdır. Onlardan nəinki milli qiymətləndirmənin bazası kimi, həm də elmi axtarış və tədqiqatlara çəkilən xərclər və heyətin göstəricilərinin beynəlxalq müqayisəsi, onların təşkilinin müqayisəli təhlili və elmi-texniki siyasətinin maliyyələşdirilməsində baza kimi istifadə olunur. Fraskati dərsliyi özündə elmin inkişafı haqqında statistik məlumatların yığılması, işlənməsi və təhlilinə dair ümumiləşdirilmiş çoxillik beynəlxalq təcrübəni tam əks etdirir. 1980-ci illərin sonlarından o, elmi tədqiqat və işləmələr statistikası üzrə əsas beynəlxalq standart olmuşdur ki, buna da İƏİT-in müxtəlif təşəbbüsləri, o cümlədən keçid iqtisadiyyatlı Avropa ölkələri və İƏİT-ə üzv olmayan ölkələr üçün seminar-

ların təşkili səbəb olmuşdur. Elmi tədqiqatların və işləmələrin təşkilində milli və beynəlxalq səviyyədə elmi-texniki siyasətin strategiyasında dəyişikliklərə, həmçinin beynəlxalq statistik standartlar (Milli hesablar sistemi, beynəlxalq təsnifatlar və s.) aiddir.

"FREDİ MAK" – ABŞ-ın FEDERAL MƏNZİL İPOTEKA KORPORASİYASI (ing. *Federal Home Mortgage Corporation (Freddie Mac, FHLMC)*) – Fredi Mak 1970-ci ildə dövlət təşkilatı kimi yaradılmış, 1989-cu ildə isə ABŞ Konqresinin



qərarı ilə özəl şirkətə çevrilmişdir. Fredi Makın yaradılmasının məqsədi – mənzil ipoteka kreditlərinin likvidliyini təmin etməkdir. Fredi Mak kreditlərinin likvidliyi emissiya edilmiş "hərtərəfli" ipoteka qiymətli kağızlarının nominalının tam ödənilməsini təmin edir. Bu təminat ABŞ hökuməti tərəfindən birmənalı dəstəklənməsə də, bu dəstək həmin sertifikatların kredit keyfiyyətinin AAA (ən yüksək reytinq, öz borc öhdəliklərini vaxtında və tamamilə yerinə yetirmək imkanı) səviyyəsində qiymətləndirilməsi üçün kifayət edir.

FREYDİN MOTİVASİYA NƏZƏRİYYƏSİ – nəzəriyyənin müəllifi Ziqmund Freyd. İnsanlar, bir qayda olaraq, onların davranışını formalaşdıran psixoloji qüvvələri əsasən dərk etmir və başa düşmürlər ki, insan böyüdükcə onun orqanizmində çoxsaylı istək və şirnikləndirici amillər boğulur, lakin onlar heç vaxt tamamilə yox olmur və onlara tam nəzarət etmək mümkün deyildir. Bu cür istəklər yuxugörmələrdə, qeyd-şərtlərdə, insanın nevrotik davranışında və nəhayət, psixoz hallarında özünü göstərir. Bu zaman insanın eqosu (Mən – insan orqanizmi sistemində ətraf aləm haqqında informasiyanı qəbul edən və "id" impulslarını boğan qüvvədir. Fərdin Məni onun hərəkətlərinə nəzarət edir) öz "id"inin güclü impulslarını tarazlaşdırmaq qabiliyyətini müvəqqəti itirir (O – istəklər, kortəbii instinktlər sahəsidir) supereqoya iztirab verir (fövqəl Mən mənəvi norma və məqsədlər sahəsidir). Beləliklə, insan öz motivasiyasının səbəbləri barədə özünə hesabat verə bilmir.

Motivasiyanı tədqiq edənlər müəyyənləşdirmişlər ki, istehlakçılar bir şey alarkən onların şüurunda hərəkətverici qüvvə barədə bir neçə maraqlı və çox vaxt məntiqə uyğun gəlməyən nəticə çıxarmışlar. Məsələn, onların fikrincə:


1) istehlakçılar zahiri görkəmi onlara xoş gəlməyən malları almağı xoşlamırlar;

2) kişilər tünd qoxu verən siqaret çəkməyi üstün tuturlar, çünki guya bu hərəkət onların kişi olmasını vurğulayır;

3) qadınlar heyvan mənşəli piylərdən imtina edirlər, çünki bu piylər onlarda kəsilmiş heyvanlar qarşısında günah hissi oyadır.

FRİ AUT – yükün (malın) çatdırılması haqqının ödənilməsi şərti. Bu şərtə əsasən mal sahibi yükün gəminin göyərtəsindən çatan ana qədər olan daşınma xərclərini ödəyir. Malalan isə yükün gəminin göyərtəsinə daxil olandan sonrakı xərclərini ödəyir.

FRİDMAN (FRIEDMAN) MİLTON (1912-2006) – amerikalı iqtisadçı, pul dövriyyəsinin nəzəriyyə və praktikasına aid işlərin müəllifi, monetarist istiqamətin (bax: monetarizm) lideri. "İstehlakın analizi, pul dövriyyəsinin tarixi və monetar nəzəriyyənin işlənib hazırlanması, eləcə də siyasətin sabitləşməsi mürəkkəbliyinin nümayiş etdirilməsi sahəsində nailiyyətlərinə görə" iqtisadiyyat sahəsində Nobel mükafatı laureatı adı almışdır (1976).



Ratger Universitetini (Nyu-Cersi ştatı) bitirmişdir. Çikaqo Universitetində magistr dərəcəsi almış (1933-cü il), Kolumbiya Universitetində təcrübə keçmişdir. 1937-ci ildən Milli İqtisadi Araşdırmalar Bürosunun (MİAB) əməkdaşı olmuş, 1941-1943-cü illərdə Maliyyə Nazirliyində, 1943-1945-ci illərdə Kolumbiya Universitetində riyazi statistika üzrə tədqiqat qrupunda işləmişdir. Minnesota (1945-1946) və Çikaqo universitetlərində (1946-1950, 1962-1977) dərs demişdir. 1950-ci ildə Birləşmiş Ştatlar hökumətinin Marşall planının Avropada reallaşdırılması üzrə məsləhətçisi olmuşdur. 1953-1954-cü illərdə Kembric Universitetində (Böyük Britaniya) dəvət olunmuş professor kimi dərs demişdir. B.Qolduoterin (1964), R.Niksonun (1968) və R.Reyqanın (1980) iqtisadi məsələlər üzrə müşaviri işləmişdir. Bir sıra prezident komissiyalarının, o cümlədən iqtisadi siyasət üzrə prezident şurasının üzvü olmuşdur. Amerika İqtisadi Assosiasiyasının C.B.Klark medalına (1951), Amerikanın və xarici ölkələrin çoxsaylı universitet və kolleclərinin fəxri elmi dərəcələrinə layiq görülmüşdür. 30 ildən çox müddətdə Amerika İqtisadi Assosiasiyasının üzvü, 1967-1970-ci illərdə isə prezidenti olmuş, həmçinin sərbəst bazarın əsas prinsiplərini və təsisatlarını yaymaq məqsədini qarşıya qoymuş "Mon-Pelerin" Cəmiyyətinə prezidentlik etmişdir (1970-1972).

Fridmanın adı ən çox monetarist doktrina ilə assosiasiya edilir. Onu xeyli məşhurlaşdırmış bu doktrina 70-80-ci illərdə əsasən Birləşmiş Ştatlarda Mərkəzi banklar tərəfindən həyata keçirilən monetarist siyasətə yenidən baxılmasına təsir göstərmişdir. Metodologiya sahəsində Kembric məktəbinin banisi A.Marşallın ənənələrinin davamçısı hesab edilir. Fridman təqribən 25 il müddətində MİAB-nin ticarət tsikllərində pulun rolunun öyrənilməsinə aid layihəyə rəhbərlik etmişdir. Pul nəzəriyyəsi sahəsində Fridmanın ideyaları C.M.Keynsin və onun davamçılarının nəzəriyyəsinin təhlili ilə bu və ya digər şəkildə bağlıdır. Fridmanın D.Meyselmenlə birgə yazdığı "Birləşmiş Ştatlarda pul dövriyyəsinin sürətinin nisbi sabitliyi və investisiyalar multiplikatoru, 1897-1958-ci illər" ("The Relative Stability of Money Velocity and the Investment Multiplier in the United States, 1897-1958") adlı məqaləsində pulun ümumi xərclərə, istehlaka və qiymətlərə əslində mövcud olmayan təsiri barədə keynsçilərin təsəvvürləri tənqid edilmişdir. Bu məqalə 60-70-ci illərdə monetar-fiskal siyasət məsələlərinə dair polemikanın təməlini qoymuşdur. Fridman özünün pul barədə nəzəriyyəsinin əsas müddəalarını ABŞ-da pul dövriyyəsinin tarixinə və nəzəriyyəsinə həsr edilmiş "1867-1960-cı illərdə Birləşmiş Ştatların monetar tarixi" ("A Monetary History of the United States, 1867-1960", 1963) və "Birləşmiş Ştatların monetar statistikası" ("Monetary Statistics of the United States", 1970), "Birləşmiş Ştatlarda və Birləşmiş Krallıqda pul sisteminin inkişaf meyilləri: gəlirə, qiymətlərə və faiz dərəcəsinə nisbət, 1867-1975-ci illər" ("Monetary Trends in the United States and the United Kingdom: Their Relation to Income, Prices, and Interest Rates, 1867-1975", 1982) adlı fundamental əsərlərində açıqlamış və pul barədə müxtəlif konsepsiyaları təhlil etmişdir.

Fridman dövlətin iqtisadiyyata müdaxiləsinin prinsipial əleyhdarı kimi bu müdaxiləni sərbəst bazar üçün təhlükə hesab edir. Beynəlxalq münasibətlər sahəsində o, ABŞ-ın başqa ölkələrə iqtisadi yardımının əleyhinə çıxaraq belə hesab edir ki, bu cür yardım özəl bizneslə müqayisədə hökumətin mövqelərinin güclənməsinə və hökumət tərəfindən iqtisadiyyat üzərində mərkəzləşmiş nəzarət yaradılmasına gətirib çıxarır.

FRİDMANIN PUL QAYDASI – gözlənilən inflyasiya səviyyəsini və ictimai məhsulun artım sürətini əks etdirən pul kütləsinin mexaniki artımı qaydası. Pul kütləsi ümumi daxili məhsulun (ÜDM) real həcminə deyil, onun nominal həcminə təsir edir. Monetar amillər qiymət – dəyər göstəricilərinin "xeyrinə işləyir". Buna görə də pulun kəmiyyətcə artmasının təsiri altında ictimai məhsulun real həcminin artması deyil, qiymətlərin artması baş verir. Odur ki, pul kütləsinin illik artımı 4%-lik həddi keçməməlidir. Bu fakt praktik tövsiyələr işlənib hazırlanarkən nəzərə alınmalıdır.

FRİDMANIN TƏBİİ İŞSİZLİK NORMASI – könüllü işsizliyin bu səviyyəsində əmək bazarı tənzimlənir, real əmək haqqı səviyyəsi isə bütün bazarlarda tarazlığa müvafiq olur. Fridmanın təbii işsizlik norması real əmək haqqını və əmək məhsuldarlığının artımı sıfıra bərabər olduqda qiymətləri dəyişməz səviyyədə saxlayan işsizlik normasıdır. Təbii işsizlik norması konsepsiyası M.Fridman tərəfindən onun "Pul siyasətinin rolu" (1968) adlı əsərində ifadə edilmişdir.

FRİ-ELONQSAYD – yükün çatdırılması haqqının ödənilməsi şərti. Bu şərt malın gəminin göyərtəsinə çatdırılan ana qədər (yük gəmiyə yüklənən ana qədər) olan xərclərin hamısının malsatan tərəfindən ödənilməsi vəzifəsini nəzərdə tutur.

FRİ-İN – yükün (malın) çatdırılması haqqının ödənilməsi şərti. Bu şərtə əsasən gəmi sahibi gəminin anbarındakı yük-

ləmə işlərinin haqqı da daxil olmaqla bütün yükləmə xərclərindən azad edilir.

FRİKSİON İŞSİZLİK (ing. *frictional unemployment; transitional unemployment*) – təbii işsizlik növlərindən biri (sxem 1). İşçilər tərəfindən iş yerlərinin dəyişdirilməsi və işçilərin müvəqqəti olaraq işdən azad edildiyi mərhələlərlə bağlıdır. Friksion işsizliyin (bax: İşsizlik) səbəbləri aşağıdakılardır:

– iş yerlərinin könüllü surətdə dəyişdirilməsi;

– işdən azad edildikdən sonra yeni iş axtarışı;

– mövsümi işin itirilməsi (məsələn, kənd təsərrüfatında məhsul yığımından sonra);

– əhalinin bir regiondan başqasına köçməsi, peşənin və ya sosial statusun dəyişdirilməsi;

– işə düzəlmə ilə ilk dəfə məşğul olan gənclərin iş axtarması.

Friksion işsizlik qaçılmaz hesab edilir, çünki daim kim isə könüllü və ya məcburi surətdə iş axtarır, yaxud yaxın gələcəkdə işə düzələcəyini gözləyir. İş yerlərinin və işsizlərin sayı müxtəlif obyektiv və subyektiv səbəblər üzündən üst-üstə düşmür (məsələn, gənclər peşə seçimində yanıldıqları üçün onların bir hissəsi daha müvafiq iş yeri axtarmağa məcburdur).

Bir sıra hallarda friksion işsizlik arzuolunandır. Bir çox işçilər aşağı maaşlı və az məhsuldar işdən könüllü surətdə daha yüksək maaşlı və daha məhsuldar işə keçirlər. Bu isə iş yerini dəyişənlərin daha yüksək gəlir əldə etməsi, əmək ehtiyatlarının daha səmərəli bölgüsü və məhsul istehsalının artması deməkdir.

İşsizliyin formaları



Sxem 1

FRİ-RAYDERLİK (ing. *free rider*) – etibarsız müştəri, pul ödənişini gecikdirən.

FRİŞ (FRISCH) RAQNAR ANTON KİTTEN (1895-1973) – Norveç iqtisadçısı, iqtisadi dinamika, riyazi proqramlaşdırma, milli gəlir nəzəriyyəsi sahəsində mütəxəssis.



"Dinamik modellərin iqtisadi proseslərin təhlilinə tətbiqinin inkişafına görə" (Y.Tinbergen ilə birlikdə) iqtisadiyyat üzrə ilk Nobel mükafatı laureatıdır. Oslo Universitetini bitirmişdir. Fransa, Almaniya, İtaliya və ABŞ universitetlərinin aspiranturasında oxumuşdur. Oslo şəhər universitetinin professor assistenti, iqtisadiyyat professoru (1925-1965) və həmin universitetin nəzdində Sosial İqtisadiyyat İnstitutunun direktoru (1931-1965) olmuşdur. Yel Universitetində (1930) və Sorbonna Universitetində (1933) iqtisadiyyatdan mühazirələr oxumuşdur.

Norveç hökuməti, eləcə də başqa ölkələrin (Hindistan, Misir) hökumətləri iqtisadi inkişafın planlaşdırılması modellərinin işlənib hazırlanması məqsədilə onu dəfələrlə ekspert qismində cəlb etmişlər. Harvard Universitetinin Şumpeter mükafatına (1955), İtaliya Milli Elmlər Akademiyasının Antonio Feltrinelli mükafatına (1961) layiq görülmüşdür. Norveç Elmlər Akademiyasının (1931-ci ildən), Kral Statistika Cəmiyyətinin (Böyük Britaniya), Amerika İqtisadçılar Assosiasiyasının Elm və Sənət Akademiyasının üzvü olmuşdur.

Friş ekonometrikanın yaranmasına və inkişafına, iqtisadi-riyazi analizin və riyazi proqramlaşdırmanın metodologiyasının işlənib hazırlanmasına böyük töhfə vermişdir. O, riyazi metodların iqtisadi nəzəriyyəyə və empirik statistik iqtisadi tədqiqatlara tətbiq edilməsini göstərmək üçün iqtisad elminə "ekonometrika" terminini gətirmişdir. Friş Tin-bergenlə birlikdə Ekonometrika Cəmiyyətinin yaradılmasının (1931) təşəbbüsçülərindən biri olmuş, 20 ildən artıq müddətdə (1933–1955-ci illər) "Ekonometrika" jurnalına redaktorluq etmişdir.

Friş "Tarazlıq və qeyri-tarazlıq anlayışı haqqında" (*"On the Notion of Equilibrium and Disequili-brium", 1936*) məqaləsini dərc etdirəndən sonra onun iqtisadi dinamika sahəsində ideyaları beynəlxalq aləmdə məşhurlaşmışdır. Həmin məqalədə iqtisadi dinamikanın bu sahədə sonrakı tədqiqatlara təsir göstərmiş fundamental müddəaları şərh edilmişdir. Friş iqtisadi tsikl probleminə həsr edilmiş "İlkin və təkrar investisiyalar arasında *münasibətlər" ("Sammenhangen mellom primaerinvestering or reinvestering", 1927)* adlı ilk xüsusi işində təkrar investisiyaların tsiklik dəyişmələrdə rolunun dərin nəzəri təhlilini vermişdir. Akselerasiya prinsipi deyilən prinsipin və işgüzar fəallıq tsikllərinin inkişafında bu prinsipin əhəmiyyətini birinci olaraq Friş izah etmişdir. Friş "Dinamik iqtisadiyyatda yayılma problemləri və impuls problemləri" (*"Propagation Problems and Impuls Problems in Dynamic", 1933*) məqaləsində ilk dəfə olaraq "mikroiqtisadiyyat" (ayrı-ayrı iqtisadi subyektlərin davranış sahəsini göstərmək üçün) və "makroiqtisadiyyat" (vahid milli iqtisadiyyat çərçivəsində fəaliyyətin sahəsini göstərmək üçün) terminlərini elmi dövriyyəyə daxil etmişdir. Bu məqalədə Friş milli gəlirin hesablanması üçün ilk sistemlərdən birini təklif etmişdir. Bu işin praktik nəticəsi kimi Norveçdə milli gəlirin hesablanması üçün hərtərəfli götür-qoy edilmiş sistem başqa ölkələrdən daha tez yaradılmışdır.

30-cu illərdə Friş Böyük Britaniyada İsveç məktəbindən olan iqtisadçılarla və C.M.Keynslə paralel iqtisadi siyasət modellərinin işlənib hazırlanması ilə intensiv məşğul olmuşdur. Frişin ideyalarında müasir makroiqtisadi nəzəriyyənin və planlaşdırma nəzəriyyəsinin sonralar V.Leontyev, T.Kupmans və L.Kantoroviç tərəfindən inkişaf etdirilmiş bir sıra elementləri nəzərə çarpır. "Dövriyyənin planlaşdırılması" (*"Circulation Planning", 1935*) məqaləsində Friş ilk dəfə olaraq F.Leontyevin "məsrəflər – buraxılış" modelinə oxşar bir model təklif etmişdir. Friş müasir iqtisadi nəzəriyyənin bir sıra bölmələrinin, o cümlədən ümumi iqtisadi tarazlıq nəzəriyyəsinin və oliqopoliyanın, yaşayış minimumu indekslərinin və əhali optimumunun hesablanması nəzəriyyəsinin inkişafına töhfələr vermişdir.

FRİTREDERÇİLİK (ing. *free trade* – azad ticarət) – proteksionizm siyasətinin alternativi olan liberal xarici iqtisadi siyasət prinsipi, klassik iqtisadi nəzəriyyənin əsas ideyalarından biri. Fritrederçilik Böyük Britaniyada sənaye çevrilişi dalğasında yaranmışdır və o, xaricdən kənd təsərrüfatı malları, ilk növbədə, ucuz taxıl gətirilməsinə mane olan bir amil kimi aqrar gömrük rüsumlarının ləğv edilməsinə qarşı mübarizə ilə bağlı idi. İngiltərə sənayeçiləri xammalın və ərzağın qiymətinin aşağı olmasında maraqlı idilər, çünki bu, istehsal xərclərinin azalmasına və son nəticədə İngiltərə sənaye mallarının dünya bazarında rəqabət qabiliyyətinin artmasına şərait yaradırdı. Fritrederçilik tərəfdarları merkantilistlərlə polemikada A.Smit və fiziokratlar çıxış edirdi. D.Rikardo isə ticarətin sərbəstliyinin üstünlüklərini nəzəri cəhətdən əsaslandırmaqla yanaşı, parlament tribunasından fəal çıxış edərək fritrederçilik ideyalarının praktikada həyata keçirilməsinin zəruri olduğunu bildirirdi.

XIX əsrin ortalarında taxıl qanunları deyilən qanunlar və naviqasiya aktları ləğv edildikdən sonra o dövrdə dünyanın sənaye

cəhətdən ən çox inkişaf etmiş ölkəsi olan Fransada (1852-1871), eləcə də Almaniyada və Rusiyada (1850-1860) fritrederçilik qalib gəldi. Lakin iqtisad elminin klassiklərinin fikrincə, fritrederçilik ticarətin iştirakçıları olan bütün ölkələr üçün sərfəli olmasına, ənənəvi proteksionizmi əvəz edəcəyi barədə fikirlərinə baxmayaraq, XX əsr proteksionist siyasətinin yeni müxtəlif növlərini nümayiş etdirdi. Müasir şəraitdə fritrederçilik Avropa İqtisadi Birliyi, EAST və başqa qapalı inteqrativ birliklər çərçivəsində həyata keçirilir. MDB ölkələri də öz qarşılıqlı münasibətlərini bu prinsiplər üzərində qurmağa çalışırlar.

FRONTİNQ – bu əməliyyat prosesində şirkət sığorta polisini tərtib edir, lakin riski digər sığortaçıya vermir. Sığortaçı bazara daxil olmağı arzu edən, lakin ora ya onun, ya da onun polisinin buraxılmadığı zaman həyata keçirilir. Bu şirkət yerli sığorta şirkətinə sığorta polisini mükafata görə tərtib etmək, sonra isə özünə riskləri və sığorta haqlarını köçürmək təklifi ilə müraciət edir.

FRONTLAMA SIĞORTA ŞİRKƏTİ – digər şirkətin xahişilə öz adından polisi verən sığorta şirkəti; burada nəzərə alınır ki, qəbul edilmiş işin 100%-i o şirkətdə təkrar sığortalanana qədərdir ki, onun xahişi ilə bu polis verilir.

FRONTLAMA ŞİRKƏTİ – digər şirkətin xahişi ilə polisi öz adından verən sığorta şirkəti; burada nəzərdə tutulur ki, qəbul edilən işin 100%-i o şirkətdə təkrar sığortalanacaq ki, bunun xahişi ilə həmin polis verilir – bir halda ki, frontlama şirkəti sığortalı qarşısında hüquqi məsuliyyəti öz üzərinə götürür. O, frontlamaya görə mükafat almaq hüququna malikdir.

FİDUSİAR (ing. *fiduciary*) – əmlakı idarə edən və ya başqasının maraqlarında onun üçün məsuliyyət daşıyan hüquqi və ya fiziki şəxs.

FİDUSİAR EMİSSİYA (ing. *fiduciary issue*) – 1) hökumətin buraxdığı, dövlət qızıl ehtiyatları və başqa təminat vasitələri ilə təmin olunmayan nağd pulların bir hissəsi. XIX əsrdə pul emissiyalarının çoxu qızılla möhkəmlənirdi və hər kəs öz əsginaslarını qızıla dəyişdirə bilərdi. Hazırda dövlətlərin çoxunda qızıl ehtiyatları və nağd pulun başqa təminat vasitələri olduqca cüzidir, ona görə də, pul emissiyası əsasən fidusiar xarakteri daşıyır; 2) emissiya bankının qiymətli metal ehtiyatları (ilk növbədə, qızıl) ilə təmin olunmayan əsginasların və pul nişanlarının emissiyası. Əsginasların tarixi emissiyası buraxılmış əsginasların dəyərinin müəyyən hissəsini təşkil edən qızıl ehtiyatları olduğu halda baş verirdi, lakin tədricən bu qaydadan imtina etmişlər. İndi fidusiar emissiya hakim sayılır.

FİDUSİAR MÜNASİBƏTLƏR (ing. *fiduciary relationships*) – etibarlı mülkiyyətçi ilə benefisiar, sığorta edən və sığorta olunan, şirkətin təsisçisi və təsis edilən şirkət arasında etibar üzərində qurulan münasibətlərdir. Fidusiar münasibətlər onu nəzərdə tutur ki, etibarlı tərəf o biri tərəfə qarşı maksimum imkanı olan hər şeyi edir və bundan gizli mənfəət belə götürmür.

FİDUSİARİ (ing. *fiduciary*) – 1) etibarnaməyə əsasən və ya qəyyum kimi mülkiyyəti idarə edən etibarlı şəxs. Etibarlı şəxslər öz öhdəliklərini mənfəət əldə etmək üçün deyil, başqa şəxsin və ya şəxslərin maraqlarını gözləmək üçün yerinə yetirirlər; 2) borcun girovla, qızılla və s. ilə təminatı ilə deyil, etibarla təmin olunan xarakteristikası.

FİDUSİYA (lat. *fiducia*) – etibar üzərində qurulmuş sövdə, müqavilə.

FUNDAMENTAL TƏHLİL (ing. *fundamental analysis*) – cari iqtisadi şəraitin təhlilinə əsaslanan qiymət dəyişmələrinin proqnozlaşdırılması metodu. Fundamental təhlil balansların, illik hesabatların, birja konyunkturasının və iqtisadiyyat sahələrinin inkişaf perspektivlərinin öyrənilməsini nəzərdə tutur.

FUNDAMENTAL TƏHLİLLƏR – şirkətin öz dəyərini müəyyən etmək üçün gələcək perspektivlərini və mühasibat hesablarını öyrənən tədqiqat sahəsi.

FUNDLAŞDIRILMAMIŞ İSTİQRAZLAR – qısamüddətli istiqrazlar dərəcəsinə aid edilən, müəyyən müddət (bir neçə həftədən bir ilə qədər) üçün buraxılan dövlət istiqrazları. Bu istiqrazlar mərkəzi və kommersiya banklarının köməyi ilə əsasən xəzinə vekselləri formasında yayılır.

FUNDLAŞDIRILMIŞ GƏLİR (lat. *fundare* – əsasını qoymaq) – əmlaka (daşınmaz əmlak, qiymətli kağızlar) sahiblikdən əldə edilən gəlir. Fundlaşdırılmış gəlirin əsas formaları renta və faizlərdir. Fundlaşdırılmış gəlir əldə edən şəxs rentye adlanır.

FUNKSİONAL-DƏYƏR TƏHLİLİ – obyektlərin funksiyalarının minimal xərclərlə müxtəlif tipli obyektlərin ictimai zəruri istehlak xassələrinin təmin edilməsinə yönəlmiş tədqiqatları. İşçilərin idarə edilməsinin funksional-dəyər sisteminin təhlili idarəetmə funksiyalarının texniki-iqtisadi tədqiqat metodu olub, işçilərin idarə edilməsi funksiyalarının həyata keçirilməsi üçün məsrəflərin azaldılması və bu işin keyfiyyətinin artırılması yollarının axtarışına yönəlmişdir. Bu metod idarəçiliyin artıq və ya təkrarlanan funksiyalarını aşkar etməyə və aradan qaldırmağa imkan verir.

FYUÇERS (ing. *futures*) – müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə alınması və ya satılması haqqında öhdəliyini təsbit edən standartlaşdırılmış birja müqaviləsini ifadə edən qiymətli kağız (bax: cədvəl 1).

FYUÇERS BAZARI – əmtəələr, xarici valyuta, xəzinə vekselləri, istiqrazlar, fond indeksləri üzrə fyuçers müqavilələri bazarı. Belə bazarın yaranması istehsalçıların özlərini qiymət dəyişməsindən qoruma məqsədləri ilə izah olunur. Ona görə də bazarlarda ilk olaraq fyuçers müqavilələrini kənd təsərrüfatı məhsulları istehsal edənlər bağlamağa başlamışlar. Sonradan bu müqavilələr qiymətlərin dəyişməsindən istifadə edərək varlanmaq istəyən möhtəkirlər arasında geniş yayılmağa başladı. Satıcı müəyyən edilmiş müddətdən əvvəl əmtəəni alıcıya verməyə borclu deyil. Satıcı pulun bir hissəsini müqavilə bağlanarkən, qalan hissəsini isə malı təqdim edərkən alır. Fyuçers müqavilələri özləri də yerli broker kontorlarında alınıb-satılır. Fyuçers müqavilələrində müqavilənin bağlandığı əmtəənin və ya maliyyə vasitəsinin adı, müqavilənin həcmi, müddəti, vahidinin qiyməti, dövriyyədə olan müqavilələrin miqdarı öz əksini tapır.

FYUÇERS BİRJASI (ing. *futures market*) – fyuçers kontraktları ilə ticarət aparan birja tipi. Bu, əmtəə birjasının daha müasir formasıdır. Real əmtəə birjasından fərqli olaraq fyuçers birjasında əqdin yerinə yetirilməsi yalnız bağlanmış fyuçers kontraktının qiyməti ilə real əmtəənin dəyəri arasındakı fərqin ödənilməsi ilə məhdudlaşa bilər. Real əmtəə bazarı ilə əlaqə dolayıdır, yəni əmtəə alışveriş yolu ilə yox, hecirləmə vasitəsilədir. Fyuçers birjasında kontraktların şərtləri qiymət istisna olmaqla, tam standartlaşdırılmışdır. Kontraktların təsbit olunmuş müddətləri birja komitəsi tərəfindən müəyyən edilir. Fyuçers birjalarında həm əmtəə kimi neft və neft məhsulları, paxla və yağ məhsulları, qiymətli və əlvan metallar, taxıl, pambıq, şəkər, qəhvə, kakao, həm də valyuta, səhmlərin indeksləri, faiz dərəcələri və s. üzrə əqdlər bağlanır.

Fyuçers birjasında bağlanan əqdlərin əsasən qondarma səciyyə daşıması (burada əqdlərin yalnız 1-2%-i əmtəə satışı ilə nəticələnir) bu birjada ticarəti real əmtəə birjasındakı ticarətdən fərqləndirir. İş ondadır ki, bir çox müddətli kontraktlar əmtəəni müəyyən vaxtda müəyyən qiymətə almaq (satmaq) üçün opsion (hüquq) formasında olur. Belə kontraktların bağlanması həm tədarükçü, həm də istehlakçı üçün qiymət risklərinin hecirlənməsi vasitəsidir. Ona görə də hecirlənmə ticarətin maliyyələşdirilməsinə çəkilən xərclərin azaldılmasına xidmət edən əsas vasitə kimi çıxış edir. Fyuçers birjası kapitalın dövriyyəsinə qiymətlərin mənfi təsir göstərmə riskini azaltmaq, əlverişsiz konyunktura hallarında tələb olunan ehtiyat kapitalın ölçüsünü kiçiltmək, pul şəklində avans verilmiş kapitalın geri qaytarılmasını sürətləndirmək, ticarəti daha az xərclə kreditləşdirmək və tədavül məsrəflərini azaltmaq imkanı vermişdir.

FYUÇERS QİYMƏTİ – müddətli müqavilə; buna uyğun olaraq müqaviləni bağlayan tərəflər həmin müqavilənin bağlanması məqamındakı təsbit olunmuş qiymət üzrə gələcəkdə müəyyən müddətə müəyyən miqdar birja əmtəəsinin və ya maliyyə alətlərinin daşınmasını və alınmasını öz öhdəsinə götürür. Fyuçers bazarındakı qiymətin əmələ gəlməsi dövlət müdaxiləsi olmadan – sərbəst baş verir. Hər bir birja "tik" (ing. *"tick or minimum tluc tuation"*) adlandırılan franko qiymətinin tərəddüdünün minimum yol verilən həddini müəyyən edir. Hərrac vaxtı brokerlər və dilerlər dəfələrlə "tik"ə bərabər qiymət oxumalıdırlar. Məsələn, ABŞ-da taxılın fyuçers müqaviləsi üçün franko qiymətin minimum tərəddüdü 1 buşel

Cədvəl 1

Fyuçers və forvardlar arasındakı fərq

Xüsusiyyətlər	Fyuçers	Forvard
Müqavilə tərəfləri	Hesablaşma palatası – ümumi alıcı və satıcı; konkret kontragentlər müqavilədə məlum deyillər	İki konkret təsərrüfat kontraktları
Hüquq-öhdəliklərin növləri	Azad əvəz olunan, ötürülənlər	Ötürülməyənlər
Emitent və zamin	Hesablaşma palatası	Yoxdur. Kontragentlər tərəfindən zəmanət verilir
Bağlanılma və fəaliyyət yeri	Birja müqaviləsi mövcud birjada dövr edir	İki kontragent arasında birjadan kənar müqavilə dövr etmir
Keyfiyyət, kəmiyyət, bazalar, təchizat vaxtı	Standartlaşdırılmış	Tərəflər arasında müqavilədə müəyyənləşir
Müqavilənin bazası	Bütün müqavilələr üçün eyni olan standart istehlak qiyməti	Hesablanmış fərdi istehlakın qiyməti
Likvidlik	Birja aktivindən asılıdır, adətən çox yüksəkdir. Likvidlik iki formada: fiziki təchizat və ya əks əməliyyat	Çox hallarda məhduddur. Təchizat əvəzinə nağd ödəniş
Bazis aktivinin təchizat tezliyi	2-5%	100%
Hərrac üsulları	İkili hərracda açıq razılaşma	Müqavilə prosedurası
Məqsəd	Qiymət fərqindən mənfəətin əldə olunması	Bazis aktivinin gələcəkdə alınması və ya satışı
Risk	Minimaldır və ya birja tərəfindən qeydiyyata alınmış müqavilədə yoxdur	Səviyyəsi, o cümlədən kontragentlərin kredit reytinqlərindən asılı olan bütün risklər mövcuddur
Tənzimləmə	Birja, müvafiq dövlət orqanı tərəfindən tənzimlənir	Az tənzimlənən

üçün 0,25 sent təşkil edir. Bir çox fyuçers bazarında, həmçinin bu və ya digər fyuçers müqaviləsində olan ajiotaj tələbə yol verməməkdən və onlar üzrə gəlirin hesablaşmaları sisteminin işini qaydaya salmaqdan ötrü əvvəlki birja gününün hesablaşma qiymətinə münasibətdə franko qiymətin tərəddüdünün gündəlik limitləri müəyyən olunur. Məsələn, Nyu-York fond birjasında franko qiymətin tərəddüdünün gündəlik limiti platinə görə 1 unsiyaya 0,25 dollar, neftə görə 1 qallona 2 sent və s. müəyyən edilmişdir.

FYUÇERS QİYMƏTLƏRİ VƏ SPOT QİYMƏTLƏRİ ARASINDA PARİTET TƏNLİYİ (*spot-futures price-parity relation*) – fyuçers qiyməti, spot qiyməti və risksiz faiz dərəcəsi arasında qarşılıqlı əlaqə.

FYUÇERS MÜQAVİLƏSİ – gələcəkdə, sövdələşmənin bağlandığı məqamda tətbiq olunan qiymətlə müəyyən müddətə təyin edilmiş miqdar əmtəənin (əmtəə fyuçersi) və ya maliyyə aktivinin (maliyyə fyuçersi) göndərilməsi öhdəliyi. Fyuçers müqaviləsinin satıcısı gələcəkdə

Cədvəl 1

Fyuçers müqaviləsi üzrə qiymətin hesablanması

Fyuçerslər	Düstur	Təsvir
Faiz	Qbb=(Bq*Mn*Mm)/12 Qbb1=1/32*0.01*Mn	***Qbb*** – baza bəndinin dəyər qiymətləndirilməsi (bazis qısamüddətli faiz); ***Bb*** – baza bəndi (0,0001-ə bərabər); ***Mn*** – müqavilənin standart nominalı; ***Mm*** – müqavilənin standart icra müddəti (aylarla); ***Qbb1*** – əsası uzunmüddətli faiz dərəcəsi, qiymətlər miqyası hər 100 ədəd nominalın 1/32-ni təşkil edən fyuçers qiyməti.
Valyuta	Qbb=Bs*Mn	***Qbb*** – baza bəndinin dəyəri, milli valyuta vahidinə düşən ABŞ dolları ilə; ***Mn*** – müqavilənin standart nominalı; ***Bs*** – baza bəndinin birja tərəfindən müəyyənləşdirilən milli valyutaya düşən standart dəyəri

aktivin göndərilməsini öz üzərinə götürür, alıcı isə bu göndərişin tanınmasına razılıq verir. Fyuçers müqaviləsi birja əmtəələri üçün, eləcə də maliyyə alətləri (valyuta, istiqraz, veksel, fond indeksləri) üçün bağlanır. Hər bir birja öz müqavilə şərtlərini müəyyən edir. Xüsusilə, hər bir əmtəə fyuçers müqaviləsi: a) məhsul və onun keyfiyyətini; b) müqavilənin satıldığı birjanı; c) müqavilənin ölçüsünü (məsələn, kütlə vahidlərində); ç) müqavilənin qiymətləndirilməsi metodunu və ya əmtəə vahidinin qiymətini; d) məhsulun göndərilmə vaxtını müəyyən edir. Bir əmtəəyə bir neçə müqaviləni almaq (satmaq) olar. Fyuçers müqaviləsinin maksimum müddəti, bir qayda olaraq, 1 ilə qədərdir, lakin 3 il müddətinə qədər olan müqavilələr (uzunmüddətli maliyyə alətlərinə) də olur. Müqavilənin alqısı "uzun" mövqe, satqısı isə "qısa" mövqe adlanır. "Uzun" və "qısa" mövqelər kompensasiya sövdələşməsi, yəni əks fəaliyyətin baş verməsi (məsələn, bu məbləğə müqaviləni satmaqda "uzun" mövqeyi tutaraq) yolu ilə ləğv olunur.

Bir qayda olaraq, bütün müqavilələrin yalnız bir hissəsinə (1%-ə yaxın) aktivlərin göndərilməsi ilə icazə verilir. Qalanları göndəriş ayından əvvəl ləğv edilir. Fyuçers müqaviləsi ticarəti marja əsasında həyata keçirilir, buna görə də həqiqətən müqavilənin alqısı üçün tələb olunan məbləğ nisbətən aşağıdır. Marja ilə alqı tam qiymətin yalnız bir hissəsinin nağd pulla ödənilməsi deməkdir. Bu hissə qiymətin əlverişli olmadan dəyişməsi zamanı itkinin örtülməsi (ödənilməsi) üçün zəruri olan girovdur. Lazımi ilkin ödənilən haqq, adətən, müqavilənin dəyərinin 2%-dən 10%-ə qədərini təşkil edir. Bununla əlaqədar olaraq, ilkin kimi məbləğ (bu məbləğ onun həyata keçirilməsi üçün sövdələşmənin başlanğıcında brokerə köçürülür) və saxlanılan (kömək göstərilən) haqq (bu məbləğ ilkin məbləğdən aşağıdır və müqavilənin fəaliyyət göstərdiyi müddət ərzində brokerin müştərisinin hesabında saxlanmalı olan investorun öz vəsaitlərinin minimum ölçüsünü müəyyən edir) fərqləndirilir. Əmtəə fyuçers müqaviləsi üçün tətbiq olunan kotirovka (qiymətləndirmə) sistemi müqavilənin həcminə və əmtəə vahidinin qiymətləndirilməsinə (cədvəl 1), maliyyə fyuçersləri üçün isə müqavilə vahidinin ölçüsünə və müqavilə vahidinin qiymətləndirilməsinə əsaslanır. Fyuçers müqaviləsi əməliyyatına qoyulan kapitalın gəlirliliyi müqavilənin satış qiyməti ilə məcburi depozit məbləğinə bölünən alış qiyməti arasında fərq kimi ölçülə bilər.

G

GENDER – fərdlərin sosial cinsləri. Cəmiyyətin mədəni və sosial inkişafı ilə verilmiş şəxsiyyət və rolların xüsusiyyətlərinin dəstidir ki, bununla da kişilərin və qadınların əxlaqı, onlar arasında münasibətlər, kişilərə və qadınlara, oğlanlara və qızlara münasibətlər müəyyənləşdirilir. Son nəticədə bunlar həyat fəaliyyətinin bütün sferalarında cinslər arasında hakimiyyətin və resursların bölüşdürülməsi göstəricisi hesab edilir. Resursların bölüşdürülməsinin gender təhlili vaxt, gəlir, əmlak, ictimai nemətlərin, torpağın, istehsal resurslarının, siyasi qərarların əldə olunması kimi resurslara əsaslanır.

Gender qeyri-bərabərliyi çox çətin problemlərdən biridir. Gender qeyri-bərabərliyinin səbəbləri və səviyyəsi üç əsas faktorla izah edilir:

– cəmiyyətin inkişaf faktoru ilə (sosial-iqtisadi, demoqrafik, texnoloji);

– gender qaydaları faktoru ilə (ayrı-seçkilik faktoru);

– əxlaq (davranış) faktoru ilə.

Göstərilənlər arasında ən güclü faktor ayrı-seçkilik faktoru (və ya gender qaydaları faktoru) hesab olunur.

Gender qaydaları – siyasi institutların və siyasi mədəniyyətlərin, cəmiyyətin gender məsələlərinə münasibətinin sosial normalar sistemidir. Əksər cəmiyyətlərdə gender qaydası patriarxat hesab edilir ki, burada da kişi hakimiyyəti güclü olur.

GENDER BÜDCƏSİ – gender büdcəsi, başqa sözlə, cəmiyyətdə gender tarazlığı problemlərini hədəfləyən büdcə – milli iqtisadiyyatın idarə olunmasında gender yanaşmasının tətbiqinin zəruriliyini əsas götürərək büdcə proseslərində tətbiq edilən müvafiq alət, mexanizm və institutların məcmusu.

Gender büdcəsi bütün səviyyələrdə büdcənin (o cümlədən, digər fiskal proqramların) həyata keçirilməsində və qiymətləndirilməsində gender amilinin nəzərə alınmasını, gender indikatorlarının işlənib hazırlanmasını və gender balansının gözlənilməsini nəzərdə tutur.

Hər bir sosial-iqtisadi problemin həllində olduğu kimi, gender tarazlığının təmin olunması məsələlərində də retrospektiv və cari baxımdan dünya təcrübəsinə müraciət etmək lazımdır. 1995-ci ildə Pekində qadın problemlərinə həsr olunan beynəlxalq konfransda – büdcə qərarlarının qəbul edilməsi prosesinin gender aspektləri məsələlərinə də toxunulmuşdu. Bu tədbirin davamı olaraq 31 avqust – 3 sentyabr 1998-ci ildə Santyaqoda (Çili) növbəti tədbir keçirildi. Bu tədbirdə iştirakçı dövlətlərə gender büdcələrinin qəbul edilməsi ilə bağlı tövsiyələr verilirdi. Həmin tövsiyələrin hazırlanmasında bir sıra dövlətlərin, CAR, Böyük Britaniya və xüsusilə, Avstraliyanın (ilk dəfə 1984-cü ildə bu təcrübəni tətbiq edən) təcrübəsi əsas götürülmüşdü (qrafik 1). Qeyd olunan ölkələrin təcrübəsində gender büdcəsi probleminə ölkənin dövlət büdcəsi, sosial fondlar müstəvisində baxılması nəzərdə tutulmuşdu. Bununla yanaşı, gender problemlərinə, xüsusilə, ev təsərrüfatlarının büdcəsi ilə əlaqəli şəkildə baxılmasının zəruriliyi qeyd olunurdu. Belə ki, ev təsərrüfatlarında məhz qadınların körpə uşaqlara, yaşlı valideynlərə qulluq göstərməsi zamanı ortaya çıxan sosial problemlərin gender əhəmiyyəti vurğulanırdı. Bu halda, qeyd olunan mühüm məqamlardan biri də ondan ibarətdir ki, istər dövlət, istərsə də bələdiyyə büdcəsindən ev təsərrüfatlarına gender problemlərinin tam və ya qismən həlli üçün maliyyə vəsaitlərin və təşkilati dəstəyinin yönəldilməsinin vacibliyi əsaslandırıldı.


Cədvəl 1

Azərbaycanda iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin ümumi sayında qadınların xüsusi çəkisi (faizlə)

	2005	2006	2007	2008	2009	2010
İqtisadiyyat üzrə – cəmi	**45,6**	**45,2**	**43,7**	**42,8**	**43,2**	**43,1**
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	17,9	19,0	19,5	20,5	20,1	18,9
Mədənçıxarma sənayesi	17,5	14,5	14,6	14,1	12,6	12,4
Emal sənayesi	31,8	28,7	29,3	27,6	27,3	28,3
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	17,6	17,4	17,1	15,6	16,0	14,2
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	38,7	38,5	39,3	38,8	37,3	36,3
Tikinti	8,4	9,6	9,1	8,7	9,6	7,3
Ticarət; nəqliyyat vasitələrinin təmiri	35,8	34,2	32,1	31,1	32,4	31,3
Nəqliyyat və anbar təsərrüfatı	21,9	22,8	22,4	23,2	17,3	17,9
Turistlərin yerləşdirilməsi və ictimai iaşə	34,0	34,9	32,1	29,9	27,8	27,3
İnformasiya və rabitə	34,5	34,9	34,9	34,6	34,0	33,3
Maliyyə və sığorta fəaliyyəti	36,6	35,6	33,9	34,8	34,1	34,6
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	44,3	53,3	49,6	53,1	51,0	51,1
Peşə, elmi və texniki fəaliyyət	39,4	39,6	36,9	37,2	39,1	39,1
İnzibati və yardımçı xidmətlərin göstərilməsi	39,7	37,0	29,0	27,9	30,5	29,6
Dövlət idarəetməsi və müdafiə; sosial təminat	31,0	31,5	27,6	28,4	28,3	29,1
Təhsil	69,7	71,0	69,7	67,2	67,1	67,7
Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	77,4	77,6	75,1	78,0	77,9	76,5
İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	65,7	64,5	65,1	63,6	62,9	64,1
Digər sahələrdə xidmətlərin göstərilməsi	35,4	36,4	36,3	32,8	32,0	33,6

Gender büdcəsi inkişaf etmiş dövlətlərlə yanaşı, inkişaf etməkdə olan ölkələrdə də bu və ya digər formada tətbiq edilir. Britaniya Birliyinin Katibliyi tərəfindən büdcə siyasətinin gender təhlili ilə bağlı hazırlanmış metodika CAR, Avstraliya, Tanzaniya və Böyük Britaniyada sınaqdan keçirilmişdir. Məlumdur ki, ev təsərrüfatlarında xərclərin idarə olunması zamanı əsas iş yükü qadınların çiyninə düşür. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, qadınların dolayı vergilərin bir sıra formalarından azad olunması kasıb ailələrin, xüsusi ilə də qadın və

Dünya iqtisadiyyatının sahələrinə görə qadın və kişilərin bölgüsü (sahələrdə məşğul olanların ümumi yekunda xüsusi çəkisi)



Qrafik 1

uşaqların maddi vəziyyətinin yaxşılaşmasına yardımçı olmuşdur.

Afrikada kənd təsərrüfatı sahəsində aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, gender bərabərsizliyinin azaldılması istehsalın səmərəliliyinin və məhsuldarlığının 20% artmasına gətirib çıxarmışdır. Latın Amerikası ölkələrində aparılan araşdırmalar göstərir ki, əgər gender bərabərsizliyi aradan qaldırılarsa, qadınların əmək haqlarını 50%, ÜDM-i isə 5% artırmaq mümkün olar (Tzannatos, 1991).

Dünya Bankı tərəfindən aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, gender bərabərsizliyinin aradan qaldırılması gələcək nəsillərə müsbət təsir göstərə bilər. Belə ki, qadınların rifah halının artması gələcəkdə istehsalın həcminin yüksəlməsi ilə müşahidə oluna bilər. Uşaqların məktəbdə təhsil alması, qadınların sərəncamında daha çox vəsaitlərin qalması ilə nəticələnir ki, bu vəsaitlər də ev təsərrüfatlarına qoyulan "investisiya" kimi (ərzaq məhsullarının alınması, səhiyyə xidmətlərinin maliyyələşdirilməsi və s.) istifadə edilir.

Gender büdcəsinin tarixi çox olmasa da o, artıq həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin təcrübəsində tətbiq olunur. Gender büdcəsinin tətbiqi QHT və vətəndaş cəmiyyətinin tələbi ilə yanaşı, həm də BMT və s. bu kimi beynəlxalq təşkilatlar tərəfindən də bir çox dövlətlərə tövsiyə olunmuşdur. Bu isə gender büdcəsinin bey-nəlxalq müstəvidə baxılmasının zəruriliyini əsaslandırır.

GENİŞ MİQYASLI REKLAM – radio, televiziya, reklam lövhələri və afişalar da daxil olmaqla kütləvi informasiya vasitələrindən istifadə etməklə reklam.

GENİŞ NÜFUZETMƏ MARKETİNQ STRATEGİYASI – elə marketinq strategiyasıdır ki, bu zaman firmalar marketinq üçün yüksək məsrəflər zamanı aşağı qiymətləri müəyyən edirlər. Bazara sürətlə daxil olmaq və onun yüksək payını maksimum əldə etmək uğurlu hal hesab olunur.

GENİŞLƏNDİRİLMİŞ MİLLİ HESABLAR SİSTEMİ (GMHS) – birincilər sırasında yaranmış Fransa milli hesablar sistemi. Bu sistem 1946-cı ildə Dümonte, Qavanye və Froman tərəfindən 1938-ci il üzrə Fransa üçün dərc edilmiş MHS-dən

1976-cı ildə ilk dəfə dərc edilmiş və genişləndirilmiş milli hesablar sistemi (GMHS) adlanan müasir sistemə qədər inkişaf yolu keçmişdir. Fransada bu sistemdən həm makroiqtisadi tənzimləmə məqsədilə, həm də İqtisadiyyat Nazirliyinin, maliyyə və büdcə planlaşdırması üzrə Baş komissarlığın və digər müəssisələrin, o cümlədən müxtəlif elmi mərkəzlərin işinin analitik və proqnoz təhlili üçün bu gün də istifadə edilir. Fransa milli hesablar sistemi özünün bənzərsizliyi və ölkənin spesifikasına həddən artıq bağlı olması ilə fərqlənirdi. Müasir dövrdə Fransa milli hesablarının fərqləndirici cəhəti müəssisələr üzrə fiskal mənbələrdən alınmış mühasibat məlumatlarından intensiv istifadə edilməsi və müəssisələrdə hər il aparılan statistik müayinələr, eləcə də beynəlxalq sistemə daxil edilməmiş sərbəst iqtisadi cədvəlin saxlanmasıdır. Müasirlərimizin bəziləri Fransada köhnə MHS-dən GMHS-yə keçidi dövlətin sosializmə yaxın təsiri, digərləri isə beynəlxalq liberalizmin zəfər çalması ilə izah edirlər.

R.Skarzoni özünün "Fransada milli hesabdarlıq islahatı: ideologiyanın təkamülü. Siyasi iqtisad dəftərləri" adlı kitabında yazırdı ki, GMHS-yə keçid liberal ideologiyadan tam imtina edilməsini və onun iqtisadi gerçəkliyin sosializm mövqeyindən dərin təhlili ilə əvəz olunmasını göstərmişdir.

GEODEMOQRAFİK SEQMENTLƏŞMƏ – alıcıların yaşayış yerindən, müəyyən demoqrafik və sosial-iqtisadi parametrlərdən asılı olaraq, onların kombinəedilmiş əsaslarla seqmentlərə bölünməsi.


GEOİQTİSADİ ATRİBUTLAR – dünya iqtisadi sisteminin ayrılmaz, zəruri və mühüm xassələrini və əsas komponentlərini (beynəlmiləlləşdirilmiş təkrar istehsal dövrləri, dünya gəliri, yeni əmtəə formaları və təşkilati strukturlar, dünya bazarının çoxyarusluluğu, geoiqtisadi atlas, yüksək geoiqtisadi texnologiyalar, iqtisadi sərhədlər, geoiqtisadi yaddaş, geoiqtisadi müharibələr və s.), həmçinin, məcmu halda dünya geoiqtisadi sisteminin karkası və geoiqtisadi məkanda əməliyyatların strategiyalarını qabaqcadan müəyyən edən baza metodoloji üsullarını əhatə edən sistem.

GEOİQTİSADİ BUMERANQ – milli infrastrukturların inkişaf səviyyəsində fərqə əsaslanan strateji oyun, bu əsasda ultramüasir malların (məmulatlar, obyektlər) və texnologiyaların satın alınan malların (obyektlərin) tətbiq edilməsi üçün hazır olmayan infrastruktura tətbiq edilməsi nəticəsində həmin malların (obyektlərin) qəsb edilməsi effekti.

GEOİQTİSADİ EKSPANSİONİZM – başqa ölkələrin milli gəlirinin bir hissəsinin ələ keçirilməsinə, başqa dövlətlərin dünya gəlirinin formalaşmasında və bölgüsündə iştirakına imkan vermədən onların xammal, maliyyə, intellektual resurslarından transmilli strukturlar tərəfindən istifadə edilməsinə yönəldilmiş, xarici iqtisadi ekspansiyaya haqq qazandırmaq üçün geoiqtisadi ideyalar elan edən siyasi doktrina; dünya gəliri üzərində mütləq nəzarətə cəhd; geoiqtisadi müharibələrin başlanması.


GEOİQTİSADİ MƏKAN – bu qlobal məkan qlobal iqtisadi sistemin fəaliyyət qanunauyğunluqlarının dünya təkrar istehsal prosesinin reallıqlarında təzahür etdiyi sfera şəklində təsəvvür edilir.

Seçilmiş geoiqtisadi zonalar üzrə ÜDM istehsalının dinamikası



Qrafik 1

Dünyanın geoiqtisadi xəritəsi modeli



Zona №1 – ABŞ-ın başçılıq etdiyi Qərbi Atlantika alyansı,
Zona №2 – Şərq, Çin, Hindistan və digər ölkələr
Zona №3 – Latın Amerikası
Zona №4 – Afrika

GEOİQTİSADİ MÜHARİBƏLƏR – yüksək geoiqtisadi texnologiyalardan istifadə edilməklə geoiqtisadi məkanda əməliyyatların qabaqcadan planlaşdırılmış strategiyası üzrə mülki metodlarla zərər vurulması.

GEOİQTİSADİ PARADİQMA – geoiqtisadi anlayışlar və atributlar sistemində qurulan və dünya iqtisadi sisteminin modelini (karkasını) təsəvvür etməyə imkan verən elmi nəzəriyyə.

GEOİQTİSADİ TRİBUNAL – geoiqtisadi təcavüz haqqında işlərə baxılması yolu ilə məhkəmə funksiyasını həyata keçirən beynəlxalq məhkəmə kollegiyası. Dünya siyasətində geoiqtisadi prioritetlərə keçidlə əlaqədar, bu beynəlxalq struktur beynəlxalq təşkilatların yeni paketinə daxil olmalıdır.

GEOİQTİSADİ ÜFÜQLƏR – milli hədəflərin, strategiyaların, vəzifələrin, meyillərin dünyanın geoiqtisadi atlasında əksi.

GEOİQTİSADİ YADDAŞ – təxirə salınmış öhdəliklər və milli maraqların tələb olunmamış varisliyi sistemi.

GERB RÜSUMU – həyat sığortası müqavilələri daxil olmaqla müəyyən maliyyə təşkilatlarından dövlətin tutduğu vergi. Adətən gerb rüsumu gerb markasına görə müəyyən olunur və sənəd kimi sığorta polisinə yapışdırılır.

GERB VERGİSİ – müəyyən məhsullar üçün tutulan vergi. Bu verginin köməyi ilə müxtəlif əqdlər rəsmiləşdirilir, şirkətlər qeydiyyata alınır və ya onların səhmdar kapitalı artırılır. Etibarnamə, müqavilə və müxtəlif növ sazişlər (qəyyumluq haqqında, nümayəndəlik haqqında) üzrə gerb vergisinin ödənilməsi ya müvafiq dəyərli gerb markasının yapışdırılması ilə, ya da verginin ödənilməsi haqqında sənədin üzərində gerbli möhür vurulması ilə təsdiqlənir. Sabit (məhkəm) və ya proporsional vergi dərəcələri tətbiq edilir. Rüsumun məbləği, bir qayda olaraq, ya dəqiq stavkalar şəklində, ya da əqdin məbləğinin müəyyən faizi qədər təyin edilir. Gerb nişanları ya nağd pul şəklində bankların, ya da digər müvəkkil edilmiş təşkilatların kassalarına ödənilir. Keçmiş SSRİ-də 1930-cu ilə qədər müxtəlif formalarda mövcud olmuşdur. Sonralar vergi islahatı ilə əlaqədar vahid dövlət rüsumu ilə əvəz edilmişdir. Gerb markası gerb nişanı növlərindən biridir. Bu markanın satılması yolu ilə əsasən inzibati və ya məhkəmə orqanlarına mülki-hüquqi xarakterli ərizələr verilərkən gerb rüsumu tutulur.

GERİLƏMƏ HÜQUQU İLƏ FAKTORİNQ – bu faktorinq zamanı faktor tədarükçüyə müəyyən müddət ərzində ödənilməyən pul tələblərini qaytarmaq hüququna malikdir, bu şərtlə ki, tədarükçü faktor qarşısında ödəyən üçün zamin durmuş və faktora verilən pul tələbləri üzrə ödəməmək riskini daşıyır.

GERİLƏMƏ HÜQUQU OLMAYAN FAKTORİNQ – bu faktorinq zamanı faktor tədarükçünü pul tələblərinin ödəyənin ödəmədiyi halda qaytarılması hüququ olmadan maliyyələşdirilir. Bu zaman faktorinq əməliyyatları üzrə riskləri faktorun özü daşıyır.

GERİ ÇAĞIRILAN İMTİYAZLI SƏHMLƏR – səhmdar şirkəti tərəfindən müəyyən şəraitdə ödəniş vaxtı çatana qədər əvvəlcədən razılaşdırılmış qiymət üzrə (bir qayda olaraq nominala əlavə edilməklə) ödənilə biləcək səhmlərin buraxılışının bir hissəsi və ya bütün buraxılışı. Adətən bu cür səhmlərin buraxılışı barədə 30 gün əvvəldən səhm saxlayanlara xəbərdarlıq edilir.

GERİYƏ DEMPİNQ – malın xaricə satış qiymətinin daxili bazarda analoji malın qiymətindən artıq olması.

Geriyə dempinq nadir hallarda, adətən valyuta məzənnələrinin gözlənilmədən kəskin dəyişməsi nəticəsində, eləcə də ixracatçı dövlətin hökumətinin məqsədyönlü hərəkətləri ilə əlaqədar yaranır.

Təbii ehtiyatların ixracatçıları olan yerli müəssisələr üçün geriyə dempinq normal praktika hesab edilir. Bu praktika həm də ənənəvi ucuz resurslara malik olan və həyat səviyyəsi aşağı olan ölkələrdə öz məhsullarını xaricə satarkən tətbiq edilir.

GERİYƏ MÜKAFATLI ƏQD – müəyyən mükafat ödənilməklə qiymətli kağızı və ya malı müəyyən müddət ərzində əvvəlcədən təyin edilmiş qiymətə satmaq hüququnun əldə edilməsi.

GERİYƏ TRATTA – iddia irəli sürmək hüququ olan şəxs; əgər əks razılaşma yoxdursa, onun qarşısında mükəlləfiyyətli şəxslərdən birinə ödəniş müddəti təqdim edildiyi an çatan, həmin şəxsin yaşayış yeri üzrə ödənilməli olan yeni veksel vermək vasitəsilə ödənişi ala bilməsi.

GƏLƏCƏK DÖVRLƏRİN GƏLİRLƏRİ – 1. Müəssisənin hesabat dövrünə aid olmayan mənfəəti. Hesabat mənfəətini formalaşdıran gəlir bu terminlə təyin edilir. Amma formalaşma müvafiq xərclər çəkildikdən sonra növbəti hesabat dövrünə saxlanılır. Monetar avanslar da daxil olmaqla, termin daha geniş mənada tətbiq olunur. Belə mənfəət pul vəsaitlərinin daxil olması ilə bağlıdır. Mal tədarük olunmamış, xidmət göstərilməmiş və ya müvafiq xərclər tam ölçüdə edilməmiş əldə olunan vəsaitlər hesabat mənfəəti yox, gələcək dövrlərin gəlirləri adlanır. 2. Mühasibat uçotu hesabı olaraq hesabata daxil edilməli dövrdə hesablanmış, lakin qarşıdakı hesabat dövrlərinə aid olan gəlirlər haqqında informasiyanı ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur. Bu, mühasibat hesabı həm də əvvəlki illərə aid əskikgəlmələr üzrə hesabat dövründə aşkar edilmiş borcun qarşıdakı daxilolmaları haqqında, eləcə də təqsirkar şəxslərdən tutulmalı olan məbləğ ilə qiymətlilərin əskikgəlmələri üzrə balans dəyəri arasında uyğunsuzluqlar haqqında informasiyanın ümumiləşdirilməsi üçün zəruridir.

Bu hesab üçün aşağıdakı subhesablar açıla bilər: "Gələcək dövrlər hesabına alınmış gəlirlər", "Təqsirkar şəxslərdən tutulmalı məbləğ ilə qiymətlilərin əskikgəlmələri üzrə balans dəyəri arasındakı fərq", "Məzənnə fərqləri" və s.

GƏLİR – 1. Hər hansı bir fəaliyyət nəticəsində alınan pul və ya digər qiymətli dəyər (əşya). 2. Reallaşdırılmış məhsul və xidmətlərin dəyəri ilə, çəkilmiş məsrəflər arasında fərq kimi alınan istehsal-təsərrüfat fəaliyyətinin nəticəsi. 3. Əmanətlərə və depozitlərə uyğun olaraq qiymətli kağızların cari qiymətlərində faiz kimi ifadə olunan, sahiblərinə ödənilən faiz və ya

Cədvəl 1

İşçinin fərdi gəlir elementləri

Gəlirlərin qrupları	Elementlər
1. Əməyə görə mükafat	Əsas iş yerinə görə gəlir Qeyri-əsas iş yerinə görə gəlir Hərbçilərin pulla təminatı Mövsümi işlərdən qazanclar Digərləri
2. Digər sahələrdə əmək nəticələrindən əldə edilən gəlir	Fermer təsərrüfatlarının gəlirləri Şəxsi yardımçı təsərrüfatdan gəlir Ev təsərrüfatından gəlir Müəlliflik mükafatlandırmaları və s.
3. Sahibkarlıq fəaliyyətindən gəlir	Sahibkarlıq gəliri və sair
4. Kapital gəliri	Səhmlərin dividentləri İcarə haqqı Kapitaldan gəlir Yatırmalara görə faizlər Digərləri
5. Riskli əməliyyatlardan gəlir	Sığorta riskinin olduğu halda ödəmələr İstiqrazlardan uduş Lotereyadan, müsabiqələrdən əldə edilən uduş və s. İdman oyunlarından uduşlar Müxtəlif müsabiqələrdən uduşlar Digərləri
6. Ötürülən gəlir	Miras Hədiyyə Sponsor yardımı Alimentlər Müəlliflərin varislərinə mükafat
7. Sosial gəlir	İşçinin müvəqqəti əmək qabiliyyətini itirməsinə görə ödəmə Hamiləliyə və doğuşa görə ödəmələr Doğuma görə müavinət Uşaqlara görə müavinət və s.
8. Cəlb edilmiş vəsaitdən gəlir	Bank kreditləri Müəssisələrin kreditləri
9. Digər gəlirlər	Digərləri

dividendlər; cəmiyyət, dövlət, müəssisə, insan tərəfindən mənimsənilən istehsal olunmuş ictimai məhsulun (maddi xərclər çıxılmaqla) dəyərinin bir hissəsi. Şəxsin və əhalinin büdcəsinə daxil olur, yığım və istehlak məqsədi üçün istifadə olunur. Onlar muzdlu əməkdən (əmək haqqı), sahibkarlıqdan (mənfəət, sahibkarlıq gəliri), mülkiyyətdən (dividendlər, faizlər), şəxsi yardımçı təsərrüfatdan, sənətkarlıqdan və s. peşələrdən əldə edilən gəlirlərdən yaranır (cədvəl 1). Gəlir pul və natural formasında ola bilər. Nominal və real gəlirlər fərqləndirilir. Nominal gəlir müəyyən müddət ərzində əldə olunan pul vəsaitinin həcmini ifadə edir. Onun kəmiyyəti əhalinin maddi vəziyyətinin ən ümumiləşdirilmiş indikator göstəricisidir. Real gəlir isə müəyyən müddət ərzində mövcud qiymətlər səviyyəsində sərəncamda qalan gəlirə əldə oluna biləcək əmtəə və xidmətlər dəstidir. Başqa sözlə, real gəlir nominal gəlirin alıcılıq qabiliyyətini əks etdirir.

Adambaşına orta gəlir göstəricisi həyat səviyyəsinin təhlilində və proqnozlaşdırılmasında xeyli rol oynayır ki, bunu da statistika bütün şəxsi gəlirlərin ümumi məbləğinin ölkədə yaşayan əhalinin sayına bölmək yolu ilə müəyyən edir. Minimum gəlir, adətən, qanunla müəyyən edilmiş minimum əmək haqqı və minimum pensiya kimi təsbit olunur. Adambaşına orta minimum gəlir ailənin rəsmi və qeyri-rəsmi tədqiq edilməsi bazasında hesablanır. Gəlirin bütün sadalanan göstəriciləri sürət (artım və ya azalma) və diferensiallaşma (nisbət və fərqlər) mövqeyindən (istehlak imkanları) nəzərdən keçirilə bilər.

Təcrübədə aşağıdakılar da fərqləndirilir: aksiz gəlir, büdcə gəliri, ümumi pul gəliri, ümumi gəlir, valyuta gəliri, reallaşdırılmayan gəlir, təkrar istehsal edilmiş gəlir, qarşılıqlı gəlir, təkrar gəlir, illik gəlir, dövlət gəliri, pul gəliri, üstəlik pul gəliri, ev gəliri, əlavə gəlir, torpaq gəliri, kapitallaşmış gəlir, kapital gəliri, inhisar gəliri, natural gəlir, renta gəliri, cari gəlir, xalis gəlir, faktiki gəlir, təsbit olunmuş gəlir.

Qarışıq gəlir – ev təsərrüfatı üzvlərinə aid olan qeyri-korporativ müəssisələrin gəlirləri. Müəssisə sahibinin əmək haqqı almadan işləməsi mümkündür; əmək haqqı və istehsaldan gəlir elementlərini özündə birləşdirir ki, onları da ayırmaq mümkün deyildir. "Gəlirin yaranma mənbələri" hesabında istifadə olunan MHS göstəricisi iqtisadiyyatın ümumi gəliri göstəricisinə daxil edilir.

GƏLİR EFFEKTİ – əmtəənin qiymətinin dəyişməsinin (artmasının və ya azalmasının) istehlakçının real gəlirinə (alıcılıq qabiliyyətinə) və müvafiq olaraq məhsulların miqdarına göstərdiyi təsir. Məsələn, əgər istehlakçı müəyyən əmtəəni əvvəlkindən daha yüksək qiymətə alırsa, bu, real gəlirin, yaxud alıcılıq qabiliyyətinin azalmasına bərabərdir. İstehlakçının real gəlirləri əvvəlkindən aşağı olduqda o, daha az miqdarda əmtəə almağa məcburdur.

GƏLİR EVİ (ing. *profitable house*) – öz mülkiyyətçisi tərəfindən icarəçiyə və (və ya) onun ailə üzvlərinə müvəqqəti sahiblik və istifadə üçün yaşayış və qeyri-yaşayış binalarından ibarət xüsusi evin ölçülərinə məhdudiyyət qoyulmadan icarə müqaviləsinə müvafiq olaraq verilməsi. Xüsusi binanı icarəyə götürən şəxs ondan yaşamaq məqsədilə və ya intellektual, yaradıcı fəaliyyətə əsaslanan kiçik sahibkarlığın təşkil edilməsi üçün istifadə etmək hüququna malikdir, bu şərtlə ki, bu halda digər icarəçilərin hüquqları və qanuni mənafeləri pozulmasın.

Gəlir evinin səciyyəvi cəhətləri mənzillərin eyni şəkildə planlaşdırılmış olmasıdır. Bu mənzillər adətən dəhlizlər və ya pilləkən meydançaları ətrafında qruplaşdırılır.

Gəlir evi hüquq obyekti olmaqla konkret hüquqi və ya fiziki şəxsin mülkiyyəti kimi qeydiyyata alınmalıdır. Bu ondan irəli gəlir ki, gəlir evi daşınmaz əmlak obyekti kimi, torpaq sahəsi ilə, şəhərin infrastrukturu ilə ayrılmaz şəkildə bağlıdır və evə bölünməz sahiblik və ya bölünməz əşya deməkdir.

Bütün dünyada müxtəlif siniflərə aid yaşayış və ya qeyri-yaşayış binalarının icarə praktikası göstərir ki, daşınmaz əmlak bazarında alqı-satqı mülkiyyət predmetini mülkiyyətçinin əlindən almaq hüququ olmadan uzunmüddətli icarə ilə rəqabətdə geri qalır. Daşınmaz əmlak bazarının iştirakçılarının ən azı 50%-nin mənzilə tələbatını icarə təmin edir.

GƏLİR MƏNBƏYİNDƏN TUTULAN VERGİ (ing. *Withholding Tax)* – ödənilən mükafatdan tutulan vergi. Adətən xarici kontragentlərə, həmçinin şirkətin işçilərinə ödənilən mükafatlardan tutulur. Şirkətlərdən ən çox tutulan vergilər ƏDV və gəlir vergisidir. ƏDV adətən xarici kontragentin mükafatından məhsulların, xidmətlərin və mülkiyyət hüquqlarının əldə olunduğu zaman tutulur. Gəlir vergisi mükafat, faiz, royalti və dividendin ödənilməsi, o cümlədən daşınmaz əmlakın satılması zamanı tutulur. Ölkələr arasında ikili vergitutma haqqında razılaşma mövcud olduqda gəlir vergisi azaldıla və ya vergi ödəyicisi gəlirin yarandığı ölkədə vergidən azad edilə bilər. Fiziki şəxslər üçün adətən işə götürən özü işçilərin əmək haqlarından tutulmalar edərək, onların əvəzinə büdcəyə birbaşa vergi ödəyir.

GƏLİR NORMASI – kapital qoyuluşlarından əldə edilən gəlirləri (mənfəəti) faizlə ifadə edən göstərici, yəni kommersiya rentabelliyi. Bu termindən iqtisadi nəzəriyyədə geniş istifadə edilir. O, fiziki (əsas və dövriyyə) və maliyyə kapitalının qoyuluşundan, eləcə də insan resurslarına kapital qoyuluşundan əldə edilən gəlirlərə aid ola bilər. Mühasiblər və biznesmenlər bu göstəricini mənfəətin sərmayə qoyulmuş kapitala nisbəti kimi, daxili gəlir dərəcəsi (daxili xərclərin çıxarılması norması) kimi təyin edirlər. Bu halda gəlir normasının mühasibat üsulu ilə alınması üçün mənfəət müxtəlif üsullarla müəyyən edilə bilər: vergilər və amortizasiya nəzərə alınmadan, birinci ilin mənfəəti və layihənin mövcud olduğu dövrdə orta mənfəət. Kapital layihəyə ilkin kapital qoyuluşları, o cümlədən dövriyyə vəsaitləri kimi, yaxud layihənin mövcud olduğu dövrdə orta investisiya kapitalı kimi təyin edilə bilər. Kapitalın məbləğinə nəzərən faizlə ifadə edilmiş mənfəətin kəmiyyəti investisiya qoyulmuş kapital üçün mənfəət normasıdır. Bu norma kapitalın müəssisə (firma) tərəfindən hesablanmış dəyəri ilə müqayisə edilir. Bu göstərici təsərrüfatçılığın effektivlik meyarı, sahibkarın mövcud istehsal resurslarından optimal və səmərəli istifadə etmək bacarığı kimi tətbiq edilir. Gəlir norması nə qədər yüksək olsa, kapital artımı bir o

qədər çoxdur və deməli, ondan istifadə edilməsinin səmərəsi, müəssisənin gəlirlilik göstəricisi bir o qədər yüksəkdir. Kapitalın dövriyyə sürəti də gəlir normasına ciddi təsir göstərir, yəni il ərzində kapital nə qədər çox dövr etsə, gəlir norması bir o qədər yüksək olur.

"GƏLİR–VERGİ" CƏDVƏLLƏRİ (ing. *income-tax schedules*) – bu və ya digər şəxsin vergi ödənişləri üzrə öhdəliklərin qiymətləndirilməsi prosesinin sadələşdirilməsi üçün bir sıra ölkələrin vergi xidmətləri tərəfindən istifadə edilən gəlirin müxtəlif mənbələrinin təsnifatı. Bu tipli 6 cədvəl mövcuddur, onlar, müvafiq qaydada, latın əlifbasının A-F hərfləri ilə işarə olunur. Gəlir mənbələri cədvəllər üzrə aşağıda göstərilən qaydada bölünür:

A: torpaq və daşınmaz əmlak;
B: biznes üçün istifadə edilən meşə yerləri;
C: ictimai təşkilatların (hökumət daxil olmaqla) qiymətli kağızları üzrə faizlər və dividendlər;
D: ticarət, biznes, peşələr, alınmış bütün faizlər;
E: muzdlu iş üçün əmək haqqı ("qazanmısan – ödə" sxeminə müvafiq olaraq);
F: şəxsi şirkətlərin qiymətli kağızları üzrə gəlirlər.

Gəlir vergisi və onun vergi bazasından çıxılan məsrəf maddələri barəsində müxtəlif normalar və qaydalar mövcuddur.

GƏLİRLƏR – təsbit olunmuş təqvim mərhələsində daxil olan pul vəsaitləri (əmək haqqı, təqaüd, renta, mənfəət, müavinət, aliment, qonorar və s.) (bax: sxem 1).

GƏLİRLƏR HAQQINDA BƏYANNAMƏ (lat. *declaratio* – bəyanat, elan, ərizə) – müəyyən müddət ərzində (bir qayda olaraq il ərzində) fiziki şəxslərin aldığı və dövlət orqanlarına bu gəlirlərdən vergilər ödənilməsi, haqqında həmin şəxslər tərəfindən bildirişdir. Şəxs tərəfindən doldurulmuş bəyannamə. Gəlirlər haqqında bəyannaməni yalnız əsas iş yeri üzrə gəlir əldə edən yox, həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlar və əsas iş yeri olmayan vətəndaşlar da təqdim edirlər. Sahibkarlıq fəaliyyətindən gəlir əldə edən şəxslər gəlirlər haqqında bəyannaməni onların ölçüsündən asılı olmayaraq təqdim edirlər. Fiziki şəxslər onların bəyan etdikləri göstəriciləri, bəyannamə vergi orqanlarına verildikdən sonra bir ay müddətində dəqiqləşdirmək hüququna malikdirlər.

GƏLİRLƏR SİYASƏTİ – muzdlu işçilərin əmək haqqına və gözlənilən inflyasiyaya təsir göstərən, hökumət tərəfindən müəyyən edilmiş norma və qaydaların məcmusu. Bu siyasət könüllü və məcburi ola bilər:


– könüllü siyasət halında həmkarlar ittifaqları təşkilatları əmək haqqının artırılmasını, satıcılar isə qiymətlərin artırılmasını tələb etmirlər;

– məcburi siyasət halında hökumət qiymətlərə və işçilərin əmək haqqına nəzarət edir.

GƏLİRLƏRİN BƏRABƏRLƏŞMƏSİ – dövlətin sosial-iqtisadi siyasətinin istiqamətlərindən biri; vəzifəsi milli məhsulun, şəxsi gəlirlərin və əmlakın bölgüsündə fərqlərin uzlaşdırılmasıdır. Gəlirlərin bərabərləşməsinin son məqsədləri – cəmiyyətin müxtəlif təbəqələri və qrupları arasında ziddiyyətlərin götürülməsi, onun sabitliyi, iqtisadi cəhətdən aktiv orta sinfin inkişafının formalaşması üçün bazanın yaradılmasıdır. Gəlirlərin bərabərləşməsi siyasətinin yerinə yetirilməsi qiymətlərin, vergilərin, sığorta tədiyələrinin, mənzil, nəqliyyat, rabitə haqlarının konkret tənzimlənmə mexanizmini nəzərdə tutur. Bu cür mexanizmlərə misal olaraq mütərəqqi gəlir vergilərini, kommunal və digər xidmətlərə görə əhaliyə dotasiyaların verilməsini, hər bir cəmiyyət üzvünə sosial-mədəni nemətlərin əlyetərliliyini təmin edən real tədbirlərin qəbul edilməsini göstərmək olar. Gəlirlərin bərabərləşməsi siyasətinə əhalinin sosial cəhətdən az təminatlı və az rəqabət qabiliyyətli təbəqələrinə birbaşa yardım tədbirləri – pensiyaların indeksləşməsi, uşaqlara müavinətlərin ödənilməsi, işsizlərə maddi yardımın göstərilməsi, ahıllara, əlillərə, çoxuşaqlı ailələrə və s. güzəştlərin və sosial xidmətin göstərilməsi təsir göstərir.

GƏLİRLƏRİN DREYFİ (ing. *earnings drift*) – bir əmək vahidinə düşən gəlirlərin müqavilə üzrə müəyyən edilmiş artım sürəti ilə müqayisədə qazancların, hər şeydən əvvəl əmək haqqının və məvaciblərin daha yüksək tempdə artması tendensiyası. Gəlirlərin dreyfinə bir sıra amillər imkan yaradır: iş vaxtından artıq işləməyə görə ödəmələr, mükafatlar, xüsusi müqavilələr, işəmuzd iş barədə sazişlərin şərtlərinə yenidən baxılması və s.

Sahibkar gəliri və iqtisadi mənfəət



Sxem 1

Xüsusi ixtisaslara malik işçilər tələb olunan yerlərdə ödəniş belə işçilərin çatışmaması hiss olunmayan sahələrlə müqayisədə daha yuxarı olacaqdır. İşəgötürənlə işçi arasında əmək şəraitinin bu cür, hətta qeyri-formal yolla, nizama salınması imkanı, bəzən gəlirlər siyasətinin asanlıqla pozulmasına və bunun sayəsində iqtisadi idarəetmə aləti kimi həmin siyasətin əhəmiyyətli dərəcədə zəifləməsinə gətirib çıxarır. Gəlirlərin dreyfi, bir qayda olaraq, tam məşğulluq vəziyyəti ilə bağlıdır, bu halda işəgötürənlər işçi qüvvəsini öz müəssisələrində saxlamaq üçün əmək haqqını yüksək dərəcədə artırmağa hazır olurlar.

GƏLİRLƏRİN DİFERENSİASİYASI – məcmu gəlirin adambaşına düşən orta ölçüdə əhali arasında bölgüsü.

GƏLİRLƏRİN İKİNCİ DƏFƏ BÖLGÜSÜ HESABI – institusional vahid və sektor tərəfindən alınan, dəyər formasında cari transferlərin alınması və ödənilməsi nəticəsində mövcud olan ilkin gəlirlərin onların gəlirlərinə necə çevrilməsini göstərən milli hesablar sistemi hesabı. Cari transferlər gəlir vergisindən, maddi qiymətlilərə olan vergilərdən və sosial sığortaya digər haqlardan, eləcə də digər transferlərdən (məsələn, həyat sığortası ilə əlaqədar olmayan sığorta mükafatları və sığorta iddiaları) ibarətdir.

GƏLİRLƏRİN İLKİN BÖLGÜSÜ – hüquqi və fiziki şəxslərin (rezidentlər, institusional vahidlər və ya sahələr üzrə) əldə etdikləri gəlirlərin istehsal fəaliyyətindən və mülkiyyətindən alınan gəlirlərə bölgüsünü xarakterizə edir (sxem 1). MHS-də istifadə edilən göstərici.

GƏLİRLƏRİN QEYRİ-BƏRABƏRLİYİ – cəmiyyət üzvlərinin əldə etdikləri gəlir səviyyəsində fərq. Gəlirlərin formalaşması mexanizmindən doğan hal. İqtisadi ədəbiyyatlarda bölgü münasibətlərinin əsas xüsusiyyəti kimi ifadə olunur. Qeyri-bərabərliyin obyektiv və subyektiv səbəbləri vardır. Belə ki, insanlar fiziki və intellektual qabiliyyətlərinə görə fərqlənirlər. Digər tərəfdən onlar sahib olduqları mülkiyyətin, sərvətin həcminə görə eyni imkanlara malik deyillər. Bəzi insanlar obyektiv səbəblər üzündən ictimai istehsalda iştirak edə bilmirlər. Beləliklə, mülkiyyətdəki fərqlər, qabiliyyətlərdəki fərqlər, təhsil və savad səviyyəsindəki fərqlər və s. gəlirlərin qeyri-bərabərliyini şərtləndirir (sxem 1). Gəlirlərin qeyri-bərabərliyi cəmiyyətdə yoxsulluq və digər sosial bəlaların yaranmasına gətirib çıxarır. Gəlirlərin qeyri-bərabərliyini müəyyən etmək üçün Lorens əyrisi, Cini əmsalı, fondlar əmsalı və s. göstəricilərdən istifadə olunur.

GƏLİRLƏRİN TOPLAMA İNDEKSİ – əhalinin gəlirlərinin diferensiasiya səviyyəsinin dinamikasının müvəqqəti qiymətləndirilməsi üçün istifadə olunan göstərici. Gəlirlərin bərabər bölüşdürülməsi zamanı gəlirlərin toplama indeksi 0-dan 1-ə qədər dəyişir. Gəlirlərin toplanmasının regionlararası səviyyəsinin müqayisə edilməsi üçün də tətbiq olunur.

GƏLİRLƏRİN YENİDƏN BÖLGÜSÜ – gəlirlərin bir hissəsinin qanunverici (məcburi) və könüllü əsaslarla cəmiyyətin digər üzvlərinə verilməsi. Gəlirlərin ilkin bölgüsü prosesindən kənarda qalan bir sıra kateqoriyadan olan insanlar var ki, onlar maddi istehsalda iştirak etməsələr də, onların da əməyi cəmiyyət üçün faydalı və zəruridir. Bunlar təhsil, səhiyyə, elm, incəsənət və s. sahələrdə çalışanlardır. Bu qrup insanlar öz gəlirlərini yenidən bölgü vasitəsilə əldə edirlər. Gəlirlərin yenidən bölgüsünün əsas məqsədlərindən biri gəlirlər arasında fərqlərin azaldılmasından ibarətdir.

Dövlət yenidən bölgünü müxtəlif kanallar vasitəsilə həyata keçirir ki, burada da əsas yeri dövlət büdcəsi tutur. Beləliklə, yenidən bölgü əsasən vergi mexanizmi vasitəsilə həyata keçirilir. MHS-də istifadə edilən göstərici.

GƏLİRLİ DİAQRAM *(payoff diagram)* – vaxtın bitməsi ilə qiymətli kağızın törəməsinin dəyəri və onun əsasında duran aktivin qiyməti arasında nisbəti göstərən qrafik.

GƏLİRLİ İSTİQRAZLAR (ing. *profitable bond*) – bu istiqrazlara görə faizlər emitent tərəfindən gəlir əldə edildikdə ödənilir. Bəzən bu istiqrazlara görə faiz kumulyativ faiz hesab edilir. Bu o deməkdir ki, əgər faiz ödənilmirsə, o, avtomatik olaraq saxlayıcının iddialarına (tələblərinə) daxil edilir. Bu, məsələn, şirkət ləğv edilən halda onun əmlakının bir hissəsinə, eləcə də borcun ödənilməsi üçün tətbiq edilən vəsaitlərə aiddir.

GƏLİRLİ QİYMƏTLİ KAĞIZLAR PORTFELİ – riskli qiymətli kağızlar portfelinin bu növü faiz hesablanması və dividendlər ödənilməsi şəklində yüksək cari gəlir əldə etməyə yönəlmişdir. Gəlirli qiymətli kağızlar paketi əsasən yüksək gəlirli istiqrazlara və digər qiymətli kağızlara görə yüksək dividendlərlə xarakterizə edilən gəlirli səhmlər hesabına formalaşır. Bu portfeldəki qiymətli kağızların cari gəlirlilik dərəcəsi qiymətli kağızların bazar üzrə orta gəlirlilik dərəcəsindən yüksək olur, lakin həmin qiymətli kağızların kurs dəyərinin artması çox ləng baş verir.

GƏLİRLİLİK – gəlir gətirmək qabiliyyəti. Gəlirlilik əmlakın təşkilatın aktivlərinə aid edilməsinin zəruri meyarlarından biridir. **Layihənin gəlirliyi** sərmayə qoyulması haqqında qərar qəbul edilərkən əsas meyarlardan sayılır.

Analitik proseduraların köməyi ilə, demək olar ki, istənilən növ əmlakın gəlirliyini hesablamaq olar.

Lakin çox vaxt təhlil aparılarkən aşağıdakı obyektlər üzrə gəlirlik hesablanır:

– bankların aktivlərinin gəlirliliyi – bankın xalis mənfəətinin onun ümumi aktivlərinə faiz nisbəti; bankın aktivlərindən istifadə edilməsinin səmərəliliyini xarakterizə edən əsas mənfəətlilik göstəricisi;


– səhmin gəlirliyi – səhm üzrə illik dividentin həmin səhmin bazar qiymətinə faiz nisbəti. Fond birjalarında dividendin birjanın bağlanış günü qeydiyyata alınmış axırıncı qiymətə bölünməsi yolu ilə təyin edilir;

– səhmin məcmu gəlirliyi – səhmdarın aldığı dividend ilə səhmin məzənnə dəyişməsinin cəmi şəklində gəlir. Faizlə hesablanır;

– investisiya kapitalının gəlirliyi,

– şirkətin məcmu mənfəətindən vergilər çıxılana qədər olan məb-


Gəlirlərin bölüşdürülməsi



GƏLİR BƏRABƏRSİZLİYİNİN ƏSAS SƏBƏBLƏRİ

- intellektual, fiziki, və estetik qabiliyyətlərin fərqi
- əldə olunan təhsilin və professional hazırlığın səviyyəsindəki fərq
- risk etməyə hazır olmaqda fərq ("riskə görə haqq")
- mülkiyyətə sahib olmaq bərabərsizliyi
- bazarda hökmranlıq və öz maraqlarında "bazardakı qiymətlərin süni artırılması" bacarığı
- uğur, əlaqələr, diskriminasiya və bədbəxt hadisələr

Sxem 1



Bu xəritədə müxtəlif rənglərlə Dünya Bankının üzvləri və digər iri dövlətlər təsvir olunmuşdur. Dünya Bankı tərəfindən hesablanmış hər nəfərə düşən ümumi gəlirə əsasən iqtisadi sistemlər bir neçə qrupa bölünmüşdür

ləğin həmin şirkətin xüsusi və borc kapitalına nisbəti;
– kapitalın gəlirliyi – şirkətin xalis gəlirinin onun kapitalına nisbətən faizlə ifadəsi.

GƏLİRLİLİK NORMASI – müəssisələr qrupu, sahələr, xalq təsərrüfatı, qiymətli kağızlar, investisiya layihələri üzrə gəlirin aktivlərə, kapitala nisbətinin orta qiyməti.

GƏLİRLİLİK SPREDİ *(yield spread)* – iki maliyyə alətinin gəlirliliyində fərq.

GƏLİRLİYİN AZALMASI QANUNU – bir məsrəfin artması və digərlərinin dəyişməməsi ilə elə bir həddə nail olunur ki, onu aşarkən dəyişən məsrəflərin fiziki məhsulu son həddə qədər azalır.
Bu qanun XVIII əsrdə T.Maltus və D.Rikardo tərəfindən dürüst ifadə olunmuşdur. Qanunda deyilir ki, dəyişən istehsal amillərinin (əməyin) həcminin daimi istehsal amilinə (kapitala) münasibətdə artması zamanı istehsal olunan məhsulun kəmiyyəti aşağı səviyyədə artır. Əksinə, əgər gəlirlilik aşağı düşərsə, onda istehsalın artımını dəyişkən amilin artım səviyyəsi ilə müqayisə etmək olmaz. Əgər bu prinsip istehsal prosesinə təsir göstərməsəydi, onda buğdanın bütün dünyaya çata biləcək zəruri kəmiyyətini təkcə toxumun həcmini artırmaqla (dəyişən amil) dibçəkdə yetişdirmək olardı (sabit amil).
İqtisadiyyatda "qısa müddət" dedikdə elə zaman kəsiyi nəzərdə tutulur ki, bunun ərzində heç olmazsa bir istehsal amili (kapital) dəyişməz qalır. Dəyişən amil rolunu adətən əmək oynayır.

GƏMİ KİRƏLƏMƏ (FRAXT) BİRJASI – daimi fəaliyyət göstərən gəmi kirələmə bazarı. O, regional, beynəlxalq, əmtəə və ya başqa əlamətlərə görə təşkil olunur. Kirələmə birjasında tonnaja görə tələb və təklif, kirələmə tariflərinin səviyyəsi, kirələmə müqaviləsi şərtləri və s. haqqında informasiya toplanır. Londondakı gəmi kirələmə mərkəzi daha böyük beynəlxalq əhəmiyyət daşıyır. Dünyanın iri fraxt mərkəzləri Hamburq, Genuya, Tokio və Nyu-Yorkda yerləşir. Gəmi kirələmə mərkəzi adətən məhdud məsuliyyətli şirkət kimi fəaliyyət göstərir.

GƏMİ SAHİBİNİN SIĞORTA MARAĞI – gəmi sahibi gəmidə, onun avadanlığında, təchizatında və takelajda sığorta marağına malikdir. Bundan əlavə o, əmlaka və şəxslərə dəyən ziyan və xarabolma ilə əlaqədar yük sahibləri və üçüncü şəxslər qarşısında məsuliyyətdə sığorta marağına malikdir.

GƏMİ SAHİBLƏRİNİN MƏSULİYYƏTİNİN SIĞORTALANMASI – üçüncü şəxslərə dəymiş zərərin ödənilməsi üzrə gəmi sahiblərinin, gəmini kirayələyənlərin və digər şəxslərin öhdəliklərinin meydana gəlməsi zamanı su nəqliyyatının istismarı ilə əlaqədar onların sığorta müdafiəsi sisteminin yaranmasını nəzərdə tutan sığorta növü. Bu sığorta növü XIX əsrdə Böyük Britaniyada yaranmışdır. Gəmi sahiblərinin məsuliyyətinin sığortalanması – gəmilərin istismarı gedişində yalnız gəminin özü təhlükəyə məruz qalmır, həm də üçüncü şəxslərin əmlakına, sağlamlığına və həyatına zərər dəyə bilər ki, bu da həm sığorta cəmiyyətləri tərəfindən, həm də əsasən ixtisaslaşmış qarşılıqlı sığorta klubları tərəfindən aparılan gəmi sahiblərinin məsuliyyət sığortasının zəruriliyini doğurur. Gəmi sahiblərinin məsuliyyət sığortalanması – gəmilərin istismarı ilə əlaqədar və üçüncü şəxslər tərəfindən qanuni və ya müqavilə əsasında iddialarla şərtlənmiş itkilərdən sığortalanma növüdür.

GƏMİ ÜZRƏ QİSMƏN İTKİ – tamamilə məhv olmayan gəmiyə vurulmuş hər hansı zədə. Belə hallarda polisə görə sığorta ödənişi təmirin mülayim (uyğun, müvafiq) dəyərini təmin etməlidir. Əgər zədələnmiş gəmi təmir olunmayıbsa və ya qismən təmir olunubsa, polisin fəaliyyət müddəti bitdiyi dövrdə sığortalı sığortaçıdan bitməmiş təmirin dəyərinin məbləğini almaq hüququna malikdir.

GƏMİLƏRİN SIĞORTALANMASI – əmlak sığortası növü. Gəmilərin, o cümlədən onlara daxil olan maşınları və avadanlıqların gəminin istismarı prosesində yarana bilən təsadüfi hallar nəticəsində ortaya çıxan zərərlərin əvəzinin tam və ya qismən ödənilməsi. Beynəlxalq təcrübədə gəmilərin sığortalanması ilə bağlı standart sığorta şərtlərinin bir neçə variantı var:
– tam sığorta şərtləri;
– xüsusi qəzaya görə öhdəliyi istisna edən sığorta şərtləri;
– zədələnməyə görə öhdəliyi istisna edən sığorta şərtləri;
– yalnız tam məhv olmadan sığorta şərtləri.
"Tam sığorta şərtləri"nə uyğun olaraq sığortaçı yanğın, partlayış, fırtına, zəlzələ və s. nəticəsində gəminin fiziki və konstruk-

tiv məhv olmasından və zədələnməsindən yaranan itkini gəmi sahibinə ödəyir. "Xüsusi qəzaya görə öhdəliyi istisna edən sığorta şərtləri"nə uyğun olaraq tam şərtlərdə olan eyni risklər sığortalanır, lakin sığortaçı xüsusi qəzaya görə məsuliyyət daşımır. Xüsusi qəza dedikdə isə ümumi qəza anlayışına düşməyən sığortalanmış əmlakın hər hansı bir zədələnməsi başa düşülür. Bu iki şərt arasında iqtisadi fərq əhəmiyyətlidir, yəni xüsusi qəzalar ümumi qəzalara nisbətən tez-tez baş verir.


GƏNCİYEV GƏNCƏLİ ƏZİZ OĞLU (1942) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1971-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İns titutunda namizədlik, 1988-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə professor elmi adını almışdır. 1965-ci ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda kiçik elmi işçi işləyib. 1972-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş elmi işçi, 1978-ci ildən həmin institutda elmi-texniki potensialın səmərəliliyi problemləri şöbəsinə müdir vəzifəsinə seçilmişdir.



İstehsalın səmərəliliyinin yüksəldilməsi problemi üzrə 4 monoqrafiyanın, 160-dan çox elmi məqalənin müəllifidir. "Elmin iqtisadiyyatı" sahəsində ilk araşdırmalar aparmışdır. Onlarca alimin yetişdirilməsində əməyi vardır. 1994-1995-ci illərdə Azərbaycan Kooperasiya İnstitutunun rektoru olmuşdur. Hazırda bu ali məktəbdə kafedra müdiri vəzifəsində çalışır. Azərbaycan Dövlət Aqrar Universitetində iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının üzvüdür.

GİLDİYA – Qərbi Avropada erkən orta əsrlər dövründə qarşılıqlı yardım birlikləri. Rusiyada XVIII əsrdə yaranmış və 1917-ci ilə qədər tacirlərin birlikləri kimi mövcud olmuşdur. 1775-ci ildən gildiya tacirləri üç gildiyaya bölünürdü.

GİROV (ing. *pledge*) – öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsi üsulu; təmin edilmiş girova görə kreditorun üstün hüququ. Borclu tərəfindən onun ödənilməməsi zamanı girov verilmiş əmlak obyektləri hesabına öhdəlikdir (sxem 1). Girov hüququna malik olan şəxs girovsaxlayan, girov obyektini təqdim edən şəxs girovqoyan adlanır. Girovqoyan həm borclunun özü, həm də üçüncü şəxs ola bilər. Girov verilən əşyaları onun sahibləri, ya da ona hüququ olan şəxslər təqdim edə bilər. Qeyri-maddi aktivlərin girovqoyanları ancaq onların mülkiyyətçisi ola bilər. Girov predmeti hər hansı bir əmlak, o cümlədən, dövriyyədən çıxarılmış əmlak istisna olmaqla əşyalar və qeyri-maddi aktivlər və girovqoyanın şəxsiyyəti ilə sıx əlaqədar tələblər (məsələn, həyat və sağlamlığa dəymiş zərərin ödənilməsi haqqında) də ola bilər. Daşınmaz əmlakın (torpaq sahələri, müəssisələr, binalar, mənzillər və s.) girovu ipoteka adlanır. Əgər girov predmeti dövriyyədə olan əmtəələrdirsə (mal, yaxud əmtəə ehtiyatları, xammal, material, yarımfabrikatlar, hazır məhsul və s.), bu zaman girov qoyan girov müqaviləsində göstərilən ümumi məbləğdən aşağı olmamaq şərtilə onların tərkibini və natural formasını dəyişə bilər. Girov girovu saxlayanda və ya girov qoyanda saxlanıla bilər. Bir qayda olaraq, daşınmaz əmlak və dövriyyədə olan mallar girov qoyanda qalır, qiymətli kağızlar isə girovu saxlayanda saxlanılır (onun depozitdəki hesabına köçürülür). Əgər əşya girovu saxlayanda onun girov olduğu haqqında xüsusi nişan qoyulmaqla saxlanılırsa, bu sabit (möhkəm) girov adlanır. Təsadüfi ölüm riski və ya girov əşyasının zədələnməsi halına görə məsuliyyəti onun saxlanıldığı tərəf daşıyır. Girov qoyulan əmlakın kimdə olmasından asılı olaraq, girov qoyan və ya girovu saxlayan onu girov qoyanın hesabına zədələnmədən və ya ödəniş riskindən sığorta etməlidir. Əgər itki və ya zədələnmə girovu saxlayanın günahından baş verməyibsə, kimin xeyrinə sığortalanmağından asılı olmayaraq, girovu qoyan sığorta ödənişini əldə etmək hüququna malikdir. Əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, girovu qoyan girov predmetindən onun təyinatına uyğun istifadə edə bilər, o cümlədən ondan gəlir götürə bilər. Lakin girov predmetini icarəyə vermək, ondan əvəzsiz istifadə, adətən, girovu saxlayanın razılığından sonra mümkündür. Girovu saxlayan girov predme-



Sxem 1

tindən ancaq girovu qoyanın razılığı ilə istifadə edə bilər.
Girov qoyulmuş əmlakın alınması məhkəmənin qərarı ilə və ya girovu saxlayanla girovu qoyan arasındakı notariusda təsdiq edilmiş uyğun müqavilə ilə həyata keçirilir. Girovu saxlayana keçən daşınar girov əmlakının alınması girov müqaviləsi ilə nəzərdə tutulan qaydada həyata keçirilir.
Vətəndaşlardan şəxsi istehlak üçün nəzərdə tutulmuş daşınar əmlakın girov kimi qəbul edilməsi ixtisaslaşdırılmış təşkilat kimi – lombard tərəfindən sahibkarlıq fəaliyyəti kimi həyata keçirilə bilər.

GİROV HÜQUQU – borclu tərəfindən əmlak və ya pul vəsaitləri formasında girovla təmin edilən öhdəliklərin icra olunması halında kreditora (girov saxlayana) girovun mənimsənilməsi formasında ziyanın ödənilməsini təmin edən hüquq. Gəmi sahibinin girov hüququ – kiraçı tərəfindən kirənin, icarənin, demerec və ya digər çatdırılmalı olan məbləğin ödənilmədiyi halda gəmi sahibinin öz tələblərini ödəmək üçün gəmidə olan yükü həbs etmək hüququ.

GİROV KAĞIZI – 1. Qanunvericiliyə uyğun olaraq təsdiq edilmiş və qeydiyyatdan keçirilmiş borc öhdəliyi. 2. Girov qeydiyyatdan keçdikdən sonra qeydiyyat orqanı tərəfindən verilən sənəd. Girov kağızı – girovqoyanla, o borclu deyilsə, həm də borclu ilə girovsaxlayan arasında əmlakın və hüquqların girova qoyulmasını və bundan irəli gələn hüquq və öhdəlikləri təsbit edən adlı qiymətli kağızdır. Girov üzrə münasibətlər müqavilə ilə sənədləşdirilməlidir. Girov haqqında müqavilə bağlandıqdan sonra girov müqaviləsi yaranır. Müqaviləyə ümumi tələbat ondan ibarətdir ki, o, yazılı formada bağlanmalıdır. Bununla belə, ipoteka haqqında müqavilə notarial qaydada təsdiqini almalıdır. Belə ixtisaslaşmış forma (notarial təsdiq) daşınar əmlak girovu haqqında və ya əmlaka hüquqlar haqqında olan öhdəliklərin təmin edilməsinə xidmət edir.
Notarius təsdiqindən əlavə, daşınmaz əmlakla sövdələr dövlət qeydiyyatından keçməlidir. Girov haqqında müqavilənin ixtisaslaşmış formasına riayət edilməməsi, onun notarial təsdiqinin və ya dövlət qeydiyyatının tələb olunmaması həmin müqavilənin həqiqi olmadığını göstərir. Mövcud qanunvericilikdə "girov kağızı" və onun əsas rekvizitlərinin müəyyənləşdirilməsi ancaq Mülki Məcəllə, "İpoteka haqqında" qanunların müddəaları ilə və "Girov kağızının rekvizitləri haqqında" əsasnamə ilə tənzimlənir.
Girov kağızı özündə aşağıdakıları cəmləməlidir: girovqoyanın, girovsaxlayanın, kredit müqaviləsinin və ya digər öhdəliyin adı (onların yerinə yetirilməsi girov kağızı göstəriciləri üzrə təmin edilir); belə müqavilənin bağlandığı tarix və yerin göstərilməsi; girovla təmin edilən əsas öhdəliyin məbləği; girov kağızı göstəriciləri üzrə girovun təmin etdiyi məbləğin ödəniş müddəti; girov kağızı göstəriciləri üzrə, girov təhkim edilmiş əmlakın bir hissəsinin başqa girov kağızının təhkim edildiyi girov kağızı.

GİROV KAĞIZI ÜZRƏ BORCLUNUN SIĞORTALANMASI – borc alana verilən həyat sığortası polisi; burada onun kreditoru benefisiar qismində adlandırılır; beləliklə, borc alanın ölümü zamanı ssuda (borc) avtomatik olaraq ödənilir.

GİROV MÜQAVİLƏSİ – borclu ilə kreditorun notarial qaydada təsdiq edilmiş yazılı sazişi.

Girov haqqında müqavilədə aşağıdakı məlumatlar göstərilir:
– girovun predmeti və onun qiymətləndirilməsi;
– girov ilə təmin edilən öhdəliyin mahiyyəti, həcmi və icra müddəti;
– girov qoyulmuş əmlakın tərəflərdən hansında olması.
Girov müqaviləsi çox vaxt banklarda ssudalar alınması sənədləşdirilərkən tətbiq edilir.

GİROV PREDMETİNİN ƏVƏZ EDİLMƏSİ (ing. *Substitution)* – ipoteka krediti üzrə girov predmetinin əvəz edilməsi. Bir qayda olaraq, əvəz edilən daşınmaz əmlaka dair tamhəcmli anderraytinq prosedurası tətbiq edilir. Yeni daşınmaz əmlak obyekti köhnə obyektlə analoji şəkildə qiymətləndirilməli və cari kredit/girov (LTV) əmsalına uyğun gəlmək üçün oxşar keyfiyyətlərə malik olmalıdır. Kreditin həcminin artırılması tələb olunduqda həmin kredit təminatdan çıxarılır.

GİROV SAXLAYAN (İPOTEKA SAXLAYAN) – borclunun onun qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üçün girov qoyanın əşyası barəsində müqavilədə göstərilmiş əsaslar üzrə girov və ya ipoteka hüququ olan şəxs.

GİROV SERTİFİKATI – malların yüklənib yola salınması zamanı yazılan, köçürmə vekselə qoşulan əlavə; bu əlavə sənəd qüvvəsinə malikdir. Bank yazılmış vekseli təqdim edən şəxsi və ya akseptləşdirilmiş vekselin hər hansı sonrakı sahibini tədiyəçi vekseli ödəməkdən imtina edəcəyi halda həmin malı reallaşdırmaq üçün müvəkkil edir.

GİROVDAN ÇIXARMA BARƏDƏ SAZİŞ – firmanın və ya qeyri-rəsmi şəxsin maliyyə müəssisələrindən qiymətli kağızları almaq və gələcəkdə həmin qiymətli kağızları əvvəlcədən razılaşdırılmış daha yüksək qiymətə yenidən həmin maliyyə müəssisəsinə satmaq barədə razılaşma.

GİZLİ (KÖLGƏ) İQTİSADİYYAT – iqtisadiyyatın məcmu məlumatlarda öz əksini tapmayan, "ənənəvi müşahidə metodları ilə müşahidə olunmayan" hissəsi (bax: "Xəlvəti iqtisadiyyat"). Gizli iqtisadiyyat aşağıdakı səbəblərə görə məlumatların gizlədilməsi kimi başa düşülür: gəlir, əlavə dəyər və digər vergiləri, sosial sığorta ayırmalarını ödəməkdən yayınma, qanunvericiliklə müəyyən olunmuş standartlarda, məsələn, əməyin ödənilməsinin minimum əmək haqqı ilə uzlaşması, iş vaxtının uzunluğu, təhlükəsizlik və sanitariya normalarına uyğunluq baxımından yayınma; müəyyənləşdirilmiş inzibati qaydalardan, o cümlədən statistika və digər inzibati hesabatların doldurulmasından yayınma. Gizli iqtisadiyyat aşağıdakı formalarda özünü göstərir: statistik hallarda – hesabatın, aktual olmayan informasiyanın təqdim olunması, qeydiyyatdan keçməmək, məlumatları bilərəkdən təhrif etmək. Statistikada gizli iqtisadiyyat termini ilə yanaşı, müşahidə olunmayan iqtisadiyyatın "qeyri-qanuni", "qeyri-formal" istehsal (xidmət) və "ev təsərrüfatlarının öz istehlakı üçün" istehsalı da istifadə olunur (cədvəl 1). Qanunla qadağan olunmayan mal və xidmətlər istehsalı ilə məşğul olan, lakin müəyyən səbəblərə görə fəaliyyətini dövlət orqanlarından gizlədən istehsal vahidlərinin məcmusu. Bu vahidlər tərəfindən fəaliyyətləri barədə məlumatların gizlədilməsi və ya təhrif edilməsinə aşağıdakılar səbəb ola bilər:
– vergilər və sosial təminat ödəmələrindən boyun qaçırmaq;
– qanunvericiliklə müəyyən olunmuş bəzi standartlara (mi-


Cədvəl 1

2010-cu ildə dünyanın müxtəlif regionlarında gizli iqtisadiyyatın payı

Regionlar	Gizli iqtisadiyyatın orta kəmiyyəti, ÜDM-də xüsusi çəkisi, %-lə	Minimal göstərici, ÜDM-də xüsusi çəkisi, %-lə	Maksimal göstərici, ÜDM-də xüsusi çəkisi, %-lə
Şərqi Asiya və Okeaniya	33,3	13,4	53,0
Avropa və Mərkəzi Asiya	40,5	19,3	67,5
Latın Amerikası və Karib hövzəsi	42,1	20,1	67,2
Yaxın Şərq və Şimali Afrika	28,5	19,2	38,7
İƏİT-nin yüksək gəlirli ölkələri	17,1	8,7	29,1
Cənubi Asiya	34,0	23,5	44,8
Afrika Saxara səhrası regionu	41,8	23,3	59,0

nimum əmək haqqı, iş vaxtı, əməyin təhlükəsizliyi və sanitar normaları və s.) riayət olunmaması;
– müəyyən inzibati proseduralardan (statistik və digər hesabatların təqdim edilməsi) boyun qaçırmaq.
Gizli fəaliyyət nəticəsində real və iqtisadi əhəmiyyət kəsb edən həcmlərdə məhsul və xidmətlər istehsal olunursa, bu fəaliyyət istehsal sərhədlərinə daxil edilir və Milli Hesablar Sistemi göstəricilərində nəzərə alınmalıdır.
Gizli istehsal qeyri-qanuni və qeyri-formal istehsalla birlikdə müşahidə olunmayan iqtisadiyyatı təşkil edir.
GİZLİ (LATENT) İŞSİZLİK – formal olaraq işləyən hesab edilən və əmək münasibətlərini kəsməyən işçilərin natamam iş vaxtı işləyərək əmək haqqı almadığı sosial-iqtisadi vəziyyət.
Gizli işsizlik aşağıdakıları ehtiva edir:
– əməyin aşağı intensivliyi ilə əlaqədar olaraq iş vaxtının itirilməsi;
– işçi qüvvəsinin əsas fəaliyyətdən yayındırılması;
– müəssisələrdə işçilərin tələbatdan artıq olması.
Gizli işsizliyin səbəbi məşğulluğun ixtisarının istehsalın azalmasına adekvat olmamasıdır. Gizli işsizlik rəsmi və qeyri-rəsmi işsizliyə bölünür. Rəsmi gizli işsizliyə müdiriyyətin təşəbbüsü ilə inzibati məzuniyyətdə olan, habelə natamam iş şəraitində işləməyə məcbur olan və statistika ilə qeydiyyata alınan işçilər aid edilirlər. Qeyri-rəsmi işsizliyə istehsalatda işçilərin artıq sayını və məşğulluq xidmətinə müraciət etmədən iş axtaranları aid edirlər.
GİZLİ (POTENSİAL) İŞSİZLİK – böhranlar zamanı iqtisadiyyatın bu və ya digər sahəsində işçi qüvvəsinə tələbin azalması zamanı yaranan işsizlik. Hesablamalara görə gizli işsizlər iqtisadi fəal əhalinin 13-15%-ni təşkil edir. Gizli işsizlər gizli əmək bazarını formalaşdırırlar.
GİZLİ XƏRCLƏR – rəsmi sənədlərdə öz əksini tapmayan xərclər. Belə xərclər adətən "qara kassa"lar hesabına ödənilir.
GİZLİ MARKETİNQ – ilkin olaraq bu termin özünü hansısa idman tədbiri ilə (məsələn, Olimpiya oyunları) assosiasiya edən, bu zaman tədbir təşkilatçısına heç nə ödəməyən şirkət fəaliyyətinin ifadə olunması üçün istifadə olunurdu. Bizim günlərdə iri idman yarışlarının, milli komandaların və ya ayrı-ayrı idmançıların televiziya nümayişinə sponsor himayəsi deməkdir.
GİZLİ REKLAM – qanunvericiliyə görə yol verilməyən, insanların psixologiyasına və istehlakçının qavrayışına təsir göstərmək üçün xüsusi video əlavələrdən, ikiqat səsyazmadan və digər vasitələrdən istifadə edilən reklam növlərindən biri. Kütləvi informasiya vasitələrində reklamın bu növündən istifadə edilməsi, eləcə də onun başqa üsullarla yayılması Azərbaycan qanunvericiliyinə görə qadağan edilir.
GİZLİ SÖVDƏLƏŞMƏ (ing. *collusion*) – haqsız rəqabətin bir forması, rəqabət prinsiplərinin pozulmasına və üçüncü şəxslərin hüquqlarının pozulmasına gətirib çıxaran insayder informasiyasının mübadiləsi. "Gizli sövdələşmə"lərin əsas növləri qapalı hərrac iştirakçılarının əlbir olması, bazarların bölgüsü, qiymətlərin müəyyən edilməsi və s. məsələlər barədə qeyri-rəsmi razılaşmalardır. Hərrac iştirakçılarının əvvəlcədən razılıq əldə etməsi qanunsuz sövdələrə gətirib çıxarır, bu halda saxta "qalib" saxta "məğlubla" əvvəlcədən razılaşdırılmış sxem üzrə hesablaşır. Bazarların bölünməsi barədə razılaşmalar o deməkdir ki, alıcılar (çox vaxt ərazi əlamətinə görə) malgöndərənlər arasında "bölüşdürülür". Qiymətlərin müəyyən edilməsi barədə razılaşmalar qiymətyaranmanın bazar mexanizminin işləməsinə imkan vermir, əsassız olaraq süni şəkildə qiymət artımına gətirib çıxarır.
GÖMRÜK ANBARI – gətirilən malların saxlanma dövründə gömrük rüsumları, vergilər alınmadan və mallara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən onların gömrük nəzarəti altında saxlanmasından, ixrac gömrük rejiminə uyğun aparılması nəzərdə tutulan malların isə qanunvericilikdə nəzərdə tutulan güzəştlər verilməklə gömrük nəzarəti altında saxlanmasından ibarət gömrük rejimi.
GÖMRÜK AUDİTİ – malların və nəqliyyat vasitələrinin buraxılışından sonra mallara dair bəyannamədə göstərilən məlumatların dəqiqliyinin müəyyən edilməsi, eləcə də mal və nəqliyyat vasitələri üzərində sərəncam verilməsinə dair məhdudiyyətlərə, tələblərə və şərtlərə riayət edilməsi haqqında

şəxsin öhdəliklərinin yerinə yetirilməsinin vəziyyətinin yoxlanılması məqsədi ilə gömrük orqanları tərəfindən həyata keçirilən tədbirlər toplusu (bax: sxem 1).
GÖMRÜK BƏYANNAMƏSİ (ing. *customs declaration, customs entry*) – gömrük sərhədindən keçirilən əmtəələr (mallar) və nəqliyyat vasitələri, onların gömrük rejimi barədə dəqiq məlumatların, gömrük məqsədləri üçün zəruri olan başqa məlumatların deklarant (bəyannaməsi) tərəfindən müəyyən olunmuş formada bəyan edilməsi. Azərbaycan Respublikası gömrük Bəyannaməsinin təqdimedilmə müddəti malların və onları daşıyan nəqliyyat vasitələrinin gömrük orqanlarına təqdim edildiyi tarixdən ən çoxu 10 gündən artıq olmamalıdır. Fiziki şəxslər tərəfindən satış (kommersiya) üçün nəzərdə tutulmayan malların, əl yükünün və müşayiət edilən baqajda olan malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi halında gömrük bəyannaməsi malın təqdim edilməsi ilə eyni vaxtda verilir. Gömrük bəyannaməsinin verilməsi gömrük orqanına zəruri sənədlərin təqdim edilməsi ilə müşayiət olunmalıdır. Gömrük bəyannaməsində olan məlumatın və təqdim edilmiş sənədlərdəki informasiyanın yoxlanması məqsədilə gömrük orqanı əlavə məlumatlar verilməsini tələb edə bilər. Təqdim edilmiş gömrük bəyannaməsi gömrük orqanı tərəfindən qəbul edilir. Gömrük bəyannaməsi rəsmiləşdirildiyi andan hüquqi əhəmiyyət kəsb edən, faktları təsdiqləyən sənədə çevrilir. Azərbaycan Respublikası gömrük orqanının icazəsi ilə bu məlumatlara dəyişikliklər və ya əlavələr edilə bilər, təqdim edilmiş deklarasiya isə (gömrük bəyannaməsinin, mallar və nəqliyyat vasitələrinin yoxlanılması başlanana, yaxud göstərilən məlumatların dəqiq olmaması gömrük orqanı tərəfindən müəyyən edilənə qədər) götürülə bilər.



Sxem 1

GÖMRÜK BROKERİ – qanunvericiliyə uyğun olaraq yaradılmış və malların, nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi üzrə əməliyyatları öz adından həyata keçirməyə, eləcə də təmsil etdiyi şəxsin hesabına və onun göstərişi ilə gömrük işi sahəsində başqa vasitəçilik funksiyalarını yerinə yetirməyə müvəkkil edilmiş kommersiya təşkilatı.

Gömrük brokerinin funksiyaları:

1) mallar və nəqliyyat vasitələri haqqında gömrük bəyannaməsinin verilməsi;

2) gömrük orqanlarına gömrük məqsədləri üçün zəruri olan sənədlərin və əlavə məlumatların təqdim edilməsi;

3) haqqında gömrük bəyannaməsi verilmiş malların və nəqliyyat vasitələrinin təqdim olunması;

4) haqqında gömrük bəyannaməsi verilmiş mallara və nəqliyyat vasitələrinə görə gömrük rüsumlarının ödənilməsinin təmin edilməsi;

5) gömrük bəyannaməsində göstərilmiş mallara və nəqliyyat vasitələrinə münasibətdə səlahiyyətləri olan şəxs qismində gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti üçün zəruri olan başqa fəaliyyətin həyata keçirilməsi.

Gömrük brokeri özünün fəaliyyət sahəsini müəyyən mal çeşidləri və nəqliyyat növləri ilə məhdudlaşdıra bilər. Bu məhdudiyyətlər gömrük brokeri fəaliyyətini həyata keçirmək səlahiyyəti verən lisenziyada göstərilir. Göstərilən məhdudiyyətlərdən kənara çıxan fəaliyyətin həyata keçirilməsi üçün yeni lisenziyanın alınması tələb olunur.

GÖMRÜK ƏRAZİSİ (ing. *customs area*) – müəyyən dövlətin müstəsna yurisdiksiyasının müəyyən etmiş olduğu quru ərazi, ərazi suları, daxili sular və onların üzərindəki hava səması, eləcə də süni adalar, qurğular və tikililər. Ölkənin ərazisində adətən, gömrük ərazisinin hüdudlarından kənara çıxarılan sərbəst gömrük zonaları və gömrük anbarları ola bilər. Gömrük ərazisi – gömrük işi sahəsində ölkənin müstəsna yurisdiksiyasında olan ərazidir.

GÖMRÜK ƏRAZİSİNDƏ MALLARIN EMALI – gömrük rejiminə uyğun olaraq emal məhsullarının ölkənin gömrük ərazisinin hüdudlarından kənara aparılması şərtilə, iqtisadi siyasət tədbirləri tətbiq edilmədən və idxal gömrük rüsumları və vergilər qaytarılmaqla, xarici malların bu ölkənin gömrük ərazisində müəyyən olunmuş qaydada emal üçün istifadə edilməsindən ibarət gömrük rejimi.

GÖMRÜK ƏRAZİSİNDƏN KƏNARDA MALLARIN EMALI – yerli malları müvafiq iqtisadi mexanizmləri tətbiq etmədən ixrac edib, onlardan ölkənin gömrük ərazisindən kənarda emal üçün istifadə edilməsindən və sonra emal məhsullarını tamamilə və ya qismən gömrük rüsumlarından, vergilərdən azad etməklə və onlara iqtisadi siyasət tədbirləri tətbiq etmədən, həmin ölkənin gömrük ərazisində sərbəst dövriyyə üçün buraxılışından ibarət gömrük rejimi.

GÖMRÜK FORMALLIQLARI (ing. *customs formalities*) – malları və nəqliyyat vasitələrini müəyyən ölkənin gömrük sərhədindən keçirən şəxsin yerinə yetirməli olduğu proseduralar. Gömrük formallıqları qisminə baytarlıq, fitosanitar, ekoloji və digər dövlət nəzarətindən keçmə, malların və nəqliyyat vasitələrinin bəyan edilməsi və bəyan edilmiş malların və nəqliyyat vasitələrinin təqdim edilməsi, yüklərlə bağlı bəzi əməliyyatların həyata keçirilməsi, gömrük məqsədləri üçün zəruri sənədlərin və məlumatların təqdim edilməsi, gömrük nəzarəti və gömrük sənədləşdirilməsi ilə əlaqədar başqa formal qaydaların yerinə yetirilməsi aiddir.

GÖMRÜK GÜZƏŞTLƏRİ (ing. *customs priviliges*, *customs fasilites*) – məxsusi müəyyən edilmiş yerlərdən kənarda və ya gömrük orqanlarının iş vaxtından kənar vaxtda malların saxlanmasına və gömrük rəsmiləşdirməsinə görə ödənişlər müstəsna olmaqla gömrük ödənişindən azad edilmə. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 30-cu fəslinə (maddələr: 196-205) əsasən, xarici dövlətlərin nümayəndəlikləri və onların əməkdaşları, habelə digər xarici şəxslər üçün gömrük güzəştləri aşağıdakılardır: a) xarici dövlətlərin diplomatik nümayəndəlikləri üçün gömrük güzəştləri; b) xarici dövlətin diplomatik nümayəndəliyinin başçısı və nümayəndəliyin diplomatik heyətinin üzvləri üçün gömrük güzəştləri; c) xarici dövlətin diplomatik nümayəndəliyinin inzibati-texniki heyətinin əməkdaşları üçün gömrük güzəştləri; ç) xarici dövlət nümayəndəliyinin diplomatik heyətinin üzvləri üçün gömrük güzəştlərinin inzibati-texniki və xidmətçi heyətin əməkdaşlarına şamil edilməsi; d) xarici dövlətin konsulluq nümayəndəlikləri və onların heyət üzvləri üçün gömrük güzəştləri; e) xarici dövlətin diplomatik poçtunun və konsul valizinin Azərbaycan Respublikasının gömrük sərhədlərindən keçirilməsi; ə) xarici diplomatik və konsulluq kuryerləri üçün gömrük güzəştləri; f) xarici dövlətlərin nümayəndələri və nümayəndə heyəti üzvləri üçün gömrük güzəştləri; g) Azərbaycan Respublikası ərazisindən tranzitlə keçən diplomatik heyət üzvləri, konsulluqların vəzifəli şəxsləri, xarici dövlət nümayəndələri və nümayəndə heyəti üzvləri üçün gömrük güzəştləri; ğ) hökumətlərarası beynəlxalq təşkilatlar, onların nəzdindəki xarici dövlət nümayəndəlikləri, habelə bu təşkilat və nümayəndəliklərin şəxsi heyəti üçün gömrük güzəştləri.

Cədvəl 1

Gömrük İttifaqı və Azad İqtisadi Zonalar

Dünya təsərrüfatı mexanizminin əsas prinsipi – özünütəşkil Bununla yanaşı, Transmilli Korporasiyalar əhəmiyyətli rol oynayırlar. Eyni zamanda, ticarət siyasəti əhəmiyyətli yerə malikdir. O, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələr vasitəsilə (ayrı-ayrı ölkələr arasında) həyata keçirilir.	
İqtisadiyyatın idarə edilməsi səviyyələri	Ümumdünya koordinasiyası (beynəlxalq iqtisadi təşkilatlar); regional koordinasiya (inteqrasiya ittifaqları və gömrük birlikləri); ölkədaxili tənzimləmə (GT, kvotalar ...)
Ümumdünya koordinasiyasında əsas rol oynayan təşkilatlar	ÜTT, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı, BMT-nin Avropa İqtisadi Komissiyası (AİK), İƏİT, "Böyük yeddilik"
Regional koordinasiyada əhəmiyyətli rola malikdir	Azad iqtisadi zonalar. **Azad iqtisadi zona** – beynəlxalq iqtisadi inteqrasiyanın mərhələlərindən biri olub, üzv ölkələrin qarşılıqlı ticarət zamanı gömrük maneələrinin ləğvini və üçüncü ölkələrə münasibətdə avtonom gömrük və ticarət siyasətinin saxlanılmasını nəzərdə tutur
	Gömrük ittifaqları. **Gömrük ittifaqı** – iqtisadi inteqrasiyanın mərhələlərindən biri. Bir qrup ölkələrin razılığı nəticəsində gömrük tariflərinin qarşılıqlı ləğvi, eyni zamanda, vahid tarif rejiminin müəyyənləşdirilməsi və üçüncü ölkələrə qarşı vahid ticarət siyasətinə keçilməsi nəticəsində formalaşır.

GÖMRÜK İTTİFAQI (ing. *customs union*) – üçüncü ölkələrin ərazisindən idxal edilən və ya həmin ölkələrin ərazisinə ixrac edilən mallar barəsində vahid gömrük tarifinin qüvvədə olduğu iki və daha çox ölkənin ümumi gömrük ərazisi (cədvəl 1). Gömrük ittifaqının ərazisində əmtəələrin, işçi qüvvəsinin və kapitalın gömrük rüsumları tutulmadan sərbəst yerdəyişməsinə icazə verilir.

GÖMRÜK KONVENSİYASI (ing. *customs convention*) – iştirakçı ölkələrin qarşılıqlı ticarətində gömrük rüsumları tutulmasını və gömrük rəsmiləşdirməsini tənzimləyən ikitərəfli və ya çoxtərəfli beynəlxalq saziş.

GÖMRÜK QANUNVERİCİLİYİ – elə qanunvericilikdir ki, ölkədə ixrac və idxal fəaliyyətini tənzimləyir.

Gömrük tarifləri xarici ticarətin tənzimlənməsinin klassik alətidir, onlar idxal və ixrac mallarının gömrükdə məruz qaldığı rüsumların sistemləşdirilmiş siyahısını əks etdirirlər.

Gömrük rüsumları üç funksiyanı yerinə yetirirlər:

1) fiskal – bunlar həm idxal, həm də ixrac mallarına aiddir, belə ki, onlar dövlət büdcəsinin gəlirinin maddələrindən biridir;

2) müdafiə – bunlar idxal rüsumlarına aiddir, belə ki, onların köməyilə dövlət yerli istehsalçıları arzuedilməz xarici rəqabətdən qoruyur;

3) balanslaşdırıcı – ancaq ixrac mallarına aiddir ki, arzuedilməz ixracın qarşısının alınması üçün müəyyən edilir.

Rüsumu gömrükdə malın dəyərinə daxil edirlər. Malın gömrük dəyəri malın nominal qiymətini əks etdirir ki, bu da açıq

bazarda formalaşır və buna əsasən mal gömrük bəyannaməsinin verilmə anına təyinat ölkəsində satıla bilmək imkanı əldə edir. Azərbaycan Respublikasının "Gömrük tarifi haqqında" qanununa müvafiq olaraq, **idxal mallarının gömrük dəyəri aşağıdakı kimi müəyyən olunur:**

1) idxal olunan mallarla sövdələşmə qiyməti üzrə;
2) ehtiyat metodu ilə;
3) dəyərin toplanması metodu ilə;
4) dəyərin çıxılması metodu ilə;
5) eyni mallarla sövdələşmə qiyməti üzrə;
6) eynicinsli mallarla sövdələşmə qiyməti üzrə.

GÖMRÜK MÜHARİBƏSİ (ing. *customs war*) – dünya bazarında liderlik uğrunda rəqabət mübarizəsində milli gömrük rüsumlarından istifadə edilməsi.

GÖMRÜK NƏZARƏTİ – gömrük işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin yerinə yetirilməsini, həmçinin icrasına nəzarəti gömrük orqanlarına həvalə edən, Azərbaycan Respublikasının digər qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə riayət edilməsini təmin etmək məqsədilə həyata keçirilən tədbirlər toplusu.

GÖMRÜK NƏZARƏTİ ALTINDA MALLARIN EMALI – ölkənin gömrük ərazisində xarici mallardan gömrük rüsumları və vergilər alınmadan, həmçinin onlara iqtisadi siyasət tədbirləri tətbiq edilmədən müəyyən edilmiş qaydada gömrük nəzarəti altında istifadə edilməsi və sonradan emal məhsullarının sərbəst dövriyyə üçün buraxılışı və ya digər gömrük rejimi altında yerləşdirilməsindən ibarət gömrük rejimi.

GÖMRÜK ÖDƏNİŞLƏRİ – müəyyən olunmuş qaydada ölkənin gömrük orqanları tərəfindən alınan gömrük rüsumları, vergilər, gömrük yığımları, hüquqi və fiziki şəxslərə gömrük fəaliyyəti üçün lisenziyaların verilməsinə görə alınan dövlət rüsumu, haqlar və digər ödənişlər. Malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi zamanı, həmçinin qanunvericiliklə müəyyən edilmiş digər hallarda Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən tutulan ödənişlərin bütün növləri gömrük tədiyələrinə aid edilir.

Gömrük ödənişlərinin aşağıdakı növləri vardır:
– gömrük rüsumu;
– ƏDV;
– aksizlər;
– gömrük orqanları tərəfindən lisenziyalar verilməsinə görə birdəfəlik rüsumlar;
– lisenziyaların qüvvəsinin bərpa edilməsinə görə ödənişlər;
– gömrük rəsmiləşdirilməsi üzrə ixtisaslı mütəxəssis attestatının verilməsinə görə və attestatın qüvvəsinin bərpa edilməsinə görə rüsumlar;
– malların gömrük rəsmiləşdirməsinə və gömrük müşayiətinə görə rüsumlar;
– pullu gömrük məlumatlarının və məsləhətlərin verilməsi;
– ilkin qərar qəbul edilməsi üçün haqq;
– gömrük auksionlarında iştirak etmək üçün haqq.

Məcmu gömrük tədiyəsi – malların Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi ilə əlaqədar gömrük rüsumu, vergilər və digər gömrük yığımları kompleksi.

GÖMRÜK REJİMİ – gömrük məqsədləri üçün Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin statusunu müəyyən edən müddəaların məcmusu.

GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ – qanunvericiliyin müddəalarına və tələblərinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin müəyyən gömrük rejimi altında yerləşdirilməsi prosedurası və bu rejimin fəaliyyətinin başa çatması.

GÖMRÜK RÜSUMLARI (*customs duties*) – ölkə sərhədindən keçirilən əmtəələrdən alınan dövlət pul yığımları – müəyyən ölkənin gömrük ərazisinə mal idxal edildikdə və ya bu ərazidən mal ixrac edildikdə həmin ölkənin gömrük orqanları tərəfindən tutulan və bu cür idxalın və ya ixracın zəruri şərti olan məcburi ödəniş. Bunun vasitəsilə dövlət idxal mallarının qiymətini qaldırmaqla daxili bazarını qorumuş olur, və idxalın strukturuna nəzarət edir. Gömrük rüsumlarının əsasən idxal, ixrac və tranzit növləri vardır. Ölkənin gömrük orqanları tərəfindən bu ölkənin gömrük ərazisinə malların idxalı və ixracı zamanı alınan ödənişlərdir.

İdxal gömrük rüsumu – pul yığımı. Mallar ölkəyə gətirilərkən (idxal edilərkən) dövlət tərəfindən yığılır; idxal olunmuş malların ölkə daxilində qiymətlərinin qaldırılması və ölkənin malları ilə müqayisədə onların rəqabət qabiliyyətliliyinin aşağı salınması vasitəsidir,

Cədvəl 1

Gömrük rüsumlarının effektiv dərəcəsi

$Z = (t - a_1 t_1)/(1 - a_1)$
Z – effektiv gömrük rüsumu; t – son məhsulun idxalına gömrük rüsumunun nominal həddi; a_1 – gömrük rüsumlarının olmadığı halda idxal olunmuş xammalın son məhsulun dəyərindəki xüsusi çəkisi; t_1 – idxal olunmuş xammala qoyulmuş nominal tarif.
Düsturdan aydın olur ki, müdafiə səviyyəsi tək hazır məhsula və xammala olan rüsumlar arasındakı fərqin səviyyəsinin artmasına görə deyil, eyni zamanda, idxal olunan məhsulun emal səviyyəsinin azalması səviyyəsinə görə də artırılır.
Məsələn, gömrüksüz idxal olunan xam pambıq ilə 20% rüsumla idxal olunan pambıq məhsullarını müqayisə edək. Fərz edək ki, bir köynəyin qiyməti 20$ olduğu halda, ABŞ-a Hindistandan gətirilən xam pambığın qiyməti 10$ təşkil edir. İdxal olunan pambığın emalı prosesində köynəyin alınması üçün onun əlavə dəyəri 10$ təşkil edir. ABŞ-da köynək istehsalçısının gömrük rüsumu tutulmayan pambıq əldə etdiyi üçün onun qiymətini 24$-a kimi artırmağa imkanı var, ona görə də 20% həddi aşmaq məcburiyyətində olan hindli istehsalçı analoji qiymət qoymağa məcbur olur.
Bu halda amerika istehsalçılarının müdafiə səviyyəsi $Z = 100\% \times (20\% - 0)/(1 - 50\%) = 40\%$ təşkil edəcək. Yerli sənayenin müdafiə səviyyəsi 40%-ə bərabərdir, yəni real müdafiə həddi 2 dəfə gömrük rüsumlarından yüksəkdir.

dövlət büdcəsinin gəlirinə daxil olur (bax: cədvəl 1).


Gömrük rüsumunun məbləği gömrük rüsumu tutulan malların siyahısını əhatə edən gömrük tarifi ilə müəyyən olunur. Azərbaycan Respublikasında gömrük rüsumu dərəcələri vahiddir və malların gömrük sərhədindən keçirilməsini həyata keçirən şəxslərdən və əqd növlərindən asılı olaraq dəyişməməlidir ("Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş müstəsna hallar istisna olmaqla). Azərbaycanda gömrük rüsumlarının aşağıdakı növləri tətbiq edilir: advalor rüsumlar, spesifik rüsumlar və kombinəedilmiş rüsumlar. Ölkənin idxal edilən əmtəələrə iqtisadi maraqlarını qorumaq məqsədilə müvəqqəti olaraq gömrük rüsumlarının xüsusi növləri: xüsusi rüsumlar, antidempinq rüsumları və kombinəedilmiş rüsumlar tətbiq edilə bilər. Bundan əlavə, mövsümi rüsumlar müəyyən edilə bilər (bax: Vergilər).

GÖMRÜK RÜSUMUNUN NÖVLƏRİ – Azərbaycan Respublikasında aşağıdakı gömrük rüsumları tətbiq edilir: advalor – malların gömrük dəyərinə görə faizlə hesablanan; **spesifik** – mal vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan; **kombinəedilmiş** – hər iki növü birləşdirməklə hesablanan (sxem 1).

GÖMRÜK SƏRHƏDİ (ing. *customs border*) – ölkənin gömrük ərazisinin hüdudları, habelə sərbəst gömrük bölgəsinin və sərbəst anbarların perimetrləri. Dövlət sərhədinin gömrük sərhədinə uyğunluğu nisbi bölgüdür. Belə ki, siyasi sərhəd ərazilərdən keçən müəyyən xətti zolaqdan, gömrük sərhədi isə idxal və ixrac mallarına, valyuta sərvətlərinə və s. faktiki nəzarəti həyata keçirən, digər tərəfdən isə lazımi hallarda malları gömrük vergilərinə cəlb edən, müxtəlif qayda və qanunlara nəzarət edən gömrük məntəqələri şəbəkəsindən ibarətdir. Digər tərəfdən isə gömrük sərhədi siyasi sərhədə – dövlət sərhədinə uyğun gəlir. Müasir baxımdan gömrük sərhədi ölkənin yalnız tarif sərhədi deyil, habelə valyuta sərhədi, həmin dövlətdə hakim olan sosial-iqtisadi strukturun sərhədidir. Nəhayət, qısa mənada gömrük sərhədi sərhəd qoşunlarının, sərhəd nəzarət buraxılış məntəqələrinin (NBM) yerləşdiyi dövlət sərhədi sahəsində olan gömrük müəssisələri (məntəqələri) şəbəkəsindən ibarətdir. Geniş mənada gömrük sərhədi ölkənin "iqtisadi sərhədi" – tica-

rət, valyuta və vergi sərhədidir.

GÖMRÜK SİYASƏTİ (ing. *customs polisy*) – gömrük nəzarəti vasitələrindən daha səmərəli istifadə edilməsini və gömrük sərhədləri daxilində əmtəə mübadiləsinin tənzimlənməsini, daxili bazarın qorunmasını və milli iqtisadiyyatın inkişafının stimullaşdırılmasını təmin etmək üçün dövlət tərəfindən həyata keçirilən tədbirlər kompleksi. Azərbaycan Respublikasında həyata keçirilən gömrük siyasəti dövlətin daxili



Sxem 1

və xarici siyasətinin tərkib hissəsidir.

Gömrük siyasəti bəzən gömrük himayəçiliyi formasında təzahür edir. Bu halda ölkəyə gətirilən (idxal edilən) mallara yüksək gömrük rüsumları və ixrac edilən yerli məhsullara güzəştli gömrük rüsumları tətbiq edilir. Gömrük rüsumları ilə yanaşı, idxalın məhdudlaşdırılmasının qeyri-tarif üsulları: kvotalar müəyyən edilməsi, ekoloji baxımdan təmizlik və keyfiyyət standartlarının tətbiq edilməsi kimi üsullar geniş yayılmışdır.

Gömrük siyasəti gömrükxana – sərhəddən buraxılan bütün malların gətirilməsinə və aparılmasına nəzarət edən dövlət müəssisəsi vasitəsilə həyata keçirilir.

GÖMRÜK TARİFİ (ing. *customs tariff, duty rate*) – müəyyən ölkənin gömrük sərhədindən keçirilən mallara tətbiq edilən gömrük rüsumları dərəcəsidir. Gömrük tarifi – Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur. Azərbaycan Respublikasında gömrük tariflərinin formalaşması və tətbiq edilməsi qaydası, eləcə də gömrük sərhədindən keçirilən əmtəələrdən rüsum tutulması qaydaları qüvvədə olan "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanunu (1995) ilə müəyyən edilmişdir. Gömrük tarifi rüsumların dərəcələrini, rüsum dərəcələrinin növlərini və onların müəyyən edilməsi qaydasını; mövsümi və xüsusi rüsumların xarakterini və onların tətbiq edilməsi qaydalarını; malın gömrük dəyərinin hesablanması metodlarını və onların tətbiq edilməsi qaydasını; malın mənşə ölkəsinin müəyyən edilməsi prinsiplərini; tarif güzəştlərini və preferensiyaları müəyyən edir. Daxili bazarın dövlət tənzimlənməsi vasitəsi kimi gömrük tarifinin əsas məqsədləri bunlardır: a) ixracın strukturunun təkmilləşdirilməsi; b) ixracın və idxalın, müəyyən ölkənin rezidentlərinin valyuta gəlirlərinin və valyuta xərclərinin həcmi arasında optimal nisbətin saxlanması; c) ölkədə istehsalın və istehlakın strukturunda mütəraqqi dəyişikliklər üçün şərait yaradılması; ç) milli iqtisadiyyatın dünya bazarındakı konyunkturun əlverişsiz təsirindən qorunması; d) ölkənin dünya iqtisadiyyatına səmərəli inteqrasiyası üçün şəraitin təmin edilməsi.

Tarif – Avropa İttifaqının Birləşdirilmiş Gömrük Tarifi tərəfindən malların müvafiq kodlarla sistemləşdirilmiş siyahısı. Özündə kombinəedilmiş nomenklaturaların alt mövqelərini və Aİ tərəfindən qəbul olunmuş tədbirləri (məsələn, antidempinq rüsumları) əks etdirən əlavə alt bölmələri birləşdirir.

GÖMRÜK TƏDİYƏLƏRİNİN ÖDƏNİLMƏSİNİN TƏXİRƏ SALINMASI (ing. *delay (postponement) of customs payments*) – vergi tədiyələrinin, gömrük rüsumlarının ödənilməsinin təxirə salınması və ya möhlətlə ödənilməsi. Ödənilməli məbləğin bir hissəsinə və ya bütün məbləğə münasibətdə təqdim edilə bilər.

Bu cür təqdimat gömrük rüsumlarının və vergilərin ödənilməsi Gömrük Məcəlləsində nəzərdə tutulmuş qaydalara müvafiq olaraq həyata keçirildikdə mümkündür. Tədiyələrin ödənilməsinin təxirə salınması və ya bu ödənişlər üçün möhlət verilməsi barədə qərar bu barədə sifariş verildiyi gündən etibarən 15 gün müddətində qəbul edilməlidir.

Tədiyələrin təxirə salınması və ya ödəniş üçün möhlət verilməsi müddəti bir aydan altı aya qədər dəyişir. Bu cür imkan vergi ödəyicisinə, gömrük rüsumlarının ödəyicisinə aşağıda sadalanan əsaslardan, ən azı, biri mövcud olduqda verilir:

1) qarşısı alına bilməyəcək qüvvə (təbii fəlakətlər, texnoloji qəzalar və s.) nəticəsində həmin şəxsə ziyan vurulması;

2) həmin şəxsə dövlət büdcəsindən maliyyələşdirmənin ləngidilməsi və ya həmin şəxs tərəfindən yerinə yetirilmiş dövlət sifarişi haqqının ödənilməsinin ləngidilməsi;

3) gömrük sərhədindən keçirilən malların tez xarab olan mallar hesab edilməsi;

4) şəxsin malları hökumətlərarası sazişlər əsasında tədarük etməsi.

Gömrük rüsumlarının, vergilərin ödənilməsinin təxirə salınması və ya bu ödənişlər üçün möhlət verilməsi buna iddia edən şəxsə münasibətdə aşağıdakı hallardan biri mövcud olduqda tətbiq edilə bilməz:

1. Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin pozulması ilə əlaqədar cinayət əlamətləri üzrə cinayət işi qaldırılır.

2. Müflisləşmə prosedurası başlanır.

Tədiyələrin ödənilməsinə möh-

lət verilməsinə və ya ödənişin təxirə salınmasına görə, eləcə də digər müvafiq hallarda Gömrük Məcəlləsinə müvafiq olaraq faiz tutulur. Bu faiz tədiyələrin ödənilməsinin təxirə salınması və ya ödəniş üçün möhlət verilməsi dövründə qüvvədə olan Azərbaycan Respublikası Mərkəzi Bankının təkrar maliyyələşdirmə dərəcəsi əsasında gömrük rüsumlarının, vergilərin ödənilməsi üzrə əsas borcun məbləğinə hesablanır.

GÖMRÜK TƏNZİMLƏNMƏSİ (ing. *customs clearance*) – 1. Malların və nəqliyyat vasitələrinin müəyyən ölkənin gömrük sərhədindən keçirilməsi ilə əlaqədar yaranan zəruri formal qaydaların yerinə yetirilməsi; gömrük sənədləşdirməsini, gömrük tədiyələrinin ödənilməsini əhatə edir və gömrük sərhədindən keçməyə icazə verilməsi üçün zəruri şərtdir. 2. Malın idxal (ixrac) edilməsinə icazə verilməsi.

GÖMRÜKXANA (türk. *tamqa* – damğa, tavro; ing. *customs, Customs House*) – malların və nəqliyyat vasitələrinin, əşyaların və başqa predmetlərin gömrük sərhədindən keçirilməsi qaydasını, gömrük rejimlərinin tətbiq edilməsini və gömrük ödənişlərinin tutulmasını təmin edən, gömrük nəzarətini və gömrük rəsmiləşdirməsini həyata keçirən dövlət orqanı. Azərbaycan Respublikasında gömrük sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri haqqında məlumatların toplanması və işlənməsi, gömrük cinayətləri törədilməsi faktları üzrə cinayət işlərinin qaldırılması, istintaq və əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi, sanitariya və karantin qaydalarının yerinə yetirilməsinə nəzarət məsələləri də gömrükxananın səlahiyyətlərinə aiddir.

2012-ci ilin yanvar ayının 27-də Bakı Dövlət Universitetində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 20 illik yubileyinə həsr edilmiş "Qloballaşma şəraitində iqtisadi təhlükəsizliyin təmin olunmasında gömrük tənzimlənməsinin rolu" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Konfransa dünyanın 18 ölkəsindən nüfuzlu alim və professional mütəxəssislər qatılıb.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı, professor Aydın Əliyev açılış nitqində müstəqil Azərbaycan Respublikasının gömrük sisteminin yaranması, formalaşması prinsipləri, ölkədə açıq iqtisadiyyatın qurulması və gömrük xidmətinin təkmilləşdirilməsi məsələlərinə toxunub.

Plenar iclasda "Yeni müstəqil dövlətlərdə iqtisadi təhlükəsizlik sisteminin formalaşması və inkişafı problemləri", "Azərbaycan gömrüyü-20 il", "XXI əsrdə siyasi və gömrük hüququnda iqtisadi təhlükəsizlik – nəzəri və təcrübi aspektlər", "Sərhədsiz gömrük? Qloballaşan dünyada ticarət və gömrük vasitəsilə hökumət üçün yeni imkanların yaradılması" məruzələri dinlənilib.

Beynəlxalq elmi-praktik konfrans işini "Gömrük siyasəti iqtisadi siyasətin tərkib hissəsi kimi", "Gömrük sisteminin idarə edilməsi və onun inkişafı istiqamətləri", "Gömrük tənzimlənməsinin formaları: tarif və qeyri-tarif aspektləri, onların təkmilləşdirilməsi istiqamətləri", "Xarici iqtisadi fəaliyyət sferasında hüquqpozmalara qarşı mübarizənin iqtisadi təhlükəsizliyin təmin olunmasında rolu" bölmələrində davam etdirib. Qloballaşan dünya iqtisadiyyatı şəraitində müstəqil dövlətlərdə gömrük xidmətinin inkişafı ilə bağlı tövsiyələr qəbul edilib.





GÖMRÜKSÜZ İDXAL – idxal gömrük rüsumlarına cəlb edilməyən əmtəə və xidmətlərin ölkənin gömrük sərhədləri vasitəsi ilə idxalı (gətirilməsi). Gömrüksüz idxal bir qayda olaraq, idxal olunan ölkədə ya istehsal olunmayan, ya da onların istehsal həcmi ölkənin daxili tələbatını ödəməyən xarici mənşəli əmtəələrə münasibətdə tətbiq olunur. Ödənişdən azadolma mütləq şərtdir, bir sıra əmtəə-

lərə, əhalinin şəxsi istifadəsində olan əmtəələrə (mallara), bahalı olmayan hədiyyələrə, o cümlədən beynəlxalq poçtla göndərilən hədiyyələrə, digər predmetlərə şamil olunur. İnkişaf etmiş əksər ölkələrin gömrük tarifləri və Avropa İttifaqının vahid gömrük şurası gömrüksüz idxalı əsasən enerji daşıyıcıları və xammal əmtəələri (neft, qaz, dəmir və manqal filizi, pambıq, kauçuk və s.) üçün nəzərdə tutur.

GÖNDƏRİLMƏZDƏN ƏVVƏL YÜKƏ BAXIŞ – polisin şərtlərinə görə sığortaçının məsuliyyətinin həcminə korlanma və xarab olma riski və ya hər hansı bir digər risk daxildirsə, sığortaçı və ya sürveyer tərəfindən yükə ətraflı baxış.

GÖRÜNMƏMİŞ İNFLYASİYA – müəyyən dövr ərzində gözlənildiyindən yüksək olan inflyasiya səviyyəsi.

GÖRÜNMƏYƏN BALANS (ing. *invisible balans*) – müəyyən müddət ərzində dünyanın başqa ölkələri ilə xidmətlər sahəsində ölkənin ticarəti haqqında hesabat. "Görünməyən balans" termini mallarla ticarəti xüsusi olaraq istisna edir və bank işi, sığorta, turizm ilə əlaqədar xarici valyuta şəklində gəlirlər, xərclər, həmçinin, xarici investisiyalardan faizlər və mənfəət üzərində cəmləşir. Dövlət sərhədindən keçərkən gömrük xidmətlərinin izləyə və qeydiyyata ala biləcəyi mallarla bağlı əqdlərdən fərqli olaraq, görünməyən ödənişlər və daxilolmalar vəsaitlərin şirkətlər və maliyyə institutları tərəfindən mərkəzi banka köçürülməsi haqqında məlumatlara əsasən qeydiyyata alınır.

GÖRÜNMƏYƏN İXRAC VƏ İDXAL (ing. *invisible export and import*) – ölkələr arasında sərhədlərdən keçərkən görünməz başqa və qeyd edilməyən bank əməliyyatları, sığorta və turizm kimi xidmətlər. Görünməyən ixrac və idxal "görünən" ixrac və idxal ilə birlikdə ölkənin tədiyə balansının cari əməliyyatlar hesabını formalaşdırırlar.

GÖRÜNMƏYƏN VERGİ (ing. *hidden tax*) – malın və ya xidmətin qiymətinə daxil olunmuş dolayı vergi. İstehlakçının bu verginin mövcudluğu və qiyməti haqqında heç də həmişə məlumatı olmur. Məsələn, siqaretlərin və ya pivənin qiymətinə daxil edilmiş aksiz vergisinin qiyməti adətən istehlakçıya məlum olmur. Əlavə dəyər vergisi isə, əksinə, müəyyən faiz kimi məhsulun qiymətinə daxil edilir.

GÖSTƏRİCİLƏR BANKI – müəyyən yerdə mərkəzləşən, istifadə üçün ən yetərli olan informasiyaların məcmusu.

GÖSTƏRİCİLƏRİN BAZASI ƏSASINDA MARKETİNQ – marketinqə interaktiv yanaşma. Bu zaman marketinqin fərdiləşmiş vasitələri və kommunikasiya kanalları istifadə olunur. Bunların köməyi ilə alıcıları onların tələbini stimullaşdıran və onlarla əlaqə yaradan məlumatlarla təchiz edirlər.

GÖSTƏRİCİLƏRİN ELEKTRON MÜBADİLƏ SİSTEMİ – malgöndərənlərin və pərakəndə ticarətçilərin qarşılıqlı elektron əlaqəsi. Bu sistem alış sifarişləri, qablaşdırma vəraqələri, mal qəbulu haqqında sürbutlar, qaimə və ödəniş bildirişləri ilə mübadiləyə imkan verir.

GÖSTƏRİLƏN QİYMƏTLƏR – ölkənin milli gəliri strukturunun tərtib edilməsi zamanı istifadə edilən qiymətlər; bu, dolayı vergiləri çıxmaqla və dövlət subsidiyalarını daxil etməklə olan qiymətlərdir.

GÖY QURŞAĞI (ing. *rainbow*) – valyuta risklərindən müdafiəni nəzərdə tutan istiqrazlar başa düşülür.

GÖZLƏNİLƏN İTKİLƏR (ing. *expected loss)* – borcalanın defoltu baş verdiyi halda gözlənilən itkilər. Adətən gözlənilən itkilərin həcmi defoltların aylıq gözlənilən tezliyinin və ya defolt ölçülərinin itkilərin həcminə vurulması ilə hesablanır (1 – bərpa səviyyəsi). Məsələn, Moody's agentliyinin reytinqləri qiymətli kağızların müqavilə ilə müəyyən edilmiş son ödəmə vaxtına investorların gözlənilən itkilərinin qiymətləndirilməsidir. İpoteka qiymətli kağızlarının (İQK) kredit riskinin qiymətləndirilməsi zamanı Moody's agentliyi həm itkilərin baş verməsi ehtimalını, həm də onların həcmini nəzərdən keçirir. "Gözlənilən itkilər" üsulunun tətbiq edilməsi nəticəsində alınan reytinqlər defoltun baş verməsi ehtimalı əsasında verilən reytinqlərdən fərqlənirlər. İQK kontekstində Moody's müəyyən portfellə bağlı gözlənilən itkilərin qiymətləndirilməsini defoltların statistikası və həmin portfel üzrə borcların qaytarılması haqqında borcverən tərəfindən təqdim olunan məlumat, analoji portfel və ya etalon portfellə müqayisə üsulu ilə aparılan hesablamalar əsasında həyata keçirir.

GÖZLƏNİLƏN PENSİYA ÖDƏNİŞİ MÜDDƏTİ – qanunvericiliyin məqsədləri üçün

müəyyən edilən və əmək pensiyasının sığorta və yığım hissələrinin hesablanmasında istifadə olunan göstərici.

GÖZLƏNİLMƏZ HADİSƏLƏR ZAMANI FRAXTIN SIĞORTALANMASI – belə vəziyyət o halda baş verə bilər ki, təyinat limanında yükalan tərəfindən fraxtın ödənilməsi zamanı yüklər limana daxil olaraq son təyinat məntəqəsinə tranzitdə olur. Yük alan təyinat limanında ödənilmiş fraxt məbləğini əmtəənin dəyərinə daxil edə bilmir, çünki o, dəniz daşımaları zamanı belə fraxtda sığorta marağına malik deyil. Buna görə də əgər yük təyinat limanından son təyinat məntəqəsinə tranzitdə olarkən yolda itmiş olursa, yük alan yükün təyinat limanına gəlməsi zamanı onun ödədiyi fraxtın məbləği qədər itki daşıyır.

GÜNDƏLİK TƏLƏBAT MALLARI – ərzaq və qeyri-ərzaq mallarından ibarət olan geniş istehlak malları, məsələn, yüksək olmayan qiymətlərlə sadə qablaşdırmada satılan çörək, qənd, çay, alkoqolsuz içkilər və s.

GÜNDƏLİK TƏLƏBAT MALLARI MAĞAZASI – istehlakçılar üçün sərfəli olan yerlərdə yerləşən, uzadılmış iş gününə malik olan pərakəndə ticarət müəssisələri (çox zaman istirahət günü olmadan işləyirlər).

GÜNƏŞ LƏKƏLƏRİ NƏZƏRİYYƏSİ (ing. *Sun spot theory*) – bu nəzəriyyəyə görə, iqtisadi gözləmələr real iqtisadiyyata təsir göstərə bilər. İqtisadçı U.S.Cevons (1835-1882) özünün dediyinə görə, statistik müşahidələrə əsaslanan bir nəzəriyyə irəli sürmüşdür. Həmin müşahidələrə görə, işgüzar fəallıq tsiklləri Günəşdə fəallığın dəyişməsi ilə eyni vaxta düşür. Bir qədər ekssentrik xarakter daşıyan bu hipotez özlüyündə əhəmiyyətsizdir, lakin ondan iqtisadi gözləmələr nəzəriyyəsi nümunəsi kimi istifadə edilmişdir. Belə ki, insanların çoxu inanır ki, Günəşdəki ləkələr səhmlərin məzənnələrinə təsir göstərir. Bu nəzəriyyənin tərəfdarları əmindirlər ki, bu elə belə də olacaqdır. C.M.Keyns fərz etmişdir ki, özözünə çin olan bu cür gözləmələr iqtisadi depressiyanın izahlarından biri ola bilər. Günəşin fəallığının iqtisadi dəyişikliklərə təsiri ilə bağlı tədqiqatlarla Yudzi, L.D.Trotski, Qodstayn və başqaları da məşğul olmuşlar.

GÜZƏŞT – sövdələşmədə göstərilən əmtəənin bazis qiymətinin mümkün azaldılmasının həddini müəyyən edən sövdələşmə şərtlərindən biri. Güzəştin aşağıdakı növləri fərqləndirilir: 1) sadə güzəşt – ilkin qiymət bir dəfə azalır; 2) mürəkkəb güzəşt – qiymətin iki dəfə və daha çox azaldılması; 3) ixrac güzəşti – xüsusi ixrac kataloqunun olmaması zamanı baş verir; 4) diler güzəşti daimi topdansatış alıcıya – dilerə edilir; 5) bonus güzəşti – firmanın müxtəlif məhsulunun alqısı həcminə edilir; 6) xüsusi güzəşt – nağd tədiyəyə edilir və s.

GÜZƏŞTLƏR (endirimlər) SİYASƏTİ – preyskurantlarda göstərilən qiymətlərin aşağı salınmasına icazə verilən hədlər.

GÜZƏŞTLİ GÜNLƏR – müdafiə qorunub saxlanan zaman – sığorta polisi müddəti bitdikdən sonra müəyyən olunan dövrdür, bu o zaman baş verir ki, mükafat həmin dövrün sonuna qədər ödəniləcəkdir və ya sığorta müştərinin tələbi ilə dayandırılacaqdır. Güzəştli günlər – polislərin qüvvədə olduğu müddətdir (çox zaman – 30 gün), baxmayaraq ki, o, ödənilməmişdir. Əgər bu dövrdə iddialar yaranarsa, onun ödənilmiş mükafatı ödənilməmiş sığorta məbləğindən çıxılır.

GÜZƏŞTLİ KREDİTLƏR – alıcılara kredit bazarı üzrə digərləri ilə müqayisədə daha əlverişli şərtlərlə (orta şərtlərlə) təqdim edilən kreditlər: daha aşağı faiz dərəcələri ilə, faizin ödənilməsinin başlanmasının və ya borcların örtülməsi (ödənilməsi) əvvəlcədən danışıldığı kimi, uzadılmaqla daha uzun müddətə və s. Güzəştli kreditləşmənin mexanizmindən istifadə inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatlı ölkələr üçün xarakterikdir. Bu ölkələrin zəif inkişaf etmiş maliyyə bazarları iqtisadi inkişaf məqsədləri üçün pul resurslarının səmərəli bölüşdürülməsini təmin edə bilmirlər. Belə şəraitdə hökumətin güzəştli kredit proqramları ümumi iqtisadi strategiya nöqteyinəzərindən prioritet olan istiqmətlərdə kredit axınlarının mərkəzləşdirilməsinə səbəb olur. Adətən onlar dövlət müəssisələrinin, ixrac istehsalının, kənd təsərrüfatının, kiçik və orta müəssisələrin, mənzil tikintisinin, zəif inkişaf etmiş regionların müdafiəsini nəzərdə tutur (sxem 1, 2). Şərqi Avropa ölkələrində ötən əsrin 90-cı illərin əvvəllərindən bazar islahatları dövründə istehsal bölməsi üçün, ilk növbədə müəssisələrinin modernləşdirilməsi və ixrac istehsalının inkişafı üçün güzəştli faiz dərəcələrindən ge-

Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilmə mexanizmi



1. Sahibkarlıq subyektləri müvəkkil kredit təşkilatlarına müraciət edir.
2. Müvəkkil kredit təşkilatları 10 (on) bank günündən gec olmayaraq investisiya layihələrini təhlil edir və müsbət qiymətləndirdiyi layihələrə dair məlumatları və sənədləri Fonda təqdim edir.
3. İnvestisiya layihəsi mənfi qiymətləndirilən sahibkarlıq subyektlərinə isə 3 (üç) bank günü müddətində imtina məktubu verilir.
4. Fond 10 (on) bank günü müddətində təqdim olunmuş layihələri ekspertizadan keçirir və investisiya layihələrinin bilavasitə yenidən ilkin monitorinqini həyata keçirir.
5. Ekspertizanın nəticəsindən asılı olaraq Fond müraciətlərin təmin olunması və ya onlardan imtina edilməsi barədə müvəkkil kredit təşkilatlarına rəsmi məlumat verir.
6. Müvəkkil kredit təşkilatları sahibkarlıq subyektləri ilə kredit müqaviləsi bağlayır.
7. Müvəkkil kredit təşkilatları tərəfindən kredit vəsaitinin ayrılması barədə Fonda sifariş göndərilir.
8. Fond 3 (üç) bank günü ərzində vəsaitlərin müvəkkil kredit təşkilatlarına ayrılmasını təmin edir.
9. Ayrılmış vəsait müvəkkil kredit təşkilatının müxbir hesabına daxil olduqdan sonra kredit təşkilatı 2 (iki) bank günü ərzində vəsaiti sahibkarlıq subyektinin hesabına köçürür və bu barədə Fonda və sahibkarlıq subyektinə məlumat verir.

Sxem 1

niş istifadə olunurdu. Uzunmüddətli güzəştli kreditləşmə inkişaf etmiş ölkələrdə fəal struktur yenidənqurma və ya bərpa (böhrandan sonra) dövründə istifadə olunurdu. Praktik olaraq bütün ölkələr mövsümilik, hava şəraitindən asılılıq, qiymətin dəyişkənliyi ilə əlaqədar kənd təsərrüfatının güzəştli kreditləşməsi problemi ilə rastlaşırlar.


GÜZƏŞTLİ TARİF – gərginliyin qeyri-müntəzəmliyini azaltmaq və ya istehlakçıların sosial əhəmiyyətli ayrı-ayrı xidmətlərdən istifadə etmək imkanını artırmaq məqsədilə adi (ümumi) tariflərlə müqayisədə ayrı-ayrı xidmət növləri üçün aşağı məbləğdə tariflər müəyyən edilir.

Məsələn, beynəlxalq telefon stansiyalarının çoxunda axşam və gecə vaxtı, istirahət və bayram günlərində telefon danışıqları üçün aşağı tariflər müəyyən edilir. Bu, gündüz iş vaxtının gərginliyini bir qədər azaltmağa şərait yaradır və qeyri-müntəzəmliyi azaldır. Hər bir səhmdar cəmiyyəti elektrik rabitəsi üzrə adi tariflərə azaldıcı əmsalları müəyyən edərkən gərginliyin qeyri-müntəzəmlik dərəcəsindən və güzəştli tariflər tətbiq edilməsinin beynəlxalq telefon danışıqlarına görə əldə edilən gəlirlərin ümumi səviyyəsinə təsirin eksperimental və ya ekspert qiymətindən asılı olaraq onu tənzimləyici orqanla razılaşdırır. Təcrübə göstərir ki, gərginliyin azaldığı saatlarda tariflərin azalması gəlirlərin nəzərəçarpacaq dərəcədə azalmasına gətirib çıxarmır, çünki güzəştli tariflər qüvvədə olan dövrlərdə mübadilə fəallaşır.

Güzəştli tarif tətbiq etməyin vəzifələri:

Bu halda iki mühüm məsələ həll edilir: birincisi, müəssisələrin istehsal gücündən daha yaxşı istifadə edilir; ikincisi, beynəlxalq danışıqların aşağı tariflər üzrə təqdim edilməsi onların istifadəçilər üçün daha əlyetərli olmasına və xidmətlərin bu növünə tələbatın təminedilmə dərəcəsinin artmasına şərait yaradır. Güzəştli tariflərin digər hissəsi qüvvədə olan qanunvericiliklə əlaqədardır. Həmin qanunvericiliyə uyğun olaraq istifadəçilərin müəyyən kateqoriyaları xidmətlərin bu və ya digər növlərindən güzəştlə istifadə edirlər.

Sahibkarlığa Kömək Milli Fondu tərəfindən təyinatı üzrə istifadəsinin monitorinqi keçirilmiş güzəştli kredit məbləğlərinin iqtisadiyyatın sahələri üzrə bölgüsü (2010-cu il, min manatla)




Sxem 2

GÖNDƏRİLMƏZDƏN ƏVVƏL YÜKƏ BAXIŞ – polisin şərtlərinə görə sığortaçının məsuliyyətinin həcminə korlanma və xarab olma riski və ya hər hansı bir digər risk daxildirsə, sığortaçı və ya sürveyer tərəfindən yükə ətraflı baxış.

H

HAAVELMO TRÜQVE (1911-1999) – Norveç iqtisadçısı, ekonometrika və statistika üzrə fundamental əsərlərin müəllifi.



"Ekonometrikanın bünövrəsi kimi ehtimal nəzəriyyəsinin rolunun araşdırılmasına və ekonometrik strukturun təhlilinə görə" 1989-cu ildə Nobel mükafatı almışdır. Ondan əvvəl isə digər nailiyyətlərinə görə Fritofa Nansen mükafatına da layiq görülmüşdür (1970).

Oslo Universitetini bitirmişdir. 1933-1939-cu illərdə Oslo Universitetinin nəzdindəki İqtisadiyyat İnstitutunun tədqiqatçı assistenti, 1939-1941-ci illərdə Rokfeller Fondunun təqaüdçüsü olmuş, Kaliforniya və Harvard universitetlərində təcrübə keçmişdir. 1942-1944-cü illərdə Norveçin Nyu-Yorkdakı Ticarət missiyasında statistik, 1945-ci ildə Norveçin ABŞ-dakı səfirliyində ticarət attaşesi işləmişdir. 1946-1947-ci illərdə İqtisadi tədqiqatlara dair Koulz Komissiyasının əməkdaşı, 1947-ci ildə Norveçin ticarət, sənaye və maliyyə nazirliyində şöbə rəhbəri olmuşdur. Sonralar Oslo Universitetinin nəzdindəki İqtisadiyyat İnstitutunda iqtisadiyyat professoru (1948-1979), eləcə də uzun illər (1944-1970) Ekonometrika Cəmiyyətinin Şura üzvü və prezidenti (1957-ci ildən) kimi fəaliyyət göstərmişdir. Bundan başqa, müxtəlif illərdə Riyazi Statistika İnstitutunun (1946), Norveç Elmlər Akademiyasının (1950) üzvü və Amerika İqtisadiyyat Assosiasiyasının fəxri üzvü seçilmişdir (1975).

Haavelmonun ekonometrika elminə töhfəsi, hər şeydən əvvəl, ekonometrik tədqiqatın metodologiyası və metodlarının işlənib hazırlanması ilə əlaqədardır. Özünün "Səhmlərin məzənnəsinin öyrənilməsi misalında təsvir edilən əlavə kəsişən asılılıqlar metodu" adlı birinci məqaləsində o, 1920-1926-cı illərdə Norveçdə və 1903-1914-cü illərdə ABŞ-da səhmlərin məzənnəsinin dəyişməsi haqqında aylıq göstəricilərin təhlilini həyata keçirdi.

Əsərdə yenilik az sayda struktur asılılıqlarla iqtisadi sistemin statistik təhlilinin aparılmasıdır.

Haavelmonun ən məşhur əsərlərindən biri 1944-cü ildə "Ekonometrika" jurnalının iyul nömrəsinə əlavə kimi dərc olunan "Ekonometrikaya ehtimal yanaşması" mövzusunda doktorluq dissertasiyasıdır. Orada göstərilir ki, əgər nəzəri müddəalar ehtimal nəzəriyyəsinin terminlərində ifadə edilərsə, onda riyazi statistikada istifadə olunan metodlar iqtisadi hadisələrin əsasında duran baza asılılıqları ilə əlaqədar dəqiq nəticələrin aşkar edilməsi üçün, həmçinin iqtisadi nəzəriyyələrin testləşdirilməsində və iqtisadi proseslərin proqnozlaşdırılmasında tətbiq edilə bilər. Haavelmo hər bir fərdi həlli əvvəlki, bəzi təsadüfi həll və hərəkətlər çoxluğunun qarşılıqlı fəaliyyətində bazar münasibətləri zənciri vasitəsilə əlaqəli nəticəsi kimi nəzərdən keçirərək, digər rabitə və asılılıqlara müəyyənedici təsir göstərən bazar münasibətinin tapılması problemini qarşıya qoymuşdur. O, ilk dəfə bir neçə struktur asılılıqları olan qiymət modellərində eyni müddətlilik və identifikasiya adlanan problemin dəqiq riyazi ifadəsini vermişdir. Ehtimal nəzəriyyəsi çərçivəsində Haavelmo qarşılıqlı asılılıqlı iqtisadi sistemdə fərdi münasibətlərin təcrid olunmuş qiymətlənməsində yerdəyişmənin ümumi ifadəsini və metodunu təklif etmişdir.

Haavelmonun iqtisadi nəzəriyyəyə töhfəsi həmçinin kapital qoyuluşu nəzəriyyəsi və iqtisadi inkişaf nəzəriyyəsi sahəsində tədqiqatlarla bağlıdır. Onun "İqtisadi təkamül nəzəriyyəsinə dair oçerk" əsəri iqtisadi geriliyin səbəbləri barədə ilk tədqiqatlarından biridir. "İnvestisiya nəzəriyyəsinə dair oçerk" əsərində isə Haavelmo Avstriya məktəbi mövqeyindən, istehsal amili kimi kapital anlayışına neoklassik yanaşmanı birgə öyrənməyə cəhd göstərmişdir. O həmçinin makroiqtisadi səviyyədə tsiklik tərəddüdlərin öyrənilməsi, fiskal siyasət problemləri, iqtisadi fikir tarixi ilə məşğul olmuşdur.

HACIYEV CAHANGİR FEVZİ OĞLU (1961) – Azərbaycan iqtisadçısı, i.e.n. 1986-cı ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib.1993-cü ildə ABŞ-ın Texas Universitetində "beynəlxalq maliyyə, iqtisadiyyat və hüquq üzrə menecer" ixtisasına yiyələnmişdir. Niderland Krallığı Beynəlxalq Əlaqələr Nazirliyinin nəzdində beynəlxalq hüquq və maliyyə kurslarını keçmişdir.



1984-1988-ci illərdə Liviya və Suriyada ərəb dili üzrə tərcüməçi, 1988-1992-ci illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasında və Ticarət Nazirliyində çalışmışdır. 1993-1995-ci illərdə Xarici İqtisadi Əlaqələr Nazirliyinin idarə rəisinin müavini və idarə rəisi, 1995-1996-cı illərdə "Alp" şirkətinin Baş direktoru, 1996-cı ildən Azərbaycan Beynəlxalq Bankında departament müdiri və kredit komitəsinin sədri vəzifəsində işləmişdir. 2001-ci ilin martından Azərbaycan Beynəlxalq Bankı İdarə heyətinin sədridir.

Azərbaycan Banklar Assosiasiyasının vitse-prezidenti, MDB maliyyə-bank şurasının birinci vitse-prezidenti, Bakı Fond Birjası müşahidə şurasının sədri, Azərbaycan-Britaniya biznes şurasının həmsədri, İnkişaf Etməkdə Olan Qlobal Şirkətlər Cəmiyyəti Şurasının üzvü, ticarət, kommersiya və sənaye üzrə Avropa İqtisadiyyat Palatası Senatının senatorudur.

2009-cu ilin aprelində MDB, Mərkəzi və Şərqi Avropa ölkələri üzrə ən yaxşı antiböhran meneceri elan edilmiş və "Platin açar" mükafatına layiq görülmüşdür.

2005-ci ildə Rusiya EA İqtisadiyyat İnstitutunda bank işi sahəsində namizədlik dissertasiyasını müdafiə etmişdir. Azərbaycanda və xaricdə nəşr olunan əsərlərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir: "Юсуф Мускури Ширвани. Изъяснение тайн желающим пройти путь суфизма. Иерархия творений" (Стокгольм: CA&CC Press® AB, 2006, 336 c.), "Денежно-кредитная система и Международный Банк Азербайджана" (Москва: Финансы и статистика, 2008, 240 c.) və "The Monetary System and the International Bank of Azerbaijan" (Stockholm: CA&CC Press® AB, 2009, 224 p.).

HACIYEV RAUF ŞAİQ OĞLU (1956) – Azərbaycan iqtisadçısı, i.e.n., dos. 1977-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) bitirmişdir. 1986-cı ildə Moskva Maliyyə İnstitutunda "Tikinti təşkilatlarında maddi həvəsləndirmənin təkmilləşdirilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.



1979-1983-cü illərdə SSRİ Tikinti Bankının Bakı şəhər şöbəsində baş kredit müfəttişi, şöbə müdiri, SSRİ Tikinti Bankının Azərbaycan Respublika Kontorunda Plan-İqtisad İdarəsinin rəis müavini vəzifələrində işləmişdir. 1987-1990-cı illərdə Azərbaycan SSR Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatının İdarəetmə İnstitutunda elmi-tədqiqat laboratoriyasının müdiri, 1991-1996-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Maliyyə" kafedrasının dosenti vəzifələrində çalışmışdır. 1996-cı ildən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Baş Vergi Siyasəti İdarəsi rəisinin müavini işləmiş, Azərbaycanın 20-yə yaxın ölkə ilə vergi və investisiya sahələrində bağladığı beynəlxalq sazişlərin layihələrinin hazırlanması üzrə işçi qruplarına başçılıq etmişdir.

2001-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi qanunvericilik şöbəsinin müdiri, 2-ci dərəcəli dövlət müşaviridir.

İqtisadi qanunvericiliyin təkmilləşdirilməsinə həsr olunmuş

bir sıra məqalələrin müəllifi, F.Kotlerin "Marketinqin əsasları", K.R.Makkonel və S.L.Bryunun "Ekonomiks" dərsliklərinin, Beynəlxalq Ticarət Palatasının "İnkoterms 2000" nəşrini tərcümə etmişdir.

HACIYEV RƏHMAN ƏSABƏLİ OĞLU (1955) – Azərbaycan iqtisadçısı.1976-cı ildə



Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun İqtisadiyyat fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1976-cı ildə Bakı şəhər sığorta İdarəsində baş iqtisadçı vəzifəsindən başlamışdır. 1977-ci ildən Bakı şəhər Orconikidze rayon Tikinti Bankında böyük kredit inspektoru, 1978-1989-cu illərdə isə Azərbaycan İnşaat Bankında böyük iqtisadçı, şöbə rəisi və Əməliyyat İdarəsi rəisinin müavini vəzifələrində işləmişdir. 1989-cu ildə ölkənin ilk bankları sırasında olan DəmirBank ASC-nin (əvvəlki adı Azərdəmiryolbank) yaradılmasının təşkilatçısı olmuşdur və 1994-cü ilədək İdarə Heyətinin sədri vəzifəsində fəaliyyət göstərmişdir. 1994-cü ildən etibarən DəmirBankın Müşahidə Şurasına rəhbərlik edir. Ölkədə kommersiya bankı institutunun formalaşması və inkişafında xidmətləri vardır.

HACIYEV SƏDİ MƏHƏMMƏD OĞLU (1930) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1958-ci ildə Moskva İqtisadi Statistika İnstitutunda statistika üzrə namizədlik dissertasiyası



müdafiə edən ilk azərbaycanlı olmuşdur. 1973-cü ildə yenə həmin institutda "Kənd təsərrüfatında əsas fondların istifadəsinin iqtisadi-statistik tədqiqi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. "İqtisadi statistika", "Statistikanın ümumi nəzəriyyəsi", "Kənd təsərrüfatının statistikası" dərsliklərini hazırlamışdır. S.Hacıyev statistika kitablarının tərcümə və nəşr edilməsi sahəsində də geniş fəaliyyət göstərmişdir. S.Hacıyev 1987-ci ildə 21,0 ç.v. həcmində "Statistikanın ümumi nəzəriyyəsi" adlı dərsliyi, 1989-cu ildə Moskvada 50,5 ç.v. həcmində əsas müəlliflər kollektivi ilə birlikdə "Statistika lüğəti" kitabını çap etdirmişdir. Onun rəhbərliyi altında 5 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir.

HACIYEV ŞƏMSƏDDİN HÜMMƏT OĞLU (1950) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1980-ci ildə Q.V.Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda "Azərbaycan SSR-in pərakəndə mal dövriyyəsi və onun planlaşdırılmasının təkmilləşdirilməsi yolları" mövzusunda namizədlik, 2000-ci ildə Q.Şevçenko adına Kiyev Milli Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunda isə "Azərbaycanın xarici iqtisadi strategiyasının formalaşması və inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və həmin ildə



"Dünya təsərrüfatı və beynəlxalq iqtisadi münasibətlər" ixtisası üzrə respublikada ilk iqtisad elmləri doktoru alimlik dərəcəsini almışdır. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin rektorudur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Elm və Təhsil Komitəsinin sədridir.

2000-ci ildə Kiyev şəhərində "Azərbaycan dünya birliyi yolunda: xarici iqtisadi inkişafın strategiyası" adlı irihəcmli monoqrafiyası nəşr olunmuşdur. 150-dən artıq elmi məqalənin, 4 monoqrafiyanın, 10 kitabça və 2 dərsliyin müəllifidir.

Əsərləri: Гаджиев Ш.Г. Исрафилов Г.А. Розничный товарооборот в Азербайджанской ССР (*закономерности, перспективы и проблемы развития*); Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития, Киев: Експрес-об`ява, 2000, 504 с. (*rus dilində);* Hacıyev Ş.H., Bayramov Ə.İ. İqtisadiyyat fəlsəfəsi, Bakı, 2008. Hacıyev Ş.H., Bayramov Ə.İ. Dünya iqtisadiyyatının tarixi. Bakı, 2011, 495 s.

HACIZADƏ ELŞƏN MAHMUD OĞLU (1961) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1998-ci ildə "Quruda neft-qazçıxarma sənayesində iqtisadi islahatlar və onların təkmilləşdirilməsi problemləri" mövzusunda namizəd-



lik, 2005-ci ildə isə "Azərbaycanın quru ərazilərində neft və qaz hasilatının artırılması problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 170 elmi əsər, o cümlədən 8 monoqrafiya, 2 tədris proqramı, 6 metodiki vəsait, 9 qrant layihəsi və çoxsaylı məqalələr müəllifidir. Xarici dövlətlərdə keçirilən beynəlxalq konfranslarda 20-dən çox elmi məruzələrlə çıxış etmiş və əsərləri müvafiq olaraq bir sıra ölkələrin elmi nəşrlərində çap olunmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabineti aparatında "Sənaye və energetika" şöbəsində baş məsləhətçidir. "Azərbaycanın vergi xəbərləri" elmi jurnalının baş redaktorudur.

Əsərləri: Azərbaycanın quruda neftqazçıxarma kompleksində iqtisadi islahatlar və səmərəlilik problemləri, Bakı, Elm, 1998, 144 s.; Energetik kompleks yeni islahatlar ərəfəsində, Bakı: Elm, 2000, 257 s.; Azərbaycanın təbii qaz potensialı: reallıqlar və virtual cizgilər, Bakı: Elm, 2001, 186 s.; Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli, Bakı: Elm, 2002, 472 s.; Sosiallaşan iqtisadiyyat, Bakı: Elm, 2006, 509 s.

HADİSƏ (fr. *cas fortuit*; alm. *zufall*) – borclunun iradəsindən kənar baş verən qəzalar. Belə qəzaların baş verməsi nəticəsində borclu bütün məsuliyyətlərdən azad edilir. Bu cür hadisələr qarşısıalınmaz qüvvələrin fəaliyyəti nəticəsində baş verir.

HADİSƏNİN ZƏRƏRLƏRİ – bir səbəb (məsələn, quraqlıq, fırtına, subasma, tufan və s.) nəticəsində sığorta şirkətinin və ya təkrar sığortaçının, yaxud sedent şirkətin zərərləri.


HAKİM MÖVQEDƏ DURAN İNSANIN SIĞORTALANMASI – öz rəhbərlərinin və ya əməkdaşlarının dar çərçivədə həyatının şirkət tərəfindən sığortalanması. Sığorta olunanın ölümü həmin şirkətin maliyyə vəziyyətinə çox mənfi təsir göstərə bildiyindən, kredit verilməsi üçün bankın kiçik şirkətə şərt kimi tələb oluna bilər.

HAKİMİYYƏTDƏ BİZNES (ing. *business on power*) – sahibkarlıq fəaliyyətinin hakimiyyət sferasına daxil olması. Mənfəət dalınca qaçma bir çox hallarda sahibkarlarla hakimiyyətə malik olanların maraqlarının üst-üstə düşməsinə səbəb olur. Bu isə bir sıra qanun pozuntularına gətirib çıxarır.

HAQSIZ REKLAM – Azərbaycan qanunvericiliyinə görə reklam edilən malların və ya xidmətlərin keyfiyyəti və istehlak xassələri barədə istehlakçıları çaşdıran, reklam edilən mallardan istifadə etməyən hüquqi və ya fiziki şəxsləri hörmətdən salan, rəqiblərin malları ilə qeyri-korrekt müqayisələr, digər təsərrüfat subyektlərinin ləyaqətinə və işgüzar nüfuzuna xələl gətirən məlumat və informasiyanın daxil olduğu reklam. Haqsız reklam qanunla qadağan edilir.

HAQSIZ RƏQABƏT – bazarda qəbul edilən rəqabət normalarının və qaydalarının pozulması ilə əlaqədar rəqabət mübarizəsinin metodları. Haqsız rəqabət – bazar subyektinin sahibkarlıq fəaliyyətində mövcud qanunvericiliyə zidd və ədalətsiz üsullarla üstünlük əldə etməyə yönəlmiş, bununla da digər bazar subyektlərinə (rəqiblərinə) zərər vura bilən, yaxud onların işgüzarlıq nüfuzuna xələl yetirə bilən hərəkətləridir. Xüsusilə aşağıdakılara icazə

Haqsız rəqabətin xüsusiyyətləri



Sxem 1

verilmir: elmi-texniki, istehsal və ya ticarət informasiyasının qeyri-qanuni alınması, özbaşına istifadə edilməsi və ya yayılmasına; əmtəələrin (məhsulların) hazırlanma yeri, üsulu və ya keyfiyyəti ilə əlaqədar reklam və ya digər informasiyada yalan xəbərlərin yayılmasına (kommersiya fəaliyyəti zamanı bunların göstərilməsi və ya istifadəsi cəmiyyəti çaşdıra bilər); müəssisənin fəaliyyətinə, rəqibin məhsuluna münasibətdə "anlayışların qarışdırılması"nı doğurmağa qadir olan hərəkətlərə; müəssisəni, onun sənaye və ticarət fəaliyyətini nüfuzdan salmağa qadir olan yalan müddəalara; istehlakçı üçün mühüm olan informasiyanı gizlətməyə (üstündən keçməyə); digər şəxslərin bazardan sıxışdırılmasına yönəldilmiş başqa hərəkətlərə. Qanun rəqabət aparan subyektlər arasında hər hansı formada sazişlərin (razılaşdırılmış hərəkətlərin) bağlanmasını və həyata keçirilməsini qadağan edir ki, bunlarda aşağıdakılar nəzərdə tutulur: rəqabətin məhdudlaşmasına istiqamətlənmiş qiymətlərin (tariflərin), güzəştlərin (əlavələrin), ödənişlərin ölçülərinin və digər şərtlərin müəyyən edilməsi; bazarların ərazi prinsipi üzrə, satış və ya satınalmanın həcmi üzrə, satıcıların və ya alıcıların inhisarlaşması məqsədi ilə onların dərəcəsi (ranqı) üzrə, yaxud digər əlamətlər üzrə müəyyən edilməsi; alıcılar və satıcılar kimi digər təsərrüfat subyektlərinin bazara əlyetərliliyinin məhdudlaşması və ya oradan (bazardan) kənarlaşdırılması; rəqabəti xeyli məhdudlaşdıran və ya məhdudlaşdıra bilən digər şərtlər. Azərbaycanda 1995-ci ildə "Haqsız rəqabət haqqında" Qanun qəbul edilmişdir.

Sahibkarlıq fəaliyyətində haqsız rəqabətin formalarına aşağıdakılar aid edilir: rəqibin təsərrüfat fəaliyyətinin təqlidi; rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması; rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə; haqsız sahibkarlıq fəaliyyəti; haqsız işgüzarlıq davranışı; istehlakçıların çaşdırılması.

HAQVERDİYEVA SOFİYA HƏSƏN QIZI (1930) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1964-cü ildə namizədlik, sonradan isə "Sovet Azərbaycanının neft maşınqayırmasının inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. İqtisadi tarix, Azərbaycanın xarici iqtisadi əlaqələrinə dair 100-dən artıq elmi əsərin müəllifidir. İqtisadi tarix üzrə respublikada iqtisad elmləri doktoru dərəcəsi almış ilk qadın olan S.H.Haqverdiyeva "Azərbaycan SSR neft maşınqayırma sahəsinin inkişafı (1858-1980-ci illər)" problemini müstəqil tədqiq etmişdir. Bu elmi işdə ölkənin iqtisadi inkişaf qanunauyğunluqlarının zərurətindən doğan irihəcmli elmi problem həll olunmuş və tam mənada neft vətəni olan Azərbaycanda neft-mədən maşınqayırma sənayesinin yaranması, formalaşması və inkişafı prosesi açıqlanmışdır. Onun "Sovet Azərbaycanının neft maşınqayırma sənayesinin inkişafı" adlı monoqrafiyasını və broşuralardan "Azərbaycan SSR neft-mədən maşınqayırma sənayesinin əsas problemləri" və "Maşınqayırma sənayesi ETT sürətləndirilməsinin əsasıdır" elmi işlərini xüsusi olaraq qeyd etmək lazımdır. O, dörd iri kollektiv monoqrafiyanın – "Sosializmin əsaslarının yaradılması müddətində Sovet Azərbaycanının iqtisadiyyatı", "Böyük Vətən müharibəsi dövründə Sovet Azərbaycanının iqtisadiyyatı", "Azərbaycan iqtisadi tarixinin aktual problemləri", "Sosial-iqtisadi sistemin dəyişilməsi şəraitində Azərbaycanda bazar münasibətlərinin formalaşması" – həmmüəllifidir. S.Haqverdiyeva 1958-ci ildən indiyə kimi Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutunda müxtəlif vəzifələrdə çalışmışdır.


HARROD-DOMAR MODELİ – iqtisadiyyatın sabit, tarazlaşdırılmış artım sürətinin şərtlərini müəyyən etmək üçün nəzərdə tutulan neoklassik iqtisadi artım nəzəriyyəsinin modellərindən biri.

Real iqtisadiyyatı əhəmiyyətli dərəcədə sadələşdirən, bir sıra ilkin şərtlər əsasında qurulan bu bir bölməli model, əhalinin sayının və əsas fondların (kapitalın) artım sürətinin funksiyası kimi, tarazlı artım sürətini müəyyən edir.

Son məhsulun təbii artım sürəti (texniki tərəqqinin yoxluğu zamanı o, əhalinin artım sürətinə bərabərdir) və kapitalın həcminin artımı ilə məhdudlaşan təminatlı sürət anlayışlarından istifadə olunur.

Model bir-birindən asılı olmayaraq bu fikrə gəlmiş ingilis R.Harrodun və amerikalı E.Domarın adı ilə adlandırılmışdır.

HARŞANYİ CON ÇARLZ (1920) – ABŞ iqtisadçısı, oyunlar nəzəriyyəsi, mikroiqtisadiyyat, qərarların qəbul edilməsi, iqtisadiyyat, rifah, riyazi iqtisadiyyat, etika sahəsində əsərlərin müəllifi.



"Qeyri-kooperativ oyunların təhlilində üstün töhfəsi"nə görə 1994-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatına (C.Neş və R.Selten ilə birlikdə) layiq görülmüşdür.

Budapeşt Universitetini bitirmiş, 1947-ci ildə sosiologiya və psixologiya üzrə doktorluq dissertasiyasını müdafiə etmiş, Budapeşt Universitetinin nəzdindəki Sosiologiya İnstitutunda işləmişdir. 1950-ci ildə Avstraliyaya mühacirət etmişdir. Zavodda işləmiş, axşamlar Sidney Universitetində iqtisadiyyatı öyrənmişdir. 1953-cü ildə magistr dərəcəsi almışdır. Brisben şəhərində Kvinslend Universitetində iqtisadiyyatdan dərs demişdir. Rokfeller Fondunun təqaüdçüsü kimi 1956-1958-ci illərdə Stanford Universitetində (ABŞ, Kaliforniya) təcrübə kursu keçmişdir. Kanberra şəhərində Avstraliya Milli Universitetində dərs demişdir (1959-1961). Detroyt Dövlət Universitetində iqtisadiyyat professoru (1961-1963) olmuş, 1964-1990-cı illərdə Biznes məktəbində, sonra isə Berkli şəhərində Kaliforniya Universitetinin iqtisadiyyat fakültəsində dərs demişdir. Dəvət edilmiş professor kimi Bilfeld (1973-1979), Bonn (1978), Paris (1979) və Sidney (1982) universitetlərində mühazirələr oxumuşdur. Ekonometrika Cəmiyyətinin (1968-ci ildən), Amerika Elmlər və İncəsənət Akademiyasının (1978-ci ildən), ABŞ Milli Elmlər Akademiyasının (1992-ci ildən), Amerika İqtisadi Assosiasiyasının (1994-cü ildən) üzvü olmuşdur.

Natamam informasiya ilə xarakterizə olunan qeyri-kooperativ oyunlar üçün Neşin tarazlıq konsepsiyasının təkmilləşdirilməsi ilə əlaqədar tədqiqatları Harşanyinin ən çox tanınmış əsərləri sayılır. Bu sinifdən olan oyunların təhlilinin predmeti situasiyadır ki, bu zaman agentlər yalnız qarşılıqlı razılaşmalara nail olurlar (Neşin mənasında tarazlıq şərtlərindən biri), həm də tərəfdaş oyunçuların məqsədlərini (oyunlar nəzəriyyəsi terminlərində üstünlüklər) bilmirlər və bir-birinin strategiyası haqqında məlumatları yoxdur. İnformasiyanın natamamlığı ilə xarakterizə olunan oyunlar nəzəriyyəsini təhlilə daxil edərək, Harşanyi "Natamam informasiyalı oyunlar" silsilə məqalələrində (1967-1968-ci illər) digər iştirakçının, məsələn, bazarda rəqabət aparan firmanın, ictimai institutların və s. vəziyyəti haqqında informasiyanın qıtlığı şəraitində qərarların qəbul edilməsi zəruriliyi ilə əlaqədar yaranan konkret iqtisadi situasiyaların metodikasını işləyib hazırlamışdır. Harşanyi oyun iştirakçılarından hər birini oyunçuların tiplərindən biri kimi nəzərdən keçirmişdir. Onların hər biri digər tip oyunçular vasitəsilə ehtimal bölgüsünün və hər bir oyunçunun bir sıra mümkün üstünlükləri kimi təqdim edilə bilər.

Harşanyi göstərirdi ki, natamam informasiyalı hər bir oyun üçün natamam informasiyalı ekvivalent oyun mövcuddur. Oyunlar nəzəriyyəsinin riyazi aparatından istifadə edərək o, natamam informasiyalı oyunları təkmil informasiyalı oyuna çevirdi ki, onlar da standart metodların köməyi ilə həll oluna bilər. Harşanyinin tədqiqatları iqtisad elminin nisbətən yeni sahəsi olan informasiyanın nəzəri bünövrəsini təşkil etdi. Harşanyinin əsərləri iqtisadi təhlilin aləti kimi oyunlar nəzəriyyəsinin tətbiq edilməsi imkanını xeyli genişləndirdi.

HASİLAT NORMASI – müəyyən təşkilati-texniki şəraitdə müvafiq ixtisaslı bir və ya bir qrup işçi tərəfindən bir zaman vahidi daxilində (saat, növbə və s.) yerinə yetirilməli və ya hazırlanmalı olan əməliyyatların, məmulatın sayı. Hasilat norması vaxt norması ilə tərs mütənasib kəmiyyətdir. İş yerində bir növbə ərzində dəfələrlə təkrarlanan işlər üçün müəyyən edilir. Əsas işçilərin əməyinin normallaşdırılması üçün o halda tətbiq edilir ki, iş növbəsi ərzində icraçıların tərkibi dəyişmədən eyni iş görülsün. Yardımçı fəhlələrin əməyinin normallaşdırılması üçün hasilat norması vaxtı o halda məqsədəuyğundur ki, onlara təhkim edilmiş müəyyən iş istehsal prosesinin strukturuna daxil olsun. Bu işin yerinə yetirilməsinin məzmunu, həcmi və metodları

ciddi reqlamentləşdirilmiş olsun. Təşkilati-texniki tədbirlər tətbiq edildikdə və iş şəraiti dəyişdikdə hasilat normasına yenidən baxılır.

HASİLATIN ÜMUMİ HƏCMİ – neft-qaz əməliyyatları üçün işlədilmiş həcmlər çıxılmaqla hər hansı təqvim rübündə kontrakt sahəsindən alınmış xam neft və sərbəst təbii qaz hasilatının ümumi həcmi.


HAVA NƏQLİYYATI DAŞIMALARINDA MƏSULİYYƏT SIĞORTASI – sığorta növlərinin məcmusudur ki, bu müqavilələrə görə, sığortaçılar hava gəmilərinin (təyyarələrə, vertolyotlara və s.) sahib olması, onların istismarı və ya hava daşımalarının həyata keçirilməsi ilə əlaqədar sığortalılar (sığortalanmış şəxslər) tərəfindən sərnişinlərə, yük sahiblərinə və ya üçüncü şəxslərə dəymiş zərəri ödəyən sığorta ödənişlərini yerinə yetirirlər.

HAVA NƏQLİYYATI VASİTƏLƏRİNİN SIĞORTALANMASI – təyyarələr, onların ehtiyat hissələri, təyyarənin bortunda qurulan və daşınan xüsusi avadanlıq və tərtibat sığortalanmış, aviadaşıyanlar, özünün aviasiya şirkəti olan kommersiya şirkətləri – aeroklublar, xüsusi sahibkarlar və s. isə sığortalı kimi çıxış edirlər.

"HAVA ŞARI" TƏDİYƏSİ – mənası dəqiq müəyyən edilməyən kateqoriya:

1. Böyük həcmli birdəfəlik ödəniş. Bu halda kreditin və ya icarə haqqının əsas məbləği müəyyən edilmiş müddətin sonunda ödənilməlidir.
2. Kreditin ödənilməsi ilə əlaqədar axırıncı birdəfəlik tədiyyə. Bu tədiyənin məbləği əvvəlki tədiyələrdən xeyli artıq olur.

HAYEK FRİDRİX FON (1899-1992) – Avstriya iqtisadçısı, liberalizmin ən ardıcıl nümayəndələrindən biri.



"Pul nəzəriyyəsi və iqtisadi tərəddüdlər nəzəriyyəsi üzrə yenilikçi işlərinə görə, eləcə də iqtisadi, sosial və institusional hadisələrin qarşılıqlı asılılığının dərin təhlilinə görə" (Q.Mürdalla birlikdə) 1974-cü ildə iqtisadiyyat üzrə Nobel mükafatı almışdır.

Vyana Universitetini bitirmişdir. 1923-1924-cü illərdə Nyu-York Universitetinin assistenti, 1927-1931-ci illərdə Avstriya İqtisadi Tədqiqatlar İnstitutunun direktoru, 1929-cu ildən Vyana Universitetində iqtisadiyyat və statistika müəllimi işləmişdir. London İqtisadiyyat Məktəbinin (LİM) iqtisadiyyat və statistika professoru (1931-1949); Çikaqo (1950-1962), Frayburq (AFR: 1963-1969) və Zaltsburq (Avstriya: 1970-1977) universitetlərinin professoru olmuşdur. Britaniya və Avstriya elmlər akademiyalarının, Argentina İqtisad Elmləri Akademiyasının üzvü seçilmişdir. Elm və incəsənət sahəsində nailiyyətlərinə görə Avstriya hökumətinin medalı da daxil olmaqla bir çox mükafatlara, elmi dərəcələrə və fəxri adlara layiq görülmüşdür.

Hayekin ilkin işləri iqtisadiyyatın nəzəri problemlərinə həsr edilmişdir. 1920-ci illərdə o, ticarət tsiklinə, monetar nəzəriyyəyə və iqtisadi siyasətə dair çoxlu məqalələr dərc etdirmiş, C.M.Keynsin "Pul haqqında traktat" əsəri ətrafında 30-cu illərdə iqtisadi dissertasiyaların təşəbbüskarı olmuşdur. Hayekin dəlilləri *Avstriya məktəbinin* nəzəriyyəsinə əsaslanırdı ki, bu da kapitalın yenidən yığılması hadisəsini monetarist mövqedən izah edirdi. Hayek təsdiq edirdi ki, depressiya (durğunluq) dövrünə düzgün olmayan, iqtisadi siyasətlə əlaqədə götürülən həddən artıq istehlak xas idi. Onun anlamında artıq işsizlik nisbi qiymətlərdəki uyğunsuzluqlarla əlaqədar idi ki, bunlar da öz növbəsində pulun təklifində görünməyən dəyişikliklər nəticəsində yaranmışdı və bütün iqtisadiyyat miqyasında iş qüvvəsinin tələbi ilə təklifi arasında balansın pozulmasına gətirib çıxarırdı. Heç bir bazar mexanizmi məhdudiyyətlərinə sığışmayan ideyanın tərəfdarı olan Hayek Britaniya hökumətinin yeritdiyi ekspansionist və müdaxilə siyasətini tənqid edirdi. Hayekin iqtisadi nəzəriyyəyə başlıca töhfəsi "Kapitalın xalis nəzəriyyəsi" (1941) əsəri ilə əlaqədar idi. Kitab Hayekin Avstriya məktəbinin ənənələri əsasında yazılmış digər əsərləri ilə müqayisədə irəliyə atılmış bir addım idi. Əvvəlki əsərlərdə olduğu kimi, Hayekin əsas nəzəri təsəvvürləri burada da U.S.Cevonsdan, E.Bem-Baverkdən və K.Vikselldən gəlirdi. Əsas kapitalın rolunun tədqiqinə xüsusi diqqət yetirən Amerika və ingilis məktəblərinin iqtisadçılarından fərqli olaraq Hayek kapitalın əsasən keçici xarakter daşımasını və fasiləsiz təkrar istehsal edilməsini zənn edərək dövriyyə kapitalının rolunu xüsusilə qeyd edirdi.

Hayek fərdiyyətçiliyin ardıcıl müdafiəçisi kimi iqtisadi həyatda dövlətin hər hansı şəkildə iştirakının əleyhinə idi. Bu sahədə onun ideyaları böyük bir qüvvə ilə "Köləliyə gedən yol" (1944) və "Azadlıq konstitusiyası" (1960) kitablarında ifadə edilmişdir. "Köləliyə gedən yol" kitabı ABŞ-da bestsellerə (masaüstü kitab) çevrilmiş, radioda səhnələşdirilmiş, dəfələrlə nəşr edilmişdir.

Hayek ictimai fikir tarixinə, hüquq nəzəriyyəsinə, elmi tədqiqat metodlarına və nəzəri psixologiyaya dair çoxsaylı məqalələrin, kitabların, broşüraların müəllifidir.

İfadə edilmək nöqteyi-nəzərindən onun ən uğurlu əsərləri iqtisadi fikir tarixinə həsr olunmuşdur. Xüsusilə C.S.Mill haqqında kitabı, K.Menger və F.Vizer haqqında oçerkləri, eləcə də "Məcburi qənaət doktrinasının inkişafı haqqında qeydlər"idir (1932-ci ildə "Siyasi iqtisad üzrə rüblük jurnal"da dərc olunmuşdur). Hayekin nəzəri əsərləri, bir qayda olaraq, dərk edilmək üçün çətindir, mürəkkəb ifadə tərzi bütövlükdə onun ideyalarının mənimsənilməsini çətinləşdirir. Buna baxmayaraq, Hayekin nəzəri işləri Avstriya məktəbinin müasir anlamda müntəzəm izahını ehtiva edərək XX əsrin iqtisadi nəzəriyyəsində özünəməxsus yer tutur.

HAZIR ŞİRKƏT – artıq qeydiyyatdan keçmiş, amma rəhbəri olmayan və şirkətin qeydiyyatı ilə məşğul olan agentlik tərəfindən satışa təqdim olunan müəssisə; onun işə düşməsi notarial rəsmiyyətçilik nəticəsində həyata keçirilir, çünki qeydiyyat üzrə əsas iş artıq əvvəlcədən görülür.

HEC (ing. *hedge*) – satıcıları və alıcıları gələcəkdə həmin mala mümkün ola bilən bazar qiymətlərinin dəyişməsindən (enməsindən) sığortalamaq məqsədi ilə bağlanan saziş, müddətli (uzun) əməliyyat. Sığortalama əsas ticarət müqaviləsinin bağlanması ilə yanaşı, əlavə fyuçers kontraktlar vasitəsilə əldə edilir. Uzun hecinq – qiymətlərin mümkün olan qalxmasından müdafiə olunmaq üçün fyuçers kontraktının alınmasından ibarətdir. Qısa hecinq qiymətlərin mümkün olan enməsindən müdafiə olunmaq üçün fyuçers kontraktının satılmasından ibarətdir. Xalis hecinq borc faizini "bağlamaq" məqsədi ilə bağlanır, başqa sözlə, borc faizi tarifinin mümkün olan düşməsindən sığortalanmaq üçün müddətli sazişdir.

HEC FONDLAR – Qərbdə investorların ən sevimli maliyyə alətlərindən biri olan Hec fondlar yüksək gəlirliliyə malik özəl investisiya fondlarıdır. Bu fondların yaradılmasında məqsəd investorları qiymətlərin kəskin artıb-azalmalarından müdafiə edə bilməkdir. Zəif dövlət tənzimlənməsi onlara mənfəət əldə etmək üçün bütün maliyyə alətlərindən istifadə etməyə imkan verir. Belə ki, hec fondlar vəsaitlərin yerləşdirilməsi üçün həm əmtəə, valyuta və maliyyə alətlərindən, həm də əksər investisiya fondlarının istifadə edə bilmədiyi törəmə alətlərdən, derivativlərdən, opsion və fyuçerslərdən istifadə edə bilir. Nəticədə investor düzgün qiymətlə səhm almaq qayğısına qalmır, o, sadəcə, bazarın ixtiyari vəziyyətində gəlirli olacaq investisiya portfeli formalaşdırır. Başqa sözlə desək, hec fond investorun vəsaitlərini kəskin qiymət titrəyişlərindən qorumaq üçün onları düzgün diversifikasiya edir. "Hec" sözünün (hedge) ingilis dilində mənası da mühafizə, yaxud sığorta etmək deməkdir.

İlk hec fondları ABŞ-da 1940-cı illərdə yaranıb. Bu fondlar bir aldıqları səhmlərin uzun mövqelərini digər satdıqları səhmlərin qısa mövqeləri ilə hecləyirdi (sığortalayırdı). Beləliklə də, strategiyanın gəlirliliyi, əsasən, qiymətlərin bir-birinə qarşı necə dəyişməsindən asılı olurdu. İnvestisiya portfeli isə qiymətlərin sıçrayışlı dəyişmələrindən sığortalanmış olurdu. Maliyyə sisteminin inkişafı çoxsaylı fərqli strategiyaların yaranmasına və inkişaf etməsinə səbəb oldu. Odur ki, indiki hec fondların strategiyaları geniş spektri əhatə edir və bir çox hallarda hecləmə əməliyyatları ilə əlaqəli deyil. Belə demək olar ki, "hec fondu" anlayışını qarşılıqlı və pay fondlarından fərqli olan "alternativ investisiya strategiyası" kimi də başa düşmək olar.

Hec fondları barədə danışdıqda ilk ağla gələn ağlasığmaz gəlirlər olur. Məsələn, məşhur maliyyəçi **Corc Sorosun** Quantum fondu 1992-ci ildə ingilis funt-sterlinqinin qiymətinin düşməsi zamanı milyard dollar qazanmışdı. Digər bir tanınmış fond



olan və Nobel mükafatçıları tərəfindən idarə olunan LTCM fondu isə 1998-ci ildə Rusiyada defoltu öncədən görə bilmədiyinə görə investorların bütün pullarını itirmişdi. Lakin bu cür hallar hec fondları üçün qanunauyğunluq deyil, istisna hallardır. Onların əksəriyyəti bazar konyukturundan asılı olmayaraq sabit gəlir əldə etməyi qarşısına məqsəd qoyur və bir qayda olaraq, illik 15% civarında gəlirlilik nümayiş etdirir.

İstənilən investorun müraciət edə biləcəyi pay investisiya fondlarından fərqli olaraq, hec fondlar bazarın professional iştirakçıları üçün nəzərdə tutulub. Belə ki, ABŞ-da fərdi investorların fondun idarəetməsinə verdiyi minimal məbləğ 5 mln., institusional investorların isə 25 mln. dollar olmalıdır. Digər ölkələrdə bu məbləğ bu qədər çox olmasa da, hec fondun müştərisi olmaq üçün investora on minlərlə dollar tələb olunur.

Müasir hec fondların daha bir xüsusiyyəti onların zəif tənzimləməyə məruz qalmasındadır. Belə ki, onların bir çoxu offşor zonalarda qeydiyyatdan keçir və ciddi hesabatlığı yoxdur, həmçinin onların gəlirləri vergiyə cəlb olunmur. Bu isə investisiyaların şəffaflığını aşağı salır. Eyni zamanda hec fondların qeyri-şəffaflığı və zəif hesabatlılığı onların uğuru üçün zəruridir. Belə ki, bütün hec fondların işi bazarın qeyri-effektivliyinə əsaslanır, bazar iştirakçılarının digər investorların fəaliyyəti barədə məlumatsızlığı da məhz belə bir qeyri-effektivlik amilidir.

Hazırda bir çox aparıcı ölkələrin rəhbərliyi hec fondların daha çox informasiya açıqlamaları üçün onlara təzyiqlərə başlayıb. İlk olaraq ABŞ hökuməti bir sıra hec fondların Bear Stearns, Lehman Brothers və Merrill Lynch kimi iflasa uğramış böyük banklarla əlaqələrinin dünya maliyyə böhranının baş verməsinə təsirini araşdırır. Öz növbəsində, ABŞ-ın hec fondları dövlətlə əməkdaşlığa razılıq verib, çünki əks halda onların daxili informasiyası məhkəmə zallarında ictimaiyyətə açıqlana bilər. Avropada isə hec fondlarına AB-nin meyarlarına cavab verməyən regionlarla, başqa sözlə, vergiləri minimallaşdırmaq üçün istifadə olunan offşorlarla əməliyyat aparmaq qadağan olunacaq. Xarici ölkələrin Avropada işləyən hec fondları isə lisenziya almalı olacaq. Bir sıra ekspertlər hesab edir ki, qanunvericilikdə bu cür dəyişikliklər hec fondların Avropa və ABŞ-dan Asiyaya köçməsi ilə nəticələnəcək.

Cədvəl 1

Dünyanın ən iri hec fondları

№	Fond	Yaranma tarixi	Rəhbəri	İdarəetmədə olan aktivlər (mlrd.dollar)	Qazandığı gəlir (mlrd.dollar)
1	Quantum	1973	Corc Soros	28	32
2	Paulson&Co	1994	Con Polson	33	26,4
3	Bridgewater Pure Alpha	1975	Rey Dalio	52	13,3
4	Caxton Global	1983	Bryus Kovner	6	12,8
5	Baupost	1983	Set Klerman	21	12,5
6	Brewan Howard	2003	Alan Hovard	24,4	12,5
7	Appaliisa Management	1993	Devid Tepper	12,5	12,4
8	Moore Capital Management Partners	1990	Luis Bakko	15	11,5
9	SAC	1992	Siven Kozna	12	10,9
10	ESL	1988	Eddi Lampert	10	9,5

Hec fondlar geniş spektr maliyyə alətlərindən istifadə etdiklərinə görə səhm bazarının həm yüksəlişi, həm də enişi zamanı mənfəət qazana bilir. Əsas fond indekslərinin enməsi və əksər investorların itkilərlə üzləşdiyi zamanlarda hec fondları öz diqqətlərini ayrı-ayrı səhmlərin "qısa satışlarına" (*short sales* – enmə gözləyərək satmaq) yönəldərək illik 30-60% gəlirliliyə nail olub. Dünya bazarlarında yaranmış vəziyyət nəticəsində məhz hec fondlarının yanaşması daha çox mənfəət gətirir. Hər halda, son 10 il ərzində hec fondların gəlirliliyi digər investisiya fondlarından həmişə yüksək olub. Fond bazarlarında qiymətlərin düşməsi zamanı onların effektivliyi arasında fərq daha da dərinləşir. Həmçinin hec fondlarda itki riski daha aşağı, gəlirlərin itkilərə nisbəti göstəricisi isə daha yüksəkdir.

Fond indekslərinin aşağı düşməsi hec fondlarının mənfəətlərinə birbaşa təsir etməsə də, 2008-ci ildən başlayan maliyyə böhranı və bunun nəticəsində bütün dünyada işgüzar fəallığın aşağı düşməsi onlara da təsirsiz ötüşmədi. Yüksək riskli ipotekanın səbəb olduğu dünya böhranı nəticəsində dünyanın hec fondlarına maraq da azaldı. Belə ki, Hedge Fund Research (HFR) araşdırma şirkətinin məlumatlarına görə, 2008-ci ildə bu fondlardan 154 mlrd. dollar vəsait çıxarılmış, onların aktivləri 25% azalmış və 1,4 trln. dollar təşkil etmişdir. Vəsaitlərin çıxardılması 2009-cu ildə də davam etmişdir (131 mlrd. dollar). Lakin maliyyə bazarlarının konyukturunda baş verən dəyişikliklər fondlara öz vəsaitlərini 1,6 trln. dollaradək artırmağa imkan vermişdir.

HFR hesablamalarına görə, 2010-cu ildə hec fondlarının aktivləri 20%, başqa sözlə, 317 mlrd. dollar artmış və 1,92 trln. dollara çatmışdır. Bu rəqəm 2007-ci ilin böhrandan öncəki göstəricisindən 2,6% çox olmaqla yanaşı, maliyyə bazarlarının tarixində rekord səviyyədir. Bazarın iştirakçıları hec fondlarına marağın artmasını onunla izah edirlər ki, bazarda yüksək likvidlik mövcuddur və investorlar dünya iqtisadiyyatının bərpa olunduğuna inanmağa başlayır. Dünyanın aparıcı inkişaf etmiş ölkələrinin əlavə monetar və fiskal stimullaşdırma tədbirləri, həmçinin hec fondların əsas müştərisi olan sığorta və pensiya fondlarının likvidlik səviyyəsini bərpa etməsi də buna müsbət təsirini göstərir.


1969-cu ildən etibarən hec fondların dinamikasını izləyən Leveraged Capital Holdings şirkəti 2010-cu ilin sonunda yarandığı vaxtdan indiyədək ən çox mənfəət qazanmış hec fondların siyahısını dərc edib. Siyahıya C.Sorosun rəhbərlik etdiyi Quantum Endowment fondu başçılıq edir. Araşdırmanın gəldiyi qənaətə görə, yarandığı 1973-cü ildən bəri Quantum öz əmanətçilərinə 32 mlrd. dollar, yəni orta hesabla ildə 900 mln. dollar qazandırıb. Başqa sözlə, Corc Soros və onun 300 əməkdaşı öz investorlarına 34 min işçisi olan Apple korporasiyasından daha çox gəlir gətirib

İkinci yeri britaniyalı **Con Polsonun** Paulson&Co. hec fondu



tutur. Bu fond 1994-cü ildən bəri öz investorlarına 26,4 mlrd. dollar qazandırıb ki, bu da Boeing korporasiyasının mənfəətinə bərabərdir. Birlikdə Polsonun və Sorosun fondları Walt Disneydən və ya McDonald's-dan çox qazanc götürüb.

Siyahıda üçüncü yerdə **Rey Dalionun** Bridgewater Pure Alpha



investisiya şirkəti yerləşir. Dünyanın ən gəlirli 15 fondu reytinqində bu şirkətin idarə etdiyi üç hec fondu yer alır. İdarəetməsində olan aktivlərin həcminə görə də 60 mlrd. dollarla Bridgewater Pure Alpha şirkəti dünya lideridir.

Dünyanın ən böyük uğur qazanmış on hec fondu birlikdə 154 mlrd. dollar qazanıb.

Hətta onluğun son pilləsində olan ESL fondu Britaniyanın ən böyük aviaşirkəti British Airways-in analoji dövrdə qazandığından çox mənfəət əldə edib. Hec fondların bu möhtəşəm nailiyyətləri heç də hamını razı salmır. Bəzi ekspertlər hesab edir ki, heç də istehsal etməyən şirkətlərin real iqtisadiyyatda

iştirak edənlərə nisbətən daha çox qazanması təqdirəlayiq hal deyil. "Bu sahə, böyük olmasına baxmayaraq, çox qeyri-şəffafdır. Potensial olaraq, hec fondları dağıldığı halda bütün maliyyə sektorunu arxasınca apara bilər".

Tədqiqata rəhbərlik edən Rik Sofer hesab edir ki, bu yalnız ən effektiv investisiya rəhbərlərinin treyder qabiliyyətini əks etdirir. Belə ki, 7 min şirkətdən ibarət sahənin ən böyük 100 şirkətinə investorların məcmu mənfəətinin 75%-i, 10 şirkətinə isə üçdə biri düşür. Yəni sahədə əla şirkətlər çox olsa da, uğursuzluqların sayı daha çoxdur.

Onu da qeyd etmək lazımdır ki, investorların heç də hamısı fondların göstərdiyi gəlirliliyə nail olmur. Çünki onlar daim öz vəsaitlərini müxtəlif fondlara keçirir, həmçinin hər hansı fond böyük uğur qazandıqdan sonra ona müraciət edirlər. Harvard Universitetindən Qven Yu və Atlanta Univesitetindən İlya Diçev hesablayıbar ki, əmanətçilərin real gəliri hec fondun elan edilən mənfəətindən 3-7 faiz punktu aşağı olur. Onlar bildirib ki, 1980-ci ildən bəri hec fondların illik gəlirliliyi 12,6%-ə çatıb. Lakin əmanətçilər üçün bu göstərici cəmi 6% olub ki, bu da səhmlərin gəlirliliyindən aşağıdır.

Lakin bunlar o demək deyil ki, sahənin yaxşı günləri geridə qalıb. Əksinə, onların bəziləri böhranda külli miqdarda vəsait qazanıb. Məsələn, Paulson&Co fondunun rəhbəri Con Polson 2010-cu ildə sahənin tarixində ən yüksək illik gəlirə nail olub. Wall Street Journal-ın yaydığı məlumata görə, bu il ərzində şəxsən o, 5 mlrd. dolar xalis mənfəət əldə edib. Bununla da o, 2007-ci ildə özünün vurduğu 4 mlrd. dollarlıq rekordu geridə qoyub. Böhran vaxtı Polsona əsas mənfəəti ipoteka, daha doğrusu, antiipoteka fondu gətirib. Hesab etmək olar ki, amerikanın ipoteka bazarında illərlə yaranmış köpüyün partlamasına da məhz onun yaratdığı fond təkan verib. Belə ki, 2006-cı ildə o, Paulson Credit Opportunities Fund təsis edir və onun vasitəsilə ipoteka kağızlarının enməsi üçün oynamağa başlayır. Amerikanın əksər maliyyə qurumlarının milyardlarla dollar itirdiyi bir vaxtda Polsonun fondu ilə 130 mln. dollar aktivlə başlamış və ilin sonunda artıq 3,2 mlrd. dollara malik idi. 2010-cu ildə isə Polson ilk olaraq qızılın qiymətinin qalxmasını praktik cəhətdən nəzərə alıb və qızıla investisiya edən fond yaradıb.

Digər hec fondlarının – Appaloosa Management-in rəhbəri Devid Tepper, Bridgewater Associates-in rəhbəri Rey Dalio və Renaissance Technologies-in yaradıcısı Ceyms Saymons da 2010-cu ildə külli miqdarda – 2-3 mlrd. dollar arası mənfəət əldə ediblər. Devid Tepper öz vəsaitlərini AIG, Citigroup və Bank of America-ya qoymuşdu. Çünki o əmin idi ki, ABŞ hökuməti ölkənin əsas maliyyə institutlarının müflis olmasına imkan verməyəcək.

Bəzi investorlar hesab edir ki, böhranda bir çox aktivlərin dəyərinin həddən artıq aşağı qiymətləndirilməsi hec fondlarına geniş imkanlar açıb. Onlar böhran zamanı çox ucuz aldıqları aktivləri 2009-2010-cu illərdə dəfələrlə baha sataraq fantastik mənfəət qazanıblar. Qiymətlərin stabilləşməsi isə bu gəlirləri keçmişdə qoyacaq. Lakin Con Paulson onunla razılaşmır və əmindir ki, unikal investisiya imkanları həmişə var. O, inflyasiya artımını gözləyir və qızıl, bank kağızları əldə edir. Əgər Polson haqlıdırsa, hec fondlarını yaxın gələcəkdə böyük gəlirlər gözləyir.

HECER – qiymət riskini minimuma endirmək (hecləşdirmə) üçün təcili və opsion əməliyyatlardan istifadə edən hüquqi və ya fiziki şəxslər.

HECİNQ – müqavilə bağlanan zaman malların nəzərdə tutulan qiymətləri ilə müqayisədə, malların bazar qiymətlərinin satıcılar və alıcılar üçün arzu edilməyən dəyişiklikləri ilə şərtlənən sığorta, itkilərə görə riskin azaldılması. Hecləmənin mahiyyəti ondadır ki, malın satıcısı (alıcısı) onun satılmasına (alınmasına) müqavilə və eyni zamanda əks xarakterli fyuçers sazişi bağlayır, yəni satıcı alış üçün, alıcı isə malın satılması üçün saziş bağlayır. Beləliklə, qiymətin hər hansı dəyişməsi satıcılara və alıcılara bir kontraktla itki, o biri kontraktla isə qazanc gətirir. Bunun nəticəsində bütövlükdə onlar gələcək qiymətlərlə satılacaq, yaxud alınacaq malların qiymətlərinin artmasından, yaxud enməsindən zərər çəkmirlər.

HECİRLƏŞMƏ ƏMƏLİYYATLARI – bazar qiymətlərinin enməsi zamanı itkilərdən sığortalanmaq məqsədilə real əmtəə üçün sövdələşmə bağlanarkən fyuçers sövdələşmələrinin tətbiqi. Hecirləşmə əməliyyatları arasında uzun müddətə risklərin hecirləşməsi fərqlənir. İtkilərdən (zərərlərdən) sığortalanma ondan ibarətdir ki, əgər firma satıcını itirirsə, o, alıcı kimi udur və əksinə.

HECLƏŞDİRMƏ (ing. *hedging, hedge* – hasara almaq, mümkün itkilərdən sığortalanmaq) – gələcəkdə hər hansı bir aktivin qiymətinin dəyişməsi nəticəsində zərərlərin yaranması riskinin minimuma endirilməsi üsulu, başqa sözlə, itkilərdən sığortalanma, hesablaşmalara görə əməliyyatlarda və müddətli əməliyyatlarda əks mövqelərdə, bərabər məbləğdə müqavilələrin açılması yolu ilə qiymətlərin arzuolunmaz dəyişməsi üzündən mənfəətin azalması və ehtiyata qoyulmasından itki riskinin minimuma endirilməsinə qədər məlumat texnikası. Bu üsul iki hissədən: a) aktivin seçilməsindən, hecirləşmiş aktivin qiymətinin dəyişməsi ilə sıx əlaqədə olan qiymətin dəyişməsindən; b) qarşılıqlı əlaqəli aktivlərin eyni zamanda alqı və satqısından ibarətdir ki, bu nisbət onların sahiblərinin xalis mövqeyinin riskini minimuma endirir. Əgər aktivlərin qiymətləri mütləq şəkildə korrelyasiya olunursa, aktivlərin sahibi öz mövqeyini tamamilə risksiz edə bilər. Hecləşdirmənin əsas problemi hecirləşmə əmsalının, yəni digər aktivin dəyərinin dəyişməsi üçün zəruri olan bir aktivin vahid miqdarının müəyyən edilməsindən ibarətdir. Əgər əldə edilmiş aktivin dəyəri digər aktivin "qısa satışı" nəticəsində yaranan öhdəliklərin dəyərinə bərabər olursa, minimum riskə yönəldilmiş xalis investisiyalar sıfıra bərabərdir. Onda hecirləşmə sıfır dəyərinə malik olur. Həmişə hecləşdirməni sıfır dəyərlə həyata keçirmək olar. Əgər aktivlərin dəyəri öhdəliklərin dəyərindən yuxarıdırsa, onda bankdan kredit götürərək hecirləşməni sıfır dəyəri ilə həyata keçirmək olar.

Hecləşdirmə – həmçinin valyuta riskinin sığorta edilməsinin müxtəlif metodlarını qeyd etmək üçün bank, birja və kommersiya təcrübəsində istifadə olunan termindir. Hazırda hecləşdirmənin beş əsas növündən istifadə olunur: 1) fyuçers müqaviləsi; 2) forvard müqaviləsi; 3) onların imitasiyası; 4) svoplar haqqında sazişlər; 5) opsionlar. Fyuçers hecləşdirməsinin mexanizmini misalda nəzərdən keçirək. Fərz edək ki, may ayında fermer gələn ilin sentyabrında 100 ton buğdanın satılmasını nəzərdə tutur. Lakin o qorxur ki, sentyabr ayına qədər buğdanın qiymətləri aşağı düşəcəkdir və sentyabrda buğdanın daşınması üçün fyuçers müqaviləsini sataraq, riski minimum səviyyəyə endirmək istəyir. Bu müqavilədə onun üçün əlverişli olan qiymət təsbit olunacaqdır. Beləliklə, o, aktivə (buğdaya) və onu kompensasiya edən öhdəliyə (buğdanın daşınması üçün fyuçers) malik olacaqdır. Əgər fermerin yetişdirdiyi buğda növü və onun göndərəcəyi buğdanın növü eynidirsə, onda hecirləşmə əmsalı 1-ə bərabərdir. Fyuçers müqaviləsinin satışı qısa hecirləşmə, alışı ilə uzun hecirləşmə adlanır.

Forvard müqaviləsi fyuçers müqaviləsinin qeyri-standartlaşmış növüdür. O, fərdi qaydada (adətən, bankla onun müştərisi arasında) aparılır və birjalarda müzaidəyə (satışa) qoyulmur.

Son zamanlar forvard müqavilələsinin imitasiya təcrübəsi geniş yayılmışdır. Məsələn, forvard valyuta müqaviləsini əldə etmək əvəzinə, borcu milli valyutada almaq və onu xarici valyutaya mübadilə etmək və bu valyutanı zəruri müddətə borc vermək olar. Bu strategiya nəticəsində forvard valyuta müqaviləsi kimi vəsaitlər axını təmin olunur.

Hecləşdirmənin məqsədlərində həmçinin svoplar haqqında müxtəlif sazişlər bağlanır. Məsələn, hər hansı bir xarici valyutada borca xidmət edilməsi dəyərinin banka ödənilməsinin əvəzinə, milli valyutada təqdim edilən istiqraz (borc) üzrə bütün gələcək xərclərin bank tərəfindən həyata keçirilməsi haqqında şirkət həmin bankla razılığa gələ bilər. Svoplor forvard müqavilələrinə oxşayır. Opsionu almaqla da riski hecirləşdirmək olar. Pul opsionları yüksəlmə oyunu zamanı investorun mövqeyinin saxlanması üçün alınır, koll opsionları "qısa" satış üçün alınır. Ən sürətli opsionlar fövqəladə risklərin hecirləşməsi üçün istifadə olunur (məsələn, xarici tenderlərdə məğlubiyyət riski).

HECLƏŞDİRMƏ İNDEKSİ – birja mexanizmindən istifadəni əks etdirən, açıq müqavilələrin və hecirlərin qeyri-likvid öhdəliklərinin sayının dəyərin dəyişməsi riskinə məruz qalan əmtəə kapitalının kəmiyyətinə nisbəti kimi hesablanan göstərici.

HEDONİK TƏLƏB NƏZƏRİYYƏSİ (ing. *hedonic demand theory*) – bu iqtisadi nəzəriyyə insanın əmtəə müqabilində həmin əmtəənin xarakteristikalarının məcmusunu əks etdirən qiyməti ödəməyə hazır olmasını ifadə edir. Bu, o deməkdir ki, tələb nəzəriyyəsinin əsl predmeti əmtəələrin özlərinə deyil, onların xarakteristikalarına tələbatdır. Prinsip etibarı ilə bu məqam cəlbedici olsa da, praktikada əmtəələrin bütün xarakteristikalarını sadalamaq çox çətindir.

HEDONİZM İNDEKSİ (yun. *hedone*) – məhsulun keyfiyyətinin dəyişilməsi zamanı hesablanmalı olan indeks.

HEKMAN CEYMS (1944) – Amerika iqtisadçısı. Çikaqo və Priston universitetlərində təhsil almışdır.



1983-cü ildə C.B.Klark medalı ilə təltif olunmuşdur. 2000-ci ildə selektiv seçmənin təhlili üçün nəzəriyyə və metodologiyanın hazırlanmasına görə Nobel mükafatına layiq görülmüşdür. Massaçuset Texnoloji İnstitutunun fəlsəfə doktoru, Çikaqo Universitetinin professorudur.

HEKŞER-OLİN TEOREMİ – istehsal amillərinin qarşılıqlı nisbəti nəzəriyyəsi.

Bu nəzəriyyə isveçli iqtisadçılar Eli Hekşer və Bertil Olin tərəfindən işlənib hazırlanmış və sonuncunun "Regionlararası və beynəlxalq ticarət" adlı kitabında ətraflı şərh edilmişdir (1933). Hekşer-Olin teoremi fransalı sahibkar və iqtisadçı J.B.Sey tərəfindən yaradılmış və sonralar başqa iqtisadçılar tərəfindən tamamlanmış istehsal amilləri (iqtisadi resurslar) konsepsiyasından istifadə etməklə ölkələrin həmin amillərə (daha doğrusu, əməyə və kapitala, çünki Hekşer və Olin yalnız iki amil üzərində diqqəti cəmləşdirmişdilər) müxtəlif dərəcədə malik olması faktına diqqət yetirir. Ölkədə bəzi amillərin izafi olması onların başqa, az tapılan amillərlə müqayisədə daha ucuz olmasına gətirib çıxarır. Hər hansı məhsulun istehsal edilməsi üçün amillərin müəyyən kombinasiyası tələb olunur və istehsalında nisbətən ucuz, izafi amillərin çox olması tələb edilən hər hansı məhsul üçün əmtəə istər ölkə daxilində, istərsə də xarici bazarda nisbətən ucuz olacaq, bu isə həmin məhsula müqayisəli üstünlüklər verəcəkdir.

Hekşer-Olin nəzəriyyəsinə görə, müəyyən ölkədə hansı malların buraxılması izafi istehsal amillərinə əsaslanırsa ölkə həmin malları ixrac edir və buraxılması üçün istehsal amilləri ilə təmin olunmaq dərəcəsi pis olan malları idxal edir. Hekşer-Olin nəzəriyyəsində əmək və kapital mobil amillərdir və ölkələr arasında yerlərini dəyişə bilərlər. Onlar həm də beynəlxalq ticarəti əvəz edə bilərlər. Məsələn, kapitalın beynəlxalq hərəkətinin bazası müəyyən növ malların istehsalını təşkil etməyə imkan verirsə, bu mallar ölkəyə istənilən halda ixrac edilir. Hekşer-Olin nəzəriyyəsindən daha bir nəticə çıxarmaq olar. Bunu amerikalı iqtisadçı Pol Samuelson etmişdir: istehsal amillərinin ölkələr arasında yerdəyişməsi qiymətlərin bərabərləşməsinə, daha doğrusu müxtəlif ölkələrdə bu amillərin qiymətlərinin nisbətlərinin bərabərləşməsinə gətirib çıxarır. Bu nəticə Hekşer-Olin-Samuelson teoremi adlanır.

HELSİ SİSTEMİ – Qərbdə tətbiq edilən, müəssisə işçilərinin əməyinin işəmuzd-reqressiv ödənilməsi sistemlərindən biri; bu sistemin adı onun müəllifi, amerikalı mühəndis F.Helsinin adı ilə bağlıdır. Sistem əmək haqqının iki tərkib hissəsini nəzərdə tutur:

1) qiymətləndirmə normaları əsasında zəmanət verilən qazanc;
2) normativdən əlavə məhsul üçün əlavə ödəniş (bu, təmir işləri və məzmunu tez-tez dəyişən digər işlər üçün səciyyəvidir).

HERFİNDAL-HİRŞMAN İNDEKSİ (ing. *Herfindahl-Hirschman İndex* (*HHİ*)) – bir və ya bir neçə şirkətin bazardakı nüfuzunu (bazara təsirini) ölçən riyazi indeks. İndeks bazarda fəaliyyət göstərən bütün şirkətlərin paylarının kvadratlarının cəmi kimi hesablanır. İndeks sıfırdan 10000-dək ola bilər. Bazar inhisara nə qədər yaxın olarsa, biznesin bir və ya bir neçə şirkətdə cəmləşməsi bir o qədər böyük olar. Məsələn, bir şirkət bazarda 100% paya malikdirsə, indeks 10000 olur. Herfindal-Hirşman indeksi bazarda üstünlük təşkil edən şirkətin bazara təsir qüvvəsini nəzərə almağa imkan verir.

HESABATIN PLANI – hesabat sənədlərinin dəqiq təyin olunmuş müddətlərdə tərtib və təqdim olunmasının təmin edilməsi üzrə nəzərdə tutulan tədbirlər. Bu plan təşkilatın müəyyən şəraitinə uyğun olaraq müəyyən edilən hesabat haqqında ümumi qaydalara əsaslanır.

Hesabat planı iki hissədən ibarətdir. Birinci hissədə kənar istifadəçi tərəfindən təqdim edilən hesabata, ikinci hissədə təşkilatın ayrı-ayrı bölmələrindən alınan hesabatlara dair zəruri məlumatlar göstərilir.

Hesabat planı bir neçə əsas bölmədən ibarətdir:



1) müəssisənin şöbələri və bölmələri tərəfindən daxili hesabatın tərtib və təqdim edilməsi müddətləri;
2) hesabatın daha yüksək səviyyəli təşkilatlara təqdim edilməsi müddətləri;
3) hesabatların müvafiq keyfiyyətinin təmin edilməsi üçün zəruri tədbirlərin müddətləri göstərilir.

Hesabat planında aşağıdakı məlumatlar göstərilir: hesabat formalarının siyahısı; hesabatın tərtib və təqdim edilməli olduğu hesabat dövrü; hesabatı tərtib edən işçilərin soyadları; onların görməli olduğu konkret işlər və həmin hesabatları onlardan alan vəzifəli şəxslər və s.

HESAB-FAKTURA – ticarət sövdələşməsinin tərtib edildiyi sənəd (satıcı tərəfindən alıcıya təqdim edilir); alıcıya verilən qaimə.


HESABLAMA BALANSI – hər hansı bir ölkənin digər ölkələrdə müəyyən müddətə və ya müəyyən tarixə olan ticarət, kredit və başqa əlaqələri prosesində tələb və öhdəliklər həcmini əks etdirir.

HESABLAMA PALATASI – dövlətin ali maliyyə nəzarəti orqanı. Müstəqillik əldə edildikdən sonra ölkənin sosial-iqtisadi durumunda və iqtisadiyyatın idarə edilməsi metodlarında baş verən köklü dəyişikliklər maliyyə-təsərrüfat fəaliyyətinin idarə edilməsinin mühüm mexanizmlərindən biri olan maliyyə nəzarətinin əsaslı şəkildə təkmilləşdirilməsini zəruri etmişdir.

Bu dəyişikliklər dünya təcrübəsinə uyğun olaraq büdcə vəsaitlərinin formalaşması və istifadəsinə səmərəli dövlət maliyyə nəzarəti sisteminin tərkib hissəsi olmaqla icra hakimiyyəti orqanından asılı olmayan, qanunvericilik hakimiyyəti orqanına hesabat verən, sərbəstlik, obyektivlik, aşkarlıq, ədalətlilik, qanunçuluq prinsipləri əsasında fəaliyyət göstərən kənar dövlət maliyyə nəzarəti orqanının (Ali Audit Qurumunun) yaradılması zərurətini doğurmuşdur.

Azərbaycan Respublikasında kənar dövlət maliyyə nəzarəti orqanının yaradılması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş və hüquqi statusu 1999-cu ildə qəbul edilmiş "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda, işinin təşkili və tənzimlənməsinin əsasları isə 2002-ci ildə Azərbaycan Respublikasının müvafiq qanunu ilə təsdiq edilmiş "Hesablama Palatasının Daxili Nizamnaməsi"ndə öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsi olaraq səmərəli dövlət maliyyə nəzarəti sisteminin yaradılması məqsədilə aparılmış islahatların tərkib hissəsi kimi Hesablama Palatasının fəaliyyətini tənzimləyən qanunvericilik aktları təkmilləşdirilmiş və Palataya əlavə səlahiyyətlər verilmişdir.

"Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" 2008-ci il 1 aprel tarixli, 573-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən, Hesablama Palatası maliyyə nəzarət tədbirlərinin nəticələri



Hesablama Palatasının yeni inzibati binası


üzrə aşkar edilmiş nöqsanların aradan qaldırılması, dövlətə dəyən zərərin ödənilməsi və Azərbaycan Respublikası qanunvericiliyinin pozulmasına görə şəxslərin məsuliyyətə cəlb edilməsi üçün müvafiq dövlət orqanlarına, maliyyə nəzarəti tədbiri aparılan təşkilatların və nəzarətin predmeti ilə əlaqədar digər idarə və müəssisələrin rəhbərlərinə təqdimatlar göndərir. Hesablama Palatasının təqdimatlarına 1 ay müddətində baxılmalı, qəbul edilmiş qərarlar və görülmüş tədbirlər barədə məlumat verilməlidir. Hesablama Palatasının təqdimatları əsassız icra edilmədikdə, həmin dövlət orqanı, idarə, təşkilat və müəssisənin xəzinə və bank hesabları üzrə qanunvericilikdə nəzərdə tutulmuş müdafiə olunan xərc maddələri istisna olunmaqla, əməliyyatların dayandırılması barədə təqdimatlar verilir. Hesablama Palatası Sədrinin müvafiq təqdimatlarının icra edilməməsinə görə xəzinə orqanları və müvəkkil banklar İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş qaydada inzibati məsuliyyət daşıyırlar.



Bununla yanaşı, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununa 2010-cu il 12 fevral tarixində edilən əlavə ilə Palataya dövlət əmlakının idarə edilməsinə, onun barəsində sərəncam verilməsinə, dövlət büdcəsinin icra olunmasına, dövlət əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına, hüquqi şəxslərə və bələdiyyələrə dövlət büdcəsindən vəsaitlər ayrıldıqda həmin vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə nəzarətin həyata keçirilməsi zamanı cinayət əlamətləri olan hüquqpozmalar aşkar etdikdə müvafiq materialların Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi səlahiyyəti verilmişdir.


2001-ci ildən fəaliyyətə başlayan Hesablama Palatası hüquqi şəxs olmaqla müstəqil balansa, müvafiq xəzinə hesablarına malikdir. Palatanın xərcləri dövlət büdcəsindən maliyyələşdirilir, xərclər smetası Hesablama Palatasının təqdimatı ilə Azərbaycan Respublikası Milli Məclisində növbəti ilin dövlət büdcəsinə baxılarkən təsdiq edilir və dövlət büdcəsində ayrıca sətirlə nəzərdə tutulur.

Hesablama Palatası Palata üzvlərindən (sədr, sədr müavini, 7 auditor) və onun Aparatından ibarətdir. Səlahiyyət müddəti 7 il müəyyən edilmiş Hesablama Palatasının üzvləri Milli Məclis Sədrinin təqdimatı əsasında Milli Məclis tərəfindən təyin olunur. Palata üzvləri dövlət idarəçiliyi, dövlət nəzarəti, iqtisadiyyat və maliyyə sahələrində 5 ildən az olmayaraq iş



Sxem 1

Hesablama Palatası tərəfindən nəzarət tədbirlərinin nəticələrinə əsasən göndərilən təqdimatların tərkibi (2010-cu il)



Qrafik 1

təcrübəsinə malik olan ali təhsilli Azərbaycan Respublikası vətəndaşları olmalıdırlar. Onlar başqa dövlətlər qarşısında öhdəlikləri olan, ağır və ya xüsusilə ağır cinayətlərə görə məhkum edilmiş şəxslər ola bilməzlər.

Hesablama Palatasının sədrliyinə və sədr müavinliyinə namizədlər Azərbaycan Respublikası Milli Məclisinin Sədri, Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikasının maliyyə naziri, Azərbaycan Respublikasının Baş prokuroru, Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri, Azərbaycan Respublikası İqtisad Məhkəməsinin sədri və Mərkəzi Bankın İdarə Heyətinin sədri ilə birbaşa qohumluq əlaqəsində ola bilməzlər.

Palata üzvləri səlahiyyət müddəti ərzində onları Hesablama Palatasına vəzifəyə təyin etmiş Azərbaycan Respublikası Milli Məclisinin razılığı olmadan tutula, həbsə alına, cinayət məsuliyyətinə cəlb edilə; onlar barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə; axtarışa məruz qala; şəxsi müayinə edilə bilməzlər. Onlara qarşı cinayət işi yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən qaldırıla bilər.

Hesablama Palatasının üzvləri yüksək təminatlara malikdirlər. Hesablama Palatası sədrinin aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavininin aylıq vəzifə maaşına və təminatlarına, sədr müavininin aylıq vəzifə maaşı və digər təminatları Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavininin aylıq vəzifə maaşına və təminatlarına, auditorlarının aylıq vəzifə maaşı və digər təminatları isə Azərbaycan Respublikası Milli Məclisinin komitə sədrlərinin aylıq vəzifə maaşlarına və təminatlarına bərabərdir.

Palata qanunvericiliklə müəyyən edilmiş hüquqi səlahiyyətlərinə görə təşkilati və funksional müstəqilliyə malik olan dövlət büdcə-maliyyə nəzarəti orqanıdır. Qanunvericiliyə uyğun olaraq Palata üzvlərinin peşəkar fəaliyyətinin sərbəstliyinə təminat verilir. Hesablama Palatasının fəaliyyətinə qanunazidd müdaxilə etmək yolverilməzdir. Palata üzvlərinin, habelə Hesablama Palatası Aparatının vəzifəli şəxslərinin xidməti vəzifələrini yerinə yetirmələri ilə əlaqədar onlara mane olmaq, təzyiq göstərmək qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Palata üzvləri vəfat etdikdə, məhkəmə tərəfindən ölmüş və ya xəbərsiz itkin düşmüş elan edildikdə Azərbaycan Respublikası Milli Məclisi Sədrinin sərəncamı ilə, vəzifədən azad olunmaq haqqında ərizə ilə müraciət etdikdə, cinayət törətdikdə və barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittihamedici hökmü olduqda, Hesablama Palatasının üzvlərinə dair tələbləri pozduqda, dörd aydan artıq müddətdə xəstəliyi ilə əlaqədar vəzifəsini yerinə yetirməsinin qeyri-mümkünlüyü haqqında Hesablama Palatasının təşkil etdiyi xüsusi həkim komissiyasının rəyi olduqda, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edildikdə Azərbaycan Respublikası Milli Məclisi Sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə vaxtından əvvəl vəzifələrindən azad oluna bilərlər.

Dövlət orqanlarının təsnifatına əsasən, 1-ci kateqoriya dövlət orqanlarına aid olan Hesablama Palatası Aparatının strukturu, fəaliyyət qaydaları və işçilərin sayı xərclər smetası həddində Hesablama Palatası tərəfindən müəyyən edilir.

Hesablama Palatası Aparatının işçilərinin vəzifə maaşları və digər təminatları Azərbaycan Respublikası Milli Məclisi Aparatının işçilərinin vəzifə maaşlarına və digər təminatlarına bərabərdir.

Azərbaycan Respublikası Milli Məclisi Sədrinin razılığı əsasında Hesablama Palatasının yerli qurumları yaradıla bilər. Hazırda Hesablama Palatasının yalnız Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi yaradılmışdır. İdarə Naxçıvan Muxtar Respublikasında yerləşir.

Hesablama Palatasının fəaliyyətinin təşkili, nəzarət fəaliyyətinin normativ-metodoloji təminatı, Palatanın hesabatlarına, qərarlarına, rəylərinə və s. məsələlərinə baxılması məqsədi ilə Hesablama Palatasının sədrindən (Kollegiyanın sədri), sədr müavinindən, auditorlardan və struktur bölmələrinin rəhbərlərindən ibarət Kollegiya yaradılır.

Hesablama Palatasının Kollegiyasının üzvlərinin sayı və tərkibi Hesablama Palatası sədrinin təqdimatı ilə Azərbaycan Respublikası Milli Məclisinin Sədri tərəfindən təsdiq edilir.

Hesablama Palatasının hesabatları və rəyləri, Azərbaycan Respublikası Milli Məclisinə verilən məlumatlar, daxili normativ və metodiki sənədlər, Hesablama Palatasına təqdim edilməli hesabat və məlumat formaları, Hesablama Palatasının illik iş planları, nəzarət tədbirlərinin təşkili və keçirilməsi proqramları, keçirilən nəzarət tədbirlərinin nəticələri, Hesablama Palatasının fəaliyyəti barədə kütləvi informasiya vasitələrinə verilən məlumatlar, eləcə də Hesablama Palatası sədrinin təklifi ilə digər məsələlərə Kollegiyada baxılır və müvafiq qərarlar qəbul edilir.

Hesablama Palatasının Kollegiya iclasları Kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli hesab olunur və qərarlar iclasda iştirak edən Kollegiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər bölündükdə Hesablama Palatası sədrinin səsi həlledici qüvvəyə malikdir.


Hesablama Palatası öz fəaliyyətini onun Kollegiyasında təsdiq edilmiş iş planı əsasında həyata keçirir. Hesablama Palatasının iş planının formalaşmasında Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Milli Məclisinin komitələrinin sorğu və təklifləri nəzərə alınır.

Hesablama Palatasının fəaliyyət dairəsinə dövlət büdcəsinin təsdiq edilməsi və icrasına, dövlət əmlakının idarə edilməsinə, onun barəsində sərəncam verilməsinə, dövlət əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitlərin dövlət büdcəsinə daxil olmasına, hüquqi şəxslərə və bələdiyyələrə dövlət büdcəsindən vəsaitlər ayrıldıqda həmin vəsaitlərin təyinatı üzrə istifadə edilməsinə nəzarətin həyata keçirilməsi daxildir.

Hesablama Palatası aşağıdakı funksiyaları həyata keçirir:

– dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə, dövlət büdcəsinin ic-

2008-2010-cu illər üzrə Hesablama Palatası tərəfindən göndərilmiş təqdimatların sayı



Qrafik 2

rası barədə illik hesabata və müvafiq qanun layihələrinə rəy verir;
– dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin, eyni zamanda Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərc maddələrinin həcmi, strukturu və təyinatı üzrə vaxtında icrasına nəzarəti həyata keçirir;
– dövlət büdcəsindən maliyyələşdirmələrin təsdiq olunmuş dövlət büdcəsində müəyyən edildiyi kimi aparılmasını təhlil edir, aşkar edilmiş kənarlaşmaların aradan qaldırılması, habelə bütövlükdə büdcə prosesinin təkmilləşdirilməsi haqqında təkliflər hazırlayır və Milli Məclisə təqdim edir;
– Azərbaycan Respublikası Milli Məclisinin və onun komitələrinin tapşırığı ilə Milli Məclisdə təsdiq edilən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin maliyyə ekspertizasını keçirir;
– dövlət büdcəsinin vəsaitlərinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) vəsaitlərinin bank hesablarında hərəkəti barədə Azərbaycan Respublikasının Mərkəzi Bankından və müvəkkil banklardan, kredit təşkilatlarından məlumatlar alır, təhlil edir və Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verir;
– aparılmış nəzarət tədbirləri nəticəsində aşkar edilmiş hüquqpozuntuları barədə məlumatları Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir;
– digər dövlət nəzarət orqanları ilə qarşılıqlı əlaqə şəraitində fəaliyyət göstərir;
– qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinin və icmal büdcəsinin gəlirlərinin və xərclərinin, o cümlədən büdcədənkənar dövlət fondlarının auditini aparır;
– bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın sorğusu əsasında yerli büdcənin maliyyə-büdcə ekspertizasını həyata keçirir.

Palata öz fəaliyyətini qanunçuluq, sərbəstlik, obyektivlik, kollegiallıq, aşkarlıq və ədalətlilik prinsipləri əsasında qurur, fəaliyyəti barədə Azərbaycan Respublikasının Milli Məclisinə hesabat təqdim edir. Bu hesabatlarda Palatanın həyata keçirdiyi nəzarət tədbirlərinin nəticələri barədə məlumatlarla yanaşı, onun cari fəaliyyətinin ayrı-ayrı sahələrini əhatə edən görülmüş işlər barədə məlumatlar da müfəssəl şəkildə əks etdirilir.

Mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq Palatanın büdcə prosesində və ümumilikdə ölkənin maliyyə resurslarının səmərəli idarə olunmasında fəal iştirakının, habelə ona nəzarətin təmin edilməsi mexanizmlərindən biri ekspert-analitik fəaliyyətin həyata keçirilməsidir. Büdcənin tərtibi prosesində və dövlət vəsaitlərindən istifadə zamanı Palata tərəfindən həyata keçirilən ilkin və sonrakı nəzarətlə yol verilən nöqsan və çatışmazlıqların qarşısının alınması onun əsas fəaliyyət istiqamətlərindən biridir. Bu fəaliyyət dövlət resurslarının səmərəli şəkildə idarə edilməsində və qənaətlə istifadə olunmasında kənar nəzarəti gücləndirməyə, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təklif və tövsiyələrin hazırlanmasına imkan verir, habelə nəzarət tədbirlərinin normativ-metodiki sənədlərin tələblərinə və beynəlxalq təcrübəyə uyğun aparılmasına müsbət təsir göstərir.

Palatanın ekspert-analitik fəaliyyəti dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının (təsisatlarının) büdcələrinin layihələrinə, dövlət büdcəsinin icrası barədə illik hesabatlara və müvafiq qanun layihələrinə rəylərin hazırlanması yolu ilə həyata keçirilir. Bu zaman Palata əsas diqqəti daha çox büdcə layihələrində nəzərdə tutulan gəlir və xərc parametrlərinə təsir edən amillərin və makroiqtisadi şəraitin təhlil olunmasına, büdcə ilində həyata keçiriləcək büdcə, vergi və sosial siyasətin ümumi iqtisadi siyasətə və strateji inkişaf hədəflərinə uyğunluğunun araşdırılmasına, büdcə öhdəliklərinin dünyada baş verən iqtisadi proseslərə adekvatlığına, dövlət büdcəsinin icrası zamanı əldə olunmuş nəticələrin büdcə layihəsindəki məqsədlərə müvafiqliyinə, habelə bu nəticələrin ölkənin iqtisadi və sosial sahələrdəki inkişaf göstəricilərinə təsirinin təhlilinə və s. məsələlərə yönəldir.

Hesablama Palatası maliyyə-büdcə nəzarətini audit vasitəsilə həyata keçirir və qanunvericiliyə əsasən, Palata tərəfindən keçirilən audit ali auditdir. Son illərdə Palata tərəfindən aparılan audit tədbirləri nəticəsində böyük məbləğdə vəsaitin dövlət büdcəsinə bərpa olunmasına, podratçı təşkilatlar tərəfindən

əlavə iş və xidmətlərin görülməsinə, inventar və avadanlıqların təhvil verilməsinə, səmərəsiz xərcin qarşısının alınmasına, çoxlu sayda ştat vahidinin, qrup və ya sinfin ləğv edilməsinə, çarpayı fondunun sayının azaldılmasına, habelə yol verilmiş digər nöqsan və çatışmazlıqların aradan qaldırılmasına nail olunmuşdur və bu da Palatanın saxlanılmasına sərf edilmiş büdcə vəsaitlərindən dəfələrlə çoxdur.

Hesablama Palatası fəaliyyətini INTOSAI (Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı) standartlarının və mövcud qanunvericilik aktlarının tələblərinə uyğun təşkil etmək, aparılan maliyyə-büdcə nəzarəti tədbirlərini yüksək səviyyədə keçirmək, şəffaflığı təmin etmək və nəzarəti gücləndirmək, öz funksiya və səlahiyyətlərini mövcud şəraitə uyğun həyata keçirmək, Hesablama Palatasının Daxili Nizamnaməsinin 4-cü maddəsinin tələblərinin icrası olaraq öz fəaliyyətini reqlamentləşdirmək üçün müvafiq qanunvericilik çərçivəsinin yaradılmasına və normativ-metodiki sənədlərin hazırlanmasına xüsusi diqqət yetirir, nəzarət tədbirlərini İNTOSAI tələblərinə uyğun olaraq hazırlanan milli audit standartları əsasında aparır.

Qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının bütün qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları, mülkiyyət, təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün müəssisələr, təşkilatlar, idarələr və onların vəzifəli şəxsləri Hesablama Palatasının müraciətləri əsasında ona zəruri olan məlumatları verməlidirlər. Bu məlumatların verilməməsinə görə qanunvericiliklə məsuliyyət müəyyən edilir.

Nəzarətin rəhbər prinsipləri barədə Lima Bəyannaməsinə uyğun olaraq hazırlanmış "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq "Hesablama Palatası xarici dövlətlərdə uyğun funksiyaları həyata keçirən orqanlarla və onların beynəlxalq təşkilatları ilə əlaqə saxlayır, onlarla əməkdaşlıq edir".

Qanunun bu tələblərini həyata keçirərək Hesablama Palatası 2002-ci ilin aprelindən (yaradıldığı gündən bir neçə ay sonra) Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı – INTOSAI-nin, 2002-ci ilin may ayından Ali Audit Qurumlarının Avropa Təşkilatı – EUROSAI-nin, 2002-ci ilin iyun ayından Ali Audit Qurumlarının Asiya Təşkilatı – ASOSAI-nin, 2002-ci ilin sentyabrından İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Ali Audit Qurumlarının Birliyi – ECOSAI-nin üzvüdür.

Adıçəkilən təşkilatlarla əməkdaşlıq Hesablama Palatasının fəaliyyətini tənzimləyən qanunvericilik və hüquqi-normativ bazasının təkmilləşdirilməsində, Palatanın institusional inkişafında, aparılan nəzarət tədbirlərinin keyfiyyətinin artırılmasında, kadr potensialının gücləndirilməsində əhəmiyyətli köməklik göstərir.

Hesablama Palatasının INTOSAI-nin Peşəkar Standartlar üzrə və Potensialın Gücləndirilməsi üzrə komitələrinin, EUROSAI-nin Ətraf mühitin auditi üzrə İşçi qrupunun, EUROSAI-nin qəzaların qarşısının alınması və ləğvi ilə bağlı ayrılan vəsaitlərin auditi üzrə Xüsusi qrupunun, ECOSAI-nin Audit Komitəsinin üzvü kimi onların işində, habelə kadrların hazırlanması sahəsində INTOSAI-nin İnkişaf Təşəbbüsü – IDI təşkilatı ilə fəal əməkdaşlığı (2006-cı ildə Bakıda Dövlət borclarının auditi mövzusunda təlimatçılar üçün IDI/EUROSAI-nin seminarı keçirilmişdir) Palatanın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində də öz bəhrəsini verir.

Digər ölkələrin ali audit qurumları (AAQ) ilə ikitərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsinə də xüsusi diqqət yetirilir. Belə ki, Rusiya Federasiyası Hesablama Palatası (2002), Gürcüstan Respublikası Nəzarət Palatası (2003), Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Milli Audit Ofisi (2004), İran İslam Respublikası Ali Audit Məhkəməsi (2005), Pakistan İslam Respublikası Baş Auditor Ofisi (2005), Türkiyə Cümhuriyyəti Sayıştay Başkanlığı (2005), Küveyt Dövləti Auditor Bürosu (2006), Qazaxıstanın respublika büdcəsinin icrasına nəzarət üzrə Hesablama Komitəsi (2006), Ukraynanın Hesablama Palatası (2006), Belarus Respublikası Dövlət Nəzarət Komitəsi (2010) ilə əməkdaşlıq haqqında Saziş və Memorandumlar imzalanmışdır.

Sənədlərdə əsasən birgə və paralel nəzarət tədbirlərinin keçirilməsi, keçirilən nəzarət tədbirlərinin keyfiyyətinin artırılması, müvafiq informasiya-arayış materiallarının mübadiləsi, peşəkar

təlim, kadrların ixtisasının artırılması və s. məsələlər üzrə əməkdaşlıq nəzərdə tutulur.
Həmin Sazişlər çərçivəsində Qazaxıstan və Rusiya AAQ-ları ilə Xəzər dənizinin bioloji resurslarından, habelə nərə balıq növlərinin mühafizəsi, qorunması, bərpası və rasional istifadəsinə yönəldilən vəsaitlərdən istifadənin səmərəliliyinin paralel yoxlanılması (auditi), Rusiya Federasiyası Hesablama Palatası ilə Azərbaycan və Rusiya arasında ticarət-iqtisadi əməkdaşlıq məsələlərinə dair hökumətlərarası razılaşmanın realizasiyasının təhlili üzrə paralel nəzarət-analitik tədbir keçirilmiş, Gürcüstan Respublikası Nəzarət Palatasının xahişi ilə sərhədyanı avtomobil daşınmalarının təhlili, habelə tütün məmulatlarının Azərbaycandan Gürcüstana ixracının birgə monitorinqi aparılmışdır.
Ali Audit Qurumlarının Beynəlxalq Standartları – ISSAI və onların tətbiqi sahəsində dünya təcrübəsi, müvafiq məlumatarayış və metodoloji materiallar Hesablama Palatasının İş planlarının və dövlət maliyyə auditinin aparılması üzrə milli standartların hazırlanmasında, kadr hazırlığı siyasətində geniş tətbiq olunur.
Palatanın fəaliyyəti barədə hesabatlar Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir və "Azərbaycan Respublikası Milli Məclisinin Məlumatı"nda dərc olunur. Eyni zamanda Palata öz fəaliyyəti barədə kütləvi informasiya vasitələrinə müntəzəm olaraq məlumat verir, məlumatlar həmçinin Palatanın veb saytında yerləşdirilir.

HESABLAMADA İŞTİRAK EDƏN AKTİVLƏR – təşkilatın pul və qeyri-pul formalarında əmlakı. Bu əmlakın tərkibinə aşağıdakı maddələr balans dəyəri üzrə daxil edilir: əsas vəsaitlər və balansın aktivinin birinci bölməsində göstərilən dövriyyədənkənar aktivlər (iştirakçıların müəssisənin nizamnamə kapitalına maya qoymaq üzrə borclarından başqa). "Sair dövriyyədənkənar aktivlər" maddəsi üzrə təşkilatın aldığı əmlaka görə borcu; balansın ikinci bölməsində əks etdirilən ehtiyatlar və xərclər; balansın aktivinin üçüncü bölməsində göstərilən pul vəsaitləri, hesablaşmalar və sair aktivlər nəzərə alınır. Hesabat ilinin sonu üçün təşkilatın təxmini ehtiyatları (şübhəli borclar və qiymətdən düşmüş qiymətli kağızlar üzrə) aşkar edildikdə, bu ehtiyatların yaranması ilə əlaqədar maddələrin göstəriciləri hesabatda onların balans dəyəri ilə həmin aktivlərin dəyəri arasındakı fərq şəklində iştirak edir (göstərilir).
HESABLARIN BAĞLANMASI – hesablaşma və cari hesabların adlarına açıldığı, yaxud əsaslar olduqda məhkəmə orqanlarının və ya bankların öz qərarı ilə həmin hesabların adlarına açıldığı hüquqi və fiziki şəxslərin məlumat bazasında olan bu hesabların fəaliyyətinin dayandırılması.
HESABLAŞMA ÇEKİ – çekin sol aşağı və sağ yuxarı künclərini birləşdirən diaqonal boyunca bir xətt çəkilmiş hesablaşma sənədi. Bu sənəd nağd pul tətbiq edilmədən hüquqi şəxslər arasında hesablaşmalar aparılması üçün zəruridir.
HESABLAŞMA SERTİFİKATI – klirinq hesablaşma palata üzvlərinin bir-birinə borcu olmasını təsdiqləyən sənəd.
HESAB VALYUTA VAHİDİ – bunlarla banklarda hesablar aparılır və müxtəlif əməliyyatlar keçirilir.
HEYDƏR ƏLİYEV ADINA BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC NEFT BORU KƏMƏRİ – "Əsrin müqaviləsi"nin imzalanmasından sonra hasil olunacaq milyonlarla ton xam neftin tamamilə təhlükəsiz, siyasi və iqtisadi cəhətdən məqbul variantlarla dünya bazarlarına çıxarılması kifayət qədər mübahisəli və çətin məsələlərdən biri olmuşdur. Lakin ümummilli lider Heydər Əliyevin prinsipial və qətiyyətli mövqeyi, nümayiş etdirdiyi diplomatik məharət, tərəfdaşı inandırmaq bacarığı sayəsində Azərbaycan neftinin nəqli marşrutları barədə optimal qərarlar qəbul edilmişdir. 1996-cı ilin yanvar ayında "Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında" Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalanmış, 1997-ci ilin oktyabr ayında həmin xətt istifadəyə verilmişdir. 1997-ci ildə isə Azərbaycan və Gürcüstan hökumətləri arasında neftin Qara dənizə çıxarılması üçün Bakı-Tbilisi-Supsa marşrutu ilə nəqlini nəzərdə tutan saziş imzalanmışdır. 1999-cu il aprelin 17-də ölkə tarixində daha bir əlamətdar hadisə baş verdi. Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə uzunluğu 850 kilometr, illik buraxılış qabiliyyəti isə 5 milyon



ton olan Bakı-Supsa neft kəməri, habelə Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara daxil edildi. Lakin bütün bunlara baxmayaraq, həmin dövrdə əsas ixrac neft boru kəmərinin hansı ölkələrin ərazisindən keçəcəyi aktual və ziddiyətli məsələ olaraq hələ öz müsbət həllini tapmamışdı. İlk gündən etibarən Bakı-Tbilisi-Ceyhan neft kəməri üzərində israr edən Heydər Əliyev bunun siyasi və iqtisadi baxımdan ən optimal qərar olduğunu sübuta yetirmişdir. Həmin dövrdə bu kəmərin tikintisinə çox böyük müqavimət var idi. Hətta kəmərin iqtisadi cəhətdən sərfəli olmaması haqqında şayiələr yayılır və deyilirdi ki, Azərbaycan nefti kəmərin doldurulmasına kifayət etməyəcək, başqa ölkələrin nefti də buraya gəlməlidir. Lakin respublika rəhbərliyi bəyan edirdi ki, bu şayiələrin, bu fikirlərin heç bir əsası yoxdur. Kəmərin 5 il ərzindəki fəaliyyəti nəticəsində indi artıq, demək olar ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri maksimum gücünə yaxın olan həcmdə Azərbaycan neftini dünya bazarlarına çatdırır.
Beləliklə, 1998-ci il aprelin 26-da Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin Trabzon görüşündə hər üç prezident aydın şəkildə bildirmişlər ki, əsas ixrac neft boru kəməri Bakı-Tbilisi-Ceyhan kəməri olmalıdır və bununla da kəmərin reallaşması üçün siyasi qərar verilmişdir. 1998-ci il oktyabrın 29-da Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri tərəfindən Bakı-Tbilisi-Ceyhan marşrutu ilə əsas ixrac boru kəmərinin çəkilməsini müdafiə edən Ankara bəyannaməsinin imzalanması ilə bu layihənin ilkin razılaşması əldə olundu.
Bütün bunların nəticəsi olaraq 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in zirvə toplantısının gedişində İstanbulun Çırağan sarayında xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalandı. Bu prosesin məntiqi davamı kimi 2002-ci il sentyabrın 18-də Səngəçalda Bakı-Tbilisi-Ceyhan kəmərinin inşası başlandı.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi haqqında

ANKARA BƏYANNAMƏSİ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov öz ölkələrində neft və qaz ehtiyatlarının hasilatı və istehsalı, bir neçə boru kəməri vasitəsilə bu ehtiyatların dünya bazarına təhlükəsiz nəql edilməsi imkanlarını qiymətləndirərək, bu məsələlər barədə təxirəsalınmaz qərar qəbul edilməsi zəruriliyini nəzərə alaraq bu bəyannaməni imzaladılar.

1. Prezidentlər hesab edirlər ki, onların ölkələrindəki karbohidrogen ehtiyatlarının işlənilməsi Xəzər regionu ölkələrinin və qonşu ölkələrin müstəqilliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Onlar həmçinin iqtisadi inkişafın təmin edilməsi, öz xalqlarının həyatının yaxşılaşdırılması üçün iqtisadi və kommersiya cəhətdən əlverişli olan boru kəmərləri vasitəsilə neft və təbii qazın nəql olunmasının zəruriliyini təsdiq etdilər.

Prezidentlər daha sonra karbohidrogen ehtiyatlarının sərbəst, sabit şəkildə, ətraf mühitin qorunmasının şərtlərinə uyğun olaraq maneəsiz daşınmasını tələb edən Avropa energetika xartiyasının prinsiplərinə sadiq olduqlarını təsdiq etdilər.

2. Prezidentlər karbohidrogen istehsal edən ölkələrin mənafelərini əsas tutaraq qeyd etdilər ki, kommersiya cəhətdən məqbul və ədalətli olan, ayrı-seçkiliyə yol verməyən Şərq-Qərb dəhlizinin, o cümlədən Xəzər boru kəməri şirkətinin, Transxəzər və Transqafqaz boru kəmərləri sistemlərinin yaradılması Xəzər dənizi regionunda və başqa qonşu ölkələrdə hasil edilən karbohidrogenlərin dünya bazarına çıxarılmasını təmin edən son dərəcə mühüm layihədir.

3. Prezidentlər Azərbaycanın əsas ixrac boru kəməri üzrə qərar qəbul etmək ərəfəsində qətiyyətlə bəyan etmişlər ki, onlar Xəzər-Aralıq dənizi (Bakı-Tbilisi-Ceyhan) boru kəməri layihəsini əsas ixrac layihəsinə çevirmək barədə də qəti qərara gəlmişlər.

4. Onlar həm istehsalçı ölkələr, həm də Xəzər dənizinin hər iki tərəfində yerləşmiş tranzit ölkələr üçün boru kəmərinin açıqlığının, habelə bu xəttin lazımi miqdarda məhsul ilə təmin edilməsinin əhəmiyyətini qeyd etmişlər. Prezidentlər bu məqsəd naminə müvafiq hökumətlərlə ətraflı və konstruktiv danışıqlar aparmaq, boru kəmərinin yaradılması üçün əlverişli şərtlər təqdim etmək və zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etmək üçün Xəzər regionunda karbohidrogen ehtiyatlarının işlənilməsində iştirak edən şirkətləri, başqa əlaqədar şirkətləri, habelə beynəlxalq maliyyə təsisatlarını dəvət etmişlər.

5. Prezidentlər dünya bazarlarına enerji ehtiyatlarının nəql olunmasına dair layihələr üzərində işləyən xarici yerli investorların hüquqlarının müdafiəsi haqqında beynəlxalq qanunlara uyğun olaraq Şərq-Qərb enerji dəhlizinin və bu çərçivədə Baki-Tbilisi-Ceyhan neft kəmərinin yaradılması üçün zəruri şəraiti mümkün qədər tez bir zamanda təmin etmək barədə özlərinin müvafiq hakimiyyət orqanlarına göstəriş verəcəklərini öhdələrinə götürdülər. Onlar həmçinin investorlar üçün əlverişli şərait yaradılması məqsədi ilə lazımi tədbirlər görəcəkləri barədə də razılığa gəldilər.

6. Prezidentlər Qara dənizin, Aralıq dənizinin sahillərinin, habelə Türkiyə boğazlarının qorunması üçün səylər göstərilməsinin əhəmiyyətini bir daha vurğuladılar. Prezidentlər həmçinin qeyd etdilər ki, xüsusilə Türkiyə boğazlarında tanker gəmiçiliyinin potensial artımını nəzərə alaraq neftin və təbii qazın dünya bazarlarına nəql edilməsi təhlükə yaratmamalı, ətraf mühitə, insanların həyatına, mülkiyyətinə və təhlükəsiz dənizçiliyə mane olmamalıdır.

Ankara, 29 oktyabr 1998-ci il

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin həyata keçirilməsinə dair

İSTANBUL BƏYANNAMƏSİ

Şərq-Qərb enerji dəhlizi çərçivəsində Əsas İxrac Boru Kəməri kimi Bakı-Tbilisi-Ceyhan layihəsinin həyata keçirilməsində 29 oktyabr 1998-ci ildə imzalanmış Ankara Bəyannaməsini inkişaf etdirərək Türkiyə, Gürcüstan və Azərbaycan İşçi Qrupları Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərini həyata keçirmək üçün Sazişlər qovluğuna dair razılığa gəlmişlər. Bu Layihə Xəzər hövzəsində və Mərkəzi Asiyada çıxarılmış nefti Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin ərazisi ilə nəql edəcəkdir. 18 noyabr 1999-cu il tarixində Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərarası sazişi imzalanmış və Tranzit ərazisinə malik ölkələrin hökumətləri ilə sazişləri paraflamışlar. Bundan əlavə, Türkiyə ilə Əsas İxrac Boru Kəmərinin əvvəlcədən müəyyən olunmuş qiymət və zaman əsasında tikilməsi haqqında Saziş və Hökumət Təminatı Sazişi yekunlaşdırılmışdır. Bölgənin neft ehtiyatlarının ətraf mühit üçün təhlükəsiz, etibarlı və kommersiya baxımından əlverişli marşrutlarla nəql edilməsinə dair öz məqsədlərinə çatmaq məqsədilə Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin Hökumətləri aşağıdakılarla razılaşmışlar:

– ölkələrin və bütövlükdə bölgənin iqtisadi və siyasi inkişafına təkan vermək məqsədilə, Xəzər hövzəsinin və Mərkəzi Asiyanın neft ehtiyatlarının işlənməsini və onların ətraf mühit üçün təhlükəsiz, etibarlı və kommersiya baxımından əlverişli boru kəmərləri ilə dünya ixrac bazarlarına vaxtında nəql edilməsini təmin etmək üçün bütün lazımi addımları atmaq;

– qısamüddətli qərarlardan fərqli olaraq, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərini dəstəkləmək;

– Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin sərmayəçiləri üçün əlverişli şərait yaratmaq və onların hüquqlarını təmin etmək məqsədilə özlərinin müvafiq ölkələrində hökumətlərarası sazişin ən qısa zamanda ratifikasiyası və qəbul edilməsi üçün öz səlahiyyətləri çərçivəsində bütün lazımi tədbirlər görmək;

– bu layihəni 2004-cü ilədək həyata keçirmək üçün bütün lazımi fəaliyyəti öhdələrinə götürmək;

– Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə müəyyən neft həcmlərini nəql etmək üzrə uzunmüddətli öhdəlik götürmək, xüsusi və beynəlxalq maliyyə təşkilatlarından maliyyələşdirməni sürətləndirmək üçün Xəzər hövzəsi və Mərkəzi Asiyadakı neft hasilatçılarını dəvət etmək; layihəni hazırlamaq, lazımi layihələşdirməni yekunlaşdırmaq, neft həcmləri öhdəliyini təmin etmək və maliyyə yollarını hazırlamaq məqsədilə ən qısa müddətdə işçi qrupu yaratmaq.

Onlar öz hazırkı öhdəliklərinə zərər vurmadan və əvvəlcədən ifadə etdiyi istəyini təkrar təsdiq edərək Qazaxıstanda çıxarılan neftin xeyli hissəsinin Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə dünya bazarına nəql edilməsini təmin edəcəyi barədə Qazaxıstan hökumətinin Bəyannaməsini (qoşma) alqışlamışlar.

Onlar həmçinin bir daha təsdiq etmişlər ki, neftin boru kəmərləri vasitəsilə dünya bazarına nəql edilməsi, xüsusilə Türkiyə boğazlarında tanker nəqliyyatının potensial artması səbəbindən ətraf mühitin, həyatın, əmlakın və nəqliyyatın mühafizəsinə təhlükə və risklərin qarşısının alınması üçün əvəzedilməzdir.

İstanbul, 18 noyabr 1999-cu il







Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev və Gürcüstanın Prezidenti M.Saakaşvili BTC neft kəmərinin iki ölkənin sərhəddində qaynaq edilməsi mərasimində, Böyük Kəsik kəndi, Ağstafa, 16 oktyabr 2004



Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Boru Kəməri







BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilində-ki Ceyhan terminalınadək uzanan 1774 kilometrlik xəttin çəkilməsinə təxminən 4 milyard dollar vəsait xərclənmişdir. Layihənin operatoru BP şirkətidir. Kəmərin tikintisi və istismarı üçün yaradılmış BTC Co. şirkətinin səhmdarları BP (30,1%), ARDNŞ (25%), Şevron (8,9%), Statoyl (8,71%), TPAO (6,53%), ENİ (5%), Total (5%), İtoçu (3,4%), İNPEX (2,5%), Konoko Fillips (2,5%) və Amerada Hess (2,36%) şirkətləridir.

BTC kəməri ildə 50 milyon ton Azərbaycan nefti nəql etmək üçün nəzərdə tutulmuşdur. Lakin Qazaxıstanın BTC-yə qoşulması bu ölkəyə də neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxarmağa imkan verəcəkdir. 2008-ci ildə bu rəqəm 1 milyon barelə çatmışdır. Hazırda kəmərlə gündə 900 min bareldən çox neft nəql olunur.





HEYDƏR ƏLİYEV FONDU – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Fondun Prezidenti - YUNESCO-nun və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Xeyriyyəçilik fəaliyyəti qədim zamanlardan bütün dünyada geniş yayılmışdır. Öz növbəsində Azərbaycanın da zəngin xeyriyyəçilik ənənələri vardır. Xeyriyyəçilik dedikdə, ehtiyacı olanlara əvəzsiz yardımın (güzəştlərin verilməsi) göstərilməsi nəzərdə tutulur. Bu növ fəaliyyət azad və könüllülük prinsipi əsasında həyata keçirilir. Bu gün dünyanın məşhur insanları (siyasətçilər, idmançılar, mədəniyyət və incəsənət xadimləri) xeyriyyəçilik fəaliyyəti ilə məşğul olurlar. Xeyriyyəçilik fondlarına misal olaraq Rokfeller Fondunu, Bill və Melinda Qeyts Fondunu, Drozos Fondunu, Alfred Sloun Fondunu, Henri Ford Fondunu və s. göstərmək olar. Belə xeyriyyəçilik fondları içərisində Heydər Əliyev Fondunun xüsusi yeri vardır.

Fondun yaradılma səbəbləri:

– Azərbaycan xalqının öz ümummilli lideri Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək arzu və istəyi;

– Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək zərurəti;

– Qloballaşan dünyada Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulamaq niyyəti;

– Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi.

Fondun məqsədləri:

– görkəmli siyasi xadimin ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək;



Heydər Əliyev Fondunun inzibati binası

– Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək;

– elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək;

– respublikanın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək;

– yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək;

– insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək;

– Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək etmək;

– uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək;

– Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək;

– Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq;

– respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək;

– elmi tədqiqatların aparılmasına yardım göstərmək;

– xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı və elmi potensialının artırılmasına kömək etmək;

– uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək;

– səhiyyə və tibbi təsisatları inkişaf etdirmək;

– ekologiya sahəsində mühüm tədqiqatları dəstəkləmək, sağlam həyat tərzini təbliğ etmək;

– Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək;

– uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək;

– dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində millimənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək.



Fondun strukturu özündə kollegial və vahid hakimiyyətli rəhbərlik üsullarını birləşdirir.

Fondun icraçı orqanı Prezidentdir. Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndə sidir. Prezident proqramların təsdiqlənməsi və onların həyata keçirilməsi üzrə ümumi rəhbərlik, fondun fəaliyyətinin məqsədli prioritetlərinin, strukturunun və kadr tərkibinin müəyyən olunması və nizamnamə ilə müəyyən olunmuş







digər məsələləri həll edir.
Fondun işinə bilavasitə rəhbərlik etmək üçün İcraçı direktor vəzifəsi təsdiq olunmuşdur ki, o da Prezident tərəfindən onun vəzifələri sırasına daxil edilmiş səlahiyyətlər çərçivəsində fəaliyyət göstərir. İcraçı direktor Fondun proqram və tədbirlərinə cari nəzarəti həyata keçirir. O, həmçinin onun səlahiyyətləri sırasına daxil edilmiş məsələlər çərçivəsində Fondun səlahiyyətli nümayəndəsidir.
Fondun nəzdində Ekspert Şurası fəaliyyət göstərir ki, onun da əsas məqsədi qəbul olunan qərarların böyük səmərəliliyini və effektliliyini təmin etməkdən ibarətdir. Ekspert Şurası müxtəlif ixtisaslı ekspertlərdən ibarətdir. Ekspertlərin vəzifəsi müvafiq rəyləri, hesabatları və məruzələri hazırlayıb Prezidentə təqdim etməkdən ibarətdir. Şura konsultativ strukturdur.
Konkret ixtisaslaşdırılmış funksiyaların və tapşırıqların yerinə yetirilməsi üçün Fondun strukturunda aşağıdakı qurumlar yaradılmışdır: **nümayəndəliklər, hüquq şöbəsi, mühasibatlıq şöbəsi.**
Humanitar proqramlar departamenti: mədəniyyət və turizm şöbəsi, sosial siyasət şöbəsi, təhsil, gənclər və idman şöbəsi.
Beynəlxalq əlaqələr departamenti: beynəlxalq təşkilatlarla əlaqələr şöbəsi, MDB ölkələri ilə əlaqələr şöbəsi, xarici ölkələr ilə əlaqələr şöbəsi.
İctimaiyyətlə əlaqələr departamenti: hüquqi və fiziki şəxslər ilə əlaqələr şöbəsi, KİV ilə əlaqələr şöbəsi.

İşlər Departamenti: insan resursları şöbəsi, ümumi şöbə, təsərrüfat şöbəsi, protokol şöbəsi, analitik-informasiya şöbəsi, təbliğat və tədqiqat şöbəsi, mühafizə şöbəsi.
Fondun prezidenti, həyat fəlsəfəsi insanlara xidmətdən qaynaqlanan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən layihələr yeddi illik zəhmətin bəhrəsi olmaqla gələcək nəsillər üçün zəngin irsdir.
"Mən bu kürsüdən istifadə edərək bir daha hamını əmin etmək istərdim ki, Heydər Əliyev Fondu Azərbaycanın bu günü və sabahı naminə gələcəkdə də çalışmağa hazırdır. Bu yolda bizə dəstək verən, yardım edən hər bir insana, hər bir quruma istər dövlət, istər qeyri-dövlət qurumuna bizimlə birgə əməkdaşlıq yaradan beynəlxalq təşkilatlara dərin minnətdarlığımı çatdırıram".



Talassemiya Mərkəzi

Uşaqların sağlamlığının qorunması fəaliyyətinin prioritet istiqamətlərindən biri olan Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində inşa olunmuş Talassemiya Mərkəzi həmin xəstəliyə düçar olanlar və onların yaxınları üçün ümid yeridir.
Paytaxtımızda yeni müalicə mərkəzinin istifadəyə verilməsi Heydər Əliyev Fondunun əhalinin sağlamlığının qorunması işinə ən dəyərli töhfələrindən biridir.

2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı il noyabrın 24-də İSESKO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür.
Fondun humanistliyi, xeyirxahlığı, gənc nəslin formalaşması istiqamətində həyata keçirdiyi layihələr, onun təşəbbüsü ilə Bakıda keçirilən sivilizasiyalararası dialoq və konfranslar Azərbaycan haqqında məlumatların dünya birliyinə çatdırılması baxımından da əhəmiyyətlidir.





Fondun prezidentinin "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun Yaqut Xaç ordeninə, "XXI əsrin böyük qadını" laureatına, YUNESKO-nun "Qızıl Motsart" medalına, Krans Montana Forumunun qızıl medalına, "Heydər Əliyev mükafatı"na layiq görülməsi illərdən bəri çəkilən zəhmətə beynəlxalq səviyyədə verilən dəyərdir.

Parisdə, Romada, Vatikanda, Moskvada müstəqilliyimizin bərpa olunmasının 20-ci ildönümünə həsr olunmuş tədbirlər həqiqi mənada Azərbaycan mədəniyyət və incəsənətinin, milli mənəvi dəyərlərinin, el sənətlərinin tanıdılmasında növbəti təşəbbüs kimi maraqla qarşılandı. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Fransa Prezidentinin sərəncamı ilə "Şərəf Legionunun Zabiti" ordeni ilə təltif olunması ölkəmizin xarici siyasətinin uğuru olmaqla, respublikamızın beynəlxalq aləmdə nüfuzunun artmasının təsdiqidir.

"Mən öhdəmə götürdüyüm hər bir işə çox məsuliyyətlə yanaşıram. Hər zaman öz fəaliyyətimlə bir neçə məqsədə çatmağı düşünmüşəm. Bunlar vətənpərvərlik və mərhəmətlilikdir."

Fondun ən böyük xidmətlərindən biri ondan ibarətdir ki, Azərbaycanda gündən-günə inkişaf edən sahibkarlıq, onların rəhbərləri özlərinin cəmiyyət qarşısında sosial məsuliyyətini dərk edir, bir sıra irimiqyaslı sosial layihələrin fəal iştirakçıları olurlar.

Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir.

Mehriban Əliyeva



Fondun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqram və layihələrinə uyğun olaraq həyata keçirdiyi yenidənqurma və bərpa işlərinə, gənc nəslin fiziki və əqli inkişafına diqqəti, fiziki cəhətdən zəif inkişaf etmiş uşaqlar üçün nəzərdə tutulan layihələrə xüsusi qayğısı əvəzsizdir. Uşaq evləri və internatların yenidənqurulması təşəbbüsünü irəli sürən Fondun diqqət və qayğısı nəticəsində 30-dan artıq təlim-tərbiyə müəssisəsi ən müasir avadanlıqlarla təmin olunmuş, valideyn himayəsindən məhrum körpələrin fiziki cəhətdən sağlam, hazırlıqlı vətəndaş, zəngin biliyə malik

insanlar kimi yetişməsi istiqamətində önəmli tədbirlər həyata keçirilmişdir.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin təşəbbüskarı olan Fondun dəstəyi və YUNESKO-nun iştirakı ilə Bakıda keçirilən dünyada savadlılığın dəstəklənməsi üzrə regional konfranslar çərçivəsində "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək" beynəlxalq konfrans Azərbaycanda elmin, təhsilin inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətinin uğuruna baxış idi.

Onun bir çox ölkələrdə (ABŞ, Rusiya, Türkiyə, Rumıniya, Gürcüstan və s.) nümayəndəlikləri fəaliyyət göstərir və qurum çoxsaylı layihələri ilə artıq təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da böyük işlər görür.

"Hər bir uşağın ailəyə ehtiyacı var" kampaniyasını irəli sürməklə uşaqların ailələrə verilməsi kimi önəmli layihənin həlli istiqamətində milli-mənəvi dəyərlərimizi əks etdirən tədbirlərin keçirilməsinə nail olan Fondun təşkilatçılığı ilə həyata keçirilən təşəbbüslərin əsasında bir vəzifə dayanır: Vətən üçün sağlam düşüncəli, layiqli, bacarıqlı övladlar yetişdirilsin.

Mehriban Əliyeva



Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi

Heydər Əliyev Fondunun təşəbbüsü ilə fəaliyyət göstərən Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi Azərbaycanın tarixi keçmişinin qorunub saxlanmasına xidmət edir.

Muzey kompleksdə Abşeron yarımadasında tapılmış və eramızdan əvvəl III-II minilliklərdən orta əsrlərə qədər dövrü əhatə edən qayaüstü rəsmlər, Qavaldaş, keramika, məişət və bəzək əşyaları, silah və sikkələr, qədim yaşayış kompleksinin konservasiya olunmuş qalıqları və sair yerləşdirilmişdir.

Pakistanda qızlar üçün yeni orta məktəb binasının inşası "Təhsilə dəstək" layihəsi çərçivəsində Heydər Əliyev Fondunun



Qaçqınlar üçün salınmış yeni qəsəbələrdən biri



Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Vatikanın dövlət katibi, kardinal Tarçizio Bertoni ilə görüşmüşdür

2002-ci ilin may ayında ölkəmizə tarixi səfəri zamanı Roma papası II İoann Pavel qeyd etmişdir ki, Azərbaycan Qərblə Şərq arasında qapıdır. O, nəinki çox vacib strateji əhəmiyyət kəsb edir, həmçinin açıqlıq və müdafiə rəmzidir. Əsrlər boyu formalaşmış dini dözümlülük, tolerantlıq, bütün dünya mədəniyyətlərinə hörmət Azərbaycan xalqının ən əsas və ən gözəl xüsusiyyətlərindən biridir.

Vatikan, 2011-ci il, 30 noyabr

Vatikanın mədəniyyət naziri Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ilə görüşünü Azərbaycana səfərinin davamı adlandırdı, Heydər Əliyev Fondu ilə tanışlığını xatırladı. Kardinal Azərbaycanın Vatikandakı Apostol kitabxanasında həyata keçirdiyi layihənin əhəmiyyətini vurğulayaraq dedi ki, bu zəhmətli iş nəticəsində Azərbaycan haqqında 42 manuskriptdən 15-i bərpa olunmuşdur.

Vatikan, 2011-ci il, 30 noyabr

həyata keçirdiyi ən uğurlu və önəmli işlərdən biridir. Bu, Fondun Azərbaycan hüdudlarından kənarda inşa etdirdiyi ilk məktəbdir. Bununla yanaşı, Rumıniya, Rusiya Federasiyası, Gürcüstan, Hollandiya və Misirin bir neçə təhsil müəssisəsinin yenidən qurulması və avadanlıqla təminatı həyata keçirilib. Polşa, Litva və Fransanın ölkəmizdəki səfirliklərinin dəstəyi ilə təhsil sahəsində də layihələr gerçəkləşir.

Diabetli, hemofiliyalı, fiziki cəhətdən qüsurlu uşaqların sağlamlığı qayğısına qalan Fondun bilavasitə diqqət və qayğısı ilə həyata keçirilən "Talassemiyasız həyat naminə", "Diabetli uşaqlara ən yüksək qayğı", "Kor və zəif görən uşaqların İKT-yə çıxışının təmin olunması" kimi layihələr üzrə görülən işlər, Bakıda Talassemiya Mərkəzinin, tələbatı ödəyəcək qədər ehtiyata malik Qan Bankının yaradılması xeyirxahlıq, vətənpərvərlik hisslərini birləşdirən humanist duyğulardır.

Heydər Əliyev Fondu dünyanın bir sıra aparıcı səhiyyə şirkətləri ilə əməkdaşlıq edir. İndiyədək "Fresenius Medical Care", "Karl-Storz", "Servier" kimi nüfuzlu şirkətlər tərəfindən Fonda bağışlanmış müasir tibbi avadanlıq və dərman preparatları ölkənin müvafiq tibb müəssisələrinə təqdim edilmişdir.

UNİSEF-lə birgə ana və uşaqların sağlamlığı ilə bağlı faydalı tədbirlər gerçəkləşir. Rusiyanın "Uralsib" Maliyyə Korporasiyası ilə əməkdaşlıq çərçivəsində Bakıda xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi inşa olunaraq istifadəyə verilmişdir.

Milli mədəniyyətimizin inkişafına, təbliğinə diqqət yetirən Fondun təşəbbüsü ilə həyata keçirilən tədbirlər təkcə bu gün üçün deyil, gələcək naminə görülən misilsiz xidmət kimi dəyərləndirilir.

Digər tarixi abidələr kimi Azərbaycan muğamı da Fondun təşəbbüsü ilə YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin inciləri siyahısına salınıb. Fondun Azərbaycanın milli mənəvi dəyərlərinin qorunub, inkişaf və təbliğ olunması istiqamətində apardığı misilsiz xidmətlər arasında Dağlıq Qarabağ həqiqətlərinin, Xocalı soyqırımının dünya xalqlarına çatdırılması üçün göstərdiyi vətəndaşlıq mövqeyi də təqdirəlayiqdir. Müxtəlif dövlətlərdə təşkil olunan dinləmələr, keçirilən aksiyalar, münaqişə nəticəsində hüquqları pozulan azərbaycanlıların haqq səsinin, tələblərinin beynəlxalq təşkilatlarda səsləndirilməsində də Heydər Əliyev Fondunun xidmətləri ölçüyəgəlməzdir.

Qənirə Paşayeva

HEYDƏROV ORUC HEYDƏR OĞLU (1959) – Azərbaycan iqtisadçısı. 1980-ci ildə



Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. İnstitutu bitirdikdən sonra SSRİ Tikinti Bankı Bakı şəhər şöbəsində iqtisadci kimi işə başlamışdır. 1983-1990-cı illərdə Tikinti Bankında böyük iqtisadçı, şöbə rəisi, 1990-1993-cü illərdə Sənaye İnvestisiya Bankı Bakı şəhər İxtisaslaşdırılmış Tikinti Bankının müdiri, 1993-cü ildən Azərbaycan Sənaye İnvestisiya Səhmdar Kommersiya Bankı idarə heyətinin sədr müavini, 1994-1998-ci illərdə sədrin birinci müavini, 1998-1999-cu illərdə "Turan" kommersiya bankında məsləhətci, 1999-2000-ci illərdə Azərbaycan Respublikası Sığorta Cəmiyyətləri İttifaqında icraçi direktor, 2000-ci ildə "EGE Beynəlxalq Bankı-Bakı" KB idarə heyətinin sədr müavini kimi çalışmışdır. Hazırda Bank Standardın müşahidə şurasının sədridir. Ölkədə özəl bank sektorunun rolunun və səmərəliliyinin artırılması istiqamətində xidmətləri vardır.

HEYVANLARIN DAŞINMASININ SIĞORTALANMASI – heyvanlar yük və ya adi əmtəə anlayışına düşmür və buna görə də yüklərin sığortalanmasına dair standart şərtlər onların örtülməsini nəzərdə tutmur. Heyvanların daşınmasının sığortalanması xüsusi olaraq əvvəlcədən razılaşdırılır və adətən, xüsusi razılaşmalar əsasında həyata keçirilir. Heyvanların sığortalanması bazarı məhduddur.

HƏDD SIĞORTA ÖDƏMƏSİ SİSTEMİ – bu zaman sığorta məbləği ilə faktiki əldə olunan nəticə arasında fərq kimi hesablanan zərər ödənilir.

HƏDDƏN ARTIQ SIĞORTALANMA – əmlakın həqiqi dəyərindən yüksək məbləğdə sığortalanması nəzərdə tutulur ki, bu zaman sığorta müqaviləsi sığorta dəyərindən yüksək olan sığorta məbləği hissəsində həqiqi deyil. Əgər sığorta məbləği sığortalı tərəfindən qəsdən artırılıbsa, sığortaçı yalan yolla bağlanmış kimi sığorta müqaviləsini ləğv etmək hüququna malikdir.

HƏDDƏN ARTIQ YÜKLƏNMİŞ BAZAR – bu bazarda satıcıların sayının alıcıların sayından xeyli çox olması müşahidə olunur. Qiymətlərin azalması bu cür bazar üçün səciyyəvi haldır.

HƏDDİ-BÜLUĞA ÇATMAYANLARIN ƏMANƏTLƏRİ – həddi-büluğ yaşına (adətən 18 yaşına) çatmayan şəxslərin adına hər hansı bir şəxs tərəfindən köçürülən pul vəsaitləri. Həddi-büluğa çatmayanların özlərinin öz adına qoyduqları əmanətlərə onlar müstəqil sərəncam verirlər.

HƏKİMLƏRİN SƏHVLƏRİNİN SIĞORTALANMASI – 1960-1970-ci illərdə inkişaf etmiş ölkələrdə həkimlərin səhvlərinin sığortalanması əhəmiyyətli inkişafını tapmışdır. Burada təbii ki, cinayət məsuliyyəti yaradan, yəni bilərəkdən edilən səhvlər yox, həkimlərin peşə fəaliyyəti zamanı ən yüksək vicdani yanaşma və maksimum bilik, təcrübə nümayiş etdirmələrinə rəğmən buraxdıqları səhvlər nəzərdə tutulur.

Ötən əsrin 60-70-ci illərində bəzi ölkələrdə həkimlərin səhvlərinin sığortalanması xeyli inkişaf etmişdir. Burada təbii ki, cinayət məsuliyyətinə səbəb olan bilərəkdən səhvlər deyil, maksimum bilik və təcrübədən istifadə etməklə buraxılan səhvlər nəzərdə tutulur. Sığortanın bu növünün inkişafına təkan iddiaçıların xeyrinə 1 milyon və daha artıq məbləğlər kəsən məhkəmələrin yaratdıqları presedentlər olmuşdur. Daha çox anestezistlərə və cərrahlara iradlar tutulur. Psixiatrlara, xüsusilə də intihar halları ilə əlaqədar, iddiaların sayı artır. Əgər əvvəllər ruhi xəstənin intihar edəcəyini qabaqcaqan demək mümkün deyildisə, indi, bir qayda olaraq, bu nöqteyi-nəzər dəyişmişdir. Xəstənin qohumları psixiatrlara qarşı iddialar irəli sürür, onları qarşısını almaq mümkün olan bədbəxtlikləri deməməkdə günahlandırırlar. Həkimlərin sığortalanması üzrə mükafatın

dərəcələri çoxsaylı sığorta halları ilə əlaqədar artmağa meyillidir. Onu demək kifayətdir ki, bəzi həkimlər 15-20 min ABŞ dolları həcmində mükafatlar ödəyir.

Hər il on minlərlə insan həkimlərin səhvi üzündən dünyasını dəyişir. Ədalətə nail olmaq və ölənin qohumlarına kompensasiya almaq hazırda kifayət qədər çətindir. Bunun üçün məhkəmə-istintaq tədbirlərinin nəhəng prosedurundan keçmək lazımdır. Məsələn, Rusiyanın Səhiyyə və Sosial İnkişaf Nazirliyi xəstələrin həkim səhvindən məcburi sığortalanmasının tətbiqini təklif edir.

Səhiyyə və Sosial İnkişaf Nazirliyi KİV-ə "Tibb müəssisələrinin xəstələr qarşısında mülki məsuliyyətinin məcburi sığortalanması haqqında" qanun layihəsi təqdim etmişdir və bu qanun layihəsi 2013-cü il yanvarın 1-dən qüvvəyə minəcəkdir. Qanun layihəsinə görə, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, bütün tibb təşkilatları öz mülki məsuliyyətlərini sığortalayacaqlar. Yeni sığorta sisteminə məcburi tibbi sığortada işləyən tibb müəssisələrinin cəlb olunması prinsipial faktdır. Sığorta tibb müəssisələrinin vəsaitləri hesabına həyata keçiriləcək, xəstələrdən pul alınmayacaq. Məcburi tibbi sığorta sahəsində işləyən tibb müəssisələri sığortanı elə məcburi tibbi sığorta vəsaitləri hesabına ödəyə biləcək, belə ki, bu, tarifdə olacaq.

Qanunvericilikdə ilk dəfə "tibbi yardımın göstərilməsi defekti" anlayışını tibb müəssisəsinin və onun işçilərinin günahının olub olmamasına baxmayaraq, həmin tibb müəssisəsi tərəfindən göstərilən tibbi xidmətin keyfiyyətinin və təhlükəsizliyinin pozulması, eləcə də onun nöqsanı kimi möhkəmləndirmək təklif edilir. Beləliklə, zərərçəkənə kompensasiya vermək üçün indi olduğu kimi həkimin günahını sübut etmək lazım gəlməyəcək. Təklif olunan defektlərin siyahısı diaqnozda səhvlərdən tutmuş xəstələrin müalicəsi metodlarının seçilməsinə, müalicədə yararsız dərmanlardan istifadə edilməsinədək kifayət qədər genişdir.

HƏKİM-SIĞORTA EKSPERTİZASI – həyat sığortasının qəbul edilməsi və sığorta məbləğinin ödənişi zamanı tibbi nəzarət.

HƏQİQİ QİYMƏTLƏR *(real prices)* – inflyasiyanın nəzərə alındığı qiymətlər.

HƏLL AĞACI – çoxaddımlı qərar qəbulu prosesinin optimallaşdırılmasının həll strukturu, sxemi. Həll ağacı problemlərin həllinin təhlilində qəbul olunur. Qəbul olunacaq qərar alternativləri və addımları məhdud olduqda tətbiq edilir.

HƏMRƏYLİK PRİNSİPİ – vətəndaşlar tərəfindən ödənilən vergilərin, sığorta ödənişlərinin ölçüləri nəzərə (uçota) alınmadan, yalnız ehtiyacdan asılı olaraq sosial yardım qismində maliyyə vəsaitlərinin bölgüsü prinsipi.

HƏMSIĞORTA – sığortaçılar arasında irihəcmli risklərin bərabərləşməsi və bölgüsü metodu. Bu zaman sığortaçıların hər biri sığortalananla fərdi müqavilə bağlayır.

HƏRBİ RİSK – böyük miqdarda risk dairəsini əhatə edən anlayış. Əgər sığorta şərtinə risk daxildirsə, onda dəniz sığortası üzrə sığortaçı sığortalanmış əmlakın (gəminin, yükün) ələ keçirilməsi, həbs edilməsi, lənginməsi, pirat hücumu, partlaması və s. nəticəsində bu əmlakın itkisi, korlanması, xəsarət alması ilə əlaqədar zərərləri ödəyir. Hərbi riskin sığortalanması yalnız dinc şəraitdə və ya məhdud hərbi münaqişələr şəraitində fəaliyyət göstərir.

HƏRBİ RİSKİN SIĞORTALANMASI – hərbi əməliyyatlar, mülki müharibələr, qiyamlar, eləcə də minalar, torpedolar, bombalar, mərmilər və digər dağıdıcı vasitələr nəticəsində dəymiş zərərlərdən əmlakın sığortalanması. Dəniz gəmiləri, təyyarələr, onların daşıdığı yüklər və digər əmlak sığortalanmaq üçün qəbul olunur. Bununla belə, sığorta şirkətləri London Sığortaçılar İnstitutunun müəyyən etdiyi mükafatın şərtlərindən və dərəcələrindən istifadə edirlər və bunlar beynəlxalq sığorta bazarında hamı tərəfindən qəbul edilir. Müharibə zamanı hərbi riskin sığortalanması üzrə mükafatın (sığorta tədiyəsinin) dərəcələri dinc dövrdə olduğuna nisbətən xeyli yüksək olur.

HƏRBİ-SƏNAYE KOMPLEKSİ – hərbi-sənaye kompleksi hərbi təyinatlı məhsulun yaradılması üçün nəzərdə tutulan istehsal güclərinin, infrastrukturun, idarəetmə orqanlarının məcmusunu əks etdirir. HSK silah və hərbi ehtiyacların təmin olunması məqsədilə digər mal və xidmətlərin istehsalı ilə məşğul olan maddi resursları, işçi qüvvəsini, istehsal şirkətlərini, tədqiqat təşkilatlarını özündə cəmləyir.

Hərbi məhsulun istehsalında quraşdırma istehsalları, sınaq poliqonları, elmi laboratoriyalar, elmi-tədqiqat müəssisələri, təmir zavodları, əvvəllər göndərilən texnikanın modernləşdirilməsi ilə bağlı olan müəssisələr iştirak edirlər. Hazır hərbi məhsulun istehsalı inkişaf etmiş energetika və xammal bazalarının, qara və əlvan metallurgiyanın, müasir elektronika və cihazqayırmanın mövcudluğunu nəzərdə tutur. Hərbi sektorun sahələri inkişaf etmiş infrastruktura – rabitə vasitələri, nəqliyyat kommunikasiyaları, idarəetmə və tənzimləmə orqanlarına arxalanır. Maliyyə vəziyyəti, xarici iqtisadi əlaqələrin inkişafı və etibarlığı əhəmiyyətli rol oynayır.

Dünya ümumi milli məhsulunda məcmu hərbi məhsul istehsalının payı 2,5%-dən çox deyil, dünya ticarətində silahlanma və hərbi texnikanın payı isə, təxminən 1%-dir. Amma dünya hərbi-sənaye bazasının əhəmiyyəti xalis kəmiyyət göstəriciləri hüdudundan çıxır.

Müdafiə sənayesi daha az yekcins olur. Silah və döyüş sursatlarının nisbətən dar sektoru ilə yanaşı, çoxfunksiyalı məhsul istehsalçılarının geniş kompleksi də inkişaf edir. Oxşar məhsullar (kompüterlər, peyklər, rabitə, informasiya, nəzarət sistemləri) həm mülki, həm də hərbi bazarlarda realizə olunur.

Müasir şəraitdə hərbi-sənaye bazasının inkişafına iki amil: dünyada hərbi-sənaye vəziyyətinin dəyişilməsi; silahlı mübarizə vasitələrinin təkmilləşməsi (nüvə silahı, raket texnikası), müasir müharibə və münaqişələrin xarakterindəki irəliləyişlər əhəmiyyətli təsir göstərir.

HƏRBİ-SƏNAYE KOMPLEKSİNİN KONVERGENSİYASI – iqtisadiyyatın hərbisizləşdirilməsi, bazar mövqelərinin itirilməsi və s. nəticəsində müdafiə sifarişinin azaldılması ilə əlaqədar sənayenin strukturunun yenidən qurulması. Müdafiə xarakterli sifarişləri yerinə yetirən sənayenin həm müdafiə, həm də mülki sahələrinə daxil olan yığılmış istehsal və elmi-texniki potensialından maksimum mümkün istifadəsi ilə həyata keçirilir. Hərbi-sənaye kompleksinin (HSK) tam və ya qismən konvergensiyası formaları fərqləndirilir. HSK-nın tam konvergensiyası zamanı müdafiə təyinatlı məhsul istehsalı azalır və istehsal-texniki təyinatlı mülki məhsulun və istehsal aparatında olmayan, yaxud onun tam və ya qismən əvəz olunması zamanı istehlak mallarının istehsalı ilə əvəz olunur. HSK-nın qismən konvergensiyası müdafiə sifarişinin həcminin azalmasından və sərbəstləşən güclərin istifadəsi və yenidən qurulması hesabına mülki məhsul istehsalının mənimsənilməsindən, ikiqat təyinatlı məhsul istehsalının mənimsənilməsindən və ya genişlənməsindən ibarətdir. HSK-nın qismən konvergensiyası zamanı istehsalın diversifikasiyası baş verir. HSK-nın konvergensiyası proqramının reallaşmasına çəkilən məsrəflərin azaldılması hər bir konkret istehsal (müəssisə) üçün əvəz edilən texnologiyaların əsaslandırılmasının seçimi ilə təmin olunur. Müdafiə istehsalı güclərinin müvəqqəti dayandırılması (konservasiyası) və onların mobilizasiya (səfərbərlik) potensialı sektoruna keçirilməsi HSK-nın konvergensiyası sayılmır.

Cədvəl 1

Dünya üzrə hərbi xərclərin dinamikası

Göstəricilər	İllər								
	2000	2001	2002	2003	2004	2005	2006	2007	2008
Cari qiymətlərlə hərbi xərclər (mlrd. dollar)	798	839	795	956	1035	1118	1204	1339	1464
Dünya ÜDM-də faiz göstəriciləri	2,5	2,6	2,5	2,7	2,6	2,5	2,5	2,5	2,4
Hər nəfərə düşən hərbi xərclər (ABŞ dolları)	130	137	128	152	162	173	184	202	218

HƏRƏKƏT EDƏN ƏMLAK, DAŞINAR ƏMLAK – əmlak xarakterli, torpaqla bağlı olmayan və ona bərkidilməmiş əmlak. Daşınar əmlaka pul, əşyalar, heyvanlar, qiymətli kağızlar, borc qaimələri, icra vərəqələri və s. aiddir.

HƏRRAC (auksion, müzayidə) – 1. Əmtəələrin lotlarla və ya ayrı-ayrı əşyalar üzrə əvvəlcədən müəyyən edilmiş vaxtda və yerdə açıq satış üsuludur. Başqa sözlə, kütləvi müzayidədə satışdır ki, burada satılan əmtəə və ya əmlak ən yüksək qiymət təklif edən şəxs tərəfindən alınır. Bu zaman əmtəə (və ya onun nümunəsi) potensial alıcılara nümayiş etdirilir. Satı-

şın ümumi şərtləri satıcı (hüquqi şəxs olaraq auksion rəhbərliyi) tərəfindən müəyyənləşdirilir. Lotun və ya əşyanın nömrəsinin və başlanğıc qiymətinin müəyyənləşdirilməsi ilə satışa başlanılır. Auksionun gedişində ən yüksək qiyməti təklif edən şəxs alıcı hesab olunur. Bəzi auksionların qaydalarına əsasən, alıcı əlavə haqq ödəməklə alınmış əmtəələrin özü tərəfindən göstərilən ünvana çatdırılmasını tələb etmək hüququna malikdir. Adi satışdan fərqli olaraq, auksion yolu ilə satış zamanı satıcı satılan əmtəənin keyfiyyətinə görə cavabdehlik daşımır.


2. Borclarını ödəmək imkanı olmayanın əmlakının məcburi qaydada satışıdır, həmçinin nəqliyyat və anbar müəssisələri tərəfindən müəyyənləşdirilmiş vaxtadək tələb olunmayan malların reallaşdırılması formasıdır.

3. Özəlləşdirmə üsuludur. Bir sıra ölkələrin qanunvericiliyinə görə, hərraca özəlləşdirmə obyekti əldə etmək mümkün olan auksionda vaxtında iştirak etmək üçün ərizəsini təqdim edən və əvvəlcədən təsbit edilmiş qaydada müəyyən məbləği ödəyən fiziki və hüquqi şəxslər buraxılırlar.

HƏSƏNLİ MİRƏLƏM XASI OĞLU (1947) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1995-ci ildə namizədlik, 1997-ci ildə Sankt-Peterburq Dövlət Maliyyə-İqtisad Universitetində doktorluq dissertasiyasını müdafiə etmişdir. Bank, maliyyə, vergi, büdcə məsələlərinə dair 30-dan çox elmi əsərin, o cümlədən 5 monoqrafiyanın, 3 dərs vəsaitinin müəllifidir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin professorudur.



HƏSƏNLİ YADULLA HƏMDULLA OĞLU(1959) – Azərbaycan iqtisadçısı, i.e.d. 1976-1981-ci illərdə Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" fakültəsində təhsil almışdır. 1983-1987-ci illərdə AMEA Kibernetika İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. AMEA Kibernetika İnstitutunda 1989-cu ildə "Yeni təsərrüfatçılıq şəraitində kənd təsərrüfatı müəssisəsi fəaliyyətinin modelləşdirilməsi" mövzusunda namizədlik, 2007-ci ildə isə "Azərbaycanın sosial-iqtisadi inkişafının modelləşdirilməsi məsələləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 102 elmi əsərin, o cümlədən iki monoqrafiya və bir dərsliyin müəllifidir. Əsas tədqiqat obyekti iqtisadi-riyazi problemlər, makroiqtisadi tarazlıq, sosial-iqtisadi inkişafın proqnozlaşdırılması məsələləridir.



1981-ci ildən AMEA-nın Kibernetika İnstitutunda və BDU-da fəaliyyət göstərir.

HƏSƏNOV AĞAYAR CAHANGİR OĞLU (1929-2004) – Azərbaycanın görkəmli iqtisadçısı, dosent (1984), əməkdar müəllim (1999). 1947-1951-ci illərdə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsil almış, 1951-1954-cü illərdə həmin institutun aspiranturasında təhsilini davam etdirmişdir. 1956-cı ildə "Stalin iqtisadi qanunların xarakteri haqqında" mövzusunda namizədlik dissertasiyasını bitirmişdir. Lakin stalinizmin ifşası ilə əlaqədar onun müdafiəsi baş tutmamışdır.



"Azərbaycan iqtisadi fikir tarixi oçerkləri" (Bakı, 1987, kollektiv), "Azərbaycan iqtisadi fikir tarixi" (Bakı, 1996, T.S.Vəliyevlə birlikdə) monoqrafiyalarının, siyasi iqtisad və iqtisadi nəzəriyyə üzrə çoxsaylı dərsliklərin müəllifidir. Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, İbn Xəldunun sosial-iqtisadi görüşlərini tədqiq etmişdir. Əsərlərində elmi yaradıcılıq metodologiyası, iqtisad elminin adı, elmdə millilik kimi aktual məsələlərə münasibət bildirmişdir. A.Həsənov Azərbaycanın ilk siyasi iqtisadçılarından biri kimi 1954-cü ildən ömrünün axırınadək bu elmin tədqiqi və tədrisi ilə məşğul olmuşdur. Zəngin dünyagörüşü, dərin elmi təfəkkürü, yaxşı mənada millətsevərliyi onun mühazirələrində və elmi məclislərdəki çıxışlarında əksini tapmış, diqqət və marağa səbəb olmuşdur. A.Həsənov yarıməsrlik bir dövr ərzində Azərbaycan iqtisadçılarına sözün əsl mənasında müəllimlik etmişdir. Ona 1984-cü ildə dosent elmi adı, 1999-cu ildə isə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

HƏSƏNOV ƏLİAĞA HACI SÜLEYMAN OĞLU (1871-1933) – ictimai və dövlət xadimi. Bakı şəhər gimnaziyasını və kommersiya məktəbini bitirmişdir. Bakı taciri olan Həsənov "Nəşri-maarif" cəmiyyətinin yaradılmasında və fəaliyyətində yaxından iştirak etmişdir. Şəhər dumasının üzvü idi. Həsənovun Bakıya Şollar su kəmərinin, şəhər kanalizasiya şəbəkəsinin çəkilməsində, Dənizkənarı parkın salınmasında böyük xidmətləri olmuşdur.



Fevral inqilabından (1917) sonrakı siyasi hadisələrdə yaxından iştirak etmiş, 1918-ci ilin martında Bakıda türk-müsəlman əhaliyə qarşı soyqırımların qarşısını almağa çalışmışdır. Müsəlman Milli Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü idi. Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında qanun"una (1918, 19 noyabr) əsasən, Bakı şəhərində bitərəf kimi Cümhuriyyət Parlamentinin tərkibinə daxil edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin 3-cü Hökumət kabinəsində maliyyə nazirinin müavini, 4-cü kabinədə isə maliyyə naziri təyin olunmuşdur. 1919-cu il sentyabrın 30-da Bakıda Azərbaycan Dövlət Bankı fəaliyyətə başlamışdır. 1919-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin 25, 50, 100, 250 və 500 manatlıq dəyərində kağız pulları dövriyyəyə buraxılmışdır. Yüksək bədii zövqlə tərtib olunmuş bu əskinasların üzərində Nazirlər Şurasının sədri N.Yusifbəylinin və maliyyə naziri Ə.Həsənovun imzaları var idi.

Milli pulların qiymətdən düşməməsi, emissiya həcminin artmaması, devalvasiyaya uğramaması üçün Həsənov böyük səy göstərmişdir. Həsənov həm Azərbaycan Xalq Cümhuriyyəti, həm də Sovet Hakimiyyəti dövründə Azərbaycan Dövlət Bankına rəhbərlik etmişdir. Həsənovun dövri mətbuatda, həmçinin "Füyuzat" jurnalında çoxlu məqaləsi dərc edilmişdir. Böyük rus yazıçısı L.N.Tolstoyla dostluq münasibətləri olmuşdur.

HƏSƏNOV RASİM TAPDIQ OĞLU (1955) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1977-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. 1985-ci ildə "Yeni təsərrüfatçılıq şəraitində kənd təsərrüfatı müəssisəsi fəaliyyətinin modelləşdirilməsi" mövzusunda namizədlik, 2003-cü ildə isə "Azərbaycan iqtisadiyyatının islahatlaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyası problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.



180-dən çox elmi əsərin, o cümlədən 8 monoqrafiya və dərs vəsaitinin müəllifidir. 40-dan çox elmi əsəri xaricdə nəşr olunmuşdur. Rəhbərliyi ilə 9 elmlər namizədi müdafiə etmişdir. İqtisadi İnkişaf Nazirliyinin nəzdində İqtisadi İslahatlar Mərkəzinin direktoru, Hesablama Palatasında şöbə müdiri və Palata Aparatının rəhbəri vəzifələrində çalışmışdır. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktorudur. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli Sərəncamına əsasən, ona təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilmişdir.

HƏSSASLIĞIN TƏHLİLİ – alternativ ssenarilərin başqa şəklə salınmış başlanğıc dəyişənlərlə (qiymət, dəyər, istehlakçı tərəfindən qəbul olunma səviyyəsi) işə salınması, bu zaman məqsəd bu dəyişənlərin satış və mənfəətin həcminə təsirinin aşkar edilməsidir.

HƏYATİLİK İNDEKSİ – müəyyən vaxt ərzində, adətən, bir ildə doğulanların sayının ölənlərin sayına nisbətinin demoqrafik indekslərindən biri. Əhalinin nisbətən təbii artımı zamanı həyatilik indeksi 1-dən çox, azalmada isə 1-dən azdır. Hesablanması üçün əhalinin sayı haqqında məlumat tələb etməyən nəsillərin təzələnməsinin şərti ölçüsü kimi XIX əsrin ikinci yarısında yayılmağa başlamışdı. Rusiyada həyatilik indeksini (yaşamaq qabiliyyəti əmsalı) ilk dəfə V.İ.Pokrovski (1897), Amerikada R.Pirl tətbiq etmişdi. Əhalinin sayı haqqında düzgün məlumatların meydana çıxması ilə əhalinin təkrar istehsalı ölçüsü kimi həyatilik indeksi əvvəl əhalinin təbii artımı

$$\text{Həyat dəyəri indeksi} = \frac{\text{Cari qiymətlərlə "istehlak səbəti" : 100}}{\text{Bazis ilinin qiymətlərilə "istehlak səbəti"}}$$

$$\text{Həyat dəyəri indeksi} = \frac{\left[\text{5x cari ildə A əmtəəsinin qiyməti}\right] + \left[\text{2x cari ildə B əmtəəsinin qiyməti}\right]}{\left[\text{5x bazis ildə A əmtəəsinin qiyməti}\right] + \left[\text{2x bazis ildə B əmtəəsinin qiyməti}\right]}$$

əmsalı ilə, sonralar əhalinin yaş tərkibindən asılı olmayan digər göstəricilərlə, məsələn, əhalinin təkrar istehsalının netto-əmsalı ilə sıxışdırıldı. Müasir tədqiqatlarda həyatilik indeksi, demək olar ki, tətbiq olunmur.

HƏYAT DƏYƏRİ İNDEKSİ – qiymətlərin dəyişməsi ilə əlaqədar əhalinin maddi rifah səviyyəsi. Bir qayda olaraq, tipik istehlakçı tərəfindən istehlak olunan əmtəə və xidmətlərin təsbit edilmiş yığımının (istehlak səbəti) bazar dəyəri əsasında hər ay dövlət statistika orqanları tərəfindən hesablanır. Ümumi şəkildə həyat dəyəri indeksini, cari qiymətlərlə qiymətləndirilən bazis ilinin "istehlak səbəti"nin, bazis ilinin qiymətlərilə qiymətləndirilən bazis ilinin "istehlak səbəti"nə münasibəti kimi müəyyən etmək olar.

Bir qayda olaraq, həyat dəyəri indeksində ərzaq məhsullarının, geyimin və digər xərclərin (tibbi xidmət, təhsil və s.) qiymətləri əks olunur. Rusiyada bu, 70 əsas ərzaq məhsulu, 20 qeyri-ərzaq məhsulu, həmçinin pullu xidmətlərin müəyyən yığımıdır. Məsələn, əgər tipik istehlakçı hər ay A əmtəəsindən 5 vahid və B əmtəəsindən 2 vahid əldə edirsə, yəni onun "istehlak səbəti" bu 2 əmtəədən ibarətdirsə, həyat dəyəri indeksi aşağıdakı kimi müəyyən olunur:

Həyatın dəyər indeksi qiymətin dəyişilməsinin bu və ya digər əmtəənin istehlak həcminin dəyişilməsinə necə təsir etdiyini əks etdirmir. Bundan başqa, ona görə qiymətlərin dəyişilməsinin məhsulun keyfiyyət cəhətdən yaxşılaşmasında hansı rolu oynadığını müəyyən etmək mümkün deyil. Həyatın dəyər indeksi iqtisadiyyatın idarə olunmasında mühüm rol oynayır. O, ilk növbədə, dövlət məmurlarının əmək haqqının, təqaüdlərin, müavinətlərin, pensiyaların indeksləşdirilməsi ilə əmək haqqının dəyişdirilməsi üzrə sahibkarlarla həmkarlar ittifaqları arasında razılaşmaların işlənib hazırlanması ilə bağlı olan qərarların əsaslandırılmasının iqtisadi və sosial təhlili üçün istifadə olunur. Həyatın dəyər indeksi hüquqi təcrübədə (məsələn, alimentlərin ölçüsünün müəyyən edilməsi zamanı); müxtəlif iqtisadi, statistik, maliyyə və kommersiya hesablaşmalarında nəzərə alınır.

HƏYAT SƏVİYYƏSİ – əhalinin maddi və mədəni (mənəvi) tələbatının təmin edilmə dərəcəsi. Müxtəlif göstəriciləri əhatə edən inteqral xarakteristikaya aiddir: adambaşına istehlak fondu, real gəlirlər, ən mühüm məhsulların natural istehlakının həcmi, mənzil, kommunal və sosial xidmətlər, nəqliyyat və rabitə ilə təmin olunma dərəcəsi, təhsilin, səhiyyənin, sosial təminatın inkişafı. Beynəlxalq normalara əsasən, məşğulluq və əmək şəraiti, şəxsiyyətin hüquqlarının qüvvədə olan sosial zəmanətləri, şəxsiyyətin təhlükəsizliyinin ictimai şəraiti, sağlamlıq, demoqrafiya, ekologiya, ərzaqla təmin olunma və onun qida dəyəri, ev əmlakı, yığımlar, sosial xidmətlərdən istifadə etməyin mümkünlüyü, eləcə də cəmiyyətdə təbəqələşmə, neqativ sosial-iqtisadi hallar – inflyasiya, işsizlik, yoxsulluq, cinayətkarlıq, hər hansı əlamətlərə görə ayrı-seçkilik məsələləri nəzərə alınır. Həyat səviyyəsi həm bütövlükdə ölkə üzrə, həm də milli-tarixi xüsusiyyətlər nəzərə alınmaqla ayrı-ayrı ərazilər üzrə, ayrı-ayrı sosial qrupların vəziyyətinin spesifikasına əsasən bu qruplar üzrə qiymətləndirilə bilər.

Həyat səviyyəsi ölkə əhalisinin, sosial qrupların, ailənin, insanın maddi, mənəvi və sosial tələblərinin ödənilmə səviyyəsini müəyyən edir. Həyat səviyyəsi

insanların tələbatlarının tərkibi və inkişafından, həmçinin bu tələbatları ödəmək üçün vacib olan əmtəələrin və xidmətlərin miqdarı və keyfiyyətindən asılıdır. Həyat səviyyəsi cəmiyyətin iqtisadi, sosial və siyasi quruluşu ilə təyin olunur. Həyat səviyyəsi təkcə milli sərvətlərdən deyil, həm də insanın özünün şəxsi əmlakından asılıdır. Ona sosial-tarixi, təbii, milli-etnik amillər təsir göstərir.

Həyat səviyyəsi kəmiyyət və keyfiyyət göstəriciləri sistemi ilə ifadə olunur. İstehlak olunan maddi nemət və xidmətlərin həcmi, əhalinin real gəliri, ərzaq məhsullarının və xidmətlərin istehlak ölçüsü, pul gəlirinin miqdarı, əmək şəraiti və xarakteri, iş və asudə vaxtın uzunluğu, mənzil və məişət şəraiti, asudə vaxtdan və sosial xidmətlərdən istifadə belə göstəricilərdəndir.

Əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi üçün əhalinin tələbatlarının ödənilməsi dərəcəsi müəyyənləşdirilməlidir. Bu, maddi və mənəvi nemətlərin faktiki istehlak göstəriciləri ilə rasional normaların müqayisəsi yolu ilə ölçülür. Bu zaman istehlakın və xidmətin əldə olunmuş səviyyəsi, təbii-iqlim şəraiti, yaş, ailə tərkibi, konkret məhsulların, nemətlərin və xidmətlərin elmi əsaslandırılmış istehlak norması nəzərə alınır. Həyat səviyyəsi anlayışı sosiologiyada həyat keyfiyyəti, həyat tərzi, həyat üsulu ilə müqayisə olunur.

HƏYAT SƏVİYYƏSİ İNDEKSİ – əhalinin, onun qruplarının real gəlirlərinin səviyyəsinin dəyişilməsini xarakterizə edir, həm əhalinin pul gəlirlərinin, həm də əhali üçün istehlak mallarının və xidmətlərinin qiymətlərinin dəyişməsini nəzərə almaqla müəyyən olunur.

HƏYAT SƏVİYYƏSİ VƏ KEYFİYYƏTİ – ölkədə həyat səviyyəsi və keyfiyyəti bir çox göstəricilərlə, o cümlədən həyat davamlılığı, müxtəlif xəstəliklərlə xəstələnmə dərəcəsi, şəxsi təhlükəsizlik vəziyyəti, təbii mühit, işsizlik və əlbəttə, müxtəlif mal və xidmət istehlakı səviyyəsi ilə müəyyən olunur. Bu göstəricilərin ən vaciblərindən bəzilərini ümumiləşdirmək cəhdi kimi *insan inkişafı indeksi* adı altında göstərici çıxış edir. Bu isə gələcək həyat davamlığı, əhalinin təhsil və həyat səviyyəsi ilə əhatə olunma indekslərini özündə cəmləyir.

Cədvəl 1

Həyat səviyyəsi və keyfiyyəti, 2010

Yaşayış səviyyəsinə görə ölkələrin reytinqi										
№	Ölkə	Yaşayış səviyyəsi	Mədəniyyət və əyləncə	İqtisadiyyat	Ətraf mühit	Səhiyyə	İnfrastruktur	Şəxsi təhlükəsizlik	İqlim	Yekun qiymətləndirmə
1	Fransa	55	81	69	72	100	92	100	87	82
2	Avstraliya	56	82	71	76	87	92	100	87	81
3	İsveçrə	41	86	79	78	95	96	100	77	81
4	Almaniya	54	82	71	83	89	90	100	79	81
5	Yeni Zelandiya	62	82	65	77	88	70	100	84	79
6	Lüksemburq	44	76	85	77	87	66	100	83	78
7	ABŞ	56	79	67	62	78	100	100	84	78
8	Belçika	41	83	66	64	88	96	100	86	78
9	Kanada	62	76	69	62	84	85	100	69	77
10	İtaliya	56	85	63	74	90	62	100	87	77

International Living

Çoxsaylı mənbələrdən əldə edilmiş müxtəlif məlumatlara əsasən hər bir göstəriciyə 0-dan 100-dək bal verilir. Tədqiqatın bazası kimi bütün dünya üzrə məşhur təşkilatların statistik məcmuələri və nəşrləri (o cümlədən, BMT-nin və ABŞ departamentinin) çıxış edir.

Gələcək həyat davamlığı indeksi o zəmin üzərində qurulur ki, müasir şəraitdə minimal həyat davamlığı hətta ən uğursuz ölkələrdə 25 yaşdan aşağı enmir, daha uğurlu ölkələrdə isə maksimal həyat davamlığı orta hesabla 85 yaşı keçmir.

Əhalinin təhsil səviyyəsi ilə əhatə olunma indeksi aşağıdakı düsturla hesablanır:

$$I_E = (2 \times Y_{AL} + Y_{TA})/3$$

Burada I_E – əhalinin təhsil səviyyəsi ilə əhatə olunma indeksi; Y_{AL} – 15 yaşından yuxarı yaş həddində savadlıların payı; Y_{TA} – məktəbli və tələbəlik dövrü yaş həddində əhalinin təhsillə əhatə olunma payı.

Həyat səviyyəsi indeksi sadə formada ÜDM-in adambaşına münasibəti kimi təqdim oluna bilər. Bütövlükdə insan inkişafı indeksi onu təşkil edən üç indeksin orta göstəricisidir. İnsan inkişafının orta dünya indeksi təxminən bu kəmiyyətdədir: nisbətən inkişaf etmiş ölkələrdə o, 1,0-a yaxınlaşır, daha az inkişaf etmiş ölkələrdə isə 0,2-yə yaxındır.


HƏYAT SIĞORTASI – sığortalının ölümü, sağlamlığının, iş qabiliyyətinin qocalığa, yaxud əlilliyə görə tamamilə və ya qismən itirilməsi halları üçün aparılan sığorta. Həyat sığortası üzrə müqavilə müddəti bitdikdə və ya sığorta hadisəsi baş verdikdə sığorta məbləği müqaviləsində müəyyən edilmiş qaydada və şərtlərlə sığortalıya qaytarılır (sxem 1, 2).

HƏYAT SIĞORTASI MÜQAVİLƏLƏRİNİN ƏSAS TİPLƏRİ – bu tiplərə aiddir: 1) müddətli həyat sığortası; 2) ömürlük həyat sığortası; 3) qarışıq həyat sığortası.

Həyat sığortasının aktuar ehtiyatları – şirkətin maliyyə fondlarında həyat sığortası polisləri saxlayanların vəsaitlərindən aktuar hesablaşmalar nəticəsində alınmış normativlər üzrə formalaşan ehtiyatlardır. Bu ehtiyatlar bədbəxt hadisələr nəticəsində polisləri saxlayanların ölümü ilə əlaqədar sığorta öhdəliklərindən yaranan zərərlərin ödənilməsi üçün nəzərdə tutulur.

HƏYAT SIĞORTASI ÜZRƏ BORC – qaytarılmaq və faizlə ödənilmək şərtilə (əsaslarla) sığortalıya müvəqqəti istifadəyə verilən pul vəsaitləri.

HƏYAT SIĞORTASI ÜZRƏ HAQLARIN EHTİYATI – sığorta və ödənc məbləğlərinin gələcəkdə ödənilməsi, eləcə də həyat sığortası üzrə ssudaların (borcların) verilməsi üçün sığortaçı tərəfindən yaradılan fond. Həyat sığortası müqavilələri adətən bir neçə il üçün bağlanılır. Bu müqavilələr üzrə haqların daxil olması məqamı sığorta məbləğinin ödənilməsi vaxtı ilə üst-üstə düşmür. Buna görə də müəyyən dövrdə bu haqlar sığortaçıların sərəncamında olur.



Sxem 1

HƏYAT SIĞORTASI ÜZRƏ ÖDƏMƏLƏR EHTİYATI – qarşıdan gələn sığorta və geri alma məbləğlərinin ödənilməsindən ötrü sığorta təşkilatı tərəfindən yaradılan fond.


HƏYAT SIĞORTASININ PROLONQASİYASI (uzadılması) – müqavilədə göstərilmiş müddətdən artıq sığorta müqaviləsinin və ya növbəti hallarla ödənilən müddətdən artıq ömürlük sığortanın fəaliyyət müddətinin uzadılması.

HƏYAT TƏRZİ – təbii-tarixi şəraitin, eləcə də dəyər məsrəflərinin məcmusu ilə müəyyən edilən, şəxsin, sosial qrupun və ya bütün cəmiyyətin həyat fəaliyyətinin xarakteri. Həyat tərzi insanların necə və nəyə görə yaşadıqlarını, nə ilə məşğul olduqlarını, hansı hadisələrin və hərəkətlərin onların həyatlarını əks etdirdiyini göstərir. Ona görə də həyat tərzi həyat şəraitini deyil, maddi və mənəvi nemətlər istehsalı prosesində, həmçinin ictimai-siyasi və ailə-məişət sferalarında insanların həyat fəaliyyətinin formalarının məcmusunu əhatə edir. Bununla belə, həyat tərzi həyat fəaliyyətinin bütün formalarının mexaniki cəmi deyil, onların qarşılıqlı əlaqəsidir ki, bir sıra amillərin, hər şeydən əvvəl, ictimai mövqelərin, dəyər məqsədlərinin təsiri altında sistemdə formalaşır. Həyat tərzi ictimai və təbii şərtlərin məcmusunun, xarici amillərin və daxili impulsların, obyektiv və subyektiv səbəblərin təsiri altında formalaşır və inkişaf edir.

Determinasiyalı həyat tərzi şərtlərinin bütün cəmini təhlil göstərir ki, birincisi, insanın təbiəti ilə və ya subyektin həyat tərzi ilə; ikincisi, ictimai-tarixi həyat şəraiti ilə; üçüncüsü, təbii həyat şəraiti ilə əlaqədar tamamilə müxtəlif xarakterli amillər göz qabağındadır.

"Həyat səviyyəsi", "Həyat keyfiyyəti", "Həyat üsulu", "Həyatın standartı" anlayışlarının həyat tərzinin xarakteristikasına bilavasitə münasibəti mövcuddur. Onlar ümumi həyat səviyyəsi kateqoriyası ilə müqayisədə xüsusi anlayışlardır və insanların həyat tərzinin müxtəlif tərəflərini, aspektlərini, "kəsiklərini" əks etdirirlər. "Həyat səviyyəsi" kateqoriyası insanların maddi rifah səviyyəsini, maddi və mənəvi nemətlərlə təmina-

Həyat sığortası müqaviləsinin xüsusiyyətləri



Sxem 2

tını, maddi və mənəvi tələbatların ödənilməsi dərəcəsini xarakterizə edir. Həyat səviyyəsi həyat şəraitinin xarakteristikasının, yəni iqtisadi, sosial-siyasi münasibətlərinin və təbii-coğrafi mühitin məcmusunun mühüm şərtidir.

Ölkə əhalisinin həyat səviyyəsi istifadə üzrə ÜDM-in strukturunu əhəmiyyətli dərəcədə xarakterizə edir. Xüsusi son istehlakın (şəxsi istehlak xərclərinin) strukturunun təhlili xüsusilə vacibdir. Uzunmüddətli əmtəələrin və xidmətlərin istehlakında böyük rolu əhalinin daha yüksək həyat səviyyəsini, ölkənin iqtisadi inkişafının daha yüksək ümumi səviyyəsini təsdiq edir. Əhalinin həyat səviyyəsinin təhlili adətən iki qarşılıqlı əlaqəli göstəricilərin: "istehlak səbəti"nin və "yaşayış minimumu"nun təhlili ilə müşayiət olunur. Həyat səviyyəsi, həmçinin aşağıdakı göstəricilər üzrə qiymətləndirilir: əmək resurslarının vəziyyəti (gələcək həyatın orta davamiyyəti, əhalinin təhsil səviyyəsi, kaloridə, protein məzmunda əsas yeyinti məhsullarının adambaşına düşən istehlakı, əmək resurslarının ixtisas səviyyəsi, əhalinin hər 10 min nəfərinə düşən şagirdlərin və tələbələrin sayı, ÜDM-də təhsilə çəkilən xərclərin payı); xidmət sferasının inkişafı (10 min nəfərə düşən çarpayıların və həkimlərin sayı, əhalinin mənzilməişət cihazları təminatı və s.). Son illər həyatın keyfiyyətini müəyyən etmək üçün dünya təcrübəsində bir çox iqtisadi və sosial göstəricilərdən, o cümlədən əhalinin həyat səviyyəsini, həyatın davamiyyətini və s. birləşdirən ölkənin ictimai inkişaf göstəricilərindən və ya indekslərindən istifadə edirlər. "Həyat üsulu" anlayışı həyat səviyyəsinin müxtəlif vasitələrini, formalarını, üsullarını xarakterizə edir. "Həyatın standartı" ("Həyat standartı") termini həyatın müəyyən "kəsiklərini", səviyyə aspektini, keyfiyyətini, ukladını, həyat üsulunu əks etdirir. Söhbət müəyyən işlənmiş normativlərdən, sabit nümunələrdən gedir.

"HƏYAT UĞRUNDA İYİRMİ HAQQ" – ölüm hallarında ömürlük sığortadır ki, bu zaman sığorta haqları müqavilənin fəaliyyət göstərdiyi ilk iyirmi il ərzində tam ödənilir.

HƏYAT DƏYƏRİ İNDEKSİ – elə indeksdir ki, ayrı-ayrı vətəndaş kateqoriyalarının istehlak səbəti tərkibinə daxil olan mal və xidmətlərin daimi yığımına münasibətdə istehlak mallarına və göstərilən xidmətlərə qiymət dinamikasını göstərir. Həyat dəyəri indeksi mallara olan qiymətlərin və göstərilən xidmətlərə tariflərin artması nəticəsində istehlak məsrəflərinin əsas hissəsinin bazar dəyərinin dövri olaraq dəyişilməsini əks etdirir.

HƏYATIN DƏYƏRİ – müvafiq vaxt çevrəsində orta statistik ev təsərrüfatında faktiki istehlak olunan nemət və xidmətlərin pul dəyəri.

HƏYATIN QARIŞIQ SIĞORTASI – şəxsi sığorta növü. Bu zaman sığorta məbləği sığorta müqaviləsinin müddəti bitdikdən sonra ödənilir, lakin bədbəxt hadisə üzündən əmək qabiliyyətinin itirilməsi, yaxud ölüm hallarında vaxtından əvvəl ödənilə bilər.

HƏYATIN SIĞORTALANMASI ÜZRƏ KREDİT – sığortalanan şəxsə müvəqqəti istifadəyə və faizin ödənilməsi şərti ilə borc verilən pul vəsaitləri. Bu cür borcun təminatı kimi sığorta polisinin özü çıxış edir.

HƏYATIN YIĞIM SIĞORTASI – sığortalının müntəzəm şəkildə ödədiyi sığorta haqlarının sığortaçıda müddətli yığım vəsaitləri kimi toplanılmasını nəzərdə tutan həyat sığortasının aparılmasının forması.

HİBRİD POLİS – xarici təcrübədə sığorta örtümünün (ödənilməsinin) iki müxtəlif tipini birləşdirən sığorta polisi.

HİFFENİN ƏMTƏƏLƏRİ – qiyməti artdıqda onlara tələbin azalmadığı əmtəələr. İngilis iqtisadçısı və statistiki Robert Hiffenin (1837-1910) adından götürülmüşdür. İqtisadi ədəbiyyatlarda "Hiffen effekti", "Hiffen paradoksu" adlandırılan bu hadisə R.Hiffen tərəfindən 1845-1849-cu illərdə İrlandiyada baş verən aclıq zamanı kartofun qiymətinin artmasına baxmayaraq, kasıb ailələrdə istehlak həcminin artmasının timsalında müəyyən edilmişdir. Buradan belə görünə bilər ki, tələb qanunu (qiymətlərin artması ilə tələbin aşağı düşməsi) pozulmuşdur. Əslində isə kartofun qiyməti ilə yanaşı, digər ərzaqların da qiyməti artdığından, yoxsul ailələr öz rasionlarındakı bahalı ərzaqları kartofla əvəz etməyə məcbur olmuşlar. Nəticədə digər ərzaqlara nisbətən kartof ucuz olduğu üçün (qiymətinin artmasına baxmayaraq) onun istehlakı artmışdır. İqtisadi təlimlər tarixində Hiffenin paradoksu ingilis iqtisadçısı C.Hiksin (1904-1989) əvəzetmə effektinin variantlarından biri hesab olunur.

HİKS XAÇI – pul və əmtəə bazarında eyni zamanda tarazlılıq göstərən kəsilən əyrilər sistemi.

HİKS CON RİÇARD (1904-1989) – britaniyalı iqtisadçı. İqtisadi tarazlıq, pul nəzəriyyəsi,



rifah nəzəriyyəsi, beynəlxalq iqtisadi münasibətlər problemlərinin işlənib hazırlanmasına əhəmiyyətli töfhəsini vermişdir. "Ümumi tarazlıq nəzəriyyəsinə və rifah nəzəriyyəsinə verdiyi yenilikçi töhfəsinə görə" 1972-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatı laureatı adına (K.Errou ilə birlikdə) layiq görülmüşdür. Oksford Universitetində riyazi və iqtisadi təhsil almışdır. 1926-cı ildən London İqtisadiyyat Məktəbində (LİM) dərs demiş, 1935-1938-ci illərdə Kembric Universitetində tədqiqat işləri ilə məşğul olmuşdur. Mançester (1939-1946) və Oksford (1952-1965) universitetlərinin professoru, 1971-ci ilə qədər Oksfordda Oll-Soulz kollecinin elmi işçisi, İsveç, İtaliya və Amerika elmlər akademiyalarının üzvü kimi fəaliyyət göstərmiş, Böyük Britaniyanın bir neçə universitetinin (Qlazqo, Mançester, Lester, Uorika və s.), eləcə də Lissabon Texniki Universitetinin fəxri doktoru seçilmişdir. Kral İqtisad Cəmiyyətinin prezidenti (1960-1962) olmuş, 1964-cü ildə zadəgan dərəcəsinə yüksəlmişdir.

Hiksin ilk əsəri olan "Əmək haqqı nəzəriyyəsi" (1932) son məhsuldarlıq nəzəriyyəsini əmək haqqının təhlilinə tətbiq etmək cəhdindən ibarət idi. Burada əmək və kapitalın qarşılıqlı əvəz olunması imkanları haqqında tezis mərkəzi yer tutur. Hiks "qarşılıqlı əvəzolunma əmsalı" anlayışını (və ya "substitusiyanın elastikliyi") – bir istehsal amilinin digəri ilə əvəz olunmasının nisbi asanlığını müəyyən edən göstəricini iqtisadi təhlilə daxil etmişdir.

İqtisadi artım və iqtisadi dinamika problemlərinin təhlilində Hiks neoklassik sintezin nümayəndəsi kimi çıxış edirdi. Onun ən əhəmiyyətli əsəri "Dəyər və kapital" (1939) kitabı idi ki, onun da istinad nöqtəsi dəyər və tələbatların subyektiv təbiəti haqqında ideyadır. Hiks gəlirin ölçüsü ilə istehlakın strukturu arasında əlaqəni əks etdirən müxtəlif tarazlıq variantlarını öyrənmişdir. Onun qurduğu "gəlirlər-istehlak" əyrisi qiymətlərin real nisbətinə uyğun gəlirdi və istehlakçının qiymətlərin və gəlirlərin dəyişməsinə cavab verməsi qanunauyğunluqlarını aşkar etməyə, eləcə də istehlakın strukturunun dəyişməsi zamanı qarşılıqlı əvəzləmə amilinin davranışını təhlil etməyə imkan verirdi. Lakin Hiksin ümumi tarazlıq nəzəriyyəsi bütövlükdə statik xarakter daşıyırdı, çünki iqtisadi dinamikanı statik tarazlığın vəziyyətinin ardıcıl sırası kimi nəzərdən keçirirdi. Hiksin təhlili xərclərin və nəticələrin öyrənilməsində nemətlərin qarşılıqlı əvəzləmə prinsipinin sonrakı tədqiqinin əsasını qoydu. Onun hazırladığı iqtisadiyyatın tarazlı (balanslı) vəziyyəti şərtləri müəyyən dəyərə malik idi ki, bunu da J.Debryo və K.Errounun sonrakı tədqiqatları təsdiq edirdi. Hiksin dinamik konsepsiya anlayışlarından biri olan "Müvəqqəti tarazlıq" anlayışı hazırda nəzəri makroiqtisadiyyatda geniş istifadə olunur.

C.M.Keynsin "Pul haqqında traktat" əsərinin bilavasitə təsiri altında Hiks pulun tədqiqinə müraciət etdi. "Cənab Keyns və klassiklər" (1937) məqaləsi vaxtilə xeyli rezonans doğurmuşdu. Bu məqalədə Hiks sonradan bütün makroiqtisadiyyat dərsliklərinə daxil edilmiş "Kapital qoyuluşu üçün qənaət – pul bazarı (KQ-PB)" diaqramını təqdim etmişdi. 50-60-cı illərdə Hiks tətbiqi iqtisadiyyatın, beynəlxalq ticarətin, Böyük Britaniya vergi sisteminin, inkişaf etməkdə olan ölkələrin problemlərini işləyib hazırladı. Həmin dövrün ən əhəmiyyətli əsəri "Kapital və artım" (1965) kitabı idi. Bu kitabdan müqayisəli dinamika anlayışı, sabit və optimal inkişaf yollarının öyrənilməsi üçün istifadə olunurdu və təhlilə "təsbit olunmuş" və "çevik" qiymətli bazar konsepsiyası daxil edilmişdi. Hiks "İqtisadi tarix nəzəriyyəsi"ndə (1969) və "Kapital və zaman" (1973) kitabında yeni texnologiyanın yayılması və bu prosesin iqtisadi artıma təsiri nöqteyi-nəzərindən iqtisadi tarixin təhlilinə öz konsepsiyasını tətbiq etdi.

HİKS MEYARI – bu, bir nəticədir və burada göstərilir: əgər istehsal amillərinin nisbəti dəyişirsə, o zaman əvəzetmənin

elastikliyi də dəyişir. Məsələn, əgər istehsal amillərinin nisbəti dəyişməz qalarsa, əvəzetmənin elastikliyi sabitdir. Bu cür elmi-texniki tərəqqi (ETT) neytral adlanır və sabit elastik əvəzetmə ilə istehsal funksiyasını təsvir edir. Əgər kapital əmək məsrəfləri artımı hesabına əvəz olunursa, onda ETT kapital qoruyucu adlanır. Bu cür ETT dəyişən elastik əvəzetmə ilə istehsal funksiyasını təsvir edir.


HİMAYƏDAR (ing. *Trustee)* – investorların (benefisiarların) maraqlarını təmsil etməyə səlahiyyəti olan üçüncü şəxs, adətən xüsusi trast şirkəti və ya bankın struktur bölməsi. Seküritizasiya (qiymətli kağızlarla əqdlər) zamanı himayədar əqdin həyata keçirilməsində müəyyən həlledici qərarları qəbul etmək hüququna malikdir; o, nağd pul hərəkətlərinə nəzarət etmək və təminat kimi qoyulmuş aktivlərə dair girov hüququndan istifadə etmək ixtiyarına malik ola bilər.

HİPERİNFLYASİYA (yun. *hyper* – üzərində, yüksək; lat. *inflatio* – şişmə, köpmə) – pul tədavülü sisteminin tam dağılmasının (sıradan çıxmasının) doğurduğu və qiymətlərin fasiləsiz və sürətli artımında təzahür olunan pulun kəskin surətdə qiymətdən düşməsi prosesi. Başqa sözlə, həddən artıq yüksək inflyasiyadır ki, bu da ictimai istehsala dağıdıcı təsir göstərir və ölkənin iqtisadi sabitliyinə təhlükə törədir. Xarici əlamətlər – ayda 50 və daha yüksək faiz təşkil edən sürətli qiymət artımı; qiymət artımının idarə edilməməsi, onun üzərində dövlətin nəzarətinin itirilməsidir. Daha dərin səbəb – istehsalın həcminin kəskin surətdə aşağı enməsində, təsərrüfat əlaqələrinin qırılmasında, idarəetmə qabiliyyətinin itirilməsində, büdcə kəsirinin həddən artıq yüksək olmasında, ictimai istehsalın maddi-əşya və dəyər strukturunun artan uyğunsuzluğunda təzahür olunan iqtisadi böhrandır.



1921-1923-cü ildə Almaniyada orta inflyasiya dərəcəsi gündə 25% olmuşdur

Vermaxt Almaniyasında hiperinflyasiya
Qızıl markanın kağız marka ilə dəyəri



Sxem 1

1923-cü ildə Almaniyada baş vermiş inflyasiya hiperinflyasiyaya nümunədir. O ayda 3,25 mln. % (qiymətlər hər 49 saatdan bir 2 dəfə artırdı) təşkil edirdi.

1923-cü ildə qiymətlər necə artırdı (alman markası ilə):


	Yanvar 1923	İyun 1923	Noyabr 1923
1 yumurta	139	793	320 mlrd.
1 litr süd	241	1380	280 mlrd.
1 kq yağ	5500	30300	600 mlrd.
çovdar çörəyinin 1 kq	306	1253	470 mlrd.

1 ABŞ dollarının alman markasında dəyəri

Tarix	1 ABŞ dolları alman markası ilə
1 yanvar 1920	50 marka
1 yanvar 1921	75 marka
1 yanvar 1922	190 marka
1 iyul 1922	400 marka
1 avqust 1922	1000 marka
1 dekabr 1922	7000 marka
1 yanvar 1923	9000 marka
1 iyun1923	100 000 marka
1 sentyabr 1923	10 000 000 marka
10 oktyabr 1923	10 000 000 000 marka
25 oktyabr 1923	1 000 000 000 000 marka
15 noyabr 1923	4 200 000 000 000 marka



Hiperinflyasiyanın sosial-iqtisadi nəticələri dağıdıcıdır. Əməyin nəticələri qiymətdən düşür, fiziki və hüquqi şəxslərin pul yığımları faktiki olaraq məhv olur, puldan fəal yaxa qurtarma prosesi baş verir ki, bu da inflyasiyanın yenidən sürətlənməsinə gətirib çıxarır. Bütün pul sistemi dağılır, maliyyə resursları möhtəkirlik və ticarət vasitəçilik əməliyyatlarına yönəldilir, milli valyuta daha çox xarici valyuta ilə əvəz olunur, kapitalın xaricə axını kəskin surətdə artır, barter əməliyyatları daha da sürətlənir. Hiperinflyasiya ticarət-maliyyə fəaliyyəti ilə məşğul olan əhalinin ən varlı təbəqəsinin xeyrinə milli sərvətin sürətli yenidən bölgüsünə təsir göstərir. Əks qütbdə yoxsulluq artır, bununla da cəmiyyətin kəskin surətdə sosial təbəqələşməsini şərtləndirir. Hiperinflyasiya ilə müxtəlif üsullarla mübarizə aparmaq olar, lakin yeganə real yol istehsalın bərpa edilməsi və onun səmərəliliyinin yüksəldilməsidir. Hiperinflyasiya zamanı sahibkarların səyləri təkcə istehsal fəaliyyətinə yox, həm də möhtəkirlik fəaliyyətinə yönəldilir. Xammal və hazır məhsul gələcəkdə qiymətlərin yüksəlməsi gözlənildiyindən "ehtiyat üçün" yığılır.



2008-ci ildə Zimbabvedə inflyasiya 231 milyon faizə çatmışdı

İnflyasiya gözləntiləri istehsalın həcminin azalmasına gətirib çıxarır ki, bu da qiymətlərin artımı ilə kompensasiya edilir. İnvestisiyalar azalır, belə ki, kapitallara malik olanlar onları inflyasiyaya məruz qalmayan maddi dəyərlərin – qızılın, qiymətli metalların, əşyaların və s. alınması üçün xərcləyir. Pul qiymətdən düşür və özünəməxsus dəyər ölçüsü və tədavül vasitəsi funksiyasını artıq yerinə yetirə bilmir. Bir sıra hallarda hiperinflyasiya ekstra ordinar hadisələrin – müharibələrin, siyasi inqilabların, ərazi dəyişikliklərinin nəticəsi kimi də çıxış edir. Hiperinflyasiyanın ən dağıdıcı nəticəsi – uzunmüddətli investisiyaların planlaşdırılmasının qeyri-mümkünlüyüdür ki, bu da ölkənin iqtisadi inkişafına mənfi təsir göstərir. Hiperinflyasiya şəraitində dəyərinin sürətlə düşməsinə məruz qalan yığımların (qənaətlərin) sahibləri, pulu borc verən kreditorlar xeyli itkilərə məruz qalırlar. Bununla yanaşı, çiçəklənən korporasiyaların menecerləri, daşınmaz əmlaka pul qoyan vətəndaşlar daha çox udurlar.

HİSS EDİLMƏDƏN QAYDAYA SALMA – eyni malın satışı üçün bazarın digər məqsədli seqmentinin seçilməsi.

HİSS EDİLMƏZLİK – müəyyən xidmətlərin səciyyəvi xüsusiyyəti. Bu da ondan ibarətdir ki, onlara toxunmaq, onları görmək, dadmaq və ya iyləmək mümkün deyil.

HİSS OLUNMAYAN AKTİVLƏR – əşya formasına malik olmayan, lakin hiss edilməyən dəyərə malik olan və buna görə də firmaya əlavə gəlir gətirən aktivlər. Hiss edilməyən aktivlərə istehlakçı kapitalı (və ya təşkilatla onun məhsullarının istehlakçıları arasında münasibətlər) və firmanın struktur kapitalı aid edilir. Sonuncunun tərkibinə texnologiyalar, ixtiralar, məlumat bazaları, sənədli şəkildə rəsmiləşdirilə və hüquqi baxımdan müdafiə edilə bilən proseslər daxildir. Buraya həmçinin təşkilat strategiyası və təşkilat mədəniyyəti, struktur və sistemlər, təşkilat prosedurları və s. aiddir.

HİSSƏ SERTİFİKATI – səhmlərin nominal dəyəri onların birja məzənnəsinə müvafiq olmadığı halda həmin səhmlərin saxlayıcısının onların nominal dəyərinə mütənasib gəlir almaq hüququnu təsdiq edən sənəd.


HİSSƏ-HİSSƏ ÖDƏNİŞİ NƏZƏRDƏ TUTAN POLİS – elə polisdir ki, bu zaman sığorta məbləği, iddiaların qoyulması (irəli sürülməsi) anından başlayaraq hissə-hissə ödənilir.

HOFMAKLER – birja üzvləri tərəfindən birja maklerləri sırasından müəyyən müddətə seçilən fond və ya əmtəə birjasının böyük makleri. Hofmakler birjadakı maklerlərin fəaliyyətinə nəzarət edir və birja yığıncağının sonuna birja komissiyası üçün baş tutan sövdələşmələrin kursları göstərilməklə sərbəst kurs yazısı tərtib edir. Hofmakler birja komitəsinin tərkibinə daxildir.

HOLDİNQ (ing. *to hold* – tutmaq) – səhmdar cəmiyyətlərinin idarə edilməsi və onların fəaliyyətinə nəzarət edilməsi məqsədi ilə bir və ya bir neçə səhmdar cəmiyyətinin nəzarət səhm paketinə sahib olan səhmdar cəmiyyəti. Holdinq şirkətinin 2 tipi mövcuddur: idarəetmənin vəhdətini təmin etmək üçün nəzarət-maliyyə funksiyasını yerinə yetirən xalis holdinq və müəyyən sahibkarlıq fəaliyyəti ilə: maliyyə-kredit, sənaye, ticarət, nəqliyyat fəaliyyəti ilə məşğul olan qarışıq holdinq.

Holdinq sənayedə, bank sferasında, eləcə də sənaye və maliyyə kapitalının inteqrasiyası yolu ilə yaradılır. Belə ki, sə-

Holdinqin nümunəvi modeli



Sxem 1

naye korporasiyası kommersiya bankı təsis edə və onun səhm paketinə nəzarət edə bilər. Lakin əks vəziyyət də mümkündür. Bu isə sənaye müəssisəsinin nəzarət səhm paketinin maliyyə institutu kimi banka, investisiya (və ya digər) fonduna, sığorta şirkətinə məxsus olduğu zaman mümkündür. Eyni zamanda işlədikləri sahədən (sferadan) asılı olmayaraq, bir-birinin nəzarət səhm paketinə bir neçə korporasiyanın ayrıca yiyələndiyi hallar da ola bilər. Holdinq iştirak sistemi adlanan sistemin mühüm halqasıdır ki, bunun köməyi ilə maliyyə şirkətləri onların öz kapitallarından dəfələrlə çox olan kapitala malik formal müstəqil firmaları özünə tabe etdirir. Xarici nöqteyi-nəzərdən holdinqin fəaliyyəti səhm paketinin idarə edilməsindən və birja əməliyyatlarından daxil olan gəlirlərin yığılmasından ibarətdir. Əslində, hər hansı bir şirkətin nəzarət paketini zəbt edən holdinq öz adamlarını idarə heyətinə, direktorlar şurasına və onun nəzarətində olan digər təşkilatlara təyin etmək imkanı əldə edir. Digər şirkətlərə nəzarətin müəyyən edilməsi prosesində holdinq səhmlərin adi (səs hüququna malik olan) və imtiyazlı (səs hüququna malik olmayan) formalara ayrılması və onların birjada satışı mexanizmindən istifadə edir. Geniş ictimaiyyət üçün holdinq şirkəti əsasən dividend almaq hüququna malik olan imtiyazlı səhmləri satır. Xüsusi çəkisi az olan səs hüququna malik adi səhmlər bu şirkətdə marağı olan şəxslər arasında yayılır, eləcə də şirkətin

əlavə səslərinə zərurət yarandığı halda ehtiyata qoyulur. Holdinq şirkəti imtiyazlı səhmlərin satışı yolu ilə səfərbərliyə alınmış kapitalı nəzarət etmək niyyətində olan firmalara yönəldir. Bu halda o, adi səhmləri alır. Bu cür əməliyyat nəticəsində nisbətən az xüsusi kapitalın köməyi ilə holdinqə müstəqil firmaların xeyli kapitalına nəzarət etmək imkanı yaranır.

Holdinqin təşkili forması texniki cəhətdən əlverişlidir, ayrı-ayrı müəssisənin yox, bütün qrupun mənafeyini qoruyaraq bir qrup tərəfindən müəssisələrə, onların təsərrüfat siyasətinə rəhbərlik etməyə, qiymətləri nəzarətdə saxlamağa imkan verir. Bir çox ölkələrdə korporasiya nəzarəti müəyyən xüsusiyyətlərə malikdir. ABŞ sənayesində holdinq strukturları, əsasən, istehsal korporasiyalarının üfüqi, şaquli və ya sahə inteqrasiyası yolu ilə yaradılır. ABŞ-da Holdinqin formalaşması bir korporasiyanın digər korporasiya üzərində səhm nəzarəti ilə əlaqədardır. ABŞ qanunvericiliyinə görə, birləşdirilmiş korporasiya müstəqil hüquqi şəxsə deyil, şirkətə birləşdirilən filiala çevrilir. ABŞ-da kommersiya bankları, demək olar ki, heç bir zaman sənaye müəssisələrinə səhm nəzarətini həyata keçirmir, lakin bəzən sənaye müəssisələrinin nəzarət paketlərinin qeyri-bank maliyyə institutlarına məxsus olduğu hallar da mövcuddur. Buna misal olaraq, pensiya fondunu göstərmək olar. Bu fonda ABŞ-da məşhur olan "Sirz Robak" ticarət şirkətinin nəzarət paketi məxsusdur. Bəzi məşhur ABŞ sənaye şirkətlərinə sığorta şirkətləri, hətta xeyriyyəçi fondlar tərəfindən nəzarət olunur. Çox zaman bu cür strukturlar xarici iri şirkətlərin müdaxiləsindən qorunmaq məqsədilə korporasiyanın özü tərəfindən yaradılır. ABŞ-ın bank sferasının holdinq strukturları geniş filiallar şəbəkəsinə malikdir. ABŞ təcrübəsində həmin bank tərəfindən bir və ya bir neçə kommersiya bankına nəzarət edilməsindən asılı olaraq birbanklı və çoxbanklı holdinqlər fərqləndirilir.

Qərbi Avropada holdinq nəzarətinin digər modeli təşəkkül tapmışdır. Avropa İttifaqının bir sıra ölkələrində, xüsusilə Almaniyada və Fransada kommersiya bankları sənaye şirkətlərinin udulması və nəzarət edilməsi proseslərində böyük rol oynayır. Yaponiyada və Cənubi Koreyada kəsişən sahibkarlıq sisteminin doğurduğu bank və sənaye kapitalının sıx çulğalaşması müşahidə olunur. Bundan əlavə, Cənubi Koreyada sənaye müəssisələrinin kapitalında dövlətin üstün iştirakı olan holdinqlər geniş yayılmışdır.

Rusiyada holdinq strukturlar istehsal müəssisələrinə nəzarət edən sahə nazirliklərinin səhmdar cəmiyyətinə çevrilməsi yolu ilə, eləcə də sənaye müəssisələrinin üfüqi və şaquli inteqrasiyası yolu ilə formalaşmışdır. Azərbaycanda iqtisadiyyatın bir sıra sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan holdinq şirkətləri fəaliyyət göstərir.

Onların da bəziləri haqqında aşağıda müvafiq məlumatlar verilmişdir:

"Gilan Holding" – "Gilan" sözü Naxçıvan Muxtar Respublikasının Ordubad bölgəsində, Gilan çayının Araz çayına qovuşduğu yerdə yerləşən, "Xaraba Gilan" adlanan, qoynu sirlərlə dolu qədim yaşayış məskəninin – Gilan şəhərinin adından götürülmüşdür. Arxeoloji tədqiqatlar burada hələ 4000-4500 il əvvəl inkişaf etmiş cəmiyyət olduğunu sübut edir. Qədim sivilizasiyanın nadir nümunələrindən olan, sonralar müharibələr və təbii fəlakətlər nəticəsində xarabazarlığa çevrilən bu şəhərdə Azərbaycan xalqının zəngin tarixi "yatmaqdadır".

"Gilan" şirkəti hələ 1988-ci ildə, SSRİ zamanında "İrs" adı ilə kooperativ şəklində yaradılmış və ilk fəaliyyətinə başlamışdır. Müstəqillik əldə edildikdən sonra – 1992-ci ildə fəaliyyətini əvvəlcə Naxçıvanda genişləndirməyə başlamış və daha sonra bütün Azərbaycana yayılmışdır. Xüsusilə, 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra şirkət fəaliyyət sahələrini sürətlə genişləndirmiş və ölkədə aparıcı şirkətlərdən biri olmuşdur.

Şirkət 1994-cü ildə "Gilan İstehsalat Kommersiya" şirkəti, 2004-cü ildə isə "Gilan" Məhdud Məsuliyyətli Cəmiyyəti adlandırılmışdır.

Sürətlə inkişaf edən "Gilan" MMC istehsalın rəqabət qabiliyyətini və səmərəliliyini yüksəltmək, əlverişli texnoloji və kooperasiya əlaqələri yaratmaq, ixracat potensialını artırmaq və elmi-texniki tərəqqini sürətləndirmək məqsədilə 2005-ci ildə onlarca şirkətlə birlikdə "Gilan Holding" Maliyyə-Sənaye Qrupunu yaratmışdır.

"Gilan Holding" regionlarının sosial-iqtisadi inkişafını əhatə edən dövlət proqramlarını rəhbər tutaraq müəssisələrinin xeyli hissəsini məhz regionlarda açmışdır.

Holdingin tikinti materialları üzrə "Pasifik", ərzaq və qida məhsulları üzrə "Jalə", "Aycan", "Bağban", spirtli içki və şərablar üzrə "Nazlı", "Qəbələ şərabı", musiqi alətləri, pianinolar üzrə "Beltmann" və s. əmtəə nişanları nəinki Azərbaycan iqtisadi məkanında, hətta dünya bazarında məşhurdur. Məhsulların hamısı müasir texnologiyalara əsaslanan sənaye müəssisələrində istehsal edilməklə beynəlxalq standartlara uyğunluğu təmin edilmişdir.

Holdinq dünyanın inkişaf etmiş ölkələrinin, xüsusilə, Avropanın holdinq təşkilatları, böyük şirkətlər qrupu ilə əməkdaşlıq edir, birgə layihələrin hazırlanmasını və icrasını həyata keçirir.

Holdinqin tərkibində bank, sığorta və turizm şirkətləri ilə yanaşı, "Qəbələ" adlı peşəkar futbol klubu da fəaliyyət göstərməkdədir.

Prezident İlham Əliyevin fəxrlə qeyd etdiyi kimi, "Azərbaycanın iqtisadiyyatı çox uğurla və hərtərəfli inkişaf edir. "Gilan Holding" Maliyyə-Sənaye Qrupu da bu inkişafın bariz nümunəsidir".

Holdingin əsas fəaliyyət sahələri aşağıdakılardır: müxtəlif növ tikinti materiallarının istehsalı; meyvə şirələrinin, meyvə və tərəvəz konservlərinin istehsalı; inşaat işləri, yaşayış və qeyri-yaşayış sahələrinin tikintisi; lift istehsalı; un və un məmulatları, taxıl və toxumluq məhsulların istehsalı; süd və süd məhsullarının istehsalı; fındıq emalı, zeytun istehsalı və emalı; spirtli içkilər, şərab istehsalı; dəri və dəri məmulatlarının istehsalı; yüngül sənaye məhsullarının istehsalı; karton tara istehsalı və paketləmə; restoran və mehmanxanalar; ticarət və müxtəlif xidmət sahələri; musiqi alətləri, pianinoların istehsalı; mebel istehsalı və dekorasiya fəaliyyəti; turizm fəaliyyəti; bank fəaliyyəti; sığorta fəaliyyəti.

Holdinqə daxil olan ən böyük müəssisələr, istehsal və xidmət sahələri: "Gilan" MMC; "Gilan İnşaat" MMC; "Gilan Dəri" MMC; "Gilan Piano" MMC; "Gilan Turizm" MMC; "Gilan Tea" MMC; "Gilan Zeytun" MMC; "Gilan Lift" MMC; "Gilan Plastik" MMC; "Gilan Qəbələ Konserv Zavodu" MMC; "Gilan Lənkəran Konserv Zavodu" MMC; "Gilan & Knauf gipso karton" MMC; "Gilan Pasifik İnşaat Materialları" MMC; "Gilan Qəbələ Beton Zavodu" MMC; "Aqro-Azərinvest" MMC; "Şərgi Co. Ltd." MMC; "Alko Ltd., Azər Spirt" MMC; "Lotos Co. Ltd." MMC; "AFB Bank" ASC; "Azsığorta" ASC; Qafqaz Resort otel Qəbələ (5 ulduz); Qafqaz Riverside otel Qəbələ (5 ulduz); Kempinski Badamdar otel Baku (5 ulduz); Qəbələ Tikinti Materialları İstehsalı Müəssisəsi; Qaradağ Kərpic Zavodu; Goranboy Gips Zavodu; süd emalı zavodları (Zaqatala, Qəbələ, Tərtər, Ağcabədi, Tovuz).

"Aqro-Azərinvest" Məhdud Məsuliyyətli Cəmiyyət – "Aqro-Azərinvest" MMC – 2004-cü ildə "Gilan Holding" şirkətlər





PACIFIC

TİKİNTİ MATERİALLARI

qrupu tərəfindən təsis edilmişdir. Müəssisənin əsas məqsədi ən yeni dünya nailiyyətlərini nəzərə almaqla Azərbaycanda üzümçülük və şərabçılığın şöhrətini bərpa etməkdən ibarətdir. Müəssisə uzunmüddətli proqrama uyğun olaraq, ənənəvi üzüm yetişdirilən bölgələrdə (Göygöl, Samux, Tovuz, Yevlax, Qəbələ, Lənkəran) yeni üzümlüklərin salınmasını həyata keçirir. Bu sahələrdə xarici ölkələrdən gətirilmiş elit üzüm sortları əkilmişdir.

Müəssisədə hazırda ənənəvi Azərbaycan şərabları – "Mədrəsə", "Ağstafa", "Şamaxı", "Alabaşlı", "Şahdağ", "Bayan Şirə", "Kürdəmir", "Ağdam" portveyni ilə yanaşı, müəssisənin öz adına qeydiyyata alınan yeni əmtəə nişanları "Qəbələ", Nazlı", "Starıy dvorik", "Domaşniye vino", "Qəbələ vadisi", "Bahar", "İskəndər", "Leyli", "Gözəl", "Şamaxı salxımı", "Şah" seriyalı şərablar, müxtəlif saxlanma müddətli "Həyat", "Gold Baku", "Sindbad" konyakları istehsal olunur. Müəssisə lizinq müqaviləsi əsasında xarici şirkətlərə məxsus brendlər altında konyak istehsal edir. "Arqus", "Vəzir" və "Babək" əmtəə nişanları altında istehsal edilən konyaklar Rusiya bazarlarına ixrac olunaraq uğurla satılır.

AQRO-AZƏRİNVEST
MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT

Müəssisədə "Padşah" seriyasından olan abqora, narşərab və nar şirəsi istehsal olunur. "Aqro-Azərinvest" MMC konyak məhsulları ixracında Azərbaycanda 1-ci yeri tutur. Müəssisə xarici iqtisadi əlaqələrini daha da artıraraq Rusiya, Ukrayna, Belarus və Qazaxıstanla ticarət əlaqələri yaratmış, Avropa İttifaqı, Asiya, Şərq və digər ölkələrin şirkətləri ilə çoxsahəli əlaqələrin yaradılması istiqamətində iş aparır.

Müəssisə öz şərablarının keyfiyyətini beynəlxalq standartların tələbləri səviyyəsinə çatdırmaq üçün Fransanın dünya şöhrətli "Mouris Enologiya" laboratoriyası və "Version Originale", "Raoul Domec" dizayn şirkətləri, İtaliyanın "Bormioli Luigi" şirkəti ilə və Krımın "Maqaraç" (Yalta) Üzüm və Şərab Milli İnstitutu ilə sıx əməkdaşlıq edir.

"Paşa" Holding – sığorta, bankçılıq, səyahət və turizm, tikinti-inşaat və digər biznes sahələrində fəaliyyət göstərən investisiya şirkətidir. Holding Azərbaycanda son illər ərzində yaradılan ən iri şirkətlərdən biridir. 2006-cı il 1 noyabr tarixdən fəaliyyətə başlayan şirkət işini beynəlxalq biznes standartları – effektiv menecment, korporativ idarəetmə və düşünülmüş investisiya qərarları əsasında qurur.

"Paşa" Qrupa aşağıdakı əsas bölmələr daxildir: "Paşa" Sığorta, "Paşa" Həyat, "Paşa" Bank, "Paşa" Travel, "Paşa" İnşaat.

"Paşa" Bank 2007-ci ilin iyun ayında yaradılmışdır. Azərbaycan Respublikası Mərkəzi Bankın 2007-ci il 28 noyabr tarixli 250 saylı lisenziyası əsasında fəaliyyət göstərir. 2010-cu ilin yekunlarına əsasən Bank nizamnamə kapitalının həcminə görə (115,4 mln. AZN) respublikada ikinci bank olmuşdur. Gəlirlilik və aktivlərin həcmi baxımından bank yerli bazarda 5-ci yeri tutur. 2010-cu ilin dekabr ayına olan məlumata görə bankın aktivləri 512,3 mln. AZN-ə çatmışdır.

"Paşa" Sığorta Azərbaycanın aparıcı sığorta şirkətlərindən biridir. 2006-cı il 3 mart tarixdə qeydiyyata alınmışdır. "Paşa" Sığorta 30 mln. AZN həcmində nizamnamə kapitalı olan açıq səhmdar cəmiyyətidir. Aktivlərinin cari dəyəri 43 mln. AZN təşkil edən şirkət kapitalizasiya səviyyəsinə və risklərdən qorunma imkanlarına görə Azərbaycanda lider sığorta şirkətinə çevrilmişdir. Şirkət öz fəaliyyətini həm korporativ, həm də fərdi müştərilərlə qurmaq vasitəsilə 31 növdə icbari və könüllü sığorta xidmətləri göstərir.

"Paşa İnşaat" şirkəti 2006-cı ilin noyabr ayında fəaliyyətə başlayıb. Tikinti layihələrinin işlənib hazırlanması və inşaat üzrə bütün növ xidmətlər göstərən aparıcı şirkətdir. Bakı şəhərində bir neçə möh-təşəm layihələri ye- rinə yetirib və digər nüfuzlu layihələri hazırda yerinə yetirməkdədir. Şirkətin nizamnamə kapitalı 10,4 mln. AZN təşkil edir. "Paşa İnşaat" şirkətinin layihələr portfelində 1000000 kv.m həcmində layihələr mövcuddur. Burada mütəxəssislər yaşayış binaları, ticarət və ofis mərkəzləri, hotellər və s. irimiqyaslı layihələr üzərində çalışırlar. Layihələri müvəffəqiyyətlə həyata keçirmək üçün şirkət ən tanınmış memar və inşaatçıları əməkdaşlığa dəvət edir. Başa çatmış layihələr sırasında "Şüvəlan Ticarət Mərkəzi", "Nizami Rezidens", "Bakı Biznes Mərkəzi", "Çinar" restoranı vardır. "Şüvəlan Ticarət Mərkəzi" Azərbaycanda beynəlxalq standartlara cavab verən ilk ticarət mərkəzidir və onun inşaası 2008-ci ildə başa çatmışdır. Bakı ətrafında yerləşən ticarət mərkəzində "Guess Kids", "Apple", "Benetton", "Ramstore", "McDonald's" və s. dünya bazarında tanınmış ticarət nişanları altında çalışan obyektlər fəaliyyət göstərir. "Nizami Residenc" dinamik, ambisiyalı ev sahiblərinə yeni şəhər həyat tərzi konsepsiyasını təqdim edir və Bakının mərkəzində dəbdəbəli yaşayış məkanını istehlakçılara təklif edir. Həmin konsepsiya dünyanın bir çox yerində simvolik binaları layihələşdirmiş ABŞ memarları tərəfindən hazırlanıb. Geniş konsyerj xidmətlərindən başqa binada daxili hovuz, fitnes-mərkəz, sauna və bina sakinlərinin tam istirahətini təmin edən gü-



PASHA Holding
PASHA Bank
PASHA Travel
PASHA Insurance
PASHA Construction

nəşə açıq göyərtəsi vardır. Bakı Biznes Mərkəzi – milli məhsulların və xidmətlərin inkişafı və tanınması üçün inşa olunan biznes və sərgi mərkəzidir. Bu layihə 2009-cu ildə İqtisadi İnkişaf Nazirliyinə təhvil verilmişdir. Şirkətin cari layihələrinə "Port Baku Towers", "Abşeron BM Marriott Hotel" və "Reibs", "Four Seasons Hoteli", "Port Baku Rezidens" aiddir. Gələcəkdə "Amburan Marriott Beach Resort" layihəsini reallaşdırmaq və uğurla tamamlamaq planlaşdırılır.

"Paşa Həyat" – 2010-cu ilin sonunda yaradılmışdır. Şirkətin nizamnamə kapitalı 7 mln. AZN təşkil edir. "Paşa Həyat" şirkəti müxtəlif sığorta proqram və növlərini təklif edir. Şirkət Azərbaycanda "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta"nı həyata keçirən şirkətlərdən biridir.

"Paşa Səyahət" – 2003-cü ildə yaradılmışdır. Turizm və səyahət xidmətləri sahəsində Azərbaycan Respublikasında aparıcı şirkətdir. Ötən illər ərzində şirkət işgüzar və şəxsi səyahətlərə çıxan hüquqi və fiziki şəxslərin etibarlı, peşəkar tərəf müqabilinə çevrilmişdir.

"Cahan Holding" Kommersiya Şirkətləri İttifaqi – 1995-ci ildə təsis edilmişdir. Holdingin tərkibində fəaliyyət göstərən müəssisələrdə əsasən tikinti materialları, plastik məmulatlar, panel radiatorlar, dam

örtükləri, elastik və plastik borular, lambrin, karniz, çay, siqaret və tütün məmulatları istehsal olunur. Holdinq avtomobillərin satışı və servis xidməti ilə də məşğul olur. Holdinqin tərkibində aşağıdakı müəssisələr fəaliyyət göstərir: "Cahan Pen" MMC, "Cahan Tea" MMC, "Cahan Tobacco" MMC, "Cahan Sənaye Kompleksi" ASC, Tütün Fermentasiya Zavodu, Panel Radiator və Dam Örtükləri İstehsalı Zavodu, "Cahan İnşaat" MMC və "Cahan" Ticarət Mərkəzi.

"Cahan Holdinq"in istehsal müəssisələrinin əksəriyyəti Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərir. "Cahan Holdinq" dünya şöhrətli "JTI", "Akbar", "Opel", "Red Bull", "Habanos", "KT&G", "Wyndham Hotel Group", "Alokozay" və "Ahmad" kimi biznes strukturları ilə əməkdaşlıq edir. Holdinqin İran, BƏƏ, Türkiyə, Almaniya, Qazaxıstan və Çində nümayəndəlikləri fəaliyyət göstərir.

"Nəqşicahan Holding" Ltd. Şirkətlər Qrupu – 1998-ci ildə təsis edilmişdir. Şirkətlər qrupunun nəzdində "Karbon Qazı Zavodu" ASC, "Badamlı Mineral Sular Zavodu" MMC, 5 ulduzlu "Təbriz Mehmanxanası" ASC, "Qrand-Naxçıvan" mehmanxanası, kafelər, restoran, yanacaqdoldurma məntəqələri, avtosalon və bazar kompleksi fəaliyyət göstərir.

"Gəmiqaya Holding" Şirkətlər İttifaqi – 2003-cü ildə təsis olunmuşdur. Holdingin nəzdində beton məmulatları, mərmər, dekorativ və tikinti daşları, tikinti materialları, dəmir konstruksiyalar, kərpic, mebel, qapı və pəncərə, mineral süfrə suları, unlu-qənnadı, çörək məhsulları, təbii meyvə şirələri, şərab, halva, çərəz, quru meyvələr hazırlanır, eləcə də yüksək keyfiyyətli tikinti, avtoservis və turizm xidmətləri həyata keçirilir. Şirkət bir çox mükafatlara layiq görülmüşdür. O, istehsal etdiyi məhsulların xaricdə satışını təşkil edir. Holdinqin tərkibinə bir çox müəssisələr daxildir.

"Gəmiqaya Bərəkət Qida Məhsulları" MMC 2004-cü ildə yaradılmışdır. Burada Türkiyə mənşəli un dəyirmanı, çörəkbişirmə sexi, İtaliya mənşəli makaron istehsalı sexi, ABŞ və Almaniya mənşəli süd emalı sexi, Almaniya və Avstriya mənşəli ət məmulatları istehsalı sexləri fəaliyyət göstərir.

"Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" MMC 2006-cı ildə Naxçıvan şəhərində yaradılmışdır. Müəssisədə quraşdırılmış müasirtipli Almaniya və İtaliya mənşəli avadanlıqların hesabına, o cümlədən, alma, şaftalı, gilənar, nar, portağal, ərik, üzüm və qarışıq meyvə şirələri, yüksək keyfiyyəti ilə seçilən ağ və qırmızı süfrə şərabları, müxtəlif çeşidli unluqənnadı məmulatları, Şərq şirniyyatları və quru meyvələr istehsalına nail olunmuşdur.

Müəssisədə taxıl və un məhsullarını saxlama terminalı fəaliyyət göstərir.

2004-cü ildə Babək rayonunun Çeşməbasar kəndində yaradılan "Gəmiqaya Kərpic Kompleksi" MMC muxtar respublikada inşaat materiallarına olan tələbatın ödənilməsində mühüm əhəmiyyət kəsb edir.


"Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC 2006-cı ildə Babək rayonunun Araz kəndində yaradılmışdır. Türkiyə və İtaliya mənşəli texnoloji avadanlıqlar hesabına standartlara uyğun müxtəlif çeşiddə və formada travertin üzlük plitələr, travertin bordürlər, travertin bloklar, cilalanmış üzlük daşlar istehsal olunur.

"Gəmiqaya Beton Məmulatları Kompleksi" MMC 2005-ci ildə Babək rayonunun Qoşadizə kəndində yaradılmışdır. Müəssisədə beton, qum-çınqıl, qırmadaş, kilit daşı, səki daşları, yağış suyu kanalları istehsal olunur. Müəssisədə istehsal olunan məhsullar uyğunluq sertifikatı ilə təmin edilmişdir.

"Sirab" Mineral Sular Zavodu – Naxçıvan Muxtar Respublikası Babək rayonunda yerləşən "Sirab" zavodu müasir texnologiyaların nailiyyətlərindən istifadə olunaraq tamamilə yenidən qurulmuşdur. Müasir avadanlıqlardan istifadə nəticəsində



Badamlı Mineral Sular Zavodu



Naxçıvan Avtomobil Zavodu (NAZ)

təbiiliyi qorumaq şərti ilə işlərinin sürətlənməsi və əl əməyindən istifadənin minimuma endirilməsi istehsal gücünün artmasına səbəb olmuşdur. Zavodda hər birinin istehsal gücü saatda 8000 ədəd olan 3 xətt, istehsal gücü saatda 3000 ədəd olan 1 xətt, istehsal gücü saatda 6000 ədəd olan daha 1 xətt mövcuddur. Hal-hazırda 150 nəfər işçisi olan "Sirab" zavodu yüksək beynəlxalq standartlara cavab verən müalicəvi süfrə suyu olan "Sirab" mineral mədən sularını istehsal edərək, yerli bazarla yanaşı, Rusiya Federasiyasına, Ukrayna, Türkiyə və İran İslam Respublikasına ixrac etməkdədir. Babək "Sirab" ASC 2005-ci il may ayında İsveçrənin Cenevrə şəhərində "Biznesdə Yüksək Keyfiyyətə görə" Qızıl medalına layiq görülmüşdür. Həmçinin, Babək "Sirab" ASC 2008-ci ilin fevral ayında ISO 9001:2000 Beynəlxalq Sertifikatını almışdır.

Naxçıvan Avtomobil Zavodu (NAZ) – 2009-cu ilin may ayında Pekində keçirilən Çin-Azərbaycan biznes-forumu çərçivəsində Naxçıvan Avtomobil Zavodu və Çinin "CHONGQING LIFAN INDUSTRY (GROUP) IMP. & EXP. CO., LTD." Avtomobil Korporasiyası arasında əməkdaşlıq sazişi imzalandı. Sazişə əsasən, Naxçıvanda "Lifan" markalı minik avtomobillərinin yığımı təşkil olunacaqdır.

Naxçıvan Avtomobil Zavodu 2010-cu ilin yanvar ayının 11-də istismara verilmişdir. Zavodda Almaniya, Belçika və İtaliyada hazırlanan son model avadanlıqlardan istifadə olunur. Zavod ildə 5000 ədəd avtomobil istehsal etmək gücünə malikdir. İstehsal çinli mütəxəssislərin nəzarəti altında həyata keçirilir.

Hazırda Naxçıvan Avtomobil Zavodu Lifan 7130, Lifan 7160, Lifan 7160 L1, Lifan 7162, Lifan 7162 C və Lifan 7161 A avtomobil modellərini istehsal edir.

"AtaHolding" ASC – 2003-cü ildə fəaliyyətə başlamışdır. "AtaHolding" ASC iqtisadiyyatın müxtəlif sahələrində investisiya qoyuluşunu, maliyyə vəsaitlərinin, habelə intellektual sərvətlərin idarə olunmasını və korporativ idarəetməni həyata keçirir. "AtaHolding" ASC-nin nizamnamə kapitalı 83,9 mln. AZN təşkil edir və əsasən maliyyə, İnformasiya Texnologiyaları, sənaye, xidmət və turizm sahələrinə yönəldilmişdir. "AtaHolding" ASC-nin maliyyə sektorunda "AtaBank" ASC, "AtaSığorta" ASC, "AtaLizinq" ASC, turizm sektorunda "AtaTurizm" MMC, "AtaTravel" MMC və 5 ulduzlu "Excelsior Hotel Baku" mehmanxanası, sənaye sektorunda "AtaSənaye", İnformasiya Texnologiyaları sahəsində "AtaTexnologiya" MMC şirkətləri fəaliyyət göstərir. "VTB Bank" (Azərbaycan) ASC-nin səhmlərinin 49%-i Azərbaycan tərəfdən "AtaHoldinq" ASC-yə və 51%-i Rusiya tərəfdən Bank VTB ASC-yə məxsusdur.

"AtaHolding" Şirkətlər Qrupuna daxil olan bütün təsərrüfat subyektlərində fəaliyyət yüksək peşəkarlıq, yeni texnologiyaların tətbiqi və korporativ idarəetmə prinsipləri üzərində qurulmuşdur. "AtaHolding" ASC-nin menecment sistemi 2006-cı ildə beynəlxalq "Bureau Veritas" şir-



kəti tərəfindən ISO 9001:2008 standartlarına uyğun sertifikatlaşdırılmışdır.

2007-ci ildən etibarən "AtaHolding" ASC və onun törəmə tipli cəmiyyətlərində (TTC) beynəlxalq audit şirkəti tərəfindən maliyyə təsərrüfat fəaliyyətinin auditi keçirilir. "AtaHolding" Şirkətlər Qrupu Azərbaycanda BMHS-ə uyğun Konsolidə hesabat hazırlamış və müvafiq olaraq ilk dəfə beynəlxalq audit şirkəti tərəfindən bu hesabat audit olunmuşdur.

"AtaHolding" ASC Beynəlxalq mühasibat uçotu standartlarına uyğun uçot sistemini və Beynəlxalq Daxili Audit standartlarına uyğun Daxili nəzarət sistemini təşkil etmiş və bununla da "AtaHolding" Şirkətlər Qrupunun fəaliyyətinin şəffaflığını təmin etmişdir.

"ZQAN Holding" – ölkənin ən böyük aparıcı iqtisadi qüvvələrindən biridir. Şirkətlər Qrupu inşaat məhsullarının istehsalı, bank işi, sığorta, telekommunikasiya, mehmanxana işi və sağlamlıq-istirahət mərkəzləri, inşaat, nəqliyyat və yükdaşıma, eləcə də daşınmaz əmlak və onun idarə edilməsi kimi sahələrdə fəaliyyət göstərir. Şirkəti maliyyə sektorunda, "Bank of Azerbaijan" ASC, "Qarant Sığorta" ASC, inşaat və tikinti materiallarının istehsalı sektorunda "ZQAN Construction", "AZBENTONİT", "Goranboy Gips", "Göyçay" Çınqıl Zavodu, telekommunikasiya sektorunda "TransEuroCom", mehmanxana sektorunda "Meridian" mehmanxanası, daşınmaz əmlak və əmlakın idarə edilməsi sahəsində "Royal Estate" şirkətləri təmsil edir.

"AF Holding" Şirkətlər Qrupu – 1989-cu ildə idxal-ixrac əməliyyatlarında ixtisaslaşan "AF General Trading" şirkətinin yaradılması ilə əsası qoyulmuşdur. Bu gün "AF Holding" xaricdə və Azərbaycanda inşaat, maliyyə, turizm və ticarət sahələrinin aktivlərinə malik olan və idarə edən aparıcı özəl biznes qrupudur.

"AF Holding" Şirkətlər Qrupuna "AF Construction", "AF-BANK", "AQUAPARK BAKU", "AQUAPARK NOVKHANI", "AQUAPARK SHI-



KHOV" əyləncə və istirahət mərkəzləri, "AFCOMPLAZA", "AFCENTRE", "AFMALL", "AF SHOPPING CENTRE" ticarət mərkəzləri, Xəzər dənizinin kənarında yerləşən, hotel kompleksinin ərazisindəki ilk nəhəng akvapark "AFHOTEL" daxildir.

"AF Holding" Şirkətlər Qrupunun strategiyası öz iş aktivliyinin Azərbaycan iqtisadiyyatının prioritet inkişaf istiqamətləri və kifayət qədər artım potensialı olan sahələrində cəmləşməsinə əsaslanır. Şirkətlər qrupu turizmin inkişafı, yaşayış inşaatı, şəhərin infrastrukturunun təkmilləşdirilməsi, regional inkişaf kimi dövlət proqramlarının dəstək və inkişafında aktiv iştirak edir.

"Det.Al" Holding – Holdinq qabaqcıl texnologiyaları tətbiq edərək, mədənçilik, qara və əlvan metal sənayesinin aparıcı sahələri olan dəmir filizinin və alunit filizinin hasilatı, dəmir filizi konsentratının emalı, pelet, DRİ, polad, alüminium oksidi və ilkin alüminium istehsalı sahələrində fəaliyyət göstərir.

"Det.Al" Holding qabaqcıl texnologiyaları tətbiq edərək, mədənçilik, qara və əlvan metal sənayesinin aparıcı sahələri olan dəmir filizinin və alunit filizinin hasilatı, dəmir filizi konsentratının emalı, pelet, DRİ, polad, alüminium oksidi və ilkin alüminium istehsalı sahələrində fəaliyyət göstərir.

"Det.Al" Holding Daşkəsən Filizsaflaşdırma ASC-ni özəlləşdirmiş, "Azəralüminium" ASC ilə əməkdaşlıq müqavilələri imzalamışdır. Holdingə daxil olan "Det.Al" Alüminium MMC Gəncə şəhərində illik istehsal gücü 100000 ton ilkin alüminium olan alüminium istehsalı zavodunun tikintisini həyata keçirir. Bundan əlavə Holding Azərbaycanda Polad Kompleksinin bünövrəsini qoyaraq tərkibində 64-67% dəmir olan dəmir qırıntılarının istehsalı üzrə dənələşdirmə zavodu (ildə 2 mln. ton), ardıcıl reduksiya zavodu (ildə 1,1 mln. ton) və poladəritmə zavodundan (ildə 1 mln. ton) ibarət metallurgiya kompleksinin tikintisi layihəsini həyata keçirir. Hazırda "Det.Al" Holding öz fəaliyyəti ilə təxminən 4000 nəfəri işlə təmin etmişdir.



"Det.Al" Holding "Azəralüminium" ASC ilə eksklüziv agentlik və satınalma müqaviləsi bağlayıb. "Azəralüminium" ASC Sumqayıt şəhərində yerləşən və ildə 60000 ton ilkin alüminium istehsal edən Alüminium zavodundan və Gəncə şəhərində yerləşən və ildə təxminən 450000 ton metallurji növlü gil-torpaq istehsal edən zavoddan ibarətdir. Bundan əlavə o, 300 mln. tonluq ehtiyatı olan Alunit mədəninin sahibidir. "Det.Al" Holding hər iki müəssisəyə investisiya qoyulmasında fəal iştirak edir.

"SW (Silk Way) Holding" – 2006-cı ildə yaradılmışdır. Bu gün "SW Holding"in tərkibinə əsasən aviasiya sahəsində fəaliyyət göstərən 23 şirkət daxildir. Müəssisələrdə 3000 nəfərə yaxın yüksək ixtisaslı mütəxəssislər məşğuldur. Müntəzəm olaraq texniki xidmətin yaxşılaşdırılması işi aparılır, əməkdaşların hazırlanması və yenidən hazırlanmasında dünyada tanınmış tədris mərkəzləri ilə əməkdaşlıq edilir. "SW Holding"ə daxil olan şirkətlər dəyərli beynəlxalq tədbirlərdə iştirak edir və öz sahələri üzrə digər tanınmış dünya şirkətləri ilə əlaqələr qururlar. Şirkətə daxil olan müəssisələr aşağıdakılardır: "Airport Gate", "Airport Hotel", "İpək Yolu Sığorta", "Baku Cargo Terminal" (BCT), "Duty Free", "Euroasian Cargo", "Ground Handling Company" (GHC), "Silk Way Airlines", "Silk Way Bank", "Silk Way Business Aviation", "SW Construction & Industry", "SW Fibrobeton", "Silk Way Helicopter Services", "Silk Way Technics", "Sky Catering", "SW Travel", "Turan Air".

"Azersun Holding" Şirkətlər Qrupu – qida istehsalı, pərakəndə satış və kənd təsərrüfatı

sahəsində fəaliyyət göstərən ölkənin qabaqcıl şirkətidir.

1991-ci ildə Azərbaycana gələn tanınmış iş adamı Abdolbari Goozal ilk dəfə Türkiyədə fəaliyyət göstərən "İntersun" Şirkətlər Qrupunun Azərbaycandakı təmsilçiliyini qurdu. 1994-cü ilə qədər müxtəlif ticarət və istehsal şirkətlərini bir araya gətirərək "İntersun" adı altında fəaliyyət göstərən qrup Azərbaycanda "Azersun Holding" Şirkətlər Qrupu adı ilə işə başladı.

"İntersun"un 1990-cı ilin əvvəlindən Gürcüstanda qurduğu "F&C Company" şirkəti, "Azersun Holding"in istehsalı olan məhsulları da satış şəbəkəsinə daxil etməklə, bu məhsulların növlərinin artmasını təmin etmişdir.

"Azersun Holding" 1994-cü ildə ilk dəfə olaraq birbaşa xarici sərmayə ilə Yağ zavodunu özəlləşdirərək Azərbaycanda "holding" anlayışının bünövrəsini qoymuşdur.

Zavod 1996-cı il may ayının 3-dən etibarən "Caspian Vegetable Ghee Factory" adı altında fəaliyyət göstərmişdir. Bir müddət sonra yenidənqurma layihəsinə əsasən zavodda istehsal prosesi dayandırıldı. Köhnə xətlər layihə üzrə təmir edildi və zavod 31 dekabr 1997-ci ildən "Bakı Yağ və Qida Sənaye" adı altında yenidən istehsalata başladı.

"Azersun Holding" bununla kifayətlənməyərək, 1996-cı ildə Sabunçu rayonunda yerləşən Çay Paketləmə fabrikini də tərkibinə daxil etdi. Müəssisə daha sonra modern texniki avadanlıqlarla təchiz olunaraq "Sun-Tea Azerbaycan" ASC adı altında fəaliyyət göstərməyə başladı. Qida sənayesi müəssisələrini birləşdirən holdinqin çay sektoru başda olmaqla fəaliyyət göstərdiyi bütün sahələrdə istehsal olunan məhsulların paketləməsi çox önəmli olduğuna görə 1996-cı ildə "Karton Fabriki"nin bünövrəsi qoyuldu. 1970-ci ildə Abşeron rayonunda qurulan bu fabrik artıq "Bakı Karton Tara" ATSC adı altında fəaliyyət göstərməyə başladı. Günü-gündən böyüyən holdinqin maliyyə əməliyyatlarının yerli qanunvericiliyə uyğun olaraq həyata keçirilməsi zərurəti "Capital Investment" Bankın (CI Bank) yaranmasına səbəb oldu. 1996-cı ildə paytaxtın Səbail rayonunda qurulan bank 1996-cı il 28 sentyabr tarixində Azərbaycan Respublikası Milli Bankından lisenziya alaraq fəaliyyətə başlamışdır. 1 milyon 250 min ABŞ dolları sərmayə ilə qurulan bankın yaradılmasında əsas məqsəd Azərbaycanda sərmayə qoyan və qoymaq istəyən iş adamları və şirkətlərə hər mövzuda məsləhətlər vermək və lazım olduğunda onlarla birgə layihələr həyata keçirməkdir. Daşınan və daşınmaz əmlakın zəmanət altına alınması üçün sığortaçılıq xidmətlərinə də ehtiyac olduğundan 1996-cı ildə CI Banka bağlı olaraq CI Sığorta şirkəti quruldu. Şirkət 1997-ci ildə Azərbaycan Dövlət Sığorta Nəzarətindən lisenziya alaraq, 250 min dollar sərmayə ilə fəaliyyətə başlamışdır.

"Azersun Holding" "Petrol-Trans" şirkətinin şərikliyi ilə neft daşınması fəaliyyəti də həyata keçirir. Holdinq bu işlərin 95%-ni 2002-ci ildən etibarən Dübəndi Limanında fəaliyyət göstərən və əsas işi neft daşınmaları olan "Middle East Petroleum" şirkəti ilə görməkdədir.

Holdinqə daxil olan "Qarabağ" Futbol Klubu şirkətin uğurlu sosial fəaliyyətlərindən biridir.

"Azersun Holding"ə daxil olan şirkətlər 4 qrupa bölünür: Qida istehsal müəssisələri ("Sun Tea" Azərbaycan, Bakı Yağ Fabriki, Zeytun Emalı Fabriki, Qafqaz Konserv Zavodu, Azərbaycan Şəkər İstehsalat Birliyi, Zaqatala Fındıq Fabriki, Qənd İstehsalı Fabriki, Qida Paketləmə Müəssisəsi, Azərbaycan Duz İstehsalatı Birliyi, Biləsuvar Konserv Zavodu), kənd təsərrüfatı müəssisələri (Natural Green Land, AŞİB AGRO), satış və ticarət şirkətləri ("Azərsun Ticarət və Dağıtım" MMC, "Qafqaz Ticarət" MMC), qablaşdırma və kağız sənaye müəssisələri ("Qafqaz" Kağız Müəssisəsi, "Xırdalan Karton Fabriki", "Qafqaz Metal Qablaşdırma Sənaye").

"Aura", "Azerçay", "Bizim Tarla", "Bizim Süfrə", "Blendo", "Bono", "Final", "Maryam", "Pasha", "Pürrəngi", "Richmond", "Sun", "Teksun", "Şəhrizad", "Bostan", "Gülüm", "Möcüzə", "Evim" və "Diplomat" "Azersun Holding" Şirkətlər Qrupunun tanınmış markalarıdır.

Azərbaycan Şəkər İstehsalat Birliyi MMC – 2006-cı ildə fəaliyyətə başlamışdır. İmişlidə



70 hektar ərazidə inşa olunan zavoda 100 milyon ABŞ dolları məbləğində investisiya qoyulub. Şəkər zavodundakı texniki avadanlıqların böyük hissəsi Almaniyadan alınıb və Avropanın ən son texnologiya yeniliklərini əhatə edir.

İmişli şəkər zavodunun fəaliyyətə başlaması kənd təsərrüfatının bir çox sahələrindəki inkişafına təkan verdi, rayonda işsizlik probleminin aradan qaldırılmasına kömək etdi, sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərdi. Zavodun istehsal etdiyi keyfiyyətli şəkər tozu qısa vaxt ərzində dünya bazarında öz layiqli yerini tutdu.

İmişli şəkər zavodu gündə 1100-1200 ton yüksəkkeyfiyyətli kristal şəkər istehsal etmək gücünə malikdir. İmişli şəkər zavodu 2006-cı ildə ISO 9001:2000 Keyfiyyət İdarəetmə Sistemi sertifikatına layıq görülmüşdür.

"Qafqaz Konserv Zavodu" MMC – 2003-cü ildə açılmışdır. Konserv zavodunun fəaliyyətə başlaması şimal bölgəsinə böyük dəstək olmuşdur.

"Qafqaz Konserv Zavodu" 135 çeşiddə məhsulları ilə Azərbaycanın konservləşdirilmiş mallara olan ehtiyacının əsas hissəsini təmin edir. Burada müasir texnologiya vasitəsilə tomat



pastası, ət konservi, yaşıl noxud, mürəbbə, kompot, hazır yeməklər, turşu istehsal olunur. Məhsullar "Bizim Tarla", "Final", "Bostan", "Super Sun" adları altında bazara təqdim olunur. Ölkənin ən müasir avadanlıqlarına sahib olan "Qafqaz Konserv Zavodu" MMC istehsal mərhələsində həyata keçirdiyi sistemli siyasətlə istehlakçıların etimadını qazanmışdır. Artıq Azərbaycanda ilk dəfə yaşıl noxud becərilməsi və istehsalını gerçəkləşdirən "Qafqaz Konserv Zavodu" MMC-nin adı tarixə qızıl hərflərlə yazılmışdır. "Qafqaz Konserv Zavodu" da "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində bir sıra işlər görməkdədir. Qafqaz Konserv Zavodu 08.11.2005-ci il tarixindən etibarən TS ISO-EN-9001:2000 Keyfiyyət İdarəetmə Sistem Sertifikatına sahibdir.

HOLLAND AUKSİONU – bu auksionun gedişində əvvəlcə satılan mal üçün ən yüksək qiymət elan edilir, sonra isə stavkalar tədricən azalır. Birinci alıcı malı həmin qiymətə almağa razılaşdıqda təklif edilən mal ona satılır.

HOLLAND SİNDROMU – Hekşer-Olinin nəzəriyyəsinə əsaslanan iqtisadi fenomen. Praktik müstəvidə böyük neft hasilatçısı olan bir sıra ölkələrdə, daha qabaritli formada isə Niderlandda empirik sınaqdan keçmişdir. Şimal dənizində Hollandiyanın 1960–70-ci illərdə təbii qaz hasilatına başlayaraq, sonradan izafi qaz potensialını ixracata yönəltməklə büdcəni və iqtisadiyyatını bilməyərəkdən müvafiq resursun inhisarına buraxan Hollandiyada gəlir artımı qeyri-ticari əmtəənin istehsal tələbinin genişlənməsinə gətirmiş, ənənəvi ixrac yönümlü emal sənayesi sahələrində isə istehsal məhdudlaşmış və nəticədə ölkədə çatışmayan əmtəələrin idxalının yüksəlişinə səbəb olaraq davamlı böhranla müşayiət olunmuşdur. Holland sindromu ayrı-ayrı vaxtlarda müxtəlif səviyyədə Norveç, İngiltərə və Meksikada da yaşanmışdır. Dünya bazarına çıxış və ondan asılılıq şəraitində qiymət meyilləri ölkəni çətin vəziyyətə düçar etmişdir. Böyük sosial problemlərlə müşayiət olunan vəziyyət əhalinin gəlirlərinin aşağı düşməsinə gətirib çıxarmışdır. Vəziyyətdən çıxmaq üçün isə yenidən qeyri-ticari əmtəə istehsalının məhdudlaşdırılmasına və resursların xammal ixracatı sahəsindən əks axınının əvvəlki vəziyyətə qayıdışına səy edilmişdir (bax: sxem 1).

HOMO EKONOMİKUS (lat. *homoeconomicus*) – yüksək iqtisadi intuisiyası olan insan, davamlı varlanmaq istəyən şəxs.

HÖKMRAN MÖVQE – təsərrüfat subyektinin öz iqtisadi potensialının üstünlüyünə əsaslanaraq rəqabətə həlledici təsir göstərməyə imkan verən və bununla da bazarın digər iştirakçılarının bazara daxil olmasını çətinləşdirən müstəsna vəziyyəti. Bazarda payı 35 faizdən və ya qanunvericiliklə müəyyən olunmuş digər həddən çox olan təsərrüfat subyekti hökmran mövqe tutan hesab olunur.

HÖKUMƏT SIĞORTA TƏŞKİLATLARI – qeyri-kommersiya şirkətləridir ki, bunların fəaliyyəti subsidiyalaşmaya əsaslanır. İşsizliyə görə sığortalanma, fəhlə və qulluqçuların kompensasiyalarının sığortalanması, eləcə də qeyri-peşə əmək qabiliyyətinin sığortalanması üzrə ixtisaslaşır.


HÖKUMƏT VEKSELİ – dövlət qiymətli kağızı. Hökumətin adından Maliyyə Nazirliyi (veksel verən) çıxış edərək veksel təqdim edənə müəyyən miqdarda pulu vekseldə göstərilən və ya ötürücü yazı (indossament) vasitəsilə göstərilən müəyyən edilmiş vaxtda ödəmək öhdəliyidir.

HÖRÜMÇƏK TORUNA OXŞAR MODEL – Qərb iqtisadi ədəbiyyatında bazar rəqabəti şəraitində qiymətlərin formalaşması prosesinin istifadəsi üçün tətbiq olunan ən sadə dinamik modellərdən biri. Müəyyən il ərzində əmtəənin bazara göndərilməsi həmin modeldə əvvəlki ildə (kənd təsərrüfatında – keçən il) yaranmış şəraitdən (o cümlədən qiymətlərdən) asılıdır. Tələb isə cari dövrdəki qiymətlərlə müəyyən edilir.

HÜQUQ – bütün sosial normalar üçün mütləq sistem olub, dövlətin müdafiəsi altındadır. Hüquqi nöqteyi-nəzərdən bütün cəmiyyətdə ictimai münasibətlərin reqlamentləşməsini təmin edir. Hüquq sistemi hüquq sahələri üzrə diferensiallaşdırılır, bunlardan da hər biri öz predmetini spesifik və sərbəst olaraq tənzimləyir.

HÜQUQ NORMASI – insanların hərəkətlərinin ümumi qaydaları (miqyas, etalon). Bu qaydalar onlara konkret hüquq və öhdəliklər verir və bununla da ictimai münasibətini və ya onun tərəflərindən birini tənzimləyir.

"Holland sindromu" mexanizmi



Sxem 1

Bundan başqa, hüquq normaları ümumi mənası olan prinsip və tərifləri ifadə edir ki, bunlar da bu və ya digər qanunvericilik sisteminin və ya onun sahəsinin əsaslarını, başlanğıc müddəalarını möhkəmləndirir, qanunvericilikdə istifadə olunan anlayışların, tərifların, terminlərin hüquqi məzmununu müəyyən edir və ya dəqiqləşdirir.

Hüquq norması aşağıdakı üç elementdən ibarətdir:

– hüquq sahəsində subyektlər üçün davranış qaydalarını müəyyən edir (fərziyyə);

– bu davranışın olduğu şəraiti nəzərdə tutur (dispozisiya);

– müəyyən edilmiş qaydaları icra etməyən və ya pozan şəxslər üçün nəticələr müəyyən edir (sanksiya).

Hüquq norması bir-biri ilə məntiqi əlaqəsi olan anlayışlardan ibarətdir ki, bunlar da iki əsas növə ayrılır: hüquqi xarakterli (sosial reallığın bu reallığa hüquqi xassələrin və ya hüquqi təzahür və hadisələrin, şərait və vəziyyətlərin, hərəkətlərin və hərəkətsizliyin və s. hüquqi-spesifik əks olunması yolu ilə hüquqiyə çevrilməsi) və qeyri-hüquqi xarakterli anlayışlar (məişətdə adi, gündəlik həyatdan və ya xüsusi elm sahələrindən götürülmüş).

Həm qeyri-hüquqi, həm də hüquqi anlayışlar konkret və abs-

trakt ola bilər, bu zaman hüquq normasının tarixi inkişafı konkretdən daha abstrakt anlayışlara doğru getmişdir. Bu halda qanunvericiyə olan tələblər ondan ibarət olmalıdır ki, hüquq normasında abstrakt anlayışlardan konkretlərə, ümumidən xüsusiyə çevik keçid imkanı olsun və bu zaman onlar arasında ahəng və razılıq pozulmasın, qanunun ruhu və mənası təhrif olunmasın.

HÜQUQ NORMASI, DİSPOZİTİV – müqavilənin şərtlərini müəyyən edən və bu müqaviləni bağlayan tərəflərin başqa heç nə müəyyən etmədikləri halda tətbiq olunan norma. Tərəflər öz müqavilələri ilə şərtlərin tətbiqini ləğv edə, ya da fərqli şərt qoya bilərlər ki, həmin müqavilədə o şərt nəzərdə tutulmayıb. Bu cür müqavilə olmadıqda kontraktın şərtləri dispozitiv norma ilə müəyyən edilir.

HÜQUQ NORMASI, İMPERATİV – qüvvədə olan qanun və hüquqi aktlara əsaslanan norma. Müqavilə bağlayan tərəflər üçün məcburidir.

HÜQUQİ XƏRCLƏR – yük daşıyanın məsuliyyət daşıdığı itkilərə (zərərə) görə yük sahibi yük daşıyana iddiasını bildirməlidir və əgər sığortaçının razılığı ilə yük sahibi yük daşıyandan itki cəriməsinə görə ona (yük daşıyana) hüquqi hərəkətlərlə əlaqədar xərcləri daşımağa məcburdursa, onda onları sığortaçı ödəməlidir. Sığortalıya təqdim edilən iddiaların (məsələn, gəmilərin toqquşması zamanı) azalması və ya kənarlaşması ilə əlaqədar onun hüquqi xərcləri son nəticədə sığortaçı tərəfindən ödənilən zərərin ölçüsünü azaldır. Təkrar sığortaçı proporsional olaraq orijinal (əsl) sığortaçı tərəfindən ödənilən sığortalının hüquqi xərclərində iştirak edir.

HÜQUQİ STATUS – 1) Aİ-nin əksər üzv ölkələrində aşağıdakı hüquqi status formalarına rast gəlmək olar:

– **tək (vahid) sahib olma**: müəssisəyə yalnız bir fiziki şəxs sahiblik edir;

– **yoldaşlıq həyata keçirən şəxslərin asossiasiyası:** o, adətən, məhdud məsuliyyətlə yoldaşlıq formasını qəbul edir;

– **məhdud məsuliyyətli şirkət**: məhdud məsuliyyətlə, səhmdar kapitalı ilə şirkətə, yoldaşlığa və məhdud məsuliyyətlə özəl şirkətə daxil olan müəssisə. Avropa səviyyəsində bu kimi şirkətlər üçün hesabların nəşrinin ümumi qaydaları Şuranın 4-cü direktivində göstərilmişdir;

– **korporativ cəmiyyət**: belə təşkilatların mövcudluğu hər bir ölkənin qanunvericiliyi ilə şərtlənir və müəyyən hüquqi statusa malik olur. Onlar ümumi prinsiplər üzrə fəaliyyət göstərirlər: məsələn, onlara öz xidmətlərini cəmiyyətin üzvlərinə təqdim etmək, fəaliyyətlərinə münasib olaraq, onlar arasında gəlirləri bölüşdürmək hüququ verilir;

– **digər hüquqi formalı müəssisələr:** bu qrupa millileşdirilmiş müəssisələr, dövlət müəssisələri, həmçinin dövlət və yerli icra orqanlarının inhisarında olan müəssisələr daxildir.

2) qanuni tanınmış hüquq və vəzifələrin toplusudur: mülkiyyət hüququdur. O, fiziki şəxsə xüsusi mülkiyyətə malik olmağa aşağıdakı imkanları verir:

– öz adından müxtəlif fəaliyyət növlərini həyata keçirmək və şəxsi bizneslə məşğul olmaq hüququ;

– digər şəxslərlə müqavilələr bağlamaq hüququ;

– məhkəmədə iddiaçı və cavabdeh kimi iştirak etmək hüququ. Bu, öz maraqlarını qorumaq deməkdir.

Hüquqi status istehsal hüquqları ilə də müəyyən edilir: öz əmlakı və pul vəsaitinə, onları idarə etmək hüququna malik olmaq.

Bütün ölkələrdə hüquqi statusu təşkil edən hüquq, qanuna müvafiq olaraq, fiziki şəxslər üçün qəbul edilir, hüquqi şəxslər üçün isə onlar müəyyən edilmiş rəsmi qaydalar yerinə yetirildikdən sonra qəbul edilir.

Hüquqi vahid – hüquqi status verilmiş vahid. Hüquqi vahid statistik vahid kimi təsnifləşdirilmir. Hüquqi vahid fiziki və hüquqi şəxs ola bilər. Aşağıdakılar hüquqi vahid hesab edilirlər:

– mövcudluğu qanunla tanınmış hüquqi şəxslər;

– müstəqil surətdə iqtisadi fəaliyyət həyata keçirən fiziki şəxslər.

Hüquqi vahidlər təklikdə, bəzən isə digər hüquqi vahidlərlə birlikdə statistik vahid olan "müəssisə"nin hüquqi əsası hesab edilir.

HÜQUQİ ŞƏXSİN İMKANSIZLIĞI – vəsait olmaması üzündən öz borc öhdəliklərini ödəməsinin mümkün olmaması (ödənişdən imtina etməsi). Formal baxımdan hüquqi şəxs məhkəmənin müvafiq qərarından sonra imkansız (müflisləşmiş) sayılır.

HÜQUQİ ŞƏXSLƏRİN DÖVLƏT QEYDİYYATI – dövlət

reyestrinə (rəsmi siyahı) yeni yaradılmış, yaxud yenidən təşkil edilmiş təşkilatların daxil edilməsi, onlara müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsərrüfat subyektinin **dövlət qeydiyyatı haqqında şəhadətnamənin** verilməsi. Bu cür qeydiyyat vasitəsilə onların hüquqi statusu müəyyənləşdirilir və statistika maliyyə orqanlarında (vergi, sosial-müdafiə) qeydiyyatı üçün əsas sayılır.

HÜQUQİ ŞƏXSLƏRİN MƏNFƏƏT VERGİSİ – müəssisənin xalis gəlirinin bir hissəsinin büdcəyə tutulması forması. Müəssisələrin mənfəətindən tutulur. Bu mənfəət satışdan əldə edilmiş ümumi mədaxil ilə istehsal, kommersiya xərcləri (o cümlədən, əmək haqqı, bank krediti üzrə faizlər, reklam xərcləri), qüvvədə olan qanunvericiliyə əsasən, vergitutmadan tamamilə və ya qismən azad edilən xərclər arasındakı fərqə bərabərdir. Hüquqi şəxslərin mənfəətindən vergi dərəcələri vahid qaydada müəyyən edilir, səhmlər, istiqrazlar, qiymətli kağızlar və vasitəçilik hesabına əldə edilən gəlirlər üçün dərəcələr isə daha yüksəkdir. Çünki bu cür gəlir alan, bir qayda olaraq, maddi xərc çəkmir.

Azərbaycan Respublikasında rezident və qeyri-rezident müəssisələr mənfəət vergisinin ödəyiciləridir.

Rezident müəssisə üçün vergitutma obyekti onun mənfəətidir. Vergi ödəyicisinin bütün gəlirləri (vergidən azad edilən gəlirdən başqa) ilə gəlirdən çıxılan xərc arasındakı fərq mənfəətdir. Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisəsi bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyi ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir.

Müəssisələrin mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur.

Xeyriyyə təşkilatlarının gəliri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa); qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr, beynəlxalq, dövlətlərarası və hökumətlərarası təşkilatların gəlirləri (sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirdən başqa), dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının gəlirləri (sahibkarlıq fəaliyyətindən gəlir istisna olmaqla); Azərbaycan Respublikasının Mərkəzi Bankının, onun qurumlarının və Azərbaycan Respublikası Dövlət Neft Fondunun (Fondun vəsaitinin yerləşdirilməsindən əldə edilən gəlir istisna olmaqla), habelə Əmanətlərin Sığortalanması fondunun gəlirləri; alınmış sığorta ödənişləri (həmin sığorta hadisəsi ilə əlaqədar zərərə aid edilən məbləğlərdən başqa) mənfəət vergisindən azaddır.

"HÜQUQ"LARIN EMİSSİYASI – kompaniyanın səhmdarlarına ümumi kapitaldakı paylarının əvvəlki səviyyəsini qorumaq imkanı verən yeni buraxılış səhmlərinin əldə olunması təklifi.

HÜQUQLARIN İDARƏ EDİLMƏSİ HAQQINDA İNFORMASİYA – müəllifi, əsəri, ifaçını, ifaçının ifasını, fonoqramın istehsalçısını, fonoqramı, efir və ya kabel yayımı təşkilatını, efir və ya kabel yayımı təşkilatının verilişini, qanunvericiliklə nəzərdə tutulmuş istənilən hüququn sahibini identifikasiya edən istənilən informasiya və ya əsərdən, onun ifasından, fonoqramdan, efir, yaxud kabel yayımı təşkilatının verilişindən istifadə şərtləri haqqında informasiya və belə informasiyanın göstərildiyi istənilən rəqəmlər və ya kodlar; əgər bu informasiya elementlərindən hər hansı biri əsərin, onun lentə yazılmış ifasının, fonoqramının, efir və ya kabel yayımı təşkilatının lentə yazılmış verilişinin nüsxəsinə əlavə edilmişdirsə və ya ümumi məlumat üçün mesajla və ya əsərin, onun lentə yazılmış ifasının, efir və ya kabel yayımı təşkilatının verilişləri yazılmış fonoqramın ümumi məlumat üçün çatdırılması ilə əlaqədar meydana çıxırsa.

HÜSEYNOV MƏCİD ƏLİ OĞLU (1912–1974) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1934-1939-cu illərdə Gürcüstan Kənd Təsərrüfatı İnstitutunun meşəçilik fakültəsində təhsil almışdır. 1949-cu ildə Leninqrad Meşə Təsərrüfatı Elmlər Akademiyasında qiyabi aspiranturaya daxil olmuş, dissertasiya müdafiə edərək elmlər namizədi adına layiq görülmüşdür.

Respublika iqtisadiyyatının inkişaf etdirilməsinə həsr edilmiş bir neçə monoqrafiyanın, kitabın, broşüranın, 30-dan çox elmi məqalənin müəllifidir.

1956–1960-cı illərdə AzXTİ-də kafedra müdiri, müdir müavini vəzifələrində işləmişdir. 1960-1963-cü illərdə kənd təsərrüfatı məhsulları istehsalı və tədarükü nazirinin müavini vəzifəsində çalışmışdır. 1963-cü ildən ömrünün sonuna kimi Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda baş elmi işçi, şöbə müdiri işləmişdir.

HÜSEYNOV MƏHƏRRƏM CƏLAL OĞLU (1960) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1982-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

1995-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutunda namizədlik, 2009-cu ildə "Bazar iqtisadiyyatına keçid şəraitində aqrar sahənin dayanıqlı inkişaf problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 98 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın, 2 dərsliyin və 2 dərs vəsaitinin müəllifidir.

1982–1988-ci illərdə Bərdə Kənd Təsərrüfatı Texnikumunda müəllim, 1988–2009-cu illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında baş metodist, assistent, baş müəllim, dosent, dekan müavini, dekan olmuşdur. Hazırda Azərbaycan Dövlət Aqrar Universitetinin maliyyə və iqtisadi nəzəriyyə kafedrasının müdiridir. Azərbaycan Dövlət Aqrar Universitetində iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının üzvüdür.

HÜSEYNOV SOFİQ KƏLBİ OĞLU (1950–1997) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1977-ci ildə "Azərbaycan SSR-in sənaye qovşaqlarının formalaşması məsələləri" mövzusunda namizədlik, 1988-ci ildə isə "İntensivləşdirmə şəraitində Azərbaycan SSR-in sənaye istehsalının strukturunun səmərəliliyi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1993-cü ildə professor elmi adı almışdır. 100-dən artıq elmi əsərin müəllifi olmuşdur. Tədqiqatları ilə regional iqtisadiyyat elmi məktəbini inkişaf etdirmiş, 1990-cı illərin əvvəllərində baş vermiş böhranın səbəblərini elmi cəhətdən araşdırmış və onun aradan qaldırılmasında müstəsna xidmətləri olmuşdur. Alimin respublikanın müstəqilliyinin ilk illərində çap olunmuş "Bazara keçid şəraitində Azərbaycan iqtisadiyyatının analitik-proqnoz tədqiqi", "Planlaşdırmanın təkmilləşdirilməsinin metodoloji məsələləri" və s. kimi çoxsaylı tədqiqatları problemin dərinliklə öyrənilməsi və perspektivlilik baxımından qiymətləndirilməsi üçün çox qiymətli elmi-əməli xarakterə malik idi. "Azərbaycan iqtisadiyyatının böhrandan çıxarılması və islahatlaşdırılmasının konseptual əsasları" adlı silsilə yazıları, dövlət orqanlarına təqdim olunmuş "Azərbaycan Respublikasında iqtisadiyyatın böhrandan çıxarılması və onun dinamik inkişaf yoluna düşməsində struktur siyasətin müstəsna rolu haqqında mülahizələr" adlı tədqiqat işi Sofiq Hüseynovun yüksək alim və vətəndaş mövqeyinin ifadəsi idi. O, uzun müddət Azərbaycan Dövlət İqtisad Universitetində, digər ali məktəblərdə dərs aparmış, 15 aspirant və dissertanta elmi rəhbərlik etmişdir. 1988–1994-cü illərdə Dövlət Plan Komitəsi Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda direktor müavini, 1994-cü ildən isə bu institutun bazasında yaradılan İqtisadi İslahatlar Mərkəzinin direktoru olmuşdur. O, bir neçə ixtisaslaşdırılmış müdafiə şurasının üzvü, çoxlu dissertasiyalara rəsmi opponent olmuş və aparıcı təşkilatın rəhbəri kimi, alim kimi saysız dissertasiyalara rəy vermişdir. 1995-ci ildə Milli Məclisin deputatı seçilmiş, İqtisadi siyasət daimi komissiyasının sədri seçilmiş və ömrünün sonuna kimi bu vəzifədə işləmişdir.

HÜSEYNOV TELMAN ƏLİHÜSEYN OĞLU (1934) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1967-ci ildə "Neft maşınqayırma sənayesinin əsas fondları və onlardan istifadənin yaxşılaşdırılması yolları" mövzusunda namizədlik, 1988-ci ildə "Maşınqayırmanın inkişafı və

səmərəliliyinin yüksəldilməsinin sosial-iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1991-ci ildən professordur.

"Azərbaycan Respublikasının Əməkdar iqtisadçısı" fəxri adına layiq görülmüşdür. 140 elmi məqalənin, o cümlədən 5 monoqrafiyanın, 1 dərsliyin və 4 dərs vəsaitinin, bir neçə kitabçanın müəllifidir. T.Hüseynov tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, 300 çap vərəqi həcmində iqtisadi ədəbiyyatı Azərbaycan dilinə tərcümə etmişdir.

1973-cü ildən AzXTİ-də dekan, kafedra müdiri, Voznesenki adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialının direktor müavini işləmiş, Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru vəzifəsini icra etmişdir. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiridir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 sentyabr tarixli Sərəncamına əsasən, təhsilin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

HÜSEYNOV TOFİQ HƏSƏN OĞLU (1937) – Azərbaycan iqtisadçısı, i.e.d. 1967-ci ildə Moskvada namizədlik, 2005-ci ildə AMEA-nın İqtisadiyyat İnstitutunda "Azərbaycan Respublikasında investisiyaların iqtisadi və sosial səmərəliliyinin yüksəldilməsi istiqamətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. İnvestisiya problemlərinin tədqiqi sahəsində tanınmış alimdir. 130-a qədər elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir, Azərbaycan Respublikasının Əməkdar iqtisadçısıdır. 2000-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda şöbə müdiri işləyir.



HÜSEYNOVA XATİRƏ MAİL QIZI (1965) – Azərbaycan iqtisadçısı, i.e.d. 1987-ci ildə Bakı Dövlət Universitetini bitirmişdir. Həmin ildən təyinatla Azərbaycan Elmi Tədqiqat Əkinçilik İnstitutunda əmək fəaliyyətinə başlamışdır. 1997-ci ildə namizədlik, 2011-ci ildə "Azərbaycanda regional inkişafın idarə olunması problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.



X.Hüseynova 1994-1999-cu illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda müəllim, baş müəllim, dekan müavini vəzifələrində çalışmışdır. 1999-cu ildən bu günədək Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında əmək fəaliyyətini davam etdirir və "Dövlət İdarəçiliyində İnformasiya Texnologiyaları" kafedrasının dosentidir. Eyni zamanda Azərbaycan Müəllimlər İnstitutunda elmi işlər üzrə prorektordur.

X.Hüseynova 1999-2004, 2004-2009, 2009-2014-cü illər üzrə Bakı şəhəri Yasamal Bələdiyyəsinin üzvü seçilmişdir və "Sosial məsələlər" daimi komissiyasının sədridir.


2003-cü ildə ABŞ-da Dövlət və Bələdiyyə idarəetməsi üzrə təcrübə keçmişdir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı "Mərkəzi Asiya Səmərəli Araşdırmalar Mərkəzi"nin (CAPRC) təşkilat şurasının üzvüdür, bir çox sertifikatların müəllifidir.

"Regional inkişaf proqramları: nəzəri və praktik məsələlər" adlı monoqrafiyanın, metodik və dərs vəsaitlərinin, 50-dən çox elmi məqalənin müəllifidir.

X

XALİS AKTİV DƏYƏRİ (XAD) – fondun passivlərinin dəyəri qədər azaldılmış fond aktivləri dəyəri. Başqa sözlə, bu, fond vəsaitlərinin ümumi həcmidir. Pay dəyərinin hesablanması üçün istifadə olunur.

XALİS AKTİVLƏR – şirkətin qeyri-maddi aktivləri və onun borc öhdəlikləri nəzərə alınmaqla müəssisənin kapitalının bazar dəyəri. Bu hesablanan kəmiyyət aktivlərin cəmindən (buraya pul və qeyri-pul formalarında əmlakın balans dəyəri, əsas vəsaitlər və nizamnamə kapitalına maya qoyulması üzrə borcdan fərqli dövriyyədənkənar aktivlər, təşkilatın ona satılmış əmlaka görə borcu; ehtiyatlar və xərclər; pul vəsaitləri, hesabatlar və sair aktivlər daxildir) onun öhdəliklərinin (məqsədli daxilolmalar və maliyyələşdirmələr, icarə öhdəlikləri; bankların və digər hüquqi və fiziki şəxslərin qarşısında uzunmüddətli və qısamüddətli öhdəliklər, hesabatlar və "Şübhəli borclar üzrə ehtiyatlar" və "Gələcək dövrlərin xərcləri" maddələri üzrə əks olunmuş məbləğlərdən başqa passivlər) cəmi arasındakı fərqə bərabər kəmiyyətdir.



Sxem 1

Xalis aktivlərin növləri

Xalis likvid aktivlər – müəssisənin öhdəlikləri istisna olmaqla ləğv edilə bilən aktivlər.

Xalis real aktivlər – şirkətin öhdəlikləri çıxılmaqla qalan maddi aktivlər.

Xalis cari aktivlər – müəssisənin cari aktivləri (dövriyyə kapitalı) və qısamüddətli öhdəlikləri arasındakı fərq.

XALİS ÇARTER – standart formadan kənarlaşmadan (sapmasız) tərtib edilən və gəmi sahibinə zərər törədə bilən hər hansı əlavə şərtləri ehtiva edən çarter.

XALİS GƏLİR – əldə edildikdən sonra vergi ödəmək, bankda kreditə görə faizlərin qaytarılması və digər zəruri tədiyyələrdən azad olan gəlir.

Xalis gəlir şirkətin müxtəlif ehtiyacları: dividendlər ödənilməsi, xüsusi fondlar və ehtiyat fondları yaradılması və s. məqsədlər üçün istifadə edilə biləcək xalis mənfəətdir. Xalis gəlirdən istifadə edilməsinin istiqamətləri haqqında qərarlar cəmiyyətin təsisçilərinin ümumi yığıncağında qəbul edilir. Hazırda bu göstəricinin əvəzinə sərəncamda qalan "xalis mənfəət" göstəricisi hesablanır.

XALİS HEDC – borc faizini "qapamaq" və beləliklə, borc faizinin dərəcəsinin mümkün enməsindən sığortalanmaq məqsədilə bağlanılan müddətli alqı sövdələşməsi.

XALİS İXRACAT – ölkənin ixracının dəyəri ilə idxalının dəyəri arasındakı fərq. Həmçinin ticarət balansı adlanır.

XALİS KAPİTAL AXINI – xarici aktivlərin daxili rezidentlər tərəfindən alışı ilə daxili aktivlərin xarici rezidentlər tərəfindən alışı arasındakı fərq.

XALİS KONOSAMENT – malın keyfiyyətinə və onun qablaşmasına görə yük sahibinin məsuliyyətini əks etdirən sənəd. Xalis konosament elə konosamentdir ki, burada yükü və onun qablaşmasını ləkələyən yük daşıyanın əlavə daxil edilmiş düzəlişləri yoxdur. Konosamentə daxil olan düzəlişlər yük daşıyandan yükün qorunmasına görə məsuliyyət götürmür, lakin hüquqi nəticələrə malikdir.

XALİS KREDİTLƏŞMƏ (borclanma) – maliyyələşdirmə mənbələrinin (imkanlarının) qeyri-maliyyə aktivlərinin artımına xərclərdən artıqlığı və ya az olmasını göstərir. Makroiqtisadi səviyyədə xalis kreditləşmə və ya xalis borclanma ölkənin "xarici aləm (qalan dünya)" sərəncamına, yaxud "xarici aləm (qalan dünya)" ölkənin sərəncamına verdiyi ehtiyatlar arasında, dəyər ifadəsində yaranan fərqi göstərir. MHS-də istifadə edilən göstəricidir.

XALİS MƏNFƏƏT VƏ XALİS QARIŞIQ GƏLİRLƏR – müvafiq dövr ərzində (daha çox il ərzində) müəssisənin ümumi gəlirindən bütün vergilər, yığımlar və digər məcburi ayırmalar çıxıldıqdan sonra qalan məbləğ. Xalis mənfəət və xalis qarışıq gəlirlər əsas kapitalın istehlakı çıxılmaqla ümumi mənfəətə və ümumi qarışıq gəlirlərə bərabərdir.

XALİS MİLLİ MƏHSUL (XMM) – müvafiq dövr ərzində (daha çox il ərzində) amortizasiya ayırmaları çıxıldıqdan sonra ölkədə istehsal və istehlak edilən son əmtəə və xidmətlərin məbləği. Yəni XMM = ÜDM (köhnəlmiş və aşınmış avadanlıqların əvəzlənməsinə yönələn investisiyalar).

XALİS ŞƏXSİ İNVESTİSİYALAR – amortizasiya ayırmalarını çıxmaqla, xüsusi daxili pul əmanətlərinin ümumi ölçüsü.

XALQ TƏSƏRRÜFATI – müəyyən ərazi hüdudlarında tarixən yaranmış ictimai təkrar istehsal sistemi. "Xalq təsərrüfatı" termini "SSRİ iqtisadiyyatı" ("milli iqtisadiyyat") terminin sinonimi kimi də işlədilir. Xalq təsərrüfatının maddi əsası istehsal qüvvələrinin məcmusudur. Sözün geniş mənasında, xalq təsərrüfatı ictimai əməyin bütün sahələrini və formalarını əhatə edir. Ümumi tarixi kateqoriya olan xalq təsərrüfatı cəmiyyətlərin mövcudluğunun konkret ifadəsi və forması kimi yaranmışdır və bu şəkildə inkişaf edir. Xalq təsərrüfatının özəyi məhsul istehsal edən, xidmətlər göstərən və ya başqa funksiyaları yerinə yetirən müəssisələrdir (idarələrdir, təşkilatlardır). İstehsal xalq təsərrüfatında aparıcı yer tutur, lakin onun məzmununu tam əhatə et-

Cədvəl 1

SSRİ-nin ümumi milli məhsulunun strukturu (faktiki qiymətlərlə, faizlə)

	1980	1985	1988
Ümumi milli məhsul o cümlədən xalq təsərrüfatının sahələrində istehsal olunan:	100	100	100
sənaye	42	37	34
kənd təsərrüfatı	13	17	18
tikinti	8	8	10
nəqliyyat və rabitə	6	6	6
ticarət	13	14	12
xidmətlər sahəsi	18	18	20

mir (cədvəl 1, 2). Maddi nemətlərin mürəkkəb dövriyyəsi prosesi istehsaldan başlanır. Bundan sonra həmin nemətlərin ictimai əmək sisteminə daxil olan çoxtərəfli dövriyyəsi, mübadiləsi, bölgüsü, təkrar bölgüsü və istehlakı prosesləri gəlir. Maddi nemətlərin (və xidmətlərin) əhali tərəfindən istehlak edilməsi onların xalq təsərrüfatının dövriyyəsinin bərpası üçün zəmin yaradır, çünki o, işçi qüvvəsinin təkrar istehsalı vasitəsidir. Xalq təsərrüfatının mürəkkəb strukturunun təhlil edilməsi üçün xalq təsərrüfatı sektoru, sahəsi, sferası anlayışlarından istifadə edilir. Sektor müəyyən sosial iqtisadi münasibətlərlə birləşən sosial-iqtisadi vahidlərin məcmusudur. Xalq təsərrüfatının mülkiyyət formalarına (dövlət, kooperativ, xüsusi, şəxsi) müvafiq olaraq sektorlara bölünməsi daha geniş yayılmışdır. Xalq təsərrüfatında əmtəə və xidmətlər axınlarının təhlili sektorlar şəklində bölgünün məqsədəuyğun olmasını təsdiq edir. Bu məqsədlə xalq təsərrüfatı vahidləri və ya elementləri müəyyən ümumi iqtisadi əlamətlərə görə qruplaşdırılır. Məsələn, iqtisadi problemlərin toplu xarakteristikası üçün milli hesablar sistemində xarici ölkələrdə aparılan tədqiqatlara əsasən dörd sektor göstərilir: müəssisələr, ev təsərrüfatı (istehlak sferasında), dövlət (və ya hökumət sektoru) və xarici sektor (xalq təsərrüfatının kənar aləmlə iqtisadi əlaqələri). Makroiqtisadi modellər qurularkən sosial-iqtisadi vahidlərin xalq təsərrüfatı sektorları şəklində qruplaşdırılması üçün başqa əlamətlərdən də istifadə edilir. Xalq təsərrüfatının əsas struktur bölməsi olan sahə müvafiq vahidlərin yerləşmə ərazisindən, onların idarə tabeliyindən və başqa əlamətlərdən asılı olmayaraq, sosial iqtisadi məzmununa görə eyni funksiyaları yerinə yetirən idarə, müəssisə və təşkilatların məcmusudur. Müasir xalq təsərrüfatının sahəvi bölgüsü ictimai əmək bölgüsünün inkişafı prosesinin nəticəsidir. Bu inkişaf sayəsində xalq təsərrüfatı sahələri arasında diferensiasiya baş verir.

Xalq təsərrüfatının inkişafı proseslərini və onun perspektivlərini tədqiq etmək üçün xalq təsərrüfatının struktur bölmələri arasında nisbətlər, eləcə də toplu iqtisadi göstəricilər arasında nisbətlər böyük əhəmiyyət kəsb edir. Əsas xalq təsərrüfatı proporsiyalarına (nisbətlərinə) aşağıdakılar aiddir: istehsal vasitələri istehsalı ilə istehlak predmetləri istehsalı arasında nisbətlər, sənaye və kənd təsərrüfatı, bütövlükdə maddi istehsal və qeyri-istehsal sferası arasındakı nisbət.

Xalq təsərrüfatı sahələrinin, sektorlarının, ictimai təkrar istehsal prosesi elementlərinin və göstəricilərinin qarşılıqlı əlaqələrini məhsulun istehsalı və bölgüsünün xalq təsərrüfatı balansında daha tam izləmək mümkündür.

Cədvəl 2

Azərbaycan SSR-in xalq təsərrüfatının sahə quruluşu (məcmu ictimai məhsula görə) (faktiki qiymətlərlə, faizlə)

	1980	1985	1987	1988	1989
Məcmu ictimai məhsul	100	100	100	100	100
o cümlədən xalq təsərrüfatının sahələri üzrə:					
sənaye	63,6	61,0	60,9	59,8	59,3
kənd təsərrüfatı	14,1	15,9	16,0	17,0	17,2
tikinti	9,6	9,9	10,6	10,9	10,7
nəqliyyat və rabitə	4,4	4,7	4,8	4,8	4,8
ticarət, maddi-texniki təminat, tədarüklər və digər sahələr	8,3	8,5	7,6	7,5	7,9

XALQ TƏSƏRRÜFATI BALANSI (XTB) – qeyri-bazar iqtisadiyyatı şəraitində əsas iqtisadi göstəriciləri, təkrar istehsalın sürət və proporsiyalarını əks etdirən balans cədvəlləri sistemi.

XTB-nin aşağıdakı bölmələri vardır: a) ictimai məhsulun və milli gəlirin təkrar istehsalı balansı; b) əmək balansı; c) milli sərvət balansı. XTB özünə aşağıdakı balans göstəricilərini daxil edir: ümumi ictimai məhsulun istehsalı, istehlakı və yığımı balansı (icmal maddi balans); ictimai məhsulun və milli gəlirin istehsalı, bölgüsü, yenidən bölgüsü və son istifadəsi balansı (toplu maliyyə balansı); ictimai məhsulun tədavülü balansı; məhsul və xidmətlərin istehsalı və bölgüsünün sahələrarası balansı; əhali balansı (demoqrafik balans); əmək resursları balansı; ixtisaslı fəhlə kadrları və mütəxəssislər balansı; əsas fondların balansı; kapital qoyuluşları balansı; əmək və əsas fondların sahələrarası balansı; dövlətin maliyyə resursları balansı; əhalinin pul gəlirləri və xərcləri balansı. Ölkənin iqtisadiyyatı XTB-də iki sferaya – istehsal (maddi nemətləri yaradan) və qeyri-istehsal (maddi nemətləri istehlak edən) sferalarına bölünür. İstehsal sferasında yaradılan məhsul maddi əşya formasına görə istehsal vasitələrinə və istehlak şeylərinə (predmetlərinə), dəyərinə görə isə keçirilmiş və yeni yaradılmış dəyərə (əvəzi ödəmə fondu və milli gəlir) bölünür. Öz növbəsində, sənayedə istehsal vasitələri istehsal edən sahələr sənayenin "A" qrupu, istehlak şeyləri istehsal edən sahələr isə sənayenin "B" qrupu adlanır. Maddi istehsalın və ölkənin xalq təsərrüfatının son nəticəsi bütövlükdə milli gəlirin həcmi ilə müəyyən edilir.

XALQ TƏSƏRRÜFATI PROPORSİYALARI – xalq təsərrüfatının sahə və sferalarının kəmiyyət nisbəti, iqtisadiyyatın sahə və sferaları arasında ictimai əməyin elə bölgüsüdür ki, bu və ya digər dövlətin iqtisadi inkişaf tipinin və sosial-iqtisadi formasiyanın çərçivəsində onların balanslaşdırılmış inkişafını və müxtəlif ictimai tələbatların ödənilməsini təmin edir.

Bu və ya digər xalq təsərrüfatı proporsiyaları həm hüquqi, həm də iqtisadi şərtlərlə və həmin cəmiyyətin qanunları ilə müəyyən edilir. Xalq təsərrüfatı proporsiyaları, yəni maddi istehsal sferası və qeyri-istehsal sferası arasında, istehsal vasitələri istehsalı və istehlak şeyləri istehsalı arasında, ictimai məhsul və milli gəlirin dəyərini yaradan ünsürlər arasında, milli gəlir tərkibində yığım və istehlak fondları arasında nisbəti ehtiva edir. Xalq təsərrüfatı proporsiyaları həmçinin istehsal amilləri arasında balansı: istehsal vasitələri, əmək qabiliyyətli və işləyən əhalinin sayı, dövriyyə fondları, kapital, o cümlədən bütün göstərilən istehsal amillərinin ərazi bölgüsü nöqteyi-nəzərindən balansı da əhatə edir.

Xalq təsərrüfatının strukturu necə olursa olsun, hər bir dövlətdə xalq təsərrüfatının tarazlığının saxlanılması üçün müəyyən orqanlar tərəfindən istehsal olunan, gətirilən və alınan məhsulun istehsal-mübadilə-bölgü-istehlak və yığım prosesi izlənir. Sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə və ticarətin inkişafında proporsiyalar, həmçinin geridə qalmış, lakin bir-biri ilə sıx bağlı olan xalq təsərrüfatı sahələri, məsələn, unun hazırlanması, çörək bişirilməsi və s. arasında tarazlıq nəzarətdə saxlanılır. Bu proporsiyalar həm sahələrarası, həm də sahədaxili proporsiyalar ola bilər.

Xüsusilə iri dövlətlər üçün iqtisadi və digər regionlar, bölgələr arasında məhsuldar qüvvələrin yerləşdirilməsi istehsal olunan məhsulun mübadiləsi nöqteyi-nəzərindən ərazi proporsiyaları da böyük əhəmiyyətə malikdir.

Məhsulun konkret növlərinin istehsalı və istehlakı arasında, əmtəə və xidmətlərin konkret növlərinin gətirilməsi, aparılması və istehlakı arasında və s. maddi proporsiyalar da əhəmiyyətlidir.

Bir çox ölkələrdə mühüm xalq təsərrüfatı nisbətlərinin optimallaşması üçün maddi və dəyər balansları, məsələn, məcmu maddi-maliyyə balansı, sahələrarası balans, milli gəlir balansı, ümumi ictimai məhsul balansı, pul gəlirləri və əhalinin gəlirləri balansı, əsas fondların balansı, tədiyə balansı, istehsal gücləri balansı, əmək resursları balansı, hesablaşma balansı, ticarət balansı və s. tərtib edilir.


Səmərəli xalq təsərrüfatı proporsiyalarının formalaşması faktiki yığılmış nisbətlərin, onların səmərəliliyinin və onların əsas istehsal amillərinə (kapital qoyuluşları, maddi və əmək resurslarının yenidən bölgüsü, həmçinin geridə qalan sahələrin inkişafı üçün stimulların yaradılması ilə onlara güzəşt və sub-

sidiyaların təqdim edilməsi vasitəsilə) təsirinin köməyi ilə bilərəkdən dəyişilməsinin sistematik öyrənilməsi yolu ilə təmin edilir. Proporsiyaların dəyişilməsi zəruriliyi ictimai tələbatların ödənilməsi, elmi-texniki tərəqqinin (ETT) sürətləndirilməsi, tələb və təklifin tələbatları ilə müəyyən edilir. Bazar iqtisadiyyatında dövlətin müdaxiləsi olmadan proporsiyalılıq pozulur, istehsalın artım dövrləri tənəzzül, depressiya, böhran dövrləri ilə əvəz edilir. Ona görə də, bir qayda olaraq, bir çox dövlətlərdə sərbəst bazar münasibətləri dövlətin tənzimləyici rolu ilə birləşdirilir.

XALQ TƏSƏRRÜFATI BALANSI SİSTEMİ (XTBS) – ənənəyə görə mərkəzləşdirilmiş planlaşdırmanın tətbiq edildiyi ölkələrdə istifadə olunan milli iqtisadiyyatın balansları sistemi, milli hesablar sistemi. Bazar iqtisadiyyatına keçidlə əlaqədar XTBS-dən milli hesablar sisteminə (MHS) keçid problemi yaranmışdır. Bu məsələ barədə vahid fikir yoxdur. Bəziləri belə hesab edirlər ki, inkişaf etməkdə olan ölkələrdə MHS-yə keçməkdənsə XTBS-nin saxlanılması münasibdir; digər mütəxəssislər bu problemin həllini hər iki konsepsiyanı özündə birləşdirən yeni supersistem yaratmaqda görürlər. Hazırda Avropa ölkələrinin əksəriyyətində MHS-dən istifadə edilir, inkişaf etməkdə olan ölkələrin çoxunda da milli hesablar sistemi işlənib hazırlanmaqdadır. Keçmiş SSRİ-də milli hesablar sisteminin yaradılmasına 1988-ci ildən başlanılmışdır. Bu sistem Avropa Statistika Komitəsinin metodikasına əsaslanır.

XALQ TƏSƏRRÜFATININ STRUKTURU – ictimai əmək bölgüsü sistemində istehsalın xüsusi əlamətləri və şərtləri ilə xarakterizə olunan xalq təsərrüfatının müxtəlif sahələrinə, yarımsahələrinə və bütöv sferalarına aid olan, hər bir ölkə üçün keyfiyyətcə yekcins və bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən təsərrüfat vahidləri qruplarının bu və ya digər dəsti. Ən iri struktur bölmələri iki sferadadır: özünün son nəticəsi maddi məhsul istehsal etmək olan istehsal sferası sahələri və qeyri-istehsal xidmətləri göstərən qeyri-istehsal sferaları sahələri (sxem 1). Öz növbəsində bu sahələrin hər biri əsas sahələrin iriləşmiş qruplarına bölünür. Təkrar istehsal prosesində iştirak nöqteyi-nəzərindən istehsal sahələri öz növbəsində istehsal vasitələri istehsalına – sənayenin "A" qrupuna və istehlak şeyləri istehsalına – sənayenin "B" qrupuna bölünür. Belə bölünmə daha çox sovet planlaşdırma sistemində istifadə olunurdu.

Xalq təsərrüffatı sahələrinin məcmusu



Sxem 1

Əmək cisimlərinin istifadə edilməsi nöqteyi-nəzərindən istehsal sahələri həmçinin sənayeyə, kənd təsərrüfatına və tikintiyə bölünür. Çox zaman statistikada sənaye sahələri, öz növbəsində, ağır sənaye sahələrinə: yanacaq sənayesi, elektroenergetika, qara metallurgiya, əlvan metallurgiya, maşınqayırma, kimya və neft-kimya sənayesinin kompleks sahələri, meşə, ağac emalı və sellüloz-kağız sənayesinin kompleks sahələri, tikinti materialları sənayesi; yüngül sənaye sahələrinə (bura toxuculuq, tikiş, dəri, ayaqqabı, xəz məhsulları istehsal edən sənaye sahələri); yeyinti məhsulları istehsal edən sahələrə (ət, süd, balıq sənayesi və s.) bölünür. Sadalanan sahələrdən hər biri eyni zamanda mikrosəviyyədə iqtisadiyyatın strukturunu formalaşdıran öz yarımsahə qruplarına və ayrı-ayrı yarımsahələrə malikdir.

Statistik cəhətdən xalq təsərrüfatının strukturu dəyər göstəricilərində ölkənin ümumi daxili məhsulunda (ÜDM-də), milli gəlirində, əsas fondlarında, ixracında bu və ya digər dərəcədə məşğul olan əhalinin strukturunda bölmənin xüsusi çəkisi kimi də təqdim edilə bilər. Hər bir dövlət onun milli və tarixi ənənələrindən, coğrafi, geoloji, geosiyasi şəraitindən və əhalinin əmək vərdişlərindən asılı olaraq xalq təsərrüfatı sahələrinin təkrarolunmaz kompleksini yaradır ki, bunun formalaşmasına həmçinin beynəlxalq əmək bölgüsü daha çox təsir göstərir.

XAMMAL VƏ MATERİALLARIN DƏYƏRİ – alış (istehlakçı) qiymətləri ilə hesablanır. Milli Hesablar Sistemində istifadə edilən göstərici (bax: Aralıq istehlak).

XARİCDƏ BİRBAŞA İNVESTİSİYALAŞMA – müəssisələrin xaricdə yaradılması formasında firmanın fəaliyyəti. Birbaşa investisiyalaşma həm daha ucuz resursların istifadəsindən əldə edilən iqtisadi fayda ilə, həm də kapital qoyuluşu üzərində tam nəzarətin saxlanması zamanı yeni bazarın qazanılması ilə şərtlənir.

XARİCİ ALƏM (QALAN DÜNYA) – Milli Hesablar Sistemində istifadə edilən anlayış. Bu anlayış vasitəsilə hər bir ölkənin xarici ölkələrlə qarşılıqlı əlaqələrini qiymətləndirmək mümkün olur.

XARİCİ BANK – kapitalı xarici əmanətçilərin *(sahiblərin)* hesabına tam və ya qismən formalaşan bank. O, onların mənafeyinə nəzarət və xidmət edir. Olduğu ölkədə xarici bankın fəaliyyəti milli qanunvericiliklə tənzimlənir.

XARİCİ BORC – beynəlxalq kreditin əsas forması. Xarici borc onu təqdim edən tərəfindən borc alana danışılmış pul vəsaiti məbləğinin (yaxud bu məbləğdə malların, xidmətlərin) müəyyən müddətə ötürülməsini nəzərdə tutur. Bu müddət bitənə qədər borclu kreditora götürdüyü məbləği faizlərlə qaytarmalıdır. Dövlətlər, banklar, korporasiyalar, inhisarlar, müəssisələr, beynəlxalq təşkilatlar arasında kredit münasibətləri xarici tərəfə borcun təqdim edilməsi, xarici kreditorlardan borc alınması zamanı yaranır. Dövlət xarici borcları borclu tərəfindən iki cür yerləşdirilir: xüsusi bank sindikatları və konsorsiumları tərəfindən müəyyən komisyon mükafat müqabilində dövlətin tapşırığı ilə və ya bilavasitə bir dövlət tərəfindən digərinə (istiqrazsız borclar).

Xarici borcların formaları

1. Xüsusi xarici borclar – ixrac, bank kreditləri və s.
2. Valyutaların növləri üzrə bir ölkənin kapital bazarında onun milli valyutasında alınan xarici borcları; bir neçə ölkənin kapital bazarında və ya bir ölkənin bazarında, amma bu ölkə üçün xarici valyutada alınan avrovalyuta borclarını fərqləndirirlər; bəzi hallarda borc borclu ölkənin valyutasında təqdim edilir.
3. Xarici borclar müddətlərinə görə qısamüddətli, ortamüddətli və uzunmüddətli olur.
4. Faiz ödənişi rejimindən və dərəcəsindən asılı olaraq, güzəştli borcları və kommersiya şərti ilə verilən borcları fərqləndirirlər.

XARİCİ BORCUN YENİDƏN İDARƏ EDİLMƏSİ – dövlətin xarici borcunun ödənilməsi şərtlərinin borclu ölkə və kreditor ölkələr (təşkilatlar) arasında razılaşdırılmaqla dəyişdirilməsi.

Xarici borcun yenidən idarə edilməsinin səbəbi borclunun öz borc öhdəliklərini əvvəlki şərtlərlə və əvvəlki müddətdə ödəmək qabiliyyətinin olmaması ilə bağlı ola bilər.

XARİCİ DÖVLƏT BORCU – xarici borclar və onlara görə ödənilməmiş faizlər üzrə müəyyən tarixə ölkənin ümumi borcudur ki, bu da xarici kreditor tərəfindən qaytarılmalı olan pul məbləğində əks olunur. Xarici dövlət borcu – dövlətin digər hökumətlərə borcu, ödənilməmiş xarici borclar və onlara görə ödənilməmiş faizlər üzrə beynəlxalq banklara borclar, yəni ölkənin cəmi pul öhdəlikləridir. Dövlət borcunun iki növü var: il üzrə cari xarici borc (cari ildə qaytarılmalıdır) və dövlətin ümumi (yığılmış) xarici borcu (cari və sonrakı illərdə qaytarılmalıdır). Xarici borca, adətən, ödənişi xarici valyutada, yaxud mal və xidmətlərlə həyata keçirilən və ödəniş balansına təsir edən borclar aid edilir. Əgər bu borc üzrə ödənişlər ölkənin xarici iqtisadi fəaliyyətindən xarici valyutanın daxil olmasının əhəmiyyətli hissəsini təşkil edir-

Cədvəl 1

Xarici borcu çox olan 20 ölkə

Ranq	Ölkə - Birlik	Xarici borc (mln. ABŞ dolları) 30 iyun 2011-ci il	Hər nəfərə düşən xarici borc (ABŞ dolları)	Xarici borc (ÜDM-ə nisbətən, faizlə)
1	Avropa Birliyi	16080000	32092	108 %
2	ABŞ	15033607	50000	100 %
3	Böyük Britaniya	9836000	147060	416 %
4	Almaniya	5624000	63493	159 %
5	Fransa	5633000	74410	188 %
6	Niderland	3733000	226503	470 %
7	Yaponiya	2719000	19300	57 %
8	İspaniya	2570000	52588	165 %
9	İtaliya	2684000	39234	101 %
10	İrlandiya	2357000	482340	1307,6 %
11	Lüksemburq	2146000	3759174	4604,5 %
12	Belçika	1399000	126188	267 %
13	İsveçrə	1346000	182899	271 %
14	Avstraliya	1302000	42057	92 %
15	Kanada	1181000	24749	62 %
16	İsveç	1016000	72594	165 %
17	Honkonq	903200	92725	311 %
18	Avstriya	883500	97411	212 %
19	Danimarka	626900	110216	196 %
20	Yunanıstan	583300	49525	167 %

sə, onda digər dövlətlər əlavə borcları həvəssiz və daha yüksək faizlərlə təqdim edir. Həmçinin girov və xüsusi zəmanət tələb edirlər və xaricdən yeni vəsaitin cəlb olunması çətinləşir. Əgər borcların ödənişi üzrə illik öhdəliklər xarici iqtisadi fəaliyyətdən bütün daxilolmaları ötürsə, bu zaman xarici borc böhranının baş verdiyindən danışırlar. Belə böhran bir sıra səbəblərə malikdir. Birincisi, borclu ölkə iqtisadi böhran şəraitindədir, yaxud öz iqtisadiyyatının idarə edilməsində böyük səhvlər buraxır, böyük büdcə defisitinə yol verərək (dövlət xərclərinin gəlirləri ötməsi), milli valyutanın kursunu artırır. Xarici borc böhranının ikinci səbəbi kommersiya bankları tərəfindən borclu ölkələrə kreditin əsassız olaraq təqdim edilməsidir ki, bu zaman da borcu ödəmək imkanı ilə müqayisədə onların borclarının miqyasının həddən artıq artması nəzərə alınmır.

Xarici borcun aradan qaldırılması üzrə tədbirlər:

Adətən, borclu ölkələr xarici borcun kənarlaşdırılması və ya azalması üzrə tədbirlər görür:

1. Borcu qızıl valyuta ehtiyatları hesabına ödəyirlər.
2. Qısamüddətli borcu uzunmüddətliyə çevirərək, xarici borcu qüvvətləndirirlər (yaxın vaxtda gözlənilən ödənişləri uzaq gələcəyə keçirirlər).
3. Kreditor-ölkələrlə xarici borcun ilkin şərtlərinə yenidən baxaraq, onun ödənilməsi üzrə yeni layihələr hazırlayırlar.
4. Konversiya yolu ilə xarici borcun ölçülərini azaldırlar (onu uzunmüddətli xarici investisiyalara çevirirlər: xarici kreditorlara daşınmaz əmlak əldə etmək, dövlət mülkiyyətinin özəlləşdirilməsində iştirak etməyə imkan verirlər).
5. Çətin vəziyyətə düşən borclu ölkələr güzəştli kreditlər üçün beynəlxalq banklara müraciət edir. Bu zaman borclu ölkələrin dövlət iqtisadi siyasətinə sərt tələblər təqdim olunur (dövlət büdcəsi defisitinin minimuma endirilməsi, pul buraxılışı və s.).

XARİCİ EFFEKTLƏR – üçüncü tərəfə xeyir və zərər gətirən fəaliyyət. Zərər aspekti daha çox ekologiya ilə bağlıdır. Müsbət aspektlər isə daha çox sosial sahəni əhatə edir. Xarici effektlərlə bağlı problemin həllinə iki cür yanaşma mövcuddur. İqtisadi rifah nəzəriyyəsinin banilərindən biri professor A.Piqu problemin həllini vergi kontekstində dövlətin rolunda, neoinstitusionalist R.Kouz isə məsələnin həllini bazar münasibətlərinin genişləndirilməsi və onun daxil etdiyi transaksion xərclər alətində görür.


XARİCİ ƏMƏK BAZARI – işçi qüvvəsinin təşkilatlararası (müəssisələrarası) hərəkəti nəticəsində formalaşan əmək bazarı. Bu zaman firma əməkdaşlarını başqa firma tərəfindən seçilmiş mütəxəssislərin hesabına formalaşdırır.

XARİCİ İQTİSADİ ƏLAQƏLƏR – ölkənin xarici dövlətlərlə ticarət, istehsal, elm və texnika sahəsində əlaqələri. Xarici iqtisadi əlaqələr beynəlxalq əmək bölgüsünün səmərəli istifadəsi məqsədilə iqtisadi və siyasi vəzifələrin, ticarət-iqtisadi, istehsal, elmi-texniki əməkdaşlığın istiqamətləri, forma, metodları və vasitələrinin, həmçinin xarici dövlətlərlə valyuta-maliyyə və kredit münasibətlərinin həll olunması üçün beynəlxalq iqtisadi münasibətlərin imkanlarının məcmusudur. Xarici iqtisadi əlaqələrin tənzimlənməsinin hüquqi bazası valyuta və kredit əməliyyatları haqqında, investisiyalar haqqında, gömrük tarifi haqqında, tarifin baza nomenklaturası kimi tarif və ticarət haqqında Ticarət və Tariflər üzrə Baş Saziş (TTBS) çərçivəsində malların təfsiri və kodlaşmasının harmonik sistemi haqqında razılaşmalar əsasında təkmilləşir.

Dövlət xarici iqtisadi əlaqələrin nizama salınması zamanı əməkdaşların hakimiyyət hüquqları, tərəflərin bərabərliyi, qarşılıqlı səmərə, daxili işlərə qarışmama və xarici dövlətlərlə müqavilə və razılaşmalar üzrə qəbul olunan öhdəliklərin vicdanla yerinə yetirilməsinə ciddi riayət olunması prinsiplərini rəhbər tutur. Ölkələr arasındakı bərabərhüquqlu, ədalətli və qarşılıqlı səmərəli münasibətlər iqtisadi ekspansiya və diskriminasiya ilə ziddiyyət təşkil edir.

Dövlətlər tərəfindən sərbəst ticarət zonalarının, sərbəst iqtisadi zonaların və birgə sahibkarlıq zonalarının yaradılması təcrübədən keçirilir, belə ki, onların yaradılması xarici iqtisadi əlaqələrin nizama salınması üçün xüsusi əlverişli şərtdir. Sərbəst iqtisadi zonalarda xarici kapitalın cəlb olunması üçün gətirilən məhsullar gömrük rüsumlarından azad edilir, vergilər aşağı salınır, ərazilərin və infrastruktur obyektlərinin icarəsi zamanı güzəştlərə gedilir, resurs-

Xarici iqtisadi əlaqələrin təsnifatı



Sxem 1

lara görə ödəniş azaldılır, kreditləşmə və sığortalaşmanın əlverişli şərtləri təqdim olunur, əsas fondların amortizasiyasının tezləşmiş müddətləri müəyyənləşdirilir və s. Sərbəst iqtisadi zonaların ərazilərində güzəştli valyuta-maliyyə və vergi rejimləri fəaliyyət göstərir.

XARİCİ İQTİSADİ RİSKLƏRİN SIĞORTALANMASI – beynəlxalq əməkdaşlığın bu və ya digər formalarının yerli və xarici iştirakçılarının maraqlarının qorunmasını təmin edən kompleks sığorta növləri. İxrac-idxal yüklərinin, onları daşıyan nəqliyyat vasitələrinin (gəmilərin, təyyarələrin, avtonəqliyyatın və s.), tikinti-quraşdırma risklərinin, ixrac kreditlərinin ölkədə və xaricdə xarici müəssisələrlə, firmalarla birgə yaradılan beynəlxalq ticarət-sənaye sərgilərinin, ölkədə yerləşən xarici şirkətlərin əmlakının və s. sığortalanmasını əhatə edir.

XARİCİ İQTİSADİ SİYASƏT – ölkə hökumətinin ixrac və idxal, gömrük rüsumları, tariflər, məhdudiyyətlər, xarici kapitalın cəlb olunması və kapitalın xaricə çıxarılması, xarici borclar, digər ölkələrə iqtisadi yardım göstərilməsi, birgə iqtisadi layihələrin həyata keçirilməsi sahəsində apardığı dövlət siyasəti.

Xarici iqtisadi siyasətin əsas prinsipləri beynəlxalq razılaşmalar nəzərə alınmaqla işlənib hazırlanmış gömrük qanunvericiliyində öz əksini tapır və özündə aşağıdakıları cəmləyir: gömrük məcəlləsi, gömrük təlimatı və gömrük tarifi, idxal siyahısı, idxal və ixrac kvotası. İdxal siyahısı ölkəyə mal idxalını tənzimləyir. Burada göstərilir: ölkənin gömrük sərhədləri, rüsumsuz ticarət əraziləri, gömrük baxışının əsasları, malların gömrük dəyərinin müəyyənləşdirilməsi, uçot və nəzarət qaydası, xarici iqtisadi əlaqələrə dövlət müdaxiləsi formaları, mal mübadiləsi iştirakçılarının


hüquq və öhdəlikləri, ölkə və mal qrupundan, eləcə də malın gələcək təyinatından asılı olaraq, gömrük vergilərinin qoyulma qaydası. "Kvota" termini xarici iqtisadi siyasətdə bir neçə mənada işlədilir, bunlardan biri kvotanı – natural və ya dəyər təcəssümündə malların idxalı və ixracı həcminə kəmiyyət məhdudiyyətlərinin müəyyən olunması yolu ilə (müəyyən müddət və ya dövrə) ixrac və idxal əməliyyatlarının tənzimlənmə metodu kimi təqdim edir.

Xarici iqtisadi siyasət vasitələrinə daxildir:

1. Malların aparılmasına və ya gətirilməsinə kəmiyyət hədlərinin müəyyənləşdirilməsi.
2. İxraca və ya idxala lisenziya və ya embarqo sisteminin işlənib hazırlanması.
3. Tədarük olunan malların ayrılması üzrə tədbirlər (keyfiyyətə, malların tərtibatı və ya qablaşdırılmasına yüksək tələblərin müəyyən edilməsi, gömrük prosedurlarının və sənədlərin rəsmiləşdirilməsinin mürəkkəbləşdirilməsi və s.).

XARİCİ İNVESTİSİYALAR – ölkə iqtisadiyyatına, o cümlədən sənayeyə, kənd təsərrüfatına, nəqliyyata və s. sahələrə xarici investorların (sərmayədarların) qoyduğu uzunmüddətli kapital qoyuluşları. Müstəqim (birbaşa) və portfel xarici investisiyalara bölünür. Müstəqim xarici investisiyalar maddi və digər dəyərlərin (qiymətlilərin) istehsalına sahibkarlıq kapitalı qoyuluşlarıdır. Onlar xarici şirkətlərin və birgə müəssisələrin filiallarının və şöbələrinin yaradılmasına, fəaliyyətdə olan müəssisələrin əldə edilməsinə,

Azərbaycan Respublikasında xarici investisiyalar (2010-cu il)



Qrafik 1

nəzarət səhm paketinin və ya nəzarət hüququ verən majoritar iştirakların əldə edilməsi yolu ilə yerli şirkət üzərində nəzarətin müəyyən edilməsinə, mənfəətin reinvestisiyası hesabına filialların mənfəətinin genişlənməsinə qoyulur. Portfel investisiyaları vəsaitlərin, səhmlərin və nəzarət hüququ olmayan minoritar iştirak kimi digər yerli qiymətli kağızların alınmasına və borcların (istiqrazların) və kreditlərin xarici hüquqi şəxslərə təqdim edilməsinə yönəldilən qoyuluşlardır. Dünya iqtisadiyyatının qloballaşdığı müasir şəraitdə ölkələr arasında xarici investisiyaların cəlb edilməsi sahəsində kəskin rəqabət davam edir. Bu məqsədlə onlar üçün əlverişli investisiya mühiti yaradılır. Onların öyrənilməsi zamanı hər bir ölkədə investisiyalaşmanın ümumiqtisadi şərtlərini və iqtisadi inkişafın sabitliyini, təsərrüfat qanunvericiliyini, sosial-iqtisadi vəziyyəti və s. xarakterizə edən göstəricilərdən istifadə olunur. Şirkətlər göstəricilər haqqında mövcud qanunvericiliyin təhlilinə, kapitalın repatriasiyası və mənfəətin köçürülməsinə dair valyuta rejiminə, vergi sisteminə xüsusi diqqət yetirirlər. Kapitalı idxal edən ölkələr xarici investisiyaların cəlb edilməsi proqramlarını işləyib hazırlayırlar. Xarici investisiyaların onu qəbul edən ölkənin iqtisadiyyatına həm müsbət, həm də mənfi təsir etməsini nəzərə almaq lazımdır. Müsbət effektlər sırasına kapital qoyuluşunun həcminin artması, iqtisadi inkişafın sürətlənməsi, vəsaitlərin axını hesabına tədiyə balansının vəziyyətinin yaxşılaşması, qabaqcıl texnologiyaların, təşkilati və idarəetmə təcrübəsinin və s. istifadə edilməsi aiddir. Mənfi effektlərə xarici investisiyalara mənfəətin köçürülməsi və kapitalların repatriasiyası üzündən tədiyə balansının vəziyyətinin pisləşməsi,

milli iqtisadiyyatın strukturunun mümkün deformasiyası, ənənəvi sahələrin tənəzzülü, yerli istehsalçılara təzyiq göstərilməsi, "çirkli" istehsalın ölkəyə köçürülməsi və yerli resursların vəhşicəsinə istismarı nəticəsində ətraf mühitin vəziyyətinin pisləşməsi, milli ənənələrin inkar edilməsi ilə, istehsalın təşkilinə, həyat tərzinə, istehlak modellərinə yad formaların yeridilməsi ilə əlaqədar sosial-mədəni şərtlərə mənfi təsir göstərilməsi, iqtisadi və texnoloji asılılığın sürətlənməsi aiddir. Bir çox ölkələrdə strateji əhəmiyyət kəsb edən bəzi sahələr, hərbi istehsal, hasilat sənayesinin bir sıra sahələri, nəqliyyat və maliyyə xidmətləri sferası, kütləvi informasiya vasitələri kimi sahələrdə xarici investorlar üçün məhdudiyyətlər mövcuddur.

XARİCİ İNVESTOR – xarici hüquqi şəxslər, o cümlədən özünün yerləşdiyi ölkənin qanunvericiliyinə uyğun olaraq yaradılan və investisiyanın həyata keçirilməsinə hüququ olan hər hansı müəssisə, şirkət, firma, təşkilat və ya assosiasiya; xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər; vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyətini aparmaq üçün onların qeydiyyatdan keçməsi şərtləri zamanı xaricdə daimi yaşayış yeri olan həmin Azərbaycan vətəndaşları; xarici dövlətlər; beynəlxalq təşkilatlar. Xarici investor – əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər və onların nümayəndəlikləri, habelə nizamnamə kapitalında xarici sərmayənin payı 50%-dən çox olan Azərbaycan Respublikasının hüquqi şəxsləridir.

XARİCİ QUBERNATOR – birjanın rəhbər orqanının seçilən və ya təyin olunan (broker fəaliyyəti ilə bağlı olmayan) üzvüdür ki, səhmləri birjada qiymətləndirilən səhmdarların, şirkətlərin maraqlarını hərracda əks etdirir.

XARİCİ MÜHİTİN TƏHLİLİ (ing. *external environment analysis*) – müəyyən müəssisə baxımından ətrafdakı bazar mühitinin ən mühüm amillərinin vəziyyətinin və inkişaf perspektivlərinin təhlili. Bu cür təhlildən marketinq siyasətinin (strateji marketinqin) işlənib hazırlanmasında istifadə edilir. Xarici mühitin təhlili bazar mühitinin aşağıdakı elementlərinin nəzərdən keçirilməsini tələb edir:

1) sahə, yəni analoji məhsul istehsal edən rəqib müəssisələrin məcmusu;

2) müəyyən əmtəə bazarı, yəni indiki dövrdə mövcud olan və potensial istehlakçıların məcmusu;

3) malgöndərənlər, yəni həmin müəssisənin malgöndərənləri və ya tərəfdaşları olan müəssisələrin məcmusu;

4) ətraf mühitin qlobal amilləri, yəni ətraf mühitin hüquqi, siyasi, təsərrüfat, demoqrafik, mənəvi-etik, texnoloji və digər şəraitinin məcmusu.

Müəssisə bu şəraitdə fəaliyyət göstərir və onların dəyişməsinə müəssisə bilavasitə təsir göstərə bilmir.

Menecmentdə ətraf mühitin təhlili – ətraf mühitin mütəhərrik və qeyri-müəyyən olması ilə əlaqədar yarana biləcək təhlükələri aşkar etmək üçün konkret şirkətə münasibətdə xarici amillərin təhlili. Xarici mühit amillərinə iqtisadi, sosial, siyasi, beynəlxalq və texnoloji amillər aiddir.

XARİCİ REKLAM – xarici reklam şitləri, plakatlar, binaların divarlarında və yol kənarlarında işıqlı qurğular şəklində reklam. Bu reklamda asanlıqla yadda qalan lakonik mətn və dərhal yadda saxlamaq üçün nəzərdə tutulan şəkillər olur.

Xarici reklamın növləri:

1. Satış yerlərində reklam – reklamın bu növü aşağıdakı sahələrdə yerləşdirilə bilər:

a) mağaza vitrinlərində;

b) mağazaların daxilində piştaxtalarda, rəflərdə təşkil edilən ekspozisiyalarda.

2. Nəqliyyatda reklam – reklamın bu növü ictimai nəqliyyatdan istifadə edən adamlar üçün nəzərdə tutulmuşdur.

Nəqliyyat reklamının növləri:

a) nəqliyyat vasitələrinin bütün tərəflərində yerləşdirilə bilən xarici reklam planşetləri;

b) stansiyalarda, ictimai nəqliyyat dayanacaqlarında və onların ətrafında yerləşdirilən stansiya plakatları.

XARİCİ REKLAM MÜHİTİ – reklam fəaliyyətində reklam verənlərlə reklam agentliklərinin işinin ümumi mühitini xarakterizə edən, onların fəaliyyətinə təsir göstərən amil və qüvvələrin məcmusu. Hazırda kütləvi informasiya vasitələrinin vəzifəsi reklam istehsalçıları ilə (reklam verənlərlə) reklam istehlakçıları arasında dayanıqlı əlaqənin müəyyən edilməsidir. Reklamın xarici mühiti haqqında dürüst məlumat (kütləvi informasiya vasitələri) istənilən müəssisənin uğurlu reklam fəaliyyəti üçün mühüm amildir. Ancaq bu halda təxmin etmək olar ki, aparılan reklam səmərəlidir.

Xarici reklam mühiti amilləri

– kütləvi informasiya vasitələri (radio, televiziya, çap və elektron KİV);

– inkişaf etmiş telekommunikasiya infrastrukturu (mobil rabitə vasitələri, internet, informasiyanın ötürülmə kanalları);

– reklam xidməti bazarında agentlər (reklamı, poliqrafiya və kütləvi media məhsullarını hazırlayanlar, reklam agentləri və şirkətlər).

Reklamın sosial mühiti (ictimai rəy və tələbin öyrənilmə xidməti, sosial tədqiqatlar institutu, reytinq agentlikləri və s.)

XARİCİ SIĞORTAÇI – öz ölkəsinin qanunvericiliyinə əsasən sığorta fəaliyyətini həyata keçirmək hüququ olan xarici hüquqi şəxs.

XARİCİ TƏKRAR SIĞORTAÇI – öz ölkəsinin qanunvericiliyinə əsasən təkrar sığorta fəaliyyətini həyata keçirmək hüququ olan xarici hüquqi şəxs.

XARİCİ TİCARƏT (ing. *foreign trade*, alm. *Anbenhandel*) – ölkələr arasında əmtəə və xidmətlərin aparılmasından (ixracından) və gətirilməsindən (idxalından) ibarət olan ticarət. Xarici ticarət əsasən kontraktlarla rəsmiləşdirilən kommersiya sövdələri vasitəsilə həyata keçirilir. Bu məqsədlə gömrük tarifi, lisenziyalaşdırma, kontingentləşdirmə və digər qeyri-tarif məhdudlaşdırmalarından, eləcə də ixracın birbaşa və dolayı yolla subsidiyalaşdırılmasından

Cədvəl 1


Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin dinamikası

İllər	Milyon ABŞ dolları ilə			
	ticarət dövriyyəsi	idxal	ixrac	saldo
1991	4 002,2	1 881,2	2 121,0	239,8
1992	2 423,8	939,8	1 484,0	544,2
1993	1 353,5	628,8	724,7	95,9
1994	1 430,6	777,9	652,7	-125,2
1995	1 304,9	667,7	637,2	-30,5
1996	1 591,9	960,6	631,3	-329,3
1997	1 575,7	794,4	781,3	-13,1
1998	1 682,6	1 076,5	606,1	-470,4
1999	1 965,6	1 035,9	929,7	-106,2
2000	2 917,3	1 172,1	1 745,2	573,1
2001	3 745,3	1 431,1	2 314,2	883,1
2002	3 832,9	1 665,5	2 167,4	501,9
2003	5 216,6	2 626,2	2 590,4	-35,8
2004	7 131,4	3 515,9	3 615,5	99,6
2005	8 558,4	4 211,2	4 347,2	136,0
2006	11 638,9	5 266,7	6 372,2	1 105,5
2007	11 771,7	5 713,5	6 058,2	344,7
2008	54 926,0	7 170,0	47 756,0	40 586,0
2009	20 824,5	6 123,1	14 701,4	8 578,3
2010	27 960,8	6 600,6	21 360,2	14 759,6

və başqa vasitələrdən istifadə edilir. Xarici ticarətin aparılması üçün müqavilə hüququ bazası ticarət müqaviləsi, ticarət sazişləri, tədiyyələr haqqında sazişlər, kredit sazişləri və başqa sənədlərdir. Bazar iqtisadiyyatı şəraitində ticarət maliyyə, xarici ticarət əməliyyatları müəssisələr, firmalar və idarələr tərəfindən müstəqil şəkildə həyata keçirilir (Azərbaycanın xarici ticarət əlaqələri il bağlı bəzi əsas göstəricilər cədvəl 1, 2 və sxem 1, 2-də verilir).

Xarici ticarət müqaviləsi (sazişi) – tərəflərdən biri (kontingent) xarici *hüquqi* şəxs olan və həm alıcı (idxalçı), həm də satıcı (ixracatçı) tərəfindən imza-

2010-cu ildə Azərbaycan Respublikasının ticarət tərəfdaşlarında iqtisadi artım (ötən ilə nisbətən, faizlə)



Sxem 1

lanan müqavilə (saziş). Müqavilədə mal, xidmət və s. mübadiləsi üzrə idxal-ixrac əməliyyatları sahəsində tərəflərin (kontingentlərin) müəyyən hüquq və vəzifələri təsbit olunur. *Müqavilənin* əsas şərti əmtəənin *mülkiyyət* hüququnun satıcıdan alıcıya keçməsidir.

Xarici ticarətdə orta qiymət indeksi – vaxt və ya ərazi üzrə ixrac (idxal) məhsullarının orta qiymət səviyyəsinin nisbi dəyişməsini əks etdirən göstərici.

Xarici ticarətin fiziki həcm indeksi – daimi qiymətlərlə əmtəələrin ixracının (idxalının) həcminin nisbi dəyişməsini əks etdirən göstərici.

Xarici ticarətin qiymət indeksləri (ixrac və idxal qiymətləri indeksləri) – xarici ticarət yollarına daxil olan məhsulların qiymət dinamikasını əks etdirir. İlkin məlumat daxili qiymət indeksindən prinsipial olaraq fərqlənir. Xarici ticarət indeksinin hesablanmasında əksər ölkələrdə konkret qiymətdən deyil, özündə idxal (ixrac) edilən məhsul növünün ümumi dəyərinin onun natural idxal (ixrac) həcminə olan nisbətini göstərən əmtəə qruplarının orta qiymətindən geniş istifadə edilir. Mahiyyətcə xarici ticarət indeksi orta qiymət indeksi hesab edilir. Bu indeks xarici ticarət fəaliyyətini həyata keçirən bütün təşkilatların uçotunun xüsusiyyətləri ilə şərtlənir və yalnız əmtəə dövriyyəsinin dəyərlə həcminin və satılmış əmtəələrin miqdarının yekun göstəricilərinin hesablanması üçün istifadə etməyə imkan verir. Əmtəə bölmələri və həmçinin ölkə üzrə xarici ticarət fəaliyyətində ayrı-ayrı əmtəə nomenklaturası və altqrupları qruplar üzrə qruplaşmalarda hesablanır. Daxili qiymətlərlə hesablamalar, hesabat ilinin əmtəə strukturu üzrə aparılır.

Xarici ticarətin ölçü vahidi təsnifatı – məlumatların vahid təsnifləşdirmə və kodlaşdırma sistemində (VTKS) istifadə olunan ölçü vahidləri təsnifatı.

Xarici ticarətin uçot sistemi – ticarəti "ümumi" və "xüsusi" hissəyə bölür və bu ayırma 1973-cü ildə Kiotoda imzalanmış gömrük qaydalarının sadələşdirilməsi və uyğunlaşdırılması üzrə Beynəlxalq Konvensiya qərarı əsasında aparılır. Daxili istifadə üçün ölkə ərazisinə gətirilən xarici mənşəli məhsullar, gömrük nəzarəti altında malların ölkə ərazisində

yenidən işlənməsi üçün idxal edilməsi; ölkənin gömrük anbarlarında daxili istifadə üçün elan edilmiş malların ölkəyə idxal edilməsi xüsusi idxala aid edilir. Ümumi idxal xarici mal idxalının bütün həcmini, eyni zamanda daha sonrakı təxsis edilmədən asılı olmayaraq (ölkə daxilində istifadə, ya da növbəti təkrar ixrac üçün), ölkənin sərbəst anbarlarına və sərbəst gömrük zonalarına idxalını əhatə edir. **Xüsusi ixrac** aşağıdakı növ tədarüklərdən ibarətdir: ölkə mənşəli malların sərhədlərdən xaricə aparılması; gömrük nəzarəti altında malların yenidən işlənməsindən sonra ixracı; "milliləşdirilmiş" malların ixracı (verilən ölkə ərazisində sərbəst tədavüldə olan xarici mənşəli məhsullar). **Ümumi ixraca** adı çəkilən əməliyyatlardan əlavə, sərbəst anbarlardan və sərbəst gömrük zonalarının ərazilərindən sərhədlərin xaricinə ixrac edilən xarici mənşəli mallar da aid edilir. Beləliklə, uçotun ümumi sistemində mənşəyi və təyinatından asılı olmayaraq, xüsusi sistem sayəsində – ölkənin gömrük sərhədlərindən keçirilərkən yeri dəyişdirilmiş mallar ölkəyə gələn (idxal) və ölkədən çıxan (ixrac) bütün mallar əks etdirilir.

XARİCİ TİCARƏT BANKI – ixracın kreditləşməsini, ixrac kreditlərinin sığortalanmasını həyata keçirən xüsusi kredit institutlarının bir növü.

XARİCİ TİCARƏT DÖVRİYYƏSİ – müəyyən vaxt: il, rüb, ay və s. ərzində ölkənin və ya ölkə qruplarının idxal və ixracının ümumi dəyəri. Bir çox ölkələrdə malların ixracının uçotu FOB satış qiyməti (gəminin göyərtəsinə və ya digər nəqliyyat vasitəsinə malların çatdırılması və yüklənməsi üzrə xərclər malın qiymətinə daxil edildikdə), idxalı isə SİF qiymətləri (malların daşınması və sığortası üzrə xərclər nəzərə alındıqda) üzrə aparılır. Ölkənin xarici ticarət dövriyyəsinin qiymətləndirilməsi xarici ticarətin statistikasında böyük əhəmiyyətə malikdir: onun əsasında orta qiymətlər, ticarət balansının saldosu, xarici ticarətin səmərəliliyi, elastiklik əmsalı və s. hesablanır. Xarici ticarət dövriyyəsi bazarın cari qiymətləri (uyğun illərin qiymətləri) və daimi qiymətlərlə hesablanır, xarici ticarət dövriyyəsi dinamikasının və onun strukturunun təhlili zamanı qiymət dəyişkənliyinin dinamikasını kənarlaşdırmağa imkan verir.

XARİCİ TİCARƏT KƏSİRİ – 1. İdxal üzrə tədiyələrin əmtəə və xidmətlərin icrasından gələn daxilolmalardan çox olması ilə əlaqədar ticarət balansının mənfi saldosu. 2. İdxalın dəyərinin ixracın dəyərindən çox olması halı. Müxtəsər mənada ölkənin xarici ticarət balansının passiv hissəsinin onun aktiv hissəsindən artıqlığıdır. Xarici ticarət saldosu əmtəə və xidmətlərlə ticarət üzrə ayrılıqda hesablana bilər. Belə ki, ölkə mallarla ticarətdə kəsirə, xidmətlərlə ticarətdə isə aktiv saldoya və ya əksinə malik ola bilər. Xarici ticarət kəsiri əmtəələrin aşağı rəqabət qabiliyyətindən, idxal və ixracın təkmil olmayan strukturundan, ölkə üçün ticarət şərtlərinin pisləşməsindən, iqtisadi konyunkturanın əlverişli olmayan dəyişkənliyindən və s. xəbər verir. Xarici ticarət kəsirinin səbəb və amillərinin aşkara çıxarılması və bununla bağlı olan problemlərin həll olunması milli iqtisadiyyatın sağlamlaşdırılması, xarici ticarət və xarici iqtisadi münasibətlərin tənzimlənməsi siyasətinin dəyişdirilməsi proqramlarının işlənib hazırlanması və həyata keçirilməsində böyük rol oynayır.

XARİCİ TİCARƏT QALIĞI (SALDOSU) – Milli Hesablar Sistemində ona xalis ixrac deyilir. İxracın həcmindən idxalın həcmini çıxdıqdan sonra yaranan fərqdir. İxracın həcmi idxalın həcmindən çox olduqda müsbət qalıq (saldo), idxalın həcmi ixracın həcmindən çox olduğu halda mənfi qalıq (saldo) yaranır.

XARİCİ TİCARƏT SİYASƏTİ – dövlət və ya dövlət qrupları tərəfindən digər ölkələrlə olan ticarət münasibətlərinin inkişaf etdirilməsi üçün tətbiq olunan məqsəd, vasitə və metodların məcmusu. Dünyanın əksər ölkələri üçün xarici ticarət siyasəti tədbirlərinin reallaşdırılması xarici iqtisadi əlaqələrin əsas formasıdır. Xarici ticarətin göstəriciləri – dəyər və fiziki həcm, ticarət balansı, idxal və ixracın dinamikası (ümumilikdə xarici ticarət dövriyyəsini təşkil edir), ticarət şərtləri, ixrac kvotası və s. Xarici ticarət dövriyyəsinin həcmləri beynəlxalq əmək bölgüsü ilə əlaqədardır. Əmək bölgüsünün üç əsas formasını ayırırlar: istehsal sahələri üzrə bölgü (ölkələrin xammal, aqrar və sənaye qruplarına ayrılması); müəyyən sahə, məhsul növlərində ixtisaslaşma;

ayrı-ayrı aqreqatlar, qovşaqlar və s. istehsalı üzrə ixtisaslaşma.
Xarici ticarət siyasəti amilləri:
1. Xarici ticarət siyasəti ixrac və idxalın coğrafi və əmtəə strukturunun müəyyənləşdirilməsini, onların dövlət tənzimləmə sistemlərini özündə cəmləyir.
2. Xarici ticarət müqavilələri ilə tərtib olunan kommersiya sövdələşmələrinin hüquqi bazası dövlət tərəfindən tənzimlənir. Bunun üçün gömrük tarifi, lisenziyalaşma (dövlət orqanları tərəfindən mal və xidmətlərin gətirilməsinə və aparılmasına icazələrin verilməsi), kontingentləşmə və digər qeyri-tarif məhdudiyyətləri, həmçinin ixracın birbaşa və dolayı subsidiyalaşması və digər vasitələr istifadə olunur.
3. Xarici ticarət üçün tətbiq olunan hesablaşma formaları və müqavilələrin valyuta şərtləri, ölkədə xarici ticarət fəaliyyətinin təşkilinin xüsusiyyətləri, xarici bazarda malların hərəkəti üzrə onun təcrübəsi və başlıcası, satılan mal və xidmətlərin rəqabətqabiliyyətliliyi, kreditləşmə şərtləri mühüm əhəmiyyət daşıyır.
4. Xarici ticarətin aparılması üçün ticarət müqavilələri və razılaşmalar, ödənişlər haqqında razılaşmalar, kredit razılaşmaları və digərləri müqavilə-hüquqi bazadır.
Xarici ticarət siyasətinin səmərəliliyi:
Xarici ticarət siyasəti çərçivəsində aparılan tədbirlərin səmərəliliyinin göstəriciləri və əmsalları aşağıdakılardır:
1. Ümumi milli məhsulda, ümumilikdə dünya mal dövriyyəsində ölkənin ixracının payı, milli istehlakın həcmində idxalın payı (cəmi və ayrı-ayrı qruplar üzrə), ölkənin dünya iqtisadiyyatında iştirakı.
2. Beynəlxalq əmək bölgüsü dinamikasının əmsalı, bu da ixracın həcmi əmsalının istehsal həcmi əmsalına nisbəti kimi müəyyən olunur.
3. Nisbi ixrac ixtisaslaşma əmsalı, bu da dünya ixracının ümumi həcmində ölkə ixracının xüsusi çəkisinin mal ixracının xüsusi çəkisinə nisbətinə bərabərdir və s.

XARİCİ TİCARƏT VERGİLƏRİ – idxal və ixrac əməliyyatları üçün ödənilən vergiləri, habelə gömrük rüsumlarını özündə əks etdirir.

XARİCİ VALYUTA – 1. Müvafiq xarici dövlətin və ya dövlətlər qrupunun ərazisində tədavüldə olan və qanuni ödəniş vasitəsi sayılan, eləcə də tədavüldən çıxarılmış və ya çıxarılan, lakin həmin ərazidə tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən banknotlar, xəzinə biletləri və sikkələr şəklində pul nişanları. 2. Xarici dövlətlərin pul vahidlərində, beynəlxalq pul və ya hesablaşma vahidlərində hesablarda olan vəsaitlər.

XARİCİ VALYUTADA ƏMANƏT – banklarda və ya digər kredit-maliyyə idarəsində xarici valyutada saxlanan vəsaitlər. Onun aşağıdakı növləri fərqləndirilir: a) bankın ilkin bildirişi ilə tam həcmdə şərtlənmiş müddət başa çatdıqdan sonra əmanətçi tərəfindən tələb olunan müddətli əmanətlər; əgər əmanətçi bu əmanəti vaxtından əvvəl bankdan götürürsə, onda o, əmanətin şərtinə müvafiq olaraq ya əmanətə görə faizləri itirir, ya da bu faizləri az miqdarda əldə edir; b) hər hansı bir vaxtda, lakin bankın ilkin bildirişi ilə bankdan tam və ya qismən götürülən tələb olunana qədər əmanətçilər. Xarici valyutada əmanətlərə görə banklar faizlər ödəyir ki, onların dərəcələri əmanətin məbləğindən, tipindən və müddətindən asılıdır.
Multi valyuta (bəzən onları "hibrid" adlandırırlar) adlanan əmanət və ya bank hesabları geniş yayılmışdır ki, bunlarla əməliyyatlar sahibinin arzusu ilə bir neçə valyutada aparıla bilər.


"XARİCİ" PULLAR – qızılla və ya qiymətli kağızlarla təmin edilmiş kağız və ya kredit pul nişanları, eləcə də tamdəyərli pullar, beynəlxalq əmtəə mübadiləsində tətbiq edilən pulun bir növü. Pulun təmin edilmiş olması onun xarici bazarda tədiyə vasitəsi funksiyalarını yerinə yetirməsi üçün zəruri şərtdir, lakin həmin pullar daxili bazarda da öz funksiyalarını yerinə yetirmək üçün az əhəmiyyət kəsb etmir. Heç bir təminatı olmayan pul, əslində, adi kağızdır. Beynəlxalq əmtəə mübadiləsinin inkişafının ilk mərhələlərində pulun qızıl ilə təmin edilmiş olması həmin pulun hesablaşmalarda iştirak etməsinin zəruri şərti idi. Müasir mərhələdə qızılın demonetizasiyası tamamilə başa çatdıqdan sonra (1976-cı ildə Yamayka Konfransının qərarına əsasən) pulun qızıl təminatı aradan qaldırılmışdır. İndi pullar onların buraxıldığı ölkələrin mərkəzi banklarının aktivləri ilə təmin edilmişdir.

Cədvəl 2

Azərbaycan Respublikasından ixracın ölkə qrupları üzrə strukturu (faizlə)

Ölkə qrupları	2006	2007	2008	2009	2010
Müstəqil Dövlətlər Birliyi (MDB)	10,1	18,2	2,4	7,7	9,3
Avropa İttifaqı (Aİ)	57,2	27,6	56,5	43,7	47,3
Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT)	20,8	35,9	5,3	12,3	12,8
İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT)	15,3	28,7	3,0	3,1	3,2
Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat (GUAM)	5,1	6,2	1,4	4,0	6,1
Neft İxrac Edən Ölkələrin Təşkilatı (OPEK)	5,0	14,3	4,1	6,5	5,4
İslam Konfransı Təşkilatı (İKT)	16,2	36,4	6,5	12,1	12,4
Asiya-Sakit okeanı İqtisadi Əməkdaşlıq Təşkilatı (ASİƏT)	9,9	24,3	23,9	34,8	27,3
Avropa Azad Ticarət Assosiasiyası (AATA)	0,1	0,1	0,2	0,1	0,4
Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiasiyası (ASEAN)	1,1	6,9	3,2	7,2	10,4
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT)	63,5	46,9	72,4	59,1	57,0

Azərbaycan Respublikasının xarici ticarəti (mln. ABŞ dolları)



Sxem 2

XARİCİ SIĞORTA BAZARI – müəyyən ərazidə sığortaçılarla və sığortalılarla qarşılıqlı əlaqədə olan və daxili bazarın hüdudlarından kənarda yerləşən bazar.

XARİZMATİK LİDERLƏR – imkanları transaksion rəhbərlərdən üstün olan bu tip liderlər işçiləri adi səviyyədən çox daha intensiv əməklə yüksəltmək bacarığına malikdirlər. Xarizmatik liderliyin mənbəyini əsas üç prinsip təşkil edir ki, bunlar aşağıdakılardır: işçilərə gələcək görünüşün dəqiq bölgüsünü vermək; kollektivin müdafiə etdiyi kooperativ dəyərlər yaratmaq; işçilərlə qarşılıqlı etibarı təmin etmək.

XATIRLATMA REKLAMI – istehlakçıya malı xatırlatmaq məqsədilə malın həyat tsiklinin yetkinlik mərhələsində geniş yayılmış reklam növü.

Xatırlatma reklamının vəzifələri:

1) malın təyinatını və ondan istifadə etməyin zəruriliyini istehlakçılara xatırlatmaq;

2) malı haradan almağın mümkün olmasını istehlakçıya xatırlatmaq;

3) mövsümlərarası dövrlərdə və tələbatın azaldığı vaxtlarda malın istehlakçıya xatırladılması;

4) istehlakçının əmtəə haqqında məlumatının yüksək səviyyədə saxlanması.

XEYİR GÜDƏN – sığorta ödəməsini (əmlak sığortası üzrə) və ya sığorta məbləğini (şəxsi sığorta üzrə) alan, lakin sığortalı olmayan və ya sığortalanmış olmayan şəxs. Xeyir güdən o şəxsdir ki, onun xeyrinə sığorta müqaviləsi bağlanmışdır. Xeyir güdənin əsas hüququ ondan ibarətdir ki, o, sığorta hadisəsi baş verərkən sığorta ödənişini alır. Xeyir güdən sığorta məbləğini almaq üçün təyin olunan şəxsdir. Bu şəxs sığorta müqaviləsinin bağlanması zamanı sığortalı (sığortalanmış şəxs) tərəfindən təyin olunur və ya onlar qanuna görə varis (varislər) ola bilərlər. Xeyir güdən – şəxsi sığorta üzrə sığorta məbləğini alan şəxs kimi öz ölümü zamanı sığortalının təyin etdiyi şəxsdir.

XEYRİYYƏ MÜQAVİLƏSİ (təmənnasız müqavilə) – bu müqaviləyə əsasən, tərəflərdən biri digər tərəfə bir şeyi təmənnasız təqdim etməyi öhdəyə götürür.

Xeyriyyə müqavilələri hüquqi şəxslər tərəfindən xeyriyyəçilik fəaliyyəti həyata keçirilərkən müəssisənin əmlakında baş vermiş dəyişiklikləri təşkilatın hesabatında əsaslandırılmış şəkildə əks etdirmək məqsədilə bağlanılır.

XƏLİLOV DÜNYAMİN ZAKİR OĞLU (1961) – Azərbaycan iqtisadçısı. Azərbaycan Neft və Kimya İnstitutunun elektromexanika və Azərbaycan Universitetinin hüquq fakültəsini bitirmişdir.



1984-cü ildə "Xəzərdənizneftqazsənaye" Ümumittifaq Sənaye Birliyində mühəndis, mühəndis-sazlayıcı, "Şelfqazavtomatika" İdarəsində mühəndis-sazlayıcı, mühəndis-dispetçer, 1991-ci ildən "İntexsentr" mərkəzində şöbə rəisi, Kinematoqrafçılar İttifaqının "Damla" təşkilatında sərəncamçı menecer, direktor müavini işləmişdir. 1992-ci ildən Azərbaycan Respublikasının Xarici İqtisadi Əlaqələr Nazirliyinin "Vneşekspertservis" şirkətində şöbə rəisi, direktor müavini, 1994-cü ildən "Avant" Məhdud Məsuliyyətli Cəmiyyətinin menecəri, 1997-ci ildən "Nurimpeks" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru, 1998-ci ildən "Vneşekspertservis" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş meneceri vəzifələrində çalışmışdır. 2005-ci ildə III çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir. Hazırda "General Construction" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktorudur.

XƏLİLOV HƏMZƏ AĞAKİŞİ OĞLU (1949) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof. 1976-cı ildə namizədlik, 1992-ci ildə aqrar problemlərin tədqiqi ilə bağlı doktorluq dissertasiyası müdafiə etmişdir. "Milli ərzaq təhlükəsizliyi: bazar trans formasiyaları və iqtisadi qloballaşma amilləri", "Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti" monoqrafiyalarının müəllifidir. 100-dən çox elmi və elmi-metodiki əsərin müəllifidir. Hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru, Dövlət Antiinhisar Komitəsinin əməkdaşıdır.



XƏLİLOV İSGƏNDƏR AĞASƏLİM OĞLU (1955) – azərbaycanlı sahibkar. Bakıda anadan olub.



1979-cu ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, 1984-cü ildə isə Moskva Hüquq Akademiyasını bitirmişdir. 1988-1991-ci illərdə Lukoyl şirkətinin prezidentinin müşaviri, 1991-ci ildən Lukoyl-Azərbaycan SC-nin direktorlar şurasının sədri seçilib. 1996-cı ildən Lukoyl-Türkiyə SC sədrinin vəzifələrini icra edir və eyni zamanda "Lukoil İnternational"ın idarə heyətinin üzvüdür. 2000-2002-ci illərdə Slavneft SC-nin beynəlxalq əlaqələr üzrə vitse-prezidenti, 2002-2006-cı illərdə Lukoyl Oversiz Holdinq Ltd.-nin beynəlxalq əlaqələr üzrə vitse-prezidenti, 2006-cı ildən bu günədək İSR Holdinqin prezidenti, Rus-Azərbaycan konqresinin vitse-prezidentidir.

İSR Holdinq 1995-ci ildə yaradılıb. Şirkətin fəaliyyəti yanacaq-energetika kompleksini, nəqliyyat, maliyyə, xidmət və sənayeni əhatə edir. Məhz 1995-ci ildə Bakıda İSR-in ilki olan hipermarket "RAMSTORE" yaranmışdır. Sonra Bakı Əyləncə Mərkəzi tikildi. 1998-ci ildə Fəvvarələr meydanında 200 avtomobillik yeraltı qarajı olan "İSR PLAZA" kompleksi açıldı. Həmin il "McDonald's" restoranlar şəbəkəsi yayılmağa başladı. Keçən əsrin 90-cı illərinin sonunda Bakı toxuculuq fabriki özəlləşdirildi. 2003-cü ildə holdinq Göyçay konserv zavodunun nəzarət paketini əldə etdi, 2004-cü ildə isə ehtiyatlarına görə Avropa ərazisində nəhəng zavod olan Yeni Neftçala Yod Zavodunu özəlləşdirdi. 2011-ci ildə holdinq Bakıda 140 mln. dollarlıq Hilton mehmanxanasını tikdirmişdir. 23 mərtəbəlik mehmanxananı ingilis şirkəti Public Areas layihələşdirmişdir. Holdinqə həmçinin Atəşgah sığorta şirkəti məxsusdur.

"XƏLVƏTİ" İQTİSADİYYAT – 1. Əmtəə-material qiymətlilərinin və xidmətlərin dövlət tərəfindən nəzarət edilməyən istehsalı, bölgüsü, mübadiləsi və istehlakı (cədvəl 1). 2. Ayrı-ayrı vətəndaşlar, sosial qruplar arasında dövlət, xüsusi səhmdar və digər mülkiyyət növlərindən tamah məqsədilə və qrup maraqları üçün istifadə edilməsi ilə əlaqədar dövlət idarəetmə orqanlarından gizlədilən qanunsuz sosial-iqtisadi münasibətlər. "Xəlvəti" iqtisadiyyatın strukturu həm kriminal, həm də qeyri-kriminal tipli münasibətlərlə təmsil olunur. Bu münasibətlər aşağıdakılardır:

Birinci tip, ayrı-ayrı vətəndaşlar və (və ya) qeyri-formal birliklər arasında dövlət tərəfindən qeydiyyata alınmayan və uçotu aparılmayan iqtisadi münasibətlərdir ("ikinci" iqtisadiyyat). Münasibətlərin bu tipi təsərrüfat mexanizminin nöqsanlarına, vətəndaşların ehtiyaclarına və tələbatına məhəl qoyulmamasına onların cavab reaksiyasıdır. Məsələn, vaxtilə SSRİ-də süni qadağalar vasitəsilə "ikinci" iqtisadiyyat zorakı yolla qeyri-leqal formalar kəsb edirdi. Buraya fərdi əmək fəaliyyətinin cinayət olmayan, lakin qeydiyyata alınmamış növləri; yardımçı və ev təsərrüfatının idarə edilməsi, mənzillərin, bağ evlərinin təmiri və tikintisi; avtomobillərin və məişət texnikasının təmiri və onlara xidmət; şəxsi nəqliyyat vasitələrində daşımalar; ehtiyacı olanlara tibbi, pedaqoji və texniki yardım göstərilməsi, mənzilin kirayə verilməsi və s. fəaliyyət növləri aid edilirdi. SSRİ dağıldıqdan sonra yeni müstəqil dövlətlərdə iqtisadiyyatın bu sektorunun xeyli dərəcədə leqallaşdırılmasına gətirib çıxarmışdır. Lakin maliyyə və vergi xidmətlərinin təşəkkül mərhələsində olması, iqtisadi münasibətlərin bir sıra hallarda inzibati vasitələrlə reqlamentləşdirilməsi və digər amillər bu prosesi qismən ləngidir.

Münasibətlərin ikinci tipi mövcud təsərrüfatçılıq sisteminin qeyri-mükəmməl forması hesabına şəxsi və qrup mənafelərinin həyata keçirilməsini təmin edən qeyri-formal, çox vaxt fiktiv xarakter daşıyan iqtisadi münasibətlərdir. Bu qeyri-formal iqtisadi münasibətlər: ictimai məhsulun təkrar hesablanması, rəqəmlərin şişirdilməsi və hesabatın başqa şəkildə təhrif olunması, keyfiyyətsiz (saxta) məhsullar buraxılması, səmərəsiz məsrəflər və itkilər, qeyri-ekvivalent xammal və hazır məhsul mübadiləsi, zəhmətsiz gəlirlər əldə etməyə imkan verən başqa fəaliyyət növləri şəklində təzahür edir. "Xəlvəti" münasibətlərin yuxarıda sadalanan növləri rəsmi iqtisadi strukturların daxilində fəaliyyət göstərir və korrupsiya, rüşvətxorluq, pul qo-

Cədvəl 1

İnkişaf etməkdə olan, Şərqi və Mərkəzi Avropa, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri üzrə "xəlvəti" iqtisadiyyatın orta göstəricisi

Region	"Xəlvəti iqtisadiyyatın orta göstəricisi			
	1989/1993	1999/2000	2001/2002	2002/2003
İnkişaf etməkdə olan ölkələr				
Afrika ölkələri	39,4-43,9	41,3	42,3	44,6
Asiya ölkələri	35,0	28,5	29,5	30,4
Mərkəzi və Cənubi Amerika	38,9	41,1	42,2	43,4
Şərqi və Mərkəzi Avropa	20,7-32,4	38,1	39,1	40,1
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan inkişaf etmiş ölkələr	11,9-15,1	16,8	16,7	16,3
Postsosialist ölkələri	-	19,8	21,1	22,3
Orta göstərici	32,0	33,6	34,5	35,2

Mənbə: Şnayder, Ernste Dominik (2000), Şnayder (2005)

partmaq (reket) kimi hallarla müşayiət olunur.

Üçüncü tipə qanunsuz istehsal fəaliyyətinə, xidməti mövqedən sui-istifadə edilməsinə, iqtisadiyyatın istehsal və bölgü sferalarına tamahkarlıq məqsədilə zorakı yolla müdaxilə edilməsinə əsaslanan kriminal münasibətlər aiddir. "Xəlvəti" iqtisadiyyat münasibətlərinin bu tipi iqtisadi cinayətkarlığın bir sıra növlərini, o cümlədən onun cəmiyyət üçün ən təhlükəli təzahür forması olan mütəşəkkil iqtisadi cinayətkarlığı əhatə edir. Burada səciyyəvi hüquq pozuntuları aşağıdakılardır: çox vaxt insan hüquqlarının pozulması ilə əlaqədar olan qanunsuz istehsal fəaliyyəti; oğurluq; tamah məqsədilə törədilən vəzifə və təsərrüfat cinayətləri; narkobiznes; qanunsuz oyun biznesi və s. "Xəlvəti" iqtisadiyyatın bu növünün geniş yayılmış formalarından biri də gəlirlərin vergidən gizlədilməsidir.

Dünya Bankının məlumatlarına əsasən, "xəlvəti" iqtisadiyyat orta hesabla ÜDM-in 35,2%-ni təşkil edir. "Xəlvəti" iqtisadiyyatın ən böyük göstəricisi Nigeriyada (76%), ən kiçik göstəricisi isə İsveçrədə (8%) qeydə alınıb. ABŞ-da bu göstərici 8,9% olmasına baxmayaraq, mütləq kəmiyyət baxımından (700 mlrd. dollar) ən böyükdür. Rusiyada isə "xəlvəti" iqtisadiyyat ÜDM-in 48,7%-dir.

Dünya səviyyəli ekspertlər belə hesab edirlər ki, "xəlvəti" iqtisadiyyat bütün dünya ölkələrində olub və olacaqdır. Ekspertlər beynəlxalq səviyyədə aparılmış tədqiqatlardan belə nəticə çıxarırlar ki, bunun bir neçə səbəbi var. Birinci səbəb vergi yükünün ağır olmasıdır. Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, bütün "xəlvəti" iqtisadiyyatın yarıdan çoxu məhz bu səbəbdən yaranır. İkinci səbəb dövlət idarəetmə orqanlarında olan rüşvətxorluqdur. Sahibkarlar qeyd edirlər ki, yeni işə başlayarkən, lisenziya və ya şəhadətnamə əldə etmək lazım olduqda onlardan rüşvət tələb olunur. Üçüncü səbəb kimi isə digər amillər – ayırmalar, bürokratiya və s. göstərilir. Ona görə də bir sıra sahibkarlar "xəlvəti" iqtisadiyyatın yaradılmasında və işçilərə əmək haqqının zərflərdə verilməsində maraqlıdırlar.

XƏLVƏTİ QİYMƏT – mal və ya xidmət üçün bazar olmaması və ya mövcud bazarda meyillərin çox böyük olması səbəbindən həmin malın və ya xidmətin qiymətini (dəyərini) dəqiq təyin etmək mümkün olmadıqda malın və ya xidmətin təxmini və ya təqdim edilmiş qiyməti (dəyəri). Qiymətin (dəyərin) şərti hesablanması normal bazar mövcud olacağı təqdirdə qiymətin (dəyərin) hesablanması üçün ən yaxşı üsul olardı.

Xəlvəti qiymətin tətbiq edilməsi

Bəzən şirkətin daxilində ticarətdə xəlvəti qiymətdən istifadə edilir. "B" bölməsində istehsal amilləri eyni zamanda "A" bölməsində istehsalın həcmi deməkdir. Bu iki bölmənin ekvivalent bazar qiymətini bilməməsi tamamilə mümkün haldır, çünki həmin məhsulun (məsələn, yarımfabrikatların, dəstləşdirmə detallarının və ya rəhbərlərin xidmətlərinin) açıq bazarı yoxdur. Əqdin dəyəri, adətən, hesablanmış xərclər ilə cəlb edilmiş kapitalın mənfəətinin cəminə əsaslanan xəlvəti qiymət üzrə təyin edilir.

XƏRCLƏR – iqtisadi subyektlər tərəfindən hər hansı bir fəaliyyətin həyata keçirilməsi zamanı sərf olunan iqtisadi resursların dəyərinin pulla ifadəsi. Formal olaraq xərclər sərf olunan resursların qiymətinin və onların miqdarının törəməsi kimi nəzərdə tutula bilər. Lakin bu kəmiyyətlər müxtəlif üsullarla hesablana bilər. Onların uçotu üsulları məhz xərclərin təsnifatlaşması meyarları hesab olunur. Xərclərin müəyyən edilməsi zamanı istifadə edilən qiymətlərdən asılı olaraq faktiki qiymətlərdəki xərclər və alternativ xərclər fərqləndirilir. Faktiki qiymətlərdəki xərclər sərf olunmuş resursların alınmasının faktiki qiymətləri ilə bu resursların dəyərinin cəmidir. Alternativ xərclər həmin resurslardan istifadənin bütün mümkün alternativ istiqamətlərindən ən əlverişlisi zamanı həyata keçirilə bilən digər nemətlərin dəyərində ifadə olunur. Belə ki, müəyyən torpaq sahəsində becərilən qarğıdalının istehsalına çəkilən xərcləri bu sahədə hasil edilən qarğıdalının dəyəri kimi təsəvvür etmək olar. Xərclərin qiymətləndirilməsinin birinci üsulunu çox zaman "mühasibat", ikinci üsulunu isə "iqtisadi" üsul adlandırırlar. Əgər müəssisə resursları müvafiq bazarlarda tələb və təklifin həcmi tarazlı olan qiymətlər üzrə, yəni ən yaxşı alternativ qiymətlər üzrə əldə edirsə, o halda faktiki qiymətlərlə hesablanan xərclər və alternativ xərclər üst-üstə düşür. Əgər resursların qiymətləri ya dövlət müdaxiləsinin nəticəsi və ya bazarın özünün natamam olması kimi tarazlı amillərdən kənarlaşarsa, onda faktiki əldəetmə qiymətləri alternativ xərclərdən yüksək və ya aşağı ola bilər, deməli, faktiki xərclər alternativ xərclərlə üst-üstə düşməyəcəkdir.

Alternativ qiymət kateqoriyası xərclərin iqtisadi təbiətini daha yaxşı dərk etməyə kömək edir. Hər hansı bir nemətin istehsalı o zaman məqsədəuyğundur ki, bu nemət nisbətən nadir nemətdir, yəni müstəqil iqtisadi dəyərə malikdir. Əgər bu nemətin mütləq bolluğu mövcuddursa, onda onun dəyəri və qiyməti çox cüzi olacaq, buna görə də onun istehsalının alternativ xərcləri sıfır olacaqdır.

İstehsalçının sərf edilən resursların növünü və miqdarını nə qədər tam nəzərə almasından asılı olaraq, xüsusi və ictimai xərcləri fərqləndirmək olar. Bəzi hallarda istehsalçı resursların bir hissəsini özü üçün pulsuz ala bilər, lakin onlardan istifadə edilməsi digər şəxslər üçün xərclərlə əlaqədar olacaqdır.

Üçüncü şəxslərin daşıdığı və istehsalçıların onlara ödəmədiyi bu məhsul istehsalı xərcləri xarici xərclər adlanır. Onlar ictimai xərclərlə xüsusi xərclər arasındakı fərqi təşkil edir. Belə ki, neft emalı zavodunun fəaliyyət göstərməsi ilə əlaqədar ictimai xərclər, çox güman ki, ətraf mühitin çirklənməsi nəticələrinin kompensasiyasına çəkilən əlavə (zavod üçün xarici) məsrəflərin kəmiyyəti üçün bu müəssisənin xüsusi xərclərindən çox olacaqdır. Bununla belə, kompensasiyanın dövlətin, yerli özünüidarəetmə orqanlarının və ya yaxınlıqda yerləşən rayonların öz sakinləri hesabına həyata keçirilməsi bir o qədər də vacib deyil. İctimai və xüsusi xərclər yalnız xarici məsrəflərin olması zamanı üst-üstə düşəcəkdir.

Müəssisələrin ümumi xərcləri aşkar və qeyri-aşkar xərclərin cəmi kimi hesablana bilər. Aşkar xərclər resurs göndərənlərə birbaşa tədiyələr formasını qəbul edən xərclərdir. Aşkar xərclərin sırasına materialların və dəst məmulatları göndərənlərin ödəmələri, hüquqi məsləhətə görə qonorarlar, nəqliyyat xərclərinin ödənilməsi və s. daxildir. Qeyri-aşkar xərclər isə həmin müəssisənin mülkiyyətində olan resurslardan istifadə edilməsidir. Kapital mülkiyyətçisi üçün qeyri-aşkar xərclər həmin işə yox, hər hansı bir digər işə öz kapitalını qoyaraq aldığı mənfəətlə ifadə oluna bilər.

Qısamüddətli perspektivdə ümumi xərcləri sabit və dəyişən xərclərə bölmək olar. Sabit xərclər

dedikdə ölçüsü həmin məqamda istehsalın kəmiyyətindən və strukturundan, müəssisənin məhsulunun reallaşmasından bilavasitə asılı olmayan xərclər başa düşülür. Dəyişən xərclər isə, əksinə, müəyyən dövr ərzində istehsalın həcmindən və strukturundan, məhsulun reallaşmasından bilavasitə asılıdır. Müəssisənin istehsal güclərinin dəyişməsi mümkün olduğu uzunmüddətli perspektivdə onun bütün xərcləri dəyişən xərclər kimi nəzərdən keçirilməlidir. Xərcləri sərf olunan resursları növlərinə görə fərqləndirmək olar. Adətən, bu cür təsnifat kalkulyasiya maddələri üzrə bölünmə adlanır.

Əksər müəssisələr üçün material və dəst məmulatlarına çəkilən məsrəflər xərclərin ən mühüm maddəsini təşkil edir. Sənaye müəssisələrində bu maddə xammal və köməkçi materiallara çəkilən məsrəfləri, eləcə də kənardan alınan mümkün yarımfabrikatları və dəst detalları ehtiva edir. Ticarət müəssisələrində onlara malların (əmtəələrin) alınmasına çəkilən bütün məsrəflər daxildir. Çünki bu xərclərin kəmiyyəti bilavasitə istehsalın həcmindən asılıdır, onlar dəyişən xərclərdir. Xərclərin digər əhəmiyyətli maddəsi – əməyin ödənilməsi üzrə xərclərdir. Bir sıra xidmət sferası müəssisələrində (məsələn, hüquq və ya məsləhət firmalarında) əməyin ödənilməsi üzrə xərclər üstünlük təşkil edir. Onlar, öz növbəsində, əmək haqqına və əlavə güzəştlərə bölünür. Ənənəvi olaraq mərkəzi inzibati personalın əmək haqqı sabit xərclər kimi, fəhlələrin əmək haqqı isə dəyişən xərclər kimi hesab olunur. Lakin hər bir konkret müəssisədə bu cür bölgü kifayət qədər çevikdir. Xərclərin xüsusi maddəsi – amortizasiya ayırmalarıdır. Amortizasiya ayırmaları sabit xərclərin bir hissəsidir ki, bu da əsas fondlardan bir neçə müddətə istifadə edilməsi üçün onların alınması məqsədilə birdəfəlik məsrəflərin bölgüsü yolu ilə hesablanır.



Sxem 1

Xərclərin digər maddələrinə aiddir: avadanlığın saxlanması və istismarı xərcləri (bir qayda olaraq sabit xərclər); satıcılara və ticarət agentlərinə verilən mükafatlar, geniş mənada reklam xərcləri, nəqliyyat xərcləri (bu xidmətlərin əksəriyyəti dəyişən xərclərdir) daxil olmaqla marketinq xərcləri; müəssisənin maliyyəsinin idarə edilməsi üzrə xərclər, hər şeydən əvvəl, reditorlara ödəmələrə, eləcə də əgər müəssisə fond bazarında qiymətli kağızları reallaşdırırsa və ya alırsa, müxtəlif fond vasitəçilərinə verilən mükafatlar; personalın (şəxsi heyətin) idarə edilməsi üzrə xərclər. Sonuncu iki qrup xərclər həm sabit, həm də dəyişən xərclərdir.

Təcrübədə aşağıdakılar da fərqləndirilir: gələcək dövrün xərcləri, xarici xərclər, təkrar istehsal xərcləri, pul xərcləri, əlavə xərclər, çirklənmə xərcləri, fərdi xərclər, dolayı xərclər, qeyri-məhsuldar xərclər, normativ xərclər, ictimai xərclər, ümumi xərclər, əsas xərclər, boşdayanma xərcləri, keçici xərclər, ikinci dərəcəli xərclər, satış xərcləri, istehsal xərcləri, əmək xərcləri, təsərrüfat xərcləri, saxlama xərcləri, xalis xərclər, istismar xərcləri, avans xərcləri, inzibati-idarə xərcləri, vergiyə cəlb olunmayan xərclər, qeyri-məhsuldar xərclər, dövriyyə xərcləri, operativ xərclər, əməliyyat xərcləri, təşkilati xərclər, daimi xərclər, məhsuldar xərclər, orta xərclər, cari xərclər, məqsədli xərclər. Kommersiya təşkilatlarının xərclərinin əsas istiqamətləri sxem 1-də verilmişdir.

İlkin xərclər (məsrəflər) – şirkətin yaradılması ilə bağlı xərclər. Bu xərclər mal və xidmətlərin alınmasına çəkilən xərcləri özündə birləşdirməyə də bilər. Bura təşkilati xərclər, bazarın öyrənilməsinə, reklama çəkilən xərclər və s. daxildir.

XƏRCLƏR İNFLYASİYASI – istehsal xərclərinin artımında təzahür olunan inflyasiya növü, başqa sözlə, bazar iqtisadiyyatında istehsal amillərinə olan qiymətlərin kəskin surətdə yüksəlməsi üzündən məcmu təklifin məcmu tələb üzərində qısamüddətli yüksəlməsi ilə şərtlənən inflyasiya. Bu cür yüksəlmə, bir qayda olaraq, məhsuldarlığın aşağı düşməsini, ixrac xammalının xeyli bahalaşmasını, yaxud milli valyutanın məzənnəsinin aşağı düşməsini doğurur. Xərclər inflyasiyası bazar iqtisadiyyatında istehsalın həcminin azalması ilə və işsizliyin artması ilə müşayiət olunur. Dəyişməz məcmu tələb zamanı bu əmək haqqının azalmasına, istehsal amillərinin digər məsrəflərinin aşağı düşməsinə səbəb olur ki, bu da son nəticədə qiymətlərin enməsinə gətirib çıxarır. Əgər pul təklifi artarsa və büdcənin nominal xərcləri yüksələrsə, onda məcmu tələb artır, uyğun olaraq istehsalın həcmi artır, işsizlik azalır. Lakin son məhsulun qiymətlərinin sonrakı artımı baş verir. Xərc inflyasiyasının əsasında xərclərin, yəni müəyyən istehsal zamanı orta xərclərin artması durur. Məhsul vahidi xərclərinin yüksəlməsi mənfəəti və mövcud qiymət səviyyəsi zamanı istehsalın həcmini azaldır. Məcmu təklifin azalması qiymət səviyyəsini artırır.

XƏRCLƏR BURAXILIŞ MODELİ – riyazi-iqtisadi model olaraq, istehsal və məhsul bölgüsünün sahələrarası balansına, konkret olaraq isə məhsulun dəyəri ilə onun buraxılışının pul ifadəsində xərclər məbləğinin müqayisəsinə əsaslanır.

XƏRCLƏRİN ARTIMI İLƏ ŞƏRTLƏNƏN İNFLYASİYA – əmək haqqının və xammalın qiymətlərinin yüksəlməsi nəticəsində qiymət artımının doğurduğu və istehsalın real həcminin və məşğulluğun azalması ilə müşayiət olunan inflyasiya.

"XƏRCLƏR-SƏMƏRƏLƏR" TƏHLİLİ (ing. *cost-benefit analysis*) – nəzərdən keçirilən layihənin reallaşması nəticəsində bütövlükdə cəmiyyətin və ya ayrı-ayrı istehlakçı qruplarının əldə etdiyi səmərələrin həmin layihənin həyata keçirilməsinə çəkilmiş xərclərlə müqayisə yolu ilə qiymətləndirilməsindən ibarət tədqiqat. Təhlilin bu növü mövcud gəlirlərin və xərclərin müqayisəsindən ibarət olmaqla resurslardan optimal istifadə edilməsi və onların bölüşdürülməsi haqqında qərar qəbul etməyə imkan verir. Strateji planlaşdırma prosesində tez-tez istifadə edilir.

"XƏSTƏLİK QORXUSU" – polis, sığorta məbləğinin ödənişidir ki, buna görə onun fəaliyyət müddəti ərzində müəyyən xəstəliklərin aşkar edilməsi ilə müşayiət olunmalıdır.

XƏSTƏLİK SIĞORTASI – tibbi sığortanın bir növü. Tibbi sığorta ilə müqayisədə daha dar dairədə sığorta məsuliyyətini nəzərdə tutur (başlıca olaraq xəstəlik zamanı). Xəstəlik sığortasının aparılmasının təşkilati

formalarından biri xəstəlik kassalarıdır. Bu kassalar konkret regiona, əhalinin peşə qruplarına, sahə və ya istehsal müəssisələrinə istiqamətlənir, sığortalıların haqları hesabına sığorta fondu yaradır. Onlar həmçinin sığortalanmışların xəstələnməsi zamanı həkim yardımının göstərilməsinə zəmanət verən həkimlərin birlikləri ilə müqavilələr bağlayır, göstərilən xidmətlərə görə hesablamalar aparırlar. Bu xidmətlərin həcmi və onların haqqının ödənilməsi ölçüsü müqavilə bağlanması zamanı müəyyən edilir.

XƏSTƏLİKLƏRDƏN VƏ MÜALİCƏ XƏRCLƏRİNDƏN SIĞORTALANMA – sağlamlıq sığortası forması. Xəstəlik nəticəsində zəruri müalicə zamanı sığorta müdafiəsini təmin edir. Fərdi, ailə və kollektiv sığorta formasında aparılır. Sığorta müqaviləsinə görə, ödənişlər müqavilə xərclərinin maliyyələşməsi formasında nəzərdə tutulur.

XƏTT – xüsusi hesabın adı. Xətt sığortaçının, təkrar sığortaçının xarakteristikası üçün istifadə olunur. Xətt – sedentin prioritetinin dəfələrlə miqdarı ölçüsündə müəyyən edilən təkrar sığortalanan məbləğin maksimum kəmiyyətidir.

XƏTTİ İSTEHSAL FUNKSİYASI – istehsal funksiyalarından ən sadəsi. Xəttilik fərziyyəsi çox hallarda reallığa uyğun olmur, buna görə də xətti istehsal funksiyası kifayət qədər mücərrəddir və aşağıdakı şəkildədir:

$$y = a_1x_1+a_2x_2+...a_nx_n$$

Burada a_i – parametrdir. Əvəzetmənin bütün maksimum normalarının sabit olması fərziyyə olunur, elastikliyin maksimum normaları isə sonsuzluğa bərabərdir, x_i – istehsal ehtiyatlarıdır, i=1,..., n; y – buraxılışıdır. Əgər asılı olmayan dəyişənlər kimi x_i iştirak edirsə, onda xətti istehsal funksiyası buraxılış funksiyası adlanır. Əgər buraxılış həcmi qeydə alınmışdırsa, onda xətti istehsal funksiyasını xərclər funksiyası adlandırırlar. Əgər istehsalın buraxılış və xərcləri arasında miqdarca əlaqə statistik xarakter daşıyırsa, onda xətti istehsal funksiyası reqressiya modelidir.

XƏTTİ QEYDİYYAT – təsərrüfat əməliyyatlarının qeydiyyatıdır ki, bunun da nəticəsində hesabın debet və kredit üzrə ümumi məbləği bir sətirdə əks olunur. Məsələn, "Baş-Jurnal" kitabında hər memorial order bir sətirlə yazılır, burada müvafiq hesabların debet və krediti üzrə məbləğlər və order üzrə məbləğlər əks olunur. Xətti qeydiyyat ayrı-ayrı hallarda, məsələn, hesablaşma əməliyyatlarının uçotu zamanı münasib olsa da, o, şahmat qeydiyyatı ilə (təsərrüfat əməliyyatlarının uçot registrlərində qeydiyyatıdır ki, bu zaman bir dəfə yazılan məbləğ müvafiq hesabların debet və krediti üzrə əks olunacaq) müqayisədə daha az təkmil hesab olunur.

"XƏYALİ" ƏMANƏT – fiziki şəxslərə və firmalara kredit verilməsinin bir üsulu. Bu halda müştərinin cari hesabına bankın kredit qeydiyyatı aparılır, lakin bu qeydiyyat pul vəsaitlərinin real ödənilməsi ilə müşayiət olunmur. Müştəri xəyali əmanətdən real əmanət kimi istifadə edir: o, özünün cari hesabına köçürülmüş məbləğ həddində çeklər yaza, nağd pul ala bilər. Bankın xəyali əmanətlər yaratmaq imkanları bankın real cəlb etdiyi pul vəsaitlərinin həcmi ilə müəyyən edilir, lakin baxılan əməliyyatın keçirilməsinə bankın razılığı onun müştəriyə etibarının dərəcəsindən asılıdır.

XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ – Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan iri gəmiçilik şirkətidir. Gəmiçiliyin maye və quru yük daşıyan teploxodlardan, gəmi-bərələrdən, RO-RO tipli nəqliyyat vasitələrindən ibarət güclü donanması, nəhəng gəmi təmiri və gəmiqayırma zavodları, əsaslı dibdərinləşdirmə, yeni dəniz yolları və kanallarının yaradılması işlərinin öhdəsindən məharətlə gələn idarəsi, donanmaya texniki xidmətlə və onun təchizatı ilə məşğul olan müəssisələri, layihə-axtarış elmi-tədqiqat institutu, səhiyyə və təhsil ocaqları, o cümlədən Dəniz Akademiyası var.

Coğrafi baxımdan Avropa və Asiya qitələrinin sərhədində yerləşən, təbii sərvətlərinə görə zəngin su hövzəsi hesab edilən Xəzərdə gəmiçiliyin tarixi çox qədimdir. Xəzəryanı dövlətlərin iqtisadi həyatında, ticarət əlaqələrinin genişlənməsində müstəsna əhəmiyyət kəsb edən dəniz nəqliyyatı tarixən yüklərin daşınmasında əsas və sərfəli vasitə olub.

XIX əsrdə Bakıda neft hasilatının sürətli artımı Xəzərdə gəmiçiliyin inkişafına təkan verib. Təbii ki, həmin dövrdə neft və neft məhsullarının daşınması üçün prinsip etibarı ilə yeni üzən vasitələr tələb olunurdu. Təsadüfi deyil ki, dünyada ilk neftdaşıyan "Aleksandr" barjı 1873-cü ildə Xəzərdə istismar edilib. Dünyada ilk tanker "Zərdüşt" də (1878-ci ildə inşa edilib) Xəzərdə səfərlər edib. İlk daxiliyanma mühərrikli "Vandal" (1903-cü il), ilk reversivli iki mühərriklə çalışan "Delo" (1908-ci il) gəmilərində üzmək də Xəzər dənizçilərinin qismətinə yazılıb.

Zəngin və şərəfli tarixə malik Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin əsası 1858-ci il mayın 21-də "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulub.

Dənizlə daşınan yüklərin həcmi artdıqca Xəzər dənizinin sahillərində limanların da sayı artır. Yeni körpülər inşa edilir, anbarlar tikilir, kranlar qurulur. Donanmanın genişlənməsi gəmi təmiri bazasının yaradılmasını da zərurətə çevirir və 1866-cı ildə "Qafqaz və Merkuri" Səhmdar Cəmiyyətinin Bakıda mexaniki zavodunun bünövrəsi qoyulur. İnkişaf etməkdə olan donanmanın kadrlara tələbatını ödəmək məqsədilə 1881-ci ildə Bakı dənizçilik sinifləri təşkil edilir.

Sonrakı illərdə gəmiçiliyin donanması ölkədə və xaricdə inşa edilmiş yeni tipli gəmilərlə zənginləşir. Xəzər dənizçilərinin ixtiyarına "çay-dəniz" tipli tankerlər, pambıq, taxta-şalban və s. daşıyan gəmilər verilir. 1962-ci ildə Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış Elmi Tədqiqat İnstitutu mütəxəssislərinin layihəsi əsasında o dövr üçün Avropada ən böyük Bakı-Türkmənbaşı gəmi-bərə keçidi işə salınır.


1960-cı ildən etibarən Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilər Volqa-Baltik kanalı vasitəsilə dünya sularına vəsiqə qazanır.

Gəmiçilik donanmasının tərkibinə 82 nəqliyyat, 34 yardımçı və xidməti gəmi daxildir. Onların ümumi dedveyti 530 min tondan çoxdur. Bu gün Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin 20-dən çox teploxodu Qara dəniz, Aralıq dənizi, Adriatik və Qırmızı dənizlərdə xoşməramlı səfərlər edir. Dor ağacında müstəqil Azərbaycanın üçrəngli bayrağı dalğalanan gəmilər Avropa, Asiya və Afrikanın 130-dan çox limanına yan alır.

Gəmiçiliyin onlarca gəmisi Xəzərdə istismar olunur. Avropa-Qafqaz-Asiya (TRACECA) nəqliyyat dəhlizində bağlayıcı rolunu oynayan gəmiçilik qədim İpək yolunun Xəzərdən keçən hissəsinə xidmət edir.

Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi öz donanmasını gəmiqayırmanın son nailiyyətləri əsasında inşa olunmuş nəqliyyat vasitələri ilə zənginləşdirməyə də xüsusi diqqət yetirir. Son illərdə "Maestro Niyazi" quru yük gəmisi (2002-ci il, dedveyt 5885 t), 8 min tonluq "Professor Əziz Əliyev" və "Cəlil Məmmədquluzadə" (2003), 13 min tonluq "Prezident Heydər Əliyev", "Babək" (2004), "Şah İsmayıl Xətai" (2005), "Koroğlu", "Dədə Qorqud" (2006), "Zəngəzur" (2008), "Şuşa" (2009) tankerləri, "Akademik Zərifə Əliyeva", "Qarabağ" (2008), "Ağdam", "Şahdağ" (2011) bərələri uğurla yükdaşımalar konveyerinə qoşulub. Donanmanın yeniləşdirilməsi işi bu gün də davam etdirilir. Xorvatiyanın Pula şəhərindəki Ulyanik tərsanəsində daha 2 gəmibərə inşa edilir. Onlar 2012-ci ilin sonuna hazır olmalıdırlar.

Gəmiçilikdə 6500-dən çox işçi çalışır. İldə təxminən 13 milyon tona yaxın yük daşınır.



Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin inzibati binası



"Xəzərdənizgəmitəmiri" İstehsalat Birliyinin dok təsərrüfatı və sahil gəmi təmiri vasitələrinə malik zavodlarında hər tip gəmilərin – gəmi-bərələrin, "çay-dəniz" tipli quru yük gəmilərinin, tankerlərin, üzən qazma qurğularının, dəniz yedək gəmilərinin, sərnişin katerlərinin təmiri yüksək keyfiyyətlə həyata keçirilir. Gəmi təmiri zavodları təmirlə bağlı bütün mürəkkəb əməliyyatların öhdəsindən müvəffəqiyyətlə gəlir. Bakı şəhərinin inkişaf planına uyğun olaraq Paris kommunası adına gəmi təmiri zavodunun Zığ şossesi yaxınlığındakı əraziyə köçürülməsi, bu ərazidə müasir gəmi təmiri bazasının tikilməsi nəzərdə tutulmuşdur.

2008-ci ilin mayından 2010-cu ilin martınadək olan qısa bir müddətdə Gəmiçilik dövlət sifarişi ilə Zığda yeni quru yük liman məntəqəsi inşa edib. Ümumi uzunluğu 1500 metrdən çox olan yanalma körpüləri, inzibati bina, yük anbarları inşa olunub, müasir liman avadanlığı alınıb. Hazırda yeni körpülərin tikintisi prosesi davam etdirilir.

"Xəzərdənizyolları" İdarəsinin fəaliyyətinə əsaslı dibdərinləşdirmə və təmir işləri, dəniz üzgüçülüyünün təhlükəsizliyi üçün naviqasiya kanallarının yaradılması, yeni ərazilərin yuyulması daxildir. Mükəmməl dibdərinləşdirmə vasitələri, texniki və köməkçi donanması var. İdarə dibdərinləşdirmə işləri, üzən naviqasiya vasitələri ilə təminat, liman akvatoriyaları farvaterinin təmizlənməsi ilə bağlı xidmətlərini təklif edir. Müqavilələr hava şəraitindən asılı olmayaraq yerinə yetirilir.



Xəzər Dəniz Gəmiçiliyinin Nəqliyyat Layihə-Axtarış Elmi-Tədqiqat İnstitutu bərə əlaqəsinin inkişafına öz layiqli töhfəsini verib. Bakı, Türkmənbaşı, Bekdaş limanlarında bərə komplekslərinin layihələri məhz bu institutda hazırlanıb. İnstitutun layihələri üzrə, həmçinin, Saxalin adasını materiklə birləşdirən Vanino-Xolmsk, İliçevsk-Varna (Ukrayna-Bolqarıstan), Klaypeda-Mukran (Latviya-Almaniya) bərə keçidləri quraşdırılıb. Bakının Qaradağ rayonunda yerləşən Dərin Özüllər Zavodunun hidrotexniki qurğularının inşası, gəmi təmiri zavodlarının və gəmi üzgüçülüyü kanallarının rekonstruksiyası, ictimai və yaşayış binalarının, müxtəlif qurğuların tikintisi üzrə layihələrin də müəllifi bu institutdur. Bundan başqa, institut Suriya, Liviya, İran, Bolqarıstan və Əfqanıstanda tədqiqat və layihə işləri aparıb.

Azərbaycanda dənizçilik təhsilinin bünövrəsi 1881-ci ilin noyabrında qoyulub. 1902-ci ildə Bakı dənizçilik sinifləri əsasında Bakı Uzaq Səfərlər Məktəbi yaradılıb. Sonralar Bakı Dənizçilik Texnikumu kimi fəaliyyət göstərən təhsil ocağı 1944-cü ildən Bakı Dəniz Yolları Məktəbi adlandırılıb. 1996-cı ildə Bakı Dəniz Yolları Məktəbinin bazasında Azərbaycan Dövlət Dəniz Akademiyası yaradılıb. Hazırda Akademiya "Gəmi sürücülüyü", "Gəmi energetik qurğuları və onların istismarı", "Gəmi elektrik avadanlığı və avtomatikası", "Gəmi radioavadanlığının texniki istismarı", "Nəqliyyatda daşımaların və idarəetmənin təşkili", "Gəmiqayırma və gəmi təmiri" və s. ixtisaslar üzrə kadrlar hazırlayır. 27 tədris laboratoriyası, 9 ixtisaslaşmış auditoriya, müasir kompüter mərkəzi, linqofon kabineti, tədris-məşq mərkəzi, zəngin kitabxana tələbələrin ixtiyarındadır.

Tələbələrin kamil mütəxəssis kimi yetişməsində təcrübənin rolu böyükdür. Buna görə onların gəmilərdə tədris, istehsalat və üzmə təcrübələrinə xüsusi diqqət yetirilir.

Beynəlxalq Konvensiyanın tələblərinə uyğun olaraq, ADDA-nın nəzdində Dənizçilərin Hazırlanması və Sertifikatlandırılması Mərkəzi yaradılıb. Mərkəzdə xüsusi proqramlar üzrə dənizçilər və dəniz nəqliyyatı işçiləri üçün hazırlıq, ixtisasartırma və təkmilləşdirmə kursları keçilir.

Azərbaycan Dövlət Dəniz Akademiyası Beynəlxalq Dəniz Təşkilatı tərəfindən tanınıb, onun təşəbbüsü ilə dünya ali dəniz təhsili sisteminə daxil edilib. ADDA MDB və xarici ölkələrin ali dənizçilik məktəbləri ilə əməkdaşlıq edir və Sankt-Peterburqdakı admiral S.Makarov adına Dəniz Akademiyası yanında Elmi-Metodik Şuranın üzvüdür.



Xəzərdəki yükdaşımalarda öncül mövqeyini daim qoruyub saxlayan gəmiçiliyin dünyada nüfuzu ildən-ilə artır. 1997-1998-ci illərdə gəmiçiliyə Avropa dövlətləri ilə işgüzar əlaqələrin inkişafında idaretmə uğurlarına, ölkə iqtisadiyyatında mühüm roluna, beynəlxalq iqtisadi sistemə inteqrasiya təşəbbüslərinə görə Belçikada Kral Dekreti ilə təsis olunmuş "EUROMARKET AWARD" və "MANAGEMENT REWARD" prizləri verilib. 2003-cü ildə isə gəmiçilik yüksək iş keyfiyyətlərinə görə Biznes Təşəbbüsü Təşkilatının qızıl kateqoriyalı "Quality Crown" beynəlxalq prizinə layiq görülüb.

2005-2007-ci illərdə Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi Ticarət Liderləri Klubunun VIII Beynəlxalq nəqliyyat prizi – Yeni Minilliyin Prizi (New Millennium Award), Avropa Biznes Assambleyasının "Avropa keyfiyyəti" beynəlxalq prizi, Parisdə Ticarət Liderləri Klubunun "Keyfiyyətə görə" Qızıl prizi, Afinada isə "Prestijdə və keyfiyyətdə lider" beynəlxalq mükafatı ilə təltif olunub.

Avropa Marketinq Araşdırmaları Mərkəzinin (European



Marketinq Research Centre – EMRC) ekspert mükafat komitəsinin qərarı ilə 2005-ci il iyulun 11-də Belçikanın Antverpen şəhərində Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və bu qurumun rəisi A.Bəşirov iqtisadi münasibətlərin inkişafına və ölkənin beynəlxalq aləmə çıxmasına böyük töhfələr vermiş lider nəqliyyat şirkətləri kateqoriyasında "Transbiznes-2005" Qızıl mükafatına layiq görülüb.


XƏZİNƏ (ər. pulun qorunub saxlandığı yer) – 1. Dövlətə məxsus pul. 2. Pul vəsaitləri, qiymətlilər, geniş mənada bölüşdürülməyən əmlakın, hər şeydən əvvəl, dövlətin və ya digər kütləvi-hüquqi qurumun (yerli idarəetmə orqanının) mülkiyyətini təşkil edən müvafiq büdcənin vəsaitləri. Bu mülkiyyət mülkiyyətçi dövlətin kreditorlarının cəriməsi ola bilər; büdcə vəsaitləri real olaraq bu cərimənin obyektini təşkil edir. Bu vəsaitlər həmçinin kreditorlara hesablaşmalar üçün dövlət müəssisələrinin və idarələrinin pul vəsaitlərinin çatışmazlığı zamanı onların borcları üzrə dövlətin (kütləvi hüquqi qurumun) əlavə (subsidiar) məsuliyyəti mənbəyi.

Dövlət mülkiyyətində olan əmlak iki hissəyə bölünür. Birinci hissə təsərrüfatın idarə edilməsi və operativ idarəetmə hüquqları ilə dövlət müəssisə və təşkilatlarına təhkim olunur. Bu "bölünmüş" dövlət əmlakı dövlətin mümkün borclarının örtülməsinə xidmət edə bilməz, çünki hüquqi şəxs kimi müəssisə və təşkilatlar onların mülkiyyətçisini təsis edən borclara görə öz əmlakı ilə cavabdeh deyil. Bu əmlakla onlar özlərinin xüsusi borclarına görə cavab verirlər. İkinci hissə onun xəzinəsini təşkil edən bilvasitə kütləvi hüquqi qurumda qalır. Mülki dövriyyədə göstərilən qurumların müstəqil iştirak etməsi yalnız əmlakın ikinci hissəsi bazasında mümkündür. Bundan əlavə, dövriyyədən çıxarılan obyektlər xəzinəni təşkil edən əmlakdan istisna edilir; bu obyektlər dövlətin müstəsna mülkiyyətini təşkil edir (yerin səthi, kontinental şelfin və dəqiq iqtisadi zonanın sərvətləri və s.). Onlar heç bir halda digər şəxsin mülkiyyətinə keçə bilməz və deməli, kreditorların mümkün iddialarını ödəməyə qadir deyil. Bu həmçinin torpağa və dövriyyədə məhdud olan digər təbii resurslara da aiddir.

Bələdiyyə qurumları orqanları müstəqil hüquqi şəxslər olan bələdiyyə təşkilatları qismində çıxış edə bilər. Bu şəxslər onlara təhkim olunan əmlakın operativ idarə edilməsi hüququna malikdirlər. Bu əmlakın bir hissəsi olan pul vəsaitləri ilə onlar öz öhdəliklərinə cavabdehdirlər. Xəzinə əmlakı, ilk növbədə müvafiq büdcənin vəsaitləri bu bələdiyyə mülkiyyətçisinin onun borclarına görə müstəqil əmlak mülkiyyətinin bazasını təşkil edir. Beləliklə, dövlət əmlakı kimi bələdiyyə əmlakı da iki hissəyə bölünür; qeyri-müəyyən hissə müvafiq bələdiyyə qurumunun xəzinəsini təşkil edir.

Azərbaycan Respublikası, onun qurumları və bələdiyyə təşkilatları sərbəst mülkiyyətçi kimi bir-birilərinin öhdəliklərinə cavabdeh deyillər. Onların hər biri öz əmlakının, hər şeydən əvvəl, onların mülki dövriyyədə iştirakının əmlak bazasını təşkil edən xəzinənin müstəqil mülkiyyətçisidir.

XƏZİNƏ VEKSELİ – büdcə xərclərini örtmək üçün dövlətin dövriyyəyə buraxdığı qiymətli kağız növlərindən biri. Qısamüddətli (3, 6 və 12 aylıq) dövlət öhdəlikləri olan xəzinə vekselləri, əsasən, kredit müəssisələri (banklar) arasında nominal dəyərindən aşağı qiymətə realizə edilir və tam nominal dəyəri üzrə satın alınır. Xəzinə vekselləri emissiyası və ləğvi xəzinələrin tapşırığı ilə mərkəzi banklar tərəfindən həyata keçirilir. Xəzinə vekseli dövlətin qısamüddətli öhdəliklərinin əsas növüdür. O, adətən, təqdim edənə buraxılır və faiz kuponları olmur. Sərbəst pul bazarlarında qiymətli kağızların alınıb-satılması pul-kredit siyasətinin əsasını təşkil edir.



XƏZİNƏDARLIQ – Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi dövlət büdcəsinin kassa icrasını həyata keçirən və həmin maliyyə əməliyyatlarının uçotunu aparan, büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlikləri qəbul edən, Azərbaycan Respublikasında dövlətə məxsus maliyyə vəsaitlərinin vahid mərkəzdən idarə edilməsi, bu vəsaitlərin daxil olması və məqsədyönlü xərclənməsi sahəsində cari nəzarəti həyata keçirən icra hakimiyyəti orqanı. Maliyyə Nazirliyində fəaliyyət göstərir və onun tərkibinə daxildir. Xəzinənin funksiyasına dövlət büdcəsinin layihəsinin tərtibi və onun icrası, dövlət borcunun idarə edilməsi, həmçinin dövlət qiymətli kağızlarının emissiyası daxildir. Xəzinə vergilərin, rüsumların və büdcəyə digər daxilolmaların yığımını izləyir, büdcə kreditləri açır və təsdiq edilmiş ayırmalara uyğun büdcə vəsaitləri təqdim edir.

XƏZİNƏDARLIQ BONLARI – ortamddətli və uzunmüddətli dövlət öhdəliklərinin bir növü. 5 ildən 25 ilə qədər müddətə, adətən, təqdim edənə buraxılır, bazarda tədavül edən dövlət qiymətli kağızlarıdır (səhmlər, veksel, istiqraz vərəqələri, çek).

XƏZİNƏDARLIQ EMİSSİYASI – büdcə kəsirinin ödənilməsi üçün xəzinədarlıq və ya başqa dövlət maliyyə orqanları tərəfindən həyata keçirilən xəzinədarlıq biletlərinin və dövlət qiymətli kağızlarının dövriyyəyə buraxılması.

XƏZİNƏDARLIQ NOTALARI – 1) Maliyyə Nazirliyi və ya dövlətin xüsusi maliyyə orqanları tərəfindən xəzinədarlıq emissiyası qaydasında buraxılan kağız pulun bir növü; 2) ortamüddətli dövlət öhdəliklərinin növlərindən biri; təqdim edənə buraxılır. Bazarda tədavül edən dövlət qiymətli kağızlarının növlərindən biri.

XƏZİNƏDARLIQ VEKSELLƏRİ – büdcə xərclərinin ödənilməsi üçün dövlət tərəfindən tədavülə buraxılan qiymətli kağızların növlərindən biri. Dövlətin qısamüddətli öhdəlikləridir. 3, 6 və 12 ay müddətə, adətən, təqdim edənə buraxılır. Əsasən, kredit müəssisələri (banklar) arasında, nominal qiymətdən aşağı qiymətə (güzəştlə) satılır, amma tam nominal qiymət üzrə alınır. Beləliklə, xəzinədarlıq vekselinin saxlayıcısının gəliri ödəmə qiyməti (nominal qiymət) ilə satış qiyməti arasında fərqə bərabərdir.

XIDIROV BEYKƏS SEYFULLA OĞLU (1936) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1971-ci ildə "Azərbaycanda yüksək keyfiyyətli sürtkü yağlarının istehsalının iqtisadi səmərəsinin tədqiqi" mövzusunda namizədlik, 1990-cı ildə "Azərbaycanda neft emalının iqtisadi səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-cı ildə təyinatla Azərbaycan SSR Elmlər Akademiyasının Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətə başlamışdır. 1971-1991-ci illərdə həmin institutun iqtisadi tədqiqatlar laboratoriyasına rəhbərlik etmişdir. 1992-ci ildə "Azərneftyanacaq" İB-də baş iqtisadçı vəzifəsinə dəvət olunmuşdur. Hazırda Dövlət Neft Şirkətində çalışır.

Neftayırma və neft-kimya sənaye iqtisadiyyatına aid dəyərli tədqiqatların, 2 monoqrafiya və 50-dən çox elmi məqalənin müəllifidir.

XİDMƏT – əşya forması kəsb etməyən və əşya şəklində əmək məhsullarından fərqli olaraq, istehlak dəyəri canlı əməyin faydalı səmərəsindən ibarət olan spesifik əmək məhsulu. Məsələn, həkimin, müəllimin, aktyorun, bərbərin və başqalarının xidmətləri bu cür məhsullardır. Onların əməyi qeyri-maddi formada müəyyən məhsul istehsal edir. Bu məhsul alqı-satqı obyekti, istehlak predmeti ola bilər. Lakin xidmətin faydalı effekti onun hər hansı əşya şəklində istehsal edilməsi prosesindən ayrılıqda mövcud deyildir. Bu səbəbdən, əməyin əşya şəklində məhsulundan fərqli olaraq, xidmət yığıla bilməz, onun istehsal və istehlak prosesləri isə zaman etibarilə üst-üstə düşmür. Buna baxmayaraq, xidmətin istehlakının nəticələri

maddi və uzunmüddətli xarakterə malik ola bilər: sərnişin daşınır, xəstə müalicə edilir, şagird təhsil alır və s. Teatr tamaşasının doğurduğu təəssürat xidmətin spesifik istehlakına nümunədir. Bu tamaşa insana, onun dünyagörüşünə və davranışına ciddi emosional təsir göstərmək və ömrü boyu onun təsəvvüründə qalmaq xassəsinə malikdir. Xidmətin istehlak edilməsinin effekti təkcə onun istehsal şəraitindən deyil, həm də istehlak şəraitindən asılıdır. Məsələn, şagirdin hazırlıq səviyyəsi təkcə müəllimin ixtisas səviyyəsindən və təhsil müddətindən deyil, həm də şagirdin qabiliyyətlərindən asılıdır. Xidmətin faydalı effekti onun istehsalçısının və istehlakçısının birgə səylərinin nəticəsidir. Xidmət – qeyri-maddi xidmət (repetitorların, hüquqşünasların, aktyorların, bank işçilərinin və s. xidməti) və maddi xidmət (məişət texnikasının təmiri, fərdi paltar tikişi və s.) növlərinə bölünür. Sonuncu halda istehsalın nəticəsi və istehlakın obyekti maddi əşyadır, lakin bu əşya fərdiləşdirilmişdir, onda həmin əşyanın istehsalçısının əməyi istehlakçının fərdi tələblərini nəzərə alan formada təcəssüm edilmişdir. Xidmətin bu forması xüsusi xidmətin sferası ilə maddi istehsal sferasının qovuşmasında yerləşir. Maddi istehsal sferasının kütləvi məhsullarının fərdiləşmə proseslərinin (alıcının fərdi tələbatı nəzərə alınmaqla avtomobillərin, kompüterlərin yığılması və s.) inkişafı maddi və qeyri-maddi istehsal sahələrinin müəyyən mənada qarşılıqlı nüfuz etməsinə gətirib çıxarır. Xidmət sferasının tərəqqisinin fundamental əsası olan maddi istehsalın inkişafı, eləcə də xidmət sferasında əmək bölgüsü xidmətin növlərinin əhəmiyyətli dərəcədə müxtəlif olmasına gətirib çıxarmışdır. Göstərilən xidmətin məzmununa görə onlar ev xidməti (aşpaz, dayə və s.), yeni məmulatlar yaradan xidmət (əhalinin fərdi sifarişləri əsasında mənzil tikintisi, fərdi paltar və ya ayaqqabı tikişi və s.), istifadədə olmuş malların istehlak xassələrini bərpa edən xidmət (mənzillərin, məişət texnikasının təmiri və s.), intellektual xidmət (repetitorluq, reklam və s.), təhsil, səhiyyə, mədəniyyət sahəsində xidmət, nəqliyyat, poçt, telekommunikasiya xidməti, bankların və sığorta cəmiyyətlərinin xidməti, sağlamlıq müəssisələrinin, mehmanxanaların və ictimai iaşə müəssisələrinin xidməti, eləcə də bir sıra başqa xidmət növləri kimi təsnif edilir. **Standartlaşdırılmış və yaradıcı xidmətlər** alqoritmləşdirilmə dərəcəsi ilə fərqlənir. Standart xidmət növləri sərt müəyyən edilmiş qaydalar üzrə göstərilir. Yaradıcı xidmətlər istehlakçının fərdi tələbləri ilə əlaqədar formalaşa və dəyişə bilər. Belə ki, turist biznesində ekzotik xidmət növləri meydana çıxa bilər: məsələn, turist hər hansı tarixi personaj kimi geyinib qrimlənmiş bələdçi sifariş verir və s. Şəxsi və intellektual xidmətlər reallaşma prosesi zamanı tez-tez dəyişikliklərə və düzəlişlərə məruz qalır.

İstehlakın formasına görə xidmət fərdi (avtomobilin şəxsi istifadə üçün kirayə verilməsi) və kütləvi xidmət (əhaliyə şəhər nəqliyyat vasitələri ilə xidmət edilməsi) növlərinə bölünür. İctimai istehlak fondlarının bölgüsü baxımından xidmət istehlakçı üçün pullu (xidmət istehlakçısı tərəfindən haqqı ödənilən) və pulsuz (büdcə vəsaitləri hesabına göstərilən) xidmət növlərinə bölünür. Əməyin maddi məhsulu kimi xidmət də həyata keçirildiyi istehsal münasibətlərinin xarakterindən asılı olaraq müxtəlif sosial-iqtisadi formalar kəsb edə bilər. Məsələn, natural təsərrüfat şəraitində xidmət xüsusi istehlak üçün (icma, qəbilə və s. səviyyələrdə) nəzərdə tutulan canlı əmək fəaliyyətinin faydalı effekti kimi çıxış edir. Əmtəə istehsalı inkişaf etdikcə xidmət əmtəə forması kəsb edir. Kapital xidmət sferasına sahib kimi kapitalist istehsalının obyektinə çevrilir. Xidmət əmtəə kimi ikili struktura malikdir: spesifik istehlak dəyəri (canlı əməyin faydalı effekti) və dəyər (xidmətdə təcəssüm olunmuş ictimai zəruri əmək). Bu, o deməkdir ki, xidmət özünün mövcud olması və inkişafı üçün fond istehsal edir, bu sahədə sərf edilmiş əmək isə istehsalın iştirakçılarının gəlir mənbəyidir. Bu gəlirlər maddi istehsalda, xidmət sferasında yaradılmış dəyərin təkrar bölgüsünün nəticələri deyildir. Xidmət yaradan əmək o halda məhsuldar əmək sayılır ki, o, bir tərəfdən, ilk növbədə, təkrar istehsalda iştirak etməsinə imkan verən faydalı effektə malik olsun, digər tərəfdən mənfəətin mənbəyi olsun və deməli, kapitalist istehsal münasibətlərinin təkrar istehsalında iştirak etsin.

İctimai əmək bölgüsünün strukturunda xidmət sferası sənayenin "birinci" sektoru olan kənd təsərrüfatında və iqtisadiyyatın "ikinci" sektoru kimi çıxış edən sənayedən fərqli olaraq, "üçüncü" sektora aid edilir. Xidmət maddi əmtəə kimi ümumi milli məhsulun (ÜMM) və gəlirin tərkibinə daxildir. İnkişaf etmiş ölkələrdə ÜMM-də xidmətin nisbi payı xeyli yüksəkdir və onun artması meyli müşahidə olunur. Həmin ölkələrdə xidmət sahəsində məşğul olanların nisbi sayı XX əsrin axırlarında bütün məşğul əhalinin 60-70%-nə çatmışdı. Bu ölkələrdə istehlak xərclərinin 50%-i xidmətin payına düşür. Beləliklə, xidmət sferası ictimai istehsalın əsas sferasına çevrilməkdədir. İctimai istehsal sistemində xidmət sferasının nisbi payı müəyyən mənada ölkənin iqtisadi inkişaf səviyyəsinin göstəricisidir. Xidmətin iqtisadiyyatı sənaye cəmiyyətinin istehsal bazasıdır.

Xidmət tarifləri – xidmət sahəsi müəssisələrinin istehlakçılara xidmət göstərdiyi tarif sistemi. Əhaliyə xidmət tarifləri və istehsal xarakterli xidmət tarifləri vardır.

Xidmətlərə tələbat – ödənilmə qabiliyyəti ilə təsdiq edilmiş xidmətlərlə təmin olma vacibliyi, meyli.

Xidmətlərin kollektiv istehlakı – 1) eyni vaxtda cəmiyyətin bütün üzvlərinə (müdafiəyə, idarəetməyə, elmə) və ya ayrı-ayrı ictimai qrupların üzvlərinə (maarif, səhiyyə, sərnişin nəqliyyatı) göstərilən xidmətlər;

2) cəmiyyətin bütün üzvlərinə və ya ayrılıqda bir regionda yaşayan bütün ev təsərrüfatları kimi, cəmiyyətin ayrılıqda bir hissəsinin bütün üzvlərinə eyni vaxtda göstərilən xidmət. Kollektiv xidmətlər avtomatik olaraq cəmiyyətin və ya yuxarıda göstərilən ev təsərrüfatı qruplarının bütün üzvləri (onlar tərəfindən heç bir cəhd olmadan) tərəfindən alınır və istehlak edilir.

Xidmətlərin son istehlakı – ev təsərrüfatları, ev təsərrüfatlarına xidmət göstərən dövlət və qeyri-dövlət, qeyri-kommersiya ictimai təşkilatları tərəfindən xidmətin istehlakı. **Milli hesablar** sistemində (MHS) gəlirlərdən istifadə edilməsi hesabatında əks etdirilir. Müasir MHS-də son istehlak xərcləri və faktiki son istehlak fərqləndirilir. Xidmətlərin son istehlakına müəssisələrin öz işçilərinə pulsuz və ya qismən ödənilməklə göstərdikləri sosial-mədəni xidmətlər daxildir: ödənişlə (fərdi sifarişlərlə) ev təsərrüfatları tərəfindən alınmış bütün növ **xidmətlər**; dövlət idarələrindən və ictimai təşkilatlardan natural formada sosial müavinətlər; şəxsi istehlak üçün istehsal olunmuş məhsullar, şəxsi mənzillərdə yaşayış üzrə xidmətlərin şərti dəyəri və s.

XİDMƏT GÖSTƏRMƏ – kütləvi xidmət göstərmə sistemində elementar əməliyyatdır. Xidmət vaxt ilə və ya zəruri işlərin kəmiyyəti, yəni təsadüfi kəmiyyətlə xarakterizə olunur. Xidmət konkret sistemlərdə müxtəlif cür interpretasiya (şərh) oluna bilər. Xidmətin aşağıdakı növləri fərqləndirilir: xarici borca xidmət – kreditorlara əsas borcun və hesablanmış faizlərin ödənilməsi məqsədilə borclu dövlətin ödənişləridir; daxili borca xidmət – əhaliyə dövlət qiymətli kağız sahiblərinə və institusional rezident-kreditorlara əsas borcun ödənilməsi və hesablanmış faizlərin ödənilməsi məqsədilə borclu dövlətin ödənişləridir; növbətçi xidmət – xüsusi vasitələrin köməyi ilə lazım gəldikdə xidmətedici heyətin iş yerinə çağırılmasını nəzərdə tutan xidmətdir; borc xidməti – vaxtında tam həcmdə borcun şərtlərinin yerinə yetirilməsidir: faiz istiqrazları üzrə – faizlərin müntəzəm olaraq ödənilməsi və istiqrazların alınması, diskont istiqrazlar üzrə – onların nominalları üzrə alışı, məqsədli istiqrazlar üzrə istiqrazların ödənilməsi zamanı mal və xidmətlərin təqdim edilməsidir; informasiya xidməti – informasiya və informasiya sorğu kitabçası fəaliyyətidir ki, bura da aşağıdakılar daxildir: informasiyaya olan tələbin, informasiya tələbatının öyrənilməsi, informasiya istifadəçilərinin müxtəlif kateqoriyalarının sorğusu, həmçinin informasiya tələbatlarına və sorğularına uyğun olaraq, informasiyanın hazırlanması və verilməsi; xidmət və əsas fondların təmiri – istehsal fondlarının xidmət müddəti başa çatanadək, onların iş qabiliyyətinin saxlanması üçün zəruri olan tədbirlərdir. Uyğun tədbirlər iki əsas qrupu özündə cəmləyir: a) profilaktik – yəni avadanlığın faktiki olaraq, xarab olması başlayanadək həyata keçirilən tədbirlər (baxış xidməti, profilaktik təmir və s.); b) bərpaedici – bura daxildir: təmir, detalların dəyişdirilməsi və s. Bu və ya digər





yanaşmanı imitasiya modelləşməsinin köməyi ilə seçirlər; bu zaman meyar kimi xidmət və təmirlə, həm də avadanlığın dayanması ilə bağlı olan məcmu məsrəflər çıxış edir. Zəmanətdən sonrakı xidmət – vaxtaşırı baxışlar və təmir, avadanlığın modernləşdirilməsi, ehtiyat hissələrinin, kompleksləşdirici materialların, texniki sənədlərin göndərilməsidir. Satıcı tərəfindən ödənilir; satışdan sonrakı xidmət – elə bazar strategiyasıdır ki, satış həcminin artırılması məqsədilə avadanlıq, avtonəqliyyat, məişət texnikası və texniki cəhətdən digər mürəkkəb məhsulların istehsalçıları tərəfindən tətbiq edilir. Məhsulu hazırlayan ölkədə və ya xaricdə satılmış texnikanın təmiri və texniki xidmət göstərmə üzrə xüsusi xidmətin yaradılmasından ibarətdir. Satışdan sonrakı xidmət həmçinin müqavilə əsasında digər firmalarla da həyata keçirilə bilər; satışdan əvvəlki xidmət – maşın və avadanlığın istismara hazırlığıdır: nəqletmə zamanı alınan qüsurlar və korlanmaların aradan qaldırılması, ayrı-ayrı mexanizmlərin, cihazların tənzimlənməsi, yağlama, işdə avadanlığın və maşınların sınaqdan keçirilməsi, onlara ən yaxşı əmtəə (mal) görünüşünün verilməsi və s.; standart xidmət – standart qüvvələr və planlar üzrə ciddi reqlament qaydasında həyata keçirilən texniki xidmət. Plan – xəbərdarlıq xidmətin ən təkmil forması kimi yüksək qənaətcilliklə, iş yerlərində boş dayanmaların tam ləğvi ilə xarakterizə olunur, lakin əsas istehsalın sərt ritmikliyini tələb edir.

Xidmətlərin təşkili formasına görə onları **dövlət və qeyri-dövlət** xidmətlərinə ayırmaq olar. Bu xidmət növlərinin başlıca fərqi ondan ibarətdir ki, dövlət xidmətləri prinsip etibarilə dövlətdən başqa heç kim tərəfindən göstərilə bilməz. Bu, ölkənin müdafiəsi, ictimai təhlükəsizliyin qorunması, vətəndaşların uçotunun aparılması, nəqliyyat vasitələrinin qeydiyyatı, kommersiya əməliyyatlarının dövlət qeydiyyatı üzrə xidmətlərdir (məsələn, daşınmaz əmlakla bağlı sövdələr). Cəmiyyətdə doğumların, ölümlərin, nikahların, mülkiyyət münasibətlərinin və s. uçotunun məhz dövlət tərəfindən aparılması tələbatı mövcuddur. Xidmətləri **təmiz və qarışıq** olmaqla iki yerə ayırırlar. Təmiz xidmət istehsalçının yeganə fəaliyyət növüdür





(ixtisaslaşdırılmış xidmət istehsalı). Qarışıq xidmət maddi-mal dəyərlərini müşayiət etməklə, onların dövriyyəsini yüngülləşdirir və istehlakçı üçün daha cəlbedici edir. Məsələn, bu, satışdan qabaq və satışdan sonrakı servis olub, malın alqı-satqı aktını müşayiət edir.

Legitim və qeyri-legitim xidmətlər onlara dövlət və cəmiyyətin münasibəti ilə seçilir. Legitim xidmətlər dövlət və cəmiyyət tərəfindən dəstəklənir, qeyri-legitim xidmətlər isə pislənir və adətən, qanunla təqib olunur. Cəmiyyətdə şüurlu, faydalı, bəyənilən hesab edilən tələbatları ödəyən xidmətlər legitim kimi tanınır. Cəmiyyət tərəfindən pislənilən tələbatları ödəyən xidmətlər (narkotik, cinayət, amoral) qeyri-legitim xidmətlərə aiddir.

XİDMƏT NORMASI – bütün iş növbəsi ərzində bir istehsal vahidinə (aqreqata) xidmət etmək üçün zəruri olan işçilərin ən böyük sayı; təşkilati-texniki vəziyyətin müəyyən şəraitində bir işçi tərəfindən xidmət edilən mexanizmlərin, cihazların sayı. Xidmət norması aparat prosesləri ilə əlaqədar sahələrdə və istehsalatlarda (kimya, metallurgiya, neftayırma, toxuculuq sənayesi) əsas işçilərin plan üzrə sayını dəqiq müəyyənləşdirmək üçün tətbiq edilir. Xidmət norması kateqoriyasından həm də bütün sahələrdə köməkçi fəhlələrin və kiçik xidmət heyətinin (məsələn, elektrik montyorları, nəzarətçilər, yağlayıcı fəhlələr, nəqliyyat fəhlələri, anbardarlar, dəstləşdiricilər, xidmətçilər və s.) plan üzrə sayını müəyyən etmək üçün istifadə edirlər. Ümumi sənaye, sahəvi, yerli texniki əsaslandırılmış xidmət normaları müəyyən olunmuş qaydada təsdiq edilir.

XİDMƏTİ ƏSƏR – xidməti vəzifəsini, yaxud işəgötürənin xidməti tapşırığını yerinə yetirmək qaydasında yaradılmış əsər. Xidməti əsərdən istifadəyə müstəsna hüquq müəlliflə, işəgötürən arasındakı müqavilədə başqa hal nəzərdə tutulmazsa, müəllifin əmək münasibətlərində olduğu şəxsə (işəgötürənə) məxsusdur. Xidməti əsərdən hər hansı formada istifadə olunarkən (xidməti əsərin təkrar nəşri, başqa dilə tərcüməsi, yenidən işlənməsi və s.) xidməti əsər müəllifinin qonorar almaq hüququ vardır. Xidməti əsərdən istifadənin hər növünə görə müəllif qonorarının həcmi və ödənilməsi qaydaları

işəgötürənlə müəllif arasındakı müqavilə ilə müəyyənləşdirilir.

XİLAS EDİLMİŞ ƏMLAK – kortəbii fəlakət və ya bədbəxt hadisə zamanı məhvolmadan yaxa qurtaran maddi dəyərlər *(qiymətlilər)*. Əmlakın xilas olunması xərcləri və onun dəyəri sığorta ödəməsinin hesablanması zamanı nəzərə alınır.

XİLAS EDİLMİŞ ƏMLAKIN REALLAŞMASINDAN İTKİ – sığorta şərtlərinə görə, əmlak iddia obyekti olan zədələnmə nəticəsində təyinat limanına çatmayaraq satılan zaman baş verir. Əgər zədələnmiş əmlak xilas edilib və təyinat limanına çatmayaraq reallaşmalıdırsa, sığortalı əmlakın satışına görə xərclər və onun baxışına görə xərclər çıxılmaqla xilas edilmiş əmlakın satılmasından əldə olunan gəliri əldə etmək hüququna malikdir. Bu halda sığortaçı sığorta şərtlərinə görə itki qismində onun əldə etdiyi gəlirlə sığorta məbləği arasında fərqi sığortalıya ödəməlidir.

XİLASETMƏ HAQQINDA MÜQAVİLƏ – gəmi sahibi və ya gəminin kapitanı tərəfindən gəminin və onun içərisindəki əmlakın xilas edilməsi üzrə xilasetmə əməliyyatlarının həyata keçirilməsi üçün bağlanır. Gəminin kapitanı gəmi sahibinin adından xilasetmə əməliyyatlarının həyata keçirilməsi üçün xilasetmə müqavilələri bağlamaq hüququna malikdir. Gəmi kapitanı və ya gəmi sahibi müqavilə bağlanan anda gəminin içərisində olan əmlakın sahibinin adından xilasetmə əməliyyatlarının həyata keçirilməsi üçün xilasetmə haqqında müqavilələr bağlamaq hüququna malikdir.

Aşağıdakı hallarda müqavilənin hər hansı şərtləri etibarsız hesab edilir və dəyişdirilməlidir:

1) əgər müqavilə hədsiz təhlükə təsiri altında və ədalətsiz şərtlər daxilində bağlanmışdırsa;

2) müqavilədə nəzərdə tutulan haqq faktiki göstərilmiş xidmətlərlə müqayisədə hədsiz artırılmış və ya azaldılmışdırsa.

Təhlükədə olan gəminin sahibinə və ya təhlükədə olan sair əmlakın sahibinə münasibətdə xilasedici aşağıdakı tədbirləri görməyə borcludur:

1) xilasetmə əməliyyatlarını lazımi qayğı ilə həyata keçirmək;

2) ətraf mühitə ziyanın qarşısının alınması və ya azaldılması üçün lazımi qayğı göstərmək;

3) gəmi və ya digər əmlak təhlükəsiz yerə çatdırıldıqdan sonra xilasedicinin ağlabatan tələbinə əsasən gəmini, yaxud digər əmlakı qəbul etmək.

Aparılmış əməliyyatın faydalı nəticəsinə görə xilasedici və ya xilasedicilər komandası xilasetmə haqqında müqaviləyə müvafiq olaraq haqq almaq hüququ əldə edirlər.

1892-ci ildə Lloyd Komitəsi xilasetmə haqqında müqavilələrin standart formasını dərc etmişdir. 1926-cı ildə həmin forma redaktə edilmişdir və indiyə qədər geniş istifadə edilir. Hazırda Lloyd Standart Müqaviləsi hətta hər iki tərəf həmin müqaviləni xilasedici müvafiq xidmətləri göstərdikdən sonra imzalamış olsa belə, qüvvədə qalır. Bu cür müqavilənin əl ilə, adi kağız vərəqində tərtib edilməsinə icazə verilir. Bəzi hüquqşünasların fikrincə, fəlakətə düşmüş gəmidən qəbul edilmiş, radiooperator tərəfindən yazılmış radioqram da Lloyd Standart Müqaviləsinin funksiyalarını yerinə yetirə bilər.

XRİZOHEDONİZM – iqtisadi təlim. Bu təlimə görə ölkənin sərvəti, hər şeydən əvvəl, yığılmış qiymətli metalların həcmindən asılıdır.

XRONOLOJİ QEYDİYYAT – təsərrüfat əməliyyatlarının xronoloji qaydada, yəni onların tarixlər üzrə baş vermə qaydasında qeydiyyatıdır. Məlumatların xronoloji qeydiyyatına müvafiq olaraq, mühasibat uçotu obyektləri haqqında zəruri məlumatlar əldə etmək mümkün deyil. Bunun üçün sistematik qeydiyyat (təsərrüfat əməliyyatlarının uçot registrlərinin mühasibat hesablarında müəyyən sistem üzrə qeydiyyatı) tətbiq olunur.

Xronoloji qeydiyyat zamanı xüsusi qeydiyyat jurnalından istifadə olunur ki, bu da uçotun memorial-order sisteminə müvafiq tətbiq edilir. Bu jurnalda bütün memorial orderlər onların nömrələrinə uyğun qaydada qeydiyyatdan keçir. Bir ay ərzində qeydiyyat jurnalı üzrə yazıların nəticəsi həmin ay ərzində bütün hesablar üzrə həm debet, həm də kredit dövriyyələrinin nəticəsinə bərabər olmalıdır. Bu bərabərlik nəzarət xarakteri daşıyır və mövcud ikili qeydiyyatın mövcudluğundan irəli gəlir.

Xronoloji qeydiyyat eyni uçot registrində sistematik qeydiyyatla paralel həyata keçirilir. Belə registrlər jurnal-orderlər, həmçinin "Baş-Jurnal" olur.

XUDİYEV ŞAMİL YUSİF OĞLU (1928–1999) – Azərbaycan iqtisadçısı, i.e.d., prof.



1964-cü ildə namizədlik, 1989-cu ildə Moskvada doktorluq dissertasiyası müdafiə etmişdir. 1992-ci ildən professordur. 1949-1959-cu illərdə Zəngilan rayonu istehlak cəmiyyəti idarəsində baş mühasib işləmişdir. 1959-1964-cü illərdə Azərbaycan SSR Elmlər Akademiyasında, 1964-cü ildə Azərbaycan Dövlət Universitetində, 1965-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, 1967-ci ildən Azərbaycan Neft və Kimya İnstitutunda çalışmışdır. 1970-ci ildən Azərbaycan SSR Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İnstitutunun Xalq təsərrüfatının uzunmüddətli planlaşdırılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi problemləri şöbəsinin müdiri vəzifəsində işləmişdir. Onun rəhbərliyi ilə respublikada əhalinin pul gəlirləri və xərcləri balansının metodik məsələləri işlənilmişdir. 1981-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinin mühasibat uçotu və audit kafedrasında çalışmışdır. Bir neçə monoqrafiyanın, dərslik və dərs vəsaitləri, tədris proqramları, 300-dən çox elmi məqalənin müəllifidir.

XÜSUSİ ANNUİTET – elə annuitetdir ki, burada sığortalanmışın sağ olmasından və ölməsindən asılı olmayaraq müəyyən il ərzində gəlir ödənilir.

XÜSUSİ BORC ALMA HÜQUQU (SDR) (*Special Drawing Rights, SDR*) – Beynəlxalq Valyuta Fondunun (BVF) buraxdığı və dövlətlərarası nağdsız hesablaşmalar üçün və hesablaşma vahidi kimi istifadə olunan beynəlxalq tədiyə və ehtiyat vəsaitləri. SDR-nin yaradılma məqsədi – dünya ticarətinin yüksək artım sürəti ilə əlaqədar kifayət qədər qiymətləndirilməyən beynəlxalq likvidlilik səviyyəsinin yüksəldilməsidir.

SDR sistemi 1970-ci ildən fəaliyyət göstərməyə başlamışdır. BVF-də xüsusi borcalma hesabı yaradılmışdır ki, bunun vasitəsi ilə SDR-dən istifadə etməklə əməliyyatlar həyata keçirilir. BVF-nin üzvü olan bütün ölkələr SDR haqqında sazişində iştirak edir; bunlardan və BVF-nin özündən başqa, SDR-dən həmçinin 15 beynəlxalq maliyyə təşkilatı istifadə edə bilər: Beynəlxalq Hesablaşmalar Bankı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Ərəb Valyuta Fondu, Afrika İnkişaf Bankı və s. 1996-cı il yanvarın 1-dən ona ABŞ dolları (39%), alman markası (21%), yapon iyeni (18%), fransız frankı (11%) və ingilis funt-sterlinqi (11%) daxil idi.

Üzv ölkələrinə SDR-in bölgüsü 1970-1972 və 1979-1981-ci illərdə aparılmışdır. Bütövlükdə 21,4 mlrd. SDR bölünmüşdür. BVF-yə sonradan üzv olan ölkələr (o cümlədən Azərbaycan Respublikası) SDR almamışlar. Bölgü BVF üzvü olan ölkələrin kvotalarına uyğun olaraq aparılmışdır, buna görə də əsas payı (67%) inkişaf etmiş ölkələr alırdı.

İlkin olaraq BVF-nin nizamnaməsi yalnız tədiyə balansının kəsirinin örtülməsi və məcmu valyuta ehtiyatlarının doldurulması üçün üzv ölkələr tərəfindən SDR-dən istifadə edilməsinə yol verirdi. 1978-ci ildə qüvvəyə minən yeni nizamnamə SDR-in sahiblərinə (saxlayanlara) onları vaxtında almağa və satmağa, SDR-də istiqrazları (borcları) verməyə və almağa, onlardan girov, subsidiyalar qismində və "svop" əməliyyatlarında istifadə etməyə imkan verdi. 1996-cı maliyyə ilində əməliyyatların həcmi 27,4 mlrd. SDR təşkil edirdi. SDR-in əsas istifadəçiləri tədiyyə balansının kəsirini örtmək üçün likvid vəsaitlərə ən çox ehtiyacı olan inkişaf etməkdə olan ölkələrdir. Nəticədə SDR inkişaf etmiş ölkələrin hesablarında təmərküzləşir.

Cədvəl 1

Müxtəlif valyutalarda 1 SDR-in qiyməti
(mötərizədə valyutanın SDR səbətində xüsusi çəkisi faizlə göstərilir)

Dövr	USD	DEM	JPY	GBP	FRF
1981-1985	0,540 (42 %)	0,460 (19 %)	34,0 (13 %)	0,0710 (13 %)	0,740 (13 %)
1986-1990	0,452 (42 %)	0,527 (19 %)	33,4 (15 %)	0,0893 (12 %)	1,020 (12 %)
1991-1995	0,572 (40 %)	0,453 (21 %)	31,8 (17 %)	0,0812 (11 %)	0,800 (11 %)
1996-1998	0,582 (39 %)	0,446 (21 %)	27,2 (18 %)	0,1050 (11 %)	0,813 (11 %)
Dövr	**USD**	**EUR**	**JPY**	**GBP**	
1999-2000	0,5820 (39 %)	0,3519 (32 %)	27,2 (18 %)	0,1050 (11 %)	
2001-2005	0,5770 (45 %)	0,4260 (29 %)	21,0 (15 %)	0,0984 (11 %)	
2006-2010	0,6320 (44 %)	0,4100 (34 %)	18,4 (11 %)	0,0903 (11 %)	


SDR-dən istifadə üzrə əməliyyatlar maraqlı üzv ölkələrin qarşılıqlı razılığına (saziş üzrə sövdələşmələrə) görə aparılır. Əgər belə razılığa nail olmaq mümkün olmursa, onda öz SDR-ini sərf etməyi arzu edən ölkə yardım üçün BVF-yə müraciət edə bilər ki, bu təşkilatın digər ölkələri həmin SDR-i qəbul etməyə məcbur etmək hüququ vardır (1987-ci ildən təyinatla sövdələşmələrdən, demək olar ki, istifadə olunmur).

SDR beynəlxalq valyuta sistemində rəsmi hesab vahidir. SDR-in bütün əsas valyutalara gündəlik kotirovkası xüsusi sektorda, maliyyə-kredit əməliyyatlarında müdafiə təshihlərinin hesablama vahidi qismində SDR-in tətbiqi zamanı texniki rahatlıq yaradır. Bir sıra ölkələr öz valyutalarının mübadilə məzənnəsini SDR-ə bağlayırdı. BVF-nin yeni nizamnaməsinə uyğun olaraq uzunmüddətli vəzifə – SDR-in beynəlxalq valyuta sisteminin əsas ehtiyat aktivinə çevrilməsidir (cədvəl 1).

XÜSUSİ ÇƏKİLİ QİYMƏT – göndərilən (yaxud gətirilən) ayrı-ayrı əmtəələr qrupunun ümumi dəyərinin onların miqdarına bölünməsi yolu ilə müəyyən edilən ixrac (idxal) əmtəəsinin vahidinin orta qiyməti; başqa sözlə, əmtəə dəyərinin və istehlak dəyəri vahidinin orta qiyməti. Xüsusi çəkili qiymət – beynəlxalq ticarətdə qiymətlərin dinamikasını xarakterizə edən statistik göstəricidir. O, xarici ticarət statistikası və ya statistik sorğu kitablarında və digər nəşrlərdə əks olunan göstəricilər əsasında hesablanır. Kütləvi, yekcins, standart əmtəələr üçün xüsusi çəkili qiymət sorğu qiymətlərinə nisbətən daha nümunəvidir, çünki o, orta çəkili qiymətdir, amma sorğu qiymətləri orta riyazi kəmiyyətlərdir.

Bir sıra illər ərzində xüsusi çəkili qiymətin dinamikası indekslərin köməyi ilə öyrənilir. Orta qiymətlərin aqreqat indekslərinin hesablanması zamanı əmtəələrin seçilməsindən ibarət olan və onları təmsil edən əmtəələr (reprezentativ əmtəələr) metodundan istifadə edilir. Bu əmtəələr öz texniki, texnoloji və konstruktiv göstəricilərinə görə onların təmsil etdiyi qrupların qiymət dinamikasını daha tam əks etdirir, nəzərdən keçirilən dövr üçün müqayisə ediləndir və dəqiq müəyyən olunur. BMT-nin statistikası beynəlxalq ticarətin müntəzəm dərc olunan qiymətlər indeksləri sırasına hazır sənaye məhsullarının xüsusi çəkili ixrac qiymətlərinin indekslərini də daxil edir.

XÜSUSİ HÜQUQ – mülki hüquq bölməsidir ki, şəxsi maraqlar və xüsusi mülkiyyətçilərin təşəbbüskarlığı məsələləri üzrə münasibətləri ayrı-ayrılıq-



Dünyanın Xüsusi İqtisadi Zonaları (2010)

da və qrup halında, birliklərin əmlakla bağlı şəxsi münasibət və fəaliyyətində tənzimləyir. Xüsusi hüquqa mülki, ticarət hüququ aiddir.

XÜSUSİ İQTİSADİ ZONA – ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsi üçün xarici sərmayənin və mütərəqqi texnologiyaların cəlb olunması, qabaqcıl idarəetmə təcrübəsinin tətbiqi və yayılması məqsədilə yaradılmış, özünün inzibati sərhədi, xüsusi hüquqi rejimi olan ərazi. Başqa sözlə, xüsusi iqtisadi zonalar ölkənin xüsusi rejim tətbiq olunan ərazisidir. Xüsusi iqtisadi zonalarda idxal-ixrac əməliyyatlarının gömrük tənzimlənməsi, vergiqoyma, lisenziyalaşdırma, viza rəsmiləşdirmələri, bank və sığorta işi, əmlak və girov münasibətləri, əmək və sosial münasibətlər, zonanın idarəedilməsinin xüsusi rejimi tətbiq olunur.

Xüsusi iqtisadi zonanı azad iqtisadi zonadan (bax: Azad iqtisadi zona) fərqləndirən əsas cəhətlərdən biri xüsusi iqtisadi zonalarda dövlət tərəfindən güzəştlər sistemi ilə bağlı müəyyən məhdudiyyətlərin tətbiq edilməsidir. Yəni azad iqtisadi zonalarda hansısa məhdudiyyətlər yoxdur, 100 faizlik güzəştlər sistemi nəzərdə tutulmuşdur. Digər vacib məsələ azad iqtisadi zonanın dünya okeanına birbaşa çıxışının olması ilə şərtlənir. Xüsusi iqtisadi zonaların ən mühüm şərtlərindən biri də müasir tələblərə cavab verən infrastrukturun mövcud olmasıdır.

Xüsusi iqtisadi zonaların yaradılması zamanı onların əsas cəhətləri – təsərrüfat fəaliyyətinin təşkilati formaları, ölkə ərazisində məhsuldar qüvvələrin yerləşdirilməsi üsulları, xüsusi iqtisadi zonada yaradılan əlavə dəyərin istehsal və bölgü imkanları, xüsusi iqtisadi zonanın sərhədlərinin onunla əlaqəli olan digər təsərrüfat sahələrinə, ərazilərə genişlənmə imkanları və s. nəzərdən keçirilir.

Xüsusi iqtisadi zonaları funksional təyinat göstəricisinə görə bir neçə qrupa bölmək olar: ticarət, sənaye-istehsal, texniki-tətbiqi, servis, kompleks və beynəlxalq xüsusi iqtisadi zonalar.

Azərbaycanda 2009-cu ildə "Xüsusi iqtisadi zonalar haqqında" Qanun qəbul edilmişdir. Hazırda xüsusi iqtisadi zonaların yaradılması istiqamətində işlər görülür.

XÜSUSİ KAPİTAL – 1. Firmanın sahibinə məxsus olan kapital. 2. Səhmdar cəmiyyəti şəraitində səhmdar kapitalı. Xüsusi kapital firmanın məcmu aktivləri ilə onun öhdəlikləri arasındakı fərqə bərabərdir: firmanın və ya ayrıca şəxsin məcmu aktivləri minus onun məcmu passivləri; firmanın aktivlərinin ümumi həcmində onun sahiblərinin payı.

XÜSUSİ QƏZA – ümumi qəzaya aid edilməyən itkilər xüsusi qəza itkiləri kimi qəbul olunur. Belə itkilər gəmi, fraxt və yüklər arasında bölgüyə məruz qalmır, onları bu itkiyə məruz qoyanlar və ya onların tərədilməsində günahkar olan şəxslər məsuliyyət daşıyır.

XÜSUSİ QƏZAYA GÖRƏ MƏSULİYYƏT – yüklərin sığortasının standart şərtləri. Buna uyğun olaraq sığortaçı sığortalanmış yükün tam məhv olmasına, qismən itkilərə və ümumi qəza üzrə itkilərə görə məsuliyyəti öz üzərinə götürür.

XÜSUSİ MƏQSƏDLİ AUDİTOR HESABATI (*special purpose auditor's report*) – maliyyə məlumatlarının müstəqil auditi ilə əlaqədar təqdim edilmiş və maliyyə hesabatlarına dair auditor hesabatından fərqli hesabat; o cümlədən:

a) mühasibat uçotunun əsasını təşkil edən prinsiplərə uyğun olaraq hazırlanmış maliyyə hesabatlarının tam dəsti;

b) ümumi məqsədli və ya xüsusi məqsədli maliyyə hesabatlarının tam dəstinə aid element, məsələn, ayrıca maliyyə hesabatı, konkret hesablar, hesabların tərkib hissələri və ya maliyyə hesabatının bəndləri;

c) müqavilələrə uyğunluq;

ç) icmal maliyyə hesabatları.

XÜSUSİ MƏNFƏƏT (MARAQ) – hər bir firma, hər bir mülkiyyət sahibi, işçi və istehlakçının nail olmağa çalışdığı ən yaxşı hesab edilən məqsədlər.

XÜSUSİ MÜQAVİLƏ – layihələşdirmə, montaj işləri, texniki xidmət, ixtisaslaşdırılmış malların tədarükü barədə yalnız həmin müqaviləyə aidiyyəti olan xüsusi şərtlərlə bağlanan saziş. Məsələn, müştəri firma mobil rabitə xidmətləri göstərən şirkətlə kollektiv əməkdaşlıq haqqında müqavilə bağlayır. Bu halda müştərinin şirkətinin direktoruna rouminq xidmətlərinin təqdim edilməsi ayrıca müqavilə ilə rəsmiləşdirilir. Bu cür əlavə müqavilə xüsusi müqavilə hesab edilir.

XÜSUSİ MÜLKİYYƏTÇİ – sahibkarlıq fəaliyyətini həyata keçirən, özəl bizneslə məşğul olan fiziki şəxs (xırda alverçi, xüsusi mülkiyyətçi).

Özəl şəxslərin növlərinə aiddir:

1. Xüsusi mülkiyyətçi – mülkiyyət obyektinə malik olmaq, ondan istifadə etmək və onun barəsində sərəncam vermək kimi əmlak hüquqlarına malik olan xüsusi mülkiyyət subyekti. 2. Xüsusi alverçi – alınan malın müvəqqəti sahibi, istifadəçisi və sərəncamçısı olan, sonra isə onu başqasına satan vasitəçi. 3. Xüsusi sahibkar fərdi (özəl) müəssisənin sahibi (yiyəsi) olan şəxs. Bu müəssisə fərdi fiziki şəxsin mülkiyyətinə, onların mütəşəkkil müəssisəsinin kapital vəsaitlərinə əsaslanır.

XÜSUSİ RÜSUMLAR – aşağıdakı hallarda tətbiq olunan rüsumlar: mallar Azərbaycan Respublikası gömrük ərazisinə bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək kəmiyyətdə və şərtlərlə gətirildiyi təqdirdə müdafiə tədbiri kimi; digər dövlətlərin və onların ittifaqlarının Azərbaycan dövlətinin mənafeyinə toxunan ayrı-seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi.

XÜSUSİ SIĞORTA QANUNVERİCİLİYİ – spesifik sığorta münasibətlərini, xüsusilə sığortaya dair qanunları, Prezident fərmanlarını, Nazirlər Kabinetinin qərarlarını tənzimləyən qanunvericilik.

XÜSUSİ ŞƏRTLƏR – əksər sığorta növləri standart şərtlərlə aparılır. Bu şərtlərin dəyişilməsinə, genişlənməsinə və ya onlara əlavə edilməsinə zərurət yarandıqda xüsusi şərtlər tətbiq edilir.

XÜSUSİ VERGİ REJİMİ – müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası.

XÜSUSİ VERGİ REJİMLİ MÜƏSSİSƏLƏRİN VERGİLƏRİ – Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisə və şirkətlər üçün xüsusi vergi rejimi (müəyyən dövrdə vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası) tətbiq edilir və onlar "xüsusi vergi rejimli müəssisələr" hesab olunur. Mövcud qanunvericiliyə uyğun olaraq qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda, o cümlədən neft və qaz haqqında qanunda, Vergi Məcəlləsində və vergilər haqqında digər normativ-hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edilərsə, həmin sazişlərin və ya qanunların müddəaları tətbiq edilir. Sazişlərdən irəli gələn vergilərin tətbiqi və alınması mexanizmi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı əsasında yaradılan işçi komissiyası ilə podratçı tərəflər arasında imzalanan protokollarla ("Mənfəət vergisi haqqında", "Əlavə dəyər vergisi haqqında", "Xarici subpodratçıların vergiyə cəlb edilməsi haqqında", "Əməkdaşlar və fiziki şəxslərin vergiyə cəlb edilməsi haqqında", "İdxal və ixrac vergiləri haqqında") tənzimlənir.

Hasilatın Pay Bölgüsü haqqında Sazişlərin müddəalarına əsasən, hər bir podratçı tərəfdən, mənfəət vergisinə dair öhdəlik istisna edilməklə, podratçı tərəflərin karbohidrogen hasilatı fəaliyyəti ilə əlaqədar meydana çıxan və ya onlara birbaşa, yaxud dolayısı ilə aid olan hər hansı xarakterdə heç bir vergi tutulmur. Hər bir podratçı tərəf sazişin müddəalarından irəli gələn xüsusiyyətlər nəzərə alınmaqla öz karbohidrogen fəaliyyətindən mənfəət vergisi üçün ayrıca məsuliyyət daşıyır. Vergi qoyulan zərər sonrakı təqvim ilinə keçirilir və həmin təqvim ilində mövcud vergi qoyulan mənfəət hesabına ödənilir və vergi qoyulan zərər müvafiq məbləğdə azaldılır. Həmin təqvim ilində bu yolla ödənilməmiş vergi qoyulan zərərin hər hansı qalığı vergi qoyulan mənfəətin hesabına tamamilə ödənilənədək müddət məhdudiyyəti olmadan sonrakı təqvim illərinə keçirilir. Mənfəət vergisi hər bir podratçı tərəfin vergi qoyulan mənfəətindən mövcud faiz dərəcələrinin (25%, 27%, 30%, 32% və s. həcmində) həmin təqvim ili üçün təyin edilmiş sabit dərəcəsində tutulur.

Azərbaycan Respublikasında karbohidrogenlə əlaqədar təsərrüfat fəaliyyəti göstərən xarici subpodratçılar burada gördükləri işlər və ya göstərdikləri xidmətlər müqabilində alınan ödəniş məbləğlərindən hər bir saziş üzrə müxtəlif faizlər həcmində vergi qoyulan mənfəət əldə edir və həmin mənfəət hər bir saziş üzrə müəyyən edilmiş müxtəlif dərəcələrlə vergiyə cəlb olunur. Bir sıra sazişlərdə bu vergilər həmin xarici subpodratçının vergi məsuliyyətini, habelə onun bəyannamə təqdim etmək və bütün vergiləri ödəmək öhdəlik-

lərini tamamilə əhatə edir. Xarici subpodratçılar Azərbaycanda karbohidrogen fəaliyyəti ilə bağlı olmayan fəaliyyət göstərdikləri halda isə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq vergiyə cəlb olunurlar.

Təqvim rübü ərzində xarici subpodratçıya ödənişlər həyata keçirən hər hansı şəxs belə ödənişlərdən tutulmuş vergilərə dair məlumatı müəyyən edilmiş formaya uyğun olaraq, təqvim rübü qurtardıqdan sonra 20 gün ərzində vergi orqanlarına təqdim etməlidir. Xarici subpodratçılardan alınmış ödənişlərdən müvafiq surətdə hesablanmış vergilər bu ödənişləri həyata keçirən şəxs tərəfindən tutulur və ödənmə tarixindən sonrakı 30 gün ərzində və ya növbəti ayın 15-dək ödəniş valyutası ilə dövlət büdcəsinə köçürülür.

Hasilatın Pay Bölgüsü haqqında Sazişlərə əsasən, fəaliyyət göstərən yerli subpodratçı təşkilatların vergi öhdəlikləri Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə tənzimlənir. Yerli subpodratçılar həmin fəaliyyət üzrə mənfəət vergisinin ödəyiciləri olduqları üçün onlara karbohidrogen fəaliyyəti ilə əlaqədar aparılan ödənişlərdən ödəmə mənbəyində vergi tutulmur. Lakin yerli subpodratçılar digər xarici subpodratçılara karbohidrogen fəaliyyətləri ilə əlaqədar ödənişlər apararkən vergini ödəmə mənbəyində tutmağa, onun müvafiq hesabatını təqdim etməyə və tutulmuş vergini dövlət büdcəsinə ödəməyə borcludurlar.

İBRAHİMOV ELDAR RZA OĞLU (1945) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1997-ci ildə kənd təsərrüfatının iqtisadiyyatı ixtisası üzrə namizədlik, 2011-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.



1961-1966-cı illərdə Naxçıvanda tikinti idarəsində, Texnika Birliyi sistemində böyük və baş mühəndis işləmişdir. 1970-1982-ci illərdə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun müəllimi, 1997-2002-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının dosenti olmuşdur.

1980-1985-ci illərdə Azərbaycan Kommunist Partiyası, Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçı, Naxçıvan MSSR Dövlət Kənd Təsərrüfatı İstehsal-Texniki Təminat Komitəsinin sədri, 1986-1988-ci illərdə Naxçıvan MSSR Dövlət Aqrar-Sənaye Komitəsinin sədr müavini, 1988-1991-ci illərdə Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini, Dövlət Aqrar-Sənaye Komitəsinin sədri, Vilayət Partiya Komitəsinin büro üzvü, 1991-1993-cü illərdə Standartlar və Metrologiya Mərkəzinin direktoru, 1993-1995-ci illərdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini, Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri vəzifələrində işləmişdir.

1985-1990-cı illərdə Naxçıvan MSSR Ali Sovetinin deputatı, 1990-1995-ci illərdə Azərbaycan SSR Ali Sovetinin, sonra isə I, II, III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Aqrar Siyasət Komitəsinin sədridir.

4 monoqrafiyanın və 50-dən çox elmi məqalənin müəllifidir. Müstəqil Azərbaycan Respublikasında aqrar islahatların elmi-metodoloji əsaslarının və qanunvericilik bazasının yaradılmasında fəal iştirak edir.

2005-ci ildə respublika Prezidentinin Sərəncamı ilə aqrar sahədə xüsusi xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

İBRAHİMOV İSLAM HACI OĞLU (1948) – Azərbaycan iqtisadçısı, i.e.d., prof. 1976-cı ildə kənd təsərrüfatının iqtisadiyyatı ixtisası üzrə namizədlik, 1996-cı ildə "İstehsalın artırılması və keyfiyyətin yüksəldilməsinin iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2005-ci ildən BMT-nin Beynəlxalq İnformasiya Akademiyasının həqiqi üzvüdür.

Aqrar iqtisadiyyatın problemlərinə dair 230-dan çox əsərin, o cümlədən 15-dən çox kitab və monoqrafiyanın müəllifidir. "Bazar iqtisadiyyatı şəraitində keyfiyyət və səmərəlilik" (1994), "Aqrar iqtisadiyyatın aktual problemləri" (2002), "Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri" (2005), "Aqrar islahatlar və sahibkarlığın inkişafı" (2005), "Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri" (2007), "Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri" (2010) adlı monoqrafiyaların müəllifidir. Onun rəhbərliyi ilə 12 nəfər namizədlik dissertasiyasını müdafiə etmişdir. Aqrar sektorda iqtisadi islahatlarla bağlı bir çox qanun layihələrinin, proqram və sənədlərin hazırlanmasında iştirak etmişdir.

1981-ci ildən indiyə kimi Kənd Təsərrüfatı Nazirliyində işləyir.

Hazırda şöbə müdiri vəzifəsində çalışır. Azərbaycan Dövlət Aqrar Universitetində iqtisad elmləri üzrə birləşmiş dissertasiya şurasının üzvüdür.

İCARƏ (lat. *arrendere* – muzdla vermək) – icarəyə verənin hər hansı bir əmlakı icarədara müəyyən konkret vaxt ərzində ödənişlə istifadəyə verməsi. Başqa sözlə, əmlak muzdudur, yaxud iqtisadi agentlərin hüquqi münasibətidir. Bu zaman icarəyə verən şəxs müəyyən haqqa görə əmlakdan (icarə obyektindən) müvəqqəti istifadə edilməsini və sahibliyini icarədara verir. İcarədarın bu əmlakın istifadəsi nəticəsində əldə etdiyi məhsul və gəlir onun mülkiyyəti hesab olunur (icarə haqqını çıxmaq şərtilə). İcarə dedikdə əmlaka, torpağa və digər təbii ehtiyatlara müqavilə əsasında, əvəzi ödənilməklə müddətli sahib olmaq və bunlardan istifadə etmə nəzərdə tutulur. İstifadə prosesi zamanı öz təbii xüsusiyyətlərini itirməyən əşyalar, o cümlədən torpaq sahələri, təşkilatlar, binalar, qurğular, avadanlıq, nəqliyyat vasitələri və s. icarəyə verilə bilər. Əmlakı icarəyə verən mülkiyyətçinin özü, ya da onun səlahiyyət verdiyi digər şəxs icarəyə verən hesab olunur. İcarəyə verən şəxs icarəyə verdiyi əmlakı icarədara 3-cü bir şəxsə verməyə icazə verə bilər. Bu zaman icarədarın hüquq və vəzifələri 3-cü şəxsə keçir.

İcarə haqqı icarəyə verilən bütöv əmlaka görə aşağıdakı kimi müəyyən edilir:

– vaxtaşırı və ya eyni zamanda ödənilən sabit tədiyələrin miqdarı ilə;

– icarəyə verilən əmlakın istifadəsi ilə əldə edilən gəlirlərin təyin olunmuş bir hissəsi ilə;

– icarədarın müəyyən xidmətləri təqdim etməsi ilə;

– icarədarın icarəyə verənə müqavilədə nəzərdə tutulmuş müəyyən əşyanın onun mülkiyyətinə və ya icarəyə verilməsi ilə;

– icarəyə alınan əmlakın yaxşılaşması üçün müqavilə şərti ilə icarədarın üzərinə düşən xərcləri ilə.

Cədvəl 1

Dünya ölkələri şəhərlərində mənzillərin icarə haqları

Yeri	Ölkə və şəhərlərin adları	120 kv. m sahəsi olan mənzilin qiyməti	Mənzilin icarə haqqı (avro, ayda)	İldə gəlirlilik səviyyəsi (%)
1	Moldova – Kişinyov	110 000	1 295	14,13
2	Polşa – Varşava	141 000	1 560	13,28
3	Bolqarıstan – Sofiya	125 000	1 100	10,56
4	Slovakiya – Bratislava	155 000	1 300	10,06
5	Rusiya – Moskva	751 920	5 457	8,71
6	Fransa – Paris	800 000	5 500	8,25
7	Niderland – Amsterdam	800 000	5 500	8,25
8	Rumıniya – Buxarest	282 000	1 920	8,17
9	Macarıstan – Budapeşt	215 000	1 450	8,09
10	Almaniya – Münhen	400 000	2 600	7,80
11	Türkiyə – İstanbul	296 000	1 860	7,54
12	Belçika – Brüssel	258 000	1 620	7,53
13	Makedoniya – Skopye	135 000	805	7,16
14	Böyük Britaniya – London (mərkəz)	1 742 565	10367	7,13
15	Çexiya – Praqa	283 980	1 640	6,93
16	Sloveniya – Lyublyana	296 000	1 680	6,81
17	İsveç – Stokholm	380 000	1 900	6,00
18	Böyük Britaniya – Londonun rayonları	863 880	4 170	5,79
18	İsveçrə – Sürix	712 020	3 480	5,87
20	Portuqaliya – Lissabon	302 000	1440	5,72
21	Yunanıstan – Afina	220 000	1 000	5,45
22	Finlandiya – Helsinki	400 000	1 665	5,00
23	Ukrayna – Kiyev	463 200	1 920	5,00
24	Latviya – Riqa	362 400	1 500	4,97
25	Danimarka – Kopenhagen	454 020	1 845	4,88
26	Lüksemburq	472 020	1 920	4,88
27	Avstriya – Vyana	360 000	1 320	4,40
28	Almaniya – Berlin	380 000	1 400	4,42
29	Kipr – Limassol	260 000	950	4,38
30	İtaliya – Roma	730 000	2 600	4,27
31	İrlandiya – Dublin	614 000	2 160	4,22
32	İsveçrə – Cenevrə	530 000	1 845	4,18
33	Norveç – Oslo	600 000	2 000	4,00
34	İsveçrə – Bern	476 000	1 500	3,78
35	Lixtenşteyn – Vaduz	760 000	2 085	3,29
36	İspaniya – Madrid	480 000	1 260	3,15
37	Monako – Monako	2 988 000	6 060	2,43

İcarənin ayrı-ayrı növlərinə kirayə, binaların və qurğuların icarəsi, təşkilatların icarəsi, maliyyə icarəsi (lizinq) daxildir.

İcarə maliyyə və əməliyyat icarəsi olmaqla, əsas iki kateqoriyaya bölünür:

Maliyyə icarəsi aktiv üzrə mülkiyyət hüquqlarına aid bütün risk və mükafatların ötürülməsini təmin edən icarə növüdür. Sonda mülkiyyət hüququ həm keçə, həm də keçməyə bilər.

Əməliyyat icarəsi maliyyə icarəsindən fərqli olan hər hansı digər icarədir. Təcrübədə aşağıdakılar da fərqləndirilir: müddətsiz icarə, pulla icarə, uzunmüddətli icarə, torpaq icarəsi, ağır şərtli icarə, qısamüddətli icarə, kəndli icarəsi, zorakı icarə, vərəsəlik icarə, natural icarə, sahibkar icarəsi, müəssisənin icarəsi, ərzaq icarəsi, xüsusi müəssisənin icarəsi və s.

İCARƏ HAQQININ SIĞORTASI – sığortalının maraqlarından asılı olaraq icarə haqqı (icarəyə verdikdən sonra sığorta hadisəsi baş verərkən onu itirə bilər) və ya icarə haqqının dəyərinin (əgər sığortalı icarədardırsa, sığorta hadisəsi üzündən binanın yararsız olması zamanı da ödənilməli olan) sığortası.

İCARƏ MÜQAVİLƏSİ – bu müqaviləyə uyğun olaraq icarəyə verən (kirəyə verən) əmlakı müvafiq haqq müqabilində icarəçiyə (kirəyəçiyə) müvəqqəti istifadəyə verməyi öhdəsinə götürür.

İCARƏ MÜQAVİLƏSİ

_____ şəhəri (rayon) "____" _____ 20 - cu il

Müqavilə "İcarəyəverən" adlanan _____

_____

(fiziki və ya hüquqi şəxsin adı)

_____

(rəhbərin yaxud sahibinin soyadı, adı, atasının adı)

Sonralar müqavilə üzrə "İcarədar" adlanan_____

_____

(Fiziki şəxsin, müəssisənin adı)(rəhbəri yaxud sahibinin soyadı, adı, atasının adı)

Aşağadakılar haqqında müqavilə bağlayırlar:

1. Şabran rayon _____kəndində ünvanda yerləşən _____ (ha və ya kv.m) olan torpaq sahəsini_____ _____ məqsədi ilə istifadə etmək üçün "İcarəyəverən" icarəyə verməyi, "İcarədar" isə icarəyə götürməyi öhdələrinə götürürlər: İcarəyə götürülən torpaq sahəsində qanunvericiliyə uyğun fəaliyyət göstərmək üçün:

2. İcarə müddəti " ____ " _____20 cı ildən " ___ " _____ 20 __ ci ildək müəyyən edilir.

3. İcarə haqqı hər il üçün _____ (_____) Manat məbləğində ödənilir.

Enerji, patent və digər xərclər "İcarədar" tərəfindən əlavə ödənilir.

4. "İcarədar" icarə haqqını və başqa borclarını hər il_____ ayından gec olmayaraq ödəməlidir.

İcarə haqqı vaxtında verilmədikdə "İcarədar" gələn ilin_____ ayı tarixinə, keçən hər gün üçün 2 % cərimə ödəməlidir.

Əgər cərimə və icarə haqqı gələn növbəti ayın 20-nə qədər ödənilməzsə, "İcarəyəverən"in məhkəməyə iddia vermək yolu ilə aşağıdakı hüquqları var:

a) Müqaviləni vaxtından əvvəl pozmaq.

b) "İcarədar"ı, icarə edilən sahədən çıxarmaq.

5. İcarə müddətində "İcarədar" (lazım gələrsə) öz hesabına icarə edilən sahəni cari təmir etməyi, "İcarəyəverən"in və texniki nəzarət şöbəsinə bütün göstərişlərinə sözsüz əməl etməyi öhdəsinə götürür.

6. "İcarədar" icarə edilmiş sahədə hər hansı bir dəyişiklik və tikinti işi apara bilməz. Müqavilə başa çatdıqda və ya vaxtından əvvəl pozulduqda, "İcarədar" tərəfindən icarəyə götürülmüş sahədə aparılmış bütün tikililər "İcarəyəverən"in ixtiyarına keçir.

7. "İcarədar" müqaviləni vaxtından əvvəl pozmaq hüququna malikdir.

Belə olduqda o, icarə müqaviləsini pozulan ay üçün icarə haqqını ödəməli, ödəmə qəbzini və müqavilənin surətini " İcarəyəverən"ə təqdim etməlidir, sonra sahənin təhvil verilməsi barədə akt bağlamalıdır (akt bağlandığı gündən müqavilə qüvvədən düşür).

8. Müqavilə əsasında əldə edilən hüquqların "İcarədar" tərəfindən başqasına verilməsi yalnız "İcarəyəverənin" icazəsi ilə mümkündür.

Bu bənddə göstərilmiş şərtlərin pozulmasına görə "İcarədar" "İcarəyəverən"-ə sahəyə görə_____ (_____) manat məbləğində cərimə ödəməli və icarəyə verilmiş sahə qeyri qanuni hesab edilərək geri qaytarılır.

Müvafiq icazə olmadan, sahənin başqa şəxsə verilməsi qeyri-qanuni hesab edilir.

9. İcarəyə verilmiş sahə dövlət və ya ictimai əhəmiyət kəsb edirsə, müvafiq gətirməmək şərti ilə vaxtından əvvəl pozula bilər, lakin "İcarədar"a başqa torpaq sahəsi icarəyə verilməlidir.

10. Müqavilə eyni məzmunda üç nüxsədə bağlanır.

11. Müqavilədə göstərilməyən başqa mübahisəli məsələlər Azərbaycan Respublikasının qanunları əsasında məhkəmə yolu ilə həll edilir.

"İcarəyəverən"	"İcarədar"
Ünvan:	Ünvan:
_____	_____
_____	_____
İmza: _____	İmza _____
M.Y.	M.Y.

İcarə müqaviləsində icarə əmlakını, yəni icarəçiyə müvəqqəti istifadəyə verilməli olan əmlakı dəqiq müəyyən etməyə imkan verən məlumatlar göstərilir.
Adətən icarə obyektləri qismində torpaq sahələri, müəssisələr, binalar, avadanlıq, nəqliyyat vasitələri və s. nəzərdə tutulur.
Əgər icarə müqaviləsinin qüvvədə olma müddəti bir ildən çoxdursa, yaxud müqavilə iştirakçılarından heç olmazsa biri hüquqi şəxsdirsə, bu müqavilə yazılı şəkildə tərtib edilməlidir. Daşınmaz əmlakın icarə müqaviləsi dövlət tərəfindən qeydiyyata alınmalıdır.
İcarə müqaviləsində istər icarə müddəti başa çatdıqdan sonra, istərsə də həmin müddət başa çatana qədər müqavilədə razılaşdırılmış bütün girov qiymətinin icarəçi tərəfindən ödənilməsi şərti ilə icarəyə götürülmüş əmlakın onun mülkiyyətinə keçməsi nəzərdə tutula bilər.
İcarəçi icarə müqaviləsinin şərtlərini vicdanla yerinə yetirmədikdə, icarəyə götürülən əmlakı korladıqda icarəyə verənin tələbinə əsasən; icarəyə verən əmlakı icarəçinin istifadəsinə vermədikdə və ya əmlakdan istifadə edilməsinə mane olduqda, müqavilə ilə müəyyən edilmiş müddətlərdə əmlakın əsaslı təmirini yerinə yetirmədikdə icarəçinin tələbi ilə müqavilə vaxtından əvvəl pozula bilər.

İCARƏYƏ VERƏNLƏR – əmlakı icarəyə vermək üçün mülkiyyətçinin vəkil etdiyi orqanlar, təşkilatlar və fiziki şəxslər, habelə əmlak üzərində digər əşya hüquqlarına malik şəxslər.

İCBARİ MAAŞ SIĞORTASI – hər bir sığortalanmış obyektin sabit (möhkəm) sığorta məbləğinin müəyyən edilməsi ilə xarakterizə olunan icbari sığorta növü.

İCBARİ SIĞORTA – sığorta formalarından biri. Sığortalı və sığortaçı üçün icbarilik prinsipi əsasında sığorta formasıdır. Könüllü sığortadan fərqli olaraq, qanun qüvvəsində həyata keçirilir. İcbari sığorta elə sığorta formasıdır ki, bu zaman sığorta münasibətləri sığorta obyektlərinin (risklərinin) və şərtlərinin siyahısını müəyyən edən müvafiq qanunvericilik aktları əsasında qanunun qüvvəsi ilə yaranır. Beynəlxalq təcrübədə icbari sığortaya, məsələn, icarəyə verilən dövlət əmlakı məruz qalır, hərbi qulluqçuların sığortalanması icbaridir və s.

İCBARİ TİBBİ SIĞORTA – sağlamlığın mühafizəsi və xəstəlik zamanı zəruri tibbi yardım alınması ilə bağlı əhalinin sosial müdafiəsinin ən mühüm elementlərindən biri. İcbari tibbi sığorta hələ qədim Yunanıstanda və Roma imperiyasında peşə kollegiyaları çərçivəsində qarşılıqlı yardım təşkilatları şəklində mövcud idi. Bu təşkilatlar bədbəxt hadisələr, xəsarət alma, xəstəlik nəticəsində əmək qabiliyyətinin itirilməsi zamanı vəsaitlərin yığılması və ödənilməsi ilə məşğul olurdular. Xəstəlikdən sığortalanma ilk dəfə İngiltərə və Almaniyada tətbiq olunmuşdur. Məhz Almaniyada 1883-cü ildə fəhlələrin xəstəlikdən icbari sığortası haqqında ilk qanun qəbul edilmişdir.

İCBARİ TİBBİ SIĞORTA FONDUNA AYIRMALAR – icbari tibbi sığortanın büdcədənkənar fonduna hesablanmış əmək haqqından faizlə maya dəyəri hesabına icbari ayırmalar.

İCBARİ VERGİ SIĞORTASI – əmlak sığortası formasıdır. Bunun əsasında sığortalı və sığortaçı üçün icbarilik prinsipi durur. Keçmiş SSRİ-də qanuna görə, sığortalı, icbari vergi sığortasına məruz qalan əmlak üçün sığorta tədiyələrini etməli idi, sığortaçı isə sığorta şərtlərində nəzərdə tutulmuş bütün hallarda sığorta ödənişini ödəməli idi. İcbari vergi sığortasının əsas əlamətlərindən biri əmlakın ayrı-ayrı növləri üzrə sabit sığorta məbləğinin müəyyən edilməsi idi.

Cədvəl 1

İcbari və könüllü tibbi sığortanın fərqli cəhətləri

İcbari tibbi sığorta	Könüllü tibbi sığorta
Dövlət sosial sığortasının icbari hissəsini təşkil edir.	Vətəndaşın və ya ona iş verənin istəyi ilə həyata keçirilir.
Minimal zəmanət verilmiş tibbi yardım və dərman preparatları ilə təmin edir.	Zəmanət verilmiş tibbi yardımdan əlavə xidmətlərin həyata keçirilməsinə imkan verir.
Əvəzsiz olaraq vergi ödəyiciləri tərəfindən ödənilir.	Ödəniş müqavilə əsasında həyata keçirilir.
Bu sistemdə işləyən tibb müəssisələrinin siyahısı dövlətin ərazi zəmanət proqramı əsasında müəyyən edilir.	Bu sistemdə işləyən tibb müəssisələrinin siyahısı sığorta şirkətləri tərəfindən müstəqil olaraq müəyyən edilir.

Cədvəl 1

Azərbaycan Respublikasının icmal büdcəsinin gəlirləri

Göstəricilər	Ölçü vahidi	2003-cü il, icra	2010-cu il, icra
Cəmi	mln. manat	1663,1	19444,0
	mln. dollar	1693,4	24226,3
ÜDM-də xüsusi çəkisi	%	23,3	46,8
Hər nəfərə düşən icmal büdcənin gəlirləri	manat	201,2	2134,1

İCMAL (*population*) – tərkibindən nümunə götürülən və barəsində auditorun nəticələr əldə etməli olduğu məlumatlar toplusu. İcmal məlumatlar hər biri ayrılıqda yoxlanılmalı olan qruplara və ya yarımqruplara bölünə bilər. İcmal məlumatlar terminindən qrup terminini ehtiva etmək üçün istifadə olunur.

İCMAL BALANSI – ölkə iqtisadiyyatının maliyyə ehtiyatlarının formalaşması və onlardan istifadə edilməsinin ən mühüm nisbətlərini xarakterizə edən, məsrəflərin, resursların, gəlir və xərc mənbələrinin ayrı-ayrı növləri üzrə xüsusi balansları birləşdirən, ümumiləşdirən balans hesabatı.

İCMAL BÜDCƏ – dövlət büdcəsinin, yerli büdcələrin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədi. Azərbaycan Respublikasının icmal büdcəsi Azərbaycan Respublikasının dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi, Dövlət Sosial Müdafiə Fondunun büdcəsi, Dövlət Neft Fondunun büdcəsindən ibarətdir (cədvəl 1).

İCMAL GÖSTƏRİCİSİ – bir sıra tərkib hissələrindən ibarət ümumiləşdirici iqtisadi göstərici.

İCRA QİYMƏTİ (*exercise price, strike price*) – opsion alıcısının opsionun buraxıldığı qiymətlə aktivi ala və sata biləcəyi qiymət. Bəzən sinonim kimi "strayk" qiyməti də istifadə olunur.

İCRAÇI – iş görən, yaxud xidmət göstərən müəssisə, idarə, təşkilat və ya sahibkar.

İCTİMAİ ƏMTƏƏ – istehlakı məhdudlaşdırıla bilməyən və istehlak edildikcə tükənməyən əmtəələr.

İCTİMAİ FORMASİYA (alm. *Gesellschaftformation*) – marksist iqtisadi nəzəriyyənin kateqoriyası, ictimai inkişaf mərhələsi, cəmiyyətin tarixən müəyyən tipi. Həm marksist, həm də qeyri-marksist variantlarda formasiya konsepsiyasının mahiyyəti vahid istiqamətli tarixi inkişaf prosesinin mövcudluğunun postulatlaşdırılmasından ibarətdir. Bu mənada, tarix keyfiyyətcə identifikasiya edilə bilən və ictimai formasiya adı almış "mərhələ"lərin mütərəqqi qaydada bir-birini əvəz etməsi şəklində təsvir edilə bilər. Formasiya konsepsiyası tarixin dövrlərə bölünməsinin digər konsepsiyalarından – sivilizasiya, tarixin təkrarlanması və tarixi epoxa konsepsiyalarından əhəmiyyətli dərəcədə fərqlənir. Sivil cəmiyyət konsepsiyasına görə bütün sosiumlar əlahiddə və bir-birindən asılı olmayan, çox vaxt sivilizasiyalar adlanan tarixi tiplər şəklində müxtəlif qruplarda birləşirlər. Tarixən təkamül edən məhz bu qruplardır. Belə sivilizasiyaların hər biri yarandığı andan məhv olana qədər bir neçə inkişaf mərhələsindən keçir. N.Danilevskinin təbirincə desək, ümumdünya tarixi yoxdur, yalnız konkret sivilizasiyaların tarixi var. Sivilizasiya konsepsiyası N.Danilevskinin, A.Toynbinin, P.Sorokinin, O.Şpenqlerin nəzəriyyələrinin əsasını təşkil edir.
Formasiya konsepsiyası ilə sivilizasiya konsepsiyası arasında orta mövqe tutan tarixi dövr konsepsiyasına görə, ümumdünya tarixi prosesi ayrı-ayrı mərhələlərin bir-birini mütərəqqi əvəz etməsi deyil, tsiklik əvəz etməsi prosesidir. Onlar dirçəlişdən tənəzzülə doğru gedir, sonra yenidən dirçəliş başlanır və s. Aristotel, Polibi, İbn Həldun, N.Makiavelli, D.Viko, F.Furye, E.Mayer və başqaları bu cür baxışların tərəfdarı idi. Tarixi epoxalar obyektiv əla-

mətlərin müəyyən, bəzən ixtiyari şəkildə təyin edilən məcmusu, çox vaxt ictimai inkişafın hər hansı meyli əsasında fərqləndirilən özünəməxsus tarixi dövrlərin konsepsiyası tarixçilər arasında daha geniş yayılmışdır. Beləliklə, tarixin dövrlərə bölünməsi meyarı öyrənilən hadisələrin gedişində mühüm dəyişiklik hesab edilir. Tarixi epoxalar bölgüsü prinsip etibarilə emprik və bir çox cəhətdən ixtiyari bölgüdür, hər hansı tarixi nəzəriyyədə təyin edilməmişdir və sistematik olması vacib deyil.

Formasiya konsepsiyası marksist iqtisadi nəzəriyyədə və adətən, "postindustrial cəmiyyəti nəzəriyyəsi" termini ilə birləşdirilən müxtəlif nəzəriyyələrdə bu və ya digər şəkildə istifadə edilmişdir.

XX əsrin 80-ci illərində aparılmış tarixşünaslıq tədqiqatlarının gedişində aydınlaşdırılmışdır ki, K.Marks "ictimai formasiya" terminindən geniş və məhdud mənada istifadə etmişdir. O, "geniş" ictimai formasiyanın üç növünü fərqləndirirdi: ilkin və ya ibtidai (arxaik), ikinci və ya antaqonist (iqtisadi) və üçüncü və ya kommunist ictimai formasiya. K.Marks antaqonist (iqtisadi) formasiyanı dörd formasiyaya bölürdü: Asiya formasiyası, antik formasiya, feodal və kapitalist formasiyaları.

Keçmiş SSRİ-də uzun müddət mövcud olmuş bəsit interpretasiyada tarixi proses beş ictimai-iqtisadi formasiyanın ardıcıl olaraq bir-birini əvəz etməsi kimi təqdim olunurdu: ibtidai icma quruluşu, quldarlıq quruluşu, feodalizm, kapitalizm və kommunizm (onun birinci mərhələsi sosializmdir). Bəzi marksistlər kapitalizmdən əvvəl yalnız bir antaqonist formasiyanın (feodalizm) mövcud olmasını iddia edirdilər.

Marksa görə, hər bir ictimai formasiyada (həm məhdud, həm də geniş mənada) məhz ona xas olan məhsuldar qüvvələrin və istehsal münasibətlərinin tarixən müəyyən vəhdətindən ibarət istehsal üsulu mövcuddur. İstehsal münasibətlərinin məcmusu cəmiyyətin "bazisini" təşkil edir. Hüquqi, siyasi və digər ictimai münasibətlər isə "bazis" üzərində ucalan və son nəticədə onunla müəyyənləşən "üst qurum"dur. İctimai formasiyaların bir-birini əvəz etməsi istehsal münasibətlərinin məhsuldar qüvvələrin xarakterinə və inkişaf səviyyəsinə uyğunluğu qanunu əsasında baş verir.

Məhsuldar qüvvələrin inkişafı nəticəsində köhnə ictimai formasiyanın təməlində yeni ictimai formasiyanın obyektiv və subyektiv ilkin şəraiti formalaşır. Lakin bu prosesin gedişində istehsal münasibətləri modifikasiya edilərək, dəyişilmiş məhsuldar qüvvələrə uyğunlaşa bilər. Bu vəziyyət ictimai formasiyanın öz-özünə yeniləşməsi imkanını istisna edir; onun aradan qaldırılması üçün istehsal üsulunu, cəmiyyətin siyasi təşkilini yenidən quran subyektiv qüvvələrin təsiri zəruridir. Bəzi hallarda bu cür təsir sosial inqilablar formasını alır.

Post-industrial cəmiyyəti nəzəriyyələrində (D.Bell, C.Helbreyt, Q.Kan, A.Tofler) tarixi inkişafın üç mərhələsi fərqləndirilir: sənayeləşmədən əvvəlki və ya ənənəvi (aqrar), sənaye və postsənaye (Böll və b.), texnotron (Z.Bjezinski), ifrat sənayeləşmiş mərhələ (A.Tofler). Bu mərhələləri birbirindən ayıran hədlər sənaye inqilabları və elmi-texniki inqilablardır. Asanlıqla görmək olar ki, bu nəzəriyyələrdə formasiya konsepsiyasından istifadə edilir. Lakin bu halda ictimai formasiyaların fərqləndirilmə meyarı marksizmdə olduğundan fərqlənir – texnikanın və texnologiyanın (geniş mənada) inkişaf səviyyəsindən meyar kimi istifadə edilir. Sənayeləşmədən əvvəlki dövrdə iqtisadiyyatın əsas sahəsi kənd təsərrüfatı, sənayeləşmə dövründə sənaye, postsənaye dövründə isə xidmətlər sahəsi üstünlük təşkil edir. Limitləşdirici amillər rolunda isə müvafiq surətdə ardıcıl olaraq torpaq, kapital və informasiya, hakim sosial qruplar – torpaq sahibkarları, kapital sahibkarları və informasiya mülkiyyətçiləri çıxış edir.

Formasiya konsepsiyasından istifadə edilən bütün nəzəriyyələrin müəyyən ümumi metodoloji xüsusiyyətləri var. Əvvəla, bu nəzəriyyələrin hamısı teleoloji nəzəriyyələrdir, yəni onlar sosiumların hərəkətinin heç kəs tərəfindən əvvəlcədən müəyyən edilməmiş məqsədinin mövcud olmasını fərz edirlər. Belə bir məqsəd kimi ictimai tərəqqinin yeni pilləsinə keçid məqsədi elan edilir (tarixi inkişafın məqsədəuyğunluq doktrinası). İkincisi, həmin nəzəriyyələrdə tarix hadisələrin qarşısıalınmaz gedişi kimi təqdim edilir. Belə güman edilir ki,

tarixi qüvvələr axınına xas olan daxili bağlılıq manevr etmək, tarixi dəyişmək imkanını əhəmiyyətli dərəcədə azaldır. Nəhayət, üçüncüsü, bütün formasiya nəzəriyyələrində hər hansı tarixi hadisələr aşkar və ya qeyri-aşkar şəkildə qiymətləndirilir. Bu hadisələr ictimai formasiyaların dəyişməsində ifadə olunan tarixi tərəqqiyə ya şərait yaradır, ya da ona mane olur. Müasir dövrdə formasiya nəzəriyyələrinin həm tarixçilər arasında, həm də iqtisadçılar arasında populyarlığı get-gedə azalır.

İCTİMAİ İSTEHLAK FONDU – direktiv planlı iqtisadiyyatın indikatorlarından biri, pul və maddi əşya resurslarının dövlət, region, müəssisə səviyyəsində bölüşdürülməsi formaları. İctimai istehlak fondlarının əsas fərqləndirici cəhətləri bunlar idi: fondların bölüşdürülməsinin məxsusi xarakteri, onların məxsusi iqtisadi təyinatı, istehlakın üstünlük təşkil etməsi, eləcə də bu fondların yaranmasının spesifik üsulu.

Pulsuz və güzəştli şərtlərlə təqdim edilən ictimai istehlak fondları əsasən aşağıdakı istiqamətlər üzrə istifadə edilirdi:

– əhalinin sağlamlığının qorunması və tibbi xidmət;

– uşaq və yeniyetmələrin cəmiyyət hesabına ictimai tərbiyəsi və saxlanması;

– xalq təhsilinin digər formaları və mədəni inkişafın təmin edilməsi;

– istirahət (ödənişli məzuniyyətlər);

– güzəştli şərtlərlə mənzil verilməsi;

– ahıl və əmək qabiliyyəti olmayan şəxslərin sosial təminatı.

İstehlak fondunun bir hissəsi sosialist cəmiyyəti üzvlərinin tələbatının ödənilməsinə sərf edilirdi. İctimai istehlak fondlarından ödəniş və güzəştlər əmək haqqı, mükafat, şəxsi yardımçı təsərrüfatdan götürülən gəlirlərlə yanaşı, sosialist bölgüsünün əsas formalarından biri idi. İctimai istehlak fondlarından ödəniş və güzəştlər dövlət büdcəsindən təhsilə, səhiyyəyə, idmana, sosial təminata və s. çəkilən xərclər, müəssisə və istehsal birliklərinin öz sosial-mədəni tədbirləri və mənzil tikintisi fondlarından çəkdikləri xərclər, sosial sığortanın və kolxozçuların sosial təminatının mərkəzləşdirilmiş ittifaq fondundan çəkilən xərclər və s. formalarda həyata keçirilirdi. İctimai istehlak fondlarından ödəniş və güzəştlərin həcmi sosialist istehsalının səviyyəsi və inkişaf sürəti ilə, həmçinin dövlətin sosial siyasətinin həyata keçirilməsi gedişində sosial dəyişikliklərin sürəti ilə müəyyən olunurdu.

İctimai istehlak fondları əsasən ümumdövlət fondları idi və dövlət büdcəsi hesabına yaradılırdı. Dövlətə məxsus istehsal müəssisələri ictimai istehlak fondları kimi onlara əməkləri müqabilində verilən haqdan əlavə, mənfəətdən ayırmalar hesabına yaradılan sosial-mədəni tədbirlər və mənzil tikintisi fondlarından istifadə edirdilər. Burada müəssisənin işinin nəticələrindən asılı olaraq fondların yaranması (bu, işçilərin həmin nəticələrə kollektiv marağını təmin edirdi) və həmin fondların bir hissəsinin əlavə əmək haqqı kimi ödənilməsi əlaqələndirilirdi.

Bundan əlavə, kolxozdaxili və kolxozlararası ictimai istehlak fondları mövcud idi. Onların bir hissəsi fəhlə və qulluqçuların sosial sığortası ilə yaranırdı. Müəssisələr sosial sığorta fonduna üzvlük haqlarını hesablanmış əmək haqqının müəyyən faizi həcmində ödəyirdilər. Sosial sığorta fondları hesabına əmək pensiyaları (hərbi qulluqçulara pensiyalar dövlət büdcəsindən ödənilir), əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlər verilir, sanatoriyalara yollayış dəyəri tamamilə və ya qismən ödənilirdi və s.

İctimai istehlak fondları vasitəsilə bölgü zamanı tətbiq edilən prinsip əməyə görə bölgü prinsipi olmasa da, tələbata görə bölgü prinsipi və hətta tələbata mütənasib bölgü prinsipi də deyildi, bölgünün bir prinsipindən digərinə keçid forması idi. Bu halda cəmiyyət insanların tələbatını işçilərin əmək töhfələrindən az və ya çox dərəcədə asılı olmayaraq, ilk növbədə, maaşları aşağı olan aztəminatlı ailələrin xeyrinə təmin edirdi. Çünki ilk növbədə, adambaşına ehtiyacları əmək haqqı hesabına daha az təmin edilmiş insanların tələbat səviyyəsi artırılırdı.

İctimai istehlak fondları, ilk növbədə, ödənişli əməkdə bilavasitə iştirak edə bilməyənlərin (ahıllar, uşaqlar və s.) tələbatının ödənilməsinə, eləcə də bütün əhalinin mədəni tələbatının təminatına və tibbi xidmətə sərf edilirdi. Buna müvafiq olaraq, ictimai istehlak fondları vasitəsilə bölgü əməyə görə əsas bölgüyə əlavə bölgü kimi daxil olurdu.

Azad bazar münasibətlərinin bərqərar olduğu ölkələrdə icti-

mai istehlak fondlarının bir sıra funksiyaları dövlət tərəfindən, əsasən, dövlət büdcəsi vasitəsilə həyata keçirilir.

Eyni zamanda, əməkçilər onların keçmiş və indiki əməyinin nəticələrindən bilavasitə asılı olaraq, ictimai istehlak fondları vəsaitlərinin xeyli hissəsini pensiyalar, məzuniyyət müddətinin və əmək qabiliyyətinin müvəqqəti itirildiyi günlərin ödənilməsi şəklində alırdılar.

Sovet hakimiyyəti illərində ölkə iqtisadiyyatı inkişaf etdikcə, ictimai istehlak fondları da çoxalmışdı.

İctimai istehlak fondları milli gəlirin dövlət, müəssisə, təşkilat və kolxozlar tərəfindən zəhmətkeşlərin əməyinə verilən haqqa əlavə olaraq onların istehlakına yönəldilən hissəsidir. Marksist ideologiyasına görə sosializmin təbiətindən irəli gələn, onun spesifik bölgü forması olan bu fondlar sosial bərabərlik, ədalət, humanizm və kollektivçilik münasibətlərini inkişaf etdirir. İctimai istehlak fondlarından sosialist dövlətinin bərabərhüquqlu vətəndaşları istifadə edirlər. Bu fondlardan istifadə edilməsinin əməyin kəmiyyəti və keyfiyyəti ilə bilavasitə əlaqəsi yoxdur və həm də onlar müəyyən məqsədə xidmət edirlər.

Bu fondlardan, əvvəla, cəmiyyətin işləməyən üzvlərinin tələbatının ödənilməsi üçün ikincisi, əhaliyə pulsuz xidmət dairəsinin yaradılıb genişləndirilməsi üçün istifadə edilirdi. Bu fondlar əməyə görə haqq verilməsi fonduna nisbətən daha geniş anlayışdır. Belə ki, ictimai istehlak fondları yalnız ictimai faydalı əməklə məşğul olanlara deyil, həm də hələ ictimai istehsala başlamayanlara, habelə yaşına və əlilliyinə görə istehsalı tərk edənlərə də eyni dərəcədə aiddir.

Ötən əsrin 80-ci illərinin əvvəllərində orta hesabla ictimai istehlak fondları milli gəlirin 25 faizini, istehlak fondunun 34 faizini, real gəlirlərin isə təqribən 26-27 faizini təşkil edirdi. İctimai istehlak fondlarından olan ödənclər və güzəştlər 1975-ci ildə 1970-ci ilə nisbətən 26,2 mlrd. manat, onuncu beşilliyin əvvəlinə nisbətən 1980-ci ildə isə 26,4 mlrd. manat artmışdı.

Azərbaycanda ictimai istehlak fondlarının həcmi 1980-ci ildə 1753 mln. manata çarmışdı ki, bu da 1975-ci ilə nisbətən 300 mln. manat çox idi. İctimai istehlak fondlarından olan ödənc və güzəştlərin strukturunda da müəyyən dəyişiklik baş vermişdi. Həmin ildə ictimai istehlak fondlarından maariflənməyə 36 faiz, səhiyyə və bədən tərbiyəsinə 14 faiz, sosial təminata və sosial sığortaya 36 faiz, o cümlədən pensiyaya 22 faiz vəsait ayrılıb. Onuncu beşillikdə ictimai istehlak fondlarından verilən bütün ödənc və güzəştlərin həcmi 8171,7 mln. manat, başqa sözlə, ildə orta hesabla 1634,4 mln. manat olmuşdur ki, bu da doqquzuncu beşilliyin müvafiq göstəricisinə nisbətən 419,3 mln. manat çox idi. 1976-1979-cu illərdə orta hesabla ildə ictimai istehlak fondlarından olan ödənc və güzəştlər doqquzuncu beşilliyə nisbətən təhsilə 120 mln., səhiyyə və bədən tərbiyəsinə 40 mln., sosial sığortaya 160 mln. manat çox olmuşdu.

Respublikada ümumtəhsil məktəblərində bir şagirdə ildə 180 manat, orta ixtisas məktəblərində 680 manat, ali məktəblərdə isə hər tələbəyə 1000 manata yaxın xərc çəkilirdi. Körpə evlərində ildə bir uşağa 560 manat, uşaq bağçalarında 480 manat pul xərclənirdi. 1978-ci il sentyabrın 1-dən etibarən ümumtəhsil məktəblərinin birinci sinif şagirdlərinə, 1979-cu il sentyabrın 1-dən etibarən isə ikinci və üçüncü sinif şagirdlərinə dərsliklər pulsuz verilməyə başlanılmışdı. Ümumiyyətlə, bir nəfər sovet adamının orta və ali təhsil alması dövlətə 7 min manata başa gəlirdi.

İCTİMAİ İŞLƏR – sosial faydalı olub, xüsusi peşə hazırlığı tələb etməyən müvəqqəti işlər. İctimai işlərdə **işsiz** vətəndaşlar iştirak edə bilər. Onların müəyyən edilməsi ilə müvafiq xidmət orqanları məşğul olur (bax: cədvəl 1).

İctimai işlərin növləri:

• yol tikintisi, təmiri və saxlanılması, su, qaz, kanalizasiya və digər kommunikasiyaların quraşdırılması;

• kənd təsərrüfatında meliorasiya (suvarma) işlərinin aparılması, meşə təsərrüfatı işləri;

• kənd təsərrüfatı məhsullarının tədarükü, emalı və saxlanılması;

• mənzil, yaşayış və sosial-mədəni obyektlərin yenidən qurulması, memarlıq abidələri, mühafizə olunan ərazilər komplekslərinin bərpası;

• sərnişin nəqliyyatına xidmət, rabitə təşkilatlarının işi;

• mənzil-kommunal və məişət xidməti fəaliyyəti;

• bağçılıq və yaşıllaşdırma, meşə-parkların, istirahət zonalarının və turizmin inkişafı;

• yaşlı, əlil və xəstələrə qayğı;

• bayram və tətillərdə uşaqların istirahəti və asudə vaxtlarının keçirilməsinin təmin edilməsi, sanatoriya-kurort zonalarında xidmət;

• təkrar xammal və tullantıların toplanması və emalının təşkili;

• sosial-mədəni tədbirlərin (əhalinin siyahıya alınması, idman yarışları və festivalların keçirilməsi və s.) həyata keçirilməsi;

• əmək fəaliyyətinin digər növləri.

Cədvəl 1

Azərbaycan Respublikasının məşğulluq xidməti orqanlarının əsas göstəriciləri (ilin sonuna, nəfər)

	2000	2005	2006	2007	2008	2009	2010
Məşğulluq xidmətlərində işsiz statusu almış şəxslər	43739	56343	53862	50651	44481	41100	38966
İşə düzəldilmişdir	19095	25299	28076	30700	31144	28382	29399
Peşə təliminə göndərilmişdir	1394	1542	577	2623	3393	4827	3921
Boş iş yerlərinin tutulması üçün işçi qüvvəsinə olan tələbat	5197	9247	11995	12297	10445	10594	10654
İşsiz statusu almış işsizlərin iqtisadi fəal əhaliyə nisbəti, faizlə	1,17	1,35	1,25	1,17	1,02	0,94	0,85
İşsizliyə görə müavinət alanlar	2768	2087	2281	2523	2109	2721	87





• sosial-mədəni tədbirlərin (əhalinin siyahıya alınması, idman yarışları və festivalların keçirilməsi və s.) həyata keçirilməsi;

• əmək fəaliyyətinin digər növləri.

İCTİMAİ MƏHSUL – bir il ərzində istehsal edilmiş əmtəə və xidmətlərin bazar qiymətlərində ifadə olunmuş məcmusu. Təkrar istehsal nəzəriyyəsinin hazırlanmasında xidmətləri ilə yaddaşlarda qalan iqtisadçılar belə hesab edirdilər ki, ictimai məhsulun quruluşunu maddi-əşya məzmununa, funksional əhəmiyyətinə və dəyərinə (qiymətliliyinə) görə yanaşmaq lazımdır. Məsələn, F.Kene məşhur "İqtisad cədvəli"ndə ictimai məhsuldan danışarkən yalnız kənd təsərrüfatı və sənaye məhsullarını əsas götürür.

A.Smit fəhlələri iki qrupa ayırır ki, bunlardan biri istehsal vasitələrinin istehsalı, digəri isə istehlak şeylərinin istehsalı ilə məşğuldur. İctimai məhsulun belə quruluşu əsasında K.Marks ictimai məhsulun dəyər quruluşunu aşağıdakı kimi ifadə etmişdir: $c+v+m$; c – məhsul istehsalına sərf edilmiş istehsal vasitələri (keçmiş əmək); $v+m$ – yeni yaradılmış dəyərdir. Onun fikrincə, yeni yaradılmış dəyər ($v+m$) iki hissədən ibarətdir: v – iş qüvvəsinin təkrar istehsalı üçün sərf edilən əmək və izafi məhsul, m – mənfəət.

Dünya təcrübəsində isə ictimai məhsula maddi istehsalla yanaşı, əhaliyə xidmət edən sahələrin xidmətləri də daxil edilirdi. Sovet sistemində isə ictimai məhsulun hesablanmasında yalnız maddi istehsal sahələrində yararsız məhsulun həcmi əsas götürülürdü. Belə bir mövqe onunla əsaslandırılırdı ki, gənc Sovet dövləti özünün gücünü artırmaq üçün, ilk növbədə, maddi-nemətləri istehsal edən sahələri (sənaye, kənd təsərrüfatı, rabitə və nəqliyyat (sərnişin nəqliyyatı nəzərə alınmadan), ticarət və s.) inkişaf etdirməlidir. Yalnız bu yolla Sovet ölkəsində geriliyi aradan qaldırmaq, ölkənin güclü iqtisadi, hərbi potensialını yaratmaq mümkündür.

Onu da qeyd etmək lazımdır ki, ötən əsrin 60-cı illərində SSRİ-də bir sıra iqtisadçılar ictimai məhsulun xidmət sahələrində də yaradıldığını əsaslandıran Qərb iqtisadçılarının mövqelərini müdafiə edirdilər. SSRİ-nin dağılması ərəfəsində SSRİ-də milli hesablar sisteminə keçidlə bağlı hazırlıq işlərinə başlanıldı, ictimai məhsulun Qərb metodologiyasına əsasən hesablanmasına keçildi. Sovet sistemi belə bir mövqe tutmaqda bir də ona görə maraqlı idi ki, ictimai məhsulun artma sürətini yalnız "maddi istehsal"a görə hesabladıqda SSRİ üzrə iqtisadi inkişaf sürəti Qərb ölkələri üzrə göstəricidən daha yüksək alınırdı. İctimai məhsulu Qərb metodikasına görə, yəni xidmət sahələrinin məhsulunu da nəzərə almaqla hesabladıqda vəziyyət əksinə dəyişirdi. Qərbin iqtisadi inkişaf sürəti SSRİ-nin müvafiq göstəricisini ötürdü. Səbəb SSRİ-də xidmət sahəsinin Qərbə nisbətən xeyli geri qalması idi.

Qərb iqtisadçılarına görə, ictimai məhsulun dəyər quruluşunda dörd element fərqləndirilir: istifadə xərcləri (U); amil xərcləri (F); əlavə xərclər (V); sahibkarların məcmu gəliri (D).

İstifadə xərcləri (U) aşağıdakı düsturla hesablanır:

$$U = (K' - B') = (K - A')$$

Burada K' – əsas vasitələrin ilkin dəyəri üstəgəl onların saxlanılması və yaxşılaşdırılmasına çəkilən xərclər;

B' – əsas istehsal vasitələrinin, onlardan bütün istifadə dövründə, saxlanılması və yaxşılaşdırılmasına çəkilən xərclər;

K – dövrün sonuna əsas avadanlığın cari qiymətliliyi (dəyərliliyi), yəni istehsal başa çatdıq dan sonra əsas istehsal vasitələrinin qalıq dəyəri, həmçinin başa çatmamış istehsalın və hazır məhsulun qalığı;

A' – həmin məhsulun istehsalına sərf olunmuş dövriyyə kapitalının (xammal, material, enerji, komplektləşdirici detallar və s.) dəyəridir.

İCTİMAİ MÜQAVİLƏ – tam anarxiya vəziyyətində ("təbii" vəziyyətdə) olan insanlar arasında bağlanan, cəmiyyətin təşkil olunması və dövlət hakimiyyətinin qurulması haqqında müqavilə; konstitusion seçim institutu.

Hakimiyyətin müqavilə mənşəyi haqqında ilk müddəalar (erkən buddizm, Maotezı fəlsəfəsi) qədim dövlətlərdə yaransa da, ictimai müqavilə haqqında bəzi müddəalar Epikürdə, Lukretsidə, orta əsr bəzi dini və fəlsəfi elmlərində rast gəlinsə də, sözün əsl mənasında, ictimai müqavilə nəzəriyyəsi XVII-XVIII əsrlərdə Qərbi Avropada formalaşmışdır. Doktrinanın yaradıcısı Hüqo Qrosi hesab olunur. Müxtəlif variantlarda onu Böyük Britaniyada Hobbs, Lokk, Lilbern və Milton, Fransada Russo, Niderlandda Spinoza, Almaniyada Kant və Fixte, Amerikada Peyn inkişaf etdirmişlər.

Şərti olaraq Hobbsa və Lokka məxsus olan iki əsas ictimai müqavilə konsepsiyası mövcuddur. Tomas Hobbsun modelində insanların dağınıq vəziyyətdə yaşadığı və "hamıya qarşı müharibə" vəziyyətində olduğu zaman dövlət təbii mövcudluqdan yaranmışdır. Dövlətə könüllü olaraq, öz azadlıqlarını məhdudlaşdıran, ayrı-ayrı vətəndaşların huquqları verilmişdi, yəni o, mütləq suverenə çevrilirdi. Hobbsa görə, ictimai müqavilə daha çox köləliyə bənzəyən, kor-koranə tabeçilik üzrə könüllü müqavilə kimi şərh edilə bilər. Təbii ki, Hobbsda ictimai müqavilədən yaranan vətəndaş öhdəlikləri öz məzmununa görə, ancaq sanksiyaların xarakterinə

görə fərqlənən mənəvi borcla üst-üstə düşür. Bu mütləq nəzəriyyədən fərqli olaraq, Lokkun modelində dövlətə "təbii" hüquqların müəyyən hissəsi (xarici əlaqələr və s.) verilir, bu, bütün qalanlarının – söz, din və hər şeydən əvvəl, mülkiyyət azadlığının səmərəli müdafiəsinə görə edilir. Lokka görə, qanunverici hakimiyyət icra və "federativ"dən ayrılmalı, dövlətin başçısı da qanuna tabe olmalıdır. Xalq, sözsüz, suveren olaraq qalır və məsuliyyətsiz hakimiyyəti dəstəkləməmək və hətta, yıxmaq hüququna malikdir.

Lokk ənənəsi iqtisad elmində hökmran səviyyəyə qalxdı. Belə ki, konstitusiya seçiminə dair iqtisadi nəzəriyyənin banisi C.Byukenenin konsepsiyası bu məcrada işlənib hazırlanmışdı. C.Byukenenə görə, ictimai müqavilə aşağıdakı müddəaları ehtiva etməlidir: əvvəla, cəmiyyətin digər üzvlərinin maraqları nəzərə alınmaqla, hər hansı bir fərdin davranışının yol verilən hədləri haqqında müddəa (insan hüquqları haqqında müqavilə); ikincisi, insan hüquqlarının və mülkiyyətin reallaşmasını təmin edən agent kimi, dövlətin əməliyyatlarını və imkanlarını ətraflı qaydaya salan (reqlamentləşdirən) mövqe ("müdafiəçi dövlət" haqqında müqavilə); üçüncüsü, son nemətlərin istehsalı üçün əlverişli olan nemət və resursların ehtiyatlarına malik olmaq və ya sərəncamçılıq hüquqlarını müəyyən edən mövqe (mülkiyyət hüquqları haqqında müqavilə) və nəhayət, dördüncüsü, qaydalar dəstidir ki, bunlara uyğun olaraq ictimai nemətlərin və onların maliyyələşməsinin təmin edilməsinə aid qərarların qəbul edilməsi və reallaşması zamanı kollektiv təşkilat fəaliyyət göstərməlidir ("istehsal edən dövlət" haqqında müqavilə).

İctimai müqavilə doktrinasında tələb olunmur ki, o, hər hansı bir aşkar formada insanlar arasında bağlansın. İctimai müqavilə cəmiyyətin tarixi yox, ictimai ilkin şərtidir.

İCTİMAİ NEMƏTLƏR (ing. *public goods*) – qeyri-bazar əsasında dövlət tərəfindən verilən əmtəə və xidmətlər. Aşağıdakı iki xüsusiyyətin eyni zamanda xas olduğu nemətlər:

– nemət istehlakçılarının sayının artması onların hər birinə təqdim olunan faydalılığın aşağı salınması demək deyil;

– istehlakçıların belə nemətə məhdudiyyəti praktik olaraq mümkün deyil. Birinci xüsusiyyət istehlakda rəqabətsizlik, ikincisi isə "mümkün hal" (kənarlaşdırılmazlıq) adlanır. "Nüvə çətiri" nəinki onlardan istifadəyə görə haqq ödəyənləri, həm də cəmiyyətin bütün üzvlərini qoruya bilər. Bundan başqa, vergi ödəməyənləri verilən ictimai nemətlərin istifadəçiləri sırasından çıxarmaq mümkün deyil, onları ancaq ölkədən deportasiya etmək olar.

İctimai nemətlərin xüsusiyyətləri daxili cəhətdən qarşılıqlı asılıdır. Mümkün olan bütün nemətlər həm də qeyri-rəqabətlə xarakterizə olunur. Əks halda, bunlar elə nemətlər olardı ki, onların istehlakı tamamilə fərdi olar, lakin bu zaman ödəniş, növbə, normalaşma və ya hər hansı digər formada qaydaya salına bilməzdi. Belə nemət nümunələri məlum deyil. Belə ki, qeyri-rəqabət xüsusiyyətinə malik (müəyyən həddə qədər) nemətlər mövcuddur, lakin "mümkün hal" (kənarlaşdırılmazlıq) kimi xarakterizə olunmur (yəni, "klub" nemətləri; bax: Nemətlər). İctimai nemətlər istehsalı və ya bölgüsü zamanı nadir halda müsbət xarici effekt təzahür olunur.

İctimai nemətlər bölünmür və buna görə də onun qiyməti dəyişən kəmiyyət deyil. İctimai nemətlərə olan tələb əyrisi onun bütün mövcud həcminə faydalılığın son həddini əks etdirir.

İCTİMAİ NEMƏTLƏRƏ TƏLƏBAT – ayrılıqda götürülmüş heç bir istehlakçı onun istehlak etdiyi ictimai nemətlərin miqdarını istədiyi kimi dəyişdirmək imkanına malik deyildir. O, bu nemətləri bütünlüklə istehlak etməli olur. Məsələn, hər hansı ölkənin bütün sakinləri onları qəfil hücumdan qoruyan eyni miqdarda təyyarədən istifadə edirlər. Bu halda bütün istehlakçılar ictimai nemətin bu cür istehlak edilməsi hesabına birlikdə və eyni zamanda müəyyən səmərə əldə edirlər. İctimai nemətlərin hər bir əlavə vahidinin istehlak edilməsi ilə əlaqədar ictimai səmərənin yuxarı həddi həmin nemətlərin istehlak edilməsindən alınan bütün səmərələrin yuxarı hədlərinin cəmi kimi formalaşır.

Beləliklə, ictimai nemətlərə tələbatın ümumi əyrisi istehlakçılardan hər hansı birinin həmin neməti istehlak etməsi nəticəsində özünün fərdi mənfəətini nəzərə almaqla bu miqdarda ictimai nemətin haqqını ödəməyə fərdi qaydada hazır olmasını ifadə edən fərdi tələb əyrilərinin

üfüqi istiqamətdə deyil, şaquli istiqamətdə cəmlənməsi yolu ilə qurula bilər.

Ən sadə halda bu ictimai nemətin həcminə tələb əyrisi iki fərdi tələb əyrisinin şaquli istiqamətdə toplanması nəticəsində qurulur. Bu halda cəmiyyətin həmin həcmdə nemətə görə ödəməyə hazır olduğu qiymət istehlakçıların fərdi qiymətlərinin cəmindən yaranır. Resursların səmərəli tətbiqinə nail olmaq məqsədilə ictimai nemət elə həcmdə istehsal edilməlidir ki, bu halda optimal iqtisadi qərarlar qəbul etməyin adi qaydasına əsaslanaraq həmin nemətin istehlakından alınan səmərənin yuxarı həddi bu nemətin istehsal xərclərinin yuxarı hədlərinə bərabər olacaqdır. Deməli, ictimai nemətin birmənalı şəkildə müəyyən edilən elə optimal həcmi mövcuddur ki, o, resurslardan istifadə olunmasının ən yüksək səmərəsini təmin edir.

Beləliklə, iqtisadiyyatda səmərəli yerləşdirilməsi üçün həmin ictimai nemət elə həcmdə istehsal edilməlidir ki, onun istehlakından ictimai səmərənin yuxarı həddi buraxılışın ümumi həcmi üçün həmin nemətin əlavə vahidlərinin buraxılışı ilə əlaqədar xərclərin yuxarı həddinə bərabər olsun. Başqa sözlə desək, ictimai nemətin buraxılışı elə miqdarda olmalıdır ki, cəmiyyətin həmin miqdar müqabilində ödəməyə hazırlığı bu miqdarda nemət buraxılması üçün xərclərin yuxarı həddinə bərabər olsun.

İCTİMAİ VARİDATA KEÇMİŞ ƏSƏR – müəlliflik hüququ ilə qorunma müddəti başa çatmış əsər. İctimai varidata keçmiş əsərlərdən müəllifin şəxsi hüquqları gözlənilməklə qonorar verilmədən sərbəst istifadə oluna bilər. Azərbaycan folkloru nümunələri (ənənəvi mədəni nümunələr) və Azərbaycanın ənənəvi bilikləri də ictimai varidat dairəsinə daxildir.

İCTİMAİ-İQTİSADİ UKLAD – müvafiq mülkiyyət və idarəetmə formalarına malik olan, təsərrüfat qərarlarının qəbul edilməsi prosesində mülkiyyətçinin, idarəedicinin və işçinin iştirakının müəyyən dərəcəsi ilə səciyyəvi olan təsərrüfatçılıq tipidir. İctimai-iqtisadi uklad Sovet hakimiyyətinin ilk dövrlərində, mülkiyyətin bütün növlərinin dövlətləşdirildiyi və təsərrüfatçılığın bir tipinin – dövlət tipinin hökmranlığının təbliğ edildiyi vaxtda tətbiq edilmişdir. İctimai-iqtisadi uklad müəyyən tipli istehsal münasibətlərinin bütöv bir sistemi kimi xarakterizə edilirdi. Həmin münasibətlərdən biri bu sistemin sosial-iqtisadi quruluşunu (formasiyasını) müəyyən edirdi, qalan ukladlar ona tabe hesab edilirdi. Bir formasiyadan digərinə keçid dövrlərində ukladlardan birinin hökmranlığının olmaması və çoxukladlı cəmiyyətin mövcud olması qəbul edilirdi.

Müasir dövrdə post-sənaye cəmiyyətlərində və inkişaf etməkdə olan ölkələrdə sosial-iqtisadi əlaqələrin və proseslərin mürəkkəbləşməsi nəticəsində çoxukladlı cəmiyyətin formalaşması prosesi gedir. Bu cəmiyyətdə sosial-iqtisadi təsərrüfatçılıq tiplərindən birinin dominantlığını istisna edən müxtəlif tiplərin inkişafı səciyyəvidir. Bu təsərrüfatçılıq tiplərini aşağıdakı kimi adlandırmaq olar: fərdi özəl müəssisələr, müxtəlif tipli səhmdar cəmiyyətləri; təsərrüfat qərarlarının qəbul edilməsində mülkiyyətçinin, idarəedicinin və işçinin tam və ya qismən iştirakı ilə səciyyəvi olan xüsusi kapital; mülkiyyətin bir hissəsi (payı) dövlətə və ya onun nümayəndələrinin şəxsində cəmiyyətə məxsus olan, qalan hissəsi isə xüsusi mülkiyyətçilərin sahibliyində olduğu qarışıq müəssisələr; müvafiq olaraq, təsərrüfat qərarlarının qəbul edilməsi funksiyalarının bir qismi də dövlətə və ya onların nümayəndələrinin şəxsində cəmiyyətə verilir; dövlət və ya ictimai müəssisələrdə səhmlərin nəzarət paketi, eləcə də təsərrüfat qərarlarının qəbul edilməsi hüququ və ya bütün mülkiyyət dövlətə və ya cəmiyyətə məxsusdur; ortaqlıqların (cəmiyyətlərin) məhdud məsuliyyətli səhmdar cəmiyyətlərinin müxtəlif növləri kollektiv payçı mülkiyyətinə malikdir. Bu cür ortaqlıqlarda təsərrüfat qərarları qəbul etmək hüququ onların öz üzərinə götürdükləri funksiyaların həcmindən asılı olaraq, müxtəlif məsuliyyətli ortaqlığa məxsusdur; kollektiv payçı və ya bölünməz mülkiyyətə əsaslanan kooperativ və ya kollektiv müəssisələrdə kollektiv təsərrüfatçılıq və qərarlar qəbul edilməsi forması idarəetmə funksiyalarının peşəkar menecerlərə həvalə olunmasını istisna etmir.

Bu siyahı, təbii ki, tam ola bilməz, çünki təsərrüfatçılığın yeni növ və formalarının təşəkkülü daim davam edir.

İÇKİ İÇMƏYƏNİN SIĞORTALANMASI – həyat sığortasıdır, bu zaman müştəri alkoqollu içkilərdən istifadə etmək və ya siqaret çəkmək kimi risklərdən imtina edir və daha aşağı mükafatlar (sığorta haqları) ödəyir. Lakin dünya ststistikası göstərir ki, qeyd edilən sığorta növü

Cədvəl 1

15 yaşdan yuxarı əhalinin il ərzində alkoqol istifadəsi

(*litrlə*)

Sayı	Ölkə	2003	2002	2000	1990	1980	1980-ci ilə nisbətən dəyişiklik (%-lə)	1990-cı ilə nisbətən dəyişiklik (%-lə)	2000-ci ilə nisbətən dəyişiklik (%-lə)
1	Fransa	8,14	8,14	4,14	5,16	6,20	-28,2	-10,3	2,8
2	İrlandiya	5,13	3,14	2,14	2,11	9,6	40,6	5,20	-4,9
3	Macarıstan	4,13	4,13	3,12	9,13	9,14	-10,1	-3,6	8,9
4	İspaniya	7,11	2,11	5,11	5,13	4,18	-36,4	-13,3	1,7
5	Danimarka	5,11	2,11	5,11	7,11	7,11	-1,7	-1,7	0,0
6	Portuqaliya	4,11	5,11	9,12	3,16	8,14	-23,0	-30,1	-11,6
7	İsveçrə	8,10	8,10	2,11	9,12	5,13	-20,0	-16,3	-3,6
8	Belçika	7,10	7,10	3,10	1,12	14,0	-23,6	-11,6	3,9
9	Almaniya	2,10	4,10	5,10	8,13	2,14	-28,2	-26,1	-2,9
10	Avstraliya	9,8	9,8	1,10	5,10	9,12	-24,0	-6,7	-3,0
11	Hollandiya	9,7	9,8	1,10	9,9	3,11	-14,2	-2,0	-4,0
12	Finlandiya	9,3	9,2	8,6	9,5	7,9	7,17	-2,1	8,1
13	Koreya	9,3	9,2	8,9	9,1	MY	MY	2,2	4,5
14	Yunanıstan	9,2	9,2	9,5	7,10	2,13	-30,3	-14,0	-3,2
15	Rusiya	9,1	8,7	7,6	5,5	6,2	46,8	65,5	7,19
16	Yeni Zelandiya	8,9	9,2	8,9	1,10	8,11	-24,6	-11,9	0,0
17	Amerika Birləşmiş Ştatları	8,3	8,3	8,3	9,3	5,10	-21,0	-10,8	0,0
18	Polşa	8,1	8,1	8,3	8,3	8,7	-6,9	-2,4	-2,4
19	İtaliya	8,0	8,6	9,0	9,10	2,13	-39,4	-26,6	-11,1
20	Kanada	7,8	7,8	7,7	7,4	7,10	-27,1	5,4	1,3
21	Slovakiya	7,6	8,8	8,9	4,13	5,14	-47,6	-43,3	-14,6
22	İsveç	7,0	6,9	6,2	6,4	6,7	4,5	9,4	9,12
23	Norveç	6,0	5,9	5,7	5,0	5,3	2,13	20,0	5,3
24	Meksika	4,6	4,6	4,8	4,9	3,4	35,3	-6,1	-4,2
25	Türkiyə	1,5	1,4	1,5	1,4	1,8	-16,7	7,1	0,0

heç də reallığı əks etdirmir. Bir sıra ölkələrdə alkoqoldan yüksək dərəcədə istifadə çoxlu neqativ hallara gətirib çıxarır.

İDARƏ (TƏSİSAT) – fəaliyyətin istiqamətlərinə və məqsədlərinə müvafiq olaraq qurulmuş, funksional baxımdan mütəşəkkil struktur və idarəetmə orqanı. Müəssisə idarəetmə, hakimiyyət və başqa funksiyaları yerinə yetirir. Müəssisənin iki əsas tipini fərqləndirirlər. Hakimiyyət funksiyalarını yerinə yetirən orqan (dövlət, regional və yerli səviyyədə); idarəetmə funksiyalarını yerinə yetirmədən, istehsalatla bağlı olmayan sosial-məişət və mədəni xarakterli fəaliyyətlə məşğul olan orqan. Müəssisə yerinə yetirilən işlərin növlərinə müvafiq qaydada qurulmuş və müəyyən qulluqçular ştatından və müdiriyyətdən ibarət olan təşkilati struktur tipidir. Müəssisə profilinə görə (elmi, uşaq və s.), fəaliyyət miqyasına görə (mərkəzi, yerli, regional), işləyənlərin sayına görə (iri, orta, kiçik), statusuna görə (daimi, müvəqqəti, seçkili) fərqlənir.

İDARƏ EDƏN ŞİRKƏT – qanunvericiliyə müvafiq olaraq yaradılmış investisiya fondları, pay investisiya fondları və qeyri-dövlət pensiya fondlarının idarə olunması üzrə fəaliyyətin həyata keçirilməsinə lisenziya almış kommersiya təşkilatı. Fondun əmlakı onun sərəncamındadır.

İDARƏ OLUNAN ŞAQULİ MARKETİNQ SİSTEMİ – bölgü kanalında vəziyyət. Bu zaman ölçülərinə və bazardakı markalarının yaxşı nüfuzuna görə üstünlük təşkil edən istehsalçı vasitəçilərə, hətta, onlar müstəqil olsalar belə, öz şərtlərini diktə edə bilər.

İDARƏETMƏ APARATI – hər hansı bir təşkilatın idarəetmə funksiyasını yerinə yetirən idarəetmə işçilərinin məcmusu.

İDARƏETMƏ KADRLARI – idarəetmə sistemlərində bu və ya digər funksiyaları və vəzifələri bilavasitə yerinə yetirən şəxsi heyət, eləcə də bu sistemlərdə işləmək üçün potensial nəzərdə tutulan şəxslər (idarəetmə sahəsində bilikləri əldə edən müdavimlər, yenidən hazırlanma və ixtisas artırmanı keçən mütəxəssislər), başqa sözlə, peşəkar fəaliyyəti istehsalın idarə edilməsi üzrə funksiyaların yerinə yetirilməsi ilə tam və üstün olaraq əlaqədar olan işçilər (qulluqçular).

İdarəetmə kadrlarının peşəkar xüsusiyyətləri onların əməyinin xarakterində, predmetində, nəticələrində, tətbiq edilən vasitələrdə və metodlarda ifadə olunur. İdarəetmə kadrları işçilərinin spesifikliyi ondan ibarətdir ki, onlar istehsal prosesini yerinə yetirən və ya onları idarə edən (lakin xüsusi prosesə yox) şəxsi heyətə birbaşa və dolayı yolla təsir göstərir. İdarəetmə kadrları funksional, struktur və şaquli əlamətlərinə görə fərqlənir.

İdarəetmə metodlarının və texnikasının, istehsal texnologiyasının inkişafı ilə xarici mühitin dəyişməsi ilə idarəetmə kadrlarının peşəkar səviyyəsinin, ixtisaslaşmasının və diferensiallaşmasının artımı baş verir. İdarəetmə kadrlarının tərkibində menecerlər xüsusi kateqoriyanı təşkil edir.

İnzibati-idarəetmə heyəti (İİH) idarəetmə sahəsində bilavasitə çalışan işçilərdir. Bu kateqoriya dövlət və regional səviyyələrin, mülkiyyət formasından asılı olmayaraq istehsal, maliyyə, ticarət, infrastruktur, elmi, tibbi, tədris və digər təşkilatların bütün idarəetmə işçilərini ehtiva edir. İİH kateqoriyası idarəetmədə çalışan işçilərin uçotu zamanı, idarəetmə kadrlarının sayı ilə bilavasitə əsas fəaliyyətlə məşğul olan işçi heyəti arasında səmərəli nisbətin müəyyən olunmasında, idarəetmə heyətinin saxlanmasına çəkilən məsrəflərin optimallaşmasında və s. istifadə olunur. İdarəetmə kadrlarının tərkibində rəhbərlər, mütəxəssislər və köməkçi aparat fərqləndirilir.

Rəhbər kadrların seçilməsi



Sxem 1

İDARƏETMƏ QƏRARLARINA NƏZARƏT – aşağı rəhbər tərəfindən qəbul edilən qərarlara yuxarı rəhbər tərəfindən nəzarət və idarəetmə qərarlarının reallaşmasına nəzarəti ehtiva edən idarəetmə funksiyalarından biri. İdarəetmə qərarlarının reallaşmasına nəzarətdən qarşıya qoyulmuş məqsədlərə şərtsiz nail olmaq üçün təsir və qərarların yerinə yetirilməsi gedişinin ölçülməsindən və təhlilindən ibarətdir. Reallaşmaya nəzarət qəbul edilmiş qərarların özlərinin doğruluğunun (reallaşmasının, səmərəliliyinin) qiymətləndirilməsinə imkan verir. Nəzarət müəyyən prinsiplərə və qaydalara riayət edilməsi ilə həyata keçirilir. Bunlar aşağıdakılardır: məqsədlərə nail olmağa istiqamətlənmə; kənarlaşmanın nəzərdən keçirilən səbəblərinin minimuma endirilməsi; çətin məsələlərə nəzarət, nəzarətin təsir qüvvəsi (kənarlaşma aşkar edilən zaman prosesə təsir); nəzarətin səmərəliliyi (nəzarətin həyata keçirilməsinə çəkilən məsrəflərin minimuma endirilməsi) və s.

Qərarların reallaşmasına nəzarət zamanı aşağıdakı metodlardan istifadə edilir: ənənəvi (standartlara, normativlərə, qaydalara uyğun nəzarət); üstün nəzarət (prinsipin ekstrapolyasiyası və onun arzu edilən və hesablanan nəticələrinin bir-birinə uyğun gəlməsinin qiymətləndirilməsi); sahibkarlıq nəzarəti (prosesin və bazar şəraitinin ekstrapolyasiyası, onların müqayisəsi və idarəetmə qərarlarının yenidən formalaşması).

Aşağı rəhbər tərəfindən qəbul edilən qərarlara yuxarı rəhbər tərəfindən nəzarət onların daha yüksək səviyyəli məqsədlərə uyğun gəlməsinin yoxlanması, korporativ mədəniyyətə riayət edilməsi, rəhbərin ixtisasının qiymətləndirilməsi və bütövlükdə, idarəetmə fəaliyyətinin səmərəliliyi məqsədilə həyata keçirilir.

İDARƏETMƏ MARAQLARI İLƏ BAĞLI AUDİT MƏSƏLƏLƏRİ (ing. *audit matters of governance interest*) – maliyyə hesabatlarının auditi nəticəsində yaranan və auditorun qənaətincə, mülkiyyətçinin nümayəndələrinin hesabat prosesinə və şəffaflığa nəzarət etməsi üçün mühüm və səciyyəvi məsələlər. İdarəetmə maraqları ilə bağlı audit məsələlərinə yalnız auditor yoxlamasının aparılması zamanı auditorun diqqətini cəlb edən məsələlər daxildir.

İDARƏETMƏ MƏDƏNİYYƏTİ – idarəetmə əməyinin keyfiyyət və ümumi xarakteristikasını özündə əks etdirən kompleks ümumiləşdirici termin. Bu termin özündə bilikların məcmusunu, onların keyfiyyətini, işin mənəvi-etik normalarını, əməyə münasibəti, işi təşkiletmə qabiliyyətini, ətrafdakı insanları başa düşmək qabiliyyətini birləşdirir. İşin yerinə yetirilməsinin estetik gözəlliyi də bura daxildir. İdarəetmə mədəniyyəti həm işçinin fərdi fəaliyyətini, həm də kollektiv əməyi əks etdirir. Bu keyfiyyətlər, xüsusən, rəhbər işçiyə lazımdır. Çünki o, insanlarla daha çox ünsiyyətdə olur. İdarəetmə mədəniyyətinin öyrənilməsi idarəetmənin keyfiyyətinin yüksəldilməsinin mühüm amillərindən biridir.

İDARƏETMƏ MƏSLƏHƏTİ – idarəetmənin təkmilləşdirilməsində peşəkar yardımın göstərilməsi üzrə infrastruktur fəaliyyəti növü. İdarəetmə məsləhətinə daxildir: idarəetmə sistemlərinin və təşkilati strukturun işlənib hazırlanması; idarə işinin təkmilləşdirilməsi; strateji planlaşdırma sistemlərinin və marketinq sistemlərinin işlənib hazırlanması; kadrların hazırlanması; idarəetmə heyətinin seçilməsi və qiymətləndirilməsi; idarəetmənin informasiya təminatının avtomatlaşması və s.

İdarəetmə məsləhətini peşəkar və ixtisaslaşmış məsləhət (konsaltinq) firmaları həyata keçirirlər; firmalar yüksək peşəkarlığa, obyektivliyə və müstəqilliyə, vəziyyətin qeyri-adi qiymətləndirilməsi və tövsiyələrin qeyri-standartlılığına görə qiymətləndirilir. Məsləhət təşkilatları müəssisələr, sahələr və milli iqtisadiyyatlar arasında təcrübə mübadiləsinə təsir göstərir. Məsləhət xidmətləri ya bütün idarəetmə məsələləri üzrə, ya da ayrı-ayrı funksiyalar və vəzifələr üzrə (istehsalın planlaşdırılması, maliyyə menecmenti, keyfiyyətin və məhsuldarlığın idarə edilməsi) verilir.

Bir çox şirkətlər məsləhətçi təşkilatların xidmətlərinə üstünlük verərək əməyin elmi təşkili üzrə öz xüsusi bölmələrini yaratmaq, istehsal və idarəetmə əvəzinə konkret vəzifənin müəyyən dövrdə həlli üçün onları cəlb edir, bunu daha məhsuldar və iqtisadi cəhətdən əlverişli sayırlar. İxtisaslaşmış məsləhət xidmətlərinin həcmi bütövlükdə yüksəkdir. Belə ki, ABŞ-ın ən iri konsaltinq firmalarından olan

Price Waterhouse Coopers (PwC) şirkətinin 2008-ci ildə gəliri 28,2 mlrd. dollar təşkil etmişdir. Şirkətdə 163 min nəfər işləyir. 1849-cu ildə yaradılan şirkət 1998-ci ildə Price Waterhouse və Coopers & Lybrand şirkətlərinin birləşməsindən sonra belə adlandırılmağa başlanılıb.

İDARƏETMƏ PRİNSİPLƏRİ – fransız menecment nəzəriyyəçisi və praktiki, administrasiya məktəbi nümayəndəsi A.Fayol tərəfindən təklif olunan idarəetmə prinsipləri:

Əmək bölgüsü. Bunun məqsədi elə həmin əmək məsrəfləri ilə həcmcə daha böyük və keyfiyyətcə daha yaxşı işin yerinə yetirilməsidir.

Səlahiyyətlər və məsuliyyət

Nizam-intizam. Fayol nizam-intizama riayət etməyi həm sıravi işçilər, həm də bütün səviyyələrdə rəhbərlər üçün mütləq hesab edirdi. Onun fikrincə, rəhbər necədirsə, intizam da elədir.

Təkbaşına rəhbərlik (sərəncamvermənin vahidliyi). İşçi özünün bilavasitə rəhbərindən sərəncam və göstərişlər almalıdır.

İstiqamətlərin (direksiyaların) **vahidliyi.** Bir məqsəd çərçivəsində fəaliyyət göstərən hər bir işçi qrup plana və bir rəhbərə malik olmalıdır.

Maraqların subordinasiyası. Şəxsi (fərdi) maraqların ümumi maraqlara tabe olması.

Heyətin mükafatlandırılması, göstərilən xidmətlərin qiyməti. İşçilər öz əməyinə görə ədalətli əmək haqqı almalıdırlar.

Mərkəzləşmə. Müəssisədə mərkəzləşmə və mərkəzsizləşmə arasında müəyyən uyğunluq olmalıdır ki, bu da onun ölçülərindən və konkret fəaliyyət şəraitindən asılıdır.

Skalyar zəncir. İyerarxiyanın müxtəlif səviyyələrində olan bir sıra rəhbər işçilərdir (ali rəhbərlərdən tutmuş orta halqa rəhbərlərinə qədər).

Qayda. A.Fayol maddi və sosial qaydanı ayırırdı.

Ədalət. Xeyirxahlıq və ədalət məhkəməsinin ahəngi.

Heyət üçün iş yerinin stabilliyi. Müəssisə öz iş yerlərindən möhkəm yapışan işçilərə daha çox üstünlük verir.

Təşəbbüskarlıq. Nəinki rəhbərlər, həm də müəssisə işçiləri tərəfindən təşəbbüskarlıq və işgüzarlığın göstərilməsi.

Korporativ ruh. Müəssisənin gücü onun bütün işçilərinin harmoniyasındadır (həmrəyliyindədir).

İDARƏETMƏ SƏNƏDLƏRİ – əmrlər, sərəncamlar, göstərişlər, təlimatlar.

Müəssisənin rəhbəri, bir qayda olaraq, öz fəaliyyətini əmrlər dərc etdirmək yolu ilə həyata keçirir ki, bunlar da "əsas fəaliyyət üzrə əmrlər"ə və "şəxsi heyət üzrə əmrlər"ə ayrılır.

Əsas fəaliyyət üzrə əmr normativ sənəd olub, istehsal-təsərrüfat fəaliyyəti, planlaşdırma, hesabat, maliyyələşdirmə, kreditləşmə, məhsulun satışı, xarici iqtisadi fəaliyyət, strukturun və müəssisənin işinin təşkilati formalarının təkmilləşdirilməsi və s. məsələlər üzrə idarəetmə qərarlarını əks etdirir.

Əmrlərin layihələri müəssisənin mütəxəssisləri tərəfindən hazırlanır, baş aparıcı mütəxəssislərlə, hüquqşünaslarla, baş mühasiblə razılaşdırılır və müəssisənin direktoru tərəfindən imzalanır. Direktor tərəfindən imzalanmış əmr kargüzarlıq işlərini aparan və buna məsul işçi tərəfindən qeydiyyatdan keçirilir. Əgər mətnində başqa müddət göstərilmirsə, əmr imzalandığı müddətdən qüvvəyə minir. Əsas fəaliyyət üzrə əmrlər müəssisənin blankında tərtib olunur və aşağıdakı rekvizitlərdən ibarət olur: müəssisənin adı; sənəd növünün adı; tarix; indeks; tərtib olunan yer; mətnin başlığı; nəzarət haqqında qeyd; mətn; imza; vizalar; sənədin yerinə yetirilməsi haqqında qeyd; məlumatların maşındaşıyıcısına ötürülməsi haqqında qeyd.

Əmrin mətni iki hissədən ibarət ola bilər: təsdiq və idarəetmə. Təsdiq hissəsi əmr olunan hərəkətlərin məqsəd və vəzifələrini, əmrin verilmə səbəbini əks etdirir, əmrin hazırlanması üçün əsas olan sənədə istinad verir.

İDARƏETMƏ ŞƏBƏKƏSİ – rəhbərliyin effektivliyinin qiymətləndirilməsinə ikili (iki-ölçülü) yanaşma. Şəbəkənin şaquli oxu insanlara göstərilən qayğını, üfüqi oxu isə istehsala göstərilən qayğını əks etdirir.

İDARƏETMƏ TSİKLLƏRİ – öz inkişafında həyat tsiklinin oxşar fazalarını keçən iqtisadiyyatın idarəetmə sisteminin dövri olaraq bir-birini əvəz etməsi. İdarəetmə tsiklləri iqtisadi tsikllərin tərkib hissəsidir, elmi-texniki və təşkilati istehsal tsiklləri ilə, həmçinin, iqtisadi münasibətlərin tsiklik dinamikası ilə qırılmaz surətdə bağlıdır.

İdarəetmə tsikllərinin ortamüddətli, uzunmüddətli və çox uzunmüddətli növləri fərqləndirilir.

Bir tsikldən digərinə keçid idarəetmə sisteminin keyfiyyət dəyişikliklərində (islahatında) ifadəsini tapır.

İdarəetmə tsiklinin strukturunda aşağıdakı fazaları ayırırlar: hazırlıq fazasında idarəetmənin inkişafının yeni mərhələsinin konsepsiyası işlənib hazırlanır; başlanğıc islahat fazasında yeni idarəetmə sisteminin ünsürləri sınaqdan keçirilir və tətbiq olunur; müxtəlif sferalarda modifikasiya, yeni idarəetmə sisteminin yayılması fazası; üstün idarəetmə sisteminin ayrı-ayrı ünsürlərinin təkmilləşdirilməsi ilə bu sistemin daha tam büruzə verdiyi yetkinlik fazası; yaşlaşma (köhnəlmə) və böhran fazasında idarəetmə sistemi, əsasən, öz potensialını başa vurmuş, idarə olunan obyektiv dəyişən inkişaf şərtlərinə cavab vermir, iqtisadiyyatda islahatların yeni dalğası hazırlanır.

Post-industrial cəmiyyətin təşəkkül tapması yeni, həddən artıq uzunmüddətli idarəetmə tsiklinə keçidlə, inkişaf etmiş ölkələrdə daha dürüst təzahür edən iqtisadiyyatın idarə edilməsinin yeni meyilləri ilə əlaqədardır. Bu meyillərə aiddir: a) idarəetmə prosesinin humanistləşməsi, onun insan amilinin fəallaşmasına daha çox meyil etməsi, idarə olunan kollektivlərin və fərdlərin müstəqilliyinin və təşəbbüskarlığının genişlənməsi, onların mənafelərinin nəzərə alınması; b) idarəetmənin çevikliyinin yüksəlməsi, sərt, köhnəlmiş bürokratik sxem və idarəetmə metodlarından imtina edilməsi; c) idarəetmə üfüqlərinin genişlənməsi, strateji idarəetmənin rolunun artması, çoxölçülü iqtisadiyyatda, çoxcəhətli amillərin qarşılıqlı fəaliyyətində və dinamikasında tsiklliyin nəzərə alınması; ç) idarəetmədə texnoloji çevrilişlərin həyata keçirilməsi; d) həm dövlət qulluqçularının, həm də menecerlərin idarəetmə peşəkarlığının yüksəlməsi, bu sferada fasiləsiz təhsil sisteminin formalaşması.

İDARƏETMƏ UÇOTU – maliyyə uçotunun genişləndirilmiş forması. İdarəetmə uçotunun məqsədi rəhbərliyi idarəetmə qərarlarının qəbul edilməsində lazımi informasiyalarla təmin etməkdir. Bu uçot təşkilatda mövcud mühasibat sisteminə paralel şəkildə və əlavə məlumatların istifadəsi ilə mühasibat uçotu sistemi çərçivəsində formalaşır.

İdarəetmə uçotunun tarixi aspektlərinin tədqiqatı bu prosesi dörd əsas mərhələyə bölməyə imkan verir: yaranma, formalaşma, inkişaf və inteqrasiya.

Birinci mərhələ XIX əsrin başlanğıcından XX əsrin başlanğıcına qədər olan dövrü əhatə edir. 1800-cü ilə qədər müəssisələr əsasən kiçik ölçülü idi və ailə biznesinə yönəlmişdi. Bu şəraitdə idarəetmə uçotuna xüsusi ehtiyac yox idi. İdarəetmə qərarları bilavasitə müəssisələrin sahibləri tərəfindən qəbul edilirdi.

Sonralar böyük müəssisələrin sayının artması ilə əlaqədar, uçotun və idarəetmənin yeni metodlarına ehtiyac artmışdı. İdarəetmə uçotunun müasir metodlarının əksəriyyəti məhz həmin dövrdə işlənib hazırlanmışdı. Məsələn, toxuculuq fabriklərində artıq XX əsrin başlanğıcında menecerlər xammalın emal edilməsi vaxtının dəyəri, məhsulun bir vahidinin maya dəyəri və hər işçiyə çəkilən xərclər haqqında informasiya alırdılar.

İdarəetmə uçotu informasiyasından aşağıdakı məqsədlər üçün istifadə olunurdu: nəzarət və effektivliyin artırılması; məhsulun çeşidi və qiymətyaranma barədə qərarlar qəbul edilməsi.


Əmək məhsuldarlığı haqqında informasiya işçilərin əlavə mükafatlandırılması və texnologiyaların təkmilləşdirilməsi haqqında qərarlar qəbul etməyə imkan verirdi.

Xərclər haqqında informasiya menecerlərə yeni avadanlıq əldə edilməsinin məqsədəuyğunluğu, cari satış və xüsusi sifarişlər üçün qiymətlərin müəyyən edilməsi, əmək haqqının səviyyəsinin təyin edilməsi və sair məsələlər haqqında qərarlar qəbul etməyə kömək edirdi. Öz növbəsində, 1850-1870-ci illərdə dəmir yol nəqliyyatı müəssisələrinin işləyib hazırladığı xərclər sistemi müxtəlif coğrafi seqmentlər üçün müxtəlif yüklərin 1 tonunun daşınmasına çəkilən xərclər, həmçinin müəssisənin əməliyyat xərclərinin və gəlirlərinin nisbəti haqqında informasiyanı təmin edirdi.

XX əsrin başlanğıcında Endrü Karneginin mülkiyyətində olan və onun idarə etdiyi poladəritmə müəssisələrində məhsulun vahidinə düşən material, enerji və əmək məsrəfləri haqqında gündəlik hesabat əsasında xərclərə nəzarət sistemi tətbiq edilmişdi. Belə informasiyadan menecerlərin, ustaların və işçilərin fəaliyyətinin qiymətləndirilməsi üçün,


keyfiyyətə və materialların resepturalarına nəzarət, habelə cari idarəetmə qərarları qəbul edilməsi üçün istifadə olunurdu.
1920-ci ildə "Du Pont" şirkətinin baş maliyyə meneceri Donaldson Braun, "General Motors" ("Ceneral Motors") şirkətinin baş maliyyə meneceri Alfred Sloun isə bu şirkətin yeni baş icraçı direktoru təyin edilmişdir.
Məhz bu iki menecerin rəhbərliyi altında işlənib hazırlanmış idarəetmə uçotu sistemi, xüsusi halda, aşağıdakı məsələləri əhatə edirdi: əməliyyat illik büdcəsinin işlənib hazırlanması prosesi; satışlar haqqında həftəlik hesabatlar və aylıq çevik büdcələr; divizionların fəaliyyətinin nəticələri, o cümlədən investisiyaların gəlirliliyi haqqında illik hesabatlar.
Belə sistem mərkəzləşdirilmiş nəzarət və mərkəzsizləşdirilmiş məsuliyyət fəlsəfəsini rəhbər tutan şirkətin bölmələrinin fəaliyyətinin planlaşdırılması, əlaqələndirilməsi, bu fəaliyyətə nəzarət və onun qiymətləndirilməsi işlərinin kompleks halda təşkil olunmasını təmin edirdi.
XX əsrin başlanğıcında rəqabətin kəskinləşməsi, istehsal texnologiyasının və istehsalın təşkilinin mürəkkəbləşməsi şəraitində ənənəvi uçot artıq idarəetmənin ehtiyaclarını tam təmin etmirdi. Bunun nəticəsində əməyin normallaşdırılması metodlarının (Teylor, Qant, Çörç sistemləri) işlənib hazırlanması əsasında standart xərclərin kalkulyasiyası və sapmaların operativ təhlili sisteminin tətbiq edilməsi vasitəsi ilə mühasibatın nəzarət funksiyası gücləndirilmişdir.
1925-ci ildən 1950-ci ilə qədər olan dövrdə ənənəvi kalkulyasiya və uçot metodlarından əhəmiyyətli dərəcədə fərqlənən, prinsipcə yeni metodlar işlənib hazırlanmışdır. Onların arasında ilk növbədə direkt-kostinq sistemini, həmcins seksiyalar metodunu və məsuliyyət mərkəzləri üzrə uçotu qeyd etmək lazımdır.
1923-cü ildə Con Klark xərcləri dəyişən və sabit xərclərə bölməyin zəruri olmasını əsaslandırdı. O hesab edirdi ki, məhz belə yanaşma idarəetmə üçün aktualdır, dolayı xərclərin ayrılması isə qərarlar qəbul edilməsi üçün prinsipial əhəmiyyət kəsb etmir.
Qeyd etmək lazımdır ki, keçən əsrin əllinci və altmışıncı illəri ABŞ-da istehsal xərclərinin uçotu və maya dəyərinin kalkulyasiyası məsələlərinə marağın artması ilə əlamətdar olmuşdur. Bu dövrdə uçotun funksiyaları və məzmunu dəyişmişdir. Əllinci illərdə "istehsalat uçotu" (*Cost Accounting*) anlayışını tez-tez "idarəetmə uçotu" (*Management Accounting*) anlayışı ilə əvəz etməyə başladılar. Bu anlayışların məzmununun dəyişməsi onda ifadə edilirdi ki, xərclərin ilkin smetalarının tərtib edilməsi, smetalardan sapmaların operativ üzə çıxardılması, istehsal xərclərinin və maya dəyərinə əsaslanan idarəetmə qərarlarının variantlarının sistematik təhlili məsələlərinə xüsusi əhəmiyyət verilirdi".
Beləliklə, hesab etmək olar ki, idarəetmə uçotu müstəqil sistem kimi XX əsrin 50-ci illərinin ortalarında formalaşmışdır. Məhz o vaxtdan etibarən, o, əvvəlcə ABŞ universitetlərində, sonra isə dünyanın başqa ölkələrində də menecerlər üçün məcburi tədris kursu olmuşdur.
1975-ci ildən başlayaraq istehsalatın avtomatlaşdırılması, kompüter informasiya texnologiyaları və qlobal rəqabət kimi mühüm amillər idarəetmə uçotunun inkişafına əhəmiyyətli dərəcədə təsir etmişdir.
1986-cı ildən etibarən xərclərin idarə edilməsi proseslərinin və texnologiyalarının təhlili sayəsində təsərrüfat fəaliyyətində istifadə edilən resursların itkilərinin azaldılmasına və bununla əlaqədar olaraq məhsulun maya dəyərinin kalkulyasiyası metodlarının təkmilləşdirilməsinə getdikcə daha çox diqqət yetirilirdi.

İdarəetmə uçotunun təkamülü



Sxem 1

İdarəetmənin konseptual əsasları



Sxem 2

Müasir idarəetmə uçotu, xarici və daxili informasiyadan istifadə edərək, həm istehsalatın, həm də marketinq, tədqiqatların idarə edilməsi və biznesin başqa funksiyalarının ehtiyaclarını təmin edir. O, cari və uzunmüddətli məqsədlərə uyğun olaraq fəaliyyəti təhlil edir və müvəffəqiyyətin həlledici amilləri: xərclər, keyfiyyət, vaxt və s. haqqında informasiya əldə edil-

məsi metodlarını işləyib hazırlayır.

İdarəetmə uçotunun müasir konseptual əsası Mühasiblərin Beynəlxalq Federasiyasının (MBF) "İdarəetmə uçotunın Konsepsiyası" adlı nəşrində ifadə edilmişdir.

Nə qədər paradoksal olsa da, "idarəetmə uçotu" termini tədricən öz mənasını itirməyə başlayır. Bu, ilk növbədə, onunla izah olunur ki, həmin termindən heç də bütün ölkələrdə istifadə olunmur. Məsələn, Fransada "analitik mühasibat" (Comptabilite Analytique) terminini tətbiq edirlər, Almaniyada isə "idarəetmə uçotu" anlayışı anqlosaks ölkələri ilə müqayisədə çox məhdud məna kəsb edir. Almaniyada istifadə olunan "kontrollinq" anlayışı məzmun etibarilə Amerikadakı "idarəetmə uçotu"nun analoqudur. Buna görə MBF-nin yuxarıda adını çəkdiyimiz nəşrində idarəetmə uçotunun gələcək təkamülünün mümkünlüyünə şübhə ifadə edilir.

İkincisi, hətta idarəetmə uçotunun vətəni ABŞ-da da 2000-ci ildən idarəetmə uçotu üzrə dərsliklər "Xərclərin idarə edilməsi" (Cost Management) adı ilə çap edilməyə başlamışdır.

Təəccüblüsü odur ki, idarəetmə uçotunun rolunun artması mühasib-analitiklərə ehtiyacın azalmasına gətirib çıxarmışdır. Bu gün xərclərin idarə edilməsi üzrə mütəxəssislər tələb olunur. Belə mütəxəssislər, məsələn, informasiya texnologiyaları, qərarlar qəbul edilməsi, təqdimatlar və komandada iş, strateji idarəetmə, analiz və sair sahələrdə müvafiq bilik və bacarıqlara malik olan mühasiblər, mühəndislər, maliyyə analitikləri və başqa işçilər ola bilər.

Bununla birlikdə, xərclərin kalkulyasiyası və təhlilinə yeni yanaşmalara ehtiyac yaranır. Məsələn, həyat tsiklinin kalkulyasiyası, məqsədli kalkulyasiya, etalonla müqayisə və başqa metodlar məhz belə yanaşmalardır. Lakin idarəetmə uçotunun idarəetmə sisteminə inteqrasiyası mühasiblərin səriştəliliyi və informasiya-uçot sistemlərinin elastikliyi ilə əlaqədar daha yüksək tələblər irəli sürür.

"...Müasir menecment məsələlərindən heç biri ənənəvi uçot modelinin ümumi müddəalarına uyğun gəlmir... İndiyə qədər informasiya texnologiyaları vasitəsilə əldə edilən məlumatların ali rəhbərliyi qane etməməsi növbəti inqilabın – informasiya inqilabının başlanmasına təkan vermişdir. İnformasiya texnologiyaları üzrə mütəxəssislər, xüsusən kommersiya müəssisələrində informasiyanın bölmələrinin rəhbərləri, tezliklə anladılar ki, onların işçilərinə mühasibat uçotu məlumatları lazım deyil. Lakin təəssüf ki, informasiya bölmələrinin heç də bütün işçiləri anlamırlar ki, onlara informasiya texnologiyalarının inkişafı, məlumatların həcminin və ya kompüterlərin sürətinin artması tələb olunmur. Bununla bərabər, həmin işçilərə "informasiya" anlayışının yeni tərifi tələb olunur, onlara yeni konsepsiyalar lazımdır. Bugünkü top-menecment əksər hallarda tələb edir ki, həmin konsepsiyalar informasiyanın ənənəvi təchizatçıları – mühasibat bölmələrinin işçiləri tərəfindən ifadə edilsin".

Piter Druker

MDB-də idarəetmə uçotunun inkişafı

Keçmiş SSRİ-də "idarəetmə uçotu" terminindən istifadə edilmirdi. Cari daxili hesabat göstəricilərinin (maliyyə və qeyri-maliyyə göstəricilərinin) xeyli hissəsi mühasibat uçotu məlumatlarına deyil, operativ məlumatlara əsaslanırdı. Mühasibat uçotu, faktiki olaraq, sosializm mülkiyyətinin tamlığına və dövlət planlarının yerinə yetirilməsinə nəzarətə yönəldilmiş maliyyə uçotu idi.

XX əsrin 90-cı illərinin əvvəllərində xarici müəlliflərin (K.Druri, Ç.Hornqren və C.Foster, R.Entoni və C.Ris, R.Mann, E.Mayer və başqaları) idarəetmə uçotu və kontrollinq məsələlərinə həsr edilmiş bir sıra dərslikləri rus dilində dərc edilmişdi.

Sonralar, xarici ölkələrin təcrübəsi ilə tanış olmaq sayəsində, Ukrayna, Rusiya və Belarus müəlliflərinin idarəetmə uçotu məsələlərinə həsr edilmiş dərslikləri, dərs vəsaitləri və monoqrafiyaları dərc edilmişdir.

MDB ölkələrində bazar münasibətlərinin inkişafı müəssisənin idarə edilməsi üçün zəruri olan uçot informasiyasına tələbatın artmasını şərtləndirmişdir. Lakin uçotun praktik olaraq iki hissəyə – maliyyə və idarəetmə uçotuna bölünməsinin məqsədəuyğun və mümkün olması məsələsi geniş diskussiya mövzusudur.

İdarəetmə uçotunun problemləri üzrə nəşrlərin təhlili göstərir ki, idarəetmə uçotunun məzmunu haqqında diskussiyaların əsas səbəbləri aşağıdakılardır: mühasibin funksiyaları ilə uçot işçisinin funksiyalarının eyniləşdirilməsi nəticəsində idarəetmə uçotunun funksiyalarının əsassız "genişləndirilməsi"; "uçot" anlayışına ənənəvi yanaşma nəticəsində idarəetmə uçotunun funksiyalarının əsassız "daraldılması"; idarəetmə uçotunun alman və anqlo-sakson konsepsiyalarının qarışdırılması.

Qeyd etmək lazımdır ki, müəssisənin rəhbərliyi və uçot informasiyasının digər istifadəçiləri vaxtında və mötəbər mənbədən daxil olmuş informasiyaya ehtiyac duyurlar. Bu halda belə informasiyanı təmin edən fəaliyyət necə adlanması onlar üçün o qədər də əhəmiyyətli deyildir. Buna görə uçotun bölgüsü və ya onun bütövlüyü haqqında mübahisə əhəmiyyətli praktik məna kəsb etmir. Əgər müəssisə məcburi mühasibat uçotundan başqa hansısa bir əlavə məlumata ehtiyac duyursa, o lazımlı informasiya sistemini yarada və ona istənilən adı verə bilər: "kontrollinq", "təsərrüfatdaxili uçot", "idarəetmə uçotu" və s. Buna görə idarəetmə uçotuna müəssisənin strateji məqsədinə nail olmağa yönəldilmiş qərarlar qəbul edilməsi üçün lazım olan maliyyə və qeyri-maliyyə xarakterli informasiyanı təmin edən sistem kimi baxmaq lazımdır.

İDARƏETMƏ YENİLİKLƏRİ – ilk növbədə, dəyişməkdə olan şəraitə uyğunlaşmağa yönəlmiş, qərarlaşmış idarəetmə sisteminin modifikasiyasına, idarəetmənin təşkilinə yeni yanaşmalar, yeni metodlar.


Göstərilən bütün tiplərə aid yeniliklər öz aralarında sıx qarşılıqlı əlaqədədir. Məsələn, texnoloji yeniliklərin tətbiq edilməsi üçün praktik olaraq həmişə iqtisadi, sosial və idarəetmə sahələrində müvafiq dəyişikliklərin aparılması zəruridir.

İDARƏETMƏDƏ ƏDALƏTLİLİK NƏZƏRİYYƏSİ – bu motivasiya nəzəriyyəsinə görə, insanlar özlərinin aldığı haqqı və bunun üçün sərf edilmiş əməyi və həmçinin özlərindən asılı olmayaraq eyni növlü və eyni həcmli işin müqabilində özlərinin aldığı haqqını başqa insanların aldığı haqq ilə müqayisə edir, haqqın səviyyəsinə görə geri qaldıqları halda bu geriliyi aradan qaldırmağa çalışırlar.

İDARƏETMƏNİN BAŞ SXEMİ (ing. *general outline of management*) – beynəlxalq təcrübədə normativ sənəd olub, sosial-iqtisadi həyatın, xalq təsərrüfatının hər hansı bir sahəsinin təşkilati-idarəetmə strukturunun istifadəsi və inkişafı üzrə əsas istiqamətləri və vacib tədbirləri özündə birləşdirir. Hər bir müəssisə spesifik xüsusiyyətləri nəzərə alınmaqla müvafiq idarəetmə sxemi əsasında fəaliyyət göstərir (bax: sxem 1).

İDARƏETMƏNİN ÇEVİKLİYİ – idarəetmə sisteminin, onun rəhbərliyinin strukturunda və ya sərəncamverici orqanın iyerarxik səviyyəsində çevik dəyişikliklər aparmağın mümkünlüyündə, dəyişən mühitə uyğunlaşma qabiliyyətində təzahür edən təşkilati xüsusiyyətini xa-

Boru-prokat zavodunun idarəetmə sxemi



Sxem 1

rakterizə edən parametr. İdarəetmənin çevikliyi xarici mühitin qeyri-standart təsiri, qərarlar qəbul olunması texnologiyasında dəyişikliklər və sair səbəblərə görə müəyyən zaman intervalında vaxtında yerinə yetirilən idarəçilik işlərinin sayının onların ümumi sayına nisbətinin obyektiv qiyməti ilə təyin edilir.

İDDİA SƏNƏDİ – sənaye mülkiyyəti obyektinə patent almaq üçün tərtib edilmiş sənədlər toplusu.

İDEAL – mənəvi şüur və etik kateqoriya anlayışıdır. Ən yüksək mənəvi tələbləri bildirir, şəxsiyyətin bu tələbləri reallaşdıra bilməsi onun kamilliyə yetişməsinə imkan verərdi. İnsanda ən qiymətli və möhtəşəm keyfiyyətlərin obrazı, zəruriliyin mütləq əsası; xeyir və şəri fərqləndirmə meyarı.

İDDİALARIN BİRLƏŞDİRİLMƏSİ – iddialarda eyni şəxslərin iştirak etdiyi və ya iddiaların eyni şəxsə təqdim edildiyi halda iddia tələblərinə birgə baxmaq məqsədilə müəyyən miqdarda iddia tələblərinin birləşdirilməsi.

İDEAL TƏŞKİLATIN QURULMA PRİNSİPİ – M.Veber tərəfindən "Sosial-iqtisadi təşkilat nəzəriyyəsi" əsərində dürüst ifadə olunan prinsiplərdir. Bunun da mahiyyəti ondan ibarətdir ki, təşkilatın bütün işi yerinə yetirməsi formal olaraq ayrı-ayrı halqalara tapşırılan sadə, elementar hərəkətlərə bölünür. Hər bir rəhbər ancaq təşkilat daxilində fəaliyyət göstərən, formal təhkim olunan hakimiyyət və hüquqlara malikdir. Təşkilat iyerarxiya prinsipinə riayət etmək üzərində qurulur. Hər bir əməkdaş təşkilatda daha yuxarı mövqe tutan vəzifəli şəxsə tabedir. İstənilən rəhbər öz müştərilərinə və tabeçiliyində olanlara münasibətdə eyni qaydada ədalətli olmalı və eyni zamanda, zəruri "sosial distan siyanı" saxlamalıdır. Emosiya və şəxsi mülahizələrindən istifadə istisna olunur. Təşkilatda onun üzvlərinin fəaliyyətinin stimullaşdırılmasını təmin edən müəyyən kadr siyasəti mövcud olmalıdır.

Hər bir əməkdaş öz ixtisas və sərişdəsinə müvafiq vəzifə tutmalıdır və məcburi olaraq qovulma mümkünlüyündən qorunmalıdır. İşçinin xidməti nərdivanda irəliləməsi onun təşkilatdakı işinin davamlığı və uğurundan asılı olaraq və ya hər iki amil nəzərə alınmaqla həyata keçirilməlidir.

Maddi stimullaşma əmək haqqı sisteminin, xidmətdə irəliləmə, təqaüdlərin müəyyən edilməsinin köməyilə həyata keçirilməlidir. Maddi mükafatlandırmaya işçilərin şəxsi həyatı təsir göstərməməlidir. Təşkilatda nəzarət və cəzanın dəqiq sistemi fəaliyyət göstərməlidir. İdarə edənlərin hüququ da vəzifə təlimatları ilə ciddi halda reqlamentləşdirilməlidir.

İDENTİFİKASİYA (lat. *identificar* – eyniləşdirmək, oxşatmaq) – fərdiləşdirmə kodu olub, müəyyən xüsusiyətlərə görə özünü digər insandan, insan qrupundan və ya kollektivdən seçmək. İdentifikasiya vasitəsilə, həmçinin, insan hər hansı bir peşə sahibi olması kimi xarakterizə olunur. Müştərinin, bankın və aktiv sahiblərinin fərdi nömrə, imza, kod, konfidensial və ya şəxsi informasiya, sosial sığortanın nömrəsi və ya vergi qeydiyyatı şəhadətnaməsinin nömrəsi vasitəsilə tanınmasıdır.

İDENTİFİKASİYA NÖMRƏSİ (SAYI) – uçotu sadələşdirmək üçün vahidə verilən simvollar dəsti. İdentifikasiya nömrəsi (identifikator) qeyddən keçmiş vahidin bütün mövcudluğu dövründə daimi olaraq qalmalıdır və məna əhəmiyyəti daşımalıdır.

İdentifikasiya (eyniləşdirmə) əlaməti – kod işarələri şəklində verilmiş registr obyektinin xarakteristikası. Məlumatların kodlaşdırılması üçün milli dövlət təsnifatlarından istifadə olunur.

İdentifikasiya (eyniləşdirmə) kodu – vahidin kompüter fayllarında uçotunun sadələşdirilməsi məqsədilə ona verilən işarələr yığımıdır ki, bu da əksər hallarda müəyyən alqoritmlə hesablanmış nəzarət rəqəminə malik olan ədəd (identifikasiya nömrəsi) olur. İdentifikasiya kodu vahidin mövcud olduğu bütün dövr ərzində dəyişməz olaraq qalmalıdır və heç bir məna yükü daşımamalıdır. İdentifikasiya kodu təkrarlanmır və yalnız bu vahidə məxsusdur.

İDENTURA – adətən, istiqrazı saxlayanların hamısı və səhmdar cəmiyyəti arasında bağlanmış müqavilə. Bunun öhdəliyinə onların müdafiəsi daxildir. Səhmdar cəmiyyətinə münasibətdə borc öhdəliklərinin və ya istiqrazları saxlayanların hüquqlarını müəyyən edir. Çox zaman səhmdar cəmiyyətinin konkret mülkiyyəti üçün girov kağızını təmin edir.

İDXAL (lat. *importare* – gətirmək, *importo* – daxil edirəm) –

idxal edən ölkənin daxili bazarında reallaşdırmaq üçün əmtəələrin, xidmətlərin, texnologiyaların və kapitalın xaricdən gətirilməsi, istehsal və istehlak təyinatlı xidmətlərin xarici tərəfdaşlardan ödənilməklə alınması. Başqa sözlə, xarici malların və ya kreditlərin və istiqrazların verilməsi, xarici şirkətlər tərəfindən müəssisələrin (valyuta idxalı) alqısı formasında ölkəyə gətirilməsi, xarici şəxslərin, firmaların, təşkilatların xidmətlərindən pullu istifadədir. Beynəlxalq əmək bölgüsünün nəticəsi olaraq, idxal vaxta qənaətə, milli iqtisadiyyatın və əhalinin tələbatlarının tam ödənilməsinə təsir göstərir. İdxalın həcmi, strukturu və çeşidi xalq təsərrüfatının miqyasından, onun müxtəlif resurslarla təminatından, istehsal və elmi-texniki inkişaf səviyyəsindən, eləcə də ixrac gəlirlərinin ölçüsündən və ölkənin valyuta ehtiyatlarından asılıdır. İdxal faktı əsasən SİF şərtləri ilə gömrük statistikası tərəfindən təsbit olunur.

Cədvəl 1

Azərbaycan Respublikası üzrə idxalın coğrafi quruluşu (faizlə)

Coğrafi regionlar	2006	2007	2008	2009	2010
Cəmi	100,0	100,0	100,0	100,0	100,0
o cümlədən:					
Avropa	61,1	57,6	58,3	56,5	53,1
Asiya	31,6	34,3	35,0	35,5	39,2
Amerika	6,2	7,6	6,0	7,2	7,0
Afrika	0,9	0,3	0,5	0,5	0,3
Okeaniya	0,2	0,2	0,2	0,3	0,4

Cədvəl 2

Azərbaycan Respublikası üzrə idxalın strukturu

	2009-cu il		2010-cu il	
	Məbləğ, mln.$	Xüsusi çəkisi, %-lə	Məbləğ, mln.$	Xüsusi çəkisi, %-lə
İdxal, cəmi:	6513,9	100	6745,6	100
o cümlədən:				
1. İstehlak malları	2587,0	39,7	2954,3	43,8
– ərzaq məhsulları	826,7	12,7	1050,4	15,6
– digərləri	1760,3	27,0	1903,9	28,2
2. İnvestisiya yönümlü mallar	773,3	11,9	689,0	10,2
– beynəlxalq neft-qaz konsorsiumları	402,2	6,2	559,0	8,3
– digərləri	371,1	5,7	130,0	1,9
3. Digər mallar	3153,6	48,4	3102,3	46,0

İdxal – görünən, görünməyən və kapitalın idxalı adlanan üç

Cədvəl 3

Azərbaycan Respublikası üzrə Beynəlxalq Standart Ticarət Təsnifatına əsasən idxalın quruluşu (faizlə)

Məhsul bölmələri	2006	2007	2008	2009	2010
Cəmi	100,0	100,0	100,0	100,0	100,0
o cümlədən:					
Yeyinti məhsulları və diri heyvanlar	7,6	11,5	11,4	10,4	13,1
İçkilər və tütün	2,1	3,5	3,2	4,1	4,0
Qeyri-ərzaq xammalı (yanacaqdan başqa)	2,9	2,6	2,9	1,7	2,7
Mineral yanacaq, sürtkü yağları, analoji materiallar	11,6	2,5	1,6	1,1	1,1
Heyvan və bitki mənşəli yağlar, piylər	0,7	0,8	0,9	1,1	1,3
Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar	5,8	7,4	8,3	8,1	8,9
Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları	17,2	18,9	16,9	17,4	21,6
Maşınlar və nəqliyyat avadanlıqları	46,2	45,7	47,5	47,4	40,6
Müxtəlif sənaye məmulatları	5,8	7,1	7,2	8,6	6,6
Digər kateqoriyalara daxil edilməyən mallar	0,1	0,0	0,1	0,1	0,1

böyük kateqoriyaya ayrılır. **Görünən idxal** real əmtəələrin hərəkəti kimi xaricdən alınan məhsulların ölkəyə gətirilməsi və daxili bazarda satılmasını ifadə edir. **Görünməyən idxala** ölkə vətəndaşlarına xarici şirkətlərin xidmətlər göstərməsi, xarici banklara pul qoyuluşları, xarici firmalardan turist yollayışlarının alınması və digər müvafiq təyinatlı xidmətlər aiddir. Kapital idxalına isə xarici investorların milli müəssisələrin səhmdarlarına çevrilməsi, onların müvafiq istiqamətli müxtəlif layihələrdə investisiya qoyuluşları ilə çıxış etməsi şamil olunur.

Bütün idxal kateqoriyaları ixracla birlikdə ölkənin tədiyə balansını təşkil edir. Ticarət balansına isə ixrac və idxalın ilk iki kateqoriyası aid olunur. Müsbət ticarət balansı ölkənin iqtisadi vəziyyətinin yaxşı olduğunu ifadə edir. Azərbaycan Respublikası üzrə idxalın strukturu cədvəl 1, 2, 3, 4-də verilmişdir.

İDXAL DEPOZİTİ (ing. *import deposit*) – idxalatçı tərəfindən idxal edilən malın alınmasından əvvəl müvəkkil bankdakı depozit hesabına dönərli valyuta şəklində ödənilən faizsiz girov. Onun məbləği idxal edilən mal üçün idxal rüsumu dərəcəsindən asılı olaraq müəyyən edilir və idxalın məhdudlaşdırılması üçün dövlətin əsas alətlərindən biri kimi çıxış edir.

Malın gömrük sərhədindən keçirilməsi üçün idxal depozitinin ödənilməsi haqqında unifikasiya edilmiş formalı bank sənədinin olması zəruridir. İdxal depoziti valyutanın xaricə aparılmasını məhdudlaşdırmaq üsullarından biridir.

İDXALI ƏVƏZLƏMƏ STRATEGİYASI – daxili bazar üçün işləyən resurstutumlu və əməktutumlu istehsalların inkişafından ibarət olan dövlətin sənaye siyasətinin metodlarından biri. "Çatmaqda olan" inkişaf yollarında irəliləyən, inkişaf etməkdə olan ölkələr üçün xarakterik industrial (sənaye) transformasiyası modelinin bir hissəsi. Göstərilən sahələrin məhsulu daxili bazarda geniş tələbata malik olan sənaye mallarının idxalını əvəz etmək iqtidarındadır.

Xammalın və az keyfiyyətli ucuz malların ixracından əldə olunan gəlirlər, ilk növbədə, xammalın təkrar emalına və aşağı ixtisaslı ucuz iş qüvvəsinə əsaslanan ixrac yönümlü sahələrin texniki cəhətdən təkrar silahlanması üçün və gələcəkdə diversifikasiyalı sənaye bazasının yaradılması üçün zəruri olan əmtəələrin idxalı üçün istifadə olunur. İdxal əvəzləmə strategiyası siyasəti zəruri infrastrukturun inkişafı üzrə proqramların işlənib hazırlanmasını, idxal tariflərinin və milli istehsalçılara olan vergi güzəştlərinin kombinələşməsini ehtiva edir. Sürətli sənaye inkişaf yoluna qədəm qoyan Cənub-Şərqi Asiyanın Yeni Sənaye

Cədvəl 4

Ölkə qrupları üzrə idxalın quruluşu (faizlə)

Ölkə qrupları	2006	2007	2008	2009	2010
Müstəqil Dövlətlər Birliyi (MDB)	38,9	33,3	31,9	29,8	31,1
Avropa İttifaqı (Aİ)	30,8	29,3	28,4	26,7	25,3
Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT)	37,9	38,7	39,7	42,1	37,7
İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT)	18,9	17,8	16,6	17,9	18,4
Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat (GUAM)	7,1	9,4	8,7	9,4	7,9
Neft İxrac Edən Ölkələrin Təşkilatı (OPEK)	2,4	2,9	2,4	1,9	2,8
İslam Konfransı Təşkilatı (İKT)	20,6	19,4	18,7	19,3	20,1
Asiya-Sakit okeanı İqtisadi Əməkdaşlıq Təşkilatı (ASİƏT)	36,1	35,3	36,8	36,0	38,4
Avropa Azad Ticarət Assosiasiyası (AATA)	1,3	1,0	1,3	1,6	1,6
Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN)	0,4	0,7	1,4	1,1	3,5
İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT)	47,2	52,5	49,5	51,7	45,6

Ölkələri müxtəlif sürətlə və digər sənaye siyasəti tipləri ilə müxtəlif əlaqələndirmə (uzlaşma) ilə idxal əvəzləmə sənaye siyasəti mərhələsini keçmişlər. Birinci eşelon dövlətlərində (Cənubi Koreya, Tayvan, Honkonq, Sinqapur) müasir sənaye sahələrinin, onların yeni nəslinin yaradılmasına keçid, ixracın restrukturizasiyası və onun iqtisadi artımın mühərrikinə çevrilməsi sürətlə həyata keçirilmişdir. Mahiyyətcə idxalı əvəzləmə strategiyası və ixracın təşviq edilməsi strategiyası burada əmək məhsuldarlığının və investisiyaların vahid uzunmüddətli strategiyasının inteqral hissələri kimi qiymətləndirilir. İxracdan qazanılan valyuta vəsaitləri iqtisadiyyatın inkişafı üçün zəruri olan maşın və avadanlıqların, yeni texnologiyaların alınmasına sərf olunur.

Sənayeləşməsi, hər şeydən əvvəl, xammal sərvətlərinə və ixtisaslı ucuz iş qüvvəsinin mövcudluğuna əsaslanan ikinci eşelon Cənub-Şərqi Asiya ölkələri, həmçinin, Latın Amerikasının bəzi ölkələri müxtəlif dərəcədə olsa da, idxalı əvəzləmə mərhələsində ləngimişdir. İdxalı əvəzləməni ixrac yönümü ilə əlaqələndirən ən tarazlı siyasət Malayziyada yeridilmişdir. Burada ixrac üçün nəzərdə tutulan xammalın təkrar emalı ilə əlaqədar sahələrin yaradılması digər qrup sahələrin – elektronikanın, elektrotexnikanın, nəqliyyat və ümumi maşınqayırmanın, qara metallurgiyanın və toxuculuq sənayesinin inkişafı ilə əlaqələndirilmişdi.

İDXAL OLUNMUŞ İNFLYASİYA – xarici amillərin təsiri ilə idxal qiymətlərinin yüksəlməsi kimi şərtlənən inflyasiya. Bu, tərəfdaş ölkələrdə baş verən qiymət artımlarının ölkəyə təsiri deməkdir. Valyuta məzənnələrinin dəyişməsi də inflyasiya idxalı ilə nəticələnə bilər. Milli valyutanın tərəfdaş ölkələrin valyutalarına nəzərən ucuzlaşması idxal olunan mal və xidmətlərin milli valyutada dəyərinin artmasına gətirib çıxarır və bu da istehlak qiymətlərinin artması, yaxud inflyasiya idxalı ilə nəticələnir. Milli valyutanın məzənnəsinin möhkəmlənməsi isə əksinə, inflyasiya idxalını məhdudlaşdırır.

İDXAL TARİFİ – idxal edilən malın ölkəyə daxil olduğu yerdə onun hər vahidindən tutulan verginin məbləği.

İdxal tarifinin tətbiq edilməsinin nəticəsi

Bu tarifin tətbiq edilməsi, bir qayda olaraq, idxala tələbatın azalmasına gətirib çıxarır. Nəticədə milli istehsalçıların malları istehlakçı üçün daha cəlbedici

olur. Malgöndərən satışdan əldə edilən mənfəət və mədaxil göstəricilərinin nisbətində yaranmış disbalansı kompensasiya etmək üçün satış qiymətinə faizi (marjanı, mənfəəti) azaltmaq; xüsusi istehsalın səmərəsini artırmaq; cari xərcləri azaltmaq; idxalatçıda müstəqil istehsal təşkil etmək kimi üsullardan istifadə edə bilər.

İdxal tarifinin tətbiq olunmasının qadağan edilməsi

İdxal tarifinin tətbiq olunması təşviq edilmir, bəzi hallarda isə Ümumdünya Ticarət Təşkilatı çərçivəsində bağlanmış sazişlərlə birbaşa qadağan edilir. İdxal tarifləri dəyər vergisi (advalor tarifi) şəklində tətbiq edilə bilər, yəni idxal edilən malın qiymətinə müəyyən faiz hesablanır. Əgər malın qiymətinə onun dəyərindən asılı olmayaraq sabit məbləğ əlavə edilirsə, bu tarif spesifik rüsum şəklində tətbiq edilir.

İDXAL VƏ İXRACA SUBSİDİYALAR – idxal və ixrac əməliyyatlarını stimullaşdırmaq məqsədilə dövlət büdcəsindən ödənilən subsidiyalar, tətbiq edilən vergi və rüsum ödənişlərindən azadetmələr. MHS-də istifadə edilən göstəricidir.

İDXALÇI BANK – müvəkkil bank və ya onun filialı. Burada idxalçının valyuta hesabı açılır və idxalçının tapşırığı ilə müəyyən müqaviləyə görə idxal olunan malların hesablaşması həyata keçirilir, idxal sövdələrinin pasportu tərtib edilir.

İDXALIN DAXİLİ İSTEHSALLA ƏVƏZ EDİLMƏSİ – inkişaf etməkdə olan ölkələr üçün iqtisadiyyatın təkmilləşdirilməsinin əsas strategiyalarından biridir. Müharibədən sonrakı illərdə inkişaf etməkdə olan ölkələrin əksər iqtisadçıları hesab edirdilər ki, sənayeləşmə siyasəti iqtisadi tərəqqinin optimal strategiyasıdır. Bu istiqamətdə daha aydın yol idxalın daxili istehsalla əvəz edilməsi idi ki, bu da idxal tarif və kvotalarının müdafiəsi altında öz sənayelərinin yaradılmasına səbəb oldu. Hesab edilirdi ki, bu prosesə istehlak əmtəələri istehsal edən sahə sənayesindən başlamaq lazımdır. İdxalın müdafiə olunacağı və gələcək iqtisadi artıma səbəb olacağı təxmin edilirdi.

İDXALIN ƏVƏZ OLUNMASI – ölkə daxilində müəyyən əmtəənin istehsalının təşkili ilə əlaqədar onun ölkəyə gətirilməsinin dayandırılması. Proteksionizm (himayəçilik) sənaye siyasətinin istiqamətlərindən biridir.

İDXALIN QIZIL NÖQTƏSİ – 1. Valyuta məzənnəsinin elə minimum ölçüsüdür ki, buna görə xarici iqtisadi əməliyyatların həyata keçirilməsi üçün valyuta əldə edilə bilər, ya da belə əməliyyatlar üçün qızıla malik olmaq lazımdır (termin beynəlxalq qızıl standartının fəaliyyəti dövründə yaranmışdır). 2. Qızıl standartının fəaliyyəti şəraitində elə bir xarici valyuta məzənnəsidir ki, bundan aşağı o, mənimsənilə bilməz, bu ölkədə ödənişlərin həyata keçirilməsi üçün qızıl idxal etmək lazımdır. Bu anlayış qızıl standartından imtina edildikdən sonra öz əhəmiyyətini itirmişdir. Qızıl nöqtələr elə hədlərdir ki, burada qızıl paritetinə əsaslanan valyuta məzənnəsi dəyişir. Qızıl nöqtələr qızıl standartı şəraitində qızılın sərbəst alqı-satqısı və məhdudlaşdırılmayan ixracı zamanı fəaliyyət göstərmişdir. Valyuta məzənnəsinin dəyişmə hədləri qızılın sərhəddən daşınması ilə bağlı xərclərlə müəyyən edilmişdir (fraxt, sığorta, kapitala görə faiz itkisi, əyarlaşma xərcləri və s.) və faktiki olaraq paritetin +1%-dən artıq olmamışdır.

İDMANÇILARIN SIĞORTALANMASI – könüllü şəxsi sığorta növü. Bu zaman idman klubları, cəmiyyətləri, komandaları, müəssisələri sığortalı qismində çıxış edir və idmançılar, komandalar, sponsorlar bunların nəzdində olurlar (bax: qrafik 1).

İFLAS – böhran hadisəsini, xüsusilə müəssisənin, firmanın müflis olmasını, yoxsullaşmasını ifadə edən termin; tam uğursuzluq, müvəffəqiyyətsizlik.

Birja iflası və əməliyyat iflası fərqləndirilir. Birja iflası bazar iştirakçılarının və investorların xeyli itkilərinə gətirib çıxaran birja konyunkturunun kəskin azalmasıdır. Əməliyyat iflası fond birjasının elə halıdır ki, bu zaman onun iştirakçıları əməliyyatların artan həcmini həyata keçirə bilmirlər. Bəzi broker firmaları ilə alqının, satqının baş verməsinin və ölçüsünün seçimi zamanı, eləcə də bağlanmış sövdələr üzrə nağd hesablaşmalarla qiymətli kağızların daşınması zamanı səhvlər edirlər.


İXRAC (lat. *exportare* – daşıyıb göndərmək) – malların, işlərin, xidmətlərin, intellektual fəaliyyətin nəticələrinin (o cümlədən, bu nəticələr barəsində müstəsna hüquqların) və kapitalın ölkə ərazisinə yenidən gətiriləcəyi barədə öhdəliklər olmadan onların ölkənin iqtisadi ərazisindən daşınıb aparılması. Malların və xidmətlərin ölkə sərhədindən çıxarılmadan əcnəbi hüquqi və fiziki şəxslərə satılması da ixraca aiddir. Xarici ticarət əməliyyatının başa çatmasını bildirən əmtəə ixracının əsas meyarı həmin məhsulun ixracatçı ölkənin dövlət sərhədindən keçirilməsi, ixracatçı ölkənin ərazisində istifadə edilmək üçün əcnəbi alıcılara satılmış mallar barəsində mülkiyyət hüququnun keçməsi və ya xidmətlərin təqdim edilməsidir.

Malların ixracının uçotu onların dövlət sərhədindən keçmə anına, yaxud mülkiyyət hüququnun əcnəbi alıcıya verilməsi anına əsasən aparılır. Müasir şəraitdə ixrac adi kommersiya sövdələşməsindən daha mürəkkəb əməliyyatdır, o, istehsal və elmi-texniki əməkdaşlıq haqqında, patentlər və lisenziyalar haqqında müxtəliftipli ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərlə sıx əlaqədardır. Malların ixracı və idxalı barədə sistematik məlumatın toplanması, çevrilməsi və sistemləşdirilməsi üçün bir sıra beynəlxalq nomenklatur sənədlər işlənib hazırlanmışdır.

Milli xarici ticarət təsnifçiləri yaradılarkən həmin nomenklatur sənədlər, o cümlədən BMT-nin 1985-ci ildə qəbul edilmiş standart ticarət təsnifatı hesaba alınmalıdır. Bu sənəd 10 bölmədən, 67 şöbədən, 261 əmtəə qrupundan və 3118 əmtəə mövqeyindən ibarətdir. Əmtəələrin təsvir edilməsi və kodlaşdırılması üçün harmonikləşdirilmiş sistemin nomenklaturu 21 bölmədən, 96 qrupdan, 33 yardımçı qrupdan, 1241 əmtəə mövqeyindən, 3553 yardımçı mövqedən və 5019 köməkçi mövqedən ibarətdir.

Xidmətlərin istismarının uçotu zamanı BMT tərəfindən işlənib hazırlanmış vahid məhsul təsnifçiləri bazasında QATT (indiki ÜTT) katibliyi tərəfindən hazırlanmış təsnifçilərdən istifadə edilir. Bu təsnifata daxil

Dünyada idmanın ayrı-ayrı növləri üzrə hər 1000 nəfərə düşən zədələrin sayı



Sxem 1

Cədvəl 1

Azərbaycan Respublikası üzrə ixracın coğrafi quruluşu (faizlə)

Coğrafi regionlar	2006	2007	2008	2009	2010
Cəmi	100,0	100,0	100,0	100,0	100,0
o cümlədən:					
Avropa	63,4	37,7	59,4	52,0	59,1
Asiya	34,7	54,4	23,9	30,7	29,8
Amerika	1,7	7,9	16,3	16,0	9,5
Afrika	0,2	0,0	0,4	1,3	1,5
Okeaniya	0,0	0,0	0,0	0,0	0,1

olan 160-dan çox xidmət növü 12 bölmədə təmsil edilmişdir: işgüzar xidmətlər, rabitə xidmətləri, tikinti və injinirinq xidmətləri, distribütor, ümumtəhsil və maliyyə (o cümlədən sığorta) xidmətləri, ətraf mühitin və sağlamlığın qorunması xidmətləri, sosial xidmətlər, turizm və səyahətlər, asudə vaxt, mədəniyyət və idman sahəsində xidmətlər, nəqliyyat xidmətləri, sair xidmətlər. Azərbaycan Respublikası üzrə ixracın dinamikası, strukturu barədə informasiya cədvəl 1, 2, 3-də verilmişdir.

İXRAC BANKI – xarici ticarətlə, məsələn, ixrac kreditlərinin verilməsi ilə əlaqədar əməliyyatlarda ixtisaslaşan bank.

Cədvəl 2

Azərbaycan Respublikası üzrə ixracın strukturu

	2010-cu il	
	Məbləğ, mln. ABŞ $	Xüsusi çəkisi, %-lə
İxrac – cəmi	**26476,0**	**100,0**
o cümlədən:		
1. Yanacaq-xammal məhsulları	25398,6	95,9
– neft-qaz məhsulları	25107,5	94,8
– digər xammal	291,1	1,1
2. Maşın və avadanlıq	336,1	1,3
3. İstehlak malları	725,6	2,7
4. Digər mallar	15,7	0,1

İXRAC DOTASİYASI – milli ixracatçıların və xidmətlərin müdafiəsi məqsədilə dövlət büdcəsindən ayrılan əvəzsiz təxsisat. Bu vasitələr ixracatçıların müxtəlif vergi güzəştlərinə (vergi dərəcələrinin aşağı salınması, ixrac olunan məhsula daxili vergilərin ixracatçılara qaytarılması, ixrac məhsullarının istehsalı üçün istifadə edilən malların vergiləri ödəmədən daxili və xarici bazarlardan əldə etməsi üçün imkanın yaradılması, ixrac mallarının daşınma və anbarlaşma vergilərindən azad edilməsi və s.); ixrac mükafatlarının ödənilməsinə; ixrac kommersiya və bank kreditləri üzrə güzəştli faiz dərəcələrinin subsidiyalaşmasına; malların daşınması üzrə milli və xarici daşıyıcıların göstərdikləri xidmətin dəyərində olan fərqin ödənilməsinə; ixrac kreditlərinin uzunmüddətli maliyyələşmə, təminat və sığortasını həyata keçirən, ixtisaslaşmış kredit və sığorta, dövlət və yarımdövlət müəssisələrinin pul vəsaitlərinin doldurulmasına yönəldilir. İxrac dotasiyası ixrac subsidiyaları kimi qeyri-tarif proteksionist tədbirlərinə aiddir.

İXRAC FONDU – xarici bazara göndərilmək üçün ayrılan əmtəə resurslarının müəyyən hissəsi; ayrı-ayrı müəssisələr, sahələr, regionlar səviyyəsində və bütövlükdə, milli iqtisadiyyat səviyyəsində yaradıla bilər.

İXRAC KREDİTLƏRİ – ixracatçı-firmalar, banklar və ya hökumət tərəfindən xarici müəssisələrə və ya dövlətlərə bu dövlətlər tərəfindən kreditor ölkədə alınan malların ödənişi üçün təqdim edilən kreditlər.

Cədvəl 1

Azərbaycan Respublikasında Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracın quruluşu (faizlə)

Məhsul bölmələri	**2006**	**2007**	**2008**	**2009**	**2010**
Cəmi	100,0	100,0	100,0	100,0	100,0
o cümlədən:					
Yeyinti məhsulları və diri heyvanlar	3,6	6,7	0,8	2,7	1,9
İçkilər və tütün	0,6	0,5	0,0	0,1	0,1
Qeyri-ərzaq xammalı (yanacaqdan başqa)	3,2	1,8	0,2	0,2	0,1
Mineral yanacaq, sürtkü yağları, analoji materiallar	84,6	81,4	97,1	92,8	94,2
Heyvan və bitki mənşəli yağlar, piylər	0,8	1,1	0,2	0,7	0,7
Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən analoji məhsullar	2,1	1,6	0,4	0,6	0,6
Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları	2,8	3,7	0,9	1,2	0,8
Maşınlar və nəqliyyat avadanlıqları	1,9	2,4	0,4	1,4	1,0
Müxtəlif sənaye məmulatları	0,4	0,8	0,0	0,2	0,2
Digər kateqoriyalara daxil edilməyən mallar	-	-	-	0,1	0,4

Başqa sözlə, kreditor ölkədə xarici firma və ya dövlətlər tərəfindən əmtəələrin alınması məqsədilə həmin xarici firma və ya dövlətlərə ixracatçılar (firmalar, banklar və hökumətlər) tərəfindən təqdim edilən kreditdir.

Kimin təqdim etməsindən asılı olaraq, ixrac kreditləri: a) (kommersiya) ixracatçı müəssisə tərəfindən idxalatçı müəssisədə təqdim edilən firma ixrac kreditlərinə; b) xarici alıcılara ixtisaslaşmış və ya adi banklar tərəfindən təqdim edilən bank ixrac kreditlərinə; c) dövlət ixrac kreditlərinə bölünür. Müasir şəraitdə bank ixrac kreditləri daha üstünlük təşkil edir, onlar bəzən (xüsusilə inkişaf etməkdə olan ölkələrlə ticarətdə) dövlət tərəfindən siyasi, kommersiya, kredit və valyuta risklərindən sığorta olunur. Müddətindən asılı olaraq orta-müddətli (1 ildən 5 ilə qədər) və uzunmüddətli (5 ildən 8 ilə qədər və daha çox) ixrac kreditləri ayrılır. İxrac kreditləri ixracın və qeyri-tarif proteksionizminin stimullaşma vasitəsindən biridir. İxrac kreditləri sahəsində hədən çox olan rəqabətdən qaçmaq üçün ixrac kreditlərinin təqdimedilmə şərtləri beynəlxalq səviyyədə, o cümlədən 1934-cü ildə yaradılmış Kreditlərin və İnvestisiyaların Sığortaçılarının Beynəlxalq İttifaqı (Bern), həmçinin Aİ və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) çərçivəsində tənzimlənir. İƏİT-də 1978-ci ildən ixrac kreditlərinin şərtləri haqqında saziş fəaliyyət göstərir ki, onun üzvləri adambaşına düşən gəlir göstəricisindən (yəni adambaşına düşən ÜDM səviyyəsindən) asılı olaraq ixrac kreditlərinə malik olan ölkələrin üç qrupu üzrə 1 ildən 5 ilədək və daha yuxarı müddətə ixrac kreditləri üzrə minimum faiz dərəcələrini vaxtaşırı olaraq müəyyən edirlər. Daha kasıb ölkələr üçün dövlət tərəfindən təminatlı ixrac kreditləri üzrə daha aşağı faiz dərəcələri nəzərdə tutulur.

İXRAC KREDİTLƏRİNİN SIĞORTALANMASI – xarici iqtisadi fəaliyyətin iştirakçılarının daşıdığı risklərdən sığorta müdafiəsi kimi kreditlərin

sığortalanması növü. Bu sığorta 1950-ci illərdə yaranmışdır. İxrac kreditlərinin sığortalanması ixracatçıların maraqlarının qorunması məqsədilə tətbiq olunur. Sığorta xüsusi şirkətlər və dövlət təşkilatları tərəfindən həyata keçirilir. Dövlət yalnız kommersiya risklərini yox, həm də siyasi riskləri üzərinə götürür. Siyasi risklərə görə itkilərin örtülməsi kreditin məbləğinin 90%-indən yüksəkdir, digər risklər üzrə isə 80-90%-ə çatır.

İXRAC KVOTASI – iqtisadiyyatın ayrı-ayrı sahələri və ya müəssisələr üçün əmtəə və xidmətlərin ixracının əhəmiyyətini xarakterizə edən kəmiyyət göstəricisi (yəni ölkənin ÜDM-də ixracın payı). Ötən əsrin 90-cı illərinin əvvəllərində ABŞ-ın və Yaponiyanın ÜDM-də ixracın payı 10%-dən bir qədər artıq, Böyük Britaniyada və Fransada 24%-ə yaxın, Almaniyada 34%, Belçikada 70%, dünya iqtisadiyyatında isə 20% təşkil etmişdir. Müəyyən əmtəələrin ixracı üçün istehsalın, məhsulun göndərilməsinin müəyyən olunmuş həcmi. Bu halda ixrac kvotasının tətbiqi milli və beynəlxalq səviyyədə, eləcə də qeyri-tarif və dünya ticarətində xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üzrə tədbirlərə aiddir.

Bəzi dövlətlərdə strateji əmtəələrin ixracını məhdudlaşdırmaq və ya daxili bazarda ayrı-ayrı əmtəə növlərinin tələb və təklifini tənzimləmək məqsədilə ixrac kvotası tətbiq edilir. Təcrübədə ixrac payı əmtəənin siyahısı formasında müəyyən edilir ki, onların sərbəst aparılması (ixracı) və bu əmtəələrin milli istehsalının həcmi dəyərindən müəyyən faizlə məhdudlaşır.

Müəyyən edilmiş kvota çərçivəsində ixrac ona müvəkkil olan dövlət təşkilatları tərəfindən verilən lisenziyalar əsasında həyata keçirilir. Lisenziyaların surəti xaricə əmtəələrin buraxılması üçün gömrük bəyannaməsinə əlavə olunur. Həmçinin beynəlxalq çoxtərəfli və ya ikitərəfli ticarət sazişləri ixrac kvotası üçün əsas ola bilər. Belə ki, ixrac kvotası hər hansı bir əmtəənin, məsələn, Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEK) çərçivəsində neftin istehsalında və ixracında saziş iştirakçısı olan hər bir ölkənin payını müəyyən edən beynəlxalq sabitləşdirici sazişlərə uyğun olaraq tətbiq edilir. Kvotalar müəyyən ölkəyə bu və ya digər əmtəənin ixracının "könüllü" məhdudlaşması haqqında sazişlər əsasında müəyyən edilir.

İXRAC LİZİNQİ – elə sövdələşmədir ki, burada lizinq şirkəti (lizinq verən) milli firmadan avadanlıq alır, sonra isə onu müəyyən müddətə və müəyyən şərtlərlə xarici müəssisəyə (lizinq istifadəçisinə) icarəyə verir. İxrac lizinqinin obyektləri çox zaman nəqliyyat vasitələri, maşın-texnika məhsulu, daşınmaz əmlakdır (məsələn, anbar binası). Lizinq müqaviləsi, eyni zamanda, uzunmüddətli (bəzən 25-30 ilə qədər) icarə haqqında və kreditin verilməsi haqqında müqavilədir. Belə ki, qalıq dəyəri üzrə icarə müddəti bitdikdən sonra lizinq istifadəçisinə müqavilə obyektinin əldə edilməsi nəzərdə tutula bilər.

Bu halda ixrac lizinqi müqaviləsi möhlətlə əmtəənin (malın) xarici alıcı tərəfindən ödənilməsi forması kimi nəzərdən keçirilə bilər. Beynəlxalq Valyuta Fondunun (BVF) qaydalarına uyğun olaraq, beynəlxalq icarədən irəli gələn öhdəliklər dövlətin xarici borclarının məbləğinə daxil edilmir. Məhz buna görə də ixrac lizinqi bir çox ölkələrdə dövlət dəstəyinə və müəyyən güzəştlərə malikdir. Belə ki, icarə tədiyələri çox zaman lizinq istifadəçisinin əməliyyat xərclərinə aid edilir və vergilərə cəlb olunmur. Beynəlxalq icarənin müxtəlif növləri var: 1) rentinq – icarədar tərəfindən əmlakın sonradan əldə edilməsi hüququ olmadan bu əmlakın qısamüddətli (bir gündən bir neçə aya qədər) icarəsi; belə əməliyyatlar üzrə icarə haqqının dərəcəsi adi lizinqə nisbətən yüksəkdir; 2) xayrinq – əmlakın ortamüddətli (6 aydan 3 ilə qədər) icarəsidir ki, burada əmlak satıcının mülkiyyətində o vaxta qədər qalır ki, ona görə ödənilən məbləğin son hissəsi köçürülməsin.

İXRAC NƏZARƏTİ – ayrı-ayrı, hər şeydən əvvəl, strateji əmtəə və xidmətlərin məhdudlaşdırılması, qadağa qoyulması və ixracı üzərində nəzarət üzrə təşkilati, hüquqi və iqtisadi tədbirlər sistemi. İxrac nəzarətinin ən mühüm vasitələri ayrı-ayrı kateqoriyalardan olan əmtəələr üzrə ixrac əməliyyatlarının icazə qaydası, eləcə də əmtəənin (malın) təyinat ölkəsindən və xarakteristikasından asılı olaraq lisenziyalaşmadır. İxrac nəzarəti ölçüləri iqtisadi və siyasi təzyiq vasitələri kimi ayrı-ayrı ölkələrin və ölkələr qrupunun ixracına münasibətdə tətbiq oluna bilər.

Bir çox ölkələrdə qanunvericiliyə uyğun olaraq ayrı-ayrı əmtəələrin idxalına və ixracına qoyulan qadağalar və məhdudiyyətlər milli mənafelərdən:
– ictimai əxlaq və hüquq qaydalarına riayət edilməsi;
– insanların həyat və sağlamlığının qorunması, heyvanat və bitki aləminin, bütövlükdə ətraf mühitin mühafizəsi;
– mədəni irsin qorunması;
– mədəni dəyərlərin qanunsuz idxalından, ixracından və mülkiyyət hüquqlarının onlara verilməsindən müdafiə;
– əvəzedilməz təbii resursların tükənməsinin qarşısının alınması;
– milli təhlükəsizliyin təmin olunması;
– maliyyə vəziyyətinin müdafiəsi və tədiyyə balansının saxlanması (dəstəklənməsi);
– beynəlxalq öhdəliklərin yerinə yetirilməsi və s. irəli gəlir.

İXRAC OLUNMUŞ İNFLYASİYA – pul tədavülünə təsir göstərən beynəlxalq iqtisadi münasibətlər mexanizmi və tədiyyə qabiliyyətli tələb və qiymətlər vasitəsi ilə bir ölkədən digərinə köçürülən inflyasiya. Bir ölkəyə inflyasiya idxalı eyni zamanda digər ölkədən inflyasiya ixracı deməkdir (bax: İdxal olunmuş inflyasiya).

İXRAC SUBSİDİYASI – ixracatçıya (ixrac məhsulunun istehsalçısına) hökumət və ya digər dövlət orqanı tərəfindən göstərilən maliyyə yardımı. Ən mühüm ixrac subsidiyası formalarına aiddir:
– pul vəsaitlərinin birbaşa köçürülməsi;
– bu vəsaitlərin köçürülməsinə görə öhdəliklər;
– dövlətə çatacaq gəlirlərin alınmasından imtina;
– əmtəə və xidmətlərin güzəştli və təmənnasız verilməsi;
– əmtəələrin (malların) güzəştlə əldə edilməsi;
– qeyri-hökumət təşkilatının yuxarıda sadalanan bir və ya bir neçə funksiyanın yerinə yetirilməsi tapşırığı. Spesifik ixrac subsidiyasına elə subsidiyalar aiddir ki, onların istifadəsi müəyyən təşkilatlar və ya təşkilat qruplar tərəfindən, sahələr və ya sahələr qrupu tərəfindən məhdudlaşır, digər təşkilatlarla müqayisədə onlar üçün əsaslandırılmamış üstünlüklər yaradır, faktiki və hüquqi cəhətdən ixracın inkişafı və ya idxalın əvəz edilməsi ilə bağlıdır. Milli ixracatçıların dəstəklənməsi vasitəsi kimi müxtəlif formalarda çıxış edən ixrac subsidiyası adekvat tədbirləri, o cümlədən "kompensasiya rüsumları"nı tətbiq edən digər ölkələrin cavab reaksiyasını qarşılayır ki, bu da rəqabət şərtlərini təhrif edir və beynəlxalq ticarətdə gərginliyin kəskinləşməsini doğurur.

İxrac subsidiyasının məhdudlaşması və qadağan olunması problemləri GATT (indiki ÜTT) çərçivəsində çoxtərəfli ticarət danışıqları gedişində nəzərdən keçirilmişdir. Bu danışıqların 1993-cü ildə keçirildiyi Uruqvay raundunda digər sənədlər sırasında subsidiyalar və kompensasiya tədbirləri üzrə saziş ("Subsidiyalar üzrə məcəllə") qəbul edilmişdir. Onun məqsədi qadağan olunmuş ixrac subsidiyalarını aradan qaldıraraq dünya bazarında normal rəqabət şərtlərini yaratmaqdır. Bu şərtlərə aiddir: ixrac sifarişlərini yerinə yetirən müəssisələrə və ya sahələrə dövlət tərəfindən birbaşa subsidiyaların verilməsi; ixraca görə mükafat (əlavə); güzəştli nəqliyyat və ya fraxt (kirayə) tarifləri; icracatçılara vergi güzəştlərinin verilməsi və s.

Elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə (ETTKİ), regional inkişafa və ətraf mühitin qorunmasına münasibətdə müəssisə və təşkilatların yeni tələblərə uyğunlaşmasına ayrılan subsidiyalar beynəlxalq nəzarət altındadır. İxrac subsidiyasının tətbiq edilməsi ilə əlaqədar ölkələrin mübahisələrinin və şikayətlərinin müzakirəsi qaydaları nəzərdən keçirilir. İxrac subsidiyasının çoxtərəfli tənzimlənməsi sahəsində işləri QATT-nin sələfi olan Ümumdünya Ticarət Təşkilatı (ÜTT) yerinə yetirmək niyyətindədir.

İXRAC TARİFİ (ing. *export tariff*) – müəssisə və təşkilatlar tərəfindən konkret malların ixracının dövlət tənzimlənməsi üçün istifadə edilən vergi növü. Azərbaycan Respublikasında ixrac tarifinin tətbiq edilməsi.

Hazırda Azərbaycan Respublikasında ixrac tarifindən istifadə edilməsi Azərbaycan bazarını ixrac potensialı üçün baza olan və valyuta daxilolmalarının əsas hissəsinə zəmanət verən malların nəzarətsiz ixracından qorunmasını təmin etmək vəzifəsinə əsaslanır.

İXRAC YÖNÜMLÜ İQTİSADİ ARTIM MODELİ – inkişaf etməkdə olan ölkələrin milli iqtisadiyyatının, ilk növbədə, xarici bazarın tələbatının təmin edilməsinə yönəlmiş inkişaf strategiyası. Bu halda ixracın genişləndirilməsi milli iqtisa-

diyyatın inkişafının əsas hərəkətverici qüvvəsi hesab edilir. İxracyönümlü iqtisadi artım modelinin həyata keçirilməsində ən böyük uğurlar qazanmış Asiyanın yeni sənaye ölkələrinin təcrübəsi göstərir ki, bu strategiya yalnız dövlət tənzimlənməsi ilə bazar mexanizmlərinin optimal əlaqələndirilməsi səciyyəvi olan müəyyən makroiqtisadi şəraitdə arzu edilən nəticələri verə bilər.

Bu şərtlər aşağıdakılardır:

– idxalın əvəz edilməsinin müəyyən səviyyəsi və ölkənin müqayisəli üstünlüklərinin, milli istehsalın imkanlarının və onun rəqabət qabiliyyətinin artırılması yollarının hərtərəfli təhlili əsasında ixrac yönümlü strategiyaya keçid;

– yığım üçün müxtəlif maliyyələşdirmə mənbələrinin səmərəli səfərbər edilməsi və ölkədə əlverişli investisiya şəraitinin yaradılması;

– inflyasiya proseslərinin cilovlanması və milli valyutanın mübadilə məzənnəsinin milli ixracatçıların və istehsalçıların xeyrinə dəyişməsi;

– elmi-texniki araşdırmaların inkişaf etdirilməsi və ixtisaslı işçi qüvvəsinin hazırlanması sahəsində uzunmüddətli dövlət siyasətinin həyata keçirilməsi;

– kənd təsərrüfatının və idxalın inkişafı hesabına əhalinin ərzaqla normal təmin edilməsi;

– ölkədə sosial-siyasi sabitliyin və gəlirlərin ədalətli bölüşdürülməsinin təmin edilməsi;

– ixraca kömək, ixracatçılara subsidiyalar, vergi və digər güzəştlər təqdim edilməsi üzrə xüsusi təşkilatların yaradılması.

İXRACAT MÜKAFATI – 1. İxrac mükafatı. 2. İxrac subsidiyası. Dövlət ixracın həvəsləndirilməsi üçün ixracatçı şirkətlərə ixrac mükafatları verir.

İXRACATÇININ RİSK ZƏMANƏTİ – ixrac əməliyyatları üzrə itkilərdən sığortalanma növü, çox zaman iri banklar, eləcə də ixtisaslaşmış dövlət və ya xüsusi təşkilatlar tərəfindən verilir. Sığorta hadisəsi baş verərkən bank dəymiş zərərin örtülməsi üçün müəyyən məbləği ödəyir.

İXRAC-İDXAL BANKI – hər hansı bir ölkənin xarici ticarət bankı.

İXRACIN (İDXALIN) FİZİKİ HƏCM İNDEKSİ – keçən ilin müvafiq dövrü ilə müqayisədə hesabat dövründə ixrac (idxal) olunmuş malların fiziki həcminin nisbi orta dəyişməsini səciyyələndirir.

Fiziki həcm indeksi aşağıdakı düsturla hesablanır:

$$I_f = \frac{\sum q_1 p_0}{\sum q_0 p_0}$$

Burada: q_1 – hesabat dövründə malların miqdarı; q_0 – baza dövründə malların miqdarı; p_0 – baza dövründə əmtəə vahidinin qiymətidir.

Bu indeks hesablanarkən hesabat və baza dövrlərində ixracın və idxalın eyni qiymətlə, yəni baza qiyməti ilə qiymətləndirilməsi qiymətlərin dəyişməsinin indeksə təsirini aradan qaldırır. İdxalın (ixracın) fiziki həcm indeksi ayrı-ayrı əmtəələr, əmtəə qrupları və bütövlükdə ölkənin ixracı üzrə hesablanır.

İXRACIN DİVERSİFİKASİYASI – ixrac üçün nəzərdə tutulmuş məhsul və xidmət növlərinin və çeşidinin (adlarının) sayının artması.

İXTİRA – sənayenin və təsərrüfatın digər fəaliyyət sahələrində konkret problemin praktik həllinə imkan verən, patent qabiliyyəti şərtlərini ödəyən yeni həll cədvəldə 1-də II əsrdən XX əsrin 80-ci illərinə qədər ən mühüm ixtiraların adı verilmişdir.

İXTİSASA UYĞUN OLMAYAN MƏŞĞULLUQ – əmək bazarında əhalinin təhsilinə uyğun olmayan işi yerinə yetirən hissəsi nəzərdə tutulur. Əmək bazarının ikilik hipotezasına müvafiq olaraq, təkrar bazarda müəyyən kəmiyyətdə işçi olur ki, onlar da ya işi yerinə yetirmək üçün zəruri olan ixtisasa artıq malikdirlər, ya da adi ödəniş müqabilində onu almağa qadirdirlər.

İXTİSASLAŞDIRILMIŞ DEPOZİTOR (İD) – ixtisaslaşdırılmış depozitorun fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaya sahib olan şəxs. O, fondun pay sahiblərinin maraqlarında Fondu təşkil edən əmlakın saxlanması və şirkət rəhbərliyi ilə müqaviləyə müvafiq olaraq bu əmlaka sərəncam vermə üzrə nəzarət öhdəliklərini daşıyır.

İXTİSASLAŞDIRILMIŞ QİYMƏTLİ KAĞIZLAR PORTFELİ – riskli qiymətli kağızlar portfelinin müəyyən spesifik məqsədlər üçün yaranan bir növü.

İXTİSASLAŞDIRILMIŞ REGİSTRAT (İR) – investisiya fondu paylarının sahiblərinin reyestrinin yaradılması və aparılması üzrə fəaliyyətin həyata keçirilməsi üçün lisenziyaya malik olan hüquqi şəxs.

Cədvəl 1

Dünya tarixində ən böyük ixtiralar

Tarix	İxtiralar	İxtiraçılar
105	Kağız	Tsay Lun
1285	Linza və eynək	Salvino deli Armati
1440	Kitab çapı	İohan Qutenberq
XVI əsrin sonu	Mikroskop	Zaxariy Yansen
1609	Teleskop	Qalileo Qaliley
1694	Leybnisin kalkulyatoru	Qotfild Vilhelm Leybnis
1698	Buxar maşını	Deni Papen
1709	Pianino (fortepiano)	Bartolomeo Kristofori
1783	Paraşüt	Lui Sebastyan Lenorman
1826	Kibrit	Con Uoker
1836	Tüfəng	İohan Nikolas Dreyze
1837	Teleqraf	Samuel Finli Briz Morze
1839	Fotoqrafiya	Lui Jak Mande Daqer
16.10.1846	Anesteziya	Uilyam Tomas Qrin Morton
1851	Transformator	Henrix Daniel Rumkorf
16.07.1867	Dəmir-beton	Jozef Monye
1874	Soyuducu	Karl fon Linde
07.03.1876	Telefon	Aleksandr Qrehem Bell
29.01.1886	Avtomobil	Qottlib Daymler və Karl Bents
1895	Rentgen	Vilhelm Konrad Rentgen
30.08.1901	Tozsoran	Hyubert Sesil But
17.11.1903	Təyyarə	Uilber Rayt və Orvill Rayt
1942	Penisillin	Aleksandr Fleminq, Houard Flori və Ernst Çeyn
1976	Kompüter	Stiven Cobs və Stefan Voznyak

İXTİSASLAŞMIŞ BANK – ayrı-ayrı əməliyyatları yerinə yetirən və ya müəyyən müştərilərə (investisiya, əmanət, ticarət, kənd təsərrüfatı, xarici ticarət, ipoteka və s.) xidmət göstərən bank.

İKİSEKTORLU İQTİSADİYYAT KONSEPSİYASI – keçid iqtisadiyyatının modeli. Burada iki (müstəqil), paralel inkişaf edən sektorlar: dövlət və xüsusi bölmələr mövcuddur. Dövlət bölməsi resursların mərkəzləşdirilmiş bölgüsünə və plan-bölgü sisteminə xas olan inzibati-amirlik idarəetmə metodlarından istifadə edilməsinə əsaslanır. Xüsusi sahibkarlıq, bazar sektoru resursların qeyri-mərkəzləşdirilmiş bölgüsü və idarəetməsi rəqabət bazar prinsipləri əsasında fəaliyyət göstərir. İkisektorlu modeldə müasir qarışıq iqtisadiyyatın formalaşması yolunda duran keçid iqtisadiyyatlarına xas olan təsərrüfat əlaqələri və mürəkkəb real proseslər sadələşdirilmişdir. İkisektorlu iqtisadiyyat konsepsiyası həm yekcins olmayan dövlət strukturunu, həm də qarışıq təsərrüfatçılıq formalarını və tiplərini ehtiva edən qeyri-dövlət sektorunu dəf etməyə qadir deyil. O, iki sektorun qarşılıqlı fəaliyyətini, zəruriliyini, onların bir-birinə qarşılıqlı nüfuz etməsini və qarşılıqlı təsirini, onlar arasında çoxcəhətli əlaqələri nəzərə almır. Sektorlar arasındakı hədlərdə yaranan aralıq zonalar model çərçivəsindən kənarda qalır. Müxtəlif dövlət, korporasiya və bazar iqtisadi tənzimlənmə formalarının qarşılıqlı fəaliyyəti də əksini tapmır.

Real təsərrüfatda dövlət sektoru korporativ və bazar tənzimlənməsinin təsirini sınaqdan keçirir. Xüsusi bölmə isə bazar subyektləri üçün müəyyən "oyun qaydaları"nı müəyyən edən dövlət tərəfindən tənzimlənir.

Xalis formada iki sektorun iqtisadiyyatı modeli bazar iqtisadiyyatına keçid zamanı heç bir ölkədə istifadə edilməmişdir. Qismən onun elementləri 1970-ci illərin sonunda, iqtisadi islahatların başlanğıc dövründə Çin Xalq Respublikasında olmuşdur. Bu zaman kəndli təsərrüfatlarının fəaliyyət göstərməsinə dövlət müdaxiləsindən tam imtina edilərkən dövlətin qeyri-dövlət kənd təsərrüfatı sektoru üzərində sərt nəzarəti qorunub saxlanıldı. Kənd təsərrüfatında əmək məhsuldarlığının görünməyən artımı nəticəsində bu cür "ikili sektor yanaşması" Çinin sürətli iqtisadi yüksəlişinə təkan vermişdi.

İKİDOLLARLIQ BROKER – fond birjasında təlimatları başqa brokerlərin əvəzinə yerinə yetirən birja üzvü. Belə broker xidmətindən bazar çox fəal olduqda və ya açılış vaxtı dünəndən yığılıb qalmış çoxsaylı təlimatların yerinə yetirilməsi gərginlik yaratdıqda daha vacib təlimatların yerinə yetirilməsi ilə məşğul olan brokerlər və ya əməliyyat zalında işləyən birja üzvləri arasında tərəfdaşları olmayan firmalar istifadə edirlər. Bu xidmət növü göstərilərkən brokerin hər yüz səhm üçün aldığı komisyon haqqı 2 dollar olur.

İKİQAT AUKSİON – hərraclaların keçirilməsinin bu formasında eyni vaxtda həm satıcılar, həm də alıcılar rəqabət aparır, malların qiyməti isə tələb və təklifin formalaşmış tarazlığı səviyyəsində müəyyən edilir.

İKİQAT OPSİON (ing. *option to double*) – alıcının satışı və ya alışı bazis qiyməti üzrə (bu əməliyyatlar eyni vaxtda həyata keçirilməmək şərti ilə) opsion hüququ. Bu opsion yalnız Avropa birjalarında bazar konyunkturası hədsiz qeyri-sabit olduğu şəraitdə, yəni qiymətlərin hərəkət istiqamətini təyin etməkdə çətinliklər yaranan hallarda tətbiq edilir.

İKİQAT ÖDƏNİŞLƏR – ölüm zamanı və ya tədiyə müddəti gələnə qədər ödənilən məbləğdən iki dəfə çox olan sığorta mükafatının ödəniş vaxtı başlanana qədər həyat sığortası üzrə ödənilən məbləğ.

İKİQAT SIĞORTA – iki və ya daha çox sığortaçılardan eyni riskin, eyni zamanda, bir və ya bir neçə obyektin sığortası. Sığorta hadisəsinin baş verməsi zamanı sığorta ödənişinin məbləği belə ikiqat sığorta müqavilələrindən hər biri üzrə proporsional azalmaya (ilkin sığorta məbləğinə nisbətən) məruz qalır. Bu, sığorta prinsipi ilə əlaqədardır və buna görə də sığorta ödənişi real sığorta marağından üstün ola bilər. Müxtəlif risklərdən (kortəbii hadisələrdən və digər şəxslər tərəfindən qəsdən məhv edilmədən) eyni obyektin əmlak sığortası istina təşkil edir ki, bu da bir və ya bir neçə müqavilə üzrə, o cümlədən müxtəlif sığortaçılarla mümkündür. Ümumi sığorta məbləği bu halda yalnız müxtəlif sığorta hadisələrinin az ehtimal olunan eyni vaxtda baş verməsi zamanı sığorta dəyərini üstələyə bilər.

Əgər eyni sığorta obyekti bir neçə sığortaçı tərəfindən eyni müqavilə üzrə sığortalanmışdırsa (məsələn, əmlak kompleksinin böyük dəyəri zamanı), sığortaçılar sığorta ödənişi ödənilməsi haqqında birgə məsuliyyət daşıyırlar. Bir neçə sığortaçının iştirakı təkrar sığorta və ya birgə sığorta formasında mümkündür.

İKİQAT VERGİTUTMA – eyni vergi bazasından eyni vergilərin (və ya məzmunca bir-birinə yaxın vergilərin) ikiqat tutulması. İkiqat vergitutmanın iki halı daha aktualdır. Dividendlərdən vergitutma əksər ölkələrin vergi sistemlərinin ən aşkar və geniş müzakirə edilən nöqsanlarından biridir. Dividendlərdən birinci dəfə səhmdar cəmiyyətinin ümumi mənfəətinin tərkibində, ikinci dəfə isə səhmdarın şəxsi gəlirinin bir hissəsi kimi vergi tutulur. Hazırda dividendlərdən ikiqat vergitutma problemi heç bir ölkədə həll edilməmişdir.

Müəssisələrin əcnəbi iştirakçılarının mənfəətindən də iki dəfə vergi tutula bilər: birinci dəfə müəssisənin qeydiyyata alındığı ölkədə, ikinci dəfə isə əcnəbi iştirakçının ölkəsində. Əcnəbi iştirakçıların mənfəətindən ikiqat vergi tutulmamasına ya bir ölkədə ödənilmiş vergilərin başqa ölkədə hesaba alınması, ya da bir ölkənin vergi mənbəyinin başqa ölkədə vergitutmadan azad edilməsi yolu ilə almaq olar.

Azərbaycan Respublikası ikiqat vergitutmanın aradan qaldırılması məqsədilə Serbiya,

Küveyt, İran, Yunanıstan, Niderland, İordaniya, Koreya, Macarıstan, Bolqarıstan, Estoniya, Tacikistan, Qətər, İsveçrə, Birləşmiş Ərəb Əmirlikləri, Lüksemburq, Finlandiya, Latviya, Çexiya, Kanada, Çin, Almaniya, İtaliya, Belçika, Litva, Rumıniya, Fransa ilə müvafiq konvensiyalara imza atmışdır.

İKİLİ MƏŞĞULLUQ – şəxsin eyni vaxtda birdən çox yerdə işlədiyi və yeganə gəlir mənbəyindən asılı olmadığı vəziyyət. Belə hal az inkişaf etmiş ölkələrdə, xüsusən də, iqtisadiyyatın qeyri-rəsmi sektorunda üstünlük təşkil edir.

İKİNCİ BAZAR – 1. Vasitəçilərin iştirakı olmadan bazar. Burada qiymətli kağızlar üzrə alqı-satqı əməliyyatları əvvəldən kreditor və borclu olmayan şəxslər arasında baş verir. Bu satışdan əldə olunan vəsait onu buraxan təşkilata deyil, kağız saxlayana (investora) daxil olur. Banklar və ixtisaslaşmış firmalar tərəfindən dəstəklənir. 2. Əmtəə sazişlər zamanı ilkin satıcı tərəfindən deyil, vasitəçinin köməyilə satış və ya təkrar satış.

İKİNCİ DƏRƏCƏLİ SƏNƏD – ilkin sənəddə olan informasiyanın analitik-statistik və məntiqi metodlarla işlənməsi nəticəsində alınan sənəd.

İkinci dərəcəli sənədlərə aşağıdakılar aiddir:

– mühasibat uçotu siyahıları, jurnalları və orderləri;
– icmal uçot registrləri;
– kassa kitabı;
– alqı-satqının uçot kitabı;
– müəyyən dövr ərzində təşkilatın fəaliyyətinin təhlili zamanı.

Cədvəl 1

Azərbaycan Respublikasının ikiqat vergitutmanın aradan qaldırılması haqqında ikitərəfli müqavilələrinə dair məlumat

№	Dövlətlər	İmzalanma tarixi	Tətbiq edilmə tarixi
1	Almaniya	25.08.2004	01.01.2006
2	Avstriya	04.07.2000	01.01.2002
3	Belarus	08.08.2001	01.01.2003
4	Belçika	18.05.2004	01.01.2007
5	BƏƏ	20.11.2006	01.01.2008
6	Böyük Britaniya	23.02.1994	18.10.1991
7	Bolqarıstan	12.11.2007	01.01.2009
8	Çexiya	24.11.2005	01.01.2007
9	Çin	17.03.2005	01.01.2006
10	Estoniya	30.10.2007	01.01.2009
11	Finlandiya	29.09.2005	01.01.2007
12	Fransa	20.12.2001	01.01.2006
13	Gürcüstan	18.02.1997	01.01.1998
14	İordaniya	05.05.2008	
15	İran	10.03.2009	01.01.2011
16	İsveçrə	23.02.2006	01.01.2008
17	İtaliya	21.07.2004	01.01.2011
18	Kanada	07.09.2004	01.01.2007
19	Koreya	19.05.2008	01.01.2009
20	Küveyt	10.02.2009	
21	Latviya	03.10.2005	01.01.2007
22	Litva	02.04.2004	01.01.2005
23	Lüksemburq	16.06.2006	01.01.2010
24	Macarıstan	18.02.2008	01.01.2009
25	Moldova	27.11.1997	01.01.2000
26	Niderland	22.09.2008	01.01.2010
27	Norveç	24.04.1996	01.01.1997
28	Özbəkistan	27.05.1996	01.01.1997
29	Pakistan	10.04.1996	
30	Polşa	26.08.1997	01.01.2006
31	Qətər	28.08.2007	01.01.2009
32	Qazaxıstan	16.09.1996	01.01.1998
33	Rumıniya	29.10.2002	01.01.2005
34	Rusiya	03.07.1997	01.01.1999
35	Serbiya	13.05.2010	01.01.2011
36	Tacikistan	13.08.2007	01.01.2009
37	Türkiyə	09.02.1994	01.01.1998
38	Ukrayna	30.07.1999	01.01.2001
39	Yaponiya	30.05.2005	28.12.1991
40	Yunanıstan	16.02.2009	01.01.2011
41	Sloveniya	10.06.2009	

nı alınan analitik hesabat cədvəlləri;
1) vergi orqanlarının aylıq, rüblük, illik və ya sahə üzrə ümumi məlumatları;
2) statistika orqanlarında icmal məlumatları və s.
İkinci dərəcəli sənədlər ilkin sənədlərdəki məlumatların sonradan işlənməsini sadələşdirmək məqsədilə tərtib edilir.

"İKİNCİ EŞELON" SƏHMİ – bir sıra ölkələrin fond bazarında müəssisələrin kifayət qədər məşhur səhmlərini belə adlandırırlar. Onlar pula çevrilmə qabiliyyətinə görə "mavi daşlar" (əldə etdikləri gəlirlər və ödənilən dividendlərin sabit göstəriciləri ilə daha iri və etibarlı şirkətlərin səhmləri) statusuna çata bilmirlər. Bəzən bu səhmlərlə sövdələşmələr hər gün aparılmır. Belə şirkətlərin bazar dəyəri 500 mln. dollara qədər təşkil edir.

İKİNCİ İPOTEKA – artıq girov qoyulmuş mülkiyyətə görə kredit.

İKİNCİ RİSK KOVERİ – təqdim olunan örtülmə eyni vaxtda olan itkilərə (zərərlərə) həm riskə görə, həm də hadisəyə görə şamil edilən zaman, həmçinin, kumulyasiyanın qarşısının alınmasının real imkanı olmayan zaman mövcud və fəlakət koverlərinin əlaqələndirilməsi.

İKİTƏRƏFLİ KONOSAMENT – beynəlxalq gəmiçilikdə yüklərin daşınması prosesində daşıyıcı ilə yük sahibinin qarşılıqlı münasibətlərini müəyyən edən sənəd. Bu konosamentə görə yük təyinat limanına daşınmaq üçün aralıq limanda başqa gəmiyə yenidən yüklənməklə qəbul edilir. Yük üçün məsuliyyəti yükdaşıyan daşıyır.

İKİTƏRƏFLİ MÜQAVİLƏ – iki fiziki və ya hüquqi şəxs arasında bağlanan müqavilə.
Müqavilənin bu tipindən dünya praktikasında çox tez-tez istifadə edilir. Əqdlərin əksəriyyəti məhz ikitərəfli müqavilə şəklində tərtib edilir.
İkitərəfli müqaviləyə nümunə olaraq malların alqı-satqı əqdini göstərmək olar. Bu halda tərəflərdən biri malı satmağı, digər tərəf isə həmin malı müqavilədə göstərilən şərtlər daxilində almağı öhdəyə götürür.

İKİVALYUTALI İSTİQRAZ – kuponu bir valyuta ilə, lakin əvəzi müəyyən olunmuş məbləğdə digər valyuta, çox vaxt dollar ilə ödənilən istiqraz. İkivalyutalı istiqrazlar alış valyutası ilə əməliyyat aparan borc götürənlər üçün sərfəli hesab edilir. Belə ki, onlar uzunmüddətli məzənnə riski ilə qarşılaşmayacaqlar. Digər borc götürənlər üçün isə alternativ variant kimi təminatlı məzənnədən istifadə edilə bilər.

İQNORANSİYA (lat. *ignorantia*) – geniş mənada: diletantlıq, bilməzlik, bixəbərlik, ciddi maliyyə itkilərinə, biznesin iflasına gətirib çıxaran nadanlıq deməkdir.

İQTİSADÇI KADR HAZIRLIĞI – Azərbaycanda ali təhsilli iqtisadçı kadrların hazırlanması işinə başlanılması ötən əsrin ilk onilliklərinə təsadüf edir. Belə ki, 1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin təsis etdiyi Politexnik İnstitutunun 5 fakültəsindən birində iqtisadçı mütəxəssislər hazırlanırdı. 1922-ci ildə Azərbaycan Dövlət Universitetinin "İctimai elmlər" fakültəsində iqtisad bölməsi açılmış və burada 1930-cu ilə qədər iqtisadçı kadrlar hazırlanmışdır. Azərbaycan Xalq Komissarları Sovetinin həmin ilin iyun ayında verdiyi qərara əsasən, Azərbaycan Dövlət Universitetinin iqtisad bölməsinin bazasında hazırkı Azərbaycan Dövlət İqtisad Universitetinin sələfi olan müstəqil Azərbaycan Ticarət-Kooperasiya İnstitutu yaradıldı. Bu ali təhsil müəssisəsi 1933-cü ildən Azərbaycan Sosial İqtisad İnstitutu, 1936-cı ildən isə Karl Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu kimi fəaliyyət göstərmişdir. İkinci Dünya müharibəsi illərində institut Azərbaycan Dövlət Universitetinin tərkibində olmuş, müharibə qurtardıqdan sonra müstəqil fəaliyyətini davam etdirmişdir. 1959-cu ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə institutunun fəaliyyəti növbəti dəfə dayandırılmış və aparıcı iqtisadyönümlü ixtisaslar Azərbaycan Dövlət Universitetində cəmləşdirilmişdir. İnstitut 1966-cı ildə bərpa edilərək, D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu kimi fəaliyyət göstərmiş, 1987-ci ildən isə N.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialına çevrilmişdir. 1990-cı ilin iyun ayında SSRİ Nazirlər Sovetinin qərarı ilə Azərbaycan Dövlət İqtisad İnstitutu yenidən fəaliyyətə başlamışdır. 2000-ci il iyunun 13-də Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi məqsədilə ümummilli liderimiz Heydər Əliyevin fərmanı

ilə Azərbaycan Dövlət İqtisad İnstitutu və Bakı Əmtəəşünaslıq-Kommersiya İnstitutunun bazasında **Azərbaycan Dövlət İqtisad Universiteti** – ADİU yaradılmışdır. Tarixi baxımdan ADİU-nun yaranış tarixi 1930-cu il iyunun 19-dan hesablanır.
ADİU bu gün respublikamızın güclü elmi-texniki və kadr potensialına malik ali məktəbi, nüfuzuna və profilinə görə isə Qafqaz regionunun ən böyük universitetlərindən biridir. Bu ali təhsil ocağında 11 fakültədə 57 ixtisas üzrə 18 mindən artıq tələbə, 500-dən çox doktorant və dissertant təhsil alır. Universitetdə 41 kafedra fəaliyyət göstərir, 1800-dən çox professor-müəllim, tədris-işçi heyəti, o cümlədən 120 professor, 600 dosent çalışır.
ADİU Rusiya Federasiyasının Dərbənd şəhərində 500-dən artıq tələbənin təhsil aldığı filiala malikdir. ADİU-da dünyanın 12 ölkəsindən olan 850-dən çox tələbə və magistrantlar təhsil alır. Tədris dili Azərbaycan, türk, rus, ingilis dilləridir.
ADİU Avropa Universitetləri Assosiasiyasının, Islam Olkələrinin Universitetləri Federasiyasının, Avrasiya Ölkələrinin Universitetləri Assosiasiyasının, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Ölkələrinin Universitetləri Şurasının, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) Virtual İnstitutunun üzvüdür. Burada Dünya Bankının İctimai İnformasiya Mərkəzi, Ümumdünya Ticarət Təşkilatının İstinad Mərkəzi fəaliyyət göstərir, Moskva Dövlət İqtisadiyyat, Statistika və İnformatika Universiteti ilə birgə MBA (Master Business Administration) – magistr hazırlığı proqramı, Monpelye (Fransa) Universiteti ilə TEMPUS, Maastrixt Universitetinin iqtisad məktəbi ilə TAİS, İndiana (ABŞ) Universiteti ilə Cənubi Qafqazda yeganə olan distant təhsil mərkəzi layihələri reallaşdırılır. ADİU-da həçminin İstanbul Universitetinin tədris proqramı ilə işləyən "Türk Dünyası işlətmə" fakültəsi, Harvard Universitetinin tədris proqramına uyğun xüsusi istedadlar qrupu fəaliyyət göstərir və Hyuston Universiteti ilə tələbə mübadiləsi üzrə layihə reallaşdırılır.
Hazırda universitetin elm və təhsil potensialı daha da möhkəmlənir, maddi-texniki bazası genişlənir, iqtisadi gücü artır. Bütün bunlar əsas strateji hədəfə çatmağa – ADİU-nu elmi-innovasiya mərkəzinə çevirməyə xidmət edir.
Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni ixtisasların (beynəlxalq iqtisadi münasibətlər, bir neçə il sonra marketinq, iqtisadiyyatın hüquqi tənzimlənməsi, kommersiya və s.) tədris olunmasına başlanması, müvafiq kafedraların yaradılması, eyni zamanda, bəzi kafedraların informasiya texnologiyaları ilə tam şəkildə təchizi son nəticədə



Azərbaycan Dövlət İqtisad Universiteti



ali məktəbin Avropa standartlarına çatdırılmasına xidmət edirdi. Məhz buna görə, son 10 ildə Azərbaycan Dövlət İqtisad Universiteti bütün parametrləri ilə respublikanın aparıcı ali məktəblərindən birinə çevrilmişdir. Universitet Azərbaycanda iqtisadiyyatın əksər sahələri üçün ali təhsilin bütün pillələri (bakalavriat, magistratura və doktrantura) üzrə mütəxəssislər hazırlanmasını həyata keçirən yeganə dövlət ali təhsil müəssisəsidir. İqtisad Universiteti Avropa təhsil məkanına uğurla inteqrasiya olunur, Boloniya təhsil sisteminə keçid demək olar ki, başa çatdırılmış, müasir tədris metodları və texnologiyalarının tətbiqinə əsaslanan keyfiyyətli və şəffaf təhsil mühiti təmin olunmuş, çevik idarəetmə sistemi, müasir tələblərə cavab verən maddi-texniki baza və təhsil infrastrukturu yaradılmışdır.



"Beynəlxalq iqtisadi münasibətlər" kafedrası

80 ildən artıq bir dövr ərzində universitet 120 mindən artıq iqtisadçı, menecer, mühəndis-texnoloq və digər mütəxəssislər hazırlamışdır. Respublikamızın bütün regionlarında, MDB ölkələrində, dünyanın bir çox yerlərində universitetin məzunları dövlət strukturlarında, müxtəlif özəl qurumlarda məsul vəzifələrdə çalışırlar.

Dünyanın 30-dan çox ölkəsinin vətəndaşları müxtəlif illərdə İqtisad Universitetində iqtisadçı, alim və pedaqoq kimi yetişmək imkanı əldə etmişlər. Universitetdə tədris almış xarici məzunlar bir sıra ölkələrdə (Türkiyə, İran, Yaxın Şərq ölkələri, Rusiya, Türkmənistan, Qazaxıstan, Nigeriya, Monqolustan, Kuba, Yəmən, Konqo, Vyetnam, Laos və s.) uğurlu əmək fəaliyyəti ilə məşğul olmaqdadırlar.

ADİU-nun əsas inzibatı-tədris korpusu milyonçu mesenat Ağa Musa Nağıyevin ötən əsrin əvvəllərində inşa etdirdiyi arxitektur binada yerləşir. Əsaslı təmir nəticəsində binanın sahəsi genişləndirilmişdir. Şəhərin ənənəvi arxitekturasına uyğun olaraq binanın dam hissəsində günbəzlər quraşdırılmış, fasadda qoşa qübbə qoyulmuş, eksteryerdəki ornamentlər şəbəkəsində bərpa işləri aparılaraq bina bütünlüklə gecə işıqlandırma sistemi ilə təchiz edilmişdir. Bütün bu genişlənmənin ümumi sahəsi 5000 kv.m-dən çoxdur. Bu da binadan texniki və tədris rasionallığı baxımından müasir universitet ehtiyacları üçün daha optimal istifadə imkanları yaradır.

Hazırda universitetin bütün bölmələrində təhsil prosesində multimedia texnologiyalarından, internet resurslarından geniş istifadə olunur. Universitetdə əsas ümumtəhsil və xüsusi fənlər üzrə elektron dərsliklər hazırlanmışdır və bu istiqamətdə işlər sürətlə davam etdirilir. Tədris planı köklü dəyişikliklərə məruz qalmışdır. Burada Azərbaycan reallıqlarına adaptasiya oluna bilən təhsil prosesinin dünya nailiyyətləri genişliklə əksini tapıb.

Təhsil işi ilə yanaşı, universitetin elmi potensialının artırılması istiqamətində də mühüm işlər görülür. 2008-ci ildə universitetdə əlahiddə statuslu "İqtisadi araşdırmalar" Elmi-Tədqiqat İnstitutu təsis edilmişdir. İnstitutun əsas fəaliyyət istiqamətini elmin, ali təhsilin, iqtisadiyyatın birliyi kontekstində tədqiqatlar aparmaq təşkil edir. Burada konsaltinq və audit xidmətləri, milli və qlobal iqtisadi inkişafın proqnozlaşdırılması, funksional, sahəvi və regional, o cümlədən bələdiyyələrin sosial iqtisadi inkişaf konsepsiya və proqramlarının hazırlanması həyata keçirilir. Bununla belə qeyd olunmalıdır ki, beynəlxalq səviyyədə təhsili hədəf seçən ADİU, elmi tədqiqat işləri və istinadların sayına görə respublikada ən öndə gedən ali təhsil qurumlarından biri hesab olunur. Univesitet həm də öz alimlərinin timsalında son bir neçə il ərzində beynəlxalq sitatgötürmə və indeksləşmə sistemlərində ən çox impakt-faktor əldə etmiş təhsil ocaqları sırasındadır.

Respublikda ali təhsilli iqtisadçı kadrların hazırlanmasıda **Bakı Dövlət Universiteti** – BDU-nun xüsusi yeri vardır. Azərbaycanın ilk ali təhsil ocağı olan bu universitet həm də Azərbaycan Dövlət İqtisad Universitetinin sələfi hesab olunur. Ona görə də, universitet respublikanın iqtisadçılar ordusunun tədris beşiyi kimi qəbul edilir. Özünün ixtisaslı kadr hazırlığı ilə fərqlənən universtetdə respublikada ilk dəfə siyasi iqtisad elmi üzrə alimlər yetişdirilmişdir. Ölkəmizdə siyasi iqtisad elminin yaradıcısı Həsən Dadaşov olmuşdur. 1925-ci ildən Azərbaycan SSR ali məktəblərində siyasi iqtisadın əsasını qoyan və onu tədris edən ilk azərbaycanlı alim H.Dadaşov sonrakı 40 illik həyatını bu işə həsr etməklə respublikada siyasi iqtisad üzrə elmi və pedaqoji kadrların hazırlanmasında müstəsna xidmətlər göstərmişdir. O, ilk dəfə olaraq 1945-ci ildə universitetdə siyasi iqtisad qrupunu təşkil et-



Bakı Dövlət Universiteti

mişdir. 1951-ci ildən Azərbaycan nəzəri iqtisad elmini ləyaqətlə təmsil edən siyasi iqtisad qrupunun ilk məzunlarına Polad Rufullayev, Sabir İbadov, İnqilab Əlibəyov, Hüseyn Hüseynov, Müzəffər İmanov, Tərlan İsmayılova, Çingiz Həsənov, Fəsli Əmikişiyev, Rasim Qarayev, Fazil Hüseynov, Tofiq Quliyev, Ağabala Qasımov, Adil Qasımov, Yavər Mirzəyev, Hacışirin Zeynalov, Ərəstun Axundov və başqalarını aid etmək olar. 1963-cü ildən etibarən isə H.Dadaşovun ciddi cəhdləri ilə BDU-da ayrıca siyasi iqtisad qrupu açılmışdır. Universitetin məzunları orta ixtisas məktəblərində, ali məktəblərdə siyasi iqtisad elmini yüksək səviyyədə tədris etməklə bərabər, elmi-tədqiqat institutlarında, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda nəzəri iqtisad sahəsində sanballı elmi-tədqiqat işləri ərsəyə gətirmişlər.

1970-ci ildən Azərbaycan Dövlət Universitetinin "Siyasi iqtisad" kafedrasına iqtisadi təlimlər tarixi üzrə İttifaq və respublika səviyyəsində tanınmış və dövrünün görkəmli iqtisadçı alimlərdən biri hesab edilən Y.M.Məmmədov rəhbərlik etmişdir. Onun ümumi redaktorluğu ilə 1976-cı ildə "İqtisadi təlimlər tarixi" (II hissə) dərsliyi çap olunmuşdur. Y.M.Məmmədov Moskvada çap olunan "Ümumdünya fikir tarixi" adlı altıcildlik fundamental toplunun müəlliflərindən biri və redaksiya heyətinin üzvü kimi də fəaliyyət göstərmişdir.

1973-cü ildə Azərbaycan Dövlət Universitetinin siyasi iqtisad kafedrasına Azərbaycan EA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor T.S.Vəliyev rəhbərlik etmişdir. Həmin dövrdə kafedrada 23 müəllim, o cümlədən bir elmlər doktoru, professor, 17 elmlər namizədi, dosent çalışmışdır. T.S.Vəliyevin rəhbərliyi dövründə "Siyasi iqtisad" kafedrası respublikada iqtisadiyyat elmi üzrə istinad kafedrası kimi tanınmışdır. Burada 1976-cı ildən başlayaraq siyasi iqtisadın müxtəlif problemlərinə dair ümumi Bakı seminarı daim fəaliyyət göstərmişdir. Seminarda tanınmış milli iqtisadçı alimlərlə yanaşı, kənar ali məktəblərin tanınmış elm adamları da dəvət olunaraq məruzələrlə çıxış etmişlər. Kafedrada 1990-cı illərə qədər "Siyasi iqtisad" elmi üzrə ixtisaslaşdırılmış Dissertasiya Şurası fəaliyyət göstərmişdir.



BDU-nun "İqtisadiyyat və idarəetmə" kafedrasında elmi müzakirə

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də müstəqillik əldə etdikdən sonra respublikamızda təhsil sahəsində də müəyyən dəyişikliklər baş verdi. Qeyd olunmalıdır ki, Azərbaycanda nəzəri iqtisadın tədrisində T.S.Vəliyevin ümumi redaktorluğu ilə hazırlanan iqtisadi nəzəriyyəyə dair iki dərslik (*ADİU və BDU*-da hazırlanan dərsliklər), həmçinin N.Məmmədovla birlikdə yazdığı orta məktəblərin IX-XI sinifləri üçün *"İqtisadiyyatın əsasları"* (*1997*) dərsliyi iqtisadi elmi dünyagörüşü funksiyasını müvəffəqiyyətlə yerinə yetirməkdədir.

1993-cü ildən "İqtisadi nəzəriyyə" kafedrasına prof. A.A.Qasımov rəhbərlik etmişdir. 1997-ci ildə dos. S.A.İbadovun elmi redaktorluğu ilə kafedranın bir sıra əməkdaşları tərəfindən yazılmış "İqtisadi nəzəriyyə" adlı dərs vəsaiti (II hissə). 1998-ci ildə isə "Azərbaycan iqtisadiyyatı" dərsliyi nəşr olunmuşdur.

1999-cu ildə BDU-da "Beynəlxalq iqtisadi əlaqələr və idarəetmə" kafedrası yaradılmışdır. 2006-cı ildə "Beynəlxalq iqtisadi əlaqələr və idarəetmə" kafedrasının bazası əsasında 2 yeni kafedra "Beynəlxalq iqtisadi münasibətlər" və "Gömrük işinin təşkili və idarəetmə" kafedraları fəaliyyətə başlamışdır. 2008-ci ildən Nazirlər Kabinetinin bakalavr pilləsi üzrə ixtisasların yeni təsnifatına görə universitetdə yeni "Dünya iqtisadiyyatı" və "İqtisadiyyat" ixtisasları üzrə kadr hazırlığına başlanılmışdır. Bunun məntiqi ardıcıllığı kimi "Beynəlxalq iqtisadi münasibətlər", "Gömrük işinin təşkili və idarəetmə", "Ümumi iqtisadiyyat" və "İqtisadi nəzəriyyə" kafedralarının bazasında 2011-ci ildə "İqtisadiyyat və idarəetmə", "Dünya iqtisadiyyatı" və "Riyazi iqtisadiyyat" kafedraları yaradılmışdır. Hazırda həmin kafedralara prof. A.M.Məhərrəmov, prof. H.B.Rüstəmbəyov və prof. E.Q.Orucov rəhbərlik edirlər.

Tarixən Azərbaycan iqtisadiyyatının mühüm hissəsini kənd təsərrüfatı təşkil etdiyindən bu sferada iqtisadçı kadrların hazırlanmasına xüsusi diqqət yetirilmişdir. Bu sahədə əsas elmi mərkəz kimi isə **Azərbaycan Dövlət Aqrar Universiteti** – ADAU çıxış edir. ADAU-nun iqtisadçı məzunları dövlət ali idarəetmə orqanlarında, ali təhsil müəssisələrində, elmi-tədqiqat institutlarında, müxtəlif şirkətlərdə, banklarda, maliyyə və vergi idarələrində, aqrotexservis müəssisələrində, elektrik təchizatı idarələrində və digər xidmət sahələrində çalışırlar. Universitetdə yaradılan tələbə karyera mərkəzi məzunların işlə təminatına dair problemlərin həlli məqsədilə məzun yarmarkaları keçirir.

Aqrar iqtisadiyyat fakültəsinin Azərbaycan Dövlət Aqrar Universitetinin həyatında, onun təhsil sistemində xüsusi yeri var. 1959-cu ildə yaradılmış iqtisadiyyat fakültəsi böyük bir inkişaf yolu keçmişdir. İlkin fəaliyyəti isə hələ aqronomluq fakültəsinin tərkibində kənd təsərrüfatının iqtisadiyyatı şöbəsinin açıldığı gündən başlanır. Lakin maddi-texniki bazası və kadr potensialı zəif olduğuna görə 1937-ci ildə həmin şöbə fəaliyyətini dayandırmalı olmuş və bu istiqamətdə mütəxəssis hazırlığı Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna həvalə edilmişdir.

İkinci Dünya müharibəsindən sonra respublikada kənd təsərrüfatının inkişafı, onun intensivləşdirilməsi, ixtisaslaşdırılması və kəndin sosial strukturunun yenidən qurulması bu sahədə aqrar iqtisadçı kadrlara ehtiyacı ön plana çəkirdi. Ona görə də 1959-cu ildə kənd təsərrüfatının iqtisadiyyatı fakültəsi Xalq Təsərrüfatı İnstitutundan Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tərkibinə köçürülmüşdür. Beləliklə, həmin dövrdən etibarən aqrar bölmə üçün tamamilə yeni keyfiyyətdə iqtisadçı kadrların hazırlanması işinin əsası qoyuldu.

Fakültənin 6 kafedrasında 83 nəfər professor-müəllim, 30 nəfər texniki işçi çalışır. Bunların əksəriyyəti fakültənin məzunlarıdır. Onların qazandıqları elmi nailiyyətlər respublikamızın və eləcə də dünyanın bir sıra nüfuzlu elm ocaqları, habelə ayrı-ayrı beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilmişdir. Fakültənin əməkdaşları beynəlxalq əlaqələri daim genişləndirir, elmi nəticələrin dünya elminə inteqrasiya olunmasına çalışır, bir sıra nüfuzlu elm mərkəzlərində, universitetlərdə mühazirələr oxuyur.

Hazırda əyani şöbədə 984 nəfərdən artıq, qiyabi şöbədə isə 300 tələbə bakalavr dərəcəsi almaq üçün, 36 nəfər gənc isə magistr pilləsində təhsil alır. Əvvəllər fakültədə yalnız kənd təsərrüfatının iqtisadiyyatı və təşkili ixtisası üzrə mütəxəssis hazırlanırdı. 1965-ci ildə mühasibat uçotu, sonralar isə menecment, marketinq, informasiya sistemləri və gömrük ekspertizası ixtisasları açıldı, hazırda isə aqrar biznesin idarə edilməsi, dünya iqtisadiyyatı və maliyyə ixtisasları üzrə mütəxəssislər hazırlanır. Fakültədə 8 nəfər aspirant, onlardan 5-i əyani, 3-ü isə qiyabi təhsil alır. İxtisasların çoxalması ilə bərabər kadrların keyfiyyətinin və onların ideya-siyasi tərbiyəsinin yüksəldilməsi kollektivin ümdə vəzifələrindən sayılır. Bu məqsədlə fakültədə tələbələrin özünü idarəetmə formasına, müzakirə, disput və dialoqların çoxalmasına, plüralizmin inkişaf etdirilməsinə xüsusi üstünlük verilir. Müstəqillik elan ediləndən sonra xalqımız öz iradəsinə uyğun ictimai-iqtisadi cəmiyyət qurur. Bazar münasibətləri, aq-



Azərbaycan Dövlət Aqrar Universiteti

audit; menecment (bu ixtisas üzrə alman proqram üzrə də mütəxəssis hazırlanır); marketinq; gömrük ekspertizası; iqtisadiyyat; menecment (ekoloji kənd təsərrüfatı); maliyyə.

Magistr elmi dərəcəsi üzrə mütəxəssis hazırlığı aşağıdakı istiqamətlərdə aparılır: istehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi; mühasibat uçotu və audit; marketinq; gömrük işinin təşkili; gömrük ekspertizası.

Fakültənin professor-müəllim heyəti 83 nəfərdən ibarətdir. Onlardan elmlər doktoru, professor 2 nəfər; elmlər namizədi, professor 1 nəfər; elmlər namizədi, dosent 32 nəfər; elmlər namizədi, baş müəllim 3 nəfər; baş müəllim 39 nəfər; assistent 9 nəfərdir.



Azərbaycan Dövlət Aqrar Universitetində İxtisaslaşdırılmış Dissertasiya Şurasının iclası

rar islahatlar, yeni iqtisadi həyat tərzi mütəxəssis hazırlığı sahəsində fakültənin əməkdaşları qarşısında çox məsul və şərəfli vəzifələr qoyur.

Bakalavr ixtisas dərəcəsi üzrə mütəxəssis hazırlığı aşağıdakı istiqamətlərdə aparılır: aqrar istehsalatın iqtisadiyyatı və idarə edilməsi; mühasibat uçotu və

Fakültədə indiyə kimi minlərlə mütəxəssis hazırlanıb. Onlardan elm sahəsində xüsusi nailiyyətləri olan i.e.d., prof. A.İ.Məmmədovu, i.e.d., prof. Ə.Ç.Verdiyevi, prof. İ.V.Əhmədovu göstərmək olar.

Son dövrlərdə fakültənin maddi-texniki bazası möhkəmləndirilmiş, tədrisin keyfiyyəti yüksəldilmiş, tədris-metodiki və elmi-tədqiqat işlərində nailiyyətlər əldə edilmişdir. Belə ki, 2010-2011-ci tədris ilindən etibarən, yerinə yetirilən elmi-tədqiqat işləri istiqamətində problem elmi seminarlar keçirilir, dövlətin aqrar siyasətinin həyata keçirilməsi ilə bağlı Gəncə-Qazax iqtisadi rayonunda və yerlərdə İqtisadi İnkişaf Nazirliyi ilə birlikdə maarifləndirmə işləri aparılır.

Beynəlxalq əlaqələr istiqamətində Norveç və Almaniya ilə birlikdə tədqiqat işləri yerinə yetirilir. Fakültənin həyatında ilk dəfə olaraq FD.04.013 birləşdirilmiş dissertasiya şurası fəaliyyət göstərir.

Fakültə tədris prosesinin təkmilləşdirilməsini, tələbələrin müstəqil işlə təmin olunmasını, mütəxəssis kadrların hazırlanmasında keyfiyyət göstəricilərinin, tədris planında ixtisaslar üzrə elmin müasir sahələrinin və problemlərinin öz əksini tapmasını daim diqqət mərkəzində saxlayır.

Bu cəhətdən təhsilin bakalavr pilləsi üçün 8 ixtisas üzrə, magistratura pilləsi üçün 5 ixtisaslaşma üzrə planların hazırlanması və təkmilləşdirilməsi xüsusi qeyd olunmalıdır.

Tədris planlarının hazırlanmasında və təkmilləşdirilməsində respublika Təhsil Nazirliyinin, universitetin tədris hissəsinin, tədris-metodiki komissiyasının və müvafiq kafedraların təklifləri, rəyləri diqqətlə öyrənilmiş və nəzərə alınmışdır. Fakültənin Elmi Şurası və tədris-metodiki komissiyası da bu işdə mühüm rol oynamışdır. Fakültədə ardıcıl olaraq təhsil islahatlarının aparılmasına xüsusi diqqət verilir.

Azərbaycanda texniki fəaliyyət növləri üzrə iqtisadçı kadrların hazırlandığı əsas təhsil mərkəzlərindən biri də **Azərbaycan Texniki Universiteti** – ATU-dur. Respublikanın iri ali məktəblərindən biri kimi ATU metallurgiya, maşınqayırma, avtomatika və hesablama texnikası, elektrotexnika, radiotexnika, rabitə, avtomobil, dəmiryol nəqliyyatı, mühəndis biznesi və menecment, sənaye ekologiyası sahəsində elmi işlər aparan, bakalavr, magistr və elmi-pedaqoji mtəxəssislər hazırlayan mühüm təhsil ocağıdır.

Universitetin yaradılması haqqında qərar 1945-ci il oktyabrın 20-də SSRİ Xalq Komissarları Soveti vermiş və bundan irəli gələrək, 1950-ci il noyabr ayında Bakı şəhərində tərkibində inşaat, mexanika, dəmiryolu və hidromeliorasiya fakültələri olan Azərbaycan Politexnik İnstitutu (AzPİ) təşkil olunmuşdur. Təsisat zamanında AzPİ bir çox problemlərlə qarşılaşmalı olmuşdur. Belə ki, uzun illər Azərbaycan Sənaye İnstitutunda yaradılmış maddi-texniki bazanın, intellektual potensialın AzPİ-yə cüzi bir hissəsi verilmiş, institut üçün ixtisaslaşmış bina ayrılmamış, onun tədris korpusları isə bir-birindən çox uzaq ünvanlarda yerləşmişdir. Bu zaman bir çox fənlərin tədrisi üçün milli kadrlara, elmi dərəcəli yüksək ixtisaslı müəllimlərə də böyük ehtiyac olmuşdur. Belə ki, AzPİ-nin 11 kafedrasında 57 nəfərdən ibarət professor-müəllim heyətinin əksəriyyəti başqa millətlərdən olduğu üçün dərslər, xüsusən ixtisas fənləri rus dilində aparılmışdır. Bütün bu çətinliklərə baxmayaraq, qısa müddətdə tədris prosesi öz məcrasına salınmışdır.

1950-1951-ci tədris ilində institutda 1480 tələbə təhsil almaqda idi. Burada ilk buraxılış 1951-ci ildə olmuş və 251 nəfər tələbə institutu bitirərək mühəndis ixtisasına yiyələnmişdi.

Artıq 1970-ci illərdə AzPİ fakültələrinin, elm və texnika üzrə müasir ixtisaslarının sayına görə respublikamızın ən iri ali təhsil ocaqlarından birinə çevrilmişdi. İnstitutun 11 fakültəsində 50-dən artıq ixtisas üzrə 20 mindən çox tələbə təhsil almaqda idi.

1975-ci ilə kimi AzPİ xalq təsərrüfatı üçün müxtəlif ixtisaslar üzrə 26 mindən çox mühən-

dis kadrları hazırlamışdır. Göstərilənləri nəzərə alaraq, Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci ildə SSRİ və Azərbaycan SSR Nazirlər Sovetinin qərarına əsasən institutun memarlıq, inşaat, hidromeliorasiya və nəqliyyat fakültələrinin bazasında Azərbaycan İnşaat Mühəndisləri İnstitutu yaradıldı. 1978-ci ildən AzPİ-də xarici ölkələr üçün mütəxəssislərin kütləvi hazırlanması başlandı.

Azərbaycan SSR Nazirlər Sovetinin 1991-ci il 18 fevral tarixli 22 saylı qərarı ilə AzPİ Azərbaycan Mühəndis-Texniki Universiteti və az sonra Nazirlər Kabinetinin 1991-ci il 24 sentyabr tarixli qərarına əsasən Azərbaycan Texniki Universiteti adlandırıldı.

Hazırda ATU-da 9 fakültə və 45 kafedra fəaliyyət göstərir. 2011-2012-ci tədris ilində universitetdə 7311 nəfər tələbə – bakalavr, magistr təhsil alır. Universitetdə 635 nəfər professor-müəllim heyəti, o cümlədən 82 nəfər elmlər doktoru və professor, 275 fəlsəfə elmləri üzrə doktor, dosent çalışır.

ATU-nun beynəlxalq əlaqələrinin 40 ilə yaxın yaşı vardır. Universitet dünyanın bir çox tanınmış ali məktəbləri ilə elm və təhsil sahəsində əməkdaşlıq edir. Hazırda universitetdə 10 ixtisas üzrə 400 nəfərədək əcnəbi vətəndaş təhsil alır.

ATU-nun iqtisadçı kadrlar hazırlığında fəaliyyəti müvafiq ixtisas fakültələrində aparılır. Müasir mərhələdə bu işlərin daha səmərəli təşkili üçün universitetdə 1995-ci ildə "Mühəndis biznesi və menecment" fakültəsi yaradılmışdır. Bu fakültənin yaradılmasında görkəmli iqtisadçı alim, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, iqtisad elmləri doktoru, professor Şamil Əliabbas oğlu Səmədzadənin xidmətləri xüsusi qeyd olunmalıdır. Fakültənin yaradılması zərurəti bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq Azərbaycanda mühəndis, yüksək texnoloji biznes ilə məşğul ola biləcək kadrlara yaranmış böyük ehtiyacdan irəli gəlmişdir. Fakültənin qarşısında iqtisadiyyat və menecment sahəsində yüksəkixtisaslı mütəxəssislərin hazırlanması ilə yanaşı, texniki fakültələrin tələbələrinin təşkilati-iqtisadi hazırlığının gücləndirilməsi vəzifəsi də qoyulmuşdur. Hazırda burada mühəndis biznesi məsələlərini dərindən bilən və onu həyata keçirmək qabiliyyətinə malik olan, menecment və biznes sahəsindəki bilikləri mühəndis biliyi ilə zənginləşdirilmiş yüksək ixtisaslı kadrlar hazırlanır.



Azərbaycan Texniki Universiteti

2009-cu ilədək fakültədə "Mühəndis iqtisadiyyatı və idarəetmə" istiqamətinə daxil olan "İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (maşınqayırma, nəqliyyat və rabitə sahələri üzrə)", "Menecment" və "Biznesin təşkili və idarə edilməsi" ixtisaslar üzrə bakalavr və "Mühəndis iqtisadiyyatı və idarəetmə" istiqamətinə daxil olan "İstehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi (*maşınqayırma, nəqliyyat və rabitə sahələri üzrə*)" və "Strateji idarəetmə" ixtisasları üzrə magistr kadrları hazırlanırdı. Hazırda ixtisasların yeni nomenklaturasına görə fakültədə "Sənayenin təşkili və idarə edilməsi", "Menecment" və "Biznesin idarə edilməsi" ixtisasları üzrə kadr hazırlığı aparılır. Fakültənin tərkibinə 3 ixtisas kafedrası "Sənaye iqtisadiyyatı və menecment", "Xidmət sahələrinin iqtisadiyyatı və menecmenti", "İqtisadi nəzəriyyə və iqtisadiyyatın dövlət tənzimlənməsi" daxildir.

Kafedra universitetin 6 fakültəsinə xidmət edir. Bakalavr səviyyəsində 32, magistrtura səviyyəsində 18 fənn tədris edilir. ATU-da mühəndis-iqtisadçı kadrlar hazırlanmasında "Xidmət sahələrinin iqtisadiyyatı və menecmenti" kafedrasının da rolu yüksək qiymətləndirilir. 1980-ci ildə təsis olunan kafedraya bu günə kimi i.e.d., professor Sabir Qənbər oğlu Cümşüdov rəhbərlik edir. Kafedra iki ixtisas (*"Nəqliyyat və rabitənin iqtisadiyyatı və idarə edilməsi"*) üzrə bakalavr və magistr, habelə elmi-pedaqoji kadrlar hazırlanması istiqamətində fəaliyyət göstərir. Burada tədris olunan fənlər üzrə proqramlar, metodik göstərişlər, dərs vəsaitləri və dərsliklər hazırlanmış və dərc edilərək tələbələrin istifadəsinə verilmişdir.

Universitetin iqtisad yönümlü əsas qurumlarından biri də "İqtisadi nəzəriyyə və iqtisadiyyatın dövlət tənzimlənməsi" kafedrasıdır.

Ölkəmizin ən ilkin təhsil ocaqlarından olan **Azərbaycan Dövlət Neft Akademiyası** – ADNA-nın Yanacaq-Enerji Kompleksinin və sənayenin digər sahələrində iqtisadçı kadrlara olan tələbinin ödənilməsi sahəsindəki fəaliyyəti əvəzsizdir.

ADNA-nın bir əsrə qədər yaşı vardır. Belə ki, 1920-ci ildə Bakı Politexnik İnstitutu yaradılmış və bu təhsil mərkəzi sonralar Azərbaycan Politexnik İnstitutu (1923-1930), Azərbaycan Neft İnstitutu (1930-1934), Azərbaycan İndustrial (Sənaye) İnstitutu (1934-1959), Azərbaycan Neft və Kimya İnstitutu (1959-1991), Azərbaycan Sənaye Universiteti (1991-1992) və Azərbaycan Dövlət Neft Akademiyası (1992-ci ildən) adı altında neft-qaz və digər sənaye sahələri üçün yüksəkixtisaslı mühəndis və elmi-pedaqoji kadrları hazırlamışdır.

İnstitutun yaranışının ilk günlərdən belə onun "İqtisadiyyat" fakültəsinin qarşısında həm neft sənayesi, həm də digər sənaye sahələri üçün yüksəkixtisaslı iqtisadçılar hazırlanması vəzifəsi qoyulmuşdu. 1921-1928-ci illər ərzində fakültədə 312 diplomlu iqtisadçı hazırlanmışdı ki, onlar da 1920-1932-ci illər üçün Azərbaycanda sovet və təsərrüfat orqanlarında planlaşdırma və idarəetmədə məşğul olan işçi bazasının əsasını təşkil edirdi. Lakin sonralar Sovetlər İttifaqının iqtisadiyyatında sənayeləşmə ilə bağlı baş verən dəyişikliklər iqtisadçı mütəxəssislərin daha çox ixtisaslaşmasını tələbi müşayiət olunmağa başladı. Ümumiyyətlə, ağır sənayenin və neft sənayesinin Azərbaycanda miqyas, struktur və texniki məzmun baxımından sürətli inkişafı naminə iqtisadiyyat, planlaşdırma və istehsalın təşkili ilə bağlı tədbirləri yüksək səviyyədə həyata keçirmək üçün iqtisadçı kadrlar, həm də müəyyən texniki hazırlığa malik olmalı idilər. Ona görə də 1928-ci ildə "İqtisadiyyat" fakültəsi ləğv edilmiş və bir ildən sonra mərkəzi hökumətin iqtisadçıların hazırlığı işinin yaxşılaşdırılması ilə bağlı ADNA-nın sələfi Azərbaycan Neft İnstitutunda "Mühəndis-iqtisad" fakültəsi yaradılmışdır.

Müxtəlif vaxtlarda "İqtisadiyyat", "Mühəndis-iqtisad" adları altında fəaliyyət göstərən indiki "İqtisadiyyat, beynəlxalq iqti-



"İqtisadiyyat, beynəlxalq iqtisadi münasibətlər və menecment" fakültəsinin Elmi Şurası

sadi münasibətlər və menecment" fakültəsində yarandığı gündən indiyədək 15400-dən artıq mütəxəssis, o cümlədən 11500 mühəndis, 3433 bakalavr və 469 magistr hazırlanmışdır.

XX əsrin son illərində bakalavr hazırlığı mühəndis iqtisadiyyatı və idarəetmə (*maşınqayırma, neft-qaz çıxarma, energetika, kimya və neft-kimya sahələrinin iqtisadiyyatı və idarə edilməsi, maşınqayırma, neftçıxarma, energetika, neft emalı və neft-kimya sahələrində menecment, neft və qaz, neft emalı və neft-kimya, energetika, maşınqayırma sahələrində marketinq, biznesin təşkili və idarə edilməsi ixtisasları*), inzibati idarəetmə (*gömrük ekspertizası ixtisası*), tətbiqi riyaziyyat (*tətbiqi riyaziyyat ixtisası*), magistr hazırlığı isə mühəndis iqtisadiyyatı və idarəetmə (*neft-qaz çıxarma, neft emalı və neft-kimya, energetika və maşınqayırma sahələrinin istehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi, həmin sahələrdə biznesin təşkili və idarə edilməsi, layihənin idarə olunması, innovasiya strategiyasının işlənməsi, strateji idarəetmə, investisiyanın iqtisadi qiymətləndirilməsi, beynəlxalq biznes, sahibkarlıq fəaliyyətinin təşkili ixtisaslaşmaları*), riyaziyyat (*riyazi modelləşdirmə, optimal idarəetmənin riyazi iqtisadi üsulları, informatikanın əsasları ixtisaslaşmaları*) istiqamətləri üzrə aparılmaışdır.

ADNA-da iqtisadçı kadrlar hazırlığı üç ixtisas "Yanaçaq-enerji kompleksi sahələrinin iqtisadiyyatı və menecmenti", "Maşınqayırma sənayesinin iqtisadiyyatı və menecment" və "Neft emalı və neft-kimya sahələrinin iqtisadiyyatı və menecment" kafedraları üzrə aparılır.

Aviasiya sahəsində iqtisadçı



Dövlət Neft Akademiyası

Milli Aviasiya Akademiyası

kadr hazırlığının əsas mərkəzi kimi **Milli Aviasiya Akademiyası** – MAA çıxış edir. Bu ali məktəb Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 15 iyun tarixli, 337 saylı qərarı ilə "Milli Aviasiya Mərkəzi" adı ilə yaradılmış və sonra Nazirlər Kabinetinin 1994-cü il 24 fevral tarixli, 81 saylı qərarı ilə Milli Aviasiya Akademiyasına çevrilmişdir. Akademiya 1999-cu ildə Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə "Mülki Aviasiya Ali Təhsil Müəssisəsi" sertifikatına layiq görülmüşdür.

1992-1993-cü tədris ilində MAA-da iki ixtisas üzrə (mühəndis-pilot və mühəndis-texnik) 80 nəfər, 1998-1999-cu tədris ilində 11 ixtisas üzrə 276 nəfər tələbə qəbul olmuşdur. Hazırda Akademiyada 1000-ə yaxın tələbə təhsil alır. Güclü elmi-kadr potensialına malikdir. MAA-nın 4 tədris korpusu, onlarca müasir səviyyəli, ixtisaslaşdırılmış auditoriya və laboratoriyaları vardır. Tədris prosesinin məzmunlu və keyfiyyətli keçməsi üçün auditoriyalar və kabinalar lazımi funksional trenajorlar, stendlər, maketlər və sxemlərlə təmin olunmuşdur. Akademiyanın kitabxanası elmi-texniki, tədris-metodiki və sorğu ədəbiyyatları ilə komplektləşdirilmişdir.

Akademiya M.İ.Lomonosov adına Moskva Dövlət Universiteti, N.E.Bauman adına Moskva Dövlət Texniki Universiteti, Sankt-Peterburq Mülki Aviasiya Akademiyası, İstanbul Texniki Universiteti, Donetsk Dövlət Texniki Universiteti, Moskva Mülki Aviasiya Dövlət Texniki Universiteti, Baltik Dövlət Texniki Universiteti, K.E.Siolkovski adına Moskva Aviasiya-Texnoloji İnstitutu, Moskva Aviasiya İnstitutu, Kiyev Mülki Aviasiya Mühəndisləri İnstitutu, Təbriz Universiteti və başqa ali məktəblərlə sıx əlaqə saxlayır. Məzunların təyinatı ilə "Azərbaycan Hava Yolları" QSC məşğul olur.

İqtisadçı kadrlar hazırlığı MAA-nın Menecment (*mühəndis-iqtisadçı*) və Dünya iqtisadiyyatı (*iqtisadçı*) ixtisasları üzrə "İqtisadiyyat və hüquq" fakültəsində



Azərbaycan Kooperasiya Universiteti

həyata keçirilir. Aparıcı ixtisas kafedrası "Mülki aviasiya iqtisadiyyatı" kafedrasıdır.

MAA-ya Azərbaycam Milli Elmlər Akademiyasının həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Arif Mircəlal oğlı Paşayev rəhbərlik edir.

İqtisadçı kadrların hazırlığı istiqamətində **Azərbaycan Kooperasiya Universiteti** – AKU-nun da rolu və əhəmiyyəti diqqətəlayiqdir.

AKU respublikanın ali təhsil sistemində mühüm yerlərdən birini tutur. Hal-hazırda universitetdə təhsil alanların sayı 4000 nəfərdən artıqdır. Burada kadr hazırlığı bakalavr, magistr, doktrantura pilləsində iki dildə – Azərbaycan və rus dillərində aparılır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra Nazirlər Kabinetinin 1992-ci il 9 yanvar tarixli, 8 saylı qərarı ilə Mərkəzi Kooperativlər İttifaqının Bakı filialı Azərittifaqın mülkiyyətinə verilmiş və Azərittifaqın İdarə Heyətinin 1993-cü il 13 mart tarixli, 31 saylı qərarı ilə Moskva Kooperativ İnstitutunun Bakı filialının bazasında müstəqil Azərbaycan Kooperasiya İnstitutu (AKİ) yaradılmış və onun Nizamnaməsi təsdiq edilmişdir.

AKİ yaradılarkən tələbə kontingenti 1059, o cümlədən əyani tələbələr 587, tələbə qəbulu 350 və buraxılış 100 nəfər olmuşdur.

1993-cü ildə AKİ-də 2 fakültə – "İqtisad" və "Əmtəəşünaslıq-kommersiya" fakültəsi və 6 kafedra fəaliyyət göstərirdi. 1995-2000-ci illərdə İnstitutda 2 fakültə və 9 kafedra olmaqla 11 ixtisas üzrə kadr hazırlığı aparılmışdır. Azərittifaqın İdarə Heyətinin 2001-ci il 3 may tarixli, 60 saylı qərarı ilə Azərbaycan Kooperasiya İnstitutu Azərbaycan Kooperasiya Universitetinə çevrilmişdir.

Hazırda Universitetdə 250-dən çox professor-müəllim heyəti, o cümlədən 158 elmlər namizədi və 15 professor çalışır. AKU-nun geniş maddi-texniki bazası vardır. Tədris korpusunun ümumi sahəsi 10500 kv.m təşkil edir. Burada 50-dən çox fənn və tədris laboratoriyaları fəaliyyət göstərir.

İqtisadçı kadrların hazırlanmasında Yusif Məmmədəliyev adına **Naxçıvan Dövlət Universiteti** – NDU-nun da rolu əhəmiyyətlidir. Bu ali təhsil ocağı Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən yeganə dövlət universiteti, müasir mərhələdə qədim diyarın əsas elm, təhsil və mədəniyyət mərkəzidir. NDU 1967-ci ildə yaradılmış Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan filialının, beş il sonra isə müstəqil ali məktəbə çevrilmiş Naxçıvan Dövlət Pedaqoji İnstitutunun varisidir. Universitetdə pedaqoji istiqamətli mütəxəssislərdən başqa hüquqşünaslar, avtomobil və rabitə mühəndisləri, iqtisadçılar və mühasiblər, bələdiyyə və gömrük işçiləri də hazırlanmağa başlandı.



Naxçıvan Dövlət Universiteti

NDU-da iqtisadçı kadrlar hazırlığı "İqtisadiyyatın tənzimlənməsi", "Mühasibat uçotu və audit", "Gömrük işinin təşkili" və habelə "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasları üzrə "İqtisadiyyat-hüquq" fakültəsində həyata keçirilir.

Müstəqil Azərbaycan Respublikasında iqtisadçı kadrların hazırlanmasında özəl unversitetlərin də rolu çox mühümdür. Bu baxımdan Azərbaycan Universiteti, Qafqaz Universiteti, Bakı Biznes Universiteti, Qərb Universiteti, Elm və Təhsil Mərkəzi Təfəkkür Universiteti xüsusilə fərqlənir.

Özəl universitetlər təhsil müəssisələri arasında **Azərbaycan Universiteti** – AU-nun iqtisadçı kadrların hazırlanması sahəsindəki fəaliyyəti geniş və çoxşaxəlidir.

AU Dövlət Ali Ekspert Komissiyasının 1993-cü il 3 mart tarixli, Təhsil Nazirliyi Kollegiyasının 1993-cü il 8 aprel tarixli qərarları ilə dövlət qeydiyyatına götürülmüş, dövlət reyestrinə qəbul edilərək müvafiq sertifikat və fəaliyyət lesenziyası almışdır. Fəaliyyətinin ilk mərhələsində iqtisadi təhsili prioritetlərdən biri kimi qəbul edən AU son illər bu istiqamətə daha məqsədyönlü xarakter vermişdir. Bunun üçün beynəlxalq əlaqələr genişləndirilmiş, müasir ingilisdilli biznes idarəçiliyi proqramları inkişaf etdirilmişdir. Təsisatın ilk dövrlərdə universitet tələbələrinin 33-35 faizi iqtisad yönümlü təhsil alırdısa, son illər onların xüsusi çəkisi 70 faizi ötmüşdür.

Yarandığı gündən universiteti 1000 nəfərə qədər iqtisadçı bitirmişdir.

Rəqabətqabiliyyətli milli kadrların hazırlanmasını qarşısına əsas məqsəd qoyan AU dünyanın aparıcı universitetləri ilə əməkdaşlığını daim genişlən-



Azərbaycan Universiteti

dirir. Universitet təhsilin keyfiyyətinin artırılması, daxili potensialın gücləndirilməsi və kadrların peşəkarlıq səviyyəsinin daim yüksəldilməsi məqsədi ilə beynəlxalq təhsil təşkilatları ilə də sıx əməkdaşlıq edir. 2011-ci ildə AU Azərbaycandan ilk universitet olaraq CEEMAN (*Beynəlxalq Menecmentin İnkişafı Assosiasiyası*) təşkilatına üzv seçilib. AU geniş Beynəlxalq əməkdaşlıq əsasında qazanılan təcrübədən istifadə edərək, ənənəvi iqtisadi yönümlü təhsil proqramlarının daha da təkmilləşdirilməsini həyata keçirir və pilot təhsil ocağı olaraq Azərbaycan mühitində kredit sisteminin üstünlüklərini daha dolğun reallaşdırmağa çalışır.
Tələbə üçün uğurlu karyera universitetin əsas devizidir. AU-nun Karyera Mərkəzi öz işini 4 minə yaxın sahibkarı özündə birləşdirən Azərbaycan Milli Sahibkarlar Konfederasiyası, Auditorlar Palatası, Azərbaycan Bank tədris mərkəzi, Azərbaycan Marketinq Cəmiyyəti, Azərcell, Azərsun, Mətanət A və digər iri şirkətlərlə ikitərəfli əməkdaşlıq əsasında qurur.
Universitetin magistr proqramları Dünya iqtisadiyyatı, Maliyyə, Vergi və vergiqoyma, Gömrük işi, İqtisadiyyatın hüquqi tənzimlənməsi, Menecment və marketinq ixtisaslaşmalarını əhatə etməklə ingilisdilli MBA proqramı ilə birlikdə son illərdə əhəmiyyətli dərəcədə maraq göstərilən proqramlara çevrilmişdi. Bunun əsasında gənclərin ingilisdilli mütəxəssis olmaq arzusu ilə yanaşı, tədris sisteminin mükəmməlliyinin yüksək olması və hazırlanan bu proqramın unikallığı ilə bağlı keyfiyyətlər dayanır.
Universitet 2010-cu ilin sentyabrından ümumi sahəsi 3500 kv.m olan yeni tədris binasında fəaliyyət göstərir. Burada Wi-Fİ internet şəbəkəsi, eyni vaxtda 50 tələbənin işləyə biləcəyi kompüter salonu, idman və oxu zalı, media-mərkəz, təqdimat, konfrans, dəyirmi masa otaqları, eləcə də video-telekonfranslar üçün auditoriya və multimedia texnikası mövcuddur. AU yaxın gələcəkdə ən müasir Kampusa malik olacaq. Belə ki, bu işlər üçün Bakı şəhəri ətrafında 8 ha torpaq sahəsi ayrılıb və müvafiq işlər davam etdirilir.
1993-cü ildə fəaliyyətə başlamış **Qafqaz Universiteti** respublikada açılmış ilk xarici ali təhsil ocağıdır. Universitet Azərbaycan və Türkiyə arasında elmi-mədəni əlaqələrin inkişafında inkaredilməz tarixi rol oynayan "Çağ" Öyrətim İşlətmələri Şirkətinin fasiləsiz təhsil kompleksinin ən yüksək pilləsidir.
Azərbaycan Respublikası Təhsil Nazirliyinin Universitetə verdiyi pilot ali məktəb statusu bir



Qafqaz Universiteti

çox yeniliklərin həyata keçirilməsi üçün şərait yaradır. Belə ki, Universitet dünyanın qabaqcıl ölkələrində uğurla sınaqdan çıxmış kreditli təhsil sistemini tətbiq edir. Birinci tədris ilində həyata keçirilən dil hazırlığı ilə birlikdə Universitetdə təhsil müddəti 5 ildir. Bu müddət ərzində tələbələr seçdikləri ixtisasın xüsusiyyətləri nəzərə alınmaqla iki və ya üç xarici dili yüksək səviyyədə öyrənmək imkanı əldə edirlər. Mövcud bölmələrin tədris planlarında nəzərdə tutulmuş əsas və əlavə xarici dillərdən imtahanda tələb olunan keçid balını toplayan, TOEFL və bənzəri imtahanlarda müvafiq şəhadətnamə almış tələbələr birbaşa 2-ci kursda təhsilə başlayırlar. 2002-2003-cü tədris ilindən etibarən ixtisas fənlərinin ingilis dilində tədrisinə başlayan Universitet yetişdirdiyi tələbələrin ixtisas, xarici dil və kompüter biliklərinə yiyələnmələrinə müstəsna əhəmiyyət verir. Hazırda bakalavr pilləsində 20, magistratura pilləsində 10, doktrantura pilləsində 4 ixtisas üzrə mütəxəssis hazırlanmaqdadır. Bununla yanaşı, 2006-2007-ci tədris ilindən etibarən Universitetdə 2 ixtisas üzrə MBA Proqramı açılmışdır. Yüksək sürətli internet rabitəsi sayəsində Qafqaz Universiteti Azərbaycanda TOEFL IBT imtahanını yeni nəsil TOEFL testi təşkil edən ilk qurumdur.
Universitetin nəzdində fəaliyyət göstərən Bələdiyyə Araşdırmaları Mərkəzinin respublikada bələdiyyəçiliyin təşəkkülündə töhfələri mühüm olmuşdur. Qafqaz regionuna dair elmi-tədqiqatların aparılması və onların nəşrilə məşğul olan Qafqaz Araşdırmaları İnstitutunun fəaliyyəti əhəmiyyətlidir. Azərbaycan və Türkiyə arasında qarşılıqlı elmi-mədəni informasiya mübadiləsinin genişlənməsi isə Universitetin nəzdində qurulmuş Tərcümə mərkəzinin fəaliyyətinin əsas xəttini təşkil edir.
Məzunlarının işlə təmin olunması nisbətinə görə Universitet respublikada ön sıralardan birini tutur.
Yüksək səviyyəli mütəxəssis hazırlamağı qarşısına məqsəd qoymuş Universitet istedadlı gənclərin seçiminə xüsusi əhəmiyyət verir. İxtisaslardan asılı

olmayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi imtahanda yüksək bal toplamış abituriyentlərə ödənişsiz təhsil almaq hüququ verilir. Universitet Elmi Şurasının qərarı ilə Ümummilli lider Heydər Əliyevin adına təsis olunmuş xüsusi təqaüd və digər təqaüdlər tələbələrin təhsilə olan həvəslərini daha da artırır.

2004-cü ildə növbəti bir uğur əldə edən Universitet Azərbaycanda TSE-EN-ISO 9001:2008 keyfiyyət sertifikatı almış ilk və tək ali təhsil ocağıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 11 sentyabr tarixli, 202 saylı qərarı ilə dövlət qeydiyyatından keçərək özəl ali məktəb statusu almış **"Elm və Təhsil Mərkəzi Təfəkkür Universiteti"** Azərbaycan, rus, ingilis və ispan dillərində bakalavr pilləsində yüksəkixtisaslı kadrlar hazırlayan tədris müəssisəsidir. Universitetdə 13 kafedra, kompüter mərkəzi, linqafon kabineti, oxu zalı, idman zalı, sürücülük məktəbi, fizika, kimya, kriminalistika, morfologiya, iqtisadiyyatın elmi problemləri laboratoriyaları fəaliyyət göstərir. "Təfəkkür" Universitetinin ABŞ-ın Hartfort, San-Dieqo, Frenso, Santa-Barbara, İngiltərənin Oksford, Kembric, Qrinviç, Hollandiyanın Erasmus, Van-Holl, Almaniyanın Berlin Politexnik universitetləri, habelə Türkiyə, Kipr və Malayziyanın bir sıra ali məktəbləri ilə sıx əlaqələri vardır. "Təfəkkür" Universiteti "San-Dieqo" və "Fresno" universitetləri ilə birgə fond yaratmışdır. Bu fond tələbələrin xarici ölkələrin universitetlərində pulsuz təhsil almağa göndərilməsi, müəllimlərin isə təkmilləşməyə ezam edilməsi üçün geniş imkanlar yaradır. Universitet Malayziya və Türkiyə universitetləri arasında üçtərəfli əməkdaşlıq sahəsində memorandum imzalamışdır. "Land Tech International" şirkəti "Təfəkkür" Universitetində ingilis dili öyrətmək üçün Beynəlxalq Kompüter Mərkəzi yaratmışdır. Əla oxuyan, ictimai-kütləvi tədbirlərdə xüsusilə fərqlənən tələbələr üçün "Heydər Əliyev adına", "akad. Z.Bünyadov adına", "akad. A.Aslanov adına" təqaüdlər təsis olunmuşdur. Şəhid, köçkün, müharibə faciəsinə məruz qalan və imkansız ailələrdən olan tələbələrə təhsil xərcinin ödənilməsində güzəştlər edilir.

Təhsil Nazirliyinin "Magistraturanın yaradılması barədə"



Elm və Təhsil Mərkəzi Təfəkkür Universitetində çinli alim və mütəxəssislərin iştirakı ilə "Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid və iqtisadi inkişaf modelləri" mövzusunda beynəlxalq elmi-nəzəri konfrans

1999-cu il 30 aprel tarixli, 295 saylı əmrinə əsasən, 1999/2000-ci tədris ilindən başlayaraq, Universitetdə "Cinayət hüququ və cinayət prosesi", "Xarici dil" (ingilis dili), "İqtisadiyyatın hüquqi tənzimlənməsi", "Yol hərəkətinin təşkili" və "Publisist-jurnalist" ixtisasları üzrə magistraturaya qəbul aparılır.

"Təfəkkür" Universitetində iqtisadçı kadrlar hazırlığı "Biznesin təşkili və idarə olunması", "Gömrük işinin təşkili", "Biznes üzrə menecment (beynəlxalq yükdaşımalar)" və "İqtisadiyyatın hüquqi tənzimlənməsi" ixtisasları üzrə "İqtisadiyyat-idarəetmə" fakültəsində həyata keçirilir.

Bakı Biznes Universiteti Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Dövlət Ali Ekspert Komissiyasının 1993-cü il 13 mart tarixli, 7/3 saylı qərarı ilə rəsmi qeydiyyata alınmış və müvafiq lensenziya ilə təmin edilərək müstəqil hüquqi şəxs kimi fəaliyyətə başlamışdır.

Güclü elmi-pedaqoji kadr potensialına malik olan universitet bakalavr və magistr pillələrində 12 ixtisas – "Vergi işinin təşkili", "Gömrük işinin təşkili", "Biznesin idarə edilməsi", "Mühasibat uçotu və audit", "Marketinq", "Dünya iqtisadiyyatı", "Maliyyə", "Menecment", "Sənayenin təşkili və idarə edilməsi", "Tərcümə" (ingilis dili), "İqtisadiyyat", "Dövlət və bələdiyyə idarəetməsi" üzrə mütəxəssis hazırlayır.

BBU zəngin maddi-texniki bazaya və metodik təminata malikdir. Universitetin 10000 kv.m-ə yaxın sahəni əhatə edən müasir beynəlxalq standartlara malik 3 tədris korpusu vardır. Burada zəngin kitabxana, geniş akt zalı, linqafon kabinetləri, televiziya-tədris otaqları, kompüter otaqları, idman kompleksi, xüsusi nəşr sistemi, mətbəə və ən müasir yeməkxana tələbələrin istifadəsindədir. Universitetdə tədris işi Boloniya prosesinə uyğun olaraq kredit sistemi formasında aparılır. Universitetin nəzdində "İslahatlar mərkəzi", "Sosial-iqtisadi araşdırmalar", "Biznes və marketinq" kimi 3 elmi-tədqiqat mərkəzi, eləcə də "Tələbə Elmi Şurası" və "Tələbə Elmi Cəmiyyəti" fəaliyyət göstərir. BBU-da həmçinin "İngilis dili", "Kompüter texnologiyası" və "Mühasibat uçotu" üzrə qısamüddətli kurslar da təşkil olunmuşdur.



Bakı Biznes Universiteti

Ötən dövr ərzində universitetin professor-müəllim kollektivinin yaradıcı əməyi nəticəsində çoxsaylı dərslik, dərs vəsaiti, monoqrafiya, metodik vəsait, proqram və digər elmi əsərlər yüksək keyfiyyətlə işlənib nəşr edilmişdir. BBU respublikada bazar iqtisadiyyatı münasibətlərinin formalaşması, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi istiqamətində bir sıra müəssisələrdə yeni təsərrüfatçılıq və iqtisadi idarəetmə modellərini işləyib tətbiq etmişdir. Universitet Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi üzrə keçirilən beynəlxalq treninq proqramlarının dəfələrlə qalibi olmuşdur.

BBU bazar iqtisadiyyatı şəraitində dünya təcrübəsini, mütərəqqi metodologiyanı öyrənmək, elm və təhsil sahəsində

yeni nailiyyətlər əldə etmək məqsədilə xarici ölkələrin bir sıra qabaqcıl universitetləri ilə, o cümlədən ABŞ-ın Avropa Beynəlxalq Biznes Universiteti, Moskva Sahibkarlıq Akademiyası, AFR-in Ziqin Universiteti, Sankt-Peterburqun Maliyyə-İqtisad Universiteti, Kazanın Maliyyə-İqtisad İnstitutu və Türkiyənin İsparta şəhərindəki Süleyman Dəmirəl Universiteti, Çağ Universiteti, Okan Universiteti, Firat Universiteti, Ondokuz Mayıs Universiteti, İngiltərənin Cardiff Universiteti və digər elm və təhsil müəssisələri ilə sıx elmi əlaqə yaratmış və əməkdaşlıq edir.

İqtisadçı kadr hazırlığında əhəmiyyətli yeri olan **Qərb Universiteti** 1991-ci ildə təsis olunmuş özəl təhsil müəssisəsidir.


Qərb Universiteti Azərbaycanın iqtisadi, ictimai və siyasi inkişafı prosesinə iqtisadi keçid və ondan sonrakı dövrdə respublikanın ehtiyaclarını ödəyə bilən mütəxəssislər hazırlamaqla yardım edəcək bir ali təhsil müəssisəsi yaratmaq məqsədilə təsis edilmişdir. Universitet 1996-cı ildən İdarəçiliyin İnkişafı üzrə Avropa Fondunun, 1992-ci ildən YUNESKO nəzdindəki Beynəlxalq Universitetlər Assosiasiyasının, 1999-cu ildən Qara Dəniz Ölkələri Universitetlər şəbəkəsinin və 2001-ci ildən Beynəlxalq İnzibati Elmlər İnstitutunun üzvüdür.

Beynəlxalq səviyyədə bakalavr və magistr hazırlığının həyata keçirilməsində universitet yüksək elmi-pedaqoji potensiala əsaslanır. Universitetdə 3 akademik, 16 elmlər doktoru, professor, 44 fəlsəfə elmləri doktoru, dosent çalışır. Burada həmçinin müxtəlif proqramlar üzrə 25-dən çox xarici ölkələrdən cəlb olunmuş müəllim heyəti də fəaliyyət göstərir. Tədrisin yüksək səviyyədə aparılmasında Universitetin zəngin maddi-texniki bazası əsas rol oynayır.

Western University



Qərb Universitetində forum



Qərb Universitetinin Antarktida ekspedisiyası

Müasir səviyyədə təchiz edilmiş auditoriyalar, kompüter otaqları, audio-video texnika, on minlərlə Azərbaycan, rus, ingilis, alman, fransız və ispan dillərində zəngin ədəbiyyata malik kitabxana fondu tələbələrin ixtiyarına verilmişdir. Qərb Universitetində ən müasir kompüterlərlə təchiz olunmuş və internet sisteminə qoşulmuş mərkəz fəaliyyət göstərir. Universitetə qəbul olunan hər bir tələbə burada öz elektron ünvanını açmaq imkanı əldə edir. Universitetdə xüsusi poliqrafiya-nəşriyyat şöbəsində çap olunan "Təkamül" jurnalı görkəmli elm xadimlərinə və gənc alimlərə öz elmi yaradıcılıqlarını əks etdirməyə imkan verir. Universitetin bütün tələbələri bir və ya iki xarici dilə mükəmməl yiyələnirlər. Universiteti bitirən yüzlərlə məzun respublikamızın dövlət orqanlarında, iqtisadiyyatın müxtəlif sahələrində, xarici ölkələrin Azərbaycanda olan nümayəndəliklərində, beynəlxalq şirkətlərdə və xarici ölkələrdə çalışırlar.

İnşaat kompleksi üzrə mühəndis-iqtisadçı kadrların hazırlanması ilə **Azərbaycan Memarlıq və İnşaat Universiteti** məşğul olur. Universitetdə tikinti-iqtisad fakültəsi fəaliyyət göstərir. Fakültədə tikinti sahəsi üçün iqtisadçı kadrlar, inşaatda idarəetmə məsələlərini həyata keçirən menecerlər, marketoloqlar, biznesin təşkili və inkişafı, həmçinin sığorta işinin təşkili üzrə mütəxəssislər hazırlanır.

Özəl təhsil sistemində özünəməxsus yeri olan **Odlar Yurdu Universitetində** də iqtisad fakültəsi fəaliyyət göstərir.

ODLAR YURDU UNİVERSİTETİ



Odlar Yurdu Universiteti

İndiyədək respublikanın ali məktəblərində 100 mindən çox yüksək ixtisaslı iqtisadçı kadr hazırlanmışdır. Respublikamızın dövlət idarəçiliyi orqanlarında, nazirlik, idarə və təşkilatlarında, elm ocaqlarında, özəl qurumlarında, həmçinin, dünyanın əksər ölkələrində universitetin minlərlə məzunu müvəffəqiyyətlə çalışır.

İQTİSADİ ADAM – maksimum səmərə əldə etmək mövqeyindən çıxış edərək öz planlarını və hərəkətlərini rasional şəkildə quran subyekt kimi insan haqqında şərti təsəvvür.

İQTİSADİ AKTİVLƏR – öz sahiblərinə indiki dövrdə və perspektivdə gəlir gətirən təsərrüfat obyektləri. Bu obyektlərə mülkiyyət (fərdi və ya kollektiv mülkiyyət) hüquqları şamil edilir, müəyyən müddət ərzində onlara malik olmaq və ya onlardan istifadə edilməsi səmərə gətirə bilər. Bu səmərənin ən mühüm növü aktivin gələcəkdə gəlir gətirmək qabiliyyətidir. Bəzi aktivlər, məsələn, binalar və avadanlıqlar istehsalatda istifadə edilir və onlardan istifadə edən biznes vahidinin mənfəətinə və ya qarışıq gəlirinə töhfə verir. Maliyyə aktivləri və torpaq ehtiyatları onların sahiblərinə məxsus olan mülkiyyətdən gəlir gətirə bilər. Digər aktivlər, məsələn, qiymətli metallar sərvətlərin saxlanması vasitələridir və onlar gəlir mənbəyi ola bilməz.

Aktivdən əldə edilə biləcək səmərə, xüsusən həmin iqtisadi aktivlərdən istehsal prosesində istifadə edilirsə, zaman keçdikcə azalaraq nəticə etibarilə sıfıra çata bilər.

İQTİSADİ ARTIM – həyat səviyyəsinin yüksəldilməsinə imkan verən, kəmiyyətcə çox və keyfiyyətcə daha yaxşı əmtəə və xidmətlərin istehsalı. İqtisadi artım müəyyən müddət ərzində istehsal edilmiş ümumi milli məhsulun və ya xalis milli məhsulun faizlə artımını və ya onların adambaşına düşən kəmiyyətini əks etdirir, ekstensiv və intensiv inkişaf yolu ilə əldə edilir.

İQTİSADİ ARTIM NƏZƏRİYYƏSİ – ekonometriyanın bir bölməsi olan bu iqtisadi-riyazi istiqamətin mərkəzi mövzusu iqtisadi inkişafın əsas göstəriciləri olan milli gəlir, son məhsul, yığım norması, kapital qoyuluşlarının həcmi kimi göstəricilər arasında əsas qarşılıqlı əlaqələri xarakterizə edən makroiqtisadi modellərin tədqiq edilməsidir.

Xalq təsərrüfatının inkişafı proseslərini düzgün başa düşmək üçün aşağıdakı məsələlər böyük əhəmiyyət kəsb edir. Əsas istehsal amillərinin, onların qarşılıqlı əlaqələrinin və ictimai istehsalın nəticələrinə təsirinin öyrənilməsi. Cəmiyyətin son məhsulunun artması və kapital qoyuluşunun genişlənməsi arasında əks əlaqələrin təhlili. İqtisadi artımın əsas tiplərinin (ekstensiv və intensiv artımın) xarakteristikalarının və başqa aspektlərinin aşkar edilməsi.

Bu nəzəriyyə iqtisadiyyatın balanslaşdırılmış artımı, onun optimal inkişafı şərtlərini işləyib hazırlayır, bu məqsədlə çoxşaxəli riyazi modellər aparatından istifadə edir. Məsələn, makroiqtisadi istehsal funksiyası (birfaktorlu və çoxfaktorlu iqtisadi artım modelləri) daha geniş istifadə edilir; onlar həm riyazi, həm də statistik baxımdan yaxşı sınaqdan çıxarıldığına görə planlaşdırma və proqnozlaşdırma üçün real vasitə ola bilər.

İqtisadi artım nəzəriyyəsinin əsasları sovet iqtisadçısı Q.A.Feldman tərəfindən 1-ci beşillik planın işlənib hazırlanması ilə əlaqədar tərtib edilmiş məruzədə şərh olunmuşdur. Məsələn, həmin məruzədə istehsal fondlarının və onlardan istifadənin səmərəliliyinin artmasından asılı olaraq milli gəlirin artım modeli əksini tapmışdı. Bu iş müasir iqtisadi artım nəzəriyyəsinin bir sıra müddəalarını, o cümlədən xarici ölkələrdə qəbul edilmiş müddəaları qabaqlamışdır.

Bərpa edilə bilən və tükənən resurslara, sabit və dəyişkən texnologiyalara əsaslanan (resursların əvəzedicilərinin tətbiqi ilə), eləcə də əhalinin sayının idarə edilə bilən dəyişən kimi çıxış etdiyi inkişaf modelləri işlənib hazırlanır.

Müasir dövrdə xalq təsərrüfatının perspektiv inkişafı proqnozlaşdırılan və müvafiq parametrləri tədqiq edilən vaxt yerli iqtisadçılar iqtisadi artım nəzəriyyəsi modellərindən istifadə edirlər. Burada iqtisadiyyatın inkişaf sürətini hesablamaq üçün istehsalın, elmin və texnikanın ən mühüm sahələrinə kapital qoyuluşlarının, eləcə də təsərrüfat mexanizminin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin səmərəliliyini əlaqələndirən modellərdən istifadə edirlər.

Qərbdə müasir iqtisadi ədəbiyyatda iqtisadi artım nəzəriyyəsinin iki əsas istiqaməti əks etdirilmişdir: "neoklassik" və "keynsçi" istiqamət ("neokeynsçilik"). Bu istiqamətlərdən birincisi tam məşğulluğa meyil edən, çevik qiymət amilləri və mükəmməl rəqabətlə səciyyəvi olan mücərrəd "sabit iqtisadiyyat" modellərinə əsaslanır. İkinci istiqamət isə kapitalist iqtisadiyyatını prinsip etibarilə qeyri-sabit ("bıçaq tiyəsi üzərində balanslaşan") iqtisadiyyat hesab edir. Burada təhlil iqtisadiyyatın qeyri-sabitliyi və işsizlik problemlərinə yönəlmişdir.

İQTİSADİ ARTIMIN BAZAR SİSTEMİ – insanların fəaliyyətinin əlaqələndirilməsi, onların aktivliyinin artırılması və tələbatlarının ödənilməsi üçün iqtisadi resursların səmərəli seçilməsinə və istifadəsinə imkan verir. Bazar sisteminin ən vacib ünsürləri tələb, təklif, qiymət və rəqabətdən ibarətdir. Bu ünsürlərdən birinin mövcud olmaması bazar sisteminin fəaliyyətini dayandırır və öz yerini digər sistemə verir.

İQTİSADİ ARTIMIN ƏNƏNƏVİ SİSTEMİ – milli adət və ənənələrə, həmçinin, etik qaydalara və dini etiqadlara əsaslanaraq iqtisadiyyatın inkişaf etdirilməsi prosesi.

İQTİSADİ ARTIMIN QARIŞIQ SİSTEMİ – resursların bölgüsünün müxtəlif formalarının tətbiqinə əsaslanır. İnzibati sistemdə resursların bölgüsündə mərkəzi plan orqanları, bazar sistemində sahibkarlar, qarışıq sistemdə isə həm mərkəzi plan orqanları, həm də sahibkarlar iştirak edirlər. Bu sistemin spesifik xüsusiyyəti ondan ibarətdir ki, iqtisadiyyat nə öz-özünə tənzimlənir, nə də mərkəzləşdirilmiş formada həyata keçirilir.

İQTİSADİ ARTIMIN MƏRHƏLƏLƏRİ NƏZƏRİYYƏSİ – Amerika iqtisadçısı, sosioloq və tarixçisi Uolt Rostou 1960-cı ildə özünün iqtisadi artım dövrü nəzəriyyəsini "İqtisadi artım dövrləri: neokommunist manifesti" kitabında dürüst ifadə etmişdir. Burada artımın beş əsas dövrü təsvir edilir:

– ənənəvi cəmiyyət;
– yüksəliş üçün zəminlərin yaradılması dövrü;
– yüksəliş (irəliləyiş, uçuş);
– yetkinliyə doğru hərəkət;
– yüksək kütləvi istehlak əsri.

Bu mərhələlər əsasən texnikanın inkişaf səviyyəsi, təsərrüfatın sahələr üzrə strukturu, milli gəlirdə yığımın xüsusi çəkisi, əmtəə və xidmətlər istehlakının strukturu kimi texniki-iqtisadi xarakteristikaların tətbiq edilməsi hesabına fərqlənir.

Rostounun fikrincə, **birinci mərhələdə**, yəni ənənəvi cəmiyyətdə (o cümlədən, feodalizm dövründə də) əmək qabiliyyətli əhalinin 3/4 hissəsindən çoxu ərzaq istehsalı ilə məşğuldur, milli gəlirdən əsasən qeyri-məhsuldar istifadə edilir, siyasi hakimiyyət torpaq mülkiyyətçilərinə və ya mərkəzi hökumətə məxsusdur.

İkinci mərhələ yüksəlişə keçid mərhələsidir: üç qeyri-sənaye sahəsində – kənd təsərrüfatı, nəqliyyat və xarici ticarətdə mühüm dəyişikliklər baş verir.

Üçüncü mərhələ – yüksəliş – nisbətən kiçik zaman fasiləsini (2-3 ildən bir neçə onilliyə qədər) əhatə edir (sənaye inqilabı). Bu dövrdə kapital qoyuluşu yüksək sürətlə həyata keçirilir, adambaşına məhsul istehsalı xeyli artır, yeni texnikanın tətbiqi sürətlənir. İnkişaf əvvəlcə sənaye sahələrinin kiçik bir qrupunu (liderlik edən halqanı) əhatə edir və yalnız sonralar bütövlükdə iqtisadiyyata şamil edilir. Artımın avtomatik, özözünü dəstəkləyən olması üçün, birincisi, investisiyaların milli gəlirdə nisbi payının kəskin artması; ikincisi, bir və ya bir neçə sənaye sahəsinin sürətlə inkişaf etməsi və üçüncüsü, iqtisadiyyatın modernləşdirilməsini dəstəkləyən şəxslərin mühafizəkarlar – ənənəvi cəmiyyətin tərəfdarları və müdafiəçiləri üzərində qələbə qazanması zəruridir.

Yetkinliyə (sənaye cəmiyyətinə) doğru hərəkət dövrü Rostou tərəfindən sürəkli texniki tərəqqi mərhələsi kimi səciyyələndirilir. Urbanizasiya prosesi inkişaf edir, ixtisaslı əməyin nisbi payı artır, sənayeyə rəhbərlik ixtisaslı idarəçilərin – menecerlərin əlində cəmləşir.

Beşinci mərhələdə (yüksək kütləvi istehlak mərhələsində) təklifdən tələbə, əmtəə və xidmətlərin istehsalından onların kütləvi istehlakına doğru hərəkət baş verir.

U.Rostou tsikllər nəzəriyyəsi üzərində işi davam etdirərək "Siyasət və artım mərhələləri" adlı kitab (1971) yazmış, həmin kitaba tsiklin sayca altıncı olan daha bir mərhələsini daxil etmişdir: həyatın keyfiyyətinin axtarışı mərhələsi. Bu mərhələdə insanın mənəvi inkişafına böyük əhəmiyyət verilir.

Dövrlərin davamlığı kifayət qədər müxtəlifdir. **Birinci dövr** daha uzun idi və dünyanın bəzi ölkələri hələ də onu yaşayır. **İkinci dövr** Qərbi Avropada XVII əsrin sonu – XVIII əsrin əvvəllərini əhatə edir. **Üçüncü dövr** İngiltərədə toxuculuq sənayesinin artımı nəticəsində 1783-cü ildən sonra iki onilliyi, Fransa və ABŞ üçün 1960-cı ildən əvvəl bir neçə onilliyi, Almaniya üçün – dəmir yollarının tikintisinin təsiri altında XIX əsrin ikinci yarısını əhatə etmişdir. Rusiya və Kanada üçün bu dövr yeni hasilat sahələrinin və kənd təsərrüfatının artım bazasında 1914-cü ildən əvvəlki dövrü; Hindistan və Çin üçün 1950-ci ildən sonrakı dövrü əhatə etmişdir. Rostounun təsnifləşdirməsinə əsasən, **dördüncü dövrün** hüdudu: İngiltərə üçün 1850-ci ili, ABŞ üçün 1900-cü ili, Almaniya və Fransa üçün 1910-cu ili, Yaponiya üçün 1940-cı ili, SSRİ və Kanada üçün isə 1950-ci ili əhatə etmişdir. Nəhayət, beşinci dövr Rostou tərəfindən 70-ci illərdə ancaq ABŞ üçün baxılmışdı. Bu dövrün əsasını avtomobil sənayesi, şəhərətrafı tikinti, yolların tikintisi və xüsusən xidmət sahəsi təşkil etmişdi. Bu dövrə keçid kənd təsərrüfatında məşğul olan işçi qüvvəsinin ixtisar olunması, hakimiyyətin mülkiyyətçilərdən menecerlərə yerdəyişməsi, dəyərlərin dəyişilməsi və s. ilə müşayiət olunurdu.

Rostounun nəzəriyyəsi dünyanın müxtəlif regionlarında iqtisadi inkişafın gedişini və onun perspektivlərini anlamağa kömək edir. Eyni zamanda bu nəzəriyyədə inkişafın bir dövrü – sənaye inqilabının hazırlanması və yayılması dövrü mütləqləşdirilir və ölkələrin çoxunun sosial-iqtisadi inkişafının postsənaye dövrü lazımınca qiymətləndirilmir.

İQTİSADİ ARTIMIN MƏRHƏLƏLƏRİ NƏZƏRİYYƏSİ

DÜNYANIN 20 ƏN BÖYÜK ÖLKSİNİN İQTİSADİ GÖSTƏRİCİLƏRİ

(2010-cu il)

№	Ölkə	Əhalinin sayı, mln. adam	ÜDM (AQP-yə görə), mlrd. dollar	Hər nəfərə ÜDM, dollar	ÜDM-in strukturu, %-lə		
					sənaye	xidmət	kənd təsər-rüfatı
1	Avstraliya	21,5	839	39 020	26,8	69,8	3,4
2	Braziliya	196,8	2113	10 740	28	65,3	6,7
3	Böyük Britaniya	62,2	2160	34 730	24,2	74,5	1,3
4	Almaniya	83,0	2807	33 840	30,1	69,1	0,8
5	Hindistan	1184	3876	3 270	29	53,4	17,6
6	İndoneziya	243	993	4 090	48,1	37,5	14,4
7	İran	75,1	889	11 840	41,9	47,8	10,3
8	İspaniya	45,9	1394	30 360	29	67,6	3,4
9	İtaliya	58,1	1721	29 630	27	71	2
10	Kanada	34,0	1321	38 850	28,4	69,6	2
11	Çin	1339,2	9845	7 350	48,6	40,1	11,3
12	Meksika	112,5	1668	14 830	35,2	61	3,8
13	Niderland	16,5	663	40 080	25,5	72,9	1,6
14	Polşa	38,1	707	18 550	31,2	64,3	4,5
15	Rusiya	141	2161	15 330	37,6	57,7	4,7
16	ABŞ	309,6	14 840	47 920	19,2	79,6	1,2
17	Türkiyə	76,8	913	11 890	27,5	63,8	8,7
18	Fransa	62,9	2159	34 310	20,4	77,6	2
19	Cənubi Koreya	49,5	1421	28 700	39,4	57,6	3
20	Yaponiya	126,8	4228	33 340	26,3	72,3	1,4

Qızıl və valyuta ehtiyatları: mlrd. dollar	İllik inflyasiya, %-lə (deflyasiya*)	Əmək resursları, mln. adam	Məşğulluğun strukturu, %-lə			İşsizliyin səviy-yəsi,%-lə
			sənaye	xidmət	kənd təsər-rüfatı	
32,9	2,8	11,3	21	75	4	4,2
193,8	4,0	93,7	14	66	20	7,9
53	2,3	31,2	18,2	80,4	1,4	5,6
138	0,7	43,6	29,7	67,8	2,5	7,8
254	8,6	523,5	12	28	60	9,1
51,6	5,1	112	18,6	39,3	42,1	8,4
96,6	14,0	24,4	31	45	24	12,5
20,3	0,7	22,9	26,4	69,5	4,1	11,3
105,3	0,9	25,1	30,7	65,1	4,2	6,8
43,9	1,4	18,2	22	76	2	6,2
1960	2,4	807,3	25	32	43	4
95,3	3,3	45,3	25,7	59,2	15,1	4
28,5	0,2	7,7	18	80	2	4
62,2	2,8	71	29,2	53,4	17,4	9,8
427,1	9,4	75,7	27,4	62,4	10,2	6,4
77,7	1,0	154,3	22,6	76,8	0,6	5,8
73,7	7,0	24,1	24,7	45,8	29,5	11
102,9	0,9	28	24,3	71,9	3,8	7,4
201,2	2,6	24,4	25,1	67,7	7,2	3,2
1000	-0,2*	66,5	27,9	66,4	5,7	4

Mənbə: A.P.Oleynik. Dünya ölkələri rəqəmlərdə/2011

İQTİSADİ ARTIMIN ZƏMANƏTLİ SÜRƏTİ – yığımların və planlaşdırılmış investisiyaların zaman etibarilə bərabərliyini təmin edən və dinamik şəraitdə tarazlaşmış milli gəlir haqqında Keynsin ideyasına uyğun milli gəlirin artım sürəti.
İqtisadi artımın zəmanətli sürəti yığım meylinin ən yüksək qiymətinin kapital tutumunun artımına nisbəti kimi təyin edilir və beləliklə, modelin mərkəzi elementini təşkil edir.

İQTİSADİ BLOKADA – ölkənin daxili və ya xarici siyasətini dəyişmək məqsədilə onun iqtisadi ticarət, maliyyə, kredit və s. əlaqələrin kəsilməsi yolu ilə xarici iqtisadi cəhətdən təcrid olunması. İqtisadi blokada adətən hərbi (hətta hərbi əməliyyatlar olmadan da), o cümlədən dəniz blokadası ilə əlaqəli çıxış edən siyasi blokada ilə müşayiət olunur. İqtisadi blokadaya misal olaraq 1806-1807-ci illərdə I Napoleonun İngiltərəyə qarşı təşkil etdiyi kontinental blokadanı göstərmək olar. BMT Nizamnaməsində (m.39, 41) iqtisadi blokadaya BMT-nin üzvü olan dövlətlərin sülhü bərpa və müdafiə etmək üçün həyata keçirdikləri kollektiv tədbir kimi baxılır. Müasir dünyada ayrı-ayrı ölkələrə nüfuzlu beynəlxalq qurumlar, böyük dövlətlər təzyiq göstərmək üçün iqtisadi blokada amilindən istifadə edirlər.
İqtisadi blokada praktikada blokadada saxlanılan ölkənin bütün iqtisadi əlaqə formalarına şamil edilən tam, yaxud onun bir və ya bir neçə əlaqə formalarını əhatə edən natamam şəkildə ola bilər.
İqtisadi blokadanın natamam formasına misal olaraq, dövlətin, dövlətlər qrupunun və ya beynəlxalq maliyyə təşkilatlarının digər ölkəyə və ya ölkələr qrupuna kredit verməkdən imtina etməsi çıxış edə bilər. Bir qayda olaraq, kredit blokadası kreditor ölkənin borclu ölkəyə iqtisadi və siyasi təzyiq vasitəsi kimi çıxış edir. İqtisadi blokada tarixi təcrübədə dəfələrlə istifadə edilmişdir.
Tam iqtisadi blokadaya misal kimi, Fransa başda olmaqla, bir neçə Avropa ölkəsinin 1806-1807-ci illərdə Böyük Britaniyaya qarşı həyata keçirdikləri kontinental blokadanın Birinci və İkinci Dünya müharibələrində də geniş istifadə edilməsini göstərmək olar. 1914-1918-ci illərdə Antanta ölkələri Almaniyaya qarşı iqtisadi blokada tətbiq etmişlər. Bu ölkəyə hərbi təyinatlı strateji xammalın idxalı qadağan olunmuşdur.
İkinci Dünya müharibəsindən (1939-1945-ci illər) sonra BMT bazasında öz irticaçı siyasətini dəyişməyə məcbur etmək məqsədilə irticaçı dövlətə kollektiv təsir mexanizmi yaradılmışdır. BMT-nin Nizamnaməsi iqtisadi blokadanı sülhün bərpası və qorunub saxlanması üzrə kollektiv təsir vasitəsi kimi nəzərdən keçirir. Bundan əlavə, BMT Nizamnaməsi onun Təhlükəsizlik Şurasının qərarı ilə həyata keçirilən hərbi və dəniz blokadasını iqtisadi blokada forması kimi nəzərdən keçirir. Bütün bunlar isə BMT-nin fövqəladə qüvvələri tərəfindən reallaşdırılır.

İQTİSADİ COĞRAFİYA – iqtisadi və ictimai coğrafiya – coğrafiya elmləri kompleksinə daxil olan ictimai elm; ictimai istehsalın ərazi üzrə yerləşdirilməsi qanunauyğunluqlarını, onun inkişaf şəraiti və xüsusiyyətlərini, müxtəlif ölkə və rayonlarda yerləşdirilməsini öyrənir. İqtisadi coğrafiya yalnız istehsalın yerləşdirilməsini deyil, həm də təkrar istehsal proseslərini tədqiq edir. İqtisadi coğrafiya əhalini məhsuldar qüvvə və maddi nemətlərin istehlakçısı kimi öyrənməklə də məşğul olur. İqtisadi-coğrafi tədqiqatlar təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi problemlərinin kompleks öyrənilməsinin mühüm hissəsidir. İqtisadi coğrafiya fiziki coğrafiya və müəyyən ərazidə təbii şəraiti öyrənən digər elmlərlə, həmçinin bir sıra ictimai elmlərlə (iqtisadiyyatın, etnoqrafiya, demoqrafiya və s.) sıx əlaqədardır. İqtisadi coğrafiyanın ən mühüm kateqoriyalarından biri coğrafi ərazi) əmək bölgüsüdür; məhsuldar qüvvələrin yerləşdirilməsi, iqtisadi-coğrafi mövqe, ərazi-istehsal kompleksləri və s. anlayışları da var. İqtisadi coğrafiya ümumi iqtisadi coğrafiyaya, sahə iqtisadi coğrafiyasına, dünya təsərrüfatı coğrafiyasına və regional iqtisadi coğrafiyaya bölünür. Sahə iqtisadi coğrafiyasının sənaye coğrafiyası, kənd təsərrüfatı coğrafiyası, nəqliyyat coğrafiyası, xidmət coğrafiyası, təbii ehtiyatlar coğrafiyası və s. sahələri.
Azərbaycanda iqtisadi coğrafiya tədqiqatları, ilk növbədə, ayrı-ayrı xalq təsərrüfatı sahələrinin inkişafı və yerləşdirilməsinin öyrənilməsinə, iqtisadi-coğrafi rayonlaşdırma məsələlərinin işlənilməsinə və respublikalarda əməli surətdə həyata keçirilməsinə yönəldilmişdir. Ölkədə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsinə həsr edilmiş iqtisadi xəritələrin tərtibi və nəşri iqtisadi coğrafiya tədqiqatlarında mühüm yer tutur. İqtisadiyyatın müxtəlif sahələrinin, əhali coğrafiyasının, xidmət coğrafiyasının öyrənilməsinə, təbii şəraitin və ehtiyatların (xüsusilə torpaqların) iqtisadi cəhətdən qiymətləndirilməsinə dair xeyli iş görülmüşdür. Ölkəmizdə iqtisadi coğrafiyanın inkişafında akademik Həsən Əliyevin, Əbdülrəhman Hacızadənin, Balacaxanım Nəzirovanın, Balaca Əbdürəhmanovun, Asəf Nadirovun, Nəbi Nəbiyevin, Şövqi Göyçayskinin, Tapdıq Həsənovun, Zahid Məmmədovun və başqalarının böyük xidmətləri olmuşdur.

İQTİSADİ DƏYƏR – məhsul və xidmətlərin keyfiyyətindən, istehlak bazarının tələb və təklifindən, bazarın yaxın və uzaqlığından asılı olaraq satıcı və alıcı arasında razılaşdırılmış qiymətin kəmiyyəti ilə səciyyələndirilən anlayış.

İQTİSADİ DİNAMİKA NƏZƏRİYYƏSİ VƏ YA DİNAMİK İQTİSADİ NƏZƏRİYYƏ – müəllifi avstriyalı iqtisadçı və sosioloq Yozef Aloiza Şumpeterdir (1883-1950).
Y.Şumpeter bazar sistemində qiymətlərin dinamikasını qüsursuz izah edən neoklassik nəzəriyyəni iqtisad elminin zirvəsi sayırdı. Bu halda o bir faktı ciddi nöqsan hesab edirdi ki, bazar sistemində təsərrüfat proseslərinin öyrənilməsi zamanı statik yanaşma əsas yerlərdən birini tutur, sistemin hərəkəti, inkişafı fenomeni isə izah edilməmişdir. Y.Şumpeterin fikrincə, statik model real vəziyyətə uyğun deyildir. İnkişaf nəzəriyyəsində iqtisadi həyat dinamik və daim dəyişən proses kimi tədqiq edilməlidir. Bununla əlaqədar Y.Şumpeter belə hesab edir ki, ortodoksal yanaşmadan fərqli olaraq onun təhlilinin mərkəzi elementi sistemin dinamikası və bu inkişafı doğuran daxili amillərdir.
Y.Şumpeterə görə, kapitalizmin dinamikası ilk növbədə texniki tərəqqi ilə bağlıdır. Tərəqqinin əsası innovasiyalar – əmtəələrin istehsalı və satışı üsullarında köklü dəyişikliklərdir. Bu halda tarazlıq pozulur, qərarlaşmış qiymətlər, xərclər, gəlirlər sistemi dəyişir. Son nəticədə dövriyyə pozulur, rentabelli olmayan istehsalatlar sıradan çıxır, bu isə innovasiya mexanizmini hərəkətə gətirir və bazar prosesini fasiləsiz hərəkət vəziyyətində saxlamağa kömək edir.
Şumpeterin konsepsiyasının əsas xüsusiyyəti ondan ibarət idi ki, o, dinamik dəyişikliklərin səbəblərini təhlil edərkən insan amilinə xüsusi diqqət yetirirdi. Şumpeterin nəzəriyyəsində sahibkar öz funksiyalarına görə kapitalistdən və fəhlədən fərqli iqtisadi subyekt kimi inkişafın hərəkətverici qüvvəsi qismində çıxış edirdi. Məhz bu səbəbdən o, iqtisad elmində ilk dəfə olaraq "kapitalist" və "sahibkar" anlayışları arasında keyfiyyət fərqi olduğunu bildirir.
Sahibkarın sosial statusu indi artıq mülkiyyət hüquqları və kapitalın həcmi ilə xarakterizə olunmur. Sosial status xarakterin xüsusi keyfiyyətləri deməkdir: təşəbbüskarlıq, uzaqgörənlik, risk etməyə hazırlıq. Sahibkar mənfəət ardınca qaçarkən istehsal amillərinin başqa kombinasiyasını yaradır, yeni əmtəələrin əmələ gəlməsinə kömək edir, yeni satış bazarlarını mənimsəyir, istehsalın mütərəqqi metodlarını və idarəetmənin yeni formalarını tətbiq edir. Yekunda sahibkar nümayiş etdirdiyi təşəbbüsə görə mənfəət şəklində haqq, bütövlükdə ölkə təsərrüfatı isə inkişaf üçün güclü təkan alır.

İQTİSADİ DİNAMİKANIN EHTİMAL MODELLƏRİ – iqtisadi riyazi modellər, iqtisadiyyatın determinantlaşmış deyil, ehtimal sistem olduğu fakt əsasında qurulur. Bu o deməkdir ki, belə modellər təsadüfi elementləri özündə cəmləyir. Ona görə də model proqnoz göstəriciləri ancaq müəyyən ehtimalda iqtisadi proseslərin faktiki göstəriciləri ilə üst-üstə düşə bilər. Belə ki, dinamik modellər iqtisadiyyatı inkişafda təsvir edirlər (onun vəziyyətini müəyyən ana (zamana) xarakterizə edən statistik göstəricilərindən fərqli olaraq).
Əgər modelin heç olmazsa bir dəyişkənliyi digər dəyişkənliklərin aid olduğu vaxta deyil, zamanca başqa vaxta aiddirsə, model dinamik hesab olunur.
İqtisadiyyat ehtimallar sistemidir (digər adları: stoxastik, statistik). Bu o deməkdir ki, prinsipial olaraq, hər bir zaman baş verən bütün proseslər haqqında tamamilə dəqiq məlumatlar əldə etmək, həm də gələcəyi tam dəqiqliyi ilə görmək mümkün deyil.

Müharibədən sonrakı dövrlərdə keçmiş SSRİ-nin xalq təsərrüfatı planlaşdırma metodologiyasında iqtisadiyyatın ehtimal xarakteri nəzərə alınmağa başlandı. Bu, o vaxtkı sosialist planlaşdırması nəzəriyyəsinin böhranının başlanğıcı oldu.

İqtisadiyyatın təsərrüfatçılığın bazar sisteminə keçməsi ilə, bazarın dövlət tənzimlənməsinin səmərəli metodlarının mənimsənilməsi və indikativ planlaşma ilə (dəqiqləşdirilmiş direktiv planlaşmanın əvəzinə) iqtisadiyyatın idarə edilməsində stoxastik elementlərin rolu güclənməkdədir.

Qeyri-müəyyənlik iqtisadi proseslər haqqında informasiyanın xarakterindən irəli gəlir. Onun qaçılmaz qeyri-dəqiqliyi, gecikməsi, xalq təsərrüfatının müxtəlif halqalarında "maraqların razılaşdırılmaması" zamanı isə onun "bilərəkdən" dəyişdirilməsi (təhrif edilməsi) və gizlədilməsi ilə yaranır. Planlaşdırılmada göstərilən hallar "göstərici çəngəlləri"nin tətbiqini (məsələn, indikativ planlarda), həmçinin, istehsal və qeyri-istehsal resurslarının zəruri ehtiyatlarının müəyyən edilməsi zərurətini yaradır. Uyğun hesablaşmaların aparılmasının mümkünlüyü iqtisadiyyatın qurulmasının iyerarxik strukturunun tərkibinə əsaslanır. Onun aşağı səviyyəsində əvvəldən "görünməyən" ayrı-ayrı çoxsaylı dəyişikliklər daha yüksək səviyyələrdə kütləvi qanunauyğun hal kimi təsvir olunur ki, bu da bir sıra ehtimal xarakteristikaları ilə təsvir olunur.

Bütün bu səbəblər üzrə ehtimal modelləri determinantlaşdırılmış modellərə nisbətən iqtisadi proseslər və halların mövcud tərkibini daha yaxşı əks etdirir. Başqa sözlə, onlar iqtisadi sistemin ehtimallarına daha çox adekvatdır, ona görə də iqtisadiyyatın idarə edilməsi praktikasında və tədqiqatlarda onların tətbiqi genişlənməlidir.

Real dinamik modellərdə istifadə olunan müvəqqəti sıralar üç elementi – trend, mövsümi dəyişən kəmiyyətləri və təsadüfi dəyişən kəmiyyətləri (qalıq) özündə birləşdirir; bazar iqtisadiyyatının bir çox modellərində daha bir tərkib ünsür – tsiklik ünsür – ayrılır. Ekzogen kəmiyyət kimi, məsələn, statistik yolla aşkar edilən makroiqtisadi asılılıqlar, demoqrafik proseslər haqqında məlumatlar və s. çıxış edə bilər. Endogen kəmiyyət kimi artım sürəti, iqtisadi səmərəlilik göstəriciləri və s. çıxış edə bilər.

Dinamik modellərin riyazi təsviri diferensial tənliklər sisteminin (fasiləsiz vaxt modellərində), fərq tənliklərinin (diskret vaxtlı modellərdə), həmçinin, adi cəbri tənliklər sisteminin köməyi ilə həyata keçirilir. Dinamik modellərin köməyilə iqtisadi proseslərin planlaşdırılmasının və proqnozlaşdırılmasının aşağıdakı vəzifələri yerinə yetirilir: iqtisadi sistemin trayektoriyasının, vaxtın verilən anına onun vəziyyətinin müəyyən edilməsi, sistemin çevikliyinin təhlili, struktur irəliləyişlərin təhlili.

İQTİSADİ DİPLOMATİYA – beynəlxalq iqtisadi münasibətlər sistemi subyektlərinin iqtisadi maraqlarının təmin edilməsini həyata keçirən fəaliyyətlərin məcmusu. Dünya praktikasında iqtisadi diplomatiyadan milli maraqların təmin edilməsi üçün fəal istifadə olunur. İqtisadi diplomatiyanın istifadə olunması zamanı bir çox prinsiplər meydana gəlir ki, onları da aşağıdakı kimi təsnifləşdirmək olar:

1. İqtisadi diplomatiya iqtisadi-riyazi modellər və hesablamalar əsasında aparılmalıdır. İqtisadi diplomatiyanın uğuruna iddialı olan dövlət analitik təhlil metodları ilə hesablanmış sistemli məlumatları iqtisadi diplomatik metod və üsullarla tətbiq etməklə, ölkədaxili və beynəlxalq aləmdə iqtisadi siyasətini formalaşdırmalıdır.
2. İqtisadi diplomatik fəaliyyət zamanı cəmiyyət daxilindəki qarşılıqlı asılılıq münasibətləri nəzərə alınmalıdır.
3. İqitsadi diplomatik üsul və vasitələrin yerində və zamanında tətbiq edilməsi üçün müvafiq qurumlar ölkənin sosial-iqtisadi vəziyyətə təsiri və baş verə biləcək hadisələrin proqnozlaşdırılmasını həyata keçirməlidirlər.
4. İqtisadi diplomatiya fəaliyyəti zamanı dövlət milli maraqların əldə olunması üçün optimal orta nöqtənin tapılmasını özünə başlıca hədəf seçməlidir.
5. Dövlətlər iqtisadi diplomatik fəaliyyətləri zamanı dünyanın beynəlxalq hüquq normalarına uyğun inkişafını nəzərə almalıdır.
6. İqtisadi diplomatiya elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə etdiyi təqdirdə daha səmərəli olur və reallıqları əks etdirir.

İqtisadi diplomatiyanın özünə məxsus metodologiyası vardır. Burada hesablı məlumatlar əldə

edildikdən sonra göstərilən fəaliyyət müstəvisinin iqtisadi diplomatik iş aparan tərəfə hansı gəlirlər verə biləcəyi araşdırılır. Daha sonra adı keçən məqamlar öyrənilib müvafiq iqtisadi-diplomatik metodologiya hazırlanır. İşin daha uğurlu aparılması üçün istənilən zaman və məkan üçün bir neçə alternativ metod və üsullar tətbiq edilir. Yekun mərhələ isə iqtisadi-diplomatik fəaliyyətin nəticələrinin təhlili olur. Bu mərhələ araşdırma-kəşfiyyat işinin və metodologiyanın düzgün aparılmasını ya təsdiq, ya da ki, inkar edir.

İqtisadi diplomatiya ilə bir elm sahəsi kimi dünyanın müxtəlif ölkələrində məşğul olurlar. Bunların arasında K.Karyer, L.M.Kapitsa, P.Baranay, V.D.Şetinin, D.A.Dekterev və başqalarını göstərmək olar. İqtisadi diplomatiya sahəsində müxtəlif ölkələrdə olduğu kimi Azərbaycanda da ayrı-ayrı tədqiqatlar aparılmışdır. Bu sahədə ilk sistemli iş i.e.d. Amil Məmmədəli oğlu Məhərrəmov tərəfindən görülmüşdür.

İQTİSADİ DİSPROPORSİYALAR (qeyri-mütənasib, uyğunsuzluq) – milli istehsalda və təkrar istehsalda proporsiyaların pozulması. Bunların nəticəsində, bütövlükdə, iqtisadiyyatda və ya onun bölmələrində fasilələr yaranır. İqtisadi disproporsiyalar təkrar istehsala və ya onun fazalarına (istehsal və tədavül prosesinə), iqtisadi bölmələrə aid olur; ayrı-ayrı sahələrə, milli istehsalın müxtəlif tərəflərinə və hissələrinə aid ola bilər; regional, yerli xarakter daşıya bilər, ayrı-ayrı müəssisələrdə yarana bilər.

Ümumi və xüsusi iqtisadi disproporsiyalar fərqləndirilir.

Ümumi iqtisadi disproporsiyalar bütün iqtisadiyyatda proporsionallığın pozulması ilə əlaqədardır, bir qayda olaraq, uzunmüddətli xarakter daşıyır. Xüsusi iqtisadi disproporsiyalar lokal, qısamüddətli xarakter daşıyır. Ümumi iqtisadi disproporsiyalara misal olaraq XX əsrin birinci yarısında iqtisadi ifrat istehsal böhranlarında daha kəskin təcəssüm edən sənaye cəhətdən inkişaf etmiş ölkələrdə istehsalın və istehlakın strukturu arasında disproporsiyanı göstərmək olar.

Bu iqtisadi disproporsiyalar XX əsrin üçüncü qərinəsində yeni dövlət tənzimləmə formaları ilə (əlverişli iqtisadi mühit yaradan) və marketinqlə aradan qaldırılmışdır ki, bunun nəticəsində istehsalın strukturu istehlakın strukturuna daha çox uyğun gəlməsi təmin edilirdi. Ötən əsrin 70-ci illərindən etibarən dünyada baş verən ifrat istehsal böhranları zəifləyən tərəddüd amplitudası ilə tədricən istehsalın tənəzzülünə çevrilərək, azalma istiqamətində gedirdi.

Böhranlı bazar şəraitində tələb və təklif arasında yaranan iqtisadi disproporsiyalar xüsusi iqtisadi disproporsiyalardır. İkinci Dünya müharibəsindən əvvəlki dövrdə mövcud olan son dərəcə yüksək yığım sürəti XX əsrin 80-ci illərinin sonuna kimi özünü göstərən iqtisadi disproporsiyaya – istehlak mallarının istehsalı ("B" qrupu) ilə müqayisədə istehsal vasitələri istehsalının ("A" qrupu) üstün artmasına gətirib çıxardı ki, bu da əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması imkanlarını xeyli məhdudlaşdırdı. İctimai məhsulun təkrar istehsalına (İMTİ) münasibətdə bu: a) birinci bölmənin ikinci bölmə üzərində xeyli üstünlüyündə; b) ikinci bölmənin sahələri üçün birinci bölmənin məhsulunun payının aşağı düşməsində (bu, yüngül sənayenin maddi-texniki bazasını şərtləndirirdi); c) sənayeləşmə dövrü üçün xarakterik olan kapital qoyuluşlarının bölgüsündə mövcud olan uyğunsuzluqların (70-80% yeni əsaslı tikintiyə, 15-20% mövcud istehsalın təzələnməsinə) 80-ci illərdə də davam etməsində (bu isə istehsalın ekstensiv xarakterini, əsas fondların aşınmasını və s. irəlicədən müəyyən edirdi) ifadə olunurdu. Dövlətin iqtisadiyyata optimal qaydada müdaxiləsi, azad bazar münasibətlərinin sistemli şəkildə həyata keçirilməsi şəraitində iqtisadiyyatın qeyri-mütənasib inkişaf imkanlarını xeyli məhdudlaşdırır, normal iqtisadi və sosial mühitin formalaşmasına öz müsbət təsirini göstərir.

İQTİSADİ DÖVRİ NƏŞRLƏR – AMEA-nın xəbərləri (iqtisadiyyat seriyası) iqtisadiyyat sahəsində ilk dövri nəşr olmaqla respublikada iqtisadçı kadrların hazırlanmasında müstəsna rol oynamışdır. Onun səhifələrində bir çox tanınmış iqtisadçı alimlərin məqalələri dərc olunur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə dövri iqtisadi nəşrlərə ciddi ehtiyac yarandı. Bu boşluğu doldurmaq istiqamətində atılan ilk addımlardan biri 1999-cu ildə **"İqtisadiyyat"** qəzetinin yaradıl-



ması oldu. Müstəqil iqtisadi, ictimai-siyasi qəzet Azərbaycan İqtisadçılar İttifaqının orqanıdır. 1999-cu il martın 27-dən Bakıda nəşr olunur. Qəzetin baş redaktoru Aytən Səmədzadədir. Elmi redaksiya şurasına ölkənin aparıcı iqtisadçı alim və mütəxəssisləri daxildir.

Dərc olunduğu gündən başlayaraq, məqsədi və məsləki – iqtisadi həyat barədə doğru, dürüst məlumatları, mütəxəssislərin maraqlı düşüncələrini, təkliflərini geniş oxucu auditoriyasına çatdırmaqdır. Bu gün "İqtisadiyyat" qəzeti özünün peşəkarlığı ilə seçilən mətbu orqanlardan biri hesab edilir. Oxucular qəzetdən təkcə ölkə iqtisadiyyatında deyil, eləcə də dünya iqtisadiyyatında baş verən dəyişikliklər, yeniliklər haqqında məlumat alırlar. "İqtisadiyyat" qəzeti həm də elmi-analitik mətbuat orqanı olaraq çıxış edir. Qəzetdə iqtisadiyyat elminin nəzəri cəhətdən təhlili məsələləri, həmçinin müasir elmi araşdırmaları, müxtəlif elmi baxışlar, yeni təkliflər öz əksini tapmaqdadır. Bu baxımdan qəzet gənc iqtisadçılar, tələbə və magistr, elmi işlə məşğul olanlar üçün də çox əhəmiyyətli sayıla bilər.

"İqtisadiyyat" qəzeti demokratik prinsiplərə sadiqdir. Obyektivliyi qorumağı, reallığı olduğu kimi ictimaiyyətə çatdırmağı qarşısına məqsəd qoymuşdur.

"İqtisadiyyat" qəzeti, həmçinin, dövlətçilik ideyalarına sadiqdir. Ölkə Prezidentinin müəyyən etdiyi iqtisadi-siyasi prinsipləri tam dəstəkləyən bir mətbuat orqanı olaraq fəaliyyət göstərir. Azərbaycan və rus dillərində çap olunan "İqtisadiyyat" qəzeti öz səhifələrində neft sənayesinin dünəni, bu günü və sabahını işıqlandırır. Qəzetdə mütəmadi olaraq vergilər, gömrük sistemlərində aparılan islahatlarla bağlı professional səviyyədə hazırlanmış məqalələr dərc olunur, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin inkişafı prosesi müntəzəm olaraq işıqlandırılır. Qəzetin səhifələrində maliyyə, sığorta və bank sektorunun inkişafı barədə analitik məlumatlar özünəməxsus yer tutur. Rabitə və nəqliyyat sahəsində görülən böyük işlər, dünya standartlarına cavab verən infrastrukturun yaradılması, müasir informasiya texnologiyalarının tətbiqinin işıqlandırılması qəzetin daimi rubrikalarındandır. Milli iqtisadiyyatın aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təminatı məsələlərinə qəzetin səhifələrində mütəmadi olaraq yer verilir. Oxucular tarixi şəxsiyyətlərə, görkəmli elm xadimlərinə həsr olunmuş yazılarla, dünyada baş verən hadisələrlə də bu qəzet vasitəsilə tanış ola bilərlər. Ölkəmizdə formalaşan əlverişli sahibkarlıq mühiti, iqtisadi fəallığın yüksəldilməsi, investisiya siyasətinin reallaşdırılması kimi mühüm məsələlərə həsr olunmuş materiallar oxucuların böyük marağına səbəb olur. Qloballaşan dünyada ətraf mühitin mühafizəsi, ekoloji dayanıqlığın təminatı problemləri xüsusi aktuallıq kəsb edir. Bütün bunlarla yanaşı, qəzetin səhifələrində vaxtaşırı olaraq mədəni irsimizin təbliğinə, folklor nümunələri ilə tanışlığa, elmi-tarixi araşdırmalara müntəzəm yer verilir. Qəzetdə milli-mənəvi dəyərlərin qorunması, ana dilində mövcud olan qayda-qanunlardan kənara çıxmamaq, zəngin tariximiz, milli mədəniyyətlə bağlı həqiqətləri ölkə ictimaiyyətinə çatdırmaq əsas məqsədlərdən biridir.

"Əsrin müqaviləsi"nin 10 illiyi, Azərbaycan-Rusiya iqtisadi forumu ilə bağlı xüsusi buraxılışlar, Bakı-Tiblisi-Ceyhan neft-boru kəmərinin açılışına həsr olunmuş "Xəzər nefti Azərbaycanın strategiyası, regionun gələcəyi", Böyük Vətən müharibəsində qələbənin 60 illiyinə həsr olunmuş "Bakı nefti olmasaydı, faşizm üzərində qələbə olmazdı" (rus dilində), 65 illiyinə həsr olunmuş "Böyük Vətən müharibəsi illərində qaliblər" (rus dilində), Azərbaycan-Belarus respublikaları arasında əməkdaşlığa həsr olunmuş "Azərbaycan və Belarus: 15 il dostluq və əməkdaşlıq" (rus dilində), "Azərbaycan-Belarus: strateji əməkdaşlıq" (rus dilində) kimi xüsusi buraxılışlar, eləcə də "İqtisadiyyat" qəzeti-



"İqtisadiyyat" qəzetinin nəşrləri

nin Azərbaycan İqtisadçılar İttifaqı və digər qurum və təşkilatlarla birgə keçirdiyi konfranslar, dəyirmi masalar və s. bu illər ərzində qəzetin fəaliyyətinin real göstəriciləridir.

"İqtisadiyyat" qəzetinin ilk nəşrindən 13 il ötməsinə baxmayaraq, bu illər ərzində – ölkə mətbuatında qəzet və jurnal bolluğu şəraitində öz sözünü demək, başqalarını təkrarlamamaq, öz mövqeyini qoruyub saxlamaq qəzetə nüfuz qazandırmışdır. Bu mətbu orqan hazırda müasir iqtisadi ideya və baxışların əsl carçısına, peşəkar iqtisadçıların, eləcə də Azərbaycanın sosial-iqtisadi problemlərinə aid biliklərini genişləndirən bütün oxucuların dostuna və köməkçisinə çevrilmişdir.

"Azərbaycanın vergi jurnalı" 2003-cü ildə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən təsis edilmişdir. Müstəqil, resenziyalı, aylıq elmi nəşrdir.

Jurnal beynəlxalq ISSN (Beynəlxalq Standart Seriya Nömrəsi) mərkəzində qeydiyyata alınmış (ISSN – 2219-8733) və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə iqtisadiyyat elmləri üzrə elmi nəşrlər siyahısına daxil edilmişdir. Baş redaktor iqtisad elmləri doktoru, professor Elşən Hacızadədir.

Jurnalın əsas missiyasını vergiqoymanın müasir problemlərini və vergi işinin ümumkonseptual məsələlərini optimal nəzəri və praktik uzlaşmada elmi-metodoloji cəhətdən ifadə edən məqalələrin dərci təşkil edir. Bununla yanaşı, jurnalda iqtisadiyyatın digər sahələrilə bağlı yazılmış orijinal məqalələrə də yer verilir. Jurnal alim və mütəxəssislərə, doktorant və dissertantlara iqtisad elmi sahəsində tədqiqatlarını dərc etdirmək üçün geniş meydan açır.

Jurnalda Azərbaycan, türk, ingilis və rus dillərində məqalələr dərc edilir.


"Azərbaycanın vergi jurnalı" ölkənin iqtisad elmi ilə bağlı strukturları olan bütün elm və təhsil ocaqlarına, Türkiyə və Rusiyanın mərkəzi kitabxanalarına göndərilir.

Jurnalın elmi sanbalını artırmaq, oxucu auditoriyasını daha da genişləndirmək, onu respublikamızda öz kateqoriyasında öncül mövqeyə çıxarmaq və geniş beynəlxalq elmi ictimaiyyətin diqqətinə təqdim etmək qarşıya məqsəd qoyulmuşdur. Buna görə də jurnalın beynəlxalq xülasələndirmə sistemlərinə daxil edilməsi, onun nüfuzlu elmi bazalar tərəfindən indeksləşdirilməsinin təmin edilməsi sahəsin-




də məqsədyönlü iş aparılır.
Jurnal 1800 tirajla çıxır və 20 mindən çox oxucu və istifadəçi auditoriyasını əhatə edir. İqtisadi dildə desək, jurnal dəyişən təşkilat funksionallığı daşıyır. Yeniləşmə və modernləşmə onun fəaliyyət leytmotivini təşkil edir.
Jurnal həmçinin vergi işi və vergilərlə bağlı konfrans və seminarların, sərgi və müsabiqələrin, elmi eksperimentlər üzrə sosial sorğuların, iqtisad elmləri üzrə beynəlxalq aləmdə tanınmış nüfuzlu alimləri dəvət etməklə, mühazirələrin və dəyirmi masaların təşkil edilməsini, nəşrin ingilisdilli variantının hazırlanması və yayımlanması istiqamətində müvafiq tədbirlər həyata keçirir.
"Azərbaycanın vergi jurnalı"nın internet ünvanı:
www.vergijurnali.az
www.taxesjournal.az
Jurnalın Azərbaycan, türk, ingilis və rus dillərində vikipediya məqalələri və bir sıra qlobal sosial şəbəkələrdə (facebook və twitter) ünvan səhifələri mövcuddur.


"İqtisadiyyat və Audit" – aylıq elmi-praktik jurnal. Təsisçi Azərbaycan Respublikası Auditorlar Palatası. Baş redaktor iqtisad elmləri doktoru, professor V.T.Novruzovdur.
Auditorlar Palatası Şurasının qərarı ilə təsis edilmiş və ilk nömrəsi 2000-ci ilin iyul ayında çapdan çıxmış "İqtisadiyyat və Audit" aylıq elmi-praktik jurnalı ölkə iqtisadiyyatının inkişaf problemləri, iqtisadi islahatların aparılması, iqtisadi təhlil, audit və maliyyə nəzarəti, mühasibat



uçotu və vergi, iqtisadi qanunvericilik, beynəlxalq iqtisadi əlaqələrin inkişafı və digər sahələr üzrə araşdırma aparmaq və iqtisadi informasiya bolluğunu təmin etmək məqsədilə təsis olunmuşdur. Jurnal qarşısına qoyduğu məqsədə sadiq qalaraq, çoxsaylı oxucularının ümidlərini şərəflə doğruldur, ölkənin elmi-ictimai dairələrində sanballı dövri nəşr kimi qiymətləndirilir, adlı-sanlı iqtisadçı alimlərdən, dövlət idarəetməsi və yerli özünüidarəetmə orqanlarının təmsilçilərindən, audit üzrə yaxın-uzaq xaricdəki həmkarlardan tutmuş elmlə, iqtisadi problemlərin tədqiqi ilə ardıcıl şəkildə məşğul olmağı qarşılarına məqsəd qoyan gənc tədqiqatçılara qədər müəlliflərin geniş dairəsini öz ətrafına toplamışdır.
"İqtisadiyyat və Audit" jurnalı uzun illər ərzində Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dövri nəşrlər reyestrinə daxil edilmişdir.
Jurnalda gənc müəlliflərə – doktorant, dissertant və magistrantlara xüsusi qayğı və tələbkarlıqla yanaşılır, onların elmi nəşrlərdə çap olunmaq imkanlarının məhdudluğu nəzərə alınaraq, jurnalın səhifələrində "Gənc tədqiqatçının tribunası" adlı xüsusi daimi rubrika açılmışdır; hər nömrədə həmin rubrika altında bir və ya bir neçə gənc müəllifin elmi axtarışlarından xəbər verən məqalələr dərc olunur.
Jurnalda iqtisadiyyatın və auditin konkret məsələlərinə həsr olunmuş praktik səciyyəli materiallar, fikir müxtəlifliyinə meydan açan "dəyirmi masa" söhbətləri, qanunvericiliklə bağlı aktual şərhlər, "Redaksiyamızın poçtundan" rubrikası altında müntəzəm dərc edilən yazılar əksini tapır.
"Maliyyə və uçot" jurnalı 1993-cü ildə bir qrup yaradıcı və elmə marağı olan iqtisadçıların təşəbbüsü ilə respublika Maliyyə Nazirliyi və redaksiyanın əmək kollektivinin təşəbbüsü ilə yaradılmışdır. Jurnalın baş redaktoru, iqtisad elmləri doktoru, professor Qəzənfər Abbasov, redaksiya heyəti isə



respublikanın, MDB və inkişaf etmiş ölkələrin tanınmış iqtisadçı və mütəxəssislərindən ibarətdir.
Jurnal maliyyə, kredit və pul tədavülü, mühasibat uçotu, audit və iqtisadi təhlil, iqtisadiyyatın dövlət tənzimlənməsi, sığorta və iqtisadiyyat məsələlərinə dair aparıcı iqtisadçı mütəxəssislərin elmi və praktik materiallarını, həmçinin rəsmi material və onların açıqlamasını öz səhifələrində dərc etməklə aylıq nəzəri və elmi-praktik məcmuə kimi fəaliyyət göstərir.
"Audit" jurnalı Bakı Biznes Universitetinin elmi nəşri olaraq 1999-cu ildə təsis edilmişdir. Jurnalın baş redaktoru i.e.d., prof. İ.M.Abbasovdur. Redaksiya heyətinə ölkənin görkəmli iqtisadçı alimləri daxildir. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə iqtisadiyyat elmləri üzrə elmi nəşrlər siyahısına daxil edilmişdir.
Rübdə bir dəfə 8-10 çap vərəqi həcmində nəşr olunan jurnalda respublikanın aparıcı iqtisadçı-alimləri müxtəlif aktual mövzularla çıxış edirlər. Burada həmçinin "Audit, uçot və iqtisadi təhlil", "Büdcə və vergi problemləri", "Maliyyə və kredit", "Bazar iqtisadiyyatı problemləri və islahatlar", "Hüquq və idarəetmə" bölmələri üzrə tanınmış alim-mütəxəssislərin elmi tədqiqatları üzrə məqalələr də dərc olunur. Jurnal respublikada, həmçinin universitetdə elmi-tədqiqat işlərinin aparılmasında, yüksək ixtisaslı kadr



hazırlanmasında əhəmiyyətli rol oynayır.
"Banklar və Biznes" məlumat və təhlil məcmuəsi 2003-cü ildə Azərbaycan Banklar Assosiasiyası tərəfindən təsis edilmişdir. Jurnalın əsas maraq dairəsi maliyyə sektorunun bank, sığorta, lizinq, birja və digər maliyyə vasitəçiliyi istiqamətlərini əhatə edir. Dünya və ölkə iqtisadiyyatında baş verən önəmli hadisələr, maliyyə bazarlarının mövcud vəziyyəti və inkişaf tendensiyaları haqqında oxuculara təqdim olunan təhlillər, həmçinin, maliyyəçilər üçün nəzərdə tutulan konsaltinq xarakterli materiallar jurnalın bu sektorda peşəkar məlumat mənbəyi olaraq güclü mövqe qazanmasını təmin etmişdir.
Jurnal dövlət və hökumət orqanları, banklar, sığorta, lizinq, broker şirkətləri, birjalar və digər maliyyə şirkətlərində, universitetlərin iqtisadiyyat və maliyyə istiqamətli fakültələrinin müəllim və tələbə heyəti arasında yayılır.
İldə 6 dövri və 2 xüsusi buraxılışı ilə oxuculara təqdim edilən "Banklar və Biznes" jurnalı, eyni zamanda, əhatə etdiyi mövzuları və oxucu auditoriyasını daim genişləndirməklə, ölkədə maliyyə savadlılığının artırılmasına da öz töhfəsini verir.
"Banklar və Biznes" jurnalının redaksiyası həmçinin informasiya texnologiyalarının inkişafında müasir tendensiyaları nəzərə almaqla, oxucu auditoriyasını genişləndirmək məqsədilə, 2010-cu ildən jurnalın elektron versiyasını da hazırlamışdır. www.bbm.az ünvanında yerlə-



şən elektron portal, operativlik və texniki imkanları ilə daha çox oxucu cəlb etmişdir.

"Konsaltinq və biznes" jurnalı iqtisadi-analitik aylıq jurnaldır. Jurnalın təsisçisi və naşiri "Minimaks Media Holdinq"dir. Jurnalın ilk nömrəsi 1996-cı ilin sentyabrında nəşr olunmuşdur. Jurnalın tirajı 3000 nüsxədir. Nəşr əsasən biznes-auditoriya üçün nəzərdə tutulmuşdur.

Dövri nəşri professional iqtisadçılar, hüquqşünaslar və jurnalistlər buraxırlar. 1997-ci ildə redaksiya heyəti "Ən yaxşı yaradıcı layihə" nominasiyası üzrə "Humay" milli mükafatına layiq görülüb. 1999-cu ildə baş redaktor İlqar Baqarov Azərbaycan Jurnalistlər Birliyinin təsis etdiyi Həsən bəy Zərdabi mükafatına layiq görülüb. Jurnalın missiyası Azərbaycanda biznesin inkişafına yardım etmək, müəssisə və mütəxəssislərə idarəetmə, iqtisadiyyat və hüquq sahəsində kömək etməkdir.

Nəşrdə müntəzəm olaraq ölkə iqtisadiyyatının monitorinqi əsasında toplanmış məlumatlar, Azərbaycanın digər dünya ölkələri ilə ticarət-iqtisadi əlaqələrini əks etdirən materiallar öz əksini tapır. "Konsaltinq", "Müvəffəqiyyətin tarixi", "Top-menecer" və "Sizin vəkil" jurnalın daimi rubrikalarındandır. Nəşr iqtisadiyyat və biznes sahəsində "Uğur" milli mükafatının təsisçisi və təşkilatçısıdır. Hər il dekabrın ilk yarısında həyata keçirilən tədbirdə 3–ilin şirkəti, fərdi nominasiya və xüsusi nominasiyalar üzrə mükafatlar verilir.

Artıq beşinci ildir ki, sosial-iqtisadi sahədə fəaliyyət göstərməklə nəşr olunan **"Əmlak bazarı"** jurnalı Azərbaycanın respublikasında əmlak bazarının (mənzil, qeyri-yaşayış sahələri, torpaq, tikinti materialları, avtomobil, mebel, sığorta bazarı və s.) araşdırılmasını həyata keçirən "Əmlak Bazarı İştirakçıları" İctimai Birliyinin mətbu orqanıdır. Jurnal informasiya təminatını həyata keçirmək, ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi işini gücləndirmək məqsədilə əmlak bazarında baş verən prosesləri gündəmə gətirir, bu sahənin iştirakçısı olan müxtəlif mənbələrlə – dövlət və özəl sektoru əhatə edən təşkilatlarla qarşılıqlı əlaqələr quraraq əməkdaşlıq edir, onların fəaliyyətinin məqsədlərini yayır.

Jurnalda yerli və xarici ölkələrin daşınmaz əmlak bazarı, eyni zamanda, ölkə iqtisadiyyatının müxtəlif sahələri ilə bağlı məlumatlar, müsahibələr, təhlil və şərhlər dərc olunur. Hər ay daşınmaz əmlak bazarının iştirakçıları olan banklar, sığorta təşkilatları, tikinti şirkətləri, rieltor xidmətləri, qiymətləndirmə təşkilatları və bu istiqamətdə çalışan dövlət təşkilatları aktual mövzularla jurnalda çıxışlar edirlər.



Jurnalın yayılma dairəsinə əmlak bazarı iştirakçısı olan tikinti şirkətləri, banklar, sığorta, qiymətləndirici şirkətlər, tikinti materialları istehsalçıları, ölkədə fəaliyyət göstərən biznes strukturları, ixtisaslaşdırılmış ticarət mərkəzləri, iri xidmət və iaşə obyektləri, həmçinin səfirliklər, dövlət və qeyri-hökumət təşkilatları da daxil olmaqla müxtəlif əmlak sahibləri daxildir.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin nəşr etdiyi **"Əmlak və iqtisadiyyat"** elmi-praktik və iqtisadi jurnalı 2007-ci ildən nəşr edilir. Jurnalın saylarında Azərbaycanın iqtisadiyyatı, xarici ticarəti, torpaq bazarı, audit xidməti, daşınan və daşınmaz əmlak bazarı, qiymətləndirmə fəaliyyəti, qiymətli kağızlar bazarı, qiymətləndirmə fəaliyyəti, qiymətləndiricilərin sertifikasiyası, eləcə də bir sıra maraqlı elmi-metodik, praktik məqalələr və məlumatlar yer alır. Rübdə bir dəfə nəşr edilən jurnalda Azərbaycan dili ilə yanaşı rus dilində də məqalələr də dərc edilir. Jurnal əmlak bazarı, girov, qiymətləndirmə, sığorta, bank sistemi və iqtisadiyyatın digər sahələri üzrə maarifləndirmə və təbliğat işlərinin genişləndirilməsi istiqamətində əhəmiyyətli rol oynayır. Nəşrdə xarici yazarların məqalələrinə də geniş yer verilir.

İQTİSADİ DUALİZM – bir iqtisadiyyat çərçivəsində birgə mövcud olan və bir-birini sıxışdıran müxtəlif istehsal və istehlak üsulları, əmək resursları

bazarları və hətta, pul dövriyyəsinin müxtəlif növləri.

İQTİSADİ EFFEKT (ing. *economic effect*) – iqtisadi fəaliyyətin nəticələri (məsələn, dəyər ifadəsində məhsulun həcmi) ilə həmin nəticələrin alınması və istifadə edilməsi üçün çəkilmiş xərclər arasındakı fərq. İqtisadi fəaliyyətin nəticələri təkcə iqtisadi xarakter daşımayıb, daha geniş sosial-iqtisadi məna kəsb etdikdə, sosial-iqtisadi effekt barədə danışmaq daha dolğun olar. Əgər iqtisadi fəaliyyətin nəticələri məsrəflərdən çoxdursa, bu halda müsbət iqtisadi effekt (mənfəət şəklində qiymətləndirilən effekt), əks halda isə mənfi iqtisadi effekt (zərər, ziyan) yaranır.

Başqa şərtlər eyni olduqda məhsulun dəyəri ilə onun istehsalına çəkilmiş xərclər arasındakı fərq kimi başa düşülən effekt iki halda yaranır: birincisi, məhsulun miqdarı artdıqda (istehsalın həcminin artması); ikincisi, məsrəflər azaldıqda (resurslara qənaət). İqtisadi hesablamalarda iqtisadi effekt ilə bağlı üç göstərici daha geniş yayılmışdır: illik iqtisadi effekt illik məhsul və illik məsrəflər arasındakı fərq; inteqral iqtisadi effekt – illik effektlərin cəmi və ya hesabat dövrü ərzində məcmu məhsul ilə məcmu məsrəflər arasındakı fərq (bax: Diskontlama); orta illik iqtisadi effekt – hesabat dövrü ərzində illik effektlərin orta qiyməti. Nəzərdən keçirilən iqtisadi sistem dəyişdikdə və ya onun fəaliyyət şəraiti dəyişdikdə ilkin iqtisadi effektivliklə son nəticədə əldə edilmiş "mütləq" iqtisadi effektivlik arasındakı fərq illik iqtisadi effekt sayılır. Əmək, maliyyə, istehsal və digər resurslardan, habelə tətbiq edilən informasiya sistemləri və texnologiyalarından səmərəli və məhsuldar istifadə edilmə səviyyəsidir.

İQTİSADİ EKSPANSİYA (lat. *expansio* – genişlənmə, yayılma) – ayrı-ayrı firmaların, inhisarçı birliklərin, transmilli şirkətlərin, dövlətlərin dünya iqtisadiyyatında təsir dairələrinin genişlənməsi. İqtisadi ekspansiya ən sərfəli bazarlar, xammal mənbələri, kapitalın tətbiqi sahələri uğrunda rəqabət mübarizəsi yolu ilə həyata keçirilir. "İqtisadi ekspansiya" anlayışından dövlətin işgüzar fəallığı artırmağa yönəlmiş tədbirlərini: kəsirli maliyyələşdirmə, güzəştli kreditvermə, uçot faiz dərəcələrinin aşağı salınması, vergitutma, maliyyə güzəştləri və başqa tədbirləri səciyyələndirmək üçün də istifadə edilir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrin inhisarları tərəfindən iqtisadi ekspansiyanın əsas obyekti inkişaf etməkdə olan ölkələrdir. Bu halda inhisarın izafi mənfəət əldə etməsi stimuldur. İnkişaf etmiş ölkələrin inhisarları texnologiyanın, texnikanın, istehsalın təşkilinin səviyyəsinə görə inkişaf etməkdə olan ölkələrdən üstünlüklərinə, sanballı maddi və maliyyə resurslarına malik olduqlarına görə, inkişaf etməkdə olan ölkələrin bazarlarını asanlıqla ələ keçirir, orada malları həmin ölkələrin mallarının milli dəyərindən aşağı qiymətə satırlar. İnkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrdə idxala tələbatın artmasına stimul yaratmaqla, öz mallarının satış bazarlarını xeyli genişləndirmişlər. Tariflərə və Ticarətə dair Baş Saziş (GATT), 1995-ci ildən sonra isə onu əvəz etmiş Ümumdünya Ticarət Təşkilatı (ÜTT) kimi beynəlxalq təşkilatların köməyi ilə inkişaf etmiş ölkələrin inhisarları əmtəə və xidmətlər ticarətinin liberallaşdırılmasına, inkişaf etməkdə olan ölkələrdə tariflərin və qeyri-tarif məhdudiyyətlərinin azaldılmasına çalışırlar. Məsələn, tarif dərəcələrinin orta səviyyəsi 1950-ci illərin axırlarında 50-60% olduğu halda, 1995-ci ildə bu göstərici azalaraq 9,6%-ə düşmüşdü. Bu meyil indi də davam edir. Mərkəz ölkələrinin əmtəə ekspansiyasını müasir dövrdə dünya üzrə sənaye malları ixracında ayrı-ayrı ölkələr qrupunun nisbi payları barədə məlumatlar da təsdiq edir: sənaye cəhətdən inkişaf etmiş ölkələr 77,9%; inkişaf etməkdə olan ölkələr 16,3%; Şərqi Avropanın keçmiş sosialist ölkələri və SSRİ – 4,3%.

Satış bazarları uğrunda mübarizə inkişaf etmiş ölkələrin inhisarları arasında rəqabət yolu ilə aparılır. Son onillikdə yeni sənaye ölkələri də həmin inhisarlara qoşulmuşdur.

Öz daxili bazarlarının mənimsənilməsinə və struktur dəyişikliklərinə əsaslanan idxalı əvəz edən sənayeləşmə siyasətinin həyata keçirilməsi inkişaf etməkdə olan bəzi ölkələrə dünya bazarında gərginliyi artırmaqla sürətli ixrac ekspansiyasını uğurla həyata keçirməyə imkan vermişdir. Bu proses, eləcə də inkişaf etməkdə olan ölkələrin əksəriyyətində tədiyyə qabiliyyətli tələbatın aşağı olması yerlərdə istehsalatın, yığma istehsalatlarının qaydaya salınması

üçün kapital ixracı formasında iqtisadi ekspansiyanı genişləndirməyə stimul yaratmışdır. Sonradan inkişaf etməkdə olan ölkələrdə beynəlxalq sənaye komplekslərinə daxil edilmiş məhdud ixtisaslaşdırılmış istehsalatlar yaradılmışdır. İnkişaf etmiş ölkələrin özləri də iqtisadi ekspansiya obyektlərinə çevrilə bilər. Bu cür iqtisadi ekspansiya əsasən kapitalların qarşılıqlı nüfuz etməsi formasında həyata keçirilir. İqtisadi ekspansiyanın həyata keçirilməsində və stimullaşdırılmasında dövlət fəal rol oynayır. O, xarici ölkələrdə dövlət kapitalının investisiyası, inkişaf etməkdə olan ölkələrə maliyyə köməyi, özəl ixrac şirkətlərinin kommersiya və siyasi risklərdən sığortalanması, ixrac kreditlərinin verilməsi, ixrac mükafatları, əmtəə və valyuta dempinqi və başqa formalardan istifadə edir.

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI (İƏT) – 1985-ci ildə iştirakçı ölkələrin qarşılıqlı ticarətinin inkişaf etdirilməsi və regional davamlı iqtisadi inkişaf üçün şəraitin optimallaşdırılması məqsədlərinə nail olmaq üçün Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının (RƏİT) davamçısı kimi yaradılmışdır. İƏT-ə 10



dövlət daxildir: Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Tacikistan, Türkmənistan, Türkiyə və Özbəkistan. Bu təşkilatın fəaliyyəti bir neçə istiqamətdə həyata keçirilir: sənaye və texnika, energetika, kənd təsərrüfatı, nəqliyyat və kommunikasiyalar (infrastruktur), səhiyyə sahələrində əməkdaşlıq və s.

Qarşılıqlı ticarətə kömək məqsədilə üzv ölkələr tərəfindən preferensial tarif mexanizmləri haqqında protokol imzalanmışdır.

1996-cı ildə İƏT çərçivəsində dörd ixtisaslaşdırılmış müəssisə yaradılmışdır: İƏT-in ticarət və inkişaf bankı (Türkiyə), İƏT-in sığorta şirkəti (Pakistan), gəmiçilik şirkəti (İraq), İƏT-in aviaşirkəti (İraq).

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI (İƏİT) (ing. *Organization for Economic Cooperation and Development*) – 1961-ci ildə iyirmi dövlət tərəfindən təsis edilmişdir. İqamətgahı Parisdədir (Fransa). 2010-cu ilə olan məlumata əsasən, İƏİT-nin 31 üzvü vardır və onların əksəriyyəti inkişaf etmiş ölkələrdir: Avstraliya, Avstriya, Belçika, Böyük Britaniya, Macarıstan, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Kanada, Lüksemburq, Meksika, Niderland, Yeni Zelandiya, Norveç, Polşa, Portuqaliya, Slovakiya, Koreya Respublikası, ABŞ, Türkiyə, Finlandiya, Fransa, Çexiya, İsveçrə, İsveç, Yaponiya, Çili. İƏİT iki növ qərarlar qəbul edir: bütün üzv ölkələr üçün mütləq olan qərarlar və könüllü xarakter daşıyan, amma adətən riayət olunan centlemen razılaşmaları.



Rusiya İƏİT ilə 1994-cü ildən imtiyazlar və immunitetlər haqqında Razılaşma və Əməkdaşlıq haqqında Bəyannamə imzalandıqdan sonra əməkdaşlıq edir. 1996-cı ilin mayında Rusiya ərizə verdi və tamhüquqlu üzv kimi təşkilata daxil olmaq üçün danışıqlar apardı.

İƏİT-in əsas vəzifəsi üzv ölkələrin iqtisadi vəziyyətlərinin təhlili və ildə iki dəfə onların yaxın 1,5 ilə inkişaf proqnozunun tərtib olunması, beynəlxalq ticarət də daxil olmaqla, makro və sahə səviyyəsində təsərrüfatın tənzimlənməsi sahəsində tövsiyələrin işlənib hazırlanması, həmçinin, inkişaf etməkdə olan ölkələrə maliyyə yardımı sahəsində siyasətin əlaqələndirilməsindən ibarətdir. İnkişaf etmiş ölkələrin iqtisadi siyasətlərinin əsas istiqamətlərinin razılaşması üzrə orqan olaraq, İƏİT iri beynəlxalq razılaşmalar üçün materiallar hazırlayır.

İƏİT-in üzv ölkələri beynəlxalq miqyasda birbaşa kapital qoyuluşlarını tənzimlənməyə həsr olunan investisiyalar haqqında çoxtərəfli razılaşmanın bağlanmasına böyük diqqət yetirirlər. Onun bağlanma prosesi 1995-ci ildə başlanıb, 1997-ci ilin aprelində onu başa çatdırmaq nəzərdə tutulub. Amma indiyə qədər yaranan fikir ayrılıqlarına görə

bu məsələ həll olunmayıb. Razılaşmanın əsas vəzifəsi üzv dövlətlərin iqtisadiyyatlarına birbaşa qarşılıqlı kapital qoyuluşları şərtlərini liberallaşdırmaq, investisiya bazarlarının açılışını təmin etmək, milli və xarici əmanətçilərin bazarlarının açılışını təmin etməkdir.

İƏİT-in ali orqanı üzv dövlətlərin nümayəndələrindən ibarət olan Şuradır. O, adətən ildə bir dəfə nazirlər səviyyəsində onlardan birinin sədrliyi ilə iclas keçirir. Bu iclaslarda, bir qayda olaraq, xarici işlər, maliyyə, ticarət və ya iqtisadiyyat nazirləri iştirak edirlər. Daimi nümayəndələr səviyyəsində (səfirlər ranqında) Şura Baş katibin sədrliyi altında ayda iki dəfədən az olmayaraq yığışır. Şuranın qərarları (qətnamələr, tövsiyələr) bir qayda olaraq, konsensusla qəbul olunur.

150-dən çox ixtisaslaşmış komitə, işçi qrupu və ekspert komissiyası iqtisadi və sosial problemlərin ən geniş spektrini əhatə edir. İnkişafa Yardım Komitəsinə hazırda 21 üzv-ölkə və Avropa Komissiyası daxildir; Avropa Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Valyuta Fondu müşahidəçi statusuna malikdir. Komitə İƏİT tərəfindən inkişaf etməkdə olan ölkələrə göstərilən yardımın əlaqələndirilməsi üzrə mərkəzi orqandır. Onun vəzifələrinə bu yardımın səmərəliliyinin artırılması, inkişaf etməkdə olan ölkələrdə həyat qabiliyyətli iqtisadi sistemlərin yaradılmasına yardım və onların dünya iqtisadiyyatına aid olması daxildir.

Beynəlxalq katibliyin strukturuna 1990-cı ildə yaradılan keçid iqtisadiyyatlı Avropa ölkələri ilə əməkdaşlıq üzrə mərkəz daxildir ki, buna da baş katibin köməkçisi ranqında direktor rəhbərlik edir.

İƏİT-nın avtonom və yarı avtonom orqanları Beynəlxalq Energetika Agentliyi, Nüvə Enerjisi üzrə Agentlik (NEA), Təhsil sahəsində Tədqiqatlar və Yeniliklər Mərkəzi (TTYM), İƏİT-nin inkişaf mərkəzidir.

Təşkilat müntəzəm olaraq: büdcənin, xarici ticarətin, maliyyə, sənaye və dünya energetikasının vəziyyəti də daxil olmaqla, əsas iqtisadi göstəricilər qismində analitik və statistik materiallar yayır. Xüsusi monoqrafiyalar, jurnallar, seriya nəşrləri, iqtisadi hesabatlar və proqnozlar, texniki və statistik bülletenlər və s. buraxılır.

İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATI (İƏİT) KONSENSUSU (ing. *OECD Consensus*) – İƏİT-nin müxtəlif ölkə istehsalçılarının qiymət rəqabətində disbalansa yol verilməməsinə yönəldilmiş prinsipləri. İƏİT konsensusu bu təşkilatın "Rəsmi dəstəklənən ixrac kreditlərinin prinsipləri haqqında Razılaşma"sında (1978-ci il) müəyyən edilmişdir. Razılaşma ixrac kreditləri üçün limitləri (müqavilə dəyərinin 85%-i) və İƏİT-nin hər yarım ildən bir nəzərdən keçirilən faiz dərəcələri matrisası üzrə faiz dərəcələrinin minimum həddini müəyyən edir.

İQTİSADİ FƏAL ƏHALİ – potensial baxımdan maddi sərvətlər istehsalında və xidmətlər göstərilməsində iştirak etməyə qabil olan şəxslərin məcmusu. BMT metodologiyasına görə, buraya: a) sahibkarlar; b) muzdla işləyənlər; c) kömək edən ailə üzvləri; ç) indiki anda işi olmayan, lakin iş əldə etmək arzusunda olan şəxslər aid edilir (təhsil alanlar və himayədə olanlar bu kateqoriyaya aid edilmir). Hüquqi əhali müəyyən yaşayış məntəqəsi ilə qeydiyyat qaydalarına, məsələn, pasport qeydiyyatına görə əlaqədar olan insanları birləşdirən əhali kateqoriyalarından biridir. Hüquqi əhali nə sabit əhali ilə, nə də mövcud əhali ilə eyni deyildir, çünki bu iki kateqoriya insanların yaşayışının inzibati sənədləşdirilməsinin xarakteri əsasında deyil, onların yaşamasının xarakteri əsasında fərqləndirilir. Fəal əhali haqqı ödənilən, yaxud gəlir verən ictimai-faydalı əməklə məşğul olanların məcmusudur. İqtisadi fəal əhalinin sayı əmək qabiliyyətli yaşda olan əhalinin xüsusi çəkisindən (demoqrafik amil) və iqtisadi məşğuliyyət dərəcəsindən (təşkilati-iqtisadi amil) asılıdır; ayrı-ayrı ölkələrdə iqtisadi fəal əhalinin sayı bütün əhalinin 35-50%-i arasında enib-qalxır. İqtisadi fəal əhalinin sayı əhalinin kişilərdən ibarət hissəsində daha çoxdur (bax: cədvəl 1).

İqtisadi fəallıq səviyyəsi – təhlil edilən dövrdə iqtisadi fəal əhalinin sayının əhalinin ümumi sayında xüsusi çəkisi. İqtisadi fəallığın səviyyəsi əhalinin müxtəlif yaş qrupları, kişilər və qadınlar, müxtəlif təhsil səviyyəli şəxslər və digər əlamətlər üzrə hesablana bilər.

İQTİSADİ FƏALİYYƏTİN DİVERSİFİKASİYASI – buraxılan məhsulun digər növləri ilə müqayisədə satışın xalis həc-

Cədvəl 1

Azərbaycan Respublikası üzrə iqtisadi fəal əhali

	2000	2003	2008	2009	2010
İqtisadi fəal əhalinin sayı – cəmi, min nəfər[1)]	3748,2	4147,9	4373,5	4378,2	4587,4
kişilər	1956,7	2165,9	2233,6	2225,2	2329,7
qadınlar	1791,5	1982,0	2139,9	2153,0	2257,7
İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar – cəmi, min nəfər	3704,5	3747,0	4111,3	4118,0	4329,1
kişilər	1937,5	1959,7	2091,2	2111,0	2227,4
qadınlar	1767,0	1787,3	2020,1	2007,0	2101,7
İşsizlər[2)] – cəmi, min nəfər	-	400,9	262,2	260,2	258,3
kişilər	-	206,2	142,4	114,2	102,3
qadınlar	-	194,7	119,8	146,0	156,0
onlardan:					
məşğulluq xidmətləri orqanlarında işsiz statusu alan şəxslər – cəmi, nəfər	43739	54365	44481	41100	38966
kişilər	19283	25313	23608	23008	21979
qadınlar	24456	29052	20873	18092	16987
onlardan:					
işsizliyə görə müavinət alanlar – cəmi, nəfər	2768	3111	2109	2721	87
kişilər	1313	1808	1350	1871	70
qadınlar	1455	1303	759	850	17

[1)] 2000-2002-ci illərdə rəsmi işsiz statusu alan şəxslər, 2003-2010-cu illərdə isə Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən bütün işsizlər nəzərə alınmaqla hesablanmışdır.

[2)] Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən (rəsmi işsiz statusu alan şəxslər də daxildir).

Qeyd: 2009-cu il siyahıyaalmanın yekunlarına əsasən 2005-ci ildən başlayaraq iqtisadi fəal əhalinin və məşğul əhalinin sayı dəqiqləşdirilmişdir.

mində maksimum paya malik əmtəə və xidmətlərin istehsalı düşünülmüş əsas biznes çərçivəsində iri firmaların, birliklərin, müəssisələrin və bütöv sahələrin fəallığının genişlənməsi. Müasir bazar iqtisadiyyatının strukturunun mühüm tərkib hissəsidir. Firmanın rəqabət şəraitində bazarda öz mövqeyini möhkəmləndirmək, iqtisadi konyunkturun dəyişilməsinə vaxtında reaksiya vermək, öz fəaliyyətinin səmərəliliyini təmin etmək cəhdini stimullaşdırır. Bununla belə, firma ixtisaslaşmış müəssisədən çoxsahəli konqlomerat kompleksinə çevrilir ki, bunların tərkib hissələri öz aralarında funksional əlaqələrə malik deyil.

İQTİSADİ GÖSTƏRİCİLƏR – iqtisadi sahədə baş verən kütləvi-ictimai hadisə və prosesların kəmiyyət xarakteristikası. İqtisadi göstəricilər istehsalçı qüvvələr və istehsal münasibətləri ilə vəhdətdə istehsalı, tədavülü, bölüşdürməni və istehlakı; təbii və texniki amillərin iqtisadiyyatında kəmiyyət dəyişikliklərinə təsirini; cəmiyyətin, istehsalın inkişafının ətraf mühitə təsirini əks etdirir.

İqtisadi göstəricilər üç kateqoriyaya bölünür:

– vahidlərin struktur xarakteristikası;
– vahidlər üzrə uçot məlumatları;
– vahidlərin məşğulluğuna dair məlumatlar.

Vahidlərin struktur xarakteristikası üzrə göstəricilər istehsal sistemi və onun inkişafının öyrənilməsini olduqca yüngülləşdirir. Müəyyən edilmiş uçot məlumatları əsasında gəlirlər hesabının sadə işlənməsini həyata keçirmək olar ki, bu da kapitallaşdırılmış məhsulların dövriyyəsi üzrə məlumatlar, xərclər və maddi-istehsal ehtiyatları haqqında məlumatlar əsasında fəaliyyətdən (müəssisənin) əlavə dəyəri və əldə edilmiş ümumi gəliri müəyyənləşdirilir.

İQTİSADİ HAKİMİYYƏT (ing. *economic power authority*) – müasir dünyada real hakimiyyətin növlərindən biri. Bu, iqtisadiyyat, xalq təsərrüfatının sahələri, bazar üzərində olan hakimiyyətdir. Məqsəd müəyyən maliyyə qrupunun xoş güzəranını təmin etmək, milli qruplaşmanı və tərəfdaşlarını stimullaşdırmaq, rəqiblərin isə rəqabətini zəiflətməkdir. Dövlət özünün imkanı daxilində iqtisadiyyata bazar mexanizmi vasitəsilə təsir edir, amma onun öz şərtlərini diktə etmək hüququ yoxdur. Belə qruplaşma isə dövlətin onların mənafeyinə uyğun olan siyasət yürütməsində maraqlıdır və bundan ötrü onlar hətta hakimiyyət orqanlarına öz adamlarını da salırlar. İqtisadi hakimiyyətə dövlət başçısı, parlament və digər yüksək dövlət orqanları malikdir. Konkret istiqamətlərdə isə belə hakimiyyətə nazirliklər, komitələr, baş idarələr, şirkətlər, müəssisələr, işgüzar adamlar malikdirlər.

İQTİSADİ İMKANSIZLIQ – öz öhdəliklərini ödəmək üçün hesablarda pul olmaması, yəni maliyyə təminatının olmaması vəziyyəti. Hüquq praktikasında iqtisadi imkansızlıq dedikdə hüquqi və ya fiziki şəxsin ona təqdim edilmiş maliyyə hesablarını indiki anda ödəmək iqtidarında olmamasının (məsələn, təqsirkar şəxsin vurduğu ziyanın ondan tutulmaq üçün təqdim edilmiş məbləği ödəmək iqtidarında olmamasının) məhkəmə tərəfindən təsdiq edilməsi başa düşülür.

İQTİSADİ İNDİKATOR – iqtisadiyyatda ümumi meyilləri göstərən statistik məlumatlar.



Sxem 1

İQTİSADİ İNFORMASİYA – iqtisadiyyatda və onun idarə edilməsi prosesində yaranan biliklər, xəbərlər, məlumatlar, göstəricilər, başqa sözlə, maddi nemətlərin istehsalı bölgüsü, mübadiləsi və istehsalının ictimai prosesləri haqqında informasiya. İqtisadi informasiya makroiqtisadi prosesləri, əməyin, əmtəələrin və kapitalın hərəkətini, bazarın, istehsalın və istehlakın vəziyyətini və meyillərini əks etdirir. İnformasiyanın statistik, istehsal-iqtisadi, kommersiya, işgüzar, konyunktur, bank, birja, sorğu (o cümlədən vergilər, qiymətlər və tariflər haqqında), elmi-texniki, normativ (iqtisadi sferada hüquqi münasibətləri tənzimləyən), xarici iqtisadi, marketinq və s. növləri fərqləndirilir.

Sadalanan növlər arasında dəqiq sərhəd yoxdur. Belə ki, "işgüzar informasiya" dinamik sıralar, modellər və s. qiymətləndirmələr kimi iqtisadi və statistik informasiyanı (iqtisadi, demoqrafik, sosial); kommersiya informasiyasını – şirkətlər, firmalar, onların birlikləri haqqında, eləcə də şirkətlərin maliyyə vəziyyəti, onların əlaqələri, sövdələşmələri, məhsulu və s. haqqında məlumatları; birja və maliyyə informasiyasını – valyuta məzənnələri, uçot dərəcələri, qiymətli kağızların kotirovkası, investisiyalar, qiymətlər haqqında məlumatları əhatə edə bilər. Statistik informasiya, bir qayda olaraq, dövlət statistikasının məlumatlarını, əhalinin siyahıya alınmasını, dinamik sıraları (bu və ya digər parametrlərin zaman ərzində dəyişiklikləri xarakterizə edən məlumatları), sosioloji

tədqiqatları, ictimai rəy sorğularını və s. ehtiva edir.

İşlənmə (ümumiləşdirmə) dərəcəsinə görə, informasiya bazarında dövr edən iqtisadi informasiyanı ənənəvi olaraq aşağıdakı kimi qruplaşdırmaq olar: ilkin statistik informasiya (ilkin uçot məlumatları) – bilavasitə müqayisə olunan obyektlərdə toplanmış iqtisadi, demoqrafik, sosial məlumatlar; dinamik sıralarda birləşən, növlərə, sistemləşməyə və s. məruz qalan müəyyən tədqiqat məqsədləri üçün işlənib hazırlanan statistik informasiya; bu qaydalar (prosedurlar) müəyyən metodika üzrə yerinə yetirilir və emal olunan informasiyanın növbəti təhlili və sintezinə yönəldilmişdir; tədqiq olunan obyektin ehtimal olunan inkişafının proqnozlaşdırılmasına imkan verən bu obyektin cari vəziyyətini xarakterizə edən informasiya (məsələn, müəssisələrin, ticarət təşkilatlarının, bankların, iri kənd təsərrüfatı strukturlarının anketləşməsi əsasında).

Bir qayda olaraq, bank informasiyası geniş dairədə məlumatları birləşdirir. Bura aiddir: bankların reytinqlərinin qiymətləndirilməsi ilə xüsusi informasiya (müştərilər və tərəfdaşlar üçün); bank işində istifadə olunan sorğu informasiyası – ünvanlar, gedişlərin qeydiyyatı, müştərilərin və tərəfdaşların hesabları və s.; qiymətli kağızların kotirovkaları və müxtəlif banklarda valyuta məzənnələri haqqında cari və retrospektiv məlumatları ehtiva edən birja və maliyyə informasiyası; investisiyalar üçün ixtisaslaşmış (xüsusi) informasiya; sorğu-ünvan məlumatlarını, əsas rəhbərlər haqqında məlumatları, eləcə də ümumi maliyyə xəbərlərini – nizamnamə fondlarının, aktivlərin və s. ölçülərini ehtiva edən ümumi təyinatlı kommersiya informasiyası.

Müasir informasiya sistemləri həm ənənəvi formada – kitablar, dövri nəşrlər, elmi-tədqiqat və təcrübə-konstruktor işləri (ETTKİ) haqqında hesabatlar, həm də elektron daşıyıcılarında məlumat bazaları və bankları formasında iqtisadi informasiyanı istehlakçıya çatdıra bilər. Son nəticədə onun informasiyası tələbatlarının xüsusiyyətləri və onun maraqlarının dairəsi, zəruri operativlik və aktuallıq dərəcəsi, informasiya sisteminə birbaşa müraciət üçün səbəblə, onun texniki imkanları ilə müəyyən olunur.

İQTİSADİ İNKİŞAF – iqtisadiyyatda real gəlirlərin (ÜDM və ya ÜMG) artması hər nəfərə hesablanmaqla real buraxılışın (istehsalın) artımı başa düşülür. Həmçinin, bir məşğul adam hesabı ilə gəlirin artımı da fərqləndirilir. Bu göstərici hər nəfərə hesablanan gəlirlərin artım göstəricisindən fərqlənə bilər. Belə ki, o, əhalinin iqtisadi fəallığının və məşğulluğunun səviyyəsini və dinamikasını əks etdirir. Uyğun olaraq, iqtisadi artımı ölçmək üçün mütləq artım və ya hər nəfərə buraxılışın (istehsalın) həcminin real artım sürəti göstəricilərindən istifadə edilir (bax: cədvəl 1).

İQTİSADİ İNKİŞAFIN MALAYZİYA MODELİ – XX əsrin 80-ci illərinin əvvəllərində Asiyanın islam ölkəsi olan Malayziya da özünəməxsus inkişaf modeli seçdi. Uzun illər baş nazir olmuş və ağıllı iqtisadi siyasəti ilə Malayziyanı çiçəklənən bir ölkəyə çevirmiş Mahathir Mohamad dünyanın ən nüfuzlu ekspertlərinin fikrincə, tarixi şəxsiyyət kimi, xarici təzyiqlərə boyun əyməyən hökumət başçısı kimi yaddaşlarda qalacaq. O bildirirdi ki, **hər ölkə inkişaf yolunu özü müəyyən etməlidir. Malayziya öz yolunu seçdi və nəticələri də göz qabağındadır... Bu gün dünya iqtisadiyyatında mühüm rol oynayan Cənubi və Şərqi Asiya ölkələri öz yolları ilə inkişaf edir, amma bu proses heç də asan başa gəlmir. Malayziya mütəxəssisləri sübut etdilər ki, qloballaşma dövrünün çətin mübarizə meydanında o qədər çirkin, milli mənafelərə zidd təkliflərlə üzləşməli olursan ki, onlarla razılaşan ölkə rəhbəri millətini birmənalı şəkildə uçuruma aparmış olur.**



Mahathir Mohamad

Mahathir Mohamadın aşağıdakı sözlərinə çoxsaylı tədqiqatçılar, iqtisadçılar və siyasətçilər tez-tez istinad edirlər:

"Mən qəti inanıram ki, biz ardı-arası kəsilməyən çağırışlara qulaq asıb kömək üçün Beynəlxalq Valyuta Fonduna ağız açsaydıq, Malayziyanı elə işlər görməyə vadar edəcəkdilər ki, nəticədə təkcə Malayziyanın iqtisadiyyatı, siyasi strukturu deyil, həm də bütün Malayziya milləti, bütün Malayziya cəmiyyəti məhv olacaqdı. Bu fəlakət Beynəlxalq Valyuta Fondunun məkrli iradəsi nəticəsində deyil, Beynəlxalq Valyuta Fondu ekspertlərinin kifayət qədər biliyə, faktlara malik olmamaları üzündən, onların baxışlarının, imkanlarının və dərrakələrinin məhdudluğu üzündən baş verəcəkdi...".



Malayziyanın Baş naziri isə öz ölkəsinin inkişafı naminə qeyri-standart yol seçdi. Heç bir ölkənin keçdiyi yolu təkrar etmədi və nəticədə inkişaf edən dövlət qurdu, onu Asiya böhranından xilas etdi və Beynəlxalq Valyuta Fondu ilə mübahisədə qalib gəldi.

Malayziya Baş nazirinin fəaliyyəti, onun iqtisadi baxışları ilə tanış olarkən dünyanın professional ekspertləri belə bir nəticəyə gəlirdilər ki, Avropada, Asiyada yeni-yeni prezidentlər və ya baş nazirlər bir-birini əvəz etdikcə, onların fəaliyyət dairəsi məhdudlaşır, top-menecerlər, məmurlar onları daha çox sıxışdırırlar. Ölkə rəhbərləri milləti özlərinin ardınca aparmaq əvəzinə hər şeydə ehtiyatla hərəkət edir, əksər hallarda isə "beynəlxalq birliyin" ardınca gedirlər. Bu, bir həqiqətdir. "Dünyanın əksər ölkələrində həqiqi liderlərin hakimiyyət başına gəlməsinə mane olan nədir?" sualına biz belə cavab verə bilərdik. Artıq İkinci Dünya müharibəsindən sonra xüsusən Qərb ölkələri, onların başçıları qarşısında yalnız bir vəzifə dayanır: mövcud sistemi qaydasında saxlamaq. Onlar isə həmin sistemə xidmət edən texniklər rolunu oynayırlar. Dünyanın qalan hissəsində, xüsusilə də inkişaf etməkdə olan yoxsul ölkələrdə liderlərə ehtiyac hələ çox böyükdür, ancaq bir çox dövlət başçıları həmin Qərb ilə üz-üzə gəldikdə pis vəziyyətdə qalırlar. Mahathir Mohamad Qərb qarşısında pis vəziyyətdə qalmadı. Onun ölkəsi Malayziya barəsində çox danışmaq olar. Təkcə bunu demək kifayətdir ki, artıq 1997-ci ilin əvvəllərində iqtisadiyyatın rəqabət qabiliyyəti göstəricisi üzrə bu ölkə dünyada ikinci idi. Birinci yerdə ABŞ, üçüncü yerdə Sinqapur gedir, sonrakı yerləri Lüksemburq və başqa ölkələr tuturdu.

1990-cı illərin axırlarında müvəffəqiyyətin zirvəsində ikən Mahathir və onun milləti öz zəhmətlərinin bəhrələrini az qala itirəcəkdilər. Əgər o, Beynəlxalq Valyuta Fondunun buyuruğuna və öz müşavirlərinin əksəriyyətinin dediklərinə əməl etsəydi və qonşularının – Tailandın və ya İndoneziyanın yolu ilə getsəydi, itkilər labüd olacaqdı. Lakin lider Mahathir niyyətindən dönmədi və ölkəsinin iqtisadiyyatını 1997-1999-cu illərdəki Asiya böhranının zərbələrindən xilas etdi. Mahathir özünün bütün fəaliyyəti ərzində qorxunc uçurumun kənarı ilə addımlayırdı. İqtisadi və sosial inkişafın Asiya modeli çoxdandır ki, ideoloji mübarizənin mərkəzindədir: həmin regionda baş verən yaxşı iqtisadi hadisələrin hamısı monetaristlərin prinsiplərinə meydan oxunması deməkdir.


Mahathirin söylədiyi nitqlərdən birinin ayrı-ayrı məqamlarını təqdim edirik:

"1997-ci ilin ortalarında inanırdıq ki, biz Meksika deyilik, Tailand da deyilik. Bizim böyük məbləğdə xarici borclarımız yox idi – nə hökumətin, nə də xüsusi sektorun. Biz böhranla qarşılaşmış Tailanda kömək



üçün heç bir çətinlik çəkmədən bir milyard ABŞ dolları ayırdıq, sonra isə İndoneziyaya da bir milyard ABŞ dolları verdik. Məhz 1997-ci ilin iyununda cənab Mişel Kamdessü (Beynəlxalq Valyuta Fondunun keçmiş icraçı direktoru) özü Malayziya iqtisadiyyatının əsaslarının ağlasığmaz dərəcədə möhkəm olduğunu təfərrüatı ilə və açıq şəkildə təsvir etmişdi.

"Biz bir müddət ötəndən sonra ən mühüm strateji tədbirlərdən birini – **seçmə valyuta nəzarətini kəşf etdik** və həyata keçirməyə başladıq. Bu tədbir valyutanın sabitliyini təmin etməyə, ciddi mənfi hallara yol vermədən iqtisadiyyat üçün pul ayırmağa, faiz dərəcələrini aşağı salmağa imkan verdi. Beləliklə, real iqtisadiyyat və eyni zamanda, maliyyə sektoru xilas edildi. Söhbət əslində bundan gedir ki, milli valyutanın məzənnəsi sabitləşdi və ölkənin hüdudlarından kənarda milli valyuta ilə hər cür əməliyyatlar qadağan olundu.




Biz valyuta nəzarətini tətbiq etdikdə bizi əsl əbləh adlandırdılar. Bizim tədbirlərimizi son dərəcə amansız tədbirlər adlandırdılar. Mənim barəmdə isə deyirdilər ki, mən bu işləri yalnız hakimiyyət başında qalmaq üçün görürəm. Saysız-hesabsız ağıllı adamlar belə qənaətə gəldilər ki, biz həmin işləri ağrılı struktur islahatlarından yaxa qurtarmaq üçün görürük..."

Ehtimalların ziddinə olaraq ölkənin xarici valyuta ehtiyatları azalmadı, əksinə, il ərzində 60 faiz artdı. Xarici valyuta ehtiyatları ayda orta hesabla (valyuta nəzarəti tətbiq olunduqdan sonrakı il ərzində) 1 mlrd. dollar çoxalmışdı. Öl- kə iqtisadiyyatının rəqabət qabiliyyəti qat-qat artdı. Malayziya ticarətdə dalbadal profisit əldə etdi; ixrac göstəriciləri Asi-yada ən yaxşı gös- təricilərdir. Müharibədən sonrakı dövrdə axırıncı aylar ərzində ticarət profisitləri üzrə bir neçə dünya rekordu qazanılmışdır. Ehtimalların əksinə olaraq, Amerikanın seçmə universitetlərinin heç vaxt Malayziyaya gəlməmiş bir neçə nəfər geniş məlumatlı məzununu çıxmaq şərtilə, hələlik heç kəs Malayziya valyutasının qara bazarı ilə rastlaşmamışdır. Ehtimalların ziddinə olaraq, Malayziya fond bazarı parçalanmamışdır...

Baş nazir deyirdi: **"İcazə verin, Malayziya ilə əlaqədar bildirim ki, biz Beynəlxalq Valyuta Fondundan və daha nə bilim kimlərdən böyük məbləğdə borc almadıq, böyük məbləğdə borcların gələcək nəsillər üçün ağır yük olmasına imkan vermədik. Biz böhrana məruz qalan başqa ölkələrin əldə etdikləri iqtisadi nəticələrə nail olduq, ancaq qiymətli korporasiyalarımızın hərraca qoyulub, əcnəbilərə dəyər-dəyməzinə satılmasına yol vermədik. Bizdə bütöv bir nəsil öz ömrünü həmin korporasiyaların yaradılmasına həsr etmişdir. Nəyi isə dəyər-dəyməzinə almaq niyyətində olanların hamısından üzr istəyirəm.**

Biz də qonşularımızın əldə etdikləri nəticələrə nail olduq,



lakin camaatı kütləvi surətdə işdən çıxarmadan, bircə nəfər də olsun uşağı məktəbdən kənarda qoymadan, iki nəslin ömrü boyu yetişdirdiyi orta sinfi məhv etmədən, bir neçə onillik ərzində çox böyük çətinliklər bahasına yaratdığımız sahibkarlar sinfinin axırına çıxmadan, küçələrdə qan tökülmədən, ölkədə siyasi hərc-mərcliyə yol vermədən.

...İcazənizlə, sizə bir neçə xahişlə müraciət edim. Əvvəla, elə düşünməyin ki, bizlər – burada, Asiyada yaşayanlar ucdantutma axmaq adamlarıq... Əgər siz bizim guya burada etdiyimiz axmaqlıqların bəzilərini başa düşmürsünüzsə, bəlkə, siz ara-sıra bir qədər çalışaydınız və bizi qabaqcadan adi axmaqlar hesab etmək əvəzinə, bizim gördüyümüz işləri başa düşmək qabiliyyətinizi yaxşılaşdırardınız. İkincisi, zəhmət çəkib qabaqcadan belə bir qənaətə gəlməyin ki, biz hamımız burada korrup-





Petronas Qüllələri (*Malayziya, Kuala-Lumpur şəhəri*)

Xahişim budur ki, bizi təhqir etməyiniz, zəhmət çəkib öz baxışlarınızı bizə qəbul etdirməyə cəhd göstərməyin. Allahı sevərsəniz, zəhmət çəkib hər hansı işi necə görməli olacağımızı bizə buyurmayın".

Malayziyanın Baş naziri Mahathir Mohamad barədə tam qətiyyətlə demək olar: bir çoxlarının məğlubiyyəti ilə nəticələnmiş çarpışmadan qalib çıxmış şəxsiyyətin təntənəsi! Tənha qalan və bu tənhalığı ilə də Beynəlxalq Valyuta Fondunun nüfuzuna amansız zərbə endirən bir insanın təntənəsi. Asiyada iflasa uğradıqdan sonra Beynəlxalq Valyuta Fondu "öz simasını itirmişdir", çox güman ki, onu Kamdessünün istefasından da dəhşətli və xoşagəlməz aqibət gözləyir; axı, iqtisadi liberalizmin bütün konsepsiyasına və ümumiyyətlə, "qloballaşdırma" adlandırılan nə varsa, hamısına zərbə endirilmişdir.

Məşhur beynəlxalq ekspertlərdən biri yazırdı: "Əvvəlcə "transmilli" kütləvi informasiya vasitələri "Malayziya eksperimenti"nin şəksiz yekunlarını sükut və yalan informasiya divarı ilə əhatə etdilər. Sonra isə... Bu dünyada qalib və qürurlu şəxsdən qisas almaq istəyən nüfuzlu adamlar çoxdur".

Baş nazirin birinci kitabı – "Malay dilemması" (1970) onun ən parlaq əsəridir. Həmin kitabın sayəsində müəllif öz ölkəsində ən məşhur malay millətçisi kimi tanınmışdı. Kitab elə faktların sadalanması ilə başlanır ki, həmin faktlar barəsində uca səslə danışmaq heç də hər yerdə təhlükəsiz sayılmırdı, – heç kəs ölsiyaya qurşanmış şəxslərik (liderlərik), yalnız öz xeyrimizə işləyirik, xidmət etdiyimiz cəmiyyətlərə sadiq deyilik. Əgər siz bizim korrupsiyaya qurşandığımızı və yalnız öz xeyrimizə işlədiyimizi güman edirsinizsə, onda gərək boynunuza alasınız ki, bizim bütün əməllərimiz korrupsiyaya qurşanmağımızın və qüsurlu xislətimizin bəhrəsidir. **Axı, siz inkar edə bilməzsiniz ki, bizim gördüyümüz işlər sayəsində Asiya ölkələri iqtisadi nəhənglərə çevrilmişlər. Üçüncüsü, zəhmət çəkib gözləməyin ki, biz öz cəmiyyətlərimizi başqalarının xeyrinə, bizim fond bazarlarımızda çox böyük məbləğdə mənfəət götürmək istəyənlərin xeyrinə idarə edəcəyik. Zəhmət çəkib bizə imkan verin ki, milli və sosial hədəflərimizi özümüz müəyyən edək. Gözləmək lazım deyil ki, iqtisadi liberalizm prinsipinə hörmət naminə xalqımızın və ölkəmizin mənafelərinə əcnəbilərin xeyrinə etinasızlıq göstərəcəyik.** Kefiniz nə qədər istəyir, öz dəlillərinizin gücü ilə inandırın. Lakin bizi öz gücünüzün dəlilləri ilə inandırmaq lazım deyil.

kədə irqlərarası münasibətləri kəskinləşdirmək istəmirdi, hərçənd hamı bilirdi ki, belə faktlar mövcuddur. **İş burasındadır ki, 1957-ci ildə müstəqillik qazanmış Malayziyada vətəndaşları gərginlik içərisində saxlayan bir vəziyyət yaranmışdı. Sayca ölkə əhalisinin təqribən yarısını təşkil edən yerli, köklü millətin – malayların əlində milli sərvətin yalnız bir neçə faizi cəmləşmişdi. Yad ölkəyə pulsuz-parasız gələn mühacirlərin çox sadə bir çıxış yolu var idi: çətinliklərə tab gətirib yaşamaq və ya məhv olmaq. Tab gətirib yaşamaq üçün gərək ticarətlə məşğul olaydın – plantasiyalar və tikinti böhran vəziyyətinə düşmüşdü. Mahathir malaylılara deyirdi ki, onlar salamat qalıb yaşamaq üçün fatalizm, passivlik, pulu, mülkiyyəti və vaxtı qiymətləndirməyi bacarmamaq kimi əzəli milli xüsusiyyətlərdən imtina etməlidirlər. Ya belə olacaq, ya da millət cırlaşacaqdır.**

Bir cəhəti də qeyd edək ki, 45 yaşlı Mahathir "Malay dilemması" kitabını yazanda malay "ifratçılarından" biri idi. Üstəlik, parlament seçkilərində məğlubiyyətə uğramış, o vaxt hakimiyyətdə olan baş nazirə kəskin məzmunlu məktub yazmışdı. Bütün bunlar onun partiyadan xaric edilməsi ilə nəticələnmişdi. "Malay dilemması" kitabı isə, sadəcə olaraq, qadağan edilmişdi. Lakin sonrakı baş nazirin hakimiyyəti dövründə Mahathiri partiya sıralarına qaytardılar, tezliklə ona kabinetdə vəzifə də verdilər. "Dilemma" çapdan çıxdıqdan 11 il sonra Mahathir partiyanın lideri və baş nazir oldu.

Yeri gəlmişkən, "Dilemma" Mahathirin hələ partiyadan qovulduğu və parlament seçkilərində məğlub olduğu dövrdə həyata keçirilən və 1990-cı ildə uğurla başa çatan siyasətin əsasını təşkil etdi.

Qeyd edək ki, Mahathir əvvəlcə hökumətin üzvü, sonra isə hökumət başçısı olarkən çox maraqlı bir ideoloji dönüş edir: malay millətçiliyindən əl çək-



məyən Mahathir onu ahəngdar surətdə Malayziya millətçiliyinə çevirməyə çalışır. Parlament üzvü Mahathir ölkədə yaşayan başqa xalqlara qarşı öz xalqının mənafeləri uğrunda mübarizə aparırdı. Nazir və baş nazir Mahathir öz millətçiliyinin əhatə dairəsini hiss olunmayacaq dərəcədə genişləndirir, ölkənin bütün vətəndaşlarını həmin dairəyə cəlb edir və əsasən "yadlara", "əcnəbilərə" qarşı mübarizə aparırdı və i.a.

Düşündüklərini çəkinmədən açıq söyləmək cəsarəti sonralar da həm diplomat, həm də üçüncü dünyanın liderlərindən biri kimi Mahathirin siyasi üslubunun fərqləndirici xüsusiyyəti olmuşdur. Çox vaxt onun qorxmazlığını və cəsarətini bir növ diplomatik inadkarlıq əvəz edirdi. Qərbin, Corc Sorosun və başqa "valyuta möhtəkirləri"nin, qərəzli və dayaz düşüncəli beynəlxalq jurnalistlərin onun ünvanına qəzəbli ifadələr işlətməsi hamı üçün, çoxdandır ki, adi hal olmuşdur:

Mahathir arzuedilməz şəxs olmağı bacarır. Lakin o, həmişə elə hərəkət etməyi bacarmışdır ki, inadkarlıq xarici investisiyaları cəlb etməyə əngəl törətməsin. Malayziya həmin göstərici üzrə saysız-hesabsız rekordlar qazanmış, Cənub-Şərqi Asiyada daha çox investisiya cəlb edən ölkəyə çevrilmişdir. Baş nazir, qətiyyətlə demək olar ki, ümumiyyətlə, Qərbə və əcnəbilərə qarşı çıxış etmirdi – Mahathir ticarət-iqtisadiyyat meydanında elə bir vicdanlı oyun uğrunda yorulmadan mü-

barizə aparırdı ki, bu oyun nəticəsində onun ölkəsi (region və bütövlükdə üçüncü dünya) halal qazancına sahib olmaq imkanı əldə etsin. Dünya belə inadkarlığı normal sayır və istər-istəməz qəbul edir.

Mahathirin öz sözləri ilə desək, **"Baş nazir vəzifəsində çalışdığım illərə nəzər salsam, zənnimcə, mənim ən böyük nailiyyətlərimdən biri budur ki, bütün millətin diqqətini onun gələcəyinə yönəltmişəm. Əvvəllər həqiqətən uzunmüddətli planlar və vəzifələr yox idi, adamlar, sadəcə olaraq, öz adi günlərini yaşayırdılar".**



Adətən, "Asiya möcüzəsi" adlandırılan nə varsa, hamısı bu birinci addımın nəticəsidir. "Dövlət-korporasiya" yaradılmış, sonra isə özəlləşdirmə həyata keçirilmişdir; ölkədə avtomobilqayırma, elektronika sənayesinin, informatikanın əsasları planauyğun surətdə qurulur; iqtisadiyyat Asiyada da misli görünməyən sürətlə yüksəlir; ölkənin paytaxtı Kuala-Lumpur palmalar və cakarandalarla əhatə olunmuş "müstəmləkə cənnəti"ndən gələcəyin futurist şəhərinə çevrilmişdir.

Baş nazir Mahathir yorulmaq bilmədən xatırladırdı ki, **islam təkcə VII əsr üçün deyil, həm də XXI əsr üçün münasib din olmalıdır. O elə bir dindir ki, birinci tövsiyəsi biliyə yiyələnməkdir.** Bilik İslam dünyasına indiki geriliyi aradan qaldırmaqda kömək edəcəkdir. Ümumiyyətlə, bütün çalarları ilə birlikdə modernləşməni həyata keçirmək Malayziya liderinin həmişə ən böyük istəyi olmuşdur.

Çindən tutmuş Yaponiya və Sinqapuradək Asiya dövlətlərinin bütün rəhbərləri kimi **Mahathir də deyirdi ki, onun son məqsədi demokratiyanın idxalı prinsipinə xidmət etmək deyil, millətin salamat yaşamasını və tərəqqisini təmin etməkdir. Populizmdirmi? Baxır hansı mənada; o, seçiciyə heç vaxt əsassız vədlər verməmişdir, mitinqlərdə isə özünü həqiqətən, balıq özünü suda rahat hiss edən kimi rahat hiss edirdi.**

Onun 1999-cu ildə çapdan çıxmış kitabı "Asiya üçün yeni şərait" adlanır. Kitabın yazılmasına Asiyada iqtisadi böhranın yekunları səbəb olmuşdur. Bu faydalı və maraqlı əsər Mahathirin XXI yüzillik barədə baxışlarının şərhi ilə tamamlanır. O yazır: "Regionda (Asiya böhranı nəticəsində) 700-800 mlrd. ABŞ dolları məbləğində alıcılıq qabiliyyəti itirilmişdir. İndoneziyanın ümumi milli məhsulu azalıb, böhrandan əvvəlki səviyyəsinin altıda bir hissəsi səviyyəsinə enmişdir. Neçə olmuşdur ki, 211 mln. zəhmətsevər əhalinin yaşadığı böyük bir ölkənin bütün aktivləri əvvəlki dəyərinin altıda bir hissəsini təşkil etmişdir? **Əgər bir əcnəbi millətin pulunu devalvasiya edirsə və onu bir gün ərzində müflisləşdirirsə, o millətə millət demək olarmı?".**

"Mən deyəndə ki, Asiyanın yeni sənaye ölkələrinin ümumi dəyərləri var və həmin dəyərlər onlara etibarlı iqtisadi yüksəliş yolu ilə irəliləməkdə kömək etmişdir, mənim bu sözlərimi çox vaxt həyasızlıq kimi, hətta, Asiyada mədəni təcavüzün yeni, təhlükəli forması kimi qələmə verirlər. Görünür, bir çox qərblilər elə zənn edirlər ki, yalnız onların dəyərləri və etika prinsipləri dünyanın bütün sivilizasiyalı kişiləri və qadınları tərəfindən hər yerdə qəbul olunur və ya qəbul olunmalıdır. Nə üçün bir çox avropalılar başa düşmürlər ki, Asiya musiqisi "Bitlz", Aznavur və ya Motsart yolu ilə deyil, öz yolu ilə inkişaf edə bilər? Eyni zamanda, bir çoxları dövlətin idarə olunmasının Asiya formasını qəbul etmirlər,

onlar bu fikirdədirlər ki, dövləti ancaq Avropa qaydaları ilə idarə etmək olar".

"Asiya iqtisadi möcüzəsi" termini şəxsən mənim heç vaxt ürəyimə yatmamışdır. Həmin terminə inansaq, bizim nailiyyətlərimiz xalqlarımızın ağır zəhməti, göz yaşları və istedadı sayəsində deyil, hansı bir sehrbazlığınsa təsiri ilə qazanılmışdır".

Malayziyanın inkişaf modeli barədə fikirləri Mahathir Mohamadın aşağıdakı sözləri ilə yekunlaşdıraq:

"Valyuta böhranına qədər asiyalılar özlərindən çox razı idilər. 21-ci yüzillik onların yüzilliyi, "Asiya yüzilliyi" olmalı idi. Onlar getdikcə həm varlanır, həm də texnologiyalar, iqtisadi yüksəliş və sənayenin inkişafı baxımından daha böyük tərəqqiyə nail olurdular. Əhalisi təqribən 2 milyard nəfər zəkalı və zəhmətsevər insandan ibarət **Şərqi Asiya üst-üstə Avropa və Amerikaya nisbətən daha qüdrətli iqtisadiyyata malik ola bilər. Lakin 21-ci yüzillik tək bir qitəyə mənsub olmayacaqdır. 21-ci yüzillik "Ümumdünya əsri" olacaqdır. Çinə və ya bütövlükdə Asiyaya mane olmaq cəhdləri gec-tez puça çıxacaqdır. Asiyada inkişafı və tərəqqini bir müddət ləngitmək olar, ancaq həmişəlik yox. Avropalıların bütün dünya üzərində hökmran olmaq cəhdləri, eləcə də hər hansı sivilizasiyanın, qitənin və ya etnik qrupun bu qəbildən olan başqa cəhdləri baş tutmayacaqdır. Asiyalılar, şübhəsiz, dünya üzərində hökmran olmayacaqlar. Lakin asiyalılar və ya Asiyada yaşayan adamlar, qarışıq irqlər özlərinə layiq yer tutacaqlar, "Ümumdünya əsri"ndə özlərinə çatmalı olan paylarını alacaqlar".**

Ərazisi 329 min kvadrat kilometr, əhalisi 26,2 mln. nəfər olan Malayziyada 2006-cı ildə 290 mlrd. dollar həcmində ÜDM istehsal olunmuşdur, ÜDM-in adambaşına düşən həcmi 12,1 min dollar təşkil etmişdir (ölkə bu göstərici üzrə dünyada 33-cüdür).

İqtisadiyyatının əsasını sənaye (ÜDM-in 46%-i) və xidmət sahələri (ÜDM-in 41%-i) təşkil edir. Kənd təsərrüfatı ÜDM-in 13%-ni verir. Elektron və elektrotexnika sənayesi yüksək inkişaf səviyyəsindədir.

Malayziya elektron çiplərin və məişət kondisionerlərinin istehsalına görə dünyada birincidir.

Malayziyanın kəşf edilmiş neft ehtiyatları 4,3 mlrd. barreldir, yüksək keyfiyyətli hesab edilir. Ölkədə hər gün 730 min barel neft çıxarılır ki, bunun da, demək olar, yarısı ixrac edilir.

Təbii qaz ehtiyatları 2,2 mlrd. kubmetr həcmində qiymətləndirilmişdir, illik qaz istehsalı 1,36 trln. kub-futdur (1 kub/fut 28,3169 kubmetrdir). Malayziyanın dövlət neft şirkəti PETRONAS-dır.

1995-ci ildə yeni paytaxtın – Putracaya şəhərinin tikintisinə başlanmışdır. 2005-ci ildən Malayziyanın inzibati paytaxtıdır.

2006-cı ildə ölkənin tarixində nəhəng investisiya layihəsinə start verilmişdir. Cənub ştatı olan Cohorun bazasında iqtisadi klaster yaradılıb. Onun inkişafı ilə dövlətin "Khazanah Nasional" şirkəti məşğul olur. İlk beş ildə şirkət bu işə 13 mlrd. dollar vəsait ayırıb. 2025-ci ildə başa çatdırılması nəzərdə tutulan layihəyə 100 mlrd. dollar vəsait sərf olunacaqdır.

İQTİSADİ İNTEQRASİYA – milli təsərrüfatlar arasında əmək bölgüsü və dərin sabit qarşılıqlı əlaqələrin inkişafı əsasında ölkələrin təkamüllü iqtisadi qovuşması. İqtisadi inteqrasiyanın məqsədi milli iqtisadiyyatların yaxınlaşması və iqtisadi vəzifələrin birgə həllinin təmin edilməsidir. Bunun üçün ayrı-ayrı firmalar iqtisadi sazişlər sistemini formalaşdırır, dövlətlərarası səviyyədə filialları təşkil edir. Dövlətlərin iqtisadi birlikləri yaradılır və razılaşdırılmış milli siyasət işlənib hazırlanır.

İqtisadi inteqrasiya obyektiv olaraq aşağıdakılarla şərtlənir: beynəlxalq əmək bölgüsünün dərinləşməsi; elmi-texniki tərəqqinin qlobal xarakteri; milli iqtisadiyyatların açıqlığının yüksəlməsi ilə. İqtisadi inteqrasiya prosesləri həm ikitərəfli, həm də regional və ya qlobal əsasda gedir. İqtisadi inteqrasiyanın ən sadə forması azad ticarət zonasıdır. Onun çərçivəsində iştirakçı dövlətlər arasında ticarət məhdudiyyətləri, ilk növbədə, gömrük vergiləri və rüsumları ləğv olunur.

Digər forma gömrük ittifaqıdır. O, gömrük vergilərinin və rüsumlarının ləğvi ilə yanaşı, vahid xarici ticarət tarifinin müəyyən edilməsini və üçüncü ölkələrə münasibətdə vahid xarici

ticarət siyasətinin aparılmasını tələb edir. Daha mürəkkəb inteqrasiya ümumi bazardır. Bu bazar onun iştirakçılarına, sadalananlarla yanaşı, kapitalların və iş qüvvəsinin sərbəst yerdəyişməsini, eləcə də iqtisadi siyasətin uzlaşmasını təmin edir. İqtisadi inteqrasiyanın ən inkişaf etmiş forması bütün qeyd olunan formaları vahid büdcə, vergi və ümumi sənaye siyasətinin aparılması ilə, bank sisteminin və valyuta münasibətlərinin ümumi tənzimləmə orqanlarının yaradılması ilə uzlaşdırılan iqtisadi və valyuta ittifaqıdır. Çoxsaylı inteqrasiya qruplaşmaları arasında Qərbi Avropada Avropa İttifaqını (Aİ) və Avropa Azad Ticarət Assosiasiyasını (AATA), Şimali Amerikada Azad Ticarət haqqında Şimali Amerika Sazişini (NAFTA), Asiya Sakit Okean regionunda Sakit Okean Birliyini (ASEAN) ayırmaq olar. İqtisadi inteqrasiya yolunda ən irəlidə gedən Qərbi Avropadır: Aİ praktik olaraq, vahid bazarın əsaslarının və dövlətlərarası idarəetmə sisteminin yaradılmasını başa çatdırmışdır. Aİ-yə daxil olan ölkələrin iqtisadi valyuta və siyasi ittifaqlarının təşəkkülü, demək olar ki, başa çatmışdır. Artıq Aİdə vahid Mərkəzi Bank yaradılmış, vahid valyuta – avro tətbiq edilmişdir.

İQTİSADİ İNTERVENSİYA – bir dövlətin digər dövlətin daxili işlərinə və ya üçüncü dövlətlərlə onun qarşılıqlı iqtisadi əlaqələrinə iqtisadi müdaxilə formalarının məcmusu. İqtisadi intervensiya həmişə bu intervensiyanı həyata keçirən dövlətin mənafelərinə xidmət göstərən digər dövlətin daxili və xarici işlərinin həllinə yönəldilmişdir. İqtisadi intervensiyanın ənənəvi formalarına aid idi: dempinq, ağır istiqrazlar (borclar), kapital ixracı, beynəlxalq bazarların zəbt edilməsi yolu ilə onlardan məhrum olunmaq, iqtisadi cəhətdən müstəqil dövlətlərə diplomatik təzyiq.

1965-ci ildə BMT Baş Məclisinin intervensiyanın bütün formalarını pisləyən "Dövlətin daxili işlərinə müdaxilənin yolverilməzliyi haqqında, onların müstəqilliyinə və suverenliyinə sədd çəkilməsi haqqında" Bəyannamənin qəbul edilməsindən sonra iqtisadi intervensiya sivilizasiyalı forma almağa başladı. 1970-ci illərdə sənaye cəhətdən inkişaf etmiş ölkələrin geniş təkrar istehsalın üstün olaraq intensiv yoluna keçidi başa çatdıqdan sonra borcların verilməsi, təmənnasız məqsədli maliyyələşmə, borcların silinməsi və s. vasitəsilə inkişaf etməkdə olan ölkələrə xeyli maliyyə yardımı göstərilməsi, müvafiq olaraq, bu ölkələrdə sosial-iqtisadi proseslərin istiqamətinin müəyyən edilməsi imkanı ölçüyəgəlməz dərəcədə artdı. İri maliyyə və texnoloji yardım göstərilməsi vasitəsilə Cənubi Koreyada və Tayvanda ABŞ-ın geosiyasi maraqlarının reallaşmasını misal göstərmək olar. ABŞ öz maraqlarını reallaşdıraraq, bir sıra Latın Amerikası ölkələrinə əhəmiyyətli dərəcədə maliyyə yardımı göstərdi. İqtisadi intervensiyanın imkanlarının güclənməsi transmilli korporasiya (TMK) resurslarının və gücünün artması ilə əlaqədardır. Hazırda TMK-lar dünya istehsalının və ticarətinin üçdə birinə nəzarət edir. Güclü iqtisadi təsir vasitələrinə malik olan TMK-lar onlardan asılı olan ölkələrin və regionların inkişaf istiqamətini müəyyən edirlər.

İQTİSADİ KİBERNETİKA – bu elmin predmeti kibernetikanın ideya və metodlarının iqtisadi sistemlərə və proseslərə tətbiqi sferasını əhatə edir. İqtisadiyyatı, eləcə də sistem kimi onun struktur və funksiyalarını nəzərdən keçirir ki, burada tənzimləmə və idarəetmə prosesləri informasiyanın hərəkəti ilə və dəyişilməsi ilə reallaşır. Geniş mənada iqtisadi kibernetika sistem təhlilini, iqtisadi informasiya nəzəriyyəsini, iqtisadiyyatı idarə edən sistemlər nəzəriyyəsini, iqtisadi-riyazi modelləşdirmə nəzəriyyəsini, ekonometrikanı və s. birləşdirən toplayıcı anlayış kimi izah olunur. İlk dəfə "iqtisadi kibernetika" anlayışı XX əsrin 50-ci illərinin əvvəllərində meydana gəlmişdir. Kibernetikanın ideya və metodlarının iqtisadi sistemləri tətbiqi ilə məşğul olan elmi istiqamətdir. O zaman həmin dövr üçün bu yeni elmi fənnin əsas inkişaf istiqamətləri nəzərdə tutulmuşdu; bununla belə, əsas diqqət tənzimləmə, məntiq və informasiya nəzəriyyəsi ilə iqtisadiyyatın sistemli təhlilinin əlaqəsinə yönəldilmişdir.

İcra sistemi dinamikada verilmiş rejimin reallaşmasına nəzarəti həyata keçirən idarə edən sistem tərəfindən müəyyən işlək vəziyyətdə dəstəklənir. İdarə edən sistem müasir iqtisadiyyatda dövlət hakimiyyətinin şaquli iyerarxiya vəziyyəti, yerli özünü idarəetmə orqanları, əmtəə istehsalçılarının müxtəlif assosiasiyaları, müəssisə və təşkilatların rəhbər orqanları ilə təmsil olunmuşdur.

İdarə edən sistem iki böyük qrupa bölünür: birbaşa (sərt) idarəetməyə və istiqamətləndirici tənzimləməyə. Sərt idarəetmə ayrı-ayrı istehsal və texnoloji zəncirlər çərçivəsində insanların, maşın və texnoloji proseslərin məqsədəuyğun qarşılıqlı fəaliyyəti sferasını əhatə edir. İstiqamətləndirici (dolayı) tənzimləmə dövlətin birbaşa səlahiyyətinə aid olmayan (iqtisadiyyatın özəl bölməsi, bələdiyyə müəssisələri və s.) icra sistemlərinin halqalarına münasibətdə həyata keçirilir.

İqtisadi kibernetika bir-biri ilə sıx əlaqəsi olan üç əsas istiqamətdə inkişaf edir:

– modellərdə iqtisadi sistemlərin strukturunun əks etdirilməsi və fəaliyyət göstərməsi məsələlərini, iqtisadi tənzimlənmə problemlərini, insanların və kollektivlərin iqtisadi mənafelərinə təsirlərin və stimulların nisbətini və qarşılıqlı razılığını ehtiva edən iqtisadi sistemlər və modellər nəzəriyyəsi;

– iqtisadi informasiya nəzəriyyəsidir ki, buna uyğun olaraq iqtisadiyyat informasiya sistemi kimi nəzərdən keçirilir. O, iqtisadi informasiya axınlarını, informasiya kanallarının xarakteristikalarını, iqtisadi ölçüləri, iqtisadiyyatın bütün sferalarında avtomatlaşdırılmış idarəetmə sistemlərində məlumatların işlənməsini və qərarların qəbulunu öyrənir;

– iqtisadi kibernetikanın qalan bölmələrinin tədqiqini konkretləşdirən və tam halında birləşdirən iqtisadiyyatda idarəedənlər sistemi nəzəriyyəsi.

Bu istiqamət üzrə tədqiqatlar bütövlükdə iqtisadiyyatın idarə edilməsi sisteminin və ayrı-ayrı təsərrüfat obyektlərinin kompleks təkmilləşdirilməsinə, son nəticədə onların optimal fəaliyyət göstəricisinə nail olunmasına yönəldilmişdir.

İQTİSADİ KONYUNKTUR – müəyyən dövrdə dünya təsərrüfatının, ölkənin, regionun təsərrüfatının, əmtəə bazarının vəziyyətini əks etdirən göstəricilərin məcmusunu xarakterizə edən mövcud iqtisadi vəziyyət, şərait. Bu cür göstəricilərə aiddir: ölkə istehsalının dinamikası, daxili və xarici ticarətin, əmtəə ehtiyatlarının, qiymətlərin, məzənnələrin, qiymətli kağızların, mənfəətin hərəkəti, istehsal güclərinin yüklənmə dərəcəsi, istehsal və tədavül xərcləri, məşğul olanların və işsizlərin sayı, əmək haqqı və s.

İQTİSADİ QANUNLAR – sabit, davamlı, təkrarlanan iqtisadi hadisə və proseslərə xas olan daxili, mühüm, zəruri, səbəb və nəticə, daimi, ümumi, kəmiyyət və keyfiyyət əlaqələrini ifadə edir.

İqtisadi qanunlar spesifik, xüsusi və ümumi olaraq üç qrupa bölünür: spesifik iqtisadi qanunlar – bunlar konkret, tarixən müəyyən təsərrüfatçılıq formalarının inkişaf qanunlarıdır. Məsələn, quldarlıq, təhkimçilik dövrlərindəki bölgü qanunları və s. Xüsusi iqtisadi qanunlar – fəaliyyət göstərmələri üçün şərait olan müəyyən tarixi dövrlərə xas olan qanunlardır. Məsələn, dəyər (qiymət) qanunu. Ümumi iqtisadi qanunlar – istisnasız bütün dövrlər üçün xas olan qanunlardır. Onlar ictimai istehsalın irəliyə doğru inkişaf prosesini əks edirlər. Məsələn, vaxta qənaət qanunu, tələbatın yüksəlməsi (artması) qanunu, ictimai əmək bölgüsü qanunu.

İqtisadi qanunlar bütövlükdə obyektiv olsa da mütləq xarakter daşımır, ayrı-ayrı insan qrupları öz davranışlarında bu qanunlardan kənara çıxa bilərlər.

Çoxsaylı iqtisadi qanunlardan aşağıdakıları göstərmək olar:

– tələb qanunu;
– təklif qanunu;
– azalan gəlirlilik qanunu;
– artan həddi məsrəfləri qanunu;
– tələbatların artması qanunu və s.

İQTİSADİ QEYRİ-FƏAL ƏHALİ – əmək qabiliyyətli yaşlarında olub, heç bir işlə məşğul olmayan və iş axtarmayan şəxslər. Ona yuxarı sinif şagirdləri, bakalavr pilləsində təhsil alan tələbələr, yaşa, staja görə və güzəştli şərtlərlə pensiya alanlar, işləmək istəməyən şəxslər (himayədə olanlar) daxil edilir. Əmək statistikasında istifadə edilən göstəricidir.

İQTİSADİ MARAQLARIN MÜDAFİƏSİ ÜZRƏ TƏDBİRLƏR – antidempinq, kompensasiya, xüsusi müdafiə tədbirləri, idxal kvotası, həmçinin ixrac kvotası tətbiq etməklə mal ixracını məhdudlaşdırma üzrə tədbirlər tətbiq etməklə, mal idxalının məhdudlaşdırılması tədbirləri.

İQTİSADİ MƏNAFE – artan maddi və mənəvi tələbatların ödənilməsinə insanların cəhd göstərməsi ilə əlaqədar iqtisadi fəaliyyətin obyektiv sövqedici motivləri. İqtisadi tərəqqinin başlıca hərəkətverici qüvvəsi.

Şəxsi, kollektiv, ictimai iqtisadi mənafelərin uzlaşması intensiv iqtisadi inkişafı stimullaşdıran səmərəli təsərrüfat mexanizminin qurulmasının əsası kimi çıxış edir. İqtisadi mənafe onun ödənilməsi ilə əlaqədar olan iqtisadi münasibətlər sistemi kimi, istehsalın iqtisadi stimullaşması sisteminin əsasında durur. Bu iqtisadi münasibətlər sistemi elə qurulmalıdır ki, insanları ictimai tələbatların daha tam ödənilməsinə və səmərəli əməyə sövq etsin.

İQTİSADİ MODEL – ölkədə artıq formalaşmış müxtəlif iqtisadi hadisə və proseslərin təsviri.

İQTİSADİ NƏZƏRİYYƏNİN TARİXİ MƏKTƏBİ – induktiv tarixi tədqiqat metodlarına əsaslanaraq, milli iqtisadi inkişaf konsepsiyasına üstünlük verən XIX əsrin ortalarında Almaniyada yaranmış iqtisadi fikrin mühüm cərəyanlarından biri. Görkəmli nümayəndələri A.Müller, F.List, V.Roşer, K.Knis və B.Qildebrantdır.

İQTİSADİ NORMATİVLƏR – 1. Maliyyə, ticarət, istehsal və sair fəaliyyət elementlərinin qarşılıqlı asılılığını, fəaliyyətin nəticələri ilə məsrəflərin nisbətinə, resursların paylanmasına iqtisadi tənzimləmə məqsədilə təqdim edilən tələbləri səciyyələndirən iqtisadi göstəricilər. İqtisadi normativlər dövlət büdcəsi ilə müəssisələr arasında qarşılıqlı münasibətlərin bazasıdır. Vergilər və qiymətlərlə bərabər bu normativlər də iqtisadiyyatın tənzimlənməsinin real rıçaqları kimi çıxış edir. 2. Bank fəaliyyətində – pul dövriyyəsinin idarə edilməsi və bank əməliyyatlarının tənzimlənməsi metodları. Kredit resurslarının tənzimlənməsi üçün ayırmalar, likvidlik və kapitalın kafilik əmsallarının tətbiq edilməsi göstəriciləri buraya aiddir. Kommersiya bankları üçün bu cür normativləri mərkəzi bank müəyyən edir.

İQTİSADİ PLAN – bütün iqtisadi sistemin (ölkənin, regionların, sahələrin, müəssisələrin milli təsərrüfatı) gələcəkdə proqnozlaşdırılan vəziyyətinin təsviri, modeli. Planda təsbit edilən göstəricilər plan dövrünün sonu üçün iqtisadi sistemin ən mühüm xarakteristikasıdır. Planda həmçinin arzu edilən məqsədlərə nail olmağın perspektiv yolları, planın həyata keçirilməsi üçün zəruri resurslar müəyyən edilir.

İqtisadi planların **perspektiv** (uzunmüddətli, 10 ildən 15 ilə qədər), **ortamüddətli** (3-5 il üçün) və **cari** (qısamüddətli, 1 ilə qədər dövr üçün) növləri fərqləndirilir.

Planların aşağıdakı növləri də olur:

– **direktiv planlar** – məcburi qaydada icra edilməlidir;

– **indikativ planlar,** yəni tövsiyə edilən, proqnozlara yaxın planlar.

Planlar ölkə təsərrüfatının bütün səviyyələrində: dövlət, milli, sahəvi, regional, müəssisələr və firmalar səviyyəsində işlənib hazırlanır və qəbul edilir.

İQTİSADİ PROQNOZ – iqtisadiyyatın və onun ayrı-ayrı ünsürlərinin gələcək inkişaf istiqamətləri haqqında elmi tədqiqatlar sistemi. İqtisadi proqnozda gələcək inkişafın obyektiv imkanlarına fəal təsir edəcək variantlar təhlil edilir.

İQTİSADİ RAYON – xalq təsərrüfatı sahələrinin ixtisaslaşmasına görə ölkənin digər ərazilərindən fərqləndirən, özünəməxsus coğrafi mövqeyi, təbii şəraiti, təbii ehtiyatları olan iqtisadi ərazi birliyi. İqtisadi rayon dünyanın bütün dövlətləri üçün xarakterikdir.

İQTİSADİ RAYONLAŞDIRMA – elmi əsaslandırılmış iqtisadi rayonlaşdırma ölkə ərazisi üzrə proqnozlaşdırmanın zəruri vasitəsi olub, məhsuldar qüvvələrin ərazi üzrə təşkilinin və iqtisadiyyatı idarə etməyin təkmilləşdirilməsinin mühüm şərtidir.

Azərbaycanda iqtisadi rayonlaşma ilk dəfə 1956-cı ildə aparılmışdır. Bu dövrdə aparılan iqtisadi rayonlaşmada respublika ərazisində 10 iqtisadi rayon müəyyənləşdirilir. Həmin iqtisadi rayonlaşdırmada aşağıdakı iqtisadi rayonlar fərqləndirilmişdi: Abşeron, Quba-Xaçmaz, Lənkəran-Astara, Kür-Araz, Kirovabad (Gəncə)-Daşkəsən, Şəki-Zaqatala, Dağlıq Şirvan, Kəlbəcər-Laçın, Naxçıvan, DQMV. Bu rayonlaşmada Kür-Araz iqtisadi rayonu Mil-Muğan, Aşağı Şirvan və Arazyanı kimi yarımrayonlara ayrılmışdı. Eyni zamanda, bu illərdə qəbul olunmuş iqtisadi rayonlaşmada kənd təsərrüfatı əhəmiyyətli və enerji əhəmiyyətli təbii resursların potensialı nəzərə alınmışdı. İkinci dəfə iqtisadi rayonlaşma Dövlət Plan Komitəsinin, Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat və Coğrafiya İnstitutunun əməkdaşları tərəfindən aparılmış və təbii komponentlər kompleks şəkildə nəzərə alınmaqla aşağıdakı 8 iqtisadi rayon müəyyənləşdirilmişdi: Bakı-Şamaxı, Quba-Xaçmaz, Lənkəran-Astara, Kür-Araz, Şəki-Zaqatala, Kirovabad (indiki Gəncə)-Qazax, Naxçıvan MSSR, Dağlıq Qarabağ Muxtar Vilayəti.

İqtisadi istiqamətdə aparılan rayonlaşmanın ana xəttini 1970-ci ildən sonra ölkə daxilində hər bir regionun təbii iqtisadi şəraiti nəzərə alınmaqla təsərrüfat sahələrinin ixtisaslaşdırılması təşkil edirdi. 1980-ci ildə aparılan iqtisadi rayonlaşmada əvvəlki rayonlaşmadan fərqli olaraq 13 iqtisadi rayon müəyyənləşdirilir. Bu iqtisadi rayonlar Abşeron, Gəncə, Qazax, Xaçmaz, Şəki, Mil-Qarabağ, Arazboyu, Muğan-Salyan, Lənkəran, Şirvan, Kəlbəcər, Yuxarı Qarabağ və Naxçıvan iqtisadi rayonlarından ibarət olmuşdur. Axırıncı iqtisadi rayonlaşma isə 1990-cı ildə aparılmış və aşağıdakı 10 iqtisadi rayon şəbəkəsi müəyyənləşdirilmişdir:

1) Abşeron iqtisadi rayonu; 2) Gəncə-Qazax iqtisadi rayonu; 3) Aran iqtisadi rayonu; 4) Quba-Xaçmaz iqtisadi rayonu; 5) Şəki-Zaqatala iqtisadi rayonu; 6) Dağlıq Şirvan iqtisadi rayonu; 7) Lənkəran iqtisadi rayonu; 8) Kəlbəcər-Laçın iqtisadi rayonu; 9) Yuxarı Qarabağ iqtisadi rayonu; 10) Naxçıvan iqtisadi rayonu.

Azərbaycan Respublikasının iqtisadi məkanı özünün iqtisadi inkişaf səviyyəsi, sahə ixtisaslaşması, təbii-iqlim şəraiti ilə əhəmiyyətil dərəcədə fərqlənən rayon və yaşayış məntəqələri, regionlar kimi ərazi qurumlarından ibarətdir. Azərbaycan regionlarının hər birinin özünəməxsus təbii iqtisadi şəraiti, üstünlüyü, tarixən ixtisaslaşmış təsərrüfat istiqaməti mövcuddur. 2011-ci ildə regionlarda müasir texnologiyalara əsaslanan 110-dan çox müəssisə tikilib istifadəyə verilmiş, hazırda 200-dən çox müəssisə tikilməkdədir.

Böyük Qafqazın cənub-şərq qurtaracağında, Xəzər dənizinin qərb sahilində yerləşən **Abşeron iqtisadi rayonu Bakı, Xırdalan və Sumqayıt şəhərlərini, Abşeron və Xızı inzibati rayonlarını əhatə edir.**

İqtisadi rayonlar üzrə hər nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi (2010-cu il)




Cədvəl 1

Azərbaycan Respublikasının iqtisadi rayonlarının əsas sosial-iqtisadi göstəriciləri, 2010-cu il (məlumatlar faktiki qiymətlərlə göstərilib)

	Azərbaycan Respublikası	Abşeron iqtisadi rayonu	Gəncə-Qazax iqtisadi rayonu	Şəki-Zaqatala iqtisadi rayonu	Lənkəran iqtisadi rayonu	Quba-Xaçmaz iqtisadi rayonu	Aran iqtisadi rayonu	Yuxarı Qarabağ iqtisadi rayonu	Kəlbəcər-Laçın iqtisadi rayonu	Dağlıq Şirvan iqtisadi rayonu	Naxçıvan iqtisadi rayonu
Ərazi, min kv. m.	**86,6**	3,29	12,48	8,96	6,07	6,96	21,43	7,25	6,4	6,06	5,5
01.01.2011-ci ildə əhalinin sayı *, min nəfər	**9111,1**	522,8	1191,7	575,3	843,2	498,4	1834,0	624,1	231,3	287,8	410,1
Təsərrüfat subyektlərinin sayı (01.01.2011)											
hüquqi şəxslər	**93416**	5388	6018	3373	4637	2492	11720	1918	806	1481	2700
fiziki şəxslər	**306933**	24427	33980	17801	22514	17177	57173	4357	34	8056	11851
İqtisadiyyatda muzdla işləyənlərin orta illik sayı **, min nəfər	**1382,9**	79,8	138,3	68,8	67,5	49,4	206,9	42,7	20,7	26,7	83,6
İqtisadiyyatda muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı, manat	**331,5**	246,0	213,2	195,2	218,1	231,6	213,5	193,1	225,1	209,3	304,7
Əhalinin gəlirləri, mln. manat	**25605,6**	1065,0	2290,9	1008,0	1380,8	949,4	3393,1	248,1	-	485,8	1007,5
Məhsulun ümumi buraxılışı, mln. manat ****	**47659,9**	673,6	1800,3	785,3	829,3	1082,0	2947,1	273,0	26,4	428,7	1465,6
Sənaye məhsulunun həcmi***, mln. manat	**27978,2**	298,6	269,8	60,2	49,5	64,0	629,3	10,2	0,1	10,3	318,6
Kənd təsərrüfatı məhsulu, mln. manat	**3877,7**	71,3	714,6	353,3	385,1	395,4	1124,4	138,7	25,7	158,7	246,1
bitkiçilik, mln. manat	**1999,2**	5,3	482,8	192,8	224,4	237,0	532,4	87,3	1,8	65,8	156,0
heyvandarlıq, mln. manat	**1878,5**	66,0	231,8	160,5	160,8	158,4	592,1	51,4	23,9	92,9	90,1
Pərakəndə əmtəə dövriyyəsi, mln. manat	**13679,5**	589,7	1282,6	594,4	817,4	557,9	1999,3	145,6	0	291,8	616,5
Əsas kapitala yönəldilmiş vəsaitlər, mln.man.	**9905,7**	119,0	420,5	183,5	133,8	556,1	577,4	85,0	0,8	183,2	501,1

** 2009-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının ilkin nəticələri əsasında hesablanmışdır*
*** 2009-cu ilin sonuna siyahı tərkibində olan işçilərin sayı*
**** Mərkəzləşdirilmiş qaydada maliyyələşdirilən tikinti-quraşdırma işləri nəzərə alınmaqla*
***** ev təsərrüfatları və çörəkbişirmə haqqında məlumatlar daxil edilməklə*

Abşeron iqtisadi rayonu



İnsanlar qədim yaşayış yeri olan Abşeron yarımadasında hələ Paleolit dövründə məskunlaşmışlar. Tunc dövründə e.ə. III-II minilliklərdə Abşeron yarımadası intensiv yaşayış yeri olmuşdur. Burada aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələri bunu bir daha sübut edir. Paleontoloji və arxeoloji tədqiqatlar göstərir ki, Abşeronda dördüncü dövrdə (təxminən 100 min il əvvəl) müxtəlif növ canlılar yaşamışdır. Məsələn, Azərbaycanda nəhəng maralın qalıqları üç məntəqədə – Binəqədidə, Azıx mağarasında və Bakı şəhərinin mərkəzində tapılmışdır.

Abşeronun ən qədim tarixi abidələrindən biri bəşəriyyətin ilkin dövrlərinin öyrənilməsi baxımından əvəzsiz abidə olan və "açıq səma altında muzey" adlandırılan Qobustan Dövlət Tarixi-Bədii Qoruğudur. Böyük Qafqaz dağlarının cənub-şərq ətəkləri ilə Xəzər dənizi arasındakı ərazidə yerləşən Qobustanda Paleolitdən orta əsrlərə qədər bütün dövrlərin izlərinə rast gəlinir. Buradakı qədim petroqliflər (daş üzərində oyma texnikası əsasında çəkilmiş qayaüstü rəsmlər) ibtidai cəmiyyətdə insan əməyi və fəaliyyətini, onun həyat və dünyagörüşünü əks etdirən çox dəyərli arxeoloji abidə tarixi sənədlərdir. Qobustan qayalarında 6000-dən çox petroqlif aşkar edilmişdir. Bu rəsmlərdə heyvan və balıq ovu, məişət səhnələri, kollektiv rəqslər, müxtəlif rəmzlər, bürclər, səma cisimləri təsvir olunmuşdur.

Qobustandakı bəzi qaya parçaları öz fiziki tərkibi və geoloji xüsusiyyətlərinə görə digər daşlardan fərqlənir. Bu baxımdan, maraq doğuran abidələrdən biri, səthinə daşla vurduqda zərb alətlərinin səsini verən və bu xüsusiyyətinə görə "Qavaldaş" adlanan qaya parçasıdır. Qobustan Dövlət Tarixi-Bədii Qoruğu 2007-ci ildə YUNESKO tərəfindən Dünya Mədəni İrsi siyahısına daxil edilmişdir.

Abşeronun qədim dövrlərdən səyyahların marağına səbəb olan və əsrlər boyu insanları heyrətləndirən unikal təbii abidələrindən biri də Məmmədli kəndində yerləşir. Buradakı qayanın ətəklərində yerdən çıxan təbii qazlar fasiləsiz yanır və buna görə də həmin yer xalq tərəfindən "Yanardağ" adlanır. "Yanardağ" abidəsinin qorunması məqsədi ilə ərazi 2007-ci ildə dövlət tarix-mədəniyyət və təbiət qoruğu elan edilmişdir.


Region, həmçinin, palçıq vulkanları ilə də zəngindir. Onu da qeyd edək ki, palçıq vulkanlarının sayına və müxtəlifliyinə görə Azərbaycan dünyada birinci yeri tutur.


Respublikanın ən gözəl təbiət guşələrindən biri olan Altıağac Milli Parkı – Xızı rayonu ərazisində yerləşir. Onun ərazisinin 90%-i meşələrdən ibarətdir. Milli Park Böyük Qafqazın cənub-şərq yamaclarındakı nadir heyvan və bitki növlərini qoruyub saxlamaq və burada inkişaf edən eroziya proseslərinin qarşısını almaq məqsədi ilə yaradılmışdır.

Abşeron torpağı zeytun, əncir və üzüm bağları ilə məşhurdur. Yay mövsümünün isti havası onların yetişməsinə xüsusi təsir göstərdiyindən, bu meyvələr spesifik dadı ilə seçilir. Abşeronda dünyanın ən nadir və qiymətli bitkilərindən olan zəfəran yetişdirilir. Abşeron yarımadasının cənub-şərq qurtaracağında yerləşən Abşeron Milli Parkı



Bakının hər guşəsi gözəlləşir
















Abşeron rayonunun mərkəzinə çevrilən Xırdalan şəhəri Prezident İlham Əliyevin 29 noyabr 2006-cı il tarixli Sərəncamına əsasən şəhər statusu almışdır



AzMDF şirkəti





Sumqayıt Alüminium zavodu

pərayaqlı heyvanların yeganə nümayəndəsi olan suitinin qorunub saxlanılması məqsədi ilə 2005-ci ildə yaradılmışdır. Xəzər suitisi Xəzər dənizində məskunlaşan yeganə dəniz məməlisidir. O, Xəzər dənizinin endemik növü olmaqla, dünya okeanının ən kiçik suitisi kimi Ginnesin rekordlar kitabına daxil edilmişdir.


Abşeron Azərbaycan xalq sənətinin ən geniş yayılmış növü olan xalçaçılıq mərkəzlərindən biridir. Bu xalçalar yumşaqlığı, rənglərin intensivliyi, bədii elementlərin orijinallığı və naxışlarının incəliyi ilə seçilir. Bəzəklərində həndəsi formalı göllər, əyrixətli nəbati elementlər üstünlük təşkil edir. Xalçaların əksəriyyəti toxunduğu yerin adını daşıyır. Bu qrupa "Xilə-buta", "Xilə-əfşan", "Novxanı", "Suraxanı", "Qala", "Bakı", "Görədil", "Fatmayı", "Fındığan", "Qədi" və s. çeşnilər daxildir.

Bu gün Azərbaycanın ən iri sənaye mərkəzinə çevrilmiş, müvafiq infrastrukturun formalaşması nəticəsində müxtəlif sahələrin tərəqqisinə nail olmuş Abşeron regionu ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Regionda çoxsaylı elmi-tədqiqat institutları, ali məktəblər, böyük idman mərkəzləri, ölkə əhəmiyyətli səhiyyə müəssisələri və digər obyektlər fəaliyyət göstərir.

İqtisadi rayonda 3 şəhər, 2 rayon, 13 qəsəbə, 14 kənd inzibati ərazi vahidləri və 32 kənd yaşayış məntəqələri vardır. Abşeron iqtisadi rayonunun və Bakının inkişafda rəqabət üstünlüyü kimi qəbul oluna biləcək əsas xüsusiyyətləri:

– Faydalı qazıntılarla zəngin çox əlverişli iqtisadi-coğrafi mövqe. İqtisadi rayon neft və qaz, mişar daşı, əhəng daşı, sement xammalı, kvars və tikinti qumları ehtiyatlarına malikdir. Respublikada olan 37 əhəng-karbonat tipli ehtiyatın 15-i Abşeron iqtisadi rayonunun payına düşür. Abşeron iqtisadi rayonunun ərazisində kərpic-kirəmit istehsalı üçün tamamilə yararlı gil ehtiyatı vardır. Onların ümumi miqdarı 6,0 mln. kub m.-dən çox olmaqla, ölkədə mövcud olan ümumi ehtiyatın 10,4 faizini təşkil edir. Xızı rayonu ərazisində 4,4 min hektar ərazini əhatə edən Altıağac qoruğu yerləşir.

– Sənaye potensiyalı. Regionun iqtisadi potensialı hər şeydən əvvəl Sumqayıt şəhərinin sənayesi, onun yüksək ixtisaslı işçiləri, elmi və mühəndis-texniki



"Palitra" MMC



Sumqayıt parkı

heyəti ilə müəyyənləşdirilir. İqtisadi rayonun sənaye strukturunda kimya və neft-kimya sənayesi aparıcı yer tutur. Neft və qazçıxarma, qara və əlvan metallurgiya, energetika, yüngül və yeyinti sənayesi də mühüm əhəmiyyətə malikdir. Ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin 60 faizi bu iqtisadi regionda cəmlənmişdir;

– İnkişaf etmiş nəqliyyat infrastrukturu. Azərbaycanın ən mühüm dəmir yolu, avtomobil, su və hava xətləri bu rayonun ərazisindən keçir. Ərazinin Xəzər dənizi sahilində yerləşməsi onun nəqliyyat əlaqələrinin genişlənməsi imkanlarını artırır. İqtisadi rayonda nəqliyyat vasitələrinin əksər növləri fəaliyyət göstərir;

– Güclü yanacaq-energetika bazası. Ölkədə istehsal edilən elektrik enerjisinin xeyli hissəsi bu rayonun payına düşür;

– Əsas istehsal və istehlak sahələri üzrə irihəcmli daxili bazara malik olması və qonşu ərazilərdə yerləşən bazarlara çıxış imkanları;

– İqtisadi, elmi-texniki və infrastruktur inkişafının yüksək səviyyəsi;

Hazırda biz ölkə miqyasında, əlbəttə ki, Bakıdan sonra iki böyük sənaye mərkəzinin yaradılması ilə ciddi məşğulluq. Onlardan biri neft-kimya sənayesinin ənənəvi mərkəzi olan Sumqayıt şəhəridir. Hazırda bu ənənəvi sahə ilə bərabər Sumqayıtda çox güclü sənaye potensialı yaradılır.


İlham Əliyev

– Güclü tikinti kompleksi. İqtisadi rayonun tikinti sənayesi müəssisələrində şüşə, polimer tikinti materialları və s. istehsal olunur;

– İnkişaf etmiş sosial infrastruktur obyektlərin geniş şəbəkəsi. Burada elmi-tədqiqat institutları, ali məktəblər, böyük idman mərkəzləri, ölkə əhəmiyyətli səhiyyə müəssisələri və digər sosial infrastruktur obyektləri fəaliyyət göstərir;

– Kənd təsərrüfatı sahəsində kifayət qədər potensialı. Abşeron iqtisadi rayonunda kənd təsərrüfatının əsasını şəhərətrafı təsərrüfat kompleksinə daxil olan südlük-ətlik maldarlıq, quşçuluq, qoyunçuluq, tərəvəzçilik, bostançılıq, üzümçülük, gülçülük və quru subtropik meyvəçilik təşkil edir.

Bütün bunlardan əlavə, region maliyyə, sığorta, konsaltinq, informasiya, nəqliyyat, təhsil və digər xidmət sahələrində kifa-



Xızının təbiəti də gözəldir

yət qədər böyük üstünlüyə malikdir.

Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı üzrə təkcə 2011-ci ildə 53 məktəbin, 47 uşaq bağçasının, 6 səhiyyə obyektinin təmir-tikinti işləri yekunlaşdırılmış və bu istiqamətdə işlər davam etdirilir.


Quba-Xaçmaz iqtisadi rayonu Azərbaycanın şimal-şərqində yerləşir. Tərkibinə Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən inzibati rayonları daxildir.

Bu bölgə e.ə. IV əsrdən – eramızın VIII əsrinədək Azərbaycan Albaniya dövlətinin, 861-1538-ci illərdə Şirvanşahlar dövlətinin, 1538-1736-cı illərdə Azərbaycan Səfəvilər dövlətinin, 1748-1810-cu illərdə Quba xanlığının tərkibində olmuşdur. 1806-cı ildə Quba xanlığı çar Rusiyası tərəfindən işğal edilmişdir. 1837-ci ildə Qubada çarizmin müstəmləkə siyasətinə qarşı kütləvi üsyan baş vermişdir.

Regionun mütləq yüksəkliyi Xəzər dənizi sahilində mənfi 27 m-dən Bazardüzü dağında 4466 m-ədək artır.

Tarixi abidələrlə zəngin region Azərbaycanın qədim yaşayış məskənlərindən biridir. Şabran rayonu ərazisində Azərbaycan şəhərsalma mədəniyyətinin əvəzsiz nümunəsi olan Şabran şəhərinin qalıqlarını seyr edə bilərik. VI əsrdə əsası qoyulan Şabran şəhəri mədəni, ticarət, inzibati mərkəz olmuşdur. Böyüklüyünə görə Şərqdə Təbrizdən sonra ikinci şəhər olan Şabran XVIII əsrdə zəlzələ nəticəsində yer üzündən silinmişdir.

Quba-Xaçmaz iqtisadi rayonu




Şabran rayonunda digər əhəmiyyətli arxeoloji abidə V-VI əsrlərə aid Gilgilçay səddidir. Vaxtilə 135 km-ə qədər uzanan Gılgilçay səddi dörd hissədən ibarət olmuşdur. Babadağa qədər uzanan səddin hündürlüyü 5-7 m, bəzi yerlərdə 7-11 m-ə çatırdı. Bu müdafiə səddinə bir neçə böyük qala, o cümlədən V-VI əsrlərə aid edilən Çıraqqala da daxil idi. Çıraqqala təkcə tarixi yaşı ilə deyil, həm də qoynunda şəfa qaynağı olan bulaqları ilə məşhurdur.


Zəngin təbii-rekreasiya ehtiyatlarına malik Quba-Xaçmaz regionu landşaftın rəngarəngliyi, əlverişli iqlimi, məşhur alma bağları, qumlu dəniz sahilləri, dənizlə sərhədlənən meşəli dağları, mineral suları ilə tanınır. Quba rayonunun Xaltan və Cimi kəndləri ətrafındakı termal mineral bulaqlar, Şabran rayonunda Qalaaltı müalicə suyu və onun əsasında yaradılmış müalicə mərkəzləri ilboyu fəaliyyət göstərir. Dəvəçi rayonunun Nohurlar kəndi yaxınlığında möcüzəli dağ gölləri vardır. Yeddi göldən ibarət olan bu ucqar ərazi dəniz səviyyəsindən 1000 m yüksəklikdə yerləşir.

Xaçmaz rayonunda Xəzər dənizi sahilində 35-40 km məsafədə uzanan Nabran-Yalama zonası Azərbaycanda sevimli yay istirahət yerlərindən biridir. Qumsal çimərliklərin meşə zolaqları ilə əvəzlənməsi bu yerləri bənzərsiz edir.

Quba rayonundakı Qəçrəş meşəliyi, dərinliyi 400-600 m-ə çatan kanyonvari Təngəaltı dərəsi, Afurca çayının yaxınlığında hündürlüyü 80 m-ə çatan əzəmətli şəlalə və Pirbənövşə şəlaləsi gözəl təbiət mənzərələri yaradır. Regionun fərqli cəhətlərindən biri də uca dağ zirvələrinin həmişə qarla və dağ buzlaqları ilə örtülü olmasıdır. Bu dağlar buz və qayalıq alpinizmi, dağ xizəkçiliyi həvəskarlarının sevimli yerinə çevrilmişdir.

Qubanın Xınalıq kəndi Avropanın ən uca yaşayış məntəqəsi






XINALIQ KƏNDİNDƏN BİR GÖRÜNÜŞ












Xaçmaz şəhəri müasirləşir









Qusarda Bayraq meydanı

sayılır. Kənd rayon mərkəzindən 65 km məsafədə, dəniz səviyyəsindən təqribən 2200 m yüksəklikdə yerləşir. Sayı təqribən 2,5 min nəfərdən ibarət xınalıqlılar yalnız Xınalıq kəndində yaşayırlar. Onların öz dili, özünəməxsus yaşayış tərzi vardır. Regionda həmçinin ləzgilər, dağ yəhudiləri, tatlar da yaşayırlar.

Quba qədim dövrdən özünün xalçaları ilə dünyada tanınmışdır. Quba xalçalarının bəzəyini həndəsi naxışlardan ibarət ornamentlərin stilizə edilmiş nəbati, bəzən isə heyvani motivlər təşkil edir. Quba qrupu xalçalarının ən parlaq kompozisiyaları "Köhnə Quba", "Qədim-minarə", "Qımıl", "Alpan", "Qolluçiçi", "Xırdagülçiçi", "Pirəbədil", "Yerfi", "Hacıqayıb", "Qrız", "Qonaqkənd" və başqalarıdır. Bu regionda toxunan xalçalar bir sıra

dünya muzeylərinin və şəxsi kolleksiyaların bəzəyidir.

İqtisadi rayonda 5 rayon, 6 şəhər, 21 qəsəbə, 97 kənd inzibati ərazi dairəsi və 473 kənd yaşayış məntəqəsi vardır.

Quba-Xaçmaz iqtisadi rayonunun rəqabət üstünlükləri:


Əlverişli təbii-coğrafi mövqe. İqtisadi rayon özünəməxsus relyef xüsusiyyətlərinə malikdir. Regionun ərazisi bir-birindən kəskin fərqlənən 4 hündürlük (26 m-dən 4466 m-ədək) zonasına – düzənliklər, dağətəyi, orta dağlıq və yüksək dağlıq zonalarına ayrılır. Regionun iqlim şəraiti də bu zonalara müvafiq olaraq müxtəlifdir.

Təbii sərvətləri. İqtisadi rayonunun əsas təbii sərvətləri neft, təbii qaz, yanar şist, qum, çınqıl, gildır. İqtisadi rayon sıx çay şəbəkəsinə və bol su ehtiyatlarına malikdir. İqtisadi rayonun ərazisinin 10-11 faizi meşələrlə örtülmüşdür.

Kənd təsərrüfatı. Regionun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Bu sahə əsasən tərəvəz və meyvə istehsalı üzrə ixtisaslaşmışdır. Bundan başqa, rayonda üzüm, kartof, taxıl yetişdirilir. İqtisadi rayonun düzənlik ərazisində südlük-ətlik istiqamətli maldarlıq, dağətəyi və dağlıq zonasında isə qoyunçuluq inkişaf etmişdir. Siyəzən və Dəvəçidə quşçuluq kompleksləri mövcuddur.

Sənaye potensialı. Son illərdə regionda meyvə-tərəvəz konserv istehsalı, xalçaçılıq, taxıl və süd məhsulları emalının dinamikasında müsbət meyillər güclənir. Regionda həmçinin, neft və qaz çıxarılır, elektrik enerjisi istehsal edilir və digər

Dağlıq Şirvan iqtisadi rayonu



sənaye müəssisələri fəaliyyət göstərir.


Nəqliyyat şəbəkəsi. İqtisadi rayon ərazisindən keçən dəmiryolu, avtomobil yolları, magistral neft, qaz və su kəmərləri, telekommunikasiya xətləri ölkənin nəqliyyat-iqtisadi əlaqələrinin inkişafında mühüm rola malikdir. Azərbaycanı Rusiya Federasiyası ilə birləşdirən kommunikasiya xətləri bu regiondan keçir.


Turizm-rekreasiya kompleksinin inkişaf imkanları. Quba-Xaçmaz iqtisadi rayonu mühüm kurort-sanatoriya regionlarından biri olmaqla zəngin təbii-rekreasiya ehtiyatlarına malikdir.

Dağlıq Şirvan iqtisadi rayonu Abşeron, Aran, Şəki-Zaqatala və Quba-Xaçmaz iqtisadi rayonu arasında yerləşir. Ağsu, İsmayıllı, Qobustan və Şamaxı inzibati rayonlarının daxil olduğu Dağlıq Şirvan iqtisadi rayonunun ərazisi əvvəllər qədim Azərbaycan dövləti Qafqaz Albaniyasının tərkibində olmuşdur.

Böyük İpək Yolunun üzərində yerləşdiyinə görə strateji geocoğrafi əhəmiyyətə malik bu ərazilər hələ qədim zamanlarda mühüm mədəniyyət, ticarət və sənətkarlıq mərkəzi kimi tanınırdı. İsmayıllı rayonunun ərazisində VII əsrə aid Cavanşir qalası və VIII əsrdə inşa edilmiş Qız qalası kimi tarixi abidələrin olması bu yerlərin Albaniyanın hərbi-siyasi həyatında önəmli rolundan xəbər verir. Buradakı Niyal, Fit, Xan və Qasımxan qalaları, Xizəki müdafiə səddi (Sulut kəndi yaxınlığında) və digər müdafiə tikililəri minilliklər boyu yadelli düşmənlərə qarşı aparılan mübarizə tarixinin yadigarlarıdır.

İsmayıllı rayonunun ən qədim yaşayış məskənlərindən biri sayılan Lahıcın yerləşdiyi məkan Girdiman çayının sahilində, Babadağ və Niyaldağ silsilələri ilə əhatə olunaraq təbii qala şə-





İsmayıllı-Lahıc yolu

raiti yaratmışdır. Memarlığı baxımından orta əsrlərin orijinal şəhərlərindən biri hesab olunan Lahıc əsaslı küçə və meydanlara, inkişaf etmiş kanalizasiya və su sistemlərinə malik idi. Bu şəhər Qafqazda ticarət-sənətkarlıq mərkəzi kimi tanınırdı.

Orta əsr şəhərlərinin bəzi xüsusiyyətlərini, o cümlədən, qədim mədəniyyət, sənətkarlıq irsini bu günə qədər mühafizə edən yaşayış məntəqələrindən biri də **Basqaldır.** Basqal orta əsrlərdə Şirvanın ən böyük toxuculuq mərkəzi idi. Burada əhalinin böyük əksəriyyəti ipək toxuculuğu ilə məşğul olurdu. Basqal və onun ətrafı antik və orta əsrlərə aid tarixi abidələrlə zəngindir. Basqalın mərkəzində orta əsrlər dövrünün məscidləri, bazar, hamam və bu günədək fəaliyyət göstərən kürəbənd şəbəkəsi vardır. Qədim Lahıc və Basqal qəsəbələri dövlət tərəfindən tarix və mədəniyyət qoruğu elan edilmişdir.

İsmayıllının İvanovka kəndinin maraqlı tarixçəsi var. Bu kəndin əsası 1847-ci ildə qoyulmuşdur. Çar Rusiyası pravoslav dinindən olan, lakin xaçı qəbul etməyərək yalnız Allaha sitayiş edən təriqət üzvlərini bu kəndə köçürmüşdür. Təriqətin adı ilə "molokan" adlandırılan rusların burada özlərinin mədəni və milli ənənələrini qoruyub saxlaya



Şamaxı "Star" televizor zavodu

bilməsi Azərbaycan xalqının ölkəmizdə məskunlaşmış digər milli və etnik azlıqlara tolerant münasibətindən xəbər verir.

Təbii gözəlliyi ilə seçilən İsmayıllı Dövlət Təbiət Qoruğu Babadağın yamaclarını əhatə edir. Dəniz səviyyəsindən 3500 metr yüksəklikdə 3 təbii göl, Kürdmaşı və Aşıqbayramlı kəndlərinin yaxınlığında düzəldilmiş 3 süni göl mənzərəli olmaqla bərabər, həm də balıq ovu üçün münasib yerlərdir.

Bu regionun qədim şəhərlərindən biri olan Şamaxı e.ə. V əsrdə salınmış, IX-XVI əsrlərdə Şirvanşahlar dövlətinin paytaxtı olmuşdur. Şamaxının Cümə məscidi, Yeddi Günbəz türbələr kompleksi, Gülüstan qalası tarixi keçmişdən qalan yadigarlardır. İlk dəfə adı yunan coğrafiyaşünası Ptolemeyin əsərində "Samaxeya" və "Kamaxeya" kimi çəkilən Şamaxı haqqında bir çox antik dövr ərəb, fars, türk, rus və orta əsr Avropa müəllifləri geniş məlumat vermişlər.

Şamaxı zəngin təbiəti, müxtəlif növ bitki örtüyü və heyvanat aləmi, sıx, həmişəyaşıl meşələri ilə xüsusilə seçilir. Dəniz səviyyəsindən 1455 m yüksəklikdə – Pirqulu dağının yamacında Şamaxı Astrofizika Rəsədxanası yerləşir. Rəsədxana əlverişli astroiqlim şəraitinə, teleskop və elmi cihazlarla təchizinə görə ən böyük elmi mərkəzlərdən biri sayılır.

İqtisadi rayonda 2 şəhər, 1 rayon, 8 qəsəbə, 103 kənd inzibati ərazi vahidləri və 272 kənd yaşayış məntəqəsi vardır.

Dağlıq Şirvan iqtisadi regionun rəqabət üstünlükləri:

Təbii sərvətləri. Regionda əsasən daş, çınqıl, qum, əhəng və digər tikinti materialları mövcuddur. Şamaxı, Ağsu, İsmayıllı rayonlarının gil yataqları mühüm tikinti əhəmiyyətinə malikdir.

Kənd təsərrüfatı. İqtisadi rayon başlıca olaraq əkinçilik, üzümçülük, şərabçılıq və heyvandarlıq üzrə ixtisaslaşmışdır. Əkinçilikdə aparıcı yeri taxılçılıq tutur. Digər əkinçilik sahələri yerli istehlak xarakteri daşıyır. Heyvandarlığın başlıca sahəsi maldarlıq və qoyunçuluqdur.

Sənaye potensialı. Sənayenin əsasını yerli kənd təsərrüfatı məhsullarını emal edən müəssisələr təşkil edir (şərab və konserv məhsulları). Bundan əlavə, regionda xalq sənətkarlığı mühüm yer tutur. Həmçinin, Şamaxı şəhərində məişət texnikası, televizor istehsalı təşkil edilmişdir.

Nəqliyyat sistemi. Dağlıq Şirvan iqtisadi rayonu geniş nəqliyyat şəbəkəsinə malikdir. Burada nəqliyyatın bütün növlərindən istifadə edilir. Baki-Tbilisi dəmiryolu magistralı MDB ölkələri ilə iqtisadi əlaqələr yaratmağa imkan verir. Dəmir yolunu magistral və yerli əhəmiyyətli avtomobil yolları tamamlayır. Ölkə paytaxtını qərb rayonları ilə birləşdirən Bakı-Qazax şose yolu rayon ərazisindən keçir. Şərabçılığın inkişafına əlverişli şərait yaratmaq məqsədilə Padar stansiyası ilə Çöl-Göylər kəndi arasında yerli əhəmiyyətli dəmiryol xətti çəkilmişdir.


Sosial infrastruktur. İqtisadi rayonun sosial infrastrukturuna orta ixtisas məktəbləri, ali məktəblərin filialları (Dövlət Pedaqoji və "Odlar Yurdu" universitetlərinin Şamaxı filialları), mədəni və maarif, səhiyyə ocaqları, teatr və muzeylər daxildir.

Turizm-rekreasiya kompleksinin inkişaf imkanları. İqtisadi rayonun dağlıq zonası müalicə və kurort əhəmiyyətli mineral sularla zəngindir. Tərkibi əsasən kükürdlə, hidrokarbonatlarla zəngin olan bulaqların suyundan müalicə və içmək məqsədi ilə istifadə edilir. Şirvan torpağı tarixən sənətkarlıq və toxuculuq mərkəzi olmuşdur. Lahıc qəsəbəsi özünün misgərlik məmulatları, Basqal kəndi isə xalq içində öz kəlağayısı ilə məşhurdur. Şamaxı şəhərində də ipək kəlağayı emalatxanaları fəaliyyət göstərir. Əksər kəndlər üçün xalçaçılıq ənənəvi sənətkarlıq növüdür.

Azərbaycanın qədim və zəngin tarixə malik ərazilərindən biri Şəki-Zaqatala bölgəsidir. Yaşıl meşə örtüyü ilə zəngin olan ərazi ölkənin şimal-qərbində – Böyük Qafqaz dağlarının cənub yamacında yerləşir. Şəki-Zaqatala iqtisadi rayonuna Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ inzibati rayonları daxildir.

Regionda mövcud bir sıra zəngin arxeoloji və memarlıq abidələri buranın ən qədim insan məskənlərindən biri olduğunu sübut edir. Şəkinin Kiş kəndindəki antik dövrə və orta əsrlərə aid Kiş yaşayış yeri və Kiş məbədi (VI-VII əsrlər), XVIII-XIX əsrlərə aid "Yuxarı baş" Tarix-Memarlıq Qoruğu və Şəki xanlarının sarayı dünya əhəmiyyətli memarlıq abidələrinə aiddir. Şəki Xan Sarayı Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Hüseyn xanın dövründə, 1761-

Şəki-Zaqatala iqtisadi rayonu




1763-cü illərdə tikilmişdir. Ağac və şüşə materiallarından hazırlanmış binanın inşasında mismar və yapışqandan istifadə edilməmişdir. Binanın daxilində həndəsi naxışlara, rəngarəng nəbati rəsmlərə, döyüş və ov səhnələrinə daha geniş yer verilmişdir. Saray divarının ornamentləri, naxışlı şəbəkələr, dağlamalar, müxtəlif naxışlar, gəc üzərində oymalar insanı valeh edir.


Şəki rekreasiya obyektlərinin sayına görə Azərbaycanın digər yerlərindən fərqlənir. Dağətəyi Marxal, Soyuqbulaq, başı qarlı dağlar qoynunda yerləşən "Gələsən-görəsən" qalası Qafqazın məşhur istirahət yerlərindəndir.

Şəkinin sakinləri öz bənzərsiz ənənələrini və qədim sənət biliklərini bu gün də qoruyub saxlamışlar. Şəki şəhərini, sözün əsl mənasında, Azərbaycanın sənətkarlıq mərkəzi hesab etmək olar. Şəkinin "Kəlağayı" adlanan ipək baş örtükləri qədim dövrdən öz zərifliyi ilə seçilir. Burada üzərində Şəkiyə xas olan xüsusi naxışlar çəkilmiş taxta sandıqlar da hazırlanır. Rayonda hazırlanan şirniyyat məhsulları Şəki mətbəxinin dadlı nümunələridir.

Müasir Qəbələ vaxtilə 20 km cənub-qərbdə yerləşən, Qafqaz Albaniyasının ilk paytaxtı olmuş qədim Qəbələ şəhərinin adını daşıyır. Uzaq keç-



Şəkidən bir mənzərə



1 İbtidai və torflu dağ-çəmən
2 Çimli dağ-çəmən
3 Bozqır dağ-çəmən
4 Çəmənləşmiş dağ-meşə
5 Tipik qonur dağ-meşə
6 Karbonat qalıqlı, qismən bozqırlaşmış qonur dağ-meşə
7 Yuyulmuş qəhvəyi dağ-meşə
8 Tipik qəhvəyi dağ-meşə
9 Karbonatlı və qismən bozqırlaşmış qəhvəyi dağ-meşə
10 Yuyulmuş və tipik dağ-qara
11 Karbonatlı dağ-qara
12 Açıq dağ boz-qəhvəyi
13 Tünd və adi dağ şabalıdı
14 Qismən çürüntülü-sulfatlı (əhəngli) dağ açıq-şabalıdı
15 Tipik və karbonatlı çəmən-qəhvəyi
16 Tünd şabalıdı və şabalıdı
17 Qismən qalıq şorlaşmış açıq şabalıdı
18 Tipik boz
19 Açıq və ibtidai boz
20 Qismən şorakətli və şoranlı boz və boz-qonur
21 Çəmən-meşə, tuqay
22 Subasar allüvial-çəmən
23 Çəmən-bataqlıq və bataqlıq
24 Şoranlar (delüvial,allüvial və təpəcikli)
Səthə çıxmış qayalıqlar
Çıqıldaşlı çay yataqları
Suvarılan, bezən becərilməyən torpaqlar

BKF



Şəki, "Karvansaray"



Qəbələ, "Qafqaz Resort hotel"



Qax rayonu, İlisu kəndi

mişdə Qəbələ dünyanın Babil, Troya, Pompey kimi qədim və məşhur şəhərləri ilə müqayisə ediləcək dərəcədə mühüm siyasi-iqtisadi və ticarət mərkəzlərindən biri olmuşdur. Qədim şəhərin bu günümüzə qədər gəlib çatmış qala və giriş darvazalarının, bəzi binaların qalıqları keçmiş səltənətdən xəbər verir. Qəbələ şəhəri e.ə. III – b.e.-nın V əsrlərində Qafqaz Albaniyasının paytaxtı olmuşdur.

Qəbələ rayonu şabalıd və qoz-fındıq bağları ilə də məşhurdur. Dağ yamaclarında, dəniz səviyyəsindən 1000 m yüksəklikdə məşhur şabalıd meşələri yerləşir. Baharda çiçək açan ağaclar ecazkar mənzərə yaradır. Meşədəki ağacların orta yaşı 500 ildən artıqdır.

Nadir təbiəti və sıx meşələri ilə tanınan Zaqatala Dövlət Təbiət Qoruğu fıstıq, palıd və vələs ağacları ilə zəngindir. Qoruğun qiymətli sərvətlərindən biri onun rəngarəng bitki örtüyüdür. Tədqiqatlar sübut etmişdir ki, buranın dağ yamaclarında bitən 40-dək yabanı bitki, meyvə və giləmeyvələrdən dərman istehsalında xammal kimi istifadə oluna bilər.

Regionun təbiətini şəlaləsiz təsəvvür etmək mümkün deyil. Zaqatala rayonundakı 14 m hündürlüyündə şəlalə, Balakən rayonundakı Katex şəlaləsi, Qax rayonunun İlisu və Ləkit kəndlərindəki şəlalələr buradakı əsrarəngiz təbiətlə həmahəngdir. Bölgənin uca zirvəli dağlarının başı avqust ayına qədər qarlı olur.

Şəki-Zaqatala regionunda müxtəlif azsaylı xalqlann nümayəndələri – avarlar, saxurlar, in-giloylar məskunlaşmışlar.

İqtisadi rayonda 6 rayon, 6 şəhər, 8 qəsəbə vardır. Şəki-Zaqatala iqtisadi rayonunda kəndlərin sayı 336-ə bərabərdir.

Şəki-Zaqatala iqtisadi rayonunun rəqabət üstünlükləri:

Bölgənin relyefi yüksək dağlıq və dağətəyi ərazilərə bölünür. Azərbaycan Respublikasının mis ehtiyatlarının hamısı, kükürd kolçedanının 90 faizi, qurğuşunun 97 faizi, sinkin 99 faizi bu iqtisadi rayonun payına düşür. Qafqaz regionunun iri polimetal yataqlarından olan Filizçay yatağı bu rayonun ərazisində yerləşir. Dağlıq və dağətəyi yerlərdə çınqıl, qum və başqa tikinti materialları mövcuddur. Şəki-Zaqatala iqtisadi rayonu ərazisinin 27 faizini meşə massivləri təşkil edir, rayon bol su



Oğuz Qarğıdalı emalı zavodu

ehtiyatlarına malikdir.

Tarixən iqtisadi rayonun sənayesi əsas etibarilə kənd təsərrüfatı məhsullarını emal edən yüngül və yeyinti sənaye sahələri üzrə ixtisaslaşmışdır. Bu sahələr iqtisadi rayonun sənaye məhsulunun 95 faizdən çoxunu verir. Yeyinti sənayesi bağçılıq, tütünçülük və heyvandarlıq məhsullarının emalına əsaslanır. Yüngül sənayenin əsasını ipəkçilik təşkil edir. Tütünçülüyün inkişafı ilə əlaqədar regionda tütün-fermentləşmə zavodları fəaliyyət göstərir.



Balakən rayon Mərkəzi xəstəxanası

2010-cu ildə şəhər və rayonlar üzrə doğumun ümumi əmsalı



Əhalinin hər 1000 nəfərinə.

1,3 - 17,0
17,1 - 20,0
20,1 - 25,0
25,1 - 28,6

Region kifayət qədər inkişaf etmiş nəqliyyat şəbəkəsinə malikdir. Avtomobil nəqliyyatı inkişaf etmişdir. Əsas yol Yevlax-Balakən şosesi və 1980-ci illərin ikinci yarısında istifadəyə verilən dəmiryoludur.

Kənd təsərrüfatı sahəsində kifayət qədər potensialın olması ilə regionda tütünçülük, baramaçılıq, meyvəçilik, taxılçılıq, üzümçülük, süd və ət-yun təmayüllü qoyunçuluq inkişaf etmişdir.

İqtisadi rayonun gözəl təbiəti onu Azərbaycanın mühüm istirahət-turizm regionuna çevirmişdir. Qəbələdə, Şəkidə, Zaqatalada beynəlxalq standartlara cavab verən istirahət-turizm müəssisələri fəaliyyət göstərir. Ərazidən Gürcüstana beynəlxalq turizm marşrutu keçir.

Aran iqtisadi rayonu Azərbaycanın mərkəzi hissəsində yerləşir və Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab inzibati rayonlarını və Şirvan, Mingəçevir, Yevlax şəhərlərini əhatə edir. Regionun ümumi sahəsi ölkə ərazisinin 24,7 faizinə bərabərdir.

Bəzi məlumatlara görə, Aran rayonunun adı qədim alban tayfalarının bir çoxunun özlərinin əfsanəvi əcdadları hesab etdikləri Aranın adı ilə bağlıdır. Digər bir mülahizəyə görə, Aran adı isti iqlimə malik ərazi kimi başa düşülür.

Aran bölgəsi qədimdə Azərbaycanın Atropatena və Albaniya dövlətlərinin, VIII-IX əsrlərdə Ərəb xilafətinin, 861-1225-ci illərdə Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər, Şirvanşahlar dövlətlərinin, Səlcuq imperiyasının və Azərbaycan Eldənizlər (Atabəylər) dövlətinin, XIII-XIV əsrlərdə Elxanilər (Hülakilər), XV əsrdə Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu, 1501-1736-cı illərdə Azərbaycan Səfəvilər dövlətinin, 1747-ci ildə Nadir şah Əfşarın imperiyası süqut etdikdən sonra müxtəlif Azərbaycan xanlıqlarının tərkibində olmuşdur.

Region Azərbaycanın qədim və orta əsrlər tarixinə aid yaşayış məskənləri ilə zəngindir. Bunu Ağcabədi rayonu ərazisində aşkar olunmuş qədim şəhər qalıqları sübut edir. Şəhərin müxtəlif dövrlərdə inşası və məskunlaşması, mülahizələrə görə, eramızdan əvvəl IV əsrdən başlayaraq bizim eranın XIII əsrinə qədər davam etmişdir.

Bərdə şəhərində kərpic naxışlarında "Allah" kəlməsi mütənasib təkrarlanan və 1322-ci ilə aid edilən türbə, XIV əsrə aid "Axsadan baba" türbəsi, XVI əsrə aid "İbrahim məscidi" və qəbiristanlıq, Hacıqabul rayonunun Qubalı Baloğlan kəndində XIII əsrə aid qala divarları, məscid və minarə, karvansara və digər rayonların ərazisində müxtəlif dövrlərə aid memarlıq abidələri vardır.

Aran rayonu əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Bölgənin əsas təbii sərvətlərini neft, təbii qaz, yodlu və bromlu mədən suları, müxtəlif tikinti materialları təşkil edir. Bu ehtiyatlar, əsasən, bölgənin mərkəzi və cənub-şərq hissəsində cəmlənmişdir.

Aran rayonu ölkə əhəmiyyətli magistral nəqliyyat xətləri (dəmir və şose yolları) üzərində yerləşir. Bakı şəhərini Gürcüstan, İran və Türkiyə ilə birləşdirən nəqliyyat yolları bu ərazidən keçir.

Azərbaycanın ərazisində mövcud olan milli parkların əksəriyyəti bu regionda yerləşir. Zəngin flora və faunaya malik regionun ərazisindəki Şirvan Milli Parkı nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin (ceyranların və subataqlıq quşlarının, o cümlədən flaminqo, bəzgək, dovdaq, sultan toyuğu və s) qorunub saxlanılması məqsədi ilə Qaradağ, Salyan, Neftçala rayonları ərazisində yerləşən Şirvan Dövlət Təbiət Qoruğunun bazasında 2003-cü ildə yaradılmışdır.

Xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi ərazilərdən biri Ağcabədi və Beyləqan rayonlarının ərazisindəki Ağgöl milli parkıdır. Burada soltan toyuğu, bəzgək, qaraleylək, ərsindimdik, mərmərcürə, yaşılbaş, bizquyruq, ala, qırmızıdimdik, kəkilli qara və boz ördəklər, qu quşları kimi nadir quşlar qorunub saxlanılır.

Regionda, həmçinin, Türyançay Dövlət Təbiət Qoruğu, Bərdə Dövlət Təbiət Yasaqlığı, Bəndovan Dövlət Təbiət Yasaqlığı yerləşir.

Salyan rayonunun mərkəzindən 5 km məsafədə Azərbaycanın çoxsaylı palçıq vulkanlarından biri – Babazənən vulkanı yerləşir. Bu vulkandan püskürən palçığın müalicəvi əhəmiyyəti vardır.

İqtisadi rayonda 18 şəhər, 16 rayon, 39 qəsəbə, 391 kənd inzibati ərazi vahidləri və 791 kənd yaşayış məntəqələri vardır.


Aran iqtisadi rayonunun rəqabət üstünlükləri:

Təbii sərvətləri. Aran iqtisadi rayonunun əsas yeraltı sərvətləri neft, təbii qaz, yodlu və bromlu mədən sularından, müxtəlif tikinti materiallarından ibarətdir. Bu ehtiyatlar əsasən rayonun mərkəz və cənub-şərq hissəsində cəmlənmişdir. Kür və Araz çaylarının su ehtiyatları, əkinə yararlı geniş torpaq fondu rayonun başlıca təbii sərvətlərindəndir.

Aran iqtisadi rayonunun kənd təsərrüfatı suvarma əkinçiliyinə əsaslanır. Pambıqçılıq, taxılçılıq, üzümçülük, quru subtropik meyvəçilik, bostançılıq kənd təsərrüfatının ixtisaslaşmış sahələridir. Azərbaycanda istehsal olunan pambığın 90 faizdən çoxu bu rayonun payına düşür.


Nisbətən inkişaf etmiş sənaye potensialı. Energetika, kimya, maşınqayırma, yüngül, yeyinti, tikinti materialları istehsalı sənayesi iqtisadi rayonun sənayesinin əsasını təşkil edir. Rayonun sənayesi, əsasən, onun cə-


Təsərrüfat subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü



Qrafik 1

Aran iqtisadi rayonu





nub-qərbində (Şirvan, Salyan, Neftçala) və şimal-qərbində (Mingəçevir və Yevlax şəhərlərində) cəmlənmişdir. Elektroenergetika rayonun inkişaf etmiş və ixtisaslaşmış sahələrindən biridir. Mingəçevir şəhərinin iki elektrik stansiyasının istehsal etdiyi enerji ölkədə istehsal edilən enerjinin təxminən 60 faizi həcmindədir. Kimya sənayesi müəssisələri Mingəçevir, Salyan, Neftçala şəhərlərində fəaliyyət göstərir. Salyanda plastik kütlə, Neftçalada yod-brom və İmişlidə şəkər zavodları mövcuddur.


Nəqliyyat sistemi. Aran iqtisadi rayonu ölkə və beynəlxalq əhəmiyyətli magistral nəqliyyat xətləri (dəmir və şose yolları) üzərində yerləşir. Bakı şəhərini ölkənin əsas iqtisadi rayonları, Gürcüstan, İran və Türkiyə ilə birləşdirən nəqliyyat yolları bu rayonun ərazisindən keçir. Son vaxtlar beynəlxalq yükdaşımaların çoxalması bu yolların əhəmiyyətini artırmışdır.

Gəncə-Qazax iqtisadi rayonu respublikanın qərbində yerləşir. Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz inzibati rayonlarını, Gəncə və Naftalan şəhərlərini əhatə edir.

Bu region qədim Daş dövründən insanların yaşayış məskəni olmuşdur. Qazax rayonu ərazisindəki Aveydağda aşkar olunmuş mağaralar, Daş Salahlı, Damcılı və digər arxeoloji abidələrdə tapılmış maddi-mədəniyyət nümunələri bunu təsdiq edir.

Qafqazda erkən əkinçilik mədəniyyətinə aid ən qədim yaşayış

Gəncə-Qazax iqtisadi rayonu



məskənlərindən sayılan Neolit dövrü Göyrətəpə, Həsənsu (Ağstafa rayonu), Göytəpə (Tovuz rayonu) abidələrində aşkar olunmuş yaşayış və təsərrüfat tikililərinin tarixi isə e.ə. 7-ci minilliyə bağlanır.


Daşkəsən və Gədəbəy rayonlarının ərazisindəki tarixi mədəniyyət abidələri Azərbaycan tarixinə e.ə. XIV-VII əsrləri əhatə edən Xocalı-Gədəbəy mədəniyyətinin bir hissəsi kimi daxil olmuşdur.

Ağstafa rayonunda yerləşən Keşikçidağ mağaralar kompleksindən ibarət "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu təkraredilməz relyefə malik və çoxsaylı tarixi abidələrlə zəngin ərazini əhatə edir. Azərbaycanın bu qədim yaşayış məskənində aparılmış tədqiqatlar nəticəsində burada yerləşən təbii mağaraların 2 min il yaşı olduğu, süni mağaraların isə VIII-XV əsrlərə təsadüf etdiyi məlum olmuşdur. Ərazidəki ilkin orta əsrlərə aid olan qala müdafiə məqsədilə tikilmişdir. "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunda 70-ə qədər mağara, 1 qala, 1 məbəd, 1 inancyeri bu günə qədər qorunub saxlanılmışdır.

Şəmkir çayı sahilində yerləşən orta əsr Şəmkir şəhərinin möhtəşəm qala divarları insanda böyük təəssürat doğurur.

Daşkəsən rayonu Murovdağ silsiləsi boyunca uzanan meşə massivləri, "Yumurtalı", "Narzan", "Turşsu", "Qiblə", "Qayğı" kimi müalicəvi əhəmiyyətli mineral bulaqları, yaşı yüzilliklərlə ölçülən nadir təbii abidələri – çinar ağacları ilə məşhurdur. Bəzi çinarların yaşı 1200-1300 ilə çatır. Rayondakı Qafqazda ehtiyatlarına görə ən böyük dəmir filizi yatağı və zəylik alunit yatağı regionun iqtisadiyyatında mühüm yer tutur.

Bütün dövrlərdə nadir hesab







İlham Əliyev "DET AL" Alüminium MMC-nin Gəncə alüminium zavodu kompleksinin açılışında

olunan və 1910-cu ildə Qafqaz təbiətində ilk dəfə qoruq ərazisi elan edilmiş Eldar şamı (lat. *Pinus eldarica*) meşəliyi isə Samux rayonundadır. Bu meşəlik dəniz səviyyəsindən 400-600 m yüksəklikdə yerləşir.


Əlverişli təbii şəraitə malik Gəncə-Qazax regionu mənzərəli dağ-meşə landşaftı, zəngin flora və faunası ilə tanınır. Kür çayı sahili boyunca uzanan tuqay meşələri xüsusi eko-sistem yaradır. Bu regionda "Qırmızı kitab"a düşmüş bir çox nadir heyvan və quş növləri məskunlaşmışdır.

Kiçik Qafqazın dağlıq zonasında, dəniz səviyyəsindən 1000 m hündürlükdə, meşəli dərəlikdə yerləşən Hacıkənd kurort zonası, Kəpəz dağı və onun ətrafındakı yeddi göl: Göygöl, Maralgöl, Qaragöl, Ayı gölü, Çili gölü, Quş gölü, Zəli gölü əsrarəngiz gözəlliyi ilə məşhurdur. 1139-cu ildə zəlzələ nəticəsində Kəpəz dağı ətəyində yaranan Göygölü təbiət möcüzəsi hesab etmək olar. Dəniz səviyyəsindən 1556 m yüksəklikdə yerləşən gölün uzunluğu 2800 m-ə, dərinliyi 96 m-ə, eni isə 1000 m-ə çatır. Şəffaflığı ilə seçilən Göygölün görünmə qabiliyyəti 13 m-ə çatır. Maraqlıdır ki, gölün üç hissədən ibarət tam fərqli su qatları (şirin su qatı,



Daşkəsən filizsaflaşdırma kombinatı

2010-cu ildə şəhər və rayonlar üzrə əhalinin təbii artımının ümumi əmsalı



Əhalinin hər 1000 nəfərinə

- 1,0 - 12,0
- 12,1 - 16,0
- 16,1 - 18,0
- 18,1 - 24,3

keçid qatı, zəhərli kükürd qatı) bir-birinə qarışmır. Göl sərt dağ yamacları boyunca sıx palıd, şam, vələs meşələri ilə əhatə olunmuşdur. Zəngin flora və faunaya malik gölün ətrafındakı meşələrin, faunanın qorunması, göl suyunun təmiz saxlanılması məqsədi ilə 1925-ci ildə Göygöl Dövlət Təbiət Qoruğu, 2008-ci ildə isə qoruğun bazasında Göygöl Milli Parkı yaradılmışdır.

Dünyada çıxarılan yeganə müalicə nefti haqqında ilk yazılı məlumat XII əsrə təsadüf edir. Azərbaycanı dünyada məşhur edən bu neft Naftalanda çıxarılır. Orta əsrlərdə bir çox şair və səyyahların əsərlərində adı çəkilən Naftalan neftini Asiyanın müxtəlif ölkələrinə aparan xüsusi tacirlər təbəqəsi yaranmışdı. Müalicəvi neft sümük-oynaq, sinir-əzələ, dəri, ginekoloji xəstəliklərin müalicəsi üçün istifadə olunur. Buraya gələn xəstələrin əksəriyyəti şəfa tapıb qoltuq ağaclarını qoyub getdiklərinə görə, kurort şəhəri Naftalanda dünyada yeganə olan bir muzey – qoltuq ağacları muzeyi yaradılmışdır.

Gəncə şəhəri Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biridir. Tariximizin böyük intibah dövrü hesab olunan X-XII əsrlərdə bu şəhər dünya mədəniyyətinə dahi Nizami Gəncəvi, Əbülla Gəncəvi, Məhsəti Gəncəvi kimi şairlər bəxş etmişdir. Nizami Gəncəvinin məqbərəsi, Cümə məscidi, Şah Abbas məscidi, İmamzadə tikililər kompleksi, Şeyx İbrahim məqbərəsi, karvansara və s. Gəncənin maraqlı tarixi memarlıq abidələridir.

Bu region folklor sənətinin xüsusi növü olan aşıq sənətkarlığının əsas mərkəzlərindən hesab olunur. Xalq sənəti növlərinin qorunub saxlandığı regionda xalçaçılıq, metal üzərində döymə, ağac və daş üzərində oyma sənət növləri özünəməxsus milli arnamentləri ilə seçilir.

İqtisadi rayonda 12 şəhər, 9 rayon, 2 şəhərdaxili rayon, 42 qəsəbə, 278 kənd inzibati ərazi vahidləri və 521 kənd yaşayış məntəqələri vardır.

Gəncə-Qazax iqtisadi rayonunun rəqabət üstünlüyü kimi qəbul oluna biləcək əsas xüsusiyyətləri:



Samux rayonunda 500 kVt-luq "Samux" yarımstansiyası

İqtisadi rayon əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Relyef xüsusiyyətlərinə görə rayonun ərazisi 4 zonaya: maili düzənliklər, dağətəyi, orta dağlıq (dəniz səviyyəsindən 1000-2000 m yüksəklikdə), yüksək dağlıq (dəniz səviyyəsindən 2000 m yüksəklikdə) zonalara ayrılır. Regionun iqlim şəraiti də bu zonalara müvafiq olaraq müxtəlifdir.

Faydalı qazıntılarla zəngin olması. Dəmir filizi, alunit, əhəngdaşı, mərmər, gips, seolit, sement xammalı iqtisadi rayonun



"Chinar Hotel & Spa Naftalan" kompleksi


əsas faydalı qazıntı ehtiyatlarıdır. Daşkəsən dəmir filizi, Zəylik aluniti, Xoşbulaq əhəng daşı ehtiyatları sənaye əhəmiyyətlidir.

Yüksək sənaye potensialına və sənaye infrastrukturuna malikdir. Gəncədə və Daşkəsəndə qara və əlvan metallurgiya xammalının hasilatı, onların emalı müəssisələri yerləşir. Ağır sənaye rayonun iqtisadiyyatında mühüm yer tutur. Gəncə Traktor zavodunun istifadəyə verilməsi kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmlənməsinə əhəmiyyətli dərəcədə təsir edir. Regionda yüngül sənaye müəssisələrinin işə salınması istiqamətində mühüm işlər görülmüşdür. Regionda fəaliyyət göstərən müəssisələrin ildən-ilə ixrac imkanları genişlənmişdir.

Gəncə-Qazax iqtisadi rayonunu Azərbaycanı Gürcüstan və Qara Dənizin sahilləri ilə birləşdirən dəmir və avtomobil yolları üzərində yerləşir. Gəncə, Qazax və Ağstafa əsas nəqliyyat qovşaqlarıdır.

Region sosial infrastruktur obyektlərin geniş şəbəkəsinə malikdir. Regionda dinamik inkişaf edən sosial infrastruktur sahələri əhalinin bir çox sosial-mədəni tələbatlarının (səhiyyə, elmi-mədəni, təhsil) ödənilməsində mühüm rol oynayır. Azərbaycan Milli Elmlər Akademiyasının Elm Mərkəzi, elmi-tədqiqat müəssisələri fəaliyyət göstərir. Gəncədə (Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Texnologiya Universiteti, Gəncə Dövlət Universiteti) ölkə üçün yüksəkixtisaslı kadrlar hazırlanır. Rayonda kütləvi kitabxanalar, muzeylər, teatrlar, xəs-

Lənkəran iqtisadi rayonu




təxanalar və digər sosial infrastruktur obyektləri mövcuddur. Azərbaycan Respublikası üzrə kənd təsərrüfatı məhsulunun 19 faizi, o cümlədən kartofun 80-85 faizi, üzümün 28 faizi, heyvandarlıq məhsullarının 15 faizi bu rayonun payına düşür. Gəncə-Qazax iqtisadi rayonunda kənd təsərrüfatının əsas ixtisaslaşma sahələri kartofçuluq, üzümçülük, taxılçılıqdır. İqtisadi rayonda, həmçinin bostançılıq, tərəvəzçilik, meyvəçilik və heyvandarlıq sahələri inkişaf etmişdir.

İqtisadi rayonun əlverişli təbii şəraiti, saf iqlimi, mənzərəli dağ-meşə landşaftı, müalicə əhəmiyyətli mineral suları beynəlxalq əhəmiyyətli istirahət-müalicə müəssisələrinin yaradılmasına imkan verir. Dəniz səviyyəsindən 1566 m yüksəklikdə Göygöl və Hacıkənd istirahət guşələri salınmışdır. Regionda dünya əhəmiyyətli Naftalan istirahət-müalicə kompleksi səmərəli fəaliyyət göstərir.

Azərbaycan Respublikası ərazisinin cənub-şərq torpaqlarını əhatə edən Lənkəran iqtisadi rayonuna Astara, Lənkəran, Yardımlı, Lerik, Masallı və Cəlilabad inzibati rayonları daxildir. Region şərqdə Xəzər dənizi, qərbdə və cənubda isə İran İslam Respublikası ilə həmsərhəddir.

Qədim dövrdə bölgənin ərazisi Azərbaycanın Manna, Midiya, Atropatena dövlətlərinə daxil idi. IV-IX əsrlərdə bu bölgə Sasanilər imperiyasının və Ərəb xilafətinin, IX-XII əsrlərdə Azərbaycan feodal dövlətlərinin və Səlcuq imperiyasının, XIII-XIV əsrlərdə Elxanilər (Hülakilər), XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, 1501-1736-cı illərdə Azərbaycan Səfəvilər dövlətinin, 1748-1826-cı illərdə Lənkəran xanlığının tər-



kibində olmuşdur. 1826-cı ildə Lənkəran xanlığı çar Rusiyası tərəfindən işğal edilmişdir. 1831-ci ildə burada çarızmin müstəmləkə siyasətinə qarşı böyük üsyan baş vermişdir.

Bu region əsrarəngiz təbiəti, nadir flora və faunası, tarixi-memarlıq abidələri, zəngin folklor və sənət nümunələri, özünəməxsus mətbəxi və uzunömürlü sakinləri ilə səciyyələnir.

Lənkəran rayonu Azərbaycanın qədim insan məskənlərindən biridir. Burada müxtəlif dövrlərə aid arxeoloji abidələr vardır. Lerik rayonu ərazisindəki Buzeyir mağarasında aparılmış arxeoloji qazıntılar bölgənin hələ Paleolit dovründə məskunlaşdığını göstərir. Minlərlə eksponatın toplandığı yerli tarix muzeylərində Daş, Tunc, Dəmir dövrlərinə aid maraqlı arxeoloji materiallar toplanılmışdır. Mütəxəssislərin qənaətinə görə, burada nümayiş olunan daş parçası üzərindəki maral təsvirinin 2000-3500 il, daş insan heykəlinin isə 2000 ildən çox yaşı vardır.

Region ərazisində müdafiə məqsədilə tikilmiş qalalara da rast gəlmək olar. Bu baxımdan, Şingədulan kəndindəki Qız qalası diqqəti cəlb edir. Onun zirvəsinə yalnız bir tərəfdən çıxmaq mümkündür. Orijinal fasad naxışları ilə diqqəti cəlb edən Xan evi, Kiçik Qala məscidi, Güldəstə minarəsi və qədim Hacı Mirzə hamamı Lənkəranda indiyədək saxlanılan tarixi-memarlıq abidələrindəndir.

Rütubətli subtropik iqlimə malik Lənkəranda, adətən, qış sərt keçmir, quru və qızmar yay günlərindən sonra gələn yağışlı payız fəsli isə bu regionun zəngin flora və faunasını şərtləndirir. Əlverişli iqlim burada sitrus bitkilərinin yetişdirilməsinə şərait yaradır. Bərəkətli Lənkəran torpağını Azərbaycan çayının vətəni hesab etmək olar. Regionda balıqçılıq və ovçuluq üçün əlverişli imkanlar mövcuddur. Dadlı və bir qədər fərqli Lənkəran mətbəxi də rəngarəng milli koloritə əsaslanır.

Burada azərbaycanlı, talış və digər xalqların nümayəndələri yaşayırlar.

Masallı rayonu qədim qalaları, müalicəvi isti suyu, nadir ağaclarla zəngin meşələri, büllur bulaqları ilə diqqəti cəlb edir. Bulaqlar muzeyi sayılan Ərkivan kəndində 37 bulaq vardır. Təbii gözəllik guşəsi olan istisu yel, oynaq, əzələ, sinir sistemi, bir çox dəri, habelə mədə-bağırsaq və digər xəstəliklərin müalicəsi üçün faydalıdır.

"ZərinQala" – Azərbaycan mineral sularla zəngin ölkələrdən biridir. Həmin mineral bulaqların böyük bir hissəsi respublikamızın cənub bölgəsində yerləşən əsrarəngiz gözəllikləri, qədim adət-ənənələri zəngin olan Lerik rayonunun ərazisindədir. Respublikamızın cənub bölgəsində yerləşən bu diyar, eyni zamanda uzunömürlülər diyarı kimi tanınmışdır. Alimlər bunun səbəbini insanların ekoloji cəhətdən təmiz olan təbiətdə yaşamaları, qidalarının və içdikləri suların təmiz və təbii olması ilə əlaqələndirirlər.

"ZərinQala" MMC 2000-ci ildə təsis olunmuşdur. Bu sular Almaniya və Türkiyə texnologiyaları ilə təchiz olunmuş laboratoriyalarda bakterioloji sistemdən keçdikdən sonra qablaşdırılır. Yüksək keyfiyyətdə istehsal olunan "ZərinQala" suları zəngin mineral tərkibli bulaq suyu olduğuna görə insan sağlamlığı üçün çox faydalıdır.

Şirkət 11 illik fəaliyyəti dövründə öz maddi-texniki bazasını möhkəmləndirmiş və məhsul çeşidini artırmışdır.

"Uyğunluq" və "Gigiyenik" sertifikatlarına tam cavab verən "ZərinQala" suları, bu gün Azərbaycanın hər yerində böyük məmnuniyyətlə istifadə olunur. Göstərdiyi xidmət və istehsal etdiyi məhsulun keyfiyyətinə görə ölkəmizdə mineral sular sektorunda ilk dəfə olaraq "ISO-9001 Beynəlxalq Keyfiyyət Sertifikatı"na məhz "ZərinQala" suları layiq görülmüşdür.

Regionun qoruqları zəngin təbiəti ilə seçilir. Avropa ornitologiyası üçün çox dəyərli sayılan Qızılağac Dövlət Təbiət Qoruğu Xəzər dənizinin cənub-qərb sahillərində, Qızılağac körfəzi ra-

ZərinQala®





"Yanar bulaq" (Yardımlı rayonu)



Masallı "İstisu" sanatoriyası



Lerikin mənzərəsi



Masallı mehmanxanası



Masallı Boradigah kəndi



Yardımlının Arus kəndi



Yardımlının mənzərəsi



Yardımlı rayonunda şəlalə

yonunda yerləşir. 1929-cu ildə yaradılmış qoruq qışlayan, köçəri, su, bataqlıq və çöl quşlarının mühafizə edilməsi, çoxaldılması məqsədilə yaradılmışdır. Qış aylarında burada sayca 1 milyondan artıq quş olur. Ərazidə məskunlaşmış quş növlərindən 20-yə qədərinin adı (qıvrımlələk qutan, çəhrayı qutan, qara leylək, mərmərcürə, dəniz qartalı, məzar qartalı, berkut, turac, dovdaq, bəzgək, sultan toyuğu, ərsindimdik, qızılqaz, qırmızıdöş qaz, fısıldayan qu, kiçik qu, çökükburun cüllüt, ağquyruq çökükburun, çöl haçaquyruq cüllütü) Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmişdir. Üçüncü dövrün nadir və endemik bitki növlərinin mühafizəsi, tipik flora və fauna növlərinin qorunub saxlanılması, eləcə də tədqiqatlar məqsədi ilə Lənkəran və Astara rayonlarının ərazisində Hirkan Milli Parkı yaradılmışdır. Hirkan Milli Parkının ərazisinin çox hissəsi meşələrlə örtülüdür. Parkın ərazisi şaquli qurşaq üzrə çox ucalmasa da (1000 m-ə qədər), şərqdən qərbə dağlara qalxdıqca, meşələrin şaquli qurşaqlar üzrə dəyişdiyini müşahidə etmək olar: aşağı hissədə əsasən, şabalıdyarpaq palıd, dəmirağac və vələsin (ipək akasiya, Xəzər lələyi, Hirkan ənciri, Qafqaz xurması, Azat və s. ilə birlikdə) üstünlük təşkil etdiyi meşələr yayılmışdır. Coğrafi hündürlüklər payız aylarında bu meşələrin min bir rəngə çalan gözəlliyini yaradır. Milli Parkda ayıdöşəyi, Hirkan bigəvəri, Hirkan şümşadı, pırkal, müxtəlif lianalar geniş yayılmışdır. Bu bitkilərin əksəriyyətinin adı Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmişdir. Dünyada ən nadir ağaclardan sayılan dəmirağac, əsasən, Lənkəran, Astara və Masallı rayonlarında yayılmışdır.

İqtisadi rayonda 8 şəhər, 6 rayon 13 qəsəbə, 156 kənd inzibati ərazi vahidləri və 642 kənd yaşayış məntəqələri vardır. İqtisadi rayon şərqdə Xəzər dənizi, qərbdə və cənubda isə İran İslam Respublikası ilə həmsərhəddir.

Lənkəran iqtisadi rayonun rəqabət üstünlükləri:

Əlverişli təbii-coğrafi mövqeyə malik olması. Dünyada mövcud 11 iqlim qurşağından 7-sinə bu iqtisadi rayonun ərazisində rast gəlinir. Rütubətli subtropik iqlimə malikdir. İqtisadi rayonun ərazisinin 26 faizi meşələrlə örtülmüşdür. Region təbii şəraitinə görə ölkənin digər iqtisadi rayonlarından fərqlənir. İqtisadi rayon termal mineral sularla zəngindir. Qeyri-filiz yataqlarından tikinti qumu, gil, çaydaşı, gips və s. ehtiyatlar regionun iqtisadi inkişafında mühüm rol oynayır.

Lənkəran iqtisadi rayonunun sənayesi yerli kənd təsərrüfatı xammalı əsasında inkişaf etmişdir və əsasən bitkiçilik və balıqçılıq məhsullarının emalına əsaslanır. İqtisadi rayonun ərazisində tikinti materialları, mebel istehsalı, tikiş və xalçaçılıq müəssisələri fəaliyyət göstərir.

Lənkəran iqtisadi rayonunun kompleks inkişafında nəqliyyat sistemi əhəmiyyətli rol oynayır. Bakı-Astara dəmiryolu və ona paralel Bakı-Astara avtomobil yolu yük və sərnişin daşımalarında, həmçinin Azərbaycanla İran arasında iqtisadi əlaqələrin genişlənməsində mühüm rol oynayır. Bakı-Lənkəran hava xəttinin istifadəyə verilməsi regionun inkişafına güclü təsir edən amillərdən hesab edilir.


Regionun iqtisadiyyatının əsasını aqrar-sənaye kompleksi təşkil edir. Rütubətli subtropik iqlim, məhsuldar torpaqlar, su və kifayət qədər əmək ehtiyatları kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar yaradır. Kənd təsərrüfatının strukturunda faraş tərəvəzçilik, çayçılıq, üzümçülük, taxılçılıq üstünlük təşkil edir. Azərbaycan Respublikasında istehsal olunan çayın 99 faizi, tərəvəzin 27 faizi, taxılın 15 faizi, kartofun 24 faizi, üzümün 13 faizi, meyvənin 10 faizi bu iqtisadi rayonun payına düşür. İqtisadi rayon mühüm sitrus meyvəçiliyi rayonudur. Sahilboyu zolaqda balıq ovlanır.

Sosial infrastruktur. Rayonun ərazisində ali məktəb (Lənkəran Dövlət Universiteti), orta ixtisas məktəbləri şəbəkəsi, xəstəxanalar, dram teatrı, diyarşünaslıq muzeyi və digər sosial infrastruktur obyektləri fəaliyyət göstərir.

Turizm-rekreasiya kompleksinin inkişafı üçün geniş imkanlar. Gözəl təbii landşaft, isti və soyuq mineral sular, əlverişli iqlim şəraiti və inkişaf etmiş nəqliyyat şəbəkəsi rayonda kurort və turizmin inkişafı üçün əlverişli şərait yaradır.

Kəlbəcər-Laçın iqtisadi rayonu Kiçik Qafqazın cənub-şərqində yerləşir. Qərbdə Ermənistan, cənubda isə İran İslam Respublikası ilə həmsərhəddir. Region Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarını əhatə edir.

Kəlbəcər-Laçın iqtisadi rayonu



XX əsrin 90-cı illərinin əvvəllərində ərazisi Ermənistan tərəfindən tamamilə işğal olunmuş bu region ən qədim insanların məskən saldığı bir məkandır. Kəlbəcər rayonu ərazisində aşkar olunmuş Zar mağarası qədim Daş dövrünə, qayaüstü təsvirlər isə Tunc dövrünə aiddir. Keçilməz qayalar, sərt sıldırımlar üzərində ucaldılan müdafiə istehkamları və keşikçi qalaların qalıqları müasir dövrə qədər gəlib çatmışdır.

Kəlbəcər-Laçın bölgəsinin ərazisi e.ə. IV – b.e. VII əsrlərində Qafqaz Albaniyası dövlətinin, daha sonra Ərəb xilafətinin (VIII-IX əsrlər), Azərbaycan feodal dövlətlərinin (IX-XI əsrlər), Səlcuq imperiyasının və Azərbaycan Eldənizlər (Atabəylər) dövlətinin, Elxanilər (XIII-XIV əsrlər), Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin (XV əsr), Azərbaycan Səfəvilər dövlətinin (1501-1736-cı illər), Qarabağ xanlığının (1748-1822-ci illər) tərkibində olmuşdur.

Bu ərazilərdə olan abidələrin əksəriyyəti Azərbaycan Albaniya dövlətinin yadigarlarıdır və xristianlıqdan əvvəlki dövrə aiddir. Kəlbəcər rayonunun Vəngli kəndində 1216-1238-ci illərə aid alban mədəniyyətinə şamil edilən Gəncəsar məbədi və Tərtər çayının sahilində XIII-XVII əsrlərə aid Xudavəng məbədi əhəmiyyətli memarlıq abidələri hesab olunur. Çərəkdar kəndində alban kilsəsi (Həsən Camal kilsəsi), Qanlıkənd ərazisindəki Lök qalası, Qaraçanlı kəndində Uluxan qalası, Qalaboynu qalası, Comərd qalası, Keşikçi qalası, bir neçə məscid, Tərtər çayı üzərindəki Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Laçın rayonundakı V əsrə aid mağara-məbəd, XIII əsrə aid mavzoley, XVI əsrə aid Kafir qalası, XVII əsrə aid Hamaza-sultan sarayı, XVI əsrə aid körpü, Qubadlı rayonunda yerləşən Laləzar, Hacıbədəl adlanan qədim körpülər, Gavur dərəsindəki mağara-məbədi, V əsrdən qalan qüllələr və mavzoleylərin əksəriyyəti, təəssüf ki, erməni işğalçıları tərəfindən dağıdılmışdır.


Region zəngin flora və faunaya malik idi. Zəngilan ərazisindəki dağlıq hissələrdə sıx meşələr yayılmışdı. Bəsitçay Dövlət Təbiət Qoruğunda Şərq çinarının təbii meşəsi isə respublikamızda ən böyük çinar meşəliyi hesab olunurdu. Acınacaqlı haldır ki, Şərq çinarlarının qorunduğu Bəsitçay Dövlət Qoruğu da hazırda erməni təcavüzkarlarının işğalı altındadır və kütləvi şəkildə qırılmışdır.

Bu diyar özünün mineral, o cümlədən termal suları ilə məşhur idi. Kəlbəcər rayonunun İstisu qəsəbəsindəki müalicəvi əhəmiyyətli mineral suların kimyəvi tərkibi bəzi göstəricilərə görə dünya şöhrətli suların tərkibindən daha üstündür.

Laçın rayonunun mineral bulaqları isə vaxtilə məşhur Naran suyu ilə müqayisə olunurdu.

Azərbaycanın cənub-qərbində yerləşən Yuxarı Qarabağ iqtisadi rayonu Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonlarını və Xankəndi şəhərini əhatə edir. Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonlarının və Xankəndi şəhərinin əraziləri tamamilə, Ağdam, Füzuli və Tərtər rayonlarının əraziləri isə qismən Ermənistan Respublikası tərəfindən işğal olunmuşdur.

Qarabağ regionu təkcə Cənubi




Qafqazda deyil, həm də Avrasiya məkanında ən qədim yaşayış məskənlərindən biri hesab olunur. Azıx mağarasında aparılan arxeoloji qazıntılar nəticəsində Qafqaz və Ön Asiya ərazisində ən qədim mədəniyyət hesab edilən Quruçay arxeoloji mədəniyyəti (2 mln. 700 min il əvvəl) kəşf edilmişdir. Abidənin Aşağı Paleolit təbəqəsindən aşkar edilmiş ibtidai insanın çənə sümüyü qalığının təxminən 350-400 min il yaşı olması müəyyən edilmişdir. Keçmiş SSRİ ərazisində ilk, dünyada isə üçüncü olan bu tapıntı Azərbaycanın ən qədim insanların formalaşdığı ərazilərdən biri olduğunu sübut edir. Qarabağ ərazisində qeydə alınmış digər arxeoloji abidə – Erkən Daş dövrünə aid edilən Tağlar mağarası da qədim insanların məskən saldığı ərazilərdən hesab edilir.


Qarabağda e.ə. II minilliyə aid Xocalı-Gədəbəy mədəniyyətini özündə əks etdirən tarixi-mədəniyyət abidələri var. Bu ərazi e.ə. IV əsrdən eramızın VIII əsrinin əvvəllərinədək Azərbaycan Albaniyası dövlətinin, VIII-XII əsrlərdə Sacilər, Salarilər, Rəvvadilər dövlətlərinin, Səlcuq imperiyasının və Azərbaycan Eldənizlər (Atabəylər) dövlətinin, XIII-XV əsrlərdə Elxanilər (Hülakilər), Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, 1501-1736-cı illərdə Azərbaycan Səfəvilər dövlətinin, 1748-1821-ci illərdə isə Qarabağ xanlığının tərkibində olmuşdur. 1805-ci ildə çar Rusiyası ilə imzalanmış Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı Rusiya imperiyasının himayəsini qəbul etmişdi. Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən işğal olunduqdan sonra zaman-zaman ermənilər bu əraziyə kütləvi surətdə köçürülməyə başlanmışdır. 1923-cü il iyulun 7-də Azərbaycan xalqının iradəsi əleyhinə olaraq mərkəzi sovet hökuməti vaxtilə İrandan və Osmanlı imperiyası ərazisindən buraya köçürülən ermənilərə muxtariyyət hüququ vermiş və Dağlıq Qarabağ Muxtar Vilayətini yaratmışdır.

Dağlıq Qarabağ Muxtar Vilayəti yarandığı gündən Azərbaycan hökuməti vilayətin sosial-iqtisadi inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirdi. 1946-cı ildə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafını sürətləndirmək haqqında yeni mühüm qərarlar qəbul etdi. Onların reallaşması nəticəsində çoxsaylı istehsal müəssisələri, sosial-mədəni obyektlər istifadəyə verildi, minlərlə yeni iş yerləri açıldı.

Yuxarı Qarabağ iqtisadi rayonu



Lakin SSRİ rəhbərləri sözdə beynəlmiləlçilikdən, xalqlar dostluğundan danışır, əməldə isə Azərbaycan xalqına qarşı ayrı-seçkilik siyasəti yeridirdilər. Bundan bəhrələnən erməni millətçiləri dəfələrlə rəsmi şəkildə mərkəz qarşısında Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə verilməsi məsələsini qaldırmışdılar. Azərbaycanlılar öz tarixi etnik torpaqlarından – Qərbi Azərbaycandan (o zaman Ermənistan SSR-nin tərkibində olan) növbəti dəfə 1948-53-cü illərdə kütləvi deportasiyaya məruz qaldılar. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qə-



rar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və başqa Azərbaycan əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" daha bir qərarı bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərarlara görə, 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. "Könüllü köçürmə" adı altında nəzərdə tutulan 100 min nəfərdən 62 min nəfər azərbaycanlı zorla Azərbaycanın Kür-Araz ovalığına köçürüldü, onların hər üç nəfərindən biri yeni şəraitə uyğunlaşa bilməyib məhv oldu. Ermənistan SSR ərazisində minlərlə Azərbaycan toponimləri dəyişdirildi.

Erməni separatçıları azərbaycanlıların Ermənistandan köçürülməsi ilə yanaşı, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında müntəzəm olaraq müxtəlif bəhanələrlə İttifaq rəhbərliyi qarşısında məsələlər qaldırırdılar.

1977-ci ilin noyabrında onların Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini növbəti dəfə qaldırmaq cəhdinin qarşısı Heydər Əliyevin sayəsində alındı.

Ötən əsrin 70-ci illərin sonu, 80-ci illərin birinci yarısında DQMV Azərbaycanın müasir sənayeyə, çoxsahəli kənd təsərrüfatına, geniş sosial struktura malik yüksək inkişaflı regionlarından biri kimi tanınırdı.

1971-1985-ci illərdə vilayətin inkişafına 483 milyon manat və ya əvvəlki on beş il ərzində olduğundan 2,8 dəfə çox əsaslı vəsait yönəldildi. 1970-1986-cı illər ərzində vilayətdə ümumi dəyəri 470 milyon manat olan əsas fondlar, on beş sənaye müəssisəsi və digər istehsal sahələri istifadəyə verildi.

1987-ci ilin əvvəllərində sənaye-istehsal fondlarının dəyəri 1980-ci illə müqayisədə 55,6% artmışdı ki, bu da bütövlükdə respublika üzrə olan göstəricidən (46,5%) çoxdur. DQMV əhalisinin hər 10 min nəfərinə düşən sənayedə məşğulluq göstəricisinə görə Bakı-Sumqayıt rayonundan başqa bütün iqtisadi rayonlardan irəlidə idi. 1987-ci ildə sənaye istehsalının həcmi 1940-cı illə müqayisədə 25 dəfə artmışdı. 1970-1986-cı illərdə vilayət sənaye istehsalının inkişaf sürətinə görə respublika səviyyəsini (3,23 dəfə) ötüb keçmişdi (bax: cədvəl 1).

DQMV-də bir nəfərə istehsal olunan sənaye məhsulu, respublikanın bütün iqtisadi regionlarının (Bakı-Sumqayıt istisna olmaqla) göstəricilərindən yüksək idi.

Vilayətdə ipəkçilik, həmçinin maşınqayırma, elektro-energetika, tikinti materialları sənayesi, toxuculuq, mebel, ayaqqabı, ətsüd sənayesi və s. müvəffəqiyyətlə inkişaf edirdi.

Aqro-sənaye kompleksinin maddi-texniki bazası müntəzəm olaraq təzələnir və möhkəmləndirilirdi. Kənd təsərrüfatında əməyin fond təchizatının səviyyəsi orta respublika göstəricisindən xeyli (1,6 dəfə) yüksək idi.

DQMV inkişaf etmiş nəqliyyat təsərrüfatına malik idi. 1971-1985-ci illərdə avtomobil nəqliyyatı ilə yüklərin daşınması həcmi 4,8 dəfə (respublika üzrə 3,6 dəfə), sərnişinlərin avtobuslarla daşınması 2,6 dəfə (respublika üzrə 2,2 dəfə), taksilərlə daşınma 4,2 dəfə (respublika üzrə 2,4 dəfə) artmışdı. Müqayisə edilən dövrdə vilayətdə yük avtomobilləri parkı 2 dəfə (respublikada 1,7 dəfə), avtobus parkları 2,6 dəfə (respublika üzrə 1,7 dəfə), taksi parkları 2,6 dəfə (respublika üzrə 1,9 dəfə) çoxalmışdı.

Vilayətdə rabitənin inkişafı üçün böyük işlər görülmüşdü. Ailələrin mənzil telefonları ilə təminatı 42,4 faiz təşkil edirdi (respublika üzrə 31,1%). Xidmətin bu sahəsi üzrə göstəricilər kənd yerlərində müvafiq olaraq 35 və 17,8 faiz idi.

Vilayətin sürətli iqtisadi inkişafı onun iqtisadi əlaqələrinin daha da təkmilləşdirilməsi üçün əlverişli şərait yaradırdı. Vilayətdən kənara 150 mln. manatlıqdan çox sənaye və kənd təsərrüfatı məhsulları aparılırdı ki, bunlardan 1/3 hissəsi respublikanın iqtisadi rayonlarının, 2/3 hissəsi isə digər İttifaq respublikalarının payına düşürdü. Ermənistandan vilayətə yalnız 1,5 mln. rubl (gətirilən ümumi məhsulun 1,4 faizi) məhsul daxil olurdu. Bu fakt akademik A.Aqanbeqyanın DQMV-nin Ermənistanın iqtisadi həyatından tam asılılığı barədə və başqalarının tezisinin əsassızlığını əyani sübut edirdi.

DQMV-nin Azərbaycanın digər regionları ilə iqtisadi əlaqələri getdikcə daha çox istehsal-tex-

Cədvəl 1

1965-1987-ci illərdə Azərbaycan SSR, Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadi və sosial inkişafının müqayisəli göstəriciləri

	Azərbaycan SSR			o cümlədən					
				Naxçıvan MSSR			DQMV		
	1965	1981	1987	1965	1981	1987	1965	1981	1987
Əhalinin 10 min nəfərinə düşən sənaye işçilərinin sayı	614	663	686	-	311	387	-	611	657
Adambaşına düşən pərakəndə ticarət dövriyyəsinin həcmi (rublla)	292	647	717	179	420	516	240	642	683
Əhalinin 10 min nəfərinə düşən pərakəndə ticarət müəssisələrinin miqdarı (vahid)	30	28	25	27	24	25	29	42	40
Əhalinin 10 min nəfərinə düşən mağazaların ticarət sahəsi (kv.m-lə)	781	1127	1293	-	1319	1409	-	1743	1932
1 sakinə düşən məişət xidmətinin həcmi (rublla)	4,83	20,38	30,23	-	15,20	21,86	-	31,61	41,37
o cümlədən kənd yerlərində	0,99	9,84	16,68	-	10,76	14,84	-	31,56	41,25
Əhalinin 10 min nəfərinə düşən məişət xidməti emalatxanalarının miqdarı (vahid)	12	15	17	-	23	29	-	34	35
o cümlədən kənd yerlərində	5	12	14	-	20	21	-	29	32
1 sakinə düşən mənzil sahəsi (kv. m-lə)	-	10,0	10,9	-	9,0	9,5	-	14,1	14,6
o cümlədən: şəhər yerlərində	8,8	11,5	12,2	9,2	10,7	11,4	8,4	14,16	14,6
kənd yerlərində	-	8,3	9,2	-	8,5	8,8	-	13,7	14,6
Şəhər yerlərində mülkiyyətdə olan mənzil fondunun abadlıq dərəcəsi (faizlə)									
– su kəməri ilə	-	20,0	30,5	-	-	7,4	-	44,7	45,5
– kanalizasiya ilə	-	6,3	6,4	-	-	-	-	9,2	11,6
– vanna ilə	-	4,7	4,7	-	-	-	-	9,2	10,4
– qazla təminat	-	91,2	96,2	-	100	100	-	99,5	100
Əhalinin 10 min nəfərinə düşən xəstəxana çarpayıları ilə təminat	85,7	97,1	97,8	83,5	99,6	104,8	94,7	110,2	101,7
Əhalinin 10 min nəfərinə düşən bütün ixtisaslardan olan həkimlərlə təminat	23,8	33,9	38,6	12,3	23,6	25,9	14,9	31,4	29,1
Əhalinin 10 min nəfərinə düşən orta tibb işçiləri ilə təminat	67,4	85,4	93,8	57,7	76,0	75,9	88,6	139,2	122,7

noloji kooperasiya xarakteri alırdı.

Ötən əsrin 80-ci illərinin ortalarında vilayət sosial inkişafın bir çox göstəriciləri üzrə ümumrespublika səviyyəsindən xeyli yüksək idi. 1986-cı ildə əhalinin bir nəfərə düşən pul gəlirləri 1113,5 rubldan çox olmuşdu ki, bu da bütövlükdə Azərbaycan üzrə, eləcə də Naxçıvan MSSR üzrə müvafiq göstəricilərdən xeyli yüksək idi.


Vilayət əhalisinin ictimai istehsalla məşğulluq səviyyəsi kifayət qədər yüksək idi. Sənaye sahələrində işləyənlərin sayı əhalinin hər min nəfəri hesabı ilə respublikada əvvəlinci yerlərdən birini tuturdu.

1987-ci ildə vilayətdə pərakəndə mal dövriyyəsi həcmi 1960-cı illə müqayisədə 5,1 dəfə (bütövlükdə respublika üzrə 4,6 dəfə) artmışdı. Hər 10 min nəfərə düşən ticarət sahəsi 2,6 dəfə (Azərbaycan üzrə bu artım 1,9 dəfə) artmışdı. 1987-ci ildə ictimai iaşə müəssisələrində yerlərin sayı (əhalinin hər 10 min nəfərinə düşən) respublika üzrə 731 olduğu halda, vilayətdə 805-ə çatmışdı.

1960 cı illə müqayisədə məişət xidmətlərinin həcmi, demək olar ki, 17 dəfə artmışdı ki, bu da orta respublika səviyyəsindən iki dəfə çox idi.

1970-1986-cı illərdə DQMV-də bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 1400,4 min kv.m olan yeni abad mənzillər istifadəyə verilmişdi. Vilayətin bir sakininin mənzillə təminatı 14,6 kv.m çatdığı halda, respublika üzrə bu göstərici 10,9 kv.m təşkil etmişdi .

1961-1987-ci illərdə vilayətdə



Şuşa məscid

28,7 min şagird yeri olan yeni ümumtəhsil məktəbləri, 4,3 min yerlik yeni məktəbəqədər müəssisələr tikilmişdi. Burada fəaliyyət göstərən 205 ümumtəhsil məktəbində 34 minə yaxın şagird oxuyurdu. Vilayətin bütün məktəblərində birnövbəli təhsil tətbiq olunurdu, halbuki respublika üzrə məktəblərdə növbəlilik əmsalı xeyli yüksək idi. Məktəbəqədər uşaq müəssisələri ilə təminat 35 faiz təşkil edirdi ki, bu da respublika göstəricisindən 1,8 dəfə yüksək idi.

Vilayət əhalinin həkim və orta tibb işçiləri ilə təminatının artım sürətinə görə də müvafiq ümumrespublika göstəricilərini qabaqlayırdı. DQMB zəngin təbiət gözəlliklərinə malikdir. Burada 6 sanatoriya və istirahət müəssisəsi, demək olar ki, 2 min yerlik turist bazası fəaliyyət göstərirdi. Burada əhalinin hər 10 min nəfərinə 13 kitabxana (respublika üzrə 6), 15 klub (respublika üzrə 5), 11 kino qurğusu (respublika üzrə 3) düşürdü.

DQMV-nin 300-dən 500-ə qədər adam yaşayan bütün yaşayış məntəqələri (32-dən 31-i) klub müəssisələri ilə təmin edilmişdi. Respublikada isə 300-dən 500-ə qədər adam yaşayan 746 yaşayış məntəqəsindən 319-da klub fəaliyyət göstərirdi. Müqayisə materialları onu da sübüt edirdi ki, DQMV-nin iqtisadi inkişaf səviyyəsi SSRİ, Azərbaycan, Ermənistan üzrə orta göstəricilərdən xeyli yüksək idi (bax: cədvəl 2).

Lakin bütün bu nailiyyətləri erməni millətçiləri görmək istəmir, Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün bütün çirkin üsullardan istifadə edirdilər. Məlumdur ki, SSRİ-də Bakı özünün beynəlmiləlçilik ənənələrinə görə qiymətləndirilən ən nadir şəhərlərdən olmuşdur. Bir tərəfdən Azərbaycan xalqının saflığı, sadəliyi, digər tərəfdən isə SSRİ-nin ali rəhbərliyinin yeritdiyi siyasət nəticəsində Azərbaycanda, onun paytaxtı Bakıda rəhbər strukturlarda əhəmiyyətli dərəcədə milliyyətcə erməni olan şəxslərin fəaliyyəti ona gətirib




1



2



3


4


5



6


7


8

1. Şuşa qalası
2. Molla Pənah Vaqifin məqbərəsi
3. Cıdır düzü
4. "Xarı bülbül"
5. Şuşada Mircanlı məhəlləsi
6. Şuşa şəhərindən görünüş
7. Şuşada Gövhərağa məscidi
8. Şuşada məscid
9-10. Kəlbəcər rayonundan mənzərə


9


10

Cədvəl 2

Azərbaycan SSR, DQMV, SSRİ və Ermənistan SSR üzrə sosial inkişafın müqayisəli göstəriciləri

	Azərbaycan SSR	DQMV	SSRİ	Ermənistan SSR
1. 10 min nəfər hesabı ilə xəstəxana çarpayıları ilə təminat (vahid)	97,7	101,7	130,1	86,2
2. 10 min nəfər hesabı ilə bütün ixtisaslardan olan həkimlərlə təminat	38,4	29,1	42,7	38,6
3. 10 min nəfər hesabı ilə orta tibb heyəti ilə təminat	93,5	122,7	114,7	93,5
4. 10 min nəfər hesabı ilə kütləvi kitabxanaların sayı (vahid)	6	13	4,8	4,1
5. 10 min nəfər hesabı ilə klubların sayı (vahid)	5	15	4,8	3,8
6. 10 min nəfər hesabı ilə kino qurğularının sayı (vahid)	3	11,2	5,4	2,9
7. Uşaqların məktəbəqədər müəssisələrlə əhatə olunması (müvafiq yaşda əhalinin sayına görə faizlə)	20	35	57	39
8. Birinci növbədə məşğul olan şagirdlərin sayı (şagirdlərin ümumi sayına görə faizlə)	74,3	92,5	78,2	87,8
9. Bir nəfər sakin hesabı ilə mənzil sahəsi (kv.m)	10,9	14,6	14,9	13,7
o cümlədən:				
Şəhər yerlərində	12,2	14,6	14,3	13,1
Kənd yerlərində	9,2	14,6	16,1	15,0

çıxarmışdı ki, Bakıda ermənilərin mütləq sayı sürətlə artır, həm də onların strukturunda ciddi dəyişikliklər baş verirdi.

1897-1979-cu illər ərzində Bakıda yaşayan ermənilərin mütləq sayı 11,3 dəfə artmışdı. XX əsrin 80-ci illərinin ortalarında isə Yerevan Bakıdan fərqli olaraq monomillətli paytaxta çevrilmişdi (bax: cədvəl 3).

Məlumdur ki, təhlil edilən dövrdə Azərbaycanda əhalinin işlə təmin olunması ən mühüm problemlərdən biri hesab edilirdi. Lakin əhalinin siyahıyaalma materialları göstərir ki, burada yaşayan ermənilər arasında işsizlik xeyli aşağı idi. Ermənistanda isə əmək qabiliyyətli əhalinin tərkibində işlə təmin olunmayanlar içərisində azərbaycanlıların xüsusi çəkisi orta göstəricidən xeyli yüksək olmuşdur. Azərbaycanda dövlət idarəetmə orqanlarının, partiya və ictimai təşkilatların, müəssisələrin, onların struktur bölmələrinin rəhbərləri arasında ermənilər 9 faiz təşkil etdiyi halda, Ermənistanda yaşayan azərbaycanlılar arasında bu göstərici cəmi 2,1 faiz təşkil etmişdi.

Nüfuzlu peşələr hesab olunan mühəndis-texniki və səhiyyə işçiləri strukturunda Azərbaycan SSR üzrə ermənilərin payı müvafiq olaraq 11 və 9,5%, Ermənistanda yaşayan azərbaycanlılar arasında isə bu göstəricilər cəmi 0,5 və 1,5 faiz təşkil edirdi (bax: cədvəl 4).

Kompleks araşdırmalar açıq-aşkar sübut edirdi ki, erməni millətçiləri və onların havadarları

Cədvəl 3

1897-1979-cu illərdə Bakı və Yerevan əhalisinin dinamikası (yekuna nisbətən %-lə)

	1897	1926	1959	1970	1979
Bakı şəhəri					
Bütün əhali	100	100	100	100	100
o cümlədən:					
azərbaycanlılar	36,0	27,9	37,8	46,3	55,7
ermənilər	17,1	18,0	17,2	16,4	14,1
başqa millətlər	46,9	54,1	45,0	37,3	30,2
Yerevan şəhəri					
Bütün əhali	100	100	100	100	100
o cümlədən:					
ermənilər	43,1	89,5	92,9	95,3	95,8
azərbaycanlılar	42,8	7,8	0,6	0,3	0,2
başqa millətlər	14,1	2,7	6,5	4,4	4,0

böyük bir dövr ərzində düşünülmüş şəkildə Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti yeritmişlər. Heydər Əliyev 1987-ci ildə Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrindən istefa verdikdən sonra erməni millətçiləri yenidən Azərbaycana qarşı ərazi iddialarını qaldırdılar.

1987-ci ilin sonunda sovet rəhbərliyinin razılığı ilə Ermənistan tərəfindən "Qarabağ problemi" yenidən ortalığa atıldı və cəzasızlıq şəraitindən istifadə edən erməni millətçiləri Ermənistanda başladıqları antiazərbaycan hərəkatlarını Azərbaycan ərazisinə – Dağlıq Qarabağa da keçirdilər. Xankəndində (Stepanakert) əmək kollektivlərində azərbaycanlıları kütləvi surətdə işə buraxmamağa, sıxışdırmağa başladılar. Əsgəranda iki azərbaycanlı gəncin ermənilər tərəfindən öldürülməsi regionda gərginliyi daha da artırdı, yerli orqanlara inamı heçə endirdi.

Vəziyyəti sabitləşdirmək üçün Ermənistana gələn sovet rəhbərlərinin müəmmalı bəyanatları da erməni ekstremistlərinin şayiələr yaymasına və "qisasçı dəstələrin" hərəkətlərinə rəvac verdi. 1988-ci ilin fevral ayından başlayaraq Ermənistan ərazisində azərbaycanlılar yaşayan kəndlərə silahlı hücumlar təşkil edildi. Həmin ilin mart-iyun aylarında Ermənistandan Azərbaycana deportasiya olunan azərbaycanlıların sayı 50 min nəfərə çatdı, qaçqınlarla işləyən informasiya mərkəzi yaradılmadığından itkin düşən, ailəsini itirən adamların sayı artırdı. Azərbaycan rəhbərliyi Moskvanın əmri ilə Dağlıq Qarabağa gedən bütün yolları kəsərək qaçqınların, hətta qohumlarının yanına belə getməsinə imkan vermədi. Dağlıq Qarabağın kəndləri və şəhərlərinin sakinləri ilə sövdələşib evini dəyişmək üçün razılığa gələn qaçqınlar bu imkandan da məhrum edildilər. Ermənistan SSR Ali Sovetinin (1988-ci il 5 iyun) sessiyasında DQMV-nin Ermənistan SSR tərkibinə daxil edilməsinə razılıq verilməsi barədə qeyri-qanuni qərarı vəziyyəti daha da gərginləşdirdi.

1988-ci ilin əvvəllərində Ermənistanda "Ermənistanı türklərdən təmizləməli!", "Ermənistanda yalnız ermənilər yaşamalıdır!" şüarları altında mitinqlər keçirilməyə başlandı. Həmin ilin noyabr ayından Ermənistanın yaşayış məntəqələrində azərbaycanlılara qarşı mütəşəkkil quldur hərəkətləri baş verir, evlər yandırılır, adamlar öldürülürdü. Ermənistan SSR Daxili İşlər Nazirliyi də rəsmi surətdə bəyan etdi ki, Quqark, Stepanavan, Gorus, Kalinino, Ararat, Vardenis rayonlarında milli zəmində toqquşmalar olmuş, ölüm hadisələri baş vermişdir.

Ən dəhşətli qanlı cinayətlər

Cədvəl 4

Azərbaycan SSR və Ermənistan SSR-də əhalinin məşğulluq üzrə bölgüsü (1979-cu il siyahıya alınmasının məlumatları üzrə, faizlə)

Məşğuliyyət növü	Azərbaycan SSR			Ermənistan SSR		
	Cəmi	o cümlədən azərbaycanlılar	ermənilər	Cəmi	o cümlədən ermənilər	azərbaycanlılar
Bütün işləyən əhali	100	74,9	8,8	100	90,1	4,5
Əsasən zehni əməklə məşğul olanlar	100	67,2	9,9	100	92,0	0,2
o cümlədən:						
1. Dövlət idarəetmə orqanlarının, onların struktur bölmələrinin rəhbərləri	100	77,9	8,5	100	93,8	3,2
2. Partiya və ictimai təşkilatların, onların struktur bölmələrinin rəhbərləri və işçiləri	100	73,4	10,5	100	96,1	2,1
3. Müəssisələrin (sənaye, kənd təsərrüfatı və meşə təsərrüfatı, nəqliyyat və rabitə) və onların struktur bölmələrinin rəhbərləri	100	73,5	8,9	100	94,4	1,9
4. Aqronomlar, zootexniklər, baytarlıq işçiləri və meşəbəyilər	100	86,1	6,2	100	87,1	9,2
5. Mühəndis-texniki işçilər	100	60,0	11,0	100	93,5	0,5
6. Səhiyyə işçiləri	100	73,8	9,5	100	94,3	1,5
7. Elmi işçilər, müəllimlər və tərbiyəçilər	100	77,5	8,1	100	92,4	4,1
8. İncəsənət işçiləri	100	63,0	15,7	100	94,3	0,8
9. Hüquq işçiləri	100	73,0	9,8	100	94,8	0,3

1988-ci il 25 noyabr – 5 dekabrda törədildi. Həmin günlərdə 200 mindən çox azərbaycanlı Ermənistandan qovuldu. Yollarda, qarlı aşırmalarda 300-ə qədər uşaq, qadın, qoca və xəstə həlak oldu, bir çoxu isə sonradan müvəqqəti yaşayış yerlərində hadisələrin ağrı-acısına dözməyərək öldü. Nəticədə 1988-ci ildə indiki Ermənistan ərazisində sırf azərbaycanlıların yaşadıqları 171 və azərbaycanlıların qarışıq yaşadıqları 94 yaşayış məskəni tamamilə boşaldıldı. 250 mindən artıq azərbaycanlı kütləvi şəkildə öz torpaqlarından vəhşicəsinə qovuldu. 1991-ci il avqustun 8-də Ermənistanın Mehri rayonunda qalmış axırıncı azərbaycanlı kəndi – Nüvədi də boşaldıldı. Bununla da erməni millətçiləri tərəfindən indiki Ermənistan ərazisinin azərbaycanlılardan "etnik təmizlənmə"sinin sonuncu mərhələsi başa çatdı. Beləliklə, dünyanın gözü qarşısında ən böyük bəşəri cinayətlərdən biri baş verdi.

Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçılar Ermənistanın və xaricdə yaşayan havadarlarının təhriki ilə vilayəti Ermənistana birləşdirmək tələbi ilə çıxış etdilər və 1988-ci il fevralın 20-də Vilayət Deputatları Sovetinin (azərbaycanlı deputatların iştirakı olmadan) sessiyası belə bir tələblə Azərbaycan SSR Ali Sovetinə müraciət etdi. Ermənistan SSR Ali Soveti 1988-ci il 15 iyun tarixli qərarı ilə Azərbaycan SSR daxili işlərinə kobudcasına müdaxilə edərək, DQMV-ni Ermənistanın tərkibinə daxil etməyə razılıq verdi. Azərbaycan SSR Ali Sovetinin XI çağırış 7-ci sessiyası 1988-ci il 17 iyun tarixli qərarı ilə DQMV erməni deputatlarının 1988-ci il 20 fevral tarixli qərarını qeyri-qanuni akt kimi ləğv etdi.

Respublika rəhbərliyinin zəifliyi üzündən hadisələr erməni separatçıları və onların havadarlarının qurduqları plan üzrə gedirdi. Azərbaycanlıları günahlandırmaq, beynəlxalq ictimaiyyətə vəhşi obrazında təqdim etmək məqsədilə 1988-ci il fevralın 27-28-də Sumqayıtda fitnəkarlıq törədildi. İstintaq sübut etdi ki, burada baş verən cinayətlərin əsas təşkilatçıları və icraçıları elə ermənilər olmuşlar.

Mərkəzin 1988-ci ilin əvvəllərindən başlayaraq Dağlıq Qarabağ məsələsinin ədalətli həllində Azərbaycana qarşı qərəzli siyasət yeritməsi, respublika rəhbərliyinin xalqın taleyinə açıq-aşkar laqeydlik nümayiş etdirməsi geniş xalq kütlələri içərisində qəzəb və etirazlara səbəb oldu. Bu özünü bütün respublikanın şəhər və kəndlərini bürüyən və xalqın milli birliyini göstərən meydan hərəkatında büruzə verdi. Xalqın kortəbii hərəkatının ən yüksək mərhələsi 1988-ci il noyabrın 17-dən dekabrın 5-dək Bakının Azadlıq meydanında fasiləsiz davam edən mitinq oldu. Dekabrın 5-də şəhərə hərbi qüvvə yeridildi və mitinq dağıdıldı. Bakıda komendant saatı elan edildi. 17 noyabr xalqımızın tarixinə "Milli Dirçəliş Günü" kimi daxil oldu. Ermənilərin SSRİ rəhbərliyinə arxalanaraq məqsədyönlü, ardıcıl hərəkətlər etdiyi vaxt Azərbaycanda heç bir qüvvə adekvat və konstruktiv addımlar atmağa qadir olmadı.

Yüz minlərlə günahsız azərbaycanlı öz qohumlarını və yaxınlarını, ev-eşiklərini, əsrlər boyu yaşadıqları, topladıqları, yaratdıqları mülkiyyəti itirərək öz doğma torpaqlarında qaçqına çevrildilər.

Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü iki respublika arasında müharibəyə gətirib çıxardı. Ermənistan bəzi dövlətlərin birbaşa hərbi yardımı nəticəsində Yuxarı Qarabağı və onun ətrafındakı yeddi rayonu işğal etdi.

Dəniz səviyyəsindən 1400 m yüksəklikdə yerləşən Şuşada alban məbədləri, Şuşa Tarix-Memarlıq Qoruğuna daxil olan qala divarları, Qarabağ xanlarının iqamətgahları, Xurşidbanu Natəvanın ev muzeyi, Molla Pənah Vaqifin məqbərəsi, Daşaltı dərəsi, Şuşa, Xəzinəqala mağaraları buranın maraqlı tarixi-memarlıq və təbiət abidələri idi. Şuşa şəhəri yaxınlığındakı gözəl mənzərəli sıx meşədə yerləşən İsa bulağı Azərbaycanın ən məşhur istirahət yerlərindən biri olmuşdur. Cəbrayıl rayonu ərazisində VII əsrə aid 11 tağlı və XI əsrə (1027-ci il) aid 15 tağlı Xudafərin körpüləri bölgənin çox qiymətli memarlıq abidələrindəndir. Şuşa Azərbaycanın musiqi məbədidir. Əsrlər boyu zəngin musiqi ənənələri ilə məşhur olmuş Şuşanı Qafqazın konservatoriyası adlandırırdılar.

Erməni işğalçıları tərəfindən talan edilmiş regionun muzeylərində Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəssamlıq və mədəniyyət əsərləri, dünya şöhrətli xalçalar, Azərbaycanın görkəmli şəxsiyyətlərinin xatirə əşyaları və digər qiymətli materiallar toplanmışdı.

Naxçıvan Muxtar Respublikasının ərazisini əhatə edən Naxçıvan iqtisadi rayonu şimalda və şərqdə Ermənistan Respublikası, cənubda İran İslam Respublikası və cənub-qərbdə Türkiyə Respublikası ilə həmsərhəddir. Regiona Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur və Kəngərli inzibati rayonları daxildir.

Naxçıvan iqtisadi rayonunun rəqabət üstünlükləri:

Təbii sərvətləri. İqtisadi rayonda zəngin təbii ehtiyatlar – molibden, polimetal filizlər, daş-

"Hərbi gücümüz ölkəmizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində həlledici rol oynaya bilər. Biz istəmirik ki, bu, həlledici rol oynasın. Biz istəyirik ki, məsələ danışıqlar yolu ilə, diplomatiya yolu ilə öz həllini tapsın. Ancaq hərbi güc tələb olan zaman, əlbəttə ki, bizim mövqeyimiz daha da möhkəmlənəcəkdir...

Bir daha vurğulamaq istəyirəm ki, bizim bu sahədəki bütün fəaliyyətimiz çox şəffafdır, açıqdır və birmənalıdır. Azərbaycan xalqı mütəmadi qaydada məsələ ilə bağlı aparılan danışıqlar haqqında məlumatlandırılır. Bu, bizim ümumxalq işimizdir. Azərbaycan xalqı öz iradəsini ortaya qoyubdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycan xalqının iradəsi əsasında öz həllini tapacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, işğal edilmiş bütün bölgələrdən Ermənistanın işğalçı qüvvələri çıxarılmalıdır, azərbaycanlılar – məcburi köçkünlər öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar və qayıdacaqlar.

O ki qaldı Dağlıq Qarabağın gələcək statusuna, Azərbaycan dövlətinin razılığı olmadan Dağlıq Qarabağa heç bir status verilə bilməz.

Azərbaycan dövləti və Azərbaycan xalqı isə heç vaxt Dağlıq Qarabağı Azərbaycandan ayıra biləcək heç bir status verməyəcəkdir. Danışıqlarda müzakirə edilən məsələlərdə Dağlıq Qarabağın Azərbaycandan nə vaxtsa ayrılması ilə bağlı heç bir mexanizm yoxdur, ola da bilməz.

Bu prinsiplər demokratik prinsiplərdir. Bu prinsiplərdə həm ölkələrin ərazi bütövlüyünə hörmət göstərilir, eyni zamanda, xalqların öz müqəddəratının təyin edilməsi məsələlərinə də münasibət bildirilir. Ancaq bu iki amil bir-biri ilə ziddiyyət təşkil etməməlidir və etmir. Xalqların öz müqəddəratını təyin etməsi məsələləri ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həll oluna bilər. Dünyada, o cümlədən Avropada belə nümunələr çoxdur. Biz isə istəyirik ki, ən qabaqcıl təcrübə hər sahədə tətbiq olunsun, o cümlədən bu münaqişə ilə bağlı heç bir ayrıseçkiliyə yol verilə bilməz. Azərbaycan dövləti məhz bu prinsiplər üzərində durubdur. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur və olmayacaqdır".

İlham Əliyev
13 iyul, 2010-cu il


duz, dolomit, mərmər, tikinti materialları yataqları mövcuddur. Eyni zamanda iqtisadi rayon Badamlı, Sirab, Vayxır və s. kimi 200-dən çox qiymətli mineral su bulaqlarına malikdir. Azərbaycannın molibden və dolomit ehtiyatlarının hamısı, mineral su ehtiyatlarının 60 faizi Naxçıvan iqtisadi rayonunun payına düşür. İqtisadi rayonun ərazisinin 0,5 faizi meşələrlə örtülmüşdür.

Çoxsahəli kənd təsərrüfatı. İqtisadi rayonun aqroiqlim şəraitinin müxtəlifliyi kənd təsərrüfatının müxtəlif istiqamətlər üzrə ixtisaslaşmasına səbəb olmuşdur. Əkinçilik süni suvarma şəraitində inkişaf etdirilir. Əkinçiliyin əsas sahələri üzümçülük, tütünçülük, meyvəçilik və taxılçılıqdır. Naxçıvan iqtisadi rayonu ölkənin ikinci tütünçülük rayonudur. İqtisadi rayonda həmçinin şəkər çuğunduru, xına, tərəvəz, gül becərilir. Ətlik-südlük maldarlıq, ətlik-yunluq və südlük qoyunçuluq, arıçılıq heyvandarlığın əsas sahələridir.

Sosial infrastruktur. Naxçıvan Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olmaqla geniş sosial-mədəni infrastruktura malikdir. Muxtar Respublikanın Milli Elmlər Akademiyasının elmi idarələri, ümumtəhsil, peşə, musiqi məktəbləri, mədəni-maarif, səhiyyə ocaqları və muzeylərlə yanaşı, çoxlu sayda tarixi abidələri mövcuddur.

Naxçıvan ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bu diyar yer üzündə həyatın başlandığı ilk ərazilərdən hesab olunur. Naxçıvan muzeylərində istənilən tədqiqatçını heyrətləndirə biləcək arxeoloji materiallar nümayiş olunur. Xalçaçılıq muzeyində tarixi eramızdan 2500 il əvvələ aid, cod yundan toxunmuş, üzərində sirli rəsm və yazılar olan xalça saxlanılır. E.ə. I minilliyin birinci yarısına şamil edilən Avestanın zərdüştlərin müqəddəs kitablar toplusunun parçaları da Naxçıvan Tarix Muzeyində sərgilənir.

Naxçıvan iqtisadi rayonu



Əfsanələrə görə, müqəddəs Nuh peyğəmbərin gəmisi Naxçıvanda, hazırda Gəmiqaya adlanan yerdə (dəniz səviyyəsindən 3906 m yüksəklikdə) lövbər salmışdır. Gəmiqayada Tunc dövrünə – e.ə. III-II minilliklərə aid müxtəlif məzmunlu yüzlərlə qayaüstü təsvirlər vardır.

Naxçıvan ərazisində aşkar edilən Qazma mağarası Orta Paleolit dövrünə (100-40 min il bundan əvvəl) aiddir. Arxeoloji qazıntılar zamanı Naxçıvan ərazisindəki I Kültəpə və II Kültəpədə erkən əkinçilik mədəniyyətinin yadigarları və e.ə. II minilliyə aid erkən şəhər tipli yaşayış məskəni aşkar edilmişdir.

Naxçıvan ərazisi e.ə. IX-VI əsrin əvvəllərinədək Azərbaycan Manna dövlətinin, daha sonralar Mada (Midiya) dövlətinin (e.ə. VI əsr), Əhəməni imperiyasının (e.ə. VI-IV əsrlər), Atropatena dövlətinin (e.ə. IV- b.e. III əsrləri) tərkibində olmuşdur. Naxçıvan Təbriz şəhəri ilə yanaşı, müxtəlif illərdə paytaxt şəhər olmuş, XIII əsrdən sonra ayrı-ayrı dövlətlərin tərkibinə daxil edilmişdir.


Sovet Rusiyasının işğalından sonra bu ərazilərin Ermənistana verilməsi cəhdləri olmuşdur. Lakin 1921-ci ildə Rusiya Sovet Federativ Sosialist Respublikası və Türkiyə arasında imzalanan Moskva və Qars müqavilələrinə əsasən, Naxçıvan Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi elan edilmiş, 1924-cü il fevralın 9-da isə Naxçıvan Muxtar Respublikası yaradılmışdır. 1921-1929-cu illər ərzində keçmiş SSRİ hökumətinin təzyiqi ilə Azərbaycanın tərkib hissəsi olan və ümumi sahəsi 19,8 min kv.km-ə bərabər Zəngəzur və digər ərazilərin Ermənistan SSR-ə verilməsindən sonra Naxçıvan diyarı Azərbaycanın əsas ərazisindən ayrı salınmışdır.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda çoxlu sayda tarixi abidələr mövcuddur. Bunlardan 1187-ci ilə aid Qoşa minarəni, Cümə məscidini, Darülmülkü (Eldənizlər sarayı) göstərmək olar. Naxçıvan XII yüzillikdə yaşayıb-yaratmış məşhur memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin vətənidir. Onun Naxçıvan şəhərində inşa etdiyi Yusif ibn Küseyir (1162) və Möminə xatın türbələri (1186) memarlıq tarixində özünəməxsus mövqeyə malik olan Naxçıvan memarlıq məktəbinin əsasını təşkil edir. Tarixi abidələrinin sayına görə Ordubad şəhəri 1977-ci ildə qoruq-şəhər elan olunmuşdur.

Dağlıq məkan olan muxtar respublika ərazisinin 30 faizindən çoxu dənız səviyyəsindən 600-1000 m yüksəklikdə yerləşir. Kəskin kontinental iqlimə malik regionda nadir relyef formalarından İlandağ, Əshabi-Kəhf, Sirab, Nəhəcir ekstruziv (vulkanik) günbəzləri maraqlı təbiət abidələridir.

Təbiət bu yerlərə əsrarəngiz gözəlliklər bəxş etmişdir. Yayda ilin 4 fəslini seyr etmək mümkün olan Göygöl, üzən adaları ilə məşhur Batabat, nadir ağaclar bitən Tillək meşəsi Naxçıvanın gözəl təbiət guşələrindəndir. Naxçıvan balneoloji əhəmiyyətə malik mineral bulaq və suları, astma xəstəliyinin müalicəsinə kömək edən və təbii ehtiyatları 90 mln. tona çatan Duzdağla da məşhurdur.


Azərbaycan Respublikasının digər iqtisadi rayonları kimi Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı da dinamik inkişaf edir. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin



bərqərar olmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Əsas xarakterik cəhət ondan ibarətdir ki, ötən dövr ərzində həyata keçirilən islahatlar Muxtar Respublikada makroiqtisadi səviyyəni xarakterizə edən göstəricilərin müəyyən qismində deyil, ümumilikdə hamısının pozitiv meyilli yüksəlişini təmin etmişdir. 2010-cu ildə ÜDM-in həcmi 1995-ci ilə nisbətən 27 dəfə, hər nəfərə düşən ÜDM-in həcmi 22 dəfə, sənaye məhsulunun həcmi 35 dəfə, əsas kapitala yönəldilən investisiyalar 164 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 7 dəfə, nəqliyyat sektorunda yük daşınması 18 dəfə, in-











Naxçıvan MR "Duzdağ" Fizioterapiya Mərkəzi






Naxçıvanda Badamlı və Sirab mineral su zavodları

formasiya və rabitə xidmətinin həcmi 87 dəfə, pərakəndə əmtəə dövriyyəsi 17 dəfə, əhaliyə göstərilən pullu xidmətlər 28 dəfə, əhalinin gəlirləri 32 dəfə, hər nəfərə düşən gəlirlər 26 dəfə, orta aylıq əmək haqqı isə 19 dəfə artımla müşahidə olunmuşdur. Son 20 il ərzində yaradılmış iqtisadi potensial və qazanılmış uğurlar Muxtar Respublikanın yarandığı 1924-cü ildən 1991-ci ilədək, yəni 67 ildə əldə olunanları xeyli üstələyir. Mühüm bir fakt ondan ibarətdir ki, 1924-1990-cı illər ərzində Muxtar Respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 46-ya bərabər olmuş, ötən 20 il ərzində isə 382 yeni müəssisə işə başlamış və hazırda bu göstərici 428-ə çatmışdır. Analoji qaydada sənaye məhsullarının sayı üzrə də müsbət meyillər özünü göstərməkdədir. Əgər 1924-1990-cı illərdə Muxtar Respublikada istehsal olunan sənaye məhsullarının sayı üzrə maksimum göstərici 23-ə bərabər idisə, ötən 20 il ərzində əlavə olaraq 220 yeni sənaye məhsulunun istehsalına başlanılmış və bu göstərici ümumilikdə 243-ə çatmışdır.

1991-2011-ci illər ərzində Muxtar Respublikanın inzibati ərazisində 2976 km uzunluğunda yeni avtomobil yolları inşa olunmuşdur ki, bu da 1924-1990-cı illər ərzində salınmış 1278 km uzunluğunda avtomobil yollarını 2 dəfə üstələyir. Son 20 il üzrə iqtisadi inkişafın xarakterik xüsusiyyəti kimi iqtisadiyyata investisiya qoyuluşlarının davamlılığı və proporsional bölgüsü təmin olunmuşdur. Təhsilə göstərilən yüksək qayğı hazırkı dövlət siyasətinin başlıca məqsədlərindəndir. Bu dövr ərzində Muxtar Respublikada 172 yeni məktəb tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Sovetlər Birliyi dönəmində isə bu sayda məktəbi inşa etmək üçün 41 il vaxt sərf olunmuşdu.

Son 20 il ərzində Muxtar Respublikada 177 səhiyyə ocağı tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir ki, bu sayda tikilini təhvil vermək üçün keçmiş Sovetlər Birliyi vaxtında 50 ilə yaxın vaxt lazım gəlmişdi.

Son illər ərzində Muxtar Respublikada yeni elektrik stansiyalarının inşası əhalinin və təsərrüfat subyektlərinin elektrik

enerjisinə olan tələbatını tam təmin etməklə yanaşı energetika sisteminin dayanıqlılığında mühüm rol oynamışdır. Əgər 1990-cı ildə Muxtar Respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, hazırda bu müəssisələrin sayı 5-ə (Naxçıvan Modul Elektrik Stansiyası, Naxçıvan Qaz Turbin Elektrik Stansiyası, Biləv Su-Elektrik Stansiyası, Araz Su-Elektrik Stansiyası və Heydər Əliyev adına (Vayxır) Su Anbarı üzərində Su-Elektrik Stansiyası) çatdırılmışdır.

Aparılmış məqsədyönlü tədbirlərin nəticəsidir ki, əvvəllər elektrik enerjisinin böyük bir hissəsi qonşu ölkələrdən idxal edilirdisə, 2007-ci ildən başlayaraq Muxtar Respublika artıq elektrik enerjisi ixrac edən diyara çevrilmişdir.

Son 20 il ərzində Muxtar Respublikada 3409 istehsal, xidmət və digər infrastruktur obyektləri istifadəyə verilmişdir.

Muxtar Respublikanın iqlim şəraiti və əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin geniş yayılmasını şərtləndirir. 2011-ci ilin məhsulu üçün 60 min 19 ha sahədə əkin işləri həyata keçirilmişdir ki, bu da 1991-ci ilə nisbətən 2,4 dəfə, məhsul istehsalı isə 3 dəfə çox olmuşdur.

Eyni zamanda, bu dövr ərzində kartofçuluğun inkişafı üzrə xüsusi Dövlət Proqramı hazırlanıb həyata keçirilmiş, digər bitkiçilik məhsulları üzrə idxaldan asılılıq minimuma endirilmişdir. Bir faktı qeyd etmək olar ki, əgər 1991-ci ildə Muxtar Respublikaya xarici ölkələrdən idxal olunan məhsulların 95 faizini ərzaq və kənd təsərrüfatı məhsulları təşkil edirdisə, ötən il bu göstərici azalaraq 28 faizə düşmüşdür. Bu 28 faizin əsas hissəsi isə Muxtar Respublikada yetişdirilməsi mümkün olmayan bitkiçilik məhsullarından ibarətdir.

Muxtar Respublikada təbii meşə ehtiyatlarının az olması, xüsusilə son illər ərzində sənaye potensialının inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması ən mühüm ekoloji faktor kimi geniş miqyasda yaşıllaşdırma tədbirlərinin həyata keçirilməsini şərtləndirir. Belə ki, 1991-2011-ci illər ərzində Muxtar Respublika ərazisində 10445 ha sahədə yaşıllıqlar – meşə massivləri, meyvə bağları, yaşıllıq zolaqları salınmışdır.


Muxtar Respublikanın nəqliyyat infrastrukturunun yenidən qurulması sahəsində mühüm işlər görülmüşdür. Son 20 ildən artıqdır ki, Muxtar Respublika nəqliyyat və iqtisadi əlaqələr baxımından blokada şəraitindədir. Ötən dövr ərzində blokada vəziyyətinin doğurduğu çətinlikləri alternativ variantlar üzrə yumşaltmaq və nəqliyyat infrastrukturunu yenidən təşkil etmək sahəsində əsaslı tədbirlər görülmüş, Naxçıvan Beynəlxalq hava limanının, Sədərək, Culfa və Şahtaxtı Gömrük İdarələrinin sərhəd-keçid komplekslərinin, Sədərək, Culfa və Şahtaxtı Sərhəd Keçid Məntəqələrində yeni körpülərin istifadəyə verilməsi, "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması əlaqələrin genişlənməsində mühüm mərhələ olmuşdur.

Keçən əsrin 90-cı illərinin ortalarından Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə başlanmış demokratik dövlət quruculuğu sahəsində genişmiqyaslı islahatlar nəticəsində ölkədə iqtisadi və siyasi sabitlik təmin edilmiş, beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzu əhəmiyyətli dərəcədə yüksəlmiş, iqtisadiyyatın dinamik inkişafının əsası qoyulmuşdur. Həyata keçirilən islahatların başlıca məqsədi demokratik və güclü iqtisadiyyata malik müstəqil dövlətin qurulmasından ibarət olmuşdur. İqtisadi sahədə həyata keçirilən tədbirlər bazar iqtisadiyyatı mexanizmləri əsasında sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, yerli və xarici investisiyaları, müasir texnologiyaları cəlb etmək və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla rəqabətə davamlı məhsul istehsal edən müəssisələrin, yeni iş yerlərinin yaradılmasına və nəticə etibarilə ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəlmişdir.

1994-cü ildə imzalanmış və Azərbaycan Respublikasının tarixində yeni mərhələnin əsasını qoyan "Əsrin müqaviləsi"nin icrasına başlanılması xarici investisiyaların ölkəyə cəlb olunmasına güclü təkan vermişdir. Uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində ilbəil artan neft və qaz gəlirlərini qeyri-neft sektoruna yönəltməklə iqtisadiyyatın tarazlı inkişafına nail olmaq son illər Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu baxımdan, regionların inkişafının sürətləndirilməsi dövlətin iqtisadi siyasətinin başlıca hədəflərindən biri kimi müəyyənləşdirilmişdir.


Ölkənin tarazlı inkişafına sis-

İqtisadi rayonlar üzrə əsas kapitala qoyulmuş investisiyalar, mln. manat



Qrafik 1

İqtisadi rayonlar üzrə muzdla işləyənlərin orta aylıq əmək haqqı, manatla



Qrafik 2

Cədvəl 6

Azərbaycan Respublikasının iqtisadi rayonları üzrə açılmış yeni iş yerlərinin sayı, 2010-cu il

	Açılmış iş yerlərinin sayı, cəmi	ondan daimi iş yerləri	o cümlədən				digər tədbirlər üzrə (müxtəlif beynəlxalq və yerli layihələr, mövsümi və abad-lıq işləri və s.)
			yeni yaradılmış müəssisə və təşkilatlarda	mövcud müəssisə və təşkilatlarda	fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda	fiziki şəxslərdə	
Azərbaycan Respublikası – cəmi:	73009	52721	7425	10792	391	34113	20288
Bakı şəhəri	16153	16153	2931	4285	176	8761	-
Abşeron iqtisadi rayonu	3617	3279	343	64	-	2872	338
Gəncə-Qazax iqtisadi rayonu	10599	5914	631	298	169	4816	4685
Şəki-Zaqatala iqtisadi rayonu	3943	3086	542	349	-	2195	857
Lənkəran iqtisadi rayonu	5066	2798	344	153	-	2301	2268
Quba-Xaçmaz iqtisadi rayonu	5965	2472	413	214	-	1845	3493
Aran iqtisadi rayonu	13894	9933	986	1286	46	7615	3961
Yuxarı Qarabağ iqtisadi rayonu	2325	1116	96	197	0	823	1209
Dağlıq Şirvan iqtisadi rayonu	3178	1418	329	531	-	558	1760
Kəlbəcər-Laçın iqtisadi rayonu	363	363	14	62	-	287	0
Naxçıvan iqtisadi rayonu	3556	2837	194	603	0	2040	719
Nazirlik, Komitə, Şirkət, Səhmdar cəmiyyət və digər mərkəzi təşkilatlar tərəfindən açılmış iş yerləri	4350	3352	602	2750	-	-	998

temli yanaşma, qəbul edilmiş proqramların icrası ilə bağlı səmərəli nəzarət mexanizminin formalaşdırılması regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməyə, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirməyə və aqrar sektorda islahatları dərinləşdirməyə, yoxsulluğun səviyyəsini azaltmağa, infrastrukturu yeniləşdirməyə, əlverişli investisiya şəraiti yaratmağa imkan vermişdir. Makroiqtisadi sabitliyi nəzərə alaraq qarşıdakı illərdə bütövlükdə iqtisadiyyatın, o cümlədən regionlarda ayrı-ayrı sahələrin inkişafının başlıca şərtlərindən biri olan orta illik inflyasiya sürətinin və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanılması, vergi dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq edilən güzəştlərin müddətinin artırılması, yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması, gömrük dərəcələrinin optimal səviyyədə saxlanılması, xarici borcların səmərəli idarə olunması siyasəti davam etdiriləcəkdir. Valyuta gəlirlərinin artırılması, inflyasiya risklərinin azaldılması, monetar və büdcə-vergi siyasətinin koordinasiyasının gücləndirilməsi, dövlət xərclərinin artımının nəzarətdə saxlanılması və digər tədbirlər hesabına makroiqtisadi vəziyyətə, habelə qeyri-neft sektorunun inkişafına mənfi təsirlərin qarşısının alınması növbəti illərdə də iqtisadi siyasətin başlıca məsələləri hesab olunur.

Regionlarda məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması üçün əlverişli şəraitin yaradılmasıdır. Bu baxımdan, regionlarda sahibkarlığın, əsasən, kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş tədbirlər xüsusi əhəmiyyət kəsb edir.

Ölkədə qeyri-neft sektorunun inkişafına yönəlmiş tədbirlərin kompleks şəkildə həyata keçirilməsi ixracyönümlü məhsulların istehsalını sürətləndirən müvafiq iqtisadi mexanizmlərin daha da təkmilləşdirilməsini zəruri edir.

Sənaye sahəsində əsas məqsədlərdən biri regionlardakı mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidənqurulmasından, yeni müəssisələrin yaradılmasından ibarət olacaqdır. Burada kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin bərpasına və ixrac potensialının artırılmasına xüsusi diqqət yetiriləcəkdir.

Dövlət proqramında qeyd olunan istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vacib mərhələ kimi ölkənin iqtisadi inkişafında və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" respublikanın uzaq gələcək üçün hazırlanan inkişaf strategiyası çərçivəsində nəzərdə tutulan məqsədlərə nail olunmasında mühüm rol oynayacaqdır.

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiq edilmişdir. Eyni zamanda, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Aran, Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 30-dan çox sərəncam imzalanmışdır.

Regionların sosial-iqtisadi inkişafı ilə yanaşı, Bakı şəhərinin ətraf qəsəbələrini abadlaşdırmaq, onların resurslarından daha səmərəli istifadəni təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 fevral tarixli 1338 nömrəli Sərəncamı ilə "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" təsdiq olunmuşdur. Bu Proqramda hər bir qəsəbə üzrə müxtəlif sahələri əhatə edən konkret tədbirlər müəyyən edilmişdir.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", eləcə də "Bakı şəhərinin qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı" çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul edilmişdir.

Ziyad Səmədzadə
Xatirə Hüseynova
Təranə Qurbanova
Könül Əzizova

İQTİSADİ RENTA – resurslardan istifadə edilməsinə görə ödənilən haqq ilə resursların sahiblərini həmin resursları bazarda təklif etməyə sövq etmək üçün sərf edilməsi zəruri olan vəsaitin minimum miqdarı arasındakı fərq.

İqtisad elminin müasir neoklassik istiqamətinə görə, resurs sahibinin xidmətlərinin müəyyən miqdarını satmağa razılaşması üçün sərf edilməsi zəruri olan minimum məbləğ həmin xidmətlərin xərclərinin yuxarı həddidir.

İqtisadi renta – resurslar bazarında təklifin ehtimal edilən dəyəri ilə müqayisədə artıq hissəsi, qazancdır. İqtisadi renta istehsalda torpaq resurslarının sərfi ilə əlaqədar və öz alternativ dəyərindən artıq olan hər hansı gəlir kimi xarakterizə edilir.

Xalis iqtisadi renta dedikdə torpaq resursundan istifadə edilərkən əldə edilən gəlir başa düşülür.

İQTİSADİ SANKSİYALAR – maliyyə-təsərrüfat fəaliyyətinin aparılması üçün qoyulmuş qaydaları pozanlara tətbiq olunan və onlar üçün arzu olunmayan nəticələrə gətirib çıxaran müəyyən məcburi təsir vasitələri. Beləliklə, təsərrüfat müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə görə nəzərdə tutulur: dəbbələmə ödənişi, cərimələr, ödəniş tələbinin akseptindən imtina etmək və s. İqtisadi subyektlər kredit intizamını pozduqları halda da banklar tərəfindən müəyyən iqtisadi təsir ölçüləri tətbiq olunur (kredit vermənin xüsusi rejimə keçirilməsi, verilən ssudaların vaxtından əvvəl çıxılması, vaxtı keçmiş ödənişlərin çıxılması, kredit vermənin müvəqqəti dayandırılması və s.). Hər hansı bir dövlətin həyata keçirdiyi siyasət nəticəsidə ona beynəlxalq səviyyədə iqtisadi sanksiyalar tətbiq oluna bilər. Belə sanksiyalar dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən BMT-nin Təhlükəsizlik Şurasının qətnaməsi əsasında tətbiq olunur.

İQTİSADİ SEPARATİZM – regional iqtisadiyyat siyasəti, özünün müstəqil bazarını yaratmaq, mərkəzdən asılı olmamaq və tam iqtisadi müstəqillik əldə etmək istəyi. İqtisadi subyektlərin ayrılmaq istəyi nəticəsində müstəqil iqtisadi siyasət yürütməsi və iqtisadi azadlıq əldə etməsidir.

İQTİSADİ SƏMƏRƏLİLİK (ing. *economic efficiency*) – 1. Sistemin fəaliyyəti prosesində iqtisadi effekt yaratmaq qabiliyyəti. İstehsalın nəticəsi (məhsulu) ilə maddi xidmətlər, əmək və istehsal vasitələri məsrəfləri arasındakı nisbət. İqtisadi səmərəlilik iqtisadi inkişafı xarakterizə edən mühüm göstəricidir. Bazar təsərrüfatında isə iqtisadi səmərəlilik sahibkarın əldə etdiyi mənfəətlə çəkdiyi xərcin – avans etdiyi əsas və dövriyyə kapitalının nisbətidir. İqtisad elminin mühüm kateqoriyalarından olan iqtisadi səmərəlilik barədə ən sadə təsəvvür əldə etmək üçün alınan nəticəni çəkilən məsrəflərlə müqayisə etmək lazımdır. 2. Resursların paylanmasını dəyişdirməklə iqtisadi subyektlərdən birinin vəziyyətinin yaxşılaşması, digərlərinin vəziyyətinin isə pisləşməsinin qaçılmazlığı – Pareto mənada səmərəlilik adlanır (bax: Pareto mənada optimallıq). İqtisadi sistemlərin fəaliyyətində həmişə onların potensial və faktiki səmərəliliyi arasında müəyyən fərq müşahidə olunur. Bu, tormozlayıcı amillərin təsirini, fiziki terminologiyadan istifadə etsək (macar iqtisadçısı Y.Kornai kimi), müəyyən mənada, "sürtünmə" qüvvəsinin təsirini təsdiqləyir.

Bu cür amillər aşağıdakılardır: resursların qeyri-optimal paylanması, iqtisadi stimulların mükəmməl olmaması, qəbul edilən qərarların yerinə yetirilməsinin keyfiyyətinin aşağı olması və s. İqtisadi səmərəliliyin səviyyəsini xarakterizə etmək üçün bir çox göstəricilərdən istifadə edilir: əmək məhsuldarlığı (vaxt vahidi ərzində məhsulun hər bir vahidinin istehsalı üçün tələb olunan vaxt. Əgər vaxt azalırsa, deməli, əmək məhsuldarlığı və ya səmərəlilik artmışdır. İqtisadi səmərəlilik göstəricilərinin hansının əsas olması barədə iqtisadçılar arasında uzun bir dövr ərzində qızğın mübahisələr getmişdir. Sovet sistemində sahənin, təsərrüfat subyektinin iqtisadi fəaliyyətinin səmərəliliyi barədə fikir söyləmək üçün kompleks göstəricilərdən istifadə olunması təklif olunurdu. Bu göstəricilər sistemində mənfəət arxa plana atılmışdı. Belə bir ideologiya formalaşmışdı ki,

mənfəət kapitalist iqtisadi sisteminə xas olan göstəricidir, ona görə də bu göstəricini əsas göstərici kimi qiymətləndirmək olmaz. Azad bazar münasibətləri şəraitində mənfəət kateqoriyası ön plana çəkilir. Eyni zamanda digər göstəricilərdən də istifadə edilməsi məqsədəuyğun sayılır. Reallıq göstərir ki, azad bazar münasibətləri şəraitində yüksək mənfəəti təmin edən, lakin ekoloji tarazlığı, demoqrafik şəraiti, regionların tarazlı inkişafını nəzərə almadan layihələr də həyata keçirilir. İqtisadi riyazi modellərin adekvat və praktiki cəhətdən qiymətli olması üçün "sürtünmə"nin nəzərə alınması mühüm şərt hesab edilməlidir. 3. Sistemin istehsal qabiliyyətini təyin etməyin ən geniş yayılmış üsulu onun fəaliyyət şərtləri dəyişdikdə daha yüksək iqtisadi effekt alınması və bu imkanın reallaşdırılmasıdır. Başqa sözlə desək, burada sistemin dəyişməsinin səmərəliliyindən söhbət gedir. Məsələyə dinamik aspektdən yanaşsaq, dəyişikliklərin səmərəliliyi, adətən, müəyyən ilkin şərtlərlə müqayisə nəticəsində üzə çıxır. 4. 1-ci və 3-cü bəndlərdə göstərilən qabiliyyətin prinsip etibarilə:

– eyni sistemin müxtəlif şəraitdə səmərəliliyinin müqayisə edilməsinə;

– müxtəlif sistemlərin səmərəliliyinin öz aralarında müqayisə edilməsinə;

– mütləq səmərəlilik deyilən göstəricini təyin etməyə imkan verən müəyyən kəmiyyət xarakteristikası.

Lakin bu məsələ hələlik həll edilməmişdir, çünki onu həll etmək üçün iqtisadi kəmiyyətlərin etibarlı ölçülməsi ilə yanaşı, həm də hamılıqla qəbul edilmiş, razılaşdırılmış hesablama nöqtəsi seçilməlidir. Bu mənada, təsərrüfat qərarlarının (tədbirlərin) səmərəliliyi və istehsalın səmərəliliyi terminlərindən istifadə edilir. Qeyd etmək lazımdır ki, iqtisadi effektdən fərqli olaraq, iqtisadi səmərəlilik bu mənada mütləq (müəyyən dövr üçün səmərə) deyil, nisbi kəmiyyətdir. Onu təyin etməyin ən geniş yayılmış üsulu effektin qiymətini məsrəflərin qiymətinə bölməkdən ibarətdir (məsrəflərin hər vahidinə düşən səmərə). Buna görə də başqa şərtlər eyni olduqda iqtisadi səmərə (və ya nəticələr) nə qədər çox və bundan ötrü istifadə edilmiş resurslar nə qədər az olarsa, sistemin səmərəliliyi bir o qədər yüksək olur.

Səmərəlilik səviyyəsi sistemin keyfiyyətinin və onu dəyişən qərarların (hərəkətlərin) keyfiyyətinin ən mühüm xarakteristikasıdır. İqtisadi sistemin müəyyən şəraitdə (verilmiş məhdudiyyətlər daxilində) ən yüksək səmərəliliyini təmin edən fəaliyyət variantı optimal variantdır. 5. Sistemin fəaliyyətinin ümumi səmərəliliyi (1-4-cü bəndlər) ilə yanaşı, sistemin ayrı-ayrı hissələrinin və ona təsir göstərən amillərin xüsusi səmərəliliyi də nəzərdən keçirilir. Xüsusi səmərəliliyin ölçüsü onun ümumi səmərəliliyə töhfəsi ilə müəyyən edilir (bax: İstehsal amillərinin səmərəliliyi, Kapital qoyuluşlarının səmərəliliyi, Əmək məhsuldarlığı, Fond verimi).

İQTİSADİ SİSTEM – iqtisadiyyatın başlıca probleminin həllinin təşkili və idarə edilməsinə, mövcud məhdud resurslardan istifadə olunması səviyyəsinə, həmçinin, cəmiyyət və onun üzvlərinin tələbatının ödənilməsinə görə, bir-birindən fərqlənən iqtisadi şəraitin və amillərin məcmusu. İqtisadi sistemin dörd növünü – bazar, inzibati-amirlik, qarışıq və ənənəvi növlərini fərqləndirirlər.

İQTİSADİ SİSTEMİN DİAQNOSTİKASI – iqtisadi sistemin fəaliyyət göstərməsi məq sədlərinin və onlara nail olmaq yollarının müəyyən edilməsi üzrə tədqiqatların məcmusu.

İQTİSADİ SİYAHIYAALMA – iqtisadiyyatın inkişafı və strukturu haqqında vacib məlumatların ilkin mənbəyi, statistik müşahidənin əsas növlərindən biri. İqtisadi siyahıyaalmanın məlumatlarından milli hesablar sisteminin balanslarının qurulması üçün də istifadə olunur. İqtisadi siyahıyaalmalar müəyyən dövrdən bir həyata keçirilir. Məsələn, ABŞ-da beş ildən bir müəssisələrə sorğu vərəqələrini yaymaq yolu ilə. Siyahıyaalmalar iqtisadiyyatın müxtəlif sahələri (sənaye, ticarət, kənd təsərrüfatı, xidmətlər və s.) üzrə həyata keçirilir və ona, bütövlükdə sahənin inkişafına aid ümumi suallarla yanaşı, müəssisənin inkişafına dair xüsusi suallar da daxil edilir.

Sovet dövründə SSRİ Mərkəzi Statistika Komitəsi və onun müttəfiq respublikalarındakı müvafiq orqanları tərəfindən müntəzəm olaraq iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə siyahıyaalma keçirilmiş, onların nəticələrindən planların tərtib edilməsində istifadə edilmişdir.

İQTİSADİ SİYASƏT – dövlət tərəfindən iqtisadiyyatda həyata keçirilən kompleks tədbirlər sistemi. İqtisadi siyasətin məzmunu, onun məqsədləri və vasitələri ictimai quruluşun xarakteri, ölkənin inkişafının daxili və beynəlxalq şəraiti ilə müəyyən edilir.

İqtisadi siyasətin yaranması dövlətin formalaşması ilə bağlıdır. Quldarlıq və feodalizm dövründə iqtisadi siyasət adətən vergi tutulması, pul tədavülünün və torpaq münasibətlərinin tənzimlənməsi ilə məhdudlaşırdı. İlkin kapital yığımı dövründə iqtisadi siyasətin səciyyəvi cəhətləri olan merkantilizm və proteksionizm kapitalist manufakturalarının yaranmasına və ticarətin inkişafına kömək edirdi. Sənaye və kapital inkişaf etdikcə azad sahibkarlıq siyasəti daha böyük rol oynamağa başlamışdır.

Müasir iqtisadi siyasət üçün dövlətin iqtisadi rolunun güclənməsi səciyyəvidir. Dövlət təkrar istehsal prosesinə fəal müdaxilə edir, böhrana və inflyasiyaya qarşı tədbirlər görür, xarici iqtisadi fəaliyyəti tənzimləyir.

İqtisadi siyasətin **forma** və **metodları** bir çox cəhətdən iqtisadiyyatın vəziyyətindən, bazar iqtisadiyyatını təkrar istehsal prosesinin dövlət tənzimlənməsi ilə əlaqələndirilməsinin vəziyyətindən asılıdır.

İQTİSADİ SOSİOLOGİYA – sosiologiya elminin (biliyin) nisbətən gənc sahələrindən biri. Müstəqil elm sahəsi kimi 1950-ci illərdə yaranmış, müstəqil elmi fənn kimi XX əsrin 80-ci illərinin ortalarında, ilk növbədə, Rusiyanın Sibir vilayətinin sosioloqlar və iqtisadçılar məktəbinin səyləri nəticəsində formalaşmışdır.

İqtisadi sosiologiyanın predmeti sosial institutlar kompleksi kimi, iqtisadiyyatın dinamikası və iqtisadi münasibətlər sistemində sosial qrupların fəaliyyət göstərməsi meyilləridir. İqtisadi sosiologiyanın vəzifələrinə əhalinin müxtəlif qruplarının iqtisadi fəallığının təsviri, təhlili və proqnozlaşdırılması, iqtisadçılar və siyasətçilər üçün müvafiq tövsiyələrin hazırlanması daxildir.

İqtisadi inkişafın subyektinə yox, insana, yəni yalnız iqtisadi həyatın obyektinə və şəraitinə xalis iqtisadi yanaşmanın kifayət olmaması hələ XIX əsrdə dərk edilmişdir. İqtisadi həyatın təhlilinə ilk sosioloji yanaşmanı K.Marks, E.Dürkgeym, M.Veber etmişlər. Onlar iqtisadiyyatı sosial tərəqqi kimi, onun cəmiyyətlə geniş qarşılıqlı fəaliyyətdə sosial institutlar sistemi kimi nəzərdən keçirirdilər. Sosial şüurun bu meyillərini XX əsrdə T.Veblen, T.Parsons, N.Smedser və digərləri inkişaf etdirmişlər. Belə ki, Veblen "status" (rəmzi-nüfuz) istehlakı fenomenini açaraq, sosioloji istehlak konsepsiyasını yaratdı.

Onun fikrincə, iqtisadiyyat istehsal, bölgü, mübadilə və istehlaka görə insanlar arasında sistem, sosial institutlar sistemi deməkdir. Onlardan ən mühümləri mülkiyyət, istehsal, bölgü və istehlakdır.

İqtisadiyyatın sosial institutlarının təsvir edilməsi üçün onların yerinə yetirdiyi funksiyalar və digər institutlarla qarşılıqlı əlaqəsinin xarakteri vacibdir. İnstitusional yanaşma terminlərində hər hansı bir iqtisadi sistemi xarakterizə etməkdən ötrü aşağıdakı suallarla cavab vermək lazımdır: o, hansı məqsədlərə qulluq edir, cəmiyyətə münasibətdə hansı funksiyaları yerinə yetirir; fərdlərin hansı əsas sosial mövqeləri və bu iqtisadi sistemdə hansı sosial mövqelər qəbul edilmişdir; bu iqtisadi sistem siyasət, hüquq, mənəviyyat, din, ailə, təhsil və s. kimi sosial institutlarla necə qarşılıqlı əlaqədədir; şəxsiyyətin iqtisadi sistem üçün tipik olan sosial rolu nədən ibarətdir və s.

Sosioloji təhlilin gedişində iqtisadi inkişafın bütöv bir sıra qeyri-iqtisadi amillərdən – sosial strukturdan və hakimiyyətin xarakterindən, mədəniyyət tipindən, milli xarakterdən və s. asılılığı aşkar olunur. Bu, iqtisadiyyatın sosial institutlarının fəaliyyət göstərməsinin obyektiv qanunauyğunluğudur.

İQTİSADİ STATİSTİKA – iqtisadi hadisələrin və proseslərin inkişafında kəmiyyət qanunauyğunluqlarını onların keyfiyyət məzmunu ilə qırılmaz əlaqədə xarakterizə edən məlumatların toplanması, işlənməsi, təhlili və yayılması (dərc edilməsi) ilə məşğul olan iqtisadi biliklərin və statistikanın bir sahəsi. İqtisadi statistika ümumi milli məhsulun (ÜMM), ümumi daxili məhsulun (ÜDM) və milli gəlirin iqtisadi potensialını, istehsalını və bölgüsünü, ictimai istehsalın səmərəliliyini, iqtisadi artımın meyillərini və sürətini, əhalinin gəlirlərinin və xərclərinin pul balansını, sahələrarası balansları və s. xarakterizə edən statistik göstəricilər sisteminin köməyilə istehsal, bölgü, müba-

dilə və istehlak sferasında "kütləvi hadisələri və prosesləri" öyrənir.

Sənayenin, kənd təsərrüfatının, nəqliyyatın və s. hadisə və proseslərini öyrənən sahə statistikasından fərqli olaraq iqtisadi statistika bütünlükdə xalq təsərrüfatını kompleks öyrənir. İqtisadi hadisə və prosesləri statistik ifadə və xarakterizə etmək üçün iqtisadi statistikanın hazırladığı göstəricilər sistemindən istifadə olunur. İqtisadi statistikanın əsas ümumiləşdirici göstəriciləri bunlardır: məcmu ictimai məhsul, milli gəlir, qeyri-istehsal istehlakı, yığım, əsas və dövriyyə fondları, ictimai əmək məhsuldarlığı, əhalinin real gəliri və s. Bu göstəricilər bütövlükdə xalq təsərrüfatı sahələri, mülkiyyət formaları üzrə, real gəlirlər isə əhalinin əsas ictimai qrupları üzrə hazırlanır. İqtisadi statistika məlumatların toplanması, işlənməsi və təhlili üçün kütləvi statistika müşahidəsi metodundan, seçmə metodundan, qruplaşdırma metodundan, indeks metodundan, dinamika sıralarının təhlili metodundan, balans metodundan və digər metodlardan geniş istifadə edir.

İQTİSADİ STRATEGİYA – istehsal, gəlirlər və xərclər, büdcə, vergilər, kapital qoyuluşu, qiymətlər, sosial müdafiə məsələləri üzrə hökumətin, regionların, müəssisələrin, firmaların rəhbərliyinin uzunmüddətli, prinsipial məqsədləri, planları, niyyətləri; rəhbərlik sənəti; müəyyən inkişaf mərhələsində müəyyən gerçəklikdən irəli gələn bu işin aparılmasının ümumi planı.

İqtisadi strategiya iqtisadiyyatın inkişafının baş istiqamətinin mahiyyətini ifadə edir və fundamental, uzunmüddətli məqsədlərdən ibarətdir. İqtisadi strategiyaya qarşı qoyulmuş məqsədlərə nail olmaq üçün vasitə və yolların dəqiq müəyyən edilməsi də daxildir. Bu, istehsalın dinamik və proporsional inkişafı, effektivliyinin yüksəldilməsi, elmi-texniki tərəqqinin sürətləndirilməsi, əmək məhsuldarlığının artırılması, insanın inkişaf göstəricilərinin yaxşılaşdırılması deməkdir.

İqtisadi strategiyanın həyata keçirilməsində dövlət proqramları xüsusi yer tutur. Son illərdə bu istiqamətdə görülən işlərin uğurla həyata keçirilməsi Azərbaycan iqtisadiyyatının davamlı inkişafına güclü təkan vermişdir. "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı (2006-2015-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)" və digər sənədlərdə qarşıya qoyulmuş təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi sahəsində atılan uğurlu addımlar əhalinin istehlakında yerli məhsulların xüsusi çəkisinin artmasına müsbət təsir göstərdi.

Ölkə Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamına uyğun olaraq hazırlanmış "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" çox mühüm bir mərhələyə – daxili ərzaq bazarının idxaldan asılılığının maksimum dərəcədə azaldılmasına, ölkədə güclü dövlət ərzaq ehtiyatının yaradılmasına xidmət edir. Bu da yaxın və uzaq gələcək üçün ölkənin inkişaf strategiyasının mühüm istiqamətlərindən sayılır.

Gərək biz indidən gələcəyi düşünək. İndi biz bir çox mövqelər üzrə özümüzü təmin edirik, ya da ki, bu il, yaxud gələn il təmin edəcəyik.

Bizdə quşçuluq sahəsində istehsalımız aşağı səviyyədə idi. İndi görüləcək tədbirlər nəticəsində 2012-ci və 2013-cü illərdə yeni tikiləcək quşçuluq fabriklərinin fəaliyyəti hesabına biz özümüzü quş əti ilə də təmin edəcəyik. Süd emalı, konserv kombinatları tikilir, bağçılıq, bitkiçilik inkişaf edir. Bitkiçilikdə əlbəttə biz hələ ki, idxaldan asılıyıq, yəqin ki, bir müddət asılı olacağıq. Ancaq bütün başqa mövqelər üzrə biz ya özümüzü təmin edirik, ya bir-iki ildən sonra tam şəkildə təmin edəcəyik.

İlham Əliyev
16.01.2012

Qloballaşan dünya iqtisadiyyatı şəraitində hər bir dövlət özünün inkişaf strategiyasında xarici amilləri də nəzərə almağı vacib sayır, tarazlaşdırılmış xarici siyasətin üstünlüklərindən istifadə etmək üçün ölkənin ixrac potensialının artırılması üçün əlavə tədbirlər görür (bax: Azərbaycan iqtisadiyyatı).

İQTİSADİ SUBYEKT ÜZRƏ RİSKİN QİYMƏTLƏNDİRİLMƏSİ PROSESİ (ing. *Entity's risk assessment process*) – daxili nəzarətin bir elementini təşkil edən və maliyyə hesabatlarının məqsədləri ilə bağlı biznes risklərinin müəyyənləşdirilməsi və həmin risklərə qarşı tədbirlərin görülməsi və onların nəticələri ilə bağlı qərarların verilməsi üçün iqtisadi subyekt tərəfindən həyata keçirilən proses.

İQTİSADİ TƏHLÜKƏSİZLİK – 1. İqtisadiyyatın elə bir vəziyyətidir ki, bu zaman sabit iqtisadi artım, ictimai tələbatların səmərəli ödənilməsi, idarəetmənin yüksək keyfiyyəti, milli və beynəlxalq səviyyədə iqtisadi maraqların qorunması təmin edilir. Dövlətin iqtisadi təhlükəsizliyi dedikdə, ilk növbədə, iqtisadiyyatın və onun qurumlarının elə vəziyyəti başa düşülür ki, bu, milli mənafelərin müdafiəsinə, yeridilən siyasətin sosial yönümlüyünə, iqtisadiyyatın, ölkənin müdafiə qabiliyyətinin tələb olunan səviyyədə olmasına imkan yaratsın. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsidir. Ölkənin milli maraqlarının qorunması, xarici təsirlərə məruz qalmaq, milli iqtisadiyyatın dinamik və keyfiyyətli inkişafı milli təhlükəsizliyin təmin edilməsində müstəsna rol oynayır (bax: sxem 1).

2. Müəssisənin iqtisadi, hüquqi münasibətlərinin, təşkilat əlaqələrinin, maddi və intellektual resursların vəziyyətidir ki, burada onun sabit fəaliyyət göstərməsinə, maliyyə uğuruna, mütərəqqi elmi-texniki və sosial inkişafa təminat verir. İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin dayağıdır, maddi əsasıdır. Tarixi və məntiqi baxımdan iqtisadi təhlükəsizliyin təmin edilməsi problemi dövlətçiliyin yaranması, cəmiyyətin iqtisadi maraqlarının dərk edilməsi ilə eyni vaxtda yaranır.

Dünyanın inkişaf etmiş ölkələri ayrı-ayrılıqda iqtisadi təhlükəsizlik məsələsinə özlərinin inkişaf strategiyasının mühüm isti-



Qrafik 1

Uğurlarımızın təməlində bir daha demək istəyirəm ki, bizim iqtisadi siyasət, islahatlar, eyni zamanda, ölkədə mövcud olan ictimai-siyasi sabitlik, icra strukturlarındakı güclü nizam-intizam dayanır. Nizam-intizam olmadan, biz uğurlara nail ola bilmərik. Mən bütün icra orqanlarının rəhbərlərinə demişdim, bu gün də deyirəm ki, sahibkarlarla bir yerdə olun, onlara kömək edin, onların işinə qarışmayın, onlara maneçilik törətməyin. Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır.


İlham Əliyev
28 fevral 2012-ci il

qaməti kimi baxırlar.

İqtisadi təhlükəsizliyi təmin etmədən milli təhlükəsizliyi təmin etmək qeyri-mümkündür. Dövlətin iqtisadi təhlükəsizliyi, ilk növbədə, müstəqilliyinin qorunması üçün vacibdir. İqtisadi təhlükəsizliyini təmin etməyən dövlət müstəqil sayıla bilməz. Uzun illər dövlətlərarası münaqişələrin baş verməsi iqtisadi maraqlarla bağlı olmuşdur. Qloballaşma prosesinin geniş miqyas aldığı müasir dövrdə də belədir. Bazarlara, təbii sərvətlərə sahib olmaq uğrunda haqlı-haqsız iddialar ölkələrin iqtisadi təhlükəsizliyinə bu və ya digər dərəcədə təsir göstərir. Müasir dövrdə iqtisadi təhlükəsizlik məsələlərinin tənzimlənməsində qanunvericilik aktlarından, dövlətlərarası razılaşmalar və digər hüquqi-sənədlərdən geniş istifadə olunur.

İqtisadi təhlükəsizlik sosial sabitliyin təmin edilməsinin əsaslarını möhkəmləndirir. Dünya təcrübəsi göstərir ki, hər hansı ölkədə sosial sabitliyin olması, etnik münaqişələr, vətəndaş qarşıdurması iqtisadi müstəqilliyin əsaslarını sarsıdır, ölkəyə xarici təzyiqləri artırır, onun iqtisadi potensialını dağıdır. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi cəmiyyətdə sabitliyin, bütövlükdə milli təhlükəsizliyin təminatçısı rolunu oynayır. Sovetlər sistemində müttəfiq respublikalar ayrı-ayrılıqda iqtisadi təhlükəsizlik problemləri ilə məşğul olmurdular. Bu problem SSRİ dövləti səviyyəsində həll edilirdi. Onun ideoloji, maliyyə təhlükəsizlik təminatı mərkəz tərəfindən həyata keçirilirdi. SSRİ dağıldıqdan sonra hər bir yeni müstəqil dövlət bu problemlə üzləşməli oldu. Qeyri-siyasi sabitlik, respublikalararası iqtisadi əlaqələrin qırılması, "şok terapiyası" nəticəsində milli iqtisadiyyata vurulan sarsıdıcı zərbələr, yeni şəraitə uyğun idarəetmə təcrübəsinin olmaması və s. amillərin təsiri nəticəsində müstəqil dövlətlərin iqtisadi təhlükəsizliyinin təmin edilməsində ciddi narahatlıqlar yarandı. Hər bir dövlət ayrı-ayrılıqda onların həlli üçün özünün strategiyasını müəyyənləşdirdi və

Əhalinin hər nəfərinə düşən Ümumi Daxili Məhsul (ABŞ dolları ilə)



Azərbaycan Respublikasında yoxsulluğun səviyyəsi, %-lə



Qrafik 2

tədbirlər həyata keçirdi. Lakin əldə edilən nəticələr çox müxtəlifdir. Amma bir ümumi nəticə vardır: qloballaşan dünya iqtisadiyyatı şəraitində o ölkə ki, iqtisadi müstəqilliyini, xalqının milli maraqlarını qorumağı, davamlı inkişafı özünün inkişaf strategiyasının prioriteti hesab edir, o dövlətin iqtisadi təhlükəsizliyi təmin edilir, cəmiyyətdə sabitlik əldə olunur, xalqın yaşayış səviyyəsini yüksəltmək imkanları genişlənir.

İqtisadi təhlükəsizliyin göstəriciləri dedikdə, bütövlükdə ölkənin iqtisadi sistemi, onun dayanıqlığı və çevikliyi (mobilliyi) haqqında ümumi təsəvvür yaradan daha əhəmiyyətli problemlər başa düşülür.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi səviyyəsi barədə daha ətraflı təsəvvür yaratmaq üçün problemin mahiyyətini dərk etməyə imkan verən 25-ə yaxın göstəricini təhlil etmək məqsədəuyğundur. Bu göstəricilər əsasən aşağıdakılardır:

– hər nəfərə düşən ümumi daxili məhsul, onun dinamikası;
– ümumi məhsulda emal sənayesinin xüsusi çəkisi;
– sənayenin ümumi məhsulunda maşınqayırmanın xüsusi çəkisi;
– investisiyaların ümumi daxili məhsula nisbəti;
– elmi tədqiqatlara, təcrübi konstruktor işlərinə çəkilən xərclərin ümumi daxili məhsula nisbəti;
– beynəlxalq standartlara əsasən müəyyən olunmuş yoxsulluğun səviyyəsi;
– həyatın orta yaşayış müddəti, il;
– ən çox gəlirləri olan 10 faiz əhali ilə gəlirləri ən az olan 10 faiz əhali arasında nisbət, dəfə;
– beynəlxalq standartlara əsasən işsizlik səviyyəsi, faizlə;
– illik inflyasiya, faizlə;
– dövlət borcu, onun ümumi daxili məhsula, büdcə gəlirlərinə nisbəti, faizlə;
– ümumi daxili məhsula nisbətən xarici borclar, faizlə;
– ümumi daxili məhsula nisbətən idxal, faizlə;
– ümumi ərzaq istehlakına nisbətən, ərzaq məhsullarının idxalı, faizlə.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin prioritet istiqaməti sayılır. Aparılan müqayisəli araşdırmalardan görünür ki, Azərbay-


canda əsas iqtisadi göstəricilərin səviyyəsi iqtisadi təhlükəsizlik baxımından məqbuldur, dövlətimiz özünün iqtisadi təhlükəsizliyini təmin edir. Bunu bir daha 2008-ci ildə başlayan dünya iqtisadi böhranı sübut etdi. Son illərdə makroiqtisadi sabitlik davam edir, Azərbaycan dövlətinin heç bir xarici dövlət və beynəlxalq maliyyə qurumu ilə əməkdaşlıqda problemi yaranmamışdır. Həlli nəzərdə tutulan sosial-iqtisadi problemlər uğurla reallaşır, əhalinin pul gəlirlərinin qorunması üçün güclü qanunvericilik bazası və maliyyə təşkilatları mövcuddur: yoxsulluq səviyyəsinin aşağı düşməsi meyilləri ildən-ilə güclənir; ölkənin ixrac potensialının strukturunun yaxşılaşması, qeyri-neft sektorunun üstün inkişafı istiqamətində konkret addımlar atılır (bax: cədvəl 1, qrafik 1, 2, 3, 4).

Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində vacib meyarlardan sayılan xarici borclar probleminə diqqətlə yanaşılır, onun ümumi daxili məhsula, büdcə gəlirlərinə nisbətinin artmasına imkan verməyən bütün vasitələrdən istifadə edilir: ölkəyə axan investisiyalardan səmərəli istifadə olunması, xarici kapitalın yeni texnologiyaya, real iqtisadi sektorlara yönəldilməsi üçün prioritet istiqamətlər müəyyən edilir (bax: Azərbaycan iqtisadiyyatı).

Əmək qabiliyyətli əhalinin işlə təmin olunması məqsədi ilə əmək tutumlu istehsal və xidmət sahələrinin inkişafı üçün əlavə tədbirlər görülür.

Ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsini müəyyən edən əsas göstəricilərdən biri də əhalinin ərzaq təminatı problemidir. Bu istiqamətdə Azərbaycanda son illər ciddi işlər görülür. Dövlət səviyyəsində strateji əhəmiyyət kəsb edən ərzaq təhlükəsizliyi proqramı qəbul edilmişdir. Onun reallaşması üçün kənd təsərrüfatı istehsalının prioritet istiqamətləri müəyyənləşdirilmişdir. Bütövlükdə aqrar sektorun səmərəliliyinin yüksəlməsi, yerli istehsalın stimullaşdırılması, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişlənməsi ilə bağlı konkret addımlar atılır.

Yeni müstəqil dövlətlərdə açıq iqtisadiyyatın qurulması, dünya iqtisadiyyatına inteqrasiya, yeni iqtisadi sistemin yaradılması prosesi gedir. Bu çətin, ağrılı proses iqtisadi sahədə bir çox problemlərin (idxal-ixrac, bank əməliyyatları, gizli iqtisadiyyatın artması və s. istiqamətlərdə) təsir dairəsini genişləndirir. Qeyri-qanuni mənimsəmə halları, əhali qrupları arasında gəlirlərin bölgüsündə ciddi fərqlərin mövcudluğu, xarici iqtisadi əlaqələrdə iştirak edən subyektlərin xeyli dərəcədə çoxalması iqtisadi təhlükəsizliyin təmin



Bakı-Tbilisi-Qars dəmir yolu



Bakı-Tbilisi-Ceyhan (BTC) kəmərinin sonuncu borusunun simvolik birləşdirilməsi mərasimi (13 iyul 2006-cı il)


edilməsinə böyük ehtiyac yaradır. Müstəqil dövlətlər üçün əsasən yeni olan bu problem milli və dövlət mənafeləri baxımından ən aktual məsələlərdən biridir. Təhlil göstərir ki, inkişaf etmiş ölkələr müntəzəm olaraq həyata keçirdikləri hər hansı bir mühüm məqsədli proqramı, investisiya layihəsini, satış bazarlarının itirilməsinin doğurduğu nəticələri, əhalinin daxili resurslar hesabına ərzaqla təminatının səviyyəsini, əhali qrupları arasında gəlirlərin diferensasiyasını, xarici borcların həcmini və digər vacib göstəriciləri dövlətin iqtisadi təhlükəsizliyi baxımından qiymətləndirirlər. XXI əsrdə dünya iqtisadiyyatının qloballaşdığı şəraitdə ölkələrin iqtisadi təhlükəsizliyi problemi getdikcə daha böyük əhəmiyyət kəsb edir. Proqnozlar göstərir ki, ölkə daxilində siyasi sabitliyin təmin olunduğu şəraitdə belə iqtisadi sahə ilə bağlı xarici təhlükələr heç də azalmır. Çünki beynəlxalq maliyyə bazarı, dünya ticarəti, transmilli şirkətlərin fəaliyyəti genişləndikcə, informasiya və telekommunikasiya texnologiyaları inkişaf etdikcə bu və ya digər ölkələrin iqtisadi təhlükəsizlik problemləri də mürəkkəbləşir. Bu, artıq sübut olunmuş faktdır ki, heç bir xarici dövlət, beynəlxalq təşkilat, xarici investor başqa ölkəyə maraq güdmədən kömək göstərmir. Hər belə köməyin arxasında, ilk növbədə, kömək edənin mənafeləri durur ki, bu da təbiidir. Amma hər bir xarici kömək milli mənafelər, iqtisadi təhlükəsizlik baxımından qiymətləndirilməlidir. Bu gün beynəlxalq maliyyə təşkilatları dünyanın bir çox ölkələrində islahatlarla bağlı proqramlar həyata keçirir, hökumətlərə tövsiyələr verirlər. Bununla belə, yuxarıda qeyd edildiyi kimi, dünyanın bir çox məşhur politoloqları, iqtisadçıları, dövlət xadimləri bu köməyin heç də həmişə həmin ölkələr üçün yaxşı nəticələr verdiyini dünyanın ən yüksək kürsülərindən cəsarətlə söyləyirlər. Məsələn, Beynəlxalq Valyuta Fondunun ünvanına deyilən ittihamlar getdikcə daha kəskin xarakter alır. Belə fikirlər səslənir ki, Beynəlxalq Valyuta Fondunun MDB-nin üzvü olan və digər ölkələrə etdiyi kömək həmin ölkələr üçün o qədər də müsbət nəticələr verməmişdir.

Ona görə də bir çox dövlət başçıları, siyasi xadimləri beynəlxalq ekspertlər təklif edirlər ki, yalnız makroiqtisadi sabitliyi,

Qlobal maliyyə bazarlarında gedən əməliyyatlar və dünyanın inkişafı ilə əlaqədar səslənən müxtəlif fikirlər, tədbirlər göstərir ki, dünyada iqtisadi vəziyyət nə qədər həssasdır. Bir də onu göstərir ki, dünyanın bütün ölkələri bir-birinə bağlıdır. Baxmayaraq ki, inkişaf etmiş ölkələrin maliyyə əməliyyatları nəticəsində, demək olar, böhran bütün dünyanı bürüyüb, hətta böhranın yaranmasında, mövcudluğunda heç bir təsiri, iştirakı olmayan ölkələr də bu böhrandan əziyyət çəkir. Belə olan halda, hər bir ölkə öz iqtisadi təhlükəsizliyi haqqında fikirləşməlidir. Bizim üstünlüyümüz ondan ibarət olmuşdur ki, dünya iqtisadiyyatına sürətlə inteqrasiya etməklə yanaşı, eyni zamanda, öz milli maraqlarımızı heç vaxt unutmamışıq. Biz ancaq o sahələrə inteqrasiya etmişdik ki, daxili iqtisadi sabitliyimizə problemlər yaratmasın. Hər halda, son bir ilin təcrübəsi onu göstərir ki, Azərbaycanın seçdiyi yol uğurlu və düzgün yoldur.

İlham Əliyev

Azərbaycan Respublikasında istehlak qiymətləri indeksi, orta aylıq əmək haqqı və əhalinin hər nəfərinə düşən gəlirləri (əvvəlki ilə nisbətən %-lə)




Qrafik 3


az inflyasiyanı, minimal büdcə kəsirini nəzərdə tutan Vaşinqton konsensusu real sektora fəal köməyi, investisiya aktivliyinin artmasını, işsizliyin azalmasını və vacib mikroproblemlərin həllini təmin etmədiyinə görə təshih olunmalıdır.

Qloballaşan dünya iqtisadiyyatı şəraitində hər bir dövlət iqtisadi təhlükəsizliyini təmin etmək üçün daxili bazarın qorunması məsələsini də diqqət mərkəzində saxlamalıdır. 2008-2010-cu illərin dünya iqtisadi böhranı tam sübut etdi ki, qloballaşma milli maraqları arxa plana atır. Bu məsələdə Almaniya, Portu-

Azərbaycan Respublikasında əhalinin gəlirlərinin xərclərinə nisbəti, %-lə



Qrafik 4



Sxem 1

qaliya, Finlandiya və s. dövlətlər daha müstəqil siyasət yeritmək istəyirlər. Ölkənin iqtisadi təhlükəsizliyi problemi beynəlxalq əməkdaşlığın daha tarazlı aparılmasını zəruri edir. Bu və ya yeni müstəqil dövlətlərin milli maraqları qoruyub saxlamaqla ÜTT-yə daxil olması vacib məsələlərdən sayılır.

İqtisadi təhlükəsizliyin obyektləri kimi həm bütövlükdə ölkənin iqtisadi sistemi, həm də onun ünsürləri – təbii sərvətlər, istehsal və qeyri-istehsal fondları, daşınmaz əmlak, maliyyə resursları, insan resursları, təsərrüfat strukturları, ailə, şəxsiyyət və s. çıxış edirlər. Şəxsiyyətin, cəmiyyətin, dövlətin iqtisadi mənafelərinə xələl gətirən, ölkənin təsərrüfat həyatına mənfi təsir edən hadisə və proseslər iqtisadi



Enerji təhlükəsizliyinə dair konfrans. Vilnüs (Litva)

təhlükəsizliyi zəiflədir.

İqtisadi təhlükə daxili və xarici təhlükə kimi ümumiləşmiş cəhətlər əsasında təsnifləşdirilə bilər.

İqtisadi təhlükəsizliyin ilkin amili kimi iqtisadiyyatın dağılmasına, ölkədə sosial-iqtisadi və siyasi vəziyyətin gərginləşməsinə gətirib çıxara bilən şərtlərə əməl etməyən son həddi kəmiyyətləri çıxış edir. Bu zaman iqtisadi təhlükəsizliyin real vəziyyətini qiymətləndirmək üçün müvafiq iqtisadi göstəricilər deyil, onların başlanğıcına gətirib çıxaran şərtlər mühüm rol oynayır. Bu şərtlər daimi və universal ola bilməz. Onların səviyyəsi iqtisadiyyatın inkişaf səviyyəsindən, mövcud adət və ənənələrdən, təsərrüfatın cari vəziyyətindən asılıdır. Bu sahədə müvafiq göstəricilərin və onların ilkin hədlərinin müəyyənləşdirilməsi iqtisad elminin mühüm problemlərindəndir. İqtisadi təhlükəsizliyin təmin edilməsi tədbirləri təhlükəsizlik üzrə daxili və xarici qorxunun aradan qaldırılmasına yönəldilən üsulların, şüurlu fəaliyyətin məcmusudur.

Ümumiyyətlə, iqtisadi təhlükəsizlik tədbirləri sırasında əsasən aşağıdakılar seçilir: iqtisadi təhlükəsizliyi müəyyən edən amillərin monitorinqi, təhlükəsizliyin meyar və parametrlərinin işlənib hazırlanması, ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üzrə dövlət fəaliyyəti. Bu problemin həllində xüsusi metodlardan da istifadə edilir. İqtisadi təhlükəsizliyin təmin edilməsi dövlətin müstəsna vəzifəsidir.

İQTİSADİ TSİKL – işgüzar fəallığın səviyyəsinin tərəddüdləri. Bir böhrandan digərinə qədər bazar iqtisadiyyatının hərəkəti dövrü. Tsiklik iqtisadi inkişafın dinamikasını əks etdirən təbii inkişaf prosesidir. Tsiklik milli iqtisadiyyatın və dünya təsərrüfatının vahid tam kimi inkişaf forması, bütövlükdə iqtisadiyyat miqyasında bir makroiqtisadi müvazinətdən digərinə inkişafdır. Buna görə də tsiklliyi bazar iqtisadiyyatının özünü tənzimləmə üsullarından biri kimi nəzərdən keçirmək olar. Tsiklliyin səciyyəvi xüsusiyyəti dairə üzrə deyil, spiral üzrə hərəkət olduğundan, o, proqressiv inkişaf formasıdır.

İstehsal müxtəlif illərdə böyük və ya kiçik sürətlə arta bilər, bir sıra hallarda isə artım mənfi işarəli ola bilir ki, bu da istehsalın düşməsi deməkdir. Buna görə də iqtisadiyyatın inkişaf dinamikasını dalğalı xətt daha dəqiq əks etdirər ki, burada hər bir dalğa iqtisadiyyatın inkişafının bütöv bir tsiklini səciyyələndirir.

İqtisadi tsikl iqtisadi artıma uzunmüddətli meylin olması şəraitində bir sıra illər ərzində təkrarlanan və bir-birindən davamlığı və intensivliyi ilə fərqlənən iqtisadi fəallığın yüksəlməsi və enməsidir.

Bir sıra iqtisadçılar iqtisadi tsiklliyə təsadüfi hal kimi baxsalar da, dünya iqtisadiyyatı təcrübəsi bu fikri inkar edir.

Tsiklik hərəkət bazar iqtisadiyyatının özünütənzimləmə mexanizmidir, istehsalın dövri artımı və tənəzzülü, bazar konyunkturunun (qiymətlərin, faiz dərəcələrinin, qiymətli kağızların dərəcələrinin, əmək haqqının, dividendlərin və s.) dövri dəyişməsi ilə xarakterizə olunur. İqtisadi tsikl bazar iqtisadiyyatının inkişaf formasıdır.

İqtisadiyyatın dinamikasının tsiklik olması nəzəriyyəsi – iqtisadi dinamikanın oxşar fazalarının dövri təkrarlanmasını,

tsiklikliliyini tədqiq edən iqtisadi nəzəriyyənin bir hissəsi. Tsiklin nümunəvi strukturu belədir: köhnə tsikl zəminində yeni tsiklin yaranması, onun təşəkkülü, yayılması, yetkinliyi (sabit inkişafı); böhran; köhnəlmiş tsiklin yeni, daha mütərəqqi tsikl tərəfindən sıxışdırılıb aradan çıxarılması.

İqtisadi fəallığın yüksəlməsi dövrləri üstün olaraq iqtisadi artımın ekstensiv tipi, iqtisadi fəallığın azalması dövrləri isə, üstün olaraq, intensiv iqtisadi artımın başlanması ilə xarakterizə olunur. İqtisadi tsiklə dörd ardıcıl faza daxildir: böhran (bu zaman işgüzar fəallığın azalması ən aşağı nöqtəyə enir); depressiya (iqtisadiyyatın durğun halı, bu zaman işgüzar fəallığın azalması aşağı nöqtəni qovuşub keçir); canlanma (işgüzar fəallıq əvvəlki tsiklin ən yüksək nöqtəsinə çataraq artır); yüksəliş (işgüzar fəallığın artımı və genişlənməsi əvvəlki tsiklin ən yüksək nöqtəsini ötür).

Qeyd etmək lazımdır ki, K.Marks tərəfindən irəli sürülən bu 4 ardıcıl faza, demək olar ki, müasir dövrdə dünyanın aparıcı ekspertləri, iqtisadçıları tərəfindən qəbul edilir. Bu da inkaredilməz faktdır ki, siyasi iqtisadçılar arasında yalnız K.Marks iqtisadi tsiklin mahiyyətini daha ətraflı əsaslandırmağa nail olmuşdu.

Ümumiyyətlə, iqtisadi tsikllərin 1380-dən artıq növü məlumdur. Bunlardan uzun dalğa adı almış **N.Kondratyev tsikli (50-60), S.Kuznets tsikli (18-25 il), K.Yuqlar tsikli (7-12 il), S.Kitçinin qısa tsiklləri (2-4 il), Forrester tsikli (200 il), sivilizasiyanın inkişafını nəzərdə tutan Toffler tsikli (1000-2000 il).**

Tsikllər obyektinə görə makroiqtisadi, demoqrafik, elmi, ixtira, innovasiya, texnoloji, maliyyə və s. növlərə; tətbiqedilmə ərazisinə görə fərdi (ayrıca təsərrüfat subyekti səviyyəsində), regional, milli və qlobal tsikllərə bölünür.

Tsiklin fazaları müəyyən funksiyaları yerinə yetirir, hər bir fazada onun digər fazaya keçməsi şərtləri əks olunur. Bazar iqtisadiyyatının tsiklik dəyişmələrinin intensivliyi investisiyaların həcmi ilə əlaqədardır. Kapitalın kütləvi surətdə yeniləşməsi və genişlənməsi, istehsalın həcminin artması növbəti tsikl üçün yeni, daha etibarlı maddi-texniki əsas yaradır. Dövlət "anti-tsikl" siyasətini yeridərək, böhran şəraitində pul-kredit və büdcə-vergi alətlərindən istifadənin köməyilə iqtisadiyyatı stimullaşdırır və yüksəliş fazasında böhranın inkişafını ləngidir.

Böhran şəraitində dövlət tədbirləri faiz dərəcələrinin azalmasına, vergilərin aşağı düşməsinə, sürətli amortizasiyaya, vergi güzəştlərinə və yeni investisiyalara yönəldilmişdir. Bazar iqtisadiyyatının özünü nizamlaması tsiklin meylini dəyişərək, təkrar istehsal prosesinə dövlət təsiri ilə çulğalaşır. Onların davamlılığı azalır, ayrı-ayrı fazalarının, xüsusilə canlanma və yüksəliş fazaların zəruriliyi, böhran və inflyasiyanı özündə əks etdirən müasir tsikllər mexanizmi artır.

İqtisadi tsiklin və bazar iqtisadiyyatının inkişafının kiçik (10 ilə qədər) və böyük (50-60 il) tsikllləri fərqləndirilir. Kiçik tsikllər çərçivəsində avadanlıqlar modernləşir, istehsal aparatı təzələnir, istehsala qoyulan investisiyalar artır, bazarın həcmi artır. Böyük tsikllər elmi-texniki tərəqqinin qeyri-bərabərliyi ilə əlaqədardır. Onların çərçivəsində həm alıcıya təklif edilən məhsullar dəsti, həm də onların hazırlanması texnologiyasını əhəmiyyətli dərəcədə dəyişən baza elmi-texniki yeniliklərin tətbiqi baş verir. Böyük tsikllər bütün iqtisadiyyatın struktur yenidən qurması ilə xarakterizə olunur. Kiçik və böyük tsikllər bir-birinə qarşı durmurlar, bir-birini tamamlayaraq, iqtisadi inkişafın vahid prosesini təşkil edərək, qarşılıqlı fəaliyyət göstərirlər.

İQTİSADİ VƏ SOSİAL SƏMƏRƏLİLİK – faydalı nəticənin (effektin) məsrəflərə nisbəti olub, ictimai əmək məsrəfləri və cəmiyyətin əldə etdiyi maddi nemətlər və xidmətlər şəklində faydalı nəticənin bir-birini qarşılıqlı şərtləndirməsini əks etdirir; iqtisadiyyatın inkişafının və fəaliyyətinin yekun keyfiyyət göstəricisidir. Cəmiyyətin qarşısında duran iqtisadi və sosial məsələlərin həllinə ən çox şərait yaradan hər bir proses səmərəli hesab edilir.

İqtisadi və sosial səmərəliliyin kəmiyyət göstəriciləri effektin kəmiyyətini təyin etməyə və iqtisadi problemlərin həllinin ən yaxşı variantlarını seçməyə imkan verir. Onlar dəyər və natural göstəricilərə bölünür. Dəyər göstəricilərindən məsrəflərin və nəticələrin müxtəlif konkret növlərini ölçmək və effektin ümumi həcmini müəyyən etmək üçün istifadə edilir. Natu-

ral göstəricilər, əsasən, dəyər göstəriciləri ilə tam ölçülə bilməyən effekt növlərini qiymətləndirmək üçün tətbiq edilir. Bu, təhsilin, səhiyyənin, mədəniyyətin sosial səmərəliliyinə aiddir.

İstehsalın səmərəliliyi iqtisadiyyatda fəaliyyət göstərən bütün müəssisələrin məcmusunun səmərəliliklərinin cəminə bərabərdir. Dövlət özünün qiymət, büdcə-vergi, gömrük siyasəti, eləcə də dövlət sifarişləri və ya müəssisələrin dəstəklənməsinin müxtəlif formaları şəklində dövlət xərcləri sistemi vasitəsilə istehsalın səmərəliliyinin ümumi səviyyəsinə təsir göstərə bilər.

Ölkə miqyasında istehsalın səmərəliliyi bu və ya digər dövr ərzində ümumi daxili məhsul (ÜDM) artımının sərf edilmiş resursların dəyər şəklində kəmiyyətinə nisbəti kimi ifadə edilə bilər. Buna görə də həm dövlət müəssisələri, həm də özəl müəssisələr üçün effektin həcmi ilə bu effektə nail olmaq üçün tələb edilən məsrəflər arasında nisbətin əsaslandırılmış şəkildə müəyyən edilməsi zəruridir.

Bu funksiyanı yerinə yetirən dövlət indikativ planlaşdırma və proqnozlaşdırma sistemi ölkənin sosial-iqtisadi inkişafının cari və strateji vəzifələrini, bu məsələlərin həlli nəticəsində əldə ediləcək iqtisadi və sosial effektləri təyin etməli, yeni texnika və texnologiyanın tətbiqi hesabına maksimum qənaət nəzərə alınmaqla, ictimai zəruri əmək məsrəflərinin həcmini müəyyənləşdirməlidir. Bu halda sosial effektin düzgün qiymətləndirilməsi müstəsna əhəmiyyət kəsb edir. Sosial effekt ondan ibarətdir ki, sosial sahəyə sərmayə qoyuluşu insanların bilik və mədəniyyət səviyyəsinin artırılmasına, onların sağlamlığının möhkəmlənməsinə, asudə vaxtın daha çox olmasına şərait yaradır. Sosial səmərəlilik istehsal müəssisələrinin fəaliyyəti üçün sosial sferaya sərmayə qoyuluşunun artırılmasının müsbət təsirində də təzahür edir.

İQTİSADİ YENİLİKLƏR – mövcud təsərrüfat ukladının mütərəqqi dəyişikliklərini təmin edən, bütövlükdə, cəmiyyətdən başlanmış ayrıca müəssisəyə qədər bütün səviyyələrdə iqtisadiyyatın inkişafına şərait yaradan yeni fəaliyyət mexanizmləri.

İQTİSADİ-RİYAZİ MODEL – tədqiq edilən iqtisadi prosesləri və ya obyektlərin formallaşdırılmış təsviri. Ən ümumi şəkildə iqtisadi-riyazi model tədqiqat obyektinin şərti obrazıdır. O, tədqiq edilən prosesin və ya obyektin elementlərinin əsas qarşılıqlı əlaqələrini əks etdirən formallaşdırılmış münasibətlər sistemidir. İqtisadi-riyazi model tədqiqat obyektinin bütün xarakteristikaları barədə deyil, yalnız ən əhəmiyyətli xarakteristikaları barədə mühakimə yürütməyə imkan verir. İqtisadi-riyazi modelləşdirmə statistik informasiyanın işlənməsinə, ayrı-ayrı mühüm dəyişən kəmiyyətlərin, onların parametrlərinin və dəyişmə meyillərinin qiymətləndirilməsinə əsaslanır. Bu proses aşağıdakı mərhələlərdən ibarətdir: prosesin və ya obyektin ilkin öyrənilməsi əsasında iqtisadi-riyazi modelin qurulması, onun mühüm xarakteristikalarının və ya əlamətlərinin ayrılması, iqtisadi-riyazi modelin nəzəri və eksperimental təhlili, modelləşdirmənin nəticələrinin proses və ya obyekt barədə faktiki məlumatlarla tutuşdurulması, modelin təshih edilməsi və dəqiqləşdirilməsi.

İqtisadi-riyazi model düsturlar (modelin analitik təsviri), ədədi misallar və cədvəllər (matris təsviri) şəklində, eləcə də xüsusi qraflar formasında qurula bilər (modelin şəbəkə təsviri). Buna müvafiq olaraq ədədi, analitik, matrisa və şəbəkə tipli iqtisadi-riyazi modellər fərqləndirilir. İqtisadi-riyazi model statik və dinamik növlərə bölünür. Statik modellərdə iqtisadiyyatın ani vəziyyəti, dinamik modellərdə isə tədqiqat obyektinin inkişafı göstərilir. Statik və dinamik modellər iqtisadiyyatın bütün halqalarında və bütün səviyyələrində, o cümlədən bütövlükdə ölkənin sosial-iqtisadi inkişafının indikativ planlaşdırılması səviyyəsində iqtisadi proseslərin təhlili, proqnozlaşdırılması və planlaşdırılması üçün tətbiq edilir.

Funksional baxımdan iqtisadi-riyazi model iki böyük qrupa bölünür. Birinci qrup, əsasən, istehsal proseslərini, ikinci qrup isə sosial prosesləri əks etdirir. Bu cür bölgü müəyyən dərəcədə şərti hesab edilməlidir, çünki hər bir modeldə istehsal və sosial aspektlər bu və ya digər dərəcədə birləşir. Bu şərtilik nəzərə alınmaqla, əsas iqtisadi inkişaf göstəricilərinin uzunmüddətli proqnozlaşdırılmasının iqtisadi-riyazi model, sahələrarası və regionlararası balanslar, eləcə də istehsalın strukturunun optimallaşdırılması modelləri birinci qrupa aid edilə bilər. İkinci qrup əhalinin gəlirlərinin və istehlakın, demoqrafik və miqrasiya proseslərinin proqnozlaşdırılmasının iqtisadi-riyazi modeli ilə təmsil oluna bilər.

Cədvəl 1

İqtisad elminə müxtəlif yanaşmalar

Ekonomiya	yun. *oykos* – ev, təsərrüfat və *nomos* – məharət, qanun, bilik sözlərindəndir və hərfi mənası təsərrüfat işlərinin aparılması məharəti (biliyi, qanunu).
Ekonomika	iqtisadiyyat – bütün iqtisadi sistemdə və ya onun ayrı-ayrı sahələri, elementləri şəraitlərində (xidmət, təhsil, əhali, əmək və s. sahələrin iqtisadiyyatı) insanın təsərrüfat fəaliyyətini öyrənən elm.
Siyasi iqtisad	yun. *politeyya* – dövlət quruluşu, *oykos* və *nomos*-dan ibarət olub, dövlət miqyasında təsərrüfatın aparılması bacarığını bildirir. Bu isə o deməkdir ki, dövlət mövcud olduqca, dövlət miqyasında təsərrüfatın aparılması barədə elm də mövcud olacaq. Çox vaxt bu məfhumu klassik siyasi iqtisadla bağlayırlar ki, bu o qədər də düzgün deyil. Lakin bu məfhumun siyasət və iqtisadiyyatın vəhdəti kimi dərki də düzgün deyil.
Ekonomiks	İnsanın bazar iqtisadiyyatında davranışı, təsərrüfat fəaliyyətində məhdud resurslardan istifadəsi haqqında elm. Marjinalist metodologiyaya söykənir.
İqtisadi nəzəriyyə	Müxtəlif iqtisadi sistemlərdə XXI əsrin əvvəli üçün iqtisadi fikrin ən mühüm nailiyyətlərinin cəmini istifadə edərək təsərrüfatın aparılması məharəti haqqında elm.

İQTİSADİYYAT (yun. *oykonomiya, oykos* – ev, ev təsərrüfatı, *nomos* – qanun) – 1. Maddi istehsal və qeyri-istehsal sferası sahələrini ehtiva edən xalq təsərrüfatı. 2. İnsanların məhdud resurslarla müxtəlif tələbatlarını ödəmək məqsədilə həyata keçirdikləri proseslərin, vasitələrin məcmusu, yaxud məhdud resursların faktiki və arzu olunan şəkildə yayılması. 3. Ölkənin və onun ayrı-ayrı regionlarının sektorlarının (məsələn, sənaye, kənd təsərrüfatı, xidmət sferası) təsərrüfat sahələrinin, eləcə də istehsalın şərt və ünsürlərinin öyrənilməsi ilə məşğul olan elmi fənn, yaxud qısaca, təsərrüfat haqqında elm.

"İqtisadiyyat" termini ilk dəfə "Oykonomiya" adı altında qədim yunan alimi Ksenofont (b.e.ə. 430-355-ci illər) tərəfindən işlənmiş, sonralar Aristotel tərəfindən geniş yayılmışdır. "İqtisadiyyat" sözü ərəbcə "qəsədə" ("yönəlmək", "qənaət etmək", "çatmağa çalışmaq") sözündən əmələ gəlmişdir. Müxtəlif mənalarda işlənən "qəsədə", həm də "qasid", "məqsəd", "qəsd" sözləri yaranmışdır. "İqtisad" sözü ərəb dilində, eyni zamanda, "qənaətcillik", "təsərrüfat" deməkdir. "İqtisadiyyat" sözü "iqtisad" sözünün cəm halıdır. "Təsərrüfat" sözü ərəb sözüdür, "sərf", "məsrəf", "təsrif" sözləri ilə eynidir.

"İqtisadiyyat" sözü forma baxımından da fərqlənir. Nəzəri və tətbiqi iqtisadiyyat bütün iqtisad elmlərinin yox, təsərrüfat həyatının ən mühüm proseslərinin dərk olunması və tənzimlənməsi üçün xüsusilə aktual olan istiqamətlərin özünəməxsus sintezidir.

Cəmiyyətin təsərrüfat həyatını tədqiq edən elmi səciyyələndirmək üçün müxtəlif məfhumlardan istifadə olunub.

İqtisadi nəzəriyyə müxtəlif iqtisadi sistemlərdə XXI əsrin əvvəli üçün iqtisadi fikrin ən mühüm nailiyyətlərinin cəmini ifadə edərək təsərrüfatın aparılması məharəti haqqında elm.

"İqtisadiyyat" anlayışında səviyyə bölgüsü mövcuddur. Bu bölgüyə aiddir: makroiqtisadiyyat, mikroiqtisadiyyat, mezoiqtisadiyyat və meqaiqtisadiyyat. Makroiqtisadiyyat ölkənin iqtisadiyyatının bütövlükdə götürülməsi deməkdir.

Mikroiqtisadiyyat iqtisad elmi-

nin bölməsi kimi qəbul edilə bilər, kiçikmiqyaslı iqtisadi proseslərin, subyektlərin, hadisələrinin (yəni müəssisə, firma, şirkət, xidmət bölmələri, sahibkarlıq qurumları, fermer təsərrüfatı və s.) öyrənilməsi ilə məşğuldur. Mezoiqtisadiyyat makroiqtisadiyyatda bir-biri ilə üzvi surətdə bağlı olan sahələr kompleksini, birliyini (sintezini) bildirən anlayışdır. Məsələn, aqrar-sənaye kompleksi, hərbi-sənaye kompleksi, infrastruktur və s. Meqaiqtisadiyyat isə əsası beynəlxalq əmək bölgüsü olan dünya iqtisadiyyatını bildirən anlayışdır.

İqtisadiyyat istehsal münasibətlərinin məcmusu, cəmiyyətin iqtisadi bazisi olaraq iqtisadiyyatın elmi tərifini vermiş, cəmiyyətin inkişafında yerini müəyyən etmişdir: "...1) istehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi quruluşunu, real bazisini təşkil edir, hüquqi və siyasi üstqurum bu bazis üzərində yüksəlir və müəyyən ictimai şüur formaları bu bazisə uyğun olur". İqtisadiyyat bütün digər ictimai münasibətlərin əsasını təşkil edir və cəmiyyətin inkişafında həlledici rol oynayır. 2) Müəyyən ölkənin xalq təsərrüfatı, yaxud onun bir hissəsi iqtisadiyyatın ölkənin xalq təsərrüfatı kimi təkcə mövcud xarakterik xüsusiyyətlərini deyil, habelə ayrıca götürülmüş ölkənin fərqləndirici xüsusiyyətlərini də əks etdirir. İqtisadiyyat hasiledici, emaledici və xidmət sferasının çərçivəsində cəmiyyətin iqtisadi quruluşunun obyektiv qanunauyğunluqlarını öyrənir, xalq təsərrüfatının müxtəlif sahələrindəki prosesləri, hadisələri nəzəri təhlil edir, həyat nemətlərinin istehsalı və bölgüsü sahəsində təcrübi tövsiyələr işləyib hazırlayır. İqtisadiyyat ictimai elm qrupunun tərkib hissəsidir. İqtisadi biliklər sisteminin yaradılması bilavasitə siyasi iqtisad elmi kimi meydana gəlməsi ilə bağlıdır. İqtisadiyyat elmi inkişafının əsasını klassik burjua siyasi iqtisadi nümayəndələri qoymuşlar. İqtisadiyyat elmi sisteminin təsnifatı fundamental və tətbiqi tədqiqatın vəzifəsi obyektiv iqtisadi qanunların dərk edilməsi və onlardan səmərəli istifadə olunması yollarının əsaslandırılmasıdır. Belə elmlərə iqtisadi nəzəriyyə, xalq təsərrüfatı və iqtisadi fikir tarixi, iqtisadiyyatın idarə edilməsi nəzəriyyəsi, statistika, mühasibat uçotu, audit və s. aiddir. Tətbiqi elmlər fundamental tədqiqatların nəticələrindən xüsusi və konkret əməli problemlərin həllində istifadə edir. Bu elmlər funksional (maliyyə-kredit, pul tədavülü, qiymətin əmələ gəlməsi, demoqrafiya, əmək iqtisadiyyatı və s.), məhəlli, ölkə (ayrı-ayrı ölkələrin iqtisadiyyatı) regional sahə (sənaye kənd təsərrüfatı, nəqliyyat, rabitə və s. iqtisadiyyatı) əlamətlərinə görə təsnifləşdirilir. İqtisadiyyat elmi sistemində iqtisadi nəzəriyyə əsas rol oynayır. İqtisadiyyat elminin inkişafının müasir mərhələsinin fərqləndirici xüsusiyyəti iqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqinin güclənməsidir. İqtisadi proseslərin modelləşdirilməsi xüsusən sürətlə inkişaf etdirilir.

İQTİSADİYYAT ÜZRƏ NOBEL MÜKAFATI – tam adı: İsveç Bankının Alfred Nobelin xatirəsinə iqtisad elmləri üzrə mükafatı (The Sveriges Riksbank of Sweden – Prize in Economic Sciences in Memory of Alfred Nobel). 1968-ci ildə İsveç Bankının təşəbbüsü ilə, onun yaradılmasının 300-cü ildönümü şərəfinə təsis edilmişdir. Bu mükafata iqtisad elmində ən böyük nailiyyətlər əldə edənlər layiq görülür. Yeni Nobel laureatlarının adları, bir qayda olaraq, Alfred Nobelin ad günündə – oktyabrın 21-də elan edilir. Mükafatlandırılma isə onun vəfat etdiyi gün – dekabrın 10-da baş verir. Mükafatlar Stokholm Filarmoniyasının konsert salonunda İsveç kralı tərəfindən təqdim edilir.

İQTİSADİYYATDA İŞTİRAK – mülkiyyət münasibətlərinin transformasiyasının və istehsalatda əməyin təşkilində və idarəetmədə dəyişikliklər prosesinin xarakteristikalarının məcmusu. İnkişaf etmiş ölkələrin iqtisadi, siyasi və sosial həyatını şərtləndirən sosial iqtisadiyyatın mühüm elementidir.

İqtisadiyyatda iştirak Yaponiya, AFR, Fransa, İspaniya və ABŞ-da daha çox inkişaf etmişdir.

İqtisadiyyatda iştirakın üç əsas forması vardır: mənfəətdə iştirak, mülkiyyətdə (kapitalda, əmlakda) iştirak; müəssisənin (şirkətin, firmanın) idarə edilməsində iştirak. Bu formaların hər biri müstəqil şəkildə fəaliyyət göstərə bilər, lakin çox vaxt onlar bir-birini tamamlayır. Mənfəətdə iştirak sistemindən istifadə edildikdə əmək gəlirləri iki hissəyə bölünür: sabit hissə (əmək haqqı) və dəyişən hissə (mənfəətin mükafatlar və daimi ayırmalar şəklində olan hissəsi).

İkinci hissə müdiriyyətlə işçilər arasında xüsusi saziş bağlanması yolu ilə müəyyən edilir. Bu cür sazişlərin qüvvədə olması ilə əlaqədar müəssisənin vergi güzəştləri əldə etməsi məqsədilə həmin sazişlər vergi idarəsində qeydiyyata alınır. Mənfəətdə iştirakın müasir sistemləri istehsal göstəricilərindən və ödəniş üsullarından asılı olaraq diferensiasiya edilir.

Mülkiyyətdə iştirak aşağıdakı məqsədləri güdür: istehsalatda sosial tərəfdaşlar arasında konsensusa nail olunması və mülkiyyətin cəmiyyətdə mümkün qədər geniş yayılması üçün onun muzdlu işçilərə verilməsinin maliyyələşdirilməsi. Dövlət bu proqramları reallaşdırmaq üçün həm sahibkarlar, həm də işçilər üçün geniş vergi güzəştləri tətbiq edir (sahibkarlar üçün – sahibkarların ödənişlərinin vergidən azad edilməsi; işçilər üçün – vergi dərəcələrinin azaldılması, səhmlərin işçilər arasında pulsuz və ya güşətli qiymətlərlə yayılması, dövlətdən əlavə əmanət bonusları alınması).

Bu halda sahibkarlardan tələb edilir ki, vergi tutulmayan mənfəətdən işçilərin səhmdar fondlarına (İSF) sahibkarların üzvlük haqlarını ayırsınlar. İdarəetmədə iştirak, yəni qərarlar qəbul edilməsi prosesində iştirak müəssisənin sahibkarlıq fəaliyyətində işçilərin iştirakının ali formasıdır. Bu, sosial tərəfdaşlıq ideyasının praktikada həyata keçirilməsi və istehsal demokratiyası institutunun yaradılmasının başa çatması deməkdir. İşçilərin təmsilçiliyinin ən təsirli mexanizmi Avropa ölkələrində və Yaponiyada yaradılmışdır.

İstehsalda sosial tərəfdaşlıq sisteminin yaradılması muzdlu işçilərə əməyin (o cümlədən iş yerində) təşkil edilməsi, onun reqlamentləşdirilməsi və ödənilməsi, sosial proqramların işlənib hazırlanması mexanizminin formalaşması məsələlərinə dair qərarlar qəbul edilməsi prosesində iştirak hüquqları verilməsi yolu ilə gerçəkləşmişdir.

İştirak iqtisadiyyatında tərəqqi və tənəzzül dövrləri, onun modellərinin və prinsiplərinin transformasiyası, iqtisadiyyatda bu amillərin xüsusi çəkisinin dəyişmələri iqtisadi proseslərin tənzimlənməsinin dövlət və bazar mexanizmlərinin üstünlük dərəcəsindən asılıdır. Məsələn, əlverişli xarici mühit İspaniyada "ictimai" iqtisadiyyatın inkişafına şərait yaratmışdır. Onun mahiyyəti bundan ibarətdir ki, o, dövlət və özəl sektorlarla yanaşı fəaliyyət göstərir, kapitalist sahibkarlığının və kollektiv mülkiyyətin elementlərini özündə birləşdirir. "İctimai" iqtisadiyyat müəssisələri kommersiya və sosial xarakterli məqsədlər güdür. Kollektiv müəssisələrin, "birgə əmək" kooperativlərinin və "zəhmətkeş şirkətləri"nin fəaliyyəti dövlət qanunvericiliyi ilə tənzimlənir, yerli hakimiyyət orqanları tərəfindən bu fəaliyyətə nəzarət edilir. O, ciddi vergi güzəştlərindən, dövlətin və ictimai təsisatların maliyyə dəstəyindən istifadə edir.

İQTİSADİYYATIN AQRAR SEKTORUNUN DÖVLƏT MÜDAFİƏSİ – dünyanın əksər ölkələrində kənd təsərrüfatında dövlət stabilləşdirmə siyasətinin zəruriliyi kənd təsərrüfatı və sənaye malları bazarının inkişaf meyillərindən irəli gəlir: fermerlərin mallarına olan qiymətlər onların istehlak etdiyi mallara olan qiymətlərdən yavaş artır, bu da müvafiq sahələrdə gəlirlərin bərabərsizliyinə və digər neqativ nəticələrə səbəb olur. Onların baş verməməsi üçün kənd təsərrüfatının inkişafına dövlətin dəstəyi vacib hesab edilir.

Bir çox ölkələrdə bu subsidiyalaşdırma çox yüksək səviyyədədir. Rəsmi məlumatlara görə Avropa Birliyində aqrar siyasət çərçivəsində hər bir istehsalçıya 6797 avro həcmində vəsait verilir.

İQTİSADİYYATIN DELİBERALLAŞMASI – iqtisadiyyat üzərində dövlət nəzarətinin güc-

Cədvəl 1

Avropa Birliyində süd məhsulları istehsalçılarına hər tonuna verilən subsidiyalar, € (avro)

Təqvim ili	Baza dərəcəsi	Maksimal dərəcə
2005	5,75	13,90
2006	11,49	27,80
2007	17,24	41,70

Mənbə: DEFRA, 2003

lənməsi prosesi: qiymət və tariflərin inzibati surətdə müəyyənləşdirilməsi, əmək haqqının dondurulması, əmtəə, əmək və kapital bazarlarının məhdudlaşdırılması. Liberallaşmaya əks olan anlayış. İqtisadiyyatın "qapalılığı" artır, proteksionizmin yüksəlməsi, idxalın və ixracın tarif və qeyri-tarif məhdudlaşması spektrinin genişlənməsi nəticəsində dünya təsərrüfat əlaqələrində dövlətin iştirakının azalması baş verir.

İqtisadi transformasiya dünyada baş verən təsərrüfat proseslərinin beynəlmiləlləşməsi və qloballaşması şəraitində bir çox ölkələrdə iqtisadiyyatın liberallaşması meyli üstünlük təşkil edir ki, bunsuz iqtisadi artım və əhalinin rifah halının yüksəlməsi mümkün deyil. Vahid bir siyasət kimi, iqtisadiyyatın deliberallaşması, xüsusilə təsərrüfat avtarkiyasına istiqamət götürən və ya müharibəyə hazırlaşan totalitar rejimlər tərəfindən aparılırdı.

İqtisadiyyatın deliberallaşması elementləri ayrı-ayrı ölkələrdə sosial-iqtisadi situasiyadan, ümummilli maraqlardan və həmin anda onlar haqqında mövcud olan fikirlərdən, müxtəlif təbəqələrin və onların maraqlarını təcəssüm etdirən partiyaların, necə deyərlər, təzyiq qruplarının nisbətindən asılı olaraq, zəifləyir və ya güclənir. İqtisadiyyatın deliberallaşması bir neçə istiqamətdə aparıla bilər. Məsələn, Braziliya və Argentinada 1980-ci illərin ortalarında inflyasiya ilə mübarizə qiymət və əmək haqqının dondurulması yolu ilə həyata keçirilirdi; Meksikada valyuta məhdudiyyətləri genişləndirildi. Fransada 1976-1977-ci illərdə ilk "Barra planı"na uyğun olaraq, inflyasiyanın ləngidilməsi məqsədilə qiymətlərə ciddi surətdə nəzarət edilirdi, dövlət müəssisələrinin qiymət və tariflərinin saxlanması siyasəti aparılırdı; gəlir siyasətinin əsas istiqaməti əmək haqqına təzyiq idi. Onu bir ilə dondurmaq sahibkarlara məsləhət görülürdü. Artıq 1978-ci ildə mərhələli liberallaşma prosesi başlandı: əvvəlcə sənayedə, sonra isə ticarətdə və xidmət sahəsində xüsusi müəssisələrin məhsullarına qiymətlər üzərində nəzarət azaldıldı, dövlət müəssisələrində qiymətlərə və əmək haqqına yenidən baxıldı. Ölkədə iqtisadi tənəzzül ixrac potensialının zəifləməsi dövründə, bir qayda olaraq, dövlətin xarici ticarət siyasətində proteksionist tədbirlər güclənir.

İQTİSADİYYATIN DÖVLƏT SEKTORU – bu iqtisadi fəaliyyəti həyata keçirən və dövlət mülkiyyətində olan müəssisə, təşkilatların məcmusu.

XX əsrdən başlayaraq, dövlət iqtisadi subyekt kimi ona xas olan dövlət mülkiyyəti və dövlət sahibkarlığının inkişafı funksiyalarını yerinə yetirməyə başladı.

İqtisadiyyatda dövlət sektorunun artım səbəbləri: müharibələr və milli müdafiə, əhalinin artması, urbanizasiya, ətraf mühitin problemləri.

Dövlət mülkiyyətinin ənənəvi obyekti: bundan başqa alqı-satqı obyekti olmayan və mənfəət gətirməyən milli əmlakdır (parklar, meşələr, su).

İnfrastrukturun həyati vacib sahələri: nəqliyyat, rabitə, energetika, hərbi sənayenin bir hissəsi əksər hallarda dövlətin sərəncamında olur. Bunlar əsasən yüksək səviyyədə cəmlənmiş sahələrdir ki, bazar iqtisadiyyatının fəaliyyəti üçün zəruri olan şərtləri, istinad nöqtələrini əks etdirir.

Dövlət mülkiyyətində qarışıq korporasiyalar mühüm xüsusi çəkiyə malikdir ki, burada da kapitalda dövlətin iştirakı əksər hissəni təşkil etməyə bilər (50%-dən aşağı ola bilər), amma o, şirkətin fəaliyyətinə ictimai nəzarəti həyata keçirir.

İQTİSADİYYATIN KRİMİNALLAŞMASI (lat. *criminalis* – cinayətə aid olan) – iqtisadiyyatın formalaşması prosesidir ki, burada cinayətkar ünsürlər və təsərrüfatçılıq formaları mühüm yer tutur; narkobizneslə, insan alveri, qadağan olunmuş malların ixracı, qiymətli daş-qaş və metalların gizli hasilatı və ticarəti ilə məşğul olan birjalarda, banklarda və s. yerlərdə fırıldaq və möhtəkirliyi həyata keçirən, yəni cinayət məsuliyyəti maddələrinə düşən hərəkətləri həyata keçirən mafioz strukturlardır.

Qadağan edilməyən biznesla (sahibkarlıq fəaliyyəti ilə) məşğul olmayan, lakin öz gəlirlərini gizlədərək ondan (tam və ya qismən) dövlətə vergi ödəməyən, özlərinin bank hesablarında nəzərə alınmayan barter sövdələşmələrini həyata keçirən, pensiya fonduna ayırmalar ödəməyən və s. bu kimi fəaliyyətlər iqtisadiyyatın kriminallaşması göstəricisidir. Qanunsuz biznesin (sahibkarlıq fəaliyyətinin) bu cür formaları "gizli iqtisadiyyat" adlanır.

İQTİSADİYYATIN MONETLƏŞDİRİLMƏSİ ƏMSALI – M_2 pul aqreqatı ilə yanaşı, nominal dönərli valyutada milli bankların valyuta depozitlərini ehtiva edən "geniş pulların" ümumi daxili məhsula (ÜDM-ə) nisbəti. Dövlətin daxili maliyyə bazarından pul köçürməsi, eləcə də sosial yardım proqramlarının yerinə yetirilməsi iqtisadiyyatın monetləşdirilməsi əmsalından asılıdır. İnflyasiya dövründə nominal pul kütləsinin sürətli artımı milli valyutadan, qiymətlərin yüksəlməsini, pul aqreqatlarının üstün artımını, eləcə də real pul kütləsinin müvafiq azalmasını və iqtisadiyyatın monetləşməsi əmsalını doğurur. Yüksək inflyasiya dövrü nə qədər davamlıdırsa və inflyasiyanın özü nə qədər yüksəkdirsə (xüsusilə o, hiperinflyasiyaya keçən zaman), iqtisadiyyatın monetləşmə əmsalı bir o qədər aşağıdır.

Əksinə, nominal pul kütləsinin artım sürətinin azalması milli pula inamın artmasına və müvafiq olaraq, iqtisadiyyatın remonetləşməsinə (iqtisadiyyatın monetləşməsi əmsalının artımına) gətirib çıxarır. 1994-cü ildə postsovet dövlətləri arasında iqtisadiyyatın monetləşməsi əmsalı inflyasiyanın orta illik sürətinin ən yüksək olduğu ölkələrdə (Gürcüstan, Ermənistan, Azərbaycan, Türkmənistan, Ukrayna) minimum səviyyədə müşahidə edilmişdir. Maliyyə sabitliyinin qəti siyasətini həyata keçirən ölkələrdə, məsələn, Estoniyada iqtisadiyyatın monetləşməsi əmsalı ən yüksək səviyyədə olmuşdur.

İqtisadiyyatın monetləşməsi əmsalı nə qədər aşağıdırsa, dövlətin sosial proqramlarını reallaşdırmaq imkanları bir o qədər aşağıdır. Bu onunla izah olunur ki, ən yüksək və davamlı inflyasiyaya məruz qalan ölkələrdə xüsusilə ağır postsabit büdcə böhranı yaranır, onlar sosial xərclərini aşağı salmaq zərurəti qarşısında qalırlar. Bəzi dövlətlərdə isə bütün sosial təminatlar sistemi (pensiya, pulsuz səhiyyə və s.) dağılır.

İQTİSADİYYATIN SEKTORU – oxşar iqtisadi məqsədlərə, funksiyalara və davranışa malik olan institusional rezidentlərin məcmusu. Belə ki, qeyri-maliyyə korporasiyasının sektoru bazar istehsalı ilə məşğul olan korporasiyanı birləşdirir: dövlət idarələri sektoru qeyri-bazar istehsalı ilə məşğul olan hüquqi şəxslərin məcmusudur, ev təsərrüfatları sektoru əsasən istehlak olunan vahidləri etiva edir. Ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya sektoru bu ev təsərrüfatlarına qeyri-bazar xidmətlərinin göstərilməsi funksiyasını yerinə yetirir.

İqtisadiyyat sektorlarının aşağıdakı növləri fərqləndirilir: iqtisadiyyatın dövlət sektoru dövlət mülkiyyətində olan və dövlət orqanları tərəfindən və ya onların təyin etdiyi, muzdla tutduğu şəxslər tərəfindən idarə olunan müəssisələrin, təşkilatların və idarələrin məcmusudur; iqtisadiyyatın özəl sektoru dövlətin nəzarəti altında olmayan iqtisadiyyatın bir hissəsidir.

İQTİSADİYYATIN SOSİALLAŞMASI – istehsal yönümünün yenidən dəyişməsində, insanların həyatının və əməyinin humanistləşdirilməsində, sosial diferensiallaşmanın yumşalmasında və digər hadisə və proseslərdə təzahür edən dünya prosesini təşkil edən mühüm ünsürlərdən biri. Sosial-iqtisadi inkişafın vektoru dövlət mənafeyindən şəxsi mənafelərə yerdəyişmə edir. Tələbatlar sistemində, tələb və tələbatın strukturunda, həyat tərzində keyfiyyət dəyişiklikləri baş verir.

Əməyin humanistləşdirilməsi istehsalın inkişafının və insan resurslarından istifadənin yeni modellərinə keçiddə ifadə olunur. İqtisadi halqalar, regionlar, bütün cəmiyyət səviyyəsində insan potensialının və sosial infrastrukturun inkişafına çəkilən məsrəflər artır. Əməyin və məşğulluğun təşkilinin çevik və səfərbər olunmuş formaları inkişaf edir, muxtariyyət (sərbəstlik) genişlənir və istehsal mikrokollektivlərinin rolu sürətlənir. Sosial investisiyalar, hər şeydən əvvəl, insana yönəldilən qoyuluşlar kapitalın maddi-əşya ünsürlərinə istiqamətlənən kapital qoyuluşlarında daha sürətlə artır. İnsana yönəldilən qoyuluşların ən vacib indikatorlarından biri məktəb təhsilinin davamiyyətidir.

Mülkiyyətin müxtəlif sosiallaşmış formalarının inkişafı, onun şəxsizləşdirilməsində səhmdar kapitalının ümumi kütləsində institusional investisiyaların payının artmasında ifadə olunur. Pensiya və sığorta fondları, qarşılıqlı investisiyalaşma formaları vasitəsilə əhalinin əksər hissəsi milli sərvətin artan payının mülkiyyətçilərinə çevrilir. Bununla yanaşı, kollektiv mülkiyyətli özünüidarəedən müəssisə-

lər yaranır, istehsal sferasında kooperativ mülkiyyət forması inkişaf edir. Nəticədə bir sıra qarışıq iqtisadiyyatlı ölkələrdə kollektiv mülkiyyət formasına əsaslanan xüsusi "ictimai iqtisadiyyat" sektoru təzahür edir.

Mülkiyyət münasibətlərinin transformasiyasına həmçinin elmi-tədqiqat və təcrübə-konstruktor işləri (ETTKİ), birgə texnologiyalar və yeni məhsul növləri sahəsində müəssisələr arasında çoxtərəfli kooperativ əlaqələrin sahmana salınması da təsir göstərir. Firmalararası ittifaqların çoxcəhətli formaları əməkdaşlığın sahə və regional şəbəkələrinin inkişafı üçün əsas yaradır.

İqtisadiyyatın sosiallaşmasının mühüm əlaməti əhalinin gəlirlərinin, milli rifah halının artmasıdır. Sosial diferensiallaşmanın yumşalmasında əhalinin ən zəif qrup və təbəqələrinin xeyrinə gəlirlərin bərabərləşməsində dövlətin rolu böyükdür. "Transfert" dövlətinin xüsusi tipi formalaşmışdır ki, bunun sosial xərcləri həm mütləq, həm də nisbi ifadədə artır. İqtisadiyyatın sosiallaşması tələb edir ki, sosial ehtiyaclara ümumi daxili məhsulun üçdəbir hissəsi sərf olunsun. Müasir qarışıq cəmiyyətdə sosial-sinfi fərqlər tədricən aradan götürülür, şaquli sosial səfərbərlik (çeviklik) sürətlənir, sosial tərəfdaşlığın müxtəlif formaları yaranır. Bütün bunlar, öz növbəsində, iqtisadiyyatın sosiallaşması meylini sürətləndirərək müasir cəmiyyətin sosial razılığa (anlaşmaya) gəlməsi üçün şərait yaradır.

İQTİSADİYYATIN TƏNZİMLƏNMƏ DAİRƏSİNDƏN ÇIXMASI – iqtisadiyyata başa dövlət müdaxiləsinin miqyasının azalması, dövlət tənzimləməsinin daha "sərt" forma və metodlarından daha "yumşaq" forma və metodlarına, birbaşa forma və metodlardan dolayı forma və metodlara yönümünün dəyişməsi. Əvvəllər keynsçilik əsasında formalaşan tənzimləmənin əsas təsisat və formalar sistemi postindustrial inkişaf mərhələsinə başlanan keçidlə, elmi-texniki inqilabın (ETİ) yeni dönəmində onun imperativləri ilə, iqtisadiyyatın artan beynəlmiləlləşməsi ilə ziddiyyətə girdi.

İqtisadiyyatın tənzimlənmə dairəsindən çıxmasına dair qeyri-mühafizəkar siyasətin reallaşması tənzimləmə sisteminin tam dağılmasına və dövlətin iqtisadiyyatdan aralanmasına yox, dövlətin iqtisadi funksiyalarının mürəkkəbləşməsinə, daha yeni, çevik tənzimləmə formalarından istifadə edilməsinə, onların diversifikasiyasına səbəb olmuşdur.

İqtisadiyyatın tənzimlənmə dairəsindən çıxması siyasəti tələb edir ki, dövlətin başlıca funksiyası müasir bazar təsərrüfatı üçün ətraf mühitin formalaşması, onun subyektləri üçün oyun qaydalarının işlənib hazırlanmasıdır. Bazarın təşkilinə müvafiq infrastrukturun yaradılmasına, inhisarçı meyillərin məhdudlaşmasına, kiçik və orta biznesin müəssisələrin innovasiya fəaliyyətinin inkişafına, dövlətə və biznesə münasibətdə "şəffaflığın" olmasına təsir göstərən inzibati, iqtisadi və hüquqi tədbirlər bu vəzifənin yerinə yetirilməsinə xidmət edir.

Dolayı iqtisadi tənzimləmənin çoxcəhətli formaları, o cümlədən pul-kredit, vergi, amortizasiya, gömrük-tarif alətləri və iqtisadi siyasətin digər formaları üstün əhəmiyyət kəsb edir. İqtisadiyyatın tənzimlənmə dairəsindən çıxarılması siyasətində yeni iqtisadi şəraitə adaptasiya olunan Keyns irsinin elementlərinin saxlanması sübut edir ki, inkişaf etmiş ölkələrdə ÜMM-in artım sürətinin azalmasına baxmayaraq, büdcə vasitəsilə yenidən bölünən ümumi milli məhsulun (ÜMM) payının artımı ümumi meyli fəaliyyət göstərməkdə davam edir.

Ümummilli mənafelərə toxunan ən mühüm sferalar sırasında dövlət maliyyələşməsi əhəmiyyətli rol oynayır. Onların içərisində sosial sfera, elm tutumlu və yüksək texnologiyalı istehsalın inkişafına yardım göstərilməsi, məskunlaşma mühitinin qorunması birinci dərəcəli yer tutur.

İQTİSADİYYATIN ÜMUMİ VƏZİYYƏTİNİN İNDİKATORU – başlıca makroiqtisadi indikatorlar indeksi. İndikator ay ərzində dəyişən müxtəlif iqtisadi indekslərin məcmusundan ibarətdir. Bura yeni sifarişlər, işsizlik, pul təminatı, orta iş həftəsi, tikintiyə icazə və qiymətli kağızların dəyəri daxildir. Bu indeksin əsasında iqtisadiyyatın uzunmüddətli proqnozlaşdırılması baş verir.

İL ƏRZİNDƏ İNVESTİSİYALARIN XƏRCİNİN ÇIXARILMASININ YUXARI NORMASI – nağd pul axınlarının müəyyən qiymətində pulun kənara axınının cari qiymətinə bərabər olan diskontlama əmsalı. Başqa sözlə, bu, iqtisadi layihə üzrə pul daxilolmalarının cari qiymətinin investisiyaların cari qiymətinə, xalis cari dəyərin isə sıfıra bərabər olduğu əmsaldır.

İl ərzində investisiyaların xərcinin çıxarılması normasını hesablamaqdan ötrü xalis cari dəyər üçün istifadə edilən üsullar tətbiq olunur. Lakin əmsalın minimum qiyməti əvvəlcədən müəyyən edilmiş olduqda nağd pul axınlarının diskontlanması əvəzinə həmin əmsalın elə qiyməti təyin edilir ki, bu halda xalis cari dəyər (XCD) sıfıra bərabər olsun. Bu əmsal layihənin rentabellik dərəcəsini xarakterizə edir. XCD-nin sıfıra yaxın olan müsbət və mənfi qiymətlərində aşağıdakı xəttin interpolyasiya düsturundan istifadə etmək tövsiyə olunur:

$$Nok = E1 + PZ\,(E2-E1) / (PZ+OZ)$$

Burada *PZ* – diskontlama əmsalı aşağı olduqda XCD-nin müsbət qiyməti, *OZ* – diskontlama əmsalı yüksək olduqda XCD-nin mənfi qiymətidir. *PZ* və *OZ* müsbət qiymətlər alır. *E1* və *E2* bir-birindən ən çoxu 1-2 faiz fərqlənməlidir. Qrafik metoddan istifadə etdikdə XCD-nin müsbət və mənfi qiymətləri ordinat oxunda, diskontlama əmsalı isə absis oxunda ayrılır. XCD-nin mənfi və müsbət qiymətlərini birləşdirən xətt absis oxunu (XCD=*0* olduqda) diskontlama əmsalı xərcin çıxarılması normasına bərabər olan səviyyədə kəsir.

İLKİN DİVİDEND – pul vəsaitlərinin səhmdar cəmiyyətinin illik yekun balansı tərtib və qəbul edilənə qədər ödənilmiş hissəsi.

İLKİN GƏLİR – ictimai məhsulun istehsalının bilavasitə iştirakçıları olan işçilərin, sahibkarların və başqalarının əldə etdiyi gəlir.

İlkin gəlir maddi istehsal sahəsində milli gəlirin ilkin bölüşdürülməsi mərhələsində əldə edilir.

İLKİN GƏLİRLƏRİN QALIĞI (SALDOSU) – hüquqi və fiziki şəxslərin (institusional vahidlərin və ya rezidentlərin) istehsal prosesində əldə etdikləri gəlirin məbləğini səciyyələndirir. Onların əldə etdikləri və ödədikləri ümumi ilkin gəlirlər arasındakı fərqlə səciyyələndirilir. Makroiqtisadi səviyyədə hesablanan ilkin gəlirlərin saldosundan əsas kapitalın istehlakını çıxdıqdan sonra yaranan fərq ümumi milli gəlir hesab edilir. Xalis gəlirdən əsas kapitalın istehlakı çıxıldıqda yaranan fərq xalis milli gəlir hesab edilir. MHS-də istifadə edilən göstəricidir.

İLKİN İPOTEKA – təminat kimi təqdim edilən aktivlərə üstün hüquq verən uzunmüddətli qiymətli kağız formasında ipoteka (ilkin ipoteka istiqrazı).

İLKİN MƏŞĞULLUQ – müəyyən kapitalın investisiya olunmasından sonra bilavasitə yaranan məşğulluq.

İLKİN MÜQAVİLƏ – qabaqcadan bağlanan saziş. Bu sazişdə tərəflər müqavilə əsasında qarşılıqlı əməkdaşlıq etmək niyyətlərini qeyd edir və konkret müqavilə bağlamaq arzusunda olduqlarını bildirirlər.

Əsas müqavilə üçün səciyyəvi qaydaların gözlənilməsi tələb edilmədən, yazılı formada tərtib olunur.

İlkin müqavilədə əsas müqavilə üçün əhəmiyyət kəsb edən zəruri şərtlər hökmən göstərilməlidir.

Əsas müqavilə ilkin müqavilədə göstərilmiş müddətdə bağlanır. Əgər ilkin müqavilədə bu cür müddət göstərilməmişdirsə, əsas müqavilə ilkin müqavilənin bağlandığı andan etibarən bir il müddətində bağlana bilər.

Əgər tərəflərin əsas müqavilə bağlamalı olduğu müddət başa çatana qədər həmin müqavilə bağlanmazsa və ya müqavilə iştirakçılarından biri digərinə həmin müqaviləni bağlamaq təklifini göndərməzsə, ilkin müqaviləyə əsasən, hər iki tərəfin qəbul etdiyi öhdəliklərə xitam verilir.

İLKİN SƏNƏDLƏR – təsərrüfat əməliyyatlarını və onların aparılması üçün rəhbərliyin (sahibkarın) göstərişini təsdiq edən yazılı şəhadətnamə. Onun əsasında uçot registrlərində qeydiyyatlar aparılır.

İlkin sənədlər birdəfəlik və qrup sənədlər kimi fərqləndirilir. Birdəfəlik ilkin sənədlər ayrı-ayrı təsərrüfat əqdlərinin rəsmiləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Qrup halında ilkin sənədlərin köməyi ilə müəyyən dövr üçün bir sıra təsərrüfat əqdləri rəsmiləşdirilir. Bir qayda olaraq, ilkin sənədlərdə dəqiq məlumatlar olmalıdır, onların tərtib edilməsi və rəsmiləşdirilməsi bilavasitə əməliyyatların aparıldığı anda həyata keçirilməlidir. İlkin sənədlərin tam hüquqi qüvvəyə malik olması üçün onlarda aşağıdakı rekvizitlərin olması zəruridir: sənədin (formanın) adı və kodu; tərtib edilmə tarixi; təsərrüfat əmə-

liyyatının məzmunu və mahiyyəti; kəmiyyət və dəyər ilə ifadə edilən ölçülər; təsərrüfat əqdinin rəsmiləşdirilməsinin düzgünlüyünə və həyata keçirilməsinə cavabdeh olan vəzifəli şəxslərin siyahısı, onların şəxsi imzaları və açıqlamalar. Bəzi hallarda ilkin sənədlərdə əlavə rekvizitlər də göstərilir – sənədin nömrəsi, hüquqi şəxsin (müəssisənin, idarənin) adı və ünvanı, təsərrüfat əməliyyatlarının həyata keçirilməsi üçün əsas və zəruri hallarda sənədləşdirilən əqdin müəyyən edilməsi üçün səciyyəvi olan digər rekvizitlər.

Maddi qiymətlilərin alınması üçün sənədlər tərtib edilərkən maddi məsul şəxsin həmin dəyərləri alması barədə qəbzi olmalıdır; işlərin görülməsi üçün sənədlər tərtib edilərkən işlərin müvafiq şəxslər tərəfindən qəbul edilməsi təsdiqlənməlidir.

İlkin uçot sənədləri təşkilatın rəhbəri tərəfindən təsdiq edilir və o, bununla əlaqədar öz hərəkətlərini baş mühasiblə razılaşdırır. Pul vəsaitləri ilə əlaqədar təsərrüfat əməliyyatları təşkilatın rəhbəri, baş mühasib və ya onların müvəkkil etdiyi şəxslər tərəfindən imzalanmış ilkin sənədlərə əsasən rəsmiləşdirilir.

İlkin uçot sənədi təsərrüfat əməliyyatının aparıldığı anda tərtib edilməlidir. Mümkün olduqda həmin sənədi əqd başa çatandan dərhal sonra tərtib etməyə icazə verilir.

Kassa və bank sənədlərinə düzəlişlər edilməsinə icazə verilmir. Digər ilkin uçot sənədlərinə düzəlişlər edilməsinə bu şərtlə icazə verilir ki, təsərrüfat əməliyyatlarının iştirakçıları bu düzəlişlərə razılıq vermişlər. Həmin razılıq sənədi onu imzalamış şəxslərin imzaları ilə təsdiqlənir. Bu halda sənədə düzəlişlərin edilməsi tarixi hökmən göstərilir.

İcmal sənədləri çox vaxt uçot qeydiyyatının sadələşdirilməsi və ya sürətləndirilməsi məqsədilə ilkin sənədlər əsasında tərtib edilir. Mühasibat sənədlərini onların tərtib edildiyi qaydada təsnif edərkən uçot sənədləri ilkin və icmal sənədlərinə bölünür. İlkin sənədlər də öz növbəsində xarici və daxili sənədlərə – təşkilatın hüdudlarından kənarda yaranmış sənədlərə (malgöndərənlərin sənədləri və s.) və təşkilatın özünün daxilində yaranmış sənədlərə bölünür (məsələn, aktlar, tələbnamələr və s.).


İLLİK GÖSTƏRİCİ (səviyyə, dərəcə) – təyin edilmiş göstəricinin qiymətinin bir il ərzində yüksəldiyi səviyyəni ifadə edir. Bir sıra göstəricilərin qiymətlərinin illər üzrə müqayisəsi onların orta illik səviyyələrinin müqayisəsi əsasında aparılır. Orta illik səviyyə və ya dərəcə üzrə müqayisənin aparılmasında üstün cəhətlər vardır. Belə ki, bu halda ilin müxtəlif dövrlərindəki mövsümi xarakterli dəyişmələrin təsirindən yaranan kənarlaşmalar istisna edilir və nəticədə ümumi meyli daha dəqiq müəyyənləşdirmək mümkün olur.

İLLİK HESABAT – maliyyə ilinin sonunda şirkətin təyin edilmiş formada illik fəaliyyət nəticələrini əks etdirən hesabatı. İllik hesabat təqdimatdan öncə səhmdarların yığıncağında müzakirə olunur.

İLLİK HESABLI FAİZ DƏRƏCƏSİ – ilin müəyyən dövrünə aid müvafiq qiymət əsasında faiz dərəcəsinin hesablanan səviyyəsi.

İLLİK HESABLI SƏVİYYƏ (dərəcə) – təyin edilmiş göstəricinin ilin müəyyən dövrünə aid qiyməti əsasında hesablanan illik səviyyəsi. Misal olaraq göstərilir ki, illik gəlir səviyyəsi və ya faiz dərəcəsi aylıq (rüblük) gəlir səviyyəsi və ya faiz dərəcəsi əsasında hesablanarkən, həmin göstəricilərin ilin digər aylarında da (rüblərində də) eyni olması gözlənilirsə, onda illik hesablı gəlir səviyyəsini və ya faiz dərəcəsini müəyyənləşdirmək üçün bir aylıq (rüblük) göstərici 12-yə (4-ə) vurulur. Göstəricinin ilin dövrləri üzrə səviyyəsi dəyişkən olduqda, bu zaman illik hesablı səviyyənin hesablanması üçün onların müvafiq dövrlər üzrə orta səviyyəsindən (dərəcəsindən) və ya müvafiq riyazi hesablamalardan (ekstrapolyasiya üsulundan) istifadə edilir.

İMANOV QORXMAZ CAHANGİR OĞLU (1941) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1968-ci ildə namizədlik, 1975-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1982-ci ildən professordur. Respublikada iqtisadiyyatın riyazi üsul və modellərlə tədqiq olunması sahəsində məktəb yaratmışdır, 30-a yaxın elmlər namizədi yetişdirmişdir. Q.İmanov 130 elmi əsərin müəllifidir. Rusiyanın MİRİ-nin nəzdində yaradılmış N.P.Fedorenko adına "İqtisadi-riyazi üsullar" fondunun təsisçilərindən biri və hazırda fondun vitse-prezidentidir. Q.İmanov bir neçə monoqrafiya yazmış və elmi-tədqiqat işlərinə rəhbərlik etmişdir. Onun "İnteqrallaşdırılmış balans modelləri və müttəfiq respublikaların struktur-funksional modeli" işi 1976 və 1982-ci illərdə keçmiş SSRİ Elmlər Akademiyasının vacib nəticələr siyahısına daxil edilmişdir. Elm və Texnika Komitəsinin tapşırığı ilə 1999-2000-ci illərdə yerinə yetirilmiş "Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri" mövzusundakı elmi-tədqiqat işi mütəxəssislər tərəfindən müsbət qiymətləndirilmiş və ARETK işi iqtisadiyyat sahəsində istifadə etmək üçün ali icra strukturlarına göndərilmişdir. Əsərləri keçmiş SSRİ-nin əksər respublikalarında, habelə ABŞ, Türkiyə, Avstraliya, Polşa, İtaliya, İspaniya və digər ölkələrdə çap olunmuşdur. O, beynəlxalq konfranslarda məruzələrlə çıxışlar etmişdir.

İqtisadi-riyazi modellər və hesablama texnikası vasitələrinin yaradılması, onların xalq təsərrüfatında planlaşdırma və idarəetmə məsələlərinin həllində geniş tətbiqi işlərinə görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

1987-1993-cü illərdə Dövlət Plan Komitəsinin, sonralar İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunun direktoru vəzifəsində işləmişdir. İspaniyanın İqtisadi və Maliyyə Elmləri üzrə Kral Akademiyasının qızıl nişanı ilə təltif edilmişdir. Hazırda Azərbaycan MEA-nın Kibernetika İnstitutunun əməkdaşıdır.

Əsərləri: "Müttəfiq respublikaların xalq təsərrüfatının planlaşdırılması modelləri" (Elm, 1974), "İqtisadi sistemlərin modelləri" (Elm, 1983, kollektiv müəlliflər), "İqtisadi proqnozlaşdırma modelləri" (Elm, 1998), "Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri (makroiqtisadi təhlil)" (Elm, 2001, həmmüəllif), "Проблемы экономической неопределенности и Fuzzy модели" (Elm, 2011), "Nuevos mercados para la recuperacion economica: Azerbaijan" (Barcelona, 2011).

İMANOV NAZİM MÜZƏFFƏR OĞLU (1955) – Azərbaycanın görkəmli iqtisadçı alimi, i.e.d., prof.



1977-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) bitirmişdir. 1982-ci ildə Bakıda namizədlik, 1990-cı ildə Moskvada doktorluq dissertasiyalarını müdafiə etmişdir. Hər iki dissertasiyası, həmçinin Azərbaycanda və xaricdə dərc olunmuş 5 kitabı və 110-dan artıq elmi məqaləsi ekoloji-iqtisadi sistemlərin idarə olunması problemlərinə həsr edilmişdir. 1991-ci ildə professor elmi adı almışdır.

1982-1986-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda assistent və müəllim, 1986-1999-cu illərdə Bakı Politologiya və Sosial İdarəetmə İnstitutunda (indiki Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) dosent, professor, prorektor vəzifələrində çalışmışdır. 1995-2000-ci illərdə I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Bir sıra qanun layihələrinin, o cümlədən "Tender haqqında" və "Qrant haqqında" Qanun layihələrinin müəllifidir. 2003-2005-ci illərdə "IMC Consulting" şirkətinin (Böyük Britaniya) eksperti qismində Avropa İttifaqının "Azərbaycanda iqtisadi siyasət quruculuğunun təkmilləşdirilməsi" layihəsinin aparıcı mütəxəssisi işləmiş, 2005-ci ildən "Qafqaz və qloballşma" elmi məcmuəsinin baş redaktoru, 2006-cı ildən Azərbaycan Banklar Assosiasiyası prezidentinin müşaviridir.

1988-ci ildə "Təbiətdən istifadə ilə bağlı iqtisadi münasibətlərin təkmilləşdirilməsi" monoqrafiyasına görə Komsomol mükafatına, 1992-ci ildə "Bazar iqtisadiyyatına keçid proqramı"nın yazılmasında iştirakına görə H.Z.Tağıyev adına Milli mükafata layiq görülüb. 1999-cu ildə nəşr olunan "İqtisadi etüdlər" kitabı müəllifin bir çox məsələlərə yeni, özünəməxsus baxışlarını ifadə edir.

Son illərdə dərc etdiyi elmi əsərlər arasında "Beynəlxalq müqayisəli tədqiqatlarda Azərbaycanın reytinqi" (2006) və "Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar" (E.İsmayılovla müştərək, 2010) kitablarını qeyd etmək olar.

İMİC (ing. *image* – surət, təsvir) – hakimiyyətin, hökumətin,

siyasətin, siyasətçinin, liderin, təşkilatın, seçkilərdə namizədin və s. bütün imkanlardan istifadə etməklə, yaradılmış surətinin siyasi reklamı. Bununla əlaqədar olaraq, yeni elm sahəsi olan imicelogiya yaranır. V.M.Şepel 1994 və 1997-ci illərdə bu sahə ilə əlaqədar monoqrafiyalarını nəşr etdirmişdir. Bu zaman hakimiyyətin imicelogiyasının yaradılması məsələsi də meydana çıxır. Qərbdə bu sahə ilə artıq çoxdan məşğul olurlar. Keçmiş SSRİ məkanında isə bu sahə yenidir.

İMİCİN REPOZİSİYALAŞMASI – malı və onun məqsədli bazarını dəyişmədən imicinin dəyişilməsi.

İMKANSIZLIQ – firmanın, sahibkarın və s. öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin mümkün olmaması. Əgər fərdi sahibkar kreditorların tələblərini təmin etmək iqtidarında deyildirsə, onun sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar imkansızlığı barədə məhkəmə qərar çıxara bilər. Bu cür qərar çıxarılan andan etibarən onun fərdi sahibkar və ya firma kimi qeydiyyatı öz qüvvəsini itirir.

Fərdi sahibkarın müflisləşmiş hesab edilməsi proseduru həyata keçirilərkən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmayan öhdəliklər üzrə kreditorlar da öz tələblərini irəli sürə bilərlər. Bu tələblər fərdi sahibkara məxsus olan və tutulmanın yönəldilə biləcəyi əmlak hesabına aşağıdakı ardıcıllıqla təmin edilir.

Kreditorlarla hesablaşmalar başa çatandan sonra müflisləşmiş hesab edilən fərdi sahibkar onun sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan qalan öhdəliklərin icrasından azad edilir. Fərdi sahibkarın məhkəmə tərəfindən müflisləşmiş hesab edilməsinin və ya onun özünü müflisləşmiş elan etməsinin əsasları və qaydası imkansızlıq haqqında qanunla müəyyən olunur.

İMMİQRASİYA – başqa ölkəyə daimi və ya uzunmüddətli yaşayış üçün gediş.

İMPERİAL (lat. *imperialis imperatorun*) – 1755-ci ildən buraxılan rus qızıl sikkələri. Əvvəllər 12 q dəyəri olan 10 rubl kimi buraxılırdı. 1897-ci ildən 15 rubl buraxılmış və sonradan 5 və 10 rubllar dövriyyədən çıxarılmışdır.



İMPRESARİO – xüsusi şəxs, sahibkar, tamaşa tədbirlərinin təşkilatçısı və ya incəsənət xadiminin meneceridir ki, onun adından və ya onun maraqları ilə fəaliyyət göstərir, onun üçün sərfəli müqavilələr bağlayır və onun əvəzinə konsert fəaliyyətinin təşkilini həyata keçirir.

İMPLİSİT MÜQAVİLƏLƏR NƏZƏRİYYƏSİ – işçilər və işəgötürənlər arasında məlum olmayan yazılmamış (implisit) müqavilələri təsvir edən və təsərrüfat agentlərinin hərəkətlərinin səmərəliliyindən irəli gələn nəzəriyyə. İmplisit müqavilələr nəzəriyyəsinə görə, sahibkarlar və işçilər hətta aralarında müqavilə bağlamadan uzunmüddətli müqavilə münasibətlərinə daxil olur.

İMPULSİV ALIŞ – alıcının ani olaraq, uzun müddət fikirləşmədən əmtəəni alması.

İMTİNA – 1. Müqavilə bağlamaqdan imtina etmək və ya başqasına güzəştə getmək. 2. Fyuçers bazarında birjanın bir üzvü ilə bağlanmış müqaviləni birjanın digər üzvünə vermək. 3. Fond birjasının bir üzvünün sifarişi ilə müqavilə bağlayan digər üzvünün onun adını açıqlaması. 4. Yüksək gəlirli qiymətli kağızların satılması və həmin məbləğdə daha aşağı gəlirliyə malik qiymətli kağızların alınması nəticəsində gəlirdə itirmək. 5. Bir birja brokeri vasitəsilə sifarişi yerləşdirmək, lakin hesablaşmanın digər birja brokeri vasitəsi ilə aparılmasını tələb etmək.

İMTİNA ƏMSALI – inflyasiya 1 faiz azaldıqda illik istehsaldakı faiz dəyişikliyi.

İMTİYAZ – kiməsə xüsusi hüquq və ya üstünlüyün verilməsi.

Konversiya imtiyazı – konversiya istiqrazlarının sahiblərinə elə həmin şirkətin müəyyən qiymət və müddət üzrə adi səhmlərinin mənimsənilməsinə hüquq kimi verilir.

Konversiya imtiyazı səhmləri daha tez reallaşdırmağa, istiqrazları ucuzlaşdırmağa imkan verir və şirkətə adi səhmlərin buraxılmasına nisbətən daha sərfəli şərtlərlə səhmdarları cəlb etməyə şərait yaradır.

Yazılma imtiyazı – şirkətin yenidən buraxılan adi səhmlərini onların bazarda təklifinə qədər almaq hüququ. Belə hüquq şirkətin səhmdarına verilir.

Reinvestisiya imtiyazı – dividendlər formasında alınan vəsaitləri güzəştli şərtlərlə əlavə səhmlərin alınmasına istifadə etmək üzrə səhmdarın hüququ.

İMTİYAZLI DİVİDEND – səhmdar müəssisənin, cəmiyyətin, şirkətin mənfəətinin imtiyazlı səhmlər üzrə səhmin nominal dəyərinə nisbətən qabaqcadan müəyyənləşdirilmiş dəqiq faiz məbləğində ödənilən hissəsi.

İMTİYAZLI SƏHMLƏR – öz sahiblərinə müəyyən dövr ərzində səhmdar cəmiyyəti tərəfindən əldə edilmiş mənfəətin səviyyəsindən asılı olmayaraq sabit dərəcə üzrə birinci növbədə dividendlər almaq hüququ verən səhmlər. Hər bir imtiyazlı səhmdə onun sahibinin adı göstərilir. Bu ad səhmdar cəmiyyətinin səhmdarlar reyestrinə daxil edilir. İmtiyazlı səhmin başqasına verilməsi və ya hər hansı başqa üsulla özgəninkiləşdirilməsi reyestrdə hökmən qeydiyyata alınmalıdır. Səhmin özünün üzərində xüsusi qeyd olunmuş yerdə onun yeni sahibinin adı göstərilməklə verilməsi barədə qeydiyyat aparılır.

İmtiyazlar aşağıdakılardan ibarət ola bilər:

– qeyd edilmiş məbləğdə zəmanətli dividend alınması;

– korporasiya ləğv edilən halda onun əmlakının qalığından pay almaq üstünlüyü;

– səhmlərin emitent tərəfindən güzəştli şərtlərlə alınması hüququ.

İmtiyazlı səhmlər o səhmlər hesab edilir ki (bəzən səssiz deyilir), onların sahibləri firmanın işlərinin idarə edilməsində səsvermə hüququna malik olmur.

İMZALANMIŞ (qapalı) XƏTT – broker tərəfindən qapanmış xətt. Bu zaman xətt imzalayan anderreyterə sığortanın hansı həcminin verilməsi qərara alınır. Silinmiş (çəkilmiş) xətlərin bütün həcmi sığorta həcmindən 100% artıq ola bilər.

İNDEKS (lat. *index* – göstərici, siyahı) – bazis kimi qəbul edilən səviyyə ilə müqayisədə iqtisadi proseslərin dinamikasını ölçmək üçün istifadə olunan göstərici, başqa sözlə, bu və ya digər hadisələrin, o cümlədən iqtisadi hadisələrin dəyişməsini xarakterizə edən statistik göstərici. İqtisadiyyatdakı real qarşılıqlı əlaqələri, hər hansı bir iqtisadi hadisənin dəyişikliklərini əks etdirir.

Dəyişkənlik indeksi – hər hansı bir iqtisadi, sosial prosesin müəyyən vaxt ərzində orta qiymətinin dəyişməsini ölçən bir trendə riayət edən təhlildir.

İndeks iqtisadi təhlilin həm universal, həm də əyani aləti kimi istifadə olunur. İstehsalın, əmtəə dövriyyəsinin, gəlirlərin, əmək haqqının, qiymətlərin, birja konyunkturunun və s. indeksləri fərqləndirilir. Təcrübədə aşağıdakılar da fərqləndirilir: analitik indeks, hesabi indeks, bazis indeksi, büdcə indeksi, valyuta indeksi, həndəsi indeks, qrup indeksi, dinamika indeksi, gəlir və xərclər indeksi, əhalinin gəlir indeksi, işçilərin məşğuliyyət indeksi, əmək haqqı indeksi, fərdi indeks, natural indeks, ümumi indeks, yaşayış dəyəri indeksi, həyat səviyyəsi indeksi, məhsuldarlıq indeksi, qiymət indeksi, dəyərlilik indeksi, zəncirvarı indeks.

Çəkisiz/çəkili indekslər – birja indeksləri iki üsulla – ya çəkili, ya da ki, çəkisiz üsulla hesablanır. Çəkisiz indekslər ədədi və ya həndəsi orta əsasında hesablanırsa, çəkili indekslərdə müəyyən qiymətli kağızların, adətən, öz bazar dəyərinə və ya başqa göstəriciyə görə hesablanmış çəkiləri nəzərə alınır.

İNDEKS METODU – indekslərin köməyi ilə sosial-iqtisadi hadisələri ölçərək vahidliyə gətirən statistik tədqiqat üsulu. Öyrənilən hadisənin dinamikasının təsir edən faktorları müəyyən etmək üçün tətbiq edilir. Əsas analitik tələbləri: xarakterlilik, tranzitlilik və daxili anlaşma.

İNDEKSASİYA – inflyasiya şəraitində pul tələbləri və müxtəlif gəlirlərin real kəmiyyətinin saxlanma metodu. İndeksasiyanın aparılması zamanı ödənişlərin məbləği öhdəliklərin imzalanmasından icrasına qədər olan müddət ərzindəki indeksə proporsional olaraq hesablanır. Aşağıdakı indekslərdən istifadə olunur: **pərakəndə qiymətlərin** – əmək haqqı, təqaüdlər, müavinətlərin ödənilməsinin təminatı üçün; **topdan qiymətlərin** – qiymətli kağızların indeksasiyası zamanı. Valyuta kurslarının dəyişilməsi və aparılan malların qiymət indeksləri daha az istifadə olunur.

İNDEKSLƏNMİŞ İSTİQRAZLAR – bu istiqrazlara görə faizin kəmiyyəti müəyyən iqtisadi göstəricinin (adətən, qısamüddətli faiz dərəcəsinin) dinamikasından asılıdır. Çox vaxt indeksləmə üçün qiymət indeksləri kimi göstəricilər tətbiq edilir. İndekslənmiş istiqrazın digər növü üçün sabit faiz dərəcəsi mövcuddur, lakin borcun əsas

məbləği bu və ya digər malın qiymətindən asılıdır.


İNDİKATİV PLANLAŞDIRMA – indikativ planlarda istehsalın və istehlakın həcmi, strukturu, artım sürəti, qiymətlərin dinamikası, ixrac, idxal, investisiyalar barədə əsas göstəricilər əks olunur. Bu cür planlara bazar subyektlərini qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə, plan indikatorlarını gerçəkləşdirməyə istiqamətləndirən iqtisadi stimullar, gəlirlərin, məşğulluğun, vergilərin birbaşa və dolayı tənzimləyiciləri sistemi də daxildir.

Bazar iqtisadi şəraitində bu cür planda firmalar üçün dövlət sifarişləri nəzərdə tutulur. Həmin firmalar sifariş edilmiş məhsulun buraxılışına görə maddi cəhətdən həvəsləndirilir.

Ümummilli planlar sistemi milli iqtisadiyyatın ayrı-ayrı sektorlarının, sahələrinin inkişafına dair plan-proqnozlardan ibarətdir. İndikativ planlaşdırmaya nəzərdə tutulan prioritetlərin maliyyə və sənaye qrupları ilə, sahibkarlıq ittifaqları, həmkarlar ittifaqları və digər maraq qrupları ilə razılaşdırılması proseduası daxildir. Müəyyən vaxta qədər indikativ planlaşdırmanın iqtisadi və sosial səmərəsi məhz bu cür konsensus mexanizmləri ilə təmin edilirdi.

1970-ci illərin ortalarından başlayaraq iqtisadiyyatın tənzimlənməsinin pozulması prosesləri nəticəsində indikativ planlaşdırma sistemi tədricən "laxlayır": indikativ planlaşdırma əvəzinə uzunmüddətli strateji planlaşdırma tətbiq edilir. Onun səciyyəvi cəhəti planlaşdırma hüdudlarının xeyli sərbəst və çevik olmasıdır.

İndikativ planların ölkənin strateji inkişaf mexanizmlərinin digər komponentləri ilə qarşılıqlı əlaqəsi



Sxem 1

İNDİKATOR (göstərici) – hər hansı bir prosesin müəyyən dövr ərzində gedişatını xarakterizə edən mütləq və ya nisbi göstərici. Fond birjasının indikatoru isə qiymətli kağızlar bazarında müəyyən dövr ərzində aparılan əməliyyatların həcminin, maliyyə alətlərinin gəlirliliyinin, o cümlədən faiz dərəcələrinin dinamikasının, alqı-satqı əməliyyatlarının həcminin öncədən qiymətləndirilməsi məqsədi ilə istifadə edilən göstəricidir (bax: sxem 1).

İNDOSSAMENT (lat. *Introdorso* – arxa, bel; alm. *Indossament* – əks tərəfində, o biri üzündə) – 1. Vekselin, çekin, konosamentin və digər qiymətli kağızın əks tərəfində ötürücü yazı. Buna uyğun olaraq qiymətli kağıza dair bütün hüquqlar bir şəxsdən digərinə keçir. İndossamenti həyata keçirən şəxs indossant adlanır. 2. Sığorta polisində hər hansı bir düzəliş və ya sığorta şərtlərinin dəyişməsi ilə əlaqədar sığorta haqqında müvəqqəti şəhadətnamə. Qiymətli kağızı saxlayan hər hansı bir qanuni şəxs kağızın özünün mətnində onun ötürülməsi ilə bağlı məhdudiyyətə düzəliş etmək hüququna malikdir. Bununla əlaqədar indossament qüvvəsini itirir.

Ötürücü hüquqlar veksel və ya çek üzrə tədiyyənin, konosament üzrə tədiyyənin alınması ilə bitmir, vekselin köçürülməsi hüququnu, akseptin ödənilməsi tələbini, vekselin və digər qiymətli kağızların etiraz edilməsini nəzərdə tutur. İndossament hər hansı bir şəxsin (indossantın) və ya vekselə tətbiq etdikdə təqdim edənin xeyrinə, eləcə də vekselə və vekselverənə görə tədiyyəçinin özünün xeyrinə indossant tərəfindən edilə bilər.

Əgər ötürücü yazıda indossamenti edənin xeyrinə, onun adı yoxdursa, onda o, blank indossamenti (təqdim edənə) adlanır. Sonradan qiymətli kağızın sahibi ötürücü yazını adlı edərək, adı bu ötürücü yazıda yaza bilər. Ötürücü yazı qiymətli kağız üzrə bütün borc məbləği qədər sənədin özündə, yer olmadığı halda isə sənədə birləşdirilən kağızda edilir.


Ötürücü funksiyadan başqa, indossament vekseldə və ya çekdə həm də zəmanət funksiyasını yerinə yetirir. Veksel üzrə hər bir indossant akseptə görə tədiyyəyə, çek üzrə indossant isə – tədiyəyə görə cavabdehdir. İndossant veksel verənlə (çek saxlayanla), avalçı ilə, ödəyici ilə birgə həmrəylik məsuliyyəti daşıyır (baxmayaraq ki, "dövriyyəsiz" düzəlişi ilə indossament vasitəsilə öz üzərindən bu məsuliyyəti götürə bilər).

İNDOSSANT – orderli qiymətli kağız üzrə hüququ verən şəxs.

İNDOSSAT – qiymətli kağızda icra edilmiş indossament qiymətli kağızla təsdiqlənmiş bütün hüquqları o şəxsə keçirir ki, qiymətli kağız üzrə hüquqlar ona və ya onun sərəncamı ilə verilir.

İNDUKSİYA OLUNMUŞ İNFLYASİYA – hər hansı bir iqtisadi amillə şərtlənən inflyasiya. Təbii ki, qloballaşma şəraitində təkcə bir amildən asılı olan inflyasiyanı müəyyən etmək çox çətindir. Amma elə amillər var ki, onlar inflyasiyanın dəyişməsinə kifayət qədər ciddi təsir göstərir. Bu baxım-

Dünya ölkələrində qiymət artımı, 2010-cu il



Qrafik 1

dan qlobal inflyasiya müəyyən mənada nümunə göstərilə bilər. Dünya miqyasında pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi kimi, inflyasiya aparıcı dünya ölkələrində qiymət artımı nəticəsində baş verir. Qlobal inflyasiyanı üç göstərici ilə xarakterizə etmək olar: dünya ÜDM-ində hər bir ölkənin payına əsasən hesablanmış orta qiymət indeksi, BVF tərəfindən hesablanan ümumdünya inflyasiyası (indeks 175 ölkə üzrə hesablanır), İƏİT ölkələri üzrə icmal inflyasiya (indeks 30 ölkə üzrə hesablanır).

Birinci qrup qiymətlər indeksi statistik məlumatlar və təhlilin məqsədinə müvafiq olaraq hesablanır. Dünya ÜDM-ində ABŞ, Çin, Yaponiya, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Kanada və İspaniya böyük xüsusi çəkiyə malikdirlər. Bu 9 ölkə qlobal iqtisadiyyata böyük təsir gücünə malikdir. Lakin Çin iqtisadiyyatının dinamik inkişafı qlobal inflyasiyaya inkişaf etmiş ölkələr kimi eyni istiqamətdə təsir etmir. Çünki Çində istehlak mallarının qiyməti də, onun artım sürəti də inkişaf etmiş ölkələrdən aşağıdır.

Əgər tədqiqatçı qlobal inflyasiyanı inkişaf etmiş ölkələrin qiymət dinamikası əsasında təhlil etmək istəyərsə, onda o, İƏİT ölkələrinin icmal inflyasiya indeksindən istifadə edə bilər. Onların payına qlobal ÜDM-in 54,6%-i düşür.

BVF tərəfindən hesablanan inflyasiya daha mükəmməldir, çünki o, 175 ölkəni əhatə edir (2005-ci ildə BVF-də 184 ölkə üzvü olub). BVF qlobal inflyasiyanın statistikasını inkişaf etmiş ölkələr, inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatlı ölkələrə (1980-ci illərdən) bölməklə 1970-ci illərdən aparır. Fondun hesablamalarına görə, 1970-ci ildə qlobal inflyasiya 5,6% olmuş və sonradan durmadan artaraq 1992-ci ildə maksimumuna çatmış və 36,3% təşkil etmişdir. Daha sonra qlobal inflyasiya azalmağa başlamış və 2000-ci ildən qiymət sabitliyi yaranmışdır. 2000-2006-cı illərdə orta qlobal inflyasiya 3,83% olmuşdur.

Qlobal inflyasiya 2 əsas determinanta malikdir. Onlardan biri qısamüddətli dövrdə İƏİT ölkələrinin (hər şeydən əvvəl, ABŞ, Avrozona, Yaponiya və Böyük Britaniya) işgüzar tsiklinin funksiyası kimi təsvir oluna bilər. Uzunmüddətli dövr üçün isə qlobal inflyasiya ABŞ-da pul təklifindən (dünyanın əsas rezerv valyutasına malik dövlət kimi) asılıdır. Hər iki determinant qlobal inflyasiyanın dinamikasını təxminən 70% müəyyən edir.

Bütün dünya ölkələri bir-birləri ilə əlaqəli olduqlarından milli iqtisadiyyatda yaranan inflyasiya da öz növbəsində qlobal inflyasiyadan asılı olur. Deməli, daxili bazarda qlobal inflyasiyadan yayınma bütün hallarda müvəqqəti xarakter daşıyacaqdır.


Eyni zamanda daxili bazarda baş vermiş inflyasiya qlobal inflyasiyanın təsiri altında sönür və o, qlobal inflyasiya həddinə qaytarılır. Onu da nəzərə almaq lazımdır ki, qiymət sabitliyinə malik ölkələr (məsələn, Almaniya) tarixən yüksək inflyasiya hökm sürən ölkələrə (İtaliya, Portuqaliya) nisbətən qlobal inflyasiyadan daha az asılıdır. Bunu qlobal maliyyə böhranı şəraitində ölkələr üzrə inflyasiya səviyyəsi bir daha göstərir. Moskva Maliyyə-Sənaye Akademiyasının iqtisadi tədqiqatlar mərkəzinin hesablamalarına görə inkişaf etmiş ölkələrdə daxili bazar qiymətləri 50-70% qlobal inflyasiyanın təsiri altında formalaşır. Öz növbəsində Rusiya da istisna təşkil etmir. Qlobal inflyasiyanın Rusiya daxili bazarında qiymətlərə təsiri 60% təşkil edir. O, iqtisadiyyata iki kanal üzrə təsir edir.

Birincisi, xarici ticarət üzrə. Mal və xidmətlərin ixracının ÜDM-ə nisbəti 25,6%, idxalın nisbəti isə 18,8% təşkil edir. Deməli, Rusiya bazarındakı qiymətlər idxalçı və ixracatçı ölkələrdəki qiymətlərin səviyyəsindən asılıdır. İkincisi, qeyri-rezidentlər ölkənin pul və kapital bazarında aktiv iştirak edir.

İnkişaf etmiş ölkələrdə faiz dərəcələrinin qaldırılması da inflyasiyaya təsir göstərir. Çünki onlar kapital axınına, rublun faiz dərəcəsinə təsirsiz ötüşmürlər. Qloballaşma şəraitində Rusiya iqtisadiyyatı xammalın qiymətindən, Avropada işgüzar tsikldan, Amerika maliyyə bazarındakı likvidlikdən daha çox asılı olacaqdır.

İNDUSTRİAL CƏMİYYƏT – XIX əsrin 40-cı illərində yaranan sosial-iqtisadi nəzəriyyə. Lideri amerikalı iqtisadçı və sosioloq Piter Draker hesab olunur. Nəzəriyyə görə, industrial cəmiyyətin yaranışı XX əsrdə korporasiyanın yüksəlişi ilə bağlıdır. XIX əsr kapitalist cəmiyyəti isə industrialdan qabaq adlandırılır.

Azərbaycan Respublikası üzrə baza inflyasiyası, %-lə




Qrafik 1

İNDUSTRİAL CƏMİYYƏT PARADİQMASI – ənənəvi ictimai quruluşu əvəz etmiş, əl əməyini sıxışdıran maşın və mexanizmlərin əmələ gəlməsi, genişlənən və çoxçeşidli emal prosesi, texnoloji inqilablar və kapital dünyasının hakim kəsildiyi cəmiyyət tipi.

İNFLYASİYA (lat. *inflatio* – üfürmə, şişmə, köpmə) – müəyyən müddət ərzində əmtəə və xidmətlərin keyfiyyəti yüksəlmədən qiymətlərinin artması nəticəsində pulun əmtəə və xidmətlər bazarında dəyərdən düşməsi, dəyərsizləşməsi. İnflyasiya istehlak qiymətləri indek-

Azərbaycan Respublikası üzrə orta illik istehlak qiymətlərinin indeksi, %-lə



Qrafik 2

Cədvəl 1

Bəzi ölkələrdə ÜDM-in artımı və inflyasiya, 2010-cu il

Ölkə	ÜDM artımı	İnflyasiya səviyyəsi
ABŞ	2,00%	1,10%
Avrozona	1,00%	1,60%
Yaponiya	0,37%	-0,60%
Çin	9,60%	3,60%
Almaniya	2,20%	1,00%
Fransa	0,70%	1,40%
Böyük Britaniya	0,80%	3,10%
İtaliya	0,40%	1,80%
Braziliya	1,20%	4,70%
İspaniya	0,20%	1,90%
Kanada	0,50%	1,90%
Hindistan	8,80%	9,82%
Rusiya	5,20%	7,60%
Cənubi Koreya	0,70%	4,10%
Avstraliya	1,20%	2,80%
Meksika	3,22%	3,76%
Niderland	0,90%	1,60%
Türkiyə	3,70%	9,20%
İndoneziya	2,80%	5,67%

sinin (İQİ) dəyişimi kimi ölçülür. İQİ müəyyən vaxt intervalı çərçivəsində əhali tərəfindən qeyri-istehsal məqsədilə istehlak edilən mal və xidmətlərin qiymətlərinin ümumi səviyyəsinin dəyişməsini xarakterizə edən indeksdir. Buraya bütün zəruri tələbat malları (ərzaq və qeyri-ərzaq) və xidmətləri daxil edilir. Hər bir mal və xidmətin bu indeks əsasında formalaşan səbətdə öz xüsusi çəkisi vardır və ayrı-ayrı komponentlərin qiymət dəyişməsi bu çəkilərə uyğun olaraq yekun indeksin formalaşmasında iştirak edir. İQİ Dövlət Statistika Komitəsi tərəfindən hesablanır.

İnflyasiya pul kütləsi tədavülü kanallarının əmtəə dövriyyəsi tələblərindən yüksək doldurulmasıdır ki, bu da pul vahidinin qiymətdən düşməsini və uyğun olaraq, qiymət artımını doğurur. Hər hansı qiymət artımını inflyasiya artımı hesab etmək olmaz. Qiymət artımının inflyasiya səbəbləri arasında dövlət xərclərinin və gəlirlərinin qeyri-balanslılığı, yəni dövlət büdcəsinin kəsiri mühüm yer tutur. Çox zaman bu kəsir pul emissiyası ilə örtülür ki, o da pul kütləsinin artmasına və nəticə olaraq inflyasiyaya gətirib çıxarır.

"İnflyasiyalı kəskin investisiyalar", əsasən, iqtisadiyyatın hərbiləşməsi ilə əlaqədardır. Hər şeydən əvvəl, büdcənin daimi gərginliyini yaradan, yəni onun kəsirliliyini artıran, ardınca qiymətləri yüksəldən əsassız yüksək hərbi xərclər nəzərdə tutulur. İnflyasiyanın iqtisadi və sosial nəticələri çoxcəhətlidir. Sürət artdıqca inflyasiya istehsalın inkişafı üçün real maneəyə çevrilir və cəmiyyətdə iqtisadi və sosial gərginliyi kəskinləşdirir. İnflyasiya istehsalın yönümünü dəyişdirir (dezoriyentasiya edir), ciddi iqtisadi ziyan vurur, iqtisadi siyasətin aparılmasını çətinləşdirir. Qiymətlərin qeyri-bərabər artımı iqtisadiyyatın sahələri arasında disproporsiyanı gücləndirir, istehlak tələbi sistemini təhrif edir və daxili bazarda əmtəələrin reallaşması problemini kəskinləşdirir. Yüksək inflyasiya sürəti tələbi elə yüksək səviyyəyə çatdırır ki, burada o, təkliflə dola bilməz, əmtəə kəsiri (çatışmazlığı) isə, öz növbəsində, pul yığımına olan stimulu sarsıdır. Əhalinin yığımı qiymətdən düşür. İnflyasiya əhalinin üzərinə düşən özünəməxsus vergidir ki, bu da gəlirlərin artan qiymətlərdən geri qalmasını sürətləndirir. Ona görə də yüksək inflyasiyanın cilovlanması, idarə olunması hər bir ölkədə hökumətin, Mərkəzi Bankın vəzifəsi sayılır.

İNFLYASİYA GÖZLƏMƏLƏRİ – perspektivdə yüksək inflyasiya sürəti haqqında fərziyyələrə əsaslanan istehlak, əmtəə, fond, valyuta və s. bazarlarda subyektin fəaliyyəti. Onlar öz pul vəsaitlərinin və inflyasiyadan əziyyət çəkən digər qiymətlərin əmtəə ehtiyatlarına, sabit dönərli valyutaya, daşınmaz əmlaka yerləşməsindən, bankda valyuta depozitlərinin, yəni bazar dəyəri valyutanın qiymətdən düşməsindən asılı olmayan qiymətlərdə yerləşməsindən ibarətdir.

İNFLYASİYA PROSESLƏRİNİN TƏHLİLİ – iqtisadiyyatın müxtəlif sahələrində qiymətlərin artımının və ona təsir göstərən müxtəlif amillərin dinamikasının təhlili (məsələn, istehsalın inkişaf dinamikası, pul tədavülünün və maliyyə bazarlarının vəziyyəti, əhalinin pul gəlirlərinin dinamikası, əhalinin məşğulluğu).

İnflyasiya proseslərinin təhlilinin növləri:

– inflyasiya proseslərinin əraziləri üzrə təhlili. Bu təhlilin məqsədi müxtəlif regionlarda, o cümlədən sosial-iqtisadi inkişafı müəyyənləşdirən iqtisadi sektorlarda inflyasiya proseslərini müqayisə etməkdir;

– müxtəlif amillərin (sənaye məhsulu istehsalının və onun daxili bazarda və dünya bazarlarında rəqabət qabiliyyətinin, pul tədavülünün və maliyyə bazarlarının inkişafı, əhalinin pul gəlirlərinin dinamikası, əhalinin məşğulluğu problemi və bu sahədə gözlənilən dəyişikliklərin dinamikası, xarici dövlətlərin valyutaları ilə müqayisədə yerli valyutanın vəziyyəti və s.) iqtisadiyyat sektorlarında qiymətlərin dinamikasına təsirini xarakterizə edən seçmə iqtisadi indikatorların dinamikasının öyrənilməsi yolu ilə aparılan inflyasiya proseslərinin təhlili;

– qiymətlərin mövcud səviyyəsinin və qiymət indeksləri sisteminin (iqtisadiyyatın həm istehlak, həm də istehsal sektorlarında) öyrənilməsi yolu ilə inflyasiya proseslərinin təhlili. Konkret malların qiymətləri (birinci səviyyədən başlayaraq), onların dəyişməsi, retrospektiv dinamikası və ikinci səviyyəyə keçidlə əlaqədar gözlənilən dəyişikliklərin trayektoriyası. İkinci səviyyədə qiymətlərin regional və sahəvi dinamikası tədqiq edilir, üçüncü səviyyədə isə bütövlükdə tədqiq edilən istiqamətdə vəziyyət təhlil edilir (istehlak bazarı, istehsalçı müəssisələrin və sənaye məhsulunun istehlakçılarının qiymətləri, daxili və dünya bazarlarında qiymətlərin nisbəti).

İNFLYASİYA SPİRALI – xərclərin artması ilə inflyasiyanın təzahürü. Müəyyən şərtlərdə əmək haqqının artımı inflyasiyanın mənbəyi ola bilər (muzdlu işçilərlə işəgötürənlər arasında tarif sazişinə yenidən baxılması nəticəsində). Əvvəlcə bu, əmək bazarı seqmentinə uyğun olaraq, əmək haqqının yeni səviyyəsinin müəyyən edilməsinə, sonra isə ölkə miqyasında əmək haqqının ümumi səviyyəsinin dəyişməsinə gətirib çıxarır. Əgər bu proses əks-təsir göstərən amillərlə, məsələn, əmək məhsuldarlığının artımı ilə tarazlı olmursa, onda məhsul vahidinə düşən xərclərin artması istehsalın azalmasına gətirib çıxarır.

Artan tələb zamanı təklifin azalması qiymətlərin artımına aparır. Qiymət artımı, öz növbəsində, əməyin ödənilməsində dəyişikliklər haqqında işəgötürənlə işçilərin yeni danışıqlarının başlanmasına təkan verir. Beləliklə, yeni səviyyədə spiralın yeni mərhələsində – "əmək haqqı – qiymət" mərhələsində vəziyyət təkrarlanır.

İNFLYASİYA VERGİSİ – inflyasiya şəraitində vergi ödəyicisinin real vergi yükünün artması. İnflyasiya şəraitində dövlət xərcləri real olaraq aşağı düşür. Lakin vergi ödəyəcisi olan hüquqi və fiziki şəxslərin real vergi yükü qismən artır. Müasir dünya təcrübəsində inflyasiya vergisi əmək haqlarının, depozitlərin, müəssisələrin dövriyyə vəsaitlərinin indeksləşdirilməsi yolu ilə idarə olunur. Vergilərin bu növünün xüsusiyyəti ondan ibarətdir ki, dövlət həmin vergini stimullaşdıra bilər. Müdafiə, idarəetmə, sosial proqramlar üçün xərcləri ödəmək məqsədilə dövlət vergiləri artırır. İnflyasiya vergisinin mahiyyəti təklif iqtisadiyyatı nəzəriyyəsində əks olunmuşdur. Həmin nəzəriyyəyə görə, vergilərin çox hissəsi nəticə etibarilə istehsal xərclərinə transformasiya olunaraq əmtəə və xidmətlərin qiymətlərinin daha yüksək olması şəklində alıcıların üzərinə düşür. Təklif iqtisadiyyatı nəzəriyyəsinin tərəfdarlarının fikrincə, vergilər inflyasiya xərclərinin sürətlənməsinə səbəb olur. İnflyasiya vergisi pul vəsaitlərinin sahiblərinin inflyasiya nəticəsində məruz qaldığı kapital itkilərinə aid edilir. Dövlət inflyasiya vergisini əlavə pul emitenti kimi alır. İnflyasiya vergisi hesabına dövlətin xalis gəliri əlavə emissiya edilmiş əsginasların dəyəri (qiyməti) ilə onların hazırlanmasına çəkilmiş xərclər arasındakı fərqə bərabərdir.

İNFORMASİYA AXINI – bir obyektdən başqa obyektə verilən məlumatların məcmusu.

İNFORMASİYA AXTARIŞI – informasiyaya tələbatı olan şəxs tərəfindən onun əldə edilməsi məqsədilə istifadə etdiyi əməliyyatlar toplusu.

İNFORMASİYA BAXIMINDAN SƏMƏRƏLİLİK – bütün mövcud informasiyanın rasional şəkildə nəzərə alınması.

İNFORMASİYA BAZARI – informasiya məhsulları (kitablar, kompüter və digər EHM-lər üçün proqramlar, məlumat bazası, informasiya texnikası) və informasiya xidmətlərinin (kitabxanada ədəbiyyatın verilməsi, arxivdə sənədlər, məlumat bazasına giriş) alınıb-satıldığı bazar seqmenti. Bu bazara intellektual səviyyəli bazar da deyilir.

İNFORMASİYA BROKERİ – informasiya xidmətləri bazarında informasiya axtarışı vərdişlərinə malik olmayan son istehlakçıya xidmət edən vasitəçi.

İNFORMASİYA CƏMİYYƏTİ – qlobal və ümumi sivilizasiya tərəfindən informasiya resurslarından aktiv və genişmiqyaslı istifadə. Dünyanın inkişaf etmiş ölkələri – ABŞ, Yaponiya, Böyük Britaniya, Fransa, Almaniya, bir sıra Asiya və Latın Amerikası ölkələri artıq bu mərhələni yaşamaqdadır.

İNFORMASİYA FƏALİYYƏTİ – informasiya resurslarından və informasiya xidməti vasitələrindən istifadə üzrə fəaliyyət. Müxtəlif sənədlər, saxlanma və istifadə üçün qeydə alınmış informasiya toplusu (nəşrlər, elmi və digər hesabatlar, elektron qeydlər), informasiya sistemlərində sənədlər və sənədlər massivi. Kitabxanalar, arxivlər, fondlar, bank məlumatları və digər informasiya sistemləri informasiya resursları sayılır. İnformasiya resursları mülkiyyət obyekti olur. Onlar dövlət və qeyri-dövlət formasında ola bilərlər.

İNFORMASİYA MƏRKƏZİ – müəyyən sahədə və ya regionda elmi-informasiya fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış təşkilat.

İNFORMASİYA MODELİ – təşkilat (müəssisə) tərəfindən idarəetmə funksiyalarının yerinə yetirilməsinin müxtəlif prosedurlarını təsvir edən və hər bir məsələ üzrə giriş və çıxış sənədlərini və göstəricilərinin əlaqəsini göstərən idarəetmə prosesində istifadə olunan informasiya axınları sxemi, başqa sözlə, mürəkkəb sistemin verbal və ya işarəli (simvollu) təsviri; sistemin fəaliyyətinin vəziyyətini və səmərəliliyini, həmçinin onun elementləri və altsistemləri arasında, sistem və xarici mühit arasında informasiya əlaqələrini qiymətləndirmək deməkdir və buna imkan verir.

Formulə edilmiş modellərin bir növü olaraq, informasiya modeli, adətən, ciddi riyazi modellərdə əhəmiyyət verilməyən ovaxtkı təşkilati sistemlərin fəaliyyətinin sosial, psixoloji və başqa aspektlərinə aid olan faktorları nəzərə almağa imkan verir. İqtisadiyyat sferasında modelləşmə üzrə bir çox eksperimentlər, idarəetmə ilə bağlı olan məsələlərin yerinə yetirilməsi zamanı informasiya modelindən çox və ya az dərəcədə istifadə edirlər.

Aydındır ki, istənilən iqtisadi tədqiqatın məğzi, sadəcə olaraq, sonda torpaq, əmək və kapitalın istifadəsinin təhlilinə, həmçinin qiymət və bazar arasında qarşılıqlı münasibətlərin öyrənilməsinə gətirib çıxarır. İlk belə yanaşma Amerika iqtisadiyyatının strukturunu tədqiq edən V.Leontyev tərəfindən təklif olunmuşdur.

İnformasiya modelinin köməyilə o, iqtisadi sistemin daxilindəki qarşılıqlı fəaliyyəti təhlil etmiş və göstərmişdir ki, əgər bütövlükdə ölkə üzrə və ya hər hansı bir sahə üzrə hər bir son məhsulun istehsalının həcmi müəyyən edilmişsə, onda aralıq mərhələlərdə zəruri olan istehsal səviyyəsini hesablamaq olar. İnformasiyaya aid edilə bilən digər model R.Stoun tərəfindən Kembric Universitetində (Böyük Brtianiya) işlənib hazırlanmış və "Artım proqramı" adlandırılmışdır. Onun köməyi ilə Britaniya iqtisadiyyatının strukturu və onun perspektivləri dəqiqliklə öyrənilmişdir. Burada nəinki o vaxt üçün, həm də gələcəkdə istehlakçı arasında gözlənilən münasibətlər nəzərə alınmışdır. R.Stounun informasiya modeli göstərdi ki, xalq təsərrüfatı balansları ayrı-ayrı təsərrüfat təşkilatlarının balanslarına o mənada oxşardır ki, aşağıdakı diferensiasiyalarla iqtisadi sistemdə bütün işgüzar əməliyyatlar haqqında müəyyən fikir yaradırlar: a) iqtisadi fəaliyyət növünə görə – istehsal, istehlak, sərvətin yığımı; b) xalq təsərrüfatının sahələri (sektorları) üzrə; c) işgüzar əməliyyatların növünə görə – malların və ya xidmətin satışı və ya mənimsənilməsi, hədiyyələr, vergilər və iqtisadi dəyərlərin digər yerdəyişməsi.

R.Stounun informasiya modeli daha çox makroiqtisadi xarakterli, yəni vahid tam kimi baxılan iqtisadiyyata aid olsa da, konkret istehsalın idarə edilməsi metod və üsullarının inkişafında böyük rol oynamışdır. Belə ki, ümumi iqtisadi meyillərin təhlili, sahələrarası qarşılıqlı əlaqə və qarşılıqlı fəaliyyət bilikləri, məsələn, firmada qərarların işlənib hazırlanması üçün əsasdır.

Bu növdən olan informasiya modelləşməsinə C.Forresterin tədqiqatı nümunə ola bilər. O, müəssisədə topdan və pərakəndə ticarətdə ehtiyatların mövcudluğu ilə uzunmüddətli istehlak mallarının istifadə və satış sistemini nəzərdən keçirmişdir. Aydın olmuşdur ki, malın pərakəndə ticarətçilərə satışı ilə müəssisədə ehtiyatların doldurulmasına sifarişin daxil olması arasında vaxtın gecikdirilməsi 8 həftəyə bərabərdir. 6 həftəyə bərabər olan gecikdirilmə də mövcuddur. Bu, dəyişən tələblərə uyğun olaraq satışı tənzimləmək üçün müəssisəyə lazım olan vaxtdır.

Alınan qrafiklər göstərdi ki, belə bir şəraitdə pərakəndə satışda tələbin 10% artması sistemin tarazlığını kəskin surətdə pozur. Müəssisə proqramı gecikdirmə ilə dürüstləşdirildiyi üçün satışı həmin anda tələb olunduğundan çox artırmaq lazım gəlir. Sistemin tarazlığının bərpa edilməsinə bir neçə ay tələb olunur. 10% mövsümi dəyişikliklər uzun müddət ərzində saxlanılan çox mühüm dəyişikliklərə gətirib çıxarır. C.Forrester tərəfindən istifadə olunan model dinamik informasiya modeli adını almışdır: onun tərəfindən işlənmiş "Dinamo" proqramı kompüter üçün xüsusi giriş göstəriciləri və sistemdə müxtəlif dəyişən kəmiyyətlərin davranışının xətti qrafiklərini hazırladı.

İnformasiya modelinin geniş yayılmış formalarından biri dəyişkən şəraitdə böyük sistemin ehtimal davranışının ssenarisidir. Qarşılıqlı təsiri və qarşılıqlı tamamlanan amillərin ciddi uçotu mümkün olmayanda proqnoz modellərin qurulmasında tutuşdurma, qiymətləndirmə və ssenarilərin seçimi geniş tətbiq olunur.

Bütövlükdə informasiya modeli hesablama maşınlarının realizə olunmasında məhsuldardır, onu bir çox amillərin uçotu ilə yeniləşdirməyə imkan verir. İnformasiya modelləşməsi nüvə fəlakətlərinin, epidemiyaların proqnozlaşdırılması ilə əlaqədar məsələlərin həllində böyük səmərə verir. İqtisadiyyatın idarə olunmasında informasiya modeli marketinqdə, fond bazarının vəziyyətinin və perspektivlərinin qiymətləndirilməsində və s. geniş tətbiqini tapır.

İNFORMASİYA PROSESİ – sənədləşdirilmiş informasiyanın toplanması, emal edilməsi, yığılması, saxlanması, aktuallaşdırılması və istifadəçiyə verilməsi prosesləri.

İNFORMASİYA RESURSU – 1) informasiya sistemlərində məlumat və bilik bazalarını, başqa informasiya massivlərini əhatə edən sənədləşdirilmiş informasiyanın mütəşəkkil məcmusu; 2) informasiya sistemlərində məlumat bazalarını və başqa informasiya massivlərini əhatə edən sənədləşdirilmiş informasiyanın mütəşəkkil məcmusu.

İNFORMASİYA SİSTEMİ – informasiya proseslərini reallaşdıran informasiya kütləsi və informasiya texnologiyaları toplusu.


İNFORMASİYA TEXNOLOGİYALARI – informasiyanın toplanması, saxlanması, işlənməsi və yayılması məqsədilə fəaliyyət göstərən proseslərin, prosedurların, reqlamentlərin, aparat-texniki, riyazi və linqvistik vasitələrin məcmusu (sxem 1).

Perspektivli informasiya texnologiyaları cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrində yaradılan və istifadə edilən informasiyanın ümumiləşdirilməsini, transformasiyasını və çatdırılmasını keyfiyyətcə yeni səviyyəyə keçirməyə şərait yaradır. Bu baxımdan informasiya proseslərinin avtomatlaşdırılması və telekommunikasiya şəbəkələrinin inkişafı ilə əlaqədar olan informasiya texnologiyaları (ilk növbədə məlumat bazaları və məlumat bankları) daha səmərəlidir. Bu cür informasiya texnologiyaları avtomatlaşdırılmış informasiya resurslarının (AİR) formalaşması və istifadəsi üçün tətbiq edilir.

Bütün AİR-lər iki əsas kateqoriyaya bölünür: informasiya məhsulları və xidmətlərinin bilavasitə son istehlakçıya təqdim edilməsi üçün nəzərdə tutulan ümumi təyinatlı AİR (elektron nəşrlər, multimedia, qismən məlumat bazaları və məlumat bankları); tərkibində fəaliyyət göstərdikləri sistemin işindən ötrü zəruri olan aralıq informasiyanın alınması üçün nəzərdə tutulmuş, sistemə daxilən qoşulmuş AİR (əsasən müxtəlif avtomatlaşdırılmış idarəetmə sistemləri – AİS), məlumat bazaları, elmi tədqiqatlar üçün hesabat məlumatları bazaları və s.).

Müasir informasiya texnologiyaları AİR-lərin prinsip etibarilə istehlak xassələrini təmin etməklə yanaşı, həm də onların

İnformasiya texnologiyalarının istiqamətləri



Sxem 1

dəyərini əhəmiyyətli dərəcədə azaldır. Bütün dünyada (o cümlədən Azərbaycanda) sayı daim artmaqda olan elektron nəşrlər buna əyani misal ola bilər. Multimedia kimi informasiya texnologiyaları bu tip informasiyanın kütləvi şəkildə yayılmasını təmin edir. Belə məhsullar həm mətn tipli, həm də audio və videoinformasiyanı yazmaq imkanına malik olan böyük tutumlu kompaktdisklərdə (CD-ROM) yayılır.

Müasir informasiya texnologiyalarının kompleks şəkildə inkişafında AİR-ə müraciəti təmin etməli olan telekommunikasiya sistemləri mühüm rol oynayır. Onların arasında paket kommunikasiyalı şəbəkələr, eləcə də modern rabitə (kompüterin telefon şəbəkəsinə qoşulması) xüsusi qeyd edilməyə layiqdir. Ölkəmizdə bu informasiya texnologiyalarının inkişafını ləngidən amillər yerli telefon kanallarının keyfiyyətinin aşağı olmasıdır (maneələrdən zəif müdafiə olunma və etibarlılığın aşağı səviyyəsi).

Beləliklə, ənənəvi telefon rabitəsini inkişaf etdirmək və keyfiyyətini artırmaq informasiya texnologiyalarının təkmilləşdirilməsi məsələlərinin həllində əhəmiyyətli rol oynaya bilər. İnformasiya texnologiyalarının inkişaf probleminin digər aspektləri avadanlığın birtipli (uyuşan) olması, protokolların uzlaşması, müasir texnologiyalardan istifadə edən informasiya fəaliyyəti üçün kadrlar hazırlanması, istifadəçilərin öyrədilməsi və ümumiyyətlə, onların "informasiya mədəniyyəti"nin artırılması məsələlərinə aiddir.

İnformasiya texnologiyaları sahəsində Azərbaycan 2011-ci ildə də əməli nəticələr əldə etmişdir. Ölkəmizdə MDB dövlətləri arasında ilk dəfə sabit telefon şəbəkəsi tam rəqəmləşdirilmiş və bütün ölkə üzrə beynəlxalq standart nömrələmə sisteminə keçirilmişdir. Sabit telefon şəbəkəsinin tutumu təxminən 50000 nömrə artaraq hər 100 nəfərə 18,6 faiz sıxlığa çatdırılmışdır. Mobil şəbəkə genişləndirilmiş, hər üç operator müasir 3G xidmətləri göstərməyə başlamış və nəticədə 3G abonentlərinin sayı qısa müddətdə 2 mln.-a çatmışdır. Bu gün artıq əhalinin hər 100 nəfərinə 110 mobil telefon düşür ki, bu da ümumdünya orta göstəricisindən təxminən 40 faiz yüksəkdir. 2011-ci ildə internet istifadəçilərinin sıxlığı 65 faiz, genişzolaqlı isə 30 faizi ötmüşdür (bax: qrafik 1). Hər iki göstərici üzrə ölkəmiz ümum- dünya orta göstəricilərini iki dəfədən çox qabaqlayır. İnternet xidmətlərinin qiymətləri isə rəqabətin genişlənməsi hesabına 35 faiz aşağı düşmüşdür. Ölkədə biri dövlət, ikisi isə özəl olmaqla üç şirkət tərəfindən qurulan magistral optik informasiya ötürmə şəbəkələri bütün rayon mərkəzlərini və təxminən 35 faiz kəndləri yüksəksürətli vahid şəbəkədə birləşdirmişdir. Bu isə Mərkəzi və Şərqi Avropa üçün yüksək nəticə sayılır.

Azərbaycan ərazisində televiziya və radio proqramlarının yayım keyfiyyətinin və əhatə zonasının genişləndirilməsi məqsədi ilə 72 ədəd müxtəlif təyinatlı radio-TV verici istismara verilmişdir. Ölkə ərazisinin 85 faizi rəqəmli televiziya yayımı ilə təmin olunmuşdur. Özəl sektor televiziya və radio yayım sahəsində də aktivləşmişdir və təxminən 10 şirkət peyk, kabel, efir, IP-TV və digər texnologiyalarla ödənişli yayım xidmətləri göstərir. 20-dən çox internet televiziya və radio yayımı mövcuddur. Ümumiyyətlə, İKT-nin inkişaf göstəricilərinə görə ölkəmiz inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir və son 7 ildə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxildir.

Bununla yanaşı, "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi məqsədilə kontraktlar üzrə işlər görülmüşdür. İlk telekommunikasiya peykinin hazırlanaraq Kuru kosmodromuna gətirilməsi 2012-ci ilin oktyabr ayına, sonrakı 3 ay müddətində isə orbitə çıxarılması planlaşdırılmışdır. İkinci telekommunikasiya peyki ilə bağlı araşdırma işləri başa çatmaq üzrədir və peykin orbitə çıxarılması təxminən 2015-ci ilə planlaşdırılır. Yer səthinin müşahidə və tədqiqatı üzrə aşağı orbitli kiçikhəcmli peykin orbitə çıxarılması isə 2013-cü ilə planlaşdırılır. Bu məqsədlə region üzərində xarici peyk 2012-ci ildə icarəyə götürüləcəkdir. Əsas və ehtiyat idarəetmə mərkəzlərinin tikintisinə başlanılmışdır və bu ilin avqust ayında idarəetmə sisteminin qurulması üçün peyk şirkətinə təhvil veriləcəkdir. Peyk və peykin idarəetmə və istismarı üçün ABŞ, Fransa və Malayziyada mütəxəssislərin hazırlığı aparılmışdır.

İnformasiya texnologiyaları sahəsində istehsal həcmi də hesabat ilində 50 faiz artmış və təxminən 120 milyon manat olmuşdur. Bu məhsullara əsasən radioelektron elementlər, optik daşıyıcılar, kompüterlər, müxtəlif proqram modulları və s. daxildir.


Regional bazarda fəaliyyətin bir istiqaməti isə ölkəmiz tərəfindən region ölkələrinə informasiya xidmətlərinin göstərilməsi və tranzit potensialının yaradılmasıdır. Bu sahədə BMT-nin 64-cü Baş Assambleyasının xüsusi qətnaməsi və Azərbaycanın koordinatorluğu ilə həyata keçirilən "Avro-Asiya Transmilli İnformasiya Supermagistralı" layihəsi mərhələlərlə reallaşmaqdadır. Artıq magistralın keçəcəyi ölkələrin – Rusiya, Türkiyə, Azərbaycan, Qazaxıstan və Çinin əsas telekom operatorları məsləhətçi şirkətin iştirakı ilə beynəlxalq konsorsiumun yaradılması istiqamətində danışıqlara başlanmış və 2011-ci ildə bu layihə ilə bağlı Qəbələdə birinci biznes-forum keçirilmişdir.

Digər bir layihə isə Avropa-Yaxın Şərq informasiya magistralı (EPEG-Persia Express Gateway) layihəsidir. Bu layihə sayəsində Frankfurt şəhərindən Omana qədər çox böyük tutumlu rabitə kanallarının Asiya ölkələrinə çatdırılması təmin ediləcəkdir. Bu marşrut Avropadan Asiyaya olan dənizaltı rabitə kanallarına alternativ olaraq qısa yoldur. Azərbaycan bu layihədə tranzit ölkə kimi həm əsas, həm də ehtiyat marşrut olaraq seçilmişdir.

İqtisadi inkişaf səviyyəsi yüksəldikcə informasiya texnologiyalarının tətbiqini nəzərdə tutan özəl müəssisələrin də sayı artır. Qeyd edilməlidir ki, bu müəssisələr içərisində öz məhsul və xidmətləri ilə aşağıdakılar xüsusilə fərqlənir:

"R.I.S.K." Elmi İstehsalat Şirkəti – Mərkəzi Asiya və Qafqazın informasiya texnologiyaları bazarında 1993-cü ildən bəri fəaliyyət göstərən sistem inteqratoru. "R.I.S.K." şirkəti IT Konsaltinq, Sistem İnteqrasiyası, IT Autsorsinq, proqram təminatı, tətbiqi proqramların yazılması və coğrafi informa-

Azərbaycan Respublikası üzrə əhalinin hər 100 nəfərinə İKT-nin əsas infrastruktur göstəriciləri



Qrafik 1

siya sistemləri üzrə həllər təklif edir. 16 ildən artıq fəaliyyət dövrü ərzində "R.I.S.K." bölgədə telekom, neft və qaz, hökumət və hüquq mühafizə orqanları, bank və maliyyə, həmçinin, nəqliyyat sektorlarında müştərilərə xidmət göstərmək üçün geniş spektr innovativ həllər təklif edən şirkətə çevrilmişdir.

"R.I.S.K." şirkətinin təklif etdiyi həllər yalnız ölkə daxilində və regionda deyil, ölkənin hüdudlarından kənarda da geniş surətdə tətbiq edilir.

"R.I.S.K." şirkətinin təklif etdiyi həllər spektri aşağıdakı sahələri əhatə edir: Elektron Hökumət üçün həllər; Bank və maliyyə sektoru üçün həllər; VoIP və Call Center; təhlükəsizlik üzrə həllər; İntellektual binalar; vəziyyətin təhlili və idarə edilməsi mərkəzləri; Korporativ şəbəkələr; IP-TV və Triple Play şəbəkələri; Kriptoqrafiya. Sistem İnteqrasiyası müxtəlif müəssisələrin biznes əməliyyatlarını avtomatlaşdırmaq üçün təklif edilən həllər kompleksinin hazırlanması, keyfiyyətli IT-xidmətlər, həmçinin, müvafiq konsaltinq, təlim, IT və biznes həllərin idarə edilməsini nəzərdə tutur. Sistem inteqrasiyası müasir biznes üçün mühüm əhəmiyyət kəsb edir və "R.I.S.K." şirkətinin sistem inteqrasiyası sahəsində təklif etdiyi xidmətlər dünya üzrə qabaqcıl texnologiyaların müştərilərə məxsus infrastrukturlara inteqrasiya edilməsi və onların fəaliyyət effektivliyinin yüksəldilməsinə yönəlmişdir.

"R.I.S.K." şirkətinin proqram tərtibatçıları tərəfindən yaradılan "PANDA" və "E-SƏNƏD" proqram məhsulları tətbiqi proqram təminatının yaradılması sahəsində ən bariz nümunələrdir. Hazırda dünyanın müxtəlif ölkələrində uğurla tətbiq edilən "R.I.S.K." şirkətinin qabaqcıl proqram təminatı məhsulları uçuş proseduralarının avtomatlaşdırılmış dizayn sistemi, sənəd

dövriyyəsinin avtomatlaşdırılması və digər proseslər üçün nəzərdə tutulmuşdur.

"R.I.S.K." şirkətinin nəzdində fəaliyyət göstərən GIS (Coğrafi İnformasiya Sistemi) mərkəzi 1997-ci ilin sonunda təsis edilmişdir. GIS uzaqdan idarəetmə və ətraf mühitdə mövcud obyektlər, planetimizdə baş verən hadisələr barəsində geniş təhlillərin aparılması üçün nəzərdə tutulan müasir kompüter texnologiyasıdır. Bu qabaqcıl texnologiya məlumat bazasını, ənənəvi əməliyyatları (axtarış və statistik təhlil), müfəssəl vizualizasiyanı, eyni zamanda xəritə əsasında aparılan coğrafi təhlili əhatə edir. Bu imkanlar sayəsində GIS digər informasiya sistemlərindən əsaslı surətdə fərqlənir. GIS sisteminin geniş sahədə tətbiqi üçün böyük imkanlar mövcuddur.

"R.I.S.K." informasiya texnologiyaları sənayesində "IBM", "Dell", "Cisco Systems", "EMC", "Avaya", "SUN Microsystems", "SAP", "Oracle", "Microsoft", "Leica Geosystems", "RAD Data Communications", "Emerson" kimi dünya miqyaslı İKT istehsalçılarının rəsmi partnyorudur.

"R.I.S.K." şirkətinin fəaliyyəti 2003-cü ildən etibarən ISO 9001:2000 beynəlxalq keyfiyyət standartına uyğun olaraq həyata keçirilir.

"AZEL" (Azərbaycan Elektronikası) 1991-ci ildə yaranmışdır, Azərbaycanın kompüter və ofis texnikası bazarında aparıcı yer tutur. Şirkət geniş çeşiddə təqdim olunan malların zəmanət və zəmanətdən sonrakı təmiri daxil olmaqla əmtəə və xidmətlər təqdim edir. Sifarişçilərlə əməkdaşlığın bütün mərhələlərində texniki dəstək və xidmətlər göstərilir. Mütəxəssislər kabelin çəkilməsindən başlayaraq proqram təminatının quraşdırılmasına qədər müxtəlif mürəkkəb işləri icra edirlər.

"AZEL" şirkətinin heyəti bütün növ informasiya texnologiyalarının dəstəyini təmin edə biləcək analitik, proqramçı, elektronika üzrə mütəxəssislərdən ibarətdir. Şirkətin prezidenti İqor Yakovenkodur.



İqor Yakovenko

Şirkət fəaliyyətində sistem inteqrasiyası, distribütorluq, texnika və proqram təminatının təchizi, həmçinin, xidməti dəstək və informasiya texnologiyaları sahəsində kompleks həlləri müvəf- fəqiyyətlə uyğunlaşdırır. Şirkət "Toshiba", "Samsung", "Intelsoft", "SONY", "Genius", "HP", "EPSON", "Canon", "JVC", "Pioneer", "APC" "IBM", "Lenovo" kimi aparıcı istehsalçı firmaların geniş çeşiddə avadanlıqlarını – kompüter texnikası, ehtiyat hissələr, noutbuklar, kompüter periferiyası, audio/video texnika, rəqəmsal foto/video kameralar, plazma televizoru və həmçinin, "Microsoft", "Symantec", "Kaspersky Lab.", "Symbol" və s. şirkətlərinin lisenziyalı proqram təminatını təqdim edir. 2003-cü ildə "AZEL" "Samsung", "Fujitsu-Siemens", "İntel" kimi tanınmış dünya istehsalçılarının dəstəyi ilə milli kompüterin istehsalına başlamışdır. 2004-cü ildə isə "AZEL" "Lazer" ticarət nişanı altında CRT və LCD monitorları, noutbukları və kompüter aksesuarları istehsal edir. "Lazer" texnikasının fərqləndirici xüsusiyyətlərindən biri onun yüksək keyfiyyəti və sərfəli qiymətidir. 2005-ci ildə "AZEL" şirkəti "Lazer" kompüterlərinin istehsalı, satışı və xidmət olunması sahəsində "Det Norske Veritas" (Norveç) şirkəti tərəfindən "ISO 9001:2000" beynəlxalq keyfiyyət standartlarına uyğunluq sertifikatına layiq görülmüşdür. 2003-cü ildə "AZEL" "İlin ticarət markası" nominasiyasında "Ugur" milli mükafatına və 2004-cü ildə "Ən uğurlu layihə" nominasiyasında "İntellekt" mükafatına layiq görülmüşdür.

Xidmət Mərkəzi "Sony", "Epson", "Samsung", "HP", "Toshiba" kimi kompaniyalar tərəfindən avtorizə edilmiş və keyfiyyətli təmir işlərini aparmaq üçün lazımi avadanlıqlarla təmin olunmuşdur.

"Ultra" şirkəti 1999-cu ildə təsis edilmişdir. Azərbaycanın və regionun aparıcı şirkətlərindən biri olan "Ultra" şirkətinin əsas fəaliyyət dairəsinə interaktiv İT həllər, proqramlaşdırma, İT məhsullarının istehsalı, idxalı və ixracı, dünyaca tanınmış İT korporasiyaların (Intelsoft, Microsoft, HP, Cisco və s.) Azərbaycanda rəsmi təmsilçiliyi və bu məhsulların distribütorluğu daxildir.

"Ultra" şirkəti "Intelsoft korporasiyasının Azərbaycanda "Intelsoft Technology Provider Platinum 2011" statuslu distribütorudur. Həmçinin, şirkət "Microsoft", "IBM", "HP", "Cisco", "Oracle", "Canon", "Sony",



Azərbaycan informasiya texnologiyaları sahəsində ildən-ilə uğurlarını artırır, müntəzəm olaraq Bakıda Beynəlxalq telelekommunikasiya və informasiya texnologiyaları sərgiləri təşkil olunur

Bu il biz birinci Azərbaycan telekommunikasiya peykini orbitə buraxacağıq. Bu, tarixi hadisə olacaqdır. Azərbaycan kosmik sənaye yaradır. Azərbaycan kosmik sənayeyə malik olan ölkələr sırasına daxil edilir. Bu, uzaqgörən siyasətimizin nəticəsidir... Azərbaycan bütün mütərəqqi və qabaqcıl texnologiyaları gətirməlidir... Telekommunikasiya o sahələrdəndir ki, burada müxtəlif və hər bir ölkənin inkişafı üçün vacib olan amillər cəmləşir. Bu, innovasiyadır, bilikdir, savaddır. Eyni zamanda, bu, böyük biznes sahəsidir. Yəni, ölkə iqtisadiyyatının inkişafı üçün bizə əlavə gəlirlər gələcəkdir. Bu, elmi-texniki tərəqqini şərtləndirən sahədir. Gələcəkdə informasiya-kommunikasiya texnologiyaları sahəsi dünyada aparıcı sahə olacaqdır və olmalıdır. Bu sahədə kim qabaqda gedirsə, o da söz sahibi olacaqdır. Çünki bugünkü dünya bundan 10 il, 20 il əvvəlki dünya deyildir. Texnologiyalar, informasiya təhlükəsizliyi, kiberhücumlara qarşı təhlükəsizlik tədbirləri artıq ön plana çıxır və gələcək dövrün güclər nisbəti də məhz bu sahədə müəyyən ediləcəkdir... Dünyanın aparıcı İKT şirkətləri Azərbaycana çox böyük maraqla və böyük hörmətlə yanaşırlar.

İlham Əliyev
16.01.2012

"Toshiba", "Tripp-Lite", "Genius", "Lynksys", "Apacer" və bir sıra beynəlxalq şirkətlərin Azərbaycanda rəsmi statuslu tərəfdaşıdır.

2003-cü ildə şirkət Azərbaycanda və Cənubi Qafqazda "NEXUS" ticarət markası altında ilk noutbuk və daha sonra kompüter və server istehsalına başlamış ilk şirkət olmuşdur.

2004-cü ildə "Ultra" şirkəti Intel Korporasiyası ilə birgə Azərbaycanda və Cənubi Qafqazda ilk dəfə Bakı Biznes Mərkəzində (Milli Park) simsiz internet əlaqəsini işə salmışdır.

"Ultra" şirkəti 2004-2005-ci illərdə Azərbaycanın təhsil müəssisələrində İT infrastrukturunun inkişafı proqramını reallaşdırmışdır.

2006-2007-ci illərdə "Ultra" şirkəti 4500 orta məktəbə multimediya avadanlığının (noutbuk, proyektorlar, ekranlar və s.) təchiz edilməsinə dair Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə müqavilə imzalamışdır.

"Ultra" şirkəti 2006-cı ildən "NEXUS" notbuklarını və personal kompüterlərini Rusiya, İran, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və digər ölkələrə ixrac edir.

"Ultra" şirkəti hazırda E-Təhsil, E-Sənəd Dövriyyəsi, E-İmza, E-Səhiyyə və s. kimi qlobal əhəmiyyətli iri elektron layihələrinin yerinə yetirilməsini həyata keçirməkdədir. Şirkət milli istehsal brendi "NEXUS" noutbuk, kompüter, monitor, proyektor, LCD/LED TV istehsalı ilə fəaliyyətini genişləndirir və xarici ölkələrdə bu milli brendin geniş yayılması üçün aktiv işlər aparmaqdadır.

"KÜR" Elektron Avadanlıqları İstehsalı MMC – 2005-ci ildə Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Teleradio" İstehsalat Birliyi və "SİNAM" şirkəti tərəfindən Mingəçevir şəhərində yaradılmışdır. Müəssisə Cənubi Qafqaz və Mərkəzi Asiyada konveyer üsulu ilə kompüter istehsalı ilə məşğul olan ilk istehsalat müəssisəsidir. "KÜR" müəssisəsinin yaradılması zamanı istehsalat prosesinin təşkili və yeni yüksək texnoloji məhsulun bazara çıxarılması üzrə Avropa və Tayvan təcrübəsi yaxından öyrənilmişdir. Müəssisənin istehsal gücü sutkada 140 kompüterin yığımını həyata keçirməyə imkan verir. Müəssisədə hazır kompüterlərin testdən keçirilməsi üçün termik kamera quraşdırılmışdır. Bu termik kamerada bütün hazır məhsullar 24 saat ərzində testdən keçirilir. Hal-hazırda "KÜR" müəssisəsində "KÜR" və "Prestije" ticarət markaları altında kompüterlər yığılır. Regionda analoqu olmayan bu əməkdaşlıq "KÜR" müəssisəsində istehsalın tam dünya standartlarına uyğun olmasından xəbər verir. Məhz buna görə 2006-cı ildə "KÜR" istehsalat müəssisəsi ISO 9001:2000 Beynəlxalq Keyfiyyət Sertifikatına layiq görülmüşdür və bu günə kimi ISO Keyfiyyət Sertifikatını saxlaya bilib. "KÜR" müəssisəsində digər elektron avadanlıqların da buraxılması nəzərdə tutulmuşdur.

İNFORMASİYA TEXNOLOGİYALARI – ƏQLİ MÜLKİYYƏT – ELEKTRON TİCARƏT (*IT-IP-e.com*) – biliklərə əsaslanan iqtisadiyyatda əqli mülkiyyətin, yeni informasiya texnologiyalarının və elektron ticarətin qarşılıqlı əlaqəsinin və təsirinin ifadəsi. Müasir şəraitdə informasiya texnologiyalarının (IT) və əqli mülkiyyətin (IP) bir-biri ilə qarşılıqlı əlaqəsi rəqəmli mühitdə elektron ticarətin ("E.com") daha da genişlənməsinə imkan yaradır (bax: Vergi sistemində elektron xidmət).

İNFORMASİYA TEXNOLOGİYALARININ ÜMUMİ NƏZARƏT ELEMENTLƏRİ (ing. *general IT-controls*) – bir çox tətbiqi proqramlarla bağlı olan və informasiya sistemlərinin fasiləsiz düzgün işləməsini təmin etməkdə yardımçı olaraq, tətbiqi nəzarət modullarının səmərəli fəaliyyətinə zəmin yaradan qayda və prosedurlar. İT-nin ümumi nəzarət elementlərinə, bir qayda olaraq, məlumat toplama mərkəzi və şəbəkə əməliyyatları; proqram sistemi təminatının əldə edilməsi, dəyişdirilməsi və texniki xidmətin göstərilməsi; giriş təhlükəsizliyi; tətbiqi sistemin əldə edilməsi, yaradılması və xidmətin göstərilməsi ilə bağlı nəzarət elementləri daxildir.

İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ – təşkilati-texniki tədbirlər kompleksi nəticəsində informasiyanın tamlığı və konfidensiallığının təmin edilməsi, informasiya sisteminin təhlükəsizliyinin göstəricisidir. Ayrı-ayrı fəaliyyət sferaları (dövlət idarəetmə sistemləri, banklar, informasiya şəbəkələri və s.) xüsusi informasiya təhlükəsizliyi tədbirlərinin tətbiqini tələb edir (sxem 1).

İNFORMASİYA TƏMİNATI – istehlakçıların peşə fəaliyyəti və ya sosial-məişət təcrübəsində informasiya ilə bağlı yaranan tələbatından asılı olaraq, müxtəlif şəxsləri və ya şəxslər qrupunu informasiya ilə təmin etmə prosesi.

İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ (İKT) İNKİŞAF İNDEKSİ – dünya ölkələrində İKT-nin inkişaf dinamikasını xarakterizə edən əsas göstərici hesab olunur və BTİ tərəfindən müəyyənləşdirilmiş bu göstərici İKT üzrə əsas göstəricilərin birgə təmsil olunması və ümumiləşdirilməsi, onların müvafiq dövrlər üzrə müqaviləsi ilə xarakterizə olunur. İndeks hesablanarkən 11 göstəricidən istifadə olunur. Dünya səviyyəsində hər bir göstərici üzrə ideal orta göstərici (median göstəricisi) və aqreqasiya üçün onların xüsusi çəkiləri müəyyənləşdirilmişdir. Hər bir göstərici üzrə ayrı-ayrı ölkələrin fərdi məlumatları müəyyən olunmuş orta göstəriciyə bölünür və həmin göstərici üzrə müəyyənləşdirilmiş xüsusi çəkiyə vurulur. Aqreqasiyada "İKT-yə giriş"

Cədvəl 1

Dünyanın 50 ölkəsində informasiya və kommunikasiya texnologiyalarının inkişaf indeksi


Ölkə	Reytinq, 2010	İndeks, 2010	Reytinq, 2008	İndeks, 2008
Cənubi Koreya	1	8,40	1	7,80
İsveç	2	8,23	2	7,53
İslandiya	3	8,06	7	7,12
Danimarka	4	7,97	3	7,46
Finlandiya	5	7,87	12	6,92
Honkonq, Çin	6	7,79	6	7,14
Lüksemburq	7	7,78	4	7,34
İsveçrə	8	7,67	9	7,06
Niderland	9	7,61	5	7,30
Böyük Britaniya	10	7,60	10	7,03
Norveç	11	7,60	8	7,12
Yeni Zelandiya	12	7,43	16	6,65
Yaponiya	13	7,42	11	7,01
Avstraliya	14	7,36	14	6,78
Almaniya	15	7,27	13	6,87
Avstriya	16	7,17	21	6,41
ABŞ	17	7,09	17	6,55
Fransa	18	7,09	18	6,48
Belçika	22	6,83	22	6,31
İrlandiya	23	6,78	19	6,43
Sloveniya	24	6,75	24	6,19
İspaniya	25	6,73	25	6,18
Kanada	26	6,69	20	6,42
Portuqaliya	27	6,64	29	5,70
İtaliya	28	6,57	26	6,10
Malta	29	6,43	31	5,68
Yunanıstan	30	6,28	30	5,70
Xorvatiya	31	6,21	36	5,43
BƏƏ	32	6,19	32	5,63
Estoniya	33	6,16	28	5,81
Litva	35	6,04	35	5,44
Çexiya	37	5,97	37	5,42
Polşa	38	5,95	41	5,29
Slovakiya	39	5,94	40	5,30
Latviya	40	5,90	39	5,31
Səudiyyə Ərəbistanı	46	5,42	55	4,13
Rusiya	47	5,38	49	4,42
Türkiyə	59	4,42	60	3,81
Ukrayna	62	4,34	59	3,83
Qazaxıstan	68	4,02	72	3,39
Ermənistan	72	3,87	86	2,94
Özbəkistan	110	2,55	110	2,22
Türkmənistan	111	2,50	111	2,15

adlı birinci və "İKT-dən istifadə" adlı ikinci qrupun hər birinin xüsusi çəkisi 40%, "İKT birlikləri" üzrə üçüncü qrupun xüsusi çəkisi 20%-dir. Birinci qrupun tərkibində hər bir göstəricinin xüsusi çəkisi 20%, ikinci və üçüncü qrupda isə 33% səviyyəsindədir. Göstəricinin üstünlüyü ondan ibarətdir ki, dünya ölkələri üzrə İKT-nin inkişaf səviyyəsini hər hansı fərdi göstərici ilə deyil, aqreqasiya olunmuş orta göstəricilər əsasında müqayisə etmək mümkündür. Birinci qrupda əhalinin hər 100 nəfərinə düşən əsas telefon aparatları, əhalinin hər 100 nəfərinə düşən mobil telefon abunəçiləri, bir internet istifadəçisinə düşən beynəlxalq internet kanallarının həcmi, kompüteri olan ev təsərrüfatlarının xüsusi çəkisi, evdə internetə girişi olan ev təsərrüfatlarının xüsusi çəkisi, ikinci qrupda hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı, hər 100 nəfərə düşən geniş zolaqlı internet istifadəçilərinin sayı, hər 100 nəfərə düşən geniş zolaqlı mobil istifadəçilərin sayı, üçüncü qrupda isə əhalinin savadlılıq səviyyəsi, ali və orta təhsilin ümumi qeydiyyat əmsalı göstəriciləri əsas götürülür.

İNFORMASİYALAŞDIRMA – informasiyanın yaradılması, yığılması, işlənməsi, toplanması, saxlanması, axtarışı və yayılması şərtlərinin işlənib hazırlanmasında və reallaşmasında təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir. Başqa sözlə, perspektiv informasiya texnologiyalarının işlənib hazırlanması və istifadəsi əsasında insanların, təşkilatların, cəmiyyətin bütün strukturlarının informasiya tələbatlarının ödənilməsində optimal şərtlərin yaradılmasının sosial-iqtisadi və elmi-texniki prosesi.

İnformasiyalaşdırmanın başlıca vəzifəsi informasiya tələbatla-

İnformasiya təhlükəsizliyinə xələl yetirə biləcək 10 ən böyük təhlükə



Qrafik 1

rının ödənilməsi və vətəndaşların, dövlət idarəetmə orqanlarının, yerli özünüidarəetmə orqanlarının, təşkilatların (o cümlədən təsərrüfat subyektlərinin), ictimai təşkilatların hüquqlarının təmin edilməsidir. Bu vəzifənin həlli informasiyalaşdırma layihələrinin işlənib hazırlanmasında və reallaşmasında investisiyaların cəlb edilməsi metodlarının və stimullaşdırıcı mexanizmlərin yaradılması və təkmilləşdirilməsi; informasiya məhsullarının və xidmətlərinin sivilizasiyalı bazarının inkişafı və müdafiəsi üçün şərtlərin təmin edilməsi; qlobal, regional, dövlətlərarası, sahələrarası, sahə və digər informasiya sistemlərinin və şəbəkələrinin yaradılması və inkişafı; onların uyğunluğunun və qarşılıqlı fəaliyyətinin təmin edilməsi ilə şərtlənir. İnformasiyalaşdırmanın başlıca məqsədi zəruri infrastrukturun yaradılmasıdır ki, bunsuz hər hansı bir səviyyədə və miqyasda olan iqtisadi (və digər) sistemlərin səmərəli fəaliyyət göstərməsi, eləcə də onların idarə edilməsi mümkün deyil. Buna görə də informasiyalaşdırma sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid prosesi kimi nəzərdən keçirilməlidir. Bir sıra inkişaf etmiş ölkələrdə kompüter texnikasının, elektronikanın və telekommunikasiyanın ümumi xərcləri energetika xərclərini inamla üstələyir ki, bu da onların informasiya əsrinə qədəm qoymasını əyani surətdə nümayiş etdirir.

İnformasiyalaşdırma prosesinə müəyyən təsir göstərən üç tərkib elementini ayırmaq olar: a) hesablama texnikasının və rabitə texnikasının proqram-aparat vasitələri; b) informasiya texnologiyaları; c) istifadə olunan informasiya sistemləri.

Birinci tərkib elementi üçün fərdi kompüterlər, o cümlədən evdə istifadə etmək üçün nəzərdə tutulan kompüterlərə bazar tələbinin üstün olması xarakterikdir. Dünyada fərdi kompüterlərin göndərilməsinin həcmi ildə 25-30% artır; məlumatların ötürülməsi şəbəkələrinin illik artım sürəti 20%-dən, lokal şəbəkələrin illik artım sürəti isə 50%-dən artıqdır. Dünya informasiya texnologiyaları bazarının həcmi ildə 6-7% artır.

İkinci tərkib elementi aşağıdakıları ehtiva edir: kompüter proqramları (o cümlədən elektron dərsliklər, test sistemləri, trenajorlar və s.); müxtəlif predmet sahələrində istifadə olunan intellektual ekspert sistemləri; bölüşdürülmüş məlumat bazarı, elektron kitabxanalar, nəşriyyat sistemləri; telekommunikasiya vasitələri (o cümlədən elektron poçt, telekonfranslar, məlumatların mübadiləsi şəbəkələri və s.); informasiya təhlükəsizliyi texnologiyaları.

Üçüncü tərkib elementi hesablama texnikası vasitələrinin istifadəsi üzrə biliklərin və qabiliyyətlərin cəmidir; bu cəmi təşkilatların fəaliyyətinə informasiya texnologiyasının nüfuzetmə dərəcəsindən, yəni son nəticədə cəmiyyətin informasiya mədəniyyətindən asılı olan ictimai tədrisin səviyyəsi kimi müəyyən etmək olar.

İNFORMASİYANIN İSTİFADƏÇİSİ – 1. Məxfi informasiyadan istifadə etmək barədə müvafiq səlahiyyətlərə malik olan təşkilat, firma, şirkət, digər hüquqi şəxs və ya vətəndaşlar (fiziki şəxslər). 2. Etibarlı və gərəkli informasiya əldə etmək məqsədilə informasiya sisteminin xidmətlərinə müraciət edən və alınmış məlumatlardan, informasiyadan başqa şəxslərə zərər vurmadan öz məqsədləri üçün istifadə edən subyekt.

Uçot informasiyasının istifadəçisi – sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla iqtisadi qərarlar qəbul etməsi üçün investisiyalar və borclar haqqında informasiyaya zəruri ehtiyacı olan hüquqi və fiziki şəxslər. Uçot informasiyasının istifadəçiləri beş əsas qrupda cəmləşirlər:

1) investorlar;

2) informasiya vasitəçiləri (maliyyə sahəsində mütəxəssislər, qiymətli kağızların məzənnələri üzrə agentliklər, investisiya informasiya xidmətlər və broker firmaları);

3) uçotun metodologiyasını həyata keçirən və ona nəzarət edən orqanlar;

4) inzibati idarəetmə aparatı;

5) auditorlar.

İNFORMATİKA – informasiyanın ümumi xassələri və strukturunu, eləcə də onun yaradılmasının qanunauyğunluqlarını və prinsiplərini, insan fəaliyyətinin müxtəlif sahələrində informasiyanın məruz qaldığı dəyişiklikləri, onun yığılması, ötürülməsi və istifadəsi proseslərini öyrənən elm sahəsi. Dar mənada, informatika müasir kompüter texnologiyalarının və informatikanın sintezi kimi nəzərdən keçirilir.

İNFORMATİV REKLAM – malın bazara çıxarılması mərhələsində ilkin tələbatı formalaşdırmaq lazım olanda tətbiq edilir.



İnformativ reklamın vəzifələri:


– yenilik haqqında və ya bazarda artıq mövcud olan malın tətbiqinin yeni üsulu haqqında məlumat verir;

– malın qiymətinin dəyişməsi barədə bazarı məlumatlandırır.

Malın təsir prinsiplərini izah edir. Təklif edilən və ya göstərilən xidmətləri təsvir edir;

– mal haqqında düzgün olmayan təsəvvürün təshih edilməsi və ya istehlakçıların əsassız təşvişinə son qoyur. Firmanın imicinin və ya obrazının formalaşmasına kömək edir.

İnformativ reklam



Qrafik 1

İNFORMATİVLƏŞDİRMƏ – müvafiq texnologiyalardan istifadə nəticəsində istehlakçıların informasiya tələbatının ödənilməsi üçün şərait yaradılması prosesi.

İNFRAKSİYA – şərtlərin, müqavilənin və kontraktın pozulması.

İNFRAMARJİNAL RENTA (ing. *inframarginal rent)* – Qərb ölkələrində iqtisadi ədəbiyyatda qəbul edilmiş fikrə görə, rentanın bu növü tətbiq edilən resursların bir vahidinin haqqı ilə həmin vahidin resurslar bazarında minimum təklifi arasındakı fərqə bərabərdir. Resurslar onun tərkibindəki hər vahidin bazara çıxmağa hazırlıq dərəcəsinə görə fərqlənir.

İnframarjinal renta resursları bir-birindən öz keyfiyyətinə (məhsuldarlıq, faydalılıq və s.) görə deyil, yalnız onların bazarda təklifinin fəallıq dərəcəsinə görə fərqlənir.

İşçi qüvvəsi bazarında inframarjinal renta əmək haqqının müxtəlif çəki əmsalları üzrə qiyməti ilə işçinin başqa iş yeri axtarmazdan əvvəl razılaşacağı minimum əmək haqqı arasındakı fərq kimi müəyyən edilir.

İşçinin seçiminə təsir göstərən amillər:

1. İş vaxtının, iş yerinin yerləşmə ərazisinin, təmin edilmə dərəcəsinin, əmək şəraitinin seçim baxımından üstünlükləri.

2. İşçilərin iş axtararkən üzləşdikləri məhdudiyyətlərin (yaş, cins, təhsil və s.) olmaması.

İşçi qüvvəsi bazarı tarazlıq vəziyyətində olduqda məşğul işçilərin əksəriyyəti sərf etdiyi əməyin alternativ dəyərindən artıq

əmək haqqı, yəni inframarjinal renta alır.

İNFRANŞİZMENT – səssiz səhmlərin sahiblərinə səs hüququ verilməsi prosesi.

İNFRASTRUKTUR (lat. *infra* – aşağı, altında; *structura* – tikili) – məfhumu iqtisadi təhlildə ilk dəfə silahlı qüvvələrin həyat qabiliyyətini təmin edən obyekt və qurğuları göstərmək üçün istifadə olunmuşdur (XX əsrin əvvəli).


Hazırda istehsala xidmət göstərən istehsal infrastrukturunu (nəqliyyat, rabitə, topdansatış ticarəti və s.), fəaliyyəti şəxsi tələbatların ödənilməsinə, əhalinin həyat fəaliyyətinin və intellektual inkişafının təmin edilməsinə yönlənmiş xidmət sahəsi obyektlərinin (əhaliyə xidmət edən nəqliyyat və rabitə, təhsil, səhiyyə, sosial təminat və s.) cəmindən ibarət sosial infrastrukturu, həmçinin bazar infrastrukturunu fərqləndirirlər.

Bazar infrastrukturu əmtəə və xidmətlərin hərəkətlərini, alqı-satqı aktlarını və ya bazara xidmət edən, onun normal rejimdə fəaliyyətinin təmini üzrə müəyyən funksiyaları yerinə yetirən institutlar, sistemlər, xidmətlər, müəssisələrin cəmini əhatə edən təşkilati-hüquqi formaların məcmusudur.

Müasir bazarın infrastrukturunun əsas elementləri bunlardır:

– birjalar (əmtəə, xammal, fond, valyuta), onların təşkilati rəsmiləşdirilmiş vasitəçiliyi;

İnfrastruktur obyektləri necə yaradılır və necə fəaliyyət göstərir



Sxem 1

– hərraclar, yarmarkalar və s. təşkilati qeyri-birja vasitəçiliyi formaları;

– kredit sistemi və kommersiya bankları və s.

Respublikamızda islahatlaşma prosesində infrastruktur sahələrinin inkişafı diqqət mərkəzində olmuşdur. Həm sovet dövründən miras qalan köhnə infrastrukturların, həm də bazar iqtisadiyyatının yaranması ilə meydana gələn infrastrukturların inkişafı tələb olunur. İstehsal infrastrukturları istehsal sahələri inkişaf etdikcə ona uyğunlaşdırılmalı, sosial infrastruktur sahələri isə yeni tələblərə, əhalinin rifahının, turizmin inkişafına cavab verməlidir (mehmanxana təsərrüfatının, yol şəbəkəsinin və s. inkişafı). Məsələn, neft hasilatı və emalının genişlənməsi, neft-qaz sənayesinin inkişafı, onunla əlaqədar kəmərlərin, loqistikanın, satış bazalarının inkişafı zərurətini yaratmışdır. Bazar infrastrukturu isə bazar iqtisadi sisteminə keçidlə əlaqədar meydana gəlir.

İNGİLİS AUKSİONU – sonrakı hərraclar üçün başlanğıc, bazis qiyməti kimi minimal qiymət müəyyən edilməsinə əsaslanan auksion. Bu hərrac prosesində tələb edilən qiymət tədricən artır. Yekun qiymət hərracın gedişində alıcılar tərəfindən təklif edilmiş maksimum qiymət kimi formalaşır.

İNHİSAR (monopoliya) (yun. *monos* – tək, *poleo* – satıram) – 1. Tək və ya qrup halında şəxslərin, dövlətin hər hansı bir məhsulun, xidmətin istehsalına və ya mənimsənilməsinə, müəyyən malların ticarətinə müstəsna (inhisar) hüququ. 2. Sahəvi,

Cədvəl 1

Dünyada antiinhisar qanunvericiliyi üzrə qaldırılan işlərin sayı

İl	İri satıcılar tərəfindən rəqabətin məhdudlaşdırılması (AB və Rusiyada dominantlıqdan sui-istifadə etmə halları)	Razılaşma və ya razılaşdırılmış fəaliyyət nəticəsində rəqabətin məhdudlaşdırılması	Udulmalara ilkin nəzarət
1996	Rusiya: 1296 ABŞ: 147 AB: (11)	Rusiya: 105 AB: (4)	Rusiya: ~20000 ABŞ: 3094 AB: 131
2003	Rusiya: 1378 ABŞ: 148 AB: (4)	Rusiya: 156 AB: 30 (6)	Rusiya: ~20000 ABŞ: 1014 AB: 211
2008	Rusiya: 1639 ABŞ: 82	Rusiya: 359 AB: 37 (7)	Rusiya: 5821 ABŞ: 1656 AB: 347

Mötərizədə qeyd olunanlar Avropa rəqabət üzrə komissiyası tərəfindən qanunvericiliyin pozulması barədə qəbul olunan qərarların sayıdır.

Cədvəl 2

Müasir dünyada ən iri inhisarlar

TMK-nın adı	Ölkə	Əsas məhsul növləri	İldə satış dövriyyəsi, mlrd. dollarla
"General motors"	ABŞ	Avtomobil və hissələri	130
"Exxon"	ABŞ	Neft və neft məhsulları	70
"Royal Dutch Shell"	İngiltərə və Niderland	Neft və neft məhsulları	65
"Ford motors"	ABŞ	Avtomobil və hissələri	63
"İnternational Business Machines"	ABŞ	EHM, orqtexnika	51
"Mobil"	ABŞ	Neft və neft məhsulları	45
"British Petroleum"	İngiltərə	Neft və neft məhsulları	40
"General Electric"	ABŞ	Elektrik avadanlıqları	35
"American Telephon and Telegraph"	ABŞ	Elektrik avadanlıqları	34

milli və ya dünya bazarında hegemon mövqe tutan müəssisə (müəssisələr qrupu). İnhisar, bir qayda olaraq, şəxsi, fərdi, qrup halında və ya səhmdar mülkiyyətində olan, məhsul istehsalına və satışına nəzarət edən iri təsərrüfat birlikləridir (kartellər, sindikatlar, konsernlər, trestlər, konsorsiumlar və s.). İstehsalın və kapitalın yüksək səviyyədə mərkəzləşməsi əsasında inhisar yüksək mənfəət götürmək məqsədilə qiymətləri müəyyən edir və onları nəzarətdə saxlayır.

İstehsalın inhisarlaşması bazar iqtisadiyyatının rəqabətli potensialını "sıxışdırır", qiymətlərin artmasına, istehsalın həcminin aşağı düşməsinə, həddən artıq mənfəətlərə gətirib çıxarır. Təcrübədə bütün digər istehsalçılara qiymət diktə etmək üçün buraxılan məhsulun təxminən 80%-i üzərində kifayət qədər inhisarçı nəzarəti mövcuddur. Bütün inkişaf etmiş ölkələrdə antiinhisar qanunvericiliyi var.

3. Bir və ya bir neçə müəssisə tərəfindən nəzarət olunan bazar forması; monopsoniya və oliqopoliya şəklində təcəssüm edə bilər. İnhisarın aşağıdakı növlərini fərqləndirirlər: bağlı (hüquqi qadağaların və məhdudiyyətin köməyi ilə rəqabətdən müdafiə olunan, çox zaman dövlət inhisarı); təbii (belə inhisar olmadan resursların səmərəli istifadəsinə nail olmaq qeyri-mümkün olar); açıq (bu zaman hadisələr elə inkişaf edir ki, bir forma yeganə istehsalçı və malgöndərənə çevrilir).

İNHİSARÇI AŞAĞI QİYMƏT – davamlı tələbat vaxtı gəlirlərin (mənfəətin) qəsdən azaldılması hesabına qısamüddətli dövrdə başqa təsərrüfat subyektlərinin bazara girişini çətinləşdirən və beləliklə, müəyyən əmtəə bazarında rəqabəti məhdudlaşdıran qiymət.

İNHİSARÇI GƏLİR – inhisarların gəlir forması. İnhisar mənfəətini inhisar qiyməti yaradır. İnhisarların böyük iqtisadi gücü sahədaxili və sahələrarası rəqabəti boğmağa və bazara öz məhsulunun qiymətini diktə etməyə imkan verir. Bu, onlara inhisarçı mənfəəti əldə etməyə imkan verir. İnhisarçı gəlirin əsas mənbəyi – inhisarçıların müəssisələrində hasil edilən əlavə dəyərdir. İnhisarçı istehsal, bir qayda olaraq, texniki təchizatda, resurslarla təminatda, istehsal məsrəflərinin daha aşağı səviyyəsində üstünlüyə malikdir. İnhisarçılar bazardakı üstün vəziyyətlərindən sui-istifadə edərək, qiymətləri əsasız olaraq qaldırırlar. Dövlət tənzimlənməsi rentabelliyin son həddini və ya məhsuluna qiymətlərin son həddini müəyyən etmək yolu ilə inhisarçı mənfəətin əldə olunmasında inhisarçıları məhdudlaşdırmağa qadirdir.

İNHİSARÇI RENTA (ing. *monopoly rents*) – bazar təsərrüfatında torpaq rentasının xüsusi forması. Torpaq rentasının bu xüsusi forması kənd təsərrüfatı məhsullarının müəyyən növlərinin onların dəyərindən yüksək olan inhisarçı qiymət üzrə satılması zamanı yaranır. Kənd təsərrüfatında və hasilat sənayesində əkinçilik məhsullarının müəyyən növlərinin, metalların, minerallarının və digər faydalı qazıntıların satışında tətbiq edilir. Bu cür mallara tələbat sabit, özü də təklifdən xeyli yüksək olur, çünki başqa yerlərdə onların təkrar istehsal edilməsi üçün şərait yoxdur. Bunun nəticəsində yaranan inhisarçı rentanın səviyyəsi istehsal qiyməti və əmtəənin dəyəri ilə deyil, alıcıların həmin əmtəəyə tələbatı və onların tədiyə qabiliyyəti ilə müəyyən edilir. Əmtəələrin inhisar qiyməti üzrə satışından yaranır. Kənd təsərrüfatında inhisarçı renta nadir kənd təsərrüfatı bitkiləri (məsələn, xüsusi üzüm sortları və s.) becərilən torpaqlarda, hasilat sənayesində isə nadir metal çıxarılması zamanı əmələ gəlir. Nadir əmtəələrin istehsalı üçün əlverişli şəraiti olan torpaq sahələrinin məhdudluğuna və bu əmtəələrə tələbin yüksəkliyinə görə onları bazarda dəyərindən artıq qiymətə satmağa imkan yaranır. Belə hallarda bu cür sahələri icarəyə götürmüş sahibkarlar torpaq mülkiyyətçilərinə yüksək icarə haqqı verməyə məcbur olurlar. İnhisarçı renta torpaq mülkiyyətçisinin əlavə gəliridir. Kənd təsərrüfatında inhisarçı renta xüsusi bitkilərin, məsələn, dadlılıq keyfiyyətlərinə görə nadir şərab növlərinin hazırlanmasından ötrü seçmə üzüm sortları becərilməsi üçün ayrılmış torpaqlarda alınır. Torpaq sahələrinin məhdud olması və məsələn, kənd təsərrüfatı məhsullarının xüsusi növlərinin yetişdirilə biləcəyi iqlim şəraiti ilə bağlı xüsusi böyümə şərtləri ilə əlaqədar, həmin məhsulları onların dəyərindən daha çox alıcının tələbatı və tədiyə qabiliyyəti ilə şərtlənən qiymətlər üzrə satmaq imkanı yaranır. Bu yolla istehlakçının hesabına əldə edilən əlavə mənfəət inhisarçı torpaq rentasıdır.

İnhisarçı renta torpaq mülkiyyətçilərinin əlavə gəliri, onun mənbəyi isə iqtisadiyyatda çalışan muzdlu işçilərin yaratdığı izafi dəyərdir.

İnhisarçı rentanın yaranmasının şərti inhisarçı qiymətidir. Bazar qiymətinin bu növü inhisarçının satdığı və ya onun almadığı mal üçün həmin malın istehsal xərclərindən asılı olmayaraq inhisarçı tərəfindən müəyyən edilir. İnhisarçı rentanı reallaşdırmağın bir forması da prestijli evdə və ya rayonda binaların və ya mənzillərin icarə haqqının artırılması ola bilər. Belə hallarda inhisarçı rentasının yaranması səbəbləri və şərtləri torpaq sahibliyində olduğu kimidir.

İNHİSARÇILIQ – müəyyən fəaliyyət sahələrində subyektin (ayrı-ayrı şəxslərin, şəxslər qrupunun, təşkilatın, firmanın, dövlətin) müstəsna (inhisarçı) hüququ vasitəsilə maraqlarının reallaşdırılması, başqa sözlə, hər hansı bir fəaliyyət üçün dövlətə, müəssisəyə, təşkilata və ya fiziki şəxsə verilən müstəsna hüquq. İnhisarçılıq siyasi cəhətdən şəxs və ya şəxslər qrupunun (o cümlədən partiyanın), bütünlükdə siyasi hakimiyyətin mənimsənilməsi ilə bağlıdır. Bu, diktatura, avtoritar təzahürlər formasında reallaşdırılır və bir qayda olaraq, idarəetmənin iqtisadi meyarlarının zəbt edilməsi ilə müşahidə edilir.

İnhisarçılıq iqtisadi cəhətdən subyektin (şəxsin, şəxslər qrupunun, təşkilatların, dövlətin) iqtisadiyyatının müəyyən sferasında – istehsalda, bazarlarda (əmtəə, maliyyə, kapital və s. bazarlarında) müstəsna (inhisar) hüququ vasitəsilə iqtisadi maraqlarının reallaşdırılmasıdır. İqtisadi inhisarçılıq iki formada realizə edilir: a) təbii inhisar formasında; b) süni inhisar formasında. Təbii inhisarçılıq subyektin, əsasən inhisarçı birliklərin nadir resursların (xüsusilə hava şəraitli torpaqlar, faydalı qazıntı yataqları) təsərrüfatçılıqda istifadəsinə müstəsna hüququ vasitəsilə iqtisadi maraqlarının reallaşdırılmasıdır. Bu resursların təbii məhdudluğu və onların istifadəsinə inhisarçı hüquq inhisarçıya imkan verir ki, məhsulun qiymətini müəyyənləşdirsin və bir qayda olaraq, orta səviyyəni mühüm dərəcədə ötüb-keçən inhisarçı mənfəəti əldə etsin. İnhisarın ən sadə klassik formaları pul, rinq, konvensiya, korner olmuşdur.

Süni inhisarçılıq subyektin (birləşən firma qrupları) iqtisadi fəaliyyətinin müəyyən sferasında müstəsna hüququnun tətbiq edilməsi ilə iqtisadi maraqlarının reallaşdırılmasıdır. Süni inhisarçılıq istehsalın mərkəzləşdirilməsi və ayrı-ayrı mallara, texnikaya, texnologiyaya və s. dayanıqlı inhisarlar nəticəsində XIX-XX əsrlərdə kütləvi inkişafda olmuşdur. İnhisarçı birliklər – kartellər, konqlomeratlar, konsorsiumlar, konsernlər, sindikatlar, trestlər və s. iri mülkiyyətçilərin maksimum yüksək mənfəət əldə edilməsi üçün inhisarlaşdırılmış sferada iqtisadi münasibətlərin tənzimlənməsi məqsədilə yaradılmış ittifaqlar, birliklərdir.

Hazırda müasir transmilli xarakterli inhisarlar – transmilli korporasiyalar (TMK) formalaşmışdır.

Süni inhisarlar kapitalın mərkəzləşməsi və bazarın tənzimlənməsi üsulu kimi elmi-texniki tərəqqidə (ETT) böyük rol oynamışdır. Əlavə yüksək mənfəətin əldə edilməsinə istiqamətlənərək, süni inhisarçılıq informasiya resurslarının mühüm rol oynadığı zaman yeni inkişaf mərhələsinə keçidi təmin edərək, istehsalın inkişafını kəskin şəkildə sürətləndirmişdir.

İnhisarçılığın neqativ tərəfi inhisarçı hakimiyyətlə əlaqədardır ki, bu da rəqabəti "boğmağa" şərait yaradır, qiymətlərə nəzarət edir, durğunluğa meyli artırır. İnhisarçılığın neqativ nəticələri yaradıcı fəaliyyət sferası (elm, incəsənət və s.) üçün xüsusilə böyükdür. Yaradıcı fəaliyyət sferaları (elm, incəsənət və s.) üçün inhisarçılığın neqativ nəticələri – yad fikirliliyin, digər ideyaların, məktəblərin rəqabətinin, problemlərin həlli variantlarının və s. boğulması xüsusilə böyükdür. İqtisadiyyatın inhisarçılığının mənfi tərəflərinin kənarlaşdırılmasına inkişaf etmiş ölkələrdə antiinhisar tənzimlənməsi metodları ilə, o cümlədən qanunverici, inzibati (inhisarların fəaliyyətinə daimi dövlət monitorinqi, düzgün olmayan qərarların ləğvi), iqtisadi (cərimələr və s.) metodlarla nail olunur. Ölkədə antiinhisar tənzimlənməsini həyata keçirmək məqsədilə 1993-cü il martın 4-də "Antiinhisar fəaliyyəti haqqında", 1998-ci il dekabrın 15-də isə "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir. Bu qanunlar təsərrüfat subyektlərinin, yaxud icra hakimiyyəti və idarəetmə

orqanlarının rəqabətə yol verməməyə, onu məhdudlaşdırmağa, yaxud aradan qaldırmağa yönəldilmiş fəaliyyətləri tənzimlənir.

İNHİSARSIZLAŞMA (DEMONOPOLİZASİYA) – iqtisadi siyasət və qanunvericilik çərçivəsində, rəqabətin inkişafına və inhisarların fəaliyyətinin məhdudlaşmasına yönəldilən kompleks tədbirlər, başqa sözlə, rəqabətin inkişafına və bazara inhisarçı təzyiqin zəiflədilməsinə yönəldilmiş dövlət siyasətidir. Qanunvericilik tədbirlərinin köməyi ilə həyata keçirilir. Ümumi halda inhisarsızlaşma dövlətin antiinhisar siyasətinin nəticəsi olub, bir qayda olaraq, iki istiqamətdə aparılır. Birinciyə bazarların ardıcıl liberallaşması aiddir. Belə tənzimləmə özünəməxsus antiinhisar profilaktikası kimi çıxış edir. Bu, iri biznes üçün səmərəsiz olan inhisarçı davranışa yönəlmişdir. Eyni zamanda xüsusilə kiçik və orta sahibkarlığın stimullaşması, xarici sahibkarlar üçün daxili bazarların açılması, xarici investorlar üçün investisiya mühitinin aşağı salınması; lisenziyalaşdırma prosedurlarının sadələşdirilməsi; inhisarların məhsulları ilə rəqabət apara bilən məhsul istehsalının müdafiəsi və s. baş verir.

İkinci istiqamət inhisara təsir üsullarını birləşdirir. Bu daha çox inhisar üzərində inzibati nəzarət tədbirləri – qiymətlərin, məhsulun kəmiyyət və keyfiyyətinin maliyyə sanksiyalarıdır ki, antiinhisar qanunvericiliyinin pozulması zamanı tətbiq olunur.


Hüquqi tənzimləmə normalarını, yəni inhisarların fəaliyyətinin məhdudlaşmasına yönəldilən antiinhisar qanunvericiliyini xüsusi qeyd etmək lazımdır. Qərb ölkələrində antiinhisar qanunvericiliyi öz-özlüyündə şirkətlərdə tətbiq olunmur. Belə ki, şirkətin irihəcmli olması onun inhisar olması demək deyil – onların bazarda haqsız rəqabət aparmasına qarşı tətbiq edilir.

Ümumiyyətlə, inhisarsızlaşdırma dövlətin həyata keçirdiyi antiinhisar siyasətinin nəticəsi olub, iki istiqamətdə aparılır. Birinci istiqamət bazarın mərhələli liberallaşdırılmasıdır. İnhisarın özünə dəyməsə də, belə tədbirlər nəticəsində iri biznesin fəaliyyəti üçün qeyri-münbit şərait yaradılır. Eyni zamanda kiçik və orta sahibkarlıq sferası stimullaşdırılır, daxili bazarların xarici kapital üçün açıqlığı təmin olunur, investisiya mühiti yaxşılaşdırılır, gömrük rüsumları aşağı salınır, lisenziyalaşdırma sadələşdirilir. İkinci istiqamət isə inhisara qarşı mübarizə metodlarını özündə birləşdirir. Bu, əsasən, inhisar üzərində inzibati nəzarət, qiymətlərin tənzimlənməsi və inhisarlara qarşı maliyyə sanksiyalarının tətbiqidir.

İNHİSAR VERGİSİ (ing. *monopoly tax*) – inhisarçı tərəfindən alınan əlavə mənfəətdən dövlət tərəfindən tutulan vergi.

İNJİNİRİNQ (ing. *ingineer, lat. ingenium* – ixtiraçılıq) – istehsal, kommersiya və elmi-texniki xarakterli xidmətlər kompleksinin təklif edilməsi istehsal mərhələsinə qədər elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin (ETTKİ) çatdırılması üzrə fəaliyyət növü (bax: sxem 1, 2, 3, 4, 5). Başqa sözlə, hər şeydən əvvəl, müxtəlif mühəndis-məsləhət xidmətlərinin kommersiya əsasında verilməsi formasında sənaye, infrastruktur və digər obyektlərin yaradılması məsələlərinin işlənməsi üzrə fəaliyyət sferası.

Snaprocetti şirkətinin injinirinq xidmətləri



Sxem 1

Əsas injinirinq xidmətləri siyahısına aiddir: layihənin məqsədəuyğunluğunun marketinq tədqiqi; onun reallaşmasının texniki imkanlarının öyrənilməsi; ilkin layihənin tərtib olunması və yerə olan tələblərin müəyyənləşdirilməsi; iş layihəsinin tərtib edilməsi, avadanlığa dair hərracın hazırlanması və həyata keçirilməsi; mühəndis-tikinti işlərinə dair hərracın hazırlanması və həyata keçirilməsi; avadanlığın hazırlanması üzərində nəzarət; tikinti-quraşdırma işləri üzərində nəzarət; şəxsi heyətin hazırlanmasına yardım; maddi-texniki təchizat konsepsiyasının işlənib hazırlanması; obyektin istismara buraxılması və sifarişçiyə tam hazır halda təhvil verilməsi; obyekt təhvil verildikdən sonra müşahidə aparılması, məsləhət və s.

İnjinirinqin elm və istehsal arasında mövqeləşdirilməsi




Sxem 2

Mühəndis xidmətlərinin iki növü fərqləndirilir: daxili və ixrac. İxrac injinirinq xidmətləri, o cümlədən müşayiətedici lisenziyaları, "nou-hau"nu və s. nəzərdə tutan beynəlxalq kommersiya əlaqələrindən biridir. İnjinirinq xidmətlərini sənaye-tikinti şirkətləri, ixtisaslaşmış mühəndis-məsləhətçi firmalar da göstərir. İri mühəndis tikinti firmaları mühəndis xidmətlərinin bütöv siyahısını yerinə yetirir, qalanlarını ayrı-ayrı işçilər yerinə yetirir. Adətən, mühəndis firmaları digər təşkilatları da cəlb edirlər ki, bu da onlara çox mürəkkəb və miqyaslı işləri yerinə yetirməyə imkan verir.

İNJİNİRİNQ FİRMASI – məhsulun istehsalı və satışı prosesinin layihələşdirilməsi, hazırlanması və təmin edilməsi. Sənaye, kənd təsərrüfatı və başqa təyinatlı obyektlərin tikintisinə və istismarına xidmətlər göstərilməsini kommersiya qaydasında həyata keçirən firma. İnjinirinq xidmətləri bazarının əsas subyektləri – iri sənaye şirkətləri, tikinti-podrat firmaları, müstəqil ixtisaslaşdırılmış injinirinq və müasir injinirinq məsləhət firmalarıdır. İnjinirinq xidmətlərinin alınması barədə kon-

Sahə həyat tsikllərinin təhlilindən injinirinq xidmətlərinədək mərhələlər



Sxem 3

traktda bu xidmətlərin siyahısı, onların həyata keçirilməsinin təşkilati şərtləri, eləcə də qiymətlər və ödənişin qaydaları əks etdirilir.

İnjinirinq xidmətlərinin tam tsiklinə aşağıdakılar daxildir: layihə işləri mərhələsi (layihənin marketinq baxımından məqsədəuyğunluğunun, satışla bağlı texniki imkanların ilkin tədqiqi, texniki-iqtisadi əsaslandırma), layihələşdirmə (layihənin, baş planların və sxemlərin, işçi çertyojların tərtib edilməsi); layihədən sonrakı mərhələ (avadanlıq və mühəndis-inşaat işləri üçün hərracların hazırlanması, avadanlığın hazırlanmasına nəzarət və s.); obyekt istifadəyə verildikdən sonra onun istismarı və buraxılan məhsulun satışı ilə əlaqədar tövsiyə edilən xidmətlər.

İnjinirinq xidmətləri göstərən şirkətlərin təkamülü

Sənaye obyektlərinin layihələşdirilməsi üzrə injinirinq kompaniyaları	**İndustrial əsasda infrastruktur obyektlərinin yaradılması üzrə injinirinq kompaniyaları və konsorsiumları**	Müasir infrastruktur obyektlərinin yaradılması üzrə ixtiyari məsələləri kompleks həll edən ixtisaslaşdırılmış injinirinq xidmətləri
150 il əvvəl	40 il əvvəl	İndi


Sxem 4

İNKASSASİYA – nağd pulun müəssisələrin kassalarında yığılması və onların bu müəssisələrə xidmət edən bankların kassalarına çatdırılması, başqa sözlə, inkasso əməliyyatlarının həyata keçirilməsi. İnkassasiya müştərilərlə müqavilələr vasitəsilə ixtisaslaşmış xidmətlər əsasında həyata keçirilir. Bu zaman inkassasiyanın obyekti kimi həm pul nişanları və sikkələri, həm də digər dəyərlər və qiymətlilər (qiymətli kağızlar, incəsənət əsərləri, qiymətli metal külçələri, qiymətli daş-qaşlar və s.) çıxış edə bilər.

İNKASSASİYAYA GÖRƏ MÜKAFAT (lat. *incassare* – qutuya qoymaq) – komisyon mükafatın bir hissəsi; bu, sığorta haqlarının (tədiyələrin) daxil olmasının (qəbulunun) təmin edilməsinə və sığorta haqlarının (tədiyələrinin) illik ödənişini nəzərdə tutan sığorta müqavilələri üzrə digər işlərə görə müəyyən edilə bilər.

İNKASSO – bank hesablaşma əməliyyatıdır ki, bu zaman bank müştərinin tapşırığı ilə tədiyəni alır və bankda vəsaitləri onun hesabına keçirir. Başqa sözlə, öz müştərilərinin adından və onların hesabına müxtəlif sənədlərə (vekselə, çekə və s.) görə bank tərəfindən pul alınmasından ibarət olan bank əməliyyatı növüdür.

İnjinirinqin tətbiqi sferaları



Sxem 5

İnkasso hesablamalar formasında iştirak edirlər: a) öz bankına inkasso əməliyyatını həvalə edən müştəri; b) müvəkkil şəxsin inkasso üzrə əməliyyatı həvalə etdiyi bank; c) valyuta vəsaitlərini alan bank; ç) digər banka təqdimatı edən bank; d) tədiyəçi. 1978-ci ildə Beynəlxalq Ticarət Palatası tərəfindən "İnkasso üzrə unifikasiya olunmuş qaydalar" işlənib hazırlanmışdır. Bu qaydalara uyğun olaraq, aşağıdakı məqsədlərlə ixracatçıdan təminatların alınması əsasında banklar tərəfindən inkasso əməliyyatları həyata keçirilir: a) sənəd akseptinin (ödənişə razılığın) və ya tədiyənin alınması; b) akseptə qarşı kommersiya sənədlərinin verilməsi; c) digər şərtlərlə sənədlərin verilməsi. İxracatçı malı göndərdikdən sonra tam və dəqiq təminatları ehtiva edən inkasso tapşırığında göstərilən şərtlərdə müəyyən valyuta məbləğini idxalatçıdan almağı öz bankına həvalə edir.

Sadə və sənədli inkasso fərqləndirilir. Sadə (xalis) inkasso kommersiya sənədləri ilə müşayiət olunmayan maliyyə sənədləri üzrə tədiyənin tutulmasıdır. Sənədli (kommersiya) inkasso zamanı əməliyyat kommersiya sənədləri, yaxud da yalnız kommersiya sənədləri ilə müşayiət olunan maliyyə sənədləri üzrə aparılır. Bu sənədlərin bank tərəfindən yoxlanması vacib deyil. İxracatçı tərəfindən valyuta gəlirinin alınmasını sürətləndirməkdən ötrü bank bəzən inkassoya çıxarılan sənədləri alır.

İnkasso hesablaşma forması kredit münasibətləri ilə əlaqədardır. Əvvəla, idxalatçı bununla belə, adətən, məhsula verilən borcları alır. İkincisi, inkasso kommersiya krediti şərtlərində müqavilələr üzrə hesablaşma-

ların əsas formasıdır. Bununla belə, ixracatçı, bir qayda olaraq, kommersiya sənədlərinin (dokumentar inkasso) ona verilməsinə qarşı tədiyəçi tərəfindən aksept üçün inkassoya trattanı qoyur və ya müəyyən müddətdə tədiyənin tutulması üçün vekseli, çeki, digər ödəmə sənədlərini inkassoya qoyur (xalis inkasso).

İnkasso formasında hesablaşmalar bir tərəfdən əmtəəyə sərəncamçılıq hüququnu saxlayan ixracatçıya (əgər əmtəənin alınmasını sürətləndirmək üçün konosamentin orijinallarından birinin bilavasitə alıcıya yenidən göndərilməsi tətbiq edilirsə), digər tərəfdən yalnız digər idxalatçıya əmtəə hüququnu verən əmtəə sənədlərinə qarşı valyutanı ödəyən həmin idxalatçıya üstünlük verir. Praktikada aşağıdakı əlavə şərtlər tətbiq olunur: a) idxalatçı əmtəə sənədlərinin inkassoya qəbul edilməsi və göndərilməsi haqqında ixracatçı bankın teleqramına qarşı ödəməni aparır (teleqraf inkasso); b) üçüncü şəxs (adətən bank) idxalatçı tərəfindən əmtəə sənədlərinin ödənilməsi üçün ixracatçı qarşısında məsuliyyəti öz üzərinə götürür (bank tədiyə zəmanəti); c) ixracatçı immobilizasiya resursları üçün bank kreditinə can atır.

İNKASSO TAPŞIRIĞI – bu hesablaşma sənədi əsasında pul vəsaitləri tədiyəçilərin hesablarından mübahisəsiz qaydada silinir. İnkasso tapşırığı ilə birlikdə banka pul vəsaitlərinin silinməsi üçün sənədlərin əsli və ya dublikatları təqdim edilir. İnkasso tapşırığının tam həcmdə təqdim edilməsi məcburi deyildir: onu vəsait toplandıqca hissə-hissə də təqdim etmək olar. Bu halda tədiyələrin növbəliliyi qaydalarına riayət edilməsi zəruridir. İnkasso tapşırıqları aşağıdakı hallarda tətbiq edilir:

1) vəsaitlərin tutulması (o cümlədən nəzarət orqanları tərəfindən) qaydası qanunvericiliklə reqlamentləşdirilən halda;

2) icra sənədlərinə əsasən tutulmalar üçün;

3) tərəflərin əsas müqavilədə razılaşdıqları hallarda; bu şərtlə ki, tədiyəçiyə xidmət edən bankın tədiyəçinin hesablarından pul vəsaitlərini bu barədə tədiyəçinin sərəncamı və icazəsi olmadıqda belə silmək hüququ olsun.

İNKİŞAF BANKI – sənayenin, kənd təsərrüfatının, tikintinin və digər sahələrin uzunmüddətli kreditləşməsi ilə məşğul olan xüsusi dövlət və yarımdövlət (bəzən xüsusi mülkiyyətə əsaslanan) bank. Milli bazarın fəaliyyət göstərdiyi ölkələrdə inkişaf bankı həmçinin qiymətli kağızların alqı-satqısını fond birjasında və ondan kənarda həyata keçirir.

Bu funksiyaları müxtəlif maliyyə-kredit institutları yerinə yetirir: maliyyə korporasiyaları, sənaye bankları, sənaye inkişafı tipli sahə və sahələrarası korporasiyalar və kənd təsərrüfatı inkişafı tipli banklar və fondlar, xırda müəssisələr və kənd təsərrüfatını maliyyələşdirən xüsusi kredit idarələri. Kommersiya banklarından fərqli olaraq, inkişaf bankı əmanətlərdən və müəssisələrdən depozitlər qəbul etmir, hesablaşma və tədiyə əməliyyatlarını həyata keçirmir, qısamüddətli ssudalar vermir.

İNKİŞAFA DÖVLƏT YARDIMI – dövlət üçün arzuedilməz iqtisadi fəaliyyət növlərinin (narkotik vasitələrin, silahın istehsalı və ticarəti) məhdudlaşmasına, boğulmasına və ya bəzi sahibkarlıq formalarının müdafiəsinə yönələn yardım.

Dövlət yardımının məqsədləri – inkişafa dövlət yardımının əsas məqsədi dövlətin, bütövlükdə cəmiyyətin, əhalinin sosial cəhətdən müdafiə olunmamış təbəqəsinin maraqlarına riayət olunmasıdır. Bu ona görə zəruridir ki, iqtisadi sərbəstlik şəraitində onlar boğulmasın, ayrı-ayrı regionların, sosial qrupların, sahələrin, inhisarların niyyət və maraqları ilə məhdudlaşdırılmasın.

Həmçinin dövlət yardımı ətraf mühitin mühafizəsinə, təbiətin məhvinin qarşısının alınmasına yönəlmişdir.

Dövlət yardımı iqtisadiyyat və cəmiyyət üçün həyati vacib əhəmiyyət daşıyan, dövlət müdafiəsinə ehtiyac duyan müəssisə və təşkilatlara münasibətdə tətbiq olunur.

Belə obyektlərə hərbi, müdafiə, energetika müəssisələri; qoruqlar, milli muzeylər, təbii parklar, təbii müalicə yerləri, faydalı qazıntılar; təhsil, mədəniyyət və elm müəssisələri daxildir. Belə obyektlər çox zaman dövlətin sərəncamında olur.

İNKİŞAFIN AZƏRBAYCAN MODELİ – XX əsrin ikinci yarısında bir çox ölkələr, o cümlədən müharibədə məğlub edilmiş, eləcə də müstəmləkəçilikdən azad olunmuş dövlətlər seçim qarşısında qalmışdı: hansı model əsasında inkişaf etmək lazımdır ki, dağılmış iqtisadiyyat bərpa olunsun, inkişafa yol açılsın. Dünyanın aparıcı dövlətlərində bu məqsədlə qlobal tədqiqatların genişlənməsi ön plana çəkildi, proqnozlarla məşğul olan araşdırma mərkəzləri yaradıldı. "Roma klubu" adını almış nüfuzlu alimlər məclisi formalaşdı. Dünyanın gələcəyi barədə konsepsiyalar hazırlandı. Bütün bunlarla yanaşı, bir sıra ölkələr öz inkişaf modellərini formalaşdırdılar. ABŞ liberal inkişaf modelinə, İsveç klassik sosial modelə üstünlük verdi. Xeyli müddət bu modellərin tətbiqi beynəlxalq aləmdə böyük əks-səda doğurdu. Əgər Amerika modeli sərt bazar münasibətlərini, azad rəqabəti, dövlətin iqtisadiyyata müdaxiləsinin minimuma endirilməsini, gəlirlərin diferensiasiyasında köklü fərqlərə laqeyd münasibəti nəzərdə tuturdusa, "İsveç modeli" əksinə, sosial ədalətsizliyin aradan qaldırılmasını, gəlirlərin əhali qrupları arasında yenidən bölüşdürülməsini, iqtisadiyyatda "dövlətin yükü"nün yüksək səviyyədə olmasını əsas götürürdü. Rəy sorğularında İsveç modelinə rəğbət bəsləyənlər çox olsa da, dövlətlərin əksəriyyəti onun tətbiqinə ehtiyatla yanaşırdılar. Bu inkişaf modellərindən fərqli olaraq Asiya ölkələri – Cənubi Koreya, Malayziya, Sinqapur və ötən əsrin 70-ci illərinin sonunda Çin, İkinci Dünya müharibəsində məğlub olmuş Almaniya, Yaponiya, bir-birini təkrar etməyən inkişaf modellərinə üstünlük verdilər və çox böyük uğurlar qazandılar. Bu dövlətlər özlərinin inkişaf modellərinin reallaşmasının müsbət nəticələri ilə illər boyu formalaşmış, rəsmiləşmiş iqtisadi baxışlara, normalara, qaydalara ciddi zərbə vurdular, müəyyən dərəcədə Qərb iqtisadi doktrinasının əsaslarını sarsıtdılar.

İstinad etdiyimiz ölkələr başqa dövlətlərin keçdiyi yolu təkrar etmədilər, reallığa, dövlətin maraqlarına əsaslanan inkişaf konsepsiyasını həyata keçirdilər. XXI əsrin birinci onilliyinin sonlarında bu ölkələr qlobal maliyyə böhranına ciddi məruz qalsalar da, onun təsirinin minimuma endiriləcəyinə əminlik nümayiş etdirirlər (bax: Lüdviq Erhard modeli (alman iqtisadi möcüzəsi), yapon iqtisadi modeli, Koreyanın inkişaf modeli, iqtisadi inkişafın Malayziya modeli, Çin iqtisadi inkişaf modeli).

Müstəqilliyinin 20-ci ilini arxada qoyan Azərbaycan dövləti qısa zaman kəsiyində böyük inkişaf yolu keçmiş, özünün iqti-

Cədvəl 1

Azərbaycanın əsas sosial-iqtisadi göstəricilərinin indeksi (əvvəlki ilə nisbətən, faizlə)

Göstəricilər	1991	1992	1993
Əhali sayı	101,5	101,6	101,5
Fəal əhalinin sayı	100,9	99,8	100,2
Ümumi daxili məhsul	99,3	77,4	76,9
Sənaye məhsulu	91,1	69,6	80,3
Kənd təsərrüfatı məhsulu	100,3	76,2	84,5
Kapital qoyuluşu	79,2	59,7	60,9
Nəqliyyat sektorunda yük daşınması (boru kəmərləri istisna olmaqla)	89,8	43,4	57,2
Bütün kanallar üzrə pullu xidmətlər	84,6	34,1	61,2
Əhalinin real gəlirləri	105,1	45,4	72,2
İxrac (cari qiymətlərlə)	-	70,0	48,8
İdxal (cari qiymətlərlə)	-	50,0	66,9

Cədvəl 2

1991-1996-cı illərdə MDB ölkələrinin ümumi daxili məhsulunun dinamikası (daimi qiymətlərlə, 1990 = 100%)

	1991	1992	1993	1994	1995	1996
Azərbaycan	99	77	59	48	42	42
Ermənistan	88	51	47	49	53	56
Belarus	99	89	83	72	65	66
Gürcüstan	79	44	31	33	35	38
Qazağıstan	89	84	75	66	61	61
Qırxızıstan	92	79	67	54	51	54
Moldova	83	59	58	69	68	62
Rusiya	95	81	74	65	62	59
Özbəkistan	99,5	89	86	82	81	82
Ukrayna	91	82	71	54	48	43
MDB üzrə	94	81	73	63	60	57

sadi təhlükəsizliyini təmin edən, güclü iqtisadiyyata malik olan dövlətə çevrilmişdir. İnkişafın Azərbaycan modelinin uğurla reallaşması ölkədə azad bazar münasibətlərinə əsaslanan yeni iqtisadi sistemin formalaşmasını, iqtisadiyyatda keçid dövrünün başa çatmasını təmin etmiş, xalqın daha firavan yaşaması üçün güclü əsaslar yaratmışdır.

Azərbaycan iqtisadiyyatı müstəqillik dövrünün ilk illərində həm SSRİ dövründən miras qalmış tənəzzül içində idi, həm də səriştəsiz və məsuliyyətsiz idarəçilik nəticəsində daha sürətlə geriləməkdə davam edərək dərin böhran keçirirdi. 1991-1993-cü illərdə ölkədə ÜDM-in və sənaye istehsalının həcmi 2 dəfə, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 40%, əsaslı vəsait qoyuluşu 3 dəfə, yük dövriyyəsi 4 dəfə azalmışdı (bax: cədvəl 1, 2).

1991-93-cü illərdə iqtisadi islahatların aparılması sahəsində müəyyən işlər görüldü, ölkədə iqtisadi transformasiyanın başlanmasına imkan verən "İqtisadi müstəqillik haqqında" Konstitusiya Qanunu qəbul edildi, milli valyuta–manat dövriyyəyə buraxıldı, qiymətlər liberallaşdırıldı, iqtisadi sərbəstlik və müəssisələrin müstəqilliyi artırıldı. Lakin ölkədə mal qıtlığı yarandığı üçün müəssisələrin əksəriyyəti inhisarçılığa meyilləndi, milli valyutanın zəruri təminat bazası olmadığına görə onun alıcılıq qabiliyyəti kəskin şəkildə aşağı düşdü və s. Bütün bunlar işsizliyin artması, əhalinin rifahının kəskin şəkildə pisləşməsi ilə nəticələndi.

Dağlıq Qarabağ problemi və bununla əlaqədar olaraq Azərbaycanın zorla müharibəyə cəlb edilməsi, torpaqlarımızın 20 faizinin işğal olunması, 1 milyona qədər qaçqın, respublikada siyasi sabitliyin olmaması, dövlət çevrilişi cəhdləri iqtisadiyyatın ağır vəziyyətə düşməsinə güclü təsir göstərmişdi.


Ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyununda – respublikamızda dərin iqtisadi-siyasi və mənəvi böhranın hökm sürdüyü bir dövrdə xalqın istəyi ilə ölkə rəhbərliyinə qayıtdıqdan sonra qısa zamanda ölkədə ictimai-siyasi sabitliyi təmin etməklə, ölkə iqtisadiyyatındakı tənəzzül prosesinin qarşısının alınmasına xidmət edən bir sıra zəruri tədbirlər həyata keçirmişdir. **Həmin dövrdə bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövrünü yaşayan Azərbaycanın hansı iqtisadi modelə üstünlük verəcəyi ilə bağlı çoxlu fikirlər, təkliflər irəli sürülsə də, böyük strateq Heydər Əliyev hansısa dövlətin təcrübəsinin olduğu kimi milli iqtisadiyyata köçürülməsini düzgün saymamışdır. Respublikanı ağır fəlakətdən qurtarmaq üçün Azərbaycanın tarixi-iqtisadi xüsusiyyətlərinə, xalqın mentalitetinə, geosiyasi şəraitinə, milli mənafelərinə uyğun inkişaf strategiyası hazırlamış, düşünülmüş və əsaslandırılmış sistemli tədbirlər həyata keçirmiş, beynəlxalq təşkilatlar, inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşması, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyənləşdirmişdir.**

İqtisadi islahatların ardıcıl və sistemli şəkildə aparılmasının tərəfdarı kimi çıxış edən Heydər Əliyev, ilk növbədə, dövlət mülkiyyəninin özəlləşdirilməsinin, azad bazar münasibətlərinin tətbiqinin vacibliyini önə çəkmişdir. Ümummilli lider yaxşı bilirdi ki, dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olması, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyası, insanların şüurunda, həyat tərzində əsaslı dəyişiklik deməkdir. Ölkədə həyata keçirilmiş özəlləşdirmə prosesinin məqsədi də məhz hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq olmuşdur. İqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi ölkədə bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, ölkənin xarici iqtisadi əlaqələrinin yüksəlməsinə ciddi zəmin yaratmışdır.


Özəlləşdirmə prosesi ilə paralel respublikada həyata keçirilən struktur islahatları iqtisadiyyatın dinamik inkişafına, o cümlədən yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabət qabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılması üçün əlverişli mühitin formalaşdırılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində məhz özəl sektor sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirilmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə xidmət edən tədbirlər həyata keçirilmişdir.



İqtisadi inkişafın dövrləri



Qrafik 1



Qrafik 2

Heydər Əliyev əmin idi ki, Azərbaycan iqtisadiyyatında yaradıcı, məhsuldar əməyə diqqət daha da artacaq, bu məqsədlə kadr potensialından, yerli mütəxəssislərin əməyindən daha səmərəli istifadə ediləcək, onlar müasir menecment qaydalarına yiyələnəcəkdir.

Ulu öndər Heydər Əliyev hadisələri qabaqcadan görmək, gələcəyi proqnozlaşdırmaq məharətinə malik idi. Riski sevir, strateji, qlobal düşünməyə üstünlük verirdi. Əldə etdiyi nailiyyətlərə yüksək tələbkarlıqla yanaşırdı. İnadkar və möhkəm idi, məsuliyyət hissini çoxu yüksək qiymətləndirirdi. Böhranlı, ağır şəraitdə idarə etməyə, təhlükəni aradan qaldırmağa qadir idi. Heydər Əliyev əlçatmaz olana doğru inamla gedir, məqsədinə nail olurdu. Ümummilli liderə məxsus olan bu keyfiyyətlərin, xüsusiyyətlərin hər birini respublikamızın taleyi ilə bağlı faktlarla açıqlamaq olar.

Heydər Əliyev ağır vəziyyətdə olan Azərbaycan iqtisadiyyatını dirçəltmək, bütünlükdə dövlətin müstəqilliyinin qorunmasını təmin etmək üçün düşünülmüş strategiya seçmiş, bu strategiyada neft faktoruna üstünlük vermişdir. Belə yanaşma, dünya inteqrasiyasına qovuşmaq, maliyyə imkanları, demək olar ki, tükənmiş respublikaya investisiyaların cəlbi yolu idi. Bu siyasətin həyata keçilməsinə güclü təzyiqlər, maneələr olsa da, Ulu öndər millətin, dövlətin taleyi, tərəqqisi üçün çox vacib olan prinsipial mövqeyindən dönmədi. 1994-cü ildə Azərbaycan Respublikası dünyanın 11 böyük neft şirkəti ilə "Əsrin müqaviləsi"ni imzaladı (bax: Əsrin müqaviləsi).

Ulu öndər Heydər Əliyev sübut etdi ki, Azərbaycan suveren dövlət kimi öz təbii sərvətlərinin sahibidir və tarixin ona verdiyi bu şansdan xalqının mənafeyi naminə uğurla istifadə edilməlidir. Məlumdur ki, neftlə zəngin olan ölkələrin bir çoxu yoxsulluq, səfalət içində yaşayır. Həmin ölkələrin təcrübəsindən məlum olur ki, bu ölkələrdə milli mənafelərə cavab verən inkişaf strategiyası, ictimai-siyasi sabitlik olmayıb, demokratik institutlar yaradılmayıb, neft gəlirlərindən istifadənin şəffaflığı təmin edilməyib, korrupsiyaya qurşanmış dövlət məmurlarına qarşı laqeydlik göstərilib, xalqın taleyüklü problemlərinin həlli arxa plana atılıb.

Müstəqil Azərbaycan başqa dövlətlərin keçdiyi yolu təkrar etmədi, öz yolunu, öz inkişaf modelini seçdi. Neft siyasətini ümumi inkişaf strategiyası, hüquqi demokratik cəmiyyətin prinsipləri ilə əlaqələndirdi, milli mənafelər, investisiya mühitinin yaxşılaşması, risk faktorunun azalması üçün zəruri tədbirlər həyata keçirdi. Amerika və Avropanı Azərbaycanın maraqlarına cəlb etdi ki, bütün bunlar da dövlətimizin beynəlxalq aləmdə imicinin yüksəlməsinə, respublikamıza investisiya axınının güclənməsinə əlverişli şərait yaratdı. Respublikamızın müstəqil bir dövlət kimi inkişaf imkanlarını genişləndirdi.

Ölkədə səmərəli maliyyə, pul-kredit, vergi, qiymət, gömrük siyasətini həyata keçirmək üçün beynəlxalq standartlara cavab verən 100-dən artıq qanun qüvvəyə mindi, 100-dən çox fərman və sərəncam imzalandı, 30-a yaxın dövlət proqramı qəbul edildi, dövlətin iqtisadi siyasətini icra edən iqtisadi qurumlar yaradıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi məqsədi ilə cəsarətli addımlar atıldı.



ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt görüşündə (6 dekabr 1994-cü il)

Artıq 1996-cı ildən ÜDM-də, kənd təsərrüfatında, xidmət sferasında, 1997-ci ildən sənayedə, sonralar isə bir sıra başqa istehsal sahələrində mütəmadi artım meyli yarandı. Ölkədəki qeyri-sabitlik və Ermənistanın birbaşa təcavüzü Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsinə digər MDB ölkələrindən gec başlanmasına səbəb olsa da, bu sahədə uğurlu nəticələr əldə edildi.

Həyata keçirilən tədbirlərin nəticəsində 35 mindən çox kiçik müəssisə və digər obyekt özəlləşdirildi, 1500-dən çox səhmdar cəmiyyət yaradıldı, mülkiyyətçilərin (payçıların) sayı 300 mini, səhmdarların sayı isə 120 mini keçdi. Respublikaya xarici investisiyaların cəlb edilməsi, əcnəbi investorların hüquq və mənafelərinin qanunvericilik yolu ilə müdafiəsi, qarşılıqlı sərfəli əməkdaşlığın təmin edilməsi üçün hərtərəfli iş aparıldı.

Nəticədə Azərbaycanın iqtisadi və sosial tərəqqisinin neft hasil edən bir sıra başqa ölkələrlə müqayisədə xeyli yüksək olması təmin edildi, ölkənin maliyyə imkanları əhəmiyyətli dərəcədə artdı.

1999-cu ildə çox ciddi araşdırmalardan sonra Heydər Əliyev Neft Fondunun yaradılması barədə fərman imzaladı (bax: Azərbaycan Respublikasının Dövlət Neft Fondu).

Azərbaycan Respublikasının Dövlət Neft Fondunda (ARDNF) toplanan vəsaitlərdən səmərəli istifadə olunması, bu vəsaitlərin bir qismindən ən mühüm sosial məsələlərin həlli üçün istifadə edilməsi, xeyli hissəsinin isə gələcək nəsillər üçün strateji ehtiyat kimi qorunub saxlanması ilə bağlı dövlət strategiyası müəyyən edildi (bax: Azər-



Ümummilli lider Heydər Əliyevin Roma papası II İoan Pavel ilə görüşü (Bakı, 22 may 2002-ci il)

baycan Respublikasının Dövlət Neft Fondu), ARDNF-nin beynəlxalq standartlara uyğun olaraq idarə olunması sistemi formalaşdırıldı, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 27 sentyabr tarixli fərmanı ilə "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" təsdiq edildi.

Azərbaycan dövləti çoxsaylı alternativ neft-qaz ixracı ilə bağlı nəql marşrutlarına malikdir. Bu isə ölkəmizin müstəqilliyinin qorunması, onun iqtisadi təhlükəsizliyi üçün çox güclü amil deməkdir. Bakı-Supsa Qərb İxrac Magistral Neft Kəməri (MNK) "İlkin Neftin Layihəsi" üzrə "Azəri-Çıraq-Günəşli" yatağından hasil edilən xam nefti nəql edir. 1999-cu il aprelin 17-dən istismar olunan bu kəmər Sanqaçal terminalından başlayaraq Gürcüstanın Supsa terminalına birləşən tankeryükləmə qurğusuna (Qara dənizdə) qədər uzanır. Kəmərin uzunluğu 836 km (Azərbaycan hissəsi 456,9 km), illik neftötürmə qabiliyyəti 5,75 mln. tondur. Neftin nəqli 6 nasos stansiyası və 2 təzyiqazaldıcı stansiya ilə təmin edilir.

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri "tammiqyaslı işlənilmə layihəsi" üzrə "Azəri-Çıraq-Günəşli" neft yatağından hasil olunan neftin Bakıdan Türkiyənin Aralıq dənizi sahilində yerləşən Ceyhan terminalı vasitəsilə dünya bazarına ixracını təmin edir. 2006-cı ildə istifadəyə verilən bu kəmərin ümumi uzunluğu 1768 km, illik neftötürmə qabiliyyəti 50 mln. tondur (bax: Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Neft Əsas İxrac Boru Kəməri).

Cənubi Qafqaz (Bakı-Tbilisi-Ərzurum) Magistral Qaz Kəmərindən hasil edilən qazın ixracı üçün nəzərdə tutulmuşdur. Bu məqsədlə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış sazişə görə, 6,6 mlrd. kub m qaz Türkiyəyə, sonradan isə Yunanıstan, Fransa, İtaliya və digər Avropa ölkələrinə nəql olunacaqdır. Kəmərin uzunluğu 970 km, illik qazötürmə qabiliyyəti 20 mlrd. kub m-dir. Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərinin tikintisinin 2006-cı ildə başa çatdırılması və 2018-ci iladək 79,7 mlrd. kub m həcmində "Şahdəniz" qazının Türkiyənin Ərzurum şəhərinə, oradan isə dünya bazarına çıxarılması nəzərdə tutulmuşdur. Bundan əlavə, Yunanıstan hökuməti Azərbaycan qazını Türkiyənin BOTAŞ şirkəti vasitəsilə əldə etmək barədə saziş imzalamışdır.

Hər bir vətəndaş bilir və yaxud bilə bilər ki, Azərbaycana neftdən nə qədər gəlir gəlib, nə qədər xərclənib, necə xərclənib. Dövlət Neft Fondundan ayrılan xərclərdən istifadə yalnız parlamentdə müzakirələrdən sonra mümkündür. Bu da o deməkdir ki, hər bir vətəndaş onun parlamentdəki nümayəndəsi vasitəsilə bu gəlirlərin bölüşdürülməsində iştirak edir.

Azərbaycan artıq qazı ixrac edən ölkə kimi özünü təsdiqləyib və bizim tərəfdaşlarımızın sayı artır, ixracımızın istiqamətləri genişlənir. Azərbaycan həm mövcud olan bazarlara əlavə həcmdə qazın verilməsinə nail olmalıdır, eyni zamanda, yeni bazarlara çıxmaq üçün əlavə tədbirlər görür. Respublikanın qaz ehtiyatları çox böyükdür. İndi onların ancaq cüzi hissəsindən istifadə olunur. Bundan sonra onilliklər ərzində, daha dəqiq, ən azı yüz il ərzində Azərbaycan özünü etibarlı qaz təchizatçısı kimi göstərəcəkdir.

Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir. Azərbaycan iqtisadiyyatının gələcəyini təkcə neftlə bağlamaq olmaz. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir ki, bu da öz müsbət nəticələrini verir. Müstəqilliyin ilk illərində radikal tədbirlər nəticəsində SSRİ-nin müttəfiq respublikaları ilə iqtisadi əlaqələrin qırılması respublikamızın sənaye potensialına ciddi ziyan vurmuşdu. SSRİ kimi nəhəng dövlət daxilində əmək bölgüsündə özünəməxsus yeri olan Azərbaycanın sənaye strukturu kəskin şəkildə dəyişmiş, onun başqa regionlarla əlaqədar olan bir sıra istehsal sahələri öz fəaliyyətini dayandırmışdı. Azərbaycan hökuməti bu sahədə dönüş yaratmaq üçün bir sıra tədbirlər həyata keçirdi ki, bu da son illər sənaye istehsalının dinamikasında pozitiv meyillərin güclənməsi ilə müşayiət olunur. Sənaye strukturunun yaxşılaşdırılması üçün etibarlı zəmin yaradılır, müasir texnologiyalara əsaslanan sənaye müəssisələri yaradılır, xalq istehlakı mallarının və digər məhsulların istehsalında inkişaf sürətlənir. Bununla yanaşı, özəlləşdirilmiş müəssisə və obyektlərin, səhmdar cəmiyyətlərin fəaliyyətlərini canlandırmaq, onların keyfiyyət göstəricilərinin yaxşılaşdırılması məqsədi ilə təkmil iqtisadi mexanizmlərdən istifadə olunması qarşıdakı dövrün vacib vəzifələri kimi müəyyən edilmişdir.

Azərbaycan çoxsahəli və məhsuldar kənd təsərrüfatının formalaşdırılmasına imkan verən təbii iqlim şəraitinə malikdir. Respublikanın ovalıq və dağətəyi əraziləri suvarma əkinçiliyi, dağlıq əraziləri isə dəmyə əkinçiliyi və heyvandarlıq sahəsini inkişaf etdirmək üçün əlverişlidir. Respublika bir nəfərə düşən əkin sahəsi üzrə təbii iqlim şəraitinin oxşar olduğu bəzi ölkələrdən geri qalsa da, yaradılan əlavə dəyər göstəricisinə, suvarılan əkin sahələrinin xüsusi çəkisinə görə həmin ölkələrin əksəriyyətindən yüksək nəticəyə malik olduğu üçün onu aqrar resurs təminatı baxımından dünyada kifayət qədər üstün ölkələrdən saymaq olar. Azərbaycanın zəngin təbii-iqlim şəraiti (günəşli günlərin çoxluğu, bioloji fəallıq, iqlim qurşağının 11-dən 9-nun mövcudluğu və s.) bir çox rayonlarda il ərzində 2-3 dəfə məhsul götürülməsinə imkan verir. Hesablamalar göstərir ki, ölkənin aqrar sektoru özünün hazırki inkişaf səviyyəsinə görə ölkənin kənd təsərrüfatı məhsullarına ehtiyacını və əhalinin ərzağa artan tələbatını ödəmək imkanındadır. Bu imkanın uğurla reallaşması aqrar sahədə ciddi islahatların aparılmasını zəruri etdi.

1993-cü ildən sonra Azərbaycan dövləti əmlakın, torpağın özəlləşdirilməsi, torpağın kənddə yaşayan və bu sahədə işləyənlər arasında paylanması ilə əlaqədar tədbirlər görməyə başladı. Sorakı illərdə özəlləşdirmə, torpaq islahatı prosesi geniş vüsət aldı, ərzaq və maddi-texniki resurslar bazarındakı və ixracat əməliyyatlarındakı məhdudiyyətlər aradan qaldırıldı. Ölkədə 1993-cü ilin 2-ci yarısından sonra həyata keçirilən ardıcıl və məqsədyönlü kompleks tədbirlər nəticəsində aqrar sahədə istehsalın azalma meylinin qarşısı alındı, iqtisadiyyatın bir çox mühüm sahələrinin bazar münasibətləri yolu ilə inkişaf etdirilməsinin möhkəm və etibarlı təməli qoyuldu.

Aqrar sahədə köklü iqtisadi islahatlara başlanması üçün normativ-hüquqi bazanın yaradılması, bu əsasda da sovxoz və kolxozların ləğvi, kənddə özəl

sahibkarlıq qurumlarının yaradılması, əmlakın özəlləşdirilməsi, yeni mülkiyyət və təsərrüfatçılıq formalarının inkişafı üçün əlverişli şəraitin yaradılması, məhsulun satış kanallarının çoxaldılması və s. kənd təsərrüfatında bazar münasibətlərinin daha sürətlə formalaşmasına imkan yaratdı.

1996-cı ilin sonuna kolxoz və sovxozlar (İsmayıllı rayonundakı Nikitin adına kolxoz və bəzi damazlıq təsərrüfatlar istisna olmaqla) tamamilə ləğv olundu, onların torpaq sahələri və əmlakı kəndlilər arasında bölüşdürüldü. Bu dövrdə respublikadakı 5605 kənd təsərrüfatı müəssisəsinin 86,5%-i özəl müəssisədən, o cümlədən 76,8%-i kəndli-fermer təsərrüfatından ibarət idi. 1997-ci ildən dövlət və kollektiv kənd təsərrüfatı müəssisələri daha sürətlə özəlləşdirildi, yeni özəl təsərrüfat formaları, fermer və digər sahibkarlıq təsərrüfatları yaradıldı. Bütün bu tədbirlər nəticəsində istehsal həcminin xeyli artması əhalinin ərzaqla yerli mənbələr hesabına təminatının yaxşılaşdırılması, ölkənin ərzaq təhlükəsizliyi probleminin həlli üçün real şəraitin yaranması ilə nəticələndi.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev demişdir:

"Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Azərbaycana hörmət edirlər. Azərbaycanda demokratiya daha da inkişaf edəcəkdir, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

İlham Əliyev

Azərbaycan dövləti aqrar islahatların yeni mərhələsində respublika əhalisinin yarısının yaşadığı kəndin daha sürətli sosial-iqtisadi inkişafı, burada müasir tələblərə cavab verən istehsal və sosial infrastrukturların yaradılması, fermer təsərrüfatlarına qayğının artırılması, onlara göstərilən aqroservis, marketinq xidmətinin yaxşılaşdırılması istiqamətində görülən işlərin miqyasının genişləndirilməsini özünün iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi qiymətləndirir. Respublikada aqrar sektorun inkişafında müşahidə olunan müsbət meyillərin daha da güclənməsi, istehsal olunan məhsulların səmərəliliyi və keyfiyyətinin yüksəldilməsi, onların daxili və xarici bazarlara maneəsiz çıxarılması üçün mühüm tədbirlər görülür. Kənddə yerli xammala əsaslanan emal müəssisələrinin, istehsal sahələrinin yaradılması, SSRİ-nin dağılması ərəfəsində, müstəqilliyin ilk illərində çətin vəziyyətə düşmüş üzümçülük, pambıqçılıq, meyvəçilik, çayçılıq kimi əməktutumlu, yüksək gəlirli sahələrin inkişaf imkanlarının reallaşması üçün konkret layihələr həyata keçirilir.

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir. Ona görə də cəmiyyətin bütün üzvlərinin əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlərin keçirilməsi çox vacibdir. Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq təminatını dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri hesab edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 25 avqust tarixli sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilmişdir (bax: Ərzaq təhlükəsizliyi).

Azərbaycan dövləti yaxın və uzaq gələcək üçün iqtisadi inkişaf strategiyasında aqrar sektorun daha davamlı inkişafını nəzərdə tutmuşdur. Belə ki, əkin sahələrinin strukturunun təkmilləşməsi istiqamətində işlər davam etdiriləcək, kənd təsərrüfatının inkişafı üçün intensiv əlavə tədbirlər görüləcək, böyük fermer təsərrüfatlarının yaradılması işi ön plana çəkiləcəkdir.



Prezident İlham Əliyevin andiçmə mərasimi

Bütövlükdə subsidiyalarla, ondan sonra dövlət tərəfindən verilən güzəştlərlə bağlı yeni təkliflər yaqin ki, verilməlidir. Birinci mərhələdə biz kənd təsərrüfatını, xüsusilə taxılçılığı stimullaşdırmaq üçün hu subsidiyaları ayırdıq. Həm yanacağa, həm gübrələrə, eyni zamanda, əkilən məhsullara hektarbaşı subsidiyalar şəklində verilir. Bu, çox müsbət təşəbbüs idi və işgüzarlığın artmasına böyük təkan verdi. Mənim təklifim ondan ibarətdir ki, biz bu subsidiyaları daha da təkmilləşdirək. Söhbət ondan getmir ki, bunu azaldaq, yaxud da ki, aradan götürək. Yox, əksinə, söhbət ondan gedir ki, bunlar daha da səmərəli şəkildə işləsin. Bəlkə buna daha da böyük məbləğ ayrılsın.

İlham Əliyev
16.04.2012

Kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, müasir gübrə zavodunun tikilməsi, aqroservis xidmətinin yaxşılaşdırılması, subsidiyaların verilməsi qarşıdakı dövr üçün də aktual olacaqdır. Kənd təsərrüfatına yararlı olan torpaqlardan səmərəli istifadə olunması məsələsinə diqqət artırılacaqdır.

Toxumçuluğun inkişafına da böyük diqqət yetiriləcəkdir. Hazırda bu istiqamətdə işlər görülür. Nəzərdə tutulur ki, respublika özünü toxumla 100 faiz (hazırda bu rəqəm 30 faiz təşkil edir) səviyyəsində təmin etsin.

Ekoloji təmiz məhsullar istehsal etmək üçün mövcud olan əlverişli imkanlardan səmərəli istifadə edilməsi aqrar sektorun ixrac potensialının, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artmasına bilavasitə təsir edir (bax: Ekoloji təmiz kənd təsərrüfatı).

Son illərdə qeyri-neft sektorunun inkişaf sürəti səmərəli fəaliyyət göstərən neft-qaz kompleksi üzrə artım sürətindən bir neçə dəfə çoxdur.

Ölkə iqtisadiyyatının inkişafını xarakterizə edən əsas göstəricilərin kompleks təhlili sübut edir ki, respublikanın davamlı inkişafını, əhalinin layiqli həyat səviyyəsini təmin etmək məqsədi daşıyan dövlət siyasəti müvəffəqiyyətlə həyata keçirilir. Son illər Azərbaycan bütövlükdə iqtisadiyyatın inkişaf səviyyəsini səciyyələndirən mühüm göstəricinin – ÜDM-in artım sürətinə görə lider ölkələr sırasındadır. İqtisadiyyatın dinamik inkişafı büdcə gəlir və xərclərinin sürətli artımını təmin etmişdir.

2009-cu ildə respublikada ÜDM-in real artım sürəti 2008-ci illə müqayisədə 9,3%, onun hər nəfərə düşən həcmi isə 7,9% artmışdır. Lakin həmin ildə ÜDM bir çox ölkələrdə azalmışdır. Bu azalma Fransada 2,2%, Böyük Britaniyada 4,9%, Almaniya və İtaliyada 5,0%, MDB ölkələrindən Rusiyada 7,9%, bir çox göstəricilərinə görə keçmiş SSRİ respublikaları arasında öndə gedən Estoniyada 14,1% təşkil etmişdir. Ermənistanda 14,4% olmuşdur. Neft ixrac edən ölkələrdə, məsələn, Səudiyyə Ərəbistanında ÜDM artımı cəmi 0,1%, İranda 1,8%, Norveçdə 1,5%, ABŞ-da 2,4%, Venesuelada isə 3,3% olmuşdur.

"Hazırda bizim üçün əsas bazarlar qonşu ölkələrin bazarlarıdır. Bu bazarlar böyükdür və bizim üçün çox məqbuldur, əlverişlidir – həm məsafə baxımından, həm o bazarlara daxil olmaq üçün bizim qarşımızda heç bir problem yoxdur. Biz bütün qonşularla yaxşı, işgüzar münasibətlər qurmuşuq və bu, əlbəttə ki, biznes sahəsində də öz müsbət təsirini göstərir. Ancaq elə etməliyik ki, bizim istehsal etdiyimiz məhsullar dünyanın istənilən nöqtəsində satıla bilsin. Xüsusilə nəzərə alsaq ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının keyfiyyəti çox yüksəkdir və başqa ölkələrlə müqayisədə onlar təbiidir... Bu, bizim böyük sərvətimizdir və bu sərvətdən səmərəli şəkildə istifadə etməliyik. Xarici bazarlara çıxmaq üçün əlbəttə, dövlət də öz dəstəyini verməlidir və verir".

İlham Əliyev
1 mart 2011-ci il

2009-cu il dövlət büdcəsində 1 barel neftin qiyməti 70 dollar müəyyən edilmişdi. Amma dünya bazarında neftin qiyməti sürətlə aşağı düşməkdə davam edirdi. Nəticədə 2009-cu ildə neftin orta illik qiyməti 62,1 dollar oldu. Təbii ki, bu, ölkənin valyuta ehtiyatlarına, ticarət dövriyyəsinə mənfi təsir etdi. Bundan əlavə ölkədən borc öhdəlikləri ilə bağlı xeyli kapital çıxdı. Amma qeyri-neft sektorunun inkişafı, infrastruktur layihələrinin reallaşması, sahibkarlığa dövlət dəstəyinin artması iqtisadiyyatın dinamikliyinin pozulmasının qarşısını aldı. Əhalinin pul gəlirlərinin artması və onun inflyasiyanın artmasından bir neçə dəfə üstün olması təmin edildi.

Beynəlxalq Valyuta Fondunun məlumatına əsasən, son 3 ildə dünya üzrə ÜDM azalmış, əksər ölkələr ağır problemlərlə üzləşmişlər (bax: Böhran). MDB-nin üzvü olan əksər dövlətlərdə bu azalma 6 faizdən çox, Ermənistanda isə hətta 20 faiz olmuşdur. 2009-cu ildə bir çox ölkələrin milli pul vahidlərinin xarici valyutalara nisbətdə kəskin ucuzlaşması müşahidə edilmiş, bu hal özünü yenə də postsovet dövlətlərində daha qabarıq şəkildə büruzə vermişdir. Böhran inkişaf edən və etməkdə olan dövlətlərdə resessiya ilə nəticələnmiş, dünya sənaye istehsalı, əmtəə dövriyyəsi, sərnişin və yük daşımaları azalmış, işsizliyin səviyyəsi yüksəlmiş, əhalinin real gəlirləri azalmışdır.

Azərbaycan dövləti isə qlobal dünya böhranı dövründə səylərini ölkədə maliyyə sabitliyinin qorunmasına yönəltmiş, iqtisadiyyatı geri salan, əhalinin sosial vəziyyətini pisləşdirən devalvasiya, defolt və inflyasiya kimi destruktiv iqtisadi meyillərə yol verməmişdir. Bütün dünyada böhranın əsasən banklardan başladığı, nəticədə işgüzar fəallığın azalması, istehlak, biznes kreditləşməsində ciddi problemlərin yaranması, istehlak tələbinin azalması və digər amillər nəzərə alınmaqla, iqtisadiyyatın lokomotivi sayılan bu sektora dəstək gücləndirilmişdir. Mərkəzi Bank və hökumətin pul siyasəti daha aktiv olaraq makroiqtisadi tarazlığın və dayanıqlığın təmin olunmasına və eyni zamanda, bank sistemində maliyyə sabitliyinin qorunmasına istiqamətlənmişdir.

2009-cu ilin əvvəllərindən maliyyə böhranının ilk simptomlarını nəzərə alan Mərkəzi Bank respublika banklarının xarici borclanmasının idarəedilən təhlükəsiz səviyyədə saxlanılması üzrə konkret addımlar atmış və səmərəli nəticələr əldə etmişdir. Manatın sabitliyini qorumaq üçün Mərkəzi Bank valyuta bazarında tələb və təklifi vaxtında tarazlaşdırmış, nəticədə manatın məzənnəsinin kəskin ucuzlaşmasının qarşısı alınmışdır. Həyata keçirilən preventiv tədbirlər nəticəsində respublika bank-

"Vaxtilə Azərbaycanda Ulu öndər Heydər Əliyevin səyləri və təşəbbüsü nəticəsində üzümçülük çox sürətlə inkişaf etmişdi. O, 1969-cu ildə Azərbaycana rəhbərliyə gələndə üzüm istehsalı 300 min ton idi. Amma fəaliyyət göstərdiyi dövrdə görülmüş işlər nəticəsində bu rəqəm 2 milyon tona qalxmışdı. Bu, həm Azərbaycan Respublikasının inkişafına xidmət edirdi, ilk növbədə isə insanların rifah halının yaxşılaşdırılmasına çox müsbət təsir göstərmişdi.

Kənddə yaşayan insanlar üzümçülüyün inkişafı sayəsində özlərinin həyat səviyyəsini xeyli yüksəldə bilmişdilər.

Hazırda Azərbaycanda üzüm istehsalı 120 min ton səviyyəsindədir. Əlbəttə ki, bunun da müəyyən səbəbləri vardır. Bu səbəbləri biz bilirik. 1980-ci illərin sonlarında Sovet İttifaqının rəhbərləri antialkoqol kampaniyasına başlamışdılar və nədənsə bu kampaniyanın ən böyük ziyanı və zərbəsi Azərbaycana dəymişdi. Azərbaycanda bütün üzüm bağlarını məhv etdilər, insanları pis vəziyyətdə qoydular, insanlar gəlir mənbələrindən məhrum oldular. Ancaq sözüm ondadır ki, ola bilər biz üzümçülüyün inkişafı üçün xüsusi bir proqram da qəbul edək. Maliyyə resurslarını da cəlb edək, xüsusi proqram çərçivəsində üzümçülüyün inkişafı üçün lazım olan bütün tədbirləri görək. Çünki hamı yaxşı bilir ki, üzümçülüyün inkişafı uzun bir prosesdir".

İlham Əliyev
1 mart 2011-ci il

ları likvidlik problemi ilə bağlı istehlak və biznes kreditlərinin verilməsi prosesini dayandırmamış, perspektivli biznes layihələri maliyyələşdirilmişdir. Bu fakt həm də respublikanın dinamik sosial-iqtisadi inkişafı ilə bağlı olaraq bank sektorunun fəaliyyətində səmərəliliyin əhəmiyyətli dərəcədə artımı ilə şərtlənir.

Bütün bunlarla yanaşı, ciddi maliyyə monitorinqinin həyata keçirilməsi, kreditlərə və faiz dərəcələrinə, habelə inflyasiyaya nəzarətin gücləndirilməsi, real iqtisadiyyata daimi sərmayə axınının təmin edilməsi, sosial öhdəliklərin vaxtlı-vaxtında yerinə yetirilməsi, müəssisələrin fəaliyyət istiqamətinin daxili bazara, əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsinə yönəldilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi bu tədbirlərin yalnız üzdə olan qismidir. Hökumət, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, Mərkəzi Bank, büdcənin formalaşması və icrasında iştirak edən digər qurumlar dünya maliyyə böhranı şəraitində qlobal dünya iqtisadiyyatında gedən prosesləri diqqətlə izləmiş və böhranın ölkə iqtisadiyyatına təsirini azaltmaq üçün qabaqlayıcı tədbirlər görmüşlər. Milli Məclis tərəfindən qəbul olunmuş bir sıra qanunlar, mövcud qanunlara əlavə və dəyişikliklər ("Dövlət borcu" haqqında, "Büdcə sistemi" haqqında, "Mərkəzi Bank haqqında", "Sığorta fəaliyyəti haqqında", "Əmanətlərin sığortalanması haqqında") səmərəliliyin artmasına öz müsbət təsirini göstərmişdir.

Böhran şəraitində Azərbaycan bank sektorunun 1,2 milyard xarici borcunu qaytarması da məhz bu tədbirlərin nəticəsi kimi diqqəti çəkir. Eyni zamanda, kredit üzrə uçot dərəcələrinin aşağı salınması pul-kredit siyasətinin yumşaldılmasına istiqamətlənmiş addım olaraq maliyyə böhranının respublikanın bank sektoruna ciddi təsir göstərməsinin qarşısını almışdır. Mərkəzi Bank kommersiya bankları üçün maliyyə vəsaitlərinin ucuzlaşdırılması, habelə ehtiyatların azaldılması siyasətini irəli sürərək likvidlik probleminin aradan qaldırılmasına nail olmuşdur.

2011-ci ildə ölkədə makroiqtisadi göstəricilərin yaxşılaşması fonunda əhalinin sosial rifah halının daha da yüksəldilməsi istiqamətində müsbət nəticələr əldə olunmuş, regionların tarazlı inkişafı, yoxsulluğun azaldılması istiqamətində irəliləyişlər əldə edilmiş, uğurlu büdcə-vergi və pul-kredit siyasəti həyata keçirilmiş, xarici ticarətdə müsbət saldo artırılmış, milli valyutanın sabitliyi təmin olunmuş, ölkənin valyuta ehtiyatları artırılmış, büdcə kəsirinin aşağı səviyyədə saxlanılması ənənəsi davam etdirilmiş, müdafiə potensialı gücləndirilmiş, mühüm əhəmiyyət kəsb edən sosial və infrastruktur layihələri reallaşdırılmışdır.

Cədvəl 1

2001-2011-ci illər üzrə Azərbaycan Respublikasının makroiqtisadi göstəriciləri

Göstəricilər	Ölçü vahidi	2001-ci il icra	2003-cü il icra	2011-ci il icra	2011-ci ilin 2001-ci il ilə müqayisəsi
ÜDM	mln. manat mln. dollar	5315,6 5708,3	7146,5 7276,3	50069,0 63402,5	9,4 dəfə 11,1 dəfə
qeyri-neft sektoru	mln. manat	3638,9	4997,2	24164,7	6,6 dəfə
hər nəfərə düşən ÜDM	manat	665,2	880,8	5504,7	8,3 dəfə
Əhalinin gəlirləri	mln. manat mln. dollar	4301,6 4619,4	5738,1 5842,3	30633,5 38791,3	7,1 dəfə 8,4 dəfə
Orta aylıq əmək haqqı	manat dollar	52,0 55,8	77,4 78,8	363,1 459,8	7,0 dəfə 8,3 dəfə

Belə layihələrdən biri də əhalinin içməli su ilə təchizatının daha da yaxşılaşdırılmasıdır. Hazırda bu istiqamətdə işlər genişləndirilir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2012-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qeyd etmişdir ki, şəhərlərimizin əksəriyyətində kanalizasiya sistemi, ümumiyyətlə, heç vaxt olmamışdır. İçməli su xətləri də heç vaxt olmamışdır. Yəni, biz bunları sıfırdan yaradırıq. Bakıda içməli su problemi xeyli yaxşılaşmışdır. Lakin bundan sonra da Bakıda içməli su, keyfiyyətli su və kanalizasiya layihələrinin icrası uğurla gedəcəkdir. Hökumətin mövqeyi belədir ki, birinci növbədə 2014-cü ilin sonuna qədər bütün şəhərlər və rayon mərkəzləri içməli su, kanalizasiya layihələri ilə təmin edilməlidir. Ancaq indidən hazırlıq işləri aparılmalıdır ki, rayon mərkəzlərinə yaxın yerləşən böyük yaşayış yerlərində də, kəndlərdə də bu layihələr icra edilsin. Modul tipli sutəmizləyici qurğuların istifadəyə verilməsi daha da geniş vüsət almalıdır.

Azərbaycanın 2011-ci ildə əldə etdiyi nailiyyətlər nüfuzlu beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilmişdir.

İnkişaf etmiş bir sıra ölkələrin reytinqləri aşağı salındığı halda "Standart & Poor's" reytinq agentliyi Azərbaycanın mövcud uzunmüddətli müstəqil kredit reytinqini bir pillə artıraraq "BBB" investisiya reytinqi səviyyəsinə çatdırmış, reytinq üzrə proqnozunu isə "sabit" saxlamışdır. "Fitch Ratings" və "Moody's" reytinq agentliklərinin də Azərbaycan iqtisadiyyatına dair qiymətləndirmələri müsbət olmuşdur. "Qlobal Rəqabət Qabiliyyəti İndeksi" hesabatına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyəti səviyyəsinə görə 142 ölkə arasında 55-ci, MDB-də isə 1-ci olmuşdur.

Dövlət büdcəsi prosesinin şəffaflığının səviyyəsi ilə bağlı 100-ə yaxın ölkədə sorğu aparan nüfuzlu Beynəlxalq Büdcə Əməkdaşlığı Təşkilatının hesabatında Azərbaycanın bu sahədə həyata keçirdiyi islahatlar müsbət qiymətləndirilmişdir.

2010-2011-ci illərdə məcmu tələbin bütün komponentləri, o cümlədən son istehlak xərcləri, investisiyalar və xarici tələb iqtisadi artıma müsbət təsir göstərmişdir. İl ərzində əhalinin gəlirlərinin və əsasən daxili investisiyalar hesabına iqtisadiyyata qoyulan investisiyaların artması, eyni zamanda, tədricən yaxşılaşan qlobal iqtisadi mühit, yəni ixrac qiymətlərinin idxal qiymətlərinə nisbətən daha çox yüksəlməsi ÜDM-in tələb komponentlərində canlanmaya səbəb olmuşdur.


Son 10 ildə dövlət büdcəsinin gəlir və xərcləri 20 dəfədən çox artmışdır, büdcə xərclərinin strukturunda mütərəqqi proseslər baş vermişdir. Sosial təyinatlı proqramların maliyyələşməsi ilə bərabər, dövlət büdcəsindən investisiya yönümlü tədbirlərə ildən-ilə daha çox vəsait ayrılır. Artıq neçə ildir ki, dövlət büdcəsində investisiya yönümlü xərclər 35-40 faiz arasında tərəddüd edir. Bu rəqəm 2000-ci ildə cəmi 2 faiz təşkil edirdi. Sosial sahədə mövcud problemlərin, o cümlədən yoxsulluğun azaldılmasını nəzərdə tutan Dövlət Proqramlarına uyğun olaraq əhalinin torpaqdan, su ehtiyatlarından istifadə etməsi, yeni iş yerlərinin yaradılması, təhsil almaq, səhiyyə xidmətlərindən faydalanmaq imkanlarının genişləndirilməsi, infrastruktur və kommunal xidmətlərə olan ehtiyacın ödənilməsi, sanitariya və gigiyena şəraitinin, həmçinin ətraf mühitin yaxşılaşdırılması, insan üçün layiqli həyat şəraitinin təmin edilməsi məqsədi ilə 225-dən çox tədbir həyata keçirilmişdir. Ölkədə uğurla fəaliyyət göstərən kommersiya bankları, sığorta şirkətləri şəbəkəsi genişlənir, onların real sektorun və maliyyə bazarının inkişafındakı rolu artır (bax: Kommersiya Bankı, Sığorta Şirkəti). Görülən işlərin nəticəsində ölkədə yoxsulluğun səviyyəsi 2001-ci ildəki 49%-dən 7,6%-ə enmişdir (2011).

Azərbaycanın iqtisadi qüdrətinin və siyasi nüfuzunun artması ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində çox güclü bir amilə çevrilir.

Sosial siyasəti daha səmərəli şəkildə reallaşdırmaq üçün 2009-cu ilin martında ümumxalq səsverməsi – referendum yolu ilə Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra mühüm əlavə və dəyişikliklər edilmişdir. Bununla da, ölkədə sosial yönümlü bazar iqtisadiyyatının qurulması dövlətin ali məqsədindən biri sayılmışdır.

Azərbaycan dövləti sərbəst ba-

Sosial yönümlü xərclər (mln. manat)



Qrafik 3

zar münasibətlərinin inkişafını iqtisadi siyasətin prioritet istiqaməti hesab edərək ölkədə özəl sektorun genişlənməsi, kiçik və orta biznesin inkişafına mane olan əngəllərin aradan qaldırılması, ümumiyyətlə, əlverişli işgüzar investisiya mühitinin yaradılması üçün ardıcıl və sistemli tədbirlər həyata keçirdi. Hazırda ÜDM-in payında özəl sektorun xüsusi çəkisi 80%-dən çoxdur. Bu, həm MDB məkanı, həm də Avropa ölkələri ilə müqayisədə yüksək nəticədir.

Ümummilli lider Heydər Əliyevin 2002-ci ildə bir neçə dəfə yerli və xarici iş adamları ilə görüşlərinin nəticəsi olaraq imzalanmış bir sıra mühüm fərman və sərəncamlarla ölkədə azad bazar münasibətlərinə əsaslanan sahibkarlığın inkişafında yeni mərhələnin bünövrəsi qoyuldu. **Heydər Əliyevin fərmanı ilə 2002-ci ildə təsdiq edilən "Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" isə ölkədə sahibkarlığın inkişafına böyük təkan verdi.** Son illərdə bu işlər daha sürətlə davam etdirilir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş dövlət proqramlarında müəyyənləşdirilmiş istiqamətlər: ölkədə sahibkarlıq mühitinin yaxşılaşdırılması, regionlarda sahibkarlığın maliyyə təminatının artırılması, istehsal resursları və kadr potensialı haqqında məlumat bazasının yaradılması, infrastrukturun inkişaf etdirilməsi, dövlət-özəl sektor münasibətlərinin inkişafı, sahibkarların hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi və sahibkarlara texniki yardımın genişləndirilməsi üzrə işlər uğurla davam etdirilir.

Ölkənin daxili maliyyə ehtiyatlarının iqtisadiyyatın real sektoruna yönəldilməsi, qiymətli kağızlar bazarında maliyyə sabitliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkənin qiymətli kağızlar bazarının dünya kapital bazarına inteqrasiyası üçün şəraitin yaradılması istiqamətində işlər genişlənir.

Müstəqil Azərbaycanın inkişaf strategiyasında regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi mühüm yer tutur. ***Regional siyasətə yeni yanaşan Azərbaycan dövləti regionların tarazlı inkişafını özünün iqtisadi siyasətinin mühüm istiqaməti hesab edir.*** Çünki inzibati-amirlik sistemi, maddi-texniki resursların mərkəzləşdirilmiş bölüşdürmə mənbələri, yuxarıdan müəyyən edilən planlaşdırma artıq yoxdur və bazar qanunları ön plana keçmişdir. Eyni zamanda, yerli hakimiyyət orqanlarının büdcə vəsaitlərindən istifadə hüquqları genişlənir, azad işgüzarlıq, sahibkarlıq fəaliyyətinin güclənməsi ilə yanaşı, bələdiyyə mülkiyyəti də formalaşır.

2004-cü il fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər)" təsdiq edilməsi haqqında fərman imzaladı. Dövlət Proqramı ölkənin əhalisi üçün böyük əhəmiyyət kəsb edən, bir neçə fundamental məsələnin həllinə yönəlmiş aşağıdakı məqsədləri nəzərdə tuturdu: ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin olunması və neft amilindən asılılığın azaldılması; regionlar arasında sosial-iqtisadi inkişafa görə yaranmış uyğunsuzluqların, səmərəsiz miqrasiya proseslərinin xeyli dərəcədə yumşaldılması; regionların malik olduğu resurslardan səmərəli istifadə olunması; mövcud yerli istehsal müəssisələrinin fəaliyyətinin bərpası və gücləndirilməsi, yeni iş yerləri yaradılması; regionların istehsal, sosial infrastrukturunun müasir tələblər səviyyəsində qurulması.

Regionlarda istehsal və sosial infrastrukturların yenidən qurulması istiqamətində irimiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində Bakı ilə yanaşı, Naxçıvan MR və digər iqtisadi rayonlarda dünya standartlarına cavab verən istehsal və xidmət sahələri, ofislər, binalar istifadəyə verilir. Rabitə, informasiya texnologiyaları, nəqliyyat, energetika, qaz təchizatı sistemi təkmilləşir, müasir rabitə stansiyaları, qovşaqları açılır. Ucqar kəndlərdə əhaliyə xidmətin yaxşılaşdırılması ilə bağlı çoxsaylı tədbirlər həyata keçirilir. Özəl sektorun strukturu təkmilləşir, həm ənənəvi istehsal və xidmət, həm də intellektual mülkiyyət sahələrinə sərmayə qoymaq marağı artır.

Regionların inkişafı, yoxsulluğun azaldılması və işsizliyin ləğvini nəzərdə tutan strateji proqramların həyata keçirilməsi nəticəsində ölkənin iqtisadi həyatı daha da canlanmış, real sektor və xidmət sahələrinə aid yüzlərlə müəssisə yaradılması hesabına artıq işsizlik probleminin həllində ciddi irəliləyişlər baş vermişdir.

Azərbaycan dünyanın ən nüfuzlu maliyyə təşkilatları: Dünya Bankı, Beynəlxalq Valyuta Fondu (BVF), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Almaniyanın KfW İnkişaf Bankı, Ərəb Fondları (Küveyt Fondu, Əbu-Dabi Fondu, Səudiyyə İnkişaf Fondu, OPEK Fondu), Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı və digər beynəlxalq maliyyə institutları ilə faydalı əməkdaşlıq edir.

1996-cı ildə Azərbaycan ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalandıqdan sonra iqtisadi ticarət əlaqələri sürətlə artmaqdadır. Ölkənin dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması barədə intensiv danışıqlar aparılır. Azərbaycan Respublikasının MDB ölkələri ilə iqtisadi əlaqələri də mühüm əhəmiyyətə malikdir və hazırda bu ölkələrlə

"Azərbaycanın qeyri-neft sektoruna böyük həcmdə investisiyalar qoyulur və biz bunu hər gün görə bilərik. Bakının müasirləşən, gözəlləşən siması bunu göstərir. Özəl şirkətlər tərəfindən həm infrastruktur, həm xidmət sektoruna çox böyük investisiyalar qoyulur. Əgər infrastruktur layihələri dövlət tərəfindən icra olunmasaydı, əlbəttə ki, nə paytaxtda, nə də bölgələrdə xidmət sektoruna heç kim investisiyalar qoymazdı. Bu gün bizim bölgələrdə beşulduzlu otellər, gözəl istirahət mərkəzləri tikilir. Bölgələrimizdə turizm imkanları çox genişdir. Bu gün artıq gözəl təbii şəraitimiz, təbiətimiz səviyyəsində müasir istirahət və mehmanxana kompleksləri tikilir ki, bu, Azərbaycanın turizm imkanlarını böyük dərəcədə artıracaqdır. Beləliklə, dövlət tərəfindən özəl sektora verilən həm siyasi, həm maddi dəstək, həm də güzəştli şərtlərlə ayrılan kreditlər – bütün bunlar iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyini artırır və şaxələndirilməsi üçün çox möhkəm əsas yaradır".

İlham Əliyev
20 oktyabr 2010-cu il

...Bizim əsas su mənbələrimiz ölkəmizin hüdudlarından kənarda formalaşır... Baxmayaraq ki, bizim qonşu ölkələrlə əldə etdiyimiz razılaşmalar maraqlarımızı tam şəkildə təmin edir və su qıtlığı heç vaxt olmayacaqdır. Yeni rezervuarlar tikilir. Taxtakörpü su anbarı bu istiqamətdə atılan çox böyük addımdır. Şəmkirçay su anbarı həm meliorasiya, həm də içməli su məsələlərini təmin edəcəkdir. Ancaq. eyni zamanda, biz Xəzər dənizinin suyundan da istifadə etməliyik. Burada da dünya praktikası vardır. Biz bu praktikanı tətbiq etməliyik... Hesab edirəm ki, pilot layihədən dərhal sonra genişmiqyaslı işlər aparılmalıdır. İlk növbədə suvarma üçün, ondan sonra lazım olarsa, içməli su məsələlərinin həlli üçün də biz bundan istifadə etməliyik.

İlham Əliyev
16.04.2012



Heydər Əliyev Fondunun hazırladığı "Azərbaycan" kitabının təqdimat mərasimi

"Bəzi hallarda Azərbaycanda maliyyə sektorundakı müəyyən konservativ meyillər beynəlxalq maliyyə qurumları tərəfindən tənqid edilirdi. Bəzən bizə tövsiyə olunurdu ki, inteqrasiya meyillərinə daha da sürətlə qoşulaq, beynəlxalq ticarət qurumlarına inteqrasiya edək. Ancaq bizim mövqeyimiz bütün zamanlarda çox ehtiyatlı idi. Çünki Azərbaycan iqtisadiyyatı özünü təmin edən iqtisadiyyatdır. Bəzi başqa ölkələr kimi, biz xarici yardımlardan asılı deyilik. Bizim böyük, zəngin neft-qaz yataqlarımız, əlverişli coğrafi mövqeyimiz var. Artıq çox müasir və möhkəm enerji və nəqliyyat infrastrukturumuz var. Biz neft gəlirlərindən səmərəli istifadə etməklə iqtisadiyyatımızı böyük dərəcədə şaxələndirə bilmişik və Azərbaycanda iqtisadi artım sürəti bunun bariz nümunəsidir. Ona görə biz beynəlxalq iqtisadi əməkdaşlıq məsələlərinə həmişə öz mövqeyimizdən yanaşmışıq.

Böhran onu göstərdi ki, elə ölkələr var onlar öz hesabına yaşaya bilmir, başqa ölkələrin yardımına möhtacdır və bu yardımları alırlar. Bəzi hallarda beynəlxalq maliyyə qurumlarından kreditlər şəklində yardımlar alırlar. Ancaq o da həqiqətdir ki, bu kreditlər gec-tez qaytarılmalıdır və bu yardımı edənlər də müəyyən şərtlər irəli sürür. Azərbaycan o nadir ölkələrdəndir ki, nəinki heç kimə yardım üçün müraciət etməyib, eyni zamanda, bizə dəfələrlə başqa yerlərdən kreditlərin verilməsi ilə əlaqədar müraciətlər daxil olmuşdur".

İlham Əliyev
22 iyul 2009-cu il

qarşılıqlı marağa əsaslanan əməkdaşlıq inkişaf etdirilir.

Müstəqilliyin ilk illərində respublikanın maliyyə imkanları yox dərəcəsində idi. Beynəlxalq maliyyə qurumlarından kredit almaq istəyəndə çoxlu çətinliklər, ağır şərtlərlə üzləşən Azərbaycan Respublikasının maliyyə imkanları qat-qat yaxşılaşıb, artıq onun kreditor ölkə kimi çıxış etməsi üçün möhkəm real bazası vardır. Ölkənin malik olduğu valyuta ehtiyatlarının məbləği hazırda 45 mlrd. ABŞ dollarından çoxdur. Azərbaycan dövlətinin xarici borcu ÜDM-in 7,3%-ini təşkil edir (2011), bu, əksər ölkələr üzrə olan səviyyədən xeyli aşağıdır.

2010-cu ildə respublikanın 147 ölkə ilə apardığı ticarət əməliyyatlarının həcmi 27,9 mlrd. ABŞ dolları olmuşdur. 21,3 mlrd. ABŞ dolları dəyərində mal ixrac, 6,6 mlrd. ABŞ dolları dəyərində mal isə idxal olunmuş, ixrac-idxal əməliyyatları

"Biz resursları maliyyə resursları, kreditlər, investisiyalar şəklində ölkə iqtisadiyyatına qoymalıyıq ki, həmin layihələr də öz növbəsində milli gəlir gətirsin və bunun hesabına Azərbaycanın büdcəsi dolsun. Bu istiqamətdə görülmüş işlər təqdirəlayiqdir. Əgər biz çox böyük investisiyaları qoymasaydıq, əgər biz bəzi beynəlxalq məsləhətçilərə qulaq assaydıq və ehtiyatları sadəcə olaraq yığsaydıq, bu gün Azərbaycan iqtisadiyyatı çox ağır vəziyyətə düşə bilərdi. Biz bu böhrandan məhz ona görə uğurla çıxdıq ki, qeyri-neft sektoru hesabına iş yerləri açıldı, yerli istehsal işə başladı, idxaldan asılılıq azaldı. Biz demək olar ki, ərzaq məhsulları ilə özümüzü maksimum dərəcədə təmin edirik. Əgər kreditləri verməsəydik, infrastruktur layihələrini həyata keçirməsəydik, yolları çəkməsəydik, elektrik stansiyaları tikməsəydik, qazlaşdırma aparılmasaydı, onda bunların heç biri də olmazdı. Bizim indi bəlkə də 24 yox, 30, ya 28 milyard pulumuz olacaqdı, ancaq ölkədə proseslər mənfi istiqamətdə gedəcəkdi. Məhz o vaxt biz bax bu "Holland xəstəliyi" ilə üzləşə bilərdik. Amma biz öz yolumuzu seçdik. Biz ehtiyatları da yığdıq – bax bu il artan valyuta ehtiyatlarımız onu göstərir ki, bu artım gedir – eyni zamanda, lazım olan sahələrə investisiyaları böyük həcmdə yönəldə bildik.

Azərbaycan böhranlı ildə böhrandan ən az əziyyət çəkən ölkələrdən biridir. Bunun başlıca səbəbi bizim siyasətimizdir, aparılan islahatlardır, sosial siyasətdir, infrastruktur layihələridir və müstəqil siyasətimizdir. Biz nəyi hesab edirik ki, düzdür, ölkə üçün lazımdır, onu da edirik. Biz əlbəttə ki, beynəlxalq maliyyə qurumları ilə də yaxşı əməkdaşlıq edirik və məsləhətləşmələr aparırıq, ancaq öz bildiyimizi edirik. Çünki biz tam əminik ki, bizim siyasətimiz Azərbaycan xalqının mənafeyinə xidmət göstərir".

İlham Əliyev
16 oktyabr 2009-cu il

üzrə müsbət saldo 14,7 mlrd. ABŞ dolları təşkil etmişdir. İxracın ÜDM-ə nisbətdə xüsusi çəkisi 41,0 faiz, idxalın isə 12,7 faiz olmuşdur. Ölkənin xarici ticarət dövriyyəsindəki bu müsbət meyillər 2011-ci ildə də özünü göstərmiş, yaxın və uzaq gələcəkdə də davam edəcəkdir.

Respublika iqtisadiyyatının ayrı-ayrı sahələri arasında münasibətlərin qurulmasında informasiya texnologiyalarının rolu getdikcə artmaqdadır. Dünyada informasiya texnologiyaları vasitəsilə ötürülən informasiyanın həcminin çox böyük sürətlə artması iqtisadiyyatın digər sahələrinin bu texnologiyalardan asılılığını çoxaldır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, səmərəli informasiya texnologiyaları infrastrukturunun yaradılması milli iqtisadiyyatın inkişafını, əlverişli biznes mühitinin yaradılmasını və digər problemlərin həllini stimullaşdırır.

Müasir informasiya texnologiyalarından istifadə etməklə bir çox mal və xidmətlərin istehsalı üçün təcrübə toplanmış, əksər təsərrüfat sahələri, xüsusən bank sferası, dövlət idarəetmə sahəsi, vergi və gömrük sistemi, tələbə qəbulu sistemi lazımi səviyyədə kompüterləşdirilmişdir. İnformasiyalaşma və informasiya xidmətləri bazarı həm dövlət, həm də özəl sektoru əhatə edir. Əksər provayderlər, internet-kafelər, veb-studiyalar, ictimai internet mərkəzləri özəl sektora məxsus olduğundan informasiya texnologiyalarının inkişafına bu sektor daha ciddi təsir edir.

2009-cu ildə Azərbaycan Respublikasının prezidenti bəyan etdi ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir.

Azərbaycanın beynəlxalq aləmdə reytinqi yüksəlir. Qərblə, Şərqlə, qardaş Türkiyə ilə, şimal qonşumuz Rusiya ilə əməkdaşlıq imkanları genişlənir. Azərbaycan dövləti dünyada düşünülmüş, balanslaşdırılmış siyasət aparan bir dövlət kimi tanınır.

Bu nailiyyətlərin vacib səbəblərindən biri ondan ibarətdir ki, müstəqil Azərbaycan dövləti azad bazar münasibətlərini fetişləşdirmədi, ona bütün problemlərin həlli mənbəyi kimi baxmadı. Ölkədə ictimai mülkiyyətin hökmranlığından qurtarmaq üçün qarışıq mülkiyyət formasına üstünlük verildi. Bu gün respublikada minlərlə özəl müəssisə, səhmdar cəmiyyət,



Preziden İlham Əliyev Dövlət Müstəqilliyi Günü münasibətilə keçiriləcək sərgidə

"Azərbaycanın yeni reallıqları ondan ibarətdir ki, hər bir bölgədə inkişaf var, hər bir bölgədə sosial-iqtisadi proqramlar icra olunur, investisiyalar qoyulur və beləliklə, Azərbaycanın bölgələri yaradılmış əlverişli şəraitdən uğurla istifadə edirlər.
Bununla belə, regionların əksəriyyəti dövlətdən verilmiş dotasiyalar hesabına yaşayırlar. Bunun da obyektiv səbəbləri var. Yəqin ki, bu, təbiidir. Bununla belə, hər bir bölgə özünə xas olan xüsusiyyətlərdən, spesifik coğrafi və ərazi imkanlarından istifadə edərək özünü maksimum dərəcədə yerli istehsalın artırılması hesabına təmin edə bilər.
Dövlət, əlbəttə ki, bu subsidiyaları, dotasiyaları verməyə davam edəcək. İnfrastruktur layihələrinin həyata keçirilməsi, kənd təsərrüfatına subsidiyaların verilməsi bir müddət obyektiv zərurətdir. Özəl sektora verilən kreditlər artıq gözəl nəticələrini verir və hər bir bölgənin öz proqramı var və proqram da çox müfəssəldir. Hesablamalar göstərir ki, qarşıdakı dövrdə regionların maliyyə imkanlarının genişlənməsi meyli xeyli güclənəcəkdir".

İlham Əliyev
13 iyul 2010-cu il

şirkət fəaliyyət göstərir. Eyni zamanda, səmərəli fəaliyyət göstərən dövlət sektoru vardır. Ən vacib məsələ ondadır ki, dövlət strateji resursları öz əlində saxladı, Dövlət Neft Şirkətini özəlləşdirmədi, dövlət sahibkarlığı institutunu formalaşdırdı, sahibkarlığı iqtisadi inkişafın strateji resursu kimi qiymətləndirdi, ölkədə işgüzar investisiya muhitinin yaradılması üçün ardıcıl və sistemli tədbirlər həyata keçirdi.

Bu gün Azərbaycan dünyada dinamik inkişaf edən, beynəlxalq nüfuzu artan ölkə kimi tanınır. Bu cür müsbət inkişaf meyilləri ölkənin iqtisadi qüdrətinin daha da möhkəmlənməsini, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatmasını təmin edir.

İnkişafın Azərbaycan modelinin əsas xüsusiyyətlərindən biri də sosialyönümlülüyün üstünlük təşkil etməsidir. Ümumiyyətlə isə, müasir dövrdə sosial ədalət meyarını rəhbər tutan hər bir dövlətin qarşıya qoyduğu ən ali məqsəd vətəndaş amilinin tərəqqisi, insanlar üçün maksimum firavan yaşayış şəraitinin təmin edilməsidir. Təcrübə göstərir ki, insan amilinin inkişafına xidmət edən çoxşaxəli siyasət yürüdən dövlətlər milli tərəqqiyə nail olur və dünya arenasında özünəlayiq yer qazanırlar. Müstəqil Azərbaycan dövləti də qloballaşan dünyanın bərabərhüquqlu subyekti kimi, öz inkişafını, sadəcə, təbii sərvətlərin gətirdiyi dividendlərə bağlamır və mövcud resurslarını insan faktorunun prioritetə çevrilməsi yönümündə qurur.

Azərbaycan dövlətinin rəhbər tutduğu bu strategiya vətəndaşların azad və bərabər mühitdə yaradıcı düşüncələrini, istedadlarını inkişaf etdirmələrinə, onların qloballaşan dünyaya inteqrasiyasını təmin etməyə imkan vermişdir.

Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatında baş verən



İsveçrənin Davos şəhərində Ümumdünya iqtisadi forumu

irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri bir daha təsdiqləyir ki, Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası milli mənafelər, respublikanın potensial imkanları, dünya iqtisadiyyatının inkişaf meyilləri nəzərə alınaraq uğurla həyata keçirilir.


İnkişafın Azərbaycan modeli, həm də ona görə uğurlu nəticələr əldə etməyə imkan verir ki, iqtisadi və siyasi islahatlar bir-biri ilə qarşılıqlı əlaqəli şəkildə aparılır. Azərbaycan dövləti sosial yönümlü bazar iqtisadiyyatının qurulmasında məqsəd və vəzifələri, hədəfləri dəqiq əsaslandırılmış strateji proqramlardan (yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları, demoqrafik siyasət, işsizliyin azaldılması, sosial sferanın maddi-texniki bazasının möhkəmləndirilməsi və s.) istifadə edir, sosial tərəqqini, keyfiyyətli inkişafı xarakterizə edən göstəricilərin daim yaxşılaşmasını özünün vacib vəzifələrindən sayır.

Hər bir ölkə, xüsusən də keçid dövrünü yaşayan ölkə bütün resurslarından, təbii sərvətlərindən istifadə etməlidir ki, güclü iqtisadiyyat qursun. Bu, bizim məqsədimiz və siyasətimiz idi. Çoxmilyardlı iri sərmayələrin neft və qaz sektoruna cəlb edilməsi bizə iqtisadiyyatımızı şaxələndirməyə kömək edir. İndi biz qarşımızda yeni məqsəd qoymuşuq. Məqsəd artıq üç dəfə artmış ümumi daxili məhsulu yenidən ikiqat artırmaqdır. Lakin iqtisadiyyatı əsasən qeyri-enerji sektorunun inkişaf etdirilməsi hesabına ikiqat artırmaq istəyirik.

İlham Əliyev
27 yanvar 2012-ci il

Bu gün dünyanın aparıcı siyasətçiləri, dövlət xadimləri, ekspertləri ölkəmizin dinamik inkişafını, qlobal dünya layihələrində iştirakını, cəmiyyətdə əldə olunmuş konsensusu, iqtisadi inkişafla sosial tərəqqi arasında tarazlığın yaradılmasını, müstəqil dövlətin inkişafının Azərbaycan modelini fərqləndirən vacib keyfiyyətlər kimi qiymətləndirirlər.

Azərbaycanın inkişaf modelini digər ölkələrin inkişaf modellərindən fərqləndirən cəhətlərdən biri də odur ki, burada



göstəricisidir. Təxminən 20 il keçir və Azərbaycanda müsbət demoqrafik vəziyyəti götürsək, onlar hazırda bir milyondan çoxdur. Təbii ki, bu, böyük siyasi, iqtisadi və sosial yükdür. Bu insanların öz yurdlarına qayıtmaq hüququ vardır. Bu təcavüz və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır…

Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. Biz tarixi yaxşı bilirik. Bilirik ki, ermənilərin Dağlıq Qarabağa kütləvi şəkildə köçürülməsi XIX əsrdə başlamışdır. Bu bölgə Azərbaycanın tarixi hissəsidir. "Qarabağ" sözü elə bizim sözdür. Erməni dilində bunun heç bir mənası yoxdur… Hüquqi baxımdan Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Azərbaycan BMT-yə Dağlıq Qarabağla birgə üzv olmuşdur. Azərbaycanın ərazi bütövlüyü beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Bu isə mövqeyimizi daha da möhkəmləndirir… Əfsuslar olsun ki, iyirmi il ötüb və bu münaqişə həll olunmayıb. Dağlıq Qarabağla qonşu olan rayonlar da dağıntılara məruz qalıb. Şəhərlərimiz yerlə yeksan edilib, məscidlərimiz, əcdadlarımızın qəbiristanlıqları dağıdılıb.

Bütün bunlar məhz ATƏT-in qiymətləndirmələrində və hesabatlarında əks olunub...

Dağlıq Qarabağ münaqişəsinin həlli çox aydın görünür. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri işğal olunmuş ərazilərdən çıxmalıdır. BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə yerinə yetirilməlidir. Bu gün Dağlıq Qarabağdakı insanlar və Dağlıq Qarabağdan qovulmuş şəxslər öz yerlərinə qayıtmalı, sülh, dostluq və əməkdaşlıq şəraitində yaşamalıdırlar.

Bizim sosial və siyasi problemlərimizdən biri Ermənistanın təcavüzü və işğalından əziyyət çəkən qaçqınların və məcburi köçkünlərin problemidir. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Təxminən 50 min azərbaycanlı Dağlıq Qarabağdan qovulmuşdur. 700 mindən artıq insan Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı 7 rayonundan qovulmuşdur. 250 min azərbaycanlı isə etnik təmizlənməyə məruz qalaraq Ermənistandan çıxarılmışdır. Ümumi olaraq, bir milyon insan qaçqın və məcburi köçkündür. Bu rəqəm 1994-cü ilin

Azərbaycan Respublikası Milli Məclisində Avronest Parlament Assambleyasının (PA) ikinci sessiyasının rəsmi açılış mərasimində Prezident İlham Əliyevin nitqindən, 3 aprel 2012-ci il

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin

SƏRƏNCAMI

Son dövrdə ölkəmizdə həyata keçirilən islahatlar bütün sahələrdə müsbət nəticələrin əldə olunmasına şərait yaratmışdır. Bu illər ərzində, xüsusilə də son onillikdə Azərbaycanda makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma nail olunmuş, yoxsulluğun azaldılmasında və əhalinin sosial rifahının yüksəldilməsində ciddi uğurlar qazanılmışdır. Bütün bunlarla bərabər, sərbəst bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi ölkəmizin gələcək inkişafı üçün geniş imkanlar açmışdır.

Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın perspektiv inkişaf hədəf və istiqamətlərinin müəyyən edilməsi məqsədi ilə qərara alıram:

1. 2020-ci ilədək dövrü əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması məqsədəuyğun hesab olunsun.

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş İnkişaf Konsepsiyasının layihəsinin hazırlanmasına ümumi rəhbərlik, təşkilati və əlaqələndirici səlahiyyətlərin həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına həvalə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki:

3.1. İnkişaf Konsepsiyasının layihəsini 2012-ci ilin sonunadək hazırlayıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. İnkişaf Konsepsiyasının layihəsi hazırlanarkən:

3.2.1. Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının, elmi təşkilatların və yüksək ixtisaslı mütəxəssislərin cəlb olunmasını təmin etsin;

3.2.2. bu sahədə qabaqcıl dünya təcrübəsindən yararlanmaq məqsədi ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı və digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığın həyata keçirilməsi üçün zəruri tədbirlər görsün;

3.2.3. vətəndaş cəmiyyəti təsisatlarının iştirakını, habelə layihənin açıq müzakirəyə çıxarılması üçün müvafiq tədbirlərin görülməsini təmin etsin;

3.3. İnkişaf Konsepsiyası layihəsinin hazırlanması ilə bağlı aparılan işlər barədə mütəmadi olaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və aidiyyəti dövlət orqanlarının rəhbərlərinə tapşırılsın ki, bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş İnkişaf Konsepsiyasının layihəsi hazırlanarkən fəaliyyət istiqamətlərinə uyğun olaraq zəruri tədbirlər görsünlər.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 noyabr 2011-ci il



"Azərbaycan Prezidenti: Onun sülh naminə mübarizəsi və gələcəyə baxışı" kitabının təqdimatı

> ***... Son 10 il tariximizin ən yeni mərhələsində İlham Əliyev dövrünün parlaq başlanğıcı və uğurlu illəri kimi yadda qalacaqdır. Bu dövr, nə "qərbləşmə", nə də Şərq və Asiya modelinin təqlidi olmayan, yalnız Azərbaycana xas olan milli inkişaf modelinin formalaşdığı illər olmuşdur.***
> ***Bu illər ərzində həyata keçirilmiş inkişaf strategiyası iqtisadiyyatın müxtəlif sahələrində iqtisadi fəaliyyətin güclənməsini şərtləndirmiş və Azərbaycanın iqtisadi inkişafının birinci mərhələsini uğurla başa vurmasını təmin etmişdir.***
>
> *Akademik Ramiz Mehdiyev*
> *22 dekabr 2011*

iqtisadi inkişafla demokratik inkişaf arasında qarşılıqlı əlaqənin təmin edilməsi prioritet vəzifələrdən sayılır. Təəssüf ki, Qərbin bir sıra ideoloqları hesab edirlər ki, ölkəmizdə demokratik proseslər daha sürətlə inkişaf etməlidir. Onlar nəzərə almırlar ki, iqtisadi tərəqqi olmadan demokratik prosesləri sürətləndirmək, "Qərb demokratiyası" standartlarını müstəqilliyini cəmi 20 il bundan əvvəl əldə etmiş ölkəyə tətbiq etmək heç bir müsbət nəticə verə bilməz. Bu çağırış Azərbaycana, onun taleyüklü problemlərinə subyektiv yanaşmanı əks etdirir, dövlətimizin, xalqımızın ictimai-siyasi həyatına, ölkəmizin maraqlarına cavab verməyən xarici təsirin artırılması məqsədini daşıyır.

Akademik Ramiz Mehdiyev haqlı olaraq bildirir: "Biz gizlətmirik ki, bəzən Azərbaycanda demokratiyanı tənqid edirlər, lakin onun çatışmazlıqlarının nədən ibarət olmasını əməlli-başlı izah etmirlər. Siyasi və sosial-iqtisadi sahədəki, o cümlədən vətəndaşların rifahının təmin edilməsi sahəsində ümdə problemlərin həllindəki uğurları, habelə iqtisadiyyatın liberallaşmasını nəzərə almadan tənqid edirlər. Bununla bərabər, unudurlar ki, bizim demokratiya, obrazlı şəkildə desək, yeniyetməlik mərhələsindədir, halbuki, Qərb demokratiyası artıq post industrial cəmiyyət şəraitində yaşayır, siyasi texnologiyalar dövrünə qədəm qoymuşdur. Azərbaycan hələ postindustrial tsiklini genişləndirməli və dərinləşdirməli, sonra onu başa çatdırmalıdır".

Aparılan kompleks təhlillər göstərir ki, ölkənin iqtisadi inkişaf səviyyəsi yüksəldikcə demokratik institutların fəaliyyəti genişlənir, yoxsulluğun səviyyəsi azalır, insanları narahat edən sosial məsələlər həllini tapır, ölkədə sivil vətəndaş cəmiyyətinin qurulması imkanları əhəmiyyətli dərəcədə genişlənir. Bütün bunlar ölkəmizin reallığıdır.

Ümumiyyətlə, inkişafın yeni mərhələsinin əsas hədəfi milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi dövlət proqramlarında bu hədəflərin reallaşdırılması üçün yerinə yetirilməsi zəruri olan vəzifələr müəyyənləşdirilmişdir. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması; qeyri-



> ***2011-ci ildə ölkəmiz üçün çox vacib hadisə baş vermişdir. İlk dəfə olaraq Azərbaycan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu, böyük tarixi qələbədir. Hesab edirəm ki, 20 illik müstəqillik dövründə ən böyük qələbəmizdir. Çətin mübarizədə biz bütün dünya birliyinin inamını qazana bilmişik. İlk turdan başlayaraq sonuncu tura qədər Azərbaycan bu səsvermədə liderlik edirdi. Nəticə etibarilə dünyanın 155 ölkəsi Azərbaycana öz səsini verdi, Azərbaycana inandı, bizim siyasətimizi dəstəklədi. Azərbaycana çox böyük inam, etimad vardır. Bizim siyasətimiz dəstəklənir. Çünki bizim siyasətimiz ədalətə söykənir.***
>
> *İlham Əliyev*
> *31 dekabr 2011-ci il*

neft sektorunun inkişaf etdirilməsi (neftdən asılı olmayan güclü Azərbaycan iqtisadiyyatının formalaşdırılması); hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması, onların inkişafının tarazlaşdırılması; çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması; sahibkarlığın inkişaf etdirilməsi; sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması; yoxsulluğun azaldılması və s. mühüm vəzifələri aid etmək olar.

Azərbaycan qlobal böhrandan maksimum az itki ilə çıxan ölkələrdən biridir. Dövlət başçısı İlham Əliyev Azərbaycanın qlobal böhrandan az ziyan çəkməsinin əsas səbəbini haqlı olaraq respublikamızın milli maraqlara əsaslanan iqtisadi siyasət yeritməsi ilə əlaqələndirir.

Dünya iqtisadiyyatını ciddi sınaqlarla üz-üzə qoyan 2008-2011-ci illər Azərbaycan üçün müəyyən çətinliklər yaratsa da, respublikada qlobal maliyyə-iqtisadi böhrana qarşı həyata keçirilmiş məqsədyönlü qabaqlayıcı tədbirlər sistemliliyi və səmərəliliyi ilə ön plana çəkilmiş, bütün makroiqtisadi parametrlər üzrə inkişafı təmin etmişdir. Hökumətin çevik və işlək fəaliyyət mexanizmlərinə əsaslanmaqla müəyyənləşdirdi-



Harada olursansa ol, hansı ölkədə yaşayırsansa yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən.

Heydər Əliyev


yi sığortalayıcı mexanizmlərin hər bir mərhələ üzrə işə salınması, daxili maliyyə mənbələrinin bu destruktiv prosesə qarşı səfərbər edilməsi son nəticədə respublikanın qlobal böhrana potensial müqavimət əzmini gücləndirmişdir.

MDB məkanında qlobal böhranla mübarizə sahəsində ən əlverişli potensialın Azərbaycanda olduğunu Ümumdünya İqtisadi Forumu (Davos forumu) tərəfindən açıqlanan "Qlobal Rəqabət Hesabatı – 2010" adlı sənəd bir daha təsdiqləmişdir. Dünyanın 133 ölkəsini, o cümlədən postsovet dövlətlərini əhatə edən hesabatdan aydın olmuşdur ki, Azərbaycan qlobal rəqabətlilik indeksinə əsasən, 2008-ci illə müqayisədə bir neçə pillə irəliləmişdir. Əgər 2008-ci ildə həmin indeks üzrə Azərbaycan 69-cu yerdə qərarlaşmışdısa, 2010-cu ildə 51-ci pillədə dayanmışdır. Dünya İqtisadi Forumu bunun səbəbləri sırasında, ilk olaraq, ölkədə mövcud olan güclü makroiqtisadi sabitliyə, habelə davamlı islahatlara diqqət çəkmişdir. Respublikanın dövlət borclarının azlığı, valyuta ehtiyatlarının artım tempi müsbət hal kimi xarakterizə edilmiş, ölkə bazarlarında, xüsusən əmək və əmlak bazarlarında həyata keçirilən islahatların effektivliyi yüksək dəyərləndirilmişdir.

Şübhəsiz, inkişafın Azərbaycan modelinin reallaşması nəticəsində iqtisadiyyatda əldə edilən uğurlarda xalqımızın əməksevərliyi, milli xüsusiyyətləri, vətənə, ailəsinə bağlılığı vacib rol oynayır. Hər birimiz vətən torpağının çiçəklənməsi arzusu ilə yaşayır və bunun üçün çalışırıq. Xalqımıza xas olan sadalanan müsbət keyfiyyətlər əsrlər boyu olmuş, dövrdən-dövrə inkişaf etmiş, qorunmuşdur. Lakin millətin mentaliteti, iqtisadi dirçəlişi ilə bağlı arzu və istəkləri yalnız o vaxt reallaşır ki, dövlət səviyyəsində bu incə, eyni zamanda taleyüklü məsələyə sistemli yanaşılsın. Ulu Öndər Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm və indi də fəxr edirəm ki, mən azərbaycanlıyam" fikri Azərbaycan xalqının daha sıx birləşməsini, cəmiyyətdə əldə olunmuş konsensusun qorunmasını, məqsəd və vəzifələri dəqiq müəyyən edilmiş inkişaf modelinin reallaşmasını təmin edən güclü amildir.

Azərbaycan dövlətinin uğurları bir daha sübut edir ki, hər ölkə irəliyə getmək üçün öz yolunu seçməlidir. Bu seçim, ilk növbədə, elmi əsaslara söykənməlidir. Bu axtarış həyatın təbii hökmü ilə, elmi əsaslarla olmalıdır. İslahatdan sonra dövlətin iqtisadi qüdrəti artmalı, xalqın rifahı yaxşılaşmalıdır. İnkaredilməz həqiqət belədir ki, liberalizmi fetişləşdirməyərək, ona çox ustalıqla, təmkinlə yanaşan Azərbaycan dövləti iqtisadiyyatda böyük nailiyyətlər əldə etmiş, regionun, Avropanın, dünyanın iqtisadi-siyasi həyatında fəal iştirak edən, beynəlxalq aləmdə mövqeyini, imicini ildən-ilə möhkəmləndirən dövlətə çevrilmişdir.

Ziyad Səmədzadə







Böyük İqtisadi Ensiklopediya. II cild.
Bakı, "Letterpress" Nəşriyyat evi, 2012, 632 səh.
www.letterpress.az

ISBN 978-9952-452-28-0

"Böyük İqtisadi Ensiklopediya" iqtisadiyyatın mahiyyətini, xarakterini, inkişaf meyillərini və qanunauyğunluqlarını müəyyən edən və onun əsas ideyaları, konsepsiyaları, modelləri, anlayışları və kateqoriyalarının mahiyyətini açıqlayan fundamental nəşrdir. Burada dünya iqtisadiyyatı ilə yanaşı, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri, bazar strukturları və infrastrukturları, aparıcı maliyyə, bank institutları haqqında yığcam məlumatlar öz əksini tapmışdır. 7000-dən çox termin-məqaləni əhatə edən "Böyük İqtisadi Ensiklopediya" MDB məkanında milli dildə işıq üzü görmüş ilk irihəcmli nəşrdir. "Böyük İqtisadi Ensiklopediya" tələbələr, magistrlər, doktorantlar, təhsil və idarəetmə sistemində çalışan müəllim və mütəxəssislər, sahibkar və investorlar üçün nəzərdə tutulmuşdur.

© Azərbaycan İqtisadçılar İttifaqı, 2012
© "Letterpress" Nəşriyyat evi, 2012
www.letterpress.az

LETTERPRESS
NƏŞRİYYAT EVİ

"Letterpress" Nəşriyyat evində çapa hazırlanmışdır

Nəşriyyat redaktoru: S. Ağababayeva
Üz qabığı: A. Həsənov
Səhifələmə: F. Rəhimov
Korrektor Ü. Məmmədova
Texniki redaktor: R. Qasımov

Çapa imzalanmışdır 12.04.12.
Kağız formatı 64x90 ⅛. Fiziki çap vərəqi 79.
Sif. № 63. Tiraj 2000.

"Letterpress" Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur.
Ünvan: Ə. Naxçıvani, 55
Tel.: +994 12 561 30 03
Faks: +994 12 561 30 06
E-mail: office@letterpress.az

DÜZƏLİŞ
II CİLD

səhifə 18-də sxem 2-nin adı "Ekoloji siyasətin tipik modeli" kimi oxunsun,
səhifə 53 və 54-də müvafiq qrafiklərin adı "Dünyada enerji resurslarının istehlakının strukturu" və "Dünyada enerji resurslarının istehlakının strukturu, faizlə" kimi oxunsun,
səhifə 59-da sxemdə 2-ci sətirdə 2-ci qrafada "nəqliyyat" sözü "nəliyyət" kimi oxunsun,
səhifə 68-69-da maketin başlanğıcındakı "cədvəl 1" sözü oxunmasın,
səhifə 72-də cədvəl 3-ün adı "Ayrı-ayrı enerji məhsullarının şərti ölçü vahidinə (neft ekvivalenti tonu NET) orta çevrilmə əmsalları" kimi oxunsun,
səhifə 149-da II sütun aşağıdan 7-8-ci sətir "yekunlaşdırılmış və nəticələr öyrənilmiş, bu sahədə işin təşkilini daha" kimi oxunsun,
səhifə 237-də sxem 1-də sonuncu qrafa "xüsusi kapitalist mülkiyyəti" kimi oxunsun,
səhifə 331-də yuxarıdakı şəklin adı "Gürcüstanda ARDNŞ-ə məxsus Kulevi terminalının açılışı, 2008-ci il." kimi oxunsun.
səhifə 335-də yuxarıdakı şəklin adı "Respublika Talassemiya Mərkəzi" kimi, 1-ci sütun 14-cü sətirdə "yeddi" sözü "səkkiz" kimi oxunsun,
səhifə 441-də cədvəl 1-in adı "Dünya tarixində bəzi ən böyük ixtiralar" kimi oxunsun,
səhifə 569-da cədvəl 1-də "Mənbə: DEFRA, 2008" kimi oxunsun,
səhifə 631-də "4 cilddə" sözü oxunmasın.